Robert Qrin

Hakimiyyətin 48 Qanunu

Az 2014/2322

ROBERT QRİN

HAKİMİYYƏTİN 48 QANUNU

103855

"Hüquq ədəbiyyatı" nəşriyyatı

Bakı-2014

103057

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ARXİV

10953.3,0+C555.511,0

R (68) 2014

R (68) 2014 Robert Qrin. "Hakimiyyətin 48 qanunu" "Hüquq ədəbiyyatı" nəşriyyatı, 776 səhifə. Bakı, 2014, səh.

Azərbaycan dilinə çevirəni: **Eldar Məmməd oğlu ƏFƏNDİYEV,**
Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, hüquq elmləri namizədi.

R $\frac{430000000 - 001}{h\ (062) - 2014}$ elansız

Bu, ibtidaidən başlamış prezidentlik səviyyəsinə qədər hakimiyyət haqqında ən qeyri-əxlaqi, ən qalmaqallı, ən alçaldıcı... və eyni zamanda ən doğru kitabdır. Hakimiyyətdə olmağın çox gözəl formulə edilmiş ən maraqlı, həm də gözlənilməz tarixi faktlarla əsaslandırılmış sərt və amansız qanunlarını dərk edərək, siz bundan sonra çətinlik çəkmədən "kiçik" rəislərin və dünyamızın güclü adamlarının bu və ya digər sözləri və hərəkətləri arxasında nələrin dayandığını başa düşəcək, onların xüsusi ciddi-cəhdlə gizlətməyə çalışdıqları şeylər barədə məlumat alacaqsınız.

"Hakimiyyətin 48 Qanunu" - adamları idarə etmək, qüdrətli olmaq üçün onların zəif cəhətlərindən bacarıqla istifadə etmək elmini öyrənmək istəyənlər üçün stolüstü kitabdır.

© "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2014

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Çılpaq gəlib ən yaxşı halda beş arşın ağla torpağa tapşırıldığımız bu dünyada yaşamağın çətin və ya asan olması, xeyli dərəcədə, hər kəsin, əlverişlilik baxımından, tez-tez dəyişilən şəraitə uyğunlaşmaq bacarığından asılıdır. Mənəviyyatı büllur saflığına, əxlaqi ləyaqət timsalına, qüruru əyilməz polad möhkəmliyinə malik olanlar bu uyğunlaşma qanununun şərtlərini qəbul etmək istəmədiklərindən, layiq olduqlarına həyatda çox nadir hallarda çata bilirlər. Əksər hallarda isə, ağlının, savadının, davranışının qibtəolunacaq yüksək səviyyəsinə baxmayaraq, yarıac həyat tərzi keçirmiş, övladları yanında xəcil olmuşlar. Nadanların yüksək vəzifələrdə çalışdığı, xalqın taleyini həll etdiyi bir dövrdə həyatın eybəcərlikləri ilə mübarizədə uğur qazanmağın ən etibarlı üsullarından biri də bu nadanlığın və azğınlığın, yalanların və təhriflərin, fırıldaqların və kələklərin mahiyyətini öyrənmək, ona yaxından bələd olmaq, bunlardan ibrət götürərək ehtiyatı əldən verməməkdir. Bu baxımdan, Amerikalı Robert Qrinin qeyri-adi quruluşa və məzmuna malik "Hakimiyyətin 48 Qanunu" kitabı diqqəti cəlb edir. Həmin kitab işıq üzü gördükdən dərhal sonra dünyanın çox yayılmış dillərinə, o cümlədən türk və rus dillərinə də tərcümə edilmiş, böyük şöhrət qazanmışdır. Belə qiymətli kitabın Azərbaycan xalqının da mənəvi sərvətinə çevrilməsi üçün onun doğma dilimizə tərcümə edilməsi qərara alındı. Buna görə kitabın Y.Y. Miqunova tərəfindən rus dilinə tərcüməsini Azərbaycan dilinə çevirərək, respublikamızda özünəməxsus mövqeyi olan "Hüquqi dövlət və qanun" jurnalında hissə-hissə (hər nömrədə bir qanun) çap etmişik. Bu, oxucular arasında geniş əks-səda doğurdu.

Onlar həmin qanunları böyük maraqla qarşılayır və davamını böyük səbirsizliklə gözləyirdilər. Oxucuların hədsiz marağını nəzərə alaraq R.Qrinin "Hakimiyyətin 48 Qanunu"nu kitab şəklində oxucuların diqqətinə çatdırırıq.

Dünyanın bir çox xalqlarının mənəvi sərvətinə çevrilmiş bu kitabın doğma dilimizə tərcüməsi və nəşri xalqımızın zəngin mədəniyyət xəzinəsinə kiçik bir töhfədir.

"Hakimiyyətin 48 qanunu" kitabı həyasızlıq dərsliyi, ikiüzlülər və hətta dələduzlar üçün vəsait kimi də görünə bilər. Ancaq diqqətlə fikir verdikdə, başa düşülür ki, bu heç də belə deyildir. Müəllif oxuculara müraciət edərək, sanki onlara hakimiyyətin hiyləgərliklərini öyrətsə də, bunda məqsəd, həyatda belə hallardan qorunmağa, onu aşkar etməyə və onlarla mübarizə aparmağa kömək etməkdir.

Eldar Əfəndiyev,
hüquq elmləri namizədi.

Anna Billerə və valideynlərimə ithaf edirəm.
R.Q.

Ən əvvəl, bu kitab üçün material seçməkdə və onu redaktə etməkdə mənə kömək etmiş Anna Billerə təşəkkür edirəm. Onun çox gözəl intuisiyası "Hakimiyyətin 48 Qanunu" kitabının forma və məzmununa xeyli təsir göstərmişdir. Onsuz heç nə alına bilməzdi.

Mən həmçinin, əziz dostum Mixiel Şvarsa minnətdarlığımı bildirməliyəm, çünki İtaliyanın Fabrica *bədii məktəbi ilə tanış olmağıma görə məhz ona borcluyam. "Hakimiyyətin 48 Qanunu" üzərində işləyərkən "iş yoldaşım" olmuş Yoost Elffersla də məni İtaliyada o tanış etmişdir. Məhz orada,* Fabrica *bədii məktəbinin müəmmalı dünyasında, Makiavelli fikrinin əbədi aktuallığı Yoosta və mənə məlum oldu, bizim Venesiyadakı mübahisələrimizdən bu kitab yarandı.*

Makiavelli ruhunda çoxsaylı tarixi hekayətlərlə məni təmin etdiyinə görə Anri Le Qubenə təşəkkür etmək istəyirəm. O, bu kitabda nəzərəçarpan rol oynayan çoxsaylı fransız personajlara xüsusi diqqət yetirmişdir.

Yaponiya tarixinə aid kitabxanalarını mənim ixtiyarıma vermiş və kitabın yapon çay dəstgahına həsr edilmiş bölmələrini yazmağa kömək etmiş Lesa və Sumiko Billeri, həmçinin Çin tarixi üzrə məsləhətçim olmuş xeyirxah dostum Elizabet Yanı xatırlamaya bilmərəm.

Belə kitab üçün, əlbəttə, tarixi materiallar çox vacibdir. Buna görə, Los-Ancelesin Kaliforniya universitetinin elmi kitabxanasına xüsusilə minnətdaram. Mən bu kitabxananın olduqca zəngin kitab fondu ilə tanış olaraq, orada çoxlu xoş günlər keçirmişəm.

Valideynlərim Lorette və Stenli Qrinə, onların dözümünə və köməyinə görə hədsiz dərəcədə minnətdaram.

Əlbəttə, pişiyim Borisi xatırlamaya bilmərəm. O, kitabın əlyazması üzərində işlədiyim bütün müddət ərzində mənimlə bir yerdə olmuşdur.

Nəhayət, həyatda rastlaşdığım, illərlə mənə hiylə gəlmək və ağrı yetirmək üçün hakimiyyət oyunlarından ustalıqla istifadə edənlərdən incimirəm və "Hakimiyyətin 48 Qanunu"nu yaratmağa məni ruhlandırdıqlarına görə onlara minnətdaram.

Robert Qrin

TƏRCÜMƏÇİNİN ÖN SÖZÜ

"Hakimiyyətin 48 Qanunu" kitabı əvvəlcə sizə hiyləgərlik dərsliyi, ikiüzlü və dələduz insanlar üçün dərs vəsaiti kimi görünə bilər. Ancaq diqqətlə baxdıqda görəcəksiniz ki, bu heç də belə deyildir. Bu kitab üzərində işləyərək, mən təbii ki, dünyada baş verən hadisələri izləyirdim. Mən siyasətçilərimizdən birinin qeyri-adi nəzakətsiz hərəkətini və ya başqasının gözlənilməz fikrini eşidərək, onları kitabın materialları ilə müqayisə edirdim. Bəzən hətta daxilən öz-özümə qışqırmalı olurdum: "İndi tamamilə aydındır ki, həmin siyasətçi bununla nəyə nail olmaq istəyir" və ya "İlahi, bu qəribə hadisənin arxasında sadəcə olaraq Altıncı (və ya On üçüncü...) Qanun durur!"

Kitab partiya liderlərinin, deputatların və ya hökumət nümayəndələrinin bu və ya digər hərəkətlərinin arxasında nəyin dayandığını daha yaxşı başa düşməyə kömək edir. O, həmçinin iş yerindəki dolaşıq vəziyyətlərin, tanışlarla münaqişələrin təhlili və bu kimi digər hallar zamanı da sizin üçün faydalıdır.

Müəllif oxuculara, sanki saray həyatının hiyləgərliklərini öyrətmək üçün müraciət etsə də, çox tezliklə siz başa düşəcəksiniz ki, əslində o sizə alçaqlığı, rəzilliyi öyrətmir, onları həyatda tanımağa və ehtiyatlı olmağa kömək edir.

Seçkilər ərəfəsində isə kitab həm hakimiyyət pillələrində yüksəlməyə başlamağı qərara alanlar və sekiqabağı kampaniyada iştirak etməyə başlayanlar, həm də gurultulu çıxışlara və saxta hərəkətlərə aldanmamağı arzu edərək, xalqın bu və ya digər potensial elçisinin və xadiminin kimliyini başa düşə bilmək bacarığının əldə edilməsinə ümid edən sıravi seçicilər üçün xüsusilə əvəzedilməzdir.

Əgər siyasət sizin üçün maraqsızdırsa, məmnunluqla tarixi rəvayətlərlə tanış ola bilərsiniz – kitabda onların sayı kifayət qədərdir. Salnamələrdən götürülmüş, çox az adamın bildiyi, təzadlı, maraqlı və ibrətamiz olan bu rəvayətlər sizə sevinc bəxş edəcəkdir. Hekayətlərin bir qismini ilk dəfə oxuyacaqsınız, sizə yaxşı tanış olan digər hadisələr isə, qarşınızda tamamilə yeni nöqteyinəzərdən açılacaqdır. Çünki müəllif başqa kitablarda da oxuya biləcəyiniz keçmiş dövrün hadisələrini şərh edərək, gözlənilməz və qeyri-adi nəticələr çıxarmaqla yanaşı, onlara tamamilə maraqlı, özünəməxsus və qeyri-ənənəvi izahlar verir.

ÖN SÖZ

Adamlar və hadisələr üzərində hakimiyyətin olmaması duyğusu bizim üçün adətən dözülməzdir – gücsüzlük bizi məcbur edir ki, özümüzü bədbəxt hiss edək. Heç kim daha az hakimiyyətə malik olmağa can atmır, hər kəs daha çox hakimiyyət əldə etmək istəyir. Ancaq bugünkü dünyamızda hakimiyyət üçün həddindən artıq susadığını göstərmək, özünün ona can atdığını gizləməmək heç də təhlükəsiz deyil. Bizə şərəfli, ləyaqətli və təvazökar görünmək lazımdır. Belə ki, incə fənd işlətmək lazım gəlir - xoş niyyətli, ancaq hiyləgər, demokratik, eyni zamanda qeyri-səmimi olmaq lazımdır.

Belə daimi ikili xüsusiyyət hər şeydən artıq, qədim dövrlərdə hökmdar saraylarında baş verən oyunları xatırladır. Tarixin gedişində saray, həmişə hakimiyyət adamlarının - kralın, kraliçanın, imperatorun, şahın ətrafında formalaşırdı. Bu sarayı təşkil edən saray adamları tez-tez son dərəcə incə və prinsipial vəziyyətlərə düşürdülər: öz hökmdarına xidmət etmək lazımdır, ancaq bu açıq yaltaqlıq, qılığa girmək kimi görünərdisə, başqa saray adamları bunu sizin əleyhinizə çevirmək imkanını əldən verməzdilər. Buna görə də, hökmdarın mərhəmətini qazanmaq cəhdlərinin həddindən artıq nəzərə çarpmaması üçün fənd işlətmək lazım gəlirdi. Hətta belə incə qabiliyyətə malik təcrübəli saray adamları da, rəqiblərdən müdafiə olunmaq tədbirləri haqqında düşünməli, istənilən an onları geri oturtmağa hazır olmalı idilər.

Eyni zamanda, incəliyin və mədəniliyin ən yaxşı, gözəl forması saray sayılırdı. Hakimiyyətə kobud və açıq şəkildə can atmaq rəğbət doğurmurdu, saray adamı güc tətbiq edən hər kəsə qarşı gizlicə hərəkət edərək, əl altından iş görürdü. Bu, sarayda həyati dilemma idi: saray adamı zahirən zəriflik və alicənablıq nümunəsi kimi görünərək, düşmənə mümkün qədər hiss edilmədən və incəliklə aldatmağa və ona üstün gəlməyə çalışırdı.

Saray, şübhəsiz, nəzakətin və yaxşı hərəkətlərin mərkəzidir. Bu belə olmasaydı, o qırğın və xarabazarlıq mərkəzi olardı. İndi bir-birinin üzünə iltifatla gülümsəyən və qucaqlaşan adamlar, onların tərbiyələri mane olmasaydı, bir-birlərini təhqir edər və zərbələrə məruz qoyardı...

Lord Çesterfild, 1694-1773.

Uğurlu saray adamı tədricən siyasət elminin sirlərinə yiyələnir, onun əyri-üyrü, dolambac yollarını dərk edir, düşmənin üzünə şirin təbəssümlə gülümsəyərək, kürəyinə məxməri əlcək geyilmiş əllə zərbə endirməyi öyrənirdi. Əsl saray adamı öz məqsədinə güc və ya birbaşa hədə-qorxu tətbiq etməklə deyil, hərəkət planını həmişə bir çox addım əvvəldən düşünərək, şirnikləndirmə və hiylə strategiyasının köməyi ilə, cazibədarlığı və intriqanı, fitnə-fəsadı işə salmaqla nail olurdu. Saray həyatı, onun iştirakçılarından daima sayıqlıq və taktiki təfəkkür tələb edən saysız-hesabsız oyunlardan ibarət idi. Bu nəzakətli müharibə idi.

Bu gün biz buna çox oxşar olan paradoksla, təzadlarla rastlaşırıq: hər şey zahirən mədəni, nəzakətli, demokratik və düzgün olmalıdır. Ancaq biz bu qaydaları eynən olduğu kimi başa düşərək, onlara son dərəcə dəqiq riayət etməklə hərəkət edəriksə, bu zaman düşmənlərimiz, əlbəttə əgər onlar da sadəlövh deyildirlərsə, bizi əzə bilərlər. İntibah dövrünün böyük diplomatı və saray xadimi Nikkolo Makiavelli yazırdı: "Hər zaman yaxşı olmağa çalışan hər bir kəs labüd olaraq sonda çox böyük sayda olan pislərin arasında itib-batacaqdır". Saray öz-özlüyündə nəzakət və gözəlliyin ən yüksək səviyyəsini mənimsəmişdi, ancaq parlaq örtüyün altında məkrli ehtiraslar – acgözlük, paxıllıq, şəhvət, nifrət paqqıldayan qazan kimi qaynayıb daşırdı.

Budur, bizim bugünkü dünyamız da fəzilətin ən yüksək səviyyəsini mənimsəyir, ancaq həmin çirkin ehtiraslar, həmişə olduğu kimi, indi də bizim daxilimizdə tüğyan etməkdədir. Qaydalar isə həminki kimi qalır. Gözdən pərdə asmaq üçün siz düzgün, təmiz oyuna hörmət bəsləməlisiniz, ancaq əslində, əgər siz tamamilə sadəlövh deyilsinizsə, tezcə sərhesab və ehtiyatlı olmağı öyrənir, Napoleonun məsləhəti üzrə hərəkət edin: dəmir əllərinizə məxmər əlcək geyinin. Keçmiş zamanların saray adamı kimi, əl altdan gizlicə iş görmək bacarığına maliksinizsə, şirnikləndirməyi, yaltaqlığı, intriqalar, fitnə-fəsad düzəltməyi və öz rəqiblərinizi incəliklə barmağınıza dolamağı öyrənmişsinizsə, onda siz hakimiyyətin ən yüksək zirvəsinə ucalmağa müvəffəq ola bilərsiniz. Siz adamları öz iradənizə elə tabe edəcəksiniz ki, onlar bunu necə etdiyinizi hətta hiss etməyəcəklər. Onlar nə etdiyinizi başa düşməsələr, heç bir vəchlə sizə qarşı dura və müqavimət göstərə bilməzlər.

Bəzi adamlar hakimiyyət oyunlarında şüurlu surətdə iştirak etmək ideyasını pis, ictimaiyyətə zidd, keçmişin qalığı kimi təsəvvür etdiyindən, bu onlar üçün əhəmiyyətsizdir. Onlar bu oyun olmadan keçinəcəklərinə və hakimiyyətlə heç bir əlaqəsi olmayan yollarla məqsədə çata biləcəklərinə inanırlar. Bu adamlardan ehtiyatlı olun, çünki onlar bu cür baxışları ucadan desələr də, əslində onların arasında tez-tez hakimiyyət uğrunda mübarizə aparan tanınmış oyunçulara rast gəlmək olar. Onlar bu mübarizədə istifadə edilən hiyləgərliyi ifşa edərək, çox incə strateji üsuldan istifadə edirlər. Bu tip adamlar, məsələn, çox vaxt öz zəifliklərini və hakimiyyətə malik olmamalarını özünəməxsus əxlaqi fəzilət kimi nümayiş etdirirlər. Ancaq həqiqi mənada hakimiyyəti olmayan, heç bir şəxsi maraq güdməyən adam, rəğbət və ya hörmək qazanmaq üçün öz zəifliyini ictimaiyyətin malı etməzdi. Öz zəifliyini nümayiş etdirmək - həqiqətən hakimiyyət oyunlarında incə və hiyləgər, çox səmərəli üsuldur. *(Bax: İyirmi ikinci qanun. Təslim olma taktikasından istifadə et: zəifliyi gücə çevir).*

Hakimiyyət oyunlarında iştirak etmədiyini bildirən adamların başqa üsulu - həyatın bütün sahələrində bərabərliyi tələb etməkdir. Mövqeyindən və gücündən asılı olmayaraq, hamı ilə eyni cür rəftar etmək lazımdır. Ancaq siz hakimiyyətin qüsurlarından yan qaçaraq, hamı ilə eyni bərabərdə düzgün və ədalətli olmağa cəhd edərsinizsə, problemlə qarşılaşarsınız: məlum olur ki, eyni bir məqsədə müxtəlif adamlar müxtəlif cür nail olurlar. Hamıya eyni cür münasibət bəsləmək - daha çoxa qadir olanları ədalətsizcəsinə geriyə itələyərək, daha az bacarığı olanları irəliyə çəkərək, - onlar arasındakı fərqə əhəmiyyət verməmək deməkdir. Özünü bu cür aparan adamların əksəriyyəti, əslində mükafatların bölüşdürülməsini təşkil edərək, hakimiyyət uğrunda mübarizədə, yenə də tamam başqa üsul tətbiq edirlər.

Qoyunların yırtıcı quşları sevməməsində təəccüblü heç nə yoxdur, ancaq bu, yırtıcılara qoyunları aparmağa imkan verməyərək, onları tutub-saxlamaq üçün əsas deyildir. Qoyunlar pıçıldaşaraq - "Bu yırtıcılar zalımdırlar, məgər onlara qarşı durmaq üçün bütün vasitələri münasib hesab etməyə bizim hüququmuz yoxdurmu?" - deyəndə, bu dəlillərin kökündə səhv heç nə yoxdur. Ancaq yırtıcı quşlar bir qədər özlərini itirərək deyəcəklər:

Oyuna daxil olmamağın daha bir üsulu tamamilə doğruçu və səmimi olmaqdır, belə ki, hakimiyyət uğrunda mübarizənin əsas üsulu fikir və niyyətləri gizli saxlamaq və aldatmadır. Ancaq sizin mütləq səmimiyyətiniz labüd olaraq bir çox adama ziyan vuracaq və ya sadəcə olaraq onları narazı salacaqdır, incimiş adamlardan kimsə hökmən cavab zərbəsi vurmaq istəyəcək. Heç kim sizin açıq etiraflarınızı tam obyektiv, müəyyən şəxsi motivlərdən azad hesab etməyəcəkdir. Həm də onlar haqlı olacaqlar: həqiqətən müxtəlif oyunlar çıxarmaqla səmimiyyət göstərilməsi - hakimiyyət əldə etməyin daha bir üsuludur, onun məqsədi - adamları, səhnəyə alicənab, səmimi və xudbinliyi olmayan şəxsin çıxmasına inandırmaqdır. Bu - təlqin formasıdır, hətta demək olar ki, zorakılığın incə formasıdır.

"Bizim bu xeyirxah qoyunlara qarşı heç bir düşmənçiliyimiz yoxdur, biz hətta onları sevirik. Zərif qoyundan ləzzətli heç nə yoxdur".

Fridrix Nitsşe, 1844-1900.

Nəhayət, hakimiyyət əldə etmək ittihamlarından özünü qorumaq üçün oyunçu olmaq istəməyənlər, təbiilik və sadəlik obrazını yarada bilərlər. Yenə də ehtiyatlı olmaq lazımdır, çünki sadəlövh görkəmin arxasında incə hiyləgərlik dayana bilər *(bax: İyirmi birinci Qanun. Sadəlövhə hiylə gəlmək üçün özünü sadəlövhlüyə vur: öz hədəfindən də axmaq görün).* Saxta olmayan sadəlövhlük də hakimiyyət tələsindən azad deyildir. Uşaqlar çox şeydə sadəlövh ola bilərlər, ancaq çox vaxt onlar da özlərini əhatə edənləri idarə etməyə primitiv tələbat hiss edərək, bu tələbata uyğun hərəkət edirlər. Uşaqlar, böyüklər dünyasında özlərinin hüquqsuzluqlarını hiss edərək, hədsiz dərəcədə əzab çəkirlər və istəklərinə nail olmaq üçün bütün mümkün üsullardan istifadə edirlər. Məqsədləri hakimiyyət olan əsl sadəlövh adamlar da oyunda iştirak edə bilərlər, özü də onlar bu oyunda çox vaxt, məhz özlərini refleksiya ilə yükləmədiklərinə görə ağlagəlməz uğurlar qazanırlar. Təkrar edirik: saf qəlbli, təqsirsiz adam roluna girən şəxs, istənilən başqasından az təqsirlidir.

* * *

Adamlar üçün məqsədə çatmağın yeganə vasitəsi güc və hiyləgərlikdir. Sizə deyə bilərlər ki, bir də məhəbbətdir, ancaq bu günəşin nə vaxt doğacağını gözləməyi göstərərdi, həyatda isə hər anın öz hökmü vardır.

İohan Folfqanq Höte, 1749-1832.

Yaydan atılan ox bir adamı öldürə və ya öldürməyə bilər. Ancaq müdrikin düşündüyü hiyləgər fənd, hətta bətndəki körpələri də öldürməyə qadirdir.

Kautilya, hind filosofu, e. ə. III əsr.

Siz ehtimal edilən belə oyunçuları, onların öz əxlaqi keyfiyyətləri ilə gözdən necə pərdə asmalarından, özlərini mömin göstərmələrindən, müstəsna dərəcədə ədalətlilik hissləri nümayiş etdirdiklərindən tanıya bilərsiniz. Hamının hakimiyyət istəməsi və demək olar ki, insanın bütün hərəkətlərinin son nəticədə bu məqsədin əldə edilməsinə yönəlməsi fikrindən çıxış edərək, başa düşmək lazımdır ki, "oyunçu olmayanlar" sadəcə olaraq gözə kül üfürürlər, onların üstün əxlaqi görkəmi isə hakimiyyət uğrunda mübarizədə öz oyunlarını maskalamağa xidmət edir. Onlara diqqətlə nəzər salın - siz görəcəksiniz ki, əslində onlar əl altından gizlicə hərəkət etmək elmində, onlardan bəziləri bundan kortəbii istifadə etsələr də, başqalarından daha məharətlidirlər. Belə adamların hiyləsi ictimaiyyətə məlum olduqda, onlar dəhşətli dərəcədə qəzəblənirlər.

Dünyanın quruluşunu hökmdar sarayının ağlagəlməz ölçüləri ilə müqayisə etmək mümkündürsə, bizə isə başqa dünya verilməmişdirsə, oyuna girməməyə cəhd etməyin mənasızlığını görərik. Bu, hansı hakimiyyətə malik olmağınızdan asılı olmayaraq, sizi hakimiyyətdən məhrum edəcəkdir, gücsüzlüyünüzü dərk etdiyinizə görə isə özünüzü rədd edilmiş hesab edəcəksiniz. Tale ilə vuruşmaqdan, mübahisə etməkdən və təqsir hissini yaşamaqdansa hakimiyyətə can atmaq daha yaxşıdır. Əslində bu sizdə nə qədər yaxşı alınarsa, siz bir

o qədər yaxşı dost, sevgili, ər, arvad, şəxsiyyət olarsınız. Əsl saray adamının yolu ilə gedərək (bax: İyirmi dördüncü Qanun) siz, həm adamlar, həm də özünüz üçün məmnunluq mənbəyi olaraq, onları haqqınızda yaxşı fikirdə olmağa necə məcbur etməyi öyrənərsiniz. Onlar sizin mühitinizdə sevinc içərisində yaşayaraq, bundan sonra imkanlarınızdan asılı olmayacaqlar. Bu kitabın 48 qanununu mənimsəyərək, siz və başqaları, hakimiyyətlə bacarıqsız davranmağınızın yetirdiyi ağrıdan - necə ki, alovun xassələrini bilmədən, onunla ehtiyatsız oynamaqla özünüzü yandıra bilərsiniz - xilas olacaqsınız. Doğrudan da, hakimiyyət oyunu labüddürsə, bu barədə səthi məlumatlı adam olmaqdansa, onun mahir ustası olun.

Mən özümə deyirdim: insanın başqalarını aldatmaq qabiliyyətini mükəmməl hala çatdırması üçün ona hansı vasitələr, fəndgirlik, müxtəlif ustalıqlar lazımdır, onun hansı səylər göstərməsi tələb olunur, həm də bu rəngarəngliyin hesabına dünya gözəl olur.

Françesko Vettori, Makiavellinin müasiri və dostu, XVI əsrin əvvəli

Hakimiyyət oyununa yiyələnmək dünyaya münasibətdə müəyyən baxışlara malik olmağı, gələcək dəyişiklikləri əvvəlcədən bilməyi tələb edir. Bunun üçün səylər, illərin təcrübəsi lazım olur. Bütöv bir sıra əsas vərdişləri mənimsəmək lazım gəlir, onları dərindən öyrənərək, siz hakimiyyət qanunlarını asan və təbiicəsinə tətbiq edə bilərsiniz.

Bu vərdişlərdən ən mühümü, həmçinin hakimiyyətin başlıca özülü - öz hisslərinizi idarə etmək bacarığıdır. Vəziyyətə emosional reaksiya vermək - hakimiyyət üçün ən böyük maneədir, hisslərinizi ifadə etməkdən aldığınız istənilən müvəqqəti məmnunluqdan çox-çox baha başa gələn

səhvdir. Emosiyaların arxasında əsl səbəblər görünmür, vəziyyəti bütün aydınlığı ilə görmədikdə isə, siz ona hazırlaşmaq və heç olmazsa, cavab verə bilmək imkanını əldən vermiş olacaqsınız.

Prinsiplər yoxdur, yalnız hadisələr var. Yaxşı və pis yoxdur, yalnız vəziyyətlər var. Ali insan hadisə və vəziyyətləri istiqamətləndirmək üçün özünü onlara həsr edir. Əgər prinsiplər və möhkəm qanunlar mövcud olsaydı, xalqlar onları biz köynəkləri dəyişdiyimiz kimi dəyişməzdilər, ayrı-ayrı adamlar isə öz müdrikliyi ilə bütöv xalqdan üstün ola bilməzdi.

Onore de Balzak, 1799-1850.

* * *

Qəzəb - bütün emosional reaksiyalardan ən dağıdıcısıdır, o, gələcəyi tamamilə dumanlandırır, sizi görmək qabiliyyətindən məhrum edir. Nəticədə vəziyyəti nəzarət altında saxlaya bilmirsiniz və düşmənin öz qüvvəsinə inamı artır. Sizə pislik etmiş düşməninizi məhv etməyə çalışırsınızsa, ona öz qəzəbinizi göstərməkdənsə, dostluğunuzu nümayiş etdirərək, onun sayıqlığını zəiflətməyiniz çox-çox yaxşıdır.

Möhkəm məhəbbət və sədaqətlilik də həmçinin dağıdıcıdır, belə ki, o, sizin gözünüzü tuta və sizi, hakimiyyət oyununda iştirakına daha az şübhə etdiyiniz adamların maraqlarına xidmət etməyə məcbur edə bilər. Heç kim qəzəbi və ya məhəbbəti söndürə bilmək, yaxud özünü onların acısını çəkməməyə məcbur etmək iqtidarında deyildir - buna heç cəhd etməyə dəyməz də. Onların təzahür etməsinə nəzarəti gücləndirərək, ehtiyatlılıq göstərmək lazımdır, planlarınıza və fikirlərinizə onların heç bir təsir göstərməməsi xüsusilə vacibdir.

Hissləri idarə etmək bacarığı özünü indiki vaxtdan kənarlaşdırmaq, keçmişi və gələcəyi obyektiv götür-qoy etmək qabiliyyəti ilə bağlıdır. Romalıların ikiüzlü allahı, bütün darvaza və qapıların keşikçisi Yanus kimi, haradan gəlməsindən asılı olmayaraq, təhlükənin öhdəsindən uğurla gəlmək üçün eyni vaxtda hər iki istiqamətə baxmağı öyrənməlisiniz. Bir üzü daima gələcəyə, digəri keçmişə baxan bu cür ikiüzlü sifət yaratmaq üzərində işləyin.

Gələcəyin devizi belədir: "Həmişə sayıq olmaq". Problemləri və çətinlikləri, onlar meydana çıxmazdan əvvəl götür-qoy etdiyinizdən, heç nə sizi pis vəziyyətə qoymamalıdır. İşi uğurla başa vurmaq barədə arzulara vaxt itirmək əvəzinə bir qədər zəhmət çəkin və düşə biləcəyiniz hər bir mümkün çaşqınlığı və tələni hesaba alın. Siz nə qədər uzaqgörənsinizsə, öz planınızı nə qədər çox qabaqcadan qurarsınızsa, bir o qədər qüdrətli olarsınız.

Yanusun digər üzü daima keçmişə baxır - ancaq bu, keçmiş inciklikləri ortaya çıxarmaq və kiməsə dişlərini qıcamaq üçün deyildir. Siz bununla yalnız öz gücünüzü azaldarsınız. Müvəffəqiyyətin sirrinin yarısı, keçmişin sizə əzab verən, aydın görməyə və başa düşməyə mane olan hadisələrini unutmağı öyrənməkdədir. Geriyə tuşlanmış baxışın əsl məqsədi daima inkişaf etməkdir, siz geriyə, sizdən əvvəl olanlardan öyrənmək üçün baxırsınız. (Bu kitabda olan çoxlu tarixi nümunələr bu məqsədə xidmət edir.) Keçmişə müraciət etdikdən sonra, siz özünüzün və dostlarınızın hərəkətlərinə diqqətlə nəzər salırsınız. Bu sizin üçün çox vacib məktəbdir, belə ki, ondan öyrənərək, öz şəxsi təcrübənizdən çıxış edirsiniz.

Siz, keçmişdə buraxdığınız səhvləri, xüsusən sizin irəliyə hərəkətinizi daha çox ləngidən səhvləri öyrənməkdən başlayın. Onları "Hakimiyyətin 48 Qanunu" mövqeyindən təhlil edin, onlardan ibrət götürün və özünüzə söz verin: "Mən heç vaxt belə səhvləri təkrar etmərəm. Mən bir dəfə düşdüyüm tələyə heç vaxt ikinci dəfə düşmərəm". Siz özünüzü bu cür qiymətləndirə və müşahidə edə bilərsinizsə, öz keçmişinizin, kor-ko-

ranə riayət etdiyiniz şablon, basmaqəlib cəhətlərini dağıtmağı öyrənərsiniz - bu, əsl qiymətini vermək çətin olan məharətdir.

Hakimiyyət, həmçinin görkəmi dəyişmək məharəti tələb edir. Bu onu göstərir ki, siz müxtəlif maskalar taxmağı öyrənməlisiniz, həm də yanınızda hiyləgər fəndlərlə dolu kisə olmalıdır. Fəndgirliyi və hiyləgərliyi çirkin və ya əxlaqsız bir şey kimi başa düşmək lazım deyildir. İnsanların bütün qarşılıqlı münasibətləri, bu və ya digər dərəcədə yalana söykənir, demək olar ki, insanı heyvandan müəyyən dərəcədə aldatmaq və hiylə gəlmək qabiliyyəti fərqləndirir. Yunan əsatirlərində, Hindistanın Mahabharata eposunda və Yaxın Şərqin Gilqamış dastanında allahlar hiyləgər fəndlərdən istifadə etmək imtiyazına malik idilər. Böyük adamlar, məsələn Odissey, hiylə və fəndgirlikdə allahlarla müqayisə edilərək, onların qüdrətinə qarşı öz hiyləgərliklərini qoymaq, ilahi qüvvənin bir hissəsini oğurlamaq qabiliyyəti ilə qiymətləndirilirlər. Hiylə - mədəniyyətin yaratdığı məharət və hakimiyyət oyunlarında son dərəcə güclü silahdır.

Siz öz-özünüzdən məsafə saxlamağı öyrənməsəniz, bu gün və bu dəqiqə tələb olunan maskanı taxaraq, müxtəlif cildlərə girmək qabiliyyətinə yiyələnməsəniz, hiylə işlətmək məharətində uğur qazana bilməzsiniz. Öz simanıza belə çevik münasibət bəsləməniz, sizin insanları uçuruma yuvarladan daxili ağırlıqdan xilas olmanıza imkan verər. Sifətinizə aktyorlara məxsus olan elastiklik verin, öz niyyətinizi hamıdan gizlətməyi, adamları aldadıb tələyə salmağı öyrənin. Obrazlarla oyunu və hiylə sənətini təkmilləşdirməyi həyatın bizə bəxş etdiyi estetik zövqlər sırasına aid etmək olar. Ancaq bunlar, həm də hakimiyyət əldə etməyin əsas ünsürləridir.

Hiylə sizin cəbbəxananızdakı ən güclü silahdırsa, hər şeydə səbir, dözüm - sizin ən möhkəm qalxanınızdır. Səbir sizi kobud səhvlərdən qoruyur. Öz hissələriniz üzərində nəzarət kimi, səbir də bizə təbiətən anadangəlmə verilməyən vərdiş,

məharətdir. Ancaq hakimiyyətdə təbii olan heç nə yoxdur, təbii aləmdə hər hansı başqa şeydən artıq hakimiyyət ilahi varlığa bənzəyir. Səbir isə allahların ali fəzilətidir, onların səbri qədərindən artıqdır. Səbir etsək, gözlədiyimiz yaxşı şeylər baş verəcəkdir – vaxt verilərsə və bir neçə addım irəliyə nəzər salınarsa, otların yenidən cücərdiyini görəcəyik. Səbirsizlik isə sizə yalnız zəif görkəm verər. O, hakimiyyətə zərər gətirər.

Məcburi hakimiyyət qeyri-əxlaqidir və onu əldə etmək üçün ən mühüm vərdişlərdən biri - hadisələrə xeyir və ya şər mövqeyindən nəzər salmamaqdır. Hakimiyyət oyundur - bunu tez-tez təkrar etmək olar - oyunda isə siz düşmənin niyyətinə görə deyil, onun hərəkətlərinin nəticəsinə görə mühakimə yürüdürsünüz. Siz onun taktikasını və gücünü gördükləriniz və hiss etdikləriniz əsasında qiymətləndirirsiniz. Çox vaxt kiminsə niyyəti yalan və hiylə vasitəsi olur! Digər oyunçu, dostunuz və ya həmfikiriniz işlərinizin yaxşı olmasını istəyirsə və yalnız maraqlarınızın qayğısına qalırsa, lakin onun fəaliyyəti nəticəsində işləriniz tamamilə dolaşırsa və pozulursa, bu nəyi dəyişir ki? Bu, adamların özlərinin yaxşı niyyətdə olduqlarını həmişə deyərək, özlərinə hər cür bəraət qazandırmaqla, öz hərəkətlərini ört-basdır etməsi üçün olduqca təbiidir. Sizə hər dəfə şübhə ilə deyilənlərə, elə o cür etimadsızlıqla gülümsəməyi öyrənmək lazımdır, onda siz, əslində hakimiyyətin əldə edilməsinə haqq qazandırmağa xidmət edən əxlaqi mühakimələr məcmusunun olmasına baxmayaraq, heç vaxt kiminsə niyyət və hərəkətlərini qiymətləndirməkdə aldanmayacaqsınız.

Oyun gedir. Rəqibiniz sizin qarşınızda oturur. Sizin hər ikiniz oyun qaydalarına riayət edərək və heç bir şeyi ürəyinizə salmayaraq, özünüzü centlmen və ya xanım kimi aparırsınız. Siz müxtəlif üsullar tətbiq edərək və rəqibinizin etdiyi gedişləri müşahidə edərək, bütün təmkininizi cəmləyib oynayırsınız. Diqqətli olun, rəqibinizin gedişlərinin nəticələrini, görünən halları izləməyi öyrənin və başqa heç bir şeylə diqqətinizi yayındırmayın.

103855
M.F.Axundov adına
Azərbaycan Milli

Sizin hakimiyyət bacarığınızın yarısı, etmədiklərinizdən deyil, özünüzü oyuna cəlb edilməyə imkan verməməyinizdən yaranır. Bu vərdişlərə yiyələnmək üçün istənilən şeyin sizə neçəyə başa gəldiyini qiymətləndirməyi öyrənməyiniz lazımdır. Nitsşe yazırdı: "Şeylərin qiyməti bəzən onun hansı fayda gətirə bilməsi ilə deyil, ona nə qədər verilməsi ilə - onun bizə nəyə başa gəlməsi ilə müəyyən edilir". Mümkündür ki, siz məqsədinizə, həm də arzuladığınız məqsədinizə nail olmusunuz, ancaq hansı qiymətə? Bu nümunəni hər şeyə, məsələn kiminləsə əməkdaşlıq edib-etməmək və ya onun köməyindən istifadə edib-etməmək məsələsini həll etməyə tətbiq edin. Nəhayət, ömür qısadır, imkanların sayı və əlbəttə, sizin enerjiniz məhduddur. Həm də, bu mənada, digər dəyərlər kimi zamanı da nəzərə almaq vacibdir. Siz qiymətli vaxtınızı və ya zəkanızın dinc sərvətini başqalarının işinə heç vaxt sərf etməyin - bunlar olduqca yüksək qiymətə malikdir.

Hakimiyyət sosial oyundur. Ona mükəmməl yiyələnmək üçün sizə, özünüzdə adamları öyrənmək və başa düşmək qabiliyyətini inkişaf etdirmək lazım gələcəkdir. XVII əsrin böyük mütəfəkkiri və saray xadimi Baltazar Qratsian yazırdı: "Bir çox adamlar heyvanların və ya otların xassələrini öyrənməyə vaxt itirirlər; bir yerdə yaşamalı və ölməli olacağımız adamların xüsusiyyətlərini öyrənmək isə daha vacib olardı!" Yüksək dərəcəli oyunçu olmaq üçün sizə, həm də yüksək dərəcəli psixoloq olmaq zəruridir. Sizə, səbəbləri anlamaq, adamların öz işlərinin üstünü örtdüyü toz pərdəsinin arxasını görmək lazım olacaqdır. Adamların gizli dəlillərini başa düşmək bütöv bir elm, böyük müdriklikdir və siz ona yiyələnib hakimiyyət əldə edə bilərsiniz. Bu elm hiylə, şirnikləndirmə və kələk üçün sonsuz sayda imkanlar açır.

İnsanlar hədsiz dərəcədə müxtəlifdir, bütün həyatın boyu onları müşahidə edə bilərsən, ancaq yenə də onları axıra qədər başa düşə bilməzsən. Buna görə öyrənməyi mümkün qədər tez

- elə indidən başlamaq vacibdir. Bu işə girişərkən bir qaydanı yadda saxlayın: öyrəndiyiniz və etibar etdiyiniz adamlardan heç vaxt aralanmayın. Heç kimə tamamilə etibar etməyin, dostlarınız və əzizləriniz daxil olmaqla hər kəsi öyrənin.

Nəhayət, sizə hakimiyyətə çatmaq üçün həmişə dolayı yol seçməyi öyrənmək lazımdır. Fəndgir olun. Sizin gedişləriniz, luzaya (bilyard stolunun yanlarından və künclərindən asılan tor) düşənə qədər dəfələrlə yolunu dəyişən bilyard şarı kimi planlı olmalı və ən ağlagəlməz marşrutlar üzrə qurulmalıdır. Dolayı yolla getmək məharətini məşq edərək, siz müasir sarayda tərəqqi edə bilərsiniz, bu zaman ləyaqətli və əxlaqlı adam nümunəsi kimi görünər, əslində hiylə ustası olarsınız.

* * *

Dolayı yollar seçmək məharətini öyrədən "Hakimiyyətin 48 Qanunu"na özünəməxsus rəhbər vəsait kimi yanaşın. Qanunlar, hakimiyyət oyunları ilə tanış olan və bu oyunlarda uğur qazanan kişilərin və qadınların yazdıqları sənədlərə əsaslanır. Bu sənədlər üç minillikdən artıq bir dövrü əhatə edir, onlar qədim Çin və İntibah dövrünün İtaliyası kimi uzaq və müqayisəyəgəlməz mədəniyyətlər tərəfindən yaradılmışdır. Bununla belə, onları ümumi mövzular və əsas süjetlər birləşdirir: onlar bir-birinə dolaşıb hörülərək, hakimiyyətin məğzini təşkil edirlər, doğrudur onları həm də dəqiq formulə etmək lazımdır. "Hakimiyyətin 48 Qanunu" - bəşər tarixinin ən məşhur strateqlərinin (Sun-tszı, Klauzevits), dövlət xadimlərinin (Bismark, Taleyran), saray xadimlərinin (Kastilyone, Qrasian), başaldadanlarının (Ninon de Lanklo, Kazanova) və istedadlı dələduzlarının (Sarı Uşaq - Veyl) yazılarından seçilmiş, bəşər tarixinin əsrlər boyu toplanmış müdrikliyinin əsas mahiyyətidir.

Qanunlara aşağıdakılar xasdır: müəyyən hərəkətlər, demək olar ki, həmişə kimlərinsə hakimiyyətini gücləndirir (qanuna riayət edilməsi), bu zaman başqalarının hakimiyyətini azaldır

və hətta dağıdır (qanunun pozulması). Bu pozulma və riayət edilmə halları zamana görə nəhayətsiz və məkana görə hüdudsuzdur.

"Hakimiyyətin 48 qanunu"ndan müxtəlif üsullarla istifadə etmək olar. Kitabı nəzərdən keçirərək, siz hakimiyyətlə ümumi şəkildə tanış olacaqsınız. Elə görünəcəkdir ki, bir çox qanunların sizin həyatınıza tətbiq edilməsi mümkün deyildir. Ancaq çox güman ki, tədricən həmin qanunlar üçün də hansısa tətbiq yeri tapacaq və həm də onların hamısının qarşılıqlı əlaqədə olduğunu görəcəksiniz. Predmetlər haqqında ümumi təsəvvürlər əldə edərək, özünüzün keçmiş hərəkətlərinizi qiymətləndirə və özünüzün indiki hərəkətlərinizə daha inamlı nəzarət edə bilərsiniz. Kitabın diqqətlə oxunması sizi, onu kənara qoymağınızdan hələ uzun müddət sonra, bir çox hadisələri, onun mövqeyindən təhlil etməyə və yenidən qiymətləndirməyə məcbur edəcəkdir.

Kitab elə qurulmuşdur ki, ondan müəyyən bir vaxtda sizi maraqlandıran problemə aid lazımi informasiyanı taparaq, həm də məlumat kitabı kimi istifadə etmək olar. Deyək ki, sizin rəhbərliklə probleminiz var və siz öz səylərinizin nəyə görə minnətdarlığa və vəzifədə yüksəlməyə gətirib çıxarmadığını başa düşə bilmirsiniz. Bir çox qanunlar rəis - işçi münasibətlərini şərh edir, siz də, demək olar ki, həmişə onlardan birini pozursunuz. "Hakimiyyətin 48 Qanunu"na daxil olan qanunların əsas məzmununun ilk cümlələrini oxuyun, onda siz düşdüyünüz hala uyğun gələn qanunu seçə biləcəksiniz.

Nəhayət, kitabı əyləncə üçün vərəqləmək və böyük sələflərimizin zəif və hissiyyatlı cəhətləri haqqında hekayətlərlə kefimizi açaraq kənara qoymaq olar. Ancaq kitabdan məhz bu cür istifadə etməyə hazırlaşan oxucuları xəbərdar etmək istəyirik: görünür, ən yaxşısı, siz bunu etməməlisiniz. Hakimiyyət ağlagəlməz dərəcədə şirnikləndirici və aldadıcıdır. Bu özünəməxsus labirintdir - sizin ağlınız hakimiyyətin sonsuz sayda xırda

məsələlərinin həlli ilə məşğul olur, həm də siz tezliklə dərk edirsiniz ki, necə möhkəm və incəliklə yanılmısınız. Başqa sözlə, sizə hakimiyyəti ciddi qarşılamaq, getdikcə daha çox xoş gəlir. Bu dərəcədə mühüm predmetlərlə oyun oynamayın. Hakimiyyət ilahəsi yüngülxasiyyətlilərə pis münasibət bəsləyir. O, yalnız düşünənlərə və öyrənənlərə uğur bəxş edir, əylənmək arzusu ilə dərinliklərə baş vurmayıb üzdən gedənləri cəzalandırır.

Həyatın bütün hallarında yaxşılıq etməyi arzulayan adamın xeyirxahlığı yad adamlar kütləsi arasında məhv olacağı labüddür. Hakimiyyətini saxlamağı arzu edən hökmdar, xeyirxahlıqdan geri çəkilməyi öyrənməli və zərurətə uyğun olaraq, bu məharətdən istifadə etməlidir.

Nikkolo Makiavelli (1469-1527), "Hökmdar"

BİRİNCİ QANUN

HEÇ VAXT ÖZÜNÜ RƏHBƏRDƏN YÜKSƏK TUTMA

QANUNUN MƏZMUNU

Həmişə rəhbərin yuxarıda özünü rahat hiss etməsinə nail olmağa çalışın. Öz istedadınızı nümayiş etdirərək onun yoluna çıxmaqda və ya özünüz haqqında yaxşı təəssürat yaratmaqda çox da uzağa getməyin. Yoxsa əks nəticəyə düçar olmaq təhlükəsi əmələ gələr: onlarda qorxu və inamsızlıq hissi yaradarsınız.

Rəhbərlərinizi məcbur edin ki, onlar özlərinə əslində olduqlarından daha əzəmətli görünsünlər.

QANUNUN POZULMASI

IV Lüdovikin hakimiyyətinin ilk illərində maliyyə naziri olmuş Nikola Fuke səxavətli adam, dəbdəbəli balların, gözəl qadınların və poeziyanın pərəstişkarı idi. Keçirdiyi həyat tərzi çoxlu xərc tələb etdiyindən, o, pulu çox sevirdi. Fuke ağıllı olduğundan, kral üçün tamamilə əvəzedilməz idi. Elə buna görə də, 1661-ci ildə birinci nazir Culio Mazarini öldükdə, maliyyə naziri, onun varisi olacağını gözləyirdi. Ancaq kral maliyyə naziri vəzifəsini ləğv etməyi qərara aldı. Fuke bu və başqa əlamətlərə görə hiss etdi ki, kral artıq ona himayədarlıq etmək istəmir. Vəziyyətdən çıxış yolunu dünyada hələ indiyə kimi tayı-bərabəri olmayan ən dəbdəbəli bayram təşkil etməkdə görən Fuke, kralın mərhəmətini bununla qazanmağı qərara aldı. Bayram təntənəsi formal olaraq Fukenin Vo-le-Vikont qəsrinin başa çatmış tikintisinin açılışına həsr edilsə də, əsl məqsəd kralın hörmətini qazanmaq idi.

Bayrama Avropanın ən məşhur əyanları və o dövrün ən böyük alimləri — Lafonten, Laroşfuko, madam de Savini və başqaları da toplaşmışdılar. Molyer bu münasibətlə xüsusi pyes yazmışdı və axşam tamaşasında özü də səhnədə oynamalı idi. Bayram Fransada məlum olmayan Şərq mətbəxi yeməklərinin, həmçinin xüsusi olaraq bu axşam üçün hazırlanmış qeyri-adi yeməklərin xüsusi yer tutduğu cah-cəlallı naharla başladı. Nahar Fukenin sifarişi əsasında kralın şərəfinə bəstələnmiş musiqi ilə müşayiət edilirdi.

Nahardan sonra qonaqlara bağ gəzintisi təklif olundu. Vo-le-Vikont qəsrinin adamı heyran qoyan güllükləri və fəvvarələri sonralar Versal sarayının yaradılmasında ruhlandırıcı mənbə oldu.

Gənc kralı Fuke şəxsən özü ağac kolları ilə canlı hasara alınmış və ətirli güllüklərlə daha da gözəl görünən düzgün həndəsi formada salınmış xiyabanda müşayiət edirdi. Çayın sa-

hilində onlar gözəl atəşfəşanlıqdan zövq aldılar, bundan sonra Molyerin pyesinin tamaşası oldu. Bayram bütün gecə səhərə qədər davam etdi, qonaqlar yekdilliklə onu indiyə kimi tayı-bərabəri olmayan və heyrətamiz tədbir adlandırdılar.

Ertəsi gün Fuke kral muşketyorlarının kapitanı d,Artanyan tərəfindən həbs edildi. Üç aydan sonra, o, dövlət xəzinəsindən oğurluq ittihamı ilə məhkəmə qarşısında durdu (həqiqətdə onun oğurladıqlarının çoxu xəzinədən kralın adından və kralın icazəsi ilə götürülmüşdü). Fuke təqsirkar bilindi və Fransanın Pireney dağlarının yüksəkliklərində yerləşən ən uzaq həbsxanaya salındı. O, həyatının son iyirmi ilini təklikdə – burada həbsdə keçirdi.

İZAHI

Günəş – kral sayılan lovğa və təkəbbürlü XIV Lüdovik həmişə diqqət mərkəzində olmağa can atırdı və heç kimin, xüsusən də öz maliyyə nazirinin dəbdəbədə onu ötüb keçməsinə imkan verə bilməzdi. Lüdovik Fukenin yerinə Parisdə xəsisliyi ilə tanınan Jan Batista Kolberanı qoydu. Kolbera xəzinədən pulun birbaşa Lüdovikin əli ilə çıxarılmasına əmin oldu. Bu pula Lüdovik Fukenin qəsrindən də möhtəşəm olan məşhur Versal sarayını tikdirdi. O, bu işə Fukenin qəsrində işləmiş əvvəlki memarları, dekoratorları və bağbanları dəvət etmişdi. Lüdovik Versal sarayında elə bayram şənlikləri təşkil etdi ki, dəbdəbə və gözəlliyinə görə, o, Fukenin öz azadlığı hesabına təşkil etdiyindən də yüksək idi.

Gəlin vəziyyətə nəzər salaq. Fuke Lüdoviki hər sonrakı mənzərəsi əvvəlkindən də gözəl olan bayram səhnələri ilə heyrətləndirdiyi axşam, ona elə gəlirdi ki, bununla krala olan sədaqət və etibarını göstərir. O, nəinki bayramın onu kralın mərhəmətindən məhrum edəcəyini gözləmirdi, hətta elə hesab edirdi ki, öz incə zövqünü, qabiliyyətini, məşhurluğunu nümayiş etdirməsi onu kral üçün əvəzedilməz edəcək və krala qarşısında birinci nazirliyə necə gözəl namizəd olduğunu göstərəcəkdir. Ancaq əslində isə hər bir yeni səhnə, Fukenin qonaqlarının sifətindəki hər bir fərəhli təbəssüm Lüdovikdə öz dostlarının və təbəələrinin kraldan çox, onun sərvətini və hakimiyyətini oğurlamış maliyyə nazirinə heyran olduğu fikrini yaradırdı. Fukenin dəbdəbəli bayramı XIV Lüdovikə zövq vermək əvəzinə onun şəxsiyyətinə toxundu, kral ləyaqətini təhqir etdi. Aydındır ki, Lüdovik həqiqəti heç kimə açmazdı, bunun əvəzində kral istəmədən ona inamsızlığını hiss etdirmiş adamdan yaxa qurtarmaq üçün münasib bəhanə tapdı.

Rəhbərinin inam hisslərini sarsıdan, onun məğrurluğuna toxunan və ya onda üstünlüyünə şübhə yaradan hər bir adamın taleyi bu və ya digər formada belədir.

Bayram başlandıqda Fuke dünyanın zirvəsində idi. Bayramın sonunda isə dünyanın dibində oldu.

Volter, 1694–1778

QANUNA RİAYƏT EDİLMƏSİ

1600-cü illərin əvvəllərində italyan astronomu və riyaziyyatçısı Qaliley qəribə bir vəziyyətə düşmüşdü: elmi tədqiqatlarını davam etdirə bilməsi imkanlı adamların köməyindən asılı idi. Bunun üçün o, intibah dövrünün bütün alimləri kimi, öz ixtiralarını və kəşflərini bəzən qüdrətli himayədarlarına hədiyyə edirdi. Məsələn, bir dəfə ixtira etdiyi hərbi kompası hersoq Qonzaqa hədiyyə olaraq təqdim etmişdi. Sonra o, bu cihazın işləmə qaydasını izah edən kitabı Mediçilər sülaləsinə həsr etdi.

Bu bir tərəfdən hökmdarlar üçün şərəf idi, digər tərəfdən isə, Qaliley onların köməyi ilə daha çox şagird toplaya bilirdi. Edilən kəşfin əhəmiyyətindən asılı olmayaraq, himayədarları alimi, o dövrdə pul vermək qəbul edilmədiyinə görə, hədiyyə-

lərlə mükafatlandırırdılar. Aydındır ki, daim çətinlik şəraitində yaşadığından Qaliley sonra daha asan yol axtarmağı qərara aldı.

Yeni strategiyanı o, 1610-cu ildə Yupiterin peyklərini kəşf etdikdə tətbiq etdi. Əvvəllər etdiyi kimi – öz kəşfini himayədarları arasında bölmək əvəzinə — birinə istifadə üçün teleskop bağışlamaq, başqasına kitab həsr etmək və s. ilə öz səylərini Mediçi üzərində cəmləşdirdi. O, Mediçini bir səbəbə görə seçmişdi: I Kazimo 1540-cı ildə Mediçilər sülaləsinin əsasını qoyduqda, rəmz qismində qədim Allahlardan ən qüdrətlisi Yupiteri seçdi. Yupiter qədim Romada siyasətdən və puldan yüksəkdə duran ilahi hakimiyyət rəmzi idi.

Qaliley kəşf etdiyi Yupiterin peyklərini Mediçilərin böyüklüyünü tərənnüm edən kosmik miqyaslı hadisə kimi təqdim etdi. Kəşfindən dərhal sonra isə, elan etdi ki, onun teleskopu qarşısında parlaq ulduzlar (Yupiterin peykləri) II Kazimonun tacqoyma anında göylərdə peyda olmuşdur. O bildirdi ki, ayların (peyklərin) sayı — dörd — Mediçilər sülaləsinin üzvlərinin sayına uyğundur (II Kazimonun üç qardaşı var idi) və dörd oğul sülalənin banisi I Kazimonun başına yığıldığı kimi, peyklər də Yupiterin ətrafında fırlanırlar. Bu sadəcə üst-üstə düşən təsadüf deyildi. Bu onu göstərirdi ki, göylərin özü də Mediçilər sülaləsinin yüksəlişini bildirir. Bu kəşfi Mediçiyə həsr etdikdən sonra, Qaliley Yupiterin buludlar üstündə dörd ulduzun əhatəsində əyləşmiş şəkildə təsvir edildiyi emblem hazırladı və bu emblemi II Kazimoya onun ulduzlarla əlaqəsinin rəmzi kimi təqdim etdi.

II Kazimo 1610-cu ildə Qalileyi yaxşı məvaciblə rəsmi olaraq özünün saray filosofu və riyaziyyatçısı təyin etdi. Alim üçün bu həyati əhəmiyyətli uğur idi. Onun imkansız adam kimi kömək istədiyi vaxtlar artıq arxada qalmışdı.

İZAHI

Qaliley bir zərbə ilə — özünün yeni strategiyası ilə — bütün kasıbçılıq illərində qazandığından da çox şeyə nail oldu.

Səbəbi sadədir: hakimiyyət başında duranların hamısı başqa adamlardan daha əzəmətli görünmək istəyirlər.

Onların elmlə, təcrübi həqiqətlərlə və ya ən yeni kəşflərlə heç bir işi yoxdur, onlar üçün öz adları və şöhrətləri maraqlıdır. Qaliley Mediçilərin adını kosmik cisimlərlə əlaqələndirərək, onlara əvvəllər hansısa yeni cihaz verməklə və ya kəşfi həsr etməklə, özünə müqayisəyəgəlməz dərəcədə böyük şöhrət qazandırdı.

Saray həyatının qəribəlikləri alimlərdən də yan keçir. Onlar da böyük sərvətə malik olan hakimlərə xidmət etməyə məcbur olurlar. Alimlər himayədarlarına onların yalnız vaxtlı-vaxtında məvacib verməkdən ötrü olduğunu hiss etdirsəydilər, himayədarları özlərini təhqir edilmiş sayardılar. Bu halda, alimin qüdrətli zəkası ona ziyan gətirərdi. Böyük işlər görənlər özlərini bu işlərin yalnız maddi təminatçısı kimi deyil, həm də özlərinin şərəfinə görülmüş işlərdən də vacib hesab etdikləri yaradıcı və parlaq şəxsiyyət kimi görünməyi arzu edirlər. Siz onlara inamsızlıq hissi vermək əvəzinə şöhrət qazandırmalısınız. Qaliley öz kəşfi ilə Mediçinin intellektual qabiliyyətini müqayisə edərək onu hörmətdən salmadı. Məcazi mənada onu ulduzlarla yanaşı qoyaraq, İtaliya hökmdarları arasında daha gözəl parlamasına kömək etdi. O özünü hökmdardan yüksək tutmadı, hökmdarın ucalaraq hamıdan yüksəyə qalxmasına kömək etdi.

HAKİMİYYƏTİN AÇARI

Hər kəsin özünəməxsus xüsusiyyətlər məcmusu vardır. Dünyaya qədəm qoyaraq və öz istedadınızı nümayiş etdirərək siz paxıllıq, qəbul edilməzlik və özünə inamsızlığın digər təzahürləri ilə rastlaşırsınız. Bunlara hazır olmaq lazımdır.

Siz başqalarının hisslərinə güzəştə getməyə çalışaraq yaşaya bilməzsiniz. Ancaq bununla belə, sizdən yüksəkdə durana başqa üsul tətbiq etmək lazımdır: söhbət hakimiyyət haqqında getdikdə özünü səndən yuxarıda olandan yüksək tutmaq, ola bilsin bütün səhvlərin ən kobududur.

XIV Lüdovikin və ya Mediçinin dövrünə nisbətən həyatın çox dəyişdiyini fikirləşərək özünüzü aldatmayın. Kim yuxarı pillədə durursa, indinin özündə də kral və kraliçadır: onlar özlərini öz yerlərində inamlı hiss etmək, ağılda və qabiliyyətdə başqalarından üstün olmaq istəyirlər. Öz istedad və qabiliyyətinizi nümayiş etdirib üzə çıxararaq, rəhbərinizin rəğbətini qazanacağınızı güman etməyiniz kobud, ancaq adi səhvdir. O sizə təşəkkür edə bilər, ancaq ilk imkan düşən kimi, sizi Lüdovikin bacarıqlı Fukeni əvəz etdiyi ortabab Kolberdən ağıllı, qabiliyyətli, cəlbedici olmayan adamla əvəz edəcək. Fukenin başına gələn hadisədə olduğu kimi, rəhbəriniz əsl səbəbi etiraf etməyəcək, sizi özündən kənarlaşdırmaq üçün bəhanə tapacaq.

Bu qanuna yadda saxlanılmalı olan iki qayda daxildir. Birinci qayda: səndən yuxarıda durandan özünü bilməyərəkdən, sadəcə olaraq olduğun kimi qalaraq yüksək tutmamaq. Sizdən yüksəkdə duranlar arasında çoxlu sayda özünə inamsız adamlar vardır. Onlardan elələri də vardır ki, dəhşətli dərəcədə inamsızdır. Siz öz qabiliyyət və cazibədarlığınızla, şəxsi xüsusiyyətlərinizlə onların qarşısında manea ola bilərsiniz.

Faentsi şəhərinin knyazı Astorre Manfredinin qabiliyyətdə tayı-bərabəri yox idi, İtaliyanın gənc knyazlarının ən gözəli olmaqla bərabər səxavətliliyi və səmimiyyəti ilə də hamını heyran qoyurdu. 1500-cü ildə Çezare Borcia Faentsini ələ keçirməyə cəhd etdi. Şəhər mühasirəyə alındı, əhali qəddar, amansız Borciadan ən pis əməlləri gözləyirdi. Ancaq o, şəhər istehkamlarını almaqla kifayətləndi, şəhər sakinlərindən heç kimi edam etmədi, on səkkiz yaşlı knyaz Manfrediyə və onun bütün saray əhlinə toxunmayaraq onlara azadlıq verdi. Ancaq tezliklə

əsgərlər Astorre Manfredini Roma həbsxanasına apardılar. Bir ildən sonra onun meyitini boynuna daş bağlanmış vəziyyətdə Tibr çayından tapdılar. Borcia özünün dəhşətli əməlinə saxta dövlətə xəyanət ittihamı ilə haqq qazandırdı. Ancaq əsl həqiqət onda idi ki, o həddindən artıq şöhrətpərəst və özünə inamsız idi. Gənc knyaz heç bir xırda cəhd etmədən belə ondan yüksəkdə dururdu. Borcia qorxurdu ki, Manfredin parlaq fitri qabiliyyəti qarşısında, o, sönük görünəcək və öz nüfuzunu itirəcək. Buna görə də, gənc knyazın mövcudluğunu özünə təhlükə hesab edirdi. Buradan çıxan nəticə sadədir: əgər siz qabiliyyət və üstünlüyünüzü gizlədə bilmirsinizsə, bu cür şöhrətpərəst qaniçənlərlə rastlaşmaqdan yan qaçın. Əgər bu görüş qaçılmazdırsa, onun yanında öz qabiliyyətinizi göstərməməyə çalışın.

İkinci qayda: elə təsəvvür etməyin ki, əgər rəhbəriniz sizi sevirsə, istədiyinizi sərbəst edə bilərsiniz. Özlərinin əzizlənən vəziyyətlərini yüksək hesab etdiklərinə görə, hökmdarın gözündən düşmüş istəkli adamlar haqqında çox kitab yazmaq olar. XVI əsrdə Yaponiyanın qüdrətli hökmdarı Temoti Xideyoşinin Senno Rikyu adlı istəkli adamı var idi. O dövrdə çox dəbdə olan çay məclisləri düzəldən Rikyu Xideyoşinin ən etibarlı müşavirlərindən biri oldu. Onun sarayda xüsusi mənzili var idi və o, bütün Yaponiyada şöhrət qazanmışdı.

Nə olsun ki? Bütün bunlara baxmayaraq, 1591-ci ildə Xideyoşinin əmri ilə o həbs edilərək ölüm cəzasına məhkum edildi. Rikyu intihar etməyə macal tapdı. Xoşbəxtlik ilahəsi Fortunanın ondan belə kəskin şəkildə üz döndərməsinin səbəbi sonra məlum oldu: keçmişdə kəndli, sonra isə sarayın sevimlisi olan Rikyu özünün hökmdar görkəmində və ayağına səndəl (aristokratiyaya mənsubluq simvolu) geymiş halda təsvir edilmiş ağac heykəlini sifariş verir və gəzinti zamanı, kral ailəsinin bu heykəli görə bilməsi üçün, onu saray həyatında olan ən əsas məbədə qoymağı əmr edir. Xideyoşi üçün bu onu bildirir-

di ki, Rikyuda öz həddini bilmək hissi yoxdur. Rikyu ən ali əsilzadə ilə bərabər hüquqlu olduğunu təsəvvür edərək, öz vəziyyətinin imperatordan asılı olduğunu yaddan çıxarmış və hər şeydə yalnız özünə minnətdar olduğuna inanmışdı. Bu bağışlanmaz dərəcədə özünü yüksək qiymətləndirmə idi və ona həyatı bahasına başa gəldi.

Yadda saxlayın: öz vəziyyətinizi möhkəm hesab edərək, heç vaxt sayıqlığınızı zəiflətməyin və elə hesab etməyin ki, sizə edilən hər hansı mərhəmət göydəndüşmədir.

Öz rəhbərinizin qarşısına çıxmağın təhlükəli olduğunu bilərək, siz bu qanunu öz xeyrinizə işlədə bilərsiniz. Hər şeydən əvvəl, hiyləgərlik etmək və rəhbərin özü haqqında olan fikrini şişirtmək lazımdır. Açıq yaltaqlıq etmək səmərəli ola bilər, ancaq bunun da öz hədləri var. Bu olduqca düz və aydın yoldur, həm də başqa saray adamlarının gözündə pis görünür. Əgər, siz rəhbərinizdən ağıllısınızsa, çalışın bu, tərsinə görünsün. Onun özünü sizdən ağıllı görməsinə imkan yaradın. Sadəlövhlük nümayiş etdirin. Onun təcrübəsinə ehtiyacınız olduğunu göstərin. Sonrakı işlərinizə zərər vurmayan, ancaq kömək üçün ona müraciət etməyə imkan yaradan ziyansız səhvlər edin. Böyüklər belə xahişləri çox sevirlər. Öz təcrübə xəzinəsindən sizə pay vermək imkanından məhrum olan rəhbər, bunun əvəzində sizin üstünüzə öz acıq, kin və qəzəbini tökə bilər.

Əgər siz öz rəhbərinizdən yaradıcı düşünürsünüzsə, öz ideyalarınızı onun adına yazın, özü də mümkün qədər bunu açıq edin. Açıq şəkildə bildirin ki, siz onun məsləhətlərini ifadə edirsiniz.

Əgər siz rəhbərinizi hazırcavablıqda üstələyirsinizsə, saray təlxəyi rolunu oynaya bilərsiniz, ancaq elə etməlisiniz ki, o sizin yanınızda kütbeyin və sadəlövh görünməsin. Öz yumorunuzu mümkün qədər elə ifadə edin, işləri elə yönümünə qoyun ki, rəhbər əyləncənin və şadlığın mənbəyi kimi görünsün. Əgər siz ünsiyyətdə və ya alicənablıqda təbiətən rəhbərinizdən üstünsünüzsə, diqqətlə çalışın ki, onun parıltısını başqalarından gizləyən bulud olmayasınız. O günəş kimi görünməli, güc və əzəmət mənbəyi olmalı, diqqət mərkəzində durmalıdır. Əgər sizə onu şənləndirmək kimi şərəf etibar edilmişdirsə, öz qabiliyyətinizi nümayiş etdirməklə, onun rəğbətini qazana bilərsiniz. Onu öz istedad və qabiliyyətinizlə heyran etməyə çalışdığınız istənilən cəhdiniz faciəli ola bilər. Cəzalandırılmamaq üçün Fukenin nümunəsindən ibrət götürün.

Bütün bu hallarda öz qüvvənizi gizləməyiniz, hakimiyyətə aparan yol olduğuna görə, sizin zəiflik nümayiş etdirdiyinizi göstərmir. Başqalarının sizdən irəli keçməyinə imkan verməklə, siz onların inamsızlığının qurbanı olmaq əvəzinə vəziyyətə nəzarət etməkdə davam edirsiniz. Bütün bunlar sizin daha yüksək pilləyə çıxmaq vaxtının çatdığı gün lazım olacaqdır. Əgər Qaliley kimi, siz hökmdarın hətta başqalarının gözündə parlamasına kömək edə bilsəniz — sadəcə olaraq Allah vergisisiniz və dərhal yüksələcəksiniz.

OBRAZ:

Göy ulduzlarla doludur. Ancaq göydə bir günəş ola bilər. Heç vaxt Günəş şüalarının qarşısını kəsmə və rəhbərin şəfəqləri ilə rəqabətə girmə. Ən yaxşısı saralmaq, üfüqlərə çəkilmək və rəhbərin daha parlaq şəfəq saçması üçün üsullar tapmaq lazımdır.

MÖTƏBƏR FİKİR

Çalış rəhbərdən yüksəkdə dayanma. İstənilən üstünlük çox pisdir. Vassalın knyaz üzərindəki üstünlüyü nəinki axmaqlıqdır, hətta məhvedicidir. Bu göydəki ulduzların bizə verdiyi ibrət dərsinə bənzəyir. Ola bilsin ulduzlar da günəşə bənzəyirlər və onun kimi parlaq işıq saçırlar, ancaq heç vaxt onunla bir yerdə ola bilmirlər.

Baltazar Qratsian. 1601–1658

MEDALIN İÇ ÜZÜ

Rəqabətə girdiyiniz hər bir adamdan qorxmağa ehtiyac yoxdur, vəziyyətə uyğun şəkildə sərt olmaq lazımdır. Əgər rəhbərinizin günəşi qüruba enirsə, ondan yüksəkdə durmaqdan qorxmamaq olar. Mərhəmətli olmayın — rəhbəriniz soyuqqanlıqla zirvəyə çıxarkən, özünə belə xırda şeylərlə əziyyət verməmişdi. Onun qüvvəsini qiymətləndirin. Əgər o zəifdirsə, zirvədən enməsini sürətləndirin: lazım olan vaxt işgüzar keyfiyyətlərdə, cazibədarlıq və ağılda ondan üstün olduğunuzu göstərin. Əgər o çox zəifdirsə və yıxılan vaxtıdırsa, təbiətə imkan verin öz işini başa çatdırsın. Çox zəifləmiş rəhbərinizi sıxışdırmaqla siz amansız və vicdansız görünməyə risq etmiş olarsınız — bunu etməyə dəyməz. Əgər rəhbəriniz hələ ayaq üstə möhkəm dayanırsa və özünüzün ondan qabiliyyətli olduğunuzu yalnız siz bilirsinizsə, səbrli olun və gözləyin. İşlərin təbii gedişi belədir ki, hakimiyyət nəticədə sönükəcək və zəifləyəcək. Rəhbəriniz bir dəfə yıxılacaq və əgər siz oyunu düzgün qursanız, gözəl günlərin birində ona üstün gələrək yüksələcəksiniz.

İKİNCİ QANUN

DOSTLARINA HƏDSİZ DƏRƏCƏDƏ ETİBAR ETMƏ, DÜŞMƏNLƏRİNDƏN İSTİFADƏ ETMƏYİ ÖYRƏN

QANUNUN MƏZMUNU

Dostlarla ehtiyatlı olun — onlar asanlıqla paxıllığa uyduqlarından, daha tez dönük çıxırlar, ərköyün və qəddar adama çevrilirlər. Xidmətə keçmiş düşməninizi çağırın, özünü göstərmək lazım olduğundan, dosta nisbətən işə, o, daha vicdanla yanaşacaq. Əslində siz düşmənlərinizdən çox dostlarınızdan ehtiyat etməlisiniz. Əgər düşməniniz yoxdursa, düşmən qazanmaq üçün yollar düşünün.

QANUNUN POZULMASI

Güclü düşmən qazanmaq istəyirsənsə, dostunu düşmən seç: hara zərbə endirməyi, o daha yaxşı bilir.

Diana de Puatye, 1499 – 1566, Fransa kralı II Henrinin sevimlisi.

IX əsrin ortalarında Bizans imperiyası taxtına gənc imperator III Mixail çıxdı, imperatriça Feodora monastıra sürgün edildi, məşuqu isə öldürüldü. Feodoranı hakimiyyətdən məhrum etmiş və Mixaili taxta oturtmuş sui-qəsdin başında Mixailin dayısı, ağıllı, ehtiyatlı və təkəbbürlü adam olan Bardas dururdu. O vaxt gənc, təcrübəsiz hökmdar olan Mixaili intriqaçılar, qatillər və xəzinəni dağıdanlar əhatəyə almışdılar. O, belə təhlükəli vaxtda məsləhətçi kimi etibarlı bir adama ehtiyac duydu və özünün yaxın dostu Vasilinin üzərində dayandı. Vasilinin nə dövlət işində, nə də siyasətdə heç bir təcrübəsi yox idi. O, mehtərbaşı idi, ancaq öz məhəbbət və ehtiramını dəfələrlə sübut etmişdi.

Hər dəfə vəzifəyə yeni adam təyin edərkən, dünyaya yüzlərlə narazı və bir nankor adam gətirirəm.

XIV Lüdovik, 1638 – 1715.

Onlar bir neçə il əvvəl tanış olmuşdular: Mixail tövləyə baxarkən dəlisov bir at ipini qıraraq onun üstünə cummuşdu. Makedoniyalı kəndli nəslindən olan sadə gənc mehtər Vasili Mixailin həyatını xilas etdi. Gəncin gücü və cəsarəti Mixailin ürəyini fəth etdi və o, dərhal gənc mehtəri böyüdərək mehtərbaşı qoydu. Mixail öz dostuna hədiyyə verməkdə və hörmət göstərməkdə xəsislik etmirdi, onlar tezliklə yaxın dostlara çevrildilər. Vasilini Bizansın ən yaxşı məktəbində oxumağa göndərdilər və sadə kəndli mədəni və ziyalı saray adamına çevrildi.

Mixail imperator olduqda sədaqətli dosta ehtiyac duydu. Sarayın işlər müdiri və baş müşaviri vəzifəsini hər şeydə ona borclu olan bu gəncdən başqa kimə etibar edə bilərdi?

Mixail Vasilini qardaş kimi sevirdi və belə hesab edirdi ki, ona yeni vəzifəsini öyrətmək asan olacaq. Bu vəzifəyə daha təcrübəli və savadlı Bardası məsləhət bilənlərin sözlərinə məhəl qoymayaraq, Mixail öz dostunu seçdi.

Vasili yeni işini yaxşı öyrəndi və tezliklə imperatora bütün dövlət işlərində məsləhətlər verirdi. Onun yeganə problemi pul sarıdan idi — Vasilinin həmişə pulu çatmırdı. Bizans sarayının dəbdəbəsi ilə ayaqlaşmağa can atması onu pul hərisi etmişdi. Mixail onun məvacibini iki dəfə, sonra isə üç dəfə artırdı. Daha sonra ona zadəganlıq rütbəsi verdi və öz sevimlisi Yevdoksiya İngerina ilə evləndirdi. Sədaqətli dostu və yaxşı məsləhətçini əldə saxlamaq üçün heç bir qiymət elə də yüksək görünmürdü. Ancaq xoşagəlməz hadisələr yavaş-yavaş başlayırdı.

Bardas baş komandan vəzifəsini tuturdu. Vasili Mixaili inandırdı ki, onun iddiaları həddən artıq böyükdür. Bacısı oğlunun hərəkətlərinə nəzarət edəcəyinə ümid bəsləyərək, Bardas sui-qəsdin köməyi ilə ona taxta çıxmağa kömək etmişdi. Deməli, ondan bu dəfə Mixaili devirmək və hakimiyyəti ələ keçirmək məqsədi ilə yeni sui-qəsd gözləmək olar. Vasili imperator Mi-

Özümə gəldikdə isə, mən bir dəfə hədsiz dərəcədə sevdiyim və sevgisinə heç kimin sevgisinə inanmadığım qədər inandığım adam tərəfindən aldanılmışam. Buna görə də, belə hesab edirəm ki, kimisə başqalarından artıq sevmək və qiymətləndirmək, əməlinə və ləyaqətinə görə ona xidmət etmək olar, ancaq adamı yoldan çıxaran dostluq tələsinə düşəcəyin dərəcədə etibar etmək lazım deyil ki, sonra özün ora düşməyəsən.

Baldassarre Kastilone, 1478–1529.

İLAN, KƏNDLİ VƏ VAĞ

Ovçuların qovduqları ilan kəndlidən onun həyatını xilas etməsini xahiş etdi. Kəndli ilanı xilas etmək üçün çömbələrək ilanın qarnına girməsinə imkan verdi. Təhlükə sovuşduqdan sonra kəndli ilandan çölə çıxmasını xahiş etdikdə, o etiraz etdi. İçəri isti və təhlükəsiz idi. Kəndli evə qayıdarkən yolda vağ gördü. O, nə baş verdiyini pıçıltı ilə ona başa saldı. Vağ ilanı çıxartmaq üçün ona oturmağı və qusmağı tapşırdı. Kəndli onun dediyi kimi etdi. İlanın başı kəndlinin ağzında görün-

xailin qulağını, o, Bardasın qətlinə razı olana qədər doldurdu. Böyük at yarışı vaxtı Vasilinin adamları Bardası kütlə içərisində araya aldılar və kürəyinə vurulan zərbə ilə öldürdülər. Vasili ölkədəki vəziyyətə tezliklə nəzarət etmək və qiyamları yatıra bilmək üçün həlak olmuş Bardasın yerinə orduya komandan təyin edilməsini xahiş etdi. Xahiş yerinə yetirildi.

Həmin vaxtdan başlayaraq, Vasilinin hakimiyyəti və sərvəti heç bir maneə olmadan artmağa başladı. Bir neçə ildən sonra, israfçılığı üzündən çətin maliyyə vəziyyətinə düşən Mixail uzun illər ərzində borc kimi verdiyi pulun bir hissəsini Vasilidən qaytarmağı xahiş etdi. Mixail tamamilə saf qəlblə verdiyi pulları Vasilinin qaytarmaqdan imtina etdiyini eşitdikdə, sadəcə olaraq mat qaldı. İmperator yalnız indi başa düşdü ki, vaxtilə tövlədə mehtər olan bu adamın pulu, orduda və senatda nüfuzu, nəticə etibarilə hakimiyyəti, onunkundan artıqdır. Daha bir neçə həftə ötdü və eyşişrətli bir gecədən sonra, sərxoşluqdan ayılan Mixail əsgərlərlə əhatə edildiyini gördü. Vasili onların imperatoru necə öldürdüklərini müşahidə edirdi. Sonra o, özünü imperator elan etdi və qurtaracağındakı uca yerə onun keçmiş himayədarının və yaxın dostunun başı qoyulmuş Bizansın mərkəzi küçəsi ilə at belində təkəbbürlə keçdi.

İZAHI

III Mixail Vasilinin ona bəslədiyi minnətdarlıq hissinə bel bağlayırdı. Əlbəttə, o, hər şeydə — sərvətinə, təhsilinə, mövqeyinə görə imperatora borclu olduğu üçün ona sədaqət və düzlüklə xidmət etməli idi. Hakimiyyətdə yüksələn Vasili ehtiyacı olduğu hər şeyi əldə edirdi və bu, dostluq əlaqələrini möhkəmləndirirdi. İmperator öz səhvini çox gec — Vasilinin sifətində istehzalı təbəssümü gördüyü o faciəli gecədə başa düşdü.

O, dəhşətli bir iş gördü. Arzuladığı hər şeyi əldə etməyə vərdiş etmiş və getdikcə daha çox şeyə nail olmaq istəyən adamı yaxşılıqla öz yanına çəkərək, ona hakimiyyətin nə olduğunu daha yaxından hiss etməyə imkan verdi. Bu adam isə, sadəcə olaraq öz vəziyyətində olanların çoxunun edəcəkləri işi gördü: belə adamlar başqalarının özlərinə qarşı xeyirxah münasibətlərini yaddan çıxarır və elə təsəvvür edirlər ki, qazandıqları uğurlara özləri müstəqil nail olurlar.

Mixail işlərin əsl mahiyyətini dərk etdiyi vaxt öz həyatını xilas edə bilərdi, ancaq dostluq və məhəbbət adamın gözünü tutur. Dostun dönük çıxa biləcəyinə heç kim inanmaq istəmir. Başının kəsilib zirvəyə qoyulduğu günə qədər Mixail aldanmaqda davam etdi.

dükdə, vağ onu dimdiyi ilə tutdu və bütünlüklə dartıb çıxararaq öldürdü. Kəndli qorxurdu ki, daxilində ilan zəhəri qalar. Vağ ona dedi ki, ilan zəhərindən altı ağ quşu bişirib yeməklə müalicə olunmaq mümkündür. Kəndli qışqırdı: "Sən ağ quşsan, elə səndən başlayıram!". O, vağı tutub kisəyə saldı və evə gətirdi. Evdə onu çıxararaq başına gələnləri arvadına danışdı. Kəndlinin arvadı dedi: "Sən məni təəccübləndirirsən, quş xeyirxahlıq edərək səni müsibətdən qurtarıb, sən isə onu tutursan və öldürüb yeməklə hədələyirsən". O, dərhal vağı azad etdi və quş uçub getdi.

Ancaq əvvəlcə dimdiyi ilə qadının gözlərini çıxardı.

İBRƏTLİ NƏTİCƏ

Əgər görsən ki, su təpə boyunca altdan yuxarı qalxır, deməli, kimsə xeyirxahlığa xeyirxahlıqla cavab vermişdir.

Afrika xalq nağılı.

İlahi, sən məni dostlarımdan qoru, düşmənlərimlə özüm bacararam.

Volter.

QANUNA RİAYƏT EDİLMƏSİ

Çin tarixində Xan sülaləsinin süqutundan (222-ci il) bir çox əsrlər keçdikdən sonra amansız və qanlı çevrilişlər adət halını almışdı. Ordunun komandanları zəif imperatoru öldürmək üçün razılığa gəlir və onu yeni imperator sülaləsinin əsasını qoyan güclü sərkərdə ilə əvəz edirdilər. Öz təhlükəsizliyini təmin etmək üçün imperatora, özünə yaxın bir sıra hərbçiləri qətlə yetirmək lazım gəlirdi. Ancaq bir neçə ildən sonra bu hal yenidən təkrar olunurdu: yeni sərkərdələr öz növbəsində sui-qəsd təşkil edir, onu və nəslini qətlə yetirirdilər. Çində imperator olmaq saysız-hesabsız düşmən əhatəsində tənha insan – öz dövlətində ən az qüdrətli və ən zəif sima demək idi.

956-cı ildə general Çjao Kuan-in imperator Sun oldu (Sun sülalənin adıdır). O bilirdi ki, bir neçə ilə öldürüləcək. Mövcud qaydanı necə aradan qaldırmaq olar? Çjao imperator olduqdan sonra yeni sülalənin şərəfinə ziyafət təşkil etdi və ora ən qüdrətli sərkərdələri dəvət etdi. Çoxlu şərab içildikdən sonra, o, hərbçilərdən başqa, qalan bütün qonaqları və keşikçiləri qovdu.

Hərbçilər öldürüləcəklərindən qorxdular. Ancaq bunun əvəzində imperator onlara müraciət etdi: "Mən bütün günü qorxu içərisində keçirirəm, ziyafət məni sevindirmir, gecə-gündüz rahatlığım yoxdur. Ona görə ki, sizdən taxta çıxmağı arzu etməyən varmı? Mən sizin sədaqətinizi şübhə altına almıram, ancaq sizin tabeliyinizdə olub hakimiyyətə və sərvətə can atanlar imperatorun sarı xalatını geyməyə sizi zor gücünə məcbur etsələr, siz necə imtina edə bilərsiniz?". Sərxoş olmuş sərkərdələr öz canlarının qorxusundan əmin etdilər ki, heç bir şeydə təqsirləri yoxdur və indiki hakimiyyətə vicdanla yanaşırlar. Ancaq imperator Sun başqa cür düşünürdü: "Həyatda dincliklə yaşayıb zövq almaqdan, sərvət və şan-şöhrətdən yaxşı nə ola bilər? Əgər siz tutduğunuz vəzifədən imtina etməyə razı olsanız, mən sizə gözəl mülklər və möhtəşəm saraylar verməyə hazıram. Siz orada musiqi məclislərində gözəl qızların əhatəsində həyatdan ləzzət alacaqsınız".

Heyrətə düşən sərkərdələr başa düşdülər ki, bütünlüklə həyəcan və mübarizələrlə dolu həyat əvəzinə, imperator Sun onlara sərvət və təhlükəsizlik təklif edir. Ertəsi gün onların hamısı istefa verdilər və ləyaqətlə imperatorun bağışladığı mülklərə çəkildilər.

Çjao bir zərbə ilə, ona dönük çıxacaq "xeyirxah" canavar sürüsünü, hakimiyyətdən uzaq olan itaətkar quzu sürüsünə çevirdi.

Ancaq çoxları belə hesab edir ki, müdrik hökmdar, şərait imkan verdikdə, özünə süni düşmənlər qazanmalı, onlara qalib gələrək daha əzəmətli görünməlidir. Hökmdarların çoxu, xüsusən taxta yeni çıxanlar zaman keçdikcə yəqin edirlər ki, onlar üçün ən sadiq və faydalı adamlar — əvvəllər etibar etmədikləri adamlardır. Siyenanın hökmdarı Pandolfo Petruççi öz dövlətini əvvəllər hamıdan çox şübhə etdiyi adamlara arxalanaraq idarə edirdi.

Nikkolo Makiavelli, 1469 – 1527

Vedanın (hindlilərin qədim dini) böyük xadimi, keçmişdə yaxşı yay-ox atıcısı olmuş brəhmən şah taxt-tacının sahibi köhnə dostu ilə rastlaşır. Şahı görən brəhmən qışqırır: "Etiraf et ki, mən sənin dostunam!". Şah onu nifrətlə süzdükdən sonra deyir: "Bəli, biz əvvəllər dost olmuşduq, ancaq bizim dostluğumuz malik olduğumuz hakimiyyətə əsaslanırdı... Əziz brəhmən, mən səninlə ona görə dostluq edirdim ki, bu mənim məqsədimə çatmağım üçün lazım idi. Kasıb dövlətlinin, axmaq ağıllının, qorxaq cəsarətlinin dostu

İmperator sonrakı illər ərzində də hakimiyyətinin təhlükəsizliyini təmin etmək işlərini davam etdirdi. 971-ci ildə cənub əyaləti Haneydən olan knyaz Lyu çoxillik qiyam və üsyanlardan sonra təslim oldu.

Knyaz Lyunun təəccübünə rəğmən imperator ona sarayda vəzifə verərək yeni dostluq münasibətlərini şərabla bərkitmək üçün imkan yaratdı. İmperator Sunun ona təqdim etdiyi badəni qəbul edən Lyu, onda zəhər olduğundan ehtiyat edərək, içməyə tərəddüd etdi və dedi: "Sizin qulunuz etdiyi cinayətlərə görə, şübhəsiz, ölümə layiqdir. Buna baxmayaraq, əlahəzrətdən mənə həyat bəxş etməyi yalvarıram. Görürsünüz, mən bu şərabı içməyə cəsarət etmirəm". İmperator Sun gülümsədi və Lyunun əlindən badəni alaraq şərabı başına çəkdi. Həmin vaxtdan Lyu onun ən sədaqətli və həqiqi dostuna çevrildi.

O dövrdə Çin çoxsaylı kiçik knyazlıqlara parçalanmışdı. Onlardan biri olan Şen Tszu məğlubiyyətə uğradıqdan sonra, nazirlər imperator Suna məsləhət bildilər ki, qiyamçını zindana salsın. Onlar knyazın imperatora hələ də sui-qəsd hazırlamaq niyyətində olduğunu sübut edən sənədlər təqdim etdilər.

Ancaq Şen Tszu saraya gələrkən, imperator onu böyük hörmətlə qarşıladı. O keçmiş knyaza bağlama verdi və onu geri qayıdarkən, yolda açmağı tapşırdı. Yolda Şen Tszu bağlamanı açaraq, onu sui-qəsddə ifşa edən sənədləri gördü. O başa düşdü ki,

ola bilməz. Köhnə dost — bu kimə lazımdır? Var-dövlətinə və yaşına görə bir-birinə uyğun gələn iki adam dostluq və ya nikaha girmək barədə əhd-peyman bağlaya bilər, ancaq varlı ilə kasıb yox... Köhnə dost — o kimə lazımdır?"

Mahabharata, e.ə. III əsr.

imperator Sun onun sui-qəsd planından xəbərdardır və buna baxmayaraq, onu cəzalandırmadı. Bu alicənablıq Şen Tsyunu tərksilah etdi və nəticədə o, imperator Sunun ən sədaqətli vassallarından biri oldu.

İZAHI

Çin atalar məsəli dostları güclü cəngi və iti dişləri olan təhlükəli heyvanla müqayisə edir — əgər ehtiyatlı olmasan, onlar səni tutub gəmirərlər. İmperator Sun taxta çıxdığı vaxtdan bu təhlükə ona tanış idi: ordudan olan "dostları" onu bir tikə ət kimi udardılar, sağ qaldığı halda isə, hökumətdə olan "dostları" onu axşam yeməyi olaraq yeyərdilər. İmperator Sun "dostları" üzərində gücünü sınamadı. O, generallardan onlara gözəl mülklər verməklə canını qurtardı və onları özündən uzaqlaşdırdı. Bu başqa hərbçilərdə yalnız intiqam hissi oyadan qətlə yetirmək üsulundan çox-çox müdrik vasitə idi. Bundan sonra, imperator nazirlər arasında olan "dostlarından" yaxa qurtarmaq üçün böyük zəhmət çəkmədi. Onların çoxu imperatorun əlindən zəhərli şərab dolu badə alaraq həyatlarını başa vurdular.

Arını xeyirxahlıqla əlinə götür və onda başa düşəcəksən ki, xeyirxahlıq necə pis qurtarır.

Sufilərin atalar sözü.

İmperator Sun dostlarına arxalanmaq əvəzinə, bir-birinin ardınca düşmənlərini və rəqiblərini ən etibarlı müttəfiqlərə çevirdi. Bu vaxt qəlblərini qısqanclıq hissləri çulğalamış dostlar yeni-yeni mükafatlar gözləyirdilər, keçmiş düşmənlər isə heç nə

Xeyirxahlıq artıq yük, intiqam isə ləzzət olduğundan insanlar xeyirxahlıqdan daha çox bədxahlığın əvəzini böyük həvəslə qaytarırlar.

Tatsit, 55-120.

gözləmədikləri halda hər şey əldə etdilər. Cəlladdan canını qurtarmış adamlar əsl minnətdarlıq duyğuları bəsləyir və öz xilaskarı naminə dünyanın o başına getməyə hazır olurdular. Zaman keçdikcə, imperatorun keçmiş düşmənləri tədricən sadiq dostlara çevrildilər. Nəticədə o, çevrilişlərin, zorakılıq və vətəndaş müharibələrinin dəhşətli zolağını məhv etməyə müvəffəq oldu. Sun sülaləsi Çini üç yüz ildən artıq idarə etdi.

Vətəndaş müharibəsinin qızğın vaxtında Avraam Linkoln çıxış edərkən, cənubluları səhvə yol vermiş həmdəmlər kimi, insani varlıqlar kimi qiymətləndirdi. Qoca bir qadın məhv edilməli düşmənləri belə yüksək qiymətləndirdiyi üçün prezidenti məzəmmətlədi. Linkoln ona cavab verərək dedi: "Xanım, bir düşünün, mən düşmənlərimi özümə dost etməklə, məgər onları məhv etmirəmmi?".

HAKİMİYYƏTİN AÇARI

Lazım olanda dostların köməyindən istifadəyə cəhd etmək təbiidir. Dünya sərt xasiyyətlidir və sizin dostlarınız çox vaxt bu sərtliyi yumşaldır. Bundan başqa, siz onları tanıyırsınız. Yanında dostun ola-ola, nə üçün yada arxalanasan?

Bəla ondadır ki, çox vaxt siz öz dostlarınızı təsəvvür etdiyiniz qədər yaxşı tanımırsınız. Dostlar sadəcə olaraq mübahisə olmasın deyə, çox vaxt sizinlə razılaşırlar. Onlar özlərinin nəzəri cəlb etməyən xüsusiyyətlərini ciddi şəkildə ört-basdır edir, bir-birinin zarafatlarına ucadan gülürlər. Düzgünlük dostluğun möhkəmlənməsinə kömək etmədiyindən, siz dostunuzun həqiqi hisslərini elə beləcə də bilməyəcəksiniz. Dostlarınız deyəcəklər ki, sizin şeriniz onların xoşuna gəlir, musiqinizdən vəcdə gəlirlər, geyim zövqünüzə yaxşı mənada həsəd aparırlar — ola bilsin, bunlar doğrudur, ancaq çox vaxt yox.

Əgər siz dostunuza müəyyən iş gördürməyi qərara alırsınızsa, onun indiyə kimi sizdən gizlətdiyi keyfiyyətlərini tədricən aşkar edəcəksiniz. Qəribə olsa da, sizin xeyirxah hərəkətiniz münasibətləri pozacaq. Adamlara uğurlarını özlərinin qazandıqlarını fikirləşmək xoş gəlir. Gerçəklik məyusluq və kədər yarada bilər: məlum olur ki, siz uğuru xidmətinizə görə deyil, dostluğunuza görə qazanmısınız. İnciklik tədricən üzə çıxır: sözlərinizdəki azacıq aşkarlıq narazılıq və paxıllığı alovlandırır, gözlərinizi açıb-yummağa macal tapmamış, dostluğunuzun sona çatdığını görürsünüz. Dostluğu bərpa etmək üçün nə qədər çox hədiyyə versəniz və xeyirxahlıq göstərsəniz, bir o qədər az minnətdarlıq qazanacaqsınız.

Nankorluğun uzun və qədim tarixi vardır. O, öz gücünü uzun əsrlər boyu nüma-

DÜŞMƏNLƏRİMİZİN XEYRİ HAQQINDA

Çar Giyeron öz düşmənlərindən biri ilə söhbət edərkən, düşməni onun nəfəsinin üfunətli olduğunu ən ləyaqətsiz ifadələrlə izhar etdi. Xeyirxah çar həyəcanlanmış halda evə gələrək arvadını danladı: "Necə olub ki, sən bu barədə indiyə kimi mənə heç nə deməmisən?". Sadə, ağıllı və ismətli çariça dedi: "Əlahəzrət, mən fikirləşirdim ki, bütün kişi-

lərin nəfəsi belədir". Beləliklə, biz açıq görünən və hamıya məlum olan qüsurlarımızı dostlarımızdan və ya yaxınlarımızdan daha tez düşmənlərimizdən öyrənirik.

Plutarx, 45 –127-ci illərə yaxın.

yiş etdirdiyindən, adamların onu lazımi qədər qiymətləndirməməkdə davam etməsi sadəcə olaraq təəccüblüdür. Ən yaxşısı sayıq olmaqdır. Əgər siz dostlarınızdan minnətdarlıq gözləmirsinizsə, onların öz ehtiramlarını səmimi şəkildə ifadə etməsi sizin üçün xoş sürpriz olacaq.

Dostlarınızdan istifadə etməkdə və ya işə dəvət etməkdə çətinlik ondan ibarətdir ki, bu sizin hakimiyyətinizi labüd olaraq məhdudlaşdırır. Dost sizə hamıdan yaxşı kömək edəcək nadir adamdır; nəhayət, bilik və bacarıq dostluq hisslərindən çox-çox vacibdir (III Mixailə dönük çıxmayacaq və onu məhv etməyəcək adam çənəsinin altında dayanmışdı: bu adam Bardas idi).

Bütün işgüzar vəziyyətlər adamlar arasında müəyyən məsafənin gözlənilməsini tələb edir. Siz dostluq etməyə deyil, işləməyə cəhd edirsiniz: dostluq münasibətləri (həqiqi və ya saxta) bu fakta yalnız kölgə salır. Beləliklə, hakimiyyətin açarı, istənilən şəraitdə, sizin işlərinizin irəli getməsinə ən yaxşı kimin kömək edə biləcəyini mühakimə edə bilmək qabiliyyətinizdən ibarətdir. Dostlarınızla dostluq edin, lakin peşəkar və bacarıqlı adamlarla işləyin.

Sizin düşmənləriniz — istifadə edilməmiş qızıl mədənidir, siz onlardan istifadə etməyi öyrənməlisiniz. Napoleonun xarici işlər naziri Taleyran 1807-ci ildə yəqin etdi ki, hökmdar Fransanı iflasa aparır, zaman isə onun əleyhinə işləyir. O, həm də

imperatorun əleyhinə olan sui-qəsdin bütün təhlükəsini başa düşürdü; ona həmkar, həmfikir lazım idi — bu işdə o, dostlarından kimə etibar edə bilərdi?

Taleyran gizli polisin başçısı, özünün qatı düşməni, hətta onun qətlini təşkil etməyə cəhd etmiş Jozef Fuşenin üzərində dayandı. O başa düşürdü ki, onların bir-birinə olan keçmiş nifrəti emosional barışıq üçün zəmin yarada bilər. O qabaqcadan görürdü ki, Fuşe ondan heç nə gözləmədən, Taleyranın onu seçməkdə səhv etmədiyini sübut etmək üçün işləyəcək; nəyisə sübut etmək istəyən adam sizin üçün dağı dağ üstə qoyar. Nəhayət, o bilirdi ki, onun Fuşe ilə münasibətləri qarşılıqlı marağa əsaslanacaq və şəxsi hisslərlə korlanmayacaq. Sui-qəsdçilər Napaleonu taxtdan sala bilməsələr də, bu cür qüdrətli və gözlənilməz həmkarların ittifaqı mövcud şəraitdə çox vacib bir nəticəyə gətirib çıxardı: imperatora qarşı müxalifət yavaş-yavaş genişlənməyə başladı. Taleyran və Fuşe məhsuldar, işgüzar ittifaq yaratdılar.

İstənilən imkandan istifadə edərək düşmənlə sülh yaratmağa çalışın və onu özünüzə xidmətə cəlb etməyə vasitə tapın.

Linkolnun dediyi kimi, siz düşməni dosta çevirərək onu məhv edirsiniz. 1971-ci ildə Vyetnamla müharibə vaxtı Henri Kissinceri oğurlamaq üçün edilən cəhd uğursuzluqla nəticələndi. Sui-qəsdçilər sırasına, başqaları ilə yanaşı, məşhur müharibə əleyhdarları fəalları da daxil idi: ruhani Berriqan qardaşları, daha dörd ruhani və dörd rahibə. Kissincer fərdi qaydada, məxfi xidmətə məlumat vermədən onlardan üçünü şənbə günü səhər görüşə dəvət etdi. O, qonaqlara Amerika əsgərlərinin əksəriyyətinin 1972-ci ilin ortalarına Vyetnamdan çıxarılacağını bildirdi və bu, onları xeyli təəccübləndirdi. Qonaqları ona "Kissinceri oğurlayaq" nişanı verdilər, biri isə onunla uzun müddət dostluq etdi. Bu, təsadüfi hadisə deyildi: Kissincer ümumiyyətlə, onunla razılaşmayanlarla işləməyə çalışırdı. Onun əməkdaşlarının dediyinə görə, bəzən adama elə gəlirdi ki, o, öz düşmənləri ilə dostlarından daha yaxşı dil tapır.

Əgər ətrafımızda düşmən yoxdursa, tənbəlləşə bilərik. Bizi addımbaaddım izləyən düşmən ağlımızı itiləyir, sayıq, diqqətli olmağımıza kömək edir. Buna görə, düşməni dost və ya müttəfiq etməyə cəhd etməyərək, onu düşmənliyində saxlamaq lazımdır.

Mao Tzse-Dun münaqişəli vəziyyətlərə özünün hakimiyyəti fəth etməyinin əsası kimi baxırdı. 1937-ci ildə yaponların Çinə soxulması, Çində Maonun kommunistləri ilə onların düşmənləri olan millətçilər arasında gedən vətəndaş müharibəsini dayandırdı.

Kommunist liderlərin bir hissəsi qorxurdu ki, yaponlar onları məhv edərlər. Odur ki, millətçilərə işğalçılarla mübarizə aparmağı təklif etdilər, özləri isə bu vaxtdan qüvvə toplamaq üçün istifadə etmək istəyirdilər. Mao yaponların qalib gəlmələri və uzun müddətə Çini işğal etmələri ilə razılaşmırdı. O, hesab edirdi ki, kommunistlər mübarizə aparmayacaqları illərdə "pas atar", zəifləyər, onda millətçilərlə mübarizə üçün yenidən özünü toplamaq olduqca çətin olar. Yaponlar kimi bacarıqlı düşmənlərlə vuruşmaq isə, kommunistlərin təlim görməmiş və qarışıq tərkibli ordusu üçün gözəl məşq olardı. Maonun planı qəbul edildi və özünü doğrultdu: yaponlar ölkədən qovulana qədər kommunistlər döyüşlərdə təcrübə topladılar və bu təcrübə millətçilərə qalib gəlməyə kömək etdi.

Uzun illər keçdikdən sonra Çinə gəlmiş yaponiyalı qonaq onun ölkəsinin Çinə hücumuna görə Maodan üzr istəməyə cəhd etdi. Mao onun sözünü kəsərək dedi: "Ondansa buna görə mən sizə təşəkkür etməliyəm". O izah etdi ki, layiqli düşməni olmayan insan və ya kollektiv güclü ola bilməz.

Maonun strategiyası — münaqişələr strategiyası bir neçə əsas komponentdən ibarətdir. Birinci — qələbəyə doğru gedən uzun yolda ona inam. Əgər öz qələbənizə inanmırsınızsa, heç vaxt kimləsə mübarizəyə başlamayın. Necə ki, Mao yaponların tez-gec məğlub olacağına inanırdı. İkinci — əgər sizin açıq düşməniniz yoxdursa, bəzən hətta dostunuzu da düşmənə çevirməli olsanız belə, əlverişli hədəf seçməyiniz lazımdır. Mao siyasətdə həmişə bu taktikanı tətbiq edirdi. Üçüncü — elə düşmənlərdən istifadə edin ki, onunla mübarizəni xeyirlə şərin mübarizəsi kimi təsvir edərək, öz məqsədlərinizi ictimaiyyətə yaxşı izah edə biləsiniz. Mao, əslində Çinin SSRİ və ABŞ ilə olan fikir ayrılıqlarını qızışdırırdı. O belə hesab edirdi ki, konkret düşmən obrazı olmadan, onun xalqı Çin kommunistləri haqqında təsəvvürlərini itirər. Aydın göstərilmiş düşmən, sizin dəstəklənməyiniz üçün istənilən sözdən çox-çox güclü arqumentdir.

Heç vaxt imkan verməyin ki, düşmənləriniz sizi özünüzdən çıxarsın. Bir-iki aşkar düşməninizin olması — düşməniniz varmı və varsa kimlərdir fikirləri içərisində itib-batmaqdan çox-çox yaxşıdır. Hakimiyyət adamı, düşmənlərdən istənilən vaxt arxalana biləcəyi möhkəm döyüşçü nüfuzunun möhkəmlənməsi üçün istifadə edərək, münaqişələri alqışlayır.

OBRAZ:

NANKORLUQ CƏNGİ

Barmağınızı şirin cənginə saldıqda nə baş verəcəyini bilərək, bunu etməməyə çalışın. Hiylə gözləmədiyiniz dostu işə götürsəniz, əgər o nankordursa, sizi sümüklərinizə qədər yeyəcəkdir.

MÖTƏBƏR FİKİR

"Düşməndən öz xeyriniz üçün necə istifadə etməyi bacarın. Qılıncı necə tutmağı öyrənin: onun iti ucundan tutsanız əlinizi kəsəcək, qəbzəsindən tutsanız özünüzü müdafiə etməyə kömək edəcək. Müdrik adam öz düşmənlərindən axmaq adamın öz dostlarından götürdüyündən çox fayda götürür".

Baltazar Qratsian.

MEDALIN İÇ ÜZÜ

Qayda üzrə, ən yaxşısı, dostluğu xidmət ilə qarışdırmamaqdır. Belə halda dost düşməndən faydalı olur. Hakimiyyət adamına, tez-tez çirkin işləri icra etmək lazım gəlir, ancaq öz imicini saxlamaq naminə bu işlərin başqalarının əli ilə yerinə yetirilməsi yaxşı olardı. Dostlar bunu çox vaxt, başqalarının edə bilmədiyindən daha yaxşı edirlər, çünki tutduqları mövqe onları var qüvvə ilə işləməyə məcbur edir. Başqa misal: əgər hansısa səbəb üzündən hər şey sizin fikirləşdiyiniz kimi getmirsə, dostunuzu gözümçıxdıya salın. Sevimli adamla belə rəftar kralların və hökmdarların xoşladıqları üsul idi: onlar öz səhvlərinə görə sarayda xidmət edən yaxın dostlarını təqsirləndirirdilər. Heç kimin ağlına da gəlməzdi ki, bu məqsəd naminə dostu qurban vermək olar. Əlbəttə, belə üsulla, siz dostunuzdan həmişəlik məhrum olursunuz. Ona görə də, "qurbanlıq" adamı ən yaxın ətrafınızdan deyil, bir qədər kənardan götürün.

Nəhayət, dostlarla birgə işləmək xidmət sahəsində zəruri olan sərhəd və tabeliyin (subordinasiyanın) aradan götürülməsinə gətirib çıxardır. Ancaq hər iki həmkar bu təhlükəni başa düşür və nəzərə alırsa, dostdan böyük fayda ilə, olduqca səmərəli istifadə etmək olar. Ancaq bu vaxt sayıqlığı itirmək lazım deyil: həmişə ehtiyatlı olun, həyəcanlı siqnalları — emosional qanqaraçılığı, paxıllığı, nankorluğu yaxına buraxmayın. Hakimiyyət aləmində möhkəm heç nə yoxdur, hətta ən yaxşı dost da qatı düşmənə çevrilə bilər.

ÜÇÜNCÜ QANUN

ÖZ NİYYƏTİNİ GİZLİ SAXLA

QANUNUN MƏZMUNU

Öz hərəkətlərinizin əsl mahiyyətini heç vaxt açmadan, adamları anlaşılmazlıq içərisində, dayanıqsız tarazlıq vəziyyətində saxlayın. Onlar nə etmək istədiyinizi bilmədiklərindən öz müdafiələrini təmin etməyi bacarmayacaqlar. Onları yanlış izlə uzağa aparın, hər şeyi dumana qarışdırın, məqsədlərinizi başa düşəcəkləri vaxt isə gec olacaqdır.

I HİSSƏ. ADAMLARI ÖZ İZİNDƏN AZDIRMAQ ÜÇÜN TƏLƏ YEMİNDƏN VƏ DİQQƏTİ YAYINDIRAN HƏRƏKƏTLƏRDƏN İSTİFADƏ ET

Siz adamları aldatdıqda, onlarda hansısa bir səbəbə görə azacıq da olsa şübhə yaranarsa, onda hər şey məhv olar. Onlara azacıq da olsa nəyə meyl etdiyinizi duymağa imkan verməyin, izləri dolaşdırın, istiqamət göstəricilərini yanlış yola yönəldin, saxta səmimiyyət göstərməkdən qorxmayın, çoxmənalı fikirlər söyləyin, izi azdıran tələ yemi qoyun. Həqiqəti saxtadan fərqləndirmək halında olmayanlar sizin əslində hansı məqsəd güddüyünüzü başa düşə bilməyəcəklər.

QANUNUN POZULMASI

XVII əsr fransız kurtizankası (yüksək zümrəyə mənsub yüngül əxlaqlı, macəraçı qadın), bədnam şöhrət qazanmış Ninon de Lanklo bir neçə ay ərzində markiz de Sevininin gözəl, ancaq ramedilməz gənc qrafinya haqqında söhbətlərini səbrlə dinləyirdi. Həmin vaxt altmış iki yaşı tamam olmuş Ninon iyirmi iki yaşlı yaraşıqlı, çalışqan, ancaq heç bir romantik təcrübəsi olmayan markizdən fərqli olaraq, məhəbbət məsələlərində heç kimin malik olmadığı qədər təcrübəli idi. İlk vaxtlar markizin söhbətlərində etdiyi səhvlər Ninonu əyləndirirdi, ancaq nəhayət bunlar onu bezdirdi. Heç nədə, xüsusən də, qadınların ürəyini fəth etməkdə ağılsızlığa və bacarıqsızlığa dözməyən Ninon gənci öz himayəsinə götürməyi qərara aldı. Hər şeydən əvvəl, markiz başa düşməli idi ki, müharibə başlayır və gözəl qrafinya möhkəm qaladan başqa bir şey deyildir, onun müqavimətini qırmaq üçün hərbi hiyləgərlik tələb olunur. Hər bir addımı təfərrüatına və incəliklərinə qədər maksimum diqqətlə planlaşdırmaq və həyata keçirmək lazımdır.

Hərbi əməliyyatların başlanmasını markizlə müzakirə edən Ninon ona məsləhət gördü ki, qrafinyaya yaxın olarkən, etinasız görkəm almalıdır. Kurtizanka öyrətdi ki, sonrakı dəfə qrafinya ilə təklikdə qalarkən, markiz onu inandırsın ki, onun qızğın pərəstişkarı deyil, yalnız dostudur. Bu, qrafinyanın sayıqlığını zəiflətmək üçün tələb olunurdu. Qrafinyaya elə gələcək ki, markizi yalnız onunla dostluq maraqlandırır.

Ninon planın növbəti mərhələsini işləyib hazırladı. Qrafinyanı çaşdırmaq və qısqanmağa məcbur etmək lazım idi. Növbəti dəfə, Parisdəki böyük bayramda markiz gözəl, gənc bir qızla birlikdə iştirak etməliydi. Ninonun gözəllikdə qrafinyadan heç də geri qalmayan rəfiqələri var idi. Belə ki, bundan sonra qrafinya markizi Parisin ən gözəl qızlarının əhatəsində görməli olacaqdı. Qrafinyada təkcə qısqanclıq hissləri baş qaldırmayacaqdı, o həm də markizi başqa şəkildə, başqası üçün arzuolunan kişi obrazında görəcəkdi. Markizi, bunu başa düşməyə məcbur etmək üçün Ninon çox zəhmət çəkdi. O, səbrlə təkrar edirdi ki, hər hansı kişi ilə maraqlanan qadın başqa qadınların da onunla maraqlanmasını görmək istəyir. Bu təkcə dərhal onun qiymətini qaldırmır, həm də onu ram edərək, ələ keçirmək prosesini daha maraqlı edir və böyük zövq verir.

Qrafinya qısqanclığa və qeyri-müəyyənlikdə əzab çəkməyə başladıqda, diqqəti yayındıran manevr etmək vaxtı çatacaq. Ninonun göstərişlərinə əməl edən markiz qrafinyanın onunla rastlaşacağını gözlədiyi balları və müsamirələri buraxmağa başladı, ancaq əvəzində gözlənilmədən əvvəllər olmadığı, qrafinyanın tez-tez getdiyi salonlarda görünməyə başladı. Qoy o markizin nə edəcəyini qabaqcadan görə bilməsin. Bütün bunlar onda ruhi iztirablar yaradacaq — bu da təslim olmağın əlamətidir.

Əvvəlcə hər şey plan üzrə gedirdi və bu, bir neçə həftə belə davam etdi. Ninon markizin uğurlarını izləyirdi: o, öz casusları vasitəsilə öyrəndi ki, qrafinya onun incə zarafatlarına daha

möhkəm gülür, onun söhbətlərinə daha diqqətlə qulaq asır. Dostları danışırdı ki, qrafinya markizi addımbaaddım izləyərək ballarda axtarır. Ninon inanırdı ki, gənc qadın onun sehrinə düşüb. İndi hər şey bir neçə həftəyə, ola bilsin, bir-iki aya həll ediləcəkdi. Bütün işlər plan üzrə gedirdi və qala təslim olmaq üzrə idi.

Bir neçə gün keçdikdən sonra markiz qrafinyanın görüşünə gedir. Onlar ikilikdə qalırlar. Birdən markiz tamamilə dəyişir: Ninonun öyrətdiklərini unudaraq, bu dəfə o, öz hisslərinə aldanaraq, qrafinyanın əlindən tutur və onu sevdiyini etiraf edir. Qadın pərt olur — o, başqa reaksiya gözləyirdi. Qrafinya soyuq mehribanlıq göstərir, görüşün davamında isə, ona heç baxmaq istəmirdi. Çox keçmədən üzr istəyərək, onunla xudahafizləşib gedir. Hər dəfə markiz görüşə gəldikdə, ona qrafinyanın evdə olmadığını bildirirlər. Nəhayət, o, yenidən görüşməyə razılıq verir, ancaq hər ikisi bu görüşdən sıxılır və ümumi dil tapa bilmirdilər. Sehrin təsiri artıq qurtarmışdı.

İZAHI

Ninon de Lankloya məhəbbət sənəti barədə hər şey məlum idi. Dövrün böyük yazıçıları, mütəfəkkirləri, siyasətçiləri onun məşuqları sırasında idilər — təkcə Laroşfuko, Molyer və Rişelyenin adlarını çəkmək kifayətdir. Onun yaşı artdıqca və şöhrəti yayıldıqca, Fransanın ən yaxşı ailələri öz oğlanlarını məhəbbət elmini öyrənmək üçün onun yanına göndərirdilər.

Ninon bilirdi ki, kişilər və qadınlar bir-birlərinə bənzəmədikləri halda da, onların yoldan çıxarılaraq məftun edilmək cəhdlərinə münasibətləri, adətən eyni cürdür: onlar qəlblərinin dərinliklərində hiss edirlər ki, başdan çıxarılırlar, lakin özlərinin idarə edilmələrindən xoşhal olaraq güzəştə gedirlər. Yüyəni buraxmaq, özünü boş buraxmaq, başqa adamın səni əsrarəngiz dünyaya aparmasına imkan vermək — özü zövq almaqdır. Hər kəs öz fikrini üstüörtülü saxlamaqla, məftun etmə bacarığındadır. Öz niyyətini açmaq, onları birbaşa sözlə ifadə etmək olmaz. Bunun əvəzinə, öz qurbanlarınızı izdən azdırmalısınız. İtaətkarlıqla ardınızca gəlmələri üçün onları həyəcanlandırmaq və çaşdırmaq lazımdır. Siz yalan siqnallar verməlisiniz: özünüzü elə göstərməlisiniz ki, sizi başqa kişi və ya qadın (aldadıcı hədəf) maraqlandırır, qurbanınıza olan marağınızı gizlətmək, ona qarşı etinasızlıq göstərmək lazımdır və s.

Bu əhvalatı gənc qrafinyanın mövqeyindən təsəvvür edək: markizin etdiyi bir neçə gedişdən sonra o, hiss etdi ki, markiz hansısa oyun oynayır, ancaq bu oyun onu başdan çıxarmışdı. O, markizin onu nəyə cəlb etdiyini bilmirdi, ancaq hər şeyə hazır idi. Markizin hərəkətləri onu maraqlandırır, onun hər bir addımından sonra nə baş verəcəyini ehtimal etməyə məcbur edirdi. O, hətta özünün qısqanclığından və çaşqınlıqda olmasından zövq alırdı. Axı, bəzən sevgi hissləri bizə darıxdırıcı rahatlıqdan qiymətlidir. Qrafinya, əlbəttə, markizin gizli niyyətlərini başa düşə bilərdi. Belə niyyət kişilərin əksəriyyətinə xas olan xüsusiyyətdir. Ancaq o, gözləmək və müşahidə etmək istəyirdi və ola bilsin, əgər markiz intizar anını kifayət qədər çox müddətə uzada bilsəydi, qrafinya üçün rəfiqinin əslində kim olması elə də vacib olmazdı.

Ancaq markiz faciəvi "sevirəm" sözünü deməyə qərar verdiyi andan hər şey dəyişdi. Artıq oyunlar və sirlər yox idi, yalnız ehtirasların açıq nümayişi mövcud idi. Onun niyyətinin üstü açılmışdı: o, qrafinyanı həqiqətən başdan çıxarmaq istəyir. Onun indiyə kimi maraq doğuran, hətta sehrə salan hərəkətləri indi başqa rəngdə — iyrənc və həyasız görünürdü. Qrafinya aldadıldığını hiss etdi, onu iztirab və düşkünlük hissləri çulğaladı. Qapı bir daha heç vaxt açılmamaq üçün bağlandı.

Hətta bu gün yalançı olmadan yaşamaq mümkün olmasa belə, bu cür ad çıxarmamağa çalış. Sənin ən böyük hiyləgərliyin öz hiyləni gizləməkdən ibarət olmalıdır.

Baltazar Qratsian.

QANUNA RİAYƏT EDİLMƏSİ

1850-ci ildə Prussiya parlamentinin otuz beş yaşlı deputatı, gənc Otto fon Bismark öz karyerasının həlledici dönüş nöqtəsində idi. Gündəlikdə Almaniyanın parçalandığı bir neçə dövlətin (Prussiya daxil olmaqla) birləşməsi və birləşəcəyi halda, hücum etməklə hədələyən qüdrətli cənub qonşusu Avstriya ilə müharibə dururdu. Prussiya taxt-tacının vəliəhdi hersoq Vilhelm müharibənin lehinə çıxış etdi, parlament də ordunu səfərbərlik üçün hazırlamağa hazır idi. Yalnız güclü Avstriya ilə münasibətləri kəskinləşdirmək istəməyən kral IV Fridrix Vilhelm və onun nazirləri bunun əleyhinə çıxdılar.

Bismark özünün bütün karyerası ərzində güclü və qüdrətli Prussiya ideyasını sədaqətlə, hətta ehtirasla müdafiə edirdi. O, Almaniyanın birləşməsini, Avstriya ilə müharibəni arzulayır, ölkənin düşdüyü vəziyyət, Almaniyanın uzun müddət parçalanmış halda qalması barədə düşünürdü. Keçmiş əsgər kimi o, hərbi kampaniyaya şöhrətə aparan qələbə yürüşü kimi baxırdı.

Nəhayət, bu o adam idi ki, bir çox illər keçdikdən sonra deyəcəkdi: "Zamanın başlıca məsələləri çıxışlar və qətnamələrlə deyil, dəmir və qanla həll ediləcəkdir".

Coşğun vətənpərvər, hərbi qüdrətin tərəfdarı olan Bismark parlamentdə hərbi ehtirasların coşduğu ən qızğın vaxtda çıxış etdi. Bu çıxış çoxlarını heyrətləndirdi. O dedi: "Heç bir səbəb olmadan müharibəyə başlayan dövlət xadimləri bədbəxtdirlər. Səbəbsiz müharibə hətta müharibə qurtardıqdan sonra da gündəlikdə duran vacib məsələ kimi qalacaqdır. Müharibədən

sonra siz bir çox problemlərə başqa cür baxacaqsınız. Yanıb külə dönmüş yurdlarında yas tutan şikəstlərin, oğullarını itirən valideynlərin gözlərinə baxmağa həmin vaxt cəsarətiniz çatacaqmı?".

Bismark təkcə müharibənin dəhşətlərini təsvir etməkdə davam etmirdi, xüsusən ən qəribəsi o idi ki, Avstriyanı tərifləyir və onun hərəkətlərini müdafiə edirdi. Bütün bunlar onun əvvəlki fikirlərinin hamısı ilə daban-dabana zidd idi. Bu çıxışın nəticəsini gözləməyə çox vaxt lazım gəlmədi. Bismark müharibənin əleyhinə idi — bu nəyi ifadə edə bilərdi? Bir çox deputatlar çaşqınlıq içində idilər, onların çoxu səsvermə vaxtı öz fikirlərini dəyişdilər. Nəticədə kral və onun nazirləri qalib gəldilər, müharibənin qarşısını almaq mümkün oldu.

Bismarkın həmin bədnam çıxışından bir neçə həftə sonra, sülhü müdafiə etdiyinə görə minnətdar olan kral onu nazir təyin etdi. Bir neçə ildən sonra Bismark Prussiyanın baş naziri oldu. Bu vəzifədə o, nəhayət, öz ölkəsini və sülhsevər kralı Avstriya ilə müharibəyə qaldırdı, qüdrətli Avstriya imperiyasını dağıtdı və Prussiyanın hökmran rol oynadığı güclü Almaniya dövlətçiliyinin əsasını qoydu.

İZAHI

Bismark 1850-ci ildə çıxışa hazırlaşarkən vəziyyəti ətraflı və hərtərəfli ölçüb-biçmişdi. Birincisi, o başa düşürdü ki, Prussiyanın hərbçiləri müharibə əhval-ruhiyyəsində olsalar da, hərbi nöqteyi-nəzərdən Prussiya başqa Avropa ölkələrindən çox geri qalırdı; qələbə üçün Avstriyanın bütün imkanları vardır, bu isə faciəyə gətirib çıxarardı. İkincisi, əgər müharibə məğlubiyyətlə başa çatsaydı, onun lehinə çıxış etmiş Bismarkın siyasətçi kimi karyerası birdəfəlik məhv olardı. Kral və onun mühafizəkar nazirləri sülh, Bismark isə hakimiyyət istəyirdi. Bu məsələni həll etmək üçün o, əvvəl müdafiə etdiyi fikrin əleyhinə çıxaraq, hamını yolundan sapdırdı. Əgər Bis-

mark bu sözləri başqasının dilindən eşitsəydi, istehza edərdi. İndi isə özü bütün ölkəni aldatmağa müvəffəq olmuşdu. Çıxışına görə kral onu nazir təyin etdi. Bu mövqedən o, tezliklə baş nazir vəzifəsinə yüksəldi, qüvvə topladı, Prussiyanın hərbi potensialını gücləndirdi və nəhayət, can atdığı işi yerinə yetirdi: Avstriya məğlub edildi, bütün Almaniya, lideri Prussiya olan vahid dövlət şəklində birləşdi.

Şübhəsiz, Bismark, öz dövrünün çox ağıllı dövlət xadimi, strategiyaçısı və fəndgirlik ustası idi. Bu halda, heç kim onun əsl məqsədini bilmirdi. Bismark özünün əsl niyyətini elan edərək bildirsəydi ki, ən yaxşısı indi gözləməkdir və müharibəni gec başlamaq lazımdır, onda o, səsvermədə qalib gələ bilməzdi. Belə ki, Prussiya dərhal müharibəyə başlamaq arzusunda olduğundan, Avstriya üzərində qələbə çalmaq qüdrətində olmasını düşünərək yanlışlığa yol verirdi. O, kralın qılığına girərək, sülh siyasətini müdafiə etməsinin əvəzində nazir portfeli almağa cəhd etsəydi, burada da uğur qazana bilməzdi: kral onun ambisiyalarını başa düşərək, səmimiyyətinə şübhə edərdi.

Tamamilə qeyri-səmimi hərəkət edib, yalan işarələr verərək, o, hamını çaşdırdı, özünün əsl arzularını pərdələdi və istədiklərinin hamısına nail oldu. Öz istədiklərini bu cür gizlətmək bacarığı, onu hakimiyyətə gətirdi.

HAKİMİYYƏTİN AÇARI

Adamların əksəriyyəti açıq kitaba bənzəyir. Onlar hiss etdiklərini danışır, imkan düşən hər bir halda öz fikirlərini açıqlayır, özlərinin plan və məqsədləri barədə həmişə məlumat verirlər. Onlar bunu bir çox səbəb üzündən edirlər. Birincisi, həmişə öz hissləri və gələcək planları barədə danışmaq insanın təbiətindədir. Öz dilini saxlamaq və dediklərinə nəzarət etmək üçün səy göstərmək lazımdır. İkincisi, çoxları inanırlar ki, düzlük və səmimiyyətlə onlar ürəkləri fəth edir və

özlərinin yaxşı məramlı olduqlarını nümayiş etdirirlər. Bu, böyük səhvdir. Düzlük, əslində, kəsdiyindən çox xıncım-xıncım edərək əzən küt alətdir, düzlüklə insanları tez incik salmaq olar; hiss etdiyiniz və ya düşündüyünüz kobud və iyrənc həqiqəti demək əvəzinə, insanlara, onların eşitmək istədiyi sözləri demək daha ağlabatan olardı. Ehtiyatsız səmimiyyət, açıqlıq ona gətirib çıxarır ki, sizin əvvəlcədən hansı hərəkəti edəcəyiniz, hansı sözü deyəcəyiniz bəlli olur və siz artıq başqalarında nə qorxu, nə də hörmət yaradırsınız. Bu cür hisslərə malik adamlara isə hakimiyyət nəsib olmur.

Əgər siz hakimiyyət işlərini öyrənirsinizsə, səmimiyyəti dərhal bir kənara qoyun və öz niyyətlərinizi gizlətmək məharətini təlim etməyə başlayın. Buna yiyələnməklə, mövqeyinizi həmişə əldə saxlaya biləcəksiniz. Öz niyyətini gizlədə bilməyin mümkünlüyünü insan təbiətinin sadə xüsusiyyəti ilə izah etmək olar: bizim ilk instinktiv xüsusiyyətimiz, həmişə, görünən şeyə inanmaqdır. Biz reallıqda gördüklərimizə və eşitdiklərimizə şübhə etməklə yaşaya bilmərik – görünən şeyin arxasında məlum olmayan başqa bir şeyin gizlənməsinə dair daima fikirləşməyimiz bizi gücdən salar və qorxudardı. Elə bu da, fikir və məqsədlərimizi bir-birimizdən qismən gizləməyə kömək edir. Sadəcə olaraq, siz adamlara arzuladığınız şeylərin əvəzinə başqasını göstərsəniz, əsl niyyətiniz əvəzinə, guya çatmaq istədiyiniz məqsədinizi bildirsəniz — hamı bunların reallığına inanacaq. Əgər göz tələ yeminə zillənibsə, onlar sizin əslində can atdığınız şeyi nəzərdən qaçıracaq. Şirnikləndirərək, həvəslə və laqeydliklə ziddiyyətli siqnallar verin, — onda siz hamını yalnız çaşdırmayacaqsınız, həm də adamlarda öz arxınızca getmək həvəsi oyadacaqsınız.

Əslində sizin həqiqi niyyətlərinizlə ziddiyyət təşkil edən ideyanı və ya mövqeyi müdafiə edərək, diqqəti yayındıran manevrləriniz çox vaxt səmərəli olur (Bismark 1850-ci ildə bu gedişdən böyük müvəffəqiyyətlə istifadə etdi). Əqidə və mənəvi dəyərlilərlə oynamaq insanlara qeyri-adi göründüyündən

əksəriyyət Sizin daxilən dəyişdiyinizə inanacaq. Bunlar istənilən yalançı obyektə də tətbiq edilə bilər: elə təəssürat yaradın ki, əslində ən çox arzuladığınız şey, sizin üçün tamamilə maraqsızdır — onda düşmənləriniz öz planlarında çoxlu səhvlərə yol verərək, yanlış istiqamətlə gedəcəklər.

İspaniyanın mirası uğrunda 1711-ci ildə aparılan müharibədə ingilis ordusunun baş komandanı hersoq Malboro Fransanın əsas həyati əhəmiyyətə malik arteriyalarını — yollarını müdafiə edən başlıca istehkamını darmadağın etmək istəyirdi. Bununla bərabər, ona aydın idi ki, əgər istehkam dağıdılsa, onun başlıca məqsədi — əsas yolu tutmaq istəyi fransızlara məlum olacaq. Buna görə də, o, yalnız istehkamı tutdu və istehkamın ona hansısa məqsədlər üçün lazım olduğunu nəzərə çarpdırmaq üçün öz qoşunlarının bir hissəsini orada yerləşdirdi. Fransız qoşunları istehkama hücum etdi və hersoq onlara limanı yenidən tutmaq üçün imkan verdi. Fransızlar limanı ələ keçirən kimi, yenidən hersoqa qismət olmasın deyə, onu özləri dağıtdılar. Onların fikrincə, istehkam ingilislərə hansısa məqsəd üçün lazım idi.

İstehkam dağıdıldığından, bütün yollar açıq qaldı və Malboro heç bir maneə olmadan bütün Fransadan keçib getdi. Bu təcrübədən aşağıdakı kimi də istifadə etmək olar: öz məqsədlərinizi gizlətmədən ört-basdır edin (bunda sirr saxlayan kimi görünmək, inamsızlıq və şübhə yaratmaq təhlükəsi var). Öz plan və məqsədləriniz barədə daim boşboğazlıq edin. Yalnız əsl fikirləriniz barədə danışmayın. Belə olduqda, siz bir güllə ilə üç dovşan vurmuş olursunuz: gülərüz, səmimi, açıq, etibara layiq adam kimi görünürsünüz, öz məqsədlərinizi gizlədirsiniz və rəqiblərinizi həyata keçməsi mümkün olmayan və çox vaxt aparan məqsədə yönəldirsiniz.

Adamları yanlış istiqamətə göndərməyə kömək edən daha bir güclü vasitə yalançı səmimiyyətdir. Adamlar çox asanlıqla səmimiyyəti düzlük əvəzinə qəbul edirlər. Unutmayın ki, adamların ilk meyl etdiyi şey zahiri cəhətə inanmaqdır. Onlar

düzlüyü qiymətləndirdiklərindən və ətrafdakılarının düzlüyünə inanmaq istədiklərindən, sizdən şübhələnmələri və ya sizə barmaqarası baxmaları mümkün olan şey deyil. Əgər siz dediklərinizə inandığınızı eyhamla bildirsəniz, bu, sözlərinizin çəkisini daha da artırar.

Yaqo Otellonu məhz bu cür aldadaraq məhv etdi: Yaqo onun hisslərinin güclü olduğunu, Dezdemonanın ehtimal edilən sədaqətsizliyinə səmimi narahatçılığını görürdü, belə olan halda Otello ona necə inanmaya bilərdi? Dahi fırıldaq ustası Sarı Uşaq ləqəbli Veyl sadəlövhləri məhz belə çaşdırırdı: müştərilərə təklif edilən saxta obyektlərin (saxta səhmlər, cıdırdan alınmış at) həqiqiliyinə o elə möhkəm inam ifadə edirdi ki, onun düzlüyünə şübhə etmək çətin olurdu. Əlbəttə, çox da dərinə getmək lazım deyil. Səmimilik — çox çətindir: həddindən artıq coşğunluqla, ifrata varmaqla şübhə yaratmaq olar. Hisslərinizin həddini bilin, inamlı, doğruçu olmağa çalışın, əks halda, sizin əslində yalan olan hiyləniz, elə yalan kimi görünəcək.

Əsl niyyətlərinizi gizlətməyə kömək edən yalançı səmimiyyəti səmərəli silaha çevirmək üçün düzlüyə və aşkarlığa inamı cəmiyyətin vacib dəyərliləri kimi qoruyun. Açıq çıxışlar edin. Vaxtaşırı təsirli fikirlər — aydındır ki, mənasız və ya işə aidiyyəti olmayan — söyləyərək, bu məsələ barədə öz mövqeyinizi ifadə edin. Napoleonun xarici işlər naziri Taleyran hamıya məlum olan hər hansı sirri adamlara bildirməklə, onların etibarını qazanmışdı. Belə işgüzar etibar — tələ yemi — sonra başqa şəxslərin əsl etibarını qazanmağa kömək etdi.

Yadınızda saxlayın: əsl yalançılar özlərinin fırıldaqçı mahiyyətlərini gizlətmək üçün mümkün olan hər şeyi edirlər. Bu, düz adamların nəzərində yalan hərəkətləri gizlətmək üçün yaxşı təəssürat yaradır. Düzgünlük — fırıldaqçıların geniş fırıldaq cəbbəxanasının yalnız bir fəndidir.

II HİSSƏ. ÖZ NİYYƏTİNİ GİZLƏTMƏK ÜÇÜN DUMAN QATINDAN İSTİFADƏ ET

Hiyləgərlik — həmişə yaxşı strategiyadır, ancaq adamları öz həqiqi məqsədlərindən yayındırmağa kömək etmək duman qatı tələb edir. Hüsn-rəğbət oyadan xarici görünüş, poker oyunçusunun anlaşılmaz sifəti kimi, çox vaxt niyyəti gizləyən yaxşı "ekran" rolunu oynayır. Əgər sadəlövhü adət edilmiş yolla aparsan, o aldadılaraq tələyə tərəf necə aparıldığını heç hiss etməyəcək.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

1910-cu ildə çikaqolu cənab Sem Cizil özünün anbarlarını təxminən bir milyon dollara satdı. O, yarımtəqaüdçü vəziyyətinə düşərək, özünün mülklərini idarə etməyə başladı, ancaq qəlbinin dərinliklərində ciddi biznes işi ilə məşğul olduğu ötən günlər üçün darıxırdı. Bir dəfə onun yanına Cizilin satışa qoyduğu mənzili almaq istəyən Cozef Veyl adlı cavan bir oğlan gəldi. Cizil izah etdi ki, mənzilin qiyməti 8 min dollardır, ancaq yalnız 2 min dollar girov qoyulmasını istəyir.

Veyl səhərisi gün cavab verəcəyini bildirdi. Ertəsi gün o, cavab təklifi ilə gəldi:

İsrail çarı İuy Vaal bütünə pərəstiş edənlərə hiylə gəlir

İuy bütün xalqı bir yerə yığdı və onlara dedi: Vaal bütünə Axav az xidmət edib. Ancaq mən çox xidmət edəcəyəm. Buna görə, Vaalın bütün peyğəmbərlərini, xadimlərini və ruhanilərini mənim yanıma çağırın, bir nəfər də qalmasın; çünki mən Vaala böyük qurban verəcəyəm. Əgər kimsə gəlməsə, sağ qalmayacaq. İuy Vaala pərəstiş edənlərin hamısını qırmaq üçün hiyləgərlik edirdi. İuy sonra dedi: Vaalın şərəfinə bayram yığıncağı təşkil edin. Bayram yığıncağı elan edildi. İuy bütün İsrailə xə

əgər Cizil Veylin müqavilə bağlamağa hazırlaşdığı bir neçə günü gözləyə bilsə, o, 8 min dolları bütünlüklə nağd ödəyər. Cizil biznes işindən, demək olar ki, uzaqlaşsa da, hələ də daxilən biznesmen olaraq qalırdı və Veylin bu qədər pulu belə qısa müddət ərzində haradan nağd tapacağını başa düşə bilmirdi (bu məbləğ indiki 150 min dollara bərabər idi). Elə görünürdü ki, Veyl cavab vermək istəmir və buna görə tez mövzunu dəyişdi, ancaq Cizil təkid etdi. Nəhayət, Veyl Cizildən hər şeyin sirr olaraq qalacağı vədini aldıqdan sonra aşağıdakı əhvalatı danışdı.

Veylin dayısı multimilyonçu maliyyəçilərin dərnəyində katib işləyirdi. Bu varlı centlmenlər on il bundan əvvəl Miçiqanda aşağı qiymətə üzərində ovçu evi olan mülk almışdılar. Alınmasından keçən bir neçə il ərzində istifadə edilmədiyindən, onu satmaq qərarına gəlmişdilər; bu işlə məşğul olmaq Veylin dayısına tapşırılmışdı. Onun dayısının bir sıra səbəblər, özü də əsaslı səbəblər üzündən, milyonçuları görməyə gözü yox idi və onlara kin bəsləyirdi; indi əvəz çıxmaq üçün onun əlinə yaxşı imkan düşmüşdü. O, bu mülkü 35 min dollara satmaq istəyirdi (bu adamı isə Veyl tapmalı idi). Maliyyəçilər çox varlı olduqlarından, mülkün belə aşağı qiymətə satılmasına əhəmiyyət verməzdilər. Yalançı alıcı, sonra bu mülkü, həqiqi qiymətinə — 155 min dollara sata bilərdi. Dayısı, Veyl və üçüncü adam (yalançı alıcı) qiymətdəki

bər göndərdi. Vaalın bütün pərəstişkarları yığılıb gəldilər, bir nəfər də olsun qalmadı. Gələnlər Vaalın evinə toplandılar. Ev ağzına qədər adamla doldu. İuy da Vaalın evinə daxil oldu və Vaala pərəstiş edənlərə dedi: öyrənib görün, sizin aranızda Allaha ibadət edən kimsə varmı? Burada yalnız Vaala pərəstiş edənlər olmalıdır. Bundan sonra İuyun adamları evə od vuraraq oradakıların hamısını yandırmağa və qırmağa başladılar. İuy evin ətrafına səksən adam düzdü və onlara dedi: Sizin ixtiyarınıza verdiyim adamlardan biri kiminsə təqsiri üzündən qaçsa,

onun əvəzinə həmin adam öldürüləcək. Evdəkilərin hamısı yandırıldıqdan sonra İuy öz adamlarına dedi: Vaalın qalan başçılarını və xadimlərini də qırın, elə edin, biri də qalmasın. İuyun adamları Vaalın qalan başçılarını və xadimlərini də qılıncdan keçirdilər. Sonra Vaalın məbədinə gedib oradakı bütləri yandırdılar. Vaal bütünü də sındırdılar və məbədini dağıtdılar. Onun yerini zibilxanaya çevirdilər, bura indiyə kimi zibilxanadır. Beləliklə, İuy Vaalı İsrail torpağından sildi.

"Tövrat", Dördüncü kitab, Çarlıq: 10-28.

fərqi öz aralarında bölə bilərdilər. Hər şey açıq-aşkar edilirdi və belə hərəkət etmək üçün səbəb də var idi — Veylin dayısı yalnız özünə qarşı olan ədalətsizliyin əvəzini çıxmaq istəyirdi.

Cizil bütün bunları dinlədikdən sonra yalançı alıcı olmaq istədi. Veyl onun təklifinə maraq göstərmədi, ancaq Cizil əl çəkmədi: böyük qazanc əldə etmək və əsəblərini bir qədər qıcıqlandırmaq ideyası onu bir an içində çulğaladı. Veyl izah etdi ki, bu alış-verişi həyata keçirmək üçün o, 35 min dollar nağd pul verməlidir. Milyonçu Cizil cavab verdi ki, bu, onun üçün barmaqları ilə çırtma vurmaqdan da asandır. Nəhayət, Veyl Cizillə dayısının və İllinoys ştatının Geylsburq şəhərindən olan maliyyəçilərin görüşünü təşkil etməyə razılaşdı. Geylsburqa gedən qatarda Cizil Veylin dayısı ilə tanış oldu. O, Cizildə xoş təəssürat yaratdı və onlar sövdələşmənin bütün təfərrüatını müzakirə etdilər. Veyl özü ilə dostu, möhkəm bədənli, qarnı bir qədər irəli çıxmış Corc Qrossu da gətirmişdi. Veyl Cizilə danışdı ki, o özü ixtisasca boks məşqçisidir, Qross isə onun ən perspektivli boksçularından biridir. Məsul boks yarışından əvvəl Qrossun idman formasını saxlamaq üçün onu özü ilə götürməyi qərara almışdı. Qrossun zahiri görkəmi böyük ümidlər verən idmançılara məxsus forma ilə qəribə təzad təşkil edirdi: saçları çallaşmış, qarnı irəli çıxmışdı. Ancaq Cizil qar-

şıdakı sövdələşməyə o qədər aludə olmuşdu ki, boksçunun qeyri-idmançı görkəminə fikir vermədi.

Geylsburqa çatan kimi Veyl Cizili Qrossla mehmanxanada qoyub dayısı ilə maliyyəçilərin görüşünə getdi. Qross dərhal boksçu kostyumunu geydi. Cizil Qrossun öz kölgəsi ilə məşq döyüşünə gözaltı baxırdı. O, başqa şeylər barədə fikirləşdiyindən bir neçə dəqiqə məşq edən boksçunun təngnəfəs olduğuna fikir vermədi; doğrudur, onun bokslaşma stili tamamilə boksa uyğun idi. Bir saatdan sonra Veyl, dayısı və maliyyəçilər — bahalı kostyumlar geymiş mötəbər adamlar gəldilər. Görüş uğurla keçdi, maliyyəçilər mülkü artıq yerli banka 35 min dollar keçirmiş Cizilə satmağa razılaşdılar.

Bu xırda işlər qurtardıqdan sonra maliyyəçilər kürəklərini əyləşdikləri stulun arxasına söykəyərək, böyük biznes işini müzakirə etməyə başladılar. Onlar sözarası C.P.Morqanın adını yaxın adam kimi çəkirdilər. Nəhayət, onlardan biri bir tərəfdə sakitcə oturmuş boksçuya diqqət yetirdi. Veyl onun nə üçün burada olduğunu izah etdi. Maliyyəçi onun da ətrafında öz boksçusu olduğunu deyərək onu çağırdı. Veyl gülərək dedi ki, Qross onu asanlıqla əzişdirər. Söhbət mübahisəyə keçdi. Ehtiraslar coşdu, Veyl mərc gəlməyi təklif etdi. Maliyyəçilər təklifi həvəslə qəbul etdilər və öz idmançılarını döyüşə hazırlaşdırmaq üçün getməyə tələsdilər.

Gündüz günorta çağı okeanda üzüb gözdən itmək

Bu, nəhayət adi, tanış görkəm alan örtük yaratmağı bildirir. Bu strategiya sahibinə imkan verir ki, hamının gözü qarşısında bütünlüklə aydın və adi olan mənzərə açıldığından, onun arxasında gizlənərək nəzəri cəlb etmədən hərəkət etsin.

Tomas Kliri "Yapon hərb sənətinin 36 strategiyası".

Onlar qapıdan çıxan kimi Veylin dayısı Cizilin burada olmasından çəkinməyərək, onun üstünə atıldı: mərc gəlmək üçün onların kifayət qədər pulları yoxdur, maliyyəçilər bunu bilən kimi onu işdən çıxaracaqlar. Veyl dayısını xoşagəlməz işə cəlb etdiyinə görə üzr istədi. Ancaq onun planı var idi: o, ikinci boksçunu yaxşı tanıyırdı və elə hesab edirdi ki, o, az bir məbləğə məğlub olmağa razılaşar. Bəs bunu etmək üçün pulu haradan götürməli? — deyə Veylin dayısı sakit olmurdu. Pul olmasa, hesab et ki, hər şey məhv olub. Elə bu vaxt Cizil məsələyə müdaxilə etdi. Boş bir şey üstündə sövdələşməsinin pozulmaması üçün özünün 35 min dollarını təklif etdi. Hətta o, bu pulu uduzsaydı belə, ziyana düşməyəcəkdi. Aldığı mülkü satıb pulların əvəzini qaytaracaqdı. Dayı və bacıoğlu necə təşəkkür edəcəklərini bilmədilər. Onların özlərinin 15 min dolları və Cizilin 35 min dolları mərc gəlmək üçün tam kifayət edirdi. Axşam mehmanxananın həmin nömrəsində iki boksçunun məşq döyüşünü müşahidə edən Cizilin fikri iki işgüzar işdən — boks oyunundan və mülkün satılmasından əldə edəcəyi böyük məbləğdə qazancın yanında idi.

Döyüş səhərisi gün idman zalında oldu. Veyl etibarlı qorunması üçün nağd pulları seyfə qoydu. Hər şey mehmanxana nömrəsində tərtib edilmiş plan üzrə gedirdi. Maliyyəçilər öz idmançılarının pis oyununu görərək, qaşqabaqlarını sallamışdılar. Cizil isə artıq öz uduş payını hesablayırdı. Birdən maliyyəçilərin boksçusu gözlənilmədən Qrossun sifətinə zərbə endirdi, o yıxıldı, azacıq qalxdıqda hamı onun ağzından qan fışqırdığını gördü. O öskürdü, ayağa durmağa cəhd etdi, ancaq döşəməyə sərilərək quruyub qaldı. Keçmişdə həkim olmuş maliyyəçilərdən biri onun nəbzini əlinə aldı: Qross ölmüşdü. Milyonçular çaxnaşmaya düşdülər: polis gəlməmiş aradan çıxmaq lazım idi — iştirakçılar qətldə təqsirləndirilə bilərdilər.

Cizil dəhşət içində yerindən sıçrayıb zaldan çıxdı və 35 min dolları qoyaraq, tələsik Çikaqoya yola düşdü. O, qətl işinə cəlb edilməməyinə görə bu pulu o qədər də böyük qiymət hesab etmirdi. O, Veyllə, yaxud sövdələşmənin digər iştirakçıları ilə görüşməyə sonralar da cəhd etmədi.

Cizil qaçdıqdan sonra Qross heç bir kənar kömək olmadan döşəmədən qalxdı. Fəvvarə vuran qan onun ağzında gizlədilmiş və içərisinə isti su ilə qarışdırılan toyuq qanı doldurulmuş torbacıqdan çıxırdı. Bütün bu fırıldağı ABŞ-da daha çox Sarı Uşaq ləqəbi ilə məşhur olan, bütün dövrlərin ən istedadlı fırıldaqçılarından biri sayılan Veyl hazırlamışdı. Veyl 35 min dolları maliyyəçilər və boksçular (onlar da fırıldaqçı idilər) arasında böldü. Bu, cəmi bir neçə günlük işin gözəl mükafatı idi.

İZAHI

Veyl fırıldağı planlaşdırmazdan çox-çox əvvəl Cizili imkanlı qurban kimi gözaltı etmişdi. O, rinqdəki ölümü — Cizili pullarından əl çəkməyə, bir daha onu xatırlamamağa məcbur etmək üçün ideal üsul hesab edirdi. Həmçinin o, başa düşürdü ki, Cizili boks döyüşünə maraqlandırmaq üçün onun şansı yoxdur. Buna görə də, lazım olan vaxta qədər öz məqsədini gizlədi və ovçu evinin satılması məsələsini uydurdu, yəni duman qatını işə saldı.

Qatarda və mehmanxana nömrəsində Cizilin fikri-zikri gələcək sövdələşmənin, asan qazancın və nüfuzlu maliyyəçilərlə bir qədəh şərab vurmaqla ünsiyyətdə olmaq imkanının yanında idi. O, Qrossun pis fiziki hazırlığına və cavanlıqdan uzaq olan yaşına fikir vermədi. Duman qatının fikri yayındıran gücü belədir. Cizilin diqqəti sövdələşməyə cəlb edilmişdi. Buna görə də, o, boks döyüşü məsələsinə asanlıqla qoşulsa da, Qrossun aldatdığını bildirən ziddiyyətli cəhətləri hiss edərək, şübhəyə düşdüyü an həddindən artıq gec idi. Bundan başqa, döyüşün taleyini boksçuların fiziki hazırlığı deyil, onları pulla ələ almaq həll edirdi. Sona yaxın Cizil boksçunun ölümü illüziyasından o dərəcədə pis vəziyyətə düşmüşdü ki, öz pullarını tamamilə yaddan çıxardı.

Bu adi, şübhə yaratmayan vəziyyət duman qatı rolunu gözəl oynadığından, Sarı Uşaqdan nələrisə ibrət götürmək olar. Hədəfə tamamilə adi görünən şəraitin — işgüzar müqavilənin, sövdələşmənin, maliyyə intriqasının köməyi ilə yaxınlaşın. "Qurbanın" diqqəti dağılacaq, şübhə yaranmayacaq. Sonra siz planın ikinci hissəsini asanlıqla maili müstəvi üzərinə keçirə bilərsiniz. Bu müstəvi üzrə o, acizanə şəkildə qurulmuş tələnin düz üstünə sürüşəcək.

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

1920-ci illərin ortalarında Həbəşistanın nüfuzlu sərkərdələri başa düşdülər ki, Hayle Selassiye adlı gənc aristokrat — o elə nequs (nequs — 1975-ci ildə monarxiya ləğv edilənə qədər Həbəşistanda imperatorun ixtisar edilmiş tituludur) Ras Tafaridir — hakimiyyət uğrunda mübarizədə onları ötüb keçir və onun bir çox onilliklər ərzində ilk dəfə ölkəni birləşdirərək, özünü onların lideri elan edə biləcəyi vaxt yaxınlaşır. Onun rəqiblərinin əksəriyyəti diqqəti cəlb etməyən, zəif maneralı bu zərif, sakit adamın hamını özünə tabe etməyə necə müvəffəq olduğunu başa düşə bilmirdilər. Bununla belə, Selassiye 1927-ci ildə sərkərdələri onu dövlət başçısı kimi tanımaları və vicdanla xidmət etmələrini təsdiq etmələri üçün bir-bir Əddis-Əbəbəyə çağırmağa başladı.

Bəziləri çaşqınlıq içində idilər, başqaları tərəddüd edirdilər və yalnız bir nəfər — Sidamo əyalətindən olan Dejazmax Balça itaət etməməyə açıq şəkildə cəsarət etdi. Hövsələsiz adam olan Balça əsl hərbçi idi, yeni rəhbəri zəif və bu mövqeyə layiq olmayan adam hesab edirdi. O, paytaxta gəlmədi. Nəhayət, Selassiye ona xas olan nəzakətlə, ancaq qəti tərzdə Balçaya öz hüzuruna gəlməyi əmr etdi. Sərkərdə itaət etməyi, ancaq Həbəşistan taxt-tacına iddiaçını çaşdırmağı qərara aldı: o, Əddis-Əbəbəyə 10 min nəfərdən ibarət bir ordu ilə gəlməyi qərara aldı — bu qüvvə özünün təhlükəsizliyini təmin etməyə,

lazım gələrsə, vətəndaş müharibəsini başlamağa kifayət idi. O, qoşununu paytaxtdan üç mil məsafədə olan vadidə yerləşdirdi və hökmdar kimi gözləməyə başladı. Selassiye özü onun görüşünə gəlməli idi. Həqiqətən Selassiye çapar vasitəsilə Balçanı sarayda onun şərəfinə düzəldilmiş ziyafətə dəvət etdi. Balça axmaq deyildi və tarixi gözəl bilirdi — Həbəşistanın əvvəlki başçılarının və krallarının tez-tez tələ-ziyafətlər təşkil etdiyi ona yaxşı məlum idi. Selassiye sarayda onun tutulub öldürülməsini əmr edə bilərdi. Balça vəziyyətdən xəbərdar olduğunu anlatmaq üçün ziyafətə yalnız mühafizəçilərlə — Balçanı və özlərini qorumağa qadir olan altı yüz seçmə silahlı əsgəri ilə gəlməyə razılaşdı. Balçanın təəccübünə rəğmən Selassiye lütfkarlıqla cavab verdi ki, bu cür ləyaqətli döyüşçüləri sarayda qəbul etməyi özünə şərəf bilir.

Balça yolda döyüşçülərinə çox içməməyi və sayıq olmağı tapşırdı. Onlar saraya çatdıqda, Selassiyenin özü onları sevinc içərisində qarşıladı. Onun Balça ilə davranışından yəqin etmək olardı ki, Selassiyeyə hamıdan artıq məhz Balçanın köməyi və təqdiri lazımdır. Ancaq Balça bu cazibədarlığa uymadı və Selassiyeni xəbərdar etdi: əgər o, gün batana qədər öz düşərgəsinə qayıtmasa, onun qoşunu paytaxta hücum edəcək. Selassiye belə etimadsızlığa görə özünü möhkəm incimiş kimi göstərdi. Nahar zamanı Həbəşistan başçılarının şərəfinə ənənəvi mahnılar oxunması vaxtı çatdıqda, o, yalnız Sidamodan olan başçını mədh etməyi əmr etdi. Balçaya elə gəldi ki, Selassiye belə bir böyük, dəyanətli sərkərdə ilə yanaşı olmasından qorxub və sarsılıb. Dəyişikliyi hiss edən Balça elə hesab edirdi ki, artıq hər şey onun ixtiyarındadır.

Axşama yaxın Balça və onun əsgərləri sevinc qışqırıqları və yaylım atəşləri altında geri qayıdırdılar. Balça çiyni üstündən geriyə baxır, bir neçə həftədən sonra Selassiye tutulub həbs və ya edam ediləndən sonra öz əsgərlərinin paytaxtın küçələrindən qalibiyyətlə keçdiyini xəyalında təsəvvür edərək planlar qururdu. Ancaq düşərgəyə çatanda Balça başa düşdü ki, nəsə

dəhşətli bir şey baş verib. Səhər göz işlədikcə müxtəlif rəngli çadırlar olan yerdə indi söndürülmüş ocaqlar tüstülənirdi. Bu, şeytan əməli idimi?

Şahid baş verənləri danışdı. Saraydakı ziyafət vaxtı Selassiyenin silahdaşının komandanlığı ilə böyük bir qoşun kənar yolla yaxınlaşaraq, Balçanın ordusunun başının üstünü kəsdirdi. Onlar bunu görmədilər. Ancaq qoşun döyüşə başlamağa hazırlaşmırdı: çünki döyüş səsini eşidən Balçanın özünün mühafizəçiləri ilə köməyə atılacağını bilirdi. Selassiye öz qoşununu qızıl və pul dolu səbətlərlə silahlandırmışdı. Onlar Balçanın döyüşçülərini mühasirəyə alaraq, onların silahını qızıl və pulla alırdılar. Kim etiraz edirdisə, öldürməklə hədələyirdilər. Bir neçə saat içərisində Balçanın bütün ordusu tərksilah edildi və əsgərlər hara gəldi qaçdılar.

Necə böyük təhlükədə olduğunu başa düşən Balça özünün 600 əsgəri ilə qüvvə toplamaq üçün cənuba getməyi qərara aldı. Ancaq onun yolunu qoşununu tərksilah edən ordu kəsdi. İkinci çıxış yolu paytaxta hərəkət etmək idi, ancaq orada Selassiye böyük ordu ilə müdafiəyə hazır durmuşdu. Selassiye şahmatçı kimi Balçanın bütün addımlarını ölçüb-biçmişdi və birinci olaraq ona mat elan etdi. Balça ömründə ilk dəfə idi ki, mühasirəyə düşmüşdü. O, öz həyatını təkəbbür və lovğalıqdan peşmançılıq çəkməklə monastrda başa vurdu.

İZAHI

Selassiyenin uzunmüddətli hakimiyyəti dövründə heç kim onu axıra qədər başa düşə bilmədi. Həbəşlər güclü və qəddar liderləri xoşlayırlar, ancaq Selassiye yumşaq, sülhsevər insan siması ilə taxtda onların hamısından çox oturdu. Heç vaxt özündən çıxmayan, qəzəbini cilovlayan Selassiye öz qurbanlarını şirin təbəssümlə başdan çıxarır, cazibədarlığının köməyi ilə onların başının altına yastıq qoyur, hücum etməzdən əvvəl yaxşılıq edirdi. Balça ilə olan halda Selassiye onun döyüşkənliyindən və ziyafətin tələ olacağını hesab edən şübhələrindən istifadə etdi. Tələ həqiqətən var idi, ancaq o, tamamilə gözlənilə bilən yerdə deyildi. Selassiyenin Balçanın qorxusunu dağıtması — ona saraya mühafizəçiləri ilə gəlməyə imkan verməsi, ehtiram göstərməsi, öz mövqeyinin güclü olmasını hiss etdirməsi — qatı duman pərdəsi oldu və paytaxtdan üç mil məsafədə onun əsl məramı görünmədi.

Yadda saxlayın: şübhəli və döyüşkən olanlar hamıdan daha tez aldanırlar. Belələrinin etimadını nədəsə qazanmağa çalışsanız, onların gözlərini başqa şeylərdən pərdələyən, başının üstünü kəsdirməyə və sarsıdıcı zərbə endirməyə kömək edən duman qatına malik olarsınız. Xeyirxah və ya səmimi hərəkətlər edin, yaxud rəqiblərinizə özlərinin üstün olmasını yəqin etmələrinə imkan verin — bu, təxribatı həyata keçirmək üçün gözəl vasitədir.

Düzgün yerləşdirilmiş duman qatı güclü silahdır. Bir güllə atmadan düşməni tamamilə darmadağın etmək üçün Xayle Selassiye elə bundan da istifadə etdi.

Tafarinin hakimiyyətini lazımi qədər qiymətləndirməməkdən qorxun. O, siçan kimi oğrun-oğrun yaxınlaşır, ancaq cəngi pələnginki kimidir.

(Sidamo əyalətindən olan Balçanın monastra getməzdən əvvəl dediyi son sözlər)

HAKİMİYYƏTİN AÇARI

Əgər siz yalançıları hər addımda yalan, kələk və uydurma quraşdıran adamlardan ibarət tanınmış kütlə hesab edirsinizsə, yanılırsınız. Onların ən yaxşıları etimad doğuran zahiri görünüşə malikdirlər və diqqəti cəlb etmirlər. Qeyri-adi və qəribə sözlərin, hərəkətlərin dərhal şübhə yaratdığını bildiyi üçün onlar öz fikirlərinə adət olunmuş, bayağı və ziyansız

forma verirlər. Sarı Uşaq ləqəbli Veyl və Sem Cizil arasında baş verən hadisədə adət olunmuş iş sonuncunun biznesə marağı, Həbəşistandakı halda isə, bu, Selassiyenin çaşqınlıq yaradan itaətkarlığı idi. Balça gücdə ondan geri qalan sərkərdədən məhz belə davranış gözləyirdi.

Siz qurbanınızın diqqətini onun gözlədiyi şeylə yayındıra bilsəniz, onlar düz kürəyinin arxasında baş verən yalanı sezmək qabiliyyətini itirərlər. Bunun izahı çox sadədir: adamlar hər hansı şeyə yalnız müəyyən zaman müddətində diqqətlərini cəmləşdirə bilirlər. Qurbanlarınız üçün, yaraşıqlı və ziyansız adamın eyni zamanda nəsə başqa şey düşünməsini təsəvvür etmək olduqca çətindir. Sizin duman pərdəniz nə qədər qatı və adi olarsa, öz məqsədlərinizi bir o qədər asan gizləyə bilərsiniz. I hissədə müzakirə edilən yalan izlər və tələlər texnikasından istifadə edərək, siz adamları fəal şəkildə çaşdırarsınız; duman qatı sadəlövhün sayıqlığını azaldır və onu tora tərəf aparır. Bu, hipnoz edir və məhz elə buna görə də, niyyətlərinizi gizlətməyə sizə hər şeydən yaxşı kömək edir.

Duman qatının ən sadə forması sifətin ifadəsidir. O qədər də ifadəli olmayan xarici görkəmin arxasında gizlənərək, istənilən bədxahlığı planlaşdırmaq mümkündür, bu heç kəsdə şübhə də oyatmayacaq. Bu silahdan bir çox qüdrətli tarixi şəxsiyyətlər istifadə etmişlər. Franklin Delano Ruzveltin tamamilə anlaşılmaz sifətə malik olması məlumdur. Baron Ceyms Rotşild həqiqi fikirlərini mehriban təbəssümü və ya qeyri-müəyyən baxışları arxasında gizlədərək, bütün ömrü boyu bu üsuldan istifadə edirdi. Stendal Taleyran haqqında yazmışdır: "Hələ dünyada elə sifət olmayıb ki, oxunması onun sifəti qədər çətin olsun". Henri Kissincer danışıqlar stolu arxasında yeknəsək usandırıcı səsi, ifadəsiz görkəmi ilə problemləri bütün təfərrüatı ilə hərtərəfli şərh etməklə, öz apponentlərini gözləri yaşaran vəziyyətə qədər gətirir, sonra birdən onlara özünün cəsarətli tələblərini elan edərək çaşdırırdı. Onlar gözlənilməz vəziyyətdə yaxalanaraq, razılığa gətirilmələrinə imkan verirdilər. Poker oyunu haqqında dərsliklərin birində bu, belə izah edilir: "Yaxşı oyunçu oyun vaxtı nadir hallarda artistlik edir. Bunun əvəzinə o, ifadəsiz davranış tərzini seçir ki, bundan da heç nə öyrənmək mümkün deyil; bu, oyun yoldaşlarını çaşdırır və gərginlik içərisində saxlayır, onlardan böyük diqqət tələb edir".

Duman qatı konsepsiyası müxtəlif səviyyələrdə tətbiq edilə bilər, ancaq bütün hallarda söhbət diqqətin yayındırılmasının psixoloji prinsiplərindən və yalan istiqamət verməkdən gedir. Duman qatının ən səmərəli növlərindən biri — xeyirxah hərəkətdir. Adamlar xeyirxah hərəkətlərin səmimiliyinə inanmaq istəyirlər. Çünki bu inam onlar üçün çox xoşdur. Onlar əməlin necə aldadıcı olduğunu nadir hallarda dərk edirlər.

İncəsənət əsərləri alverçisi Cozef Dyuvin bir dəfə ciddi problemlə rastlaşdı. Dyuvinin rəsmlərinə həvəslə pul verən milyonçu alıcıların divarlarında, demək olar ki, yer qalmamışdı, bununla bərabər, vərəsəliyə görə vergilər də artmışdı. Elə görünürdü ki, onlar rəsm əsərləri almağı dayandıracaqlar. Məsələ 1937-ci ildə Vaşinqton İncəsənət Qalereyasının yaradılması ilə həll edildi. Dyuvin bu muzeyin yaradılmasına kömək etdi. Endryu Mellonu öz kolleksiyasını bu muzeyə bağışlamaq üçün yola gətirdi. Milli Qalereya Dyuvin üçün gözəl daldanacaq oldu. Onun alıcıları bir dəfəyə həm vergilərdən canlarını qurtardılar, həm də yeni rəsmlər əldə etmək üçün divarlarda yer boşaltdılar və bazarda rəsmlərin sayını azaltmaqla, qiymət səviyyəsini qoruyub saxladılar. Eyni zamanda, qalereyaya hədiyyə verənlər xeyriyyəçi şöhrətini qazandılar.

Duman qatının başqa bir səmərəli növü qanunauyğunluqdur. Başqa sözlə, qurbanınızı hərəkətinizi əvvəlki istiqamətdə davam etdirəcəyinizə inanmağa məcbur edən hərəkətlər seriyasıdır. Qanunauyğunluq gözləmənin psixoloji prinsipinə üstün gəlir: bizim davranışımız qanunauyğunluğa tabedir, ola bilsin, belə fikirləşmək bizə xoş gəlir.

1978-ci ildə amerikalı cinayətkar baron Cey Qould firma təşkil edərək, Qərb İttifaqı (Vestern Yunion) teleqraf şirkətinin inhisarını təhlükə altına almağa başladı. Şirkətin direktoru Qouldun firmasını satın almağı qərara aldı — bunun üçün böyük məbləğdə pul ödəmək lazım gəldi, çünki o, xoşagəlməz rəqibdən canını qurtarmaq istəyirdi. Ancaq bir neçə aydan sonra Qould yenidən peyda oldu və onunla ədalətsiz rəftar edildiyindən şikayət etdi. O, ikinci firmanı yaratdı və yenidən Qərb İttifaqı və onun qazancı ilə rəqabətə girdi. Əhvalat təkrar olundu: Qərb İttifaqı bu firmanı da aldı. Tezliklə hər şey üçüncü dəfə yenidən başladı. Ancaq Qould bu dəfə özünü tamam başqa cür apardı: o, amansız rəqabətə girdi və Qərb İttifaqı üzərində nəzarəti bütünlüklə ələ keçirdi. Qouldun təkrar olunan hərəkətləri şirkətin rəhbərlərini aldatdı: onlar belə hesab edirdilər ki, Qouldun məqsədi öz firmasını sərfəli qiymətə satmaqdır. Onlar pulu ödəyərək sayıqlığı zəiflətdilər və rəqibin qiyməti necə qaldırdığına fikir vermədilər. Davranışda qanunauyğunluq onunla yaxşıdır ki, o, başqalarını çaşdırır, hərəkətlərinizin məhz onların düşündükləri istiqamətə yönəldiyinə inandırır və onlar sizdən həqiqətən sizin fikirləşdiklərinizi deyil, tamam başqa şeyləri gözləyirlər.

Duman qatı yaratmaq üçün istifadə edilməsi mümkün olan daha bir psixoloji zəiflik — görünən şeyi reallıq kimi qəbul etməkdir: əgər kimsə özünü sizin həmfikriniz kimi aparırsa, o elə əslində sizin həmfikrinizdir. Bu mimikriyanı (mimikriya — prinsipsiz olaraq şəraitə uyğunlaşma) çox səmərəli üsula çevirir. Bu sadə hiylədir: siz özünüz əhatə edənlərə qarışırsınız. Buna nə qədər yaxşı nail ola bilsəniz, bir o qədər az şübhə oyadarsınız. Bədnam "soyuq müharibə" dövründə bir çox ingilis dövlət məmurları məxfi məlumatları sovet tərəfinə verməklə məşğul olmuşlar. Onlar ingilislərin "öz uşaqları" idilər, imtiyazlı məktəblərdə təhsil almışdılar, sonra isə vicdanlı adamlara yaxşıca qarışmışdılar. Mimikriya casus üçün yaxşı daldanacaqdır. Onu nə qədər yaxşı mənimsəmisinizsə, siz həqiqi niyyətlərinizi bir o qədər asan gizləyə bilərsiniz.

Yadda saxlayın: parlaq çalarları söndürmək, diqqəti cəlb etməyən maska geymək üçün səbir və təvazökarlıq lazımdır. Əgər zəif görkəmli maska geyməli olsanız, kədərlənməyin — çox vaxt bu maskaya nüfuz edilə bilinməməsi, adamları sizin ətrafınıza cəlb edir və sizə hakimiyyətə bağlı adam görkəmi verir.

OBRAZ:

QOYUN DƏRİSİ

Qoyun soyğunçuluq etmir, qoyun xəyanət etməz, qoyun fövqəladə dərəcədə ağılsız və ziyansızdır. Çiyninə qoyun dərisi atmış tülkü asanlıqla toyuq hininə girə bilər.

MÖTƏBƏR FİKİR:

"Siz qalanı ələ keçirməyə hazırlaşan sərkərdənin öz planları barədə düşməni xəbərdar etməsi haqqında eşitmisinizmi? Öz məqsədlərinizi gizlədin və uğurlarınızla öyünməyin; perspektiv planlarınızın gələcək yollarının aşkarlanmasına onların həyata keçməsinə manеə ola biləcək hallar aradan götürülməyənə və döyüş qurtarmayana qədər imkan verməyin. Qələbəni müharibə elan edilənə qədər qazanın. Bir sözlə, niyyətləri heç kimə bəlli olmayan hərbçilərə oxşayın. Yalnız bu hərbçilərin qələbə marşı ilə keçdikləri viran qoyulmuş ölkələrə bənzəməyin".

Ninon de Lanklo, 1623–1706

MEDALIN İÇ ÜZÜ

Nə qatı duman örtüyü, nə diqqəti yayındıran hərəkətlər, nə də yalançı səmimiyyət və ya başqa hiylələr artıq yalançı adını möhkəm qazanmış adamlara kömək etmir. Vəzifə-

də böyüdükcə və müvəffəqiyyət qazandıqca, öz hiyləgərliyinizi gizlətmək sizə daha çətin olur. Əgər hamı və hər kəs yalanın sizin üçün əlüstü, asan şey olduğunu bilirsə və siz sadəlövhlük və ürəyiaçıqlıq göstərməyi qərara alırsınızsa, onda qatı ikiüzlü şöhrəti qazanarsınız, bu da sizin fəaliyyət dairənizi güclü şəkildə məhdudlaşdırar. Belə hallarda, ən yaxşısı odur ki, heç bir hiylə işlətmədən, siz fırıldaqçı olduğunuzu, daha yaxşı olardı ki, peşmançılıq çəkən fırıldaqçı olduğunuzu səmimiyyətlə etiraf edəsiniz. Sizi səmimiyyətinizə görə nəinki bağışlayacaq və sevəcəklər, hətta ən təəccüblüsü odur ki, siz öz fırıldaqlarınızı maneəsiz olaraq davam etdirə biləcəksiniz.

XIX yüzilliyin böyük kələkbazı P.T.Barnum özünün fırıldaqçı ad-sanından istifadə etməyi öyrənmişdi. Bir dəfə o, Nyu-Cersiyə muzdla tutduğu hinduların köməyi ilə başqa ştatlardan bir neçə bizon gətirdi və bizon ovu təşkil etdi. Hər şey olduqca qeyri-təbii görünsə də, o, bu ovu əsl ov kimi reklam etdi. İştirakçılar hiddətlənmək və pullarını tələb etmək əvəzinə, sadəcə olaraq şənlənib əylənirdilər. Onlar bilirdilər ki, Barnumdan həmişə fırıldaq gözləmək lazımdır; onun uğurunun sirri də bunda idi və buna görə onu sevirdilər. Barnum bundan ibrət götürdü və öz fəndlərini gizlətməyi dayandırdı, hətta öz həyatında olmuş bir çox fırıldaqlarının üstünü açdı. Kyerkeqorun yazdığı kimi, "dünya aldadılmasını istəyir".

Görünməyən maska geyərək, başqalarını öz məqsədlərindən yayındırmaq ağıllı hərəkət olsa da, parlaq, məzmunlu hərəkət və ya əməlin daha düzgün taktika olduğu hallara da təsadüf edilir. Avropanın XVII–XVIII əsrdəki böyük fırıldaqçı və kələkbazları hazırcavablıqları və cazibədarlıqlarının köməyi ilə ictimaiyyəti fəth etmişdilər.

Gözəl mənzərədən ovsunlanmış tamaşaçılar fırıldaqçıya əslində nə lazım olduğunu hiss etmirdilər. Belə ki, onlardan biri qara atlar qoşulmuş qara faytonda kiçik şəhərə gəlmişdi. Onun ardınca taxta ayaqlar geyinmiş hoqqabazlar və akrobatlar, təlxəklər gəlir, camaata iksir (əbədi həyat dərmanı) və türkəçarə dava-dərmanlarını tərifləyir və almağı təklif edirdilər. Tamaşaçıların sayı getdikcə çoxalırdı: fırıldaqçının əsl məqsədi iksir və dərmanların satılması idi ki, bu da çox əla həyata keçirilirdi.

Tamaşalar və attraksionlar, şübhəsiz, niyyətləri gizlətmək üçün gözəl üsuldur, ancaq onlardan da daim istifadə etmək olmaz. Xalq yorulur, şübhələnməyə başlayır və nəhayət, fırıldaqçıları iş başında yaxalayır. Əslində, dərmanların faydasızlığı barədə xəbərlər fırıldaqçıları nə qədər ki qabaqlamayıb, onlar bir yerdən başqa yerə keçərək tələsməli olurlar. Zəif ifadəli zahiri görkəmə malik hakimiyyət adamları — Taleyranlar, Rotşildlər, Kissincerlər — bütün ömürləri boyu bir yerdə qalaraq öz fəndlərindən uğurla istifadə edə bilərlər. Onların fəndi heç vaxt köhnəlmir və nadir hallarda şübhə oyadır. Qırmızı örtükdən isə bəzən, özü də onun üçün əlverişli məqam seçərək istifadə etmək olar.

DÖRDÜNCÜ QANUN

HƏMİŞƏ QƏDƏRİNDƏN AZ DANIŞ

QANUNUN MƏZMUNU

Öz çıxışlarınızla yaxşı təsir bağışlamaq istəyirsinizsə, yadda saxlayın: nə qədər çox danışsanız, bir o qədər adi, bir o qədər gücsüz adam təsiri bağışlayarsınız. Əgər çıxışınız sfinks kimi qeyri-müəyyən, natamam və müəmmalıdırsa, hətta mənasız sözlər danışsanız belə, siz maraqlı adam kimi görünəcəksiniz. Nüfuzlu adamlar sözünü axıra qədər deməməklə, yaxşı təsir bağışlayır və qorxu yaradırlar. Siz nə qədər çox danışsanız, lazımsız sözlər işlətmək ehtimalınız bir o qədər çox olar.

QANUNUN POZULMASI

Kariolan adı ilə məşhur olan Qney Marsi qədim Romanın qəhrəman sərkərdəsi idi. E.ə. V əsrdə o, bir çox əhəmiyyətli döyüşlərdə qalib gələrək, şəhəri dəfələrlə fəlakətlərdən qurtarmışdı. Vaxtının çox hissəsini döyüşlərdə keçirdiyindən, onu romalıların çox az bir hissəsi tanıyırdı və bu da ona əfsanəvi şəxsiyyət şöhrəti qazandırmışdı.

Kariolan e.ə. 454-cü ildə öz ad-sanından istifadə edərək, siyasətlə məşğul olmağı qərara aldı. O, ən yüksək vəzifə olan konsul seçkilərində iştirak etdi. Ənənəyə görə, seçkiqabağı kampaniyanın əvvəlində namizədlər öz proqramları ilə çıxış edirdilər. Kariolan xalq qarşısına Romanı müdafiə etdiyi 17 il ərzində aldığı onlarla yara yerlərini və çapıqları nümayiş etdirməklə başladı. Onun uzun-uzadı çıxışına iştirak edənlərin çox az bir hissəsi qulaq asırdı; onun rəşadətini və vətənpərvərliyini sübut edən çapıqlar çoxlarının gözlərini yaşardırdı. Elə görünürdü ki, Kariolanın qələbəsi əvvəlcədən təmin edilib.

Səsvermə günü Kariolan foruma bütün senatın və Roma patrisilərinin müşayiəti ilə gəldi. Seçki günü qələbəyə inamın lovğalıqla nümayiş etdirilməsi sadə şəhərlilərdə xoşagəlməz təəssürat yaratmışdı.

Kariolan yenidən çıxış etdikdə, əsasən, onunla birgə gələn aristokratlara müraciət etdi. Onun çıxışı təkəbbürlü, hətta xalq

Kinossenariçi Maykl Arlen 1944-cü ildə həyatının ağır günlərində Nyu-Yorka gəldi. O, öz dərdlərini bir qədər unutmaq üçün məşhur "21" restoranına getməyi qərara aldı. Vestibüldə rastlaşdığı Sem Qolduin ona faydalı olmayan bir məsləhət verdi: cıdır atları almaq. Arlen restoranda köhnə dostu Luis B. Mayerlə görüşdü. Luis ondan gələcək planlarını soruşdu. Arlen cavab verdi: "Mən indi Sem Qolduinlə danışdım..." Mayer təkidlə soruşdu: "O sizə nə qədər təklif etdi?" "Kifayət etməyəcək dərəcədə" — deyə ssenariçi cavabdan yayındı. Mayer yenidən

soruşdu: "Otuz həftəyə 15 min sizi təmin edirmi"? Bu dəfə Arlen tərəddüd etmədi və "Bəli" cavabını verdi.

Klifton Fadiman "Lətifələrin qəhvəyi kitabı".

üçün təhqiredici idi. Seçkidə qələbəsindən həll edilmiş məsələ kimi danışaraq, o, hərbi qələbələri ilə öyündü, yalnız patrisilər üçün gülməli olan lətifələr söylədi, rəqibləri haqqında qəzəblə danışdı və Roma üçün gördüyü faydalı işləri şişirtdi. Kariolanın çıxışına qulaq asan adamlar bir şeyi başa düşdülər: onların əvvəllər heç ağıllarına da gəlməzdi ki, əfsanəvi sərkərdə, lovğa və özünü öyən adamdır.

Kariolanın ikinci çıxışı haqqında xəbər tezliklə bütün şəhərə yayıldı və nəticədə, onun əleyhinə səs vermək üçün seçkilərə çoxlu adamlar gəldilər. Seçkilərdə məğlub olan Kariolan döyüş yerinə incimiş halda, onun əleyhinə səs vermiş sadə adamlardan intiqam almaq ehtirası ilə qayıtdı. Bir neçə həftədən sonra Romaya böyük miqdarda taxıl gətirdilər. Senat onu xalqa pulsuz paylamağa hazırlaşırdı, ancaq səsvermə vaxtı Kariolan gəlib çıxdı və söz istədi. O inandırmağa çalışırdı ki, taxılın paylanması şəhərə pis təsir göstərər. Bir çox senatorlar tərəddüd etdilər, səslər parçalandı. Kariolan bununla qurtarmadı: o, demokratiya ideyasının özünü tənqid etməyə keçdi: idarəetmədə xalq nümayəndələrinin — tribunların iştirakının ləğv edilməsini tələb etdi və şəhəri yalnız patrisilərin idarə etməli olduğu fikrini irəli sürdü.

Kissincer haqqında tez-tez danışılan əhvalatlardan biri lord Uinstonun işlədiyi məruzə ilə bağlıdır. O, məruzəni Kissincerə təqdim edərək, tezliklə onu iradla geri alır: «Bu sizin qadir olduğunuz ən yaxşı işdir?» Lord məruzəni düzəldir, redaktə edir və nəhayət onu yenidən baxılmağa təqdim edir. İş həmin qısa iradla geri qayıdır. Onu bir daha düzəldərək yenə də Kissincerdən həmin sualı eşidən lord əsəbindən partlayır:«Hə, lənət şeytana, bu mənim qadir olduğum ən yaxşı işdir!» Bunu eşidən Kissincer cavab verir:«Əla, hesab edirəm ki, bu dəfə mən onu oxuyacam».

Valter Ayzekson «Kissincer», 1992

Kariolanın axırıncı çıxışı barədə məlumat alan şəhərlilərin hiddətinin həddi-hüdudu yox idi. Kariolanın xalq qarşısında cavab verməsi tələbi ilə tribunlar senata göndərildi. O, gəlməkdən imtina etdi. Bütün şəhərdə narazılıqlar başladı. Senat xalq qəzəbinin alovlanmasından ehtiyat edərək, taxılın pulsuz paylanmasına səs verdi. Tribunlar geri çağırıldı, ancaq adamlar Kariolanın xalq qarşısında çıxış edərək, üzr istəməsini tələb edirdilər. Yalnız bu halda və öz fikirlərini xalq qarşısında ifadə etməmək şərti ilə, ona orduya qayıtmağa icazə verilə bilərdi.

Kariolan onu tam sükut içərisində dinləyən xalq qarşısına son dəfə çıxdı. O, çıxışına yavaş və sakit başladı, ancaq yenidən tədricən təhqirə keçdi. Onun danışıq tərzi nəzakətsiz və lovğa, ifadələri kəskin idi. Onun dediklərinə uyğun olaraq xalqın hiddəti də artırdı. Nəhayət, elə səs-küy qalxdı ki, o, çıxışını davam etdirə bilmədi.

Tribunlar məsləhətləşərək Kariolanı ölümə məhkum etdilər və magistrantlara əmr etdilər ki, onu tribunadan aşağı salsınlar. Camaat sevinc dolu qışqırıqlarla bu qərarı alqışladı. Ancaq patrisilər işə qarışaraq, ölüm hökmünü ömürlük sürgünlə əvəz etməyə nail oldular. Xalq Romanın böyük qəhrəmanının rüsvayçılıqla şəhərdən qovulması xəbərini bayram etdi. Romanın küçələrində belə şadyanalıq heç vaxt, hətta düşmən üzərində qələbə şərəfinə də keçirilməmişdi.

İZAHI

Kral XIV Lüdovik dövlət işlərinə aid olan hər şeyi tam gizli saxlayırdı. Nazirlər Şurasının iclasında, kral, yalnız hər şeyi fikirləşdikdən, düşünüb-daşındıqdan və yekun qərara gəldikdən sonra öz planlarını onlara açıqlayırdı. Bu vaxt Siz onun sifətini bir görəydiniz! Onun sifətinin ifadəsi anlaşılmaz idi, gözləri tülkü gözlərini xatırladırdı. O, dövlət işlərini Şurada nazirlərdən başqa heç vaxt heç kimlə müzakirə etməzdi. Saray adamları ilə danışıqda, o, yalnız onların imtiyazlarına və ya vəzifələrinə aid məsələlərə toxunardı. Hətta onun ən zarafatyana və yüngül hesab edilən fikirləri peyğəmbər kəlamı kimi səslənirdi.

Primi Viskonti (Lui Bertran, "XIV Lüdovik", 1928 kitabından sitat).

Kariolan nə qədər ki, siyasətlə məşğul olmamışdı, onun adı ehtiram doğururdu. Hərbi qəhrəmanlıqları onun qeyri-adi igidliyindən xəbər verirdi. Şəxsi keyfiyyətləri haqqında məlumatı olmayan vətəndaşlar onun haqqında çoxlu əfsanələr qoşurdular. Ancaq romalıların qarşısında çıxış etdikdən sonra onun ikrah doğuran daxili xüsusiyyətləri: lovğalığı, saymazlığı, adi camaata yuxarıdan aşağı baxmağı üzə çıxdı. O, kobud hərbçi kimi hay-küy salır və özünü tərifləyirdi. İnamsızlıq hiss edən Kariolan özünü təsdiq etməyə cəhd göstərərək, başqalarını pisləyir və xalqı təhqir edirdi. Qəfildən aydın oldu ki, o, təsəvvür olunan kimi deyil, tamam başqa adamdır. Əfsanə ilə reallıq arasındakı ziddiyyət öz qəhrəmanına pərəstiş edənləri dərindən məyus etdi. Kariolan nə qədər çox danışırdısa, bir o qədər zəif görünürdü — kim öz sözlərinə nəzarət etmirsə, özünü ələ ala bilmirsə, o, hörmətə də layiq deyil.

Əgər Kariolan az danışsaydı, adamlarda narazılıq üçün səbəb yaranmazdı və onlar onun əsl fikirlərini heç vaxt bilməzdilər. O, şübhəsiz, özünün güclü təsir etmə qabiliyyətini saxlayar, konsul seçilərdi, sonra isə özünün antidemokratik baxışlarını həyata keçirərdi. Ancaq insanın dili çox az adamın ram edə bildiyi vəhşidir. O, daima qəfəsdən çıxmağa cəhd edir, əgər onu ram etməsən, o, azadlığa çıxar və çoxlu ziyan törədər. Kim söz xəzinəsini israf edirsə, hakimiyyətini yüksəldə bilməz.

Dəniz ilbizi ayın tam bədirləndiyi gecədə öz qabığını tam açır. İlbizi görən yengəc onun qabığının içərisinə daş və yosun atır, buna görə də ilbiz öz qabığını bağlaya bilmir və yengəcin yemi olur. Kim ağzını həddindən çox açırsa, bununla o taleyini dinləyicilərin mərhəmətinə buraxmış olur və taleyi ilbizin taleyinə bənzəyir.

Leonardo da Vinçi, 1452–1519

QANUNA RİAYƏT EDİLMƏSİ

XIV Lüdovikin sarayında aristokratlar və nazirlər gecə-gündüz dövlət problemlərini müzakirə edirdilər. Həlledici vaxt çatanadək, yəni tərəflərin fikirlərini yekun qərar qəbul edəcək Lüdovikin özünə məruzə etmək üçün onların arasından iki nəfər seçilənədək məsləhətləşir, mübahisə edir, bir-biri ilə eyni fikrə gəlir, pozuluşur, yenidən mübahisə edirdilər. Bu iki nəfər seçildikdən sonra məruzələrin tərtibi qaydası ilə bağlı mübahisə başlanır: nələr Lüdovikdə yaxşı təəssürat yaradacaq, nələr xoşuna gələcək? Günün hansı vaxtında və Versal sarayının hansı guşəsində ona müraciət etmək lazımdır? Onların sifətində hansı ifadələr olmalıdır?

Təbəənin məsuliyyətsiz sözləri ağılsız hərəkətlər haqqında düşüncələrindən daha ağır nəticələr verir... Kiçik qraf Esseks kraliça Yelizavetaya dedi ki, onun xarakteri bədəni kimi naqisdir. Bu, onun başının vurulmasına səbəb oldu, özü də qətl onun üsyankarlığına görə deyil, məhz yuxarıdakı sözlərinə görə baş verdi.

Ser Uolter Reyli.
1554-1618.

Nəhayət, hər şey həll edildikdən sonra, həlledici vaxt yetişir. Seçilmiş iki nümayəndə Lüdovikə yaxınlaşır — bu özü-özlüyündə böyük incəlik və nəzakət tələb edirdi — onlar Lüdovikin diqqətini cəlb edib müxtəlif dəlillər gətirərək, öz işləri barədə ətraflı məlumat verirdilər.

Lüdovik sakitcə, sifətinə müəmmalı ifadə verərək qulaq asırdı. Nümayəndələr sözlərini qurtarıb kraldan cavab gözlədikdə, o, onların hər ikisinə müraciətlə "Mən fikirləşərəm", — deyərək uzaqlaşırdı.

Nəticədə nə nazirlər, nə də saray adamları onları maraqlandıran məsələ barədə kraldan bir kəlmə də eşitmirdilər — onlar sadəcə olaraq, həftələr sonra kralın qərar qəbul edərək, iş gördüyü vaxt nəticəni bilirdilər. O, heç vaxt məsələləri təkrar müzakirə edərək, özünə zəhmət verməzdi.

İZAHI

XIV Lüdovik çox qaradinməz adam idi. "Dövlət — mənəm" məşhur ifadəsi ona məxsusdur. Bundan daha yığcam və mənalı söz demək mümkün deyil. O, bütün sorğulara və müraciətlərə çox qısa olan yuxarıdakı məşhur ifadəsi ilə cavab verirdi: "Mən fikirləşərəm".

Lüdovik həmişə belə deyildi; gəncliyində o öz natiqliyindən zövq alaraq, çox danışmağı xoşlayırdı. Sonralar o, heç kimin onu özündən çıxara bilməsinə yol verməmək üçün, bu maskanı geyərək, qaradinməzliyi öyrəndi. Bəlkə də heç kim onun yanında özünün malik olduğu mövqeyi bilmir, kralın fikrini əvvəlcədən bilməyə müvəffəq olmurdu. Heç kim Lüdovikin nə eşitmək istədiyini bilmədiyindən, onun qulağına eşitmək istədiklərini pıçıldayaraq, onu aldatmağa nail ola bilməmişdi. Vəzifə borcuna görə, kralın sükutu qarşısında uzun-uzadı danışmaq məcburiyyətində qalan iltimasçılar öz fikirlərini qeyri-iradi olaraq daha çox açıqlayırdılar, bu isə, son nəticədə krala həmin fikirlərdən onların əleyhinə uğurla istifadə etməyə imkan verirdi.

Nəhayət, qaradinməzlik Lüdovikə hamını qorxu içərisində və itaətdə saxlamağa imkan verirdi. Bu, onun qüdrətinin söykəndiyi özüllərdən biri idi.

Sen Simon yazırdı: "Heç kim öz sözünün, təbəssümünün, hətta gözucu baxışının qiymətini onun kimi bilmirdi. Onda hər şey qiymətli idi, buna görə o, hadisələrin gedişinə təsir edə bilir və az danışmağı onun əzəmətini daha da artırırdı".

Nazir üçün ağılsız sözlər danışmaq onları həyata keçirməkdən daha çox məhvedicidir.

Kardinal de Rei.

HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət bir çox cəhətlərinə görə zahiri, görünən oyundur; əgər siz az danışarsınızsa, labüd olaraq əslində olduğunuzdan böyük və qüdrətli görünəcəksiniz. Sizin qaradinməzliyiniz başqalarını əsəbləşdirəcək. İnsan varlığı təfsir, şərh və izah üçün yaranmışdır; ona sizin nə barədə fikirləşdiyinizi bilmək lazımdır. Əgər siz nələri demək lazım olduğuna ciddi fikir verərsinizsə, onlar sizin fikirlərinizə nüfuz edə bilməz, sizin kim olduğunuzu başa düşməzlər.

Sizin qaradinməzliyiniz və yığcam cavablarınız onları müdafiə mövqeyi tutmağa məcbur edər, lakin bu hala davam gətir-

məyərək, onlar öz sirlərini və zəif cəhətlərini büruzə verməklə, sükutu öz sözləri ilə doldurmağa başlayarlar. Onlar öz sirlərinin ələ keçirilməsi təəssüratı ilə görüşü tərk edər, evə qayıdarkən, yolboyu sizin hər bir sözünüzü xatırlayarlar. Sizin öz sözlərinizə belə yüksək diqqət sizin gücünüzü yalnız artırar.

Az danışmaq təkcə krallar və dövlət xadimləri üçün zəruri deyil. Demək olar ki, həyatda bütün hallarda siz nə qədər az danışarsınızsa, bir o qədər gizli və müəmmalı görünərsiniz. Rəssam Endi Uorxol hələ gəncliyində başa düşmüşdü ki, adamları təkcə dilə tutma ilə sizin istədiyiniz kimi hərəkət etməyə məcbur etmək mümkün deyil. Onlar sizə arxa çevirəcək, sizin arzularınızı təhrif edəcək, fikirlərinizin uyğun gəlməməsi hissinə görə, əleyhinizə gedəcəklər. Bir dəfə o, dostuna demişdi: "Mən başa düşdüm ki, susmaqla böyük səlahiyyət qazanmaq olar".

Uorxol bu prinsipi öz həyatında uğurla tətbiq edirdi. Onun verdiyi müsahibələr rəmmalın dediklərini xatırladırdı: o, nəsə yayğın və aydın olmayan sözlər danışardı, müsahibə götürən isə, bəzən mənasız olan bu ifadələrin dərinliyində nəsə tapmağa çalışaraq, onların mənasını başa düşmək üçün baş sındırardı. Uorxol öz işləri barədə nadir hallarda danışır, bu hüququ böyük məmnuniyyətlə başqalarına verirdi. O, söyləyirdi ki, bu müəmmanı XX əsrin başqa rəssamı, öz əsərləri barəsində nə qədər az danışarsa, ictimaiyyətin bu əsərlər haqqında bir o qədər çox danışdığını erkən başa düşən Marsel Dyuşandan öyrənib, ictimaiyyət isə çəkilən rəsmlər barədə nə qədər çox danışarsa, onların qiyməti bir o qədər yüksək olur.

İbrət götürülməli dərs belədir: söz quşdur, uçsa, tuta bilməzsən. Sözlərinizə fikir verin. Kinayəli ifadələri işlədərkən xüsusən ehtiyatlı olun: acı sözlər deməklə, duyduğunuz bir dəqiqəlik məmnunluğun əvəzini qat-qat ödəməli olarsınız.

OBRAZ:

DELFİ KAHİNİ

Kahinin yanına məsləhətə gələnlərə o, tamamilə mənalı və əhəmiyyətli görünən bir neçə müəmmalı söz deyirdi. Hamı kahinin sözlərinə itaət edirdi — bu sözlər həyatdan və ölümdən yüksək gücə malik idi.

MÖTƏBƏR FİKİR

Nə qədər ki tabeliyində olanların dodaqları və dişləri tərpənir, heç vaxt sən bu cür etməyə başlama. Mən nə qədər çox susuramsa, başqaları bir o qədər çox dodaqlarını və dişlərini hərəkət etdirirlər. Onlar dodaqlarını və dişlərini hərəkət etdirdikləri vaxt isə, mən onların əsl niyyətlərini başa düşə bilirəm... Əgər başçı müəmmalılığını saxlamırsa, məmurlar oğurluq üçün çoxlu imkanlar tapacaqlar.

Xan Fey, Çin filosofu,
e. ə. III əsr.

MEDALIN İÇ ÜZÜ

Bəzən elə də olur ki, susmaq faydalı olmur. Susmaq, xüsusən yüksək mövqedə dayanan adamlarda şübhə yaradaraq, qəribə görünə bilər; aydın olmayan, ikimənalı deyilən fikirlər sizin üçün ən gözlənilməz və arzuedilməz şəkildə yozula bilər. Susmaq və çox danışmaq — vaxtında, ehtiyatlı və yalnız müvafiq şəraitdə tətbiq edilməli olan fəndlərdir. Arabir özünü axmaq yerinə qoyan, ancaq özünün kraldan da ağıllı olduğunu bilən təlxək kimi görünmək də məntiqlidir. Hökmdarı əyləndirərək, o, dilboğaza qoymadan çərənləyir. Və heç kimin də ağlına gəlmir ki, o, elə də axmaq deyil.

Eləcə də söz, bəzən sizin yalanınızı pərdələyərək özünəməxsus duman pərdəsi rolunu oynaya bilər. Həmsöhbətlərinizi boş söz-söhbətlərlə əyləndirərək, onların diqqətini yayındırır, onları ovsunlayırsınız; nə qədər çox naqqallıq edərsinizsə, onlar bir o qədər tez sayıqlığı itirərlər. Çox danışanlardan, qayda üzrə, hiyləgərlikdə və xainlikdə şübhələnmirlər, onlar hiyləsiz, sadəlövh adamlar kimi görünürlər.

Güclü adamların istifadə etdiyi çox danışmaq siyasətinin iç üzünün əsl mahiyyəti bundan ibarətdir: boşboğazlıqdan başqa bir şey deyildir. Çox danışmaq sizin zəif və axmaq görünməyinizə kömək edir və siz bu örtük arxasında heç bir çətinlik çəkmədən aldada və öz məqsədlərinizə nail ola bilərsiniz.

BEŞİNCİ QANUN

AD-SANDAN ÇOX ŞEY ASILIDIR – ONU HƏYATIN BAHASINA QORU

QANUNUN MƏZMUNU

Ad-san hakimiyyətin guşə daşıdır. Ad-sanın köməyi ilə siz qorxu yarada və qalib gələ bilərsiniz. Ancaq o laxlayan kimi siz zəifləyər və hər tərəfdən hücumlara məruz qalarsınız. Öz ad-sanınızı sarsılmaz edin. Mümkün ola biləcək hücumları, həmişə sayıqlıqla gözləyin və bu hücumları onlar edilməzdən əvvəl dəf edin. Düşmənlərinizin ad-sanına ziyan vuraraq, onları sıradan çıxarmağı öyrənin. Sonra bir tərəfə çəkilin və ictimai fikrin onlara divan tutmasına imkan verin.

VƏHŞİLƏRİN QIRĞINI

Dəhşətə gətirən bəla, Qəzəblənmiş göylərdən enən bəla, Günaha batmış yeri edam meydanına çevirdi. Qısa desək – ölüm azarı hər gün Vəhşi tayfaya hücum edən Axeron dalğaları üçün ov idi. Hamı ölmədi, ancaq hamı qorxu içində idi. Heç kim ov əldə etmək halında deyildi: heç bir yem xoşagələn deyildi. Nə canavar, nə tülkü dadlı və günahsız qurbanlarını qovmurdu. Hətta qumru quşları da uçub getdilər – Sevmək və şadlıq vaxtı deyildi. Şir iclas çağırdı. O söylədi: "Mənim dostlarım, Günahlarımıza görə

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

207–265-ci illərdə Çinin üç yerə parçalanmış çarlıqları arasında gedən müharibə vaxtı Şu çarlığı ordusunun başında duran böyük sərkərdə Çuko Lan özünün böyük qoşununu uzaq bir düşərgədə yerləşdirib, özü azsaylı əsgərləri ilə birlikdə kiçik bir şəhərdə dincəlməyə başladı. Birdən gözətçi əsgərlər həyəcanlı xəbər gətirdilər: düşmən qüvvələri Sım Yunun komandanlığı altında 150 minlik qoşunla yaxınlaşır.

Çuko Lanın yanındakı əsgərlərin sayı yüzdən çox deyildi, vəziyyət çıxılmaz görünürdü. Budur, düşmənlər məşhur sərkərdəni tutmaq üzrə idilər.

Lan taleyin acı qismətindən şikayət etmədi və ya özünün necə əsir götürülməsini təsəvvür etməyə vaxt itirmədi. O, əsgərlərə bayrağı endirməyi, şəhər darvazalarını açmağı və gizlənməyi əmr etdi. Özü isə paltarını dəyişərək rahib əbası geyindi və şəhər divarının ən gözəgəlimli yerində oturdu. O, ud çalaraq ətirli qəlyan çəkir və mahnı oxuyurdu. Bir neçə dəqiqədən sonra, o, düşmənin böyük ordusunun, saysız-hesabsız əsgərlərin yaxınlaşdığını gördü. Lan özünü elə göstərdi ki, guya onları görmür, oxumağı və udda çalmağı davam etdirdi.

Ordu tezliklə şəhər darvazalarına çatdı. İrəlidə Sım Yu gəlirdi, o, divar yanında oturan adamı dərhal tanıdı.

Əsgərlərin mühafizə edilməyən, darvazaları açıq şəhərə girməyə can atmalarına baxmayaraq, Sım Yu tərəddüd etdi, Lanı baxışları ilə süzərək qoşunu saxladı. Sonra o, dərhal və tələsik geri çəkilmək əmrini verdi.

göylər bizə bəla göndərmişdir. Qoy hamıdan çox günahı olan özünü Allahın qəzəbinə qurban versin. Ola bilsin ki, o bununla qalanları xilas edə bilər. Tarix göstərir ki, bu cür bədbəxtliklərdə belə qurbanlar kömək edir. Qoy hər kəs hiyləgərlik etmədən öz vicdanına nəzər salsın! Mən özüm etiraf edirəm ki, acgözlükdən çox qoyun yemişəm. Onlar mənə nə etmişdilər? Heç nə! Elə vaxt da olub, çobanı da yemişəm. Ah, mən özümü qurban verməyə hazıram. Ancaq qoy başqaları da danışsınlar: kim nədə günahkardır. Çünki ədalətlə, kim daha çox günahkardırsa,

İZAHI

Çuko Lana "Yatmış əjdaha" ləqəbi verilmişdi. Üçhakimiyyətlilik dövründəki müharibələr vaxtı onun qəhrəmanlıqları haqqında əfsanələr qoşulmuşdu. Bir dəfə onun düşərgəsinə düşmən ordusunun özünü fərari adlandıran kiçik zabiti gəldi, köməyini və qiymətli məlumatlar verməyi təklif etdi. Lan bunun tələ olduğunu, gələn adamın əsl fərari olmadığını dərhal başa düşdü və fərarinin boynunun vurulmasını əmr etdi. Ancaq son anda, balta gətiriləndə Lan casusa həyatını xilas etməyin əvəzində ikiqat casus olmağı təklif etdi. Minnətdarlığını bildirən qorxmuş casus bu təkliflə razılaşdı və özününkülərə yalan məlumat verməyə başladı. Lan bir-birinin ardınca döyüşlərdə qələbə çaldı.

Başqa bir dəfə Lan düşmənin hərbi sənədlərini oğurladı və düşmən qoşunlarını bir-birindən ayrı-ayrı məntəqələrdə yerləşdirmək haqqında saxta əmrlər hazırladı. Düşmənin qüvvələrini bu cür parçalayaraq, o, üç şəhəri ələ keçirdi və düşmən ərazisinə girmək üçün özünə yol açdı. Bir dəfə də, o, düşməni aldadaraq, onu, ən yaxşı

ölüm ona qismət olsun". Tülkü cavabında ona dedi: – "Hökmdar, Siz olduqca xeyirxah, həssas və vicdanlısınız. Qoyunları – bu axmaq heyvanları yemək, Məgər günahdırmı? Siz özünüz özünüzə ağasınız. Öz dişlərinizlə siz onlara yalnız şərəf verirsiniz. Bəli, çobana gəldikdə isə, əlbəttə, o özü təqsirkardır. Çünki bütün heyvanlar üzərində özünü ağa kimi aparıb, lovğalanırdı". Tülkü sözünü bitirdi, yaltaqlar əl çaldılar. Nə ayının, nə pələngin, nə də başqa vəhşilərin bağışlanılmaz günahlarını hətta yada salmadılar. Bütün yırtıcı heyvanlar, hətta onların ən qəddar-

sərkərdəsinin satqın olduğuna inanmağa məcbur etdi. Bundan sonra həmin sərkərdə öz ordusundan qaçmalı və gəlib Sım Yuya birləşməli oldu. Düşmənə hiylə gəlmək onun üçün əlüstü iş idi. Yatmış Əjdaha özünün Çinin çox ağıllı adamı ad-sanını səylə yayırdı. Hər hansı başqa silahdan az təhlükəli olmayan bu ad-san düşmənləri dəhşətə gətirirdi.

Sım Yu on dəfələrlə Lanla vuruşmuşdu və onu yaxşı tanıyırdı. Boş şəhəri və divar dibində oturub dua oxuyan Lanı gördükdə, o, xoşagəlməz işlərin ola biləcəyindən şübhələndi, Rahib xalatı, mahnı, ətirli sulu qəlyan — bütün bunlar düşməni qorxutmaq məqsədi ilə hazırlanmış oyuna oxşayırdı. Oyun o dərəcədə aydın idi ki, Sım Yuda şübhə yarandı — əgər Lan əslində təkdirsə və çıxılmaz vəziyyətə qədər gəlib çıxıbsa, burada nəsə müəmmalı bir şey var. Ancaq Lanın qarşısında onun qorxusu o qədər böyük idi ki, risq etməyə cəsarət etmədi. Bax, ad-sanın gücü bundan ibarətdir. O, bütöv bir ordunu və hətta heç bir silahdan istifadə etmədən geri qaçmağa məcbur edə bilər.

Siseronun dediyi kimi, şöhrət qazanmaqda onunla rəqabətə girənlər, bu məqsədlə yazdığı kitabların onların adlarını daşımasına can atırlar və özlərinin şöhrətə nifrət edən adamlar kimi məşhurlaşmasını istəyirlər. Yerdə qalan bütün şeylər ümumi ola bilər; lazım olduqda biz dostlarımız üçün mal-dövlətimizi də, həyatımızı da qurban veririk. Ancaq öz şərəfini güzəştə getmək, öz şöhrətini başqasına vermək — adətən belə şey görməzsən.

Monten, 1533-1592

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

1841-ci ildə gənc P.Barnum Amerikanın birinci şoumeni ad-sanını qazanmağı arzulayırdı. Şöhrət qazanmaq üçün o, Manhettendəki Amerika muzeyini almağı və onu qeyri-adi kolleksiyaya çevirməyi qərara aldı. Ancaq Barnumun pulu yox idi. Muzeyin qiyməti 15 min dollar idi. Barnum nağd pul verməyi çoxlu sayda məsləhət və zaminliklə əvəz etməsinə baxmayaraq, sifarişi elə tərtib etməyə nail oldu ki, o, muzey sahiblərinin xoşuna gəldi. Artıq şifahi razılaşma əldə edilmişdi, ancaq son anda əsas tərəfdaş fikrini dəyişdi və muzey, kolleksiyası ilə birlikdə başqa bir muzeyin direktoru olan mister Pilə satıldı. Barnum hiddətləndi, tərəfdaş isə izah etdi: biznes biznesdir, muzey Pilə ona görə satıldı ki, o, müəyyən dairələrdə məşhurdur, Barnumun isə belə ad-sanı yoxdur.

Barnum operativ qərar qəbul etdi. Özünə şöhrət qazandırmaq imkanı olmayan Barnum yalnız bir şeyi edə bilərdi — Pilin

ları Müqəddəs hesab edildilər. Budur növbə eşşəyə çatır. O deyir: "Eh, xatırlayıram, bir dəfə monastır tarlasının yanından keçirdim. Aclıq, təsadüf, iştaha, yaxud şeytan məni məcbur etdi — bacardığım qədər ot qırpıtdım. Düzünü desəm, hansı hüquqla bunu etdiyimi indi də başa düşə bilmirəm". Buna cavab olaraq, hər tərəfdən qışqırıq qopdu. Canavar hakim coşğunluğu ilə nitq söylədi: Bütün bəlalar ona görə gəlib, bu lənətə gəlmiş heyvanı allaha qurban verək. Günah cinayət elan edildi: Başqasının otunu yemək! Dəhşətdir! Onu asmaq azdır! Ona layiqli cəza – yal-

nız ölümdür! Elə o, özü də bunu yəqin etdi. Kim zəifdirsə və ya kim güclüdür sə, biri məhkəmədən üzü qara, o birisi üzü ağ çıxacaq.

Lafonten.

ad-sanını məhv etmək. O, qəzetlərə axınla məktub göndərilməsini təşkil etdi. Bu məktublarda muzeyin sahibləri bank xidmətçiləri arasından çıxmış, muzey işini və adamların əyləncəsini düzgün təşkil etmək haqqında təsəvvürləri olmayan kimi təqdim edilirdi. Oxucular Pilin ikinci muzeyi almasının onun səhmlərinin qiymətinin aşağı düşməsinə səbəb olacağını səbəb göstərərək, adamları onun səhmlərini almaqdan çəkindirdilər. Barnumun həyata keçirdiyi kampaniya öz təsirini göstərdi, səhmlərin qiyməti düşdü, Pilin ad-sanı və maliyyə vəziyyətinə inam sarsıldı. Amerika muzeyinin sahibləri öz qərarlarını dəyişdilər və onu Barnuma satdılar.

Pilin bu zərbədən sonra özünə gəlməsi üçün illər tələb olundu, o həmişə başına gələn bəlalarda Barnumun rolunu xatırlayırdı. Mister Pil öz muzeyində "intellektual incə əyləncə" yaradaraq və onun proqramını vulqar rəqibinkindən daha elmi olduğunu təbliğ edərək, Barnuma şəxsən hücum etməyi qərara aldı. Pilin "elmi" nömrələrindən biri çoxlu tamaşaçı kütləsi yığan və uzun müddət uğur qazanan hipnoz seansı idi.

Cavab zərbəsi endirmək üçün Barnum da öz növbəsində hipnoz seansı təşkil edərək, kiçik yaşlı qızı özü hipnoz etdi. Qız sanki dərin yuxuya getdikdən sonra, o, tamaşaçıları hipnoz etməyə cəhd etdi — ancaq nə qədər çalışdısa tamaşaçılardan heç kəs onun sehrinə düşmədi. Tamaşaçılar istehza ilə gülməyə başladılar. Qanı qaralmış Barnum, nəhayət elan etdi ki, xəyali qızın həqiqətən canlı olduğunu sübut etmək istəyir, buna görə onun barmağını kəsəcək, o isə heç nə hiss etməyəcək. Ancaq o, bıçağı itiləyərkən, qız gözlərini açdı və tamaşaçıların heyrətli baxışları altında səhnədən qaçdı. Bu və digər parodiyaları Barnum kifayət qədər uzun müddət təkrar etdi. Tezliklə, Pilin göstərdiyi səhnələri heç kim ciddi qəbul etmədi, onun populyarlığı azalmağa başladı. Bir neçə həftədən sonra şounu bağlamaq lazım gəldi. Sonrakı illərdə Barnum cəsarətli, misilsiz səhnə və tamaşa ustası kimi şöhrət qazandı və bu şöhrəti bütün həyatı boyu saxladı. Pil isə öz təmiz adını heç cürə bərpa edə bilmədi.

İZAHI

Pilin ad-sanını məhv etmək üçün Barnum iki müxtəlif üsul tətbiq etdi. Birinci üsul sadə idi. Barnum muzeyin sabit və gəlirli olması haqqında şübhələr yaydı. Şübhə — güclü silahdır. Bir neçə məkrli şayiə buraxmaq kifayətdir ki, sizin rəqibləriniz qarşısında həll edilməz dilemma yaransın. Onlar, əlbəttə, şayiələri təkzib edə bilərlər, hətta sübut edə bilərlər ki, onları siz buraxmısınız. Ancaq fərqi yoxdur, şübhə qalacaq: onları belə ciddi-cəhdlə müdafiə edilməyə nə məcbur edir? Ola bilsin ki, bu şübhələrdə azacıq da olsa, həqiqət var. Əgər onlar dedi-qodunu qulaqardına vursalar, şübhələr daha güclü olacaqdır. Əgər hər şeyi düzgün yerinə yetirsəniz, yayılan şayiələr rəqiblərinizi elə qəzəbləndirəcək və özündən çıxaracaqdır ki, onlar labüd olaraq, bir-birinin ardınca səhvlər buraxmağa başlayacaqlar. Ancaq bu silah, öz ad-sanı olmayan adamlar üçün yaxşıdır.

Barnum məşhurlaşıb özünə ad-san qazandıqdan sonra, başqa, incə bir üsul tətbiq etdi — öz rəqiblərini ələ salaraq, hipnoz seansı keçirdi. Özü də, heyrətamiz bir uğurla. Əgər cəmiyyətdə sizin fikirlərinizə inanmaq üçün ciddi əsas vardırsa, on-

da siz rəqiblərinizi ələ sala bilər, onu müdafiə mövqeyi seçməyə məcbur edə bilərsiniz, bu yalnız sizin hörmətinizi artırar. Həddindən artıq ələ salmaq və təhqir etmək, o qədər də sərfəli deyil — bu halda onlar cəlbedici olmur və sizə kömək etdiyindən çox, ziyan vura bilər.

Ancaq rəqibinizi yüngülcə ələ salmağınız və masqaraya qoymağınızla, özünüzü rəqibin hesabına xoş zarafatla əyləndirməklə, siz öz əhəmiyyətliliyinizi kifayət qədər artırmış olursunuz. Yumora meyliniz sizi ziyansız, zarafatcıl adam kimi tanıdar ki, bununla siz, həm də rəqibinizin ad-sanına zərbə vurursunuz.

Təmiz olmayan vicdanla bacarmaq, pis ad-sanın öhdəsindən gəlməkdən asandır.

Fridrix Nitsşe

HAKİMİYYƏTİN AÇARI

Ətrafdakılar, hətta yaxın dostlar, həmişə hansısa dərəcədə müəmmalı və əlçatmazdırlar. Onların xarakterində heç vaxt sizə açmadıqları xəlvəti guşə vardır. Əgər başqalarını tanıya bilməməyimizin bizi adamları obyektiv qiymətləndirmək imkanından məhrum etdiyini fikirləşsək, özümüzdə əsəbilik yarana bilər. Ancaq biz bu fakta fikir verməyərək, adamlar haqqında zahiri əlamətlərinə görə, hər şeydən əvvəl, nəzərimizə dəyənlərə: geyiminə, jestlərinə, sözlərinə, hərəkətlərinə görə mühakimə yürütməyə üstünlük veririk. Sosial sahədə zahiri görkəm bizim bütün qiymətləndirmə və mühakiməmiz üçün barometrdir. Ona görə də, siz elə diqqətli olmalısınız ki, barənizdə səhv mühakimə yürütməsinlər. Zahiri görünüşünüzdəki düzgün olmayan bir cəhət, şübhəli və ya ölçülüb-biçilməmiş bir dəyişiklik sizin üçün məhvedici ola bilər. Bax, elə buna görə də, öz ad-sanınızı öz əllərinizlə yaratmağınız və özünüzü qorumağınız lazımdır.

Ad-san sizi müdafiə edər, sizin əslində kim olduğunuzu bilməyə adamlara imkan verməz, müəyyən dərəcədə ətraf mühitin haqqınızda fikirlərinə təsir edər — bunlar sizin üçün güclü mövqedir. Ad-san ovsunçu gücünə malikdir: çubuğun bir hərəkəti ilə sizin gücünüzü ikiqat artıra və sizi izləyənləri uzaqlaşdıra bilər. Eyni bir işin yaxşı və ya pis olması bütünlüklə və tamamilə onun icraçısının ad-sanından asılıdır.

Qədim Çinin Vey diyarında Mi Tsusya adlı qeyri-adi dərəcədə nəzakətli və təmənnasız adam kimi ad-sana malik saray xadimi var idi. O, hökmdarın sevimlisinə çevrilmişdi. Ölkədə olan qanuna görə, kim hökmdarın faytonunda gizli gəzsəydi, ayaq pəncəsini kəsirdilər. Buna baxmayaraq, Mi Tsusyanın anası xəstələndikdə, o, icazə aldığını bildirərək, hökmdarın faytonunda anasını yoluxmağa getdi. Bu hərəkət hökmdara məlum olduqda, o dedi: "Mi Tsusya necə də yaxşı oğuldur! Öz anası naminə cinayətə getmiş və ayaqlarından məhrum olmağa razı olmuşdur!"

Başqa bir dəfə, onlar, ikilikdə meyvə bağında gəzirdilər. Mi Tsusya yediyi şaftalının qalan yarısını hökmdara təklif etdi. Hökmdar dedi: "Sən məni o qədər çox sevirsən ki, yediyin şaftalını mənimlə yarı bölürsən".

Ancaq sonralar saray dedi-qoduçuları Mi Tsusyanın paxıl və özündən razı olması haqqında şayiə yaydılar. Onlar Minin təmiz adını ləkələməyə nail oldular. Artıq onun hərəkətləri hökmdarın gözündə başqa cür görünürdü. O, narazılıqla deyirdi: "Bu cılız adam, bir dəfə, yalandan mənim icazəm olduğunu bildirərək, faytonumda gəzmiş, başqa bir dəfə yarısını yediyi şaftalını mənə verməyə cəsarət etmişdi". Mi Tsusya hökmdarın sevimlisi olarkən, hökmdarda heyranlıq doğuran hərəkətlərinə görə indi cəzalandırılmalı idi. Onun pəncələrini kəsəcəkdilərmi? Bu, onun ad-sanının möhkəmliyindən asılı idi.

Əvvəlcə sizə hər hansı bir görkəmli keyfiyyətə, məsələn, ya düzlüyə, ya səxavətliliyə, ola bilər fərasətliliyə malik olmağa

çalışmaq lazımdır. Bu sizi fərqləndirər və başqalarını sizin haqqınızda danışmağa vadar edər. Sonra çalışın ki, sizin ad-sanınız barədə mümkün qədər çox adam bilsin (həddindən artıq canfəşanlıq etməyin: ad-sanı tələsmədən və möhkəm özül üzərində qurmaq lazımdır) və sonra, onun meşə yanğını kimi necə yayıldığını müşahidə edin.`

Möhkəm ad-san sizi mötəbər və hörmətli edər, nisbətən az enerji sərf etməklə, sizə əlavə qüvvə verər. O, hörmət, bəzən qorxu yaradan auraya bənzəyir. İkinci Dünya müharibəsi vaxtı Şimali Afrikada vuruşmuş alman generalı Ervin Rommel düşməni dəhşətə gətirən məharətli və hiyləgər manevrləri ilə şöhrət qazanmışdı. Hətta onun qoşun birləşməsi məhv olduğu və ingilis tankları onun texnikasını beşin birə nisbətində üstələdiyi vaxt, yalnız onun yaxınlaşması haqqında şayiə bütöv şəhərlərin tələsik köçməsinə səbəb olmuşdu.

Deyirlər ki, şöhrət adamın qabağınca qaçır və əgər bu, hörmət gətirən yaxşı şöhrətdirsə, görəcəyiniz işin böyük hissəsi hələ siz səhnəyə çıxmamışdan əvvəl, bir söz deməyə macal tapmasanız da, yerinə yetirilmiş olur.

Sizin uğurunuz, sanki əvvəlki xidmətlərinizlə müəyyən edilib. Henri Kissencerin diplomatiyasının uğurları əhəmiyyətli dərəcədə onun ziddiyyətləri aradan qaldıran məşhur qabiliyyətinə əsaslanırdı; heç kim özünün, hətta Kissencerin də dil tapa bilmədiyi qanmaz adam kimi tanınmasını istəmirdi. Danışıqlarda Kissencerin iştirak etməsi barışığın baş tutacağını əvvəlcədən şərtləndirirdi.

Qoy sizin ad-sanınız gözəl bir keyfiyyətinizə əsaslansın. Bu yeganə keyfiyyət, istər işgüzarlığınız və ya cazibədarlığınız olsun — sizin vizit vərəqənizə çevrilir, onun köməyi ilə siz ətrafdakıları hipnoz edərək, özünüzə çıxış yolu hazırlayırsınız. Düz adam ad-sanı sizə mümkün olan bütün fırıldaqları və yalanları tətbiq etməyə imkan verər. Kazanova yeni uğurlara yol açmaq üçün özünün cəzbedici ad-sanından istifadə etdi: onun

qələbələri haqqında eşidən qadınlar üçün, o, bir tapıntı oldu, onun ağlasığmaz sevgi uğurlarının səbəbini yoxlamağa bu qadınların səbirləri çatmırdı.

Ola bilsin sizin ad-sanınız artıq ləkələnib, bu halda yeni ad-san üzərində işləmək lazım gələcəkdir. Belə hallarda ən ağıllı iş — imici sizin imicinizin əksi olan kimləsə birləşmək və onun xeyirxah adından öz adınızı təmizə çıxarmaq və yüksəltmək üçün istifadə etməkdir. Misal üçün, düz olmayan adam damğasından özünüzün yaxa qurtarmağınız çətindir, ancaq sizə düzlük nümunəsi olan adam kömək edə bilər.

P.T. Barnum özü haqqındakı aşağı səviyyəli əyləncə təşkilatçısı fikrini dəyişmək üçün, Avropadan müğənni Cenni Lindi dəvət etdi. Barnum, sponsoru kimi çıxış etdiyi Amerikadakı qastrolda, Cenni Lindinin böyük ulduz ad-sanının hesabına, öz adını əsaslı şəkildə nəcibləşdirdi, ad-sanını yüksəltdi. Daha bir nümunə: Amerikanın XIX əsrdəki cinayət aləminin çox böyük avtoritetləri uzun müddət öz üzərlərindən qəddar və zalım ittihamını götürməyə nail ola bilmirdilər. Yalnız incəsənət əsərlərinin kolleksiyasını toplamağa qərar verdikdən sonra, onların adları Morqan və Frik Leonardo da Vinçinin və Rembrandtın adları ilə yanaşı çəkilməyə başladı, bu da onların xoşagəlməz imicinin yaxşılaşmasına kömək etdi.

Ad-san — xüsusi cidd-cəhdlə toplanması və saxlanması lazım olan xəzinədir. Xüsusən siz nə qədər ki, yolun başlanğıcında durursunuz, mümkün olan bütün üsullarla öz adınızı müdafiə edin, onu bütün hücumlardan qoruyun. Öz mövqeyinizi möhkəmləndirərək özünüzdən çıxmamağı öyrənin və düşmənlərin fitnəkar fikirlərinə cavab olaraq, müdafiə mövqeyi tutmayın — bu sizin öz ad-sanınıza inamsızlığınızı göstərir. Bunun əvəzinə irəli gedin və heç bir şeydə, hətta əgər siz özünüzü müdafiə edə biləcəyinizə ümid etməsəniz də, zəiflik göstərməyin. Yadda saxlayın ki, rəqibin ad-sanına hücum, xüsusən əgər o güclüdürsə — qüdrətli silahdır. Belə döyüşdə, o, çox şeydə risqə gedir, cavab atəşi açmağa cəhd etdikdə, sizin hələ

möhkəmlənməmiş ad-sanınız onun üçün olduqca kiçik hədəf təşkil edir. Barnum öz yüksəlişinin başlanğıcında məhz bu taktikanı tətbiq etdi. Ancaq ondan ağılla istifadə etmək lazımdır: o, xırda intiqam kimi görünməməlidir. Əgər siz düşmənin ad-sanına ziyan vura bilməsəniz, sizin öz ad-sanınızın məhvi labüd olacaqdır.

Məşhur ixtiraçı Tomas Edison belə hesab edirdi ki, istənilən mexanizm ancaq sabit cərəyanın köməyi ilə işləyə bilər. Serb alimi Nikola Tesla dəyişən cərəyanla işləyən mexanizm yaratmağa nail olduğunu elan etdikdə, bu, Edisonu özündən çıxartdı. Teslanın ad-sanını məhv etməyi qərara aldı. Bunun üçün o, dəyişən cərəyanla işləyən maşınların çox təhlükəli olmasını sübut etməyə və bunda Teslanı təqsirləndirməyə hazırlaşdı. Edison çoxlu ev heyvanlarını dəyişən cərəyanın ölümcül zərbəsi altına qoydu. Bu ona az göründü və o, 1890-cı ildə Nyu-Yorkun dövlət həbsxanasının rəhbərliyinə dəyişən cərəyandan istifadə etməklə cinayətkarın sınaq edamını təşkil etmək təklifi ilə müraciət etdi. Ancaq Edison yalnız kiçik ev heyvanları ilə eksperiment keçirmişdi. O, gərginliyi nəzərə almamışdı və buna görə də, cinayətkar dəyişən cərəyanın təsirindən şok vəziyyətinə düşdü, ancaq ölmədi. Dövlətin edam haqqında amansız cəza qanunları ilə (ola bilsin dünyanın ən amansız) edam təkrar edildi. Bu dəhşətli mənzərə idi.

Sonralar Edisonun ad-sanı bərpa edilsə də, həmin vaxt onun ad-sanı Teslanınkından çox ziyan çəkdi. Belə hücumlarda həddindən artıq uzağa getmək lazım deyil, çünki, o, diqqəti sizin hücum etdiyiniz adamın keyfiyyətlərinə deyil, intiqam almağınıza cəlb edir. Əgər sizin ad-sanınız möhkəmdirsə, daha incə üsullardan — rəqibi zəiflədən, sizi isə cazibədar, hazırcavab kimi göstərən satira və masqaradan istifadə edin. Qüdrətli şir qabağına çıxan siçanı tutub bir qədər oynadır — hər hansı başqa hərəkət onun qorxunc vəhşi heyvan ad-sanına ziyan vurardı.

OBRAZ:
ALMAZ VƏ YAQUTLA DOLU MƏDƏN

Siz onları qazıb çıxartdınız, indi siz varlısınız. Onları nəyin bahasına olursa-olsun, qoruyub saxlayın. Hər tərəf soyğunçular və oğrularla doludur. Sərvətin sizə həmişəlik verildiyini fikirləşərək aldanmayın. Xəzinəni daima dəyişdirin, çünki vaxt keçdikcə, daş-qaşlar tutqunlaşır və qiymətini itirir.

MÖTƏBƏR FİKİR

"Buna görə mən bizim saray adamına özünün anadangəlmə fitri məziyyətlərini məharət və hiyləgərliklə möhkəmləndirməyi və onun nə vaxtsa tanış olmayan diyara yollanmalı olacağına, burada gəlişinin ona yaxşı ad qazandıracağına inamdan möhkəm yapışmağı arzu edərdim. Çünki çoxlarının fikrinə əsaslanaraq, hesab edirlər ki, ad-san insanın xidmətlərinə möhkəm inam yaradır, nəticədə bu inamı artıq lazım olan şəkildə köklənmiş və hazırlanmış şüurlarda möhkəmləndirmək çətin deyil".

Baldassarre Kastilone, 1478-1529

MEDALIN İÇ ÜZÜ

Bu halda məsələnin əks halı mümkün deyil. Ad-san istənilən şəraitdə vacibdir, bu qanundan kənaraçıxma, istisna halı yoxdur. Ola bilər ki, başqalarının sizin haqqınızda fikirləşdiklərinə əhəmiyyət verməyərək, siz müstəqil və orijinal adam ad-sanı qazanasınız. Bu da pis imic deyil — Oskar Uayld ondan olduqca uğurla istifadə edirdi. Biz cəmiyyətdə yaşayırıq və labüdən başqalarının fikirlərindən asılıyıq, belə ki, öz adını ləkələməklə, yaxşı heç nəyə nail olmaq mümkün deyil. Öz nüfuzunuzun qayğısına qalmayaraq, siz başqalarını öz əvəzinizə işlərinizi həll etməyə məcbur edirsiniz. Öz taleyinizin — və bununla öz ad-sanınızın sahibi olun.

ALTINCI QANUN

NƏYİN BAHASINA OLURSA-OLSUN DİQQƏT MƏRKƏZİNDƏ DUR

QANUNUN MƏZMUNU

Hər şey barədə fikir zahiri görkəmə görə yürüdülür. Görünməsi mümkün olmayan şeylər qiymətə malik deyil. Buna görə də, özünüzün kütlə içərisində itib-batmağınıza və ya izsiz-soraqsız qalmağınıza imkan verməyin. Nəyin bahasına olursa-olsun, gözə çarpın. Maqnit kimi cəzb edin, ətrafınızdakı çoxlu təvazökar və nəzakətli adamlar kimi deyil, görkəmli, parlaq və müəmmalı görünün.

I HİSSƏ. ÖZ ADINI SENSASİYALARLA VƏ QALMAQALLARLA ƏHATƏ ET

Unudulmaz, arabir ziddiyyətli obraz yaradaraq, diqqəti özünüzə cəlb edin. Qalmaqallı işlərə girişin. Görkəmli görünmək və əhatə edənlərdən daha parlaq olmaq üçün hər şeyə gedin. Hansı növ diqqətdən söhbət getdiyinin heç bir əhəmiyyəti yoxdur — istənilən səs-küy şöhrət və hakimiyyət gətirir. Başqalarının sizə əhəmiyyət verməməyindənsə, sizi tənqidə və hücumlara məruz qoymaları yaxşıdır.

QANUNA RİAYƏT EDİLMƏSİ

Barnum öz fəaliyyətinə sirk sahibi Aaron Ternerin köməkçisi kimi başladı. 1836-cı ildə sirk bir neçə tamaşa vermək üçün Merilend ştatının Annapolis şəhərciyinə gəldi. Çıxışların başlandığı gün səhər tezdən Barnum yeni qara kostyum geyərək, şəhəri gəzməyə çıxdı. Avara adamlar onun ardınca düşdülər. Kimsə qışqırdı ki, Efraim K. Everini tanıyır və həmin adam çox pis ad çıxarmışdı: yaxınlarda ona qarşı irəli sürülmüş qətl ittihamı üzərindən götürülsə də, yenə də amerikalıların əksəriyyəti onu təqsirkar hesab edirdi. Qəzəblənmiş kütlə Barnumun üstünə tökülüb, kostyumunu cırdı və az qaldı ki, onu daşqalaq etsinlər. Barnum özünün kim olduğunu izah etdikdə, heç kim ona inan-

EŞŞƏKARISI VƏ ŞAHZADƏ

Sivriquyruq adlı eşşəkarısı çoxdan idi ki, şöhrət qazanmağı arzulayırdı. Bir dəfə o, şahın sarayına gəldi və öz çarpayısında yatmış balaca şahzadəni sancdı. Şahzadə ayıldı və bərkdən ağlamağa başladı. Kral və saray adamları həyəcan içərisində onun yanına tələsdilər. Şahzadə qışqırır, eşşəkarısı isə sancmaqda davam edirdi. Saray adamları onu tutmağa cəhd etdilər, ancaq eşşəkarısı onların hamısını sancdı. Səs-küyə bütün saray əhli tökülüb gəldi, xəbər tezliklə hər yerə yayıldı, saraya avaralar yığışmağa başladı. Şəhər

həyəcana gəldi, bütün işlər dayandı. Eşşəkarısı öz işini görüb, istirahət üçün aradan çıxarkən, bir şeyi anladı: "Şöhrətsiz ad, alovsuz yanğına bənzəyir. Nəyin bahasına olursa-olsun, şöhrət qazanmağa nail olmaqdan vacib şey yoxdur."

Hind təmsili.

madı, belə olduqda, o, hamıya ardınca sirkə gəlməyi təklif etdi: orada onun şəxsiyyətini təsdiq edə biləcək insanlar var idi.

Sirkdə qoca Terner təsdiq etdi ki, bu yalnız bir oyundur — Barnumun Everi olması haqqında şayiəni o, özü yayıb. Camaat dağıldı, ancaq ölümdən canını güclə qurtarmış Barnumun halı yox idi. O, sahibkarın nə üçün onunla belə qərəzli zarafat etdiyini öyrənmək istədi. "Mənim əzizim mister Barnum, — deyə Terner cavab verdi, — bütün bunlar işin xeyrinədir. Həmişə yadınızda saxlayın, uğur üçün bizə çoxlu hay-küy lazımdır". Doğrudan da, qurulmuş oyun barədə şəhərdə hamı bir-birinə danışdı, axşam isə sirk ağzına qədər dolu idi. Sirkin Annapolisdə olduğu bütün axşamlar belə oldu. Barnum isə, bütün həyatı boyu xatırlayacağı dərsi artıq almışdı.

Hətta təhqirə məruz qalsam da, mən öz şöhrət payımı alıram.

Petro Aretino, 1492 - 1556.

Barnumun özünün ilk böyük işi Nyu-Yorkdakı Amerika muzeyi — məzəli və qəribə şeylərin toplusu oldu. Bir dəfə küçədə bir dilənçi Barnuma müraciət etdi. Barnum sədəqə vermək əvəzinə, ona işləməyi təklif etdi. Dilənçi ilə muzeyə gələn Barnum ona beş kərpic verdi və nə etmək lazım olduğunu izah etdi. Dilənçi kərpicləri özü ilə götürüb, bir neçə məhəlləni əhatə edən ərazini dairəvi, asta-asta dolanmalı idi. Müəyyən yerlərdə kərpiclərdən birini səkiyə qoymalı, birini isə əlində tutmalı idi. Yolu geri qayıdarkən o, səkidə olan kərpicləri əlində apardıqları kərpiclərlə

əvəz etməli idi. "İş" zamanı o, ciddiyyətini tamamilə saxlamalı və suallara cavab verməməli idi. Muzeyə qayıdaraq, o, binaya daxil olmalı, bütün salonlardan keçməli, xidməti qapıdan çıxmalı və kərpiclərlə "işini" davam etdirməli idi.

Elə birinci dəfədə, müəmmalı hərəkətləri görüb, onu heyranlıqla seyr edən yüzlərlə adamın diqqətini cəlb etdi. Dördüncü dövrədə, nə etdiyini müzakirə edən avaralar, onu dövrəyə aldılar. Hər dəfə o, muzeyə daxil olduqda, onun ardınca gələn adamlar, yalnız bu qəribə adamı nəzərdən qaçırmamaq naminə giriş biletini alırdılar. Muzeydə onların diqqətini kolleksiyalar cəlb etdi, bəziləri salonlarda ləngidilər. Birinci günün sonuna kimi əlində kərpic olan qəribə adam öz ardınca muzeyə minə yaxın adam gətirdi. Bir neçə gündən sonra, polis işə müdaxilə etdi — ona bu hərəkətə son qoymaq əmr edildi, belə ki, qəribə adamın başına toplaşan camaat küçə hərəkətinə mane olurdu. Kərpiclərlə gəzinti qurtardı, ancaq Nyu-Yorkun minlərlə sakini muzeydə oldu və onların bir çoxu Barnumun tərəfdarına çevrildilər. Barnum küçəyə baxan balkonda "Milyonlar üçün pulsuz musiqi" yazılmış iri transparantın altında musiqiçilər ansamblını yerləşdirdi. Nyu-Yorkun sakinləri pulsuz konserti dinləməyə tələsərək, bunun necə də əliaçıqlıq olduğunu fikirləşdilər. Ancaq Barnum ən zəif musiqiçiləri işə götürmüşdü və ansambl

Şahzadəyə göstərilmək üçün layiq hesab edilən sənət əsəri hansısa müstəsna xüsusiyyətə malik olmalıdır. Həmçinin rəssamın özü də öz davranışı ilə seçilərək, sarayda diqqəti cəlb etməyə cəhd edə bilər. Vizarinin fikrincə, Sodoma "özünün qeyri-adi və qəribə xüsusiyyətləri ilə məşhur olduğu kimi, məşhur rəssam ad-sanı ilə də yaxşı tanınırdı". Papa X Lev "belə qeyri-adi və qəribə adamları xoşladığından" ona cəngavər rütbəsi verdi, bu da rəssamı artıq tamamilə öz məcrasından çıxardı. Ağzı və ya ayaqları ilə rəsmlər

çəkməyə cəhd edən Kornelis Ketelin təcrübələrinin nəticələri, Van Manderi təəccübləndirirdi. Bu rəsmlər ən adlısanlı müştərilərin tələbatına çevrildi, axı Ketel, Boskininin bildirdiyinə görə, "guya Böyük Yaradanın istifadə etdiyi metodu təqlid edərək" barmaqları ilə yazan Titsiananın, Uqo de Karpinin və Palma Covanenin oxşar təcrübələrini yalnız inkişaf etdirirdi. Van Mander xəbər verirdi ki, Hossert imperator V Karlın diqqətini kağızdan düzəldilmiş fantastik paltar geyməsi ilə cəlb etmişdi. Belə etməklə o, Makedoniyalı İsgəndərlə görüşə bilmək üçün

guruldamağa başlayanda, çoxları "musiqinin" kəskin səsindən canlarını qurtarıb, daldalanmaq üçün muzeyə bilet almağa tələsdilər.

Barnumun ilk qəribə işlərindən biri, bütün ölkəni gəzdirdiyi Coys Xet adlı qadınla bağlı idi. Bu qadın deyirdi ki, onun 161 yaşı var və Barnum onu Corc Vaşinqtonun keçmiş dayəsi kimi nümayiş etdirirdi. Tamaşanın başlanmasından bir çox aylar keçdikdən sonra, tamaşaçı kütləsi seyrəlməyə başladı. Belə olduqda, Barnum qəzetlərə anonim məktublar göndərdi. Bu məktublarda deyilirdi ki, "Coys Xet adam deyil, balina bığından, kauçukdan və çoxlu sayda yaydan hazırlanmış avtomatdır". İndiyə kimi qoca qarıya nəzər yetirməyə vaxt tapmayanlar, dərhal onunla maraqlandılar, bu vaxta kimi onu görənlər isə, bu qadının robot olması haqqında şayiələrin həqiqət olduğunu yoxlamaq üçün bilet alaraq tamaşaya gəldilər.

1842-ci ildə Barnum su pərisinin təsviri şəklində karkas əldə etdi. Bədəni balıq şəklində olan bu fiqur meymunu xatırladırdı, ancaq onun başı və bədəni çox incəliklə hazırlanmışdı. Barnum texnikanın bu möcüzəsinin Yaponiyada hazırlandığını və onun nümayiş etdirilməsinin orada əsl sensasiya yaratdığını öyrənə bildi.

Bununla belə, Barnum ölkənin bütün qəzetlərində Fici adalarında canlı su pərisinin tutulması haqqında məlumat yaydı. O, eksponatı muzeydə nümayiş etdirdikdə, belə mifik varlığın mövcudluğu haqqında müzakirələr bütün milləti bürüdü. Barnum qəzetdə kampaniyaya başlayana qədər, su pərisi məsələsi heç kimin yadına belə düşmürdü, indi isə, hamı coşğunluqla belə bir varlığın reallığını müzakirə edirdi. Hamının Ficidən tutulmuş su pərisinə baxmağa can atdığı və onun canlı olması barədə mərc gəldikləri günlərdə, tamaşaçıların sayı rekord rəqəmə çatdı.

onun qarşısına Heraklın çılpaq görkəmində çıxmış Dinokratın taktikasını təkrar etmişdi.

Martin Varnke, "Saray rəssamı", 1993.

Bir neçə ildən sonra, Barnum on bir yaşlı ingilis oğlanı kimi təqdim etdiyi, Konnektikutdan olan beş yaşlı General Cırtdanla Avropanı gəzdi. Barnum ona çoxlu sayda tryuk öyrətmişdi. Bu səfərdə Barnum o qədər diqqəti cəlb etdi ki, ağıl və müdriklik mücəssəməsi olan kraliça Viktoriyanın özü, onu və istedadlı oğlanı Bukinhem sarayında rəsmən qəbul etdi. Qoy ingilis mətbuatı Barnumu nə qədər ələ salırsa salsın — Viktoriya vüqarla özünün əyləndirilməsinə ona imkan vermiş və nəticədə həmişə onun haqqında hörmətlə danışmışdı.

İZAHI

Barnum diqqəti cəlb etməyin əsas qaydalarını mənimsəmişdi: əgər nəzərlər sənə dikilibsə, sən xüsusi üstünlük əldə edirsən. Barnumun maraq yaratması izdihamın yığışmasına səbəb oldu. O sonralar yazırdı: "İstənilən izdihamın astarı gümüşdəndir". İzdiham özünün işə cəlb

edilməsinə həvəslə imkan verir. Budur, hər şeylə maraqlanan bir nəfər əlində kərpic olan adamın yanında dayanır, onun ardınca çoxlu adamlar belə edir. Onlar dovşan kimi yığışırlar. Nəzəri cəlb etməyən bir təkan və onlar artıq sizin muzeyinizə can atırlar və ya tamaşanıza baxırlar. İzdihamı bir yerə yığmaq üçün nəsə qeyri-adi, qəribə bir şey fikirləşib tapmaq lazımdır. İstənilən maraqlı hadisə, əcaib bir şey buna uyğun gəlir, çünki izdiham qəribə və izaholunmaz hər şeyi maqnit kimi özünə çəkir. Adamların diqqətini cəlb edin, onları əldən buraxmayın. Barnum rəqiblərinin fəndlərinin uğur gətirdiyini gördükdə, onları həvəslə tətbiq edirdi.

Zirvəyə yüksəlişinizin əvvəlində diqqəti özünüzə cəlb etmək üçün qüvvənizi əsirgəməyin. Ən vacib olan budur: diqqətin nəyə yönəldiyinin əhəmiyyəti yoxdur. Barnum öz tamaşaları və fırıldaqları haqqında ifşaedici fikirlərə reaksiya verməyərək, heç vaxt şikayətlənmirdi. Əgər hansısa qəzetçi onu daha nifrətlə ifşa edirdisə, o, bu jurnalisti öz tamaşasının ilk baxışına dəvət edir və ona yaxşı yer verirdi. Bəzən Barnum, adının qəzet səhifələrindən düşməməsi naminə, öz işlərini özü mətbuatda anonim tənqid edirdi. Barnumun fikrincə, diqqət — bunun müsbət və ya mənfi olmasının əhəmiyyəti yoxdur — onun uğurlarını şərtləndirən əsas cəhətlərdən biri idi. Məşhurluğa, şöhrətə və əlbəttə, hakimiyyətə can atan adam üçün, ən acınacaqlı tale, onun unudulmasıdır.

Əgər saray adamı, hansısa açıq tədbirdə, məsələn, cıdır yarışında iştirak etməli olarsa, izdihamın diqqətini maqnit kimi özünə möhkəm cəlb etmək üçün, atının görkəminin və yəhər-yüyəninin çox yaxşı olmasına, özünün də bu yarışa bütün ustalıq, fənd və məharətə yiyələnməklə lazımi şəkildə hazırlaşdığına əmin olmalıdır.

Baldassarre Kastilone.

HAKİMİYYƏTİN AÇARI

Ətrafdakılardan daha parlaq işıq saçmaq qabiliyyəti — heç kimdə anadangəlmə deyildir. Siz "maqnit dəmiri cəzb edən kimi, diqqəti möhkəm cəlb etməyi" öyrənməlisiniz. Karyeranızın əvvəlində siz ad və şöhrətinizi elə şeylərlə, məsələn, maraqlı görünəcək və sizin haqqınızda danışmağa məcbur edəcək özünüzə məxsus qeyri-adi geyim üslubunuzla əlaqələndirməlisiniz ki, sizi başqalarının əhatəsindən seçsinlər. Bu xüsusiyyətiniz möhkəmləndikdə, siz şəxsiyyətə çevrilirsiniz, ulduzunuz üfüqlərdə parlayır.

Yayılmış yanılmanın, yalnız sizə məxsus olması zahirən ziddiyyətli olmamalıdır. Bunun sizə qarşı hücumların predmetinə çevrilməsi xoşagəlməzdir. Həqiqətlə uzlaşmayan bundan başqa hər hansı şeyi təsəvvür etmək çətindir. Səhvlərdən yaxa qurtarmaq və başqasının sizin şöhrətinizi kölgədə qoymaması üçün, başqasının xeyrinə özünüzə qarşı olan bu cür diqqətdən imtina etməməlisiniz. Son nəticədə, istənilən diqqət sizin xeyrinizə olacaqdır. Gördüyümüz kimi, Barnum hər cür hücumdan sevinir və müdafiəyə heç bir ehtiyac duymurdu. O, yalançı maskasını könüllü olaraq geyinmişdi.

XIV Lüdovikin sarayı istedadlı yazıçılar, rəssamlar, gözəllər, həmçinin heç bir qüsuru olmayan fəzilətli kişilər və qadınlarla dolu idi, ancaq onların heç biri haqqında hersoq Lozanna barəsində söhbət edilən qədər danışmırdılar. Hersoq gödək boylu, demək olar ki, cırtdan idi və onun davranışı həddindən artıq cəsarətliliyi ilə fərqlənirdi — o, kralın məşuqəsi ilə bir yerdə yatır və təkcə saray adamlarını deyil, kralın özünü də təhqir edirdi. Ancaq hersoqun qeyri-adi hərəkətləri Lüdoviki elə əyləndirirdi ki, hersoq olmayanda, o, möhkəm darıxırdı. Bunun izahı sadə idi: hersoqun dözülməz xasiyyətinin qəribəlikləri diqqəti cəlb edirdi. Hersoqun cazibədarlığı ətrafdakılara təsir edən kimi, onlar nəyin bahasına olursa-olsun, onunla ünsiyyətdə olmaq istəyirdilər.

Cəmiyyət adilik və ortabablıq üzərində yüksələn parlaq şəxsiyyətlərə ehtiyac duyur. Buna görə də, sizi izdihamdan fərqləndirən cəlbedici keyfiyyətlərinizdən utanmayın. Toqquşmadan, hətta qalmaqaldan çəkinməyin. Hücumlar, hətta təhqirlər unudulmaqdan yaxşıdır. Bu qanun bütün peşələr üçün doğrudur, hər bir peşəkar ruhən bir qədər şoumen olmalıdır.

Böyük alim Tomas Edison başa düşürdü ki, pul qazanmaq üçün, nəyin bahasına olursa-olsun, həmişə diqqət mərkəzində olmaq lazımdır. O, ixtiranı ictimaiyyətə təqdim etməyə, ictimaiyyətin diqqətini cəlb etməyə, demək olar ki, ixtiranın özü qədər əhəmiyyət verirdi.

Edison elektrik sahəsində öz kəşflərini nümayiş etdirmək üçün maraq doğuran təcrübələr keçirdi. O, fantastik görünən gələcəyin ixtiraları — insan fikrinin şəklini çəkməyə qadir olan maşınlar haqqında ona görə danışmırdı ki, onlar üzərində işləməyə qüvvə sərf etməyə hazırlaşırdı, ona görə danışırdı ki, ictimaiyyəti özü haqqında danışmağa məcbur etsin. O, özünün böyük rəqibi Nikola Tesladan daha artıq diqqət mərkəzində olmaq üçün hər şey edirdi. Tesla ola bilsin, həqiqətən Edisondan istedadlı idi, ancaq onun adı kölgədə qalmışdı. 1915-ci ildə Edison və Teslanın fizika sahəsində birlikdə Nobel mükafatına layiq görüləcəyi barədə danışmağa başladılar. Əslində isə mükafat iki ingilis fizikinə təqdim edildi. Yalnız sonralar məlum oldu ki, Nobel Komitəsi əvvəlcə həqiqətən Tesla və Edisonun namizədliyi üzərində dayanmış, ancaq Edison mükafatı Tesla ilə bölməkdən imtina etmişdi. Bu vaxta kimi o, Tesladan fərqli olaraq, artıq möhkəm şöhrət qazanmışdı və yüksək şərəfdən imtina etməyi, rəqibinin adının çəkilməsinə yol verməkdən üstün tutmuşdu.

Əgər siz aşağı mövqeyə maliksinizsə və bu diqqəti özünüzə cəlb etmək üçün sizə xüsusi şans vermirsə, "əlinizin çata biləcəyi" ən görkəmli, ən güclü, ən məşhur şəxsiyyətə hücum etməyiniz səmərəli üsul olacaqdır.

XVI yüzilliyin əvvəllərində, gəncliyində yalnız çapçı şagirdi olmuş Pyetro Aretino şair kimi diqqəti cəlb etmək üçün, Roma papasını və onun ələ öyrədilmiş filə bağlılığını masqaraya qoyan satirik şerlər seriyasını nəşr etməyə başladı. Bu hücum Aretinoya dərhal şöhrət qazandırdı. Güclü adamlara böhtançı hücumlar, adətən oxşar səmərəyə malikdir. Ancaq yadda saxlayın ki, ictimai fikrin obyektinə çevrildikdən sonra sizin artıq bu üsuldan sui-istifadə etməyiniz lazım deyil — bu əks nəticə verə bilər.

Diqqət mərkəzində olmaqla siz, özünüzün diqqəti cəlb etmək üsulunuzu şəraitə müvafiq dəyişdirərək və uyğunlaşdıraraq özünüzə maraq yarada bilərsiniz. Əgər bunu etməsəniz, ictimaiyyət darıxacaq və öz marağını başqa obyektə yönəldəcək. Oyun daim sayıqlıq və yaradıcı yanaşma tələb edir.

Pablo Pikasso heç vaxt özünün mühitlə qaynayıb-qarışmasına imkan vermirdi. Onun adı hansısa adi bir üslubla əlaqələndirildikdə, o, ictimaiyyəti yeni gözlənilməz işlər seriyası ilə heyrətə salırdı. O, tamaşaçıları öz üslubuna həddindən artıq uyğunlaşmağa imkan verməkdənsə, onları pis əsərlərlə hövsələdən çıxarmağın yaxşı olduğunu fikirləşirdi. Bir şeyi başa düşmək lazımdır: adamlar digərlərinin əvvəlcədən hansı hərəkətlər edəcəklərini görə bildikləri halda öz üstünlüklərini hiss edirlər. Əgər siz onlara qarşı çıxaraq, özünüzün zirvədə olduğunuzu sübut edə bilirsinizsə, birdəfəlik hörmət qazanır və daha ciddi diqqət obyektinə çevrilirsiniz.

OBRAZ:
SƏHNƏ İŞIQLARI

Bu gözqamaşdırıcı dairədə çıxış edən aktyor, həyatın zirvəsinə yüksəlir. Hamı ona baxır. İşıq qurğusunun ensiz şüa zolağı yalnız bir adamı işıqlandıra bilər. Bu şüaları öz üzərində saxlamaq üçün bacardığın hər şeyi et. Maraqlı, mənalı və ya qalmaqallı ol, təki işıq şüaları sənə tuşlanaraq başqa aktyorları kölgədə buraxsın.

MÖTƏBƏR FİKİR

"Özünü göstər, diqqət mərkəzində ol... Nəyi görmürlərsə, sanki o mövcud deyil... Yaradılan bütün şeylərə işıq ona görə bəxş edilib ki, onlar parıldasınlar. Nümayiş bir çox boşluqları doldurur, qüsurları aradan qaldırır və hər şeyə, xüsusən o əsl məziyyətlərə əsaslandığı halda, ikinci həyat verir.

Baltazar Qratsian.

II HİSSƏ. ƏSRARƏNGİZLİK ŞAN-ŞÖHRƏTİ YARAT

Bayağı və darıxdırıcı dünyada nə müəmmalı görünürsə, o, hər şeyi özünə cəlb edir. Nə etdiyinizi və ya etmək niyyətində olduğunuzu heç vaxt həddindən artıq aydın şəkildə izah etməyin. Bütün kartları açmayın. Müəmmalı mühit sizi yüksəldər. O, ümid yaradacaq — hamı nə baş verəcəyini görmək üçün nəzərlərini çəkmədən sizə baxacaqdır. Aldatmaq, yoldan çıxarmaq və hətta qorxutmaq üçün müəmmadan istifadə edin.

QANUNA RİAYƏT EDİLMƏSİ

1905-ci ildə Parisdə xüsusi evlərdə rəqs edərək, büründüyü tül örtüyü tədricən soyunub atan gənc Şərq qadını haqqında şayiələr meydana çıxdı. Onun rəqsini görən jurnalist yazırdı: "Qiymətli daş-qaşları, parlayan və gözəl ətirləri adamı bihuş edən şərqli qadın Şərqin dəbdəbəsini və ən yaxşı xüsusiyyətlərini həyatdan doymuş Avropa şəhərlərində nümayiş etdirmək üçün Avropaya gəlmişdir". Rəqqasənin adı tezliklə hamıya məlum oldu: Mata Xari.

Həmin ilin əvvəlində, qışda azsaylı seçmə tamaşaçılar, hind heykəlləri və başqa əntiq şeyləri ilə bəzədilmiş salona toplaşdılar. Orkestr hind və yapon musiqisi çalırdı. Tamaşaçıları gözləməyə və fərziyyələr qurmağa məcbur edərək, Mata Xari gözlənilmədən parıldayan paltarda səhnəyə çıxdı: əynindəki pambıqdan olan ağ qısa kofta hind üslubunda qiymətli daş-qaşlarla bəzədilmişdi; bütünlüklə daş-qaşdan ibarət olan belindəki qurşaq bədənini örtməkdən çox çılpaq göstərən saronqu saxlayırdı; qollarını aşağıdan yuxarıya qədər bilərziklər bəzəyirdi. Mata Xari indiyə kimi Parisdə hələ heç kimin görmədiyi üslubda, eynilə trans vəziyyətində olduğu kimi, bütün bədəni ilə qıvrılaraq rəqs etməyə başladı. O, vəcdə gəlmiş və ələ alınmış tamaşaçılara danışırdı ki, onun rəqsləri hind əsatirlərinin və yapon nağıllarının məzmununu ifadə edən hekayətdir. Şayiələrə görə, tezliklə Paris ictimaiyyətinin yüksək təbəqəsi, həmçinin uzaq ölkələrin səfirləri, Mata Xarinin mərasim rəqslərini çılpaq ifa etdiyi, həmin salona dəvətnaməni dava-qırğınla əldə edirdilər.

Tamaşaçılar onun haqqında çox şey bilmək istəyirdi. Rəqqasə jurnalistlərə danışırdı ki, o, əslən hollandiyalıdır, ancaq Yava adasında böyüyüb. O, hind mərasim rəqslərini öyrəndiyi Hindistanda keçirdiyi günlər barədə, hind qadınlarının "dəqiq atəş açmağı, at çapmağı, loqarifmlər hesablamağı və fəlsəfi mövzularda söhbət etməyi bacarması" haqqında da danışırdı. 1905-ci ilin yayına kimi, rəqslərini çox az parisli görməsinə baxmayaraq, onun adı dillərdə gəzirdi.

Mata Xarinin yeni müsahibələrində onun həyat hekayəti dəyişilərək başqa cür ifadə olunurdu: o, Hindistanda böyümüşdü, nənəsi Yava şahzadəsinin qızı idi və Sumatra adasında yaşayaraq günlərini "əlində silah at belində, həyatını təhlükəyə qoymaqla" keçirmişdi. Heç kim onun haqqında dəqiq bir şey bilmirdi, ancaq onun tərcümeyi-halının müxtəlif cür təsvir edilməsi qəzetçiləri təəccübləndirmirdi. Onlar rəqqasəni hind ilahələri ilə müqayisə edir, onu Bodlerin kitabından çıxmış varlıq hesab edirdilər. Eyni zamanda Şərqdən gəlmiş bu sirli qonağı təsəvvürlərində canlandırmağa çalışaraq, ona yeni-yeni simalar verirdilər.

1905-ci ilin avqustunda Mata Xari ilk dəfə olaraq geniş auditoriya qarşısında çıxış etdi. Onun ilk çıxışını görməkdən ötrü alışıb-yanan səbirsiz tamaşaçılar çaxnaşma yaratdılar. İndi o, çoxlu təqlidçi yaradan pərəstiş obyektinə çevrilmişdi. Qəzetlərdən biri yazırdı: "Mata Xari — hind poeziyasının, onun mistisizminin, həssaslığının, sehrkar füsunkarlığının mücəssəməsidir". Başqa bir qəzet qeyd edirdi: "Əgər Hindistan belə ləl-cəvahiratla zəngindirsə, bütün fransızlar tezliklə Qanq çayının sahillərinə köçəcəklər".

Mata Xarinin və onun hind mərasim rəqslərinin şöhrəti tezliklə Parisin hüdudlarından kənara yayıldı. Onu Berlinə, Vyanaya, Milana dəvət etdilər. Bir neçə il ərzində o, yüksək sosial dairələrdə dolaşaraq, o dövrün qadınlarının nadir hallarda istifadə etdiyi sərbəstliyi verən qonorarlar alaraq, Avropa ölkələrində qastrollar verdi. Sonra o, Birinci Dünya müharibəsi ərəfəsində Fransada həbs edildi. Onu alman casusu kimi dindirdilər, ittihamnamə təqdim edərək mühakimə etdilər. Həqiqət yalnız məhkəmədə üzə çıxdı: Mata Xari nə Yavadan və nə də Hindistandan gəlməmiş, Asiyada böyüməmişdi, onun damarlarında bir damla da olsa Şərq qanı yox idi. Onun əsl adı Marqareta Zelle olub, əslən Hollandiyanın fleqmatik (soyuqqanlı) şimal şəhərciyi Frislanddan idi.

İZAHI

Marqareta Zelle 1904-cü ildə Parisə gələndə onun cibində yarım frank pul var idi. O, naturaçı, gecə klublarında rəqqasə və ya Foli Berjerin yanında statist işləmək üçün hər il Parisə axışıb gələn minlərlə gözəl və xoşsifət qızlardan biri idi. Bir neçə ildən sonra labüdən daha gənc qızlarla əvəz edildikdə, onlar həyatlarının son günlərini küçələrin səkilərində keçirməyə və ya qocalmış və peşman olmuş halda evlərinə qayıtmağa məcbur olurdular.

Zellenin daha böyük iddiaları var idi. O, rəqs etməyi bacarmırdı və heç vaxt teatrda işləməmişdi, ancaq gənclik illərində ailəsi ilə səyahətdə olarkən Yava və Sumatra adaları əhalisinin rəqslərini görmüşdü. Zelle gözəl başa düşürdü ki, onun planında vacib olan, əslində rəqslər, şəxsiyyət və ya boy-buxun deyil, onun öz-özünü əsrarəngizlik şəfəqinə bürüməyə nail olmasıdır. Yaratdığı əsrarəngizlik nə onun rəqslərində və kostyumlarında, nə danışdığı hekayətlərdə, nə də öz əsli barədə uydurduğu yalanlarda idi: bu əsrarəngizlik Mata Xarini və onun bütün hərəkətlərini əhatə edən mühitdə idi. Onun haqqında bəlkə də heç nə məlum deyildi. O, öz pərəstişkarlarını yeni geyimlər, rəqslər və hekayətlərlə heyrətə salaraq, daima dəyişirdi. Bu, növbəti gedişi gözləyərək, daha çox şey bilməyə can atan tamaşaçıları özünə cəlb edirdi. Mata Xari Parisə gələn qızların əksəriyyətindən gözəl olmasa da, bir o qədər yaxşı rəqs etməsə də, əsrarəngizliyi, onu kütlənin içərisindən ayırdı, tamaşaçıların diqqətini cəlb etdi və bu diqqəti özündə saxladı, ona şöhrət və sərvət qazandırdı. Adamlar müəmmadan ötrü özlərindən gedirlər. Açılması üçün daima səylər tələb edən müəmma, heç vaxt bezikdirmir. Müəmmalı şeyi ələ keçirmək mümkün deyil. Ölçülə və istifadə edilə bilinməyən şey isə hakimiyyət yaradır.

HAKİMİYYƏTİN AÇARI

Qədim zamanlarda dünya dəhşətli və dərkedilməz şeylərlə — xəstəliklər, fəlakətlər, şıltaq despotlar, müəmmalı ölümlərlə dolu idi. İnsanlar başa düşmədiklərini miflərdə mənalandırırdılar. Ancaq əsrlər keçdikdən sonra, elmin və sağlam təfəkkürün köməyi ilə zülməti işıqlandırmaq mümkün olurdu. Əvvəllər müəmmalı və qadağan olunmuş şeylər, indi aydın və adi şeylərə çevrilirdi. Ancaq bunun əvəzini ödəmək lazım gəlirdi: indi biz müəmmalardan və miflərdən məhrum olmuş bayağı dünyamızda, gizli olaraq dərkedilməz şeylər, izah edilməsi, ölçülməsi, istifadə edilməsi axıra qədər mümkün olmayan insanlar və ya əşyalar barədə xəyal edirik.

Bu əsrarəngizliyin hakimiyyətidir: o yeni-yeni müəmmalar yaratmağa həvəsləndirir, təsəvvürləri həyəcanlandırır, bizi onların arxasında nəsə sehrli bir şey gizləndiyinə inanmağa məcbur edir. Dünya necə də bayağı, sakinləri isə, taleyi əvvəlcədən bəlli olan insanlara çevrilmişdir! Buna görə də, hansısa müəmmaya bürünmək, projektorla işıqlandırılan dairənin, demək olar ki, bəlkə də mərkəzinə düşmək deməkdir və bu bizi ona nəzər yetirməyə məcbur edir.

Əsrarəngizlik mühiti yaratmaq üçün əzəmətli olmağın və pərəstiş təlqin etməyi bacarmağın lazım olduğunu təsəvvür etməyin. Sirr incədir və çətin fərqləndiriləndir, o, sizin gündəlik həyatınızdakı hadisələrə sarmaşaraq, olduqca güclü heyranlıq və cəlbedicilik yaradır. Yadda saxlayın: adamların əksəriyyəti açıq kitab kimidir, onları oxumaq olar, onlar öz sözlərinə və zahiri görünüşlərinə nəzarət etməyə az fikir verirlər, onların gələcək hərəkətləri həddindən artıq dərəcədə əvvəlcədən məlumdur. Arxa planda olun, bəzən ikimənalı ifadələr işlədərək az danışın, düşünərəkdən qeyri-ardıcıl görünün, çətinliklə sezilən qəribəliklərə yol verin — nəticədə sizin ətrafınızda əsrarəngizlik mifi yaranacaq. Ətrafdakılar daima sizdən bəhs etməyə çalışaraq, sonra bu mifi gücləndirəcəklər.

Rəssamlar kimi, fırıldaqçılar da, başa düşürlər: maraq yaratmaq üçün əsrarəngizlik lazımdır. Fırıldaqçılar arasında aristokrat olan qraf Viktor Lyustiq bu oyunu çox yaxşı mənimsəmişdi. O, həmişə qeyri-adi hərəkətlər edirdi, bəzən elə görünürdü ki, onların heç bir mənası yoxdur. O, sürücüsü yapon olan limuzində dəbdəbəli otellərə gedirdi. İndiyə kimi heç kim yapon sürücünü görməmişdi, bu qeyri-adi və qəribə görünürdü. Lyustiq çox bahalı paltarlar geyir, ancaq onlarda hökmən hansısa detal: medal, gül, qol sarğısı, nəzakətlə desək, öz yerində olmurdu. Bu zövqsüzlükdən çox, qəribə və maraqlı görünürdü.

Otellərdə onun bir-birinin ardınca çoxlu məlumatlar aldığını görmək olardı — bunları ona yapon-sürücü gətirirdi. O, gətirilən kağızları qəzəbli ifadə ilə cırıb atırdı. (Əslində onlar ağ kağız vərəqləri idi.) Lyustiq otelin qonaq otağında təkcə oturur, adamlara gülümsəyərək, ancaq onlarla ünsiyyətə girməyərək, çox böyük, heybətli görkəmi olan kitab oxuyurdu. Bir neçə gündən sonra, təbii ki, otelin bütün sakinləri bu qəribə adam haqqında nəsə öyrənmək arzusu ilə alışıb-yanırdılar.

Bütün bu maraq Lyustiqə sadəlövh adamları barmağına dolamağa kömək edirdi. Onlar Lyustiqdən diqqət göstərməyi və bir məclisdə olmağı tələb edirdilər. Hər kəs istəyirdi ki, onu məclislərdə müəmmalı aristokratla bir yerdə görsünlər. Bu şəkildə məst edilmiş avamlar özlərinin necə qarət edildiklərini hiss etmirdilər.

Ortabab əsrarəngizlik mühitindən ağıllı və dərin düşüncəli görünmək üçün də istifadə etmək olar. Bu adi zahiri görünüşə və nəzəri cəlb etməyən intellektə malik qadın olan Mata Xariyə özünü ilahəyə bənzətməyə, rəqslərinin isə valehedici olduğunu göstərməyə kömək etdi. Rəssamı əhatə edən əsrarəngizlik onun əsərlərini daha maraqlı edir. Bu fəndi Marsel Dyuşan uğurla tətbiq etmişdi. Bu çox sadədir: öz işin haqqında az danış, əyləncəli, bəzən ziddiyyətli şərhlər verərək, zarafat et və qılığa gir, sonra isə başqalarına bütün bunlardan məna çıxarmasına imkan ver.

Müəmmalı adamlar başqalarını özlərindən aşağı vəziyyətə qoyurlar, belə ki, başqaları onu dərk etməyə cəhd edirlər. Əsrarəngizlik mifinin həvəskarları hər şeyi qeyri-müəyyənliklə və naməlumluqla əhatə edirlər. Məsələn, Mao Tsze Dun özünün müəmmalılıq imicini ustalıqla saxlamağı bacarırdı: o, məntiqsiz və ya ziddiyyətli görünməmək üçün səy göstərmirdi — hərəkətlərinin və sözlərinin ziddiyyətli olması, onun həmişə yüksək mövqedə olduğunu göstərirdi. Hamıya, hətta arvadına da elə gəlirdi ki, Maonu başa düşmək mümkün deyil və bu ona əzəmət verirdi. Bu, ictimaiyyətin onun növbəti addımını narahatlıqla gözləyərək, həmişə ona maraq göstərdiyini bildirirdi.

Əgər ictimai vəziyyətiniz öz hərəkətlərinizi bütünlüklə gizləməyə imkan vermirsə, sizə heç olmazsa daha az aşkar olmağı öyrənmək lazımdır. Vaxtaşırı, adamların sizdən gözlədiklərinə uyğun olmayan hərəkətlər edin. Siz bu cür onları gərginlikdə saxlamağa və diqqəti özünüzə cəlb etməyə nail ola bilərsiniz ki, bu da, sizi güclü göstərər. Əgər müəmmanın yaradılması üzərində düzgün işləsəniz, o elə maraq doğura bilər ki, düşmənləriniz dəhşətə gələr.

İkinci Pun müharibəsi vaxtı (e.ə. 219-202-ci illər) Karfageninin böyük sərkərdəsi Hannibal Romaya gedən yolda qarşısına çıxan hər şeyi məhv edir və dağıdırdı. Hannibal ağlı və ikiüzlülüyü ilə məşhur idi. Onun komandanlığı altında olan Karfagen ordusu Roma ordusundan sayca az olsa da, strategiya və taktika cəhətdən onu üstələyirdi. Bir dəfə Hannibalın kəşfiyyatçıları kobud səhv buraxaraq, ordunu bataqlıq yerə gətirib çıxardılar, onların arxa tərəfi isə dəniz idi. Roma qoşunları materikin içərilərinə gedən yeganə dağ keçidini tutdular. Romalıların sərkərdəsi Fabiy sevinirdi — o, Hannibalın özünü tələyə salmışdı! Keşikçi postlarını yerləşdirərək, qalibiyyətli döyüş planını hazırlayırdı.

Ancaq gecənin bir aləmində qarovulçular aşağıda nəsə anlaşılmaz bir şey gördülər: dağa tərəf nəhəng məşəl dəstəsi irəliləyirdi. Minlərlə məşəl yanırdı. Əgər bu Hannibalın ordusu idisə, o, yüz dəfə artmışdı. Keşikçilər bunun nə ola biləcəyi barədə qızğınlıqla mübahisə edirdilər: bu dənizdən gələn kömək idimi? Pusquda durmuş qoşun idimi? Yoxsa qarabasma idi?

Bu məqamda məşəllər bütün dağa yayıldılar, aşağıdan dəhşətli səslər gəlməyə başladı, sanki aşağıda minlərlə şeypur çalınırdı. Keşikçilər bunların şeytan olması fikrinə gəldilər. Romanın ordusunun ən yaxşı və cəsur keşikçiləri öz mövqelərini çaxnaşma içərisində ataraq qaçdılar.

Ertəsi gün Hannibal artıq bataqlıqda yox idi. Onun hiyləsi nədən ibarət idi? O, birbaşa şeytanları köməyə çağırmışdımı?

Əslində o, orduda arabalara qoşulan və qurban kəsilməsi üçün istifadə edilən minlərlə öküzün buynuzlarına ağac budaqları bağlamağı əmr etmişdi. Budaqlara od vurulduqda, elə təəssürat yarandı ki, dağı saysız-hesabsız ordu mühasirəyə alır. Alov heyvanların dərisini yandırmağa başladıqda, onlar vəhşi böyürtü ilə hər tərəfə qaçışmağa başladılar, belə ki, öküzlər, yəni məşəllər dağın ətəklərinə yayılmağa başladı. Bu üsulun uğuru məşəllərdə və ya səs-küydə deyil, Hannibalın düşmən qarşısına qoyduğu həlledilməz məsələdə idi — müəmma keşikçilərin diqqətini cəlb etdi, onları dəhşətə gətirdi və qaçmağa məcbur etdi.

Əgər sizi küncə sıxışdırıblarsa, tələyə salıblarsa, əgər sizə müdafiə edilmək lazım gəlirsə, sadə təcrübədən istifadə edin: asan başa düşülməyən və ya izah edilməyən nəsə bir şey edin. Qoy bu adi hərəkət olsun, ancaq o, elə edilsin ki, sizin düşmənlərinizi özündən çıxarsın, — sizin məqsədinizi anlaşılmaz edən çoxlu yozumlara imkan versin. Sadəcə müəmmalı olmaq taktikası uğur qazandıra bilsə də, kifayət deyil. Hannibal kimi, anlaşıla bilməyən tamaşa qurun. Qoy sizin hərəkətinizdə müəyyən sistem, üsul, səbəb barədə heç bir aydınlıq olmasın. Əgər sizin planınız baş tutarsa, siz qorxu və həyəcan yaradarsınız və keşikçilər özlərinin bütün mövqelərini atıb qaçarlar. Bu "ağılsız Hamlet taktikası" adlandırılır, çünki Şekspirin qəhrəmanı öz anlaşılmaz davranışı ilə atalığını qorxudaraq, öz məqsədinə nail olmuşdu. Qorxunun gözləri böyükdür; müəmmanın hesabına sizin ordunuz sayca daha çox görünəcək, hakimiyyətiniz daha vahiməli olacaqdır.

OBRAZ:

TÜL GEYİMDƏ RƏQS

Tül geyim rəqqasəni bürüyür. Onun azacıq açılması həyəcan yaradır. Maraq oyadan tülün altında gizlənəndir. Sirrin əsas mahiyyəti budur.

MÖTƏBƏR FİKİR

Öz daxilini dərhal açmamaqla, intizarla gözləməni daha gərgin edirsən... Hər şeyə bir az sirr qat, bu öz-özlüyündə hörmət və ehtiram yaradır. İzahat verərkən, həddindən artıq aydın və aşkar olma... Sən adamları bu cür müəmmalar içində çaşıb qalmağa və gözləməyə məcbur edərək, müqəddəs bir yolun yolçusuna bənzəyərsən.

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

Yüksəlişin əvvəlində, sizə, nəyin bahasına olursa-olsun, diqqəti özünüzə cəlb etmək, yüksəlişə müvafiq olaraq isə, daim dəyişikliyə uyğunlaşmaq lazımdır. Uzun müddət eyni bir üsulu tətbiq etməyin. Əsrarəngizlik mühiti öz hakimiyyət aurası üzərində işləyənlər, təmkinli və səbirli görünərək məşhur olmaq istəyənlər üçün çox yaxşıdır. Mata Xari öz uydurmalarında çox uzağa getdi. Casusluqda ittiham edilməsi qurama olsa da, o, daim yalan danışmasına görə şübhəli və ləyaqətsiz göründüyündən, irəli sürülən ittiham ağlabatan və inandırıcı idi. Sizi əhatə edən əsrarəngizlik dumanının tədricən yalançı ad-sanına çevrilməsinə yol verməyin. Müəmma əyləncəli yarıoyun və təhlükəsiz kimi görünməlidir. Həddindən artıq uzağa getməyin və işin içərisindən çıxmağı bacarın.

Qalmaqalların və hay-küyün az olmasının lazım gəldiyi vaxtlar, ən yaxşısı, ictimaiyyətin diqqət mərkəzində olmamaqdır. Sizə olan diqqət, böyük adamların heysiyyətinə, heç olmazsa onların vəziyyətinin möhkəm olduğu vaxtlar toxunmamalı və ya onların ad-sanı ilə rəqabətə girməməlidir. Siz bu müqayisədən yalnız uduza bilərsiniz. Nə vaxt diqqət mərkəzində olmaq üçün mübarizə aparmaq, nə vaxt kölgəyə çəkilmək lazım gəldiyini bilmək — bu bütöv bir sənətdir.

Lola Montes diqqəti cəlb etmək sənətini çox gözəl mənimsəmişdi. O, əslən kiçik bir şəhərdən idi. Lola taleyində dönüş yaratmağa nail olaraq, Frents Listin məşuqəsinə, sonra isə kral

Lüdovik Bavarskinin sevimlisinə və siyasi müşavirinə çevrildi. Yaşlı vaxtlarında, o, əndazəni aşaraq öz həddini itirdi.

1850-ci ildə bütün London o dövrün böyük aktyoru Çarlz Con Kinin iştirakı ilə Şekspirin "Maqbet" əsərinin ilk tamaşasını gözləyirdi. Bütün ingilis elitası tamaşada olmalı idi. Həttta kraliça Viktoriyanın və şahzadə Albertin də tamaşaçılar içərisində olacağını deyirdilər. O dövrün adətinə görə, kraliça gələnə qədər, hamı öz yerini tutmalı idi. Buna görə, tamaşaçılar öz yerlərini əvvəlcədən tutdular, kraliça öz lojasına qalxdıqda, hamı ayağa durdu və onu alqışlarla qarşıladı. Kraliça və şahzadə bir qədər gözləyib, təzimlə cavab verdilər, hamı əyləşdi, işıqlar söndürüldü.

Birdən tamaşaçıların baxışları kraliçanın qarşı tərəfində olan lojaya sataşdı: kölgədən bir qadın çıxdı və kraliçanın yanındakı kresloda oturdu! Bu Lola Montes idi. Onun qara saçlarını brilyantdan olan tacşəkilli başlıq bəzəyirdi, çiyninə uzun xəz mantiya (plaş şəklində qolsuz üst geyimi) atmışdı. Tamaşaçılar sincab xəzindən olan mantiyanın onun çiynindən sürüşüb düşməsinə, boynunu və sinəsini tamam açıq qoyan al-qırmızı məxmər paltarına nəzər salaraq, təəccüblə pıçıldaşdılar. Tamaşaçılar hiss etdilər ki, kral ailəsi Lolanın oturduğu lojaya tərəf baxmaq istəmir. Yavaş-yavaş tamaşaçılar da kraliçadan nümunə götürərək, Lolaya tərəf baxmadılar, tamaşanın sonuna qədər heç kim ona əhəmiyyət vermədi. Tamaşadan sonra heç kim onu dəvət etmədi. Cazibədarlığı indi onun əleyhinə çevrilmişdi. Hamı onun baxışlarından qaçırdı. İngiltərədə artıq onun gələcəyi yox idi.

Diqqəti cəlb etməyə can atmağa heç vaxt həddindən artıq səy göstərməyin — bu cür həvəs sizin inamsızlığınızı göstərir, inamsızlara isə hakimiyyət verilmir. Diqqət mərkəzində olmağın heç də həmişə, məsələn, kralın, kraliçanın və ya onlara bərabər olanların iştirak etdiyi yerlərdə, sizin maraqlarınıza uyğun olmadığını başa düşmək lazımdır. Bu halda, mübarizəyə qoşulmayaraq, təzim edin və kölgədə dayanın.

YEDDİNCİ QANUN

BAŞQALARINI ÖZÜNƏ İŞLƏMƏYƏ MƏCBUR ET VƏ NƏTİCƏLƏRDƏN BƏHRƏLƏN

QANUNUN MƏZMUNU

Öz işlərinizin irəli getməsi üçün başqa adamların ağlından, biliyindən və sərvətindən istifadə edin. Belə kömək, təkcə sizin qiymətli qüvvənizə və vaxtınıza qənaət etməyəcək, həm də sizə çox gözəl uğurlu adam şan-şöhrəti qazandıracaq. Sizin köməkçiləriniz unudulacaq, sizi isə xatırlayacaqlar. Başqalarının sizin üçün edə biləcəyini, heç vaxt özünüz etməyin.

QANUNUN POZULMASI VƏ QANUNA RİAYƏT EDİLMƏSİ

1883-cü ildə milliyyətcə serb olan gənc alim Nikola Tesla Edisonun Qitə Şirkətinin Avropa bölməsində çalışırdı. O, yüksək səviyyəli ixtiraçı idi. Müəssisənin meneceri və Edisonun şəxsi dostu Çarlz Beçelor, Edisonun özünə zəmanət məktubu yazmağa söz verərək, onu xoşbəxtliyini Amerikada sınamağa razı saldı. Teslanın axıra qədər kədər və uğursuzluqlardan ibarət olan həyatı belə başlandı.

Tesla Nyu-Yorka gəlib özünü Edisona təqdim etdikdə, məşhur ixtiraçı dərhal onu işə götürdü. Tesla Edisonun primitiv dinamo-maşınını təkmilləşdirmək üsullarını axtarırdı. Nəhayət o, qurğunun bütün konstruksiyasını dəyişməyi təklif etdi. Bu iş Edisona, illərlə yerinə yetirilə bilinməyəcək dərəcədə böyük görünsə də, o, belə cavab verdi: "Əgər siz bunu edə bilsəniz, 50 min dollar alacaqsınız".

Tesla layihə üzərində gecə-gündüz işlədi və artıq bir ildən sonra dinamo-maşının əsaslı şəkildə təkmilləşdirilmiş, tamamilə avtomatik idarə olunan modelini təqdim etdi. O, öz sevincini bölmək və 50 min dollarını almaq üçün Edisonun yanına gəldi. Edison təkmilləşməni bəyəndi, ancaq məsələ pulun üstünə gələndə: "Tesla, siz Amerika yumorunu başa düşmürsünüz!" — deyərək, əvəzində cüzi mükafat təklif etdi.

TISBAĞA, FİL VƏ KƏRGƏDAN

Bir dəfə tısbağa ilə rastlaşan fil bağırdı: "Yolumdan çəkil, zəif məxluq — mən səni ayaqlaya bilərəm!" Tısbağa qorxmadı və yerində qaldı, belə ki, fil onu ayaqladı, ancaq əzə bilmədi. Tısbağa dedi: "Lovğalanma, cənab fil, axı mən də sənin kimi güclüyəm". Ancaq fil ona qəhqəhə ilə güldü. Belə olduqda, tısbağa ona ertəsi gün səhər təpədə görüşməyi təklif etdi. Ertəsi gün sübh çağı gün çıxmamış tısbağa təpədən çaya endi, burada kərgədanla rastlaşaraq, ona dedi: "Cənab Kərgədan, gücümüzü sınayaqmı?

Teslanın ideyası dəyişən cərəyanla işləyən mexanizmlərin yaradılmasından ibarət idi. Edison isə yalnız sabit cərəyanla işləyən mexanizmlərin yaradılmasına inanırdı. O, Teslanın tədqiqatlarını dəstəkləməkdən imtina ilə kifayətlənməyərək, həm də bu tədqiqatları pozmaq üçün mümkün olan hər şeyi etdi. Tesla özünün elektrik şirkətini açmış iri maqnat Corc Vestinqauza müraciət etdi. Vestinqauz Teslanın tədqiqatlarının haqqını tamamilə ödədi və gələcək üçün ona yüksək müəlliflik mükafatı ilə çox faydalı müqavilə təklif etdi (Teslanın işləyib hazırladığı dəyişən cərəyanla işləyən bütün sistemlərdən, bu gün də əsas kimi istifadə edilir). Ancaq, Teslanın adına patent sənədləşdirildikdən sonra, onun ixtirasından istifadə edən alimlərin bəzisi əsas işi özlərinin gördüklərini bildirirdilər. Teslanın adı qarışıqlıqda itib-batdı, hətta mətbuat ixtiranı Vestinqauzun adına çıxdı.

Bir il sonra müəssisəni satmaq barədə Vestinqauzla C.Pirpont Morqan arasında danışıqlar getdiyi məlum oldu. Morqan Tesla ilə olan müqavilənin ləğv edilməsi şərtini qoyurdu. Vestinqauz alimə izah etdi ki, əgər o, müqaviləyə uyğun olaraq bütün qonorarları ödəməli olsa, şirkət iflasa uğrayar. O, Teslaya onun patentlərini 216 min dollara almağı təklif etdi — bu böyük məbləğ olsa da, ancaq şirkətin ona verməli olacağı on iki milyon dollarla müqayisəedilməz dərəcədə az idi. Maliyyəçilər Teslanı puldan, patentlərdən və xeyli dərəcədə həyatındakı başlıca ixtiranın müəllifliyinin tanınmasından məhrum etdilər.

Hilelmo Markoninin adı radionun kəşfi ilə əbədi bağlıdır. Ancaq çox az adama məlumdur ki, o, iş prosesində (Markoni 1899-cu ildə La-Manş boğazından siqnal ötürmüşdü) Teslanın 1897-ci ildə patent aldığı tədqiqatının nəticələrinə əsaslanmışdı. Burada da Tesla yenə nə pul, nə də şöhrət qazandı. Tesla təkcə dəyişən cərəyanın energetika sistemini deyil, həm də induksiya mühərrikini ixtira etmişdi, əslində "radionun atası" məhz odur. Ancaq kəşfləri ona şöhrət qazandıra bilmədi.

O, qocalaraq 1917-ci ildə həyatının son günlərini çox böyük yoxsulluq içərisində başa vurdu. Tesla Amerika Mühəndis-Elektrik İnstitutunun onu Edison medalına layiq gördüyünü eşitdikdə, bu mükafatı almaqdan imtina edərək dedi: "Siz məni medalla şərəfləndirmək istəyirsiniz ki, mən onu yaxama vuraraq, sizin institutun əməkdaşları qarşısında bir saat müddətində hədər yerə özümü nümayiş etdirim. Siz mənim pencəyimin yaxasını bəzəyə bilərdiniz, ancaq hələ də mənim başımı aldadırsınız. Siz mənim ağlıma və onun yaratdıqlarına — sizin institut xeyli dərəcədə bunların hesabına yaranmışdır və mövcuddur — layiqli qiymət vermək iqtidarında deyilsiniz".

Mərc gələ bilərəm ki, gücdə mən səndən geri qalmıram". Belə cəfəng təklif kərgədana maraqlı göründü, ancaq o razılaşdı. Tısbağa uzun kəndirin bir ucunu kərgədana verib, "Hey!" deyəndə dartmağı tapşırdı. Sonra tısbağa təpəyə tələsdi, burada fil artıq onu gözləyirdi. O, kəndirin digər ucunu filə verərək dedi: "Mən "Hey!" qışqıran kimi kəndiri dartmağa başla. Baxarıq, bizim hansımız güclüdür". Bu sözlərdən sonra o, təpə ilə üzüaşağı yolun yarısını getdi, buradan o görünmürdü. Tısbağa burada qışqırdı: "Hey!" Fil və kərgədan kəndiri dartdılar, dartdılar, ancaq heç biri o birini özünə tərəf çəkə bilmədi — onların gücü bərabər idi. Onların hər biri tısbağanın onunla eyni gücə malik olması ilə razılaşdı. Başqalarının sənin əvəzinə edə biləcəklərini, heç vaxt özün etmə. Tısbağa başqalarını özünə işləməyə məcbur etdi, ancaq şöhrət ona çatdı.

Zair xalq nağılı.

İZAHI

Əgər ovçu öz arabasının möhkəmliyinə inanırsa, arabaya altı at da qoşar və Van Lyanı arabanı idarə etməyə məcbur edər, onda onun özü yorulmaz və bərk qaçan heyvanları tutmaq onun üçün çətinlik törətməz. İndi fərz edək ki, o, öz arabasının məziyyətlərindən istifadə etmir, atları arabaya qoşmaqdan və Van Lyanın bacarığından istifadədən imtina etməklə, heyvanları özü qovmağa tələsir. Bu halda, o hətta Lyu Çi kimi bərk qaçan olsa belə, qənimətinə çata bilməyəcək. Əgər yaxşı atlardan və möhkəm arabalardan istifadə

Çoxları belə hesab edir ki, obyektiv faktlarla məşğul olan alimlər, bəşəriyyətin qalan hissəsinin həyatını korlayan xırda rəqabətdən yüksəkdə dururlar. Nikola Tesla da bu xülya ilə şərik idi. O, elmin siyasətlə heç bir əlaqəsi olmadığına inanır və deyirdi ki, onu sərvət və şöhrət maraqlandırmır. Ancaq, tədricən elə bu, onun elmi işlərini alt-üst etdi. Onun adı heç bir görkəmli ixtira ilə əlaqələndirilmədi və buna görə o, öz tədqiqatlarına sponsorlar cəlb edə bilmədi. O, gələcək böyük ixtiraları üzərində fikirləşərək, başqalarının onun patentlərini oğurladığına və onun şöhrətinə sahib çıxdıqlarına göz qoya bilmədi.

O, hər şeyi özü etmək istəyirdi, ancaq nəticədə yoxsulluq içərisində öldü.

Edison Teslanın tam əksi olan adam idi. O, çox güman, o qədər də görkəmli alim və ixtiraçı deyildi. Bir dəfə o demişdi ki, əgər riyaziyyatçını muzdla tutmaq mümkündürsə, onun özünün riyaziyyatçı olması vacib deyil. Bu, Edisonun əsas metodu idi. Əslində isə o, işgüzar adam idi. Yeni fikirləri və təmayülləri incəliklə duyaraq, sonra isə iş üçün bu və ya digər sahənin yaxşı mütəxəssislərini işə götürərək, özünü göstərə bilirdi. Əgər onun rəqiblərindən oğurluq etmək imkanı olurdusa, o, bunu edirdi. Ancaq onun adı, Teslanın adından da çox

edilsə, hətta qul da heyvanları ovlamaq iqtidarına malik olacaq.

Xan Fey, Çin filosofu, e.ə. III əsr

məşhurdur və çoxlu sayda ixtiranı onun adı ilə bağlayırlar.

Burada götürülməli ibrət ikitərəflidir: birinci, ixtirada və ya kəşfdə xidmətin etiraf edilməsi, ixtiranın özündən az əhəmiyyətli deyil. Siz ixtiraya öz hüququnuzu təmin etməli və başqalarının onu sizdən oğurlamamasının və sizin ağır əməyinizin bəhrələrindən istifadə etməməsinin qayğısına qalmalısınız. Bunun üçün sayıq və amansız olmaq, öz yaratdıqlarınız barədə, onlar üzərində quzğunların dövrə vurmadığına əmin olana qədər, susmaq lazımdır. İkinci, öz işlərinizin irəli getməsi üçün başqa adamların işlərindən fayda götürməyi öyrənin. Zamanın qiyməti yoxdur, həyat isə qısadır. Hər şeyi müstəqil etməyə cəhd edərək, siz vaxtından əvvəl əldən düşər, öz həyat enerjinizi xərcləyərsiniz. Öz qüvvələrinizi qorumaq, başqalarının səhvlərindən istifadə edərək, onların işləyib hazırladıqlarını ələ keçirmək və nailiyyətlərinə sahib olmaq yolunu tapmaq lazımdır.

Kommersiyada və sənayedə hamı oğurlayır. Mən də çox şey oğurlamışam. Ancaq mən ağılla oğurlamağı bacarıram.

Tomas Edison, 1847-1931.

HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət dünyasında cəngəllik qanunları hökm sürür: elələri var ov

KOR TOYUQ

Toyuq kor olmuşdu və yeri eşələyib yem tapmağı öyrənmişdi. Kor olmağına baxmayaraq, o, yeri yenə də daha inamla eşələməkdə davam edirdi. Buna görə o, çalışqan axmaq idimi? Gözləri yaxşı görən başqa toyuq isə, özünün incə caynaqlarına əziyyət verməyərək, yerdə başdansovdu qurdalanaraq, başqasının əməyinin bəhrəsindən faydalanırdı. Belə ki, kor toyuq eşələyib arpa dənəsi tapan kimi, sayıq rəfiqəsi dərhal onu dənləyirdi.

Qothold Efraim Lessinq, 1729-1781.

edir və öldürür, çoxlu sayda elələri də vardır ki, başqalarının etdikləri ov hesabına yaşayırlar (kaftarlar, quzğunlar). Onlar daha az bacarıq və qabiliyyətə malikdirlər, onları hakimiyyətə gətirəcək işləri çox vaxt özləri yerinə yetirmək qabiliyyətinə malik deyillər. Ancaq onlar belə bir şeyi erkən başa düşürlər ki, səbr etməyə hövsələləri çatsa, gözləsələr, kimsə hər şeyi onların əvəzinə edəcəkdir. Sadəlövh olmayın: siz qan-tər içində öz layihənizin üzərində işləyərkən, qriflər (qartal başlı, aslan bədənli, qanadlı əjdaha) və quzğunlar sizin başınızın üstündə dövrə vurur, sizin yaradıcılıq qabiliyyətinizdən istifadə edərək, necə yaşamağı, hətta firavan yaşamağı öyrənirlər. Teslanın etdiyi kimi, fəlakət və qəzəbdən alışıb yanaraq şikayət etmək faydasızdır. Ən yaxşısı özünü müdafiə etmək və oyuna qoşulmaqdır. Öz hakimiyyətinizə özül quraraq, özünüz quzğun olun, belə olduqda siz çoxlu vaxt və qüvvə qənaət edərsiniz.

Bu oyunun iki qütbü var. Onlardan birini konkistador (XV - XVI əsrlərdə Mərkəzi və Cənubi Amerikaya işğalçı və soyğunçu ispan yürüşlərinin iştirakçısı) Vasko Nunyes de Balboanın nümunəsində əyani göstərmək olar. Balbaonun məqsədi — əfsanəvi sərvətlər və xariqələr şəhəri Eldoradonu tapmaq idi.

XVI əsrin əvvəllərində çoxsaylı məhrumiyyətlərdən və qorxulu təhlükələrdən sonra o, Meksikadan cənubda, indiki Perunun ərazisində böyük sərvətləri olan ölkənin varlığı haqqında dəlillər aşkar etdi. İnklərin ölkəsini işğal edib, onların qızılını ələ keçirərək o, yeni Kortes ola bilərdi. Problem onda idi ki, bu ölkənin kəşfi haqqında şayiələr yüzlərlə konkistadorların arasında yayılmışdı. O, müvəffəqiyyətin yarışının susmaqdan və ətrafdakıları diqqətlə izləməkdən ibarət olduğunu başa düşmürdü. O, inklərin ölkəsinin olduğu yeri aşkar etdikdən bir neçə il sonra, onun ordusunun əsgəri Fransisko Pisarro satqınlıq etdi və Balboanı edam etdilər. Balboanın uzun illər əziyyət çəkərək sahib olmaq istədiyini Pisarro ələ keçirdi.

Yuxarıdakı oyunun digər qütbünə, öz karyerasının sonunda çoxlu sayda rəsm sifarişlərinin öhdəsindən gələ bilməyən rəssam Peter Paul Rubensin timsalında baxaq. O, belə bir sistem işləyib hazırladı: onun geniş emalatxanasında, işə götürdüyü onlarla rəssam işləyirdi. Onlardan biri geyim çəkmək üzrə ixtisaslaşmışdı, başqası fonu (şəklin arxa planı) təsvir edirdi və sair. Konveyer kimi bir şey alınmışdı, bunun hesabına o, sifarişləri vaxtında yerinə yetirməyə nail olurdu. Emalatxanaya hörmətli bir sifarişçi gəldikdə isə, Rubens işə götürdüyü rəssamları bir günlüyə işdən azad edirdi. Sifarişçi balkondan emalatxananı müşahidə edən vaxt, Rubens coşğun bir sürətlə və ağlagəlməz enerji ilə işləyirdi. Sifarişçi, çox qısa müddət ərzində nə qədər desən şedevr yarada bilən bu adamın iş qabiliyyətinə heyran qalmaqla, emalatxananı tərk edirdi.

Qanunun əsl mahiyyəti bundan ibarətdir: işlərinizin yerinə yetirilməsində başqalarından istifadə etməyi və onların xidmətlərinə sahib olmağı öyrənin — onda siz ilahi qüvvə və hakimiyyət əldə etmiş olarsınız. Əgər siz bütün işləri öz əllərinizlə yerinə yetirməyin vacib olduğunu hesab edirsinizsə, siz heç vaxt kifayət qədər irəli gedə bilməyəcəksiniz, taleyiniz Balboanın və Teslanın taleyi kimi olacaqdır. Özünüzdə çatışmayan bacarığa və yaradıcılıq potensialına malik olan adamlar tapın. Onları işə götürün və onların yaratdıqları şedevrlərin al-

tına imzanızı qoyun və ya onların işinə sahib olmaq üçün yollar tapın. Bu şəkildə onların istedadı sizinki olur və dünya sizi dahi kimi tanıyır.

Hamıya yaxşı məlumdur ki, müasir siyasətçilərdən, demək olar ki, heç biri çıxışlarının mətnlərini özləri yazmır. Öz zəhmətləri ilə onlar bir səs də belə toplaya bilməzdilər. Bütün natiqlik və hazırcavablıqlarına görə onlar muzdla nitq yazan xüsusi adamlara borcludurlar. İşi başqa adamlar yerinə yetirir, siyasətçilər isə nəticədən bəhrələnirlər. Həqiqət ondadır ki, hakimiyyətə bu cür nail olmaq hamı üçün mümkündür.

Bu qanunun, müasirlərinizin əməyini mənimsəməyi tələb etməyən başqa tətbiqləri də vardır: geriyə — tükənməz bilik və müdriklik mənbəyi olan keçmişə müraciət edin. İsaak Nyuton bunu "nəhənglərin çiynində dayanmaq" adlandırırdı. O, burada, öz kəşflərini edərkən, başqalarının nailiyyətlərinə əsaslandığını nəzərdə tuturdu. Dahilik şöhrəti üçün o, çox şeydə özünün, antik, orta əsrlər və İntibah dövrünün alimlərinin kəşflərindən ağılla istifadə etmək bacarığına borclu idi (və özü də bunu başa düşürdü). Şekspir süjetləri, səciyyəvi xüsusiyyətləri və hətta dialoqları, məsələn, Plutarxdan götürürdü. Belə ki, o, incə psixoloji çalarları təsvir etməkdə və sitat gətirmək bacarığında Plutarxın tayı-bərabəri olmadığını bilirdi. Sonralar isə nə qədər yazıçı öz növbəsində Şekspirdən iqtibas etmişdi! Belə isə onlar plagiatdırlarmı? Keçmişin biliklərindən istifadə etməyi öyrənin — onda siz dahi şöhrəti qazanarsınız, əslində isə yalnız ağıllı iqtibasçısınız.

İnsan təbiətini tədqiq edən yazıçıların; qədim strateqlərin; insanın axmaqlığını və ağılsızlığını təsvir edən tarixçilərin; hakimiyyəti idarə etməyin çətin sənətini öyrənmiş kral və kraliçaların əsərlərini toz basmışdır. Keçmişin bütün bu adamları sizin nə vaxt gələcəyinizi və onların çiyinlərinə çıxacağınızı gözləyirlər. Onların ağlı sizin ağlınıza, bacarığı sizin bacarığınıza çevrilə bilər, özü də onlar heç vaxt gəlib, sizin əslində orijinal olmadığınızı adamlara danışmayacaqlar. Vaxtı və enerjini məxsusi təcrübə toplamaq cəhdlərinə sərf edərək, təkrar-təkrar səhvlər buraxaraq, bütün həyat boyu inadla işləmək olar. Keçmişin nailiyyətlərindən istifadə etmək də olar. Bismark bir dəfə demişdi: "Axmaqlar deyirlər ki, təcrübədən öyrənirlər. Mən isə başqalarının təcrübəsindən öyrənməyə üstünlük verirəm".

OBRAZ:

QUZĞUN

Cəngəlliyin bütün sakinləri içərisində ən asan şikar əldə edən odur. Çətin işi başqaları yerinə yetirirlər, o isə bunu öz adına çıxır. Başqalarının yaşamaq üçün əldə etdikləri yem özlərinə qismət olmur və quzğunun azuqəsinə çevrilir. Quzğuna bir baxın: nə qədər ki, siz işləyirsiniz, o sizin ətrafınızda uçur. Onunla mübarizə aparmayın — əlbir olun.

MÖTƏBƏR FİKİR

"Öyrənilməli olan çox şey vardır, ancaq həyat qısadır, biliksiz həyat isə həyat deyil. Bilik qazanmaq üçün yaxşı vasitə vardır - başqalarının təcrübəsi və işi. Belə ki, zəhmət çəkib tər tökən başqası olur, kahin şan-şöhrətini isə siz qazanırsınız".

Baltazar Qratsian.

MEDALIN İÇ ÜZÜ

Elə hallar olur ki, başqalarının əməyinin nəticəsini mənimsəmək məqsədəuyğun olmur: əgər sizin hakimiyyətiniz hələ möhkəm deyilsə, onda elə görünəcək ki, siz rəqiblərinizi itələyib meydandan çıxarmaq istəyirsiniz. Başqalarının

istedadından çox yaxşı bəhrələnmək üçün möhkəm mövqeyə malik olmaq lazımdır, əks halda sizi yalanda təqsirləndirəcəklər.

Başqasının sizin şöhrətinizə şərik çıxmasına imkan verməyin sizin üçün sərfəli olduğu vaxtı başa düşmək lazımdır. Əgər şöhrəti öz rəhbərinlə bölmək lazım gələrsə, acgözlük etməmək xüsusən vacibdir. Riçard Niksonun Çin Xalq Respublikasına tarixi səfərinin ideyası, ilk dəfə məhz onun ağlına gəlsə də, əgər Henri Kissincerin diplomatik məharəti olmasaydı, ola bilsin bu səfər heç vaxt baş tuta bilməzdi. Bununla belə, onun bəhrəsini görmək vaxtı gələndə, Kissincer ustalıqla Niksona imkan verdi ki, edilmiş xidmətin ən yaxşı və çox hissəsini öz adına çıxsın. Zaman keçdikcə həqiqətin üzə çıxacağını bilərək, o, belə bir şeyə diqqətlə çalışırdı ki, kənardan, adyalı öz üzərinə çəkən adam kimi görünməsin. Kissincer ustalıqla oynadı: o, özündən aşağıda duranlarda heyranlıq yaratdı və bu vaxt üstünlüyü və şöhrəti alicənablıqla başqasına güzəştə getdi. Bu oyunu, bax elə, bu cür oynamaq lazımdır.

SƏKKİZİNCİ QANUN

ADAMLARI ÖZÜNƏ MÜRACİƏT ETMƏYƏ MƏCBUR ELƏ, ƏGƏR LAZIMDIRSA, TƏLƏ YEMİNDƏN İSTİFADƏ ET

QANUNUN MƏZMUNU

Başqalarını hərəkət etməyə məcbur etdikdə, güclü olursunuz. Ən sərfəlisi düşmənin sizə yaxınlaşmasına, özü də bunun naminə öz şəxsi planlarını pozmasına nail olmaqdır. Onu misli görünməmiş qazancla şirnikləndirin və hücuma keçin. Bütün kartlar sizin əlinizdə olacaqdır.

QANUNA RİAYƏT EDİLMƏSİ

XIX əsrin böyük cinayətkarı baron Deniel Dryu birja oyunlarının ustası idi. Bu və ya digər səhmlərin alınmasını, yaxud satılmasını, onların qiymətinin qalxmasını, yaxud enməsini istəyərkən, demək olar ki, o heç vaxt məqsədinə doğru birbaşa getmirdi. Onun fəndlərindən biri belə idi: Uoll-stritlə yanaşı olan elitar klubun zalından tələsik keçərək (belə ki, onun birjaya yollandığı aydın olsun) özünün məşhur qırmızı cib dəsmalını çıxarar və alnının tərini silərdi. Bu vaxt hiss edilmədən cibindən yerə kağız salardı. Dryunun hərəkətlərini həmişə qabaqcadan bilməyə çalışan klubun üzvləri, birja proqnozları barədə məlumat əldə etmək arzusu ilə qeydlər olan kağızın üstünə şığıyırdılar. Kağızda olan qeydlərin məzmunu haqqında şayiələr tez bir zamanda yayılırdı və klubun üzvləri barona sərfəli olan ssenari üzrə səhmləri almağa və ya satmağa başlayırdılar.

İntibah dövrünün böyük rəssamı və memarı Filippo Brunelleski adamları özünə cəlb etmə məharətini olduqca uğurla tətbiq edir, bununla onlar üzərində hökmünü nümayiş etdirirdi. Bir dəfə o, Florensiyada Santa Mariya del Fore kilsəsinin günbəzini yenidən qurmaq sifarişini aldı. Şəhərin başçıları ikinci adam Lorentso Qibertini Brunelleskiyə köməkçi kimi götürdükdə, böyük rəssamı xoşagəlməz fikirlər çulğadı. O, aydın şəkildə görürdü ki, Qiberti sifarişi, işdə özünə əziyyət vermədən mükafatın yarısını mənimsəmək üçün öz əlaqələrinin hesabına alıb.

Təmir işlərinin gərgin vaxtında Brunelleski qəfildən müəmmalı şəkildə xəstələndi. O, işləri dayandırdı, ancaq şəhər başçılarına, onların işə götürdüyü Qibertini xatırladaraq, özünün xəstə olduğu müddətdə işləri onun görə biləcəyini bildirdi. Tezliklə aydın oldu ki, Qiberti heç nəyə yaramır. Şəhər hakimiyyətinin nümayəndələri işi davam etdirmək xahişi ilə Brunelleskinin yanına gəldilər. O, razılaşmayaraq layihəni Qibertinin qurtarmasını təkid etdi. Belə olduqda, şəhər hakimiyyətinin nümayəndələri, nəhayət, məsələnin nə yerdə olduğunu başa düşüb, Qibertini işdən azad etdilər.

Bundan sonra Brunelleski cəmi bir neçə günün içərisində möcüzəli şəkildə sağaldı. O, qəzəblənərək özündən çıxmadı, həm də başqalarının onu axmaq yerinə qoymalarına imkan vermədi, hiylə ilə adamları öz yanına gətirmək fəndini tətbiq etdi.

İZAHI

Əgər siz bir dəfə adamları yanınıza gəlməyə məcbur etməyin sizin üçün şərəf işi olduğu qərarına gəlmisinizsə, bu işiniz baş tutacaq, hətta siz bunun qayğısına qalmağı dayandırdığınız vaxtlar belə, onlar sizin yanınıza gəlməkdə davam edəcəklər.

Hiylə işlətmək — təhlükəli oyundur. Kimisə ona kələk gəldiyiniz barədə şübhəyə salmaq, onun müqavimət göstərməyə və sizin nəzarətinizdən çıxmağa başlaması üçün kifayətdir. Ancaq rəqibi hiylə ilə aldadıb yanınıza gətirməklə, siz vəziyyətə onun nəzarət etməsi illüziyasını yaratmış olarsınız. O, ucu sizin əlinizdə olan ipləri hiss etməyəcəkdir.

Tələ yeminin nə qədər dadlı olmasından çox şey asılıdır. Əgər tələ kifayət qədər cəlbedici görünərsə, emosiyalarla və tamahla gözləri tutulmuş düşmənləriniz həqiqəti görə bilməyəcəklər. Onlar nə qədər çox tamahkara çevrilərlərsə, siz bir o qədər asanlıqla onları, özünüzə lazım olan yerə apara bilərsiniz.

Mən maral üçün tələ yemini yerbəyer edərək, yaxınlaşıb onu iyləyən birinci marala güllə atmıram, onun ətrafına bütöv sürünün toplaşmasını gözləyirəm.

Otto fon Bismark, 1815-1898.

HAKİMİYYƏTİN AÇARI

Belə bir ssenari tarixdə çox təkrar edilib: təcavüzkar lider qəti hərəkətlər edir, bu əvvəlcə onun hakimiyyətini möhkəmləndirir. Tədricən o, zirvəyə yüksəlir, ancaq sonra hər şey onun əleyhinə çevrilir. Çoxsaylı düşmənlərin birləşdiyi halda o, hakimiyyətini saxlamağa çalışaraq, vurnuxmağa başlayır, öz qüvvəsini tükəndirir, bu da onun labüd iflasına gətirib çıxarır. Göstərilən sxemin təkrarlanmasının səbəbi odur ki, təcavüzkar adam nadir hallarda vəziyyətə tamamilə nəzarət etmək iqtidarında olur. O, əvvəlcədən bir-iki gedişdən artıq fikirləşə bilmir, özünün bu və ya digər fəal hərəkətinin nəticəsini görmür, həmişə sayı durmadan artan düşmənlərinin yedəyində getməyə məcbur olur; gözlənilməz nəticələr verən qızğın hərəkətləri ilə bərabər onun təcavüzkar enerjisinin öz əleyhinə çevrilməsinə gətirib çıxarır.

Hakimiyyətdə olarkən siz özünüzdən soruşmalısınız: əgər mən heç vaxt ixtiyar sahibi ola bilməyəcəyəmsə, öz problemlərimi həll etməyə və düşmənlərdən müdafiə edilməyə çalışaraq, nə məqsədlə özümü oda-közə vururam. Nə üçün mən hadisələri idarə etmək əvəzinə, həmişə onların yedəyində gedirəm? Cavab sadədir: hakimiyyət haqqında sizin təsəvvürünüz səhvdir. Siz təcavüzkar hərəkətlə səmərəli hərəkəti səhv salırsınız. Hər şeydən səmərəlisi, təmkini saxlayaraq və tələ quranları məyus edərək, qısa müddətli qələbə ilə uzunmüddətli hakimiyyətə nail olmağa üstünlük vermək lazımdır.

Yadda saxlayın: hakimiyyətin əsası — başqalarını gedişlərinizə cavab verməyə məcbur edərək təşəbbüsü əldə saxlamaq, rəqibləri və ətrafdakıları müdafiə mövqeyində saxlamağı bacarmaq qabiliyyətindən ibarətdir. Adamlar göstərişinizlə hərəkət etməyə məcbur olduğu vaxt, siz ixtiyar sahibi olmağa başlayacaqsınız. İxtiyar sahibi olan adama isə hakimiyyət mənsubdur. Sizin belə vəziyyətə nail olmağınız üçün iki şey lazımdır: öz hisslərinizi idarə etməyi öyrənməyiniz və heç vaxt qəzəblənməməyiniz. Ancaq eyni zamanda, adamların, incidildikdə və ya lağa qoyulduqda özündən çıxmaq kimi təbii meylləri ilə oynamağı bacarmalısınız. Nəhayət, başqalarını idarə etmək bacarığı — istənilən təcavüz vasitəsindən çox-çox güclü silahdır.

Əgər başqalarını öz qəbirlərini qazmağa məcbur etmək mümkündürsə, nə üçün özünüz tərləməlisiniz? Cib oğruları bu qaydanı mükəmməl bilirlər. Onların sənətində başlıcası pul kisəsinin hansı cibdə olduğunu müəyyən etməkdir. Təcrübəli cib oğruları çox vaxt vağzallarda və adam gur olan yerlərdə iri hərflərlə yazılmış "CİB OĞRULARINDAN QORUNUN" elanından istifadə edirlər. Yolla ötüb keçənlər bu yazını oxuyaraq, pul kisəsinin yerində olmasını yoxlamaq üçün qeyri-ixtiyari olaraq əllərini ciblərinə aparırlar. Onu izləyən oğrunun sonrakı işi vedrədə balıq tutmaqdan da asandır. Cib oğruları öz işlərini yüngülləşdirmək üçün "CİB OĞRULARINDAN QORUNUN" xəbərdarlığını divardan bəzən özləri asırlar.

Adamları yanınıza gəlməyə məcbur etmək istəyərkən, bunu şəxsən özünüzün etdiyinizi onlara bildirmək bəzən faydalıdır. Siz açıq hiyləni həyata keçirmək üçün yalandan imtina edirsiniz. Bunun dərin psixoloji nəticələri vardır: kim yanına çağırırsa, o, ixtiyar sahibi və hörmətə layiq adam təsiri bağışlayır.

Rəqibi sizə sərfəli olan hərəkəti etməyə məcbur etmək məharətinin daha bir əlavə hiyləsi vardır — onu öz ərazinizdə vuruşmağa məcbur etmək. Düşmən torpağında, o əsəbiləşir, tələsməyə və səhvlər buraxmağa başlayır. Danışıqlar və görüş üçün öz ərazinizi, yaxud öz seçdiyiniz yeri təklif etmək səmərəlidir. Sizin dayaq nöqtələriniz var, rəqib isə adət etdiyi heç nəyi görmür və özünü narahat hiss edir.

OBRAZ:

AYI ÜÇÜN BAL TƏLƏSİ

Ovçu qənimət əldə etmək üçün ayının dalınca düşmür. Əgər ayı ovçunun onu ovlamaq istədiyini bilsə, onu tutmaq, demək olar ki, mümkün olmur və o küncə sıxışdırıldıqda qəzəblənir. Bunun əvəzində, ovçu yem olaraq bal qoyulmuş tələ qurur. O, ayını qovmaqla özünü yorub əldən salmır və həyatını təhlükəyə məruz qoymur. O, tələyə yem qoyur və gözləyir.

MÖTƏBƏR FİKİR

Yaxşı döyüşçülər başqalarını özünə yaxınlaşmağa məcbur edir. Bu prinsip başqaları üçün mənasız və onların özləri üçün tamamilə qiymətlidir. Siz düşmənlərinizi özünüzə yaxınlaşmağa məcbur etdikdə, onların gücü həmişə boş olur; onlara yaxınlaşmadığınızdan sizin gücünüz həmişə doludur. Boşun doluya hücumu, yumurta ilə daşı döyüşdürməyin eynidir".

Jan Yu, "Hərb sənəti"nin şərhçisi, XI əsr.

MEDALIN İÇ ÜZÜ

Adətən ən ağıllı taktika — düşməni, sizi izləyərək, qüvvə itirməyə məcbur etməkdir. Ancaq elə də olur ki, gözlənilməz, təcavüzkar və qəti hücum düşməni elə düşkünləşdirir ki, o, mübarizəni dayandırır. Düşməni hiylə ilə yanınıza gətirmək əvəzinə, ona yaxınlaşın, işləri sürətləndirin, təşəbbüsü ələ keçirin. Sürətli hücum düşməni fikirləşmək və ya plan qurmaq üçün vaxt əldə etmədən, hərəkətə başlamağa

məcbur etdiyindən, çox yaxşı silah ola bilər. Hər şeyi fikirləşməyə imkanı olmayan adamlar, səhvlər buraxmağa başlayır və özlərindən asılı olmayaraq, müdafiə mövqeyi tuturlar. Bu taktika hiylə ilə, yem qoyulmuş tələyə salmağın əksi olsa da, eyni vəzifəni yerinə yetirir: siz özünüzün döyüş əməliyyatı ahəngini düşmənə qəbul etdirirsiniz.

Çezare Borcia və Napoleon kimi xadimlər vahiməyə salmaq və hökm etmək üçün gözlənilməzlik elementindən istifadə edirdilər. Sürətli və gözlənilməz addımlar dəhşət yaradır və düşkünləşdirir. Şəraitə uyğun taktika seçin. Əgər zaman sizin xeyrinizə işləyirsə və sizin gücünüzün, heç olmasa düşmənin gücünə bərabər olması məlumdursa, onda ən yaxşısı, onu özünüzə yaxınlaşmağa məcbur edərək, qüvvəsini tükəndirməkdir. Əgər zaman sizin tərəfinizdə deyilsə və düşmən zəifdirsə, gözləmək ona yalnız qüvvəsini bərpa etməyə kömək edər, ona bu imkanı verməyin. Sürətli zərbələr vurun, o, küncə sıxılacaqdır. Boksçu Co Luis bunu belə ifadə etmişdir: "Qoy qaçsın, onsuz da gizlənə bilməyəcəkdir".

DOQQUZUNCU QANUN

QƏLƏBƏYƏ DƏLİLLƏRLƏ DEYİL, ƏMƏLLƏRİNLƏ NAİL OL

QANUNUN MƏZMUNU

Mübahisədə sizə qələbə kimi görünən qazandığınız bir dəqiqəlik uğur ziyafət qələbəsinə çevrilər. Bir söz belə işlətmədən, hərəkətinizlə başqalarını sizinlə razılaşmağa məcbur edə bilmək daha səmərəlidir. İzah etməyin, göstərin.

QANUNUN POZULMASI

Eramızdan əvvəl 131-ci ildə Yunanıstanın Perqam şəhərini öz qoşunları ilə mühasirəyə almış Roma konsulu Publi Krass Mutsiana, qala divarlarını dağıtmaq üçün taran (toxmaq şəklində böyük, ağır qurğu) tələb olunurdu. Bir neçə gün əvvəl, Afina tərsanəsində möhkəm dor ağaclarının olması onun diqqətini cəlb etmişdi. Bunu xatırlayaraq onlardan birinin gətirilməsi əmrini verdi. Afinada əmrin çatdırıldığı hərbi mühəndis əmin idi ki, konsula əslində daha kiçik ölçülü dor ağacı lazımdır. Ona görə də, əmri gətirən əsgərlərlə uzun-uzadı mübahisələr edərək, kiçik ölçülü dor ağaclarının daha məqsədəuyğun olduğunu sübut etməyə çalışırdı. Həm də onu daşımaq daha asan idi.

Əsgərlər mühəndisi xəbərdar etdilər ki, onların komandiri mübahisəni sevən komandirlərdən deyil. Mühəndis isə divardələn mexanizm üçün məhz kiçik ölçülü dor ağacının ideal dərəcədə uyğun gəldiyini (axı, bu qurğunu o özü yaratmışdı) bildirərək, öz dediyinin üstündə dururdu. O, çertyoj dalınca çertyoj çəkərək, özünün təcrübəli ekspert olduğunu bildirərək, mübahisədə özünün haqlılığını sübut etməyə çalışırdı. Əsgərlər öz komandirlərini yaxşı tanıdıqları üçün mühəndisə təcrübəsini özü üçün saxlamağı və əmri yerinə yetirməyi məsləhət gördülər.

SULTAN VƏ VƏZİR

Vəzir otuz il idi ki, öz hökmdarına xidmət edirdi və öz sədaqəti, doğruçuluğu, allaha inamı ilə hamının böyük hörmətini qazanmışdı. Ancaq o öz düzlüyü ilə sarayda çoxlu düşmən qazanmışdı. Onlar vəzirin ikiüzlülüyü və xəyanətkarlığı barədə şayiələr yayır, hər gün sultanın qulağına vəzir haqqında böhtanlar pıçıldayırdılar. Nəhayət, təqsirsiz vəzirə qarşı sultanda şübhələr yarandı və o, uzun illər ona sədaqətlə xidmət etmiş vəziri ölümə məhkum etdi. Bu ölkədə ölümə məhkum edilmişlərin əl-qolunu bağlayır və sulta-

nın yırtıcı ov itlərinin saxlandığı qəfəsə atırdılar. İtlər dərhal onları tikə-tikə edirdilər. Ancaq vəziri köpəklərin qabağına atmazdan əvvəl, ondan son arzusunu soruşdular. Vəzir dedi: "Borclarımı qaytarmaq üçün mənə borcu olanlardan pullarımı yığmaqdan, saxlamaq üçün mənə etibar edilmiş əşyaları sahiblərinə qaytarmaqdan, var-dövlətimi uşaqlarım və yaxın adamlarım arasında bölməkdən və onlara qəyyum təyin etməkdən ötrü, mənim edamımı on gün təxirə salın". Sultan vəzirə qaçmağa cəhd etməyəcəyi barədə and içdirib, onun arzusunu yerinə ye-

Əsgərlər getdikdən sonra mühəndis fikirləşməkdə davam edirdi. Nə üçün mən yerinə yetirilməsi uğursuzluğa gətirib çıxaran əmrə tabe olmalıyam? Buna görə o, hər halda kiçik ölçülü dor ağacı göndərməyi qərara aldı. Mühəndis tamamilə əmin idi ki, konsul onun göndərdiyi dor ağacının iş üçün daha uyğun olduğunu görüb, onu mükafatlandıracaq.

Kiçik dor ağacı Mutsiana çatdırıldıqda, o, əsgərlərdən izahat tələb etdi. Əsgərlər mühəndisin onlarla uzun-uzadı mübahisə etdiyini, ancaq böyük dor ağacı göndərməyə söz verdiyini danışdılar. Mutsian qəzəbləndi. O, diqqətini hücum üçün cəmləşdirə bilmədi, hətta düşmən qüvvə toplamamış şəhər divarlarını taran edib dəlməyin nə qədər vacib olduğunu da yaddan çıxardı. Konsul yalnız ötkəm mühəndis haqqında fikirləşirdi və onun yanına gətirilməsini əmr etdi.

Bir neçə gündən sonra konsulun yanına gətirilən mühəndis bir daha kiçik dor ağacının üstünlüyünü həvəslə izah etməyə girişdi. O, əsgərlərlə mübahisə vaxtı gətirdiyi dəlilləri burada da irəli sürərək, elə hey danışırdı. Mühəndis deyirdi ki, belə işlərdə ekspertin fikirlərinə qulaq asmaq lazımdır, əgər konsul onun məsləhəti ilə hərəkət etsə, peşman olmaz. Mutsian ekspertə sözünü qurtarmağa imkan verdi, sonra əsgərlərinə onun paltarlarını soyundurmağı və ölənə kimi şallaqlamağı əmr etdi.

İZAHI

Adını bizə qədər tarixin saxlamadığı mühəndis bütün ömrü boyu qurğu və mexanizmlərin ixtirası ilə məşğul olmuşdu və öz şəhərində ən yaxşı və savadlı mühəndis kimi məşhur idi. O, haqlı olduğunu bilirdi. Kiçik ölçülü dor ağacı yüksək sürət toplamağa və daha güclü zərbə endirməyə imkan verirdi. Dor ağacının yaxşı olması üçün onun böyük olması vacib deyil. Əlbəttə, onun mühakimələrindən konsulun başı çıxırdı və çox güman, elmin bitərəf və ən güclü dəlil olduğunu başa düşürdü. Əgər mühəndis öz məsləhətini izah edən bütün çertyojları konsula göstərərək, onlara nəzəri şərh verirdisə, konsul nəyə görə öz cahil inadkarlığının üstündə dururdu?

Hərbi mühəndis müşavir rolunda çıxış edirdi. Bu tip adamları öz aramızda, hər yerdə tapa bilərik. Müşavir öz sözünün heç vaxt bitərəf olmadığını bilmir, özündən yüksəkdə duran adamla mübahisə edərək, onun daha ağıllı və qabiliyyətli olmasını şübhə altına alır. O, mübahisəyə girişdiyi adamdan ehtiyat etmir. Hər bir adam məhz özünün haqlılığına əmin olduğundan və onu heç kim inandıra bilmədiyindən, müşavirin bütün cəhdləri kar adamla danışmağa bənzəyir. O, küncə sıxışdırılaraq mübahisəni davam etdirir və bununla da özünə qəbir qazır. Əgər o, başqa adama ağılsızlı-

tirməyə razı oldu. Vəzir tələsik evə gəldi, yüz qızıl sikkə götürüb sultanın itlərinə qulluq edən itəbaxanın yanına gəldi. O, yüz qızılı itəbaxanın qarşısına qoyaraq dedi: "İtlərə on gün qulluq etməyə mənə icazə ver". İtəbaxan razılaşdı. Vəzir on gün itlərə qulluq etdi, onlara nəvaziş göstərdi, sevə-sevə tüklərini daradı və yaxşı yedizdirdi. On günün axırında itlər artıq onun əl-ayağını yalayırdılar. On birinci gün vəzir sultanın hüzuruna getdi, bütün ittihamlar yenidən onun üzünə oxundu. Sultan onun əl-ayağının bağlanmasına və itlərin qabağına atılmasına tamaşa

edirdi. Ancaq itlər vəziri görən kimi, onun ayağına yıxılıb quyruqlarını buladılar. Onlar sevinərək atılıb-düşür və vəzirlə oynayırdılar. Sultan və burada olanlar gördüklərindən heyrətə gəldilər. Sultan vəzirdən itlərin nə üçün ona toxunmadığını soruşdu. Vəzir cavab verdi: "Mən bu itlərə on gün qulluq etmişəm. Bunun nəticəsini hökmdar özü görə bilər. Mən sədaqət və düzlüklə sənə otuz il xidmət etmişəm, nəticəsi nə oldu? Mən düşmənlərimin iftirası ilə ölümə məhkum edildim". Sultan utandığından qızardı. O, vəziri təkcə əfv etmədi, həm də ona gözəl xalat verdi.

ğını və öz gözündə alçaldığını hiss etməyə məcbur etsə, hətta Sokrat müdrikliyi də onu xilas edə bilməz.

Məsələ, sadəcə olaraq, sizdən güclü və qüdrətli olanlarla mübahisədən kənar qaçmaqda deyil. Biz hamımız özümüzü mühakimə və sübut-dəlil ustası sayırıq. Buna görə, ehtiyatlı olmağı yadda saxlamaq lazımdır: öz ideyalarınızın düzgünlüyünü dolayı yolla nümayiş etdirməyi öyrənin.

QANUNA RİAYƏT EDİLMƏSİ

1502-ci ildə Santa Mariya del Fore kilsəsinin bərpa emalatxanasına ağlasığmaz dərəcədə böyük ölçüləri olan mərmər qaya parçası qoyulmuşdu. Əvvəlcə o işlənməmişdi, bütöv halda idi. Sonra naşı heykəltəraş heykəlin ayağının olacağı yerdən deşik açmış, materialı tamamilə korlamışdı. Florensiyanın meri Pyero Soderini Leonardo da Vinçini, yaxud başqa sənətkarı işə götürərək mərmər parçasını xilas etmək istəyirdi. Ancaq hamı bir səslə onun tamamilə korlandığını bildirdiyindən, o öz niyyətindən əl çəkdi. Alınmasına böyük məbləğdə pul sərf olunmuş mərmər qayası, emalatxananın qaranlıq zalında toz basmış halda xeyli qaldı.

O dövrdə Romada yaşayan böyük rəssam Mikelancelonun florensiyalı dostları ona məktub yazmağı qərara alana qədər vəziyyət belə davam etdi. Dostları rəssama

yazdılar ki, qüsuruna baxmayaraq, çox yüksək keyfiyyəti olan mərmərdən, yalnız o, nəsə düzəldə bilər. Mikelancelo Florensiyaya gəldi, mərmər qayanı nəzərdən keçirərək belə bir nəticəyə gəldi ki, ondan qüsurlu hissədən yan keçilməsi şərtilə fiqur düzəltmək mümkündür. Soderini ondan heç kimin heç bir şey hazırlaya bilməyəcəyini, bu işin hədər yerə vaxt aparacağını bildirərək etiraz etdi. Buna baxmayaraq, o, hər halda işləmək üçün rəssama icazə verməyə razı oldu. Mikelancelo gənc Davidin heykəlini əlində sapand olan vəziyyətdə yaratmağı qərara aldı.

Bir müddətdən sonra, Mikelancelo heykəl üzərində işini başa çatdırdıqda, Soderini emalatxanaya gəldi. Özünü bir qədər çəkərək və bu işə dərindən bələd olan adam kimi göstərərək, Mikelancelonun sənət əsərini nəzərdən keçirdi və ona öz fikrini bildirdi: hər şey çox gözəldir, yalnız heykəlin burnu bir qədər böyükdür. Mikelancelo Soderininin nəhəng fiqurun düz aşağısında durduğunu və heykəli təhrif edilmiş perspektivdə gördüyünü müşahidə etdi. Heç bir söz demədən, o, əl işarəsi ilə Soderinini özü ilə nərdivana çıxmağa dəvət etdi. Heykəlin burnu səviyyəsinə çatdıqda o, heykəltəraş kəskisini götürmək üçün aşağı əyildi və fürsətdən istifadə edərək, taxtanın üstündən bir ovuc mərmər tozu da götürdü. Bu vaxt Soderini ondan cəmi bir neçə addım kənarda durub onu müşahidə edirdi. Mikelancelo yumruğun-

Böhtançıların mühakiməsini onun özünə tapşırdı. Xeyirxah vəzir onlara azadlıq verdi və sonra onlarla yaxşı davrandı.

"İncə məharətlər". Ərəb müdrikliyi və fəndgirliyi məcmuəsi, XIII əsr.

AMASİSİN HİYLƏGƏRLİYİ

Misirdə Apri hakimiyyətdən devrildikdən sonra, əslən Sais dairəsinin Siuf şəhərindən olan Amasis taxta çıxdı. Adi vətəndaş olduğuna və hətta əsilnəcabətli nəsildən çıxmadığına görə, misirlilər çara az hörmət edir və saya salmırdılar. Ancaq sonralar Amasis hiyləgərliklə, ancaq incə üsulla onların hüsn-rəğbətini qazanmağa nail oldu. Onun saysız-hesabsız qiymətli sərvəti içərisində ləyən də var idi. Çarın özü və bütün qonaqları ayaqlarını həmişə bu ləyəndə yuyurdular. Amasis bu ləyəni əritməyi,

dakı mərmər tozundan az-az buraxaraq heykəlin burnunu tiyə ilə yüngülcə taqqıldadırdı. Əslində, o, heykəlin burnunda heç bir dəyişiklik etmədi, ancaq onun üzərində işləməsi barədə tam təəssürat yaratdı. O, bir neçə dəqiqə çəkən tamaşasından sonra qəddini düzəldərək dedi: "Bir də baxın" — "İndi çox yaxşıdır, siz ona yeni həyat verdiniz" — deyə Soderini cavab verdi.

İZAHI

Mikelancelo başa düşürdü ki, burunun formasını düzəltməyə başlasa, bütün işi məhv edə bilər. Hər halda Soderini sifarişçi idi və eyni zamanda özünün incəsənət zövqü ilə öyünürdü. Belə adamla mübahisə yalnız onu təhqir etmiş olardı və Mikelancelonu sonrakı sifarişlərdən məhrum edərdi. Rəssam mübahisə etmək üçün olduqca yüksək ağıl və savada malik idi. O, Soderiniyə birinci dəfə durduğu yerdən heykəli təhrif edilmiş şəkildə gördüyünü izah etməyərək, onun görünüş perspektivini dəyişməyi qərara aldı.

Xoşbəxtlikdən Mikelancelo sənət əsərinin mükəmməlliyini qoruyub saxlamaq üsulunu tapdı və eyni zamanda heykəlin yaxşılaşdırılmasında Sodererininin köməyinin dəydiyinə onu inandırdı. Sözün deyil, əməlin köməyi ilə qələbə qazanmağın ikiqat gücü bundadır: heç kim incimir və sizin mövqeyiniz müdafiə edilərək qorunur.

Hakimiyyət sahəsində sizin hərəkətlərinizin vaxt keçdikcə ətrafdakılara necə təsir edəcəyini qiymətləndirməyi öyrənmək çox vacibdir. Öz mövqeyini sübut etməyə və ya mübahisədə qalib gəlməyə çalışaraq, mübahisənin özünün, inandırmaq istədiyin adama necə təsir edəcəyini çox güman heç vaxt bilmirsən: onlar zahirən səninlə tamamilə nəzakətlə razılaşa bilər, ürəklərində isə hiddətlənər və qəzəblənərlər. Sizin bilməyərəkdən işlətdiyiniz hər hansı söz müxtəlif cür, o cümlədən onlara toxunan şəkildə yozula və əhval-ruhiyyələrini korlaya bilər. İstənilən mübahisənin sübut-dəlilləri yalnız söz olaraq qalır — bu isə olduqca sürüşkən özüldür. Mübahisədən və bizə olduqca inamlı görünən dəlillərdən bir neçə gün sonra, biz çox vaxt sadəcə olaraq adət etdiyimizdən, başlanğıc mövqeyimizə qayıdırıq.

Sözün heç nəyə dəymədiyini başa düşmək lazımdır. Hamıya məlumdur ki, mübahisə dumanında hər şey demək mümkündür, təki özünün haqlı olduğunu sübut edəsən. Biz İncildən nümunələr gətiririk, mötəbər olmayan statistikaya müraciət edirik. Belə xırda səhlənkarlığa görə bizi kim qınayar? Hərəkət və əyani nümayiş isə tamam başqa işdir. Onlar daha artıq həqiqidir, onlarda daha çox məna vardır. Onlar buradadır, düz gözümüzün qabağındadır, biz onları görə bilirik: "Bəli, indi heykəlin burnu məhz necə lazımdırsa, elə də oldu".

ondan ilahə heykəli yaratmağı və şəhərin ən gur yerində qoymağı əmr etdi. Heykəlin yanından ötən misirlilər ona ehtiramla sitayiş edirdilər. Amasis bu barədə eşitdikdə misirlilərə hüzuruna gəlməyi əmr etdi və bildirdi ki, onların indi ehtiramla sitayiş etdikləri ilahə heykəli əvvəl ayaqlarını yuduqları və içərisinə tüpürdükləri ləyəndən hazırlanıb. Çar əlavə edərək dedi ki, ləyənin başına gələnlərə bənzər iş onun başına gəlmişdir. Bir vaxt əvvəllər Amasis yalnız adi vətəndaş idi, indi isə onların çarıdır. Buna görə onlar Amasisə hörmət və ehtiram göstərməlidirlər.

Beləliklə, Amasis misirlilərin rəğbətini qazandı və onlar çara xidmət etməyə könüllü olaraq razı oldular.

Herodot (e.ə. V əsr), "Tarix".

Bir kəlmə də xətrə dəyən söz deyilmədi, səhv başa düşülmək imkanı istisna edildi. Heç kim əyani dəlillərlə mübahisə etmir. Baltazar Qratsian haqlı olaraq deyirdi: "Həqiqəti tez-tez görmək mümkündür, onu eşitmək çətindir".

Ser Kristofer Ren İntibah dövründə İngiltərənin təmsilçisi idi. Riyaziyyatı, astronomiyanı, fizikanı və fiziologiyanı çox gözəl bilirdi. Özünün uzunmüddətli fəaliyyəti ərzində, o, İngiltərənin ən məşhur memarlarından birinə çevrildi. Buna baxmayaraq, sifarişçilərin ona layihələrində faydasız dəyişikliklər etməsini əmr etdikləri hallar çox olurdu. Onlar heç vaxt memarın etiraz etdiyini, yaxud təhqiredici cavab verdiyini eşitməmişdilər. Özünün haqlı olduğunu sübut etmək üçün memarın başqa üsulları var idi.

Ren 1688-ci ildə Vestminster üçün möhtəşəm binanın layihəsini yaratdı. Ancaq layihə şəhər merini təmin etmədi; mer əsəbiləşdi. O, öz şübhələrini Renlə bölüşdürdü: ikinci mərtəbə təhlükəsiz deyil və onun düz birinci mərtəbədə olan kabinetinə uça bilər. O, Rendən tavanın daha möhkəm saxlanılması üçün iki daş sütunun əlavə edilməsini xahiş etdi. Misilsiz mühəndis olan Ren sütunların əsla lazım olmadığını və merin şübhələrinin əsassız olduğunu başa düşürdü. Ancaq sütunlar tikildi, mer özünü xoşbəxt və faydalı adam kimi hiss edirdi. Yalnız illər keçdikdən sonra, təmir zamanı, bərpaçılar sütunların tavana azacıq çatmadığını gördülər.

Bu, aldanış idi. Ancaq hər iki adam lazım olanı əldə etmişdi: mer özünü rahat hiss edə bilərdi, Ren isə gələcək nəsillərin onun əsl layihəsinin düzgün, sütunların isə lazımsız olduğunu öyrənəcəklərini bilirdi.

Sizin ideyalarınızın əyani nümayişinin gücü ondadır ki, opponentlərdən müdafiə edilməsinə zərurət yoxdur, deməli, onlar inandırılmaq üçün daha açıqdırlar. Onların sizin nəzərdə tutduğunuzu fiziki olaraq hiss etməsinə imkan verin, bu, istənilən sözdən daha güclü dəlildir.

Bir dəfə Nikita Xruşşov Stalinin cinayətlərini ifşa edərkən zaldan kimsə qışqırıqla onun sözünü kəsir: "Siz Stalinlə birgə işləmisiniz, bəs nə üçün onu dayandırmırdınız?" Aydın idi ki, zaldan kimin ona müraciət etdiyinə Xruşşov tribunadan nəzər yetirə bilməzdi. O bağırdı: "Bunu deyən kim idi?" Heç kim əlini qaldırmadı. Zalda hamı quruyub qalmışdı. Bir neçə saniyə gərgin gözləmədən sonra, o, həlim səslə dedi: "İndi başa düşürsünüz, mən onu nə üçün dayandırmadım?" Stalinlə ünsiyyətdə olanların hamısının ondan qorxduğunu, azacıq da olsa itaətsizliyin ölümlə nəticələnəcəyini izah etmək əvəzinə, Xruşşov auditoriyanın Stalinlə ünsiyyətdə olmağın nəyə bənzədiyini duymasına şərait yaratdı. O, zaldakılara rəhbərə, bu halda Xruşşova qarşı çıxmağın, onun əleyhinə söz deməyə cəsarət etməyin necə qorxu yaratdığını zaldakıların öz üzərlərində hiss etmələrinə imkan verdi. Artıq heç bir izahata ehtiyac qalmadı.

ALLAH VƏ İBRAHİM

Qüdrətli Allah İbrahim peyğəmbərə özü ölmək istəməyənə və bu barədə Yaradandan xahiş etməyənə qədər onun canını almamağa söz vermişdi. İbrahimin həyatı sona yaxınlaşanda Allah onun canını almağa qərar verdi, yanına tamamilə əldən düşmüş və köməksiz qoca surətində mələk göndərdi. İbrahimin evinin qapısı ağzında dayanan qoca dedi: "Ey İbrahim, mən acam, mənə yemək verərsənmi?" İbrahim qocadan bu sözləri eşitdikdə təəccübləndi və ucadan dedi: "Bu cür acınacaqlı həyat keçirməkdənsə,

sənə ölmək yaxşıdır". İbrahimin evində həmişə qərib yolçular üçün yemək-içmək olardı. Buna görə, o, qocaya bir kasa xörək, ət və çörək verdi. Qoca əyləşdi və yeməyə başladı. O, çətinliklə yeyirdi, bir dəfə tikə onun əlindən düşdü və qoca onu axtarmağa başladı. "Ey İbrahim, məni yedizdir" deyə, o, İbrahimə müraciət etdi. İbrahim yeməyi onun əlindən aldı və tikəni qocanın ağzına qoydu. Ancaq tikə qocanın ağzından çıxdı, saqqalı boyunca sürüşüb, sinəsinə düşdü. İbrahim ondan soruşdu: "Ey qoca, neçə yaşın var?" Qocanın cavabından məlum oldu ki, o, İbrahimdən

Ən güclü dəlil hərəkətin əsl mahiyyətini ifadə edən rəmzdir. Rəmzin — bayrağın, mifin, adamı tez təsirləndirən hər hansı hadisəyə aid abidənin — gücü hamıya sözsüz aydın olmasındadır. 1975-ci ildə Henri Kissincer İsrailin 1967-ci ildə işğal etdiyi Sinay səhrasının bir hissəsinin Misirə geri qaytarılması üzrə İsraillə aparılan çətin və nəticəsiz danışıqlarda iştirak edən vaxt gözlənilmədən gərgin danışıqları kəsdi və bir tarixi yerə baxmağı təklif etdi. O, qədim Masad qalasının xarabalıqlarına baxmağa yollandı. Bu yer İsrailin bütün əhalisinə 73-cü ildə yeddi yüz iudey (yəhudi) əsgərinin intihar etməyi Roma legionlarına əsir düşməkdən üstün tutması hadisəsi ilə yaxşı tanışdır. İsraillilər Kissincerin bu səfərinin mənasını dərhal başa düşdülər: Kissincer dolayı yolla onları kütləvi intihara can atmaqda təqsirləndirirdi. Səfərin özü İsrail diplomatlarının düşüncələrinə bir an içərisində təsir etməsə də, onları birbaşa xəbərdarlıq etməyin yaratdığından da artıq dərəcədə məsələyə ciddi və məsuliyyətli münasibət bəsləmək ruhunda köklədi. Masad qalasına oxşar rəmzlər böyük emosional təsir yükünə malikdir.

Hakimiyyətə çatmağa və ya onu əldə etməyə çalışaraq, həmişə dolayı yollar axtarın, həmçinin öz döyüşlərinizi diqqətlə planlaşdırın. Başqa adamın nə qədər vaxtdan sonra sizinlə razılaşmasının sizin üçün əhəmiyyəti yoxdursa və ya siz başqasının şəxsi təcrübəsinin və zamanın sizin nə istədiyinizi onu başa salmağa məcbur etməsinə qədər gözləməyə razısınızsa, onda ən yaxşısı özünüzü əyani dəlillər nümayiş etdirməklə əziyyətə salmayın.

OBRAZ:

TAXTA YELLƏNCƏK

Mübahisə edənlər irəli getməyərək yuxarı-aşağı hərəkət edirlər. Yelləncəkdən düşün və taxtanı yellətmədən onlara öz məqsədinizi göstərin. Onları yuxarıda saxlayın, qoyun ağırlıq qüvvəsi onları tədricən və ehmalca yerə endirsin.

MÖTƏBƏR FİKİR

"Heç vaxt mübahisəyə girişmə. Camaat içərisində heç nəyi müzakirə etmək yox, yalnız nəticələri göstərmək lazımdır".

Bencamen Dizraeli, 1804-1881

MEDALIN İÇ ÜZÜ

Siyasət aləmində söz güləşdirmələrinin vacib bir tətbiqi vardır: onlar diqqəti hiyləgər hərəkətlərdən yayındırır, onları ört-basdır edir. Belə hallarda, mübahisə və təklif edə biləcəyiniz dəlillər sizin xeyrinizədir. Özünüzün yalan gedişlərinizdən diqqəti yayındırmaq üçün başqasını diskussiyaya cəlb edin. Yalanınızın üstü açılan anda söz kömək edir, siz nə qədər emosional və inamlı danışsanız, yalançıya bir o qədər az oxşayarsınız.

Bu üsul istedadlı fırıldaqçıların maskalanmasına tez-tez kömək edir. Fırıldaqçılıqda

azacıq böyükdür. Bu vaxt İbrahim ucadan dedi: "Ey bizim Sahibimiz olan böyük Allah, bu adamın yaşına çatmamış və onun kimi əldən düşməmiş, məni öz yanına apar!" İbrahim bu sözləri deyən kimi Allah onun canını aldı.

"İncə məharət", Ərəb müdrikliyi və fəndgirliyi məcmuəsi, XIII əsr.

anadangəlmə fitri istedadı olan qraf Viktor Lyustiq, bir dəfə, bütün ölkədə onlarla sadəlövh adama pul əsginasları çap edən aparat adı ilə qutular satdı. Aldadıldıqlarını başa düşən müştərilərin əksəriyyəti xoşagəlməz işin üstünün açılmasından ehtiyat edərək, polisə müraciət etməyə cəsarət etmədi. Ancaq Oklahoma ştatının Remsen dairəsindən olan şerif Riçard adlı birisi özünün 10000 dollar aldanılması ilə razılaşan adamlardan deyildi.

Lyustiq qapının döyüldüyünü eşitdi. O, qapını açdıqda özünə tuşlanmış tapança lüləsi gördü. "Nəsə baş vermişdir?"— deyə o, soyuqqanlılıqla soruşdu. Şerif bağırdı: "Yaramaz! Mən səni öldürəcəyəm. Sən lənətə gəlmiş bu yeşiklə məni aldatmısan!" Lyustiq özünü itirmiş kimi göstərdi və dedi: "Demək istəyirsiniz ki, aparat işləmir?" — Şerif cavab verdi: "Sən özün də bilirsən ki, o işləmir". Lyustiq dedi: "Onun işləməməsi tamamilə istisnadır. Siz onu düzgün işlətmisiniz?" — Şerif cavab verdi: "Mən sizin dediklərinizin hamısını dəqiqliklə yerinə yetirdim". Lyustiq etiraz etdi: "Yox, siz nəyisə düzgün etməmisiniz?" Mübahisə qızışdı. Tapançanın lüləsi aşağı endirildi.

Lyustiq diskussiya taktikasının ikinci mərhələsinə keçdi: o, şerifi tamamilə çaşdıraraq, öz aparatının işinin texniki cəhətləri barədə anlaşılmaz şeylər danışaraq, əllaməlik etməyə başladı. Bununla da, inamsız və hirsi yatmış şerifi tamamilə çaşdırdı. Nəhayət, Lyustiq dedi: "Özünüz bilin, sizin pullarınızı mən elə indicə qaytararam. Həmçinin aparatın necə işləməsi barədə sizə yazılı təlimat verərəm. İşin nə yerdə olduğunu öyrənmək üçün, sizinlə Oklahomaya gedərəm. Siz bununla heç nə itirməzsiniz". Şerif yavaşca başı ilə təsdiq etdi. Onu tamamilə sakitləşdirmək üçün Lyustiq şerifə yüz dollarlıq əsginas dəsti uzatdı, istirahət gününü Çikaqoda keçirərək, istirahət etməyi və əylənməyi məsləhət bildi. Şerif sakitləşmiş və bir qədər xəcalətli halda nömrədən çıxdı. Lyustiq bir neçə gün ərzində qəzet xəbərlərini diqqətlə nəzərdən keçirdi. Nəhayət, o, gözlədiyini tapdı: qısa xəbərdə deyilirdi ki, şerif saxta pullar yaydığına görə həbs edilmişdir. Lyustiq mübahisədə qalib gəldi. Şerif bir daha onu narahat etmədi.

ONUNCU QANUN

YOLUXMA: KƏDƏRLİ VƏ UĞURSUZ ADAMLARDAN UZAQ OL

QANUNUN MƏZMUNU

Kiminsə faciəsi sizin üçün məhvedici ola bilər — ruhi vəziyyət də xəstəliklər kimi keçicidir. Sizə elə gələ bilər ki, boğulanı xilas edirsiniz, əslində siz yalnız öz bədbəxtliyinizə yaxınlaşırsınız. Uğursuz adamlar bəzən özlərini bəlaya salırlar, onlar sizə də bəla gətirərlər. Bunun əvəzinə uğurlu və xoşbəxt adamlarla yaxın olun.

QANUNUN POZULMASI

Meri Cilberti İrlandiyanın Limerik şəhərciyində anadan olmuşdu. Rəqqasə və aktrisa kimi xoşbəxtliyini sınamaq üçün 1840-cı illərdə, o, Parisə yollandı. Lola Montes adını götürərək (onun anası ispan nəslindən çıxmışdı), özünü İspaniyadan olan flamenqo rəqsinin ifaçısı kimi təqdim edirdi. 1845-ci ilə kimi onun bəxti gətirmirdi, buna görə də, yaşaya bilmək üçün, o, kurtizankaya (yüngül təbiətli qadına) çevrildi. Tezliklə Lola Parisdə bu qədim peşənin ən çox uğur qazanan nümayəndələrindən biri oldu.

Lolanın demək olar ki, batmaqda olan rəqqasə karyerasını yalnız bir adam — Fransada populyar qəzet sahibi və həm də teatr tənqidçisi Aleksandr Düjarye xilas edə bilərdi. Düjaryeni ələ almaq qərarına gələn Lola onun hər səhər atla gəzintiyə çıxdığını öyrəndi. At sürməyi yaxşı bacaran Lola da səhərlər atla gəzintiyə yollandı və "təsadüfən" onunla qarşılaşdı. Tezliklə onlar səhər gəzintilərinə birgə çıxmağa başladılar. İki aydan sonra Lola onun mənzilinə köçdü.

Uzun müddət xoşbəxt yaşadılar. Düjaryenin köməyi ilə Lola özünün rəqqasə karyerasını müəyyən qədər canlandıra bildi. Cəmiyyətdə töhmətləndiriləcəyindən ehtiyat edən Düjarye dostlarına yazda onunla evlənəcəyini bildirdi (Lola ona 19 yaşında olarkən ingilis gəncə qoşulub qaçdığını və hələ də rəsmən ərdə olduğunu danışmadı). Düjarye onu dəlicəsinə sevirdi. Onun həyatı, artıq, uçuruma yuvarlanırdı.

İşlərində uğursuzluqlar başladı, nüfuzlu dostları ondan qaçırdılar. Bir dəfə Düjarye Parisin ən varlı gənclərindən birinin təşkil etdiyi bala dəvət olunur. O, Lolanın getmək istəməsinə əhəmiyyət verməyərək, bala tək yollanır. Orada möhkəm içərək nüfuzlu teatr tənqidçisi Jan Batist Rozmon de Bovallonu təhqir edir. Ertəsi gün Bovallon onu duelə çağırır. Bovallon Fransanın ən sərrast atıcılarından sayılırdı. Düjarye üzr istəməyə cəhd etsə də, heç nə alınmadı. Duel təşkil edildi və o, öldürüldü. Paris aristokratiyasının ən ümidverici gənc üzvlərindən birinin həyatı belə qurtardı. Düşkünləşmiş Lola Parisi tərk etdi.

1846-cı ildə Lola Montes Münhendə peyda oldu və kral Lüdovik Bavarskini ələ keçirməyi qərara alaraq ona girişdi . O, Lüdovikin yanına düşməyin ən asan yolunun kralın gözəl qızlara xüsusi maraq göstərən yavəri qraf Otto fon Rexberq vasitəsilə mümkün olduğunu öyrənir. Bir dəfə qraf kafedə açıq havada səhər yeməyi yeyirdi. Atla buradan keçən Lola "təsadüfən" yəhərdən yıxıldı və Rexberqin ayaqları altına sərələndi. Qraf tez ona kömək etdi və onun gözəlliyinə heyran oldu. Onu Lüdovikə təqdim etməyə söz verdi.

Rexberq Lolanın təqdim edilməsi barədə razılaşdı, ancaq təyin edilən vaxt gəldikdə,

QOZ VƏ ZƏNG QÜLLƏSİ

Qoz zəng qülləsinin zirvəsinə düşmüşdü. Onu bura qarğa gətirmişdi. Diyirlənib qüllənin çatlağına düşən qoz həyatının faciəli sonluğundan yaxa qurtara bilərdi. Buna görə, o, zəng qülləsini ilahi mərhəmət göstərməyə çağıraraq, onun ucalığını, gözəlliyini və zənglərinin nəcib səsini tərifləyərək, onu gizləməsini xahiş etdi. Qoz sözünə davam edərək dedi: "Əfsus ki, mənə qoca atamın yaşıl budağından yerə düşmək və yumşaq torpaq üstündə onun yarpaqlarının örtüyü altında qalmaq qismət olmadı, heç olmasa sən məni rədd etmə. Mən qarğanın dimdiyində olarkən, əhd etdim ki, əgər ölümdən canımı qurtara bilsəm, öz həyatımı balaca çökəklikdə sakitcə başa vuracağam". Bu sözlər qülləni kövrəltdi və o, mərhəmət göstərərək, qoza düşdüyü balaca çatlaqda qalmağa icazə verdi. Bir qədər vaxt keçdikdən sonra qoz çatladı. O, daşın çatlağında kök ataraq cücərdi və daşın hissələrini bir-birindən ayırdı, onun budaqları yuxarı, günəşə doğru ucaldı. Tezliklə qozun budaqları binadan yüksəyə qalxdı, möhkəmlənmiş kökü isə, yoğunlayaraq, divarları dağıtmağa

və qədim daşları öz yerindən tərpətməyə başladı. Qülləyə dağılmasının səbəbi aydın olduqda, artıq çox gec idi və o, tezliklə xarabalığa çevrildi.

Leonardo da Vinçi, 1452-1519.

Simon Tom öz dövrünün böyük həkimi idi. Bir dəfə onun öz xəstələrindən biri ilə, vərəm xəstəliyinə tutulmuş varlı qoca ilə məni görüşdürdüyünü xatırlayıram. O, qocanın sağlamlığını qaytarmaq yolları barədə danışarkən, arada dedi ki, bu yollardan biri mənim onun yanında şad-xürrəm şəkildə olmağımdır. Çünki o, baxışlarını mənim

kralın özünə şöhrət axtaran əcnəbi qızlarla görüşməyə vaxtı olmadığını dedi. Lola mühafizəçini kənara itələyərək, kralın otağına soxuldu. Bu vaxt onun donunun qabaq tərəfi cırıldı (ola bilsin ki, o, bunu özü qəsdən etmişdi, bunu mühafizəçi də edə bilərdi). Buradakılar və xüsusən kral onun iri çılpaq döşlərindən heyrətə gəldilər. Lola hökmdara təqdim edilmək şərəfinə nail oldu. Əlli beş saat sonra Bavariya səhnəsində onun ilk çıxışı oldu. Çıxış barədə rəylər dəhşətli olsa da, bu, Lolanın yeni çıxışları barədə Lüdovikin razılıq verməsinə mane olmadı.

Lüdoviki, onun öz sözləri ilə desək, Lola sehrə salmışdı. Kral onunla birlikdə məclislərdə görünməyə başladı, sonra Münhenin ən dəbdəbəli bulvarlarından birində onun üçün mənzil aldı və avadanlıqla təchiz etdi. O, xəsisliyi ilə məşhur olmağına və israfçılığı sevməməyinə baxmayaraq, Lolanı hədiyyələrə qərq edir, onun üçün şerlər yazırdı. Lola kralın sevimlisinə çevrilərək, bir gecənin içində şöhrət və uğur zirvəsinə yüksəldi.

Lola öz həddini keçməyə başladı. Bir dəfə o, at çaparkən, ondan irəlidə gedən və ötüb keçə bilmədiyi yaşlı adamı qırmancla vurmağa başladı. Başqa bir dəfə, o, qayışsız itlə gəzintiyə çıxdı. İt yoldan ötənə hücum etdi. Lola bu adama kömək etmək əvəzinə, onu qayışla vurmağa başladı. Bu cür hərəkətlər vicdanlı bavariyalıları qəzəbləndirirdi, ancaq Lüdovik Lolanı himayə edirdi və hətta ona, Bavariya vətəndaşlığı da verdi. Kralın əhatəsində olanlar bütün bu işlərin təhlükəli olmasına kralın gözünü açmağa uğursuz cəhdlər etdilər. Kim Lolanı pisləyirdisə, o, öz vəzifəsi ilə vidalaşmalı olurdu.

gənc, təravətli sifətimə, fikirlərini isə mənim gəncliyimdə olan şadlığa və sağlamlığa yönəltməklə, həmçinin öz duyğularını mənim həyatımın xoşbəxtliyi ilə doldurmaqla öz vəziyyətini yaxşılaşdıra bilər. O, yalnız bir şeyi əlavə etməyi unutmuşdu: bundan mənim öz sağlamlığım korlana bilər.

Monten, 1533-1592.

Əvvəlcə kralı sevən bavariyalılar, indi ona öz hörmətsizliklərini açıq şəkildə nümayiş etdirirdilər. Lola isə, qrafinya titulu aldı, xüsusi olaraq onun üçün saray tikildi. O, Lüdovikə necə hərəkət etmək barədə məsləhətlər verərək, siyasətə qarışmağa başladı. Lola krallıqda ən böyük səlahiyyətə malik idi. Onun krala təsiri getdikcə artırdı, kralın hökumət nazirlərinə saymazyana və lovğalıqla yanaşırdı. Nəhayət, bütün krallıqda üsyanlar başladı. Bir vaxtlar dinc olan ölkə vətəndaş müharibəsi həddinə gəlib çıxdı, tələbələr hər yerdə "Raus mit Lola!" ("Rədd olsun Lola!") oxuyurdular.

1848-ci ilin fevralında Lüdovik artıq təzyiqlərə davam gətirmək iqtidarında deyildi. O, ağır hisslərlə Lolaya Bavariyanı dərhal tərk etməyi əmr etdi. Lola, bu əmrə, ancaq ona haqq ödənildikdən sonra əməl etdi. Sonrakı həftələrdə bavariyalıların qəzəbi kralın özünə qarşı çevrildi. Həmin ilin martında kral taxt-tacdan əl çəkməyə məcbur oldu.

Lola Montes İngiltərəyə köçdü. Ondan mötəbər, ləyaqətli olmaq tələb olunurdu. O, ərli olmasına baxmayaraq (ingilislə bağladığı nikahı hələ də ləğv etdirməmişdi), böyük ümidlər verən gənc ordu zabiti,

Çox şeyi yoluxucu adlandırmaq olar. Yuxuculluq da əsnəmək kimi yoluxucu ola bilər. İrimiqyaslı əməliyyatlarda, əgər düşmənlər həyəcana gəlmişdirsə və hücum etmək üzrədirlərsə, onları heç bir xırda şey üstündə əsəbiləşdirmə. Tam təmkinlilik göstər, bu, düşmənləri ovsunlayacaq və onları gücdən düşməyə məcbur edəcək. Öz əhval-ruhiyyəni onlara ver. Sən onlara laqeydlik, məstlik əhval-ruhiyyəsi, süstlük və ya hətta zəiflik verə bilərsən.

Miyamato Musaşi. "Beş halqa kitabı", XVII əsr.

eyni zamanda nüfuzlu vəkil oğlu olan Corc Trafford Heldə tor qurdu. Loladan on yaş cavan olan zabit İngiltərənin ən gözəl və varlı qızlarından birini həyat yoldaşı seçə bilərdi. Ancaq Held Lolanın sehrinin qurbanı oldu. Onlar 1849-cu ildə evləndilər. Tezliklə Lolanı ikiərlilik ittihamı ilə həbs etdilər. Lola həbsdən gizləndi, vergiləri ödəməyərək, Heldlə birlikdə İspaniyaya getdi. Onlar burada möhkəm dava etdilər, bir dəfə Lola Heldin üstünə bıçaq çəkdi. Nəhayət, Held ondan ayrıldı. O, İngiltərəyə qayıtdıqda ordudan tərxis olunduğunu öyrəndi. İngilis cəmiyyətinin üz döndərdiyi Held Portuqaliyaya köçdü və burada kasıbçılıq içərisində yaşamağa başladı. Daha bir neçə ay keçdikdən sonra, gəmidə baş verən təsadüfi bədbəxt hadisə onun gənc həyatına son qoydu.

Bir neçə il sonra Lola Montesin tərcümeyi-halını çap etdirən adam müflisləşdi.

1853-cü ildə Lola Kaliforniyaya köçdü, burada Pet Hal adlı bir adamla görüşdü və ona ərə getdi. Bu əlaqə əvvəlkilər kimi coşğun idi, ancaq Lola başqa kişilərin naminə Hallı atdı. Hall içkiyə qurşandı, dərin düşkünlük halı keçirməyə başladı, bu vəziyyət dörd il — onun ölümünə qədər davam etdi. Bu vaxt o, hələ nisbətən cavan adam idi. Lola 41 yaşında öz geyimindən və bəzək-düzəyindən əl çəkdi və Allaha üz tutaraq ibadətlə məşğul olmağa başladı. O, nur parçasını xatırladan ağ geyimdə və ağ başlıqda Amerikanı gəzərək dini mövzularda mühazirələr oxuyurdu. Lola iki il sonra — 1861-ci ildə öldü.

İZAHI

Lola Montes kişiləri öz hiyləsinin köməyi ilə cəlb edirdi. Ancaq onun kişilər üzərində hökmü sırf seksual təsirdən artıq idi. O, məşuqlarını öz xarakterinin gücü ilə qula çevirirdi. Kişilər onun öz ətrafında yaratdığı burulğana düşürdülər. Onlar özlərini itirir, çaşırdılar, ancaq Lolanın emosional qızğınlığı onları özlərini daha rahat hiss etməyə məcbur edirdi.

Çox vaxt yoluxma halında olduğu kimi, burada da çətinliklər tədricən toplanırdı. Lolaya xas olan qərarsızlıq onun məşuqlarını hirsləndirir, onların əsəblərinə təsir edirdi. Onlar özləri də hiss etmədən Lolanın problemlərinə cəlb edilirdilər. Ondan emosional asılılıqları, onları Lolaya kömək etməyə məcbur edirdi. Xəstəlik böhran mərhələsinə keçdiyinə görə, Lola Montesə kömək etmək mümkün deyildi. Problemləri getdikcə dərinləşən Lola məşuqlarını da bu problemlərlə yükləyərək, onları da məhv olmağa sürükləyirdi. O, dava-dalaş və qalmaqal içərisində dolaşıb qalırdı. Yoluxma onun ailəsinə və dostlarına, Lüdoviklə olan halda isə, bütün millətə keçirdi. Yeganə düzgün qərar onu özündən ayırmaq idi, əks halda — əzab-əziyyət və iflas qaçılmaz idi.

Qabiliyyətli adamı müdrik hesab edə bilərsən, ancaq axmağa mədəni adam kimi baxma; ayıq cahillə əsl zahidi qarışıq salma. Axmaqlarla, xüsusən özlərini müdrik sayanlarla ünsiyyətdə olma. Öz biliksizliyinlə öyünmə. Yalnız ləyaqətli adamlarla münasibətlər saxlamaq qayğısına qal. Çünki onlarla yaxınlıq adama yaxşı ad-san qazandırır. Küncüt yağının qızılgül və ya bənövşə ilə necə qarışdırıldığını müşahidə etmisənmi? O, bir müddət qızılgül və ya bənövşə ilə birlikdə

qaldıqdan sonra küncüt yağı olmur və artıq onu qızılgül və ya bənövşə yağı adlandırırlar.

Kai Kaus ibn İsgəndər. "Şahzadələr üçün güzgü", XI əsr.

Belə məhvedici yoluxucu xarakterə təkcə qadınlarda rast gəlinmir, bunun cinsə heç bir aidiyyəti yoxdur. O, daxili səbatsızlıqdan yaranır, ancaq özünə bədbəxtliklər cəlb edərək ətrafa yayılır. Bu, demək olar ki, dağılmaya və qeyri-sabitliyə can atmaqdır. Psixikanın belə dağıdıcı tipinin patologiyasını öyrənməyə illərlə vaxt sərf etmək olar. Ancaq vaxtınızı itirməyin — sadəcə olaraq ibrət götürün. Əgər siz belə yoluxmanın daşıyıcısının sizinlə bir yerdə olmasından şübhələnirsinizsə, onunla mübahisə etməyin, ona kömək etməyə cəhd etməyin, tora düşməmək üçün bu adamı öz dostlarınıza təqdim etməyin. Qaçmaqla xilas olun, yoxsa nəticədə əzab çəkməli olarsınız.

Eh zəif Kassi, gözlərində soyuq parıltı.
O, çox düşünür, beləsi təhlükəlidir.
...Ancaq mən qorxuya düçar olsaydım,
Kassidən qaçdığım kimi, Heç kimdən qaçmazdım...
Başqası onlardan, nədəsə, üstün olarsa,
Belələri daima narazı qaldığından Son dərəcə təhlükəlidirlər.

Vilyam Şekspir. "Yuli Sezar".

HAKİMİYYƏTİN AÇARI

Sizi taleyin zərbələrindən əziyyət çəkən, bu zərbələrin öhdəsindən gələ bilməyən uğursuz adamlar əhatə edir. Bu adamlar bizim onlara verə biləcəyimiz bütün mümkün köməyə və rəğbətə layiqdirlər. Ancaq başqaları da vardır ki, bədbəxtlik və ya bəxtsizlik üçün yaranmamışlar, ancaq özlərinin dağıdıcı hərəkətləri və qeyri-sabit fəaliyyətləri ilə ətrafdakıları öz tərəfinə çəkirlər. Bu adamları tərbiyə etməyi, onların xarakterlərini və həyatlarını dəyişməyi öyrənmək necə də gözəl olardı, ancaq çox vaxt məhz onlar bizim həyatımıza müdaxilə edir və bizi dəyişməyə məcbur edirlər. Bunun səbəbi sadədir — adamlar vaxtlarını birgə keçirdikləri şəxslərin əhval-ruhiyyəsinə, emosiyalarına, hətta düşüncə tərzlərinə çox həssasdırlar.

Düzəldilməsi mümkün olmayan bədbəxt, narazı və qeyri-sabit adamların xarakterləri və emosiyaları coşğun olduğundan, onlar xüsusi dağıdıcı təsirə malikdirlər. Onlar tez-tez özlərini qurban yerinə qoyurlar. Belə vəziyyəti başa düşmək əvvəlcə çətin olur. Onların bədbəxtliklərinin əsl təbiətini öyrənməmiş, siz də bu bədbəxtliklərə sürüklənəcək, onlara yoluxacaqsınız.

Hakimiyyət oyunlarında hansı adamlarla bağlılığınızın vacib olduğunu başa düşmək lazımdır. Sizin "yoluxma yayıcıları" ilə əlaqədə olmağınızın təhlükəsi ondadır ki, siz onlardan azad olmağa cəhd edərkən, xeyli qiymətli vaxtınızı və qüvvənizi sərf edəcəksiniz. Bu əlaqəyə görə ətrafdakıların nəzərində həmin adamların əməllərinin iştirakçısı kimi görünəcəksiniz. Heç bir halda yoluxmaq təhlükəsini lazımi qədər qiymətləndirməmək olmaz.

Qorunmaq zəruri olan yoluxma yayıcılarının çoxlu tipləri vardır, ancaq narazılıqdan daim əziyyət çəkənlər daha təhlükəlidir. Yuli Sezara qarşı sui-qəsdin təşkilatçısı olan Kassinin narazılığı dərin paxıllıq hissindən yaranmışdı. O, sadəcə olaraq, yaşadığı mühitdə daha istedadlı adamın olmasına dözmürdü. Sezar isə, daim ondan acı və kinayəli sözlər eşitdiyindən, mühüm olan pretor vəzifəsinə onun təyin edilməsindən imtina etmiş və bu vəzifəni Bruta vermişdi. Kassi daim deyinirdi, onun Sezara olan nifrəti patoloji (anormal) hala keçdi. Möhkəm əqi-

dəli respublikaçı olan Brut Sezarı diktatorluqda ittiham edirdi; əgər o, səbr etsəydi və gözləsəydi, Sezarın ölümündən sonra Romanın birinci adamı ola bilər, onun etdiyi pis əməlləri və buraxdığı səhvləri düzəldərdi. Ancaq Kassi hər gün ona Sezarın etdiyi şər əməllər barəsində danışır, onu gizli düşmənçilik virusuna yoluxdururdu. Nəhayət, o, Brutu sui-qəsdə cəlb edərək istəyinə nail oldu. Bu, böyük faciənin başlanğıcı idi. Əgər Brut bu cür yoluxmanın təsirindən kənarlaşmaq lazım olduğunu bilsəydi, nə qədər bədbəxtliklərdən yaxasını qurtarardı.

Yoluxmadan xilas olmağın bir yolu vardır: karantin. Ancaq çox vaxt elə olur ki, siz problemi dərk edənə qədər, artıq çox gec olur. Hansısa Lola Montes sizi öz güclü şəxsiyyətinin toruna salır. Kassi öz etibar və dərin duyğuları ilə sizi aldada bilir. Hər cür nüfuz edən viruslardan özünü necə qorumalı? Bunun cavabı onların öz problemlərini nə ilə izah etmələrində deyil, ətraf aləmə necə təsir etmələrindədir. Yoluxma yayıcılarını bədbəxtliklərindən, coşğun keçmişlərindən, pozulmuş dostluq və tanışlıq əlaqələrinin uzun siyahısından, onların xidmətdəki qeyri-sabit, ardıcıl olmayan irəliləyişindən, həmçinin sizin fikirlərinizi alt-üst edən və mühakimələrinizi unutmağa məcbur edən güclü xarakterlərindən tanımaq olar. Yoluxma yayıcılarını bu əlamətlərlə müəyyən etməyə hazır olun, onların gözlərindəki narazılığı aydınlaşdırmağı öyrənin. Ən vacibi mərhəmətli olmayın. Kömək etməyə cəhd etməyin. Bu adam dəyişilməyəcək, siz isə öz cığırınızdan çıxacaqsınız.

OBRAZ:

VİRUS

Görünməz olan virus xəbərdarlıq etmədən sizin məsamələrinizdən bədəninizə daxil olur, səssizcə və yavaş-yavaş yayılır. Siz bir də ayılırsınız ki, artıq yoluxmusunuz və xəstəsiniz.

Yoluxmanın başqa tərəfi həqiqətən qiymətli və daha çox aydındır: elə adamlar var ki, özlərinin ruh yüksəklikləri, təbiətlərində olan gülərüzlülükləri, enerji və ağılları ilə uğur paylayırlar. Belə adamlar sevinc mənbələridir, onlarda olan tərəqqini və xoşbəxt yaşayışı bölüşmək üçün bu adamlarla birləşmək lazımdır.

Bu təkcə yaxşı əhval-ruhiyyəyə və uğura aid deyildir: istənilən müsbət keyfiyyət yoluxucu ola bilər. Napoleonun hakimiyyətində xarici işlər naziri olmuş Taleyran çoxlu qəribə və qorxuducu cizgilərə malik idi, ancaq hamı yekdil olaraq belə hesab edirdi ki, o zəriflikdə, aristokratik davranış qabiliyyətində, hazırcavablıqda istənilən fransızdan üstündür. Ölkənin ən qədim əsl-nəcabətli nəsillərindən birinin varisi olan Taleyran, demokratiyaya və Fransa Respublikasına inamına baxmayaraq, incə saray ədasını saxlamışdı. Napoleon isə, bir çox cəhətlərinə görə onun əksi idi — o, Korsikadan çıxmış kəndli, qaradinməz və nəzakətsiz, hətta kobud idi.

Napoleon heç kəsə Taleyran kimi heyran olmamışdı. Nazirin adamlarla necə ünsiyyətdə olmasına, ağlına, qadınları heyran qoymaq qabiliyyətinə həsəd apararaq, çox müdrik hərəkət etdi — özündə çatışmayan mədəniyyəti mənimsəmək üçün Taleyranı yanında saxladı. Şübhəsiz, Napoleon öz hakimiyyəti müddətində dəyişmişdi. Onun kəskin cəhətlərinin çoxu Taleyranla daimi ünsiyyət hesabına yumşalmışdı.

Emosional təsirin bu cür müsbət tərəflərindən öz rifahınız üçün istifadə edin. Əgər, siz anadangəlmə xəsissinizsə, heç vaxt müəyyən səviyyədən yuxarı qalxa bilməyəcəksiniz; əzəmətlilik yalnız səxavətli təbiətə malik olanlara xasdır. Səxavətli adamlarla ünsiyyətdə olun, onlar sizi öz qabiliyyətlərinə yoluxduracaqlar. Əgər siz qəmginsinizsə, həmişə şən adamlara yaxın olun. Əgər siz tərki-dünyalığa meyllisinizsə, aralarında yaxşı münasibətlər, qarşılıqlı anlaşma və hörmət olan adamlarla dostluq etməyə özünüzü məcbur edin. Sizdə olan çatışmazlıqlara malik adamlarla heç vaxt birləşməyin, onlar sizdəki xü-

susiyyətləri möhkəmlədəcək, sizi geriyə çəkəcəklər. Qoy sizi yalnız müsbət şeylər cəlb eləsin. Bunu həyat qanunu kimi əldə tutun və o, sizə istənilən terapiya müalicəsindən çox kömək edəcəkdir.

MÖTƏBƏR FİKİR

"Xoşbəxt taleli insanları — onlarla oturub-durmaq üçün, uğursuzları — onlardan qaçmaq üçün tanı. Adətən, uğursuzluq — cinayət və ya ağılsızlıqdır, ondan əziyyət çəkənlər arasında bundan keçici xəstəlik yoxdur: hətta ən az uğursuz adama heç vaxt qapı açma, çünki əgər sən bunu etsən, çoxlu uğursuz adamlar ondan tutaraq içəri daxil olacaqlar... Başqalarının bədbəxtlikləri ilə özünü ləkələmə".

Baltazar Qratsian.

MEDALIN İÇ ÜZÜ

Bu qanun əks hallara yer qoymur. O, hərtərəflidir. Öz bədbəxtliyi ilə sizi yoluxduran adamla ünsiyyətdən heç nə əldə etmək mümkün deyil. Uğurlu adamlarla dostluğun hesabına hakimiyyət və uğur qazanmaq mümkündür. Bu qaydanı nəzərə almamaq təhlükəlidir.

ON BİRİNCİ QANUN

ADAMLARIN SƏNDƏN ASILI OLMASINA ÇALIŞ

QANUNUN MƏZMUNU

Müstəqil qalmağınız üçün, həmişə zəruri və lazımlı adam olmalısınız. Sizə nə qədər çox güvənərlərsə, bir o qədər çox sərbəstlik qazanarsınız. Adamların xoşbəxtliyinin və firavanlığının sizdən asılı olmasına nail olun — onda ehtiyat edəcəyiniz heç nə olmayacaq. Öz qüvvələri ilə dolana bilməmələri üçün, onlara heç vaxt hər şeyi öyrətməyin.

QANUNUN POZULMASI

AT VƏ MADYAN

Madyan gecə gündüz tarlada sürülürdü, ancaq yer şumlamırdı, at isə gecə yemlənir, gündüz yer şumlayırdı. Madyan ata dedi: — Sən niyə yer şumlayırsan? Mən sənin kimi etməzdim? Cütçü məni qamçı ilə vurarsa, cavabını təpiklə verərəm. Səhərisi gün at elə bu cür də etdi. Cütçü görəndə ki, at hövcət olub, madyanı da onun xışına qoşdu.

Lev Tolstoy (1828-1910) "Təmsillər".

Bir dəfə, orta əsrlər dövründə, adı bizə gəlib çatmamış muzdlu əsgər Sien şəhərini xarici işğalçılardan xilas etdi. Sien şəhərinin xeyirxah sakinləri onu necə mükafatlandıra bilərdilər? Heç bir pul, heç bir ehtiram şəhərin azadlığının qorunub saxlanılması ilə müqayisə edilə bilməzdi. Şəhərlilər muzdlu əsgəri şəhərin hakimi elan etmək istədilər, ancaq qərara aldılar ki, hətta bu da azdır. Nəhayət, bu məsələni həll etmək üçün məclis iştirakçılarından biri irəli çıxaraq təklif etdi: "Gəlin onu öldürək, sonra isə onu şəhərin hamisi kimi müqəddəs elan edək". Onlar elə bu cür də etdilər.

Qraf Karmanola muzdlu hərbi dəstələrin ən cəsur və uğurlu başçılarından biri idi. 1442-ci ildə artıq yetkin adam olan Karmanola Florensiya ilə uzun çəkən müharibədə Venesiya tərəfində vuruşurdu. Qrafı qəfildən Venesiyaya çağırdılar. Xalqın sevimlisi kimi onu təntənə ilə, hər cür ehtiramla qarşıladılar. Axşam onu dojun sarayında (doj — orta əsrlərdə Venesiyada və Genuyada respublika başçısı) dojun özü ilə şam yeməyi gözləyirdi. Ancaq saraya gedərkən, keşikçinin onu başqa istiqamətə apardığını hiss etdi. Məşhur Vzdoxlar körpüsündən keçərkən, hara aparıldığını yəqinliklə başa düşdü — bu yol onu həbsxanaya aparırdı: yalandan quraşdırılmış ittiham üzrə mühakimə edilən qrafın başı ertəsi gün Müqəddəs Mark meydanında vəziyyətin bu cür kəskin şəkildə dəyişməsini başa düşməyərək dəhşətə gələn kütlənin gözü qarşısında vuruldu.

İZAHI

İntibah dövründə İtaliyanın bir çox böyük muzdlu hərbçilərinin taleyi Sien şəhərinin müqəddəs hamisinin və qraf Karmanolanın taleyi kimi oldu: onlar döyüşlərdə öz ağaları üçün bir-birinin ardınca qələbə çalsalar da, ömürlərini sürgündə, zindanda, yaxud edam meydanında başa vururdular. Səbəbi o idi ki, ətrafda ağıllı və igid muzdlular çox olduğundan, belələrinin əvəz edilməsi hər zaman mümkün olur. Onları öldürməklə hakimiyyət sahibləri heç nə itirmirdilər. Əksinə, getdikcə şöhrəti artan və öz xidmətlərinə görə daha çox pul mükafatı istəyən, ən başlıcası isə, külli-ixtiyar sahiblərinin nüfuzuna kölgə salanlardan yaxa qurtarırdılar. Cəsarətli və müstəqil hərəkət etməyə başlayan qraf Karmanolanın taleyi belə oldu. Şübhəsiz ki, o, özünün həqiqətən əvəz edilə bilən olması haqqında fikirləşmək belə istəmirdi.

Ətrafdakıları özündən asılı vəziyyətdə olmağa məcbur etməyənlərin hamısının taleyi belədir (bu dərəcədə faciəli olmasa da). Gec-tez, onların gördükləri işi heç də pis yerinə yetirməyən cavan, yüksək haqq tələb etməyən, daha az qorxu yaradan şəxslə əvəz edilməsi labüddür.

Siz gördüyünüz işi yerinə yetirə bilən yeganə adam olun. Sizi işə götürən adamın həyatının sizin həyatınızla elə sıx qarışmasına nail olun ki, sizdən xilas olmaq heç onun ağlına da gəlməsin. Yoxsa gözəl günlərin birində sizin özünüzü Vzdox körpüsündən keçməyə məcbur edərlər.

QANUNA RİAYƏT EDİLMƏSİ

Otto fon Bismark 1847-ci ildə Prussiya parlamentinin deputatı seçilərkən, 32 yaşı var idi və heç bir dostu, müt-

təfiqi yox idi. O, ətrafına nəzər salaraq başa düşdü ki, nə parlamentdəki liberallar, nə mühafizəkarlar, nə hansısa nazir, nə də, əlbəttə ki, sadə adamlar onun müttəfiqi olmayacaqlar. O, kral IV Fridrix Vilhelmi seçdi. Bu qəribə seçim idi, çünki necə deyərlər, kral o vaxt hakimiyyət zirvəsindən uzaqda idi. Zəif, qətiyyətsiz olan bu adam parlamentdə işlərin liberalların əlinə keçməsinə imkan vermişdi. Kralın iradəsizliyi və bir çox digər xüsusiyyətləri həm şəxsi, həm də siyasi planda Bismarkın heç xoşuna gəlmirdi. Buna baxmayaraq, Bismark gecə-gündüz Fridrixin yanından əl çəkmirdi. Parlamentin digər deputatları çoxsaylı səhv qərarlarına görə krala hücum etdikdə, yalnız Bismark onun tərəfini saxlayırdı.

Nəhayət, bütün bunlar öz bəhrəsini verdi: 1851-ci ildə Bismark kralın nazirlər kabinetinin naziri təyin edildi. O, fəaliyyətə başladı. Bismark kralı ordunu möhkəmləndirməyə, liberallara qarşı çıxmağa, onu eynilə özünün istədiyi kimi hərəkət etməyə istiqamətləndirdi. O, Fridrixə inamsızlığı aradan qaldırmağa, özünü kişi kimi hiss etməyə kömək etdi, ona qətiyyətli olmağı və ləyaqətlə idarə etməyi öyrətdi. Kral hakimiyyətini tədricən, monarxiyanın, əvvəlki kimi, Prussiyanın əsas hakim qüvvəsinə çevrilməsinə nail oldu.

1861-ci ildə Fridrixin ölümündən sonra taxta onun qardaşı Vilhelm çıxdı. Bismark onun heç xoşuna gəlmirdi və o, Bismarkı yanında saxlamaq niyyətində deyildi. Ancaq o da qardaşının vəziyyətinə düşdü: çoxsaylı düşmənləri onun hakimiyyətini zəiflətmək üçün imkan axtarırdılar. Vilhelm bu təhlükənin və müvazinətsiz vəziyyətin öhdəsindən gəlməyə qüvvəsinin çatmadığını hiss edərək, artıq taxt-tacdan əl çəkməyə hazırlaşırdı. Ancaq Bismark getdikcə onun etibarını qazandı. O, yeni kralın möhkəm və qətiyyətli hərəkətlər etməsinə çalışaraq, həmişə onunla bir sırada olurdu. Kral Bismarkın möhkəm gücünə istinad etməsəydi, düşmənlərinin cilovunu yığa bilməzdi. O, bu siyasətçiyə rəğbət bəsləməməyinə baxmayaraq, tezliklə onu baş nazir təyin etdi. Onlar necə hərəkət etmək lazım gəldiyini müzakirə edərkən, tez-tez mübahisə edirdilər. Bismark ondan daha artıq mühafizəkar idi, ancaq kral ondan asılı olduğunu başa düşürdü. Baş nazirin istefa verməklə hədələməsi kifayət idi ki, kral onun bütün şərtləri ilə razılaşsın. Əslində dövləti Bismark idarə edirdi.

İllər keçdi, Bismarkın Prussiyanın baş naziri vəzifəsindəki fəaliyyəti parçalanmış Almaniyanın vahid dövlət halında birləşməsinə gətirib çıxardı. Əslində hakimiyyətin zirvəsinə məhz Bismark yüksəldi. İmperatorun sağ əli, reyx-kansler, knyaz titulunun sahibi olan bu adam dövlətin idarəetmə vasitələrini öz əlində saxlayırdı.

ÖZ KEYFİNƏ GƏZƏN PİŞİK

Qadın Pişiyin qarşısına kasada isti süd qoyaraq gülümsəyib dedi: "Ey pişik, sən insan kimi ağıllısan, ancaq unutma ki, sən Kişi və ya İtlə razılığa gəlməmisən və mən bilmirəm, onlar evə qayıdanda buna necə baxacaqlar?" Pişik dedi: "Ona qədər mən nə edim? Mənim mağarada ocağın başında yerim və gündə üç dəfə isti südüm var. Kişinin və ya İtin görə biləcəyi işlə mənlik heç nə yoxdur"....Həmin gündən indiyə kimi özünə hörmət edən hər beş kişidən üç Ən Sevimlisi, harada qarşılaşmasından asılı olmayaraq, hökmən pişiyin ardınca nəsə tullayır, özünə hörmət edən istənilən İt isə, onu ağaca dırmaşdırır. Ancaq Pişik öz tərəfindən müqavilənin şərtlərinə riayət edir. O, siçanları tutur və evdə olarkən Körpəyə, Körpə onun quyruğunu həddindən artıq bərkdən dartana qədər nəvaziş göstərir. Bunları yerinə yetirdikdən sonra Pişik boş vaxtlarında və aylı gecədə özü üçün gəzir. O, quyruğunu qaldıraraq yalqız halda Rütubətli Yabanı Meşəyə gedir və ya Rütu-

bətli Yabanı Ağaca dırmaşır, yaxud Rütubətli Yiyəsiz Damı gəzir.

Redyard Kiplinq (1865-1936) "Sadəcə olaraq nağıldır".

İZAHI

1840-cı illərdə Almaniyanın siyasi səhnəsində özünə yer axtaran gənc və iddialı siyasətçilərin çoxu, o vaxt hakimiyyətləri daha güclü olanlarla birləşərək, hakimiyyət mövqelərinin əsasını möhkəmləndirməyə çalışırdılar. Bismark çıxış yolunu başqa şeydə görürdü. Hökmlü və güclü adamla birləşmək ağıllı iş deyil: onlar Venesiya dojunun (hakiminin) Karmanola ilə etdiyi kimi sizi udarlar. Əgər onlar sizsiz də güclüdürlərsə, sizə həqiqətdə heç bir ehtiyac duymayacaqlar. Əgər siz iddialısınızsa, zəif hökmdarlar və ya ağalar axtarmaq və onları özünüzdən asılı etmək çox-çox ağıllı işdir. Siz onların gücü, ağılı, dayağı olacaqsınız. Bir görün siz hansı hakimiyyəti əldə edirsiniz! Axı, onlar sizdən qurtulmaq istəsələr, bütün işləri alt-üst olar.

Dünyanı gərəkli olan tələbat idarə edir. İnsanlar nadir hallarda, buna ehtiyac duymadan hərəkət edirlər. Elə edin ki, ətrafdakılar sizə ehtiyac duysunlar, bu olmadıqda isə ilk imkanda kənara atılacaqsınız. Əgər siz hakimiyyətin qanunlarını başa düşürsünüzsə və başqalarını özünüzdən və ya öz uğurlarınızdan asılı olmağa məcbur edə bilir, onların zəif cəhətlərini öz "dəmirinizlə (silahınızla) və qanınızla" (Bismarkın ifadəsi) aradan qaldıra bilirsinizsə, onda siz Bismark kimi öz ağanızdan çox yaşayacaqsınız. Hökmdarın aldığı hakimiyyətin bütün imtiyazları, gizli tikanları olmadan sizin olacaqdır.

Buna görə də, müdrik hökmdar öz təbəələrinin kimliyindən və şəraitindən asılı olmayaraq, dövlətdən və onun özündən asılılığını saxlamaq qayğısına qalmalıdır. Belə halda onlar həmişə etibarlı olacaqlar.

Nikkolo Makiavelli, 1469-1527

HAKİMİYYƏTİN AÇARI

Hakimiyyətin zirvəsi — adamları istəyinizlə hərəkət etməyə məcbur etmək qabiliyyətidir. Əgər siz buna nail ola bilirsinizsə, zorla məcbur etmədən və təhqirə məruz qoymadan, onlar sizə lazım olan işləri həvəslə yerinə yetirirlərsə, deməli sizin hakimiyyətiniz əlçatmaz zirvədədir. Belə vəziyyətə çatmağın ən yaxşı yolu — onların sizdən asılı olması şəraitini yaratmaqdır. Rəhbərin sizin xidmətinizə ehtiyacı var, o, zəifdir, yaxud sizsiz fəaliyyət göstərmək qabiliyyətinə malik deyil, siz onun işlərinin dərinliklərinə elə nüfuz etmisiniz, onunla elə qaynayıb-qarışmısınız ki, onun sizi özündən uzaqlaşdırmağa cəhd etməsi, ona yalnız çoxlu çətinliklər gətirəcək, yaxud uyğun əvəzedici tapmaq üçün qiymətli vaxtını sərf etməsinə səbəb olacaqdır. Əgər qarşılıqlı münasibətlərinizi, belə qurmağa nail olsanız, onda rəhbəri öz

QARAĞAC VƏ ÜZÜM TƏNƏYİ

Dəlisov gənc üzüm tənəyi lovğalıqla müstəqilliyə can atır və onun boy atmasına heç kimin mane olmamasını arzulayırdı. O, əzəmətli qarağac ağacının bir yerdə boy atmaq və bir-birini qucaqlamaq təklifini nifrətlə rədd etdi. Üzüm tənəyi heç kimin köməyi olmadan bir qədər hündürə qalxdı, ancaq adət etmədiyi bu hündürlükdən incə zoğlarını hər tərəfdən aşağı salladı. Bu vaxt, o, qonşusunu çağıraraq, onun köməyinə heç bir ehtiyacı olmadığına diqqət yetirməyə səslədi. Qarağac cavab verdi: "Yazıq ağılsız tənək, sə-

nin hərəkətin necə də məntiqsizdir! Sən əslində müstəqil olsan da, öz şirəni gövdənin yoğunlaşması üçün istifadə edərək, ehtiyatla işlətmək əvəzinə, onu ağılsızcasına lazımsız yarpaqlarına sərf edirsən. Mən tezliklə sənin yerə yıxılmağının şahidi olacağam. İnsan nəslinin şöhrətpərəstlik azarına tutulan, qənaət etməyi nifrətlə rədd edən, habelə öz müstəqilliyi ilə bir anlıq mənasız öyünmək naminə öz gücünü hədər yerə sərf edərək zəiflədən nümayəndələri də səninlə bir dərddədir".

Robert Dodsli, (1703-1764) "Təmsillər".

arzunuzla idarə etmək üçün bütün kozırlar, vasitələr sizin əlinizdə olacaqdır. Bu, taxtın arxasında dayanaraq, kralı faktik idarə edən kral xidmətçisinin klassik nümunəsidir. Bismarka Fridrixi və Vilhelmi qorxutmaq, yaxud onlarla sövdələşmək lazım deyildi. O, sadəcə olaraq, üstü örtülü şəkildə başa salırdı ki, əgər istədiyini əldə etməsə, kralı taleyin ümidinə buraxaraq gedəcəkdir. Hər iki kral məcburiyyət qarşısında qalaraq, onun çaldığı hava ilə oynamağa başladı.

Çoxları səhvən belə hesab edir ki, hakimiyyətin yüksək forması müstəqillikdir. Bu yanlış fikirdir. Hakimiyyət dedikdə, adamlar arasında münasibətlər başa düşülür. Sizə hökmən müttəfiqlər, icraçılar və hətta sizin üçün pərdə olacaq zəif rəhbərlər lazımdır. Tamamilə müstəqil adam sıx meşədəki komada yaşayan adamdır — o istədiyi vaxt gəlib-getməkdə sərbəstdir, ancaq o, hakimiyyətdən məhrumdur. Sizin ümid edə biləcəyiniz yeganə hal, ətrafdakıların sizdən bu müstəqillikdən həzz ala biləcəyiniz dərəcədə asılı olmasıdır: onların sizə olan ehtiyacı sizi asılılıqdan azad edir.

Böyük Fransa kralı XI Lüdovik münəccimliyə meylli idi. O, sarayda əməllərinə heyran olduğu münəccim saxlayırdı. Saray xanımlarından birinin səkkiz gün sonra öləcəyini münəccimin əvvəlcədən xəbər verməsindən və bunun doğru çıxmasından sonra Lüdovik dəhşətə gəldi: münəccim ya

öz dediyinin düz çıxması üçün qadını öldürüb, ya da öz sahəsinin bilicisidir. Hər iki halda onu öldürmək lazımdır.

Bir dəfə axşam Lüdovik münəccimi qəsrin yuxarı mərtəbəsində olan otağına çağırdı. Onun gəlişinə qədər kral xidmətçilərinə dedi ki, onun işarəsindən sonra münəccimi tutub pəncərənin yanına gətirsinlər və oradan —yüz metr yüksəklikdən aşağı tullasınlar.

Münəccim gəldi, ancaq Lüdovik xidmətçilərə işarə verməzdən əvvəl ona son sual verməyi qərara aldı: "Sən təsdiq edirsən ki, başqalarının da taleyi sənə məlumdur. Elə isə nücum falı sənin öz taleyin barədə nə deyir? Mənə de görüm, sən nə vaxt öləcəksən?"

"Mən Siz Əlahəzrətin ölümündən üç gün əvvəl öləcəyəm" — deyə münəccim cavab verdi. Kral işarə vermədi. Münəccimin həyatı xilas edildi. Kral nəinki həmişə onu ciddi şəkildə qorudu, həm də onu hədiyyələrə qərq etdi və sarayın ən yaxşı həkimlərinin xidmətindən istifadə etməyə məcbur etdi.

Münəccim öz dediyini yalana çıxararaq və adamları idarə etmək qabiliyyətini sübut edərək Lüdovikin ölümündən sonra uzun illər yaşadı.

Bu örnəkdir: başqalarını sizdən asılı olmağa məcbur edin. Əgər sizdən ayrılmaq facıə ilə, hətta ölümlə nəticələnəcəyini göstərirsə, onda rəhbər deyilənlərin doğruluğunu yoxlamaq üçün öz taleyinin sınağa çəkilməsinə cəsarət etməz. Belə vəziyyətə nail olmağın çoxlu yolları vardır. Onlardan ən yaxşısı — həmişə hər şeydən yüksək qiymətləndirilən istedada və öz işində ustalığa malik olmaqdır.

İntibah dövründə rəssam üçün uğur qazanmağın başlıca şərti himayədarın dəqiq seçilməsi idi. Bu işdə Mikelancelo hamını keçdi: onun himayədarı Papa II Yuli idi. Ancaq onlar Papanın mərmər məqbərəsinin tikintisi barədə razılığa gələ bilmədilər və Mikelancelo acıqla Romanı tərk etdi. Ancaq Papa öz ətrafındakılarının təəccübünə rəğmən, nəinki rəssamı işdən azad etmədi, hətta onu axtardı və özünəməxsus təkraredilməz yük-

sək höcətliklə Mikelancelonu qayıtmaq üçün dilə tutdu. O bilirdi ki, Mikelancelo başqa sahib tapa bilər, o isə heç vaxt ikinci Mikelancelo tapa bilməz.

Sizi kütlənin içərisindən fərqləndirən Mikelancelo istedadına malik olmağınız, nəyisə kifayət qədər yüksək səviyyədə bacarmağınız məcburi deyil. Siz elə şərait yaratmalısınız ki, itibbatmayasınız, özünüzə başqa rəhbər, yaxud himayədar tapa biləsiniz, rəhbəriniz isə siz istedadda yeni xidmətçi tapmaq üçün ora-bura qaçsın. Əgər siz o dərəcədə də əvəzedilməz deyilsinizsə, onda belə bir təəssürat yaratmaq üçün üsul tapın. Bilikli mütəxəssis ad-sanı, mənsəbcə sizdən yuxarı olanları sizsiz işlərini yola verə bilməyəcəyinə inanmağa çox yaxşı kömək edir. Ancaq rəhbərinizin sizdən həqiqi asılılığı, yalan asılılığa nisbətən onu daha zəif edir, bu isə həmişə sizin əlinizdədir - elə edin ki, sizin bilik və bacarığınız əvəzedilməz olsun.

Talelərin bir-birinə qarışaraq dolaşması dedikdə, sizin sürünən liana (sarmaşan bitki) kimi hakimiyyətin mənbəyinə - rəhbərə sarılmağınız başa düşülür, belə ki, ona ziyan vurmadan sizi kəsib ayırmaq mümkün deyil. Əslində sizin özünüzün rəhbərinizə dolaşmağınıza ehtiyac yoxdur, bunu etməyi onun öz öhdəsinə buraxmaq lazımdır, çünki o özü də tezliklə zəncirin əvəzedilməz həlqəsinə çevriləcəkdir.

Bir dəfə "Kolambia Pikçers" kinostudiyasının prezidenti Harri Konun kabinetinə onun inzibatçıları qaşqabaqlı görkəmdə daxil oldular. 1951-ci il idi, əcinnə axtarışı — Konqresin müvafiq Komitəsinin təşkil etdiyi antikommunist kampaniyasının Hollivudda qızğın vaxtı idi. İnzibatçılar pis xəbər gətirmişdilər: studiyanın işçilərindən biri — ssenariçi Con Hovard Lousonun kommunist olduğu məlum olmuşdu. O işdən çıxarılmalı idi, əks halda studiya sıxışdırıla bilərdi.

Heç kim Harri Konu iradəsiz liberal adlandırmazdı, ümumiyyətlə o, möhkəm əqidəli respublikaçı idi. Onun sevimli siyasətçisi bir dəfə görüşdüyü və şəkli otağının divarını bəzəyən Benito Mussolini idi. Konun xoşladığı söyüş "yaramaz kommunist" ifadəsi idi. Bütün bunlara baxmayaraq, inzibatçıların təəccübünə rəğmən Kon Lousonu işdən çıxarmaqdan imtina etdi. Kon Lousonu ona görə işdən azad etmədi ki, o, yaxşı ssenariçi idi — Hollivudda yaxşı ssenariçilər kifayət qədər idi. Onu asılılıq zəncirinə görə azad etmədi: Louson Hamfri Boqartın ssenariçisi idi, Boqart isə studiyanın ulduzu sayılırdı. Əgər Kon Lousonu işdən çıxarsaydı, çox əlverişli münasibətləri poza bilərdi. Bu kommunisti işdən çıxarmaqdan imtina etməyə görə qaldırılmış hay-küydən baha başa gələ bilərdi.

Henri Kissincer Niksonun vaxtında Ağ evdə çoxlu cəncəlli işlərlə rastlaşmış və onların hamısına davam gətirmişdi. Ona görə yox ki, o, Niksonun tapa bildiyi ən yaxşı diplomat idi — danışıqları ondan da yaxşı aparan adam tapılardı; həm də ona görə yox ki, Nikson və o, bir-birlərini yaxşı başa düşürdülər — onlar çox vaxt yola getmirdilər; bir də ona görə yox ki, onların siyasi idealları üst-üstə düşürdü. Kissincer ona görə davam gətirdi ki, o, siyasi strukturun bir çox sahələrinə o dərəcədə dərindən bağlanmışdı ki, onun kənarlaşdırılması qarışıqlığa gətirib çıxara bilərdi. Mikelancelonun hakimiyyəti intensiv (keyfiyyətdə, səmərədə) hakimiyyət idi, o ancaq bir haldan — onun rəssamlıq istedadından asılı idi. Kissincerin hakimiyyəti ekstensiv (kəmiyyətdə) xarakter daşıyırdı. O, administrasiyanın olduqca müxtəlif istiqamətli işlərlə məşğul olan o qədər çoxlu departamentlərinin fəaliyyətinə cəlb edilmişdi ki, bu cəlbedilmənin özü onun başlıca qüvvəsinə çevrilmişdi. Bunun hesabına onun çoxlu tərəfdarları var idi. Əgər siz özünüzə belə bir şərait təmin edə bilsəniz, sizi kənarlaşdırmaq təhlükəli olacaq — ən müxtəlif qarşılıqlı asılılıq növləri pozula bilər. Bu vaxt hakimiyyətin intensiv formasına malik olan adam öz təhlükəsizliyinə görə konkret rəhbərinə, yaxud konkret hakimiyyət strukturuna borclu olmadığından, hakimiyyətin intensiv forması ekstensiv formasından daha çox sərbəstlik verir.

Məxfi işləri araşdırmaq taktikasını tətbiq etməklə, başqalarını özündən asılı olmağa məcbur etmək olar. Ətrafdakıların sir-

lərini bilərək, Siz onların, yayılmasının qarşısını almaq istədiyi informasiyaya malik olmaqla, öz taleyinizi onların taleyi ilə bağlayırsınız. Siz toxunulmazsınız. Gizli polis nazirləri öz vəzifələrində uzun müddət qalırlar: onlar kral yarada və kralı devirə bilərlər, yaxud C.Edqar Quverlə olan haldakı kimi, prezident seçə bilərlər, yaxud əksinə. Ancaq bu vəzifə özündə o qədər şübhə və inamsızlıq daşıyır ki, bütün bunlar onun verdiyi hakimiyyəti demək olar ki, qiymətdən salır. Siz sakit yata bilmirsiniz, hakimiyyət dinclik gətirmirsə, onda yaxşı olan nədir?

Axırıncı xəbərdarlıq: elə təsəvvür etməyin ki, rəhbəriniz sizdən asılıdırsa, o, sizi sevir. Əslində o, vahimə hiss edəcək və sizdən qorxacaq. Ancaq, Makiavellinin dediyi kimi, qorxu yaratmaq məhəbbət yaratmaqdan yaxşıdır. Qorxu ilə idarə etmək olar, məhəbbətlə yox. Məhəbbət və dostluq kimi incə və dəyişkən hisslərdən asılılıq, sizi yalnız müdafiəsiz qoyar. Ən yaxşısı qoy başqaları sizi sevdiklərindən çox, sizi itirməkdən qorxduqlarına görə sizdən asılı olsunlar.

OBRAZ:

Liananın (sarmaşan bitki) çoxlu tikanları vardır. Onun kökləri yerdə dərinə və eninə işləyir. Liananın budaqları kolların arasından yuxarı qalxır, ağaclara, dirəklərə və pəncərə çərçivələrinə sarılır. Onu çıxarıb atmaq çoxlu zəhmət və qan bahasına başa gəldiyindən, ən yaxşısı onun sarılmasına imkan verməkdir.

MÖTƏBƏR FİKİR

"Adamları özündən asılı olmağa məcbur et. Belə asılılıqdan nəinki sadəcə minnətdarlıq, hətta daha çox şey əldə etmək olar. Öz susuzluğunu yatıran adam dərhal arxasını quyuya çevirir. Asılılıq yox olduqda, onunla birlikdə nəzakət və ləyaqət, sonra hörmət yoxa çıxır. Təcrübənin sənə öyrətdiyi birinci dərs belə olmalıdır: hətta başında tac olan himayədarına sənə ehtiyac olmasını hiss etdirərək ona yaşamaq ümidi ver, ancaq bu ümidi yerinə yetirmə".

Baltazar Qratsian.

MEDALIN İÇ ÜZÜ

Qanunun zəif cəhəti ondan ibarətdir ki, siz başqalarını özünüzdən asılı olmağa məcbur edərkən, özünüz də müəyyən dərəcədə ondan asılı olursunuz. Ancaq bunu aradan qaldırmağa cəhd etmək özünüzdən yüksəkdə olanlardan xilas olmağınıza, heç kimdən asılı olmayaraq tənha qalmağınıza işarədir. C.P.Morqanın, yaxud Con D.Rokfellerin inhisarçı cəhdləri belədir — rəqabətdən kənar olmağa can atmaq, tam nəzarəti saxlamaq. Əgər siz öz üzərinizə belə bir vəzifə götürmək imkanına maliksinizsə, möhkəm dayanın.

İstənilən müstəqilliyin öz qiyməti vardır — o nəyinsə bahasına başa gəlir. Siz təcrid edilməyə məcbur olacaqsınız. İnhisarlar çox vaxt getdikcə artan daxili təzyiq nəticəsində zəifləyir və dağılır. Onlar həmçinin emosiyaların coşmasına səbəb olur, düşmənləri onlarla mübarizə etmək üçün birləşməyə məcbur edir. Tam hakimiyyətə çatmaq cəhdləri, hər şeydən əvvəl, bəhrəsiz və dağıdıcıdır. Qarşılıqlı asılılıq qanuna riayət edilməsinə kömək edir, asılılıq — nadir və çox vaxt qarşısı alınmaz müstəsna haldır. Buna görə də, bir-birindən asılı olmaq vəziyyəti ilə razılaşmaq və dinc şəraitdə birgə yaşamağın bu mühüm qanununa riayət etmək, onda ziddiyyət axtarmaqdan yaxşıdır. Zirvədə olan adam kimi siz çəkilməsi mümkün olmayan ağır yük altına girməyəcəksiniz, sizdən yüksəkdə duran rəhbər isə, düşdüyü asılılığa görə, özündən asılı olmayaraq qulunuz olacaqdır.

ON İKİNCİ QANUN

ÖZ QURBANLARINIZI TƏRKSİLAH ETMƏK ÜÇÜN, HƏRDƏN DÜZGÜNLÜK VƏ SƏXAVƏT DƏ NÜMAYİŞ ETDİRİN

QANUNUN MƏZMUNU

Bir səmimi hərəkət çoxsaylı bədnam əməli heçə endirər. Düzgünlüyün və alicənablığın səmimi təzahürü hətta ən ehtiyatlı olanların sayıqlığını zəifləd ər. Göstərdiyiniz düzgünlük nöqsanlarınızı heçə endirdikdə, adamları aldada və onlara istədiyiniz kimi kələk gələ bilərsiniz. Vaxtında hədiyyə verilmiş Troya atı da elə həmin məqsədə xidmət edirdi.

QANUNA RİAYƏT EDİLMƏSİ

Bir dəfə, təxminən 1926-cı ildə bahalı və yaraşıqlı geyimli, uca boylu bir cavan oğlan o dövrün ən məşhur qanqsteri Al Kaponenin yanına gəldi. Onun danışığı zərif əcnəbi ləhcəsi ilə seçilirdi. Gələn adam özünü qraf Viktor Lyustiq kimi təqdim etdi. O, bildirdi ki, əgər Kapone ona 50 min dollar pul versə, bu məbləği iki dəfə artıra bilər. Bu cür "kapital qoymaq" üçün Kaponenin kifayət qədər vəsaiti var idi, ancaq iri məbləğdə pulu tanımadığı adamlara paylamaq onun vərdişi deyildi. O, qrafa nəzər saldı. Yaraşıqlı geyimi, gözəl ədası onu özünə cəlb etdi, buna görə onunla iş görmək qərarına gəldi. O, öz əli ilə əlli min dolları sayıb Lyustiqə uzatdı. Kapone dedi: "Yaxşı, onları söz verdiyiniz kimi iki aya iki dəfə artırın". Lyustiq pulu götürüb getdi, onu Çikaqo bankının seyfinə qoyub, Nyu-Yorka yollandı. Burada onu pul qazanmaq üçün yarımçıq qalmış çoxsaylı işlər gözləyirdi.

50 min dollar Çikaqo bankında əl dəyilmədən qaldı. Lyustiq onları artırmağa cəhd etmədi. İki aydan sonra, o, Çikaqoya qayıtdı, bankdan pulu götürdü və yenidən Kaponenin yanına yollandı. O, qanqsterin cangüdənlərinin daş kimi donuq sifətlərinə baxdı, təbəssümlə gülümsəyərək dedi: "Mister Kapone, mən təəssüflə bildirirəm ki, mənim planım baş tutmadı. Mən uduzdum".

FRANÇESKİ BORRİ, SARAY FIRILDAQÇISI

1695-ci ildə ölmüş Milanlı Françesko Cüzeppe Borrinin ölümü, demək olar ki, XVII yüzilliyin başa çatması ilə üst-üstə düşmüşdü. O, istənilən saray adamının, yaxud kavalerin şarlatan, fırıldaqçı, yalançı tipini də üstələmişdi... Borri əsl şöhrətə Amsterdama köçməsi ilə çatdı. O, özünə orada Medico Universale

Kapone yerindən bir qədər dikəldi. O, Lyustiqi çayın hansı yerində boğmağın əlverişli olduğunu fikirləşərək, ona nəzər saldı. Ancaq qraf əlini paltosunun cibinə saldı, oradan 50 min dollar çıxarıb stolun üstünə qoydu. "Ser, sizin pullarınız axırıncı sentinə qədər buradadır. Mən bir daha səmimi qəlbdən üzr istəyirəm. Bu, olduqca xoşagəlməz işdir. İşlər mən planlaşdırdığım kimi alınmadı. Allah da bilir — çox istəyirdim ki, pullarınızı sizin və özüm üçün iki dəfə artırım, mənim pula çox ehtiyacım var, ancaq planımı həyata keçirə bilmədim".

Kapone karıxmış halda kürəyini kreslonun söykənəcəyinə dayadı. "Mən bilirəm ki, siz fırıldaqçısınız, — deyə Kapone dilləndi. — Mən bunu sizi burada gördüyüm ilk andan bilirdim. Mən ya 100 min dollar gözləyirdim, ya da heç nə. Ancaq bunu... mənim pulumu geri qaytarmağı... mm". — "Mister Kapone, məni bağışlamağınızı bir daha xahiş edirəm". Lyustiq bunu deyib, şlyapasını götürdü və çıxmaq üçün geriyə döndü. Kapone qışqırdı: "İlahi! Siz necə də təmiz adamsınız! Əgər sizin çətinliyiniz varsa, heç olmazsa, bunu götürün". O, əlli min dollarlıq pul dəstindən min dollarlıq beş əsginas saydı. Qraf sanki çaşıb qaldı, dodaqaltı bir neçə təşəkkür sözü mızıldayaraq təklif olunan əsginasları götürüb otaqdan çıxdı.

adını götürüb, ətrafına böyük müşayiətçilər dəstəsi yığdı və altı at qoşulmuş karetada gəzməyə başladı... Onun yanına hər yerdən xəstələr axışırdılar, hətta bəzi xəstələri Parisdən Amsterdamın özünə qədər kürsüdə gətirirdilər. Barri öz məsləhətlərinə görə haqq almırdı, kasıblara xeyli pul paylayırdı. Onun poçtla və ya veksellə heç vaxt pul almadığı da məlum idi. Bütün bunlarla belə, o, cah-cəlal içərisində yaşamaqda davam edirdi, tezliklə belə bir şayiə yayıldı ki, onda iksir (guya bütün metalları qızıla çevirən, həmçinin bütün xəstəlikləri sağalda bilən ecazkar mad-

İZAHI

Bir neçə dil bilən, öz tərbiyəsi və mədəniyyəti ilə fəxr edən qraf Viktor Lyustiq XX əsrin ən istedadlı fırıldaqçılarından biri idi. O, özünün cəsarəti, qorxmazlığı və ən mühümü, insan psixologiyasını yaxşı bilməsi ilə məşhur idi. O, adamı bir neçə dəqiqənin içərisində tanıya, onun zəif cəhətlərini başa düşə bilirdi, sadəlövhlərə qarşı onda ağlagəlməz dərəcədə həssaslıq var idi. Lyustiq bilirdi ki, adamların əksəriyyəti fırıldaqçılardan və rahatlıq pozan digər ünsürlərdən qorunmağa hazırdır. Onun məqsədi bu müdafiəni yarmaq idi.

Bu işin öhdəsindən gəlməyin ən doğru üsullarından biri, tam səmimiyyət və düzgünlük nümayiş etdirməkdir. Düzgün əməl başında gördüyü adama, hər bir kəs etibar edər. Lyustiq düzgünlük nümayiş etdirmək üsulunu çox tətbiq etmişdi, ancaq Kapone ilə olan halda, o, daha bir addım irəli getdi. Ağlı başında olan heç bir fırıldaqçı belə iş görməyə cəsarət etməzdi. O, özünə mülayim, sakit adam görkəmi seçdi, bu görkəm onun alnını turşutmadan hər çətinliyə dözməsinə dəlalət edirdi. Kaponeni aldat və sən bütün həyatın boyu qorxudan əsəcəksən. Ancaq Lyustiq başa düşürdü ki, Kapone kimi adamlar heç kimə etibar etmir. Onun əhatəsində düzgün, yaxud səxavətli adamlar yoxdur, həmişə qurdların

də, daş) vardır. Bu fəzilətli adam Amsterdamdan qəfil yoxa çıxdı. Ona saxlamaq üçün etibar edilmiş pul və qiymətli daş-qaşı da özü ilə apardı.

Qrete de Françesko. "Fırıldaqçının hakimiyyəti", 1939-cu il.

kampaniyasında olmaq çox ağırdır, bu, hətta depressiya da yarada bilər. Kapone tipli adamlar, ətrafında olanlardan kiminsə onu soymağa fürsət gözləmədiyinə əmin olmaq üçün, ürəklərində özlərinə qarşı təmənnasız, yaxud düzgün hərəkət edilməsini arzulayırlar.

Lyustiq öz hərəkətinin tamamilə gözlənilməzliyi ilə Kaponeni tərksilah etdi. İnsanların hissləri, emosiyaları ilə belə oynamaq istedadlı fırıldaqçının xoşuna gəlirdi, çünki belə dəqiqələrdə insanın diqqətini cəlb etmək və aldatmaq çox asandır.

Bu qanunu Kapone kimi adamlara cəsarətlə tətbiq edin. Yaxşı ölçüb-biçilmiş düzgünlüyün, yaxud alicənablığın köməyi ilə siz ən amansız və həyasız vəhşiləri əlinizdən yem almağa öyrəşdirə bilərsiniz.

Əgər görünən bütün ətrafda mənim qoyduğum nişanələrdən heç olmazsa biri yoxdursa, hər şey yeknəsəq olur. Onda həyat mənasız və cansıxıcı görünür. Mən təmiz adamları başa düşə bilmirəm. Onlar ağır, darıxdırıcı həyat keçirirlər.

Qraf Viktor Lyustiq (1890-1947)

HAKİMİYYƏTİN AÇARI

Yalanın əsl mahiyyəti diqqəti yayındırmaqdadır. Aldatmağa hazırlaşdığınız adamların diqqətini yayındıraraq, onların nəyi isə hiss etməməsi üçün özünüzə vaxt və məkan qazanırsınız. Xeyirxah, alicənab, düzgün hərəkətlər çox vaxt diqqəti yayındırmaq üçün ən səmərəli üsuldur, o, hətta ən ehtiyatlı adamları tərksilah edir. Bu, onları yaxşı təsir bağışlayan istənilən hərəkətə inanmağa hazır olan uşağa döndərir.

Qədim Çində bu "almamışdan əvvəl ver" adlanırdı. Necə verdiyinizi müşahidə edən ətrafdakılar sizin necə götürdüyünüzü hiss etmirlər. Bu mexanizm saysız-hesabsız variantlarda tətbiq edilir. Kimdən nəyi isə açıq şəkildə almaq, hətta hakimiyyəti olanlar üçün təhlükəlidir. Qurban intiqam hissi ilə alışıb yanır. Həmçinin sizə lazım olanı sadəcə istəmək, hətta çox nəzakətlə istəmək belə təhlükəlidir: əgər başqaları bunda özləri üçün fayda görməsələr, onlar sizin xahişinizdən inciyə bilərlər. Götürməzdən əvvəl verməyi öyrənin. Bu, zəmin yaradır, sizin gələcək xahişinizə münasibəti yumşaldır və ya diqqəti yayındırmağa kömək edir. Verilən bəxşiş, vəziyyətdən asılı olaraq, müxtəlif formalarda qəbul edilə bilər: əsl hədiyyə, səxavətlilik və ya alicənab hərəkət, xeyirxah xidmət, "düzgün" etiraf.

Əgər siz kiminləsə birinci dəfə iş tutursunuzsa, bu halda qismən düzgünlük hər şeydən yaxşı kömək edir. Biz hamımız vərdişlərin yetirmələriyik və bizim ilk təəssüratımız uzun müddət saxlanılır. Əgər kimsə tanışlığınızın lap əvvəlində sizin düzgünlüyünüzə inansa, sonradan onu bunun tərsinə inandırmaq çox çətin olacaq. Bu sizə fəaliyyət üçün meydan açır.

Cey Qould Al Kapone kimi heç kimə inanmırdı. Əsasən yalan və güc tətbiq etmək hesabına böyük sərvət toplayaraq, artıq multimilyonçuya çevrilmişdi. 1860-cı illərin axırlarında Qould Erie dəmir yolu şirkətinə böyük vəsait qoydu, sonra isə aydın oldu ki, bazar həmin şirkətin saxta səhmləri ilə dolmuşdur. Fortuna (xoşbəxtlik ilahəsi) Qoulddan üz döndərdi, ona çoxlu müsibətlər üz verdi.

Böhranın qızğın vaxtında lord Con Qordon-Qordon adlı birisi öz köməyini təklif etdi. Şotlandiyalı lord Qordon-Qordon dəmir yoluna vəsait qoyub, müəyyən uğur qazanmışdı. O, işə qrafoloq-ekspert götürərək, Qoulda sübut edə bildi ki, saxta kağızlar buraxılmasında təqsirkar olanlar, o cümlədən Eriye şirkətində rəhbər vəzifə tutan bir qrup şəxsdir.

Qould ona minnətdar idi. Qordon-Qordon səhmlərin nəzarət paketini almaq üçün səyləri birləşdirməyi təklif etdi. Qould razılaşdı. Elə görünürdü müəssisə bir müddət dirçəldi. Bizim qəhrəmanlar dostlaşdı və Qordon-Qordon yeni səhmlər almaq üçün hər dəfə Qoulddan pul verməsini xahiş etdikdə, o fikir-

ləşmədən pul verirdi. Ancaq Qordon-Qordon özünün bütün səhmlərini 1873-cü ildə gözlənilmədən dempinq qiymətinə (öz dəyərindən ucuz qiymətə) satdı. O, qazanc əldə etdi, ancaq Qouldun səhmlərinin qiyməti kəskin surətdə aşağı düşdü və ona düzəlməsi mümkün olmayan ziyan vurdu. Bundan sonra Qordon-Qordon gizləndi.

Təhqiqat gedişində məlum oldu ki, Qordon-Qordon əslində ticarət donanması matrosunun və londonlu qadın ofisiantın nikahdan kənar oğlu Con Krouninqsfilddir. Əvvəlki bir çox işləri Qordon-Qordonun fırıldaqçı olduğuna dəlalət etsə də, onun birinci düzgün hərəkəti Qouldun gözlərini elə örtdü ki, o, yalnız milyonları itirdikdən sonra baş verənləri görə bildi.

Yalnız təkcə düzlük nümayiş etdirmək bəzən kifayət etmir. Düzgün adam imici qazanmaq üçün, ardıcıl olmasa da, bir sıra hərəkətlər etmək lazımdır. Onda imic möhkəmlənir, ilk təəssürat kimi onu da sarsıtmaq çətin olur.

Qədim Çində Çen çarlığının hökmdarı Vu getdikcə qüvvətlənən Çu çarlığını ələ keçirmək qərarına gəldi. Öz niyyəti barədə heç kimə məlumat verməyərək, o, öz qızını hökmdar Çuya ərə verdikdən sonra, şura çağıraraq nazirlərindən soruşdu: "Mən hərbi əməliyyatlara başlamaq istəyirəm. Sizcə hansı çarlığı ələ keçirməyimizə dəyər?" Onun gözlədiyi kimi, müşavirlərdən biri cavab verdi: "Çu çarlığını". Elə göründü ki, hökmdar eşitdiyindən məyus oldu və dedi: "Çu indi qohum dövlətdir. Sən onun üstünə hücum etməyi necə təklif edə bilirsən?" O, cinayətkar təklifinə görə müşaviri cəzalandırmaq əmri verdi. Hökmdar Çu bunu eşitdi və hökmdar Vu-nun özünə qarşı başqa düz əməllərini, həmçinin Çu-nun qızı ilə evləndiyini nəzərə alıb, Çen çarlığı ilə sərhədlərini möhkəmləndirmək üçün heç bir tədbir görmədi. Bir neçə həftədən sonra Çen çarlığının ordusu Çu çarlığına hücum etdi və onu bir daha geri qaytarmamaq üçün ələ keçirdi.

Düzgünlük — şübhəni dağıtmaq üçün ən yaxşı üsullardan biridir, ancaq yeganə üsul deyil. Xeyirxahlığın, təmənnasız hərəkətin təzahürü, öz mənafeyini nəzərə almamaq və xüsusən səxavətlilik bu məqsədə xidmət edir. Çox az adam hədiyyə qarşısında, hətta onu barışmaz düşməndən alsa belə, duruş gətirə bilir. Biz başqa adamların hərəkətlərinə həyasızlıq qiyafəsində baxsaq da, hədiyyənin yüksək motivlər gizlənmiş əsl mahiyyətinə nadir hallarda nəzər sala bilirik. Hədiyyə — alçaq motivlərin gizlənə biləcəyi gözəl obyektdir.

Üç min il bundan əvvəl qədim yunanlar əsrarəngiz Yelenanı tutmaq və Parisin yaşadığı Troya şəhərini dağıtmaq üçün dənizi üzüb keçdilər. Mühasirə on il davam etdi, döyüşlərdə çoxlu qəhrəman həlak oldu, ancaq tərəflərdən heç biri qələbəyə nail ola bilmədi. Peyğəmbər Kalxas yunanları bir yerə yığaraq, onlara dedi: "Bu divarlara zərbə vurmağı dayandırın! Siz başqa yol tapmalısınız. Biz Troyanı güc hesabına ala bilmərik. Hərbi hiyləyə əl atmaq lazımdır". Yunanların ağıllı hökmdarı Odissey nəhəng taxta at hazırlamağı və onun içərisində döyüşçüləri gizlətməyi, sonra isə onu hədiyyə kimi troyalılara verməyi təklif etdi. Bu təklif Axillanın oğlunun xoşuna gəlmədi, o, belə planı namərdlik adlandırdı. Qələbəni satqınlıq yolu ilə əldə etmək, döyüş meydanında minlərlə itki verməklə əldə etməkdən yaxşıdır. Ancaq, daha on il mühasirə, şərəf və ölüm, yoxsa tez qələbə əldə etmək dilemması qarşısında duran əsgərlər taxta at hazırlamaq yolunu seçdilər və tez bir zamanda onu yaratdılar. Hiylə baş tutdu — Troya təslim oldu. Bir hədiyyə, bütün yunan ordusunun on ildə etdiyindən daha çox şeyə nail oldu.

OBRAZ:

TROYA ATI

Sizin hiyləniz qarşısında düşməninizin duruş gətirə bilmədiyi möhtəşəm hədiyyənin daxilində gizlənmişdir. Qapı açılır. O gizləndiyi yerdən çıxaraq hər şeyi viran edir.

Qoy ölçüb-biçdiyiniz xeyirxahlıq da sizin yalan cəbbəxananızın bir hissəsi olsun. Qədim romalılar Faliskan şəhərini illərlə mühasirədə saxladılar, ancaq uğur qazana bilmədilər. Bir dəfə şəhər divarlarının yanındakı düşərgədə, Roma generalı Kamill, gözlənilmədən onun yanına bir neçə uşaq gətirən bir adam gördü. Gələn adam özünü faliskanlı müəllim kimi təqdim etdi, uşaqların isə, şəhərin ən varlı və mötəbər adamlarının oğlanları və qızları olduğu məlum oldu. Uşaqları gəzinti adı ilə çıxaran müəllim onları düz romalıların üstünə gətirmiş və şəhərin düşməni olan Kamillin təşəkkürünü qazanmaq ümidi ilə uşaqları girov götürməyi təklif etmişdi.

Kamill uşaqları girov götürmədi. O, müəllimi soyundurub əllərini arxasında bağlamağı əmr etdi, hər uşağın əlinə bir çubuq verib şəhərə çatana qədər onu çubuqlamağı tapşırdı. Bu hərəkət dərhal Faliskan şəhərinin əhalisinə təsir etdi. Kamillin üstün şəraitdən istifadə etməkdən imtina etməsi şəhərlilərin müqavimətini qırdı, onlar təslim oldular. Sərkərdə düzgün ölçüb-biçmişdi. İstənilən halda o, heç nə itirməyəcəkdi: o bilirdi ki, girov götürmək müharibənin, uzun müddətə də olsa, başa çatmasına gətirib çıxarmayacaq. Vəziyyəti dəyişərək, o, düşmənlərin hörmət və etibarını qazanmaqla onları tərksilah etdi. Ölçülüb-biçilmiş mərhəmət, çox vaxt, hətta ən inadkar düşməni belə sındıra bilər: düz ürəyə yönələrək, onun mübarizə aparmaq iradəsini məhv edir.

Yadda saxlayın: adamların hissləri ilə oynayarkən ölçülüb-biçilmiş, düşünülmüş xeyirxah hərəkət Kaponeni sadəlövh uşağa döndərə bilər. Emosional münasibətdən istifadə edərkən həmişə ehtiyatlı olmaq lazımdır: əgər sizin məqsədinizi duyarlarsa, onda həyata keçirilməmiş xeyirxahlıq və mehribanlıq hissləri məyusluğa, çox güclü nifrətə və etimadsızlığa çevrilər. Əgər siz öz hərəkətlərinizə səmimilik və sədaqətlilik donu geydirə bilmirsinizsə, odla oynamayın.

MÖTƏBƏR FİKİR

"Çen çarlığının hökmdarı Sin hücum etməzdən əvvəl Yu-ya nefrit (qiymətli daş) və at ilxısı bağışladı. Hökmdar Si isə, Çjouya hücum etməyə hazırlaşarkən ona gözəl araba bağışladı. Buradan aşağıdakı atalar sözü yaranıb: "Almamışdan əvvəl verməlisən".

Xan Fey-izı.

MEDALIN İÇ ÜZÜ

Əgər sizin keçmişiniz — yalançının keçmişidirsə, onda heç bir düzgünlük, alicənablıq və ya xeyirxahlıqla adamları aldada bilməzsiniz. Əgər adamlar sizi ikiüzlü kimi tanıyırlarsa, birdən-birə düzgün adamı təqlid etməyə başlamaq şübhəlidir, yaxşısı budur, fırıldaqçı adamı təqlid edin.

Qraf Lyustiq öz həyatının ən böyük fırıldağını həyata keçirməyə çalışaraq, Eyfel qülləsini sadəlövh kapitalistə satmağa hazırlaşırdı. Bu kapitalist hökumətin qülləni hərracda metal qırıntısı qismində satacağına inanmışdı. Kapitalist özünü işi uğurla gedən hökumət məmuru kimi göstərən Lyustiqə böyük məbləğdə pul verməyə artıq hazır idi. Ancaq son anda Lyustiqin hansısa hərəkəti sadəlövh kapitalistdə şübhə oyatdı. Pulun veriləcəyi görüşdə Lyustiq onun qəflətən yaranmış şübhəsini müşahidə etdi.

Lyustiq kapitalistə yaxınlaşaraq, sakitcə pıçıltı ilə ona maaşının aşağı və maliyyə vəziyyətinin çətin olduğunu bildirdi. Bir neçə dəqiqədən sonra, müştəri başa düşdü ki, Lyustiq rüşvətə işarə edir. O, rahatlıq hiss etdi. İndi aydın oldu ki, Lyustiqə etibar etmək olar: bütün dövlət məmurları xidməti borca vicdanlı münasibət bəsləmədiklərindən, Lyustiq öz hərəkəti ilə tamamilə real nəzərə çarpırdı. Müştəri pulu verdi. Vicdansız məmuru təqlid edərək, Lyustiq həqiqətə uyğun göründü. Bu halda düzgünlük əks səmərə verə bilərdi.

Fransız diplomatı Taleyran qocalanda hər yerdə yalançı və fırıldaqçı imici qazanmışdı. O, Vyana konqresində (1814-1815) əfsanəvi əhvalatlar danışır və adamlara ağlagəlməz iradlar tuturdu. Hamı onun yalan danışdığını güman edirdi. Onun hiyləsi bir məqsəd daşıyırdı — ətrafdakıları həqiqətən aldatmasını ört-basdır etmək. Taleyran, məsələn, bir dəfə dostlarının əhatəsində olarkən, tamamilə səmimi görkəmlə dedi: "İş görən kəs öz əməlini gizlətməməlidir". Bunu eşidənlər öz qulaqlarına inanmadılar: həyatında bir dəfə də olsun öz sirlərini açıqlamayan adam başqalarına deyirdi ki, onlar öz sirlərini açmalıdırlar. Bu cür üsullar Taleyranın sözlərindəki həqiqətlə yalanı ayırd etməyə imkan vermirdi.

Hakimiyyət məmləkətində heç nə möhkəm özül üzərində qurulmur. Gizli olmayan yalan bəzən izi itirməyə kömək edir və hətta sizi doğru olmayan düzlüyünüzlə fəxr etməyə məcbur edir.

ON ÜÇÜNCÜ QANUN

ADAMLARDAN KÖMƏK İSTƏYƏRKƏN ONLARIN MƏRHƏMƏTİNİ VƏ YA ALİCƏNABLIĞINI DEYİL, TAMAHKARLIĞINI NƏZƏRƏ AL

QANUNUN MƏZMUNU

Əgər siz kömək üçün müttəfiqinizə müraciət etməli olsanız, özünüzün xeyirxah işlərdə iştirakınızı ona xatırlatmağa çalışmayın. O, sizə etinasız münasibət üçün bəhanə tapacaqdır. Bunun əvəzində, siz etdiyiniz xahişdə və ya onunla bağlamaq istədiyiniz müqavilədə özünüzə yox, ona faydalı olan şeyləri göstərin, özü də bunu xüsusi vurğu ilə qeyd edin. O özünə fayda vəd edən təklifi ürəklə qəbul edəcəkdir.

QANUNUN POZULMASI

XIV yüzilliyin başlanğıcında Kastruçço Kastrakani adlı cavan oğlan sıravi əsgər rütbəsindən böyük italyan şəhəri Lukkanın hökmdarlığınadək yüksəldi. Onun satqınlıq və qan tökmək bahasına başa gələn bu yüksəlişinə şəhərin ən qüdrətli ailələrindən biri olan Pocio kömək etdi. Kastrakani hakimiyyətə gəldikdən sonra, ailə, hökmdarın onları unutduğunu başa düşdü. Hökmdarın şöhrətpərəstliyi etməli olduğu minnətdarlıq hissini, əgər bu hiss onda var idisə, tamamilə üstələyirdi. 1325-ci ildə Kastrakanın şəhərdən çıxmasından – o, Lukkanın əsas düşməni Florensiya ilə vuruşurdu – istifadə edən Pocio, onlara yalnız bəla gətirən şöhrətpərəst knyazdan xilas olmaq üçün şəhərin daha bir zadəgan ailəsi ilə razılığa gəldi.

Sui-qəsdçilər qiyam qaldıraraq, Kastruççonu əvəz edən valiyə hücum etdilər və onu öldürdülər. İğtişaş yarandı. Kastruçço və Pocio tərəfdarlarının qüvvələri təqribən bərabər idi. Ancaq gərginliyin ən yüksək vaxtında Pocio ailəsinin başçısı Stefano işə qarışdı və hər iki tərəfi silahı yerə qoymağa məcbur etdi.

Stefano sülhsevər adam idi və sui-qəsddə iştirak etmirdi. O, həmişə ailəsini faydasız qan tökməyə son qoymaq üçün dilə tuturdu. İndi o öz ailəsi adından çıxış etməyi və Kastruççonu onların şikayətlərini dinləmək və tələblərini yerinə yetirmək üçün yola gətirə biləcəyini təkid edirdi. Stefano ailədə ağsaqqal və müdrik adam idi. Buna görə də, ailə öz silahına deyil, onun diplomatiyasına etibar etməyə razılıq verdi.

Üsyan barədə eşidən Kastruçço geriyə tələsdi. Ancaq o, şəhərə gəlib çatarkən, Stefanonun gizli fəaliyyəti hesabına toqquşma dayanmışdı. Şəhərdə olan sülh və əmin-amanlıq hökmdarı heyrətə saldı. Üsyançıları sakitləşdirdiyinə görə Kastruççonun ona minnətdarlıq edəcəyinə inanan Stefano hökmdarın görüşünə getdi. O, sülhə nə cür nail olduğunu izah etdi və Kastruççonu mərhəmətli olmağa çağırdı. Stefano izah etdi ki, onun ailəsindən olan qiyamçılar gənc və coşğun adamdırlar, onlar hakimiyyət istəyirlər, ancaq təcrübələri yoxdur. O öz ailəsinin əvvəllər Kastruççoya göstərdiyi alicənablığı və köməyi xatırladaraq, bildirdi ki, hökmdar bütün bu yaxşılıqlara görə, Pocio ailəsini bağışlamalı və onların şikayətlərini təmin etməlidir. Stefano bunun yeganə düzgün qərar olduğunu bildirdi və bunu onunla əsaslandırdı ki, ailə silahı könüllü yerə qoymuş, keçmişdə isə, həmişə ona kömək etmişdir.

Kastruçço səbirlə qulaq asırdı. Elə görünürdü ki, o, azacıq da olsa qəzəblənməmiş və inciməmişdir. Cavabında o, Stefanonu ədalətin zəfər çalacağına şübhə etməməyə çağırdı, qarşılıqlı iddiaların müzakirəsi və razılaşmaq üçün onun bütün ailəsini saraya dəvət etdi. Onlar ayrılarkən, Kastruçço dedi ki, mərhəmət və xeyirxahlıq göstərmə-

KƏNDLİ VƏ ALMA AĞACI

Kəndlinin bağında bitmiş alma ağacı bar vermirdi, onun budaqlarında isə sərçələr və cırcıramalar oynaşırdı. Kəndli alma ağacını kəsməyi qərara aldı və əlinə balta alaraq, onun kökünə güclü zərbə vurdu. Cırcıramalar və sərçələr kəndliyə yalvararaq, onlara sığınacaq vermiş ağacı kəsməməyi və mərhəmət göstərməyi xahiş etdilər və bunun əvəzində öz gözəl nəğmələri ilə insanın əməyini yüngülləşdirəcəklərinə söz verdilər. Onların yalvarışlarına əhəmiyyət verməyən kəndli balta ilə ikinci və üçüncü zərbəni vurdu. O, ağacın özəyinə çatanda, orada bal dolu arı pətəyi gördü. Kəndli şan balının dadına baxıb, baltanı bir tərəfə tulladı və ağaca, müqəddəs bir əşya kimi yanaşaraq, ona qayğıkeşliklə qulluq etməyə başladı.

Ezop, e. ə. VI əsr. «Təmsillər»

yə imkan verdiyinə görə Allaha minnətdardır. Həmin axşam Pocio ailəsinin bütün üzvləri saraya gəldi. Kastruçço onların dərhal həbs olunması əmrini verdi, bir neçə gün sonra, Stefano da daxil olmaqla, hamısını edam etdirdi.

Adamların çoxu o qədər həddindən ziyadə subyektivdirlər ki, onları özlərindən başqa heç nə maraqlandırmır. Kiminsə onlara etdiyi istənilən məzəmmət, onları öz işləri barədə düşünməyə sövq edir, onların bütün diqqəti isə, mövzunun nə qədər uzaq olmasından asılı olmayaraq, söhbəti öz şəxsiyyətləri üzərinə gətirməyə olan kiçicik şansa yönəlmiş və sərf edilmişdir.

Artur Şopenhauer (1788–1860)

İZAHI

Stefano ədalətin və alicənablığın təntənəsinə inananların hamısının mücəssəməsidir. Əlbəttə, tarixdə ədalət mühakiməsinə müraciət etməyin və alicənablıq haqqında xatırlatmanın uğurla nəticələnməsi halları məlumdur. Ancaq bu, daha tez-tez, xüsusən Kastruçço kimi adamlarla razılığa gəlməyə cəhd, dəhşətli nəticələrə gətirib çıxarmışdır. Stefano knyazın hakimiyyətə gedən yolunun satqınlıqdan və rəhmsiz amansızlıqdan keçdiyini bilirdi. Nəhayət, bu adamın öz yaxın və sadiq dostlarını öldürmək barədə əmr verməsi də məlum idi. Köhnə dostunu öldürməklə dəhşətli səhvə yol verdiyini Kastruççoya deyəndə, cavab vermişdi ki, o, köhnə dostunu deyil, yeni düşmənini edam etdirmişdir.

Kastruçço kimi adamlar güc və mənfəət anlayışından başqa heç nə başa düşmürlər. Qiyam qalxarkən, bütün mümkün addımlardan ən düzgünü onu taleyin ixtiyarına vermək idi. Ancaq hətta bu faciəli səhvə yol verdikdən sonra Stefanonun Kastruççonu pulla və ya gələcəkdə ona «qızıl dağları» vəd etməklə və ya Kastruççonun hakimiyyətini saxlamaq üçün hələ də Pociosuz – onun Romanın ən nüfuzlu nəsilləri ilə əlaqələri hesabına – keçinə bilməyəcəyinə, yaxud da heç olmazsa, faydalı qohumluq əlaqələri yaratmağın mümkünlüyünə işarə vuraraq, ələ almaq şansı var idi.

Bunların əvəzinə, Stefano qaytarılmamış borcları xatırladaraq, keçmişi qurdalamağa başladı. Heç kimi zorla xeyirxah olmağa məcbur etmək olmaz, çox vaxt minnətdarlıq edilməsi insanı xoşbəxt edə biləcək ağır bir yük olduğundan, hər bir kəs ondan xilas olmağa can atır. Kastruçço Pocio ailəsini məhv edərək, onun qarşısında olan öhdəliyindən azad oldu.

QANUNA RİAYƏT EDİLMƏSİ

Eramızdan əvvəl 431-ci ildə, Poleponnes müharibəsi ərəfəsində Kerkir (sonralar – Korfu) adlanmış ada və Yunanıstanın Korinf şəhər-dövləti münaqişə astanasında idi. Hər iki tərəf səfir göndərərək, Afinanı müttəfiq kimi öz tərəfinə çəkmək istədi. Afinanı öz tərəfində görmək qələbə demək olduğundan, istinadgah böyük idi. Kimin qələbə çalmasından asılı olmayaraq, məğlub tərəf Afinanın mərhəmətinə ümid bağlamırdı.

Kerkir adasının elçisi birinci söz alaraq, çıxışına adanın əvvəllər Afinaya kömək etmədiyi, ümumiyyətlə isə, çox vaxt Afinanın düşmənləri ilə müttəfiq olması faktını etiraf etməkdən başladı. Kerkir və Afina bir-biri ilə nə dostluq, nə də minnətdarlıq hissləri ilə bağlı deyildirlər. Bəli, elçi Afinaya qorxudan və öz vətəninin gələcəyi üçün narahat olduğundan gəldiyini də etiraf etdi. Onun təklif edə biləcəyi yeganə şey qarşılıqlı faydalı ittifaqdır. Kerkir gücünə və sayına görə, yalnız Afinadan geri qalan hərbi donanmaya malikdir. İki dövlətin ittifaqı düşmən dövlət olan Spartanı dəhşətə gətirən çox güclü donanmanın inkişafına kömək edərdi. Kerkir adası, təəssüf ki, bundan başqa heç nə təklif edə bilmir.

Sonra Korinf dövlətinin nümayəndəsi Kerkir adasından olan elçinin quru, sönük çıxışı ilə kəskin təzad təşkil edən parlaq, ehtiraslı nitq söylədi. O, Korinfin Afina qarşısında olmuş bütün xidmətlərini xatırlatdı. O soruşdu ki, Afinanın digər müttəfiqləri onun indiki dosta qarşı keçmiş düşmənlə ittifaq bağlamasına necə baxardı: şübhəsiz, bu müttəfiqlər öz sədaqətlərinin qiymətləndirilmədiyini görüb, Afina ilə öz müqavilələrini poza bilərdilər. O, Ellada qanunlarına müraciət edərək, xatırlatdı ki, Korinfin etdiyi bütün xeyirxahlıqların əvəzini Afinanın çıxması üçün vaxt gəlib çatmışdır. Axıra yaxın elçi Korinfin Afinaya etdiyi xidmətləri uzun-uzadı sadalamağa keçdi və dostlara qarşı münasibətdə xeyirxah olmağın nə qədər vacib olduğunu xatırlatdı.

Hər iki çıxışdan sonra afinalılar müzakirələrə başladılar. Səsvermə vaxtı çatanda onlar yekdilliklə Korinfə qarşı Kerkirlə ittifaqın xeyrinə səs verdilər.

İZAHI

Tarix bütün qədim və klassik Yunanıstanda ən sağlam düşüncəli adamlar kimi məşhur olan afinalıları yaxşı xatırlayır. Onlar üçün ən yaxşı dünya natiqliyi, emosiyalara təsir edən şeylərdən heç biri inandırıcı təcrübi dəlilləri, xüsusən onların gücünü artıra biləcək dəlilləri üstələyə bilməz.

Korinfli elçi Afina qarşısında xidmətlərini sadalayaraq, afinalıları təqsir hissi keçirməyə məcbur etməklə və onların çox şeydə Korinfə borclu olduğunu xatırlatmaqla, bu məğrur insanların heysiyyətinə toxunmasını nəzərə almadı. Afinalılar keçmiş xidmət və dostluq münasibətlərinə az əhəmiyyət verirdilər. Həmçinin onlar bilirdilər ki, hətta digər müttəfiqlər Korinfi müdafiə etmədiyinə görə, Afinanı nankor hesab etsələr də, bütün bu şəhər-dövlətlər Yunanıstanın ən qüdrətli şəhər-dövləti olan Afina ilə münasibətləri çətin ki, kəsərdilər. Afina imperiyası güc hesabına idarə edilirdi və hər hansı narazılıq təzahürü, sadəcə olaraq yatırıla bilərdi.

İnsanlar keçmiş və gələcək haqqında müzakirələr arasında qaldıqda, praqmatik olan həmişə gələcəyə meyl edir və keçmişi unudur. Kerkir siyasətçiləri başa düşdülər ki, sağlam düşüncəli realist üçün ən yaxşısı praqmatik olmaqdır. Nəhayət, adamların əksəriyyəti həqiqətən praqmatikdir – öz maraqlarını nəzərə almadan hərəkət edənlərə çox nadir hallarda təsadüf olunur.

Zəifin güclü qarşısında boyun əyməsi həmişə qanun olmuşdur, bundan əlavə, biz özümüzü hakimiyyətə layiq bilirik. Bu ana qədər sən də belə hesab edirdin, ancaq indi öz şəxsi gəlirini hesablayıb, xeyir və şər terminləri ilə mühakimə yürütməyə başlayırsan. Bu cür rəylərlə adamların, onların qüvvə üstünlüyü ilə müşayiət olunan hakimiyyətə meylinin qarşısını almaq heç vaxt mümkün olmamışdır.

Fukidid (e.ə. 460–400-cü illər),
«Peloponnes müharibəsi»

HAKİMİYYƏTİN AÇARI

Siz özünüzün hakimiyyətə yüksəliş yolunuzda dəfələrlə böyük hakimiyyətə malik adamlardan kömək xahiş etmək vəziyyətinə düşəcəksiniz. Kömək istəmək – bu da bir sənətdir, müvəffəqiyyət isə, sizin kiminlə iş tutduğunuzu başa düşmək qabiliyyətinizdən və öz ehtiyaclarınızı onun ehtiyacları ilə qarışdırmamaqdan asılıdır.

Adamların əksəriyyəti bu sahədə ona görə heç vaxt uğur qazana bilmirlər ki, onların gözləri öz xüsusi arzu və tələbləri ilə tutulmuşdur. Onlar müraciət etdikləri adamların, onlara təməntutulmuşdur... nasız kömək etməkdə maraqlı olmaları ehtimalından çıxış edirlər. Bu adamlar elə danışırlar ki, sanki onların ehtiyacları müraciət etdikləri adamlar üçün əhəmiyyətlidir, onları qayğılandırır, əslində isə, bu vaxt, ola bilsin, onu bizim işimizdən az heç nə narahat etmir. Bəzən onlar yüksək mətləblərə – uca motiv-

lərə və ya məhəbbət, yaxud əzab kimi hisslərə müraciət edirlər. Onlar iri tablo çəkirlər, halbuki, bunun əvəzində, sadə, adi reallıq daha cəzbedici ola bilər. Onlar hətta ən böyük hakimiyyətə malik adamların da ehtiyacları ola biləcəyi barədə düşünmək istəmirlər və onlara marağı omayan bir işlə bağlı müraciət etsəniz, ən yaxşı halda o, sizin xahişinizi boş yerə vaxt itirmək kimi qəbul edəcəkdir.

XVI əsrdə Portuqaliya missionerləri Yaponiya əhalisini katolik dininə cəlb etmək üçün çoxillik cəhdlər etdilər. Bu vaxt Portuqaliya Yaponiyanın Avropa ilə ticarətində inhisara malik idi. Missionerlər müəyyən uğur qazansalar da, ölkənin hakim elitası ilə heç cür dil tapa bilmirdilər. XVII əsrin əvvəlində onların fəaliyyəti Yaponiya imperatoru İeyasuda kəskin mənfi münasibət oyatdı. Yaponiyaya hollandlar gəlməyə başladıqda imperator rahatlıq hiss etdi. Odlu silahlara, gəmiçilik sahəsindəki biliklərə görə İmperatorun avropalılara böyük ehtiyacı var idi. Yeni gələn avropalılar isə, öz dinlərini məcburi qəbul etdirməkdə zəhlə tökmürdülər – hollandlar ancaq ticarət etmək istəyirdilər. İeyasu portuqalları ölkədən qovmaq üçün dərhal əmr verdi. Həmin vaxtdan o, yalnız işgüzar hollandlarla iş görürdü.

Yaponiya və Hollandiya – tamamilə müxtəlif mədəniyyətlərə malik ölkələr idi, ancaq onları əbədi və universal ideal – təmənnalı maraqlar – birləşdirirdi. Sizin iş gördüyünüz istənilən adam sanki başqa mədəniyyətə sahibdir və onunla sizin keçmişinizdə ümumi olan heç nə yoxdur. Bununla belə, siz onunla öz aranızda olan fərqi – onun eqoizminə istinad edərək aradan qaldıra bilərsiniz. Burada həddindən artıq incəlik lazım deyil, başa düşən olun: siz onun üçün qiymətli informasiyaya malik olub, onun çamadanını qızılla dolduraraq, elə edə bilərsiniz ki, o, çox və xoşbəxt yaşasın. Bizim hamımızın danışdığı və başa düşdüyü dil belədir.

Ən vacibi – başqa adamın psixologiyasını başa düşməkdir. O, şöhrətpərəstdirmi? Öz şan-şöhrətinin və ya cəmiyyətdəki

mövqeyinin qayğısına qalırmı? Onun, qalib gəlməsinə sizin kömək edə biləcəyiniz düşməni vardırmı? Ola bilsin ki, onu sadəcə olaraq pul və ya hakimiyyət maraqlandırır?

XII əsrdə monqollar Çini tutduqda, onların iki min il ərzində mövcud olmuş, inkişaf edərək çiçəklənmiş mədəniyyəti üçün ciddi təhlükə yaratdı. Onların rəhbəri Çingiz xan, Çini yalnız onun at ilxıları üçün örüşlərin çatmadığı bir ölkə kimi görürdü. Buna görə də, o, ölkəni dağıtmaq, şəhərlərini yerləyeksan etmək qərarına gəldi, çünki çinliləri məhz bu cür asan ram etmək və otlaqlar yaratmaq olardı. Çini dağılmaqdan və viran olmaqdan nə əsgər, nə sərkərdə və nə də şah deyil, Elyuy Çusay adlı adam xilas etdi. Çusayın özü əcnəbi idi, ancaq Çin mədəniyyətini yüksək qiymətləndirirdi. O, Çingiz xanın etibarlı müşaviri olmaqla, onu inandırdı ki, ölkəni dağıtmaq yox, əksinə, hər sakinindən vergi toplamaqla, onun sərvətlərindən daha yaxşı istifadə etmək olar. Çingiz xan bunu ağıllı məsləhət hesab etdi və Çusayın təklif etdiyi kimi hərəkət etdi.

Çingiz xan uzun müddətli mühasirə nəticəsində Kayfen şəhərini fəth etdikdən sonra, onun bütün sakinlərini məhv etmək qərarına gəldi (o, müqavimət göstərən şəhərlərin əhalisi ilə belə davranırdı). Çusay ona məlumat verdi ki, Çinin ən yaxşı sənətkarları və mühəndisləri bu şəhərdən çıxmışdır və onlardan istifadə etmək, onları həyatdan məhrum etməkdən daha faydalıdır. Hələ heç bir vaxt Çingiz xan işğal etdiyi ölkənin əhalisinə rəhm etməmişdi, hərçənd bu halda da, ölkəni xilas edən mərhəmət deyildi. Bu adam mədəniyyətlə, ümumiyyətlə isə, hərbi əməliyyatlara və praktiki nəticələrə aidiyyəti olmayan hər hansı bir şeylə maraqlanmayan barbar, bir kəndli idi. Çusay bu cür insanda mövcud ola bilən yeganə əsas duyğudan: acgözlükdən istifadə etmişdi.

Xudbinlik və mənfəət güdən maraq – bütün insanlara təsir etmək vasitəsidir. Qarşıdakının tələbatını necə ödəyə biləcəyiniz barədə onu məlumatlandırın. Sizin xahişiniz sehrli şəkildə

onlar tərəfindən heç bir müqavimətə rast gəlməyəcəkdir. Hakimiyyətə nail olmaq yolunda hər bir addımı ataraq, siz ətrafdakıların fikirlərinə yol çəkməli, onların ehtiyaclarını və maraqlarını görməli, həqiqəti kölgədə qoyan öz xüsusi hisslərinizin pərdəsindən xilas olmalısınız. Bu sənəti öyrənin – onda sizin imkanlarınız hüdudsuz olacaqdır.

OBRAZ:

KƏNDİR

Mərhəmət və minnətdarlıq kəndiri sürtülüb yeyilən olduğundan, tez bir zamanda qırılacağı labüddür. Öz həyatınızı ona etibar etməyin. Qarşılıqlı eqoizm kəndiri isə, çoxsaylı liflərdən toxunmuşdur və onu qırmaq elə də asan deyildir. O, uzun illər davam gətirəcək, xidmət göstərəcəkdir.

MÖTƏBƏR FİKİR

Uğur qazanmağın ən qısa və etibarlı yolu – adamlara sizin yüksəlməyinizin, onların öz maraqlarına kömək edəcəyini aydın şəkildə başa düşmələrinə imkan verməkdir.

Jan de Labryuyer (1645–1696)

MEDALIN İÇ ÜZÜ

Elə adamlar da var ki, onlar tamahkar maraqlara müraciət etməyi pis və nanəciblik hesab edirlər. Onlar mərhəmət göstərməyi, ədalətli olmağı və beləliklə, özünü yüksəkdə hesab etməyi üstün tuturlar. Belələrinə kömək barədə xahişlə müraciət edərkən, siz onların hakimiyyət mövqelərini qeyd edin. Onlar kifayət qədər elə güclü olurlar və öz üstünlüklərini hiss etmək imkanından başqa, heç nə istəmirlər. Bu, onları sərxoşluq dərəcəsinə çatdıran bir şərabdır. Onlar sizi istəyinizə çatdırmaq, nüfuzlu adamlara təqdim etmək üçün bütün varlıqları ilə çalışacaqlar – əlbəttə, hər şeyin ictimaiyyət qarşısında və şübhəsiz, tamamilə təmənnasız olur (adətən müşahidəçilər nə qədər çox olarsa, bir o qədər yaxşıdır). Buna görə də, siz xudbin maraqlara müraciət etməklə, hər adama yol tapa bilməzsiniz. Bu, kimlərinsə ürəyincə olmaya bilər – onlar istəmirlər ki, özləri bu cür alçaq niyyətlərlə maraqlanan adamlar kimi görünsünlər. Onlara xeyirxahlıq nümayiş etdirmək imkanı lazımdır.

Təvazökarlıq etməyin. Belə imkanı müraciət etdiyiniz adamlara verin. Kömək barədə xahiş edərək, siz onları yalanın qurbanı etmirsiniz – onlar verməyi xoşlayırlar, həm də necə vermələrini başqalarının da görməsini xoşlayırlar. Nüfuzlu adamlar tipini fərqləndirməyi və onlara hansı yol tapma qaydasının uğurlu olacağını başa düşməyi öyrənin. Əgər onlar tamahkardırsa, belələrinin mərhəmətinə müraciət etməyin. Yox, əgər onlar mərhəmətli və alicənab görünməyə can atırlarsa, o zaman onların tamahkarlığından istifadə etməyin.

ON DÖRDÜNCÜ QANUN

DOST QİYAFƏSİNƏ GİR, ANCAQ CASUS KİMİ HƏRƏKƏT ET

QANUNUN MƏZMUNU

Öz rəqibini tanımaq çox vacibdir. Qiymətli məlumat toplamaq üçün casuslardan istifadə edin, bu, sizə bir addım irəlidə olmağa imkan verəcəkdir. Özünüzün casus olmağınız daha yaxşıdır. Nəzakətli dünyəvi söhbət aparmaqla, əvvəlcədən zəmin yaratmağı öyrənin. Cavabları adamların zəif cəhətlərini və niyyətlərini açmağa imkan verən dolayı suallar verin. Zəruri olan istənilən hər hansı bir vəziyyətdə araşdırma aparmağa imkan tapmaq mümkündür.

QANUNA RİAYƏT EDİLMƏSİ

Cozef Dyuvin, şübhəsiz, sənət əsərlərinin satışı üzrə öz dövrünün böyük taciri olmuşdur – 1904-cü ildən 1940-cı ilə qədər o, milyonlarla sərvəti olan kolleksiyaçılar üçün Amerikanın sənət əsərləri bazarını öz inhisarında saxlamışdır. O, yalnız bir yağlı tikəni ələ keçirə bilmirdi: bu, sahibkar Endryu Mellon idi. Mellonu öz müştərisinə çevirmək ideyası Dyuvinin başından çıxmırdı.

Dostları ona deyirdilər ki, bu, həyata keçməsi mümkün olmayan arzudur. Mellon zabitəli, qaraqabaq adam idi. Dyuvinin söhbətcil və ünsiyyətli adam olması haqqında danışılanlar onu əsəbiləşdirirdi – Mellon öz hərəkətləri ilə bu adamla tanış olmaq istəmədiyini açıq-aşkar bildirirdi. Ancaq Dyuvin ona şübhə ilə yanaşan dostlarına etirazını bildirməkdə davam edirdi: «Mellon rəsm əsərlərini, sadəcə olaraq, məndən alacaq, həm də o, bunları yalnız məndən alacaq». Dyuvin illərlə Mellonu izlədi, milyonçunun vərdişlərini və zövqünü öyrəndi. Bunun üçün o, Mellonun bir çox xidmətçilərini gizlicə ələ aldı, onlardan qiymətli informasiya topladı. Dyuvin işə başlamağa hazır olduğu vaxt, o, Mellonu onun öz arvadından da yaxşı tanıyırdı.

1921-ci ildə Mellon Londonda idi. O, dəbdəbəli Klaric-oteldə yaraşıqlı otaq tutdu. Dyuvin ikinci mərtəbədə – Mellonun tutduğu otağın altında yer aldı. O öz xidmətçisinə Mellonun xidmətçisi ilə dostluq əlaqəsi yaratmağı tapşırdı. Dyuvinin həlledici addım atmağı qət etdiyi gün Mellonun xidmətçisi onun xidmətçisinə bildirdi ki, Mellon paltosunu elə indicə geyindi və lift çağırmaq üçün koridora çıxdı. Xidmətçi bu xəbəri dərhal Dyuvinə çatdırdı.

Dyuvin xidmətçisinin köməyi ilə tez paltosunu geyindi. Bir neçə saniyədən sonra o, artıq, liftə daxil oldu. Necə də böyük təsadüf! – Mellonla liftdə rastlaşdı. Dyuvin özünü təqdim edərək dedi: «Gün aydın, cənab Mellon! Mən Milli Qalereyaya müəyyən rəsmlərə baxmağa gedirəm». Gözlənilməz təsadüf –

cənab Mellon da məhz ora yollanır. İş elə gətirdi ki, Dyuvin öz qurbanını elə bir yerə müşayiət etməli oldu ki, o burada özünün ilk uğurunu möhkəmləndirməyə imkan qazandı. O, Mellonun zövqünə beş barmağı kimi bələd idi. Muzeyin salonlarını maqnatla bir yerdə gəzən Dyuvin öz biliyi ilə onu heyran qoyaraq valeh etdi. Yenə də, tamamilə təsadüfən, aydın oldu ki, onların zövqləri heyrət ediləcək dərəcədə üst-üstə düşür.

Mellonu xoş bir heyrət bürüdü: onun qarşısında təsəvvür etdiyi Dyuvindən tamamilə fərqli adam dayanmışdı. Mehriban, ünsiyyətdə xoşagələn olan bu şəxs, sözsüz ki, çox gözəl zövqə malik idi. Onlar Nyu-Yorka qayıtdıqda, Mellon Dyuvinin eksklüziv qalereyasına tamaşa etdi və onun kolleksiyası çox xoşuna gəldi. Hər bir rəsm əsəri, sözün tam mənasında, onu özünə cəlb edirdi – qəribə deyilmi? – o, həmişə məhz bu cür rəsm əsərlərinin kolleksiyasını yaratmağı istəyirdi. Sonralar o, ömrünün sonuna qədər Dyuvinin çox yaxşı və ən səxavətli müştərisi oldu.

İZAHI

Mübariz xarakterli ləyaqətli adam olan Cozef Dyuvin heç bir şeyi təsadüfün ümidinə buraxmırdı. Bu və ya digər müştərinin, sadəcə, xoşuna gəlməyə ümid bəsləməklə uğur qazanmaq mümkün deyildir. Bu, hədəfə gözübağlı atəş açmaq kimi bir şeydir. Əlində azacıq da olsa fakt olarsa – hədəfi vurmaq ehtimalı artacaq.

Dyuvinin fəaliyyətində Mellon onun ən parlaq, ancaq yeganə olmayan qələbəsi idi. O, bir çox milyonçunu izləyirdi. Gələcək müştərisinin xidmətçilərini və ya ev adamlarını ələ alaraq, onun evdən çıxma və evə gəlmə vaxtı, zövqündə baş verən dəyişikliklər və başqa xırda şeylər barədə daim qiymətli məlumat əldə edirdi. Bütün bunlar, Dyuvinə rəqiblərindən həmişə irəlidə olmağa imkan verirdi. Dyuvinin müştərilərini ələ keçirmək istəyən rəqibi Henri Frik belə bir halı müşahidə

etmişdi: o, hansı varlı nyu-yorklunun görüşünə gedirdisə, məlum olurdu ki, onun gəlişinə qədər burada sanki altıncı duyğuya malik olan Dyuvin olmuşdur. Başqa tacirlərə elə gəlirdi ki, Dyuvinin hər yerdə əli vardır və hər şey barədə onlardan əvvəl xəbər tutur. Dyuvinin qüdrəti onları yumşaltdı və ruhdan saldı, çoxları isə, sadəcə olaraq, varlı və sərfəli müştərilərlə işləməyə cəhd etməkdən imtina etdilər.

Məharətli casusluğun verdiyi hakimiyyət belədir: o, qüdrətli və bəsirətli görünməyə kömək edir. Hədəfinizlə yaxından tanışlıq, sizi onun gözlərində cazibədar edir, çünki siz onun arzularını qabaqcadan duya bilirsiniz. Hakimiyyətinizin mənbəyini heç kim görmür, görünməyən düşmənlə isə mübarizə aparmaq mümkün deyildir.

Hökmdarlar dünyanı casusların köməyi ilə, inəklər – iy bilmə, brəhmənlər (Hindistanda kahinlər) – müqəddəs kitablar, qalan adamlar isə, gözləri vasitəsilə tanıyırlar.

Kautilya, hind filosofu, e.ə. III əsr

HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət dünyasında sizin məqsədiniz gələcək hadisələri idarə etməkdir. Bu vaxt sizin qarşılaşdığınız çətinliklərdən biri də, adamların öz fikirləri, duyğuları və planlarını sizə açmaq istəməmələridir. Əgər adamlar sözlərinə nəzarət etsələr, onlar çox vaxt öz xarakterlərinin başlıca cəhətlərini, zəifliklərini, gizli dəlillərini, beynindən çıxmayan ideyalarını gizlətməyə nail olurlar. Nəticədə siz onların hərəkətlərini proqnozlaşdırmağa nail ola bilməz və həmişə zülmət içində çaşıb qalarsınız. Hiylə, onların sirlərini və gizli niyyətlərini öyrənmək üçün elə üsul tapmaqdadır ki, onlar bundan şübhələnməsinlər.

Bu, ilk baxışda göründüyü qədər də çətin deyildir. Dost maskası taxmağınız, sizə həm dostlarınız, həm də düşmənləriniz haqqında gizli məlumat toplamağa imkan verər. Qoy başqaları qoroskopa müraciət etsinlər və Taro kartları ilə fala bax-

sınlar – sizin əlinizdə isə, gələcəyi görmək üçün daha dəqiq və etibarlı üsullarınız var.

Casusluğun ən geniş yayılmış üsulu – Dyuvinlə baş verən halda olduğu kimi – başqa adamlardan istifadə etməkdir. Bu üsul sadə və realdır, ancaq təhlükəlidir: siz şübhəsiz, informasiya əldə edəcəksiniz, lakin sizə işləyən adamlar üzərində, demək olar ki, nəzarətiniz yoxdur. Onlar casusluq etdiklərini gizlətmək üçün kifayət qədər bacarıqlı olmaya və ya hətta sizin əleyhinizə də fəaliyyətə başlaya bilərlər. Ən yaxşısı, özünüzün dost cildinə girib casus olmağınız və bu vaxt hiss edilmədən informasiya toplamağınızdır.

Əgər kiminsə sizə yalan dediyindən şübhələnirsinizsə, özünüzü elə göstərin ki, sanki onun hər bir sözünə inanırsınız. Bu, ona sözünü davam etdirməyə cəsarət verər, o öz fikirlərini daha artıq dərəcədə, həm də açıq şəkildə ifadə edər və nəhayət, özünü ələ verər. Həmçinin, əgər siz kiminsə həqiqətin bir hissəsini gizlədərək, hər şeyi danışmağından şübhələnirsinizsə, özünüzü elə göstərin ki, ona inanmırsınız. Sizin müqavimət göstərməyiniz onu qıcıqlandırar və o, bütün qüvvəsini sizin etimadınızı dağıtmağa yönəldərək, hər şeyi axıra qədər ortalığa qoyar.

Artur Şopenhauer (1788–1860)

Fransız siyasətçisi Taleyranın bu sahədə misli-bərabəri yox idi. O, adi səmimi söhbət zamanı, öz həmsöhbətlərinin sirlərini öyrənə bilməkdə, demək olar ki, fövqəladə qabiliyyətə malik idi. Onun müasiri baron de-Vitrol yazırdı: «Onun söhbət tərzi hazırcavablığı və zənginliyi ilə fərqlənirdi. O öz fikirlərini və ya niyyətlərini ifadə etdiyindən çox gizləmək, eyham və sözlərin şəffaf pərdəsi arxasında ört-basdır etmək məharətinə malik idi. O öz şəxsiyyətini yalnız ən zəruri hallarda açırdı». Burada həlledici olan, Taleyranın söhbət zamanı başqalarına niyyətlərini və planlarını açaraq, özləri barədə danışmağa imkan verməsi üçün özünün susmasıdır.

Bütün həyatı ərzində, danışırdılar ki, Taleyran maraqlı həmsöhbətdir – əslində isə, o, çox az danışırdı. Söhbət zamanı o öz fikirlərinə toxunmayaraq, yalnız ətrafdakılara öz fikirlərini açmağa imkan verirdi. O, xarici diplomatlar üçün dostcasına müəmmalı əyləncələr, kübar qəbullar təşkil edir, onlardan söz alır, onları açıq etirafa cəlb edir və Fransanın xarici işlər naziri kimi, özü üçün çox qiymətli informasiya toplayırdı. Vyana konqresində o, məlumatı başqa üsulla toplayırdı: məxfi görünən şeylər barədə açıq danışır (əslində, çox vaxt öz uydurmalarını) və onu dinləyənlərin münasibətlərini müşahidə edirdi. O, məsələn, diplomatların yığıncağında deyirdi ki, etibarlı mənbədən ona məlum olduğuna görə, rus çarı yüksək vəzifəli hərbçiləri xəyanətə görə həbs etməyə hazırlaşır. Toplaşanların bu uydurma xəbərə münasibətini görən Taleyran rus ordusunun zəifləməsinin, xüsusən kimləri ruhlandırdığını müşahidə edirdi – ola bilsin ki, onların hökuməti Rusiya ilə bağlı planlar hazırlamışdır? Baron fon Ştettenin dediyi kimi, «müsyö Taleyran kimin pəncərədən bayıra atılacağını görmək üçün havaya tapançadan atəş açır».

Dəbdəbəli qəbullarda və adi müsamirələrdə ehtiyatlı olun. Adamlar özünə nəzarəti məhz bu yerlərdə zəiflədirlər. Öz şəxsiyyətinizi gizlədərək, siz onları öz fikirlərini açıqlamağa sövq edə bilərsiniz. Bu manevrin yaxşı cəhəti ondadır ki, ətrafdakılar sizin marağınızı səhvən dostluq kimi qəbul edirlər. Beləliklə, siz nəinki məlumat toplayırsınız, hətta dost qazanırsınız.

Bununla belə, bu üsulu qaydasında və

diqqətlə tətbiq etmək lazımdır. Əgər ətrafdakılar sirr öyrənməkdə sizdən şübhələnərlərsə, bundan yan keçmək zəruridir. Qiymətli məlumatlara deyil, dostcasına boş danışıqlara üstünlük verin. Sizin məlumat axtarışınız nəzərə çarpmamalıdır və ya sizin yönəldici suallarınız öz niyyətinizi açmaqdan çox, sizə lazımi informasiya almağa imkan verməlidir.

Tətbiq edilə biləcək üsullardan birini Laroşfuko vermişdir. O yazırdı: «Səmimilik tək-tük adamlarda müşahidə edilə bilər və çox vaxt hiylələrin ən yaxşısı olur – səmimilik başqalarından söz və sirr almaq məqsədi ilə təzahür edir». Başqa sözlə, sanki öz ürəyinizi həmsöhbətinə açmış kimi göstərməklə, siz asanlıqla onun şəxsi sirlərini öyrənə bilərsiniz. Saxta etiraflar etməklə, onun həqiqi etiraflar edəcəyinə ümid edə bilərsiniz.

Başqa hiyləgərlik, filosof Artur Şopenhauerin adı ilə bağlıdır. O, adamları acıqlandırmaq, onları öz sözlərinə nəzarət etməyi itirmək dərəcəsinə qədər çatdırmaq üçün söhbət zamanı var qüvvə ilə onların əleyhinə getməyi təklif edirdi. Emosiyaların coşması, özləri haqqında həqiqəti açmağa onları məcbur edir, bu həqiqət isə, nəticədə onlara qarşı çevrilə bilər.

Dolayı olan daha bir üsul – adamlara öz sirlərini verməyə məcbur etmək üçün kiçik tələ qurmaqdır. VII əsrdə İranın hiyləgər və qüdrətli hökmdarı II Xosrov heç bir şübhə oyatmadan öz təbəələrinin bütün sirlərini öyrənmək üçün çoxlu üsullardan istifadə edirdi. Məsələn, əgər o, iki saray adamının dostluğunu müşahidə edirdisə, onlardan birini kənara çəkərək, dostunun satqın olduğunu və tezliklə edam ediləcəyini bildirirdi. Şah saray adamına deyirdi ki, hamıdan çox ona inanır və o, bu sirri saxlamalıdır. Sonra o, hər iki dostu diqqətlə izləyirdi. Əgər o, ikinci adamın davranışında heç bir dəyişiklik olmadığını müşahidə edirdisə, belə nəticə çıxarırdı ki, birinci saray adamı sirri saxlamışdır. Belə olduqda, hökmdar onun rütbəsini qaldırar, sonralar isə ona deyərdi: «Mənə sənin dostun haqqında müəyyən məlumat verildiyinə görə, onu öldürmək istəyirdim.

Ancaq mən xəbəri yoxlayıb, yalan olduğunu yəqin etdim». Əksinə, əgər hökmdar ikinci saray adamının ondan yan qaçmağa, çəkinə-çəkinə davranmağa başladığını görsəydi, başa düşürdü ki, onun sirri ələ verilib. Belə olduqda, ikinci saray adamına hər şeyin yalnız sınaq olduğunu və onun bu sınaqdan çıxmadığını, heç bir pis hərəkət etmədiyinə baxmayaraq, artıq ona etibar edilmədiyini deyir və onu saraydan qovurdu. Sirri verən birinci saray adamı isə ölkədən sürgün edilirdi.

Casusluğun bu forması qəribə görünə bilər – çünki o, insan haqqında hər hansı konkret məlumatı deyil, onun xarakterini açmağa imkan verir. Ancaq çox vaxt, bu problemi başlanğıcda həll etmək üçün yaxşı üsuldur.

Adamları konkret əməllərə sövq edərək, siz onların vicdanlı, sədaqətli və ya əksinə olmasını qiymətləndirə bilərsiniz. Bu məlumat isə, əksər vaxt çox qiymətli olur: onları bilərək, siz, ətrafdakıların sonrakı hərəkətlərini proqnozlaşdıra bilərsiniz.

OBRAZ:
CASUSUN ÜÇÜNCÜ GÖZÜ

İkigözlü insanlar diyarında üçüncü göz ilahi bilicilik verir. Siz başqalarından uzağı görür, onların qəlbinə nəzər sala bilirsiniz. Sizin özünüzdən başqa heç kim bu gözdən qorunmamışdır.

MÖTƏBƏR FİKİR

«Beləliklə, böyük hökmdarın və müdrik sərkərdənin istənilən döyüşdə düşmənə qələbə çalmasının, onların adi adamlardan üstün qəhrəmanlıq göstərməsinin səbəbi, onların düşmənin vəziyyətini əvvəlcədən görməsindədir. Bu «öncəgörməni» nə ruhlardan, nə allahlardan almaq, nə keçmişin

hadisələri ilə müqayisə aparmaqla, nə də astroloji hesablamalarla əldə etmək mümkün deyildir. O, düşmənin vəziyyətini bilən adamlardan – casuslardan alına bilər».

Sun-szı «Müharibə sənəti» (e. ə. VI–V əsrlər)

MEDALIN İÇ ÜZÜ

İnformasiya hakimiyyət üçün prinsipcə vacibdir, ancaq başqaları barədə casusluq etməyə hazırlaşaraq, onların da sizi izləyəcəyinə hazırlaşın. İnformasiya müharibəsində güclü silah dezinformasiyadır. Uinston Çörçill bu barədə demişdir: «Həqiqət elə qiymətli şeydir ki, onu həmişə cangüdən – yalan müşayiət etməlidir». Sizin həqiqətinizə heç kimin yol aça bilməməsi üçün özünüzü belə cangüdənlərlə əhatə edin. Verdiyiniz informasiyanın əldə etdiyiniz informasiya kimi olduğunu göstərməklə, siz oyunda udarsınız.

1944-cü ildə faşist bombardmançılarının Londona basqınları gözlənilmədən gücləndi. Şəhərə iki mindən artıq Fau-1 raketi atıldı, beş mindən artıq adam həlak oldu, bundan xeyli artıq adam isə yaralandı. Ancaq necə olurdusa, alman təyyarəçiləri həmişə hədəfi düz vura bilmirdilər. Məsələn, Londonun Tauer qəsrinə tuşlanmış raket şəhərə çatmadan, əhalinin seyrək olduğu şəhərətrafı məhəllələrə düşürdü. Bu, ona görə belə olurdu ki, almanlar obyektlərin koordinatlarını müəyyən edərkən İngilterəyə yeridilmiş məxfi agentlərin məlumatlarına əsaslanırdılar. Almanlar öz agentlərinin üzə çıxarıldığını və ingilis əks kəşfiyyatının agentlərinin onlarla işləyərək, onları incəliklə təhrif edilmiş məlumatlarla təmin etdiklərini bilmirdilər. Raketlər hər dəfə nəzərdə tutulmuş hədəflərdən uzağa düşürdü. Kampaniyanın sonunda onlar ingilis kəndlərindəki inəkləri vururdular.

Adamlara lazımi informasiya verərək, siz üstünlük qazana bilərsiniz. Əgər casusluq sizə üçüncü göz verirsə, dezinformasiya düşməninizin gözünün birini bağlayır. Təpəgöz isə, məlumdur ki, heç vaxt hədəfi vura bilmir.

ON BEŞİNCİ QANUN

DÜŞMƏNİ TAMAMİLƏ DARMADAĞIN ET

QANUNUN MƏZMUNU

Musa peyğəmbərin dövründən başlayaraq, bütün qüdrətli başçılara məlumdur ki, qorxudulmuş düşmən darmadağın edilməlidir (bu fikrə, onlar, ağır sınaqlardan sonra gəlmişlər). Nə qədər ölgün işartılı olsa belə, bir qığılcım qalması alovu şiddətləndirəcəkdir. Düşmənlə mübarizəni yarıda saxladıqda, sonrakı itkilər, onu tam məhv etməyə sərf olunan itkilərdən çox ola bilər: düşmən özünə gələcək və intiqam almaq yolları axtaracaq. Onu təkcə cismən deyil, həm də ruhən darmadağın edin.

QANUNUN POZULMASI

Sağ qalan düşmənlər, tam sağalmamış xəstəlik və ya axıra qədər söndürülməmiş yanğın kimi təhlükəli ola bilər. Buna görə də, onları tamamilə məhv etmək lazımdır... Heç bir halda düşməni zəif hesab edərək, onu layiqincə qiymətləndirməmək olmaz. Vaxt gələr ki, o, saman tayasına düşən qığılcım kimi təhlükəli olar.

Kautilya, hind filosofu, e.ə. III əsr

Çin tarixində liderlər arasında rəqabətin ən məşhur nümunəsi Syan Yuy və Lyu Banın mübarizəsi olmuşdur. Bu sərkərdələr hərbi xidmətə dost kimi başlamış, cəbhənin eyni tərəfində çiyin-çiyinə vuruşmuşlar. Nəcib nəsildən olan, böyük və güclü, qəzəblənərək tez hiddətlənməyə meylli və kobud, bir qədər kütbeyin Syan yaxşı hərbçi idi və həmişə öz qoşunlarının önündə gedirdi. Lyu Ban sadə kəndli ailəsindən çıxmışdı. O, qadınlarla əylənməyə və şərab içməyə üstünlük verərək, hərbi xidmətlə o qədər də ciddi məşğul olmurdu. Ümumiyyətlə, bu adam pis və hiyləgər idi, ancaq o, yaxşı strateqlər tapmaq qabiliyyətinə malik idi, müşavir kimi onları yanında saxlayır və məsləhətlərinə qulaq asırdı. Lyu orduda bu istedadı hesabına yüksəlmişdi.

E.ə. 208-ci ildə hökmdar Çu güclü Çen çarlığını işğal etmək üçün iki böyük qoşun göndərdi. Sun İ-nin komandan və Syan Yuyun ikinci komandir olduğu birinci ordu şimala getdi. İkinci ordu isə Lyu Banın komandanlığı ilə birbaşa Çen çarlığının üstünə yeridi. Onun məqsədi paytaxtı – möhtəşəm Sanyan şəhərini tutmaq idi. Hökmlü və səbirsiz Syan üçün Lyu Banın paytaxtı birinci tutması və sonra ola bilsin, birləşmiş ordunun komandanlığını qəbul etməsi fikri dözülməz idi.

Şimal cəbhəsinin komandanı Sun bir müddət əsgərləri döyüşə göndərməyə cəsarət etmədi. Özündən çıxmış Syan Sunun çadırına soxuldu və onu satqın adlandıraraq, başını vurdu və ordunun komandanlığını öz üzərinə götürdüyünü elan etdi. Əmr gözləmədən o, şimal cəbhəsini boş qoyaraq, birbaşa Sanyanın üzərinə yeridi. O, əsgər və sərkərdə kimi Lyudan üstün olduğuna əmin idi, ancaq onun ağlagəlməz təəccübünə rəğmən kiçik və çevik ordusu olan rəqib paytaxtı birinci tutdu. Syanın Fan Szen adlı müşaviri onu ehtiyatlı olmağa çağırdı: «Bu kobud qanmaz (Lyu Ban) həmişə yalnız qadınların və sərvətin hərisi olmuşdur, ancaq indi paytaxta daxil olaraq, ziyafətə və qazanc əldə etməyə baş qoşmadı. Bu, onun yüksələcəyini göstərir».

Fan Szen nə qədər gec olsa da, rəqibi öldürməyə Syanı inandırdı. O, Syana Lyunu Sanyanın kənarındakı düşərgəsinə ziyafətə dəvət etməyi və mərasim rəqsi zamanı qılıncla onun boynunu vurmağı təklif etdi. Dəvətnamə göndərildi, Lyu tələyə düşdü: ziyafətə gəldi. Ancaq Syan qılıncla rəqsə başlamaq əmrini verməyi gecikdirdi, bu zaman Lyu, nədənsə şübhələndi və aradan çıxa bildi. Fan Szen onun planını Syanın pozduğunu başa düşüb, acıqla dedi: «Eh! Sadəlövhlüyə ümid bəsləmək lazım deyildi. Lyu Ban bütün hakimiyyəti ələ keçirəcək, bizim hamımızı isə zindana

SİNİQALYEDƏ TƏLƏ

Romarionun edam edildiyi gün, Çezare (Borcia), eybəcər hala salınmış cəsədi meydanın ortasında qoyub, Sieni tərk etdi və cənuba yollandı. Üç gündən sonra, o, Fanoya gəlib çatdı, ona sədaqət göstərəcəklərinə söz vermiş Ankondan olan elçiləri qəbul etdi. Vitellotsodan gələn çapar Vitelli bildirdi ki, Adriatikdə yerləşən kiçik Siniqalye limanı kondotyerlər (muzdlu əsgərlər) tərəfindən mühasirəyə alınmışdır. Yalnız genuyalı Andrea Dorianın komandanlıq etdiyi qala hələ də davam gətirir, Doria onu Çezarenin özündən

salacaq».

Səhvini başa düşən Syan, ordusu ilə tələsik paytaxta yollandı və bu dəfə rəqibin başını əldə etməyi qərara aldı. Lyu qələbə qazanmaq şansı onun xeyrinə olmadıqda belə, döyüşə can atan insanlardan deyildi. Buna görə də, o, şəhəri tərk etdi. Syan şəhərə daxil olaraq, Çen çarlığının gənc şahzadəsini öldürdü və şəhəri yandırdı. Lyu indi Syanın qatı düşməninə çevrilmişdi. Syan uzun aylar onu qovdu və nəhayət, qala divarları ilə əhatə olunmuş kiçik bir şəhərə sıxışdırdı. Mühasirəyə alınmış, ərzaq ehtiyatı olmayan, ruhdan düşmüş ordu ilə qalan Lyu sülh istədi.

Fan Szen yenidən Syanı ehtiyatlı olmağa çağırdı: «Elə indi onu məhv et! Əgər sən bu dəfə də ona aradan çıxmağa imkan versən, sonra buna görə peşman olarsan». Ancaq Syan alicənablıq nümayiş etdirməyi qərara aldı. O, Lyunu Çu çarlığına diri gətirmək, keçmiş dostunu hamının yanında Syanın üstün olduğunu etirafa məcbur etmək istəyirdi. Ancaq Fan haqlı çıxdı: Lyu onu mühasirəyə almış düşmənlərlə danışıqdan diqqəti yayındıran manevr kimi istifadə etdi və kiçik dəstə ilə aradan çıxdı. Düşməni necə əldən çıxardığını başa düşməyən Syan, yenidən onun ardınca düşdü, ancaq bu dəfə qəzəb sanki onun ağlını başından çıxarmışdı. Döyüşlərin birində Lyunun atasını əsir alan Syan, qocanı əsgərlərin qarşısına çıxardı və döyüş meydanının

başqa kimsəyə verməkdən imtina edir. (Borcia) xəbər göndərdi ki, ertəsi gün orada olacaq – kondotyerlər də elə məhz bunu eşitmək istəyirdilər. Çezare Siniqalyeyə gəlməklə, qala ilə onların qoşunları arasında tələyə düşərək, asanlıqla ələ keçə bilərdi... Kondotyerlər fransız ordusunun getməsindən sonra, Çezarenin kiçik dəstə ilə qaldığını düşünərək, hərbi üstünlüyün özlərinin tərəfində olduğuna əmin idilər. Əslində isə, Makiavellinin yazdığına görə, (Borcia) Siendən on minlik piyada və üç minlik atlı ilə çıxmış və öz adamlarını kiçik qruplara bölmüş-

o biri başında olan Lyunun eşidəcəyi uca səslə qışqırdı: «Təslim ol, yoxsa sənin atanı diri-diri bişirəcəyəm!» Lyu sakitcə cavab verdi: «Biz ki, qardaşıq. Buna görə mənim atam sənin də atandır. Əgər sən öz atanı bişirmək istəyirsənsə, mənə də bir boşqab sup göndər!» Syan sanki ayılaraq özünə gəldi və döyüş davam etdi.

Bir neçə həftə sonra, rəqibinin izlənməsinin qızğın vaxtında Syan öz qüvvələrini elə əlverişsiz yerləşdirdi ki, Lyu gözlənilmədən onun əsas qüvvələrini mühasirəyə ala bildi. Qüvvələr nisbəti ilk dəfə olaraq dəyişdi. İndi Syan sülh istəməyə məcbur oldu. Lyunun baş müşaviri Syanın axırına çıxmağı, mərhəmət göstərmədən onun qoşununu darmadağın etməyi məsləhət bildi. Müşavir dedi: «Onun getməsinə imkan vermək – pələngi buraxmaq kimi bir şeydir. O, gec-tez səni parçalayacaq». Lyu müşavirin fikri ilə razılaşdı.

Danışıqlara başlayaraq, Syanın müdafiəni zəiflətməsinə nail oldu, bundan sonra onun bütün qoşununu qırmaq əmri verdi. Syan qaçmağa müvəffəq oldu. Tək, atsız qalan, Lyunun onun başına böyük mükafat təyin etdiyini bilən Syan, öz qoşununun geri çəkilən kiçik dəstəsinin qarşısına çıxaraq qışqırdı: «Mən eşitmişəm ki, Lyu Ban mənim başıma min külçə qızıl və on min ailə üçün mülk vəd edib. Mən sizə kömək etmək istəyirəm». Sonra o, boğazını kəsərək öldü.

dü. Bu qruplar müxtəlif yollarla Siniqalyeyə yola düşməli və orada görüşməli idilər. Ordu çox böyük idi. Borcia Ramiro de Lorkadan alınmış ifadələrdən kondotyerlərin niyyətini bilirdi və onları özlərinin tələsinə salmağı qərara aldı. Bu tarixçi Paolo Covionun «parlaq hiylə» adlandırdığı ağlagəlməz dərəcədə məharətli, möhtəşəm fənd idi. 1502-ci il dekabrın 31-də səhər erkən Çezare Siniqalyenin ətrafına çatdı, ...Mikelotto Korellanın başçılığı ilə Çezare ordusunun zərbə dəstəsi olan iki yüz ulan (nizəli süvari əsgər) ilə kanal üzərindən keçən körpüdə mövqe tutdu...

Körpünün ələ keçirilməsi sui-qəsdçilərin geri çəkilmək yolunu kəsməyə imkan verirdi... Çezare kondotyerlərə qədərindən artıq hörmətlə müraciət edərək yanına çağırdı. ...Mikelotto Bernardinonun sarayını Çezare üçün hazırladı və hersoq kondotyerləri içəri dəvət etdi. ...Saraya daxil olan kondotyerlər, arxa tərəfdən gizlicə yaxınlaşan keşikçilər tərəfindən həbs edildilər... (Çezare) Vitelli və Orsininin uzaqda yerləşən dəstələrinə hücum etmək əmri verərək, onları məhv etdi. Həmin gecə Mikelotto, Oliveretto və Vitellini Bernardinonun sarayında boğdu... (Çezare) bir zərbə ilə özünün keçmiş sərkərdələrindən və qatı düşmənlərindən xilas oldu.

İvan Kloulas, «Borcia» (1989)

İZAHI

Syan Yuy öz qəddarlığını dəfələrlə nümayiş etdirmişdi. Məqsədinə çatmaq üçün rəqibi aradan götürmək lazım gələndə, o, nadir hallarda tərəddüd edərdi. Ancaq Lyu Banla münasibətdə o, ayrı cür hərəkət etdi. Syan ona hörmət edir və hiylə ilə onun üzərində qələbə çalmaq istəmirdi. O öz üstünlüyünü döyüş meydanında sübut etmək, ağıllı Lyunun diz çökməsinə nail olmaq istəyirdi. Hər dəfə Lyu onun əlinə düşəndə, nəsə onu saxlayırdı – bu məşum rəğbət, ola bilsin, hər nə olmasa da, bir vaxtlar onun dostu və silah yoldaşı olmuş adama hörməti də ola bilərdi. Ancaq Syan Lyunu məhv etmək niyyətini onun başa düşməsinə imkan verdikdə və onu yenidən əldən buraxdıqda, öz qətlinə fərman verdi. Çünki uğur Lyunun tərəfində olduqda, o, bu cür qətiyyətsizlikdən əziyyət çəkmirdi.

Öz düşmənlərimizin dərdinə şərik olmağımızın, mərhəmət göstərməyimizin və ya barışığa ümid bəsləməyimizin düşmənin axırına çıxmağa mane olduğu vaxt, bu cür taleyin hər birimiz üçün mümkünlüyünü düşünməliyik. Biz yalnız onların qorxularını və özümüzə nifrətini gücləndiririk. Bizim güclü, onların alçaldıldığı aşkar olur. Bununla belə, biz haçansa imkan tapıb, bizi sancacaq yaralı gürzəni əlimizdən buraxırıq. Düşmənlə bu cür davranmaq olmaz. Onu məhv etmək, başını əzmək, geri qayıtması və əvəz çıxması üçün azacıq imkandan da məhrum etmək lazımdır. Bu, düşmənə çevrilən keçmiş dosta da aiddir. Qarşıdurmanın əsas qanunu belədir: barışıq müzakirə edilmir. Yalnız bir tərəf qələbə çala bilər – özü də bu qələbə, tam olmalıdır.

Lyu Ban yaxşı dərs almışdı. Syan Yuy üzərində qələbədən sonra bu əkinçi oğlu çox parlaq yüksəliş edərək Çu çarlığı ordusunun ali baş komandanı oldu. Növbəti düşmənlə – öz hökmdarı, Çu çarlığının monarxı ilə mübarizə apararaq, imperator taxtına çıxdı. O öz yoluna çıxan hər kəslə vuruşaraq, tarixə Çinin ən qüdrətli hökmdarlarından biri, Xan sülaləsinin banisi, ölməz Xan Kaosu kimi daxil oldu.

Kim məqsədə nail olmaq istəyirsə, mərhəmət göstərməməlidir.

Kautilya, hind filosofu, e.ə. III əsr

QANUNA RİAYƏT EDİLMƏSİ

Qələbə çalmaq üçün amansız olmaq lazım gəlir.

Napoleon Bonapart (1769–1821)

Adlı-sanlı əyan qızı olan U Çjao 625-ci ildə anadan olmuşdu. Bu qız məhz öz gözəlliyinə və cazibədarlığına görə imperator Tay Szunun hərəmxanasına düşmüşdü.

Çoxsaylı cariyələrin imperatorun sevimlisi olmaq uğrunda rəqabət apardığı imperator hərəmxanası təhlükəli yer idi. Gözəl-

liyi və qüsursuz ləyaqəti U Çjaoya rəqibləri üzərində asan qələbə çalmağa kömək etdi, ancaq o, əlində hakimiyyət olan hər bir adam kimi, imperatorun da tərs olduğunu və istənilən an onu başqası ilə əvəz edəcəyini bildiyindən, onun şıltaqlıqlarına boyun əyərək, öz gələcəyi barədə fikirləşirdi.

U Çjao imperatorun pozğun oğlu Qao Szunu, yeganə mümkün imkandan – onunla bir yerdə olmaq imkanından istifadə edərək, onu başdan çıxarmağa müvəffəq oldu: sarayın ayaqyolunda onu ehtirasa gətirdi. Ancaq imperatorun ölümündən sonra Qao Szun taxta çıxdıqda, U Çjaonun taleyi ölmüş imperatorun arvadlarının və cariyələrinin taleyi kimi oldu. Mövcud qanuna və ənənəyə görə, onun başını ülgüclə qırxdılar və ömürlük zindana atdılar. Yeddi ildən sonra U Çjao qaçmaq fikrinə düşdü. O, gizli şəkildə imperatorla əlaqələrini qaydaya salmağa və onun arvadı, imperatriçə ilə dostlaşmağa müvəffəq oldu. Beləliklə, U Çjao ona saraya və hərəmxanaya qayıtmağa icazə verən yüksək səviyyəli qeyri-adi fərmanın verilməsinə nail oldu. O, imperatriçə qarşısında yaltaqlanır və imperatorla eşqbazlıq edirdi. İmperatriçə buna mane olmurdu, çünki tezliklə imperatora vəliəhd bəxş edəcək və bununla da, öz mövqeyini möhkəmləndirəcəkdi. Buna qədər onun mövqeyi zəif idi və U Çjao onun üçün qiymətli müttəfiq sayılırdı.

654-cü ildə U Çjao ana oldu. Bir dəfə imperatriçə onu yoxlamağa gəldi, o gedən kimi, U Çjao körpəni – öz doğma uşağını boğdu. Uşağın ölməsi xəbəri çıxdıqda, dərhal imperatriçədən şübhələndilər: həmin vaxt U Çjaonun yanına məhz o gəlmişdi, bundan başqa, onun qısqanc olduğu hamıya məlum idi. Hiyləgər cariyənin planı da məhz elə bundan ibarət idi. İmperatriçəni qətldə günahlandırdılar və tezliklə edam etdilər. U Çjao imperatriçə oldu. Həyatını eyş-işrətdə keçirməyə alışmış əri, dövlət hakimiyyətinin bütün ixtiyarını imperatriçə U adlandırılan yeni arvadına verdi.

Yeni mövqeyi ona böyük hakimiyyət verməsinə baxmayaraq, U hər halda yenə də özünü təhlükəsizlikdə hiss etmirdi.

Ətraf düşmənlərlə dolu idi. O, bir dəqiqə də olsun belə, cangüdənləri özündən kənar buraxmırdı. Onun 41 yaşı tamam olanda, özünün gözəl bacısı qızının imperatorun sevimlisi ola biləcəyi şübhəsi onu qorxutdu. O, bacısı qızının yeməyinə gil qataraq, onu zəhərlədi. 675-ci ildə onun öz oğlu, rəsmi vəliəhd də zəhərləndi. Onun yaşca böyük, indi artıq şahzadə elan edilmiş nikahdan kənar oğlu bir qədər sonra uydurma ittiham ilə sürgünə göndərildi. 683-cü ildə imperator öldükdə, U onun oğlunun fəaliyyət qabiliyyəti olmayan şəxs kimi tanınmasına nail oldu. Bütün bunlar onun ən kiçik və ən uğursuz oğlunun imperator elan edilməsinə gətirib çıxardı. U onun qəyyumu kimi ölkəni idarə etməkdə davam etdi.

Sonrakı beş il çoxsaylı saray çevrilişləri ilə əlamətdar oldu. Bu çevrilişlərin hamısı pozuldu, sui-qəsdçilər isə edam edildilər. 688-ci ilə qədər U ilə rəqabət apara biləcək heç kim qalmadı. O özünü Buddanın ilahi davamçısı elan etdi və 690-cı ildə onun başlıca arzusu həyata keçdi: o, Çinin Müqəddəs və İlahi «imperatoru» titulunu aldı.

U əvvəlki Tan sülaləsindən, sözün əsl mənasında, heç kimi sağ qoymamasının hesabına imperator oldu. Bu, ona nisbi sakitlik və əmin-amanlıq mühitində daha bütöv bir on il hakimiyyətdə olmağa imkan verdi. 705-ci ildə, səksən yaşında onu taxt-tacdan əl çəkməyə məcbur etdilər.

İZAHI

İmperatriçə U-nu tanıyan hər kəs onun qətiyyətli və ağıllı olduğunu qeyd edirdi. Bir neçə il imperator hərəmxanasında olmuş, sonra isə ömürlük zindana atılmış ən şöhrətpərəst qadın belə, heç nəyə ümid bəsləyə bilməzdi. Hakimiyyətin zirvəsinə özünün ardıcıl, ancaq diqqətəlayiq yüksəlişində U, bir dəfə də olsa, sadəlövhlük göstərmədi. O, başa düşürdü ki, istənilən tərəddüd, istənilən bir anlıq zəiflik onun həyatı bahasına başa gələ bilərdi. U hər dəfə növbəti rəqibdən xilas olan

kimi, yeni rəqiblər meydana çıxdığından, belə bir sadə qərara gəldi: hamıdan xilas olmaq lazımdır, yoxsa onu öldürərlər. Başqa imperatorlar da hakimiyyətin zirvəsinə elə həmin yolla gəlmişdilər – ancaq U Çjaoya – bütün qadınlar kimi, hakimiyyəti ələ keçirməyə, demək olar ki, heç bir şansı olmadığından, üstəlik daha amansız və mərhəmətsiz olmaq lazım gəldi.

İmperatriçə U-nun qırx illik hakimiyyəti Çin tarixində ən uzunmüddətli hakimiyyətlərdən biri idi. Onun hakimiyyət zirvəsinə qanlı yüksəlişinin necə həyata keçməsinin hamıya yaxşı bəlli olmasına baxmayaraq, Çində o, dövlətin inkişaf edib çiçəklənməsinə yaxşı şərait yaratmış ən istedadlı hökmdarlardan biri sayılır.

İspaniyanın dövlət xadimi və sərkərdəsi Ramon Mario Narvaes (1800–1868) can verərkən, keşiş ondan soruşdu: «Zati aliləri, siz öz düşmənlərinizi bağışlayırsınızmı?» Narvaes cavab verdi: «Yox, mənə düşmənlərimi bağışlamaq lazım deyil. Onların hamısını öldürmüşəm».

HAKİMİYYƏTİN AÇARI

Qanuna nümunə göstərilmiş hər iki hadisə təsadüfən Çinə aid deyildir: bu ölkənin tarixində sağ saxlanılmış, ancaq sonra yumşaqürəkli rəqibi məhv etmiş düşmənlərin adları çoxdur. «Düşməni məhv et» – e.ə. VI–V əsrlərdə yazılmış «Hərb sənəti» kitabının müəllifi Sun İzının həlledici strateji prinsipi, bax, belədir. İdeya sadədir: düşmənlərin sənə pis olanı arzulayırlar. Onlar dünyada hamıdan çox səni məhv etmək istəyirlər. Əgər onlarla vuruşaraq, yolun yarısını və ya hətta dörddə üçünü keçərək, mərhəmət və ya barışığa ümid naminə dayanırsansa, sən yalnız onlara qətiyyət verməklə, qəzəblərini artırırsan. Onlar bir müddət – sən qələbə çalanadək özlərini dost kimi göstərəcəklər, elə ki sənə qalib gəldilər, münasibət tam dəyişəcəkdir.

Qərar belədir: mərhəmətsiz olun. Düşmənləriniz sizi məhv edincə, siz onları tamamilə yox edin. Öz təhlükəsizliyiniz isə, yalnız yeganə bir şeylə – düşmənlərinizin məhv olmaları ilə təmin edilə bilər.

Sun İzının böyük pərəstişkarı və Çin tarixinin həvəskarı Mao Tzse Dun bu qanunun nə qədər mühüm olduğunu yaxşı bilirdi. 1934-cü ildə Mao və 75 minə yaxın pis silahlanmış əsgər Çan Kay Şinin güclü və çoxsaylı ordusunun əlindən Çinin qərbindəki dağlara qaçmaqla xilas oldu – sonralar bu, Uzun Keçid adını aldı.

Çan bütün kommunistləri son nəfərinə qədər məhv etmək qətiyyətində idi. Belə ki, bir neçə ildən sonra Maonun 10 mindən az əsgəri qalmışdı. Ancaq 1937-ci ildə yapon təcavüzkarları ölkəyə hücum edəndə, Çan elə hesab etdi ki, kommunistlər artıq təhlükə yaratmırlar. O, kommunistləri təqib etməyi dayandırmağı və qüvvələri yapon işğalçıları ilə mübarizəyə cəmləşdirməyi qərara aldı. Daha on il keçdi və kommunistlər o dərəcədə özlərinə gəldilər ki, Çan Kay Şinin ordusunu tamamilə məhv edə bildilər. Çan qədim hikməti unutdu, Mao isə onu yadda saxladı. Çan bütün ordusu ilə Tayvan adasına çəkilənə qədər, onu təqib etdilər. Bizim günlərdə, Çinin materik hissəsində, onun rejimindən heç nə qalmamışdır.

Düşməni tamamilə məhv etmək hikməti İncil qədər qədimdir: ola bilsin ki, onu təcrübədə ilk dəfə tətbiq edən, bu həqiqəti Allahın özündən əxz edərək dərk edən Musa Peyğəmbər olmuşdur. Allah Firon qoşununun təqib etdiyi İzrail övladlarının keçməsi üçün Qırmızı dənizi iki yerə böldü, onlar dənizi keçəndən sonra və fironun bütün qoşunu suyun ayrılmış hissəsində olduqda, suyu yenidən qovuşdurdu, belə ki, onları təqib edən misirlilərdən «bir nəfər də sağ qalmadı». Musa Peyğəmbər Sina dağında Allahla mükalimə edib, on hökmlə (ehkamla) geri döndükdə, öz camaatını qızıl danaya sitayiş edən görəndə, o, bütün cinayətkarları son nəfərinə qədər məhv edəcəyinə

and içdi. O, ölümqabağı, artıq haqq dünyasına köç ərəfəsində öz camaatına dedi ki, onlar Xanaan qəbiləsini tamamilə məhv etməlidirlər: «...Onları qılıncdan keçirən zaman, ...onlarla ittifaqa girilməməli və rəhm edilməməlidir».

Tam qələbəyə istiqamət götürmək – filosof və hərb nəzəriyyəçisi Karl fon Klauzevisin formulə etdiyi aksiom belədir. Napoleonun müharibə əməliyyatlarını təhlil edən fon Klauzevis yazırdı: «Biz hesab edirik ki, düşmən qüvvələrinin tamamilə məhv edilməsi, həmişə ən mühüm mülahizə olmalıdır. Başlıca qələbəni əldə etmək yolunda istirahət, nəfəs dərmək... barədə deyil, yalnız döyüşü və düşməni təqib etməyi davam etdirmək, onun paytaxtını tutmaq, ehtiyat qüvvələrinə, düşmən tərəfi möhkəmləndirən və ona kömək edən hər şeyə hücum etmək barədə düşünmək lazımdır». Müharibədən sonra danışıqlar və ərazilərin bölüşdürülməsi başlayır. Əgər siz yalnız qismən qələbə çalmısınızsa, şərtlərin müzakirəsi zamanı, hərbi əməliyyatlar vaxtı əldə etdiklərinizi də labüdən uduzacaqsınız.

Nəticə sadədir: düşmənə imkan saxlamayın. Onu məhv edin – bu halda onun ərazisi sizin sərəncamınıza bütünlüklə keçəcəkdir. Düşməni tamamilə özünüzə tabe etmək, onu itaətə məcbur etmək üçün hökumət təyin edin. Siz yarı yolda dayanmağı özünüzə rəva görə bilməzsiniz. Küncə sıxılmış düşmən sizin iradənizi yerinə yetirməyə məcbur olacaqdır. Bu qanun təkcə döyüş meydanlarında deyil, həm də başqa sahələrdə tətbiq edilə biləndir. Danışıqlar, hiyləgər ilan kimi, sizi hiss edilmədən qələbənizlə birgə uda bilər. Ən yaxşısı, müzakirə üçün düşmənin heç bir əlyeri olmamasıdır, ona ümidlər verməyin, manevr etməsi üçün imkan saxlamayın. Düşmən məğlub edilmişdir – bununla da hər şey deyilmişdir.

Başa düşmək lazımdır: hakimiyyət uğrunda mübarizədə labüd olaraq rəqabət yaranacaq və sizin düşmənləriniz meydana çıxacaqdır. Onların arasında sizin öz tərəfinizə çəkə bilmədiyiniz adamlar da vardır, onlar onsuz da düşmən olaraq qalacaq-

lar. Ancaq onların nifrətini, sizin onları necə təhqir etməyinizdən və ya zərər vurmağınızdan asılı olmayaraq, şəxsi nifrət kimi qəbul etməyin. Sadəcə olaraq, dərk edin ki, sizin aranızda sülh, xüsusən hakimiyyətdə olduğunuz müddətdə, mümkün deyildir. Əgər siz onlara özünüzlə yanaşı olmağa imkan versəniz, onlar gündüzün gecə ilə əvəz olunması labüdlüyü ilə sizdən əvəz çıxmağı arzulayacaqlar. Onların kartları stolun üstünə nə vaxt qoymasını gözləmək, sadəcə olaraq, axmaqlıqdır. Öz yolu üstündəki hər şeyi məhv edən imperatriçə U bunu gözəl başa düşürdü.

Realist olun: nə qədər ki, sizin düşməniniz var, siz heç vaxt təhlükəsizlikdə ola bilməzsiniz. Tarixin dərslərini, Musa Peyğəmbərin və Maonun müdrikliyini yada salın: heç vaxt yarı yolda dayanmayın.

Söhbət, öz-özlüyündə qətl barədə deyil, sürgün barədə gedir, taqətdən düşmüş və zəifləmiş, sonra isə sizin əhatənizdən birdəfəlik uzaqlaşmış düşmənlər sizə ziyan vura bilməzlər. Onların öz mövqelərini bərpa etməyə və sizə hücum etməyə heç bir ümidləri yoxdur. Əgər sizin onları qovmaq imkanınız yoxdursa, əleyhinizə intriqalar uyduracaqlarını unutmayın, onların saxta səmimiliyinə inanmayın. Belə vəziyyətdə sizin yeganə silahınız – sayıqlıqdır. Əgər düşmənləri heç bir vəchlə dərhal qovmaq mümkün deyildirsə, ilk fürsətdən səmərəli istifadə etməyə hər an hazır olun.

OBRAZ:

Sizin öldürə bilmədiyiniz gürzə geriyə atılır və sizi sancaraq ikiqat zəhər tökür. Sizinlə bir cərgədə saxlanılan düşmən, sağaltmağa cəhd etdiyiniz yarıcan gürzəyə bənzəyir. Nə qədər çox vaxt keçərsə, zəhər bir o qədər güclü təsir edər.

MÖTƏBƏR FİKİR

«Bununla əlaqədar, qeyd etməyə dəyər ki, adamları ya əzizləmək, ya da aradan götürmək lazımdır, çünki kiçik pisliyə görə, onlar intiqam ala bilərlər, böyük pisliyə görə isə, ala bilməzlər. Bax, buna görə, zərbəni elə endirmək lazımdır ki, intiqamdan qorxmayasan».

Nikkolo Makiavelli

MEDALIN İÇ ÜZÜ

Bu qanunu heç bir halda nəzərə almamaq olmaz, ancaq bəzən elə olur ki, yalnız mümkün olan hallarda, öz əlinlə düşmənə ziyan vurmaq əvəzinə, düşmənin öz-özünü məhv etməsinə imkan vermək lazımdır. Məsələn, hərbi işdə yaxşı sərkərdə bilir ki, küncə sıxışdırılmış orduya hücum etmək lazım gələrsə, onun əsgərləri daha qızğınlıqla vuruşarlar. Buna görə də, bəzən ən əlverişlisi, geri çəkilmək üçün ona imkan vermək lazımdır. Bununla, onlar özlərini yorub əldən salar və geri çəkildikdə, döyüşdə olduğundan daha artıq düşgünləşərlər. Düşmənin boynuna kəndir salındıqda – əgər siz onun öz qüvvəsini bərpa etməyə imkanının olmadığına tamamilə əminsinizsə – ona özünü asmağa imkan verməlisiniz. Düşmənin öz-özünü darmadağın etməsinə şərait yaradın. Nəticə elə həmənki kimi, sizin əhval-ruhiyyəniz isə, ölçüyəgəlməz dərəcədə yaxşı olacaqdır.

Daha bir cəhət: bəzən, düşməni darmadağın edərək, onu o dərəcədə acıqlandırmaq olar ki, o, əvəz çıxmağa bir neçə il hazırlaşar. 1919-cu il Versal sülh müqaviləsi almanlara məhz belə təsir etdi. Kimsə deyə bilər ki, son nəticədə ən yaxşısı səbir nümayiş etdirmək idi. Problem ondadır ki, mərhəmət başqa təhlükə doğurur – o, hələ də xoşagəlməz hisslər keçirən düşməni cəsarətləndirər və fəal hərəkətə sövq edər. Demək olar ki, həmişə daha müdrik qərar – düşməni tamamilə darmadağın etməkdir. Əgər o, fikrində illər keçdikdən sonra intiqam almaq planını qurursa, sayıqlığı itirməyin, onu darmadağın edin.

ON ALTINCI QANUN

HÖRMƏT VƏ LƏYAQƏTİNİ ARTIRMAQ ÜÇÜN ÖZ YOXLUĞUNDAN İSTİFADƏ ET

QANUNUN MƏZMUNU

Cəmiyyətdə həddindən artıq fəallığınız qiymətinizi aşağı salır. Sizi nə qədər çox görür və eşidirlərsə, bir o qədər adiləşirsiniz. Əgər artıq müəyyən mövqeyə nail olmuşsunuzsa, müvəqqəti yoxa çıxmağınızla haqqınızda daha çox danışmağa, hətta sizinlə fəxr etməyə başlayarlar. Getmək vaxtını müəyyənləşdirməyi hiss etmək lazımdır. Boşluq əmələ gətirərək, dəyərliliyinizi qabardın.

DƏVƏ VƏ SUDA AXAN ODUNCAQLAR

Dəvəni birinci
görən, Görkəmin-
dən qorxub qaçdı;
İkinci görən ona
yaxınlaşmağa cə-
sarət etdi;
Üçüncü isə, don-
qar dəvəni üstəlik
yüyənlədi. Bu cür,
adətin və ibrətin
gücü hesabına,
Bizə qorxunc və
qəribə görünənlə
Daima ünsiyyətdə
olaraq – Biz hər
şeyə yaxın oluruq.
Buna misal bir
hekayət danışım.
Keşikdə duranlar
bir dəfə bir-birin-
dən ayrılıqda
üzən əşyalar gör-
dülər. Ətrafda
olanların hamısı
dərhal qərara al-
dı: «Böyük fre-
qat, yaxud bran-*
derdir!» Bir an
sonra Hamı bir
tay mal, taxta qa-
yıq və nəhayət,

QANUNUN POZULMASI VƏ ONA RİAYƏT EDİLMƏSİ

Orta əsrlərdə şevalye trubadur (zadəgan saz şairi) Giyom de Balo Fransanın cənubunu gəzib dolaşaraq, qəsrdən-qəsrə gedir, cəsarətli, qorxmaz və igid cəngavər obrazını tərənnüm edən şeirlər qoşurdu. Javiak qəsrində o, qəsrin gözəl və cazibədar sahibəsi madam Gilyelm de Javiakla görüşdü və onu sevdi. Giyom ona öz nəğmələrini oxudu, şeirlərini söylədi, onunla şahmat oynadı. O da tədricən Giyomu sevməyə başladı. Giyomun birgə gəzərək çıxışlar etdiyi Pyer de Barjak adlı zadəgan dostu var idi. O da qəsrdə qəbul edilmişdi. Pyer də Javiak qəsrində yaşayan çox xeyirxah, ancaq ehtiraslı Vyernetta adlı xanıma vurulmuşdu.

Bir dəfə Pyerlə Vyernetta arasında çox möhkəm dava-dalaş düşdü. Xanım Pyeri qovdu və o, dostu Giyoma müraciət edərək, sevgilisinin əvvəlki hüsn-rəğbətini və məhəbbətini qaytarmağa kömək etməsi üçün ona yalvardı. Giyom məhz elə bu vaxt qəsri bir müddətlik tərk etməyə hazırlaşırdı. O, bir neçə həftədən sonra geri qayıtdıqda, öz sehrini işə saldı və Pyerlə Vyernettanı barışdırdı. Pyer öz məhəbbətinin olduqca gücləndiyini hiss etdi – çünki barışıqdan sonra alovlanan məhəbbət çox güclü olur. O, Giyoma dedi ki, ayrılıq nə qədər dərin və uzunmüddətlidirsə, barışıq və yaxınlaşma hissləri bir o qədər ləzzətli olur.

Üzən Oduncaq
gördü. Mən heka-
yətimin aid oldu-
ğu Kimləsə dün-
yada tanışam:
Uzaqda onları nə
isə bir şey hesab
edirsən, Yaxınlıq-
da onların heç nə
olduğu aşkar olur.

Lafonten (1621–1695)

* *Freqat – hərb gəmisi, brander – düşmən gəmilərini yandırmaq üçün yanacaq və partlayıcı maddələrlə yüklənmiş kiçik gəmi.*

Şevalye Giyom məhəbbətin bütün nəşə və qəmini dadması ilə öyünürdü. Dostunun dediklərini eşidərək, o da dalaşmadan sonrakı sevinci sınaqdan çıxarmaq istəyirdi. Bu məqsədlə o, madam Gilyelmi süni tərzdə özündən güclü şəkildə narazı saldı, ona sevgi məktubları yazmağı dayandırdı, sonra qəfildən qonaqpərvər qəsri tərk etdi və hətta bayramlara və ov səfərlərinə gəlmədi. Bu, gənc xanımı özündən çıxardı.

Gilyelm Giyomun dalınca bir neçə dəfə çapar göndərərək, baş verənləri aydınlaşdırmaq istədi, ancaq Giyom onları geri qaytardı. O, bütün bunların xanımı hirsləndirəcəyini və barışmaq üçün onu yalvarmağa məcbur edəcəyini fikirləşirdi. Ancaq Giyomun olmaması əks səmərə verdi: Gilyelmi Giyomu daha güclü məhəbbətlə sevməyə başladı. İndi xanım öz qəhrəmanını izləyərək, onun ardınca çaparlar və vəziyyəti izah edən məktublar göndərirdi. Hələ heç bir xanım öz aşiqini belə izləməmişdi. Bu, Giyomun heç xoşuna gəlmədi. Ona elə gəlirdi ki, Gilyelmin davranışı onun ləyaqətini itirdiyini göstərirdi. İndi o, təkcə öz planından yox, həmçinin öz sevgilisindən şübhələnirdi.

Nəhayət, bir çox aylar keçdikdən sonra Gilyelm təslim olaraq taleyi ilə barışdı: Giyoma sevgi məktubları göndərməyi dayandırdı. Giyom fikirləşdi: bəlkə o hirslənmişdir? Ola bilsin, onun planı baş tutmuşdur? Axı, o, elə bunu gözləyirdi. Barışmaq vaxtı gəlib çatdı. Giyom özünün ən yaxşı liba-

sını geyindi, atı üçün ən bahalı qoşqu ləvazimatı seçdi, başına çox gözəl dəbilqə qoydu və Javiak qəsrinə gəldi.

Öz aşiqinin gəldiyini eşidən Gilyelm görüşə tələsdi, onun qarşısında diz çökdü, öpmək üçün üzündəki duvağı kənara tulladı və qəzəblənməsinə nəyin səbəb olmasından asılı olmayaraq, yalvararaq bağışlanmasını xahiş etdi. Giyomun məyusluğunu təsəvvür edin – onun planı tamamilə iflasa uğradı. Gilyelm özündən çıxmadı, ümumiyyətlə, o heç vaxt özündən çıxmazdı, o, yalnız möhkəm sevməyi bacarırdı, Giyom isə hələ də davadan sonrakı barışığın sevincini duya bilmirdi. İndi öz sevgilisini görən Giyom düşündüyünə nail olmaq üçün bir daha cəhd etməyi qərara aldı: Gilyelmi kobud sözlərlə və hədələyici hərəkətlərlə kənara itələdi. Gilyelm çəkilib getdi, ancaq bu dəfə möhkəm incidi.

Ertəsi gün səhər Giyom baş verənlərdən peşman oldu. O, yenidən Javiak qəsrinə getdi, ancaq xanım Giyomu qəbul etmədi və öz xidmətçilərinə onu qəsrin asma körpüsündən keçirməyi və təpələrə tərəf qovmağı əmr etdi. Giyom qaçdı. O özünə gələrək, hıçqırıqla ağlamağa başladı: çox dəhşətli səhvə yol verdiyini başa düşdü. Xanımı görmək imkanından məhrum olduğunun sonrakı bütün ili onu görməməsindən əzab çəkdi, bu dəhşətli ayrılıq yalnız onun məhəbbətini alovlandırdı. O özünün ən gözəl şeirlərinin birini yazdı: «Mənim nəğməm sanki peşmançılıq duası kimi göylərə ucalır». O, Gilyelmə çoxlu məktub yazaraq öz hərəkətini izah etdi və bağışlanması üçün yalvardı.

Madam Gilyelm uzun müqavimətdən sonra Giyomun könül oxşayan nəğmələrini, gözəl sifətini, həmçinin məharətli rəqslərini və şahinsayağı ovçuluğunu xatırlayaraq, hiss etdi ki, onu geri qaytarmamaq mümkün deyil. Amansızlığına görə trubaduru cəzalandırmaq üçün Giyoma sağ əlinin çeçələ barmağının dırnağını çıxarıb, əzablarını ifadə edən şeirləri ilə bərabər ona göndərməyi əmr etdi.

Giyom bunların hamısını dəqiqliklə yerinə yetirdi. Nəhayət, Giyom de Balo dalaşmadan sonrakı barışıq hisslərini duymaq imkanını əldə etdi. Onun duyduğu bu hisslər, hətta dostu Pyerin keçirdiyi hisslərdən də üstün idi.

İZAHI

Barışığın sevincini duymağa cəhd edən Giyom de Balo, özündən asılı olmayaraq, yerində olmaq və yox olmaq barədə qanunun doğruluğunun acısını daddı. Əməliyyatın əvvəlində özünün iştirakının əhəmiyyətini ətrafdakıların nəzərində qaldırmaq və gücləndirmək lazımdır. Əgər olduqca tez yoxa çıxsan, sizi, sadəcə olaraq, unuda bilərlər. Sevildiyiniz zaman ayrılıq məhəbbəti alovlandırır və həyəcanlandırır. Əgər yoxa çıxmağınızın səbəbi məlum deyildirsə, bu, yalnız alovun üzərinə benzin səpir: tərəfdaş öz təqsiri üzündən baş verdiyini düşünməyə başlayır. Nə qədər ki, sevgilinizlə bir yerdə deyilsiniz, onun xəyalı həyəcana gəlir, qızışmış xəyallar isə, məhəbbəti güclü edir. Əksinə: Gilyelm Giyomu nə qədər çox izləyirdisə, Giyom onu bir o qədər az sevirdi – o, olduqca əlçatan idi, özü barədə Giyomun xəyalı üçün boş yer saxlamamışdı. Giyomun hissləri boğulmağa başlayırdı. Gilyelm çaparlar göndərməyi dayandırdıqdan sonra, Giyom bir udumluq hava almaq imkanı əldə etdi və ilk planının üzərinə qayıtdı.

XORUZUN BEŞ FƏZİLƏTİ

Lyudan olan hersoq Ainin xidmətçisi Tyen Çjao özünün layiqincə qiymətləndirilməməyindən məyus olaraq, öz ağasına dedi: «Mən qu quşu kimi uzaqlara uçub getmək istəyirəm». Hersoq ondan soruşdu: «Sən bununla nə demək istəyirsən?». Tyen Çjao cavab verdi: «Xoruzu görürsünüz? Onun pipikləri – hörmət və ehtiram simvoludur. Qüvvətli caynaqları onun gücündən xəbər verir. İstənilən düşmənlə döyüşə hazır olması cəsarətini göstərir. Yem olan yerə başqalarını çağırmaq

adəti, alicənablığını nümayiş etdirir. Nəhayət, gecənin sona çatdığını banlayaraq dəqiqliklə xəbər verməsi, bizim üçün etibarlılıq nümunəsidir. Bununla belə, həmin beş fəzilətinə baxmayaraq, xoruzları hər gün kəsir və sizin süfrəniz üçün xörək hazırlayırlar. Nəyə görə? Bunun səbəbi ondadır ki, onlar sizin əliniz çatan hüdudlarda yerləşir. Qu quşları isə, bir uçuşda min li məsafəni dəf edir. Sizin bağınızda istirahət edərək, onlar balıq, tısbağa ovlayır və sizin darınızı dənləyirlər. Bu quşlar xoruzun malik olduğu beş fəzilətə malik olmasalar da, nadir olduqlarına

Çatışmayan şey, gözlənilmədən bizim üçün hörmətə və şərəfə layiq görünür. Həddindən artıq uzanan şey təngə gətirir və bezikdirməyə başlayır. Orta əsrlərdə xanımlar öz həyatlarında ayrılıqlar və görüşlərin olması üçün öz cəngavərlərini uzun və üzücü səfərlərə göndərərək, məhəbbətlərini daima sınaqdan keçirirdilər. Əslində, Giyom öz gözəl sevgilisini tərk edib getməsəydi, Gilyelm özü ayrılığın qayğısına qalaraq, onu səfərə göndərəcəkdi.

Külək şamı söndürdüyü və yanğını alovlandırdığı kimi, ayrılıq kiçik ehtirasları söndürür, möhtəşəm olanları isə gücləndirir.

Laroşfuko (1613–1680)

QANUNA RİAYƏT EDİLMƏSİ

Qədim zamanlarda assuriyalılar bir çox yüz illər boyu Asiyanı idarə edirdilər. Ancaq e.ə. VIII əsrdə Midiya xalqı (İran yaylasının şimal-qərb hissəsi) onlara qarşı üsyan qaldırdı və azadlığa çıxmağa nail oldu. Midiya əhalisinin qarşısında yeni hökumət qurmaq vəzifəsi dururdu. Despotizmin istənilən forması əleyhinə qətiyyətli əhval-ruhiyyədə olan midiyalılar, kimliyindən asılı olmayaraq, bir nəfərə qeyri-məhdud hakimiyyət vermək istəmir, monarxiya quruluşuna razı olmurdular. Ancaq lidersiz ölkəni qarışıqlıq, parçalanma, qonşu kəndlərin bir-biri ilə müharibə aparması qorxusu hədələyirdi.

görə, siz onları qiymətləndirir və qoruyursunuz. Bax buna görə də, mən də qu quşu kimi uçmağı arzulayıram».

Yu Şusen, «Qədim Çin ibrətli hekayətləri»

Belə kəndlərin birində ədalətli olması və mübahisələri həll etmək bacarığı ilə məşhur olan Deyos adlı bir nəfər yaşayırdı. O, bu məsələlərin öhdəsindən elə uğurla gəlirdi ki, yerli adamlar istənilən mübahisəli məsələdə onun yanına tələsirdilər, onun hörməti isə artırdı. Bütün ölkədə qanun gözdən düşmüşdü və heç bir nüfuza malik deyildi – hakimlər pulla ələ alınırdı, öz problemini həll etmək üçün heç kim məhkəməyə getməyərək, öz gücünə arxalanırdı. Deyosun müdrikliyi, onun ələ alına bilinməməsi və qətiyyətli qərəzsizliyi haqqında xəbər tezliklə bütün ölkəyə yayıldı. Midiyadan adamlar onun yanına can atırdılar. O, ədalət mühakiməsinin əsas icraçısı idi.

Şöhrət zirvəsində olarkən, Deyos gözlənilmədən qərara aldı ki, dayanmalıdır. Hakim kürsüsündə əyləşərək, qardaşı qardaşla, kəndlini kəndli ilə barışdırmağı kifayətdir. O, başqalarının problemlərini həll etməyə vaxtının çoxunu sərf edərək, öz işlərini tamamilə başlı-başına buraxdığını bildirməklə, sakit bir guşəyə çəkildi. Deyos kimi ədalətli və nüfuzlu hakimin gözlənilmədən getməsi ilə cinayətkarlığın səviyyəsi yüksəldi, qanunun hörməti isə heç vaxt bu cür səbatsız olmamışdı. Midiyanın bütün kəndlərinin nümayəndələri nə et-

mək lazım olduğunu müəyyənləşdirmək üçün məclisə yığışdılar. Tayfalardan birinin başçısı dedi: «Bizim ölkəmiz belə yaşamaqda davam edə bilməz. Nə qədər ki, biz bu qarışıqlıqda hər şeyimizi itirməmişik, ölkədə qayda-qanunu bərqərar etmək üçün aramızdan hökmdar seçməliyik».

Midiyanın əhalisi assuriyalıların zülmünü kifayət qədər görsələr də, ölkəyə hökmdar lazım olması qərarına gəldilər. Hamının bu vəzifəyə ən çox uyğun hesab etdiyi adam, əlbəttə, ədalətli Deyos idi. Onu yola gətirmək çətin idi, ancaq adamlar xahiş etdilər, yalvardılar – onlar təkrar etdilər ki, Deyos olmadan ölkə tam qanunsuzluğa, hərc-mərcliyə yuvarlanacaq. Nəhayət, Deyos şərtlə razılıq verdi:

Onun üçün böyük saray tikilməli, cangüdənlər təhkim edilməli, üstəlik ölkəni idarə edəcəyi paytaxt salınmalı idi. Hər şey yerinə yetirildikdən sonra Deyos saraya köçdü. Paytaxtın mərkəzində yerləşən saray divarlarla əhatə olunmuşdu və sadə adamlar üçün əlçatmaz idi. Deyos daha bir şərt irəli sürdü: onunla ünsiyyət yalnız vasitəçi ilə mümkün ola bilər. Saray adamlarından heç kimə onunla həftədə bir dəfədən artıq görüşməyə icazə verilmirdi, bu bir görüş də xüsusi icazə ilə olurdu.

Deyos hakimiyyətdə olduğu əlli üç il ərzində Midiyanın ərazisini genişləndirdi və yeni dövlətin – İran imperiyasının əsasını qoydu ki, bu dövləti gələcəkdə onun kötükcəsi Kir idarə etdi. Deyosun hakimiyyəti dövründə adamların ona hörməti pərəstişə və onun özünəməxsus ilahiləşdirilməsinə qədər yüksəldi: adamlar onun adi adam yox, allahların oğlu olduğuna inanırdılar.

İZAHI

Deyos böyük iddialara malik adam idi. O, ölkənin güclü ələ ehtiyacı olduğunu başqalarından tez başa düşdü və onun hökmdarı olmağı qərara aldı. Anarxiyanın üzüb əldən

saldığı ölkədə ən nüfuzlu şəxs yalnız ədalətli hakim və arbitr ola bilərdi. Buna görə də, Deyos özünə düzlükdə ələ alına bilinməyən adam ad-sanı yaratmaqdan başladı.

Hakimlik karyerasının zirvəsində olarkən, Deyos fəaliyyətdə olmaq və olmamaq qanununun doğruluğunu dərk etdi: çox geniş çeşidli müştərilərlə işləyərək o, həddindən artıq «göz qabağında» olurdu, hamı üçün olduqca əlçatan idi, bu isə onun indiyə kimi ləzzət aldığı hörməti itirməsi qorxusunu yaradırdı. Adamlar onun xidmətini öz-özlüyündə aydın olan iş kimi qəbul edirdilər. Arzu etdiyi pərəstişi və hakimiyyəti yenidən qazanmağın yeganə üsulu, uzaq bir guşəyə çəkilmək, Midiya əhalisinə, o olmadan vəziyyətlərinin necə olacağını hiss etməyə imkan vermək idi. Özünün gözlədiyi kimi, midiyalılar tez bir zamanda onun yanına gələrək, ölkəni idarə etməsi üçün yalvardılar.

Bu qanunu özü üçün kəşf edən Deyos, onu təcrübədə həyata keçirməyə başladı. Onun üçün tikilmiş sarayda bir ovuc saray adamından başqa, heç kimə onu görməyə icazə verilmirdi, görənlərə də bu, nadir hallarda müyəssər olurdu. Bununla əlaqədar Herodot yazırdı: «Təhlükə onda idi ki, saray adamlarının hökmdarı daim görmələri, paxıllıq və inciklik yaratmaqla sui-qəsdlərə gətirib çıxarardı. Ancaq heç kimin onu heç vaxt görməməsi onun adi adam kimi olmaması barədə əfsanələr yaradırdı».

İnsan Dərvişə dedi: «Nə üçün mən səni nadir hallarda görürəm?» Dərviş cavab verdi: «Çünki mənim üçün «nə üçün mən səni nadir hallarda görürəm?» sözlərini eşitmək «niyə sən yenidən gəldin?» sözlərini eşitməkdən daha xoşdur».

Molla Cami. «Yuxuların karvanı»
(1968) kitabından sitat

Bu dünyada hər şey fəaliyyətsizlik və ya fəaliyyətdən asılıdır. Parlaq fəaliyyət sizə hakimiyyət gətirər və ya diqqət yönəldər – siz başqalarını kölgədə qoyaraq parlayarsınız. Ancaq müəyyən müddətdən sonra, onun əks səmərəsi meydana çıxar: sizi nə qədər çox görür və eşidərlərsə, sizin nüfuzunuz bir o qədər sürətlə aşağı düşər. Sizə artıq vərdiş edərlər. Qeyri-adi görünməyiniz üçün nə qədər cəhd göstərməyinizə baxmayaraq, başa düşülməyən səbəb üzündən adamlar getdikcə sizi az qiymətləndirər və hörmət edərlər. Siz ətrafdakılar üçün hiss edilmədən mövcud olmamaq vəziyyətinə düşməmişdən əvvəl, lazımi anda getməyi bacarmalısınız. Bu, gizlənpaç oyunudur.

Qanunun doğruluğunu məhəbbət və laqeydlik nümunəsində daha asan görmək olar. Bu dramın ilk səhnələrində sizin məhəbbət predmetinizin olmaması, hansısa auraya bürünmüş xəyaldan ibarət olacaqdır. Ancaq siz yaxından tanış olduqda – sizin xəyalınız üçün meydan artıq olmadıqda, – bu aura solğunlaşacaq. Sevgililər bizim üçün mövcudluğunda təəccüblü, qeyri-adi heç bir şey olmayan, hamı kimi adi adamlara çevrilirlər. Elə bu səbəb üzündən, XVII əsr fransız kurtizankası Ninon de Lanklo xanımlara öz məşuqundan gizlənərək, daima hiylə tətbiq etməyi məsləhət görürdü. O yazırdı: «Məhəbbət heç vaxt aclıqdan ölmür, onu həddindən artıq toxluq öldürür».

Özünüzü hər şeyi itirmiş adam kimi göstərmək kifayətdir ki, sizi udsunlar, özlərini sizinlə doydursunlar. Bunun baş verməməsi üçün, adamları qayıtmağınızı gözləməyə məcbur etmək lazımdır. Adamları sizi həmişəlik itirə biləcəkləri ilə qorxudaraq, onların hörmətini qazanın. Yoxaçıxma və zühuretmə sxemini tətbiq edin.

Napoleon: «Əgər mən teatra həddindən artıq tez-tez getsəm, adamlar mənə diqqət yetirməyi dayandırarlar» dedikdə, məhz bu qanunu nəzərdə tuturdu. Bu gün dünya müşahidə obyektləri

(mətbuat, televiziya) ilə doludur, səhnədən getmək üsulu getdikcə daha təsirli olur. Heç bir şey artıq şəxsi həyatın sərvəti hesab olunmur, belə ki, kim gizlənməyə nail olursa, xüsusi heyranlıq yaradır. Romançılar C.D.Selincer və Tomas Pinçon özlərinin getmək vaxtını bildiklərinə görə, şəxsiyyətlərinə pərəstiş yaratmışdılar.

Bu qanuna daha yaxşı nümunə, onun əhəmiyyətini daha əyani şəkildə nümayiş etdirən iqtisad elminin defisit qanunudur. Əgər hansısa mal bazarda yoxa çıxırsa, onun qiyməti bir an içində yüksəlir. XVIII əsrdə Hollandiyada hakim siniflər zanbağı dövlətin rəmzi etmək istəyirdilər. Onlar bu gülün az tapılan olmasına nail oldular, bu, nəticədə zanbaqmaniya (ruhi xəstəlik dərəcəsində zanbağa aludə olmaq) adının yaranmasına gətirib çıxardı. O vaxt zanbaq gülü, öz ağırlığında qızıldan baha idi.

Keçən əsrdə incəsənət əsərlərinin ticarətçisi Cozef Dyuvin öz məqsədinə oxşar şəkildə – yalnız nadir incəsənət əsərlərinin ticarəti ilə məşğul olmaqla nail oldu. Qiyməti yüksək həddə saxlamaq və nüfuzuna xələl gətirməmək üçün, o, bütöv kolleksiyaları satın alır və onları öz zirzəmisində saxlayırdı. Onun satdığı rəsmlər, nəqqaşlıq tablolarından baha olurdu – bunlar fetiş (fetiş – kor-koranə sitayiş edilən mallar) idi və bu rəsmlər qeyri-adi olduqlarına görə, qiymətləri ölçüyəgəlməz dərəcədə artırdı. Dyuvin bir dəfə demişdi: «Əlli min dollara istənilən rəsmi ala bilərsiniz – bu, asandır. Biri iki yüz əlli min dollara tablolar almaq üçün isə, əlləşib-vuruşmaq lazımdır!».

OBRAZ:

GÜNƏŞ

Biz olmayanı xüsusilə yüksək qiymətləndiririk. Yağışlı günlər nə qədər çox uzanırsa, biz günəşdən ötrü bir o qədər darıxırıq. Ancaq həddindən artıq isti və günəşli hava adamı üzüb əldən salır. Elə getməyi öyrənin ki, sizin qayıtmağınızı səbirsizliklə gözləsinlər.

Bacardıqlarınız işlərə defisit qanununu şamil edin. Elə edin ki, təqdim etdikləriniz nadir, aztapılan, qəribə şeylər olsun – onda siz nadir mütəxəssis kimi dərhal qiymətə minəcəksiniz.

Hakimiyyətə malik adamlardan kiminsə öz vəzifəsində qonaq kimi, qədərindən artıq qalması halları da olur, o, elə hey öz kreslosunda oturur və getmək bilmir. Biz belələrindən yorulmuruq, ona hörməti itiririk. Çünki onların bəşəriyyətin başqa nümayəndələrindən heç nə ilə fərqlənmədiyini görür, onların indiki imicini və özümüzün onlara münasibətimizi əvvəl olanlarla müqayisə edərək, onların pis göründüyünün şahidi oluruq. Səhnədən vaxtında getmək – incə sənətdir. Əgər siz hər şeyi düzgün etsəniz, itirilmiş şöhrətinizi yenidən qazanar və heç olmazsa, hakimiyyətin bir hissəsini özünüzə qaytararsınız.

V Karl XVI əsrin böyük hökmdarı idi. Habsburqlar sülaləsindən olan İspaniyanın bu kralı bir müddət Avropanın və Yeni Dünyanın xeyli hissəsini birləşdirən imperiyanı idarə etdi. O, hakimiyyət zirvəsində olarkən, 1557-ci ildə qəfildən monastıra çəkildi. Bütün Avropa onun gözlənilməz gedişindən özünü itirmişdi. Ona nifrət bəsləyən və qorxan adamlar, onu böyük hökmdar adlandırırdılar. O, müqəddəs görünməyə başlamışdı.

Yaxın keçmişdə kinoaktrisa Qreta Qarboya, 1941-ci ildə kino aləmindən uzaqlaşdıqdan sonra, görünməmiş dərəcədə pərəstiş edirdilər.

MÖTƏBƏR FİKİR

Özünüzün yoxluğunuzdan istifadə edərək, hörmət qazanmağa və qiymətləndirilməyə nail olun. Əgər fəaliyyətdə olmaq məşhurluğu azaldırsa, fəaliyyətdə olmamaq onu yüksəldir. Yoxluğunda şir kimi təsəvvür olunan adam, hərdənbir görünərək adiləşir, gülünc hədəfinə çevrilir. İstedadlarla yaxından tanış olduqda, onlar öz parlaqlıqlarını itirirlər... Hətta görkəmli dahi işdən getməkdən elə istifadə edir ki, adamlar ona hörmət bəsləmək imkanı əldə edirlər və onun getməsi ətrafında qaldırılmış hay-küy onun layiqincə qiymətləndirilməsinə kömək edir.

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

Bu qanunu yalnız hakimiyyətin müəyyən səviyyəsinə nail olduqda tətbiq etmək olar. Kənara çəkilmək zərurəti yalnız sizin öz vəziyyətinizi möhkəmləndirməyinizdən dərhal sonra meydana çıxır. Çox erkən getmək, sizə olan hörmətin artmasına kömək etməyəcəkdir, sizi, sadəcə olaraq, unudacaqlar. Əgər siz səhnəyə birinci dəfə çıxırsınızsa, əvvəlcə tanınan, hər yerdən görünən obraz yaradın. Buna nail olmayana qədər fəaliyyətdən getməyiniz sizin üçün təhlükəlidir – alov qızışmaq əvəzinə sönə bilər.

Eyni şəkildə məhəbbətdə də ayrılığın soyuqluğu yalnız bu halda təsirlidir – siz onu etməyə nail olmalısınız ki, surətiniz sevgilinizlə yanaşı olsun, sizin özünüz onun xəyalında olasınız, sizin səsiniz onun qulaqlarında səslənsin, hər bir əşya ona sizi xatırlatsın.

Yadda saxlamaq lazımdır: əvvəlcə özünüzü az-az göstərməyin, əksinə, harada aş, orada baş olun. Yalnız görünəndən, qiymətləndiriləndən və seviləndən məhrum olunduqda, təəssüflənin.

ON YEDDİNCİ QANUN

BAŞQALARINI ÇAŞQIN VƏZİYYƏTDƏ SAXLA: QEYRİ-MÜƏYYƏNLİK MÜHİTİ YARAT

QANUNUN MƏZMUNU

İnsanlar – başqalarının hərəkətlərində yaxşı məlum olan tanış cəhətlər axtarmaq və tapmaq kimi şiddətli tələbata malik vərdişlərin məhsuludur. Hərəkətlərinizin aydınlığı, onlara sizin üzərinizdə nəzarət duyğuları yaradır. Hər şeyi qarışdırın: bilərəkdən anlaşılmaz olun. Qeyri-ardıcıl davranış və ya zahirən məqsədsizlik onları özündən çıxaracaq və sizin hərəkətlərinizi aydınlaşdırmaq cəhdləri onları təmkinlərini itirməyə məcbur edəcəkdir.

QANUNA RİAYƏT EDİLMƏSİ

1972-ci ilin mayında şahmat üzrə dünya çempionu Boris Spasski İslandiyanın paytaxtı Reykyavikdə öz rəqibi Bobbi Fişerin gəlişini həyəcanla gözləyirdi. Çempion və iddiaçı şahmat üzrə dünya çempionu adı uğrunda görüş keçirməli idilər, ancaq Fişer vaxtında gəlmədi və matç tükdən asılı oldu. Fişeri qonorarın miqdarı, mükafat fondunun bölüşdürülməsi, İslandiyada matçın reqlamenti haqqında məsələlər narahat edirdi. O, istənilən anda matçda iştirak etməkdən imtina etməyə hazır idi.

Spasski təmkinini saxlamağa çalışdı. Sovet şahmatının rəhbərliyi Fişerin Spasskini ələ saldığını güman edərək, onun qayıtmasını tələb etdi, ancaq Spasski bu matçı oynamaq istəyirdi. O, Fişerə qalib gəlmək bacarığına malik olduğunu bilirdi və bu başlıca qələbəyə kiminsə mane olmasına yol vermək istəmirdi. Spasski öz yoldaşına dedi: «İndi elə görünür ki, bizim bütün işimiz hədər gedə bilər. Biz nə edə bilərik? İndi Bobbinin gedişidir. Əgər o gəlsə, biz oynayacağıq. Gəlməsə, oyun baş tutmayacaq. Təşəbbüs özünü məhv etməyə hazırlaşana məxsusdur».

Nəhayət, Fişer Reykyavikə gəldi, ancaq yeni-yeni şərtlər irəli sürdü və əvvəlki kimi, oyunun ləğv edilməsi ilə hədələdi. Oyunun keçiriləcəyi salon onun xoşuna gəlmədi, salonun işıqlandırılmasını tənqid etdi, kinokameraların səs-küyündən şikayət etdi, hətta onu, özünün və Spasskinin əyləşəcəkləri stullar da əsəbiləşdirirdi. İndi Sovet İttifaqı təşəbbüsü ələ aldı və öz oyunçusunu geri çağırmaqla hədələdi.

Bu hədə-qorxu özünü doğrultdu: bir həftəlik gözləmə və qəzəblənməyə qədər gəlib çıxan çoxsaylı mübahisədən sonra, Fişer oynamağa razılıq verdi. Hamı, xüsusən Spasski rahatlıq hiss etdi. Ancaq çempionun və iddiaçının rəsmən bir-birinə təqdim ediləcəyi gün, «əsrin matçı»nın başlandığı gündə olduğu kimi, Fişer çox böyük gecikmə ilə gəldi. Bu, onun üçün

çox ciddi nəticələr verə bilərdi: birinci oyunda olduqca çox gecikmə halında ona məğlubiyyət verilməli idi. Nə baş verdi? O, özünəməxsus savadlı oyun nümayiş etdirdimi? Bobbi Fişer Boris Spasskidən qorxurdumu? Reykyavikə yığışmış qrossmeysterlərə və Boris Spasskiyə elə gəlirdi ki, Bruklindən olan bu vunderkind qorxur. Fişer oyunun ləğv edilməsi vaxtına bir dəqiqə qalmış gəlib çıxdı.

Şahmat turnirində birinci görüş böyük əhəmiyyətə malik idi və o, sonrakı bütün görüşlərə təsir edirdi. Bir qayda olaraq, bu oyun ləng və sakit keçir, onun gedişində rəqiblər bir-birini öyrənərək, matçın strategiyasını müəyyən edirlər. Lap başlanğıcda, Fişer dəhşətli dərəcədə zəif gediş etdi, bəlkə də bu, onun həyatında ən uğursuz gediş idi. Spasski onu qarmağa keçirdi və elə görünürdü ki, o, təslim olmağa hazırdır. Spasski bilirdi ki, Fişer heç vaxt uduzduğunu elan etmir. Hətta labüd məğlubiyyət kimi görünən vəziyyətdə də, rəqibi yorub əldən salaraq, sona qədər mübarizə aparırdı. Bu dəfə elə təəssürat yarandı ki, o, məğlubiyyətlə barışır. Birdən salonda səs-küy yaradan güclü gediş etdi. Gediş Spasskini heyrətə gətirdi, ancaq o özünü ələ ala bildi və görüşü uddu. Ancaq heç kim Fişerin strategiyasını izah edə bilmədi. O, bilərəkdənmi uduzdu? Yaxud, həddindən artıq əsəbiləşdi? Özünü ələ ala bilmədi? Bəlkə də, özündə deyildi? Yaxud, bəzilərinin düşündükləri kimi, ruhi xəstə idi?

Birinci görüşdə məğlubiyyətdən sonra Fişerin şikayətləri güclləndi, o salonun pis olmasından, kameralardan, ümumiyyətlə, ucdantutma hər şeydən şikayət edirdi. O, ikinci oyuna da gecikdi. Bu, təşkilatçıları cana doydurdu: Fişerə məğlubiyyət verdilər. Onun hesabında artıq iki məğlubiyyət var idi və heç bir qələbə qazanmamışdı, belə vəziyyətdə, hələ heç kim çempion adı uğrunda matçı uda bilməmişdi. Fişer açıq-aşkar özündən çıxmışdı. Ancaq üçüncü görüşdə, şahidlərin xatırladığı kimi, onun gözləri qəzəblə parıldayırdı və bu, Spasskini hissediləcək dərəcədə narahat etdi. İddiaçı özü-özünə quyu qazmağına baxmayaraq, çox inamlı görünürdü. O, birinci oyunda olduğu kimi, kobud səhv edərək, hədəfdən yayındı – ancaq onun özünə çox inamlı görkəmi Spasskini tələdən şübhələnməyə məcbur etdi. Çempion cəhd göstərdi, ancaq hiylənin nədə olduğunu heç cür başa düşə bilmədi və gözlənilmədən mat oldu. Fişerin qeyri-ənənəvi taktikası və gözlənilməzliyi rəqibi möhkəm əsəbiləşməyə məcbur etdi. Oyunun sonunda Fişer yerindən sıçradı və qışqırtı ilə «Mən onu kobud qüvvə ilə məğlub etdim!» deyib, düyümlənmiş yumruğunu yellədərək salondan qaçdı.

Matçın sonrakı oyunlarında, Fişer, heç kimin etmədiyi gedişlər etdi, bu gedişlər onun dəst-xəttinə uyğun deyildi. İndi artıq Spasski səhvlər etməyə başladı. Altıncı partiyanı uduzaraq, o ağladı. Qrossmeysterlərdən biri dedi: «İndi Spasski həm də Rusiyaya qayıtmağının onun üçün təhlükəsiz olması barədə düşünməlidir». Səkkizinci görüşdən sonra çempiona elə gəldi ki, o, baş verənlərin izahını tapıb: Fişer onu hipnoz edir. O, Fişerin gözlərinə baxmamağı qərara aldı və buna baxmayaraq, yenə uduzdu.

On dördüncü partiyadan sonra, o öz komandasını yığaraq elan etdi: «Mənim şüurumu idarə etməyə cəhd edilmişdir». O, şahmat stolu arxasında içdiyi şirəyə narkotik maddə qatıldığından şübhələnirdi. Həmçinin havada da kimyəvi dərman ola bilərdi. Nəhayət, Spasski Fişerin komandasını onun kreslosuna, şüura təsir edən material yerləşdirməkdə açıq şəkildə təqsirləndirdi. Dövlət Təhlükəsizliyi Komitəsi ehtiyatlandı: Boris Spasski Sovet İttifaqını rüsvay etdi!

Kreslonu götürdülər və rentgenoskopiyadan keçirdilər. Kimyaçılar kresloda qeyri-adi heç nə tapmadılar. Ümumiyyətlə, tapılan yeganə şey işıqlandırma qurğusunun dəstəyinə yapışmış iki milçək ölüsü idi. Spasski qarabasmadan şikayətlənməyə başladı. O, oyunu davam etdirmək vəziyyətində deyildi – və sentyabrın 2-də məğlub olduğunu bildirdi.

İZAHI

Əvvəllər Fişerin Spasski ilə oyunları asan keçməmişdi. Spasski rəqibin strategiyasını duymaq və onu rəqibə qarşı yönəltmək üçün qeyri-adi qabiliyyətə malik idi. O, şəraitə tez uyğunlaşır, təmkinli oynayır, yeddi gedişdən yox, yetmiş gedişdən sonra qələbəyə gətirən hücumlar işləyib hazırlaya bilirdi. O, Fişerdən oyunda çoxlu gedişləri qabaqcadan hesablamaq qabiliyyətinə malik olduğundan, həmçinin gözəl psixoloq olmasına və özünə nəzarəti heç vaxt itirməməsinə görə üstün idi. Bir şahmatçı demişdi: «Spasski sadəcə olaraq, yaxşı gedişlər axtarmır. O, elə gedişlər axtarır ki, rəqibi hövsələdən çıxarsın».

Ancaq Fişer Spasskinin uğurunun səbəblərindən birini başa düşdü: o, irəlini görməkdən istifadə edir, rəqibin üslub xüsusiyyətlərindən yayınaraq, öz oyununu qururdu. Fişerin matçda etdiyi hər şey təşəbbüsü ələ almaq və Spasskini özündən çıxarmaq cəhdləri idi. Şübhəsiz, çoxlu gözləmələr Spasskinin psixikasına təsir etdi. Ancaq Fişerin kobud səhvləri və onun sanki dəqiq oyun strategiyasının olmaması ona xüsusilə güclü təsir etdi. O, həqiqətən var qüvvə ilə, hətta birinci partiyada məğlubiyyət və ikinci partiyada ona məğlubiyyət verilməsi hesabına öz dəst-xəttini dəyişməyə çalışdı.

Spasski soyuqqanlılığı və özünə nəzarət qabiliyyəti ilə məşhur idi, ancaq o, həyatında ilk dəfə rəqibi başa düşməyə nail ola bilmədi. Onun gərginliyi artdı və nəticədə, ruhi xəstəyə məhz o bənzədi.

Şahmatda həyatın başlıca beş ünsürü əks olunmuşdur: birincisi: qələbə üçün tam təmkinini saxlamaq və çox uzaqgörən olmaq lazımdır; ikincisi, oyun sxemlər üzərində, nə vaxtsa oynanılmış gedişlər ardıcıllığı üzərində qurulur və istənilən matçda azsaylı variasiyalarla yenidən oynanılır; üçüncüsü, sizin rəqibiniz oyunda istifadə etdiyiniz sxemləri təhlil edir və gedişlərinizi proqnozlaşdırmağa çalışır; dördüncüsü, rəqibə, öz

oyununu qura biləcək, irəlicədən görünən heç bir şablon vəziyyətlər yaratmamaqla, siz böyük üstünlük qazanarsınız; beşincisi, şahmat da həyat kimidir: davranışınızı qabaqcadan duya bilməyənlər narahatlıq və qeyri-müəyyənlik hissləri keçirirlər – onları həyəcan, qorxu, çaşqınlıq çulğayır.

Saray həyatı – ciddi, fərəhsiz şahmat partiyasıdır, o, bizdən fiqurları yerbəyer etməyi, planlar qurmağı və onun əsasında rəqibin gedişlərinin qarşısını almağı tələb edir. Ancaq bəzən, daha yaxşısı, cəsarətli olmaq və tamamilə əsassız, gözlənilməz gedişlər etməkdir.

Jan de Labryuyer (1645–1696)

HAKİMİYYƏTİN AÇARI

Gözlənilməzlikdən və hadisələrin baş verəcəyini əvvəlcədən bilməməkdən dəhşətli şey yoxdur. Elə buna görə də, zəlzələ və tufanlar, onun nə vaxt baş verə biləcəyini bilmədiyimizdən, bizi dəhşətli dərəcədə qorxudur. Təbii fəlakət baş verən kimi, biz dəhşət və qorxu içində sonrasını gözləyirik. Əvvəlcədən aydın olmayan insan davranışları, bu dərəcədə güclü olmasa da, buna oxşar təsir göstərir.

Heyvanların davranışı sxemlərə uyğunlaşdırılır, məhz buna görə də, insanlar onları ovlaya və öldürə bilirlər. Yalnız insan öz davranışını daim dəyişmək, improvizasiya etmək, mühafizəkarlığın və vərdişlərin təzyiqini aradan qaldırmaq qabiliyyətinə malikdir. Belə olmasına baxmayaraq, insanların əksəriyyəti bu imkanı həyata keçirmir. İnsanlar adət edilmiş hərəkətə üstünlük verirlər, çünki bu, zəhmət tələb etmir. Lakin başqalarını acıqlandırmasalar, onları sakit buraxacaqlar – fikrinə əsaslanmaqla yanılan belələri başa düşməlidirlər ki, hakimiyyət adamı, təşəbbüsü öz əlində saxlamaq üçün, ətrafdakıları bilərəkdən özündən çıxarır, müəyyən qorxu yaradır; adamları zağ-zağ əsməyə məcbur etmək üçün, bəzən, zərbəni xəbərdarlıq etmə-

dən, adamların hər şeydən az bunu gözlədikləri vaxt endirir. Bu, hakimiyyət dünyasının əsrlər boyu istifadə etdiyi vasitədir.

XV əsrdə İtaliyada Viskontinin sonuncu milanlı hersoqu Filippo Maria bilərəkdən ondan gözlənilənin əksi olan hərəkətləri edirdi. Məsələn, o, bunu gözləməyən saray adamına səxavətini, mərhəmətini izhar edir, sonra isə, həmin şəxsin vəzifə pilləsində yüksələ biləcəyini yəqin etdikdə, ona tam etinasızlıq göstərir, əvvəlki kimi qəflətən həyəcanlandırırdı. Bədbəxt çaşqınlıq içində sarayı tərk etməyə hazırlaşanda, hersoq yenidən onunla gözəl davranmağa başlayırdı. Nəhayət, özünü itirmiş saray adamı belə nəticəyə gəlirdi ki, vəzifə barədə xahişi, çox güman ki, hersoqa həqarətli görünüb və bundan sonra o özünü elə aparırdı ki, sanki vəzifədə yüksəlməyi heç xəyalına belə gətirmir. Çünki birdən hersoq onu şöhrətpərəstlikdə təqsirləndirər və saraydan uzaqlaşdırardı.

Filippo ilə ünsiyyətdəki uğurun səbəbi sadə idi: onun nə edəcəyini əvvəlcədən başa düşməyə cəhd etməmək; onu nə ilə razı salmağı bilməyə çalışmamaq; heç vaxt öz iradəni ona zorla qəbul etdirmə, sadəcə olaraq, onun iradəsinə tabe ol. Sonra nə baş verəcəyini gözləmək lazımdır. Hersoq yaratdığı çaşqınlıq və inamsızlıq mühitində iradəsinə etiraz edilməyən ali varlıq kimi sakitcə hakimiyyətini sürürdü.

Gözlənilməzlik – ən çox hakim təbəqənin təcrübəsində istifadə edilir, ancaq onu tabe olan tərəf də böyük uğurla tətbiq edə bilər. Əgər hiss etsəniz ki, sizə üstün gəliblər və ya sizi sıxıblar, gözlənilməz gedişlər seriyası ilə cavab verin. Bu, sizin düşmənlərinizi elə çaşdıracaq ki, onlar geri çəkiləcək və ya taktiki səhvlər etməyə məcbur olacaqlar.

1862-ci ilin yazında, vətəndaş müharibəsi zamanı general Stounuoll Cekson və konfederatların 4600 nəfərlik ordusu sayca onlardan dəfələrlə çox olan federalların qoşununu Şenandoa vadisində üstələyirdi. General Corc Brinton Makklellan başda olmaqla, federalların 90 minlik ordusu konfederatların

paytaxtı Riçmondda (Virciniya ştatı) pusqu qurmaq üçün Vaşinqtondan (Kolumbiya dairəsi) cənuba doğru hərəkət etdi. Bu əməliyyatın getdiyi bir neçə həftə ərzində Cekson növbə ilə öz qoşununu gah Şenandoa vadisindən çıxarır, gah da geri qaytarırdı.

Onun hərəkətinin heç bir mənası yox idi. O, Riçmondun müdafiəsinə kömək etməyə hazırlaşırdımı? Yaxud Makklellanın olmadığı şəraitdə müdafiəsiz qalmış Vaşinqtona hücum etməyə hazırlaşırdımı? Şimala yollanaraq, orada dağıntılar törətmək istəyirdimi? Nəyə görə kiçik dəstə dairəvi hərəkət edirdi?

Ceksonun izaholunmaz yerdəyişmələri ona gətirib çıxardı ki, federalların generalları onun niyyətini başa düşənə qədər, Riçmonda hücumu ləngitməyi qərara aldılar. Bu müddət ərzində cənublular şəhərə əlavə qüvvələr gətirməyə imkan tapdılar. Konfederatların məğlubiyyətə uğramalı olacaqları vuruşma hər iki tərəf üçün qələbəsiz, necə deyərlər, heç-heçə qurtardı. Cekson üstün qüvvəyə malik düşmənlə üz-üzə gələrkən, belə taktikadan dəfələrlə istifadə etmişdi. O deyirdi: «İmkan düşən kimi, düşmənə hiylə gəlmək, onu yanıltmaq və təəccübləndirmək lazımdır... Belə taktika qələbə gətirir və kiçik ordu böyük ordunu darmadağın edir».

Bu qanun təkcə müharibəyə deyil, həm də qarşıya çıxan gündəlik vəziyyətlərə aiddir. İnsanlar həmişə sizin hərəkətlərinizin arxasında dayanan motivləri öyrənməyə və hərəkətlərinizi əvvəlcədən görməyə çalışaraq, bundan sizin əleyhinizə istifadə etmək istəyirlər. Tamamilə izaholunmaz gediş edin – onlar müdafiə mövqeyi tutmalı olacaqlar. Onlar sizi başa düşməyə müvəffəq olmamaları ucbatından əsəbiləşməyə başlayacaqlar. Düşmənlər belə vəziyyətdə olduqda isə, siz çətinlik çəkmədən onları dəhşətə gətirə bilərsiniz.

Pablo Pikasso olduqca düzgün qeyd etmişdi: «Ən yaxşı niyyət – niyyətin olmamasıdır. Sizin müəyyən tanınmaq səviyyəsinə çatmağınız kifayətdir ki, ətrafdakılar, bir qayda olaraq, si-

zin hər bir hərəkətinizə ağlabatan izah axtarmağa başlasınlar. Buna görə də, edilən hərəkətləri əvvəlcədən ətraflı düşünmək, sadəcə olaraq, axmaqlıqdır. Əgər siz ağlınıza gələn hərəkəti etsəniz, yalnız udarsınız».

Pikasso uzun müddət incəsənət əsərləri ticarətçisi Pol Rozenberqlə əməkdaşlıq edirdi. Əvvəlcə rəssam ona öz rəsmləri ilə bağlı çox geniş səlahiyyətlər verdi. Ancaq bir dəfə nəzərə çarpan elə bir səbəb olmasa da, Rozenberqə dedi ki, bundan sonra, ona özünün bir dənə də olsa rəsmini satmağa icazə vermir. Pikassonun izah etdiyi kimi, «Rozenberq sonrakı iki gün ərzində vəziyyətin nə yerdə olduğunu aydınlaşdırmağa cəhd etməklə keçirtdi: Mən rəsmləri satmaq hüququnu başqa ticarətçiyə verəcəyəmmi? Mən işləməyi davam etdirir və rahatca yatırdım, Rozenberq isə ciddi-cəhdlə vəziyyəti anlamağa çalışırdı. İki gündən sonra o, əsəbi və narahat vəziyyətdə yenidən qayıdaraq dedi: «Nəhayət, əziz dost, əgər mən bu rəsmlərə görə əvvəl, adətən ödədiyim qiymətin əvəzinə bu qədər (o xeyli yüksək məbləğ dedi) ödəsəm, siz mənimlə əlaqəni kəsməzsiniz, elə deyilmi?»

Niyyətin əvvəlcədən bilinməməzliyi – təkcə vahimə silahı deyildir: siz adət edilmiş sxemləri dövri olaraq dağıtmaqla, çaxnaşma salır, özünüzə maraq yaradırsınız. Adamlar sizin haqqınızda danışır, həqiqətlə heç bir əlaqəsi olmayan səbəbləri və izahları sizin adınıza çıxırlar – bu da sizə daim onların fikirlərini tutmağa kömək edir. Son nəticədə, siz nə qədər çox dəlisov görünürsünüzsə, bir o qədər böyük hörmət qazanırsınız. Yalnız asılı vəziyyətə düşən, heç nəyə ümidi olmayan kənarda qalmış şəxs özünü aydın başa düşülən şəkildə aparır.

OBRAZ:
QASIRĞA

Külək əvvəlcədən proqnozlaşdırıla bilmir. Barometrin əqrəbi qəfildən sıçrayır, istiqamət və sürət izaholunmaz şəkildə

dəyişir. Ondan müdafiə edilmək mümkün deyildir: qasırğa qorxu və həyəcan yaradır.

MÖTƏBƏR FİKİR

«Ağıllı hökmdar çox müəmmalı olduğundan, elə görünür ki, o, sanki heç yerdə yaşamır, izaholunmazdır, heç kim ona kələk gələ bilməz. O, yuxarıda sakitcə yaşayır, müşavirləri isə aşağıda zağ-zağ əsirlər».

Xan Fey, Çin filosofu, e.ə. III əsr

MEDALIN İÇ ÜZÜ

Bəzən niyyətin əvvəlcədən bilinməsi sizə kömək edə bilər: ətrafdakılar üçün adət edilmiş və əlverişli sxemlər yaradaraq, siz onların başının altına yastıq qoyur və yuxuladırsınız. Onlar özlərinin sizin haqqınızda möhkəmlənmiş təsəvvürlərinə əsaslanaraq, hərəkət etməyə hazırdırlar. Bundan müxtəlif cür istifadə etmək olar. Birincisi, bu, sizin üçün duman pərdəsi, əlverişli arakəsmə yaradır, siz orada gizlənərək fəaliyyət göstərə bilərsiniz. İkincisi, bu, sizə arabir əks sxemlər qurmağa və bununla, düşməni o dərəcədə güclü sarsıtmağa imkan verər ki, hətta əlavə zərbə olmadan belə yıxılar.

1974-cü ildə Məhəmməd Əli və Corc Formen ağır çəkili boksçuların dünya çempionatının finalında görüşməli idilər. Döyüşün necə keçəcəyi hamıya aydın idi: iri cüssəli Formen rəqibini nokauta salmağa çalışacaq, Əli isə rəqibinin ətrafında müxtəlif oyun hərəkətləri edərək, onu yorub əldən salmağa cəhd edəcəkdi. Bu, Əlinin on ildən artıq dəyişmədiyi döyüş dəst-xətti, sxemi idi. Bu dəfə də, elə görünürdü ki, Formen üstünlüyə malikdir: onun sarsıdıcı zərbələri var idi. Əgər o, səbirli olsa, gec-tez bu zərbələrlə Əlini məğlub edə bilərdi. Gözəl strateq olan Əlinin isə, başqa planları var idi. Döyüşdən əvvəlki mətbuat konfransında o bildirdi ki, öz dəst-xəttini də-

yişməyə və Formeni nokauta salmağa hazırlaşır. Formen də daxil olmaqla, heç kim buna azacıq da olsa inanmadı. Belə plan Əli üçün məğlubiyyətə bərabər idi, buna görə hamıya elə gəlirdi ki, o, həmişə olduğu kimi, indi də təlxəklik edir. Bununla belə, döyüşdən əvvəl Əlinin məşqçisi rinqin ətrafındakı kanatı boşaltdı. Adətən, boksçu güclü zərbə endirməyə hazırlaşanda məşqçi belə edir. Ancaq buna da heç kim inanmadı. Bunu sadəcə olaraq, oyun hesab etdilər.

Bütün tamaşaçıların təəccübünə rəğmən, Əli məhz söz verdiyi kimi də etdi. Formen onun öz ətrafında oyun hərəkətləri etməyə başlayacağını gözləyərkən, Əli ona hücum etdi və güclü zərbə endirdi. Əli rəqibin planını pozaraq, onu tamamilə çaşdırdı. Formen özünü itirdi, nəhayət, gücdən düşdü, yumruqlarını nizamsız atmağa başlayaraq, getdikcə daha çox cavab zərbələri aldı. Nəhayət, Əli sağ yumruğu ilə həlledici zərbə endirərək, Formeni nokauta saldı. İnsanın davranışının onun adət etdiyi çərçivəyə sığmalı olması haqqında təsəvvürlər elə güclüdür ki, hətta Əlinin öz strategiyasını dəyişmək niyyəti haqqında bəyanatı adəti kifayət etmədi. Formen tələyə düşdü, özü də, barəsində xəbərdar edildiyi tələyə düşdü.

Ehtiyatlı olun: niyyətin əvvəlcədən bilinməməsi, xüsusən siz tabeli vəziyyətdəsinizsə, əleyhinizə çevrilə bilər. Elə hallar olur ki, ətrafdakılara özlərini sakit və rahat hiss etməyə imkan vermək, onları özlərindən çıxarmaqdan daha yaxşıdır. Həddindən artıq müəmmalı davranış qətiyyətsizlik kimi qiymətləndirilməklə yanaşı, ciddi psixi çatışmazlıqlar haqqında fikir yaradar. Sxemlər qüdrətli olduqlarından, siz onları pozaraq adamları qorxuya sala bilərsiniz. Ancaq bu gücdən ağılla istifadə etmək lazımdır.

ON SƏKKİZİNCİ QANUN

ÖZÜNÜ QORUMAQ ÜÇÜN QALALAR TİKMƏ: TƏCRİD OLMAQ TƏHLÜKƏLİDİR

QANUNUN MƏZMUNU

Dünya təhlükəlidir, hər yer isə düşmənlərlə doludur – hər kəs müdafiə olunmalıdır. Elə görünür ki, qala ən etibarlı sığınacaqdır. Ancaq təcrid olunmaq bizi təkcə müdafiə etmir, həm də müdafiə etdiyindən artıq təhlükəyə məruz qoyur: o, bizi mühüm informasiyadan məhrum edir, nəzərə çarpan və zəif hədəfə çevirir. Ən yaxşısı, insanların arasında olmaq və müttəfiqlər tapmaqdır. Kütləni özünüzə qalxan edib düşmənlərdən qorunun.

QIRMIZI ÖLÜM MASKASI

Qırmızı Ölüm uzun müddət idi ki, ölkəni viran qoyurdu. Hələ heç bir azar onun kimi amansız və ya mənfur olmamışdı. Al qırmızılıq və dəhşət onun rəmzi və ələməti idi – Kəskin ağrıları qəfildən başgicəllənmə əvəz edir, sonra isə güclü qan açılır, ölüm baş verirdi. ...İlk qıcolmalar, xəstəliyin gedişi və başa çatması yarım saatlıq iş idi. Ancaq şahzadə Prospero güləruz, qorxmaz və hazırcavab idi. Onun hakimiyyəti altında olan xalqın yarısı qırıldıqda, o öz sarayından olan cən-

QANUNUN POZULMASI

Çinin birinci imperatoru Sin Şixuandi (e.ə. 221–210-cu illər) öz dövrünün qüdrətli hökmdarı idi. Onun imperiyası həm böyüklüyünə, həm də gücünə görə Makedoniyalı İsgəndərin imperiyasını üstələyirdi. O, bütün qonşu əraziləri fəth etmiş və onları mərkəzləşdirilmiş böyük Çin dövlətinə birləşdirmişdi. Ancaq imperatorun həyatının son illərində onu görmək çox az adama müyəssər olurdu.

İmperator həmin dövrdə paytaxt olan Syanyan şəhərində tikilmiş möhtəşəm sarayda yaşayırdı. Sarayın 270 pavilyonu var idi, onların hamısı gizli yeraltı keçidlərlə birləşdirilmişdi ki, bu da imperatora sarayda heç kimin onu görmədən hərəkət etməsinə imkan verirdi. O, hər gecə bir yataq otağında gecələyirdi, onu təsadüfən görənlərin başını dərhal vururdular. Yalnız bir qrup yaxın adama onun yeri məlum idi. Onlardan kimsə bu sirri başqasına açardısa, həyatla vidalaşmalı olardı.

Birinci imperator adamlarla hər hansı bir əlaqədən çox çəkinirdi. Ona saraydan çıxmaq lazım gələrdisə, özünün zahiri görkəmini dəyişməklə, gizli səyahət edirdi. Əyalətlərə etdiyi bu cür səfərlərin birində imperator vaxtsız öldü. Onun cənazəsini kəcavədə paytaxta gətirdilər, çürüyən cəsədin iyini boğmaq üçün kəcavənin ardınca içərisində duzlu balıq olan araba gedirdi – heç kim imperatorun ölümündən xəbər

tutmamalı idi. O öz arvadlarından, ailə üzvlərindən, dostlarından və saray adamlarından uzaqda tənha öldü, onun yanında yalnız bir neçə xidmətçisi və xacəsi var idi.

İZAHI

Sin Şixuandi Çin çarlığının hökmdarlığına böyük iddiaları olan cəsarətli hərbçi kimi başladı. Müasirləri onu «eşşəkarısının neştəri kimi iti burunlu, ensiz, qıyıq gözlü, çaqqal səsli, pələng və ya qurd ürəkli» adam kimi təsvir edirdilər. O, bəzən mərhəmətli olsa da, çox vaxt «tərəddüd etmədən adamlara divan tuturdu». Güc və hiyləgərliklə o öz ölkəsinin qonşuluğunda olan torpaqları ələ keçirtdi və Çin imperiyasını yaratdı, milləti birləşdirdi və mədəniyyəti inkişaf etdirdi. O, feodal pərakəndəliyinə son qoydu. Keçmiş hökmdarların bütün əraziyə səpələnmiş çoxsaylı məsləkdaşlarını nəzarət altında saxlamaq üçün onların 120 min qohumunu paytaxta köçürtdü və daha yüksək vəzifə daşıyanlarını böyük sarayda yerləşdirdi. O, əyalətlərin sərhədini bildirən çoxsaylı hasarları birləşdirdi və Böyük Çin səddini tikdirdi. O, ölkənin qanunlarını, yazısını və hətta arabaların təkərini təkmilləşdirdi.

Ancaq bu zaman imperator əxlaq haqqında təsəvvürləri Çin mədəniyyətində faktiki olaraq dinə çevrilmiş filosof Konfutsinin təlimini qanundan kənar elan etdi.

gavərlərdən və xanımlardan sağlam və ruhdan düşməyən min nəfər yanına çağıraraq, onlarla birlikdə qəsr şəklində tikilmiş, ona məxsus olan abbatlığa çəkildi. Bu, eksentrik üslubda, ancaq şahzadənin şahanə zövqünə uyğun şəkildə tikilmiş böyük və çox gözəl bina idi. Abbatlıq dəmir qapıları olan möhkəm və hündür divarla əhatə olunmuşdu. Saray adamları özləri ilə dəmirçi kürəsi və ağır çəkiclər gətirərək, içəri keçdilər və onların köməyi ilə qapıları daxildən möhkəmcə bərkitdilər. Onlar ümidsizlik və ya qəzəb üzündən yaranacaq gözlənilməz həyəcan halların-

Sin Şixuandinin əmri ilə konfutsiçiliyə aid minlərlə kitab yandırıldı, Konfutsinin adını çəkənlər isə edam edilirdi. İmperator bununla özünə çoxlu düşmən qazandı. Buna görə də, onun yaratdığı qorxu daim artaraq xəstəliyə çevrildi. Edamlar və divantutmalar davam edirdi. Həmin dövrdə yaşamış filosof Xan Fey-szı qeyd edirdi ki, «Sin sülaləsinin dörd nəsli məğlubiyyətin nə olduğunu bilmirdi, ancaq onlar məhv olacaqlarını əvvəlcədən hiss edərək, daim qorxu içində yaşayırdılar».

İmperator özünün təhlükəsizliyi üçün saraya nə qədər çox qapanıb qalırdısa, öz dövlətində hakimiyyəti tədricən bir o qədər zəifləyirdi. Xacələr və xidmətçilər onun razılığını almadan və hətta ona xəbər vermədən siyasi məsələləri həll edirdilər. Onlar imperatorun özünə qarşı da çəkişmələr yaradırdılar. Nəticədə onun imperatorluğu rəmzi oldu, onun təcrid edilməsi o dərəcədə dərin idi ki, ölümündən çox az adam xəbər tutdu. Ola bilsin ki, imperator onun guşənişin həyat keçirməsini təqdir edən xidmətçiləri tərəfindən zəhərlənmişdi.

Bax, təcrid olunmağın nəticəsi belədir: qalaya çəkilərək siz öz hakimiyyətinizin mənbələri ilə əlaqəni itirirsiniz. Siz ətrafınızda baş verənlər barədə məlumat almaq imkanını itirirsiniz. Siz təhlükəsizliyinizi təmin etmək əvəzinə, özünüzü həyatınızın asılı olduğu məlumatlardan məhrum edirsiniz. Ətrafda baş verənləri eşitməyiniz, əleyhinizə qurulmuş çəkişmələrdən xəbərdar olmağınız üçün meydana ağlabatan səviyyədə yaxın olmağınız mütləqdir.

da giriş və çıxış üçün heç bir imkan yeri saxlamamağı qərara aldılar. Abbatlıq azuqə ilə bolluca təmin edilmişdi. Bu cür ehtiyat tədbirləri şəraitində saray adamları azardan xilas olmağa ümid edirdilər. Xarici aləm özbaşına buraxılmışdı. Qəm-qüssəyə batmağa və ya ağır düşüncələrə qapılmağa heç bir əsas yox idi. Şahzadə əyləncə qayğısına qalırdı. Orada həm məzhəkəçilər və imprivizatorlar (improvizasiya ilə hazırlaşmadan şer və ya nitq söyləyən, musiqi ifa edən adam), həm balet rəqqasları və musiqiçilər, həm də gözəllik və şərab var idi. Üstəlik bunların hamısı daxildə tam təhlükəsiz şəraitdə mövcud idi. Bayırda isə Qırmızı Ölüm hökm sürürdü. Qalaya çəkilmənin beşinci və ya altıncı ayının sonunda, xəstəliyin xüsusi şiddətlə tüğyan etdiyi vaxtda, şahzadə Prospero qaladakı bütün dostlarını qeyri-adi gözəlliklə təşkil edilmiş bal-maskarada, ziyafət və əyləncə məclisinə dəvət etdi. Bu məclis çox gözəl bir mənzərə yaratmışdı. ...Saatların zəngi gecə yarısını vurana qədər şənlik coşğunluqla davam etdi... Saatın axırıncı zəngi vurduqda, məclisdəki adamların çoxu, indiyə kimi onların heç birinin nəzərini cəlb et-

QANUNA RİAYƏT EDİLMƏSİ

XIV Lüdovik və onun ətraf adamları üçün 1660-cı ildə, dünyanın digər kral saraylarına bənzəməyən Versal sarayı tikildi. Arı pətəyində olduğu kimi, orada hamı kralın ətrafında fırlanırdı. Onlar kral sarayının ətrafında, tutduqları mövqeyə uyğun olan məsafədə tikilmiş böyük və yaraşıqlı evlərdə yerləşdirildilər. Kralın yataq otağı sarayın ortasında (sözün hərfi mənasında) yerləşirdi və hamının diqqət mərkəzində idi. Hər səhər bu otaqda leve adı ilə məşhur olan mərasim keçirilirdi.

Kralın yatağının ayaq tərəfində yatan birinci otaq xidmətçisi hər səhər saat səkkizdə kral həzrətlərini oyadırdı. Sonra xidmətçi oğlanlar qapını açır və səhər mərasimində iştirak edənləri içəri buraxırdılar. Onların kralın otağına daxil olma qaydası dəqiq müəyyən edilmişdi: əvvəlcə kralın qeyri-qanuni oğulları və nəvələri, sonra şahzadələr və onların qohumları, bunların ardınca kralın həkimləri, daha sonra qarderobun sərəncamvericisi, kralın rəsmi qiraətçisi və onun əylənməsi üçün məsul olan şəxslər daxil olurdular. Bunların ardınca, dərəcələrinin artması qaydası ilə dövlət xadimləri içəri girirdilər. Mərasimə

xüsusi dəvətnamə alanlar sonuncu gəlirdilər. Nəticədə, otağa kralın yüzdən artıq xidmətçisi və qonağı yığışırdı.

Gün elə təşkil edilirdi ki, Lüdovikin qəbulunda daim ona xahiş və məsləhətlə müraciət edən saray adamları və rəsmi şəxslər olurdular. Onların bütün suallarına kral adəti üzrə belə cavab verirdi: «Mən fikirləşərəm».

Sen-Simon yazırdı: «Əgər o, üzünü kimə tuturdusa, sual verirdisə, hansısa mülahizə söyləyirdisə, orada olanların hamısının baxışı həmin adama dikilirdi. Bu, müzakirə edilən məsələnin fərqləndiyini, həmin şəxsin yüksək nüfuza malik olduğunu göstərirdi». Sarayda heç kimin, hətta kralın da xəlvəti guşəyə çəkilməsinə imkan yox idi, – hər otaqdan qonşu otaqlara qapı açılırdı, hər bir koridor əyanların daim toplaşdığı böyük ölçülü müşavirə otağına gedib çıxırdı. İstənilən adamın hərəkəti sərbəst idi, ancaq heç nə və heç kim nəzərdən qaçmırdı. Sen-Simon qeyd edirdi: «Kral təkcə yuxarı əyanların saraya yığılmasına göz qoymur, həm də bunu kiçik əyanlardan tələb edirdi». O, «leve» və «kuşe» adlanan mərasimlərdə, Versal sarayının bağlarında gəzinti vaxtı, həmişə hər şeyə nəzər salaraq ətrafına göz gəzdirirdi. Ən adlı-sanlı zadəganın sarayda daim yaşamaması, heç vaxt görünməməsi və ya nadir hallarda görünməsi kralda olduqca güclü narazılıq yaradırdı. Əgər onlardan kimsə xahişlə müraciət edirdisə, kral qürurla cavab verirdi:

məyən maskada olan şəxsin də onlarla bir yerdə olduğunu hiss etdi... O, uzun və arıq idi, başdan ayağa kimi kəfənə bürünmüşdü. Onun sifətini gizləyən maska daha çox qurumuş meyitə oxşayırdı, hətta ən diqqətli baxış da ondan çətinliklə şübhələnərdi. Bununla belə, coşğun şənliyə qatılanlar, hətta istəsələr belə, onu tanıya bilməzdilər. Ancaq o, həddindən artıq irəli getdi və Qırmızı Ölümün görkəmini aldı. Onun paltarı qana boyanmışdı, geniş alnı və bütün sifəti dəhşətli qıpqırmızı damlalarla örtülmüşdü. Ümidsizlikdən özündən çıxaraq cəsarətlənmiş qo-

«Mən onu tanımıram» – və heç kim buna etirazını bildirməyə cəsarət etmirdi.

İZAHI

XIV Lüdovik Vətəndaş müharibəsi Fronda (Fronda – XVII əsrdə Fransada mütləqiyyət əleyhinə olan zadəgan-burjua hərəkatı) nəticəsində hakimiyyətə gəlmişdi. Frondanın başlıca hərəkətverici qüvvəsi səltənətin möhkəmlənməsindən həyəcanlanmış və feodalizm dövrü üçün darıxan zadəganlıq idi, süzerenlərin öz mülklərində hökm sürdüyü vaxtlar kralın onlar üzərindəki hakimiyyəti olduqca cüzi idi. Zadəganlar müharibəni uduzaraq, bir tərəfə çəkilib məqamı gözlədilər.

Buna görə, Versal sarayının quruluşu, sadəcə olaraq dəbdəbə və cah-calala pərəstiş edən kralın şıltaqlığından artıq bir şey deyildi. O, çox mühüm vəzifəni yerinə yetirirdi: kral hər kəsi diqqətlə izləmək və ətrafında baş verən hər şeydən xəbər tutmaq imkanı əldə etdi. Bir vaxtlar qürurlu olan zadəganlığın rolu kralın səhərlər geyinməsinə kömək etmək hüququnu əldə etmək üçün başqaları ilə deyişməyə müncər edilmişdi. Sarayda gizlicə bir guşəyə çəkilmək və təcrid olmaq mümkün deyildi. XIV Lüdovik könüllü təcrid olmağın kral üçün nə qədər təhlükəli olduğunu çox erkən başa düşmüşdü. Onun olmadığı vaxt sui-qəsdlər sanki yağışdan sonra çıxan gö-

naqlar bir nəfər kimi qara salona cumdular, qara maskanın uzun, düz selueti abnos ağacından hazırlanmış saatın kölgəsində donub qalmışdı, onlar özlərinin qəzəb və nəzakətsiz şəkildə sığındıqları məşum libasın və meyitəbənzər maskanın altında hiss edilən heç nəyin olmadığını aşkar etdikdə, onları sözlə ifadə edilə bilməyən, təsəvvürəgəlməz dəhşət bürüdü. Qırmızı Ölümün gəldiyi aydın oldu. O, gecə oğrusu kimi gəlmişdi. Qonaqlar bir-birinin ardınca qan çilənmiş şənlik salonuna yıxılır və qorxudan yıxıldıqları vəziyyətdə də ölürdülər. Abnos ağa-

cından hazırlanmış saatın ömrü də şənlik edən sonuncu adamın həyatı ilə birlikdə başa çatdı. Sacayaqların da alovu söndü. Həm Zülmət, həm Fanilik, həm də Qırmızı Ölüm hər şeyin üzərində hüdudsuz hakimiyyət əldə etdi.

Edqar Allan Po (1809–1849)

bələklər kimi artar, düşmənçilik və çəkişmələr yaradar və nəhayət, kral hər hansı tədbiri görməyə macal tapmamış üsyan qalxardı. Hadisələrin belə gedişatının qarşısını almaq üçün, sadəcə olaraq, nəinki ünsiyyəti və aşkarlığı genişləndirmək lazımdır, həm də onları dəqiq təşkil etmək və lazımi məcraya salmaq zəruridir.

Versal sarayında bu şərtə Lüdovikin hakimiyyətinin sonuna qədər əməl edildi, yəni əlli ilə yaxın dövr nisbi dinclik və rahatlıqla keçdi, bu müddət ərzində saray adamının sancağı döşəməyə düşəndə də kral onun səsini eşidirdi.

Tənhalıq fəzilətli adamlara da əlverişli olmayaraq, idrak üçün təhlükə yaradır. Xəlvəti guşəyə çəkilməyə can atan fanilik israfçıdır, ola bilsin ki, həm də mövhumatçı və ağılsızdır.

D-r Semyuel Conson (1709–1784)

HAKİMİYYƏTİN AÇARI

Makiavelli sübut edirdi ki, qala tikmək hərbi nöqteyi-nəzərdən labüd olaraq səhvdir. O, hakimiyyətin təcrid edilməsinin rəmzidir və onu tikənləri düşmən üçün aydın hədəfə çevirir. Müdafiə edilmək üçün nəzərdə tutulmuş qalalar, əslində bizi köməkdən ayrı salır və çeviklikdən məhrum edir. Onlar əlçatmaz görünə bilər, ancaq sizin onlardan birinə çəkilməyiniz kifayətdir ki, harada olmağınız hamıya bəlli olsun. Sizin qalanızı həbsxanaya

çevirmək üçün böyük hiyləgərlik lazım deyildir. Qalalar özlərinin qapalı, darısqal məkanı ilə yoluxucu xəstəliklərə münasibətdə olduqca zəifdir. Strateji mənada qalada təcrid olunmaq müdafiə yaratmayaraq, həll edilməsinə kömək etdiyi problemlərdən daha çox çətinliklər yaradır.

İnsan öz təbiəti etibarı ilə ictimai varlıq olduğundan, hakimiyyət sosial əlaqələrdən və qarşılıqlı hərəkətlərdən yaranır. Hakimiyyəti ələ keçirmək üçün siz, XIV Lüdovikin Versal sarayında etdiyi kimi, hadisələrin mərkəzində olmalısınız. Bütün hadisələr sizin ətrafınızda baş verməlidir, siz hər şeydən – küçələrdə nə baş verdiyindən, kimlərin sizin əleyhinizə təfriqə yarada biləcəyindən xəbərdar olmalısınız. İnsanların əksəriyyətinin fikrincə, təhlükə, kiminsə onları nə iləsə hədələdiyini hiss etdikdə yaranır. Bu zaman onlar geri çəkilməyə bu və ya digər qalada gizlənməyə çalışırlar. Ancaq onlar belə hərəkət edərək, getdikcə az informasiya alırlar və ətraflarında baş verənləri görmək və qiymətləndirmək imkanını itirirlər. Onlar manevr etmək qabiliyyətini əldən verir və asan qənimətə çevrilirlər, həm də ki, təcrid olunmaq onları şübhəli edir. Hərbi işdə və strateji oyunların çoxunda təcrid olunmaq məğlubiyyətə və məhvə gətirib çıxarır.

Qeyri-müəyyənlik və təhlükə anlarında, sizin öz gizlənmək arzularınıza üstün gəlməyiniz lazımdır. Bunun əvəzinə, köhnə əlaqələri bərpa edin və yenilərini yaradın, ən müxtəlif dairələrə daxil olun. Hakimiyyət adamlarının yüz illər boyu istifadə etdiyi hiyləgərlik bundan ibarətdir.

Roma dövlət xadimi Siseron məşhur nəsildən olmayan kiçik zadəgan ailəsində anadan olmuşdu və əgər o, şəhəri idarə edən elita sırasında yer tutmağa müstəqil nail olmasaydı, onun hakimiyyəti ələ almaq imkanı yox idi. O, bunu etdi və nüfuzlu adamları, sonra onlar arasındakı münasibətləri dəqiq müəyyən edərək, parlaq qələbəyə nail oldu. O, hər yerdə olurdu, hər kəslə tanış idi, onun elə çoxşaxəli əlaqələr şəbəkəsi var idi ki, istənilən düşməni asanlıqla dosta çevirə bilirdi.

Fransanın dövlət xadimi Taleyran da eynilə belə hərəkət edirdi. Fransanın çox qədim zadəgan nəslindən olmasına baxmayaraq, Taleyran Parisin küçələrində nə baş verdiyindən həmişə xəbər tutmağa çalışırdı və bu ona, baş verəcək hadisələri qabaqlamağa imkan verirdi. Taleyran hətta ona qiymətli məlumatlar toplayan, indi deyildiyi kimi, kriminal elementlərlə ünsiyyətdə olmaqdan özünəməxsus zövq alardı. Hər dəfə böhran yarandıqda və hakimiyyət əldən-ələ keçdikdə – Direktoriyanın axırı, Napoleonun iflası, XVIII Lüdovikin hakimiyyətdən əl çəkdiyi günlərdə – Taleyran nəinki sağ qaldı, həm də yüksəldi, çünki heç vaxt dar çərçivəyə qapanıb qalmır və həmişə yeni qayda-qanun nümayəndələri ilə əlaqə saxlayırdı.

Bu qanun krallar, kraliçalar və digər hökmdarlar üçün vacibdir: siz öz xalqınızla əlaqəni itirdiyiniz və öz təhlükəsizliyinizi təcrid olunmaqda axtardığınız andan qiyam yetişməyə başlayır. Heç vaxt özünüzü cəmiyyətin hətta ən aşağı təbəqələri ilə ünsiyyət saxlamağa etinasız yanaşmağa imkan verəcək dərəcədə yüksək tutmayın. Qalaya çəkilərək siz, təcrid olunmağınıza təhqir və üsyan üçün bəhanə kimi baxan sui-qəsdçilər üçün hədəfə çevrilərsiniz.

İnsanlar – sosial varlıq olduqlarından, ətrafdakılara əhəmiyyətli olmaq üçün daim onlarla birgə uğur qazana bilərlər. Siz insanlarla nə qədər çox ünsiyyətdə olarsınızsa, hər şeyə bir o qədər asan nail olarsınız. Təcrid olunmaq isə, sizə ciddi görkəm verir və adamlar sizinlə görüşməməyə başladığından, daha çox təcrid olunmağa gətirib çıxarır.

1545-ci ildə Mediçi sülaləsinin banisi I Kazimo Florensiyada San Lorenso məbədinə naxışlar vurmağı sifariş verərək, öz adını əbədiləşdirməyi qərara aldı. O, çoxlu sayda yaxşı rəssamlardan birini seçə bilərdi və nəticədə, Yakopo da Pontormo üzərində dayandı. Uzun illər boyu uğurlar qazanan Pontormo məbədin naxışlarının onun yaradıcılığının zirvəsi olmasını istəyirdi. Onun birinci arzusu gözəl sənət əsərinin yaranmasını heç kimin görməməsi və ya rəssamın ideyasının oğurlanmaması üçün məbədin bağlanması oldu. O, hətta Mikelancelonun özünü də içəri buraxmazdı. Hər şeylə maraqlanan gənclər məbədə soxulmaq istədikdə, Yakopo mühafizəni daha da gücləndirdi.

Pontormo məbədin tavanına Tövratdan olan səhnələri – Dünyanın yaranması, Adəm və Həvva, Nuhun tufanı və s. çəkdi. Mərkəzi divarın yuxarı hissəsinə İsa peyğəmbərin rəsmini, Axirət Günündə ölüləri qəbirdən oyadan vəziyyətdə əzəmətli görkəmdə işlədi. Rəssam demək olar ki, məbədi tərk etmədən on bir il işlədi, çünki onda insanlarla ünsiyyətdən qorxmaq və plagiatorların ondan oğurluq edəcəyi vahiməsi xəstəliyi yaranmışdı.

Pontormo işi başa çatdırmadan öldü, onun hazırladığı naxışlar işə yaramadı. Ancaq İntibah dövrünün böyük ədibi, Pontormonun dostu, rəssamın ölümündən sonra naxışları görmüş Vazari onların təsvirini vermişdir. Heç bir hədd-hüdud bilməmək onun işi üçün səciyyəvi idi. İşlənib hazırlanmış çoxlu rəsmlər üst-üstə qalaqlanıb qalmışdı, eyni səviyyəli çoxlu fiqur yan-yana qoyulmuşdu. Pontormo ayrı-ayrı hissələrə bəzək vurmağa aludə olmuş, ancaq ümumi kompozisiya hissini tamamilə itirmişdi. Vazari Pontormonun rəsmlərinin təsvirini yarımçıq saxlayaraq demişdir ki, əgər mən bu işi davam etdirməli olsaydım, «elə fikirləşirəm, mən dəli olar və həyatının on bir ilini öz yaratdıqları arasında keçirən Pontormonun başına gəldiyi kimi, bu rəsmlərin arasında dolaşıb qalardım, bu rəsmləri görən hər kəslə də bu baş verərdi». Bu iş onun yaradıcılığının zirvəsi olmaq əvəzinə, iflasına və məhvinə səbəb oldu.

Bu naxışları, təcrid olunmanın insan şüuruna təsirinin əyani nümunəsi hesab etmək olar: həddi və ölçü-biçini itirmə, ümumi mənzərəni görmək qabiliyyəti olmadan, ayrı-ayrı hissələri işləməyə aludə olmaq, əlaqənin itirilməsində ifadə olunan qəribə eybəcərlik yaradır. Aydındır ki, təcridolunma yaradıcılıq üçün olduğu kimi, ünsiyyət üçün də məhvedicidir.

İnsanların doğurduğu hakimiyyət, insanlarla ünsiyyətdən labüd olaraq qüvvət alır. Qala haqqında düşünmək əvəzinə, dünyaya aşağıdakı kimi baxın: o, hər otağı qonşu otaqlarla birləşmiş nəhəng Versal sarayı kimidir. Açıq olmaq, müxtəlif dairələrin ən müxtəlif nümayəndələri ilə qarışaraq, asanlıqla bu dairələrə daxil olmağı və onlardan çıxmağı öyrənmək lazımdır. Ünsiyyətdə bu cür çeviklik və səlislik sizi, öz fitnə-fəsadlarını gizlədə bilməyən bədxahlardan və öz tərəfdarlarınızdan təcrid etməyə müvəffəq olmayan ciddi düşmənlərinizdən müdafiə edəcəkdir. Həmişə hərəkətdə olaraq, siz heç vaxt bir yerdə uzun müddət oturmayaraq və lövbər salmayaraq, salondan-salona keçirsiniz. Heç bir ovçu sizi hədəfə ala və vura bilməz.

OBRAZ:

QALA

Təpənin zirvəsindəki istehkam qala – hakimiyyət üçün arzuolunmaz, nifrət oyadan hər şeyin rəmzidir. Şəhərlilər sizi elə birinci düşmənə təslim edərlər. Dünyadan təcrid olunmuş qala müqavimətsiz təslim olar.

MÖTƏBƏR FİKİR

«Özünün ədalətli və müdrik simasını saxlamağı arzulayan və oğlanlarının zülmkar hakim olmasına yol vermək istəməyən hökmdar, oğlanlarının müdafiə qalalarının gücünə deyil, təbəələrinin yaxşı iradəsinə arxalanması üçün qalalar tikməz».

Nikkolo Makiavelli

MEDALIN İÇ ÜZÜ

Demək olar ki, təcridolunma həmişə düzgün olmayan seçimdir. Siz ətrafınızda baş verənlərin hamısından xəbərdar olmadan, özünüzü müdafiə edə bilməzsiniz. Daima ünsiyyətin kömək edə bilmədiyi yeganə şey fikirdir. Razılığa gəlməyə və ətrafdakılardan uzaqda durmağın mümkünsüzlüyünə meylli olan ictimai fikir yükü, sizi ətrafınızda baş verənləri aydın düşünməyə imkan vermir. Bu halda təcridolma – müvəqqəti tədbir kimi – gələcəkdə sizə uğur qazanmağa kömək edər. Təcrid vəziyyətinə düşən bir çox mütəfəkkirlər belə olmuşlar. Makiavelli özünün «Hökmdar» əsərini yalnız Florensiyanın siyasi çəkişmələrindən uzaqda, sürgündə olmağının hesabına yazmışdır.

Ancaq bu tip təcridin mümkün olan hər cür eybəcər və pozğun ideyalar doğurması təhlükəsi də mövcuddur. Siz qalib gələ bilərsiniz, ancaq bu sizdə qəfildən öz imkanlarınızın qüdrətli və hüdudsuz olması hissiyyatı yaranması təhlükəsi doğurar. Bununla bərabər, siz nə qədər çox təcrid olunarsınızsa, bundan xilas olma bir o qədər çətin olur, siz bunu istədikdə isə, o, sizi tez və hissolunmadan yırğalanan qum kimi özünə çəkər. Əgər sizə düşünmək üçün vaxt lazımdırsa, özünütəcridetmədən, qısa müddətdə və az-az istifadə edin. Geriyə, cəmiyyətə açılan qapının bağlanmamasına ciddi fikir verin.

ON DOQQUZUNCU QANUN

KİMİNLƏ İŞ GÖRDÜYÜNÜ BİL: NARAZI SALINMASI MƏSLƏHƏT BİLİNMƏYƏN ADAMLARI İNCİTMƏ

QANUNUN MƏZMUNU

Dünyada bir-birindən fərqli olan müxtəlif cür insanlar vardır və eyni hala onların hamısının eyni cür münasibət bəsləyəcəyini gözləmək olmaz. Siz kiminsə qorxudur və ya ona kələk gəlirsinizsə, o, ömrünün axırına qədər sizdən intiqam almağa çalışacaqdır. Beləlari qoyun dərisi geyinmiş canavardır. Buna görə də, qurbanınızı və ya düşməninizi diqqətlə seçərək, narazı salınması lazım gəlməyən adama dəyib-dolaşmayın və incik salmayın.

OPPONENTLƏR, SADƏLÖVHLƏR VƏ QURBANLAR: İBTİDAİ TƏSNİFAT

Hakimiyyətə yüksəlmə prosesində sizə çoxlu sayda müxtəlif opponentlər, sadəlövhlər və qurbanlarla rastlaşmaq lazım gələcəkdir. İdarəetmənin ən yüksək forması – canavarı quzudan, tülkünü dovşandan, şahini quzğundan fərqləndirmək bacarığıdır. Əgər siz onları yaxşı fərqləndirirsinizsə, uğur qazanmaq üçün məcburiyyətdən və zorakılıqdan istifadə etmək tələb olunmur. Siz rastınıza çıxan şəxsin kimliyindən asılı olmayaraq, kor-korana onunla ünsiyyət qurarsınızsa, münasibətinizin davamiyyətinə baxmayaraq, bütün həyatınız boyu bunun acı peşmançılığını çəkəcəksiniz. İnsanların xüsusiyyətini müəyyən etmək və davranışlarını uyğunlaşdırmaq həyati vacib məsələdir. Cəngəllik sakinlərinin aşağıdakı müxtəlif xüsusiyyətli ən təhlükəli və mürəkkəb beş maraqlı tipi, göründükləri kimi – həm bacarıqlılıq, həm də dələduzluq qismində sadalanır.

Dəymədüşər və təkəbbürlü şəxs özünün bu xüsusiyyətini ilk anlar gizlədə bilsə də, ancaq ən zəif yeri olan şöhrətpərəstliyi onu çox təhlükəli edir. Özünə qarşı edilən azacıq hörmətsizlik və ya diqqətsizlik onda qarşısıalınmaz qəzəb və zorakılıq hisslərini coşdurub-daşdırır. Siz özünüzü inandıra bilərsiniz: «Bəli, mən axı hamının sərxoş ol-

Əlində qılınc olan döyüşçü ilə üz-üzə gəldikdə qılıncını qından çıxar: şair olmayana bəlağətlə şer oxuma.

Budda klassiklərindən nümunə, «Göy gurultusu» kitabından sitat

LOPE DE AGİRRENİN İNTİQAMI

(Lope de) Agirrenin xarakteri Qarsilaso de la Veqanın salnaməsində olan lətifələrdə olduqca əyani təsvir edilmişdir. Salnamədə xatırladılır ki, Agirre 1548-ci ildə hindu kölələri Potosi mədənlərindən (Boliviya) kral xəzinəsinə müşayiət edirdi. Qullara gücləri

çatmayan dərəcədə gümüş yükləmişdilər ki, bu da qanuna zidd idi. Yerli hakimiyyətin nümayəndəsi alkald Eskivel Agirreni həbs etdirdi və hindularla amansız davrandığına görə, onu iki yüz şallaq vurulmaq cəzasına məhkum etdi. Hökm elan edildikdə, əsgər Agirre, Alkaldı hədələyərək dedi ki, o, nəcib zadəgan nəslindən olduğu üçün onu şallaqlamayacaq, ancaq öldürəcək. Bütün bunlar Alkalda təsir etmədi və o, bədən cəzası verənlərə hökmü icra etməyi əmr etdi. Həbsxanaya gələn cəllad Agirreni skamyaya uzatdı... və o öz şallaq payını aldı. Agirre buraxıl-

duğu müsamirədə yalnız bunları dedim...» Bu mühüm deyil. Onun şişirdilmiş hərəkətində əsaslı səbəb yoxdur, buna görə də, nə baş verdiyini anlamağa vaxt itirməyin. Əgər siz işi aparan adamdan həddindən artıq dəymədüşərlilikdə və təkəbbürlülükdə şübhələnirsinizsə, ondan xoşagəlməz münasibəti görməmək üçün aradan çıxın.

Həddindən artıq inamsız şəxs haqqında bundan əvvəl bəhs etdiyimiz xüsusiyyətə malik olanlarla əlaqəlidir, ancaq özünü o qədər də gözə çarpdıran deyil və onu tanımaq çətindir. Onun mənliyi kövrəkdir, özünü şəxsiyyət kimi hiss etməsi zəifdir, əgər sıxışdırıldığını və ya ona hücum edildiyini hiss etsə, ağrı və incikliyini çətin saxlayır. O, kiçik sancmalarla, siz bu sancmaları duyana qədər, cavab verəcəkdir. Siz belə adamı aldatdığınızı və ya incik saldığınızı aşkar etdikdə, bir müddət gözdən uzaq olun. Ondan kənar durun – yoxsa o, sizi ölüncəyə qədər dişləyər.

Cənab Şübhəli şəxsin başqa variantı – gələcəyin İosif Stalinidir. O, ətrafındakılarda görmək istədiklərini həqiqət kimi görür – özü də, adətən pis variantda – və hamının onun əleyhinə olduğunu təsəvvür edir. Cənab Şübhəli, əslində üçlükdən ən az təhlükəli olandır: o, təbiətən qərarsızdır və onu Stalini daim aldatdıqları kimi aldatmaq olar. Onu başqalarının əleyhinə qaldırmaq və yönəltmək üçün təbiətən şübhəli olmasından istifadə edin.

Kinli ilan xüsusiyyətli şəxs aldadıldıqda və ya təhqir edildikdə öz qəzəbini və ya incikliyini zahirən göstərməyəcək, plan quracaq və gözləyəcək. Sonra kartları açmaq vaxtı gələndə, onun intiqamı soyuqqanlı və dəqiq olacaqdır. Bu adamı onun planlarına və hiyləgərliklərinə görə həyatın ən müxtəlif sahələrində tanımaq olar. Adətən o, soyuq və ehtirassızdır. Kinli ilanla ikiqat ehtiyatlı olun və əgər onun quyruğunu bilmədən tapdalasanız, ya onu öldürün, ya da aradan çıxın.

Sadə, yaxşıya-pisə baxmayan və fərasətsiz olan şəxs. Bu cür iştahalı şikarı gördükdə siz ovçu görkəmi alırsınız. Ancaq bü cür insanı aldatmaq gözlənildiyindən çox-çox çətindir. Siz bircə belə yağlı qurbanın marıtına yata bilsəydiniz! Tələyə çox vaxt ağıl və düşüncəyə malik olanlar düşür. Kütbeyin tələ yeminə ona görə toxunmur ki, sadəcə olaraq, onu görmür. O, bu dərəcədə sakit və laqeyddir. Onun təhlükəsi sizə zərər vurmaq və ya qisas almaq yolları axtarmasında yox, vaxtınızı, enerjinizi, ehtiyatlarınızı və hətta siz onu aldatmağa cəhd etdiyiniz müddətdə fikirlərinizi əlinizdən almasındadır. Yoxlama üçün testə – lətifə, hekayətə – hazır olsun. Əgər o, hər şeyi bütünlüklə hərfi mənada başa düşürsə, deməli, siz haqqında söhbət gedən xüsusiyyətli şəxslə qarşılaşmısınız. Onunla iş görüb-görməməyinizi özünüz həll etməlisiniz.

dıqda, ona cəza vermiş rəsmi şəxsi, Alkald Eskiveli öldürmək niyyətini elan etdi. Eskivelin xidmət müddəti qurtardı və o, üç min iki yüz liq məsafədə yerləşən Limaya getdi. Agirre iki həftəyə onu axtarıb tapdı. Qorxmuş hakim dörd min liq məsafə qət edərək Kitoya qaçdı, Agirre ora ancaq iyirmi gündən sonra gedib çıxdı. Eskivel onun gəlməsi haqqında eşidəndə – Qarsilaso belə yazırdı – yenidən səfərə çıxaraq beş min liq məsafədə yerləşən Kuskoya çatdı. Ancaq Agirre şallaqlanmış adamın atla getməsinin və ya tanışları ilə rastlaşa biləcəyi yerə yollanmasının ona

QANUNUN POZULMASI (1)

XIII əsrin əvvəllərində xarəzmşah Məhəmməd çoxsaylı müharibələrdən və döyüşlərdən sonra, bir ucu qərbdə müasir Türkiyəyə və cənubda Əfqanıstana qədər uzanan böyük imperiyanın əsasını qoydu. İmperiyanın mərkəzi Asiyanın böyük şəhəri Səmərqənd oldu. Şahın güclü döyüşkən ordusu var idi, cəmi bir neçə günün içərisində 200 mindən artıq döyüşçü toplaya bilərdi.

1219-cu ildə Məhəmmədin yanına Şərq köçərilərinin yeni başçısı Çingiz xanın elçiləri gəldilər. Elçilər böyük şaha, xanın hələlik o qədər də böyük olmayan, ancaq sürətlə böyüyən imperiyasının bütün yaxşı mallarından və sərvətindən mümkün olan gözəl hədiyyələr təqdim etdilər. Çingiz xan Avropaya gedən İpək Yolunu bərpa etmək istəyirdi və şaha iki imperiya arasında sülh yaratmaqla, bu yola birgə sahib olmağı təklif etdi.

Məhəmməd şah düşünürdü ki, özündən yüksək səviyyədə olan şahla bərabər tərzdə danışmağa cəsarət edən naməlum şərqli özündən bədgüman və lovğadır. Buna görə də o, xanın təklifini qulaqardına vurdu. Xan yaxşı münasibətlər yaratmağa təkrarən cəhd etdi: bu dəfə o, Çindən ələ keçirdiyi qeyri-adi mallar yüklənmiş dəvə karvanı göndərdi. Ancaq karvan Məhəmmədə çatmamış, Səmərqəndlə həmsərhəd olan əyalətin hakimi İnalçik onu ələ keçirdi, adamları isə edam etdi. Çingiz xan burada yanlışlıq olduğuna, İnalçikin Məhəmmədin xəbəri olmadan hərəkət etdiyinə əmin idi. O, şahın yanına yeni elçilər göndərərək öz təklifini təkrar etdi və əyalət hakiminin cəzalandırılmasını xahiş etdi. Bu dəfə Məhəmməd özü elçilərdən birinin başını vurmağı əmr etdi, digər ikisinə qarşı monqolların şərəf qaydalarına görə dəhşətli təhqir sayılan hərəkət etdi – başlarını qırxdırıb buraxdı. Xan şaha məktub göndərdi: «Sən müharibə yolunu seçdin. Nə olacaqsa qoy olsun, bunun nə olacağını biz bilmirik. Yalnız allahlar bilir». O, öz qüvvələrini səfərbər edib, 1220-ci ildə İnalçikin hakim olduğu əyalətə hücum etdi, paytaxtı ələ keçirdi, onu əsir aldı, gözlərinə və qulaqlarına əridilmiş gümüş tökərək, edam olunmasını əmr etdi.

Növbəti il xan, öz ordusundan xeyli üstün olan şahın ordusuna qarşı, müasir dillə desək, çoxsaylı partizan əməliyyatlarına başladı. Onun metodu o dövr üçün tamamilə yenilik idi – döyüşçülər çox sürətlə at çapmağı və yaydan ox atmağı, özü də yəhərdə oturaraq atmağı bacarırdılar. Qoşunların sürətli hərəkəti və yeni şəraitə çevik uyğunlaşma qabiliyyəti hesabına Çingiz xan Məhəmməd şahı həm öz məqsədlərində və həm də ordusunun hərəkət istiqamətində yanıldaraq Səmərqəndi mühasirəyə almağa, sonra isə ələ keçirməyə müvəffəq oldu. Məhəmməd qaçdı, bir il sonra isə öldü, onun böyük imperiyası parçalandı və dağıdıldı. Çingiz xan Səmərqəndin, İpək Yolunun və Şimali Asiyanın böyük hissəsinin təkbaşına hökmdarı oldu.

yaraşmayan hərəkət olmasını bildirərək, bir neçə gündən sonra piyada, ayaqyalın ora gəldi. Beləliklə, Agirre üç il dörd ay ərzində Alkaldı təqib etdi. Təqibin yorub əldən saldığı Eskivel Kusko şəhərində qaldı, bu şəhərdə sərt hakimiyyət olduğundan, o özünü Agirrenin təhlükəsindən azad hiss etdi. O, kilsənin yaxınlığında özünə ev aldı, qılınc və xəncərsiz heç vaxt evi tərk etmədi. Ancaq necə oldusa, bir dəfə – bazar ertəsi, günorta, Agirre onun evinə gəldi, bütün evi axtardı, dəhlizdən, qonaq və yataq otaqlarından keçdi, hakimin kitablarını saxladığı istirahət otağına girdi və Agirreni kitabların üstündə yatmış vəziyyətdə taparaq qılıncla onu öldürdü. Sonra qatil otaqdan çıxdı, evin çıxış qapılarına yanaşdıqda, şlyapasını yaddan çıxarıb içəridə qoyduğunu başa düşdü və özündə cəsarət tapıb geri qayıtdı, şlyapasını götürdü, sonra isə, küçəyə çıxıb uzaqlaşdı.

Uoker Çapman «Qızıl yuxu: Eldorado axtarıcıları» (1967)

İZAHI

Heç vaxt iş gördüyünüz adamın sizdən zəif və ya aşağı olması mövqeyindən çıxış etməyin. Bəzi adamlar barıt kimi partlamır və dərhal incimirlər, bunun üzündən siz onları qabırğası qalın hesab edə bilər və onları incik salmaqdan qorxmazsınız. Ancaq onların şərəf və ləyaqətinə toxunmağınız kifayətdir ki, sizi qəfil, həddindən artıq güclü və sizin sakit hesab etdiyiniz adamlar üçün gözlənilməz olan qəzəb atəşinə tutsunlar. Əgər siz, kiməsə yox cavabı vermək istəyirsinizsə, hətta sorğunun gülünc, təklifin isə mənasız olduğunu hiss etsəniz belə, ən yaxşısı bunu, mümkün qədər daha nəzakət və hörmətlə edin. Siz hələ kifayət qədər yaxşı tanımadığınız adamı heç vaxt incik salıb qapı arxasında qoymayın – bununla siz Çingiz xanla toqquşmuş olarsınız.

QANUNUN POZULMASI (2)

XX əsrdə – birinci onilliyin lap sonlarında, Amerikanın ən böyük dələduzları, mənzil-qərargahı Kolorado ştatının Denver şəhərində olan peşəkar təşkilatda birləşdilər. Qış aylarında onlar cənub ştatlarına gedərək öz peşələri ilə məşğul olurdular. 1920-ci ildə Texasda səfərdə olan təşkilatın lideri Co Fyuri klassik dələduzluq üsulları ilə yüz min dollarla pul qazandı. O, Fort-Vortedə C.Frank Norflit adlı sadəlövh bir adamla rastlaşdı. Heyvandarlıqla məşğul olan bu adam böyük bir rançın sahibi idi. Dələduzun vəd etdiyi sərvətin şirnikləndirdiyi Norflit bankdakı hesabındakı bütün pulları – orada 45 min dollar var idi – götürüb Fyuriyə və onun köməkçilərinə verdi. Bir neçə gündən sonra onlar Norflitə «milyonlar» qaytardılar, yoxlama zamanı məlum oldu ki, onlar «oyuncaqdır – saxtadır»: dollar əsginazı ölçüsündə qəzet kağızından kəsilmiş qalın dəstənin üstünə və altına həqiqi dollar qoyulmuşdu.

Fyuri və onun adamları bu tryuku yüz dəfələrlə etmişdi və aldadılmış müştəri adətən öz sadəlövhlüyündən o dərəcədə sarsılırdı ki, ona verilən dərsi itaətkarlıqla qəbul edir və pulun itirilməsi ilə barışırdı. Ancaq Norflit başqa sadəlövhlərə bənzəmirdi. O, polisə müraciət etdi, burada ona pulun geri qaytarılmasına, demək olar ki, heç bir ümid olmadığını bildirdilər. Belə olduqda, Norflit detektivlərə dedi: «Onda mən özüm onları, buna hətta bütün qalan ömrümü də sərf etməli olsam, tapacağam». Norflit ölkəni gəzib, özü kimi dələduzların qurbanı olanları axtardığı müddətdə, rançın bütün qayğılarını arvadı öz üzərinə götürdü. O özü kimi aldadılmış bir adam tapdı və onlar birgə San-Fransiskoda dələduzlardan birini tanıdılar. Onlar hətta dələduzu məhkəməyə cəlb etməyə müvəffəq oldular. Həmin adam intihar etməyi uzun müddətli həbs cəzasından üstün tutaraq, özünü öldürdü.

Norflit işini davam etdirdi. O, ikinci dələduzu Montanada izləyib tutdu, buzov kimi əl-qolunu ipə bağlayıb palçıqlı küçələrlə şəhər həbsxanasına qədər sürüdü. Co Fyurini və onun sağ əli V.B.Spenseri tapmaq üçün o, təkcə bütün ölkəni səyahət etmədi, həm də İngiltərə, Kanada və Meksikaya getdi. Spenseri Monrealda görən Norflit küçə ilə onun ardınca qaçdı. Spenser aradan çıxaraq gizlənə bildi, ancaq Norflit izi itirmədi və onu Solt-Leykflitdə yaxaladı. Spenser qanunun verəcəyi cəzanı Norflitin divan tutmasından üstün bilərək, məhkəməyə gəlib təqsirini etiraf etdi.

Norflit Fyurini Florida ştatının Ceksonvill şəhərciyində aşkar etdi, öz əli ilə onu Texasa gətirib ədalət mühakiməsinin əlinə verdi. Ancaq o, bununla kifayətlənmədi: bütün təşkilatı məhv etməyi düşünərək Denverə qədər gedib çıxdı. O, dələduzları izləməyə təkcə böyük məbləğdə pul deyil, həm də həyatının daha bir ilini sərf edərək, cinayətkar təşkilatın bütün rəhbərlərinin barmaqlıq arxasına salınmasına nail oldu. Hətta onun ələ keçirə bilmədiyi dələduzlar o dərəcədə qorxmuşdular ki, özləri gəlib təqsirlərini boyunlarına aldılar.

Norflit ölkədə çox böyük dələduz dəstəsini beş il ərzində təkbaşına məhv etdi. Nəticədə o müflisləşdi, ailəsi dağıldı, ancaq o, xoşbəxt insan kimi öldü.

İZAHI

Dələduzluğun qurbanı olan bir çox adamlar, bir qayda olaraq, aldandıqlarına görə, mütilik, təhqir olunmaq hissləri keçirirlər. Onlar pulsuz nahar verilmədiyini dərk edərək, ibrət dərsi alırlar, əslində öz acgözlüklərinin qurbanı olurlar. Ancaq bəziləri bu həbi udmaq istəmirlər. Onlar özlərinin açıqürəkli və ya acgözlüyü barədə fikirləşməkdən imtina edərək, özlərini yalnız təqsirsiz qurban hesab edirlər.

Bu növ insanlar ədalət və şərəf uğrunda səlib yürüşlərinin iştirakçısı kimi görünürlər, ancaq əslində onlar özlərində çox güclü inamsızlıq hiss edirlər. Bu, aldanılanların, tovlananların özünə inamını daha da sarsıtdığından, onlar düşünmədən, vəziyyəti düzəltmək üçün hücuma keçmişlər. Norflitin intiqamı rançını itirməsinin, ailəsinin dağılmasının, ucuz mehmanxanalarda çoxillik sərgərdanlığının, sərf edilmiş pulların verdiyi sarsıntıya dəyərmi? Bu dünyanın norflitləri sarşılmış daxili dünyalarını xilas etmək üçün heç bir qiymətə məhəl qoymurlar.

Bütün insanlar inamsızlıq hissi keçirirlər və sadəlövhü aldatmağın, çox vaxt ən yaxşı üsulu, onun bu hissindən istifadə etməkdir. Ancaq hakimiyyət dünyasında hər şey nisbidir və özünə daha çox inamsız olan insan adi insanlardan daha ciddi təhlükə doğurur. Ehtiyatlı olun: əgər siz aldatmanın istənilən formasından və ya hiyləgərlik növündən istifadə edirsinizsə, seçdiyiniz obyekti diqqətlə öyrənin. İnamsız, daha kövrək mənliyə malik olan insanlar, azacıq da olsa, incikliyə dözmürlər. Siz məhz belə insanla iş gördüyünüzü başa düşmək istəyirsinizsə, onunla belə bir testi yoxlayın: məsələn, onunla ehtiyatla zarafat edin. Bu zaman özünə inamlı adam güləcəkdir,

özünə inamsız adam elə münasibət göstərəcəkdir ki, sanki onu möhkəm incik salıblar. Əgər siz obyektinizin axırıncı xüsusiyyətli şəxslərə aid olduğunu hiss edərsinizsə, özünüzə başqa qurban seçin.

QANUNUN POZULMASI (3)

Eramızdan əvvəl V əsrdə Çinin Çen çarlığının şahzadəsi Szyun Er mühacirətə getməyə məcbur oldu. O, kasıbçılıq içində yaşayır, nə vaxt vətənə qayıdacağını və şahzadəyə layiq həyat keçirəcəyini səbirsizliklə gözləyirdi. Günlərin birində onun yolu başqa əyalətə düşdü, bu əyalətin hökmdarı qarşısındakı adamın kim olduğunu bilməyərək, onunla kobud rəftar etdi. Hökmdarın müşaviri Şu Çan bunu görüb dedi: «Bu adam adlı-sanlı şahzadədir. Əlahəzrət hökmdar, siz onu böyük hörmətlə qəbul edin, o, minnətdarlıq hissi keçirəcəkdir!» Ancaq hökmdar qarşısındakı şahzadəni pis vəziyyətdə gördüyündən, ona həqarətlə baxdı, müşavirin məsləhətinə qulaq asmayaraq, şahzadəni təhqir etməkdə davam etdi. Şu Çan yenidən öz hökmdarını çəkindirdi: «Əgər hökmdar həzrətləri Szyun Erlə nəzakətlə davranmaq istəmirsə, gələcək faciədən xilas olmaq üçün onun edam edilməsini əmr etməsi məsləhətdir». Hökmdar əllərini yelləməklə kifayətləndi.

İllər keçdikdən sonra şahzadə vətənə qayıdaraq, özünün bütün hüquqlarını bərpa etdi. O, pis günlərində ona qarşı xeyirxah olanları və təhqir edənləri unutmamışdı: onunla hamıdan pis davranmış hökmdarı xatırlayaraq, əlinə düşən birinci imkandan istifadə edərək, böyük qoşun topladı, həmin hökmdarın ölkəsinə doğru hərəkət etdi, şəhəri tutdu və onu sürgünə göndərdi.

İZAHI

Kiminlə iş gördüyünü bəlkə də heç vaxt bilmək olmaz. Bu gün adi vəzifə tutan insan sabah nüfuzlu şəxs ola

bilər. Biz həyatımızda çox şeyi unuduruq, ancaq incikliyi nadir hallarda yaddan çıxarırıq.

Hökmdar haradan biləydi ki, şahzadə Szyun Er iddialı, ehtiyatlı, hiyləgər, kinli ilandır? Siz deyəcəksiniz ki, bunu bilmək üçün üsul yox idi, onda ən yaxşısı taleyinizlə oyun oynamamaq deyilmi? Kimsəni məqsədsiz incik salmaqla heç nəyə nail olmaq mümkün deyil. Özünüzün təhqir etmək arzunuzu, hətta qarşınızdakı çox zəif olsa belə, boğun. Məmnunluq heç vaxt təhlükə ilə müqayisə edilə bilməz, gözəl günlərin birində incik saldığınız adam sizə cavab vermək iqtidarında olacaqdır. Bunu yadda saxlayın.

QANUNUN POZULMASI (4)

1920-ci il Amerikanın incəsənət əsərləri tacirləri üçün xüsusilə uğursuz oldu. İri alıcılar – XIX əsrin cinayət dünyasının baronlar nəsli – müəyyən yaş həddinə çataraq, milçək kimi qırılırdılar, yeni bankirlər isə onların yerini tutmağa tələsmirdilər. İş elə pis vəziyyətə gəlib çıxdı ki, ən böyük peşəkarlar birləşməyi qərara aldılar – bu adamlar adi vaxtlarda itlə pişik kimi yola getdiklərindən, onların birləşmələri görünməmiş hadisə idi.

Amerikanın varlı işbazlarına rəsmlər satan Cozef Dyüvin həmin il öz həmkarlarından daha artıq ziyan çəkdi, buna görə də, birliyə daxil olmağı qərara aldı. Qrupa ölkənin artıq beş böyük rəsm ticarətçisi daxil idi. Yeni müştəri tapmaq üçün axtarış edərək, onlar son ümidlərini həmin dövrdə ölkənin ən varlı adamı olan Henri Forda bağlamaq qərarına gəldilər. Ford incəsənət əsərləri bazarı ilə hələ bundan sonra tanış olmalı idi, hədəf o qədər böyük idi ki, onu ələ keçirmək üçün birgə fəaliyyət göstərməyə dəyərdi.

«Dünyanın 100 böyük kətan rəsmi»nin siyahısını tərtib etmək (xoşbəxtlikdən onlar hamısı bazarda var idi) və onlardan bəzilərini Forda təklif etmək qərara alındı. Hətta bir rəsm alsaydı belə, o özünü çox böyük kolleksiyaçılarla bir sıraya qoymuş olurdu. «Konsorsium» həftələrlə işlədi və çox gözəl, heyrət ediləcək reproduksiyaları və hər rəsmin ciddi incəsənət şərhi verilmiş üç cildlik albomunu yaratdı. Növbəti addım Fordun Miçiqan ştatının Diaborn şəhərindəki evinə səfər oldu. Evin bəzəyinin sadəliyi ticarətçiləri heyrətə saldı: görünür ki, mister Ford üçün zahiri səmərəlilik tamamilə əhəmiyyətsiz idi.

Ford onları kabinetində qəbul etdi. O, kitablara heyranlıqla baxdı və vəcdə gəldi. Ümidləndirilmiş tacirlərin fikri tezliklə özlərinin seyflərinə axıb gələcək milyonlarla dolların yanında idi. Ancaq Ford kitablarla tanışlığı qurtardıqdan sonra dedi: «Centlmenlər, bu cür rəngli illüstrasiyaları olan belə gözəl kitab qiymətlidir və həddindən artıq baha olmalıdır!» – «Mister Ford! – deyə Dyüvin ucadan dilləndi: – Ancaq biz bu kitabları almağı sizə təklif etmirik. Biz onları sizə göstərmək üçün xüsusi hazırlamışıq. Bu kitablar bizim sizə hədiyyəmizdir». Ford özünü itirmiş kimi göründü. O dedi: «Centlmenlər, bu, sizin tərəfinizdən fövqəladə nəzakətdir, mən sadəcə olaraq, belə çox gözəl, qiymətli hədiyyəni yad adamlardan necə qəbul edəcəyimi təsəvvür etmirəm». Dyüvin Forda izah etdi ki, reproduksiyalarda tablolar təsvir edilmişdir, onların əslini isə ona satmağa ümid edirlər. Ford nəhayət ki, vəziyyəti başa düşdü. O, ucadan dedi: «Centlmenlər! Madam ki, rəsmlər burada kitabda var, onda onların əsli mənim nəyimə lazımdır, belə yaxşı deyilmi?»

İZAHI

Cozef Dyüvin öz qurbanlarını və müştərilərini əvvəlcədən hərtərəfli öyrənmək, onların zəif yerləri və zövqlərinin incə cəhətləri barədə hələ onlarla görüşməzdən əvvəl məlumat əldə etmək bacarığı ilə məşhur idi. Ağır şərait onu Henri Fordla olan halda bu taktikanı nəzərə almamağa məcbur etdi. Bu mənəvi və maddi zərbədən tamamilə özünə gəlməsi

üçün ona aylarla vaxt lazım gəldi. Ford aza qane olan sadə adam idi, buna görə, onu işə cəlb etməyə dəyməzdi. O, hərfi mənada və birbaşa mühakimə yürüdən, hətta özünün aldadılmasını təsəvvür etməyən sadəlövhün təcəssümü idi. Həmin vaxtdan Dyüvin öz səylərini yalnız dünyada Mellon və Morqanlar kimi müştərilərə – onun tələsinə düşmələri üçün kifayət qədər hiyləgər və məharətli adamlara qarşı yönəltdi.

HAKİMİYYƏTİN AÇARI

Adamları qiymətləndirmək və kimlə münasibətdə olduğunu başa düşmək – hakimiyyəti qüvvətləndirmək və əldə saxlamaq üçün zəruri olan bütün vərdişlərin ən mühümüdür. İstənilən hərəkəti etməzdən, addımı atmazdan əvvəl özünüzün potensial tərəfdaşınızı və ya hədəfinizi öyrənin və qiymətləndirin. Əks halda siz vaxtınızı hədər itirər və səhvlər edərsiniz. Adamların zəif cəhətlərini öyrənin, onların zirehindəki çatları tapın, onların nə ilə qürrələndiklərini və nədən utandıqlarını aydınlaşdırın. İş görməyi qət etməzdən əvvəl onları mükəmməl, hərtərəfli öyrənin.

İki xəbərdarlığa diqqət yetirin. Birincisi, öz rəqibləriniz haqqında mühakimə yürüdərkən və onları qiymətləndirərkən, heç vaxt öz instinktinizə əsaslanmayın. Siz belə qeyri-dəqiq indikatora etibar edərək, kobud səhvlər buraxa bilərsiniz. Konkret faktlar məcmusunu heç nə ilə əvəz etmək olmaz. Nə qədər vaxt tələb etməsindən asılı olmayaraq, rəqiblərinizi izləyin, onları öyrənin. Nəticədə, bu, özünü doğruldacaq.

İkincisi, zahiri cəhətlərə, görünüşə heç vaxt etibar etməyin. İlan təbiətli insan öz iç üzünü gizlətmək üçün yaxşı adam cildinə girə bilər. Zahirən qorxunc olan adam, çox vaxt qorxaq olur. Zahiri pərdənin altında olanları görməyi və belə ziddiyyətləri aşkar etməyi öyrənin. İnsanın özünün təklif etdiyi versiyaya etibar etməyin – o, həddindən artıq tez-tez, həqiqətlə üst-üstə düşmür.

OBRAZ:

OVÇU

O, tülkü və canavar üçün tək-tək tələ qurmur. O, heç nəyin düşə bilməyəcəyi yerdə tələ qoymur. O öz ovunu, onun vərdişlərini, getdiyi cığırları mükəmməl bilir və uğurla ovlayır.

MÖTƏBƏR FİKİR

«Qəti bilmək lazımdır ki, tamamilə əhəmiyyətsiz və diqqət yetirilməyə layiq olmayan adamlar yoxdur. Tədricən onları özünüz üçün faydalı etmək lazımdır. Əgər bir dəfə etinasızlıq göstərsəniz, onlar, şübhəsiz, sizə faydalı olan işlər görməyəcəklər. Səhvlərin üstündən asanlıqla keçilsə də, etinasızlıq heç vaxt bağışlanmır. İnsan qüruru bu cür şeyləri həmişəlik yadda saxlayır.»

Lord Çesterfild (1694–1773)

MEDALIN İÇ ÜZÜ

Adamları tanıya bilməməkdən nə fayda götürmək olar? Şiri quzudan fərqləndirməyi öyrənmək lazımdır, yoxsa həyatınızla cavab verməli olarsınız. Bu qanuna bütün dolğunluğu ilə riayət edin. Onun əks tərəfi yoxdur – hətta belə hallar tapmağa səy etməyin.

İYİRMİNCİ QANUN

HEÇ KİMLƏ BİRLƏŞMƏ

QANUNUN MƏZMUNU

Yalnız axmaqlar tərəflərdən birinə qoşulmağa tələsər. Özünüzü özünüzdən başqa heç kimə etibar etməyin, əl-qolunuzu öhdəliklərlə bağlamayın. Müstəqilliyinizi saxlayaraq, adamları bir-biri ilə toqquşmağa yönəltməklə, onları öz ardınızca getməyə məcbur edin. Bununla siz hökmranlıq etmək imkanı əldə edə bilərsiniz.

I HİSSƏ. HEÇ KİMƏ QOŞULMA, ÖZ MÖVQEYİNİ ÖYRƏNMƏYƏ HEÇ KİMƏ İMKAN VERMƏ

İnsanların sərəncam vermək imkanlarının olmasını hiss etməyə şərait yaratsanız, onların üzərində hər cür hakimiyyəti itirərsiniz. Sizin mövqeyinizi bilmədikdə, onlar bunu öyrənməyə ikiqat səylə çalışacaqlar. Kənarda dayanmaqla siz onların diqqətinin yaratdığı hakimiyyəti əldə edəcəksiniz. Bakirə kraliçaya bənzəyin: pərəstişkarlarınıza ümid verməklə kifayətlənin, onları məmnun etməyə tələsməyin.

QANUNA RİAYƏT EDİLMƏSİ

Kraliça I Yelizaveta 1558-ci ildə İngiltərənin taxt-tacına çıxdıqda, fəal şəkildə ona ər axtarışı başlandı. Məsələ parlamentdə müzakirə edilirdi, mənşəyindən asılı olmayaraq bütün ingilislər bu barədə fikir yürüdürdülər, hamı kraliçanın mümkün qədər tez ərə getməsi və dünyaya varis gətirməsi barədə yekdil fikirdə idi. Ərə getmək haqqında mübahisələr illərlə uzandı. Ölkənin ən cəlbedici və ləyaqətli subaylarından ser Rober Dadli, qraf Esseks, ser Uolter Reyli – Yelizavetanın məhəbbətini qazanmağa çalışırdılar. O, namizədlərini ümiddən məhrum etmirdi, ancaq eyni zamanda tələsmirdi, namizədlərin hansının xoşbəxt olacağı barədə onun eyhamları çox vaxt ziddiyyətli olurdu. 1566-cı ildə parlament Yelizavetanın yanına nümayəndə heyəti göndərərək, onu, nə qədər ki, uşaq dünyaya gətirmək yaşı ötməyib, ərə getməyə tələsdirdi. O, mübahisə etmədi, imtina etməklə elçiləri məyus da etmədi, ancaq bununla belə, yenə də ərə getmirdi.

Yelizavetanın apardığı nəzakətli oyun tədricən onu ehtiras, seksual xəyallar predmetinə və pərəstiş obyektinə çevirdi. Saray həkimi Saymon Forman gündəliyinə yuxularında kraliçanın bakirəliyini aldığını yazırdı. Rəssamlar onu Diana və digər ila-

hələr şəklində təsvir edirdilər. Şair Edmund Spenser, eləcə də başqaları bakirə kraliçaya mədhiyyələr qoşurdular. Bu mədhiyyələrdə o, kainatı və ulduzların hərəkətini idarə edən «dünya imperatriçası», «müdrik qız» adlandırılırdı. Kişi cinsindən olan bir çox qonaqlar onunla söhbət zamanı, o qədər də incə olmayan seksual eyhamlar vurmağa cəsarət edirdilər, ancaq Yelizaveta onları dayandırmırdı. Kraliça onların marağını coşdurmaq və bu zaman onları uzaqda saxlamaq üçün bacardığı hər şeyi edirdi.

Bütün Avropada krallar və şahzadələr başa düşürdülər ki, Yelizaveta ilə nikaha girmək İngiltərə ilə müttəfiq olmaq deməkdir. İspaniya kralı, eləcə də İsveç şahzadəsi Avstriya ershersoqu ona elçi göndərdi. Kraliça onların hamısının təklifindən nəzakətlə imtina etdi.

Yelizavetanın hökmranlıq etdiyi bu dövrdə İspaniyaya məxsus olan Flamandiyada və holland Niderlandındakı üsyanlar diplomatiya üçün mühüm problem yaradırdı. İngiltərəyə İspaniya ilə ittifaqını pozmaq və Fransanı qitədə əsas müttəfiq kimi seçmək, bununla Flamandiya və Hollandiyanın müstəqillik almasına kömək etmək niyyətində idi. 1570-ci ildə İngiltərə üçün Fransa ilə ittifaqın ən ağıllı variant olması təəssüratı yarandı. Fransada kraliça ilə ailə qurmaq üçün ləyaqətli, əsil-nəcabəti olan iki namizəd var idi – Fransa kralının qardaşları – hersoq Anjuyski və Alansoyski. Yelizaveta onlardan birinə ərə gedəcəkdimi? Onlardan hər birinin öz üstünlükləri var idi və Yelizaveta onların ümidlərini qırmırdı. Məsələ illərlə həll edilməmiş qaldı. Hersoq Anjuyski İngiltərəyə çoxsaylı səfərlər edir, adamların yanında Yelizavetanı öpür, hətta onu incə nəvazişli ləqəblərlə çağırırdı. Elə görünürdü, kraliçanın ona münasibəti qarşılıqlıdır.

Kraliça qardaşlarla eşqbazlıq etdiyi müddətdə Fransa və İngiltərənin ittifaqını möhkəmləndirən müqavilə imzalandı. 1582-ci ildə Yelizaveta qardaşlara diqqət göstərməyi dayandırdı. O, bunu xüsusən hersoq Anjuyskiyə münasibətdə böyük

asanlıqla etdi: diplomatik məsələlərin həlli naminə, o, fiziki cəhətdən onun üçün xoşagəlməz olan, bir yerdə olmalarına çətinliklə dözdüyü adamı əyləndirməli olmuşdu. Fransa və İngiltərə arasında yaranmış sülh təhlükədən kənar olan kimi, o, ət-tökən hersoqu mümkün qədər nəzakətlə rədd etdi.

Bu zaman, uşaq dünyaya gətirməsi üçün Yelizaveta həddindən artıq yaşlı olduğundan, həyatının qalan hissəsini istədiyi kimi yaşaya bilərdi və bakirə kraliça kimi dünyadan köçməyə üstünlük verdi. O özündən sonra birbaşa varis qoymadı, ancaq onun hakimiyyəti dövründə sülh bərqərar oldu və ölkədə mədəniyyətin inkişafı üçün xeyli iş gördü.

İZAHI

Yelizavetanın ərə getməməyinin əsaslı səbəbləri var idi: o, qohumu, Şotlandiya kraliçası Mariyanın səhvlərinin şahidi olmuşdu. Özlərini qadının idarə etməsi fikrini yaxına buraxmayan şotlandlar Mariyanın ərə getməsini istəyirdilər və bunu ağılla etdilər. Ancaq ər olaraq əcnəbinin seçilməsini hamı başa düşməzdi. Zadəgan ailələrindən birini şərəfləndirmək lazım idimi? Lakin bu, dəhşətli rəqabət yaradardı. Nəhayət, Mariya öz seçimində – katolik, lord Darnley üzərində dayandı ki, bu da Şotlandiya protestantlarının qəzəbinə səbəb olmaqla, çoxlu iğtişaşlar yaratdı.

Yelizaveta bilirdi ki, nikah çox vaxt qadın hökmdarların məhvinə gətirib çıxarır: ərə gedən və ya hər hansı bir partiya və ya millətlə ittifaq bağlayan kraliça, öz istəyi olmadan da, münaqişələrə cəlb oluna bilinir ki, bunlar da, onu gec-tez kəməndə salır və ya mənasız müharibələrə gətirib çıxarır. Bu zaman ər, faktik hökmdara çevrilir və çox vaxt, Mariyadan xilas olmağa çalışan Darnleyin etdiyi kimi, kraliça arvadını məhv etməyə çalışır. Yelizaveta çox gözəl ibrət dərsi almışdı. Hökmdar kimi onun iki məqsədi var idi: nikahdan və müharibələr-

dən yaxa qurtarmaq. O, ətrafdakıları manipulyasiya etmək üçün ağlagəlməyən cəsarət nümayiş etdirərək, bu məqsədləri birləşdirməyə nail oldu. O evlənmək istəyən namizədlərdən birinin təklifini qəbul etsəydi, elə həmin vaxt hakimiyyətdən məhrum ola bilərdi. O özünü müəmma şəfəqi ilə əhatə etməli, heç vaxt heç kimin ümidlərini qırmayaraq, ancaq heç vaxt da güzəştə getməyərək arzu edilən şəxs oldu.

Uzun müddət davam edən naz-qəmzə və təkəbbür oyunu ərzində, Yelizavetanı ələ keçirmək istəyən kişilərin arzuları ürəyində qaldı. O, diqqət mərkəzində idi və hakimiyyət onun əlində cəmlənmişdi. Yelizaveta öz müstəqilliyini qoruyaraq, hakimiyyəti əlində saxladı və hamının pərəstiş obyektinə çevrildi.

Mən ərsiz kasıb olmağı, ərli kraliça olmaqdan üstün tutardım.

I Yelizaveta (1533–1603)

HAKİMİYYƏTİN AÇARI

Hakimiyyət fövqəladə dərəcədə çoxcəhətli olduğundan, imicinizi yaxşılaşdıran üsulları öyrənmək lazımdır. Belə üsullardan biri – ayrı-ayrı adamların qruplaşmalarında və ittifaqlarında iştirakdan imtina etməkdir. Özünüzü kənarda saxlamaqla, siz əsəbilik deyil, özünəməxsus hörmət doğurarsınız. Siz qrupların və ya qohumların təsirinə qapılan əksər adamlara qarşı mübarizədə ələ keçməməyinizin hesabına daim güclü və hökmlü görünərsiniz. Hakimiyyətin bu aurası tədricən güclənir: sizin müstəqil adam ad-sanınız getdikcə artar və buna uyğun olaraq, daha çox sayda adam sizə ehtiyac duymağa başlayar, sizi öz tərəfinə çəkməyə nail olan adamlardan biri olmağa can atar. Arzu virus kimidir: əgər biz ətrafdakıların kiməsə can atdığını görürüksə, həmin şəxs bizim gözlərimizdə də cazibədarlıq qazanır.

Kiməsə üstünlük verdiyiniz an, barənizdəki ovsun dağılıb gedir. Siz hamı kimi adi adama çevrilirsiniz. İnsanlar sizi öz tərəflərinə çəkmək üçün istənilən hiyləgər üsulları tətbiq etməyə başlayacaqlar: hədiyyələr verəcək, çoxsaylı xidmətlər göstərəcəklər – bütün bunlar, özünüzün onlara borclu olduğunuzu hiss etməyiniz üçündür. Sizə göstərilən diqqətə görə təşəkkür edin, onları şirnikləndirin, ancaq maraqlarını təmin edin, heç kimə qoşulmayın. Siz onların hədiyyələrini və xidmətlərini qəbul edin, ancaq özünüzün daxili bitərəfliyinizi diqqətlə qoruyun, kiməsə daxilən borclu hiss etməyə, özünüzə imkan verməməlisiniz.

Ancaq yadda saxlayın: sizin məqsədiniz hamıdan ayrılmaq və ya səmərəli əməkdaşlıq etməyə qabiliyyəti olmayan kimi görünmək deyildir. Kraliça Yelizaveta kimi, siz xörəyi isti saxlamalı, maraq oyatmalı, adamları sizinlə əlaqə saxlaya bilmək imkanı ilə əyləndirməli, bəzən də həddi aşmamaqla, onlara güzəştə getməyi bacarmalısınız.

Yunan hərbçisi və dövlət xadimi Alkiviad bu oyunu mükəmməl mənimsəmişdi. E.ə. 414-cü ildə Siciliyaya hücum etmiş Afina donanmasına məhz o, başçılıq etmişdi. Afinada paxıllar ona qarşı ittiham uydurараq, böhtan atmağa cəhd etdikdə, o, vətəndə məhkəmə qarşısında durmaq əvəzinə, düşməndən – spartalılardan sığınacaq istədi. Sonralar afinalılar Sirakuz yaxınlığında darmadağın edildikdə, həmin dövrdə Sparta çiçəklənmə dövrünü yaşamasına baxmayaraq, Alkiviad Spartadan İrana getdi. İndi artıq həm afinalılar, həm də spartalılar Alkiviadın İrandakı nüfuzuna görə, onun rəğbətini qazanmağa çalışırdılar, farslar isə, Afina və Spartaya təsirinə görə onu böyük hörmət və şan-şövkətə layiq görürdülər. O, hər iki tərəfə vədlər verir, ancaq heç birini xüsusi fərqləndirmirdi. Buna görə də, həyatının sonunadək bütün üstünlüklərini, əlçatmazlığını qoruyub saxladı.

Əgər siz hakimiyyət və nüfuz qazanmağa can atırsınızsa, Alkiviadın taktikasını təcrübədə yoxlayın: hakimiyyət uğrunda mübarizə aparanların arasında mövqe tutun. Bir tərəfə öz köməyinizi vəd edin. Həmişə rəqibi üstələməyə can atan digər tərəf də sizi əldən verməməyə çalışacaq. Tərəflərdən hər birinin sizin köməyinizi araması, sizə nüfuzlu və arzulanan şəxs görkəmi verir. Belə olduqda, siz tərəflərdən birinə qoşulduğunuzdan, artıq hakimiyyət əldə edərsiniz. Bu taktikanı mükəmməl şəklə gətirmək üçün özünüzə diqqətlə nəzarət etməyiniz və vəziyyətin emosional cəhətdən mürəkkəbləşməsinə yol verməməyiniz, ətrafdakıların isə, sizin zirvəni fəth etməyinizə piyada kimi baxması zəruridir. Heç bir halda, ən vacib ehtiyaclar olmadan, sizə nökər kimi müraciət edilməsinə imkan verməyin.

ABŞ-da 1968-ci il prezident seçkilərinin qızğın çağında Henri Kissincer telefonla Riçard Niksonun komandası ilə əlaqə saxladı. Kissincer əvvəllər kifayət qədər səs toplayıb respublikaçılar partiyasından namizədliyi keçməyən Nelson Rokfellerlə bağlı idi. İndi Kissincer Niksonun tərəfdarlarına Vyetnama dair Parisdə aparılan sülh danışıqları üzrə qiymətli məxfi informasiya təklif edirdi. Onun danışıqlarda öz adamı var idi, o, hadisələrin gedişi barədə operativ məlumat verirdi. Niksonun adamları onun təklifini sevinclə qarşıladılar.

Ancaq eyni zamanda, Kissincer demokratlar partiyasından olan namizəd Xyubert Xamfriyə öz köməyini təklif edərək, onunla da yaxınlaşmağa yol axtarırdı. Xamfrinin komandası ondan Nikson haqqında məxfi məlumatlar almaq istəyirdi və Kissincer onları verirdi. O, Xamfrinin adamlarına deyirdi: «Görürsünüzmü, mən heç də həmişə Niksonun hərəkətlərinə dözə bilmirəm». Əslində isə, o, tərəflərdən heç biri ilə bağlı deyildi. Həqiqətdə o öz məqsədinə can atırdı və nəticədə buna – hər iki namizəddən yüksək vəzifə tutmaq təminatı almağa – nail oldu: Seçkilərdə kimin qalib gəlməsindən asılı olmayaraq, Kissincerin karyerası təmin edilmişdi.

Aydındır ki, Nikson qalib gəldi və Kissincer prezident aparatında vəzifəyə təyin olundu. Ancaq o, hətta həmin vaxt Niksonun adamı rolunda həddindən artıq tanınmamaq üçün kifayət qədər təmkin nümayiş etdirdi. 1972-ci ildə Nikson yeni müddətə seçiləndə, ona Kissincerdən çox-çox artıq loyal münasibət bəsləyən əməkdaşlar istefaya getdilər. Kissincer Nikson komandasının Uotergeyt əhvalatından salamat çıxmış və növbəti prezident Cerald Fordun dövründə xidmətini davam etdirmiş yeganə nümayəndəsi oldu. Məsafə gözləyərək, Kissincer ağır zamanlarda da parlayırdı.

Bu strategiyadan istifadə edən insanlar tez-tez qəribə fenomeni müşahidə edirlər: kim həvəslə kömək etməyə tələsirsə, nadir hallarda hörmət görür – onların köməyini almaq çox asan olduğundan, layiqincə qiymətləndirilmir; xidmət göstərməyə tələsməyənlərə isə, insanlar özləri müraciət edir. Kənarda dayanmaq, sanki hakimiyyətdən xəbər verir və hər kəs ona malik olanı məsləkdaş kimi öz tərəfinə çəkmək istəyir.

Pikasso gənclik illərini kasıbçılıqla keçirdikdən sonra, çox məşhur rəssam olduqda, hər tərəfdən şirnikləndirici təkliflər alsa da, öz tablolarının taleyini bu və ya digər agentə, yaxud ticarətçiyə etibar etmirdi. Elə görünürdü ki, bütün bunlar Pikassonu maraqlandırmır. Onun taktiki üsulu tacirləri cinləndirir, onlar rəqiblərdən şübhələnirdilər, rəsmlərin qiyməti isə artırdı. ABŞ-ın dövlət katibi Henri Kissincer Sovet İttifaqı ilə münasibətlərdə gərginliyi azaltmağa nail olmaq üçün güzəştlərə getmədi və ya razılaşma eyhamları vurmadı – o, Çinin qılığına girməyə başladı. Bu sovet rəhbərlərini acıqlandırdı və qorxutdu – ölkə artıq siyasi təcrid vəziyyətində idi, ABŞ-ın Çinlə ittifaqı isə vəziyyətin gərginləşməsi qorxusunu yaradırdı. Kissincerin gedişi sovet liderlərini danışıqlara getməyə məcbur etdi. Belə taktikanı tovlayıb başdan çıxarma ilə müqayisə etmək olar. Stendal məsləhət bilirdi ki, əgər siz qadını tovlamaq istəyirsinizsə, onun bacısı ilə əylənməyə başlayın.

Kənarda dayanın, insanlar sizə doğru gələcək, rəğbətinizi ələ keçirməyə can atacaq. Siz müdrik bakirə kraliçanı təqlid etməklə, onların ümidlərini möhkəmləndirdikcə, maqnit kimi cəzbedici qalacaq, arzuların və diqqətin obyekti olacaqsınız.

OBRAZ:

BAKİRƏ KRALİÇA

diqqət – ehtiras və pərəstiş mərkəzidir. Pərəstişkarlarından birinə nisbətən digərlərinə üstünlük verməklə, bakirə kraliça onların hamısını, nə öz orbitindən çıxmağa, nə də ona yaxınlaşmağa qabiliyyəti olmayan planetlər kimi, öz ətrafında fırlanmağa məcbur edirdi.

MÖTƏBƏR FİKİR

«Öz əl-qolunu heç kimlə və heç nə ilə bağlama – çünki bu, qula çevrilmək deməkdir, özü də kim gəldi onun quluna... Ən mühümü – öz azadlığını öhdəlik və borclardan – rəqiblərin sənin köməyinlə hakimiyyəti ələ keçirmək üçün istifadə etdikləri vasitədən qorumaqdır».

Baltazar Qratsian

II HİSSƏ. HEÇ KİMİN TƏRƏFİNİ SAXLAMA: TOQQUŞMADAN YÜKSƏKDƏ DAYAN

Ətrafdakıların sizi özlərinin xırda çəkişmələrinə və qalmaqallarına cəlb etməsinə imkan verməyin. Maraq göstərin, elə görkəm alın ki, siz onları müdafiə edirsiniz, ancaq istənilən üsulla bitərəfliyinizi saxlayın. Vuruşmaq imkanını başqalarına verin, özünüz isə müşahidə edin və gözləyin. Tərəflər yorulduqda və bir qədər sakitləşdikdə, «hazır» vəziyyətdə birbaşa əlinizə düşəcəklər. Ümumiyyətlə isə, münaqişələrə təhrik etmək və sonra vasitəçiliyinizi təklif etməklə, öz hakimiyyətinizi artırmaq qaydasından da istifadə etmək olar.

QANUNA RİAYƏT EDİLMƏSİ

XV əsrdə İtaliyanın çox güclü şəhər dövlətləri – Venesiya, Florensiya, Roma və Milan arasında daima münaqişələr yaranırdı. Fransa və İspaniya zəifləmiş italyan şəhərlərindən mümkün olan hər şeyi ələ keçirməyə hazır vəziyyətdə mübarizəni izləyirdilər. Ortada, tələdə olduğu kimi, kiçik Mantuya dövləti yerləşirdi, onu gənc hersoq Canfrançesko Qonzaqa idarə edirdi. İtaliyanın şimalında yerləşən Mantuyanın güclü qonşu dövlətlər tərəfindən istənilən an işğal oluna bilməsi və öz mövcudluğunu dayandırması çox asan görünürdü.

ÇALAĞANLAR, QARĞALAR VƏ TÜLKÜ

Çalağanlar və qarğalar əldə etdikləri istənilən ovu yarı bölmək barədə öz aralarında razılığa gəldilər. Bir dəfə onlar ovçunun yaraladığı, ağacın altında köməksiz vəziyyətdə uzanmış tülkünü gördülər və onun ətrafına toplaşdılar. Qarğalar dedilər: «Biz özümüzə tül-

künün qabaq hissəsinin yarısını götürürük». – «Onda biz də qalan arxa hissəsini götürürük» – deyə, çalağanlar razılaşdılar. Tülkü onları ələ salaraq dedi: «Mən həmişə fikirləşirdim ki, çalağanlar həmişə qarğalardan üstün olmuşlar. Buna görə də, mənim qabaq hissəm məhz onlara çatmalıdır, çünki ora beyin və digər dadlı şeylərin olduğu baş daxildir». – «Bəli, bu doğrudur, – deyə, çalağanlar bildirdilər – biz tülkünün bu hissəsini özümüzə götürəcəyik». – «Biz isə, bununla razılaşmırıq», – deyə, qarğalar etiraz etdilər – «qabaq hissə, danışdığımız kimi,

Qonzaqa igid döyüşçü, bacarıqlı sərkərdə idi. O, kim yaxşı haqq verirdisə, onun tərəfində vuruşan muzdlu sərkərdə idi. 1490-cı ildə Qonzaqa İtaliyanın digər kiçik hersoqluğunun – Ferrarinin hökmdarının qızı İzabella d Este ilə nikaha girdi. O, vaxtının çoxunu yad ölkələrdə keçirdiyindən, Mantuyanı onun adından idarə etmək İzabellanın üzərinə düşdü.

İzabella hökmdar kimi ilk əsl imtahanı, 1498-ci ildə Fransa kralı XII Lüdovik Milana hücum üçün qoşunu hazırlayanda verdi. İtalyan dövlətləri artıq Milanın labüd məğlubiyyətinin onlara gətirəcəyi gəlirləri hesablayırdılar. Papa VI Aleksandr özünün işə qarışmayacağını elan etməklə, Fransaya tam hərəkət sərbəstliyi verdi. Venesiyalılar Milana kömək etməyəcəklərini vəd etdilər və buna görə Fransanın Mantiyanı onlara verməsinə ümid bəslədiklərini bildirdilər. Milan hökmdarı Lodoviko Sforia bir də ayılıb gördü ki, heç bir köməyi yoxdur və tənha qalıb. O özünün yaxın dostu (şayiələrə görə, həm də məşuqəsi) İzabella d Esteyə müraciət etdi, yalvararaq hersoq Qonzaqanı onun köməyinə gəlməyə inandırmasını xahiş etdi. İzabella buna cəhd göstərdi, ancaq əri imtina etdi. O, Sforianın vəziyyətinin çıxılmaz olduğunu görürdü... 1499-cu ildə XII Lüdovik çətinlik çəkmədən Milanı tutdu.

İzabella dilemma qarşısında dayanmışdı: əgər o, Lodovikoya münasibətdə loyallığını saxlasa, fransızlar ona hücum edərdilər. Əgər o, bunun əvəzinə Fransanın müttəfiqi olsa, İtaliyadakı bütün düşmənlərindən çox yaşayar və XII Lüdovik öz qoşunlarını geri çağırar... Yox, əgər kömək üçün Roma və ya Venesiyaya müraciət etsə, bu şəhərlər yardım adı ilə onu, sadəcə olaraq, udardılar. Bütün bunlara baxmayaraq, nəsə etmək lazım idi. Fransanın qüdrətli kralının nəfəsi duyulurdu. İzabella əvvəllər aldadıcı hədiyyələri, incə ağıllı məktubları ilə Lodoviko Sforsanın dostluğunu qazandığı kimi, indi də kralla dostluq etməyi qərara aldı, bu, onunla yaxın ünsiyyətdə olmaq imkanı yaradardı, çünki İzabella gözəlliyi və cazibədarlığı ilə şöhrət qazanmışdı.

1500-cü ildə XII Lüdovik qələbəsi şərəfinə Milanda təşkil etdiyi böyük bayrama İzabellanı dəvət etdi. Leonardo da Vinçi bu hadisə ilə bağlı böyük yaylı şir fiquru yaratdı: şir ağzını açaraq Fransa krallığının rəmzi olan zanbaq püskürürdü. İzabella bayrama özünün ən gözəl paltarlarından birini geyindi (onun qarderobu istənilən italyan şahzadə xanımının qarderobundan müqayisəyəgəlməz dərəcədə zəngin idi) və gözlədiyi kimi, Lüdovik ona məftun oldu, məhəbbət göstərdi, yalnız ona diqqət verərək, bütün xanımları saya salmadı. Tezliklə İzabella onun daimi məşuqəsi oldu, bu dostluğun müqabilində kral Mantuyanın müstəqilliyini saxlayacağını vəd etdi.

Təhlükənin biri sovuşsa da, Çezare Borcianın şəxsində cənubdan daha dəhşətlisi

bizimdir». Burada mübahisə edənlər arasında əsl dava düşdü, hər iki tərəfdən çoxları həlak oldular, az miqdarda sağ qalanlar isə qaçıb canlarını güclə qurtardılar. Tülkü öldürülmüş qarğalar və çalağanlarla qidalanaraq daha bir neçə günü ağacın altında keçirdi, sonra isə «Güclülər düşmənçilik edəndə, zəiflər udur» deyərək, möhkəm və gümrah halda çıxıb getdi.

Hind təmsili

Çox şeyə malik olan insanlar ehtiyatsız hərəkətlər etməyə çalışmırlar, belə ki, nüfuzdan salan vəziyyətdən yan keçmək, nüfuzdan salan vəziyyətdən ləyaqətlə çıxmaqdan asandır. Belə vəziyyət – sənin dərrakənin yoxlanmasıdır. Onlardan qaçmaq, qalib çıxmaqdan təhlükəsizdir. Qəbul edilmiş bir öhdəlik öz ardınca yenisini, böyüyünü çəkib gətirir və sən uçurumun kənarına necə gəlib çıxdığını hiss etmirsən.

Baltazar Qratsian (1601–1658)

yaxınlaşırdı. 1500-cü ildən Borcia öz atasının adı namine yürüşdə kiçik knyazlıqları ələ keçirərək, durmadan şimala doğru hərəkət etdi. Çezarenin kim olduğunu İzabella çox gözəl başa düşürdü: ona inanmaq olmazdı, heç bir halda ona toxunmaq da olmazdı. Onu nəzakətlə dilə tutub ələ almaq, yaltaqlanmaq, ancaq ondan uzaq məsafədə dayanmaq lazım idi.

İzabella ona hədiyyələr – şahinlər, yaxşı itlər, ətirlər və onlarla maska göndərməkdən başladı, belə ki, o, Borcianın Romanın küçələrində gəzintiyə yollanarkən, həmişə maska geydiyini bilirdi. İzabellanın çaparları Çezareyə yaltaqlıqla yazılmış məktublar çatdırırdılar (eyni zamanda İzabella üçün casusluq edirdilər). Bir dəfə Çezare ondan soruşdu ki, öz qoşunlarını Mantuyada yerləşdirə bilərmi? İzabella nəzakətlə onu bu fikrindən daşındırmağa nail oldu. O, gözəl başa düşürdü ki, əgər qoşunlar şəhərdə yerləşdirilsə, şəhəri tərk etməyəcəkdir.

Elə görünürdü ki, Çezare ona məftun olmuşdur, buna baxmayaraq, İzabella hər yerdə onun casuslarının olduğunu və kiçicik bəhanədən hücum üçün istifadə etmək istəyini bilərək, öz ətrafındakılara onun barəsində bir kəlmə də olsa pis söz danışmamağı əmr etdi. İzabella uşaq dünyaya gətirərək, Çezareni onun xaç atası olması üçün dəvət etdi. O, hətta ailələrinin gələcəkdə qohum ola biləcəklərinə işarə vurdu. Hər nə cür olsa da, onun hiyləsi öz işini gördü, Borcia hamını və hər yeri fəth etsə də, Mantuyaya toxunmadı.

1503-cü ildə Çezarenin atası vəfat etdi. Bir neçə il keçdikdən sonra Roma papası II Yuli fransız qoşunlarını hərbi yolla İtaliyadan çıxarmaq niyyətinə düşdü. Ferrari hökmdarı, İzabellanın qardaşı Alfonso fransızların tərəfində durduqda, Yuli ona hücum etməyi və tabe etməyi qərara aldı. İzabella yenidən çətin vəziyyətə düşdü: bir tərəfdə Papa, digər tərəfdə fransızlar və qardaşı dayanmışdı. O, tərəflərdən birinə qoşulmağa cəsarət etmədi, ancaq həmçinin onlardan hər hansı birini incik salmaq da mümkün deyildi.

İzabella yenidən, əsl ustası olduğu ikibaşlı oyun oynadı. O, əri Qonzaqanı, var qüvvə ilə döyüşməyəcəyini bilərək, Yuliyə qarşı vuruşmağa göndərdi. Eyni zamanda, fransız qoşunlarına, Ferrariyə kömək etmək üçün Mantuya ərazisindən keçməyə imkan verdi. Hamının eşidəcəyi şəkildə fransızların onun ərazisinə «basqın» etdiyindən şikayətlənərək, fransızları gizlicə qiymətli məlumatlarla təmin edirdi. Fransızların basqınına Yulinin gözündə həqiqi görkəm vermək üçün, o, hətta fransızları guya Mantiyanı talamaq görkəmi almağa məcbur etdi. Bu, kömək etdi: Papa Mantiyanı dinc buraxdı.

1513-cü ildə uzun müddətli mühasirədən sonra Yuli Ferrarini ələ keçirdi və fransız qoşunları geri çəkildi. Müharibənin əldən saldığı Papanın ölümündən sonra vu-

QARTAL VƏ DONUZ

Qartal ağacda yuva qurub bala çıxardı. Ağacın altında isə, çöl donuzu balalamışdı. Qartal yem dalınca uçub öz balalarının yanına qayıtdı, donuz isə ağacın ətrafını eşib meşəyə getdi, gecələr isə öz balalarına yem gətirdi. Qartal donuzla dostluq şəraitində yaşayırdı. Pişik qartalın balalarını yemək fikrinə düşdü. O, qartalın yanına gəlib dedi: «Qartal, sən uzağa uçma. Donuza göz qoy. O, pis niyyətə düşmüşdür: ağacı kökündən çıxarmaq istəyir. Görürsən, o, hər yeri qazır». Sonra pişik donuzun yanına gəlib dedi:

«Donuz, sənin pis qonşun vardır. Mən dünən qartalın balalarına belə dediyini eşitdim: «Balalarım, tezliklə mən sizi donuz balaları ilə bəsləyəcəyəm. Donuz gedən kimi, onun südəmər balasını sizə yemək üçün gətirəcəyəm». Həmin vaxtdan qartal ov dalınca uçmadı, donuz isə daha meşəyə getmədi. Həm qartalın, həm də donuzun balaları acından öldülər və pişik onları yedi.

Lev Tolstoy (1828–1910), «Təmsillər»

ruşmaların və xırda toqquşmaların dəhşətli dövrü yenidən başlandı.

İzabellanın hakimiyyəti dövründə İtaliya çox böyük dəyişikliklərə məruz qaldı: papalar dəyişildi, Çezare Borcia parladı və süqut etdi, Venesiya öz qüdrətinin xeyli hissəsini itirdi, Milan hücuma məruz qaldı, Florensiya tənəzzül dövrünü keçirdi, Roma habsburq imperatoru V Karl tərəfindən talandı. Bütün bunlarla yanaşı, kiçicik Mantuya, sadəcə olaraq, təkcə öz mövcudluğunu saxlamadı – həm də o, bütün İtaliyanın həsədinə rəğmən, inkişaf edib çiçəkləndi. Onun sərvəti və müstəqilliyi İzabellanın 1539-cu ildə ölümündən sonra daha yüz il müddətində davam etdi.

İZAHI

İzabella d Este İtaliyanın siyasi vəziyyətini həsədedici qabiliyyətlə qiymətləndirirdi. O, gözəl başa düşürdü ki, təkcə vuruşan tərəflərin birinə qoşulmağın özü məhv olmaq üçün kifayətdir. Güclü səni əzər, zəif yorub əldən salar. İstənilən yeni ittifaq, həm də yeni düşmənlər yaradır, bu isə, münaqişənin daha da alovlanmasına, ona yeni qüvvələrin cəlb edilməsinə gətirir ki, nəticədə siz gücdən düşər, müqavimət qabiliyyətindən məhrum olarsınız, sizi tam iflas və üzülmə gözləyər.

İzabella Mantuyanı xilas edib saxlamağın yeganə yolunu seçdi. O, kralların və hersoqların iltifatından başını itirmədi, ətrafında baş verən münaqişələri dayandırmağa cəhd etmədi – əks halda o, bu münaqişələrdən birinə cəlb edilə bilərdi. İstənilən münaqişəni, o öz xeyrinə yönəltməyi bacardı. Rəqiblər özlərini taqətdən salaraq yaşamaq üçün deyil, ölmək üçün vuruşurdular və Mantiyanı ələ keçirməyə onlarda güc qalmırdı. İzabellanın hakimiyyətinin mənbəyi vuruşan hər bir tərəfin işlərində maraqlı görünməyi müdrikliklə bacarmasında idi, bu zaman isə, o, əslində onlardan heç birini müdafiə etmirdi.

Öz seçiminizlə mübarizəyə qoşulmayaraq təşəbbüsü itirərsiniz. Vuruşan tərəflərin maraqları sizin maraqlarınız olar, siz döyüş alətinə çevrilərsiniz. Özünüzü ələ almağı, öz niyyətlərinizi və sadiqliyinizi gizlətməyi bacarın, kiminsə tərəfindən vuruşa qoşulmaq tamahından çəkinin. Hamı ilə xoş münasibətdə olun, ancaq toqquşmada iştirak etməyərək, vaxtında geri çəkilin. Hər döyüş vuruşan tərəflərin qüvvəsini alır, siz isə yaxanızı qurtardığınız hər döyüşlə güclənirsiniz.

PAXILLIĞIN QİYMƏTİ

Kasıb bir qadın bazarda pendir alveri edirdi. Pişik marığa yatıb pendir parçası oğurladı. Oğurluğu müşahidə edən it pendiri onun əlindən almaq istədi. Pişiklə it əlbəyaxa oldular. İt mırıldayır və hürür, pişik fışıldayır və cırmaqlayırdı, ancaq tərəflərdən heç biri üstün gələ bilmədi. Nəhayət, pişik təklif etdi: «Tülkünün yanına gedək, qoy hökmü o

HAKİMİYYƏTİN AÇARI

«Hakimiyyət» adlı oyunda uğur qazanmaq üçün emosiyaları nəzarət altında saxlamaq lazımdır. Ancaq bu bacarığa malik olsanız belə, ətrafınızdakıların temperament və əhval-ruhiyyəsinə, hər halda, yenə tam nəzarət edə bilməniz çox çətindir. Buna görə də, onlar ciddi

təhlükə təşkil edirlər. İnsanların əksəriyyəti daima emosiyalar, arasıkəsilməz toqquşmalar və münaqişələr burulğanında olurlar. Sizin müstəqillik və özünə nəzarətiniz onları yalnız acıqlandıracaq və hirsləndirəcəkdir. Onlar özlərinin nəhayətsiz toqquşmalarında, kiminsə tərəfini saxlamağınız və ya onları barışdırmağınız üçün sizə yalvararaq, sizi də bu burulğana cəlb etməyə cəhd edəcəklər. Əgər siz onların emosional təzyiqlərinə güzəştə gedərsinizsə, tezliklə aşkar edərsiniz ki, ağlınız və vaxtınız tamamilə onların problemlərinin həll edilməsinə həsr edilmişdir. Siz insanlara mərhəmət göstərməyinizə baxmayaraq, özünüzün ehtiraslar burulğanına cəlb edilməyinizə imkan verməyin. Bu oyunda siz heç vaxt udmayacaqsınız – münaqişələr isə, artacaqdır.

Ancaq nəhayətsiz incikliklər yaratdığına görə, sizin kənarda qalmağınız mümkün deyildir. Oyunu düzgün aparmaq üçün ətrafdakıların problemləri ilə maraqlanan adam görkəmi almağınız lazımdır, bəzən isə, hətta bu o dərəcədə olmalıdır ki, görüntünüz onların tərəfində olmasına möhkəm inam yaratsın. Bununla da, siz onları zahirən müdafiə edərək, əslində, özünüzün daxili enerjinizi və sağlam düşüncənizi qoruyursunuz. Hamını ürəyiyanan görkəmdə dinləyin, ancaq həm xeyirxah krallardan, həm də təhlükəli borcialardan uzaq dayanın. Birləşməkdən imtina edərək və bununla da öz müstəqilliyinizi saxlayaraq, təşəbbüsü əlinizə alırsınız: siz özünüzü kimdənsə müdafiə etmirsiniz, əksinə, necə hərəkət etməyi özünüz seçirsiniz.

Güc – əlinə silah götürməyə tələsməyənlərin, xüsusən də, başqalarının yorğunluqlarından özlərinin üstünlüyü kimi istifadə etmək üçün onların mübarizədə yorulub əldən düşməsini gözləyənlərin tərəfindədir. Qədim Çində Si çarlığı Çen çarlığı tərəfindən ələ keçirilmək ərəfəsində idi. Qonşu əyalətin hökmdarı Quan Si çarlığına kömək etmək istəyirdi. Onun müşaviri köməк göstərməkdə tələsməməyi məsləhət görərək dedi: «Si hələ məğlubiyyətdən uzaqdır, Çen çarlığının isə, qüvvələri hələ tükənməmişdir. Belə vəziyyətdə biz çətin ki, bir şey edə bilək. Bundan başqa, təhlükə dövründə köməyə görə edilən minnətdarlıq, dağıdılmış ölkənin bərpasında köməyə görə edilən minnətdarlıq qədər böyük deyildir». Müşavirin dəlilləri hökmdara inandırıcı gəldi və Quan, nəticədə, həqiqətən həm Si çarlığının dağıntı dəhşətindən xilasedicisi kimi, həm də həmin vaxta kimi zəif düşmüş Çen çarlığına qalib gələn hökmdar kimi şöhrət qazandı. Toqquşmanın iştirakçıları bir-birlərini yorub əldən salana qədər, Quan kənarda dayandı və işə girişmədi, onun üçün təhlükəsiz olan vaxtda mübarizəyə qoşuldu. Bu da, onun müvəffəqiyyətini təmin etdi.

Gözləmək bacarığı vaxtı udmaq, əlverişli mövqe seçmək, düşmənlərdən hər hansı biri zəiflədikdə, vəziyyətdən istifadə et-

versin». «Yaxşı, gedək» – deyə, pişik cavab verdi. Onlar tülkünün yanına yollandılar. O, gələnlərin hər ikisini müdrik görkəmlə dinlədi və hər ikisini də məzəmmət etdi: «Axmaq heyvanlar, kim özünü belə aparar? İstəyirsinizsə, mən pendiri sizin aranızda yarı bölərəm, ikiniz də razı qalarsınız». İtlə pişik razılığını bildirdikdə, tülkü bıçağını çıxarıb pendiri yarı böldü, ancaq onu uzununa yox, eninə kəsdi. «Mənim payım azdır» – deyə, it etiraz etdi. Tülkü eynəyinin altından itin payına qiymətləndirici nəzər saldı. «Sən haqlısan, tamamilə haqlısan!» – deyərək, pişiyin payından bir tikə yedi: «İndi onlar bərabərdir». Pişik tülkünün nə etdiyini görüb əvvəlcə miyoldadı: «Bir baxın! İndi mənim payım azdır!» Tülkü yenidən eynəyini gözünə taxdı və pişiyin payını qiymətləndirici nəzərlə süzdü. «Sən haqlısan! – dedi. – Gözləyin, mən onu düzəldərəm» – deyərək, itin payından bir tikə qoparıb yedi. Beləliklə, tülkü bütün pendiri onların gözü qarşısın-da yeyib qurtarana qədər, gah pişiyin, gah da itin payını bərabərləşdirməklə məşğul oldu.

Natan Ozyubel «Yəhudi folklorunun inciləri», 1948

mək imkanı yaradır. Əgər münaqişənin bütün iştirakçılarına kömək etməyi söz versəniz, oyunda bir addım irəli gedə və elə şəkildə manevr edə bilərsiniz ki, qələbə mütləq sizə qismət olar. XIV əsrdə İtaliyanın Lukka şəhərinin hökmdarı Kastruçço Kastrokani məhz belə hərəkət etdi. Kastruçço Pistoyya şəhərini ələ keçirmək istəyində olsa da, açıq hücum etməyə cəsarəti çatmadığından, o, Pistoyyada bir-birinə nifrət edən iki düşmən qruplaşmasının: Ağlar və Qaraların mövcudluğundan istifadə etmək fikrinə düşür. Kastruçço Qaralarla danışıq aparaq, Ağlara qarşı mübarizədə onlara kömək edəcəyini, Ağlara isə, qaraların əleyhinə fəaliyyətlərinə kömək göstərəcəyinə söz verir. Kastruçço vədinə əməl edərək, ordusunu Qaraların nəzarət etdiyi şəhər darvazasına göndərir. İkinci ordusu isə, Ağların nəzarəti altında olan darvazadan şəhərə daxil olur. İki ordu mərkəzi meydanda birləşib şəhəri tutur, hər iki qruplaşmanın liderlərini öldürürlər. Bununla da, daxili çəkişməyə son qoyulur və Kastruçço Pistoyyanın da hökmdarı olur.

Bitərəfliyinizi saxlayaraq, özünüzü vasitəçi və barışdırıcı kimi göstərə, əslində isə öz maraqlarınızı müdafiə edə bilərsiniz. Öz köməyinizi tərəflərdən birinə təklif etsəniz, digəri də sizi özünə tərəf çəkməyə can atacaq və daha yüksək qiymət təklif edəcəkdir. Özünüzü Kastruçço kimi də apara bilərsiniz.

Münaqişəli vəziyyətlərdə tez-tez daha güclü tərəfə və ya sizə açıq-aşkar üstünlük vəd edən alyansa qoşulmaq istəyi meydana çıxır. Bu, təhlükəlidir. Əvvəla, tərəflərdən hansının qələbə çalacağını qabaqcadan bilmək çətindir. Ancaq proqnozunuz düz olsa və özünüzü düşmənlərdən güclü olanla bağlasanız belə, qalib gəldikdən sonra, onun sizi özünə tabe etmək və ya sadəcə olaraq, sizi unutmaq təhlükəsi vardır. Tələsdikcə, zəif yerinə qoyularaq, məhvə məhkum olarsınız, gözlədikdə isə, uduzmazsınız.

Fransada 1830-cu il İyul inqilabı zamanı, üç günlük üsyandan sonra, həmin vaxt artıq yaşa dolmuş Taleyran, pəncərə qarşısında oturaraq, Parisdə qiyamın yatırılmasını bildirən zəng səslərinə qulaq asırdı. O öz həmsöhbətinə tərəf çevrilərək dedi: «Aha, zəng səsləri! Biz qalib gəlirik».– «Mənim knyazım, «biz» kimdir belə?» Taleyran əl hərəkəti ilə onun sözünü kəsərək dedi: «Bir kəlmə də danışma! Sabah mən sənə «biz»im kim olduğunu deyəcəyəm». O, yaxşı bilirdi ki, yalnız təkcə axmaqlar bu cür vəziyyətlərdə kimə üstünlük verdiklərini həddindən artıq tez bildirərək, manevr etmək sərbəstliyini itirirlər. Bundan əlavə, sizə az hörmət edəcəklər: insanlar fikirləşəcəklər ki, madam o, bu gün asanlıqla bu məsələyə uyursa, sabah onun başqa işə və ya hərəkata qoşulması mümkündür. Uğur – şıltaqlıq ilahəsidir – tez-tez bir tərəfdən digər tərəfə keçir. Onlardan birini tələsik seçməklə, siz vaxt qazanmaqdan və gözləmək həzzindən məhrum olursunuz. Qoy ətrafdakılar bu və ya digər qruplaşmaya qoşulsun, siz isə başınızı itirməyə tələsməyin.

Nəhayət, elə hallar olur ki, ən ağıllı yol – hətta kimisə müdafiə etdiyinizi zahirən göstərməyə cəhd etməmək deyil, öz müstəqilliyinizi və qüvvənizə inamınızı qaldırmaqdır. Müstəqilliyin zadəgan ədası hörmət qazanması zəruri olanlar üçün daha vacibdir. Corc Vaşinqton gənc Amerika dövlətinin möhkəmlənməsi işində bunun nə qədər vacib olduğunu yaxşı başa düşürdü. Prezident kimi Vaşinqton, ona da təzyiq göstərilməsinə baxmayaraq, İngiltərə və ya Fransa ilə müqavilə bağlamaq həvəsindən yan qaçırdı! O, müstəqilliyə nail olmuş öz ölkəsinin dünyada hörmət qazanmasını istəyirdi. Fransa ilə saziş qısa müddətə faydalı olsa da, Vaşinqton hesab edirdi ki, gələcəkdə milli muxtariyyəti bərqərar etmək daha vacibdir. Birləşmiş Ştatları Avropa özünə bərabər qüvvə kimi görməlidir.

Yadda saxlamaq lazımdır: sizin enerjiniz və vaxtınız hüdudsuz deyildir. Başqalarına sərf etdiyiniz hər anla sizin qüvvəniz azalır. Siz özünüzün daşürəkli adlandırılacağınızdan ehtiyat edə bilərsiniz, ancaq son nəticədə müstəqilliyinizi və özünüzə inamı saxlayaraq, mötəbər münasibətə nail olar və elə mövqe tutarsınız ki, kimə və hansı köməkliyi etməyi özünüz seçə bilərsiniz.

OBRAZ:

KOL PÖHRƏLİYİ

Meşədə bir kol, tikanlarını qonşularına tərəf uzadaraq, digərinə yapışırdı. Ancaq kənarda bir-birindən uzaq məsafədə olan uca boylu, yaraşıqlı ağaclar böyüyürdü. Onlar yalnız cəngəllik yarana biləcəyinə görə bir-birlərinə həddindən artıq yaxınlaşmırdılar.

MÖTƏBƏR FİKİR

«Hesab et ki, daha böyük igidlik özünün döyüşə cəlb edilməyinə imkan verməməkdir. Harada isə döyüşə başlamış bir axmaq varsa, onların sayının iki olmaması qayğısına qal».

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

Əgər bu məsələdə həddindən artıq uzağa getsəniz, qanunun hər iki tərəfi sizin əleyhinizə çevrilə bilər. Burada təklif edilən oyun çətin və incədir. Əgər siz eyni zamanda çoxlarına qarşı oynayırsınızsa, ətrafdakıların sizin manevrinizi başa düşməsi və birlikdə əleyhinizə qalxması təhlükəsi vardır. Əgər siz çoxsaylı ardıcıllarınızı həddindən çox gözləməyə məcbur edərsinizsə, onlara məhəbbət əvəzinə inamsızlıq təlqin etmiş olarsınız. Bununla da, insanlar ona maraqlarını itirməyə başlayarlar. Yalnız sədaqətlilik xüsusiyyətinə malik olduğunuzu sübut etmək naminə tərəflərdən birinə qoşulmağınıza dəyər. Hətta onda da müvəffəqiyyətin açarı öz daxili müstəqilliyinizi saxlamaq bacarığınız – vəziyyətə emosional müdaxilədən özünüzü çəkindirməyiniz olacaqdır. Sizin müdafiə etdiyiniz tərəf uduzmağa başlayarsa, bu barədə ucadan danışmadan, istənilən vaxt getməyə və öz sərbəstliyinizi elan etməyə həmişə hazır olmaq lazımdır.

İYİRMİ BİRİNCİ QANUN

SADƏLÖVHƏ HİYLƏ GƏLMƏK ÜÇÜN ÖZÜNÜ SADƏLÖVHLÜYƏ VUR: ÖZ HƏDƏFİNDƏN DƏ AXMAQ GÖRÜN

QANUNUN MƏZMUNU

Özünü başqasından axmaq hiss etmək heç kimin xoşuna gəlmir. Buna görə də, qurbanınıza özünü ağıllı hiss etmək, həm də sadəcə ağıllı yox, sizdən daha ağıllı hiss etmək imkanı verməyiniz qazanacağınız üstünlüyün təməlidir. O, bir dəfə bunu yoxlayaraq, sizin gizli niyyətlərinizin olmasına heç vaxt şübhə etməyəcəkdir.

QANUNA RİAYƏT EDİLMƏSİ

İndi insan heç nə ilə özünün əqli qabiliyyəti kimi qürurlanmır, çünki məhz o, insana heyvanlar aləmində hökmran mövqe tutmağa imkan vermişdir. Ancaq bu sahədə kimdənsə üstünlüyünü açıq-aşkar ona göstərmək, həm də ətrafdakıların diqqətini buna cəlb etmək, son dərəcə ehtiyatsız hərəkət olardı.... Əgər mövqe və sərvət həmişə nəzərə alınırsa və cəmiyyətdə insana münasibət onlardan asılıdırsa, intellektual dəyərlilərdə vəziyyət olduqca gözlənilməz formadadır: göstərilən çox böyük mərhəməti müşahidə etmirlər. Bununla belə, insanlar intellektual dəyərlilərə diqqət verdikdə, onlara görünməmiş cəsarətin təzahürü, yaxud sahibinin qanuni hüququnun olmadığı, hələ üstəlik bununla fəxr etməyə cəsarət göstərməsinə xoşagəlməz bir şey kimi baxırlar. Belə davranışa görə mühakimə etdikdə və cəza verdikdə, insanlar onu gizlicə mümkün olan bütün üsullarla alçaltmağa çalışırlar! Əgər onlar ləngiyirlərsə, bunu yalnız əlverişli məqam gözlədiklərinə görə edirlər. İntellektual cəhətdən başqalarından üstün olsa da, təvazökarlıq və sadəlik nümunəsi göstərsə də, çətin ki, onu bağışlasınlar.
Sədi «Gülüstan»

1872-ci ilin qışında amerikan maliyyəçisi Esberi Xarpendinq Londonda olarkən, Amerikanın qərbində almaz yataqlarının kəşf edilməsi barədə teleqram aldı. Məlumat mənbəyinin etibarlı şəxsinin – Kaliforniya Bankının sahibi Vilyam Relstonun – olmasına baxmayaraq, Xarpendinq ona Cənubi Afrikada iri almaz yataqlarının kəşf edilməsindən irəli gələn qurama oyun kimi yanaşdı. Ancaq Birləşmiş Ştatların qərbində tapılmış qızıl yataqları haqqında xəbərlərə hamı şübhə ilə yanaşırdı, lakin xəbər düz çıxdı. İndi də Qərbdə almaz mədənləri! Xarpendinq teleqramı dostu və həmkarı baron Rotşildə (dünyanın ən varlı adamlarından biri) göstərərək, onun çox güman ki, zarafat olduğunu bildirdi. Ancaq baron ona belə cavab verdi: «Şübhələrinizə çox da əmin olmayın. Amerika çox böyükdür. O, artıq dünyaya çox sürprizlər bəxş etmişdir. Ola bilsin ki, ehtiyatda başqa şeylər də vardır». Xarpendinq ləngimədən birinci gəmi ilə Ştatlara qayıtdı.

San-Fransiskoda 1840-cı illərin sonlarındakı qızıl coşğunluğunu xatırladan həyəcan hökm sürürdü. Almaz yatağını iki sadə qızılaxtaran – Filipp Arnold və Con Slek aşkar etmişdi. Onlar Vayominq ştatındakı yataqların yerini açıqlamırdılar, bir neçə ay əvvəl isə, ora olduqca mötəbər ekspert geoloqu, yolu xatırlamaması üçün, dolayı yollarla aparmışdılar. Mədənə gələn ekspert şaxtaçıların almaz çıxardıqlarını görmüşdü. San-Fransiskoya qayıdan ekspert götürdüyü daş parçalarını bir neçə zərgərə göstərmişdi. Onlardan biri daşları 1,5 milyon dollar miqdarında dəyərləndirmişdi.

Xarpendinq və Relston zərgər Çarlz Tiffaninin qiymətləndirməni təsdiq etməsi üçün Arnold və Slekdən onlarla Nyu-Yorka getmələrini xahiş etdilər. Qızılaxtaranlar dərhal razılaşmadılar – onlar burada hiylə olduğunu hiss etdilər: məgər şəhər kələkbazlarına etibar etmək olardımı? Əgər Tiffani və maliyyəçilər onların mədənlərini gözlərinin qabağında oğurlamağa hazırlaşırlarsa, onda necə olsun? Relston onlara 100 min dollar verməklə və əqdin baş tutacağı hal üçün daha 300 min dollar banka qoymaqla, bütün şübhələri dağıtmağa çalışdı. Onlar razılaşdılar.

Kiçik dəstə Nyu-Yorka yollandı, burada onlar Semyuel L. Barlounun mülkünə toplaşmalı idilər. Şəhər zadəganlarının qaymağı – Vətəndaş müharibəsində şimallıların ordusuna komandanlıq etmiş general Corc Brinton Mak-Klellan, «Nyu-York tribun» qəzetinin redaktoru Xoras Qrili, Xarpendinq, Relston və Tiffani yığışıb gəldilər. Yalnız Slek və Arnold iştirak etmirdilər – onlar şəhəri gəzməyə çıxmışdılar.

Tiffani daşların həqiqi almaz, özü də çox böyük dəyərə malik olduğunu elan etdikdə, maliyyəçilər ehtiraslarını güclə ram

əsərində demişdir: «Sən bilməlisən ki, axmaqların cəmiyyəti müdrikləri çiyrəndirdiyindən ölçüyəgəlməz dərəcədə artıq, ağıllı adamların cəmiyyəti axmaqları çiyrəndirir».

Artur Şopenhauer (1788–1860)

etdilər. Onlar Rotşild və digər maqnatlarla əlaqəyə girib, almaz yatağı barədə xəbər verdilər və sərmayə qoyuluşunda iştirak etməyi təklif etdilər. Eyni zamanda, onlar qızılaxtaranlara bildirdilər ki, daha bir yoxlama keçirmək istəyirlər: geoloji ekspertlərin seçilməsini Slek və Arnoldla birlikdə gedib mədənin gücünü yerində müəyyən etməyi təkid etdilər. Onlar həvəssiz razılaşaraq, özlərinin onsuz da San-Fransiskoya qayıtmaq vaxtının çatdığını dedilər. Tiffaninin yoxladığı daşı isə, saxlanması üçün Xarpendinqə verdilər.

Bir neçə həftədən sonra, ölkənin ən yaxşı eksperti Luis Janin San-Fransiskoda qızılaxtaranlarla görüşdü. Hər şeyə şübhə ilə yanaşan Janin mədənin heç nəyə dəyməyəcəyini sübut etmək qətiyyətində idi. Xarpedinq və bu işdə marağı olan bir neçə maliyyəçi onunla getdi. Əvvəlki ekspertlə olduğu kimi, qızılaxtaranlar istiqamətin qeyri-müəyyən, gizli qalması üçün dəstəni çoxsaylı sıldırımlı qayalardan, dərin dərələrdən keçirərək, dolaşıq yollarla aparırdılar. Faydalı qazıntı yatağına çatan maliyyəçilər Janinin qarışqa yuvalarını dağıdaraq, qaya parçalarını aşıraraq, hər yeri eşdiyini və zümrüd, yaqut, sapfir, daha çox almaz tapdığını maraqla müşahidə edirdilər. Tədqiqat səkkiz gün davam etdi və nəhayət, Janin sərmayəçilərə bildirdi ki, onlar tarixdə ən zəngin faydalı qazıntılar yatağının sahibi olmuşlar. O, sərmayəçilərə dedi:

«İnana bilərsiniz ki, yüzlərlə fəhlə və müvafiq avadanlıqla almaz çıxarılması ayda milyon dollara qədər gəlir gətirəcəkdir».

Bir neçə gündən sonra San-Fransiskoya qayıdan Relston, Xarpendinq və başqaları təcili olaraq şəxsi əmanətçilərin 10 milyon dollar qoyduğu korporasiya yaratdılar. Onların birinci işləri, aydındır ki, Arnold və Sleki başlarından etmək idi. Bu, onlardan özlərinin sevinclərini gizlətməyi tələb edirdi – onlar ümumiyyətlə, yatağın əsl qiymətini qızılaxtaranların bilməsini istəmirdilər. Buna görə də, onlar bütöv bir oyun oynayaraq, qızılaxtaranlara Janinin haqlı olduğuna şübhə ilə yanaşdıqlarını bildirdilər: «Ola bilsin ki, yataq onun hesab etdiyi qədər də zəngin deyildir». Bu isə, narazılıq yaratdı. Maliyyəçilər qızılı axtaranları hirslənməkdən çəkindirərək, taktikanı dəyişib qızılaxtaranlara bildirdilər ki, əgər onlar müəssisədə hökmən öz paylarının olmasını istəyirlərsə, korporasiyanı təşkil etmiş milyonçular və sərmayəçilər, son nəticədə onların paylarını əllərindən ala bilərlər. Ən təhlükəsizi, həmin dövr üçün ağlagəlməz məbləğ olan 700 min dollar müqabilində oyundan kənara çıxmaqdır. Bu dəlil qızılaxtaranlara inandırıcı göründü, onlar pulu götürməyə razılaşdılar, əvəzində almaz olan sahənin bütün hüquqlarının sərmayəçilərə keçməsi haqqında sənədi imzaladılar, xəritələri və planları onlara verdilər.

Almaz yatağı haqqında xəbər hər yerə yayıldı. Vayominqin hər yerində axtarıcılar işləyirdilər. Bu zaman Xarpendinq və şirkət sərmayəçilərdən aldıqları milyon dollarlarla pulu sərf edərək avadanlıq aldılar, ən yaxşı mütəxəssisləri işə götürdülər, Nyu-Yorkda və San-Fransiskoda gözəl ofislər düzəltdilər.

Bir neçə həftədən sonra onlar almaz yatağının olduğu yerə ilk səfər edərək, acı həqiqətdən xəbər tutdular: bir dənə də almaz və ya yaqut tapmaq mümkün olmadı. Hər şeyin saxtalaşdırıldığı aşkar oldu. Bu işin təşkilatçıları isə, var-yoxdan çıxıb iflasa uğradılar. Xarpendinq özü də istəmədən dünyanın ən varlı adamlarını əsrin ən qalmaqallı fırıldaqçılığına cəlb etmişdi.

İZAHI

Arnold və Slek özlərinin mümkün varlı müştərilərinə hiylə gəlmək üçün saxta mühəndis tutmadılar və Tiffanini ələ almadılar. Bütün ekspertlər həqiqi idi. Onlar yatağın mövcudluğuna və daşların qiymətli olmasına səmimi-qəlbdən inanırdılar. Burada aldadıcı olan, yalnız Arnold və Slekin özləri idilər. Bu iki nəfər özlərini o dərəcədə sadəlövh və avam aparırdılar ki, onların bu cür cəsarətli hiyləyə əl ata biləcəkləri heç kimin ağlına gəlmədi. Qızılaxtaranlar fırıldaqçıların birinci qaydası olan «Öz müştərindən axmaq görün» qanununu tətbiq etdilər.

Dələduzların planı çox sadə idi. Yatağın «kəşf edilməsini» elan etməzdən bir neçə ay əvvəl, Arnold və Slek Avropaya gedib, 12 min dollarlıq (bir vaxtlar qızıl çıxararkən qazandıqları pulun bir hissəsinə) qiymətli daşlar aldılar. Sonra onlar bu daşları torpağın dərinliyində, daşların altında yerləşdirdilər və birinci eksperti çağırdılar, o isə bu daşları «tapıb», San-Fransiskoya gətirdi. Tiffani də daxil olmaqla, daşları tədqiq etmiş zərgərlər psixoloji olaraq tapıntının ətrafında qaldırılmış ajiotajın təsiri altına düşdülər və onların qiymətlərini çox-çox qaldırdılar. Sonra Relston sığorta olaraq 100 min dollar verdi, onlar isə Nyu-York səfərindən geri qayıdarkən, dərhal Amsterdama yollanaraq, bir kisə emal olunmamış müxtəlif daş aldılar və San-Fransiskoya qayıtdılar: yatağı ikinci dəfə işləməklə, onu qiymətli daşlarla bəzədilər.

Ancaq planın uğurunun rəhni heç də bu hiylələr deyil, Arnold və Slekin öz rollarını parlaq şəkildə oynamaları faktı idi. Nyu-Yorka səfər zamanı onlar milyonçuların və maqnatların arasında dolaşarkən, olduqca qısa, dar şalvar və gödəkçə geyərək, böyük şəhərdə gördükləri hər şeyə inamsızlıqla baxır və kənd səfehlərini çox dəqiq təqlid edirdilər. Bu sadəlövh əyalət adamlarının öz dövrünün ən bacarıqlı və həyasız işbazlarını barmağına dolaya biləcəklərinə heç kim inana bilməzdi. Xarpendinq, Relston və hətta Rotşild almaz yatağının mövcudluğunu etiraf etdikdə, buna şübhə edən hər kəs dünyanın ən müvəffəq biznesmenlərinin ağlını şübhə altına almış olardı.

Nəticədə Xarpendinqin ad-sanı birdəfəlik məhv oldu, Rotşild ibrət götürdü və bir də heç vaxt dələduzluğun qurbanı olmadı. Slek öz payını alıb aradan çıxdı, onu tapmaq mümkün olmadı. Arnold Kentukkiyə – öz evinə yollandı. Nəhayət, faydalı qazıntı sahəsinə olan hüquqların satılması haqqında sənədlər həqiqi və qanuni idi, əgər yataq tükənsəydi, bu, onun problemi deyildi. Arnold aldığı pulun hesabına öz fermasını çox gözəl təsərrüfata çevirdi və özünün xüsusi bankını açdı.

HAKİMİYYƏTİN AÇARI

Kiminsə bizdən ağıllı olması hissiyyatı, demək olar ki, dözülməzdir. Biz adətən buna bəraət qazandırmağa cəhd edirik: «O, sadəcə olaraq kitablardan öyrənib, mən isə əsl biliyə malikəm», «Ona yaxşı təhsil vermək üçün valideynləri çoxlu pul ödəmişlər. Mənim valideynlərim varlı olsaydı, mən də belə ailədən olsaydım...», «O özünün hesab etdiyi qədər də ağıllı deyildir». Heç də az əhəmiyyətli olmayan daha bir cəhət: «O özünün məşğul olduğu dar sahədə məndən savadlı olsa da, bütün qalan ixtisaslarda mənim kimi ağıllı deyildir. Hətta Eynşteyn, fizikadan başqa hər sahədə geri qalırdı». Əksəriyyətin şərəf və şöhrətpərəstliyi üçün ağlın nə qədər zəruri olduğunu nəzərə alaraq, onun əqli qabiliyyətini şübhə altına alıb, təsadüfən narazı salmamaq olduqca vacibdir. Bunun əksi bağışlanılmaz səhvdir. Əgər siz, bu pozulmaz qanunu özünüzə işləməyə məcbur edərsinizsə, o, adamlara təsir etməkdə sizə hüdudsuz imkanlar açacaqdır. Adamlara, onların sizdən ağıllı olması məsələsində zəhlətökən kimi görünməyərək, onları özünüzün dar düşüncəli, hətta kəmağıl olduğunuza inandırmaqla, onların başına corab hörə bilərsiniz. Sizin onlara verdiyiniz intellektual üstünlük hissiyyatı onların sayıqlığını zəiflədir.

1865-ci ildə Otto fon Bismarka Avstriya ilə bir sazişi imzalamaq lazım idi. Saziş Prussiyanın maraqlarına tamamilə cavab versə də, Avstriyanın xeyrinə deyildi, Bismark öz istəyinə nail olmaq üçün hiylə işlədərək, Avstriya tərəfdən danışıqların iştirakçısı qraf Blomenin qumara aludə olmasından məharətlə istifadə etdi. Blomenin sevimli oyunu kuins idi və o, adamların necə kuins oynamasına əsasən, onlar haqqında mühakimə yürüdə bilməsini tez-tez təkrar edirdi. Bismark Blomenin bu fikrindən xəbərdar idi.

Danışıqların başlanması ərəfəsi axşamında Bismark sadədilliklə Blomeni kuins oynamağa dəvət etdi. Sonralar o yazırdı: «Həmin vaxtdan mən bir də heç vaxt kuins oynamadım. Mən o dərəcədə ehtiyatsız, diqqətsiz oynayırdım ki, hamı təəccüb edirdi. Bir neçə min taler (həmin dövrün pul vahidi) uduzdum, lakin özümün əslində olduğundan artıq qızğın oyunçu olduğuma inanmağa məcbur edərək və onun da bu cür düşünməsinə mane olmayaraq, Blomeyə hiylə gəlməyə müvəffəq oldum». Bismark təkcə ağılsız görünmədi, həm də özünü bacarıqsız və dar düşüncəli adam kimi apardı, mənasız şeylər danışır, daim çərənləyir və bununla da, özünü ələ ala bilmədiyini göstərirdi.

Bütün bunlar Blomeni qiymətli məlumat aldığını fikirləşməyə məcbur etdi. O, Bismarkın təcavüzkar olduğunu bilirdi – prussiyalı artıq belə şöhrət qazanmışdı və o öz davranışı ilə də bunu təsdiq etdi. Təcavüzkar adamların, adətən axmaq və hövsələsiz olması Blomeyə məlum idi. Blome saziş imzalanan vaxtda özünün üstünlüyə malik olmasına artıq əmin idi. O, hesab edirdi ki, Bismark kimi ağılsız axmaqlar soyuqqanlı plana və ya hiyləyə qadir deyildir. Buna görə də, müqaviləni imzalamazdan əvvəl, Blome ona ötəri nəzər salmaqla kifayətlənərək, yekun varianta diqqət yetirmədi. İmzaların mürəkkəbi qurumağa macal tapmamış, Bismark sevinclə qışqıraraq, onun üzünə dedi: «Heyhat, mən bu sənədi imzalamağa razı olacaq Avstriya diplomatının tapılacağına heç vaxt inanmazdım!»

Çinlilərdə belə məsəl var: «Pələngi öldürmək üçün donuz cildinə gir». Bu, ovçunun donuz dərisi və pəncələri geyib, onun davranışını təqlid etdiyi, xoruldadığı qədim ovçuluq üsuluna gedib çıxır. Qüdrətli pələng onun qarşısında donuz olduğunu fikirləşərək, asan ov ələ keçirəcəyinə ümid edir və onun yaxınlaşmasına imkan verir. Ancaq sonda sevinmək ovçuya nəsib olur.

Donuz maskası geyinmək ona görə möcüzə yaradır ki, pələng kimi lovğa və təkəbbürlü olanlara, ovları nə qədər asan görünürsə, onlarla rollarınızı dəyişmək sizə bir o qədər əlverişli olar. Siz bu fəndi həmçinin, iyerarxiyada öz yerinizi haqsız olaraq aşağı olduğunu hesab edirsinizsə, tətbiq edə bilərsiniz: özünüzü əslində olduğunuzdan daha artıq ağılsızlığa, hətta axmaqlığa vuraraq, daha yaxşı maskalanarsınız. Məzlum donuz balası kimi görünsəniz, ətrafdakılar üçün təhlükəli planlarınızın olması heç kimin ağlına gəlməz. Sizi irəli çəkə bilərlər, çünki elə görünəcək ki, siz xidmət göstərməyə həmişə hazır olub, yuxarıdakılar üçün çox əlverişlisiniz. Klavdi Roma imperatoru olmazdan əvvəl, habelə sonralar XVIII Lüdovik olmuş Fransa şahzadəsi, onların taxt-tacda gözü olmalarından iyerarxiyanın yüksək pillələrində duranların şübhələnməmələri üçün bu üsuldan istifadə etmişdilər: gəncliklərində özlərini axmaqlığa vurmaları, onların təhlükəsiz yaşamalarını təmin etmişdi. Zərbə vurmaq və qətiyyətli hərəkət etmək vaxtı gələndə isə, ətrafdakıları qəfildən yaxalamışdılar.

Ağıl – gizlənilməsi faydalı olan keyfiyyətdir, ancaq bununla kifayətlənməyin. Zövq və incəlik şöhrətpərəstlik şkalasında ağılla qonşudur. Adamlara özlərini sizdən daha gözəl, nəzakətli hiss etmələrinə imkan verin – onlar sayıqlığı dərhal zəifləMdəcəklər. Sadəlövh görkəmin möcüzə yarada bilməsi Arnold və Slekə məlum idi. Səriştəli maliyyəçilər onların arxasınca gülürdülər, ancaq axırıncı kim güldü? Həmişə adamlara sizdən ağıllı və daha incə olmalarına inanmalarına imkan verin, çünki bunu dərk etmək qarşı tərəfə xoşdur. Siz onlarla bir sırada daha çox olacaq və onları bununla da keçməyiniz üçün daha geniş imkanlar əldə edəcəksiniz.

OBRAZ:

ÖZÜNÜ ÖLÜLÜYƏ VURMUŞ OPOSSİUM

(Amerikada yaşayan kisəli siçovul)

Vəhşi heyvanlar ona toxunmurlar. Kimin ağlına gələr ki, belə çirkin, ağılsız və əsəbi kiçik varlıq bu cür hiylə işlətməyə qadir ola bilər?

MÖTƏBƏR FİKİR

«Axmaqlığı necə tətbiq etməyi bil: ən müdrik adam da bəzən bu fənddən istifadə edir. Hərdən isə, ən yüksək müdriklik özünü axmaqlığa vurmaqdan ibarət olur – sən cahil olmamalısan, bu rolu oynamağı bacarmalısan. Axmaqların arasında müdrik və lunatiklərin içərisində normal olmaq, o qədər də inandırıcı deyildir. Özünü axmaqlığa vuran axmaq deyil. Hamı ilə yaxşı münasibətə nail olmağın ən yaxşı üsulu – ən küt sadəlövh cildinə girməkdir»

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

Ağlın nümayiş etdirilməsi nadir hallarda faydalı olur. Ən yaxşısı özündə öz qabiliyyətini aşağı salan daimi vərdiş yaratmaqdır. Əgər adamlar həqiqəti təsadüfən bilərlərsə – siz öz təvazökarlığınızla, onlarda, hər şeydə parlaq göründüyünüzün yaratdığından artıq heyrət yaradarsınız. Əlbəttə, yalnız zirvəyə yüksəlməyə başlayanda, tam axmaqlığı təqlid etmək lazım deyildir: əgər istəyirsinizsə, öz rəhbərliyinizə incəliklə və zəhlə tökmədən, öz rəqiblərinizdən ağıllı olduğunuzu göstərə bilərsiniz. Ancaq pillələrlə yüksəlməyinizə uyğun olaraq, öz parlaqlığınızı azaltmağa çalışın.

Buna baxmayaraq, əks formada hərəkət etməyin daha əlverişli olduğu bir hal vardır – bu, hiyləni ağıl və intellekt

pərdəsi ilə ört-basdır etməyə çalışdığınız vaxt olur. Əgər siz savadlı və nüfuzlu görünürsünüzsə, dediklərinizə adamlar inanacaqlar. Vəziyyətdən məharətlə çıxış yolu tapmaq zəruri olduqda, bu, çox faydalı ola bilər.

İncəsənət əsərlərinin satışı ilə məşğul olan Cozef Dyuvin bir dəfə, Dyurerin rəsmini çox yüksək qiymətə satdığı hansısa maqnatın Nyu-Yorkdakı evində dəvət edildiyi müsamirədə iştirak edirdi. Qonaqların arasında çox inamlı və savadlı görünən gənc fransız ədəbi tənqidçisi də var idi. Cavan tənqidçinin xoşuna gəlmək istəyən maqnatın qızı ona Dyurerin rəsmini göstərdi. Tənqidçi tablonu uzun müddət nəzərdən keçirdikdən sonra dedi: «Bilirsinizmi, mən Dyurerin bu əsərinin həqiqi olduğunu düşünmürəm». Qız bu xəbəri tələsik atasına xəbər verdi və maqnat möhkəm həyəcanlanmış halda Dyuvindən izahat istədi. Dyuvin gülərək dedi: «Cavan oğlan, siz təsəvvür edə bilərsinizmi ki, burada və Avropada ən azı iyirmi ekspert bu rəsmi görmüş və onun Dyurerin əsəri olmadığını bildirmişlər? İndi isə həmin səhvi siz edirsiniz». Onun inamlı səsi və nüfuzlu görkəmi fransızı çaşdırdı və o, öz səhvinə görə üzr istədi.

Dyuvin incəsənət əsərləri bazarının saxta mallarla dolu olduğunu və çoxlu tabloların səhvən köhnə rəssamların adına çıxıldığını bilirdi. O, bütün qüvvəsini hansı rəsmlərin əsl, hansılarının saxta olduğunu aydınlaşdırmağa sərf edirdi, ancaq tablonu satmağa cəhd edərək, çox vaxt şedevrin əsl olmasına öz inamını yüksəltdirdi. Onun üçün hər şeydən mühümü, alıcının Dyurerin rəsmini əldə etməsinə şübhə ilə yanaşmaması idi. Bununla da Dyuvin bütün inamlı görkəmi ilə özünün şübhə doğurmayan ekspert nüfuzunu nümayiş etdirirdi. Beləliklə, zərurət olan halda professor rolunu oynamağa hazır olmaq lazımdır, ancaq bu maskadan sadəcə zövq almaq naminə istifadə etməyə dəyməz.

İYİRMİ İKİNCİ QANUN

TƏSLİM OLMAQ TAKTİKASINDAN İSTİFADƏ ET: ZƏİFLİYİ QÜVVƏYƏ ÇEVİR

QANUNUN MƏZMUNU

Zəif olduğunuz halda, heç kimlə şərəf naminə vuruşmayın, əksinə, təslim olun. Təslim olmaq sizə yaralarınızı sağaltmaq, qalibi əldən salmaq və əsəbiləşdirmək, onun qüvvəsi tükənənə qədər gözləmək üçün vaxt qazandırır. Ona sizi sarsıtmaq və qələbə çalmaq ləzzəti almağa imkan verməyin – əvvəl təslim olduqdan sonra, bu gedişi hakimiyyəti ələ alma vasitəsinə çevirin.

QANUNUN POZULMASI

Milos adası Aralıq dənizində yerləşir. Qədim zamanlarda Afina şəhər-dövləti Yunanıstanın dəniz və sahilyanı əyalətləri içərisində hegemon idi, ancaq Peleponnesdə yerləşən Sparta qədimdən Milosun metropoliyası olaraq ona sahiblik edirdi. Peleponnes müharibələri zamanı Milosun sakinləri Afina ilə müttəfiq olmaqdan imtina etdilər və metropoliyaya sədaqətli münasibətlərini saxladılar. E.ə. 416-cı ildə afinalılar Milosa qarşı yürüşə başladılar. Ancaq onlar dağıdıcı hücuma başlamazdan əvvəl, adaya nümayəndə heyəti göndərdilər. Nümayəndə heyəti adanın sakinlərini, afinalıların onları sarsıdıcı məğlubiyyətə uğratmaları əvəzinə, Afina ilə müttəfiq olmağa razı salmalı idi.

Elçilər dedilər: «Siz bizdən də yaxşı bilirsiniz ki, ədaləti qüvvələrin nisbəti müəyyən edir və barışıq, əslində güclünün gücü çatdığını tələb etməsindən, zəifin isə, bununla razılaşmasından ibarətdir». Adanın sakinləri şərəfli oyun qaydalarının bunu rədd etdiyini bildirdikdə, afinalılar cavab verdilər ki, nəyin ləyaqətli, nəyinsə ləyaqətsiz olduğunu məhz hakimiyyət sahibləri müəyyən edir. Miloslular etiraz etdilər ki, bu, adi insanların deyil, allahların imtiyazına aiddir. Afinalı elçilərdən biri cavab verdi: «Allahlar haqqında fikirlərimiz və insanlar barədə biliklərimiz bizi belə bir nəticəyə gətirir ki, təbiətin əsas və zəruri qa-

ŞABALID VƏ ƏNCİR AĞACI

Bir nəfər əncir ağacına çıxıb, onun budağında oturaraq dadlı meyvələrini dərir, ağzına qoyaraq möhkəm dişləri ilə əzib yeyirdi. Şabalıd bunu görüb, özünün uzun budaqlarını göyə qaldırdı və həyəcanla pıçıldadı: «Eh, əncir ağacı! Sən təbiətdə məndən də köməksizsən! Bax gör mənim nəcib meyvələrim necə qorunub: əvvəlcə yumşaq qılafa bürünür, onun üstü isə, içərisi yumşaq döşənəkli möhkəm qabıqla əhatələnir. Ancaq təbiət bununla kifayətlənməyib, bizi üstəlik bir qismi iti olan tikanlarla təchiz

etmişdir, belə ki, insan əli bizə ziyan yetirə bilməz». Əncir ağacı cavabında qəhqəhə ilə gülərək dedi: «İnsanın necə ağıllı olduğu məgər sənə məlum deyilmi? O, sənin də övladlarını əlindən ala bilər, ancaq sadəcə olaraq, bu halda, o, çubuq və daşdan istifadə edərək, meyvələrini yerə tökəcək, ayaqları ilə tapdayacaq və ya daşla qıracaq, sənin meyvələrini etibarlı sığınacağından əzilmiş və şikəst edilmiş vəziyyətdə çıxaracaqdır. Məni isə, o, əllərində, səni kobudcasına tutduğu kimi deyil, ehtiyatla saxlayır».

Leonardo da Vinçi (1452–1519)

nunu, üzərində hakimlik edə bilmək mümkün olanların hamısı üzərində hakim olmağa çağırır».

Bu, milosluları inandırmadı. Onlar Spartanın Milosun müdafiəsinə qalxacağına israr edirdilər. Afinalılar onların sözünü kəsdilər: mühafizəkar, təcrübəyə əsaslanan spartalılar Milosa kömək etməyəcəkdir, çünki qələbə halında onlar heç nə əldə etməyəcəklər, ancaq məğlubiyyət halında çox şey itirəcəklər.

Nəhayət, miloslular kobud qüvvəyə qarşı çıxmağa məcbur edən şərəf və prinsiplər haqqında danışmağa başladılar. Afinalılar dedilər: «Səhv başa düşdüyünüz şərəf hissi üzündən özünüzü çıxılmaz vəziyyətə salmayın. Bəzən şərəf tam məğlubiyyətə ona görə gətirib çıxarır ki, aydın olan təhlükə hansısa şəkildə insan qüruruna toxunur. Sizə belə ağıllı şərtlər təklif edən Elladanın ən böyük dövlətinə güzəştə getməməkdən şərəfsiz heç nə yoxdur». Danışıqlar başa çatdı. Miloslular təklifi öz aralarında müzakirə etdilər və Spartanın köməyinə, allahların iradəsinə və özlərinin haqlı olduqlarına bel bağlamağı qərara aldılar. Onlar Afinanın təklifini nəzakətlə rədd etdilər.

Bir neçə gündən sonra afinalılar adanı ələ keçirmək üçün hücuma keçsələr də, əhali, hətta onların köməyinə gəlməyən spartalılar olmadan cəsarətlə vuruşdular. Afinalılar paytaxtı heç də asanlıqla mühasirəyə almağa müvəffəq olmasalar da, son

nəticədə adanı ələ keçirdilər. Afinalılar vaxt itirmədən hərbi xidmət keçməyə yararlı olan bütün kişiləri edam etdilər, qadın və uşaqları qul edib satdılar, adanı özlərinin əsarətləri altında olanlarla məskunlaşdırdılar. Adanın yalnız çox az sakini xilas olmağa müvəffəq oldu.

İZAHI

Afinalılar tarixin ən yaxşı praktikləri və praqmatikləri idilər və onlar Milosun vətəndaşları ilə mübahisədə ən tutarlı dəlillər gətirdilər: əgər siz zəifsinizsə, mənasız mübarizəyə girməklə heç nəyə nail olmayacaqsınız. Heç kim zəifin köməyinə gəlməyəcək – çünki bununla yalnız özünə zərər yetirəcəkdir. Zəiflər yalqızdır və tabe olmağa məcburdurlar. Müqavimət göstərərək, siz öz əzablarınızdan və işinizə inanmayan çoxlu insanların məhvindən başqa, heç nəyə nail ola bilməyəcəksiniz.

Zəiflik – günah deyildir, əgər ondan düzgün istifadə etməyi öyrənmək mümkün olsa, onu hətta qüvvəyə çevirmək olar. Əgər Milosun sakinləri dərhal təslim olsaydılar, onlar afinalılarla sabotaj yolu ilə mübarizə apara bilər və ya alyansdan mümkün olan bütün faydanı alıb, Afinanın mövqeyi zəifləyən kimi, dərhal ondan ayrıla bilərdi, yeri gəlmişkən, bir neçə ildən sonra elə belə də oldu – Afinanın mövqeyi zəiflədi. Tale tez-tez dəyişən olduğundan, çox vaxt güclü də süqut edə

Antifransız əhval-ruhiyyəsinin ən yüksək zirvəyə çatdığı dövrdə Volter Londonda sürgündə yaşayırdı. Bir dəfə o, küçədə gəzinti zamanı qəzəblənmiş kütlənin əhatəsinə düşdü. İnsanlar onun asılmasını tələb etdilər: «Onu dar ağacından asaq, fransızı dar ağacından asaq!» Volter mərkəzə toplaşanlara sakitcə aşağıdakı sözlərlə müraciət etdi: «İngilislər! Siz məni fransız olduğuma görə öldürmək istəyirsiniz. Məgər mən ingilis doğulmadığıma görə artıq kifayət qədər cəzalanmamışammı?» Bu sözlərə cavab olaraq

kütlənin alqış sədaları aləmi başına götürdü, Volterə toxunmayaraq, onu düz evinə qədər ötürdülər.

Klifton Fadiman «Qəhvəyi lətifə kitabçası», 1985

bilər. Təslim olmanın özündə böyük hakimiyyət gizlənir: itaətkar olmaqla düşməni arxayın salırsınız, o, sizə özünüzə gəlmək, əvəz çıxmağa hazırlaşmaq üçün vaxt verir. Şübhəli şərəfin xeyrinə bu imkandan imtina edərək, məğlubiyyətlə qurtaracağı əvvəlcədən labüd olan döyüşə girmək lazım deyildir.

Zəif adamlar, lazım gələn yerdə, heç vaxt güzəştə getmirlər.

Kardinal de Rets (1613–1679)

QANUNA RİAYƏT EDİLMƏSİ

Təxminən 1920-ci illərdə alman yazıçısı Bertold Brext kommunizm ideyasına müraciət etdi. Həmin vaxtdan onun pyesləri, esse və şeirləri inqilabi coşğunluğu əks etdirirdi. Özü də o, ideoloji mövqeyini son dərəcə dəqiq və aydın şərh etməyə çalışırdı. Hitler hakimiyyətə gəldikdə, Brext və onun kommunist həmkarları nəzarətə alındılar. Yazıçının Birləşmiş Ştatlarda çoxlu dostları – onun baxışlarına rəğbət bəsləyən amerikanlar, həmçinin Hitlerin əlindən canlarını qurtara bilmiş alman ziyalıları var idi. Brext 1941-ci ildə ABŞ-a mühacirət etdi və Los-Ancelesdə məskunlaşdı, burada o, kino ilə məşğul olaraq, yaşamaq üçün qazanc əldə etməyə ümid edirdi.

Brext sonrakı bir neçə ildə antikapitalist yönümü ifadə edən kinossenarilər yazdı.

Hollivudda onun işləri yaxşı getmədiyindən, o, 1947-ci ildə Avropaya qayıtmağı qərara aldı. Ancaq elə həmin il Amerika Konqresinin komissiyası Hollivuda sirayət edilməsi güman edilən kommunist təsiri altında antiamerikan fəaliyyəti üzrə istintaqa başladı. Komissiya marksizmə rəğbət bəslədiyini gizlətməyən Brext haqqında da materiallar toplamağa qərar verdi. 1947-ci il sentyabrın 19-da, Amerikadan getməyi planlaşdırdığı vaxta düz bir ay qalmış, yazıçı Komissiya qarşısında cavab verməli olması barədə çağırış vərəqi aldı. Brextdən başqa digər ssenariçilər, rejissorlar və prodüserlər də çağırış vərəqi aldılar. Bu qrup Hollivudun Ondoqquzları kimi məşhur oldu.

Ondoqquzlar Vaşinqtona yola düşməzdən əvvəl, hərəkət planını müzakirə etmək üçün bir yerə toplaşdılar. Onlar ittihama qarşı çıxmağı qərara aldılar. Onlar özlərinin Kommunist Partiyasına mənsub olması barədə suallara cavab vermək əvəzinə, əvvəlcədən hazırladıqları bəyanatı elan etdilər. Bu bəyanat Komissiyanın nüfuzunu şübhə altına alır və antikonstitusiya fəaliyyətində ittihamı rədd edirdi. Onlar qərara aldılar ki, bu, hətta həbs edilməyə gətirib çıxarsa belə, bu yolla aşkarlığa nail olmaq mümkündür.

Brext bu qərarla razılaşmadı. Əgər prosesdə onlar uzun illər öz pyeslərini səhnəyə qoymaq və ssenarilərini satmaq imkanından məhrum olacaqlarsa, əzabkeşi təqlid edərək, bununla ictimaiyyətin çox az hissəsinin olsa da, rəğbətini qazanmaqdan yaxşı nə ola bilər? – deyə, o soruşdu. O özlərinin ağılca Komissiya üzvlərindən üstün olduğuna əmin idi. Buna görə də, opponentlərlə diskussiyaya girərək, onların səviyyəsinə enmək lazım olmadığını deyirdi. Özlərini təslim olmağa hazır kimi göstərərək, əslində isə onları incəliklə masqaraya qoyaraq, bir növ ələ salırdı. Ondoqquzlar onlara qarşı irəli sürülən bu dəlilləri nəzakətlə dinlədilər və ancaq Brextə öz mülahizəsi üzrə hərəkət etmək imkanı verərək, nəzərdə tutulmuş planla hərəkət etməyi qərara aldılar.

Komissiya Brexti oktyabrın 30-da çağırdı. Bir qədər əvvəl Komissiya qarşısında cavab vermiş ondoqquzların davranışını

ondan da gözləyirdilər. Gözlənilirdi ki, o da mübahisə etməyə çalışacaq, suallara cavab verməkdən imtina edəcək, Komissiyanın dindirmə keçirmə hüququna etirazını bildirəcək, hətta qışqıraraq təhqirə keçəcəyi də mümkündür. Ancaq onların böyük təəccübünə rəğmən, Brext qanuna müvafiq surətdə hərəkət etdi. O, kostyum geyindi (demək olar ki, heç vaxt belə etmirdi), siqaret çəkdi (o öyrənmişdi ki, Komissiyanın sədri siqaret hərisidir), suallara nəzakət və hörmətlə cavab verdi.

Brext digər şahidlərdən fərqli olaraq, Kommunist Partiyasına mənsubluq haqqında suala cavab verdi: o bildirdi ki, Kommunist Partiyasının üzvü deyildir, bu cavab düz çıxdı. Komissiyanın üzvlərindən biri soruşdu: «Sizin bir neçə inqilabi pyes yazdığınız doğrudurmu?» Brext aşkar kommunist şüarları olan çoxlu pyes yazmışdı, ancaq o, belə cavab verdi: «Mən çoxlu antihitlerçi mahnı, şeir və pyes yazmışam, şübhəsiz, onları inqilabi hesab etmək olar, çünki əlbəttə, mən faşist rejiminin devrilməsi uğrunda çıxış edirdim». Bu fikri etirazsız qəbul etdilər.

Brext ingiliscə o qədər də pis danışmırdı, ancaq ifadə vermək üçün tərcüməçinin xidmətindən istifadə etdi və bu taktika ona incə söz oyunu aparmağa imkan verdi. Komissiyanın üzvləri onun şeirlərinin ingiliscə tərcüməsində kommunist yönümlü fikirlər tapdıqda, o, həmin misraları alman dilində tərcüməçi üçün təkrar etdi, tərcüməçi onları yenidən tərcümə etdi; nəticədə, bu misralar tamamilə zərərsiz səsləndi. Arada Komissiyanın üzvlərindən biri ingiliscə inqilabi şeir dedi və Brextdən, bu şeiri onun yazıb-yazmadığını soruşdu. O, cavabında dedi: «Yox. Mən şeirləri alman dilində yazıram, onlar isə bundan çox fərqlənir». Yazıçının yayındırıcı cavabları Komissiyanın üzvlərini narahat etdi, ancaq onun nəzakətli davranış tərzi və onların nüfuzunu etiraf etməsi üzündən, sadəcə olaraq, onun üstünə qəzəblənmək mümkün deyildi.

Bir saatdan az çəkən qısa müddətli sorğudan sonra Komissiyanın üzvləri bunun kifayət olması qərarına gəldilər. Komissiyanın sədri dedi: «Çox sağ olun, siz nümunəvi şahidsiniz». Onu təkcə azad etmədilər, həm də mühacirət hakimiyyəti orqanları tərəfindən anlaşılmazlıq olacağı halda, ona kömək edəcəklərini vəd etdilər. Ertəsi gün Brext bir daha qayıtmamaq üçün Birləşmiş Ştatları birdəfəlik tərk etdi.

İZAHI

Hollivuddan olan «Ondoqquzlar»ın davakar davranışı rəğbət doğururdu. Bir neçə ildən sonra ictimai rəy onlara haqq qazandırdı. Ancaq onlar qara siyahıya düşdüklərindən, məhsuldar yaradıcılıq işləri ilə məşğul olmaq imkanını uzun müddətə əldən verdilər. Brext özünün narazılığını Komissiyaya daha incə üsulla ifadə etdi. Onun fikirlərinin ifadə tərzi dəyişmədi və güzəştə getmədi; bunun əvəzinə, ifadə verərkən özünün Komissiyadan üstün olduğunu məharətlə nümayiş etdirdi: o, həmişə mətləbdən uzaqlaşaraq, eyni şeyi deyir və tamamilə yalan olan ətraflı cavablar verirdi. Ancaq bu cavablar eyhamlar və sözlərdən ustalıqla istifadə edilməklə elə pərdələnmişdi ki, onlara etiraz etmək mümkün deyildi. Nəticədə, o öz inqilabi əsərlərini sonralar da yazmaq imkanını saxladı (Birləşmiş Ştatların həbsxanalarında əzab çəkmək əvəzinə), onun yalançı itaətkarlığı Komissiyanı yaxşıca masqaraya qoymağa, sadəcə olaraq, kömək etdi.

Yadda saxlayın: öz nüfuzunu aşkar nümayiş etdirən adamları, özünü onlara təslim olmuş kimi göstərərək, asanlıqla ələ almaq mümkündür. Əgər siz tabe olduğunuzu açıq nümayiş etdirirsinizsə, bu, onları öz əhəmiyyətliliklərini hiss etməyə məcbur edir. Sizin hörmət etməyiniz kifayətdir ki, onlar əks hücum üçün hədəfə çevrilsinlər və ya Brext kimi onları masqaraya qoysunlar. Öz qüvvə və vaxtınızı ölçüb-biçərək, uzaq gələcəkdə də olsa, manevr etmək imkanınızı qısa müddətli əzab çəkməməyiniz naminə, heç vaxt qurban verməyin.

Mötəbər cənab yaxından keçdikdə, ağıllı kəndli baş əyərək təzim edər və yavaşca yel buraxar.

Həbəş atalar sözü

HAKİMİYYƏTİN AÇARI

Düşmənlərin və rəqiblərin hərəkətinə olduqca kəskin cavab verilməsi, hökumət idarəsində insanları tez-tez pis vəziyyətdə qoyur. Belə reaksiyanın yaratdığı çətinliklərdən yaranmış vəziyyətə düşüncə ilə yanaşsaq, yəqin ki, yaxa qurtarmağımız mümkündür. Bu, həm də, münaqişəni intəhasız uzatmaq təhlükəsi yaradır. Belə ki, öz növbəsində rəqib də, məsələn, afinalılarla Milosun münasibətində olan haldakı kimi, kəskin münasibət göstərir. Bizim birinci niyyətimiz həmişə müqavimət göstərmək, təzahür edən təcavüzə təcavüzlə cavab verməkdir. Ancaq kiminsə sizi pis vəziyyətə qoyduğu növbəti dəfə, siz əvvəlki kimi cavab verməyə hazırlaşdığınızı başa düşdükdə, aşağıdakıları etməyi sınaqdan çıxarın: müqavimət göstərməyin, cavab zərbəsi endirməyib güzəştə gedin, digər üzünüzü çevirin, fəth olunun. Siz əmin olacaqsınız ki, çox vaxt düşməni bu üsulla zərərsizləşdirmək olar – o, sizdən cavab təcavüzü gözləyir, hətta bunu istəyir, belə ki, siz müqavimət göstərməyərək, onu gözlənilmədən yaxalayır və çaşdırırsınız. Vəziyyətlə barışmaqla, siz əslində vəziyyətə nəzarət edirsiniz, çünki sizin təslim olmağınızın məqsədi düşməni zəiflətmək, onu sizə məğlub olmağa məcbur etmək planının yalnız bir hissəsidir.

Bu taktikanın mahiyyəti aşağıdakından ibarətdir: siz daxili möhkəmliyinizi saxlayır, yalnız zahirən baş əyirsiniz. Təcavüzün təzahür etməsi üçün bəhanədən məhrum olan düşmənlər çaşqınlıq vəziyyətinə düşürlər. Onlarda elə bir səbəb yoxdur ki, ondan istifadə edərək zorakılığı davam etdirsinlər, bu isə sizdən cavab olaraq, təcavüz gedişi tələb edərdi. Bunun əvəzinə, siz onlar üçün sarsıdıcı ola biləcək cavab manevrinə hazırlaşmaq üçün vaxt və məkan qazanırsınız. İntellektin kobud qüvvə və təcavüzlə mübarizəsində belə taktika çox yaxşı silahdır. Bu özünü tam ələ almanı tələb edir: əsl təslim olanlar azadlıqdan məhrum edilmək təhlükəsi ilə üzləşirlər və öz

məğlubiyyətini dərk etməyin yaratdığı həqarət məhvedici ola bilər. Yaddan çıxarmaq lazım deyil ki, siz xilas olmaq üçün özünü ölülüyə vurmuş heyvan kimi, özünüzü yalnız məğlub olmuş göstərirsiniz.

Beləliklə, gördük ki, təslim olmağın, mübarizəni davam etdirməkdən əlverişli olduğu hallar da mümkündür. Əgər düşmən çox güclüdürsə, məğlubiyyət labüddür: çox vaxt təslim olmaq qaçmaqdan yaxşı olur. Qaçmaq qısa müddət kömək edə bilər, ancaq gec-tez düşmən sizi haqlayacaq. Bunun əvəzinə, təslim olmaqla, siz düşmənə sarılmaq və dişlərinizi ona keçirib yaxın məsafədən zərbə endirmək imkanı əldə edərsiniz.

E.ə. 473-cü ildə qədim Çinin Yue çarlığının hökmdarı Qu Çjan Fuçjou yaxınlığında döyüşdə U çarlığının hökmdarı tərəfindən sarsıdıcı məğlubiyyətə uğradı. Qu Çjan gizlənmək niyyətinə düşdü, ancaq onun müşaviri başqa şeyi məsləhət gördü: təslim olmaq və U hökmdarına xidmət etməyə çalışmaq yolu ilə onu öyrənmək və əvəz çıxmağa hazırlaşmaq imkanı əldə etmək. Bu məsləhətə əməl etməyə qərar verən Qu Çjan özünün bütün sərvətini qalibə verdi və onun at tövləsində adi mehtər işləməyə başladı. Üç il ərzində o özünü itaətkar apardı və nəhayət, hökmdar onun sadiqliyini yoxlayıb, evə qayıtmasına icazə verdi. Ancaq əslində Qu Çjan bütün bu üç il ərzində məlumat topladı və cavab zərbəsini planlaşdırdı. U çarlığına dəhşətli quraqlıq üz verdikdə və daxili iğtişaşlar çarlığı zəiflətdikdə, o, ordu topladı, U çarlığına hücum edib asanlıqla qələbə çaldı. Bax, təslim olmanın gücü bundan ibarətdir: o, dağıdıcı cavab zərbəsi endirməyə hazırlaşmaq üçün sizə vaxt və məharət verir. Əgər Qu Çjan, sadəcə olaraq, qaçsaydı, bu imkanı itirmiş olardı.

XIX əsrin ortalarında beynəlxalq ticarət Yaponiyanın müstəqilliyini təhlükə altına almağa başlayanda, yaponlar ölkəni yadellilərdən necə qorumağı müzakirə etdilər. Nazirlərdən biri, Xotta Masayoşinin 1857-ci ildə yazdığı memorandum sonrakı yapon siyasətini müəyyən etdi: «...Mən hesab edirəm ki, bizim

siyasətimiz dostluq əlaqələri yaratmaqdan, gəmiləri başqa ölkələrə göndərməkdən və hər yerdə ticarət aparmaqdan, əcnəbilərin bizdən üstün olduqlarından nümunə götürməkdən, öz çatışmazlıqlarımızı aradan qaldırmaqdan, millətimizi möhkəmləndirməyin və silahlı qüvvələrimizi komplektləşdirməyin qayğısına qalmaqdan, həm də beləliklə, dünyanın bütün ölkələri bizə tam dinclik verməyənə və bizim üstünlüyümüz bütün yer üzündə etiraf edilməyənə qədər, əcnəbiləri tədricən özümüzün təsirimizə tabe etdirməkdən ibarət olmalıdır».

Qarşımızda duran qanunlar əlavələri ilə tələbatı ödəmək iqtidarındadır: düşmən üzərində üstünlük qazanmaq üçün başıaşağılıqdan və itaətkarlıqdan istifadə etmək lazımdır. Onu müfəssəl öyrənmək, yavaş-yavaş etibar qazanaraq, onun qaydalarına riayət etmək, ancaq daxilən öz fikrində qalmaq lazımdır. Siz finalda qələbə çalacaqsınız, çünki düşmən sizi zəif, ən aşağı hesab edəcək, ehtiyat tədbirləri görməyəcəkdir, siz isə bu vaxt ərzində ona çatacaq və ötəcəksiniz. Belə altdan-altdan yumşaq müdaxilə forması daha səmərəli olur. Belə ki, düşmən nəyə qarşısa durmağa, müqavimət göstərməyə və ya nə isə hazırlaşmağa zərurət görmür. Əgər Yaponiya Qərb təsirinə müqavimət göstərsəydi, bu da özünəməxsus yapon mədəniyyətini tamamilə dəyişdirəcək Qərb müdaxiləsinə səbəb ola bilərdi.

Təslim olma çox vaxt düşməni masqaraya qoymağa və ya Brextin etdiyi kimi, onların silahlarını özlərinə qarşı çevirməyə imkan verir. Milan Kunderin Çexoslovakiyanın islah koloniyalarında əldə etdiyi həyati təcrübə əsasında yazdığı «Zarafat» romanında, həbsxana mühafizəçilərinin təşkil etdiyi estafet – həbsxana işçiləri ilə məhbuslar arasında yarış barədə hekayət vardır. Nəzarətçilər üçün, bu, öz fiziki üstünlüklərini nümayiş etdirmək imkanı idi. Məhbuslar bilirdilər ki, onlardan məğlubiyyət gözləyirlər, buna görə də, özünəməxsus yol seçdilər: özlərini var qüvvə ilə çalışan kimi göstərir, əslində, güclə hərəkət edir, bir neçə metr qaçıb zəiflikdən yerə sərilir, axsayır və ya mümkün qədər ləng qaçırdılar. Mühafizəçilər isə, bu zaman onların yanından tam sürətlə yel kimi ötüb keçirdilər. Beləliklə, məhbuslar estafetdə iştirak edərək məğlub oldular, bununla özlərinin tam itaətkarlığını nümayiş etdirdilər. Ancaq onlar özlərinin «fövqəlitaətkarlıqları» ilə, faktiki olaraq, bu yarışı pozub, bütün əyləncəni masqaraya qoydular. Həddindən artıq itaətkarlıq – təslim olmaq – bu halda təzadlı üsulla üstünlüyü nümayiş etdirməyə imkan verdi. Müqavimət məhbusların bir sıra zorakı hərəkətlərinə səbəb ola bilərdi və bununla da, onlar həbsxana nəzarətçilərinə bənzəyərdilər. Məhbuslar öz düşmənlərinə qədərindən artıq tabe olmaqla, onları ələ saldılar, bu zaman isə, onları cəzalandırmaq üçün heç bir səbəb yox idi, çünki məhbuslar onlardan tələb edilən hər şeyi yerinə yetirirdilər.

Hakimiyyət – daimi hərəkət, qabarma və çəkilmədir, buna görə də, bu oyun selə bənzəyirdi: hakimiyyəti əldə etməyin çox tez-tez süqut etmə ilə əvəz edildiyi daimi mübarizə meydanıdır. Əgər siz yorğunluq hiss edirsinizsə, təslim olmaq yolu ilə manevr etmək, sizə yenidən ayağa qalxmağa kömək edər – mövqelərin könüllü verilməsi sizin iddialarınızı pərdələyir, sizə bu oyunda ən lazımlı vərdişlər olan dözüm və özünə nəzarəti öyrədir, düşmənə qəfil zərbə vurmağa imkan verən ən əlverişli mövqe tutmağa kömək edir. Əgər siz qaçırsınızsa və ya döyüşü davam etdirirsinizsə – bu, məğlubiyyətə gətirər; təslim olursunuzsa – bu, şanlı qələbəyə çevrilər.

OBRAZ:

PALID

Küləyə müqavimət göstərən, budaqları bir-birinin ardınca qırılan palıd öz gövdəsini heç nə ilə qoruya bilmir və gec-tez şaqqalanıb yıxılır. Əyilən palıd isə çox yaşayır, onun gövdəsi getdikcə yoğunlaşır, kökləri isə dərinliklərə işləyir və onu daha da möhkəm edir.

MÖTƏBƏR FİKİR

«Siz eşitmisiniz ki, gözə görə göz və dişə görə diş çıxarılmalıdır. Mən isə sizə deyirəm: şərə müqavimət göstərmə. Kim sənin sağ üzünə sillə vurursa, sol üzünü çevir; kim səni mühakimə etmək və sənin köynəyini istəyirsə, üst geyimini də ona ver; kim səni özü ilə meydana getməyə məcbur edirsə, onunla iki dəfə get».

(Matfeyə görə İncil 5:38–41)

MEDALIN İÇ ÜZÜ

Təslim olmanın məqsədi özünü əlverişli vaxta qədər salamat saxlamaqdır. Adətən əzabdan xilas olmaq üçün təslim olanda, elə bir şərait də yaranır ki, düşməni yumşaltmaq mümkün olmur. Bundan başqa, əgər siz ölümə üstünlük verirsinizsə, ardıcıllarınız bundan güc və ilham ala bilərlər.

Hər bir halda əzabkeşlik, yəni təslim olmanın əks tərəfi, qarmaqarışıq, aydın olmayan taktikadır, üstəlik bunda onun qarşı durduğu təcavüzdən az olmayan zorakılıq da vardır. Hər bir məşhur əzabkeşə digər min naməlum əzabkeş düşür. Onların əzabları nə dini hissləri, nə də qiyamları alovlandırmadı. Buna görə də, əzabkeşlik bəzən müəyyən qüvvə versə də, bu kortəbii olduğundan, bunun baş verib-verməyəcəyini əvvəlcədən görmək mümkün deyildir. Vacibi odur ki, bu qüvvə yaranarsa, ondan həzz almaq üçün siz onunla bir yerdəsiniz. Ümumiyyətlə, əzabkeşlərdə bəzən xudbinlik və lovğalıq hiss olunur, bəzən elə görünür ki, ardıcılları onlar üçün özlərinin şəxsi şöhrətindən az əhəmiyyətlidir.

Əgər hakimiyyət sizi düşkün vəziyyətə salmışdırsa, ən yaxşısı bu qanunun əks tərəfinə müraciət etməyin. Əzabkeşlik barədə unudun: rəqqas yelləncək gec-tez sizi yenidən yuxarı qaldıracaqdır. Buna nail olmaq üçün sağ qalmaq lazımdır.

İYİRMİ ÜÇÜNCÜ QANUN

ÖZ QÜVVƏLƏRİNİ CƏMLƏŞDİR

QANUNUN MƏZMUNU

Öz qüvvə və enerjinizi qoruyun, onları artırın və cəmləşdirilmiş şəkildə saxlayın. Siz zəngin mədən kəşf edərək və onu dərinləşdirərək, dayaz şaxtanın birindən o birinə keçməklə, əldə edə biləcəyinizdən artıq şeylər əldə edərsiniz – intensiv (kəmiyyətcə deyil, keyfiyyətcə artan) işləmə istənilən halda ekstensiv (keyfiyyətcə deyil, kəmiyyətcə artan) işləməni üstələyir. Sizi yüksəldəcək qüdrət mənbəyi axtararaq, bir əsas açar – məhsuldar inək tapın və o, uzun müddət ərzində sizi südlə təmin edəcək.

QANUNUN POZULMASI

Eramızdan əvvəl VI əsrdə Çində U çarlığı qonşu şimal əyalətlərini əhatə edən Orta Çarlığa qarşı müharibəyə başladı. U çarlığı inkişaf edir, hakimiyyəti güclənirdi, ancaq o, yüz illər boyu Çin sivilizasiyasının mərkəzi olmuş Orta Çarlığın böyük tarix və mədəniyyəti səviyyəsinə yüksələ bilmirdi. U çarlığının hökmdarı Orta Çarlıq üzərində qələbə çalmaqla, öz nüfuzunu tez bir zamanda qaldırmaq istəyirdi.

Hərbi yürüş güclü şeypur səsləri və çoxsaylı qələbələrlə başlandı, ancaq olduqca tez bir zamanda məlum oldu ki, U çarlığının ordusu bir cəbhədə qələbə çalsa da, digər cəbhə müdafiəsiz qalmışdır. U çarlığı hökmdarının birinci naziri və müşaviri U Szun-syuy xəbərdarlıq etdi ki, onlardan cənubda yerləşən barbar dövlət Yue çarlığında U çarlığına qarşı düşmənçilik müşahidə olunur və ölkəni ələ keçirmək üçün planlar qurulur. Hökmdar belə bir qorxuya yalnız istehza etdi: daha bir böyük qələbə və Orta Çarlıq ona məxsus olacaqdır.

Tezliklə U Szun-syuy öz oğlunu Çu çarlığına təhlükəsiz yerə göndərdi. O, bu hərəkəti ilə hökmdara işarə vurdu ki, müharibəni təqdir etmir. Hökmdarın şöhrətpərəstliyi və xudbinliyinin isə, U çarlığını iflasa uğradacağından ehtiyatlanır. Hökmdar bunu satqınlıq kimi qəbul etdi, naziri sədaqətli olmamaqda təqsirləndirərək, onun üstünə düşdü, coşğun qəzəbinin təsiri altında ona intihar etmək əmri verdi. U Szun-syuy əmrə tabe oldu, ancaq xəncəri sinəsinə sancmazdan əvvəl qışqırdı: «Hökmdar, mənim gözlərimi çıxar və onları U çarlığının darvazasında uca yerə qoymağı əmr et ki, mən Yue qoşunlarının bu darvazadan zəfərlə daxil olduğunu görüm».

U Szun-syuyun əvvəlcədən dediyi kimi, bir neçə il sonra Yue çarlığının qoşunları U çarlığına daxil oldu. Barbarlar sarayı mühasirəyə aldıqda hökmdar öz müşavirinin son sözlərini xatırladı və ona elə gəldi ki, müşavirin çıxarılmış gözləri onun şərəfsiz vəziyyətini görür. Rüsvayçılığı görməyə gücü çatmayan hökmdar özünü öldürdü və «o dünyada öz nazirinin baxışlarına tuş gəlməmək üçün sifətini örtdü».

İZAHI

U çarlığının tarixi – həddindən artıq genişlənərək süqut edən bütün imperiyaların modelidir. Öz qələbələrindən və şöhrətpərəstliyindən başı gicəllənən belə imperiyalar, həqiqi mənada ölçüyəgəlməz dərəcədə böyüyür və hər şey onun dağılması ilə qurtarır. Uzaq Siciliya adasını əldə etməyi ehtirasla arzulayan və imperiyasını itirən qədim Afinada da belə olmuşdur. Romalılar geniş əraziləri öz imperiyalarına qataraq, sərhədləri genişləndirirdilər. Onların bu cür hərəkəti, ölkəyə yeni-yeni barbar tayfaların hücum təhlükəsini artırırdı. Məqsədsiz işğalçılıq, nəticədə imperiyanın məhvinə səbəb oldu.

ERKƏK QAZ VƏ AT

Çəmənlikdə ot yeyən erkək qaz atla qonşuluq etməyi özünə təhqir hesab edərək, ondan kənarlaşdı. Otdan yeyə-yeyə acıqla ata dedi: «Mən, əlbəttə ki, səndən nəcib və kamil heyvanam, çünki sənin bütün imkanın və qabiliyyətin təkcə bir şeydən ibarətdir. Mənsə sənin kimi yerdə gəzə bilirəm, ancaq mənim üstəlik qanadlarım da vardır, onunla havaya qalxıram. Əgər mən istəsəm, çaylarda və göllərdə üzərək, sərin suda təravətlənə bilirəm. Mən quşun, balığın və dördayaqlının xüsusiyyətlərinə malikəm». At nifrətlə fınxıraraq cavab verdi: «Sən üç xüsusiyyətə malik olsan da, ancaq onların heç birinə layiq deyilsən. Sən uçursan, bu doğrudur, ancaq bu uçuş elə ağır və inamsızdır ki, bu, sənə özünü torağay və ya göyərçinə bərabər tutmaq hüququ vermir. Sən suyun səthində üzə bilirsən, ancaq balıq kimi suda yaşamağa qadir deyilsən. Sən bu xüsusiyyətinlə nə özünü doydura bilirsən, nə də dərinliyə baş vura bilirsən. Sən yerdə gəzərkən, daha dəqiq desək, özünün əyri olan qısa pəncələrin üzərində basa-basa yeriyərək, qarşına çıxanları dişləyirsən ki, bu da səni görən hər kəsdə

yalnız gülüş yaradır. Mən özümün, həqiqətən, yerdə minik vasitəsi üçün yaradıldığımı etiraf edirəm, ancaq mənim bədən quruluşum necə də incədir! Mənim gücüm nə qədər də böyükdür! Mənim sürətim necə də heyrətamizdir! Bir qabiliyyətə malik olmaq və onu çox gözəl bacarmaq, hər yerdə erkək qaz olmaqdan yaxşıdır!»

Con Aykin (1747–1822), «Təmsillər», Bokkaçço və Çoserdən

Bizim Çinlə bağlı misalımıza gəldikdə isə, U çarlığının taleyi, məkan və zamanca müvəqqəti qələbə çalmaq naminə potensial təhlükəni qulaqardına vuraraq, qüvvəsini bir neçə cəbhədə məsrəf edərək, süquta uğrayanlar üçün adi ibrət dərsidir. Sun-szı öyrədirdi: «Əgər sənin üçün təhlükə yoxdursa, döyüşmək lazım deyildir». Bu, demək olar ki, fizika qanunudur: öz çərçivəsindən çıxaraq həddindən artıq böyüyən hər şey labüd olaraq dağılır. Ağıl öz məqsədini tez-tez dəyişməməli və ya müvəffəqiyyət ehtiyat və məqsədyönlülük hissini itirməyə məcbur etməməlidir. Qüvvəsini cəmləşdirən, işində ardıcıldır və keçmişlə əlaqəsini itirməyənlər, hakimiyyətə malik olur. Nizamsız, başlı-başına, dağınıq və təşəxxüslü olanların işləri pozulur və süqut edirlər. Onlar nə qədər çox böyüyürlərsə, yerə bir o qədər zərblə dəyirlər.

QANUNA RİAYƏT EDİLMƏSİ

Rotşild bankir ailəsi Frankfurtun yəhudi gettosunun (məhəlləsinin) kasıbları içərisindən çıxmışdır. Alman şəhərinin sərt qanunu yəhudilərə gettonun hüdudlarından kənara çıxmağı qadağan edirdi, ancaq yəhudilər bunu başqa istiqamətə yönəltdilər: qanun onlara öz mədəniyyətlərini, nəyin bahasına olursa-olsun, saxlamalarına böyük inam verdi.

Meyer Amşel Rotşildlərdən ilk adam idi ki, XVIII əsrin sonunda sərvət toplayaraq,

artırmaq üçün borc verirdi. Hər şeydən əvvəl, Meyer Amşel qüdrətli knyazlar Turn və Taksisin ailələri ilə yaxınlaşdı. Müxtəlif müştərilərə xidmət etmək əvəzində, o, bu knyazların birinci bankiri oldu. İkincisi, o öz biznesinə yad adamları yaxın buraxmayaraq, yalnız uşaqlarını və yaxın qohumlarını cəlb etdi. Ailə nə qədər sıx birləşərsə və bütöv olarsa, bir o qədər qüdrətli olar. Biznes işini tezliklə Meyer Amşelin beş oğlu aparmağa başladı. Meyer Amşel 1812-ci ildə ölüm yatağında onlardan birini əsas varis adlandırmaqdan imtina etdi. Bunun əvəzinə, o, ailə ənənələrini davam etdirməyi, bir yerdə olmağı, israfçılıq təhlükəsindən qorxmamağı və yadların müdaxilə etməsinə yol verməməyi vəsiyyət edərək, işi onların hamısına tapşırdı.

Hədər yerə qüvvə sərf etməkdən özünü qoru, daim onu toplayıb artırmağa çalış. Dahi hesab edir ki, o, başqalarının etdikləri hər şeyi edə bilər, ancaq ona, çox güman, hər bir ədalətsiz mühakimədə peşman olmaq lazım gələcəkdir.

İohann Volfqanq Höte (1749–1832)

İşlərin idarə edilməsini Meyer Amşeldən qəbul edən oğullar qərara aldılar ki, özlərini bir ölkə və ya knyaz ailəsi ilə bağlamayıb, bütövlükdə Avropanın maliyyə işlərində möhkəm mövqe tutsalar, sərvətlərini əhəmiyyətli dərəcədə artıra bilərlər. Qardaşlardan biri – Natan artıq Londonda mağaza açmışdı. 1813-cü ildə Ceyms Parisə köçdü. Amşel Frankfurtda qaldı, Solomon Vyanada məskunlaşdı, kiçik qardaş Karl isə Neapola getdi. Onlar bütün nüfuz dairələrini vahid halda birləşdirib, Avropanın maliyyə bazarlarında öz mövqelərini möhkəmləndirməyə müvəffəq oldular.

Qüvvələrin belə geniş şəbəkəsi, şübhəsiz, Rotşildləri atalarının ehtiyatlı olmağı tövsiyə etdiyi israfçılıq, dağınıqlıq, bölünmə təhlükəsi üçün kövrək etdi. Onlar bir daha getto strategiyasını – yadları qəbul etməməyi, öz qüvvələrini cəmləşdirməyi – tətbiq edib, bu təhlükədən yaxa qurtardılar və Avropa maliyyəsində və siyasətində qüdrətli qüvvə kimi bərqərar oldular. Rotşildlər Avropada hadisələr haqqında yenilikləri bütün rəqiblərindən əvvəl bilməyə imkan verən ən sürətli kuryer sistemini işləyib hazırladılar. Onlar faktik olaraq, informasiya inhisarının sahibi oldular, yazışmaları isə idiş dilinin Frankfurt dialektində aparırdılar, yazışmalar elə kodlaşdırılmışdı ki, onu yalnız qardaşların özləri aça bilərdilər. Onların məktublarını ələ keçirməyin mənası yox idi – heç kim onu başa düşə bilməzdi. Rotşildlər klanına nüfuz etməyə cəhd etmiş bir maliyyəçi deyirdi: «Hətta ən görkəmli bankirlər belə, Rotşildlər labirintinə yol tapa bilməzlər».

1824-cü ildə Ceyms Rotşild evlənmək vaxtının çatdığı qərarına gəldi. O, bu məsələni ailəsi ilə müzakirə etdi, axı söhbət Rotşildlər klanına onların sirlərini sata biləcək yad adamın daxil ola bilməsindən gedirdi. Buna görə də, Ceyms özünə həyat yoldaşını ailə daxilində tapmağı qərara aldı və böyük qardaşı Solomonun qızını seçdi. Qardaşlar heyran olmuşdular – onlar bunu evlənmək haqqında məsələnin çox gözəl həlli hesab etdilər. Ceymsin seçimi bundan sonra ailənin digər üzvləri üçün də davranış xəttinə çevrildi. İki il sonra Natan öz qızını Solomonun oğluna ərə verdi. Sonrakı illərdə beş qardaş öz uşaqları arasında on səkkiz nikah bağladılar, bunların on altısı əmi oğlular və əmi qızları arasında bağlanmışdı.

Qardaşlardan biri Solomon deyirdi: «Biz saat mexanizmi kimiyik: hər bir detal zəruridir». Saatda olduğu kimi, biznesin hər bir bölməsi qalan bölmələrlə harmoniyada inkişaf edir, daxildəki işi isə, yalnız əqrəb hərəkətini müşahidə edən xarici aləm görmür. Digər varlı və qüdrətli ailələr XIX əsrin birinci yarısındakı coşğun ağır maliyyə sarsıntılarından zərər çəkdikləri zaman, sıx birləşmiş Rotşildlər, nəinki təkcə buna davam gətirə bildilər və həm də, özlərinin böyük sərvətlərini ağlagəlməz dərəcədə artırdılar.

İZAHI

Rotşildlər qeyri-adi bir zamanda meydana çıxmışdılar. Onlar əsrlər boyu dəyişilməyən yerdən çıxmış, ancaq sənaye və Fransa inqilabının, habelə çoxsaylı dəyişikliklərin baş verdiyi əsrdə yaşamışdılar. Rotşildlər öz keçmişlərini unutmadılar, dövrlərinin dağınıqlıq meylinə qarşı durmaqla, sıx birləşmək qanununun rəmzinə çevrilə bilərlər.

Qardaşlardan Parisdə məskunlaşan Ceyms Rotşild bu qanunu hamıdan yaxşı nümayiş etdirə bilmişdi. Ceyms öz həyatı ərzində Napoleonun süqutunu, Burbonlar monarxiyasının bərpasını, Orlean hersoqunun burjua monarxiyasını və nəhayət, III Napoleonun hakimiyyətə çıxmasını görmüşdü. Fransız qaydası və dəbi ağlagəlməz ahənglə dəyişirdi, hər şey yelləncək kimi hərəkət edirdi. Keçmişin donuq qalığı kimi görünməkdən qorxmayan Ceyms öz ailəsini elə idarə edirdi ki, sanki onun daxilində getto yaşayırdı. O öz klanının daxili sarsılmazlığını, intizamını və möhkəmliyini saxlayırdı. Yalnız lövbər kimi keçmişdən belə möhkəm yapışaraq, ümumi qarışıqlıq içərisində ailə daha da inkişaf edərək, çiçəklənmə vəziyyətində oldu. Qüvvələrin bir yerə cəmlənməsi Rotşildlərin hakimiyyətinin, sərvətinin və sabitliyinin əsası idi.

Ən yaxşı strategiya – həmişə ən güclü olmaqdır; əvvəlcə ümumi, sonra həlledici məsələlərdə... Öz qüvvələrini cəmləşdirmək zərurətindən daha yüksək və sadə qanun yoxdur... Birinci prinsip qısa şəkildə belə səslənir: qüvvələrini son dərəcə cəmləşdirməklə hərəkət et.

«Müharibə haqqında», Karl fon Klauzevis (1780–1831)

HAKİMİYYƏTİN AÇARI

Dünya ölkə, siyasi qruplar, ailə daxilində, hətta ayrı-ayrı şəxsiyyətlər arasında baş verən və getdikcə artan bölünmə və ya parçalanma proseslərindən zərər çəkir. Biz hamımız tam dağınıq vəziyyətdəyik, minlərlə başqaları bizi özlərinə tərəf çəkməyincə, özümüzü heç cürə cəmləşdirə, öz fikirlərimizi bir istiqamətə yönəldə bilmirik. Müasir dünyada münaqişə səviyyəsi hər hansı vaxtda olduğundan yüksəkdir və bütün bunlar özümüzün şəxsi həyatımızı çulğalamışdır.

Özünə, keçmişə, fikirlərin və hərəkətlərin daha cəmlənmiş formasına qayğı bunun həlli ola bilər. Napoleon qüvvələri cəmləşdirməyin və düşmənin zəif həlqəsinə zərbə endirməyin vacibliyini bilirdi – döyüş meydanlarında onun uğurlarının sirri bu idi. Məqsədyönlülük, imkanları bütünlüklə qarşıda duran məsələlərin həllinə cəmləşdirmək və bütün bu keyfiyyətləri daha az məsrəflə yerinə yetirmək, bunun çaşqınlıq vəziyyətdə olan adamlara tətbiq edilməsi həmişə öz hədəfini tapır və hər dəfə düşməni məhv edir.

Kazanova həyatdakı uğurlarını vahid məqsədə doğru özünü cəmləşdirmək və ona nail olana qədər mübarizə aparmaq qabiliyyətində görürdü. O özünü xoşladığı qadınlara tamamilə həsr etmək qabiliyyəti ilə onlarda qarşısıalınmaz heyranlıq yaradırdı. Bu qadınlardan birinin onun diqqət mərkəzində olduğu həftələr və ya aylar ərzində o, başqa heç kim barədə düşünmürdü. O, Venesiya başçısının məkrlə tutqun sarayında hələ heç kimin qaçmağa müvəffəq olmadığı həbsxanaya atılarkən, özünü bircə məqsədə – qaçmaq barədə düşünməyə cəmləşdirdi. Aylarla lağım ataraq, çəkdiyi zəhməti heç edən kamerasının dəyişdirilməsi onu ruhdan salmadı. O, geri çəkilmədi və nəhayət, həbsxanadan qaçdı. O, sonralar yazırdı: «Mən inanırdım ki, adam nəyəsə nail olmaq barədə düşünür və yalnız bununla məşğul olursa, çətinliklərə baxmayaraq, hökmən buna nail olacaq: bu adam baş vəzir və ya Roma papası da ola bilər».

Qüvvələrinizi vahid məqsədə cəmləyin və öz planınızın tam həyata keçməsinə nail olun. Hakimiyyət dünyasında sizin, bir qayda olaraq, daha qüdrətli olan ətrafdakılarınızın köməyinə ehtiyacınız olacaqdır. Axmaq adam adətən bir yerdən digərinə pərvazlanaraq, bu cür dağınıq hərəkət etməklə, daha yaxşı yaşaya biləcəyinə inanır. Ancaq qüvvələri cəmləşdirmək qanunundan çıxan nəticədə deyilir ki, hakimiyyətin müəyyən bir mənbəyinə bağlanmaqla, çox qüvvə saxlamaq və daha çox hakimiyyət əldə etmək mümkündür. Alim Nikola Tesla bir deyil, çoxlu ağaya xidmət etməklə, öz müstəqilliyini saxlayacağına inandığına görə, iflasa uğradı. Tesla, hətta ona əlverişli müqavilə təklif etmiş C.Morqandan imtina etdi. Əslində isə, Teslanın «müstəqilliyi» göstərirdi ki, o, bir konkret ağanın himayəsindən imtina edərək, daima onlarla başqasına yarınmaq məcburiyyətində idi. O, həyatının sonunda öz səhvini başa düşdü.

İntibah dövrünün bütün böyük rəssam və yazıçıları bu problemlə qarşılaşmışlar. Ancaq bu qarşılaşma hamıdan daha çox XVI əsr yazıçısı Pyetro Aretinonun həyatında daha dərin iz qoymuşdur. Aretino özünün bütün həyatı boyu gah bu, gah da digər knyaza alçaldıcı yarınmaq zərurətindən əziyyət çəkmirdi. Nəhayət, o, buna son qoymağı qərara alır və öz qələmi ilə V Karla xidmət edəcəyini vəd edərək, imperatorun himayəsinə sığınır. O, hakimiyyətin bir mənbəyinə sadiq olan zaman yaranan azadlığı əldə etdi. Mikelancelo öz azadlığını papa II Yuli, Qaliley Mediçi sülaləsi ilə tapdı. Yeganə himayədar sizin sədaqətinizi qiymətləndirər və sizin uğurlarınızdan asılı olar: nəticədə isə, ağa öz quluna xidmət edər.

Nəhayət, hakimiyyət öz-özlüyündə cəmlənmiş formalarda mövcuddur. İstənilən təşkilatda idarəçilik sükanı adamların kiçik bir qrupunun əlində cəmlənir. Çox vaxt onların titulsuz olmaları reallıqdır. Hakimiyyət oyununda ancaq axmaq öz qüvvəsini hədəfə yönəltməyi bacarmayıb, onun yanından ötür. Siz hərəkətə kimin rəhbərlik etdiyini, pərdə arxasında kimin rejissorluq etdiyini aydınlaşdırmalısınız. Rişelye özünün yüksəlişi-

nin lap başlanğıcında hiss etdi ki, XVII əsrin əvvəlində Fransanın siyasi səhnəsində hamını kral XIII Lüdovik deyil, onun anası idarə edir. Buna görə də, o, kralın anasının himayəsinə sığındı və saray adamlarının başının üstündən adlayaraq, zirvəyə doğru irəlilədi.

Bir dəfə ocağınızı yandırmağınız kifayətdir ki, ömrünüzün axırına qədər qızınasınız – sərvət və hakimiyyətlə təmin olunasınız.

OBRAZ:

OX

Siz bir oxla iki hədəfi vura bilməzsiniz. Əgər sizin fikirləriniz dəyişirsə, düşmənin ürəyinə zərbə endirə bilməyəcəksiniz. Fikir və ox bir bütöv halında qovuşmalıdır. Fikri və fiziki qüvvələrin yalnız belə cəmləşməsinə nail olaraq, siz öz oxunuzla hədəfi vurar və ürəyi dəlib keçərsiniz.

MÖTƏBƏR FİKİR

«Genişlikdən artıq, dərinliyə fikir ver. Mükəmməllik miqdarla deyil, keyfiyyətlə müəyyən edilir. Düzəngahda öz-özünə dağ əmələ gələ bilməz. Bu ümumi geniş maraqları olan insanların bədbəxtliyidir: bir neçə dovşanı qovaraq, heç birini tuta bilmirlər. Dərinlik yuxarıya can atmağa və qüdrətli qəhrəmanlar səviyyəsinə ucalmağa imkan verir».

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

Qüvvələri cəmləşdirməyin özünün təhlükəli cəhətləri vardır, qüvvələri geniş sahəyə səpələməyin ən düzgün taktika olduğu vaxtlar da olur. Çində hakimiyyət uğrunda millətçilərlə mübarizə aparan Mao Tsze Dun və kommunistlər çoxlu cəbhələrdə uzun çəkən müharibə apardılar, onların əsas silahı təxribat və pusqu idi. Qüvvələri səpələmək çox vaxt

daha zəif tərəfə əlverişlidir, mahiyyət etibarı ilə bu, partizan müharibəsinin əsas prinsipidir. Daha güclü ordu ilə mübarizədə qüvvələrin cəmləşdirilməsi, sizi yalnız əl çatan hədəfə çevirir – bu halda ən yaxşısı ətrafdakılara qarışmaq və sizi tapmaq qabiliyyəti olmayan düşmən qüvvələrində qarışıqlıq yaratmaqdır.

Özünü hakimiyyətin bir mənbəyi ilə bağlamağın təhlükəsi də vardır: əgər sizin himayədarınız ölsə və ya mərhəmət göstərməsə, siz əziyyət çəkəcəksiniz. Hakimiyyəti atası papa VI Aleksandrdan irsən alan Çezare Borcianın başına məhz belə iş gəldi. Papa Aleksandr oğluna ordu verdi, o vuruşdu və atasının adı ilə torpaqlar fəth etdi. Aleksandr qəflətən öldükdə (zəhərdən ölməsi istisna deyil), həmçinin Çezare də sanki öldü. O, uzun illər ərzində həddindən artıq çox düşmən qazanmışdı. O, atasının köməyindən və müdafiəsindən də məhrum oldu. Müdafiə tələb edilən hallarda, xüsusən böyük sarsıntılar və dəyişikliklər dövründə və ya sizin çoxlu düşmənləriniz varsa, ən ağıllı qərar ətrafınızda bir neçə dayaq yaratmaqdır. Siz çox himayədara və cənaba xidmət edərsinizsə, onlardan birinin hakimiyyətdən məhrum olduğu halda, daha az təhlükəyə məruz qalarsınız. Əgər siz qüvvələrinizi bir himayədara cəmləmişsinizsə, hər halda yenə də, ehtiyat tədbirləri haqqında fikirləşməli və ağanızın və ya himayədarınızın sizi himayə etmək imkanı olmayacağı günə əvvəlcədən hazırlaşmalısınız.

Habelə, məqsədə nail olmağa həddindən artıq bağlı olduqda, dözülməz zəhlətökənə, xüsusən incəsənət sahəsində çevrilə bilərsiniz. Paolo Uçello İntibah dövründə perspektivlərin işlənib hazırlanmasına o qədər çox diqqət yetirdi ki, onun tabloları ölgün və qondarma təsir bağışladı. Əksinə, Leonardo da Vinçini dünyada hər şey – memarlıq, rəssamlıq, silah, heykəltəraşlıq, mexanika maraqlandırırdı. Hərtərəfli olması onun hakimiyyətinin mənbəyi idi. Ancaq belə dahilər nadir hallarda olur, bizim kimi adi adamlar üçün ən yaxşısı bir sahəni mükəmməl öyrənib bilməkdir.

İYİRMİ DÖRDÜNCÜ QANUN

ƏSL SARAY ADAMI KİMİ HƏRƏKƏT ET

QANUNUN MƏZMUNU

Əsl saray adamı hər şeyin hakimiyyət və siyasi məharət ətrafında dövr etdiyi dünyada firavan yaşayır. O, eyham ustalığına mükəmməl sahibdir, yalan danışır, güzəştə gedir və ən incə və yayındırıcı tərzdə başqaları üzərində öz hakimiyyətini təsdiq edir. Saray qanunlarını öyrənin və tətbiq edin – onda sizin yüksəlişinizin hüdudu olmayacaqdır.

SARAY CƏMİYYƏTİ

Hakimiyyətin ətrafında saray cəmiyyəti strukturunun öz-özlüyündə formalaşması insan təbiətinin mahiyyəti ilə izah edilir. Keçmiş saray əhli hökmdarın ətrafına toplaşırdı və hər birinin özünəmüvafiq çoxlu vəzifələri var idi: onlar hökmdarı əyləndirirdi. Kral ailəsi isə, zadəganlığa və hakim siniflərə iyerarxik münasibəti təsdiq edir, zadəganları nəzərdən qaçırmamaq üçün onları tabe vəziyyətdə saxlamaqla yanaşı, hökmdarla əlaqə yaradır. Saray əhli isə, hakimiyyətə müxtəlif üsullarla xidmət edir, ən başlıcası isə, sakinlərin hökmdara xoş gəlməsi üçün dəridən-qabıqdan çıxaraq, özünəməxsus kiçik aləm bəxş edərək, onu şöhrətləndirirdilər.

Saray adamı olmaq – təhlükəli oyundur. XIX əsr ərəb səyyahı Darfurda (müasir Sudanda) olarkən, xəbər verirdi ki, orada saray adamları sultanın etdiyi hər şeyi etməli idilər: əgər o yaralanırdısa, saray adamları da belə yaradan əziyyət çəkməli idilər; əgər o, ov zamanı atdan yıxılırdısa, onlar da yıxılırdılar. Bu cür mimikriya (prinsipsizcəsinə şəraitə uyğunlaşma) bütün dünyanın saray həyatı üçün səciyyəvi idi. Ən ciddi təhlükə hökmdarın xoşuna gəlməmək idi – bircə səhv hərəkət ölüm və ya sürgünlə nəticələnə bilərdi. Bəxti gətirən saray adamına kanat (yoğun kəndir) üzərində oynamaq lazım gəlir: xoşa gəlməyə çalışmaq, ancaq bu işdə həddin-

İKİ İT

Ağayana, səylə xidmətini yerinə yetirən sədaqətli həyət iti Barbos, özünün köhnə tanışı, qıvrım, ağ, yumşaq tüklü Jujunu, pəncərə qabağında, yumşaq pərqu balış üstündə gördü və ona yaltaqlanaraq, sanki dostu olduğunu bildirdi. O, riqqətə gələrək, az qala ağladı, pəncərə altında zingildədi, quyruğunu buladı və həm də atılıb düşdü. «Hə, Jujutka, ağa səni imarətə götürdükdən sonra necə yaşayırsan? Axı, xatırlayırsan: biz həyətdə tez-tez ac qalırdıq. Sən hansı xidməti yerinə yetirirsən?» – Jujutka cavab verdi: «Xoşbəxtliyimdən narazı deyiləm.

Ağam mənim ruhumu da incitmir; rahatlıqla və gözəl yaşayıram. Gümüş qabda yeyib-içirəm; Ağa ilə oynaqlaşıram; əgər yoruluramsa, xalçanın və yumşaq divanın üzərində uzanıram. Sən necə yaşayırsan?» Barbos quyruğunu qısaraq və mısmırığını sallayaraq cavab verdi: «Mən əvvəlki kimi yaşayıram: həm soyuğa, həm aclığa dözürəm. Ağanın evini qoruyaraq, çəpərin altında yatıram və yağış altında islanıram; Əgər yersiz hürürəmsə, kötək də yeyirəm. Juju, necə oldu ki, belə vəziyyətə düşdün, Sən gücsüz olduğun kimi, həm də balacasan, Belə çıxır ki, mən hədər yerə dəridən-qabıqdan çıxıram? Sən nə ilə məşğulsan?» Juju istehza ilə gülərək cavab verdi:
– «Nə ilə məşğulam! Çox gözəl işlə! Mən dal ayaqlarım üstündə gəzirəm».

İvan Krılov (1768–1844), «Təmsillər»

dən artıq səy göstərməmək; tabe olmaq, ancaq hansısa şəkildə başqa saray adamlarından, hökmdarın özünü narahat hiss etməməsi dərəcəsində fərqlənməyə çalışmaq lazımdır.

Böyük saray əyanları, tarixin bütün gedişi müddətində adamlara hiylə gəlmək elmini mükəmməl mənimsəyirlər. Onlar hökmdarların özlərini daha əzəmətli hiss etməyə və bütün qalanlarını onların qüdrətindən qorxmağa məcbur edirlər. Vəziyyəti duymaq sehri əlində olanlar, demək olar ki, sarayda zahiri əlamətlərinə görə mühakimə yürüdülən hər şeydən xəbərdardırlar. Əsl saray əyanları nəzakətli və ədəblidirlər, onların düşmənçiliyi üstüörtülü və qeyri-müəyyən olur. Dünyanın bu hakimləri komplimentdən (tərifli sözdən) və ya üstüörtülü təhqirdən mümkün olan hər şeyi götürərək, heç vaxt lazım olandan artıq danışmırlar. Cazibə qüvvəsinə malik olan bu adamlar onlarla bir sırada olmağı istəyirlər, çünki onlar yaltaqlıq etmədən və alçalmadan qulluq göstərməyi bacarırlar. Əsl saray əyanları öz vəziyyətlərinin bütün üstünlüklərindən istifadə edərək, hökmdarların sevimlisinə çevrilirlər. Onlar çox vaxt qüdrətli hökmdara çevrilirlər, çünki öz təsirlərini məharətlə toplaya və gücləndirə bilirlər.

Bu gün çoxları saray həyatını keçmişin qalığı, tarixin maraqlı hadisəsi hesab edərək, onu layiqincə qiymətləndirmir. Onlar Makiavellinin yazdığı kimi, mühakimə edirlər: «sanki göy, günəş, elementlər və insanlar öz orbitlərinin hərəkət qaydasını dəyişmişlər və qədim zamanlardakından fərqli olmuşlar». Ola bilsin ki, yerdə başqa Günəş-Kral meydana çıxmayacaqdır, ancaq hələ də çoxlu adamlar günəşin onların ətrafında fırlandığına inanırlar. Hökmdar sarayını, çox güman, az və ya çox dərəcədə vaxtı keçmiş, maksimum əhəmiyyətini itirmiş hesab etmək olar, ancaq hakimiyyət mövcud olduğundan, saraylar və saray adamları hər halda yenə də mövcuddur. İndi saray adamını nadir hallarda atdan yıxılmağa məcbur edirlər, ancaq saray siyasətini tənzimləyən qanunlar, hakimiyyət qanunları kimi əbədidir. Buna görə də, keçmişin və indinin böyük saray adamlarından nəyə görə və nəyi öyrənəcəyimiz şeylər vardır.

SARAY SİYASƏTİNİN QANUNLARI

Özünü gözə soxma. Özü haqqında çox danışmaq və ya öz hərəkətlərinə həddindən artıq diqqət yetirməklə, nəzəri cəlb etmək – həmişə ehtiyatsızlıqdır. Siz öz işlərinizi nə qədər çox açıqlayırsınızsa, bir o qədər çox şübhə doğurursunuz! Bütün qalan şeylərlə yanaşı, firavanlığı və xoşbəxtliyi göz qabağına qoymaq, sizinlə eyni vəziyyətdə olanlarda paxıllıq yarada bilər. Öz nailiyyətləriniz haqqında danışarkən,

ehtiyatlı olmaq barədə düşünün və özünüz haqqında başqaları barədə danışdıqlarınızdan az danışmaq qaydasına əməl edin. Adətən, təvazökarlıq daha cəlbedicidir.

Qayğısız ol. Həddindən artıq işlədiyinizi heç vaxt göstərməyin. Sizin istedadınız təbii, rəvan görünməlidir – onda sizi dahi hesab edəcəklər, işlək adam kimi tanınmaqdansa, bu yaxşıdır. Hətta sizdən nəyinsə üzərində yaxşıca işləmək, tər tökmək tələb edilirsə, çalışın ki, sizin səyləriniz nəzərə çarpmasın – adamlar ağır əməyin yaratdığı qanlı qabarları görməyi xoşlamırlar. İnsanlar bunu, sadəcə olaraq, lovğalığın bir növü hesab edirlər. Onlara sizin məqsədinizə necə asan və incəliklə nail olmağınıza özlərinin heyran olmaları, bunun hansı cəhənnəm əzabına başa gəlməsini görmək dəhşətindən daha xoşdur.

Yaltaqlıqda həddini bil. Elə görünə bilər ki, mövqeyinə görə sizdən yüksəkdə dayanana həddindən artıq yaltaqlıq etmək ola bilər, ancaq yadda saxlamaq lazımdır ki, hətta ən yaxşı şeylər həddindən artıq çox olduqda, qiymətini itirir. Bundan başqa, bu, sizə bərabər olanlarda şübhə doğura bilər. Dolayı yolla yaltaqlıq etməyi öyrənin – məsələn, öz nailiyyətinizi azaldın və ya rəhbərinizə daha yaxşı görünməyə kömək edin.

Sənə diqqət yetirilməsi qayğısına qal. Bizim qarşımızda paradoksal (təzadlı) bir vəziyyət var: sırtıqcasına gözə girmək düzgün addım deyildir və hər halda, diqqəti cəlb etmək üçün müvafiq tədbir görmək lazımdır. XIV Lüdovikin sarayında kralın nəzər yetirdiyi istənilən saray adamı bir an içində iyerarxiya pillələrində yüksəyə ucala bilərdi. Hökmdarın çoxlu saray xadimləri içərisindən diqqət yetirmədiyi şəxsin isə, yuxarı qalxmaq üçün heç bir şansı yox idi.

Bu məsələ böyük ustalıq tələb edir. Çox vaxt, lap başlanğıcda, sizin hiss edilməyiniz həqiqətən lazımdır. Buna görə də, özünün xarici görkəminə diqqət yetirmək və səciyyəvi, hamıdan fərqlənən – üslub və tərz yaratmağa çalışmaq lazımdır.

Kimlə iş görməyindən asılı olaraq, ünsiyyət üslubunu və dilini dəyiş. Bərabərliyə yalan inam – sivil adamın tutduğu mövqedən asılı olmayaraq, hamı ilə eyni cür danışmasını və özünü aparmasını təsdiq etmək – əslində, mənhus səhvdir. Dərəcəyə görə sizdən aşağı olanlar bunu mərhəmətin təzahürü kimi qəbul edəcəklər, onlar bunda haqlıdırlar, sizdən yuxarıda olanlar, ola bilsin, etiraf etməsələr də, bundan inciyəcəklər. Hər bir yeni həmsöhbətlə üslub və dili dəyişmək lazımdır. Bu, yalan deyildir, yalnız hiyləgərlikdir, hiyləgərlik isə Allah vergisi deyil, sənətdir. Belə sənəti öyrənin. Bu qayda, həmçinin müasir sarayda rast gəlinən çoxsaylı müxtəlif mədəniyyətlər üçün doğrudur: heç vaxt sizin davranış meyarınızın və mühakimənizin universal olduğunu hesab etməyin. Başqa mədəniyyətə uyğunlaşmağı bacarmamaqla siz təkcə yüksək barbarlıq nümayiş etdirmirsiniz və həm də pis vəziyyətə düşürsünüz.

Pis xəbərlər gətirmə. Kral pis xəbərlər gətirən çaparı edam etməyi əmr edir. Bu basmaqəlib qaydadır, ancaq düzgün qaydadır. Çaparın taleyinə düşən fəlakətin sizin deyil, həmkarınızın başına gəlməsi üçün siz mübarizə aparmalısınız, əgər lazım gələrsə, yalan danışmalı və fikirlərinizdən dönməlisiniz. Yalnız yaxşı xəbərlər gətirin və bununla ağanızı sevindirin.

Təklif verməməkdən və rəhbərinlə yaxınlığını nümayiş etdirməkdən çəkin. Ona asılı adam əvəzinə dost lazım deyildir, ona asılı adam lazımdır. Heç vaxt onun yanına özbaşına, təklifsiz getməyin və dostluq münasibətlərinizi xüsusi olaraq nəzərə çarpdırmayın – bu, onun müstəsna hüququdur. Əgər o, bu barədə sizinlə ünsiyyətdə olmağı qərara almışdırsa, ehtiyatkar nəzakətlə cavab verin. Əks halda ustalıqla yaxanızı kənara çəkin və öz aranızdakı məsafəni dəqiq müəyyən edin.

Yuxarıda olanı heç vaxt birbaşa tənqid etmə. Ola bilsin, buna öz-özlüyündə şübhə yoxdur, ancaq tənqidin zəruri olduğu hallar da olur – əgər sussanız və ya heç nəyi məsləhət etməsəniz, bu, başqa cür təhlükə doğurar. Məsləhət verməyi və ya bütün mümkün olan nəzakətlə və qeyri-müəyyənliklə tənqid

etməyi öyrənmək lazımdır. Düşünüb danışın, sözlərinizin kifayət qədər axıcılığına nail olana qədər, yeddi dəfə ölçün. Nəciblik və incəlik nümunəsi olun.

Səndən yuxarıda dayananlardan kömək istəmə. Xahişi rədd etmək zərurəti kimi heç nə ağanı acıqlandırmır. Bu, təqsir və həyəcan hissi doğurur. Olduqca zəruri halda xahişlə müraciət edin və nə vaxt dayanmaq lazım olduğunu bilin. Ağanın həvəslə mükafatlandırması üçün xahiş edən rolunu öz üzərinə götürməkdənsə, mərhəmətə layiq olmaq daha yaxşıdır. Ən vacibi budur: başqa adamların adından, ən axırıncı növbədə dostların adından xahişlə müraciət etməyin.

Heç vaxt zahiri görkəmi və ya zövqü ələ salma. Canlı ağıl və yumora meyllilik – əsl saray adamının zəruri keyfiyyətidir, bəzən isə bayağılıq münasib və arzu ediləndir. Ancaq zahiri görkəmlə və ya zövqlə, iki çox həssas sahə ilə bağlı, xüsusən sizdən yuxarıda dayananlarla istənilən növ zarafatlardan çəkinin. Hətta bunu onlar olmadıqda etməyin, bununla siz özünüzə qəbir qazarsınız.

Saray həyasızına çevrilmə. Başqalarının uğuruna sevin. Əgər siz özünüzə bərabər olanları və ya tabe olanları daima tənqid edirsinizsə, bu, sizdə də əksini tapacaq, sizi daim izləyən boz bulud kimi əhatə edəcəkdir. Adamlar hər bir yeni iradınıza donquldanacaqlar, siz onlarda əsəbilik doğuracaqsınız. Siz ətrafdakıların uğurları ilə bağlı heyranlıq (mötədil şəkildə) ifadə edərək, təzadlı şəkildə diqqəti özünüzə cəlb edərsiniz. Səmimi görkəmlə valeh və heyran olmaq qabiliyyəti, indiyə qədər böyük qiymətə malik olan nadir, tükənməyən istedaddır.

Özünə kənardan baxmağı bacar. Güzgü – həqiqətən möcüzəli ixtiradır, onsuz biz gözəlliyə və zahiri ləyaqətə qarşı daima səhvlər etmiş olardıq. Sizə həmçinin hərəkətlərinizi əks etdirmək üçün güzgü lazımdır. Sizi əhatə edənlər necə başa düşdüklərini xəbər verdikdə, güzgü rolunu oynaya bilər, ancaq bu, ən düzgün üsul deyildir. Sizi başqalarının necə gördüyünü,

özünüzün görməyiniz üçün öz ağlınızı məşq etdirərək, özünüz özünüzün güzgüsü olun. Bu məqsədlə siz öz-özlüyünüzdə aşağıdakı suallara: özünüzü həddindən artıq yaltaq aparırsınızmı? Yarınmaq üçün qədərindən çox çalışırsınızmı? Sizdə ümidsiz görkəm vardırmı və sizə elə gəlmirmi ki, qüvvəniz tükənmək üzrədir? – cavab verməklə, özünüzü kənardan müşahidə edin – onda siz çoxlu səhvlərdən və yanılmalardan xilas ola bilərsiniz.

Öz hisslərinə sahib ol. Yaxşı teatr artisti kimi, lazım olan anda sifarişlə olduğu kimi, ağlamağı və gülməyi öyrənmək vacibdir. Siz qəzəb və məyusluğunuzu gizlətməyi, sevinc və məmnunluğunuzu ört-basdır etməyi bacarmalısınız. Öz sifət cizgilərinizə sahib olmağı öyrənin. Bunları yalan da adlandıra bilərsiniz. Əgər siz oynamamağa üstünlük verirsinizsə, həmişə doğruçu və səmimi olmaq istəyirsinizsə, ətrafdakılar sizi dözülməz və lovğa adlandırarsa, bundan şikayət etməyin.

Zamanın ruhuna uyğun ol. İyirmi ildən az olmayan keçmiş dövrə – geriyə kiçik bir qayıdış cəzbedici görünər. Son bir neçə ilin üslubuna müraciət etmək mənasız görünmür və saray məzhəkəçisi rolunu seçən üçün münasibdir. Sizin ruhi vəziyyətiniz və təfəkkür tərziniz hisslərinizi təhqir edirsə belə, zamanla ayaqlaşmalıdır. Ancaq həddindən artıq avanqard, qabaqcıl olmaqla, sizi heç kimin başa düşməməsi təhlükəsi ilə üzləşərsiniz. Bu sahədə irəlidə olmaq – həmişə səmərəsiz işdir. Burada ən azı zamanın ruhuna uyğun pərdələnməyi öyrənmək lazımdır.

Məmnunluq mənbəyi ol. Bu, çox mühümdür. İnsan təbiətinin qanunu, heyranlıq və xəyalən həzz almağın sevinci, alov pərvanələri özünə çəkən kimi bizi cəlb etdiyi halda, xoşagəlməz və ya pis şeylərdən çəkinməyə sövq edir. Bu cür alov olun – onda siz zirvəyə çatacaqsınız. Həyat xoşagəlməz şeylərlə zəngin, məmnunluq çox nadir olduğundan, susuz və yeməksiz keçinmək mümkün olmadığı kimi, sizsiz də ötüşə bilməyəcəklər. Elə görünə bilər ki, bu öz-özlüyündə şübhəsizdir,

ancaq aydın olanı çox vaxt qulaqardına vurur və ya qiymətləndirmirlər. Hər kəs sevimli olmaq rolunu oynamaq qabiliyyətinə malik olmadığı kimi, heç də hamı lətafət və iti ağıla malik deyildir. Ancaq bizim hər hansı birimiz özümüzün xoşagəlməz pis keyfiyyətlərini cilovlaya və zərurət olduqda boğa bilər.

Sarayı tanıyan adam öz jestlərinin, gözlərinin və sifətinin ağası olur; o, dərin və nüfuzedilməzdir; o, narazılığını gizlədir, düşmənə gülümsəyir, qəzəblərinə sərbəstlik vermir, öz ehtiraslarını ört-basdır edir, qəlblərini cilovlayır, öz hisslərinin əleyhinə danışır və hərəkət edir.

Jan de Labryuyer (1645–1696)

SARAY HƏYATINDAN SƏHNƏLƏR:
nümunəvi əməllər və məşum səhvlər

I səhnə

Aralıq dənizi ərazisinin və Hindistanın özünə qədər Orta Şərqin istilaçısı Makedoniyalı İsgəndərin tərbiyəçisi böyük Aristotel olmuşdur. İsgəndər özünün bütün qısa həyatı ərzində onun fəlsəfəsinə və təliminə sadiq qalmışdı. Bir dəfə o, Aristotelə şikayətləndi ki, uzun hərbi səfərlərdə fəlsəfi diskussiyalar aparmaq üçün yanında adam yoxdur. Aristotel cavab olaraq özünün keçmiş tələbəsi, eyni zamanda böyük ümidlər verən, parlaq gələcəyi gözlənilən Kallisfeni özü ilə götürməyi təklif etdi.

Aristotel Kallisfenə saray adamı olmaq bacarığını öyrətdi, ancaq gənc filosof ürəyində buna güldü. O, sırf fəlsəfəyə, bəzəksiz-düzəksiz sözə, yalnız həqiqəti danışmaq lazım olduğuna inanırdı. Kallisfen fikirləşirdi ki, əgər İsgəndər öyrənməyi belə sevirsə, o öz fikirlərini düzgün deyənlərə qarşı da ədalətli olacaqdır. Yürüşlərin birində Kallisfen o qədər düzgün fikirlər söylədi ki, İsgəndərin əmri ilə edam olundu.

İzahı

Sarayda düzgünlük – axmaq oyundur. Heç bir vəchlə ona, o dərəcədə özünə güvənmək lazım deyildi ki, tənqidinin, obyektivlik dərəcəsindən asılı olmayaraq, rəhbər üçün maraqlı və inandırıcı olmasına yəqinlik hasil etməsi mütləqdir.

II səhnə

Çin mütəfəkkirləri «21 tarix» ümumi adı altında xronikalar (siyasi, ictimai, sülalə və s. hadisələrin tarixini ardıcıllıqla təsvir edən əsər) seriyası yaratdılar. Bunlar Xan sülaləsindən başlayaraq (təxminən 2000 il bundan qabaq), hər bir sülalənin tərcümeyi-halından ibarət olan rəsmi salnamələri əks etdirirdi. Ona tarixi hadisələrin təsviri, statistika, məktublaşmalar və hərbi məlumatlar daxil idi. Hər bir salnamədə, həmçinin «Qeyri-adi hadisələr» adlı fəsil də yer tuturdu. Ora zəlzələlərin və daşqınların siyahısından başqa, bəzən ikibaşlı qoyun, dal-dala uçan qaz, göydə öz yerini qəfildən dəyişən planetlər, ulduzlar və buna bənzər məlumatlar da düşürdü. Zəlzələlər tarixən təsdiq edilə bilər, ancaq qeyri-adi varlıqlar və qəribə təbiət hadisələri, aydındır ki, salnaməyə təsadüfən daxil edilməmişdi və onlar salnamədə hökmən böyük qruplarla yer tuturdu. Bu, nəyi göstərə bilərdi?

Çin imperatoru təbəələri üçün adi adam deyildi – o, təbiətin qüvvəsi, onun imperiyası isə Kainatın mərkəzi idi və hər şey onun ətrafında fırlanırdı. O, mükəmməl dünyanı təcəssüm etdirirdi. Onu və ya onun istənilən hərəkətini tənqid etmək, ilahi qaydanı tənqid etməyə bərabər idi. Heç bir saray adamı və ya nazir imperatora, hətta kiçik bir çəkindirici sözlə yaxınlaşmağa cəsarət etmirdi. Ancaq imperatorlar tamam nöqsansız olmamışlar və dövlət onların səhvlərindən çox ziyan çəkirdi. Saray salnamələrinə qəribə, guya müşahidə edilmiş fenomenlərin daxil edilməsi imperatoru çəkindirmək üçün yeganə üsul idi. O, salnamədə dal-dala uçan qazlar və ya səma cisimlərinin orbitlərindən çıxması haqqında oxuya bilərdi, bu da onun üçün

xəbərdarlıq idi. İmperatorun hərəkəti təbiətin tarazlığını pozmuşdur – və vəziyyəti düzəltmək lazımdır.

İzahı

Çinin saray adamları üçün imperatorun hərəkətlərini hansı formada idarə etməklə, problemin həllinə nail olmaq çox mühüm idi. Uzun illər ərzində minlərlə adam, hökmdara məsləhət verməyə cəhd etdiyinə görə başlarını itirmişdilər. Təhlükəsizlik naminə tənqid üstüörtülü olmalı idi – ancaq həddindən artıq üstüörtülü tənqid başa düşülməz şəkildə qala bilərdi. Salnamə problemin uğurlu həlli oldu: tənqid obyekti kimi heç kimin adını çəkməyərək, onlar mümkün olan qədər şəxsləndirməyərək, məsləhətlər verirdilər, ancaq imperator bu və ya digər vəziyyətin ciddiliyini tamamilə hiss edə bilərdi.

Sizin ağa artıq Kainatın mərkəzi hesab edilməsə də, ancaq o, hələ də hər şeyin onun ətrafında fırlandığını təsəvvür edir. Siz onun ünvanına tənqidi irad tutduqda, o qarşısında tənqidbazı görür, tənqidin özünü isə qəbul etmir. Çin saray adamlarının nümunəsi üzrə siz elə bir üsul tapmalısınız ki, çəkindirici fikrin sizə məxsusluğuna heç kəs inanmasın. Boynunuzu qılınc altına qoymadan, bütün çətinliklərin mənzərəsini təsvir etmək üçün rəmzlərdən və digər dolayı vasitələrdən istifadə edin.

III səhnə

Fransız memarı Jül Mansar özünün yaradıcılıq fəaliyyətinin başlanğıcında kral XIV Lüdovik üçün Versal sarayının bir qədər genişləndirilməsi layihəsini işləyib hazırlamaq sifarişi aldı. Hər bir ayrıca layihənin Lüdovikdən alınmış təlimatlara dəqiq uyğun olmasından ötrü o, diqqətlə işləyərək eskizlər hazırlamalı, sonra isə bu eskizləri onun özü əlahəzrətə təqdim etməli idi.

Sen-Simon Mansarın kralla ünsiyyət tərzini belə təsvir edir: «O, eskizləri krala göstərməkdə xüsusi mədəniyyətə malik idi, bilərəkdən onlarda nəyisə, məsələn, özünün zəif yeri olan saray bağçası ilə bağlı müəyyən cəhətləri tamamlanmamış

saxlayırdı. Kral, Mansarın gözlədiyi kimi, dərhal barmağı ilə eskizin zəif yerini səhvsiz göstərir və onu necə düzəltməyi təklif edirdi. Bundan sonra Mansar uca səslə və heyranlıqla deyirdi ki, o, bu nöqsanı heç vaxt görə bilməzdi və problemi kral kimi əla həll edə bilməzdi. Mansar kralın yanında yalnız zəif şagird olduğunu etiraf edərək, heyranlığını bildirirdi». Daima bu üsuldan istifadə edən Mansar otuz yaşında özü üçün kraldan nüfuzlu səlahiyyətlər aldı: bir çox digər fransız memarları kimi, o qədər də istedadlı və təcrübəli olmasa da, Versal sarayının genişləndirilməsi məhz ona tapşırıldı. Həmin vaxtdan o, kralın daimi memarı oldu.

İzahı

Mansar gəncliyində bir çox mahir saray ustalarının öz yerlərini bacarıqsızlıqlarına və ya istedadlarının olmadığına görə deyil, onlara baha başa gələn kobud səhvlərə görə itirdiyini müşahidə etmişdi. Mansar onların səhvlərini təkrar etmədi. O, həmişə Lüdovikə özünə güvənməsindən zövq almaq imkanı verir, adamlar arasında onun şöhrətpərəstliyinə mənəvi qida verirdi.

Hətta bacarıq və istedadın o qədər də vacib olduğunu təsəvvür etməyin. Sarayda saray adamı olmaq mədəniyyəti olduqca vacibdir. Əgər siz mühüm qaydalara əhəmiyyət vermirsinizsə, öz məşğələlərinizə o qədər də çox diqqət yetirməyinizə dəyməz. Bunlardan ən əsası – rəhbərə onu əhatə edənlərdən istedadlı görünməyə kömək etmək bacarığıdır.

IV səhnə

Jan Batist İzabe Napoleonun qeyri-rəsmi saray rəssamı idi. 1814-cü ildə Vyana konqresi zamanı, hakimiyyətdən devrilmiş Napoleon Elba adasında sürgündə olarkən, Avropanın taleyini həll etməli olan konqres iştirakçıları bu tarixi hadisəni epik tabloda əbədiləşdirmək üçün İzabeni dəvət etdilər.

Rəssam Vyanaya gələn kimi, fransız tərəfinin əsas nümayəndəsi Taleyran onun görüşünə getdi. Taleyran özünün danı-

şıqlarda rolunu nəzərə alaraq, tablonun mərkəzində yer tutmalı olduğunu izah etdi. İzabe həvəslə razılaşdı. Bir neçə gün sonra rəssamla İngiltərənin nümayəndəsi hersoq Vellinqton danışdı və təxminən Taleyranın söylədiklərini dedi. İzabe daha nəzakətlə cavab verdi ki, tamamilə razıdır və böyük hersoq həqiqətən hamının diqqət mərkəzində olmalıdır.

Emalatxanaya qayıdan İzabe dilemma (iki mümkün qərardan birini qəbul etmək məcburiyyəti) üzərində fikirləşdi. Onlardan birinə üstünlük vermək, Avropaya sülh və dincliyin zəruri olduğu bir vaxtda, diplomatik sahədə onun üçün təhlükəli olan narazılıqlar, ən gözlənilməz nəticələr doğura bilərdi.

Ancaq rəssam hər iki siyasətçini şərəfləndirməyə nail oldu. Belə ki, həm Taleyran, həm də Vellinqton məmnun qaldılar. Tabloda Avropanın hər yerindən olan diplomatlar və siyasətçilərlə dolu böyük zal təsvir edilmişdi. Bir tərəfdən hersoq Vellinqton zala daxil olur, bütün nəzərlər ona dikilmişdir, o, diqqət mərkəzindədir. Bununla belə tablonun mərkəzində Taleyran əyləşmişdir.

İzahı

Bəzən ağanı razı salmaq çox çətin olur, birdən iki ağanı razı salmaq üçün isə, dahi saray adamı olmaq lazımdır. İki od arasında qaldıqda, xilas olmaq üçün düzgün yol tapmaq lazımdır. Ağa ona çatmalı olanı – hörməti almalıdır. Heç vaxt onlardan birinə üstünlük verərək, başqasını narazı salmayın.

V səhnə

Həmçinin Bo (Gözəl oğlan) Brammel adı ilə məşhur olan Corc, 1700-cü illərin sonunda misli-bərabəri olmayan qəşəng zahiri görünüşünün hesabına (ayaqqabını iplə bağlamağı o, dəb saldı, tezliklə bütün modabazlar özlərini ona oxşatmağa başladılar) və ağıllı çıxışları ilə tanındı. Onun Londondakı evi şəhərə gözəllik verirdi, Brammelin özü isə, bütün moda məsələlərində böyük nüfuz sahibi olan adam və qanunverici idi. Əgər kiminsə ayaqqabısı onun xoşuna gəlmirdisə, həmin adam bu

ayaqqabıdan canını qurtarır və nə geyməsindən asılı olmayaraq, Brammelin ayaqqabısından əldə edirdi. O, qalstuk bağlamağın yeni üsulunu icad etdi; danışırlar ki, lord Bayron Brammelin qalstuk düyünlərinin sirrini başa düşməyə cəhd edərək, bir neçə gecəni güzgü qabağında keçirmişdi.

Brammelin pərəstişkarlarından biri, özü də çox gözəl cavan adam olan şahzadə Uelsli idi. Şahzadənin sarayına yaxın olan və kral məvacibi alan Brammel nüfuzuna o dərəcədə güvəndi ki, öz ağasını Biq Ben adlandıraraq, şahzadənin geyimini ələ salmağa cəsarət etdi. Arıqlıq modabazlar üçün mühüm keyfiyyət sayıldığından, zarafat zərərsiz qəbul edilirdi. Bir dəfə nahar zamanı, xidmətçilər növbəti yeməyi gec gətirəndə, Brommel şahzadəyə müraciət etdi: «Zəng et, Biq Ben». Şahzadə zəng etdi, ancaq xidmətçi gəldikdə, ona Brammeli qapıdan bayıra çıxarmağı və heç vaxt içəri buraxmamağı əmr etdi.

Şahzadənin mərhəmət göstərməməyinə baxmayaraq, Brammel özünü lovğa aparmaqda davam etdi. Şahzadənin köməyindən məhrum olaraq, o, dəhşətli borca düşdü, ancaq əzəmətli həyat tərzini saxladı və tezliklə tək-tənha qaldı. O, ağlagəlməz borc içərisində, hamı tərəfindən tərk edilmiş və dəli vəziyyətində öldü.

İzahı

Bo Brammelin həddindən artıq məhvedici hazırcavablığı onun şahzadə Uelsli ilə arasını vurdu. Hətta ona – zövq və üslub hakiminə, adamların arasında şahzadənin simasını lağa qoyaraq zarafat etməsi, həyatının məhv olması bahasına başa gəldi. Heç vaxt və heç bir vəchlə adamları, xüsusən onlar sizin ağanızdırsa, arıqlığına və ya köklüyünə görə lağa qoymayın. Tarixin kasıb sığınacaqları öz ağalarının zahiri görkəminə lağ etməyi qərara almış adamlarla doludur.

VI səhnə

Papa VIII Urban insanların yaddaşında istedadlı şair kimi qalmaq istəyirdi, ancaq təəssüf ki, şeir yazmaqda orta səviyyə-

li qabiliyyətə malik idi. 1629-cu ildə hersoq Françesko d Este papanın ədəbi iddialarını bilərək, şair Fulvio Testi səfir kimi Vatikana yolladı. Testinin hersoqa yazdığı məktubların biri seçimin onun üzərinə nə üçün düşdüyünü izah edir: «Bizim söhbətimiz başa çatdıqda, mən xudahafizləşərək diz çökdüm, ancaq Zati-Müqəddəsləri mənə işarə verdi və özünün yataq otağına keçdi. Orada kiçik stola yaxınlaşaraq, onun üzərindən kağız dəsti götürdü və sifətində təbəssüm mənə tərəf çevrilərək dilləndi: «Biz istəyirik ki, sizin diqqətinizə özümüzün bəzi əsərlərimizi təqdim edək». Bununla əlaqədar o, Pindara ruhunda yazılmış iki çox uzun oda (oda – şeir janrıdır) oxudu, onlardan biri Müqəddəs Bakirə Qızı (Məryəmi) tərifləyir, ikincisi qrafinya Matildaya həsr olunmuşdu».

Testinin bu uzun şeirlər barəsində nə düşündüyü bizə dəqiq məlum deyildir, belə ki, öz fikrini hətta məktubda açıq şəkildə bildirmək onun üçün təhlükəli idi. Ancaq o, məktubunda davam edirdi: «Mən vəziyyətə boyun əyərək, hər misranı tərifli sözlərlə qarşıladım, sonra bu dərəcədə qeyri-adi gözəl lütfkarlığa (şeirlərinin qiraətinə) görə Zati-Müqəddəslərinin ayağını öpdüm və onun hüzurundan çıxdım». Bir neçə həftə sonra hersoqun özü papanın qəbulunda olduqda, «şərəfləndirdiyi adamı özünü itirəcək dərəcədə heyrətləndirmək» üçün, onun yazdığı şeirlərdən bir neçə beyt sitat gətirib, onu kifayət qədər tərifləyə bildi.

İzahı

Ağanın zövqünü tərifləyərək həddini keçmək lazım deyildir. Zövq bizim ruhumuzun ən həssas hissələrindən biridir. Ağanın zövqünü heç vaxt müzakirə və tənqid etməyin – onun şeirləri incədir, paltarı – gözəldir, üslubu – oxşamaq üçün nümunədir.

VII səhnə

Xan sülaləsindən olan qədim Çin hökmdarı Çjao (e.ə. 358-333) necə olursa, axşam sərxoş olana qədər içdi və saray bağında yuxuladı. Əsas vəzifəsi hökmdarın baş geyiminə nəzarət

etmək olan sarayın tac mühafizəçisi bağdan keçirdi və o, xalatsız yatan hökmdarı gördü. Hava soyumuşdu və tac mühafizəçisi hökmdarı öz xalatına bürüyüb uzaqlaşdı.

Çjao ayılıb ona bürünmüş xalatı gördü və öz yaxın adamlarından soruşdu: «Mənim üstümü kim örtüb?» Bunu tac mühafizəçisinin etdiyini öyrənib, rəsmi xalat mühafizəçisini yanına çağırtdırdı və öz vəzifəsinə məsuliyyətsiz yanaşdığına görə onu cəzalandırdı, sonra isə tac mühafizəçisinin boynunu vurmağı əmr etdi.

İzahı

Öz vəzifələrinizi unutmayın. Sizə tapşırılmış işləri görün, öz qabiliyyətiniz həddində çalışın və heç vaxt ondan artıq etməyin. Artıq işləməyin yaxşı işləmək olduğunu düşünmək – adi yanılmadır. Sanki özünün hansısa nöqsanını ört-basdır etməyə cəhd edən, həddindən artıq dəridən-qabıqdan çıxan adam, çox da yaxşı nəzərə çarpmır. Tapşırılmayan işi yerinə yetirməklə ətrafdakılarda şübhə doğurursunuz. Əgər siz tacın mühafizəçisinizsə – tacı qoruyun. Artıq enerjinizi isə, sarayda olmadığınız müddətə qədər saxlayın.

VIII səhnə

İntibah dövrünün italyan rəssamı Fra Filippo Lippi (1406-1469) bir dəfə dostları ilə birlikdə qayıqda əyləncə gəzintisinə çıxdı. Onlar Ankondan üzüb uzaqlaşdılar və dəniz quldurları tərəfindən ələ keçirildilər. Rəssamı və dostlarını zəncirləyib Əlcəzairə apardılar və burada kölə kimi satdılar. Filippo vətəni İtaliyaya qayıtmaq ümidini itirərək, köləlikdə on səkkiz ay vaxt keçirdi.

Filippo onu satın alan adamı çox görmüşdü. Bir dəfə o, ocaqdan çıxarılmış kösövlü kömürlə onun portretini çəkdi. O, ağ divar tapdı və hələ də azad edilmədiyi zəncirə baxmayaraq, öz ağasını özünə çox oxşar şəkildə tam ölçüdə, mavr (orta əsrlərdə Afrika ərəblərinin və bərbərlərinin ümumi adı) geyimində təsvir etdi. Bunu ağaya dərhal xəbər verdilər. Həmin yer-

lərdə heç kim bu cür rəssamlıq qabiliyyətinə malik deyildi, bu, Allah möcüzəsi, vergisi kimi görünürdü. Portret ağanın xoşuna elə gəldi ki, o, Filippə azadlıq verdi və keçmiş qulu öz sarayına yaxınlaşdırdı. Əlcəzairin bütün adlı-sanlı adamları Fra Filipponun çəkdiyi çox gözəl portretlərə baxıb zövq almaq üçün saraya gəldilər. Nəhayət, ona göstərilən şərəfə minnətdarlıq əlaməti olaraq, ağa Filippoya İtaliyaya qayıtmağa kömək etdi.

İzahı

Biz yorulmadan başqasına işləyərək, quldurların əsirinə və hətta köləyə çox oxşayırıq. Ancaq bizim hər birimiz Fra Filippo kimi nəyisə başqalarından yaxşı etmək zəkasına, istedadına, qabiliyyətinə (ola bilsin, az dərəcədə olmasına baxmayaraq) malikdir. Öz istedadınızı ağaya sürpriz edin – bu, sizi başqa saray adamlarından yüksəyə qaldırar. Qoy ağaya çələng qismət olsun, ancaq müvəqqəti: ondan öz istedadınızı hamıya göstərmək və nəhayət, köləlikdən azad olmaq üçün vasitə, pillə kimi istifadə edin.

IX səhnə

Alfonso I Araqonlunun xidmətçisi bir dəfə krala danışdı ki, ötən gecə belə bir yuxu görmüşdür: Alfonso ona silah, at və bahalı paltarlar bağışlayır. Səxavətli və alicənab adam olan Alfonso fikirləşdi ki, yuxunun çin çıxması maraqlı olar və dərhal xidmətçiyə eyni ilə bu cür hədiyyələr verməyi əmr etdi.

Bir müddət sonra elə həmin xidmətçi Alfonsoya bildirdi ki, yenidən yuxu görmüşdür – bu dəfə kral ona içərisi qızıl florin (pul) dolu iri pul kisəsi bağışlayır. Kral gülümsəyərək cavab verdi: «Bundan sonra yuxulara inanma, onlar aldadır».

İzahı

Alfonso birinci dəfə iradəsini nümayiş etdirdi. Yuxunu həqiqətə çevirərək, kral yumşaq və istehzalı tərzdə sanki ilahi qüdrət göstərdi. Ancaq ikinci dəfə, hər şeydən göründüyü kimi, sehr yoxa çıxdı, yalnız ağaya hiylə gəlməyə cəhd edən xidmətçinin xoşa gəlməyən fırıldaqçılığı qaldı. Heç vaxt həddindən artıq çox istəmə, harada dayanmaq lazım olduğunu bil. Vermək və hədiyyə etmək – ağanın səlahiyyətidir: məcburiyyət olmadan istədiyi vaxt və istədiyi şeyi vermək üçün elə şərait yaratmayın ki, o, sizə rədd cavabı verməyə məcbur olsun. Ən yaxşısı mərhəməti istəmədən, ona layiq olmaqla onu almaq lazımdır.

X səhnə

İngiltərənin böyük mənzərə rəssamı C.M.V.Terner (1775-1851) rənglərin parlaqlığına və qeyri-adi çalarlarına nail olan mahir fırça ustası kimi məşhur idi. Onun tablolarının rəngi həqiqətən də o qədər parlaq və güclü idi ki, başqa rəssamlar öz rəsmlərinin onlarla yanaşı qoyulmasını istəmirdilər, onun əsərlərinin yanında qalanları labüd olaraq sönük görünürdü.

Bir dəfə rəssam ser Tomas Lorens Ternerin «Köln» şedevrini özünün iki rəsminin arasında asıldığını gördükdə, buna bədbəxtlik kimi baxdı. Lorens qalereyanın sahibinə şikayət etdi, ancaq onu razı salan cavab almadı – qalereyanın sahibi bildirdi: axır ki, Ternerin peyzajı ilə kiminsə tabloları qonşuluq etməlidir. Ancaq Terner şikayəti eşitdi və sərginin açılışına qədər «Köln» tablosundakı səmanın gümüşü parlaqlığını azaldıb, onu da Lorensin rəsmlərindəki rənglər kimi sönükləşdirdi. Ternerin dostu bunu görüb, qorxmuş görkəmdə rəssama yaxınlaşdı: «Siz rəsmin başına nə gətirdiniz!» – deyə ucadan dilləndi. Terner cavab verdi: «Qoy bu da yazıq Lorens kimi bədbəxt görünsün. Həm də bu, sadəcə olaraq, hisdir, qurumdur. Sərgidən sonra mən hər şeyi siləcəyəm».

İzahı

Saray adamının olduqca çoxlu qayğıları ağa ilə bağlıdır, onunla həm də təhlükələrin xeyli hissəsi əlaqədardır. Ancaq sizin taleyinizi ağanın və yalnız ağanın müəyyən etdiyini təsəvvür etmək səhv olardı. Sizdən aşağı və sizinlə bir bərabərdə dayananlar da, həmçinin çox mühüm rol oynayırlar. Saray –

qəzəb, qorxu və güclü paxıllığın bir-birinə qarışdığı qatı qarışıqlıqdır. Sizə bu və ya başqa cür ziyan vura biləcək hər kəsi sakitləşdirmək, barışdırmaq, onların narazılığını və paxıllığını başqalarına yönəltmək lazımdır.

Görkəmli saray adamı kimi Terner çox gözəl bilirdi ki, onun uğur və şöhrəti incəsənət əsərləri tacirlərindən və başçılardan az olmayacaq dərəcədə, özünün fırça həmkarlarından asılıdır. Nə qədər böyük sənətkarlar öz həmkarlarının qurbanı olmuşdur! Paxıllıq oxundan ziyan çəkməkdənsə, öz parlaqlığını müvəqqəti söndürmək daha yaxşıdır.

XI səhnə

Uinston Çörçill həvəskar rəssam idi. İkinci Dünya müharibəsindən sonra, onun tabloları, rəsm əsərləri toplayanların kolleksiyalarını bəzəməyə başladı. Amerikan naşiri, «Layf» və «Taym» jurnallarının yaradıcısı Henri Lyus Çörçillin mənzərə rəsmlərindən birini aldı. Bu rəsm onun Nyu-Yorkdakı kabinetində asılmışdı.

Bir dəfə Birləşmiş Ştatlarda olan Çörçill Lyusla onun ofisində görüşdü və onlar ikilikdə tabloya baxdılar. Naşir dedi: «Yaxşı rəsmdir, ancaq mənim fikrimcə, ön planda hansısa bir təfərrüat – deyək ki, qoyun çatışmır». Ertəsi gün Lyusun böyük təəccübünə rəğmən, Çörçillin katibi ona zəng edərək, rəsmi İngiltərəyə geriyə göndərməyi xahiş etdi. Keçmiş baş naziri təhqir etməsi fikrindən meyit kimi saralan Lyus, deyilən kimi də hərəkət etdi. Ancaq bir neçə gündən sonra, rəsm Lyusa qaytarıldı. Onda kiçik dəyişiklik edilmişdi: indi tənha qoyun ön planda sakitcə otlayırdı.

İzahı

Çörçill həm boyca, həm də şöhrətcə Lyusdan iki boy uca idi. Ancaq Lyus da, şübhəsiz ki, nüfuzlu adam idi, elə buna görə də, biz onları bir-birinə bərabər tutmağı özümüzə rəva görürük. Ancaq hər halda, amerikalı naşirin fikri Çörçill üçün

bu qədərmi vacib idi? Həvəskarın tənqidinə qulaq asmaq niyə lazım idi?

Baxdığımız halda saray – diplomatların və dövlət xadimlərinin, həmçinin onların rəğbətini qazanan jurnalistlərin dünyasıdır – bu, hamının bir-birindən asılı olduğu yerdir. Hakimiyyət adamlarını, hətta onlar sizdən aşağı və ya sizə bərabərdirlərsə, tənqid edərək narazı salmaq və ya pərt etmək ağılsızlıqdır. Əgər Çörçill kimi bir adam Lyus kimi adamın tənqidini qəbul edə bilirsə, bu, onun təcrübəli və misilsiz saray adamı olmasına dəlalət edir (ola bilsin, onun rəsmə etdiyi düzəliş, həmçinin müəyyən mərhəməti ifadə edirdi, ancaq hər şey elə incəliklə edilmişdi ki, Lyus azacıq da olsa, bunun əlamətini hiss edə bilməzdi). Çörçillə bənzəyin: qoyunu rəsmə əlavə edin. Hətta siz ağa ilə iş görməsəniz də, lütfkar saray adamı rolunu oynamaq həmişə faydalı və sərfəlidir.

TƏHLÜKƏLİ SARAY OYUNLARI: *XƏBƏRDARLIQ*

Taleyran misli-bərabəri olmayan saray xadimi idi. Bu, özünü xüsusən də öz rəhbəri Napoleona qarşı münasibətdə açıq-aşkar büruzə verirdi. Onlar bir-birləri ilə təzə tanış olmuşdular ki, Napoleon dilucu dedi: «Yaxın günlərdə sizin evə nahara gələcəyəm». Taleyranın evi Parisin ətrafında Oteyldə idi. «Xoşbəxt olardım, mənim generalım, – deyə, nazir cavab verdi. – Mənim evim Bulon meşəsinə yaxın olduğundan, siz nahardan sonra bir az ov edib əylənə bilərsiniz».

Napoleon dedi: «Mən tüfəng atmağı sevmirəm, ancaq ovu xoşlayıram. Bulon meşəsində qaban varmı?» Napoleon əslən, qaban ovunun sevimli əyləncə olduğu Korsikadan idi. Parisdə qabanın olması barədə sual verərək, o özünü əyalət adamı, əsl kəndçi kimi göstərdi. Taleyran istehza etmədi, ancaq qədim zadəgan nəslinə mənsub olan nazirdən nə əsil-nəcabətdə, nə

alicənablıqda üstün olmayan, siyasət işlərində indi onun rəhbəri olan bu adamı gülünc vəziyyətə qoymaq həvəsi qarşısında dayana bilmədi. Beləliklə, nazir Napoleonun sualına sadə cavab verdi: «Çox azdır, mənim generalım, ancaq mən cəsarətlə deyə bilərəm ki, sizə birini tapmaq müyəssər olar».

Qərara alındı ki, Napoleon Taleyranın evinə ertəsi gün axşam saat yeddidə gedəcək və növbəti səhəri də orada keçirəcək. «Qaban ovu» axşam olmalı idi. Bütün günü həyəcanlanmış general, ovdan başqa heç nədən danışa bilmirdi. Bu zaman Taleyran xidmətçisini gizlicə bazara göndərərək, iki iri qara donuz almağı və onları məşhur parka aparmağı əmr etdi.

Nahardan sonra ovçular it sürüsü ilə Bulon meşəsinə yollandılar. Taleyranın gizli siqnalı ilə xidmətçilər donuzlardan birini buraxdılar. «Mən qaban görürəm!» – deyə, Napoleon sevinclə qışqırdı və atın belinə sıçrayıb, qabanı qovmağa başladı. Taleyran geridə qaldı. «Qaban» tutmaq üzrə parkdakı yarım saatlıq qovhaqov nəticəsində, nəhayət ki, «qabanı» tutmaq mümkün oldu. Ovun ələ keçirilməsi qalibiyyəti anında, tutulan heyvanın heç cürə qaban ola bilmədiyini başa düşən və hadisənin üstü açılarsa, generalın masqaraya qoyulmasından ehtiyat edən Napoleonun yaxın adamlarından biri ona yaxınlaşaraq dedi: «Ser (cənab), əlbəttə, siz başa düşürsünüz ki, bu, qaban yox, ev donuzudur».

Napoleon qəzəblə atını çaparaq, Taleyranın evinə getdi. Yol boyu, o, başa düşdü ki, çoxlu zarafat obyekti ola və Taleyrana olan qəzəbinin alovlanması, onu daha gülünc vəziyyətə sala bilər. Ən yaxşısı, özünün buna zarafat münasibəti bəslədiyini göstərməkdir. Ancaq öz narazılığını gizləmək, onun üçün çətin idi.

Taleyran vəziyyəti yüngülləşdirməyi və generalın toxunulmuş heysiyyətinə hörmət göstərmək üçün cəhd etməyi qərara aldı. O, Napoleondan xahiş etdi ki, Parisə qayıtmağı bir qədər təxirə salsın – parkda bir də ov etmək lazımdır. Orada çoxlu dovşan var, burada dovşan ovlamaq, XVI Lüdovikin sevimli

əyləncəsi idi. Taleyran, hətta Napoleona bir vaxtlar Lüdovikə məxsus olan tüfənglər dəstindən istifadə etməyi təklif etdi. O, yaltaqlıqla və dilə tutmaqla, Napoleonu yenidən ova getməyə razı saldı.

Ov ertəsi gün oldu. Yolda Napoleon Taleyrana dedi: «Əlbəttə, mən XVI Lüdovik deyiləm, mənə bir dənə də olsa dovşan vurmaq müyəssər olmaya da bilər». Ancaq həmin gün, nə qədər qəribə olsa da, parkda dovşanlar qaynaşırdı. Napoleon ən azı əlli dovşan vurdu, onun qəzəbli əhval-ruhiyyəsi məmnunluqla əvəz olundu. Ancaq Napoleonun maraqlı əyləncəsinin sonunda, onun əvvəlki yaxın adamı ona yaxınlaşıb pıçıltı ilə dedi: «Düzünü desək, cənab, mən bunların çöl dovşanları olmadığını düşünməyə başlayıram. Mən bunun hiyləgər Taleyranın sizinlə etdiyi daha bir zarafat olduğundan şübhələnirəm». (Ehtimal düz çıxdı: Taleyran öz xidmətçilərini bazara göndərərək, çoxlu dovşan almağı və parka buraxmağı tapşırmışdı).

Napoleon öz atını şahə qaldırdı və dördnala çapdı, ancaq bu dəfə birbaşa Parisə. Nəticədə, Napoleon Taleyranı xəbərdar etdi ki, baş verən hadisədən heç kim xəbər tutmamalıdır, əgər o, Parisdə gülüş hədəfinə çevrilsə, intiqam dəhşətli olacaqdır.

Napoleon uzun müddət keçdikdən sonra yenidən Taleyrana etibar etdi, ancaq təhqir edilməsini ona bağışlaya bilmədi.

İzahı

Saray adamları – sehrkardırlar. Onlar elə etməyi bacarırlar ki, ətrafdakılar məhz onların göstərmək istədiklərini görürlər. Çoxlu hazır fəndlər və hiylələr dəstinə malik olan bu adamlar, yalnız öz hiylələrinin ətrafdakıların müşahidə etməmələrinin və hərəkətlərinin çevikliyinin, onların gözlərini qamaşdırması qayğısına qalmalıdırlar.

Taleyran saray fitnə-fəsadının böyük ustası idi, əgər Napoleonun yaxın adamı olmasaydı, çox güman, Taleyran həm öz ağasına məmnunluq bəxş etməyə, həm də özü generalın hesa-

bına əylənməyə nail olardı. Ancaq saray həyatı – incə sənətdir: əgər hiylə və ya tələni vaxtında duymasan, gözlənilməz səhviniz sizin ən yaxşı fəndinizi məhv edə bilər. Hiylələrinizi həyata keçirərkən özünüzü tutulmaq təhlükəsinə məruz qoymayın; heç vaxt öz fikirlərinizi ətrafınızdakılara verməyin. Əgər bu baş verərsə – siz gözəl üslubu olan saray adamından mənfur yaramaza çevrilərək, dərhal adamların gözündən düşərsiniz. Siz incə oyun oynayın, diqqəti cəlb edin, öz niyyətinizi ört-basdır edin və ağanın sizi ifşa etməsinə yol verməyin.

İYİRMİ BEŞİNCİ QANUN

ÖZÜNÜ YENİDƏN YARAT

QANUNUN MƏZMUNU

Cəmiyyətin sizə qəbul etdirmək istədiyi rolu məqbul saymayaraq, hər şeyi özünüz yenidən yaradın. Diqqəti cəlb edəcək və heç vaxt ictimaiyyəti darıxdırmayacaq yeni fərdiyyət formalaşdırın. Başqalarına sima müəyyən etməyə imkan verməkdənsə, öz simanızın yaradıcısı olmağınız daha yaxşıdır. İctimai işlərinizə və çıxışlarınıza sünilik əlavə edin – onda hakimiyyətiniz artacaq, obrazınız isə həyatda olduğundan dəfələrlə böyük görünəcəkdir.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

Yuli Sezar Romanın ictimai həyatında özünün ilk əhəmiyyətli izini e.ə. 65-ci ildə – başqa işlərlə yanaşı, ictimai oyunlara nəzarət edən rəsmi şəxs vəzifəsini yerinə yetirərkən qoymuşdu. O, işə diqqətlə hazırlanmış tamaşalar seriyasını – vəhşi heyvanlar ovunu, gurultulu qladiator döyüşlərini, teatr artistlərinin yarışını təşkil etməkdən başladı. Çoxsaylı səbəblər üzündən, o, bu tamaşaların xərcini öz cibindən ödədi. Tezliklə onun adı sadə adamların dilində, xalq arasında olduqca sevilən bu əyləncələrlə möhkəm şəkildə eyniləşdirildi. O, tələsmədən yüksələrək konsul vəzifəsini tutduqda, kütlələr arasında tanınmağı onun hakimiyyəti üçün çox yaxşı özül rolunu oynadı. Müasir dildə desək, o, özünə çox böyük şoumen imici yaratdı.

E.ə. 49-cu ildə Roma iki liderin – Sezar və Pompeyin rəqabəti üzündən vətəndaş müharibəsi həddində idi.

Gərginliyin ən yüksək anında, teatr pərəstişkarı olan Sezar tamaşaya baxmaq üçün teatra yollandı, sonra fikir içərisində qaranlıqda, İtaliyanı Qalliyadan ayıran Rubikon çayının sahilindəki düşərgəsinə qayıtdı. Öz ordusu ilə çayı keçmək və İtaliya sahilində olmaq Sezar üçün Pompeylə müharibənin başlanmasını göstərirdi.

Sezar onu müşayiət edən dostlarının və xidmətçilərinin yanında, sanki səhnədə artist kimi, Hamletin proobrazı olaraq, bu variantların hər ikisini ucadan deyərək, «lehinə» və «əleyhinə» dəlillər gətirdi. Nəhayət, öz monoloqunu yekunlaşdıraraq, çayın sahilində dayanmış, şeypurda çalan çox uca boylu əsgəri göstərdi, sonra isə Rubikon çayının üstündəki körpünü keçərək dedi: «Bunu allahların verdiyi işarə kimi qəbul edək və onlar bizi çağırdığı yerə, iki üzlü düşmənlərimizdən intiqam almağa gedək. Püşk atılmışdır!»

Bu sözlər çay tərəfi göstərən artistlik jestləri ilə müşayiət olunurdu, Sezar bu zaman öz silahdaşlarına baxdı. O bilirdi ki, silahdaşları onu müdafiə etməkdə tərəddüd edirlər, ancaq Sezarın nitqi onları heyran qoydu və baş verən hadisələrin gərginliyini hiss etmələrinə imkan verdi. Adi quru nitq, ola bilsin, belə səmərə verməzdi. Silahdaşları Sezarın tərəfini tutdular. O, öz ordusu ilə Rubikon çayını keçdi və növbəti il Pompeyə qalib gələrək Romanın diktatoru oldu.

Sezar sərkərdə kimi çox yaxşı, ideal komandir idi. O, at belində öz döyüşçülərindən yaxşı otururdu, igidlikdə və dözümdə onlardan üstün olması ilə fəxr edirdi. Sezar ən çətin və gərgin anlarda döyüşə girirdi ki, əsgərlər də onu həmişə döyüşün qızğın yerində görürdülər. Güc rəmzi və bənzəmək nümunəsi kimi, o, həmişə mərkəzdə olaraq, əsgərləri öz ardınca çağırırdı. Romanın bütün ordularından Sezarın ordusu sadiq və sədaqətli idi. Onun əsgərləri, sa-

Dünyanın bu qədim paytaxtında (Romada) bəxtini sınamaq niyyətinə düşən adam, əhatə olunduğu mühitin rəngini alan buqələmun kimi, istənilən formanı və yaxud şəkli əks etdirən protein təbiətli (zülal) olmalıdır. O, çevik, üzüyola, qeyri-müəyyən və hiyləgər, yaxın və əlçatmaz, səmimi və müəmmalı, çox vaxt alçaq və rəzil, bəzən xain olmalıdır; həmişə bildiyinin bir hissəsini gizlətməli, təkcə öz səsinin tonu ilə aldatmağı bacarmalıdır; təmkinli, öz mimikasının tam nöqsansız sahibi, buz kimi soyuq, od kimi alovlu olmalıdır; əgər o, bədbəxtlikdən qəlbən dindar deyilsə, – çox vaxt yuxarıda sadalanan keyfiyyətlərə malik insanlar belə olur, – o, ağlında dindar olmalıdır, necə deyərlər, dindarlığını öz sifətində, dodaqlarında, hərəkət tərzində təcəssüm etdirməlidir; o, əzabı sakitcə çəkməlidir, əgər o, ləyaqətlidirsə, ona özünü qatı riyakar kimi dərk etməsi lazımdır. Qəlbi belə həyatın əksinə gedən insan Romanı buraxıb haradasa başqa yerdə uğur axtarmalıdır. Mən özümü tərifl ədiyimi və ya özümə haqq qazandırmağımı bilmirəm, ancaq yuxarıda sadaladığım bütün keyfiyyətlərdən yalnız birinə, məhz çevikliyə malikəm.

«Memuarlar». C.Kazanova, 1725–1798

də adamlar kimi, Sezara heyran olaraq, özlərini ona bərabər tutur və onun işini öz işləri hesab edirdilər.

Pompeyin məğlubiyyətindən sonra əyləncələr daha bahalı və dəbdəbəli oldu. Roma əvvəllər buna bənzər heç nə görməmişdi. Arabaların ötüşməsi, qladiator döyüşləri daha gərgin keçirdi, çünki Sezar Roma əyanları üçün ölümlə qurtaran döyüşlər təşkil edirdi. O, süni yaradılmış göldə çox iri miqyaslı süni dəniz döyüşləri səhnələşdirirdi. Teatr tamaşaları Romanın hər bir rayonunda oynanılırdı. Tarpa qayalığının mənzərəli yamacında yeni nəhəng teatr tikildi.

Tamaşalar bütün imperiyanın hər yerindən axışıb gələn bütöv kütlələri cəlb edirdi. Romaya gedən yollar tamaşaçıların çadırları ilə dolmuşdu. E.ə. 45-ci ildə Sezar özünün Misir kampaniyasını başa vurub şəhərə qayıtmasını çox böyük sayda təsirli səhnələr və sürprizlərlə qeyd etdi, daha artıq dəbdəbəli tamaşalar hazırladı.

Bu tamaşalar kütlələrin əyləncəsindən artıq idi; onlar Sezarın obrazını xalqın gözündə real həyatda olduğundan daha böyük, daha əzəmətli göstərirdi.

Sezar öz obrazını ustalıqla yaradırdı, həmişə öz zahiri görkəminin qayğısına qalaraq, ona birinci dərəcəli əhəmiyyət verirdi. Kütlə qarşısına çıxarkən, o, hökmən çox gözəl al-qırmızı rəngli bürüncəyini geyərdi. O, hamıdan qüdrətli və əzəmətli idi. O, özünün zahiri simasına canı-dildən qayğı göstərirdi – danışırdılar ki, senatın və xalqın göstərdiyi ehtiram onun xoşuna gəlirdi, bununla əlaqədar, başına dəfnə çələngi qoyması, onun keçəlləşməkdə olan başını örtməyə imkan verdi. Sezar qeyri-adi natiq idi. O, az sözlə çox fikir ifadə etməyi bacarır, maksimum səmərəyə nail olmaq üçün nitqini nə vaxt qurtarmağı intuitiv olaraq bilirdi. Sezar heç vaxt sensasiya yaratmağı yaddan çıxarmırdı – xalqa müraciət edərkən fövqəladə sarsıdıcı bəyanatlar, onun çıxışlarının təsirini artırırdı.

Sezar fövqəladə dərəcədə məşhur və Roma camaatının sevimlisi idi, ancaq düşmənləri ona nifrət edir və ondan qorxur-

dular. Mart bayramı vaxtı – e.ə. 44-cü il martın 15-də Brut və Kassinin başçılıq etdikləri sui-qəsdçilər dəstəsi, senatda onu əhatəyə alıb, çoxsaylı bıçaq zərbələri ilə qətlə yetirdilər. O, hətta ölərkən belə, özünün səhnə hissiyyatını itirmədi: başını əbası ilə örtərək, paltarının ətəyini isə ayağının üstünə çəkərək, meyitinin də ləyaqətli görkəmdə olmasının qayğısına qaldı. Roma tarixçisi Svetoni xəbər verirdi ki, Sezarın axırıncı sözü, ona ikinci zərbəni vurmağa hazırlaşan köhnə dostu Bruta müraciətlə yunan dilində, sanki pyesin finalını məşq edirmiş kimi dediyi «Mənim balam, sən də?» (Plutarxın yazdığına görə «Brut, sən də?») ifadəsi olmuşdur.

İZAHI

Roma teatrı kütlələr üçün hadisə idi, indi sadəcə olaraq təsəvvür edilməsi mümkün olmayan çox böyük miqdarda xalq kütləsini cəlb edirdi. Nəhəng amfiteatrları ağzına qədər doldurmuş tamaşaçılar bir qədər kobud komediyalardan şənlənir və ya dərin mənalı faciələrə həyəcanla tamaşa edirdilər. Teatr özünün dramatikliyi, ümumiləşmiş və zənginləşmiş forması ilə sanki həyatın məğzini ifadə edirdi. Dini mərasim kimi, teatr da insan üçün güclü, qarşısıalınmaz cazibə qüvvəsinə malik idi.

Yuli Sezar, ola bilsin, teatrla hakimiyyət arasında həyati əlaqələrin olduğunu başa düşən birinci ictimai xadim idi. O, bunu özünün teatra mübtəla olması ilə əldə etmişdi. Dünya səhnəsinin aktyoru və rejissoru olaraq Sezar bu marağı coşdurdu. O, öz rolunun sözlərini elə ifa edirdi ki, sanki yazılanları oxuyur, o, öz tamaşaçılarının gözündə necə göründüyünə daima nəzarət edərək, xalqın qarşısında və içərisində təsirli hərəkətlər edirdi. O, repertuara sürprizlər və gözlənilməzliklər daxil edir, özünün tamaşaçılar arasında görünməsini sanki tamaşaya döndərərək, tamaşanı öz nitqinə döndərirdi. Onun jestləri olduqca

geniş idi, belə ki, sadə adamlar onları dərhal duyur və başa düşürdülər. O, fövqəladə dərəcədə məşhurlaşdı.

Sezarı bütün liderlər və hakimiyyət adamları üçün ideal saymaq olar. Onun kimi, sizə də, öz fəaliyyətinizin miqyasını süni teatr metodları və üsullarının – sürprizlər və gözlənilməzliklərin, mərhəmət və başqasının dərdinə şərik olmaq hisslərinin yaradılması bacarığının köməyi ilə, həmçinin rəmzi paralellər aparmaqla öyrənmək lazımdır. Sezar kimi, siz, həmişə auditoriyaya nəzarət etməli – tamaşaçının nədən xoşu gəldiyini, nədən isə darıxdığını bilməlisiniz. Siz həmişə səhnənin önündə olmalı, diqqəti idarə etməli və heç vaxt arxa plana keçməməlisiniz.

•

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

1831-ci ildə Avrora Dyupen Dyudevan adlı gənc qadın öz ərini və ailəsini əyalətdə qoyaraq, Parisə köçdü. O, yazıçı olmaq istəyirdi; ailə həyatı ona zindan əzabı kimi görünürdü, çünki bu, ona öz maraqlarına əməl etmək üçün nə vaxt, nə də sərbəstlik verirdi. Parisdə o, müstəqillik əldə etməyə və yazıçılıqla pul qazanmağa ümid edirdi.

Ancaq paytaxta gəldikdən dərhal sonra Dyudevan sərt reallıqla üzləşdi. Belə ki, Parisdə müəyyən səviyyədə sərbəstlik əldə etmək üçün pul lazım idi. Qadınlar üçün isə pul qazanmağın yeganə yolu ərə getmək və ya fahişəlik idi. Həmin dövrdə heç bir qadın yazıçı əməyini yaşamaq mənbəyi kimi xəyalına da gətirmirdi. Qadınlar öz ərlərinin himayəsində olaraq və ya aldıqları vərəsəni xərcləyərək, əyləncə üçün yazırdılar. Dyudevan özünün ilk əsərini redaktorun yanına gətirərkən belə nəsihət eşitdi: «Madam, sizə ədəbiyyatla yox, uşaqlarla məşğul olmaq lazımdır».

Aydındır ki, madam Dyudevan Parisə ağıla gəlməyən şeylərə nail olmaq üçün gəlmişdi. Nəhayət o, indiyə kimi heç bir

qadının istifadə etmədiyi strategiyaya müraciət etməli oldu. Bu strategiya özünü tamamilə yenidən yaratmaqdan, cəmiyyətdə özünə öz əli ilə tamam başqa şöhrət qazandırmaqdan ibarət idi. Ona qədər qadın yazarlar cəmiyyətin onlara sırıdığı rolu – başqa qadınlar üçün müəyyən janrda ədəbi əsərlər yaradan ikinci dərəcəli yazıçı rolunu qəbul etməyə məcbur idilər. Dyudevan qərara gəldi ki, madam oyuna girirsə, mövcud olan oyun qaydalarını dəyişməlidir: o, özü üçün kişi rolunu seçdi.

1832-ci ildə naşir Dyudevanın ilk böyük romanı «İndiana»nı nəşr üçün qəbul etdi. O istəyirdi ki, roman «Jorj Sand» təxəllüsü ilə çıxsın, belə ki, bütün Paris kitabın kişinin qələmindən çıxdığına inansın. Dyudevan hətta «Jorj Sand»ın təzahür etməsinə qədər də bəzən kişi paltarı geyməyi xoşlayırdı (o, həmişə belə hesab edirdi ki, kişi köynəyi və bric at minmək üçün olduqca rahatdır); o, ictimai əhəmiyyətli fiqura çevrilərək, öz obrazını gücləndirdi və ciddiləşdirdi: öz qarderobuna uzun kişi paltoları, boz şlyapalar, bir qədər kobud ayaqqabılar və dendi üslubunda qalstuklar əlavə etdi. O, siqaret çəkir, söhbət zamanı kişisayağı dayanır, söhbəti ələ almaqdan və hətta ibarəli sözlər işlətməkdən utanmırdı.

Qəribə «qadın-kişi» yazıçı ictimaiyyəti heyran qoymuşdu. Başqa qadın yazıçılardan fərqli olaraq, Jorj Sand kişi yazıçıların qapalı kiçik dünyasına qəbul edildi. O, kişilərlə bərabər içki içir və siqaret çəkirdi, Avropanın çox məşhur sənətkarları – Myusse, List, Şopenlə onun eşq macəraları var idi. Sand onları öz istəyi ilə özü seçir və özü də atırdı.

Sandı yaxşı tanıyanlar, çox gözəl başa düşürdülər ki, onun kişi siması özünü ictimaiyyətin acgöz, hər şeylə maraqlanan baxışlarından müdafiə etmək üsulundan başqa bir şey deyildir. Onun qəribə, ədabaz adam roluna girməsi adamların xoşuna gəlirdi, xüsusi şəraitdə, o, yeni əlamətlər və xüsusiyyətlər əxz edirdi. Həmçinin o, bunu da başa düşürdü ki, «Jorj Sand» personajı onun əvvəlcədən başa düşülən və sabit olması qorxusu-

nu yaradır. Bundan xilas olmaq üçün, o, vaxtaşırı özünün yaratdığı obrazın xarakterini kəskin şəkildə dəyişirdi. Məşhur adamlarla yeni eşq macəralarına girmək əvəzinə, nümayişlərə başçılıq edir, tələbə çıxışlarını təşkil edərək, siyasətlə məşğul olurdu. Onun yaratdığı obrazın sərhədlərini dünyada heç kim bütövlükdə qabaqcadan duya bilməzdi. Onun ölümündən çox illər keçmişdir və adamlar artıq çoxdandır ki, onun romanlarını oxumurlar, ancaq həyatın özünün yarada bilmədiyi onun süni obrazı, insanları həyəcanlandırmaqda və ruhlandırmaqda davam edir.

İZAHI

Jorj Sandla ünsiyyətdə olan, ancaq onu yaxından tanımayan adamlarda belə bir duyğu yaranırdı ki, onlarla bir yerdə olan kişidir. Ancaq o, öz gündəliklərində və yaxın dostlarına, məsələn, Qustav Floberə etiraf edirdi ki, o kişi olmaq arzusunu təcrübədən keçirmək istəmirdi, bu rolu ictimaiyyətin onu tanıması naminə oynayırdı. Onun həqiqətən istədiyi, öz xüsusi obrazını müəyyən etmək və formalaşdırmaq idi. O, cəmiyyətin ona sırıdığı məhdudiyyətləri qəbul etməsə də, öz yerində duraraq, hakimiyyətə nail olmağa girişmədi. Bunun əvəzinə, o, özünün tələbatına uyğun olaraq, daima dəyişə, uyğunlaşa bilən şəxsiyyət yaratdı; elə şəxsiyyət ki, diqqəti cəlb etdi və yaşamaq üçün ona kömək etdi.

Bunu başa düşmək lazımdır: dünya həyatda sizə rol sırımaq istəyir. Bu rola razılaşmağınız kifayətdir ki, siz məhv olasınız. Sizin hakimiyyətiniz minimuma qədər məhdudlaşacaqdır və seçdiyiniz və ya qəbul etməyə məcbur olduğunuz bu roldan ayrılmazdır. Ancaq aktyor çoxlu rollar oynayır. Çoxüzlülükdən ləzzət alın və ya heç olmazsa, öz fikrinizə uyğun yeni şəxsiyyət yaradın – elə şəxsiyyət ki, paxıl və bədxah dünyaya sizin əl-qolunuzu bağlamağa və sizi məhdudlaşdırmağa imkan verməsin. Belə açıq tabe olmamaq hərəkəti, Prometeyin allahları vuruşa çağırmasına bənzəyir: nəticədə yaratdığınıza görə məsuliyyət öz üzərinizə düşür.

Yaratdığınız yeni şəxsiyyətiniz sizi dünyadan məhz ona görə qoruyacaqdır ki, bu, siz deyilsiniz, əyninizdən çıxardığınız və yenidən geyindiyiniz maskarad kostyumudur. Siz onu yeni şəxsiyyət kimi qəbul etməməlisiniz. O, sizin yeni obrazınızı müdafiə edəcək, sizi canlı adamdan teatr obrazına çevirəcəkdir. Siz tamaşa salonundan çox yaxşı görünür və eşidilirsiniz. İlk cərgələrdə oturanlar isə, sizin cəsarətinizdən vəcdə gəlirlər.

HAKİMİYYƏTİN AÇARI

Sizdə anadangəlmə olduğunu hesab etdiyiniz xarakter, əslində sizdə olan xarakterə tamamilə uyğun gəlmir. Şəxsiyyətinizin formalaşmasına, genetik olaraq sizə verilmiş irsi xüsusiyyətlərdən başqa, valideynləriniz, dostlarınız və tanışlarınız təsir etmişdir. Mühüm məsələ ondan ibarətdir ki, ətrafdakılara xarakterinizi müəyyən etmək və yaratmaq hüququ verməyərək, bu prosesin idarə edilməsini öz əlinizə alasınız. Özünüzə güclü xarakter düzəldin. Gildən düzəldilən kimi özünüzü yaradın – bu, ən böyük və ən yaxşı həyati məsələlərdən biri ola bilər. Bu, sizi, əslində rəssama çevirir – elə rəssama ki, özü özünü yaradır.

Məgər cəmiyyətdə onun haqqında demirlərmi ki, o, böyük aktyordur? Bu zaman onun dərindən duyduğu deyil, heç nə duymadığına baxmayaraq, yaradıcılığında nail olduqları nəzərdə tutulur.

Deni Didro, 1713–1783

Həqiqətən də, öz-özünü yaratma ideyası öz başlanğıcını incəsənət dünyasından götürür. Min illər ərzində yalnız şahlar və ən yüksək dərəcəli adlı-sanlı adamlar özlərinin ictimai simasını formalaşdırmaq və öz şəxsiyyətini müəyyən etmək iradəsinə malik idilər. Buna oxşar olan yalnız monarxların, ən varlı və nüfuzlu adamların incəsənətdə öz obrazını tənqid etməsinə və şüurlu surətdə onu dəyişməsinə yol verilirdi. Bəşəriyyətin qalan nümayəndələri cəmiyyətin sındığı məhdud rolu oynayır və məhdud özünüdərkə malik olurlar.

Əsrlər boyu formalaşmış bu qaydanın dəyişilməsinin əlamətlərini Velaskesin 1656-cı ildə çəkdiyi «Menina» rəsmindən sezmək olar. Tablonun sol hissəsində bizim görə bilmədiyimiz rəsm çəkən rəssam – o, çəkdiyi tablonun arxa tərəfindədir – təsvir edilmişdir. Rəssamın arxa tərəfində şahzadə öz məiyyəti və saray cırtdanlarından biri ilə dayanmışdır – onlar hamısı rəssamın işini izləyirlər. Rəsmlərinin çəkilməsi üçün vəziyyət almış adamlar tamamilə görünmürlər, ancaq biz onların arxa divardakı güzgüdəki kiçik əkslərinə nəzər sala bilərik – bunlar, görünür, tablonun hüdudlarından qabaqda, haradasa oturmuş İspaniya kralı və kraliçasıdır.

Rəsm hakimiyyətin dinamikasında və insanın cəmiyyətdə öz yerini müəyyən etməsində köklü dəyişikliklərdən xəbər verir, çünki rəssam Velaskes rəsmdə kral ilə kraliçadan daha uğurlu mövqedə yerləşdirilmişdir. Müəyyən mənada, rəssam onlardan böyük hakimiyyətə malikdir, çünki təsvir, obraz – məhz rəssamdan asılıdır. Velaskes artıq özünü kölə kimi tabe, asılı rəssam görmür. O, özünü hakimiyyət adamına çevirmişdir. Əslində qərb cəmiyyətində zadəganlardan başqa, öz imicini ilk dəfə açıq şəkildə sınaqdan çıxarmağa başlayanlar: rəssamlar və yazıçılar, sonra isə dendilər (modabazlar, həmişə ən son modalı paltar geyinən adamlar) və bohemalar (sərsəri həyat keçirən ziyalılar – aktyorlar, şairlər, rəssamlar və b.) olmuşlar. İndiki zamanda özünü yaratma konsepsiyası yavaş-yavaş əhalinin digər təbəqələrinə də keçmişdir. Velaskes kimi siz də özünüzə

hakimiyyət əldə etməli, tabloda öz vəziyyətinizi özünüz müəyyən etməli və öz obrazınızı özünüz yaratmalısınız.

Özünü yaratmaq yolunda ilk addım özünü başa düşmək, özözünü dərk etməkdir. Özünüzü aktyor hiss edin, öz emosiyalarınızı idarə etməyi və özünüzün zahiri simanızı müəyyən etməyi öyrənin. Didronun dediyi kimi, pis aktyor o aktyordur ki, həmişə səmimidir. Biz heç nəyi gizlətməyi bacarmayan, bütün fikirləri və duyğuları sifətindən oxunan adamların cəmiyyətdə bacarıqsızlığını müşahidə edirik. Onların səmimiyyəti usandırıcı və dözülməzdir, həm də onları ciddi qəbul etmək çətindir. Kim adamların yanında ağlayırsa və qışqırırsa, bəzən mərhəmət hissi yarada bilər, ancaq gec-tez bu, onların öz-özlərini yazıq vəziyyətə qoymaları üzündən yaratdıqları bezikdiricilik, əsəbilik və nifrətə keçir – biz hiss edirik ki, onlar diqqəti cəlb etmək üçün ağlayırlar və bizim təbiətimizin daşürəkli hissəsi onları bu ləzzətdən məhrum etməyi tələb edir.

Yaxşı aktyorlar öz-özlərini bacarıqla idarə edirlər: onlar səmimilik və mehribanlıq hissləri yaradır, göz yaşı axıtmaqla nəzəri cəlb edir, mərhəmət duyğuları oyadırlar ki, bununla da onların müvafiq hissləri hökmən yaşaması vacib deyildir. Onlar öz emosiyalarını ətrafdakıların başa düşdükləri formada nümayiş etdirirlər. Heç bir hökmdar, heç bir lider, ifadə etməli olduğu təəssüratların hamısını deyil, heç olmazsa bir hissəsini həqiqətən yaşasaydı, öz vəzifəsinin öhdəsindən gələ bilməzdi. Buna görə də, özünüzə nəzarət etməyi öyrənin. Hansı hissləri ifadə etməyin zəruriliyindən asılı olaraq, özünə sima yaradan aktyorların plastikliyini (istənilən şəklə düşə bilmək qabiliyyətini) və çevikliyini mənimsəyin.

Öz-özünü yaratma prosesində ikinci addım Jorj Sanda məxsus: diqqəti cəlb edən, səhnədə tərəfdaşlarından üstün olan, yadda qalan parlaq xarakter yaradan strategiya variantıdır. Avraam Linkoln da özü üçün məhz beləsini seçdi. O, başa düşürdü ki, adi adam, əyalət hüquqşünası seçkilərdə qarşısıalınmaz üstünlük qazana və Amerika tarixində hələ indiyə kimi

görünməmiş prezident ola bilər. Bu keyfiyyətlərdən bir çoxu onda təbiətən var idi, o, bunları göstərirdi – şlyapa və paltar, saqqal. (Ona qədər heç bir prezident saqqal saxlamırdı.) Linkoln həmçinin ilk dəfə «sadə prezident» «ikonasını» yaratmağa kömək edərək, öz obrazını çoxaltmaq üçün fotoqrafiyadan da istifadə etdi.

Yaxşı dram əsəri personajın maraqlı zahiri simasından və ya ayrıca yaxşı səhnədən başqa daha nəyisə tələb edir. Dram zaman üzrə inkişaf edir – bu, uzun hadisədir. Zamanın nəbzi və hissiyyatı, burada çox mühüm rol oynayır. Məsələn, Qudini bəzən öz tryukunu bir an ərzində yox olmaqla yerinə yetirə bilirdi – ancaq tamaşaçıları gözləməkdən üzülməyə məcbur edərək, bunu uzun çəkən dəqiqələrlə davam etdirirdi.

Tamaşaçıları boyunlarını uzatmağa və nəfəslərini çəkməməyə məcbur etməyin sirri, hadisələri ləng inkişaf etdirməkdə, sonra həlledici anda hadisələrin sürətini və özünü öz mülahizəsi üzrə nizamlamaqdadır. Napoleondan tutmuş Mao Tsze Duna qədər böyük hökmdarlar ictimaiyyəti heyran qoymaq və cəlb etmək üçün süni effektlərdən istifadə etmişlər.

Franklin Delano Ruzvelt siyasi hadisələri müəyyən qaydada və ritmdə «düzməyin» nə qədər vacib olduğunu başa düşürdü. Onun 1932-ci ildəki prezident seçkiləri Birləşmiş Ştatların ağır iqtisadi böhran dövrünə düşdü. Banklar bir-birlərinin ardınca qorxunc bir sürətlə iflas olurdu. Seçkilərdəki qələbədən dərhal sonra Ruzvelt bir müddət guşənişin oldu. O, nə öz planları, nə də nazir vəzifələrinə təyinatlar haqqında xəbər vermirdi. Ruzvelt hətta vəzifəsini yerinə yetirən prezident Herbert Quverlə vacib məcburi görüşündən imtina etdi. Ruzveltin andiçmə mərasiminə qədər ölkə həyəcan və narahatlıq içində oldu.

Andiçmə nitqini söyləyərkən Ruzvelt taktikanı dəyişdi. Nitq amiranə, güclü idi, o, izah etdi ki, yeni prezident öz sələflərinin təvazökarlığını təkrar etməkdən imtina edərək, ölkəyə tamamilə yeni şəkildə rəhbərlik etməyə hazırlaşmışdır. Bu andan başlayaraq, onun çıxışları və hərəkətləri – nazirlər kabinetinin təyini, qətiyyətli qanun yaradıcılığı fəaliyyəti – ağlagəlməz yüksək sürət aldı. Andiçmə mərasimindən sonrakı dövr «Yüz gün» adı ilə məşhurdur və ölkədə əhval-ruhiyyənin dəyişilməsində onun uğurlarının səbəbləri qismən Ruzveltin dramatik təzadlı hərəkətlərində və hadisələrin yaxşı düşünülmüş inkişaf ritmində idi. O, öz auditoriyasını gərginlikdə saxladı, sonra cəsarətli və qətiyyətli hərəkətlər seriyası ilə hamını çaşdırdı, bu hərəkətlər sanki boş yerdən yarandığına görə daha gözlənilməz görünürdü. Siz buna bənzər şəkildə hadisələri idarə etməlisiniz, özünüzün bütün fikirlərinizi heç vaxt bir dəfəyə açmadan, onları elə şəkildə üzə çıxarmalısınız ki, maksimum süni səmərəyə nail olasınız.

Yaxşı teatr tamaşası təkcə çoxsaylı günahları ört-basdır etmir, eyni zamanda sizin düşmənlərinizi yanıldır və aldadır. Bir ibrətamiz hekayəti yenidən xatırlayaq. İkinci Dünya müharibəsi zamanı alman dramaturqu Bertold Brext Hollivudda ssenariçi işləyirdi. Müharibədən sonra onu ABŞ konqresinin antiamerikan fəaliyyəti üzrə Komissiyasına dəvət etdilər və onu kommunistpərəst əhval-ruhiyyədə olmaqda təqsirləndirdilər. İfadə vermək üçün çağırılmış digər yazıçılar Komissiyanın üzvlərini təcavüzkar emosional qarşıdurma ilə təhqir etməyə hazırlaşdılar. Brext müdrik idi: o, Komissiyanın üzvlərinə hiylə gəlməyə, skripkada çalındığı kimi, onların hissləri ilə oynamağa, onları heyran qoymağa və eyni zamanda barmağına dolamağa nail oldu. O, öz cavablarını diqqətlə məşq etdi və hətta müəyyən rekvizitlərdən, məsələn, Komissiya üzvlərindən birinin siqaret hərisi olduğunu bilərək, siqaretdən istifadə etdi. Onun düşünülmüş, çoxmənalı, ağıllı və ikili nəticə verən cavabları, Komissiyanın üzvlərini inandırmağa həqiqətən kömək etdi. O, ürəkdən gələn acıqlı və təcavüzkar monoloq əvəzinə, Komissiya üzvlərinə əsl tamaşa təklif etdi, nəticədə isə məsuliyyətdən azad edildi.

Sizin repertuarınız üçün digər süni effektlər gözəl jestlərdir, yəni həlledici anda sizin qalibiyyətinizi və ya sizin əhəmiyyətinizi rəmzləşdirən hərəkətlərdir. Rubikon çayını Sezarın dramatik keçişi beau geste (gözəl jestdən) – öz parlaqlığı ilə əsgərlərin gözlərini tutan və Sezarı onların gözündə qəhrəman edən hərəkətdən başqa bir şey deyildir. Həmçinin siz də, səhnəyə düzgün və vaxtında gəlməyin və ondan getməyin necə vacib olduğunu bilməlisiniz. Misirdə Sezarla ilk dəfə görüşərkən, Kleopatranın büründüyü xalça açılarkən, düz Sezarın ayaqları altına düşdü. Corc Vaşinqton hakimiyyəti iki dəfə alqışlar və şeypur sədaları altında tərk etdi (əvvəlcə general, sonra üçüncü dəfə seçkilərdə prezident kimi səsə qoyulmaqdan imtina etdi). Bununla da, o düzgün seçilmiş vaxtın nə qədər mühüm, dramatik və rəmzi olmasını bildiyini göstərdi. Sizin özünüzün də meydana çıxmağınızın və getməyinizin bu qədər diqqətlə planlaşdırılması və həyata keçirilməsi zəruridir.

Ancaq çalışın ki, bunu yenidən təkrar etməyəsiniz – bu, diqqəti özünə cəlb etməyə həddindən artıq səy edilən və vəsait çəkilən istənilən üsul kimi əks səmərə verə bilər. Aktyor Riçard Barton özünün yaradıcılıq fəaliyyətinin lap başlanğıcında hiss etmişdi ki, səhnədə tam hərəkətsiz dayanarkən, tamaşaçıların diqqətini digər aktyorlardan yayındıraraq, özünə cəlb edir. Ola bilsin ki, sizin nə etdiyiniz, onu necə etdiyinizdən az əhəmiyyətlidir – sizin incəliyiniz, zərifliyiniz və nüfuzedici sakitliyiniz sosial səhnədə, həddindən artıq fəal hərəkətinizdən və boş-boşuna ora-bura qaçmağınızdan yüksək qiymətləndirilir.

Nəhayət, hər bir vaxt hansı rolu oynamaq lazım olduğunu nəzərə almaqla, çoxlu rollar oynamağı öyrənin. Öz maskanızı vəziyyətə uyğunlaşdırın – sifətinizə sizdən gözlənilən maskanı taxaraq çoxüzlü olun. Bismark bu oyunu mükəmməl bilirdi: o, liberalla liberal, yırtıcı ilə yırtıcı idi. Onu başa düşmək mümkün deyildi, başa düşmək mümkün olmayanı isə məhv etmək mümkün deyildir.

OBRAZ:

YUNAN DƏNİZ ALLAHI QOCA PROTEY

Öz hakimiyyətinə görə o, istənilən şeyə çevrilə bilmək qabiliyyətinə borclu idi. Aqamemnonun qardaşı Menelay onu tutmaq istəyəndə, Protey şirə, sonra ilana, panterə (pişiklər cinsindən olan heyvan), qabana, axan suya və nəhayət, yaşıl ağaca çevrildi.

MÖTƏBƏR FİKİR

«Hamı üçün hamı olmağı öyrən. Ehtiyatlı Protey kimi – alimlə alim, abidlə abid olun. Bu hər kəsə qalib gəlmək sənətidir. Qarşına çıxan hər kəsin xarakterinə fikir verib onu məhv et – əhval-ruhiyyəni ağılla və ehtiyatla dəyişərək, növbə ilə gah ciddi, gah da şən ol».

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

Çox mühüm olan bu qanun üçün həqiqətən əks nümunələr yoxdur: pis teatr – bu yalnız pis teatrdır. Hətta təbii görünmək üçün də sənət tətbiq etmək, başqa sözlə, oyun lazımdır. Pis oyun isə, yalnız narazılıq yaradır. Əlbəttə, həddindən artıq süni olmaq lazım deyildir – təmtəraqlı qeyri-təbii jestlərdən uzaq olun. İstənilən halda bu, təkrar etməyi qadağan edən çoxəsrlik ənənələri pozan pis oyun olacaqdır. Ümumilikdə və bütövlükdə bu qanunun əks tərəfi yoxdur.

İYİRMİ ALTINCI QANUN

ƏLLƏRİNİ TƏMİZ SAXLA

QANUNUN MƏZMUNU

Siz düzlük və çalışqanlıq nümunəsi kimi görünməlisiniz: sizin əlləriniz heç vaxt səhvlərlə və çirkin işlərlə ləkələnməməlidir. Belə işlərdə şəxsən iştirakınızı gizlədərək, başqalarından öz silahınız kimi istifadə edin və simanızın ləkələnməsinə imkan verməyin, onun təmizliyini qoruyub saxlayın.

I HİSSƏ. SƏHVLƏRİNİ GİZLƏ – ONLARI ÖZ ÜZƏRİNƏ GÖTÜRƏCƏK ADAMI ƏLİNİN ALTINDA HAZIR SAXLA

Bizim təmiz adımız və şöhrətimiz, hər şeyi açıq göstərdiyimizdən daha çox, nələri gizlətməyimizdən asılıdır. Hər kəs səhv edir, ancaq kim ki, həqiqətən ağıllıdırsa, bu səhvləri ört-basdır etmək qayğısına qalır və başqasının təqsirləndirilməsinə çalışır. Bunun üçün həmişə səhvləri öz üzərinə götürəcək münasib adamın əl altında olması lazımdır.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

II əsrin sonunda – Çinin Üçhakimiyyətlilik dövründə Xan sülaləsinin qüdrətli imperiyası tədricən süquta doğru getdiyi vaxt böyük sərkərdə və imperator naziri Sao Sao ölkədə ən nüfuzlu adama çevrildi. Öz hakimiyyətini möhkəmlətməyi və düşmənlərindən xilas olmağı arzu edərək, Sao Sao Orta Düzənliyin həyati vacib strateji mövqelərini ələ keçirmək məqsədi ilə müharibə kampaniyasına başladı. Strateji əhəmiyyətli yaşayış məntəqəsinin mühasirəsi zamanı, o, paytaxtdan gətirilən taxılla bağlı kiçik səhvə yol verdi. O, azuqə yüklənmiş arabaları gözləyirdi, ordu isə ərzaqsız qalmışdı. Buna görə, Sao Sao ərzaq xidməti rəisinə ərzaq payını azaltmağı əmr etdi.

Sao Sao orduda ciddi intizam bərqərar etmiş və bütöv bir xəbərçilər şəbəkəsi yaratmışdı. Tezliklə onun casusları əsgərlər arasında Saonun yaxşı yaşaması, özlərinin isə bu zaman aclıq çəkdikləri barədə şikayətləri və dedi-qoduları ona çatdırdılar. Əsgərlər pıçıldaşırdılar ki, ola bilsin, Sao azuqəni özü üçün saxlayır. Sao Saonun orduda qəsdən qiyam yaratmaq istəməsi barədə şayiələr gəzirdi. O, ərzaq xidməti rəisini yanına çağırdı.

Sao Sao ona dedi: «Bir işdə mənə lütfkarlıq göstərməyini səndən xahiş etmək istəyirəm və sən bundan imtina etməməli-

sən». Ərzaq xidməti rəisi soruşdu: «Siz nə barədə deyirsiniz?» – «Qoşuna görk üçün sənin boynunu vurdurmaq istəyirəm». Ərzaq rəisi qışqırdı: «Axı, mən heç bir pis iş görməmişəm!» Sao Sao köks ötürərək dilləndi: «Bunu bilirəm, ancaq əgər mən səni edam etməsəm, əsgərlər qiyam qaldırarlar. Kədərlənmə, ölümündən sonra ailənin qayğısına qalacağam». Ərzaq rəisinin başqa çıxış yolu yox idi və o, öz taleyinə boyun əyməli oldu. Onu elə həmin gün edam edib başını, hamının lənətləməsi üçün əsgərlərin qarşısında nümayiş etdirdilər. Bundan sonra əsgərlər arasında narazılığa son qoyuldu. Hətta Sao Saonun hiyləsini başa düşənlər törədilən zorakılıqdan sarsılaraq və qorxaraq susmağı üstün tutdular. Əksəriyyət isə, Sao Saonun bu hərəkətini, onun bacarıqsızlığı və amansızlığı kimi deyil, müdrikliyi və düzlüyü kimi qiymətləndirdi.

İZAHI

Sao Sao hakimiyyətə fövqəladə dərəcədə gərgin bir dövrdə gəlmişdi. Dağılmaqda olan Xan imperiyasında üstünlük qazanmağa çalışan Saonu düşmənlər hər tərəfdən sıxışdırırdılar. Orta Düzənlik uğrunda döyüşlər hesab edildiyindən daha çətin və üzücü oldu, pul və ərzaq daimi problem idi. Belə halların təsiri altında sərkərdənin ərzaq gətirilməsi haqqında vaxtında sərəncam verməyi unutması təəccüblü deyildir.

Ərzaq gətirilməsinin ləngidilməsinin çox ciddi səhv olduğu və ordunun qiyam qaldıracağı aydın olduqda, Sao Saonun iki mümkün yolu var idi: öz səhvini etiraf etmək və özünə haqq qazandırmağa çalışmaq və ya təqsiri öz üzərinə götürən adam tapmaq. Belə ki, Sao Sao, müasir dildə desək, hakimiyyət mexanizmini çox aydın başa düşür və imicin əhəmiyyətini dərk etdiyindən, bir an da tərəddüd etmədi: o, ən münasib qurbanı seçərək, ləngimədən ona divan tutdu.

Dünya elə müəmmalıdır ki, təsadüfi səhvlərin olması labüddür. Ancaq hakimiyyət adamlarını onların səhvləri deyil, bu

səhvləri necə düzəltmələri məhv edir. Cərrah kimi onlar bəd xassəli şişi tez və səmərəli yolla çıxarmalıdırlar. Üzr istəmək və özünə haqq qazandırmaq – belə əməliyyatlar üçün olduqca pis vasitələrdir, hakimiyyət adamları onlardan qaçırlar. Üzr istəyərək siz, öz bacarığınız və niyyətləriniz üçün şübhə yeri qoyursunuz, ola bilsin, peşman olmadan nə qədər digər səhvlər etdiyiniz barədə onları düşünməyə vadar edirsiniz. Üzr istəmə heç kimi razı salmır, özünə haqq qazandırmaq hamıda xoşagəlməz hisslər yaradır. Üzr istəməklə səhvlər aradan qalxmır, əksinə, dərinləşir və qızışır. Ən yaxşısı, adamlar sizin cavabdehliyinizi və ya bacarıqsızlığınızı dərk etməyə macal tapmamış, hər şeyə birdəfəlik son qoymaq, ətrafdakıların diqqətini özündən yayındırmaq və təqsiri öz üzərinə götürən münasib adama yönəltməkdir.

Dünyanın məni ələ vermәsinә imkan verincə, mən bütün dünyanı sataram.

Sərkərdə Sao Sao, 155–220-ci illər

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

Çezare Borcia Roma papası olan atası Aleksandrın şərəfi naminə İtaliyanın böyük bir hissəsində uzun müddət müharibə apardı. 1550-ci ildə o, Romanyanı ələ keçirməyə müvəffəq oldu. Şimali İtaliyanın bu əyalətində uzun illər idi ki, öz sərvətini artırmaqla məşğul olan acgöz ağalar hökmran idilər. Polis və ya digər inzibati qüvvələri olmayan Romanya tam qa-

nunsuzluğa yuvarlanmışdı, bütöv bölgələri oğrular və bir-biri ilə düşmənçilik edən ailələr idarə edirdi. Çezare qayda-qanun yaratmaq üçün Remirro de Orko adlı birisini şəhərin baş komendantı təyin etdi. Nikkolo Makiavellinin sözlərinə görə, de Orko hökmlü və sərt adam idi. Çezare ona qeyri-məhdud səlahiyyət verdi.

İşə ciddi və qətiyyətlə girişən de Orko Romanyada sərt, amansız qayda-qanun qoydu və tezliklə, demək olar ki, bütün qanun pozucularını aradan götürdü. Ancaq o, bəzən həddindən artıq uzağa gedirdi, bir-iki il sonra yerli əhali ondan qorxmağa və nifrət etməyə başladı. 1502-ci ilin dekabrında Çezare qəti hərəkət etdi. Əvvəlcə o, de Orkonun amansızlığına və vəhşiliklərinə pis münasibət bəslədiyinin xalqa məlum olmasına çalışdı. Sonra dekabrın 22-də Çezarenin əmri ilə de Orkonu Sezen şəhər həbsxanasına saldılar, ertəsi gün isə, Milad bayramından sonra, şəhərliləri şəhər meydanında qəribə və dəhşətli mənzərə gözləyirdi: de Orkonun bahalı paltar geyindirilmiş bədəni başsız idi, al-qırmızı başlıq geyindirilmiş başı isə ən uca yerə qoyulmuşdu, başın yanında cəlladın qanlı baltası və edam kötüyü var idi. Makiavelli bu hadisənin şərhini belə qurtarır: «Həmin səhnənin amansızlığı adamları sarsıtdı və onlarda məmnunluq hissi yaratdı».

İZAHI

Çezare Borcia hakimiyyət oyunlarının əsl ustası idi. O, rəqiblərinə çox incə hiylə ilə tələ quraraq, həmişə öz hərəkətlərini bir neçə gediş əvvəlcədən planlaşdırırdı. Buna görə də, Makiavelli özünün «Hökmdar» kitabında onu tərifləmişdi.

Çezare Romanyanın gələcəyini heyrət ediləcək aydınlıqla görürdü: yalnız amansız ədalət mühakiməsi əyalətdə qayda-qanun yaratmağa qadir idi. Proses bir neçə il uzanacaq və əvvəlcə adamlar qayda-qanunu alqışlayacaqdı. Ancaq getdikcə

onun daha çox düşmənləri meydana çıxacaq və adamlar onlar üçün belə əziyyətli qayda-qanunun yüngülləşdirilməsi barədə xahiş edəcəklər. Buna görə də, Çezarenin özü adının belə sərt qayda-qanunla əlaqələndirilməsini istəmirdi – çünki xalqın nifrəti nəticədə bir çox problemlər yaradardı. O, çirkin işi yerinə yetirmək üçün adam seçdi, özü də əvvəlcədən bilirdi ki, iş qurtardıqdan sonra de Orkonun başı ən uca zirvəni bəzəyəcək. Təqsirkar olacaq adam roluna namizəd bu dəfə lap başlanğıcdan müəyyən edilmişdi.

Əgər Sao Sao ilə olan halda üzərinə təqsir qoyulan adam tamamilə təqsirsiz idisə, Romanyada o, Çezarenin ixtiyarında olan təhlükəli silah idi, Çezare onun köməyi ilə öz əllərini qana bulamayaraq, çirkin işi onun köməyi ilə görməyə nail oldu. Buradakı ikinci variantda, bu adamı özündən kənarlaşdırmaq, yaxud hətta, Çezarenin etdiyi kimi, onun üzərində – hamının gözü qarşısında – ədalət mühakiməsi qurmaq, cəza vermək vacibdir. Siz təkcə işdə əli olmayan adam kimi görünməməlisiniz, həm də qayda-qanun yaratmağa qadir olan adam təsiri bağışlamalısınız.

Afinalılar daima dövlətin hesabına çoxlu sayda səfil və faydasız varlıqlar saxlayırdılar; şəhərin başının üstünü hər hansı bəla – taun, quraqlıq və ya aclıq... kəsdirdikdə (təqsirkar hesab edilən bu səfilləri), adətən şəhərin kənarına çıxarır... və daşqalaq etməklə qurban verirdilər.

Ser Ceyms Corc Freyzer (1854–1941), «Qızıl budaq»

HAKİMİYYƏTİN AÇARI

Üzərinə təqsir qoyulanlardan istifadə edilməsi, sivilizasiyanın (mədəniyyətin) özü qədər qədimdir, tarixdə bütün dünyanın ən müxtəlif xalqlarında, belə nü-

munələr tapmaq olar. Bunun arxasında duran əsas ideya – öz təqsirini və günahını başqasına – sonradan cəzalandırılan və ya məhv edilən predmetə, heyvana, yaxud insana yönəltməkdən ibarətdir. İudeylər canlı keçidən istifadə edirdilər (rus dilində işlədilən «kozyol otpuşeniya» ifadəsi də buradan götürülmüşdür), ruhani İsrail övladlarının günahlarının bağışlanması üçün dua edərək, hər iki əlini keçinin başına qoyurdu. Beləliklə, günahlar keçiyə ötürülürdü, sonra onu aparıb meşəyə buraxırdılar.

Afinalılar və asteklər keçini adamlarla, çox vaxt bu məqsəd üçün yedizdirilən və saxlanılan adamlarla əvəz etdilər. Çünki hesab edirdilər ki, allahlar xətalara görə aclıq və taun göndərir, adamlar təkcə aclığın və taunun özündən deyil, həm də günah və peşmançılıq hissindən ziyan çəkirlər. Onlar öz günahlarını günahsıza ötürərək, özlərini günahdan azad edirdilər, həmin günahsız adamın ölümü ilahi qüvvələri məmnun etməli və şəri qovmalı idi.

İşin məğzinə görə, bu, səhv edərək və ya cinayət törədərək, öz daxilinə nəzər salmadan, kənara göz gəzdirmək, təqsiri və ittihamı, bu məqsəd üçün münasib gələn adamın üzərinə qoymaq – insan üçün olduqca səciyyəvi reaksiyadır. Fivada taun tüğyan edərkən, Edip bircə özündən başqa, hər yerdə onun səbəbini axtarırdı. Məhz o özü, allahları acıqlandıraraq günah işlətmiş və bəla gəlməsinə səbəb olmuşdu. Öz günahını başqa şəxsə və ya obyektə yönəltməklə başqasına keçirən bu gizli qalmış tələbat çox böyük hakimiyyətə malikdir və ağıllı adamlar ondan necə istifadə etməyi bilirlər.

Qurban vermə – mərasimdir, ola bilsin, bütün mərasimlərin ən qədimidir, mərasim isə qüvvə mənbəyidir. Ölmüş De Orkonun meyitinin rəmzi olaraq meydana qoyulması barədə Çezare Borcianın verdiyi əmri xatırlayın. Hər şeyi çox təsirli dərəcədə dramatik idi: bu proses mərasim kimi təşkil edildi və təqsir de Orkonun üzərində cəmləşdirildi. Romanyanın vətəndaşları buna dərhal öz münasibətlərini bildirdilər. Çünki təqsiri

daxildə yox, kənarda axtarmaq bizim üçün tamamilə təbii olduğundan, təqsirin, üzərinə qoyulmuş adamda olduğunu qəbul edirik.

Üzərinə təqsir qoyulanın qanlı faciəsi keçmişin qalığı kimi görünsə də, bu praktika indi də, məcazi mənada, yaxud rəmzi olsa da yaşayır. Hakimiyyət axtaranlar günahsız və heç vaxt səhv etməyən kimi göründüklərindən, üzərinə təqsir qoyulanlar lazım olacaqdır. Hansı müasir lider əməlinə görə təqsiri öz üzərinə götürər? O, mühakimə etməyə adam axtarır, qurban vermək üçün ona təqsiri öz üzərinə götürən adam lazımdır. Mao Tzse Dunun «mədəni inqilabı» rüsvayçılıqla iflasa uğradıqda, böyük sükançı, Çin xalqı qarşısında təqsirini boynuna almaq əvəzinə, Sao Saonun etdiyi bütün günahları başqalarının üzərinə, o cümlədən özünün şəxsi katibi və partiyanın yüksək vəzifəli üzvü Çen Potun üzərinə qoydu.

Franklin D. Ruzvelt təmiz adam və siyasətçi ad-sanı qazanmış olsa da, özünün fəaliyyəti müddətində, vicdanlı davranışının onu siyasi faciələrə gətirib çıxara biləcəyi hallarda, daha əlverişli yolu seçərək, məqsədinə çatmaq üçün heç bir vasitədən çəkinməmişdir ki, bu da oyun qaydalarının əleyhinə olan davranış kimi qiymətləndirilə bilməzdi. Bu səbəb üzündən, onun katibi Luis Houi iyirmi beş il ərzində de Orko rolunu oynadı. Bütün gizli işləri o gördü, mətbuata hiylə gəldi, pərdəarxası intriqalarla və hiyləgər manevrlərlə məşğul oldu. Ruzveltin diqqətlə və ciddi şəkildə hazırlanmış imicinə zidd olan hər hansı səhvə, dolaşıq hərəkətə yol verilməsindən asılı olmayaraq, ondan ictimaiyyətin xəbəri olmurdu, Houi təqsiri öz üzərinə götürürdü və heç vaxt bundan şikayət etmirdi.

Təqsiri öz üzərinə götürən adamdan, bundan başqa, qorxutmaq və xəbərdarlıq etmək vasitəsi kimi istifadə edilə bilər. 1631-ci ildə Fransa kardinalı Rişelyeni hakimiyyətdən kənarlaşdırmaq məqsədi ilə sui-qəsd cəhdi oldu. Bu sui-qəsd indi «Axmaq sui-qəsd» adı ilə məşhurdur. Qəsddə kralın anası daxil olmaqla, dövlət hakimiyyətinin yuxarı eşalonunun nüma-

yəndələri iştirak etdiyindən, o, demək olar ki, baş tutmuş kimi idi. Ancaq Rişelye, ona sükutla kömək edənlərin hesabına, bu sui-qəsdin qabağında dayana bildi.

Sui-qəsdin ən əsas fiqurlarından biri möhür saxlayan Marillak idi. Rişelye kraliça-ananı işə cəlb etmədən onu həbs edə bilməzdi, bu çox təhlükəli idi. Buna görə də, o, Marillakın qardaşı ordu marşalını hədəf seçdi. Bu adam sui-qəsddə iştirak etmirdi. Ancaq Rişelye başqa sui-qəsdçilərin də, xüsusən orduda olmasından ehtiyat edirdi. Buna görə də, o, açıq edamla onları vahiməyə salmağı qərara aldı. O, Marillakın qardaşını uydurma ittihamla günahlandıraraq, edam etdi. Beləliklə, o, dolayı yolla əsl təqsirkarı cəzalandırdı, əsl təqsirkarın birbaşa divan tutulmaqdan müdafiəsi olsa da, Rişelye bütün mümkün sui-qəsdçiləri xəbərdar etdi ki, hakimiyyətini saxlamaq naminə heç nəyin qarşısında dayanmayacaq, hətta təqsiri olmayanları da edam edəcək.

Əslində çox vaxt ölüm üçün qurbanlıq roluna məhz ən təqsirsiz adamları seçirlər. Bu adamlar müqavimət göstərmək üçün kifayət qədər nüfuzlu olsalar da, onların sadəlövh etirazlarını təqsirlərinin sübutu kimi izah edirdilər. Ancaq əzabkeş obrazını yaratmamaq üçün ehtiyatlı olmaq və həddi gözləmək lazımdır. Ən mühümü isə odur ki, yaramaz sayılan yaxın adamların pis vəziyyətdə qoyduğu və hətta satdığı qurban, bədbəxt rəhbər kimi miskin görünəcəkdir. Əgər üzərinə təqsir qoyduğunuz adam olduqca zəif, cəza isə həddindən artıq sərtdirsə, siz öz kombinasiyanızın qurbanı ola bilərsiniz. Bəzən bu rola güclünü – bəzən də az rəğbət doğuran adamı götürmək lazımdır.

Tarix onu da göstərir ki, üzərinə təqsir qoyulan adam yaxınlar içərisindən seçilir. Bu «istəklinin gözdən düşməsi» ifadəsi ilə məşhurdur. Kralların əksəriyyəti öz istəkli dostlarını saraydan seçirlər – onlar bu adamı bəzən nəzərə çarpan səbəb olmadan seçir, onu mərhəmət və xüsusi diqqətə qərq edirlər. Ancaq belə istəkli dost çox vaxt, müəyyən bir şey kralın adını təhlükə altına aldıqda, üzərinə təqsir qoyulan münasib adam olur. Saray adamlarının bir hissəsi ittihamın ədalətli olmasına ürəkdən inanırlar – əgər kralın istəklisinin təqsiri yoxdursa, nə üçün onu məhv edir? Kralın sevimlisinə paxıllıq edən başqa saray adamları isə, həmişə onun iflasa uğramasından sevinirlər. Bununla bərabər, kral həmin vaxta kimi, özü haqqında qədərindən artıq bilməyə macal tapmış və ya hökmdar üzərində özünün hakim olmasına həddindən artıq inamlı olan, hətta gizlicə ona nifrət edən adamdan xilas olur. Yaxın müttəfiqin və ya tərəfdaşın qurban kimi seçilməsi «sevimli adamın» süqutunun daşıdığı mənaya malikdir. Siz dostunuzu və ya köməkçinizi itirə bilərsiniz, ancaq uzaq perspektivi nəzərə almaqla, öz səhvlərinizi gizlətmək əleyhinizə çıxa biləcək adamı saxlamaqdan daha vacibdir. Bundan başqa, siz həmişə yeni istəkli dost tapa bilərsiniz.

OBRAZ:
TƏQSİRSİZ QUZU

Günahlardan təmizlənmək üçün qurban verilən gün Ali kahin quzunu məbədə gətirir, əllərini onun başına qoyur və bütün xalqın günahlarına görə dua oxuyaraq, günahları günahsız heyvana keçirir, sonra onu yiyəsiz yerə gətirir və buraxır, onunla birgə xalqın günahları və təqsiri də yox olur.

MÖTƏBƏR FİKİR

«Axmaqlıq onu törətməkdə deyil, axmaqlığı gizlətmək qabiliyyətinin olmamasındadır. Bütün insanlar səhvlər edirlər, ancaq axmaqlar onları nəzərə çarpdırdıqları halda, müdriklər öz səhvlərini gizləyirlər. Ad-san, görünənlərdən daha çox, gizlədilənlərdən asılıdır. Əgər fəzilətli ola bilmirsənsə, heç olmazsa, ehtiyatlı ol».

Baltazar Qratsian

II HİSSƏ. **PİŞİK PƏNCƏSİNDƏN İSTİFADƏ ETMƏYİ ÖYRƏN**

Təmsildə deyilir ki, meymun öz rəfiqəsi pişiyin pəncəsini ələ keçirib, onunla ocaqdan şabalıd çıxarır və beləliklə, özünü yandırmadan arzuladığını əldə edirdi.

Əgər sizə hansısa xoşagəlməz və ya az rast gəlinən işi görmək lazımdırsa, bunu yerinə yetirməyiniz olduqca təhlükəlidir. Sizə pişik pəncəsi tələb olunur – sizin üçün təhlükəli olan çirkin işi kimsə başqası görməlidir. Pişik pəncəsi sizə lazım olanı ələ keçirəcək, sizin cırmaqlamaq istədiyinizi cırmaqlayacaqdır, adamlar isə baş verənlərə görə başqasının deyil, məhz sizin cavabdeh olduğunuzu görməyəcəklər. Qoy kimsə başqası sizin icraçınız – cəlladınız və ya pis xəbərlər gətirən carçınız olsun, siz isə yalnız sevinc və xoş xəbərlər gətirin.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

Eramızdan əvvəl 59-cu ildə Misirin gələcək çariçası Kleopatra, on yaşı olarkən öz atası firon XII Ptolemeyin böyük qızları – özünün böyük bacılarının təşkil etdiyi sui-qəsd nəticəsində hakimiyyətdən devrildiyinin və sürgün edildiyinin şahidi oldu. Fironun qızlarından biri Berenika qiyama başçılıq etdi və Misiri təkbaşına idarə edəcəyinə əmin olaraq, bacılarını həbsxanaya saldırdı, ərini isə öldürtdü. Onun fikrinə görə, bu öz hakimiyyətinin təhlükəsizliyini təmin etmək üçün zəruri idi. Ancaq o, demək olar ki, hökmdar olaraq öz yaxın adamlarına, çar ailəsinin üzvlərinə qarşı elə açıq amansızlıq və zorakılıq göstərdi ki, bu onun tərəfdarlarını dəhşətə saldı və çox güclü müxalifətin meydana çıxmasına gətirib çıxardı. Dörd il keçdikdən sonra, bu müxalifət Ptolemeyə kömək edərək, onun taxt-tacı geri qaytarmasına müvəffəq oldular. Bundan sonra o, dərhal Berenikanı və digər sui-qəsdçi qızlarını edam etdirdi.

Ptolemey öz irsini dörd kiçik uşağına qoyaraq, e.ə. 51-ci ildə öldü. Misirdə mövcud olan ənənəyə görə, onun böyük oğlu XIII Ptolemey (həmin vaxt on yaşlı oğlan idi) öz böyük bacısı Kleopatra ilə (o vaxt onun da 18 yaşı var idi) evləndi və ər-arvad ölkəni birgə idarə etmək üçün firon taxt-tacına sahib oldular. Dörd uşaqdan heç biri hadisələrin belə gedişindən razı deyildi: Kleopatra da daxil olmaqla, onların hər biri daha çox hakimiyyət istəyirdi. Kleopatra ilə Ptolemey arasında düşmənçilik başladı və onlardan hər biri o birisini taxtdan salmaq istəyirdi.

E.ə. 48-ci ildə Ptolemey həm bacısı, həm də arvadı olan Kleopatranı, onun iddialarına mane olan bəzi hökmdarların köməyi ilə ölkədən çıxmağa məcbur etdi, Ptolemey ölkənin yeganə hökmdarı oldu. Sürgündə Kleopatra planlar qurdu. O, təkbaşına hökmdar olmağa can atır, Misirin keçmiş şöhrətini özünə qaytarmaq istəyirdi və hiss edirdi ki, qardaşı və bacıları bu məsələnin öhdəsindən gəlməyə qadir deyildirlər. Ancaq Kleopatra onların sağlığında öz arzularını həyata keçirə bilməyəcəyini anlayırdı. Berenikanın göstərdiyi nümunə onu öyrədirdi ki, özünə bərabəri öldürən çariçaya heç kim xidmət etməyəcəkdir. Hətta XIII Ptolemey Kleopatranın xaricdə onun əleyhinə planlar quracağını başa düşsə də, ona divan tutmağa cəsarət etmədi.

Kleopatranın sürgündə olduğu birinci il Roma diktatoru Yuli Sezar Misiri Romanın növbəti kaloniyasına çevirmək barədə qəti fikirlə bu ölkəyə gəldi. Kleopatra bunda öz imkanını gördü: o, gizli olaraq Misirə qayıtdı, İsgəndəriyyədə Sezarla görüşmək üçün çox böyük yol qət etdi. Rəvayətə görə, Kleopatra onun iqamətgahına düşmək üçün özünü xalçaya bükməyi əmr etdi, xalça Sezarın qarşısında açılarkən ayaqları altında gənc çariçanı gördü. Kleopatra dərhal romalıların tərəfinə keçdi. O, Sezarın teatra olan sevgisindən və Misir tarixinə marağından istifadə edərək, özünün qadın sehrini işə saldı. Sezar tezliklə ona təslim oldu və Kleopatranı taxt-taca bərpa etdi.

Kleopatranın qardaş və bacıları qəzəbləndilər – Kleopatra onları məğlub etmişdi. XIII Ptolemey hadisələrin sonrakı inkişafını gözləmədi: İsgəndəriyyədə öz sarayını tərk etmədən, şəhərə yürüş və Sezara hücum etmək üçün böyük ordu topladı. Buna cavab olaraq, Sezar Ptolemeyi və onun ailəsinin digər üzvlərini dərhal ev dustağı etdi. Ancaq Kleopatranın kiçik bacısı Arsinoya saraydan qaçdı və şəhərə doğru hərəkət edən qoşunun başında durdu. Nəhayət ki, Kleopatra özü üçün imkan gördü: o, Sezarı dilə tutdu ki, Ptolemeyi, barışıq haqqında danışıqlarda vasitəçi olması şərti ilə ev dustaqlığından azad etsin. Əlbəttə, o, başa düşürdü ki, qardaşı heç də belə hərəkət etməyəcək və Arsinoya ilə Misir ordusuna başçı olmaq üstündə vuruşacaq. Belə vəziyyət ailədə parçalanmaya gətirib çıxara bilərdi ki, bu da Kleopatranın xeyrinə idi. Bundan əlavə, bu, Sezara qələbə çalmaq və döyüşdə Kleopatranın qardaşlarını və bacılarını öldürmək imkanı verirdi.

Sezar Romadan əlavə hərbi qüvvə alaraq, tez bir zamanda üsyançılara divan tutdu. Misir qoşunları geri çəkilərkən, Ptolemey Nildə boğuldu. Sezar Arsinoyanı ələ keçirdi və əsir kimi Romaya göndərdi. O, həmçinin Kleopatranın əleyhinə fitnə-fəsad yaratmış çoxlu düşmənlərini edam etdirdi, digərlərini zindana saldırdı. Kleopatra hakimiyyətdə öz mövqeyini möhkəmləndirmək üçün sağ qalmış yeganə qardaşı – on bir yaşlı zəif XIV Ptolemeyə ərə getdi. Bir il sonra Ptolemey müəmmalı şəraitdə zəhərləndi.

E.ə. 41-ci ildə Kleopatra digər böyük romalı Mark Antoniyə, Yuli Sezar ilə olan halda uğurla tətbiq etdiyi taktikanı sınaqdan çıxardı. Kleopatra Antonini yoldan çıxararaq, işarə etdi ki, özünün hələ də Romada həbsdə olan bacısı Arsinoya onun əleyhinə sui-qəsddə iştirak edir. Mark Antoni ona inandı və Arsinoya dərhal edam edildi. Beləliklə, Kleopatra özünün təhlükəli qohumlarının axırıncısından da canını qurtardı.

İZAHI

Rəvayətdə deyilir ki, Kleopatra özünün ağlı başdan çıxaran gözəlliyi və cazibədarlığı hesabına uğur qazanırdı, ancaq həqiqətdə onun nailiyyətləri özünün tələbkarlığı, tapşırılmış işi yerinə yetirməyə məcbur etmək qabiliyyətində və həm də onlara özünün hiylə gəldiyini hiss etdirməməsində idi. Sezar və Antoni təkcə onu çox təhlükəli qardaş və bacılarından – XIII Ptolemey və Arsinoyadan – xilas etmədilər, həm də onun bütün düşmənlərini, həm sağ dairələrdə, həm də Misirin hərbi komandanlığında olanları məhv etdilər. Hər iki məşhur romalı Kleopatra üçün pişik pəncəsi oldu. Onlar Kleopatra üçün özlərini oda atdılar, xoşagəlməz, ancaq zəruri olan işi görməklə yanaşı, ona öz qardaşlarını, bacılarını və misirli həmvətənlərini qətlə yetirən qatil imicini qazanmaqdan xilas olmağa kömək etdilər. Nəticədə, onların hər ikisi Kleopatraya Misiri Romanın koloniyası kimi deyil, müstəqil dövlət kimi idarə etmək arzusunu da yerinə yetirdilər. Özü də onlar Kleopatranın onlara hiylə gəldiyini düşünmədən edirdilər. Bunların arxasında çox incə və çox güclü inandırmaq qabiliyyəti durur-du.

Kraliça heç vaxt əllərini çirkin işə bulamır, eləcə də kral heç vaxt adamlar arasına üzü qanlı çıxmır. Bununla belə, hakimiyyət adamlara daima təzyiq göstərmədən yaşaya bilməz – həmişə sizə taxt-tacı saxlamaq üçün zəruri olan müxtəlif çirkin işlərə tələbat olacaqdır. Kleopatra kimi, siz də ocaqdan şabalıd çıxarmaq üçün pişik pəncəsindən istifadə edin.

Yaxın ətrafınıza daxil olmayan kimsəni elə seçin ki, o, özündən istifadə edildiyini başa düşməsin. Siz hər yerdə belə sadədil maymaqlar tapa bilərsiniz – onlar sizə yarınmaqlarından – xüsusən əgər siz mükafat olaraq onlara bir-iki sümük atırsınızsa, ləzzət alırlar. Ancaq onlar tamamilə ziyansız hesab etdikləri, heç olmazsa qanun çərçivəsindən kənara çıxmayan tapşırığı yerinə yetirsələr də, əslində sizin fəaliyyət meydanı-

nızı təmizləyirlər, sizin onlara verdiyiniz informasiyanı yayır, işlərinizin irəli getməsinə kömək edir və öz əllərini bulaşdırırlar, bu vaxt sizin üzərinizə heç bir ləkə düşmür.

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

1920-ci illərin sonunda Çində kommunist və millətçi partiyaları arasında hakimiyyət uğrunda mübarizə gedirdi. 1927-ci ildə millətçilərin lideri Çan Kay Şi bütün kommunistləri fiziki məhv etməyə çağırışlar edirdi. Bir neçə il ərzində onlar öz hədələrini həyata keçirə bildilər ki, bu hal 1934–35-ci illərə – onların məcburi uzun müddətli geriyə çəkilməsinə qədər davam etdi. Bu həqiqətən çox uzun müddətli yürüş idi – ölkənin cənub şərqindən uzaq şimal qərbinə qədər 6 min mil məsafədə, ağır şəraitdə olan bu yürüş nəticəsində onların qüvvələri xeyli zəifləmişdi. 1936-cı ilin sonunda Çan onları məhv etmək üçün sonuncu hücum əməliyyatı hazırlamışdı, lakin qiyam baş verdi. Onun öz əsgərləri onu tutaraq, kommunistlərə verdilər. İndi onu ancaq xoşagəlməz şeylər gözləyirdi.

Bu vaxt isə, Yaponiya Çinə qoşun yeritmişdi və Çan ölümünü gözlədiyi bir vaxtda kommunistlərin lideri Mao Tzse-Dundan təklif aldı: əgər o, ümumi düşmənə qarşı birgə mübarizəyə qoşulsa, kommunistlər onu azad edərək, birləşmiş kommunist və millətçilərin ümumi qüvvələrinin komandanı elan edəcəklər. Çan işgəncələrə və təhqirlərə hazırlaşdığı bir vaxtda belə bir təklif almışdı və öz xoşbəxtliyinə inana bilmirdi. Deməli, qırmızılar belə deyirlər! Artıq kommunistlərə qarşı cavab tədbirini keçirmək haqqında düşünməyən Çan qərara gəldi ki, yaponlara qalib gələrək, qələbədən bir müddət sonra silahı qırmızılara qarşı çevirə və asanlıqla onları məhv edə bilər. Onun itirəcəyi heç nə yox idi, lakin razılıq verməklə o, hər şey qazana bilərdi.

Kommunistlər yapon işğalçıları ilə özlərinin ənənəvi taktikası kimi partizan müharibəsi apardığı halda, millətçilər orduya xas olan ənənəvi tərzdə müharibə aparırdılar. Birgə fəaliyyət nəticəsində bir neçə ildən sonra onlar yapon işğalından azad oldular. Çan artıq Maonun nə istədiyini anlamışdı. Onun öz ordusu yapon artilleriyası ilə müharibədə inanılmaz dərəcədə zəifləmişdi, bərpa üçün çox vaxt tələb olunurdu. Kommunistlər isə nəinki yapon ordusunun birbaşa zərbələrindən qaça bilmişdi, hətta əvvəlki qüdrətini qaytarmağa və Çinin hər bir yerində təsir qüvvəsini bərpa etməyə vaxt tapa bilmişdi. Yaponiya ilə müharibə başa çatan kimi vətəndaş müharibəsi yenidən başlandı – lakin bu dəfə artıq kommunistlər zəifləmiş millətçiləri özlərinə tabe edə bildilər. Yaponlar Mao üçün göydəndüşmə oldu. Onlar bunu istəməyərək, kommunistlər üçün münbit şərait yaratdılar və Çan Kay Şi üzərində qələbəni mümkün etdilər.

İZAHI

Liderlərin əksəriyyəti Çan Kay Şi kimi güclü düşməni ələ keçirib, tezliklə onu məhv etməyə çalışardı. Ancaq onlar, belə hərəkət etsəydilər, Maonun bacarıqla istifadə etdiyi imkandan məhrum olardılar. Millətçilərin lideri, təcrübəli Çanın köməyi olmadan, yapon qəsbkarları ilə mübarizənin uzun çəkmək və tamamilə iflasa uğramaq qorxusu var idi. Mao qəzəb üzündən bir güllə ilə iki dovşan vurmaq imkanını əldən verməmək üçün olduqca ağıllı hərəkət etdi. Əslində Mao, onun tam qələbə qazanmasına kömək etmiş iki pişik pəncəsindən istifadə etdi. O, Yaponiya ilə müharibədə Çana müttəfiq olmağı təklif edərək, ona hiylə ilə tələ qurdu. Mao bilirdi ki, millətçilər Çanın komandanlığı altında ən ağır və üzücü döyüşləri öz üzərinə götürəcək və əgər onlar eyni zamanda kommunistlərlə mübarizəyə başlarını qatmasalar, yapon qoşunlarını Çindən qovaraq uğur qazanacaqlar. Beləliklə, millətçilər Mao-

nun yapon işğalçılarının öhdəsindən gəlməsi üçün istifadə etdiyi bir nömrəli pişik pəncəsi oldu. Ancaq Mao onu da başa düşürdü ki, yapon artilleriyası və aviasiyası ilə döyüşlərdə millətçilər xeyli itki verəcəklər. Öz düşmənlərinə bu cür zərbə vurmaları üçün kommunistlərə on illik üzücü mübarizə aparmaq tələb olunardı. Əgər yaponlar bu işi olduqca tez bir zamanda yerinə yetirə bilirlərsə, onda nəyə görə vaxt və qüvvə itirmək lazımdır. Öz düşmənlərini bir-biri ilə vuruşmağa məcbur etmək – müdrik və ağıllı qərar idi, bu da kommunistlərə qalibiyyətli vəziyyətdə olmağa imkan verdi.

Beləliklə, pişik pəncəsi taktikasını iki üsulla tətbiq etmək olar: Kleopatranın etdiyi kimi, öz imicini saxlamaq üçün və ya qüvvə və enerjini saxlamaq üçün. Sonuncu halda, müvəqqəti geri çəkilmənin (azad buraxılmış Çan) irəliyə doğru böyük sıçrayışa gətirib çıxara biləcəyini dərk edərək, hadisələri bir neçə gediş əvvəldən planlaşdırmaq xüsusilə vacibdir. Əgər siz müvəqqəti zəifləmişsinizsə, qüvvə toplamaq üçün vaxt tələb olunur, ətrafdakılardan həm öz məqsədinizi gizlətməyə kömək edən pərdə kimi, həm də sizin əvəzinizə iş görən pişik pəncəsi kimi istifadə etməyinizin faydası vardır. Düşməni sizin düşməniniz olan (müxtəlif səbəblərə görə olsa da) üçüncü güclü tərəf axtarıb tapın, zərbə vurmaq üçün onların üstün qüvvəsindən istifadə edin, daha zəif olan siz başqa halda bunun üçün olduqca böyük enerji sərf etməli olardınız.

Siz onları, yumşaq tərzdə və təngə gətirmədən hərbi əməliyyatlara təhrik edə bilərsiniz. Pişik pəncəsi roluna yüksək təcavüzkarlığı olan adamlar axtarıb tapın – onlar çox vaxt döyüşə can atırlar, buna görə də, sizə yalnız onu hədəfə yönəltmək qalır.

QANUNA RİAYƏT EDİLMƏSİ (3)

Kuriyama Dayzen Tanoyun («Çay üçün qaynar su», yapon çay mərasimi) və çay mərasiminin böyük ustası

Senno Rikyu təliminin tərəfdarı idi. Təxminən 1620-ci ildə Dayzenə məlum oldu ki, onun dostu Xoşino Soemon borc içində batıb qalan qohumuna kömək etmək üçün böyük məbləğdə borc (300 rio – qızıl sikkə) götürmüşdür. Ancaq Soemon girov qoyaraq qohumunu azad etməyə nail olsa da, onun ağır yükünü, sadəcə olaraq, öz üzərinə götürdü. Dayzen Soemonu yaxşı tanıyırdı – o heç vaxt puldan ötrü elə də əldən-ayaqdan getmir və pul məsələlərindən o qədər də yaxşı baş çıxarmırdı. Buna görə də, o, öz borcverəni Kavayaşi Sanemon adlı varlı tacirə borcu qaytarmaqda gecikmə üstündə asanlıqla dolaşa və çətin vəziyyətə düşə bilərdi. Ancaq Dayzen bilirdi ki, əgər Soemona borcunu ödəməkdə köməyini təklif etsə, o, yəqin ki, köməkdən imtina edəcək, bu dostunun yalnız xətrinə dəyə bilər.

Gözəl günlərin birində Dayzen öz dostunun görüşünə getdi, onlar bağda gəzintiyə çıxdılar, Soemonun seçmə pionlarına (iri qırmızı, yaxud ağ bəzək bitkiləri) birlikdə tamaşa edib zövq aldılar, sonra isə qonaq otağına daxil oldular. Dayzen burada rəssam Kono Tennyunun tablosunu gördü və heyrətlə dilləndi: «Eh, necə də valehedici rəsmdir... Mən ömrümdə bundan gözəl əsər görməmişəm!» O, rəsmin bütün cəhətlərini tərifləməkdə davam etdi, belə olduqda Soemon dedi: «Yaxşı, madam ki, rəsm sənin xoşuna belə gəlib, mən ümid edirəm ki, sən onu hədiyyə qəbul edərək məni şərəfləndirəcəksən».

Əvvəlcə Dayzen imtina etdi, ancaq Soemon təkid etdi və o, təslim oldu. Ertəsi gün Soemon öz növbəsində Dayzendən bağlama aldı. Orada çox qəşəng vaza var idi. Bağlamaya əlavə etdiyi məktubunda, o, dostundan, dünən ona alicənablıqla hədiyyə etdiyi tabloya görə minnətdarlıq əlaməti kimi vazanı qəbul etməyi xahiş edirdi. O, izah edirdi ki, vaza mahir sənətkar Senno Rikyunun özü tərəfindən hazırlanmışdır və onun üzərində fövqəlqüdrətli hökmdar Xideyoşiyə ithaf edilmiş yazı vardır. Dayzen davam edərək yazırdı ki, əgər Soemon vazanı özündə saxlamaq istəməsə, onu Tanoyun pərəstişkarlarından

birinə, məsələn, tacir Kavaşi Sanemona verə bilər, o, bir dəfə bu vazanı əldə etmək arzusunu bildirmişdi. Daha sonra Dayzen yazırdı: «Mən Sanemonda səni maraqlandıra biləcək çox gözəl kağız dəsti (300 rioluq girov kağızı nəzərdə tutulurdu) olduğunu eşitmişəm. Əgər istəsən sən ona, vaza ilə kağız dəstini dəyişməyi təklif edə bilərsən».

Soemon alicənab dostunun nəyə nail olmaq istədiyini başa düşərək, varlı borcverənin yanına yollandı. Soemon ona vazanı göstərdikdə, Sanemon heyrətlə dedi: «Siz bu xəzinəni haradan əldə etmisiniz! Mən onun haqqında çox eşitmişəm, ancaq birinci dəfədir ki, görürəm. O elə qiymətə malikdir ki, onu darvazadan bayıra çıxarmaq olmaz». Sanemon vazanı kağız dəsti ilə dəyişmək təklifi ilə dərhal razılaşdı və Soemona üstəlik 300 rio verməyi təklif etdi. Ancaq pula qarşı hərisliyi olmayan Soemon, yalnız ondan girov kağızlarını qaytarmağı xahiş etdi, borcverən bunu böyük sevinclə yerinə yetirdi. Bundan sonra, Soemon nəzakətli köməyinə görə minnətdarlıq etmək üçün dostu Dayzenin evinə tələsdi.

İZAHI

Kuriyama Dayzen başa düşürdü ki, yaxşılıq etmək heç də həmişə asan deyildir: əgər bunu kobud və açıq şəkildə etsən, yaxşılıq etdiyin adam özünü boynuna minnət qoyulmuş kimi hiss edə bilər. Bu, fəzilətli adama yaxşılıq etdiyi adam üzərində müəyyən hakimiyyət verir, ancaq belə hakimiyyət paxıllıq və müqavimət doğurduğundan, nəticədə özü-özlüyündə dağıdıcıdır. İncəliklə və nəzakətlə göstərilən mərhəmət bundan on dəfə artıq hakimiyyət verir. Dayzen bilirdi ki, kömək etməyi birbaşa təklif etmək yalnız Soemonun heysiyyətinə toxuna bilərdi. Soemonu tablonu hədiyyə etməyə məcbur edərək, Dayzen işi elə qurdu ki, Soemon bu hədiyyəni qəbul etməklə dostuna sevinc bəxş etdiyini hiss etsin. Nəticədə hər

üç tərəf məmnun qaldı – hər kəs arzuladığına nail oldu.

Bu halda Dayzen özü özünü pişik pəncəsi, ocaqdan şabalıdları çıxarmaq üçün vasitə etdi. Çox güman, vazanı itirmək müəyyən qədər onu ağrıtdı, ancaq o, təkcə tablo əldə etmədi, həm də ölçüyəgəlməz dərəcədə daha vacib olan saray adamı hakimiyyətini əldə etdi. Saray adamı əlinə geydiyi əlcəklə öz çapıqlarını gizlətmək və ona endirilən istənilən zərbəni yumşaltmaq üçün, kömək və ya xilas etmə hərəkətlərini isə incəliklə və nəzakətlə etmək üçün kifayət qədər qüvvəyə malikdir. Saray adamı başqalarına kömək etməklə özlərinə kömək edirlər. Dayzenin nüməsi, dostlar və bərabər səviyyəli adamların bir-birinə kömək göstərməsinin istənilən halının əsas müddəasını təsdiq edir: öz köməyinizi heç vaxt məcbur qəbul etdirməyin. Dostlarınıza, öz köməyinizi gözə soxmadan və onları sizin qarşınızda özlərini borclu hiss etməyə məcbur etmədən, çətin vəziyyətin öhdəsindən gəlməyə hiss edilmədən kömək edin, onlar üçün pişik pəncəsi düzəltmək üsulu axtarıb tapın.

Həddindən artıq doğruçu olmayın. Gedib meşəyə nəzər sal. Düz ağacları kəsirlər, əyriləri isə böyümək üçün saxlayırlar.

Kautilya

HAKİMİYYƏTİN AÇARI

Ola bilsin, sizə elə gəlir ki, daimi səy və başqalarından çox işləmək lider üçün ən yaxşı imicdir, hakimiyyət simvoludur. Əslində isə hər şey tamamilə

tərsinədir: belə adam pis rəhbərin zəifliyini təcəssüm etdirir. Siz nə üçün öküz kimi işləyirsiniz? Çox güman ki, öz bacarıqsızlığınız üzündən müəyyən səviyyədə dayanmaq üçün sizə izafi səylər göstərmək lazım gəlir. Ola bilsin ki, tapşırığı bölüşdürməyi bacarmayan adamlardan biri sizsiniz və buna görə də, bütün işlərə şəxsən qarışmağa məcbursunuz. Əksinə, əsl güclülər özlərini saxlayırlar, sanki işləri əlüstü yerinə yetirirlər və həddindən artıq məşğulluq onlara yaddır. Başqaları dəridən-qabıqdan çıxaraq, qan-tər içində işlədiyi vaxt, bu adamlara asudə vaxt keçirmək xoşdur. Onlara, özlərinin enerjisini saxlamağa və əllərini oddan qorumağa imkan verən, özləri üçün ocaqdan şabalıd çıxaracaq icraçıları necə axtarıb tapmaq üsulu məlumdur. Buna oxşar şəkildə əmin ola bilərsiniz ki, çirkin işləri öz əlinizlə yerinə yetirməklə, xoşagəlməz və ya pis işlərdə bilavasitə iştirak etməklə, siz güc və cəsarət nümayiş etdirirsiniz. Əslində bu zaman siz pis, tutduğunuz yüksək mövqeyə layiq olmayan görkəmə malik olursunuz. Əsl güclü adamlar əllərini ləkəsiz saxlayırlar. Onları yalnız yaxşı şeylər əhatə edir və onların verdikləri yeganə bəyanat – özlərinin şanlı uğurları haqqında məlumatlardır.

Əlbəttə, çox vaxt enerji sərf etmək zəruri olur, bəzən isə ağır, ancaq qaçılmaz işləri yerinə yetirmək lazım gəlir. Ancaq siz heç bir vəchlə bu işlərin icraçısı kimi görünməməlisiniz. Pişik pəncəsi tapın. Belə adamları tapmaq, onlardan istifadə etmək, vəzifələrini yerinə yetirdikdən sonra isə onlardan xilas olmaq bacarığını təkmilləşdirin.

Çjuqe Lyanı (III əsr böyük Çin strateqi və sərkərdəsi) Şu çayı üzərində mühüm döyüş ərəfəsində düşmənə gizli şəkildə kömək etməkdə gözlənilmədən təqsirləndirdilər. Komandan ona üç gün ərzində ordu üçün 100 000 ox hazırlamağı əmr etdi – bununla o, öz sədaqətini sübut etməli idi. Lyan hətta oxları hazırlamağa – yerinə yetirilməsi mümkün olmayan işə – girişməyərək, on qayıq götürdü və onları saman dərzləri ilə birlərinə bənd etməyi əmr etdi. Axşamdan xeyli keçmiş, çayın üzərini duman alan vaxt o, qayıqları düşmən düşərgəsinə tərəf aparmağı tapşırdı. Fəndgir Çjuqe Lyandan hiylə gözləyən düşmən duman içində çətinliklə seçilən qayıqlara hücum etməyə cəsarət etmədilər, ancaq qayıqları ox yağışına tutdular. Qayıqlar bir qədər yaxın gəldikdə isə, sahildən uçub gələn oxların sayı iki dəfə artdı, özü də bütün oxlar saman dərzlərinə ilişib qalırdı. Bir neçə saat keçdikdən sonra, qayıqlarda gizlənən adamlar sürətlə çayın axarı ilə üzü aşağı üzdülər və düşərgəyə qayıtdılar, burada onları Çjuqe Lyan gözləyirdi. Saman dərzlərindən 100 000-dən artıq ox çıxarıldı.

Çjuqe Lyan başqalarının onun əvəzinə yerinə yetirə biləcəyi işləri heç vaxt görməyərək, həmişə yuxarıda təsvir edilənə oxşar fəndlər və hiylələr işlədirdi. Belə strategiyanın işlənib hazırlanması üçün zəruri olan başlıca keyfiyyət, işin bir çox gedişini əvvəlcədən düşünmək və özünüzə işləməyə məcbur etmək istədiyiniz adam üçün nəyin tələ yemi ola biləcəyini təsəvvür etmək qabiliyyətidir.

Belə əməliyyatları uğurla həyata keçirmək üçün, həmçinin öz məqsədlərinizi müəmmalara bələyərək, onları tanınmaz dərəcədə qatı dumana bürünmüş qayıqların səssizcə düşmən ordugahının yanından ötüb keçmələri kimi masqalamaq bacarığı lazımdır. Bu vaxt sizin nəyə nail olmaq istədiyiniz düşmənə tam aydın olmadığından, onların hərəkətləri, nəticədə qismən özlərinin əleyhinə çevrilir. Əslində, onlar sizin üçün pişik pəncəsi rolunu oynaya bilər. Öz niyyətinizi gizlədərək, siz ən az səylə, onların məhz sizin üçün zəruri olan, ancaq öz əlinizlə görmək istəmədiyiniz işin yerinə yetirilməsinə nail ola bilərsiniz. Bu, işi bir neçə gediş əvvəldən planlaşdırmağı tələb edə bilər və bilyard şarının luzaya (bilyard stolunun yanlarından və künclərindən asılan tor) düşməzdən əvvəl, bir neçə dəfə digər şarlara və divara dəyməsi ilə müqayisə ediləndir.

XX əsrin əvvəllərində amerikalı virtuoz dələduz Sarı Uşaq – Veyl bilirdi ki, varlı sadəlövhə qarşı işlədilən fırıldaq nə qədər ustalıqla hazırlansa belə, tanış olmayan adam ona adi qaydada yaxınlaşarsa, bu, varlı sadəlövhdə hökmən şübhə doğura və nəticədə hər şey alt-üst ola bilər. Buna görə də, Veyl fırıldaq obyekti ilə artıq tanış olan, öz-özlüyündə dələduzluq obyekti ola bilməyən, o qədər də varlı və məşhur olmayan, heç kimi şübhələndirməyən adamdan pişik pəncəsi kimi istifadə edirdi. Veyl bu adamı çox böyük sərvət vəd edən layihə ilə tanış edirdi. Layihənin reallığına əmin olan adam, fırıldaq işinə cəlb etmək lazım olan öz rəisi və ya varlı dostu barədə, ondan bu barədə soruşmasalar da, tez-tez danışırdı: axı, bu adam pul qoyaraq, daha çox pul qazanmaqda hamıya kömək edə bilər. Pişik pəncəsi, lap əvvəldən Veyl üçün hədəf olan varlı müştərini yola gətirir, ancaq o, qurulmuş tələdən şübhələnmir, belə ki, onu başqası deyil, məhz özünün tamamilə etibar etdiyi adam çəkib gətirmişdir.

Bu cür hiyləni hakimiyyət adamına yaxınlaşmaq üçün tətbiq etmək olar: hakimiyyət adamının özünü ələ keçirmək üçün onun əhatəsində və ya tabeliyində olan adama yaxınlaşın. Pişik pəncəsi sizə, qədərindən artıq sırtıq və özünü gözə soxan adam təəssüratı yaratmaq risqini azaltmağa təminat verir.

Pişik pəncəsindən istifadə etməyin ən sadə və təsirli üsulu, – pişik pəncəsi olacaq adamı informasiya ilə təchiz etməkdir ki, o sonra bu xəbəri yayacaq və nəzərdə tutduğunuz adama qədər çatdıracaqdır. Yalan və ya xüsusi olaraq yayılan informasiya barədə danışanın şübhədən kənar olması güclü silahdır. Sizə, sadəcə olaraq, bu məlumatın mənbəyi olduğunuzu aşkar etməmək şərti ilə, saf qəlbli adam görkəmi yaratmaq lazım gələcəkdir.

Psixoterapevt d-r Milton X.Erikson danışırdı ki, müştərilər arasında tez-tez elə ər-arvada rast gəlirdim ki, arvad məndə müalicə olunmaq istədiyi halda, ər qəti şəkildə bunun əleyhinə

çıxırdı. Hər dəfə əri yola gətirməyə qüvvə sərf etmək əvəzinə, doktor Erikson yanına təkcə arvadı çağırır və onunla danışaraq, ərinin davranışına onu özündən çıxaran izahat verirdi. Sözsüz ki, arvad doktorun dediklərinin hamısını ərinə çatdırırdı. Heç bir ay da keçmirdi ki, qəzəblənmiş ər doktorun iç üzünü açmaq üçün seansda özünün iştirakını təkid etməyə başlayırdı.

Nəhayət, elə hal mövcuddur ki, siz özünüzü könüllü olaraq pişik pəncəsi kimi təklif edərək, nəticədə böyük hakimiyyətə nail olursunuz. Bu – əsl saray adamının hiyləsidir. Kraliça Yelizavetanın başmaqlarını batırmadan keçməsi üçün öz plaşını palçığa atan ser Uolter Reylinin bu hiyləsini rəmzi adlandırmaq olar. Ağanı və ya onun yoldaşını təhlükədən və ya pis hadisədən xilas edən vasitə olaraq, siz çox böyük hörmət qazanarsınız və gec-tez bu öz əvəzini verəcəkdir. Həm də yadda saxlayın: əgər siz öz iştirakınızı kobud və zəhmətə salmaqla deyil, incə və nəzakətlə etməyə nail olsanız, bunun əvəzi çox-çox artıq ödəniləcəkdir.

OBRAZ:
PİŞİK PƏNCƏSİ

Onun yapışmaq üçün uzun caynaqları vardır. O, yumşaqdır və yastıqcalarla təchiz edilmişdir. Predmetləri alovdan çıxarmaq, düşməni cırmaqlamaq üçün, siçanı məhv etməzdən əvvəl oynatmaq üçün pişik pəncəsindən istifadə edin. Bəzən siz pişiyi incidirsiniz, ancaq hər şeydən əvvəl, o, heç nə hiss etmir.

MÖTƏBƏR FİKİR

«Xoşuna gələn bütün işləri özün gör, xoşagəlməyən işləri isə, öz əvəzinə başqalarına həvalə et. Bunlardan birincisi sizə mərhəmət qazanmağa kömək edir, ikincisi isə bədxahlı-

ğı əks etdirir. Həyata keçən mühüm nailiyyətlər çox vaxt cəza və amansızlıq olmadan keçinmir. Qoy həmişə sənin əlindən yalnız xeyirli işlər çıxsın, şər işləri isə başqaları görsün.»

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

Pişik pəncəsinə və üzərinə təqsir qoyulanlara son dərəcə ehtiyatla, nəzakətlə və ölçü hissini gözləməklə müraciət etmək lazımdır. Onlar çirkin işlərdə sizin şəxsi iştirakınızı ictimaiyyətdən gizləyən pərdəyə bənzəyir. Əgər birdən pərdə qalxsa, onları sizin idarə etdiyinizi hamı görəcək və sizin əleyhinizə çevriləcəkdir – əliniz olan bütün işlərdə sizin iştirak etdiyinizi bilməyə başlayacaqlar və hətta sizi heç bir əlaqəniz olmayan işlərdə təqsirləndirə bilərlər. Həqiqətin ortaya çıxması kifayətdir ki, hadisələrin aqibəti qar uçqunu kimi artaraq, nəzarət altından çıxmağa başlasın.

1572-ci ildə Fransanın kraliça-anası Yekaterina Fransa hərbi donanmasının admiralı və qugenotların (fransız protestantlarının) lideri Qaspar de Kolinini aradan götürmək barədə gizli plan qurdu. Kolini Yekaterinanın oğlu IX Karla yaxın adam idi və ana onun gənc krala getdikcə artan təsirindən ehtiyat edirdi. Buna görə də, o, Gizlərdən (Fransanın kral taxt-tacına iddiası olan qüdrətli klan) birinə Kolinini qətlə yetirmək sifarişini verdi.

Yekaterinanın düşündüyü gizli plan daha çox uzağa gedirdi: o, qugenotların Gizləri öz liderlərindən birinin qətlində təqsirləndirmələrini və intiqam almalarını istəyirdi. Bir zərbə ilə iki dəhşətli düşməndən – Kolini və Gizlər ailəsindən – xilas ola bilərdi. Ancaq hər iki plan düşünüldüyü kimi getmədi. Qatil səhv edərək, Kolinini yalnız yaralaya bildi. Yekaterinanın özünün əsas düşmənlərindən biri olduğunu bilən admiral, sui-

qəsddə ondan şübhələndi və bu barədə krala xəbər verdi. Nəhayət, baş tutmayan sui-qəsd və çəkişmələr, katoliklər və protestantlar arasında vətəndaş müharibəsinə və onun kulminasiyasına – minlərlə protestantın qətlə yetirildiyi Varfolomey gecəsinə gətirib çıxaran bütöv hadisələr zəncirini yaratdı.

Əgər baxılan taktikadan istifadə edilməsi ciddi ziyan və ya təhlükə yaradarsa, son dərəcə ehtiyatlı olun. Bu taktikanı səhvlərin və qüsurların dəhşətli nəticələrə gətirmədiyi zərərsiz hallar üçün istifadə etmək daha ağıllı işdir.

Nəhayət, sonuncusu: elə hallar da olur ki, özünün iştirakından və məsuliyyətdən imtina etməmək, əksinə – səhvlərin buraxılmasında, ən yaxşısı özünü təqsirləndirmək lazımdır. Əgər siz artıq hakimiyyətə maliksinizsə və bu mövqedə möhkəmlənmişsinizsə, bəzən özünüzü günahkar kimi göstərmək zəruridir: kədərli görkəmlə sizdən zəif olanlardan bağışlanmağınızı xahiş edin. Bu kral hiyləsidir. Başqa hallarda tabeliyinizdə olanlarda qorxu və həyəcan yaratmaq üçün öz əlinizlə cəzalandırmağınızın da mənası vardır. Yumşaq pişik pəncənizin əvəzinə, siz, zərbə endirən cəza yumruğunuzu göstərirsiniz. Bu üsuldan həddindən artıq tez-tez istifadə etməyin: qorxu nifrətə və sizin qəbul edilməməyinizə çevrilə bilər. Siz göz açıb yumunca, bu hiss çox güclü müxalifət yaradar ki, o da gec-tez sizi taxtdan salar. Ən yaxşısı, pişik pəncəsindən istifadə edin – bu, çox-çox təhlükəsizdir.

İYİRMİ YEDDİNCİ QANUN

FANATİK TƏRƏFDARLAR ORDUSU YARADARAQ, İNSANLARIN EHTİYACLI OLMALARINDAN İSTİFADƏ ET

QANUNUN MƏZMUNU

İnsanlar nəyəsə inanmağa çox güclü tələbat duyurlar. Onlara, ardınca gedə biləcəkləri əsas və yeni inam verərək, belə tələbat obyekti olun. Qoy sizin nitqləriniz müəmmalı, ancaq ümidverici olsun, ruh yüksəkliyini ağıldan və təfəkkür aydınlığından yuxarı qoyun. Yeni qoşulmuş ardıcıllara yerinə yetirə biləcəkləri ayinlər verməklə, öz adınızdan qurban verməyə çağırın. Bənzəmək üçün mütəşəkkil din və böyük nümunələr olmadığı halda, yeni inam sisteminiz sizə qeyri-məhdud hakimiyyət gətirər.

ŞARLATANLIQ ELMİ, YAXUD BEŞ SADƏ ADDIMLA NECƏ PƏRƏSTİŞ YARATMALI

Minimum səy göstərməklə, maksimum hakimiyyət gətirən üsulların (onlar sizə lazım olacaqdır!) axtarışında siz müşahidə edəcəksiniz ki, ən səmərəli üsullardan biri – pərəstiş obyekti kimi özünə səcdə etdirməkdir. Əgər siz kütləni arxanızca aparmağa nail ola bilərsinizsə, aldatmaq üçün qarşınızda mümkün olan hər cür imkan yaranar. Tərəfdarlarınız sizi ilahiləşdirəcəklər; bundan əlavə, onlar sizi düşmənlərinizdən müdafiə edəcək və ətrafdakıları sizin hələ indi-indi yaranan pərəstişə cəlb etməkdə, zəhməti könüllü olaraq öz üzərinə götürəcəklər. Hakimiyyətin bu tipi sizi yüksəldər və siz başqa aləmə düşərsiniz – öz iradənizi yeritmək üçün sizə bir daha hiyləgərlikdən və ya zordan istifadə etmək lazım gəlməyəcəkdir.

Sizə elə görünə bilər ki, bu məsələ yerinə yetirilə bilməyəndir, çox böyükdür, ancaq əslində çətin heç bir şey yoxdur. Biz hamımız insanıq və bizə sərfəli olan istənilən şeyə inanmağımız tamamilə zəruridir. Bu, bizi ağlagəlməz dərəcədə hər şeyə inanan edir: biz sadəcə olaraq heç nəyə inanmamaq lazım gələndə, şübhəyə, boş yerə çoxlu vaxt sərf edə bilmərik. Bizi nəsə yeni bir şeyə – həyat cövhərinə, tez bir zamanda varlanma planına, texnoloji yeniliyə və ya incəsənətdə cəzbedici istiqamətə işarə vurmaqla çağırın – biz tələ yemini ələ keçirmək üçün sudan birbaşa sıçrayırıq. Tarixə nəzər salaq: kütləlləri öz ardınca aparan yeni cərəyanların, sitayişlərin, təriqətlərin şərhi bütöv kitabxana təşkil edə bilər. Əsrlər, on illər, illər, aylar keçdikdən sonra, onlar, bir qayda olaraq, mənasız görünməyə başlayacaqlar, ancaq nə qədər ki, vaxtı keçməyib, cəzbedici, müəmmalı, müqəddəs görünəcəklər.

Biz həmişə nəyəsə tələsik inanaraq, heç nədən müqəddəslər və peyğəmbərlər yaradırıq. Belə faydasız hər şeyə inanmağa uymayın: özünüzü sitayiş obyekti edin. Qoy insanlar sizin ətrafınızda pərəstiş yaratsınlar.

XVI və XVII əsrlərdə məşhur Avropa şarlatanları pərəstiş yaratma ustaları idilər. Onlar bizim kimi dəyişikliklər dövründə yaşamışlar: mütəşəkkil din tənəzzüldə, elm isə yüksəlişdə idi. Adamlar yeni ideal və ya etiqadın axtarışına var qüvvə ilə atılmışdılar. Şarlatanlar varlanmağa kömək edən sağlamlıq iksiri və əlkimya vasitələri satmaqdan başlayaraq, şəhərdən-şəhərə sürətlə keçməklə, əvvəlcə kiçik qruplarla işləməyə üstünlük verirdilər. Bu, insan təbiətində gizlənən sadə həqiqəti – ətrafa nə qədər çox kütlə yığarlarsa, aldatmaq bir o qədər asan olar – həqiqətini təsadüfən dərk etdikləri vaxta qədər davam edirdi.

Şarlatanın özü yüksək taxta otururdu və ətrafına yavaş-yavaş camaat toplaşırdı. Kütlə içərisində olan adamlar mühakimə qabiliyyətini itirərək, daha emosional olurdular. Əgər şarlatan onların hər biri ilə təkbətək danışsaydı, adamlar yəqin ki, onun sözlərini gülünc, mənasız hesab edərdilər. Ancaq onlar cəngəllikdə azanlar kimi, ümumi əhval-ruhiyyəyə uyaraq, hər sözü həriscəsinə diqqətlə dinləyirdilər. Baş verənlərə şübhə ilə yanaşmaq üçün onlar lazımi qədər kənarlaşmağa, aralı məsafədə dayanmağa müvəffəq olmurdular. Şarlatanın nitqinin bütün zəif yerlərini kütlənin həvəsi ört-basdır edirdi. Ehtiras və ruh yüksəkliyi şübhə yaratmağa cəhd edən hər şeyin üzərinə hücum çəkərək, sanki yanğın kimi tüğyan edirdi. Ancaq şarlatanlar on illər ərzində baş verənləri soyuqqanlılıqla müşahidə edərək, sınaqdan keçirərək və bu şəraitə – onun meydana çıxmasına müvafiq surətdə uyğunlaşaraq, kütləni cəlb etməni və ələ keçirməni mükəmməl elm şəklinə saldılar: kütləni özlərinin ardıcılları ordusuna çevirmək, ardıcılları isə – təriqətə, təşkilata, pərəstişə cəlb etmək bacarığına yiyələndilər.

Şarlatanların fəndləri indi köhnəlmiş görünə bilər, ancaq bu gün də, aramızda minlərlə şarlatan vardır və onlar bir çox əsrlər bundan əvvəl sələfləri tərəfindən incəliklə işlənib hazırlanmış, zamanın imtahanından çıxmış elə həmin üsullardan istifadə edirlər. Onlar yalnız iksirlərin adlarını dəyişir və öz ayinlərinin zahiri simasını müasirləşdirirlər. Biz dövrümüzün bu şarlatanlarını həyatın bütün sahələrində – biznes, moda, siyasət, incəsənət və bu kimi digər sahələrdə görürük. Onların bir çoxu, güman ki, şarlatan ənənələrinin, tarixi barədə təsəvvürlər olmadan, riayət edirlər, ancaq siz daha sistemli və düşünülmüş hərəkət edə bilərsiniz. Sadəcə olaraq, bizim şarlatan əcdadlarımızın uzun illər təkmilləşdirdikləri beş sadə addımı atın.

Birinci addım. **Sadə və anlaşılmaz ol.**

Pərəstiş yaratmaq üçün siz, hər şeydən əvvəl diqqəti cəlb etməlisiniz. Bunu hərəkətlərin köməyi ilə deyil, – onlar olduqca aydın və asan başa düşüləndir – anlaşılmaz və aldadıcı sözlərin köməyi ilə etmək lazımdır. Birinci çıxışınızdakı müsahibənizdə və ya söhbətinizdə iki element olmalıdır: bir tərəfdən diqqəti cəlb edən bir şey, hansısa çevriliş vəd edilməli, digər tərəfdən isə, tamam sezilə bilinməyən qeyri-müəyyənlik olmalıdır. Bu əlaqələndirmə sizin dinləyicilərinizin arzularını sürətləndirəcək, onlar görmək istədiklərini xəyallarında canlandıraraq, özləri paralellər aparmağa başlayacaqlar.

Özünüzün qeyri-müəyyənliyinizə cazibədarlıq vermək üçün cavab coşğunluğu yaradan, eyni zamanda aydın olmayan, alovla və ruh yüksəkliyi ilə dolu sözlərdən istifadə edin. Sadə əşyalar üçün dəbdəbəli adlar və yayğın ideyalar üçün yeni terminlər yaratmaq çox kömək edir. Bütün bunlar dərin biliyə malik olmaq təəssüratı yaradır, sizə dərinliyi görən adam görkəmi verir. Bundan başqa, sizi az adamın başa düşməsi üçün ən yeni terminologiyadan istifadə etməyə çalışın. Əgər hər şeyi düzgün yerinə yetirsəniz, aydın olmayan vədlər, anlaşılmaz,

ancaq şirnikləndirici ideyalar və parlaq ruh yüksəkliyi insan ruhunu həyəcana gətirəcək və ətrafınızdakı qrup böyüyəcəkdir.

Əgər həddindən artıq yayğın danışsanız, sizə inanmazlar. Ancaq həddindən artıq dəqiq olmaq daha təhlükəlidir. Siz adamların əldə edəcəyi faydanı təfərrüatına qədər izah etsəniz, sizin ardınızca gedərək, vədlərin yerinə yetirilməsini sizdən tələb edəcəklər.

Sizin şüarlarınız, şübhəsiz ki, bütün yayğınlığı ilə bərabər, eyni zamanda, həm də sadə olmalıdır. Əksər adamların problemləri mürəkkəb səbəblərlə izah edilir: bu dərin, sosial amillərlə bağlı, kökləri uzaq keçmişə gedib çıxan, aşkar edilməsi ağlagəlməz dərəcədə çətin olan nevrozdur. Ancaq bunu aydınlaşdırmaq üçün səbirli olmağa çox az adam malikdir. Əksəriyyət insanlar isə, bütün problemlərdən xilas olmaq üçün sadə üsullar haqqında eşitmək arzusu ilə alışıb-yanırlar. Əgər siz onlara belə üsul təklif edə bilsəniz, çox böyük hakimiyyətin sahibi və ardıcıllar kütləsinin başçısı olarsınız. Real həyatın və onun çox yer tutan izahının mürəkkəb təhlili əvəzinə, əcdadlarımızın primitiv üsuluna, qədimi faydalı dava-dərmana, müəmmalı panaseyalara (yalançı kimyagərlərdə guya bütün xəstəlikləri sağaldan dərman) qayıdın.

İkinci addım. Zahiri olan hər şeyə və ağılın əleyhinə olan emosiyalara xüsusi əhəmiyyət ver.

Adamlar sizin ətrafınızda qruplaşmağa başlayanda, haradan olursa-olsun, iki təhlükə meydana çıxacaq: darıxmaq və skeptisizm (hər şeyə şübhə ilə baxmaq). Darıxmaq adamları başqa yerlərə qovur. Skeptisizm onlara, qarşısında çıxış etdiyiniz hər şeyi səmərəli şəkildə qiymətləndirməyə imkan verir, süni şəkildə yaratdığınız dumanı dağıdaraq, ideyalarınızın əslində nədən ibarət olduğunu açıb göstərir. Buna görə də, sizə darıxanları əyləndirmək və həyasızları zərərsizləşdirmək zəruridir.

Bunu etməyin ən yaxşı üsulu – teatrın və ya ona bənzər nəyinsə köməyindən istifadə etməkdir. Özünüzü cah-calalla əhatə edin, zahiri parlaqlığınızla tərəfdarlarınızın gözlərini qamaşdırın, onların gözünə kül üfürün, tamaşalar təşkil edin. Bu sizin ideyalarınızın mənasızlığını, ələ alma sistemindəki boşluqları ört-basdır etməklə yanaşı, həm də böyük diqqət və tərəfdarlar cəlb edəcəkdir. Bütün duyğularınızı köməyə çağıraraq, onların iyləməsi üçün ətri, eşitmələri üçün həzin musiqini, görmələri üçün gözəl qrafiklər və diaqramları işə salın. Siz hətta onların ağıllarını da qıcıqlandıra bilərsiniz. Məsələn, özünüzə pərəstişə yalançı elmi görkəm verməyə yeni texnologiya tətbiq etməklə nail ola bilərsiniz (bu zaman onlardan heç birinə vəziyyəti olduğu kimi düşünməyə imkan vermək lazım deyildir). Süni səmərə yaratmaq, ən mənasız və adi şeylərin qeyri-adi görünməsi üçün ekzotikadan – uzaq dövrün mədəniyyətindən, qədim adətlərdən – istifadə edin.

Üçüncü addım. Öz qrupuna dini təşkilat quruluşu ver.

Sizin tərəfdarlarınızın sayı artır, onları təşkil etmək vaxtıdır. Mütəşəkkil dinlər çoxsaylı insanlar arasında sınaqdan çıxmaqla, şəksiz nüfuza malikdirlər və onlar bu nüfuzu sanki dünyəviliyə meylli əsrimizdə də qoruyub saxlamışlar. Hətta dinin öz-özlüyündə zəiflədiyini və qüvvədən düşdüyünü qəbul etsək belə, onun zahiri formaları hələ də qəlblər üzərində hakimiyyətə malikdir. Yüksək, müqəddəs birlikləri dinin köməyi ilə axıra qədər istismar etmək olar. Öz tərəfdarlarınız üçün mərasimlər yaradın, onları sədaqətlilik dərəcəsinə görə düzərək, iyerarxik strukturunu təşkil edin, onlara dini obrazlarla səsləşən adlar və titullar verin; onlardan, sandıqlarınızı dolduracaq və hakimiyyətinizi gücləndirəcək qurbanlar verməyi xahiş edin. Siz öz cəmiyyətinizin yalançı dini çalarlarını gücləndirmək üçün peyğəmbər kimi çıxış və hərəkət edin. Siz – kahin və ya müdrik, habelə şaman olmaqla, əsl hakimiyyətinizi

dinin dumanlı tüstüsü arxasında gizləyən sözlərdən istifadə etməyə çalışın.

***Dördüncü addım.* Sizin gəlir mənbəyiniz.**

Sizin qrupunuz artıq böyümüşdür və siz onun əsasında kilsə şəkilli nəsə bir şey yaratmısınız. Sizin sandığınız tərəfdarlarınızın pulları ilə dolmağa başlayır. Siz heç bir vəchlə tərəfdarlarınızın sizə verdikləri pula və hakimiyyətə maraq göstərməməlisiniz. Vaxtı çatana qədər siz öz gəlirlərinizin mənbəyini də gizlətməlisiniz.

Tərəfdarlarınız onların sizin ardınızca getdikləri təqdirdə, mümkün olan bütün nemətlərə malik olacaqlarına inanmaq istəyirlər. Özünüzü cah-calalla əhatə etməklə, siz öz sisteminizin düzgünlüyünə canlı sübut olursunuz. Sərvətinizin əsl mənbəyinə, yəni tərəfdarlarınızın cibinə qədər gedib çıxılmasına imkan verməyin. Qoy bu sərvətin sizə öz ideyalarınızın və metodlarınızın düzgünlüyü nəticəsində yetişdiyinə inansınlar. Tərəfdarlarınız sizin hər bir hərəkətinizin eyni fayda verəcəyi ümidi ilə onları təkrarlamaqla və özlərini sizə bənzətmək şövqü və həvəsi ilə firavanlığınızın şarlatan təbiətini görməyə imkan verməyərək, gözlərini örtəcəklər.

***Beşinci addım.* «Kim bizimlə deyilsə, o, bizim əleyhimizədir» əməliyyatını hazırlayın.**

Sizin qrupunuz daha da böyümüşdür və indi çiçəklənir. Bu getdikcə yeni-yeni hissəcikləri özünə çəkən maqnit rolunu oynayır. Əgər siz sayıq olmasanız, ətalət öz işini görə bilər, belə ki, zaman və darıxmaq qrupu dağıda bilər. Adamların nəbzini tutmaq üçün siz indi bütün dinlərə və ideologiyalara məlum olan bir əməliyyatı həyata keçirməlisiniz: «kim bizimlə deyilsə, o, bizim əleyhimizədir» hərəkatını yaratmalısınız.

Birinci işinizlə öz tərəfdarlarınızı, onların imtiyazlı klubun üzvü olmalarına və bir-birinə ümumi məqsəd telləri bağladığına inandırın. İndi bu telləri möhkəmlətmək üçün, sizi məhv etməyi arzu edən xain düşmənin meydana çıxdığını elan edin. Sizin ideyalarınıza inanmayanların hamısı – onların sırasına daxildir. Onlar sizi dayandırmaq üçün hər şeyə hazırdırlar! Sizin qrupunuza daxil olmayan, sizi ifşa etməyə çalışan hər kəsi, indi düşmən ordusu sırasına aid etmək olar.

Əgər sizin düşməniniz yoxdursa, onları icad edin. Samandan müqəvva düzəldin, onda tərəfdarlarınız onunla mübarizədə öz sıralarını möhkəmləndirəcəklər. Onlar inandıqları ideal əldə etdiklərindən, buna inanmayanları məhv edəcəklər.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

1653-cü ildə iyirmi yeddi yaşlı milanlı Françesko Cüzeppe Borri onun gözünə mələikə göründüyünü elan etdi. O, şəhəri gəzərək, rastına çıxan hər kəsə mələikə Mikayılın onun gözünə göründüyünü danışır və özünün, yeni papanın bütün dünyanı fəth edəcək və onu dirçəldəcək ordusunun capitano generale seçildiyini elan edirdi.

Mələikə sonra xəbər verirdi ki, Borriyə insanların ürəyini oxumaq vergisi verilmişdir və o, tezliklə fəlsəfə daşını – sadə metalları qızıla çevirməyə imkan verən maddəni tapacaqdır. Borrinin gözünə görünmə haqqında danışdıqları, bunları eşidən dostları və tanışlarında dərin təəssürat yaratdı. Belə ki, buna qədər Borri pozğun həyat keçirərək əyyaşlıq edir, şərab içir, qadınlarla əylənir və qumar oynayırdı. İndi isə o, bunlardan imtina etdi, əlkimyanı öyrənməklə məşğul oldu, yalnız mistisizm və okkultiv elmlər (dünyada elmi idrakın dərk etmədiyi, yalnız «seçilmiş» adamların qavraya bildiyi sirli, fövqəltəbii qüvvələrin mövcudluğu haqqında mistik təsəvvürlər sistemi) haqqında danışırdı.

Dəyişiklik o dərəcədə qəfil və təəccüblü, Borrinin öz danışdıqlarına inamı elə güclü görünürdü ki, onun ətrafına adamlar toplaşmağa başladı. Təəssüf ki, italyan inkvizisiyası da ona

diqqət yetirdi – okkultizmlə məşğul olan hər kəs təqibə məruz qalırdı – buna görə də, o, İtaliyanı tərk edib, Avstriyadan tutmuş Hollandiyaya qədər bütün Avropanı gəzib-dolaşmağa başlayaraq, görüşdüyü bütün adamları, «onun ardınca gedənlərə böyük xoşbəxtlik bəxş ediləcəyinə» inandırırdı.

Borri hər yerdə tərəfdarlar kütləsi toplayırdı. Onun metodu sadə idi: getdikcə daha incələşdirilmiş və yeni-yeni təfərrüatlarla zənginləşdirilmiş mələikənin gözə görünməsi haqqında söhbətlər etməyi və ona inananların (beləleri isə az deyildi) «qəlbinə nəzər salmağı» təklif edirdi. Özünü dərin hipnoz vəziyyətinə düşmüş kimi göstərərək, o yeni «tərəfdaşa» uzun müddət diqqətlə baxır, bu adamın qəlbini gördüyünü, aydınlıq və ruhi inkişaf üçün imkan olduğunu elan edirdi. Əgər ona elə gəlsə ki, həmin adamdan nəsə əldə etmək mümkündür, onu həqiqətən özünün məsləkdaşlarının (tərəfdaşlarının) siyahısına (sürətlə artan) daxil edərək, ona həqiqətən yüksək ehtiram göstərə bilərdi.

Təşkilatın beş pilləsi var idi və yeni məsləkdaşlar, Borrinin onların ürəklərində oxuduqlarından asılı olaraq, bunların birinə düşürdülər. Səylə işləyərək və özlərini tamamilə pərəstişə həsr edərək, onlar daha yüksək pilləyə qalxmaq imkanı əldə edirdilər. Məsləkdaşlarının «Əlahəzrət» və «Hamının doktoru» adlandırdıqları Borri, onlardan kasıblıq əhd-peymanına, andına çox ciddi riayət etməyi tələb edirdi. Onlar özlərinin malik olduqları bütün pul və əmlakı Borriyə verməli idilər, ancaq onlar buna etiraz etmirdilər, belə ki, Borri onlara deyirdi: «Tezliklə mən əlkimyəvi təcrübələri başa çatdırıb fəlsəfə daşını əldə edəcəyəm. Bu isə onu göstərir ki, bizim istədiyimiz qədər qızılımız olacaqdır.»

Borri varlanaraq, öz həyat tərzini dəyişməyə başladı. O, müvəqqəti gəldiyi şəhərlərdə çox böyük və yaraşıqlı evlər kirayə tutur, onları olduqca gözəl və bahalı mebellə bəzəyirdi. O, mebel kolleksiyası yığmağa başladı. Borri qiymətli daş-qaşla bəzədilmiş, çox yaxşı altı at qoşulmuş karetada gəzirdi. O, heç vaxt bir yerdə olduqca çox qalmır, yolunu azmış yeni adamları öz dəstəsinə qatmaq üçün onların yanına getdiyini deyərək, yoxa çıxırdı. Onun nüfuzu özü olmadıqda, yalnız möhkəmlənirdi. Əslində o, bir dəfə də olsa, konkret olaraq heç nə etməməsinə baxmayaraq, məşhurlaşdı.

Avropanın hər yerindən korlar, şikəstlər və ümidsiz xəstələr, Borrinin istedadlı təbib olması barədə sürətlə yayılan şayiələri eşidib, onun yanına axışırdılar. O, köməyə görə haqq tələb etmirdi, bu daha təəccüblü görünürdü, əslində bu və ya digər şəhərdə baş vermiş möcüzəli sağalmalar haqqında məlumatları elan edirdi. Onun törətdiyi möcüzə barədə yalnız işarə vurmaq kifayət idi ki, adamların təsəvvürlərində ağlagəlməz şeylər yaransın. Onun sərvətinin mənbəyi əslində daima artan yeni varlı əqidə tərəfdarlarının hədiyyələri idi, bu sərvət fəlsəfə daşı əldə etmək üçün onun uğurla apardığı təcrübənin hesabına yazılırdı. Kilsə Borrini bidətçilikdə və cadugərlikdə təqsirləndirərək, onu təqib etməkdə davam edirdi. O, ittihamlara möhtəşəm sükutla cavab verirdi. Bu, yalnız onun şöhrətini artırır və daha güclü ehtirasla pərəstiş doğururdu. Yalnız böyük şəxsiyyətlər, böyük əməllərə görə təqibə məruz qalmışlar: İsa peyğəmbəri öz dövrünün çoxmu adamı başa düşürdü? Borri heç ağzını belə açmırdı – tərəfdarları ona yeni titul (fəxri ad) vermişdilər – Papa-Antixrist.

Borrinin hakimiyyəti onun Amsterdamda ləngiyərək (o, burada müvəqqəti məskunlaşmışdı) və borc götürdüyü çox böyük məbləğdə pulu və saxlanılmaq üçün verilmiş brilyantları götürənə qədər davam etdi. O heç vaxt gizlənməsə də (Borri bildirirdi ki, həm də qiymətli daşların qüsurlarını aradan qaldırmaq üçün mistik istedada malikdir), qaçaqaçda idi. İnkvizisiya iyirmi illik uğursuzluqdan sonra onu tutmağa müvəffəq oldu və o, Roma həbsxanasına salındı. Ancaq onun okkultiv hakimiyyəti o qədər böyük idi ki, düz ölüm gününə qədər, onun varlı tərəfdarları, hətta İsveç kralı Kristin daxil olmaqla, Borrinin görüşünə gəlirdilər. Borrinin yanına gələnlər onu pul və zəruri

olan hər şeylə təmin edərək, ona fəlsəfə daşını əldə etmək üçün ömrünün son gününə qədər təcrübələrini davam etdirməyə imkan verdilər.

İZAHI

Borri az qala, təsadüfən çox mühüm bir kəşflə rastlaşdı. O, pozğun həyatdan bezib, ondan imtina etməyi və özünü həqiqətən onu maraqlandıran okkultizmə həsr etməyi qərara aldı. Ancaq o, özündə baş verən dəyişikliklərin səbəbinin mistik təcrübələr olması haqqında (fiziki yorğunluğu haqqında deyil) məlumatın, ən müxtəlif ictimai təbəqəyə mənsub insanları maraqlandırdığını müşahidə etməyə bilməzdi – hamı bu barədə daha çox bilmək istəyirdi. O, hansısa müəmmalı və qeyri-adi dəyişikliyi öz adına çıxarsa, hansı hakimiyyət əldə edə biləcəyini dərk edib, gözünə mələikə görünməsini uydurdu. Gözə görünmə nə qədər çox qüdrətli idisə, bir o qədər ciddi qurbanlar tələb edirdi, onun hekayəti daha həqiqi və cəlbedici görünürdü.

Yadda saxlayın: adamlara sizdə baş verən dəyişikliklərin səbəbləri haqqında həqiqət lazım deyildir. Onlar sizin ağır əməkdən və ya üzüntü, sıxıntı və ya düşkünlük kimi mənasız şeylərdən yorulduğunuzu eşitmək istəmirlər. Adamlara nəsə romantik bir şey təqdim edin – buna böyük həvəslə inanacaqlar. Həm də mələikələr və ruhi eksperimentlər barədə eşitmək istəyirlər. Mərhəmətli olun və bu məmnunluğu təqdim edin. Şəxsiyyətinizin məruz qaldığı mistik mənbəyə işarə vurun, efir və qeyri-maddi olanlar haqqında danışın – dərhal sizi tərəfdarlar kütləsi əhatə edəcəkdir. Adamların tələbatına uyğunlaşın: peyğəmbər öz tərəfdarlarının arzularını əks etdirməlidir. Həmişə yüksəkliklərə can atın. Xülyalarınız nə qədər geniş və şirnikləndiricidirsə, bir o qədər səmərəli olar.

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

XVIII əsrin birinci onilliyinin ortalarında Avropanın yüksək cəmiyyətində qeyri-adi dərmanların köməyi ilə müalicə edən İsveçrənin kənd həkimi Mixael Şüppax haqqında şayiələr yayıldı: o, təbiətin müalicəvi gücündən istifadə edir və ağlagəlməz uğurlara nail olurdu. Ağır xəstəliklərdən, yaxud kiçik nasazlıqdan əziyyət çəkən imkanlı adamlar Avropanın hər yerindən Şüppaxın yaşadığı Alp dağlarının qoynunda yerləşən kiçik Lanqnau kəndinə cığır saldılar. Onun gələcək pasientləri dağlarda üzücü yolu qət edərək, heyrətediləcək gözəl mənzərələrdən zövq alırdılar. Onlar Lanqnauya çatan vaxt, artıq özlərini yeniləşmiş, sağalmaya gedən yolda görürdülər.

Sadəcə olaraq «Dağ həkimi» adı ilə məşhur olan Şüppax şəhərcikdə kiçik aptek saxlayırdı. Bu yer əsl teatra çevrilmişdi: müxtəlif ölkələrdən olan adamlar dəstə ilə divarlardakı rəflərinə müxtəlif rəngli ot cövhərləri ilə dolu iri butulkaların yığıldığı balaca otağı dövrəyə almışdılar. Həmin dövrdə zəmanənin qabaqcıl həkimləri xəstələrə aydın olmayan latın dilində (indi də bir çox dərmanların adları belədir) çox pis dadı və iyi olan dərmanlar yazırdılar, Şüppaxın dərmanlarının isə gözəl adları var idi: «Sevinc yağı», «Qəlb çiçəyi», yaxud «Dəhşətə qalib gələn». Onlar şirin və xoşagələn idi.

Lanqnaunun pasientləri Dağ həkiminin yanına düşmək üçün səbirlə gözləməli olurdular, çünki hər gün müxtəlif ölkələrdən apteka təxminən səksən bağlama daxil olurdu. Bu bağlamalarda iri butulkalarda sidik nümunələri var idi. Şüppax təsdiq edirdi ki, sadəcə olaraq xəstənin sidiyinə nəzər salmaqla və xəstəliyin əlamətlərini oxumaqla diaqnoz qoya bilir. (Şübhəsiz, o, dərman yazmazdan əvvəl bu əlamətləri diqqətlə oxuyurdu.) Nəhayət, doktor qısa müddətə azad olduqda (sidik nümunələrinin öyrənilməsi olduqca çox vaxt alırdı), o, pasientlərdən birini apteka dəvət edirdi. Doktor, burada onun sidik

nümunəsini öyrənərək, izah edirdi ki, özünə lazım olan hər şeyi bilməsi üçün onun bu mayeyə baxması kifayətdir. O deyirdi ki, kənd adamlarında belə şeylərə qarşı həssaslıq var, onlar müdrikdirlər, belə ki, şəhər həyatının mürəkkəbliklərinin korlamadığı sadə, mömin həyat yaşayırlar. Həkim və xəstə fərdi məsləhət zamanı, ruhu təbiətlə harmoniya vəziyyətinə hansı üsullarla gətirməyi hökmən müzakirə edirdilər.

Şüppax müxtəlif müalicə formaları təklif edirdi, ancaq onların hər biri, o dövrdə qəbul edilmiş ənənəvi təbabət praktikasından köklü şəkildə fərqlənirdi. Məsələn, o, müasir dildə desək, elektroşok müalicəsinə inanırdı. Bunun təbiətin müalicəvi qüvvələri ideyası ilə hansı əlaqəsi olduğunu başa düşməyənlərə, o, izah edirdi ki, elektrik təbiət hadisəsidir: o, yalnız ildırımın təbii gücünü təqlid edir. Xəstələrdən biri hesab edirdi ki, onun bədəninə yeddi cin daxil olub. Doktor onu elektroşokla müalicə etdi, müalicə zamanı o, qışqıraraq, cinlərin xəstənin bədənindən çıxaraq, bir-birinin ardınca necə uçub getdiyini gördüyünü deyirdi.

Başqa bir adam təsdiq edirdi ki, faytonçu ilə birlikdə fayton udub və bu onun sinəsində dəhşətli ağrılar yaradır. Dağ həkimi onu səbirlə dinləyib dedi ki, xəstənin qarnından təkər cırıltısının səsini eşidir. O, xəstəni müalicə etməyə söz verərək, ona sakitləşdirici və zəiflədici dərman yazdı. Yazıq elə aptekin yanındakı stulda yuxuya getdi. Ayıldıqda onu qusdurdular, bu zaman onun arxa tərəfində faytonçu ilə birlikdə fayton (belə hal üçün Dağ həkiminin icarəyə götürdüyü), təkərlərini cırıldadaraq peyda oldu. Bu vaxt xəstənin, faytonu həkimin köməyi ilə qusduğuna inanmağa məcbur olmaqdan başqa yolu qalmırdı.

Dağ həkiminin şöhrəti artırdı. O, ən məşhur adamlardan faydalanırdı – hətta böyük Höte onun yanında olmuşdu – xalis və təbii olan hər şeyin səcdəyə layiq hesab edildiyi bu yer təbiətə pərəstiş mərkəzinə çevrilmişdi. Şüppax onun pasientlərini əyləndirən və ruhlandıran hərəkətlər üzərində səbir və diqqətlə işləyirdi. Onun yanında olmuş bir professor yazırdı: «Yığıncaqda kimsə oturur və ya durur, kimsə ola bilsin, gənc qadınla kart oynayır; burada konsert, orada nahar və ya şam yeməyi verirlər, burada isə kiçik balet göstərirlər. Təbiətin azadlığı hər yerdə yüksək cəmiyyətin məmnunluğu ilə uyğunlaşdırılır – özü də olduqca uğurlu nəticələr əldə edilir. Belə ki, əgər həkimin hansısa xəstəliyi müalicə etməyə gücü çatmırsa, o, ən azı ipoxondriyanı (xəstəlikdən qorxma nəticəsində baş verən ruh düşkünlüyünü) və melanxoliyanı müalicə edəcək».

İZAHI

Şüppax öz karyerasına adi kənd həkimi kimi başlamışdı. O, bəzən özünün hazırladığı dərmanlardan istifadə edir və nəhayət, yaxşılığa doğru müəyyən irəliləyişlər olduğunu görürdü, belə ki, otlardan hazırlanmış cövhər və təbii müalicə üsulları tezliklə, onun istifadə etdiyi başlıca müalicə vasitəsi oldu. Əslində təbiətin qüvvələri ilə onun müalicəsi, pasientlərə dərin psixoloji təsir göstərirdi. O dövrün müasir təbabəti, ağrı və qorxu yaratdığı halda, Şüppaxın müalicəsi sakitləşdirici və xoş idi. Bunun nəticəsində xəstənin əhval-ruhiyyəsinin yaxşılaşması müalicə sisteminin çox mühüm elementi idi. Onun pasientləri öz həkimlərinin istedadına və biliyinə o dərəcədə dərindən inanırdılar ki, özlərinin sağalmağa doğru getdiklərinə inanmağa başlayır və ehtirasla onun yanına can atırdılar. Şüppax onların öz əzablarının cəfəng, aydın olmayan izahına istehza etmirdi. Bunun əvəzinə o, xəstələrdə baş verən ruhi düşkünlükdən elə istifadə edirdi ki, bu kənardan onun guya xəstələri möcüzəli şəkildə müalicə etməsi kimi görünürdü.

Dağ həkimi ilə olan hadisə pərəstişkarları və ehtiram bəsləyənləri qazanmağımız üçün bizə bəzi mühüm şeylər öyrədir. Birincisi, özünüz barədə hər cür rifah təsəvvürü yaratmaq üçün adamların iradəsini ələ almaq, sizin qüdrətinizə kifayət

qədər güclü inanmağa məcbur etmək üsulu tapmalısınız. Onların inamı kifayət qədər olacaqdır, ancaq özlərində olan dəyişikliyin səbəbini öz iradələrində deyil, məhz sizdə görmələrinə inam lazımdır. Bu ideya, ümumi iş və ya fantaziya olsa da, adamları ehtirasla inanmağa məcbur edərsə, onların xülyası başlanılan işi sona çatdıracaqdır. Bununla da, sizə təbib, peyğəmbər, dahi kimi (zövqünüzə uyğun) pərəstiş edilməyə başlanılacaqdır.

İkincisi, Şüppax bizi təbiətə və sadəliyə inamın əbədi hakimiyyətini öyrədir. Təbiət həqiqətdə zəhərli bitkilər, vəhşi heyvanlar, gözlənilməz kataklizmlər, fəlakətlər kimi, faciə doğuran, qorxu yaradan şeylərlə doludur. Təbiətin müalicəvi, sakitləşdirici keyfiyyətinə inam əslində romantiklər üçün düşünülmüş süni xülyadır. Ancaq təbiətin cazibədarlığı sizə, xüsusən stress və gərginliklə dolu olan çətin vaxtda, çox böyük hakimiyyət verə bilər.

Ancaq bu cazibə qüvvəsindən düzgün istifadə etmək vacibdir. Siz rejissor kimi, dövrünüzün romantizminə uyğun olan və cavab verən xüsusiyyətlər əldə edin. Dağ həkimi öz rolunu özünün primitiv müdrikliyindən və kəndçi ağlından istifadə edərək, dramatik epizodlara müalicə görkəmi verərək, öz rolunu əla oynayırdı. O, əslində özünü təbiətlə eyniləşdirmirdi, təbiətə sitayiş, yəni süni konstruksiya yaradırdı. «Təbiilik» təəssüratına nail olmaq üçün çox işləmək, təbiətə teatr görkəmi vermək, onu valehedici büt etmək lazımdır. Əks halda, heç kim sizə diqqət yetirməyəcəkdir. Təbiət də dəbin ardınca getməli və zamanla ayaqlaşmalıdır.

QANUNA RİAYƏT EDİLMƏSİ (3)

Həkim və alim Frans Mesmer 1778-ci ildə əlli beş yaşında iki yol ayrıcında qalmışdı. O, heyvan maqnetizminin öyrənilməsinin pioneri idi. Elmdə olan bu təmayülə görə, heyvan orqanizmində hansısa maqnetik maddə mövcuddur və həkim, yaxud mütəxəssis bu substansiya ilə işləyərək, fantastik nəticələrə nail ola bilər. Ancaq onun yaşadığı Vyana şəhərində təbabət aləminin elitası onun nəzəriyyəsini istehza ilə qarşılayıb şübhə edirdilər.

Mesmer bildirirdi ki, qadınları konvulsiyadan (qıc olmadan) müalicə edərək, əla nəticələrə nail olur. Onun başlıca nailiyyəti, xüsusi fəxr obyekti isə kor qızın görməsini bərpa etməsi idi. Ancaq qızı müayinə edən başqa həkim isə bildirdi ki, o, əvvəlki kimi kordur, pasient qız da bunu təsdiq etdi. Mesmer iddia olunan nəticə ilə razılaşmayaraq, bildirdi ki, burada onun düşmənlərinin əli vardır, onlar öz rəqiblərindən yaxa qurtarmaq üçün pasient qızı aldadıb öz tərəflərinə çəkmişlər. Bu bəyanat yalnız yeni istehzaya səbəb oldu. Aydın oldu ki, sağlam düşüncəli vyanalılar onun nəzəriyyəsi üçün münasib auditoriya deyildir. Mesmer Parisə getmək və hər şeyi əvvəldən başlamağı qərara aldı.

O, yeni yerdə çox gözəl mənzil kirayə edərək, onu müvafiq şəkildə bəzədi. Pəncərə çərçivələrinə salınan rəngli şüşədən hazırlanmış şəkil və naxışlar dini duyğuları oyadır, güzgü divarlar hipnotik təsir bağışlayırdı. Həkim elan etdi ki, onun evində, heyvani maqnetizm qüvvələrinin nümayişi keçiriləcəkdir, onun dəvət etdiyi melanxoliyadan əziyyət çəkənlər və xəstələr bu qüvvələri öz üzərlərində sınaqdan çıxaracaqlar. Tezliklə cəmiyyətin müxtəlif siniflərinə mənsub olan parislilər (başlıca olaraq qadınlar, bu ideya onları kişilərdən artıq cəlb edirdi) vəd edilmiş möcüzələrin şahidi olmalarını arzu edərək, giriş üçün pul ödəyirdilər.

İçəri daxil olanları, otağa xüsusi ventilyasiya gözlüyündən verilən portağal çiçəklərinin iyi və digər ekzotik ətirlər çulğayırdı. Nümayişin göstəriləcəyi salonda qonaqları arfa səsi qarşılayır, qonşu otaqdan sanki lay-lay çalan gözəl qadın nəğməsi eşidilirdi.

Salonun ortasında oval şəkildə uzun konteyner yerləşirdi, Mesmerin dediyinə görə, ona maqnitlənmiş su doldurulmuşdu. Bu məqsədlə konteynerin metal qapağının deşiklərinə hərəkət edən uzun dəmir borular da keçirilmişdi. Qonaqlardan konteynerin ətrafında yer tutmaq və maqnitlənmiş borucuqları xəstə yerlərinə qoymaq, sonra isə qonşularının əllərindən tutmaq xahiş edirdilər. Maqnetik qüvvələrin onların bədənləri vasitəsilə keçməsinə kömək etmək üçün mümkün qədər yaxın oturmaq tələb olunurdu. Bəzi hallarda, pasientlər hətta bir-birlərinə kəndir ilə bağlanırdılar.

Mesmer və hamısı sanki xüsusi seçilmiş gözəl və güclü cavan oğlanlar «maqnitləşdirici köməkçilər» əllərində maqnitlənmiş su dolu bardaq olan otağa daxil olurdular. Seans iştirakçılarının üzərinə su çiləməklə, bədənlərini masaj etməklə, dərilərini müalicəvi su ilə sürtməklə, onları hipnoza yaxın bir vəziyyətə gətirirdilər. Bir neçə dəqiqə sonra qadınları həyəcan çulğayırdı. Bəziləri hıçqırır, başqaları öz saçlarından yapışaraq titrəyir, üçüncülər əsəbiliklə qəhqəhə çəkirdilər. Həyəcanın qızğın vaxtında, əynində qızılı güllərlə bəzədilmiş və uzun ipək libas geyinmiş Mesmer yenidən salona daxil olurdu; o, əlində ağ maqnetik borucuq gəzdirir, konteynerin dövrəsi boyu hərəkət edərək, pasient qadınları tam sakitlik yaranana qədər sığallayır və sakitləşdirirdi. Qadınların çoxu Mesmerin təsiri altına düşərək, qadınların fikrincə, onun nüfuzedici baxışı, onların bədənindəki fluidləri (spiritlərin təsəvvürlərinə görə, guya insan bədənindən və ya başqa bir şeydən şüalanan «psixi cərəyanlar») həyəcana gətirir və ya söndürürdü.

Parisə gəldikdən bir neçə ay sonra Mesmer dəbə mindi. Onu Fransa kralı XVI Lüdovikin arvadı kraliça Mariya-Antuanettanın özü müdafiə edirdi. Vyanada o, təbabət elminin rəsmi nümayəndələri tərəfindən qəbul edilməmişdi, ancaq Parisdə bunun əhəmiyyəti yox idi. Onun şagirdlərinin və ardıcıllarının sayı artırdı, hamısı müəllimlərinə böyük məbləğdə pul ödəyirdilər.

Mesmer öz nəzəriyyəsini genişləndirdi. O bildirdi ki, maqnetizm qüvvələri hesabına bütün bəşəriyyət harmoniyaya nail ola bilər (bu ideya Fransa inqilabı zamanı xüsusilə diqqəti cəlb edirdi). Mesmerizm pərəstişi bütün ölkəni çulğadı: bir çox şəhərlərdə maqnetizm təcrübələri ilə məşğul olan «Harmoniya cəmiyyəti» meydana çıxdı. Bu dərnəklər nəticədə acınacaqlı, bədnam ad çıxardı: bir qayda olaraq, onlara, dinə və ya mövcud qaydalara tənqidi yanaşan və ya şübhə ilə baxan pozğun adamlar başçılıq edirdilər, belə ki, görüşlər daha çox qrup şəklində əxlaqsızlıq məclisinə çevrilirdi.

Mesmerin məşhurluğunun zirvədə olduğu vaxt Fransada heyvani maqnetizm nəzəriyyəsinin yoxlanılmasının nəticələri barədə komissiya məruzə çap etdirdi. Tədqiqat bir neçə il ərzində aparılmışdı. Çıxarılan nəticə belə oldu: maqnetizmin orqanizmə təsiri əslində kütləvi həyəcanla və öz-özünü hipnoz etmə ilə izah olunur. Məruzə sənədlərlə yaxşı əsaslandırılmışdı və Mesmerin Fransadakı ad-sanını məhv etdi. O, ölkəni tərk etdi və bu işlərdən əl çəkdi. Ancaq bir neçə il keçdikdən sonra bütün Avropada onun təqlidçiləri meydana çıxmağa başladı və mesmerizm pərəstişi yenidən yayılmağa başladı, onun ardıcıllarının sayı isə daha çox oldu.

İZAHI

Mesmerin fəaliyyətini iki mərhələyə bölmək olar. O, əvvəl Vyanada olarkən, öz nəzəriyyəsinin doğruluğuna özü də inanırdı və özünün haqlı olduğunu sübut etmək üçün bacardığı hər şeyi edirdi. Ancaq onun artan məyusluğu və nəzəriyyəsinin həmkarları tərəfindən qəbul edilməməsi, onu başqa strategiya işləyib hazırlamağa məcbur etdi. Mesmer heç kimin onu tanımadığı Parisə köçdü və onun qəribə ideyası münbit mühitə düşdü. O, fransızların teatra və tamaşaya olan zəif-

liyindən istifadə edib, öz mənzilini bütün hiss üzvlərinin təsirə məruz qaldığı magik bir aləmə çevirdi – müştərilərin iybilmə, görmə, eşitmə üzvlərinə hissiyyat seli təsir edirdi. Maqnetizm təcrübələrinin yalnız qrup seanslarında aparıldığı da az əhəmiyyətə malik deyildi. Maqnetizmin lazımi şəkildə təzahür etməsinə qrup şərait yaradırdı: hər bir şeyə inanan sadəlövh özünün emosional əhval-ruhiyyəsi ilə şübhələri dağıdaraq, başqasını yoluxdururdu.

Beləliklə, Mesmer maqnetizmin qatı müdafiəçisindən kütləni cəlb etmək və ələ gətirmək üçün istənilən fənd və kələkdən istifadə edən fırıldaqçıya çevrildi. Onun ən böyük hiyləgər fəndi toplaşmış qrupun daxilində coşan boğulmuş seksuallıqla oyun oldu. Mədəniyyətin özündən də qədim olan çox güclü seksual ünsiyyət həvəsi qrupda xaricə çıxmağa can atırdı. Bu həvəsi insanın sosial təbiəti ilə izah etmək olar, ancaq bununla yanaşı, dələduzların idarə etməyi və hiylə gəlməyi mükəmməl bacardıqları seksuallıq bu işdə mühüm rol oynayır.

Mesmerlə bağlı hadisə bizə bunu öyrədirdi: biz qrup halında birləşəndə, bizim sağlam düşünməyimizə imkan verən şübhəyə, rədd etməyə, məsafə saxlamağa meylimiz yoxa çıxır. Hərarət və qrupun əhval-ruhiyyəsinin keçici olması fərdin şübhəsinə üstün gəlir. Bu sizə pərəstiş yaratmağa kömək edən qüvvədir, nəticədə sizin qazandığınız hakimiyyətdir. Bundan başqa, siz adamların boğulmuş seksuallığı ilə oynayaraq, onları öz coşğunluğunuzu mistik qüvvənizin təsiri əvəzinə səhvən qəbul etməyə məcbur edirsiniz: adamların həyata keçməmiş cəhdləri ilə oynayaraq, görünməmiş hakimiyyətə nail olursunuz.

Həmçinin yadda saxlayın ki, qarşımızdakı ən uğurlu pərəstiş dinin və elmin qarışığından ibarətdir. Ən yeni texnoloji meylləri götürün, alicənab ideallar, mistik inam, yeni müalicə üsulları əlavə edin. Sizin hibrid pərəstişinizin izahı variantları göbələk kimi artacaq, onlar özləri sizi, haqqında düşünməyə cəsarət etmədiyiniz hakimiyyətə cəlb edəcəklər.

OBRAZ:
MAQNİT

Gözəgörünməz qüvvə zərrəcikləri özünə çəkib, maqnitlənmiş sistemi böyüməyə və genişlənməyə məcbur edərək, özləri maqnit rolunu oynayan predmetləri cəzb edir. Ancaq əsas maqniti götürsəniz – hər şey dağılacaqdır. Adamların təsəvvürlərini cəzb edən və onları sıx birləşdirən maqnit, gözəgörünməz qüvvə olun. Onların sizin ətrafınıza toplanması kifayətdir ki, sonra heç bir qüvvə ilə sizdən ayıra bilməsinlər.

MÖTƏBƏR FİKİR

«Fırıldaqçı, adamların artıq inanmaq istədiklərinə sadəcə olaraq inanmaq imkanı yaradaraq, böyük hakimiyyətə nail olur... Sadəlövhlər təhlükəsiz məsafədə dayanmaq iqtidarında deyillər; onlar möcüzə göstərən şəxsiyyətin aurasının təsiri altına düşərək, xülyaların əsirinə çevrilərək, onun ətrafında toplaşır, sanki sürü kimi böyük ciddiyyətlə onun ardınca gedirlər.»

Qrete de Françesko

MEDALIN İÇ ÜZÜ

Tərəfdarlar qrupu toplamağın əsas məntiqlərindən biri də budur ki, çox vaxt qrupu aldatmaq tək-tək adamları aldatmaqdan asan olur və bu sizə daha böyük hakimiyyət verir. Ancaq bunda təhlükə də vardır: əgər qrup sizi yaxşı tanıyıb bələd olsa, qəzəblənmiş kütlə qarşısında dayanmış olarsınız, bu kütlə sizə diqqət yetirən kimi sizi acgözlüklə tikə-tikə parçalaya bilər. Fırıldaqçılar bu təhlükəni həmişə yadında saxlayır və onlar iksirlərinin əzabları yüngülləşdirmədiyi və ya ideyalarının saxtalığı aydın olan kimi şəhəri tərk etməyə daima hazır

vəziyyətdə olurlar. Gecikmək onlara həyatları bahasına başa gələ bilər. Kütlə ilə oynamaq çox qorxuludur və odla oynamağa bənzəyir. Siz gözlərinizi çəkmədən ilk etimadsızlıq qığılcımını tutmalı, kütləni əleyhinizə qaldıra biləcək istənilən düşməni nəzərlərinizlə axtarıb tapmalısınız. Kütlənin hisslərinə, emosiyalarına hiylə gələrək, siz yeni vəziyyətə uyğunlaşmağı, təşkil etdiyiniz qrupun bütün əhval-ruhiyyəsi və arzusu ruhunda bir an içində köklənməyi öyrənməlisiniz. Xəbərçilərdən istifadə edin, bütün hadisələrdən xəbərdar olun və yığılıb bağlanmış çamadanlarınızı hazır vəziyyətdə saxlayın.

Bu səbəb üzündən siz, ola bilsin, tək-tək adamlarla iş görməyə üstünlük verirsiniz. Onları özlərinin təbii əhatəsindən ayıraraq, qruplar topladığınız haldakı səmərəyə nail ola bilərsiniz – hər iki halda, onlar təlqinə və qorxutmaya asan təslim olurlar. Münasib sadəlövhü seçin və hətta o, sizi yaxşıca tanıyıb bələd olsa belə, onun əlindən kütləyə nisbətən asan sivişib çıxa bilərsiniz.

İYİRMİ SƏKKİZİNCİ QANUN

İŞƏ CƏSARƏTLƏ GİRİŞ

QANUNUN MƏZMUNU

Əgər siz işin necə gedəcəyinə əmin deyilsinizsə, onu başlamayın. Sizin şübhəniz və tərəddüdünüz icraya ziyan vurur. Təşvişə düşmək təhlükəlidir: ən yaxşısı inamla başlamaqdır. Özünəgüvənmə üzündən buraxdığınız istənilən səhv, daha böyük özünəgüvənmə ilə asan düzəlir. Cəsarət fəth edir; təvazökarlıq isə hörmətdən düşmüşdür.

İNAM VƏ QƏTİYYƏTSİZLİK

Qısa müqayisəli psixoloji tədqiqat

Qətiyyətlilik və tərəddüd tamamilə müxtəlif psixoloji reaksiyalar əldə etmək məqsədi daşıyır: tərəddüd sizin yolunuz üzərində maneələr yaradır, qətiyyətlilik isə onları məhv edir. Bunu başa düşdükdən sonra, siz belə bir nəticəyə gələrsiniz ki, anadangəlmə utancaqlığı aradan qaldırmaq, mühüm olan güc və cəsarət bacarığını inkişaf etdirməyə başlamaq zəruridir. Həm inam, həm də qətiyyətsizlik sahəsində ardıcılların olması ən parlaq psixoloji nəticələr sırasına aiddir.

YALAN NƏ QƏDƏR AĞ OLARSA, BİR O QƏDƏR YAXŞIDIR. Bizim hamımızda zəiflik vardır, bizim səylərimiz isə həmişə mükəmməl deyildir. Ancaq inadla hərəkət edərək, fövqəladə səmərəyə çatmaq olar – onda bütün çatışmazlıqlarınız üstüörtülü qalacaqdır. Dələduzlar belə bir həqiqəti bilirlər: yalan nə qədər ağdırsa, bir o qədər həqiqətəuyğun görünür. Qətiyyət, inamla görülmüş işin əsassızlığından diqqəti yayındıraraq, ona mötəbər görkəm verir. Nə ilə əlaqələndirilməsindən asılı olmayaraq, fırıldaq işlədərək və ya danışıqlara girərək, planlaşdırdığınızdan da irəli gedin. Göydən ayın çıxmasını tələb edin – siz buna nə qədər tez-tez nail olarsınızsa, bir o qədər heyranlıq yaradarsınız.

QƏTİYYƏTSİZ QƏNİMƏTİ ŞİRLƏR ƏHATƏ EDİR. Adamlar altıncı duyğu ilə başqalarının zəifliklərini hiss edirlər. Əgər siz elə ilk görüşdən kompromisə, güzəştə və geri çəkilməyə hazır olduğunuzu nümayiş etdirirsinizsə, hətta qaniçənlik xas olmayan adamlarda belə qəddarlıq hissi oyadarsınız. Hər şey qavrayışdan asılıdır, əgər sizi asanlıqla sözündən qaçan, təsir altına düşən, müdafiə mövqeyi tutan adam kimi tanıyarlarsa, rəhmsizcəsinə təpiklənməyiniz adət halını alacaqdır.

GÜC QORXU DOĞURUR, QORXU İSƏ NÜFUZ YARADIR. Qətiyyətli davranış sizə geniş miqyas verər, həqiqətdə olduğunuzdan daha qüdrətli görünməyə kömək edər. Gözlənilməzliyi, niyyəti gizli saxlamağı və çəldliyi özündə birləşdirən ilanın belə davranışı daha böyük qorxu doğurur. Öz gücünüzlə vahimələndirərək, siz nümunə yaradırsınız: hər növbəti halda ətrafınızdakılar dəhşət içərisində sizin zərbənizi gözləyərək, müdafiəyə hazırlaşacaqlar.

QƏTİYYƏTSİZ OLMAQ VƏ AXIRA QƏDƏR GETMƏMƏK – ÖZÜNƏ QƏBİR QAZMAQ DEMƏKDİR. Əgər siz özünüzü tam qətiyyətli hiss etmədən işə başlayırsınızsa, bununla özünüz öz yolunuzda maneə yaradırsınız. Çətinliyin meydana çıxması ilə siz özünüzü itirirsiniz, ora-bura vurnuxmağa başlayır, çıxış yollarını, onların olmadığı yerdə axtarır və qeyri-ixtiyari olaraq özünüz özünüzə yeni problemlər yaradırsınız. Ovçunun əlindən qaçan qorxmuş dovşan qurulmuş tələyə asanlıqla düşür.

TƏRƏDDÜD ÇAXNAŞMA YARADIR, CƏSARƏT ONU ARADAN QALDIRIR. Əgər siz qərarsızlığa və tərəddüdə vaxt itirirsinizsə, çaxnaşma yaradırsınız ki, bu da həmçinin ətrafdakılara hər şeyi götür-qoy etməyə vaxt və imkan yaradır, sizin qətiyyətsizliyiniz adamlara qorxu enerjisi verir, narahatlıq doğurur.

Qətiyyətlilik bu cür çaxnaşmaları aradan qaldırır. Sizin hərəkətlərinizin sürəti, gücü və qətiyyəti ətrafdakılara düşünməyə və şübhə etməyə vaxt vermir. Tərəddüdün yoldan çıxarması məşumdur – o, sizin qurbanınızı sizin məqsədlərinizə şübhələnməyə məcbur edir. İnadlı və cəsarətli hərəkət yoldan azmanı qalibiyyətlə bəzəyir: bunlar fikirləşmək üçün vaxt vermir.

QƏTİYYƏTLİLİK SİZİ SÜRÜDƏN AYIRIR. Cəsarətlilik sizə inandırıcı, geniş miqyaslı görkəm verir. Təvazökar

mühitlə qovuşaraq itib-batır, inadkar diqqəti cəlb edir, hakimiyyətə gəlir. Biz səbirsizliklə onun növbəti qətiyyətli addımlarını gözləyirik.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

1925-ci ilin mayında beş fransız «metal tullantısı kralı» – metal emalı sahəsinin aparıcı maqnatları həmin dövrdə Parisin ən dəbdəbəli oteli olan «Krilon»da Poçt və teleqraf nazirliyinin bölmələrindən birinin baş direktorunun müavini ilə «rəsmi», ancaq «çox məxfi» görüşə dəvət edildilər. Biznesmenləri baş direktor cənab Lyüstiqin özü qarşıladı.

Biznesmenlərin görüşdə nədən söhbət gedəcəyi barədə təsəvvürləri yox idi və onlar maraqdan alışıb-yanırdılar. İçki təklif edildikdən dərhal sonra direktor izahata başladı. O dedi: «Cənablar, söhbət tam məxfilik tələb edən təxirəsalınmaz işdən gedir. Fransa hökuməti Eyfel qülləsini uçurmaq haqqında qərar qəbul etməyə hazırlaşır». İş adamları, direktorun bu yaxınlarda xəbərlərdə qüllənin təcili təmirə ehtiyacı olduğu barədə məlumat verildiyini məzar sükutu ilə dinlədilər. Məlum olduğu kimi, qüllə əvvəlcə müvəqqəti qurğu kimi layihələndirilmişdi (1889-cu ilin Ümumdünya sərgisinə), onun saxlanılmasına çəkilən xərclər ildən-ilə artırdı, indi isə maliyyə böhranı dövründə hökumət onun təmirinə milyonlar sərf etməli idi. Eyfel qülləsi parislilərin bir çoxunun başının daşı idi, onları daima əsəbiləşdirirdi, buna görə qüllənin sökülməsi onların ürəyincə olardı. Tədricən hətta turistlər də onu unudacaqlar, – bundan sonra, o, fotoşəkillərdə və açıqcalarda qalacaqdır. Lüstiq sözünü belə qurtardı: «Cənablar, siz bura dəvət edilmisiniz ki, bu məsələ üzrə hökumətə təkliflərinizi bildirəsiniz».

O, biznesmenlərə hökumət qrifi olan blanklar verdi, bu blanklar, məsələn, qüllənin tonlarla çəkisi kimi hesablamalar

və rəqəmlərlə doldurulmuşdu. Bu qədər metal tullantısı müqabilində nə qədər gəlir əldə edə biləcəklərini hesabladıqda, onların gözləri alışıb-yanırdı. Sonra Lüstiq, qonaqlarla birlikdə, onları gözləyən limuzinə əyləşib, Eyfel qülləsinə yollandılar. O, buraxılış vərəqi göstərərək, biznesmenlərə bir-birindən maraqlı lətifələr danışdı, ciddi şərh verərək, onları qüllənin bütün mərtəbələrini gəzdirdi. Görüşün sonunda, o, qonaqlara təşəkkür edərək, dörd gündən gec olmayan müddətdə təkliflərini təqdim etməyi xahiş etdi.

Biznesmenlər öz təkliflərini təqdim etdikdən bir neçə gün sonra, həmin beş nəfərdən biri, cənab P. Eyfel qülləsini əldə etmək tenderini udması və təhlükəsizlik məqsədi ilə əqdi sənədləşdirmək üçün özündə 250000 franka yaxın (bu, təxminən indiki bir milyon dollara bərabərdir) məbləğdə təsdiq olunmuş çek – ümumi məbləğin dörddə biri – olmaqla, iki gün ərzində otelin həmin nömrəsinə gəlməsi barədə xəbərdarlıq məktubu aldı. Cənab P. sevinc içərisində idi – o, çox məşhur qurğunu alıb sökən adam kimi tarixə düşəcəkdi. Ancaq bununla belə, əlində çek, otelin nömrəsinə gəldikdə, şübhələr ona əzab verməyə başladı. Görüş nə üçün hökumət idarəsində deyil, oteldə təyin olunmuşdur? Nə üçün bunda digər rəsmi şəxslər iştirak etmirlər? Bu nədir – fırıldaqdır, yaxud oyundur? Lüstiq qüllənin sökülməsinə hazırlıq barədə düşünərkən, şübhələndi və geri çəkilməyi qərara aldı.

Birdən o, direktorun səsinin ahənginin dəyişdiyini hiss etdi. O, qüllə haqqında danışmağı saxladı, özünün məvacibinin az olduğunu xatırlatdı, arvadının qısa kürk arzuladığından danışdı, var qüvvə ilə işləməli olduğundan, ancaq bunu heç kimin qiymətləndirmədiyindən şikayətləndi. Cənab P.-də belə ehtimal yaranmağa başladı: yüksək vəzifəli dövlət məmuru onu rüşvət verməyə çəkir! Ancaq o qəzəb deyil, yüngülləşmə hiss etdi. İndi o, Lüstiqin düzgünlüyünə inandı, çünki onun fransız bürokratiyası ilə əvvəlki bütün əlaqələrində də bu cür eyhamlar olurdu. Sakitləşmiş cənab P. direktorun cibinə gizlincə min

franklıq bir neçə əsginaz qoydu. Sonra o, direktora doldurulmuş çeki təqdim etdi və əvəzində yaxşı görkəmi olan qəbalə kağızının da daxil olduğu sənədlər paketini aldı. O, gəlir haqqında arzular və onu gözləyən şöhrət barədə düşüncələrlə oteldən çıxdı.

Bir neçə gün sonra, cənab P. nazirlikdən xəbər gözləməyib, işin təmiz olmadığını ehtimal etməyə başladı. Bir neçə telefon zəngindən sonra aydın oldu ki, Lüstiq adlı baş direktor yoxdur. Eyfel qülləsini sökməyi isə heç kim planlaşdırmır. Ona 250 min frank kələk gəliblər!

Cənab P. polisə məlumat vermədi. O, tarixdə ən cəfəng və axmaq hiylənin qurbanı olmasının onun ad-sanına necə təsir edəcəyini yaxşı bilirdi. O, hamının masqara və həqarət hədəfi ola bilər, biznesi isə məhvə məhkum olardı.

İZAHI

Əgər dahi, qeyri-adi fırıldaqçı qraf Viktor Lüstiq Zəfər Tağını, Sena üzərindəki körpünü, Balzakın heykəlini satmağa cəhd etsəydi, ona heç kim inanmazdı. Ancaq Eyfel qülləsi, dələduzluq fəndinin obyekti olmasına şübhə edilə bilinməsi həddindən artıq çox böyük, olduqca fantastik idi. Həm də əslində, məhz buna görə bütün oyun tamamilə ağlagəlməz idi. Lüstiq altı ay sonra Parisə qayıdaraq, qülləni digər «metal tullantısı kralına», özü də daha yüksək qiymətə – indiki bir milyon yarım dollara ekvivalent olan məbləğə frankla sata da bilərdi!

Miqyasın böyüklüyü baxışı aldatmağa doğru aparır. Miqyas bizi azdırır, sehrləyir, hər şey elə aydın görünür ki, biz hansısa xülyanın və ya yanılmanın mümkünlüyünü sadəcə olaraq güman edə bilmirik. Özünüz miqyas və güclə silahlanın – öz yalanınızı bacardığınız qədər genişləndirin, sonra isə onu daha da uzadın. Əgər sadəlövhün nədənsə şübhələndiyini hiss etsəniz, cəsarətli Lüstiq kimi hərəkət edin: qaçmaqla xilas olmaq və ya qiyməti aşağı salmaq əvəzinə, o, rüşvət istəyərək və alaraq qiyməti qaldırdı. Daha artıq tələb edərək, siz mübahisədəki əks tərəfi müdafiə mövqeyi tutması və öz cəsarətinizlə onu darmadağın edirsiniz.

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

1514-cü ildə iyirmi iki yaşlı Pyetro Aretino varlı Roma ailəsində aşpazın kiçik köməkçisi idi. Onun könlündən yazıçı olmaq, öz adını şöhrətləndirmək keçsə də, ümid bəsləyə biləcəyi heç nə yox idi.

Həmin il Roma papası X Lev zəngin hədiyyələr gətirmiş Portuqaliya kralının səfirini qəbul etdi. Bəxşişlər arasında çox böyük fil də var idi – bu imperiya dövründən Romada olan ilk fil idi. Papa filə bənd oldu və onu həddindən artıq sevdi, ancaq incə sevgiyə və qayğıya baxmayaraq, fil (onu Xanno çağırırdılar) qəfildən xəstələndi. Papa həkimləri bir yerə yığdı, onlar bədbəxt heyvana təmizləyici imalə təyin etməyi məsləhət görsələr də, bunun heç bir faydası olmadı və fil öldü. Papa matəm içində idi. Təsəlli tapmaq üçün, o, böyük rəssam Rafaelə Xann onun bütöv ölçüdə portretini çəkməyi və altına «Təbiətin məhv etdiyini Rafael öz sənəti ilə yaşatdı» yazaraq, qəbri üstünə qoymağı sifariş verdi.

Bir neçə gün keçdikdən sonra, Romada əldən-ələ keçən həcv gəzdi. Həcv gülüş və şadlıq doğururdu. O, «Fil Xann, onun son arzusu və vəsiyyəti» adlanırdı. Orada həmçinin deyilirdi: «Mən varisim kardinal Santi Kuattroya, qazandığını müvəffəqiyyətlə yeməsi üçün çənəmi vəsiyyət edirəm... Varis kardinal Mediçiyə baş verənləri yaxşı eşitməsi üçün qulaqlarımı vəsiyyət edirəm...» Əxlaqsızlıqda ad-san qazanmış kardinal Qrassiyə fil öz orqanizminin çox böyük ölçüdə olan müvafiq üzvünü vəsiyyət etdi.

Həcv ali ruhanilərdən heç kimə aman vermirdi, hətta papanın özünə də pay çatırdı. Kardinallardan hər birinin məlum zəif cəhətləri amansızlıqla və məzəli şəkildə masqaraya qoyulurdu. Həcv belə qurtarırdı: «Aretino ilə dostluq etməyə çalış, çünki ona düşmən olmaq təhlükəlidir. Bircə kəlmə sözlə o, hətta papanın özünü məhv edər, İlahi bizi onun dilindən qoru».

İZAHI

Kasıb başmaqçı oğlu xidmətçi Aretino qısa bir həcvlə şöhrət qazandı. Romada hamı gənc dəliqanlı ilə maraqlandı. Hətta belə cəsarətdən təəccüblənən papanın özü onunla görüşmək istədi və nəticədə ona papalıqda iş təklif etdi. İllər keçdikcə, Aretino «Kralların bəlası» adı ilə məşhurlaşdı, belə ki, bu dünyanın güclü adamları, Fransa kralından tutmuş Habsburq imperatoruna kimi hamı onunla hesablaşır və onun kəskin dilindən qorxurdular.

Aretinonun planı sadə idi: əgər sən David kimi kiçiksənsə və tanınmırsansa, öz Qoliafını tap və ona hücum et. Hədəfin nə qədər böyükdürsə, diqqəti bir o qədər çox cəlb edəcəksən. Hücum nə qədər cəsarətli olarsa, səni kütlədən bir o qədər çox ayırar, bir o qədər böyük heyranlığa layiq olarsan. Qiyamçı fikirlər çoxlarının başında dolaşır, ancaq onları nəşr etdirib hamının malı etməyə çox az adamın cəsarəti çatır. Özünə ən iri hədəfi seç və ona çox güclü atəş aç. Dünya mənzərədən məmnun olacaq və cəsuru – bu qədər kiçik olan səni şöhrət və hakimiyyətlə mükafatlandıracaq.

HAKİMİYYƏTİN AÇARI

Bizim əksəriyyətimiz utancaq, əl-ayağı bağlanmış vəziyyətdəyik. Biz münaqişələrdən qaçmağa can atır, hamıya xoş gəlmək istəyirik. Bəzən ağlımıza hünərli sözlər və hərəkətlər haqqında cəsarətli fikirlər gəlir, ancaq biz onları həyata keçirməyə heç vaxt cürət etmirik. Bizi baş verə biləcək nəticələr dəhşətə gətirir, ətrafdakıların haqqımızda nə düşünə biləcəkləri bizi vahimələndirir. Özümüzə ayrılmış çərçivədən kənara çıxmağa cəsarət edəcəyimiz halda, doğuracağımız düşmənçilik haqqında düşünürük.

Biz sözdə öz qorxaqlığımızı inkar etsək də, onu başqalarına qayğı, ətrafdakıları incitməmək və ya xətrinə dəyməmək kimi qələmə veririk, əslində isə hər şey tərsinədir: əslində biz özümüzə qapılmışıq və barəmizdə kənardan nə cür görünəcəyimizdən narahat oluruq. Ancaq əzmkarlıq mərkəzdənqaçandır, o, adamlara qol-qanad verir.

Bu qanunauyğunluğu adamları aldadıb yoldan çıxarmasını izləsək, adamları aldadıb yoldan çıxaran bütün böyük fırıldaqçıların həyasızlığın və utanmazlığın köməyi ilə uğur qazandıqlarının şahidi olarıq. Kazanov ələ keçirdiyi qadınlardan gücünü gizlətmirdi, bu güc onun ədasından, başdan çıxaran cəsarətli sözlərindən sezilirdi. O, qadınları, onların naminə hər şeyə qadir olduğuna, hətta öz həyatını təhlükəyə atmağa hazır olduğuna inanmağa məcbur edərək – həqiqətən bəzən bunu etməli olurdu – həm də onların qarşısında tam təslim olmağı da bacarırdı.

Kazanovun gözaltı etdiyi qadın hiss edirdi ki, bu kişi ona qarşı tam səmimidir, ondan heç nəyi gizlətmir. Bu, həmin qadını istənilən komplimentdən (xoş sözdən) müqayisəedilməz dərəcədə artıq aldadır. O, məftun edərək, heç bir halda tərəddüd və ya şübhə göstərmirdi – çünki sadəcə olaraq heç vaxt tərəddüd və ya şübhəni təcrübədən keçirməmişdi.

Məftunluq obyekti olmaq xoşdur, füsunkarlıq qismən elə hissdən ibarətdir ki, müvəqqəti olaraq öz «mən»inin hüdudlarından, bizim həyatımızı əziyyətə salan adi şübhələrin hüdudlarından kənara çıxanı çulğalayır və udur.

Şirnikləndirib yoldan çıxaranın tərəddüd etməsi kifayətdir ki, cazibədarlıq bir anın içərisində yox olsun, buna görə də,

hamımız olanları başa düşür, onun bizi tabe etməyə can atdığını görür, bütün səhvləri və yanlışlıqları anlayırıq. Qətiyyətlilik diqqəti yayındırır, xülyanı himayə edir. O, şübhə, yaxud peşmançılıq doğurmur. Biz cəsurlarla fəxr edirik, belə adamlarla bir sırada olmaq bizə xoş gəlir, çünki onların özlərinə inamı bizi yoluxur, bizi inamsızlıq və daimi təhliletmə aləmindən çəkib çıxarır.

Cəsarət anadangəlmə olmur. Hətta Napoleonun özünə də döyüş vərdişləri yaratmaq lazım gəlirdi, o, bunun özü üçün olum və ya ölüm işi olduğunu tezliklə başa düşdü. Dünyəvi həyatda, o, donuq və qorxaq idi, ancaq öz həyatının bütün sahələrində qətiyyətlilik yaradaraq özünə üstün gəldi, çünki xarakterin bu cizgisinin istənilən adama qüdrət verdiyini dərk etmişdi (hətta Napoleonun özü kimi boyca gödək olanlara da).

Sizə özünüzdə qətiyyətliliyi inkişaf etdirmək, öz cəsarətinizi məşq etdirmək lazımdır. Həm də siz tez-tez onun tətbiqinə yer tapacaqsınız. Başlamaq mümkün olan ən yaxşı sahə – incə danışıqlar – xüsusən sizə öz qiymətinizi bildirmək təklif olunan hallarda – sahəsidir. Çox vaxt, biz olduqca az şey istəyərək, döyüşsüz geri çəkilirik.

Xristofor Kolumb İspaniya kralından Amerikaya üzməyi maliyyələşdirməyi xahiş edərkən, həm də üstəlik özünə dəniz və okeanların Böyük Admiralı titulunun verilməsi kimi ağlagəlməz cəsarətli xahişlə müraciət etdi. Kolumba razılıq cavabını verdilər. O, xahiş etdiyi qiyməti aldı – özünə hörmət göstərilməsini tələb etdi, bu hörməti ona göstərdilər. Henri Kissincer də bilirdi ki, danışıqlarda cəsarətli tələblər, onun ətrafına dolaşmaqdan daha təsirlidir. Yüksək qiymət təyin edin, sonra isə qraf Lüstiq kimi onu qaldırın.

Bunu başa düşmək lazımdır: cəsarət bizə təbiətən anadangəlmə verilməmişdir, ancaq həmçinin qorxaqlıq da bizim təbii xüsusiyyətimiz deyildir. Bu, münaqişəyə girmək arzusunun olmamasından irəli gələn işlənib hazırlanmış vərdişdir. Siz qəti

döyüşlərin nəticəsindən qorxursunuz, həm də bu qorxu şişirdilmişdir, əslində isə qorxaqlığın nəticəsi bundan çox-çox acınacaqlıdır. Siz ləyaqətinizi itirir, şübhə və vicdan əzabının məntiqsizliyinə düşürsünüz. Yadda saxlayın: cəsarətli hərəkətlər nəticəsində meydana çıxan problemləri daha böyük cəsarət və qətiyyətin köməyi ilə həll etmək olar.

OBRAZ:

ŞİR VƏ DOVŞAN

Şir dolaşıq hərəkət etmir və heç nədən boyun qaçırmır – onun hərəkəti qətiyyətli, cəngi cəld və möhkəmdir. Qorxaq dovşan bütün üsullarla təhlükədən xilas olmağa çalışır, ancaq geri çəkilmək, izi itirmək və aradan çıxmaq cəhdləri ilə, o, tələyə düşür, yırtıcının birbaşa qurbanı olması üçün daldalı çəkilir.

MÖTƏBƏR FİKİR

«Hər halda mən hesab edirəm ki, hücum ehtiyatlılıqdan yaxşıdır, çünki bəxt qadındır, onunla yola getmək üçün onu döymək və təpikləmək lazımdır, işə süst girişməkdən daha artıq, o, bu şəkildə təslim olur. Qadın kimi o da cavanların dostudur, çünki cavanlar daha artıq ehtiyatsız və qoçaqdırlar, böyük cəsarətlə onu da ram edirlər».

Nikkolo Makiavelli

MEDALIN İÇ ÜZÜ

Qətiyyətlilik, inadkarlıq heç bir halda sizin bütün hərəkətlərinizi müəyyən edən strategiya olmamalıdır. Bu, münasib vaxtda tətbiq edilə bilən taktiki vasitədir. Hadisələrin

gedişini əvvəlcədən planlaşdıraraq və düşünərək, sizə uğur gətirəcək final epizodu kimi qətiyyətli hərəkət hazırlayın. Başqa sözlə: cəsarət şərti refleksdir, yalnız cəsarətə nəzarət etməyi və sizə zəruri olan vaxt ondan istifadə etməyi öyrənmək lazımdır. Yalnız həyasızlıqla silahlanaraq usandırıcı şəkildə həyat yolları ilə getmək olmaz, həm də o, yaxşı heç nə vəd etmir. Adətən öz cəsarətlərini (oxu: kobudluqlarını) idarə etməyi bacarmayanlara baş verən kimi, siz olduqca çoxlarını incik salarsınız. Belə şəxsin nümunəsi Lola Montes ola bilər: cəsarəti ona zəfərli qələbələr gətirdi, o, hətta Bavariya kralını yoldan çıxara bildi. Ancaq onun heç vaxt özünü saxlaya və cilovunu yığa bilməməsi hər dəfə – həm Bavariyada, həm İngiltərədə süqut etməsinin səbəbi olurdu. Onun cəsarəti və qətiyyəti amansızlığa, demək olar ki, ağılsızlığa bərabər idi. İvan Qroznıya da belə ifratçılıq xas idi: özünün qətiyyətli hərəkətləri ilə uğur qazanaraq, bununla kifayətlənmək bilmirdi, onun həyatı zorakılıq və işgəncə ilə dolu dəhşətdən ibarət idi.

Hakimiyyət krallığında qorxaqlığa yer yoxdur, ancaq bəzən onu yalandan təqlid edərək, uğur qazanmaq olar. Bu halda, əlbəttə, təvazökarlıq təhlükəli silaha çevrilir: siz sonra özünüzün qəti hərəkətlərinizlə güclü zərbə endirmək üçün qoyun rolunu oynayaraq, adamları aldadıb tora salırsınız.

İYİRMİ DOQQUZUNCU QANUN

HƏR ŞEYİ ƏN AXIRA QƏDƏR PLANLAŞDIR

QANUNUN MAHİYYƏTİ

Gördüyünüz işin başa çatdırılması hər şey deməkdir. Bu yolda işinizi, bütün mümkün nəticələri, maneələri, taleyin sərt dönümlərini nəzərə almaqla planlaşdırın ki, şöhrət başqasına qismət olmasın. Əgər hər şeyi incəliklərinədək nəzərə almısınızsa, şərait sizi sarsıda bilməz və siz nə vaxt dayanmaq lazım olduğunu biləcəksiniz. Uğura yüngülcə təkan verməklə, gələcəyi əvvəldən planlaşdırın, onu müəyyən etməyə kömək edin.

QANUNUN POZULMASI

1510-cu ildə Espanyola adasından (indiki Haiti və Dominikan Respublikası) gəmi yola çıxdı. O, Venesuelaya, mühasirədə olan ispan kolonistlərinə kömək etməyə yollandı. Gəmi limandan azacıq aralanmışdı ki, ərzaq ehtiyatı sandığından biletsiz adam çıxdı: bu əsil-nəcabətli ispan Vasko Nunyes de Balboa idi. O, Yeni Dünyaya qızıl axtarışına çıxmışdı, ancaq çox böyük məbləğdə borca düşmüşdü və borc verənlərdən gizlənmək üçün sandığa girməyə məcbur olmuşdu.

Kolumb öz səfərlərindən İspaniyaya qeyri-adi xəzinələr, hələ tapılmamış Eldorado ölkəsi haqqında hekayətlər gətirdiyi vaxtdan Balboa qızıl əldə etmək həvəsinə düşmüşdü. Balboa Kolumbun qızıl ölkəsini axtarmağa yollanan ilk macəra axtaranlarından biri idi. O, lap əvvəldən əmin idi ki, öz cəsarəti və məqsədinə çatmağa çalışmasının hesabına hökmən bu ölkəni tapacaqdır. İndi borcverənlərin əlindən sivişib çıxdıqdan sonra, onun qarşısını kəsən heç nə yox idi.

Bədbəxtlikdən gəminin sahibi, varlı hüquqşünas Fransisko Fernandes de Enkizo biletsiz sərnişin haqqında xəbər tutub qəzəbləndi və onu gəminin öz yolunda rast gələcəyi ilk adaya düşürtmək barədə sərəncam verdi. Ancaq hələ üfüqdə ada görünənə qədər Enkizo xəbər tutdu ki, onların kömək etməyə tələsdikləri koloniya artıq mövcud deyildir – kolonistlər onu tərk etmişlər. Balboa əlinə fürsət düşdüyünü anladı. O, dənizçilərə özünün Panamaya səfərləri, həmin diyarın qızılla zəngin olması barədə şayiələr haqqında danışdı. Vəcdə gəlmiş dənizçilər Enkizonu Balboaya həyat bəxş etmək və Panamada koloniya yaratmaq üçün dilə tutdular. Artıq bir neçə həftə sonra onlar yaşayış məskəni yaradıb, adını Darien qoydular.

Darienin birinci qubernatoru Enkizo oldu, ancaq Balboa başqalarına təşəbbüsü ələ almağa imkan verənlərdən deyildi. O, Enkizoya qarşı kampaniya başladı, nəticədə Enkizo dənizçilər tərəfindən vəzifəsindən kənarlaşdırıldı və canını qurtararaq,

İspaniyaya qaçdı. Bir neçə ay sonra İspaniya kralının rəsmi nümayəndəsi qanuni şəkildə Darienin qubernatoru vəzifəsini tutmaq üçün gəldikdə, onu sadəcə olaraq qəbul etmədilər. İspaniyaya geri qayıdarkən nümayəndə suda batdı. Bu bədbəxt hadisə idi, ancaq Balboa İspaniyada qatil və hakimiyyət qəsbkarı elan olundu.

Balboa həmişə özünün arsızlığı və hiyləgərliyi hesabına sudan quru çıxırdı, ancaq indi onun sərvət və şöhrət ümidləri, deyəsən, məhvə məhkum idi. Eldoradonu tapacağı halda, bu qızıl ölkəsində öz hüququnu elan etməsi üçün, ona İspaniya kralının icazəsini almaq lazım idi. Qanundan kənarda olaraq, icazə almağa heç ümid də etmək olmazdı.

Yaranmış vəziyyətdən yeganə çıxış yolu qalırdı. Panama hinduları Balboaya Mərkəzi Amerika bərzəxinin o biri üzündə yerləşən ucu-bucağı bilinməyən okean haqqında danışdılar. O, hindulardan həm də öyrəndi ki, əgər qərb sahili boyunca cənuba hərəkət edilərsə, qızılla zəngin olan əsrarəngiz «Biru» ölkəsinə – o, bu ölkənin adını belə eşitməmişdi – gedib çıxmaq olar. Balboa qərara aldı ki, Panamanın dəhşətli cəngəlliklərini kəsib keçəcək və ayaqlarını naməlum okeanda yuyacaq ilk avropalı olacaq, oradan da Eldoradoya yol tapacaqdı. Əgər o, bunu İspaniya adından etsə, kralın çox böyük təşəkkürünü alar və bağışlanardı.

Budur, 1513-cü ildə Balboa yola düşdü, onu yüz doxsan əsgər müşayiət edirdi. Bərzəxin yarısı keçildikdən sonra (yəni onlar təxminən 90 mil dərinliyə getmişdilər) cəmi 60 əsgər qaldı. Adamlar dözülməz şərait, qansoran həşəratlar, tropik leysanlar, qızdırma üzündən bir-birinin ardınca həlak olurdular. Nəhayət, dağın zirvəsində dayanmış Balboanın – ilk avropalının nəzərləri qarşısında Sakit okean dayandı. Bir neçə gündən sonra, o, öz yaraq-əhləsini çıxarmadan, başının üstündə Kastiliyanın bayrağını tutaraq, okeanın sularına çatdı və bu okeanın bütün dəniz, torpaq və adalarını İspaniya kralının mülkiyyəti elan etdi.

Yerli hindular Balboanı hədiyyələrlə – onun heç vaxt görmədiyi qızıl, daş-qaş, qiymətli mirvarilərlə salamladılar. Balboa bütün bu sərvətin haradan götürüldüyünü soruşduqda, hindular cənubu, inklər ölkəsini göstərdilər. Belə olduqda o, müvəqqəti Darienə qayıtmağı, qızıl və qiymətli daş-qaşı xoş məramın rəhni kimi İspaniyaya göndərməyi və Eldoradonu fəth etmək üçün köməyə böyük ordu istəməyi qərara aldı.

Balboanın bərzəxi igidliklə keçməsi, qərb okeanını kəşf etməsi və Eldoradonu axtarmaq planları haqqında xəbərlər İspaniya kralına çatdıqda, Balboa cinayətkardan qəhrəmana çevrildi. Onu dərhal yeni torpağın qubernatoru elan etdilər. Ancaq kral və kraliça Balboanın etdiyi kəşflər barədə xəbərləri alana qədər, onlar Pedro Arias Davila, «Pedrarias» adlı birisinin komandanlığı altında bir düjün (on iki) gəmini artıq göndərmişdilər. Ona, adam öldürməyə görə Balboanı həbs etmək və koloniyanın komandanlığını qəbul etmək əmr edilmişdi. Panamaya gələn Pedrarias Balboanın bağışlandığını bildi, o, bu yaxınlara qədər cinayətkar kimi təqib edilən adamla qubernatorluğu bölməli idi.

Balboa da özünə yer tapa bilmirdi. Qızıl onu yoldan çıxarmışdı, o yalnız Eldorado barədə düşünürdü. Bu məqsədinə çatmaq üçün, o, artıq dəfələrlə həyatını təhlükə qarşısına qoymuşdu, indi isə sərvət və şöhrəti yeni adamla bölmək, sadəcə olaraq dözülməz idi. O, tezliklə gördü ki, Pedrarias paxıl, ətiacı adamdır, belə vəziyyət onu da cana doydurub. Balboa üçün yenə də yeganə çıxış yolu təşəbbüsü ələ almaq, gəmi hazırlamaq üçün materiallar və alətlərlə birlikdə daha böyük ordu ilə cəngəlliklərdən keçməyi təklif etmək idi. O, Sakit okeanın sahillərinə çatıb, oradan inklər ölkəsinə yollanmağa və onu fəth etməyə imkan verən hərbi donanma yaratmağı təklif etdi. Pedrarias gözlənilmədən təklif edilən planla razılaşdı – ola bilsin, onu həyata keçirməyə sadəcə olaraq, ümid etmirdi. Keçilməz meşələrdən keçən ikinci yürüş zamanı yüzlərlə adam həlak oldu, gəmi qurmaq üçün onların apardıqları ağaclar isə arasıkəsilməz yağışlar üzündən çürüdü. Balboa həmişə olduğu kimi, mətin idi – dünyada heç bir qüvvə onu ən istəkli məqsədinə gedən yoldan döndərə bilməzdi. Sakit okeanın sahillərinə çıxaraq, o, xarab olmuş ağac ehtiyatını doldurmaq üçün ağac kəsməyə başladı. Ancaq sahilə onunla olduqca az adam gəlib çatmışdı, onlar hamısı üzülüb əldən düşərək, zəifləmişdilər. Balboa yenidən Darienə qayıtmağa məcbur oldu.

Pedrarias yeni planı müzakirə etmək üçün Balboanı geri qayıtmağa dilə tutdu. Koloniyanın girəcəyində tədqiqatçını onun köhnə dostu, bərzəxdən keçən birinci yürüşün iştirakçısı Fransisko Pisarro qarşıladı. Ancaq bu tələ idi: keçmiş dostu yüzlərlə əsgərlə Balboanı mühasirəyə aldı, onu tutaraq, Pedrariasın yanına gətirdi. Pedrarias onu qiyam təşkil etməkdə təqsirləndirdi. Bir neçə gün sonra Balboa ən sadiq tərəfdarları ilə birlikdə dar ağacından asıldı. Bir neçə ildən sonra Pisarro özü Peruya gedib çıxdı, Balboanın gördüyü işlər isə unuduldu.

İZAHI

Adamların əksəriyyəti ağlın diqtə etdiyini deyil, ürəyin hökmünü rəhbər tuturlar. Onların planları yayğın və çox geniş olsa da, meydana çıxan maneəni, improvizasiya edərək, hazırlıqsız dəf etməyə cəhd göstərirdilər. Ancaq hazırlıqsız iş görmək yeni böhran yaratmaqla yanaşı, bir neçə gedişi əvvəlcədən planlaşdırmağı, hər şeyi sona qədər ölçüb-biçməyi heç vaxt əvəz edə bilməzdi.

Balboa şöhrət və sərvət arzu edirdi, ancaq bunlara necə nail olmaq barədə təsəvvürü dağınıq idi. Çox az adam onun cəsur yürüşlərini və hətta Sakit okeanı kəşf etməsini xatırlamış olsa da, o, hakimiyyət dünyasında bağışlanılmaz olan səhvə yol verdi: yolun yarısını keçdi və qapını rəqiblər üçün açıq saxladı. Real hakimiyyətə malik olan adam təhlükəni – öz paylarını ələ keçirməyi istəyən rəqibləri, qızıl iyinə yığışıb gələn quz-

ğunları uzaqdan görə bilmək üçün kifayət qədər ehtiyatlı olmalı idi. Balboa inklər ölkəsi haqqında ona məlum olanları, özü Peruya gedib çıxana qədər ciddi şəkildə məxfi saxlamalı idi. Yalnız bu halda, onun başı və sərvəti üçün heç bir təhlükə yaranmazdı. Hökmlü və ehtiyatlı adam olan Pedrarias səhnədə göründükdə, onu tutmağı və ya öldürməyi əmr edər, Peruya yürüş üçün yığılmış orduya isə özü başçılıq edərdi. Ancaq Balboa uzağı düşünmürdü, hər şeyə emosional münasibət göstərir, xülyaya qapılırdı, gələcəyi ciddi planlaşdırmırdı.

Həm dünya şöhrəti, həm də bitib-tükənməz sərvət başqalarına qismət ola bilərsə, böyük arzuya malik olmağın nə xeyri? Heç vaxt çox geniş, axıra qədər formalaşmamış arzularda başınızı itirməyin – hər şeyi ən axıra qədər planlaşdırın.

QANUNA RİAYƏT EDİLMƏSİ

1863-cü ildə Prussiyanın birinci naziri Otto fon Bismark Avropada qüvvələrin yerləşməsini diqqətlə öyrəndi. Əsas qüvvələr İngiltərə, Fransa və Avstriya idi. Prussiyanın özü, zəif bağlılığı olan Almaniya İttifaqının tərkibinə daxil olan bir neçə subyektdən biri idi. İttifaqın aparıcı üzvü olan Avstriya qalan alman dövlətlərinin zəif, dağınıq və asılı vəziyyətdə qalmasına çalışırdı. Bismark Prussiyanın Avstriyanın buyruq qulu olmaqdan çox-çox yüksək taleyə malik olmasına inanırdı.

Bismark öz oyununu belə oynadı. Onun ilk gedişi, bir vaxtlar Prussiya torpağı olmuş Şlezviq-Qolşteyni qaytarmaq məqsədi ilə Danimarkaya müharibə elan etmək oldu. O, Prussiyanın müstəqilliyi haqqında bu cür gurultulu bəyanatın Fransa və İngiltərəni narahat edə biləcəyini bilirdi, buna görə də, o, geri qaytarılacaq Şlezviq-Qolşteyn torpağının Avstriyaya məxsus olacağını vəd edərək, Avstriyanın müharibədə iştirakına razılıq aldı. Bir neçə aydan sonra müharibənin taleyi müəyyən edildikdə, Bismark müharibə ilə alınmış torpaqların Prussiyanın

mülkiyyətinə keçməsini tələb etdi. Avstriyalılar, şübhəsiz, hiddətlərini bildirdilər, ancaq sonra güzəştə gedərək, Şlezviqi Prussiyaya verməyə, bir il sonra isə Qolşteyni satmağa razı oldular. Dünya ilk dəfə gördü ki, Avstriya zəifləyir, Prussiya isə güc toplayır.

Bismarkın növbəti addımı çox cəsarətli və qətiyyətli oldu: 1866-cı ildə o, Prussiya kralı Vilhelmi Almaniya İttifaqından çıxmağa, bundan sonra Avstriyanın özü ilə müharibəyə girməyə razı saldı. Kral Vilhelmin arvadı, oğlu vəliəhd və alman dövlətinin digər hakimləri bu müharibəyə qəti etiraz etdilər. Ancaq Bismark möhkəm idi, ortalıqda heç nə olmasına baxmayaraq, o, münaqişə törətməyə nail oldu. Nəticədə düşməndən üstün olan Prussiya ordusu amansız və qısa – yeddi günlük müharibədə avstriyalıları əzdi. Kral və Prussiya generalları hücumu davam etdirmək, qoşunları Vyanaya aparmaq və Avstriyanın mümkün qədər çox ərazisini ələ keçirmək istəyirdilər. Ancaq Bismark onları dayandırdı – bu dəfə o, sülhün tərəfində çıxış etdi. Nəticədə o, müqavilə imzalanmasına nail ola bildi. Bu müqavilənin şərtlərinə görə, Avstriya Prussiyaya və digər alman dövlətlərinə tam muxtariyyət verildi. Bismark bununla da, Prussiyanın, yeni yaradılmış Almaniya İttifaqına başçılıq etməyə qadir olan ən nüfuzlu qüvvə olmasını tanıtdırdı.

Fransa və İngiltərədə Bismarkın bütün Avropanı tutmağa hazırlaşması qorxusu barədə fikir söyləyərək, onu hunların başçısı Atilla ilə müqayisə etməyə başladılar. Onun işğal və fəthetmə yoluna daxil olub dayana bilməyəcəyini deyirdilər. Həqiqətən, üç il sonra, Bismark Fransa ilə qəsdən müharibə törətdi. Əvvəlcə elə görünürdü ki, Bismark Fransanın Belçikanı ilhaq etməsinə razılığını bildirsə də, son anda öz qərarını dəyişdi. O, siçan-pişik oyunu oynayaraq, Fransa imperatoru III Napoleonu özündən çıxmaq dərəcəsinə gətirdi və öz kralını Fransanın əleyhinə qaldırdı. 1870-ci ildə başlayan müharibə heç kim üçün sürpriz deyildi. Yaxın vaxtlarda təşkil edilmiş Almaniya İttifaqı Fransaya qarşı müharibədə iştirak etmək ide-

yasına ruh yüksəkliyi ilə yanaşdı və Prussiya hərbi maşını müttəfiqlərlə birlikdə düşmən ordusunu yenidən bir neçə ayın içərisində darmadağın etdi. Bismark hər hansı fransız ərazisinin ələ keçirilməsinin əleyhinə olsa da, generalitet (ordunun ali baş komanda heyəti) Elzas və Lotaringiyanın ittifaqın tərkib hissəsi olmasını təkid etdilər və Bismark bununla razılaşdı.

İndi bütün Avropa Bismarkın, Dəmir Kanslerin başçılığı ilə Prussiya əjdahasının daha nə edəcəyini qorxu içərisində gözləyirdi. Daha bir il keçdi və Bismark Almaniya imperiyasının əsasını qoydu, Prussiya kralına imperator tacı qoyuldu, Bismark isə knyaz oldu. Ancaq sonra anlaşılmaz hadisə baş verdi: Bismark müharibələrdən imtina etdi. Eyni zamanda, digər Avropa dövlətləri başqa qitələrdə müstəmləkə şəklində ərazilər tutarkən, o, Almaniyanın müstəmləkə iddialarını ciddi şəkildə məhdudlaşdırdı. Onun fikrincə, Almaniyaya artıq ərazilər tələb olunmurdu. Ən mühüm problem təhlükəsizlik problemi idi. O, həyatının sonuna qədər Avropada sülhün müdafiə edilməsi və müharibələrin qarşısının alınması uğrunda mübarizə apardı. Hamı qeyd edirdi ki, illər keçdikcə, onda heyrət ediləcək dəyişikliklər baş verirdi: o, yumşaq, müdrik olmuşdu. Onlar əsl səbəbi başa düşməmişdilər: bu, onun nəhəng planının sonuncu, final gedişi idi.

İZAHI

Adamların əksəriyyətinin hücum vaxtını heç vaxt düzgün seçə bilməməsinin sadə izahı vardır: onlar öz məqsədlərini dərk edə bilmirdilər. Əgər onlar qələbəyə nail olurlarsa, iştahaları coşur, şiddətlənir və getdikcə daha çox şey əldə etmək istəyirlər. Dayanmaq – konkret məqsədi müəyyən etmək və sonra ona doğru istiqamət götürmək lazımdır – bu ağlasığmaz, demək olar ki, qeyri-insani görünür. Ancaq hər halda bu lazımdır, başqa şey üçün deyil, məhz hakimiyyəti saxlamaq

üçün prinsipcə vacibdir. Öz qələbəsində həddindən artıq uzağa gedənlər, labüd olaraq onların tənəzzülünə aparan irtica doğururlar. Yeganə qərar uzunmüddətli planlaşdırmadır. Olimp allahları buludların arasından baxaraq, istənilən hadisənin nə ilə qurtaracağını əvvəlcədən bildikləri kimi, gələcəyi əvvəlcədən dəqiq və aydın görmək lazımdır.

Bismark siyasi karyerasının lap başlanğıcından bir məqsədə ümid bəsləyirdi: lider rolu Prussiyaya mənsub olan müstəqil Almaniya dövləti təşkil etmək. O, Danimarka ilə müharibəni ərazi tutmaq üçün deyil, Prussiyanın milli ruhunu qaldırmaq və ölkəni birləşdirmək üçün başladı. Avstriya ilə müharibə Prussiyanın müstəqilliyinə nail olmaq üçün lazım idi. (Məhz buna görə də, Bismark Avstriyaya məxsus olan əraziyə yiyələnməkdən imtina etdi.) Fransaya qarşı müharibənin də öz məqsədi var idi: alman dövlətini vahid düşmənə qarşı birləşdirməklə, vahid Almaniyanın birləşməsinə hazırlaşmaq.

Bu məqsədə nail olduqda, Bismark dayandı. Fateh rolu heç vaxt onu şirnikləndirib yoldan çıxarmırdı. O, gələcək fəthlərə səsləyən şeypurların aldadıcı çağırışlarının təsiri altına düşmürdü, cilovu əlində möhkəm saxlayırdı. Generalların, Prussiya kralının və xalqın yeni fəthlər tələb edəcəyi vaxt, həmişə bu əhval-ruhiyyədən çəkindirmək iqtidarında idi. Bismarkın çox diqqətlə planlaşdırdığı son nəticənin dəyərliliyini heç nə təhrif etməməli, hətta qarşıya məqsəd kimi qoyulan və nail olunan nəticənin hüdudlarından uzağa getməyə təhrik edən yalançı eyforiya belə, onun yaratdığının gözəlliyini korlamamalı idi.

Təcrübə sübut edir ki, gələcək hərəkətlərini əvvəlcədən ətraflı düşünən və götür-qoy edən şəxs, onların həyata keçirilməsi vaxtı çatdıqda, olduqca sürətli hərəkət edə bilər.

Kardinal Rişelye, 1585–1642

HAKİMİYYƏTİN AÇARI

Qədim yunanların etiqadına görə, allahlar gələcək hadisələri görmək iqtidarına malik idilər. Onlar baş verəcək bütün hadisələri xırda təfərrüatlarına qədər bilirdilər. Adamlara isə, taleyin qurbanları, indiki zamanın və öz emosiyalarının əsiri, onları hansı təhlükənin gözlədiyini əvvəlcədən bilməyə qabiliyyəti olmayanlar kimi baxılırdı. Uzağı görmək, hadisələri hesablamaq və gələcəyi planlaşdırmaq qabiliyyətinə malik olan Odissey kimi qəhrəmanlar taleyə meydan oxuyurdular və gələcəyi görmək qabiliyyətləri sayəsində allahlara bənzəyirdilər. Müqayisə indinin özündə də əhəmiyyətini itirməmişdir – hər şeyi əvvəlcədən götür-qoy edənlər və planlarını səbirlə həyata keçirməyə nail olanlar, bizə elə gəlir ki, ilahi hakimiyyətə malikdirlər.

Adamların əksəriyyəti həddindən artıq dərəcədə cari vəziyyətin təsiri altında olduqları üçün qabağı görmək, zövq almaq və gözlənilməz təhlükəyə etinasızlıq göstərmək qabiliyyəti təzahür etdirib, qüvvə kimi dərk edilərək, gələcəyi planlaşdırmaq halında olmurlar. Bu, baş verən hadisələrin yedəyində getmək təbii meylinə imkan verən hakimiyyətdir. Kənara çəkilərək, indiki bütün hadisələrdən kənara çıxan daha böyük hadisələri özü üçün təsəvvür etməyi öyrənmək lazımdır. Adamların əksəriyyəti inanır ki, gələcəkdə onları nəsə qəflətən yaxalaya bilməz, onlar hər şeyi əvvəlcədən düşünüb-daşınmağı və plan qurmağı bacarırlar. Bir qayda olaraq, onlar yanılırlar: əslində öz arzularının və özləri üçün təsəvvür etdikləri gələcəyin əsirinə çevrilirlər. Belələrinin planları qeyri-müəyyəndir, reallığa deyil, özlərinin fantaziyalarına əsaslanır. Çox güman ki, onlara elə gəlir ki, hər şey nəzərə alınıb və hesablanıb, ancaq əslində onlar özlərini arzularının gücü ilə aldadaraq, işin uğurla qurtaracağını təsəvvür edirlər.

E.ə. 415-ci ildə qədim Afinanın qoşunları Siciliyaya hücum etdi; afinalılar bu yürüşün onlara sərvət, hakimiyyət gətirəcəyini və altı il ərzində davam edən Poleponnes müharibəsini şərəflə qurtarmağa imkan verəcəyini hesab edərək, öz vətənlərindən bu qədər uzaq məsafədə olan əraziyə hücum etməyin təhlükəsi barədə düşünmürdülər. Onlar həm siciliyalıların öz ərazilərində var qüvvə və uğurla vuruşacağını, həm afinalıların bütün düşmənlərinin birləşəcəyini, həm də müharibənin hərbi ehtiyatlarını tükəndirərək çoxlu cəbhələrə yayılacağını nəzərə almırdılar. Siciliya ekspedisiyası tam məğlubiyyətlə qurtardı və bütün dövrlərin ən böyük mədəniyyətlərindən birinin dağılmasına gətirib çıxardı. Afinalıları bu faciəyə ağılları ilə deyil, ürəklərinin hökmü ilə idarəçilik gətirdi. Onlar qarşıda gözlənilən təhlükəni deyil, şöhrətin mümkünlüyünü görürdülər.

XVII əsrdə Fransada yaşamış, insan fikirlərinə nüfuz etmək bacarığı ilə şöhrət tapmış kardinal de Res bu nüfuzetmənin çox vaxt alt-üst olmasının səbəblərini öyrənir, hadisəni təhlil edirdi. 1651-ci ildə Fransa monarxiyası əleyhinə yönəlmiş üsyan zamanı gənc kral XIV Lüdovik və onun saray adamları qəflətən Parisi tərk edərək, paytaxtdan kənarda kiçik bir sarayda yerləşdilər. Kral lap yaxınlıqda olduğu vaxt üsyançılar bunu dözülməz yük hesab edirdilər, kral getdikdə, onlar çox böyük rahatlıq hiss etdilər. Ancaq bu, nəticədə onların süqut etməsinə səbəb oldu, çünki saray Parisdən kənarda manevr üçün xeyli artıq sərbəstlik əldə etdi. Sonralar kardinal de Res yazırdı: «İnsan yanılmasının və səhvlərinin ən çox rast gəlinən səbəbi, onların hazırkı vaxtda mövcud olan təhlükədən həddindən artıq qorxmaları və onları gələcəkdə gözləyənlərdən kifayət qədər qorxmamalarıdır».

Əgər biz uzaqdakı təhlükələri və onların necə olduğunu ayırd edə bilsəydik, çoxlu səhvlərdən xilas olardıq! Əgər çoxlu niyyət və planlarımız kiçik təhlükələrdən xilas olmağa kömək etməklə yanaşı, bizi daha ciddi təhlükələrə məruz qoyduğunu da dərk etsəydik, düşündüklərimiz bir an içərisində pozulardı. Hakimiyyət çox şeydə bizim etdiklərimizdən deyil, etmədiklərimizdən hər dəfə təkrar etdiyimiz və bizi bədbəxtçili-

yə qədər gətirib çıxaran tələsik və ağılsız hərəkətlərimizdən ibarətdir. Fəaliyyət göstərməyə başlamazdan əvvəl, hər şeyi təfərrüatına qədər götür-qoy edin, qeyri-müəyyən planların sizi çətinliklərə məruz qoymasına imkan verməyin. Bunun gözlənilməyən nəticələri olacaqmı? Yeni düşmənlərim meydana çıxacaqmı? Əməyimin nəticələri daha kiməsə faydalı olacaqmı? Pis sonluqlara nisbətən, yaxşı sonluqlar daha tez-tez rast gəlinirmi və özünüzə yaxşı sonluq gözləməklə, başınızın altına yastıq qoymayın.

Fransada 1848-ci il seçkiləri Adolf Tyerlə general Lui Ejen Kavenyak arasında mübarizəyə gətirib çıxardı. Tyer bu mübarizədə çox geri qaldığını dərk edərək, var qüvvə ilə çıxış yolu axtarırdı. O, əlacı böyük Napoleonun qardaşı nəvəsi, həmin vaxt parlamentin elə bir nüfuza malik olmayan keçmiş deputatı Lui-Bonapartda gördü. Bu Bonapart o qədər də nüfuzlu adam deyildi, hətta bir qədər ağıldan yüngül görünürdü, ancaq onun bircə adı, ölkədə güclü əldən ötrü darıxan seçiciləri cəlb edə bilərdi. Onu Tyerin əlində oyuncaq etmək, son nəticədə isə səhnədən götürmək olardı. Planın birinci hissəsini mükəmməl şəkildə yerinə yetirmək mümkün oldu. Napoleon seçkilərdə böyük üstünlüklə qalib gəldi. Problem Tyerin sadə şeyləri görə bilməməsində idi: «ağıldan yüngülün» ölçüyəgəlməz iddialara malik olduğu aşkar oldu. Üç ildən sonra o, parlamenti buraxdı, özünü imperator elan etdi, Tyerin və onun partiyasının daha böyük faciəsinə rəğmən, daha on səkkiz il Fransanı idarə etdi.

Sonluq – işin tacıdır, hər şeyi o müəyyən edir. Kimin şöhrət, pul, mükafat alması düşünülmüş kombinasiyanın məhz necə qurtarmasından asılıdır. Burada hesablamalarınız kristal kimi aydın və dəqiq olmalıdır. Həmçinin dadlı tikəni süfrənizdən qalanları əldə etmək ümidi ilə, göydə dövrə vuran quzğunları da necə qovmağı düşünmək lazımdır. Bundan başqa, siz improvizasiyaya başlamaq həvəsi yaradan çoxsaylı mümkün pozulmaları qabaqcadan görməlisiniz. Bismark bu təhlükə-

yə üstün gəldi, çünki böhranların təsiri altında öz yolunu dəyişməyərək, hər şeyi ən axıra qədər planlaşdırır və öz şöhrətini ələ keçirməyə heç vaxt heç kimə imkan vermirdi. O, nəzərdə tutulmuş məqsədə nail olub, başını zirehinin altına çəkən tısbağa kimi, kənara çəkildi. Bu cür özünə nəzarətə yarımallahların (qədim yunan və Roma əsatirlərində aşağı dərəcəli allahlar) gücü çatır.

Əgər siz bir neçə addımı qabaqcadan görürsünüzsə, öz gedişlərinizi ən axıra qədər planlaşdırırsınızsa, sizə bundan sonra həyəcan və ya improvizisiyaya meyl əzab verməyəcəkdir. Görmə qabiliyyətinin dəqiqliyi sizi bir çox müvəffəqiyyətsizliklərin ilk iki səbəbi olan həyəcan və qeyri-müəyyənlikdən xilas edər. Nəticəni görməyi öyrənin – onda siz məyusluq acısını dadmayacaqsınız.

OBRAZ:

OLİMP ALLAHLARI

İnsan işlərinə buludların arasından nəzər salınsa, faciələrə və bədbəxtliklərə aparan bütün böyük xülyaların və arzuların sonu əvvəlcədən görünür. Allahlar həm də bizim gələcəyi görmək qabiliyyətimizin olmamasını və bizim öz-özümüzü necə aldatmağımızı ələ salırlar.

MÖTƏBƏR FİKİR

«Tamam daxil olmamaq, çıxmaq üçün girməkdən məgər çox-çox asan deyilmi? Bir sözlə, heç bir vəchlə, əvvəlcə düz uzun gövdə uzadan, sonra isə yorulmuş və gücdən düşmüş kimi, özündə nə əvvəlki inadkarlığın, nə də qüvvənin qalmadığını göstərən, bir-birinə yaxın və möhkəm düyünlər bağlamağa başlayan qamışa bənzəmək lazım deyildir. Mümkün maneələri aradan qaldırmaq və başlanmış işi sona çatdırmaq üçün öz nəfəsini və coşğunluğunu qoruyaraq, işə sakit-

cə və soyuqqanlılıqla başlamaq çox düzgündür. Öz işimizə başlayaraq, biz ilk vaxtlar onları idarə edir və öz iradəmiz altında saxlayırıq, ancaq sonralar onlar artıq yerindən tərpəndikdə, onlar bizi idarə edir və bizi öz arxalarınca çəkib apardıqlarından, bizə yalnız izlə getmək qalır.»

Monten

MEDALIN İÇ ÜZÜ

Strategiyaçılara yaxşı məlumdur ki, plan özündə alternativ variantları birləşdirməli və o, çevik olmalıdır. Əgər siz öz planınıza həddindən artıq möhkəm bağlanmısınızsa, taleyin gözlənilməzliklərindən özünüzü itirərsiniz. Gələcək hadisələrin inkişaf variantlarını öyrənib və məqsəd seçib, alternativ variantlar haqqında düşünməlisiniz. Əgər məqsədə ən asan yolla deyil, dolayı cığırla getmək tələb olunursa, buna hazır olmalısınız.

Ancaq çoxları, özlərini, həddindən artıq müfəssəl planlaşdırmadan və çeviklikdən çox, daimi improvizisiya vərdişindən itirirlər. Beləliklə, bu qanunun əks tərəfini nəzərdən keçirməyin artıq mənası yoxdur, çünki ehtiyatlı olmaqdan və hər şeyi təfərrüatına qədər planlaşdırmaqdan imtina etməkdən yaxşı heç nə alınmayacaq. Əgər siz bütün variantları kifayət qədər aydın düşünür və hesablayırsınızsa, gələcəyin qabaqcadan müəyyən edilmədiyini başa düşərsiniz, deməli, çevik olmaq və uyğunlaşmağı bacarmaq lazımdır. Yalnız aydın, dəqiq məqsədə və gələcək plana malik olmaqla, uğur qazanmağa nail ola bilərsiniz.

OTUZUNCU QANUN

UĞURA NAİL OLARKƏN, SƏYLƏRİNİ GÖSTƏRMƏ

QANUNUN MƏZMUNU

Sizin hərəkətləriniz təbii və asanlıqla yerinə yetirilən görünməlidir. Sərf edilmiş əməyi və çəkilən əziyyətləri, eləcə də hiyləgər fəndləri bütünlüklə gizləmək lazımdır. Səyləri nəzərə çarpdırmadan hərəkət edin, özünüzü görəcəyiniz işlərin bundan çox-çox artıq ola biləcəyini göstərin. Ağır zəhmət çəkməyinizlə öyünməyə uymayın – bu, yalnız yersiz suallar doğurur. Fəndlərinizi heç kimə açmayın, əks halda, onlardan öz əleyhinizə istifadə edərlər.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

Tanoyu adlanan yapon çay mərasiminin kökü çox qədimlərə gedib çıxsa da, özünün çiçəklənmə dövrünə ancaq XVI yüzillikdə – onun çox məşhur pərəstişkarı və davamçısı Senno Rikyunun hesabına çatdı. Rikyu sadə ailədən çıxsa da, qüdrətli hökmdar Xideyoşinin təkcə sevimli çay mərasimi ustası deyil, həm də gözəllik və incəliklə, hətta siyasətə bağlı məsələlərdə onun müşaviri idi. Rikyunun uğurunun sirri hər şeyin təbii görünməsində, bu işin başa gəlməsinə sərf edilən səylərin baxışlardan gizlədilməsində idi.

Bir dəfə Rikyu öz oğlu ilə birlikdə çay mərasimi təşkil etmək üçün tanışının evinə getdi. Yolda oğlu müşahidə etdi ki, onların getdiyi evin girəcəyindəki çox gözəl qədimi formalı darvaza evə valehedici tənha görkəm verir. Atası oğluna cavab verdi: «Mənə belə gəlmir, dərhal aydın olur ki, onu bura uzaqdan, hansısa dağ məbədindən gətirmişlər, həm də onun gətirilməsinə çoxlu pul sərf edildiyi görünür. Əgər evin sahibi darvazanın qoyulmasına bu qədər qüvvə sərf edibsə, bu onun çay mərasimində öz əksini tapmaya bilməz». Həqiqətdə də belə oldu. Senno Rikyu mərasimi tez tərk etməli oldu, o, əzab çəkdiyini və cansıxıcılığını ev yiyəsindən gizləmək halında olmadı.

Başqa bir dəfə öz tanışının evində çay içərkən, Rikyu ev sahibinin bayıra çıxıb, qaranlıqda fanar işığında ağacdan limon dərib geri qayıtdığını gördü. Qonaq fikirləşdi: bəlkə də ev sahibinə elə gəlir ki, limonun ətri verilən yeməyin bəzəyi ola bilər və o, qeyri-iradi olaraq onun ardınca bağa düşməyi qərara aldı. Bu hərəkətin səmimiliyi Rikyuya valehedici göründü. Ancaq limon süfrəyə gec, düyü tortu ilə verildi. Rikyuya aydın oldu ki, hər şey əvvəlcədən düşünülmüş ssenari üzrə baş vermişdir – bahalı yeməyi bəzəmək üçün limonu doğramışlar. Ev sahibinin hərəkəti artıq səmimi görünmürdü. Qəfildən aydın oldu ki, ev sahibi özünün incə zövqünü nümayiş etdirmək

üçün var gücü ilə çalışmışdır. Hər şeyi başa düşən Rikyu, nəzakətlə tortdan imtina etdi və üzr istəyib xudahafizləşdi.

Qüdrətli hökmdar Xideyoşi çay mərasimi keçirmək üçün Rikyunun evinə qonaq getmək istədi. Onun səfəri ərəfəsində axşam bərk qar yağmağa başladı. Bacarıqlı və hər işdə çevik, ağıllı adam olan Rikyu evdən bağa düşən daş pillələrin hər birinin üzərinə dairəvi yastıq qoyub üstünü örtdü. Səhər açılmamış o, bağa çıxdı, qarın artıq kəsdiyini görüb, yastıqları ehtiyatla götürdü. Xideyoşi gələndə sadə gözəl görünüşdən – qarla əhatə edilmiş düzgün dairə formasında daş pillələrdən zövq aldı və qeyd etdi ki, bu nəzakətli ehtiram əlaməti ikiqat qiymətlidir, çünki o qədər təbiidir ki, qonağı, bunun ev yiyəsinə hansı zəhmətə başa gəldiyi fikrinə yönəltmir.

Senno Rikyunun ölümündən sonra onun ideyası çay mərasimlərinə güclü təsir göstərməkdə davam etdi. Böyük imperator İeyasunun oğlu Sequn Tokuqava Yorinobu Senno Rikyunun şagirdi və davamçısı idi. Onun bağında məşhur ustanın hazırladığı daş fanar quraşdırılmışdı, dayme (Yaponiya knyazı) Sakai Takadasu ondan soruşdu ki, daş fanarı görmək üçün onun qonağı ola bilərmi? Yorinobu cavab verdi ki, bunu şərəf sayardı və bağbanlara Sakai Takadasunun gəlişi üçün bağı qaydaya salmaq əmri verdi. Tanoyunun prinsipləri ilə tanış olmayan bağbanlara fanarın forması yanlış, onun deşikləri olduqca kiçik və dəbdən düşmüş göründü. Onların gətirdiyi yerli sənətkar fanarın deliklərini genişləndirdi. Səfərə bir neçə gün qalmış əyan Yorinobi bağı gəzdi. Genişləndirilmiş dəlikləri görüb bərk qəzəbləndi, o, fanarı eybəcər hala salıb, onun təbii görkəmini pozan və Sakainin gəlişinin məqsədini korlayan axmağı qılınc çəkib doğramağa hazır idi.

Özündən çıxmış Yorinobu sakitləşdi və vaxtilə iki fanar aldığını, onlardan ikincisinin Kişu adasındakı bağda olduğunu xatırladı. O, böyük məbləğdə pul verib balina ovlayan qayıq icarəyə götürdü və ən yaxşı avarçəkənləri işə cəlb etdi, iki günə fanarın ona çatdırılmasını əmr etdi, yumşaq desək, bu asan

tapşırıq deyildi. Ancaq dənizçilər gecə-gündüz avar çəkdilər, arxadan əsən külək də onlara kömək etdi və onlar vaxtında gəlib çata bildilər. Yorinobunun sevincinə rəğmən gətirilən fanar birincidən də gözəl çıxdı, axı o, iyirmi il bambuk kolluğunun içərisində toxunulmamış qalmış və zərif mamırla örtülərək, çox gözəl qəhvəyi-yaşıl rəngli qədimi paxır görkəmi almışdı.

Həmin gün axşam dayme Sakai gələndə, fanarı görüb heyran oldu – fanar onun gözlədiyindən də üstün oldu, bağın təbii elementi, ayrılmaz hissəsi kimi görünürdü. O, belə təəssürat yaratmaq üçün Yorinobuya nə qədər vaxt və səylər lazım gəldiyini heç təsəvvür də edə bilməzdi.

İZAHI

Senno Rikyu üçün gözəlliyin zirvəsi təbiiliyin və incəliyin gözlənilmədən, demək olar ki, təsadüfən təzahür etməsi idi. Bu gözəllik gözlənilməz olmaqla, onun heç bir səy tələb etməməsi görüntüsü yaranırdı. Təbiət bu cür şeyləri öz qanununa əsasən yaradır, ancaq adamların belə səmərəyə nail olması üçün çalışqanlıq və fərasət lazımdır. Əgər onlar nəticəyə nail olmağın hansı səylərə başa gəldiyini gizlədə bilmirlərsə, hər şey puça çıxar. Darvaza olduqca uzaqdan gətirilmişdi, doğranmış limon qeyri-təbii görünürdü.

Arzu olunan nəticəni əldə etmək üçün tez-tez fəndi və hiyləni işə salmaq – qarın üzərinə yastıqlar qoymaq, avarçəkənlərə bütün gecəni avar çəkmək – lazım gəlir. Ancaq sizin tamaşaçılarınız bütün bunların arxasında dayanan fiziki və ya intellektual işdən şübhələnməməli, bunları sezməməlidirlər. Təbiət öz fəndlərini bizə açmır, yüngül hiylə işlədilən və səylər tələb etməyən, təbiəti təlqin edən şeylər qüdrətinə görə təbiətin özünə yaxınlaşırlar.

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

Bir dəfə böyük artist Harri Qudini öz çıxışını «Mümkün olmayanın mümkünlüyü» adlandırdı. Əslində fövqəladə yoxolmanı görmək müyəssər olanlarda baş verənlərin insanın imkanları haqqında bütün ayıq təsəvvürlərlə ziddiyyət təşkil etdiyini bildirirdilər.

1904-cü ildə bir axşam Londonun 4000 sakini, indiyə kimi ixtira edilmiş qandalların ən möhkəmi elan edilən bir cüt qandaldan azad olmaq çağırışını qəbul edən Qudininin nə edəcəyini görmək üçün teatra gəldi. Bu qandallarda altı cüt qıfıl və hər manjetdə doqquz mexaniki cəftə var idi. Birminhemdən olan usta onların hazırlanmasına beş il vaxt sərf etmişdi. Ekspertlər etiraf edirdilər ki, heç vaxt bundan mürəkkəb, anlaşılmaz şey görməyiblər, onların fikrincə, qıfılların incə mürəkkəbliyi qaçmağı mümkünsüz edirdi.

Kütlə qandalları Qudininin biləklərinə ekspertlərin necə möhkəm bağladığını gördü. Sonra artist səhnədəki qara şkafın içərisinə girdi. Dəqiqələr gedirdi. Vaxt nə qədər çox gedirdisə, bu qandalların Qudininin ilk məğlubiyyəti olacağına daha az şübhə qalırdı. Bir qədər sonra Qudini şkafdan çıxdı və dedi ki, şkafın içərisi çox istidir, o, paltosunu soyunmaq üçün qandalları müvəqqəti çıxara bilərmi. Onun opponentləri bunun hiyləgər fənd, qıfılların nə cür işlədiyini müəyyən etmək cəhdi olmasından şübhələnərək, xahişi yerinə yetirməkdən imtina etdilər. Belə olduqda, Qudini əlləri ilə özünə kömək etmədən, paltonu çiyinləri üzərinə qaldırdı, sonra o, paltonun içərisində çevrildi, jiletinin cibindən dişləri ilə cib bıçağını çıxardı, başını hərəkət etdirərək, paltonu kəsdi. Bütün bunları, onun məharətindən və bacarığından vəcdə gələn, razılıqla səs-küy salan tamaşaçıların gözü qarşısında edən Qudini yenidən şkafın içərisinə girdi.

Nəhayət, tamaşaçıları kifayət qədər uzun müddət darıxdıran Qudini qandallardan azad olunmuş əllərini qalib kimi yuxarı

qaldıraraq, ikinci dəfə şkafdan çıxdı. Qudininin qandallardan necə azad olmasını bu günə qədər heç kim bilmir. Bu, onun bir saata qədər vaxtını alsa da, o, heç bir şeydə öz narahatçılığını hiss etdirmədi, şübhə kölgəsi də salmadı. Hər şey elə gedirdi ki, işin gərginliyini artırmaq, tamaşaçıların əsəblərini qıcıqlandırmaq üçün o, sanki vaxtı qəsdən uzadırdı – axı, hər şeydən göründüyü kimi, bu təcrübə onun üçün sadəcə olaraq, əyləncəli oyun idi. İstidən şikayət, aşkar şəkildə yalnız tamaşanın bir hissəsi idi. Qudininin bu və digər çıxışlarının tamaşaçılarına elə gəlirdi ki, o, sanki tamaşaçılarla oynayır: bu qandallar onun üçün heç nədir, mən onlardan çoxdan azad ola bilərdim, daha mürəkkəb qıfılları da açmaq mənim üçün asandır.

Sonralar Qudini «dəniz əjdahasının» (qismən səkkizayaqlı ilbizi, qismən də balinanı xatırladan varlıq) balzamlanmış bədəninə bağlandığı zəncirdən xilas oldu. O, çox böyük zərfin içərisinə girib onu möhürlədi, sonra isə kağızı cırmadan yoxa çıxdı. O, kərpic divarların arasından keçirdi. Yerdən yuxarı qaldırılaraq, dəli köynəyindən (coşğun dəlilərə geydirilən xüsusi paltar) sürüşüb yerə düşdü; körpüdən qollarında qandal və ayaqlarında zəncir buzlu suya tullanırdı. O, ağzına kimi su ilə doldurulmuş şüşə qabda əlləri arxasında bağlanmış vəziyyətdə suya batır, heyrətə gəlmiş tamaşaçılar nəfəslərini çəkmədən, onun suyun içərisində akvalanqsız bir saata yaxın azad olmağa necə cəhd etdiyini müşahidə edirdilər! Hər dəfə elə görünürdü ki, onun həyatı tükdən asılıdır, hər dəfə də o həyatını xilas edir və heyrətə gəlmiş auditoriya qarşısında əsl supermen kimi dururdu.

O, öz metodları və üsulları haqqında heç nə danışmır, bu və ya digər tryukların necə yerinə yetirilməsinə hətta işarə vurmurdu, – tamaşaçıları və tənqidçiləri müəmmalar içərisində çaşıb qalmağa məcbur edirdi, onların müəmmaları izah etməyə göstərdiyi nəticəsiz cəhdlər Qudininin ad-san qazanmasına və gücünün artmasına kömək edirdi. Şübhəsiz, ən çətin, mürəkkəb tryuk çəkisi on min fut olan filin tamaşaçıların gözü qarşısında yox olması idi. O, bu nömrəni demək olar ki, beş ay müddətində səhnədə təkrar etdi. Heç kim onun bunu necə etdiyini izah edə bilmirdi, çünki onun nömrə göstərdiyi zalda fili gizlətmək üçün sadəcə olaraq yer yox idi.

Öz tryuklarını yerinə yetirərkən, Qudininin göstərdiyi etinasızlıq, adamları, onun bədən üzərində hakim olmasına imkan verən o dünya ilə, okkultiv qüvvələrlə əlaqələrdə, fövqəlinsan psixi qabiliyyətinə malik olmaqda və s. şübhələnməyə məcbur edirdi. Ancaq alman artisti Kleppini elan etdi ki, Qudininin sirri ona məlumdur: o, sadəcə olaraq mürəkkəb texniki qurğudan istifadə edir. Kleppini həmçinin bildirdi ki, qandallardan azad olmaqda Hollandiyada onu ötmüş və qalib gəlmişdir.

Qudini onun metodlarının bütün mümkün fərziyyələrinə əhəmiyyət vermirdi, ancaq bu dəfə aşkar yalana dözə bilmədi və 1902-ci ildə qandal məsələsində Kleppinini duelə çağırdı. Kleppini razılaşdı və öz casusu vasitəsilə kombinasiyalı qıfılı olan fransız qandalının açılması kombinasiyasını öyrəndi. Onun məlumatına görə, Qudini məhz bu qandaldan istifadə etmək istəyirdi. Kleppininin planı özü üçün bir cüt belə qandal əldə etmək idi ki, bu da mexaniki cəftələrlə mübarizə aparmalı olan Qudinini özündən çıxarmalı idi.

Duel axşamı Kleppininin planlaşdırdığı kimi Qudini ona qandal seçməyi təklif etdi, o da bir cüt kombinasiyalı qandal seçdi. O, hətta bir dəqiqəliyə qandallarla şirmanın arxasına keçməyə, burada qandalları yoxlamağa macal tapdı və öz qələbəsinə əmin olaraq, yenidən tamaşaçılar qarşısında göründü.

Qudini özünü sanki hiyləni başa düşmüş kimi apardı və qandalları Kleppininin qollarına vurmaqdan imtina etdi. Artistlər mübahisə etdilər, birbaşa səhnədə bir-birini itələməyə başladılar və hətta dalaşdılar. Bu bir neçə dəqiqə davam etdi, sonra acıqlandırılmış və saçları pırtlaşmış Qudini təslim oldu və qandalları Kleppininin qollarına keçirdi. Kleppini azad olmağa cəhd etməyə başladı. Nəsə işləmədi – o, qandalları elə indicə

şirmanın arxasında açmışdı, indi isə yoxlanılmış kod işləmədi. O, tərlədi, baş sındırdı. Bir saat, iki saat keçdi, tamaşaçılar zalı tərk etdilər. Nəhayət, əldən düşmüş və alçaldılmış Kleppini təslim oldu və qandallardan azad olunmasını xahiş etdi.

Kleppininin «C-L-E-F-S» kod sözündən (fransızcadan tərcümədə «açar» mənasını verir) istifadə etməklə şirmanın arxasında özünün açdığı qandallar, indi yalnız «F-R-A-U-D» sözünün (fransızca «hiylə» mənasını verir) müqabilində bağlanıb açılırdı. Qudininin macal tapıb kodu nə vaxt və necə dəyişdirdiyini Kleppini başa düşə bilmədi.

İZAHI

Qudininin öz əlçatmaz tryuklarının böyük hissəsini necə yerinə yetirdiyini biz yəqinliklə bilməsək də, bir şey aydındır: orada okkultizmlə, eləcə də sehrkarlıqla heç bir əlaqə yox idi, Qudini öz mövqeyinə və qüdrətinə görə inadlı əməyinə və saysız-hesabsız məşqlərinə borclu idi, böyük artist bunların hər ikisini hamıdan gizlədirdi. Qudini heç vaxt təsadüfə, bəxtə bel bağlamırdı – o, gecə-gündüz müxtəlif qıfılların mexanizmlərini öyrənir, sirk fokusçularının və hoqqabazlarının qədim tryuklarını tədqiq edir, mexanikaya aid kitabları dərindən mənimsəyir, kara gələ biləcək heç nəyi buraxmırdı. Harri Qudini tədqiqatla məşğul olmadığı hər dəqiqədə öz bədənini məşq etdirərək, oynaqlarının ağlagəlməz çevikliyini saxlayır, əzələlərini idarə etməyi və nəfəsini tənzimləməyi öyrənirdi.

Qudininin karyerasının başlanğıcında, onunla birgə çıxış edən qoca yapon sirk ustası gənc artistə qədim tryuku – fil sümüyündən olan şarı udmağı, sonra isə geri qaytarmağı öyrətdi. Cavan oğlan ipə bağlanmış təmizlənmiş kiçik kartof dənəsindən istifadə edərək, bu tryuku daima məşq edirdi – o, hülqum əzələlərinin köməyi ilə kartof dənəsini udmağı və geri qaytarmağı öyrəndi, əzələlərini bu tryukun öhdəsindən sapsız gələ bilənə qədər möhkəmləndirdi. Londonda qandallarla olan şounun təşkilatçıları, tamaşa başlanmazdan qabaq Qudininin üst-başını axtardılar, ancaq onun qıfılları açmağa kömək edən miniatür alətləri gizlədə biləcəyi ağzına baxmaq heç kimin ağlına gəlmədi. Ancaq Kleppini hər halda möhkəm yanılmışdı: alətlər deyil, məşq, iş və tədqiqat Qudininin möcüzələrini mümkün etmişdi.

Qudini rəqibini barmağına doladı, bütün tamaşa onun dirijorluğu ilə oynanıldı. O, Kleppiniyə fransız qıfılının kodunu öyrənməyə şərait yaratdı, bundan sonra ona məhz bu qandalları seçməyə imkan verdi. Sonra uydurma qalmaqal yaradaraq, diribaş Qudini qıfılın kodunu dəyişməyə macal tapdı. O, bu tryukun yerinə yetirilməsi üzərində həftələrlə fasiləsiz məşq etdi, ancaq tamaşaçılar onun səhnə arxasında qalan tökdüyü təri görmədilər. Bununla bərabər, Qudini heç vaxt əsəbiləşmirdi, o, başqalarını əsəbiləşməyə məcbur edirdi (vəziyyəti gərginləşdirərək və tamaşaçıları həyəcan içində gözlədib yerlərində narahat oturmağa məcbur edərək, təhlükədən xilas olmaq üçün vaxtı qəsdən uzadırdı). Onun ölümlə oyunu həmişə incə və asan idi, ona supermen görkəmi verirdi.

Hakimiyyət adamı kimi sizə, adamların arasına çıxmazdan əvvəl daima axtarış aparmaq və çoxlu məşq etmək lazımdır. Sizin təmkininizin və inamınızın arxasında dayanan hədsiz səylərinizi kütləyə heç vaxt nümayiş etdirməyin. Bəzilərinə elə gəlir ki, bu cür səmimilik onların vicdanlı və qeyrətli olduğunu nümayiş etdirir, ancaq əslində bu onların zəifliyini nəzərə çarpdırır, – diqqəti belə bir fikrə yönəldir ki, bu qədər səy göstərməklə həmin nəticəyə istənilən adam nail ola bilər və ya onlar öz mövqelərinə uyğun deyildirlər. Səylərinizi və hiylələrinizi özünüzə saxlayın, hər şey allahların sizə səlisliyi və zərifliyi pay verməsi kimi görünməlidir. İlahi hakimiyyətin mənbəyi heç kimə məlum deyildir, hamı yalnız onun əməllərinin nəticəsini görür.

HAKİMİYYƏTİN AÇARI

Qüdrət haqqında ilk təsəvvürlər bəşəriyyətə təbiət qüvvələri – göydə ildırım çaxması, gözlənilməz daşqınlar, vəhşi heyvanın cəldliyi və yırtıcılığı ilə üzləşmədən gəlmişdir. Bu qüvvələri düşünmək lazım deyildir, onlar planlaşdırma tələb etmirlər – onların gücü qəfildən təzahür etməsində, harmonikliyində, həyat və ölüm üzərində hakimiyyətindədir. Bizim günlərdə də məhz bu tipli qüvvəyə malik olmaq daha cəzbedici görünür. Elmin və texnologiyanınköməyi ilə biz təbiətin təsvirini və dəhşətli qüdrətini yaradırıq, ancaq onu bütünlüklə edə bilmirik: maşınlar taqqıldayır və qırılır, gizlədilməsi mümkün olmayan böyük əmək tələb edirlər.

Hətta ustaların ən məharətliləri belə, səs-küysüz və səy göstərilmədən hərəkət edən şeylərin qarşısında heyranlığımızın kökünü kəsmək halında deyildir. Bizi uşaqların yedəyində getməyə məcbur edən hakimiyyəti, bizdən az refleksiv, çox zərif və qabiliyyətli varlıqların füsunkar cazibədarlığı ilə izah edilir. Biz bu vəziyyətə qayıda bilmirik, ancaq əgər bu cür təbiiliyi təqlid etməyə nail ola bilsək, ətrafdakılarda həmişə təbiətin insanda oyatdığı ibtidai hörmət doğurarıq.

Bu prinsipi şərh edən ilk Avropa yazıçılarından biri maksimal qeyri-təbii mühitə, İntibah dövrünün sarayına məxsus idi. Baldassare Kastilyone özünün 1528-ci ildə çap edilmiş «Saray xadiminin kitabı»nda əsl saray adamının fövqəladə dərəcədə incə və bütöv bir məcəllə təşkil edən adətlərini təsvir edir. Hər şeyə rəğmən, Kastilyone izah edir ki, saray xadiminin rəftarı «spezzatura» adlanaraq, sadə şeyə mürəkkəb görkəm vermək qabiliyyəti ilə fərqlənir. O, saray xadiminə «istənilən süniliyi gizlədən və danışılanları və ya edilənləri hamıya bildirən müəyyən təbii davranış, sadəlik və təbiilik bacarığına yiyələnməyi» təkidlə tövsiyə edir. Ustaların məharəti bizi heyran etsə də, yaradılan incəlik asan başa gəlməsi ilə fərqləndikdə, bu heyranlıq dəfələrlə artır, – «bu zaman... ağır səylərin

və qan-tərə batıncaya qədər işləməyin aşkarlığı cəzbediciliyi tamamilə aradan qaldırır və nə qədər qiymətli olmasına baxmayaraq, hər şeyi qiymətdən salır».

«Spezzatura» anlayışı incəsənətdən gəlmişdir. Bütün böyük sənətkarlar öz işlərini məxfi saxlayırdı, tamaşaçıların mühakiməsinə yalnız tam hazır olan sənət əsərləri təqdim edilirdi. Mikelancelo hətta Roma papasına necə işlədiyini müşahidə etməyə icazə verməmişdi. İntibah dövrü rəssamının emalatxanası həmişə həm tamaşaçılar, həm də himayədarları üçün bağlı idi: bu ideyanın oğurlanması qorxusu üzündən deyil, üzərində iş prosesi gedən zaman tamaşaçıların gördüyü sənət əsəri çox şey itirir: sehr, füsunkarlıq, düşünülmüş, diqqətlə yaradılmış sadə mühit və təbii gözəllik yoxa çıxır.

İntibah dövrünün rəssamı, eyni zamanda gözəl sənətşünas və ilk rəssamlıq tənqidçisi olmuş Vazari perspektiv qanununu pozan Paolo Uçellonu masqaraya qoyurdu. Onun fikrincə, Uçellonun rəsmlərində onun sərf etdiyi səylər həddindən artıq dərəcədə sezilirdi, – bu tabloları əzablı edirdi, onlarda kustar əməyi ilhamdan üstün idi. İşin hansı səylərə başa gəlməsini gizlətmək bacarığı olmayan icraçı, indi də həmin reaksiya doğurur: onun bəhərindən alınan bütün zövq, icraçının qüvvədən düşməsinin fonunda yox olur. Bu zaman əsərdən zövq almaq əvəzinə narahatlıq hiss olunur. Gərginliyi göstərməyən icraçılar, onların ustalığının əməyin deyil, hansısa təbii keyfiyyətinin nəticəsi olması barədə illüziya yaradaraq (hətta əslində birincilərin çəkdiklərindən az olmayan zəhmət çəkməli olsalar da belə), bizə dinclik, rahatlıq gətirir.

«Spezzatura» anlayışı hakimiyyətin istənilən formasına aiddir, çünki hakimiyyət az qala bütünlüklə sizin yaratdığınız görünüşdən və illüziyadan asılıdır. Sizin açıq çıxışlarınız sənət əsərləri kimidir – onlar parlaq, cəlbedici, hətta əyləncəli olmalıdır. Öz məhsulunuzun gizli mexanizminin üstünü açın – və siz dərhal adi adama çevriləcəksiniz. Başa düşülən şeylər mötəbər hisslər doğurmur – hərdən öz-özümüzə deyirik ki, bizdə

bu qədər pul və vaxt olsaydı, işin öhdəsindən daha yaxşı gələrdik. Necə yaratdığınızı nümayiş etdirmək həvəsinə uymayın, – öz sənətinizin mexanizmini gizləmək daha düzgündür.

Taleyran bu prinsipi həyatında hər gün tətbiq edirdi – və bu, onu hakimiyyət aurasının əhatə etməsinə kömək edirdi. O, heç vaxt həddindən artıq ağır iş görməyi sevmirdi, ancaq başqalarını özü üçün işləməyə – casusluğa, təhqiqat, müfəssəl təhlil aparmağa – məcbur edirdi. O, bu nəhəng işin nəticələrinə sahib olub, ən azı heç vaxt gərginlik içində olmurdu. Onun xəbərçiləri bu və ya digər hadisənin baş verəcəyini xəbər verdikdə, o, kübar məclislərində söhbət zamanı, həmin hadisənin hökmən baş verəcəyini qabaqcadan hiss etdiyinə işarə vururdu. Nəticədə onu gələcəyi görən bəsirətli adam hesab etməyə başladılar. Onun qısa və yığcam fikirləri, hazırcavablığı vəziyyəti həmişə tam və dəqiq xarakterizə edirdi. Ancaq onlar birdən, bədahətən deyilmirdi, ciddi tədqiqatların və düşüncələrin nəticələri idi. Napoleonun özü də daxil olmaqla, onu tanıyanların hamısına, Taleyran hüdudsuz hakimiyyətə malik adam təsiri bağışlayırdı, qüdrətlilik təəssüratı, ilk növbədə, onun öz fikirlərini həyata keçirməyə nail olduğu incəlik və zahirən asanlıqla başa gəlmə ilə şərtlənirdi.

İşlərinizin səhnəarxası tərəflərini gizləməyin arzuedilən olmasının başqa səbəbi də vardır: kənara sızan istənilən məlumat ətrafdakılar tərəfindən sizin əleyhinizə istifadə edilə bilər. Siz susmağın verdiyi üstünlükdən məhrum olursunuz. Bir qayda olaraq, biz istəyirik ki, dünya bizim nailiyyətlərimizdən xəbər tutsun, – biz öz şöhrətpərəstliyimizi məmnun etmək istəyirik, özümüzün məharətinə və ustalığına heyran qalmağa məcbur etmək istəyirik, hətta öz ağır əməyimizə, malik olduğumuz artistlik səviyyəsinə nail olmağa sərf etdiyimiz saatlara hüsn-rəğbət göstərilməsini arzu edirik. Cəfəngiyata olan bu meylə nəzarət etməyi öyrənin – yoxsa əks nəticəyə nail olarsınız.

Unutmayın ki, etdikləriniz nə qədər böyük sirlə əhatə olunmuşdursa, malik olduğunuz qüvvə bir o qədər qorxunc görü-

nür. Elə təəssürat yaradın ki, sizin etdiklərinizi, siz və yalnız siz yerinə yetirmək iqtidarındasınız, – qeyri-adi istedada malik adamın nüfuzu ölçüyəgəlməz dərəcədə yüksəkdir. Nəhayət, əgər siz planlaşdırdığınıza asanlıqla və incəliklə nail olursunuzsa, adamlar, çox səy göstərməklə daha böyük işlər görə biləcəyinizə inanarlar. Bu qorxu ilə qonşu olan heyranlıq doğurur. Sizin qüvvəniz tükənməzdir – heç kim onu axırına qədər ölçmək halında deyildir.

OBRAZ:

CIDIR ATI

Yaxınlıqda biz çaparın atı idarə etdiyi gərginliyi görür, ağır, kəsik-kəsik nəfəsi eşidirik. Tamaşaçıların atı müşahidə etdiyi uzaq məsafədən elə görünür ki, o, incəliyin və yüngüllüyün təcəssümü kimi havada uçur. Ətrafdakıları yaxına buraxmayın, ara məsafəsi gözləyin, bu zaman onlara sizin yalnız təbiiliyiniz görünəcəkdir.

MÖTƏBƏR FİKİR

Əgər iş, xırda olmağından asılı olmayaraq, asanlıqla yerinə yetirilirsə, bu, sadəcə olaraq, ustalığı göstərmir, həm də çox vaxt onu əslində olduğundan yüksək qiymətləndirməyə məcbur edir. Bu səbəb üzündən, müşahidəçilərə elə gəlir ki, güc sərf etmədən yaxşı işləyən adam böyük işlərə də qadirdir.

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

Öz hərəkətinizin əhatə etdiyi məxfilik, üslubuna görə laqeyd görünməlidir. Öz işinizi gizlətməyə can atmaq xoşagəlməz təəssürat yarada bilər, hətta sizin qeyri-normal ol-

mağınız haqqında da fikrə gətirib çıxarar: siz oyunu həddindən artıq ciddi qəbul edirsiniz. Qudini öz tryuklarının sirrini gizlədirdi, ancaq bunun, şounun vacib atributlarından biri olan müəmmalılıq oyunu kimi görünməsinə ciddi fikir verirdi. İşiniz başa çatmayana qədər onu göstərməyin. Əgər siz öz səylərinizi pərdə arxasına çəkməyinizi həddindən artıq nəzərə çarpdırırsınızsa, rəssam Pontormoya bənzəyərsiniz. O, həyatının son illərində öz freskalarını (divar naxışlarını) hamıdan elə səylə gizlədirdi ki, bu onu dəli etdi. Özünəistehzanın faydasını unutmayın, özünüzə yumorla yanaşın.

Elə hallar da olur ki, bu və ya digər layihə üzərində işləyərkən, öz «mətbəxinizi» hamıya bildirmək daha yaxşıdır. Hər şey auditoriyanın zövqü və həm də bunun üçün vaxtın düzgün seçilməsi ilə müəyyən edilir. P.T.Barnum bilirdi ki, onun tamaşaçılarına özlərini şou iştirakçısı hiss etmələri xoş gəlir, adamlara tryuku sınayıb bələd olmaq müyəssər olanda, onlar vəcdə gəlirlər. Belə ki, fırıldaqçıların – hakimiyyətinin mənbəyini kütlələrdən gizləyən adamların ifşa edilməsi Amerikanın demokratik ruhuna cavab verirdi. Tamaşaçılar şoumenin həm yumoruna, həm də səmimiliyinə rəğbət bəsləyir. Barnum bunu nəzərə alırdı və bu prinsipi son dərəcə mükəmməlləşdirmişdi. O, özünün populyarlığının zirvəsində olarkən, tryuklarının sirlərini açan tərcümeyi-halını nəşr etdirdi.

Sizin planlarınıza daxil olan və tamamilə nəzarət edilən, tryukların və metodların qismən açılması ustalığın yüksək təzahürüdür. Aysberqin böyük hissəsinin hələ də tamaşaçılardan gizli qalmasına baxmayaraq, bu onlarda üstünlük və iştirakçı olmaq illüziyası yaradır.

OTUZ BİRİNCİ QANUN

BÜTÜN VARİANTLARA NƏZARƏT ET: QOY SƏN PAYLADIĞIN KARTLARLA BAŞQALARI OYNASIN

QANUNUN MAHİYYƏTİ

Ən yaxşı hiylə sizin başqa adama sanki seçim imkanı verməyinizdir: bununla qurbanınızda azad seçim illüziyası yaranır və onlar sizin əlinizdə oyuncaq olur. Siz adamlara, onların üstün tutduğu, özünüzün isə qalib gəldiyiniz seçim imkanı verin. Onları iki əlverişsiz imkandan nisbətən yaxşısını, ancaq sizin məqsədlərinizə xidmət edəni seçməyə məcbur edin. Elə edin ki, seçim qarşısında hara əl atsalar, çıxılmaz vəziyyətlə rastlaşsınlar.

XVIII əsr fransız kurtizankası (yüksək zümrəyə mənsub yüngül əxlaqlı, macəraçı qadın) Ninon de Lanklo özünün həyat tərzində müəyyən məziyyətlər qazanmışdı. Zadəgan mənşəyinə (kral ailəsinə qədər) malik olan məşuqları onu yaxşı təmin edir, özlərinin hazırcavablıqları və intellektləri ilə onu əyləndirir, ən incə şəhvani arzularını yerinə yetirir və onunla bərabər səviyyədə davranırdılar. Elə görünürdü ki, belə həyat ərdə olmaqdan müqayisəedilməz dərəcədə xoş idi. 1643-cü ildə 23 yaşlı Ninonun anası qəflətən öldükdə, o, dünyada tamamilə tənha qaldığını dərk etdi, hiss etdi ki, dayağı olacaq nə ailəsi, nə sərvəti, nə də heç bir kəsi yox idi. Öz taleyinə görə onu qorxu hissi çulğaladı, təlaşa düşərək, özünün əsil-nəcabətli məşuqlarını unudub, monastıra getdi. Bir ildən sonra, Ninon monastırı tərk edib, Liona getdi. Nəhayət, 1648-ci ildə Parisə qayıtdıqda, məşuqları onun evinin qarşısına yığışmağa başladılar: onların sayı əvvəlkindən də çox idi – çünki Ninon həmin dövrün ən şux və hazırcavab kurtizankası şöhrətini qazanmış olduğundan, hamı onunla ünsiyyətdə olmağa can atırdı.

Ninonun pərəstişkarları tezliklə müşahidə etdilər ki, o özünün əvvəlki vərdişlərini dəyişmiş və yeni sistem yaratmışdır. Onun xidmətlərinin əvəzini ödəmək istəyən hersoqlara və şahzadələrə bunu etməyə imkan versə də, onlar heç də vəziyyətin ağası olmayaraq, Ninon onlarla yataqda olmağa razılığı ancaq özü istədiyi vaxtda edirdi. Əgər Ninon ayda bir dəfə yataqda olmaq istəyirdisə, onlar buna boyun əyməli olurdular.

Ninonun «un payeur» («tədiyəçi, ödəyici») adlandırdığı adam olmağı istəməyənlər, onun böyük və getdikcə artan «martyrs» («əzabkeşlər») qrupunda birləşirdilər. Bura onunla dostluq etmək, onun neştərli və iti ağlına heyran olmaq, həmçinin onun udda çaldığı musiqini dinləmək üçün gələn zəmanənin ən parlaq zəkalarından olan Molyer, Laroşfuko, Sent-Evremon onun görüşünə gələn kişilər sırasına daxil idi. Ancaq bütün «martyrs»lər də ümidlə yaşayırdılar: Ninon vaxtaşırı, olduqca mütəmadi şəkildə onların arasından özünə «un favori» – sevimli seçirdi və bu adam heç nə ödəmədən özünün müəyyən etdiyi: bir həftəyə, bir neçə aya, az hallarda isə daha uzun müddətə onun məşuqu olurdu.

Payeur heç vaxt favori ola bilməzdi, ancaq martyrs bu cür imkansız deyildi və xoşbəxt anı bütün həyatı boyu uğursuz da olsa gözləyə bilərdi. Məsələn, şair Şarleval heç vaxt Ninonun xüsusi rəğbətini qazanmamışdı, ancaq onun daimi qonağı olmaqda davam edirdi – o, Ninonla ünsiyyətdə olmadan keçinə bilmirdi.

Belə sistem haqqında şayiələr fransız elitasının qulağına çatdıqda, Ninon düşməncəsinə hücumlara məruz qaldı. Kurtizankanın belə mövqeyi kraliçanın və onun sarayının nüfuzuna toxunurdu. Ancaq kralın anasının dəhşətinə və qəzəbinə rəğmən, bu, pərəstişkarları qorxutmadı, əksinə, həm onların sayı, həm də həvəsi artdı. Payeur olmaq, Ninona yaşamaqda və çox gözəl salonunu saxlamaqda yardım etmək, bəzən onu teatra müşayiət etmək, əgər istəyərsə, onunla yataqda dərdləşmək əsl şərəf sayılmağa başladı. «Martyrs» rütbəsi daha artıq nüfuzlu idi – bu rütbəyə layiq görülənlər onunla ünsiyyətdən zövq alırdılar, bunun müqabilində isə heç nə ödəmir və dumanlı da olsa, gözəl günlərin birində sevimli olmağa ümid bəsləyirdilər. Bu ümid bir çox gənc zadəganları ruhlandırırdı – çünki məhəbbət sənətində Ninonu heç kimin keçə bilməyəcəyi barədə şayiələr gəzirdi. Belə ki, subaylar və ailəlilər, cavanlar və qocalar onun toruna düşərək, iki imkandan birini seçirdilər: bu imkanlardan hər hansı biri Ninonun maraqlarına çox gözəl cavab verirdi.

İZAHI

Kurtizankanın həyatı, ərli qadın üçün əlçatmaz olan hakimiyyəti mümkün edir, ancaq bu aşkar təhlükə ilə də bağlıdır. Kurtizankaya xidmətinə görə haqq ödəyən kişi, ürəyi istəyəndə ona sahib olur, habelə onunla əlaqəni kəsməyi özü həll edir. Kurtizankanın qocalmasına müvafiq olaraq, onu özləri seçən kişilərin sayı da azalır. Səfalətə yuvarlanmamaq üçün, belələri özünü hələ gənclik illərində maddi cəhətdən təmin etməlidir. Buna rəğmən, əfsanəyə çevrilmiş kurtizankaların acgözlüyü ən mühüm zərurəti əks etdirirdi. Ancaq bu, kurtizankanın cazibədarlığını azaldırdı: kişilər üçün vacibi, qadınların onları arzu etməsinə inamlarıdır. Lakin çox vaxt kurtizanka aşkar şəkildə pula maraqlı olur ki, bu da açıq-aşkar qorxuludur. Qocalmaqda olan kurtizankanın taleyinin ağır olması, bir qaydadır.

Ninon de Lanklo kimdənsə istənilən formada asılı olmaq haqqında fikirdən dəhşətə gəlirdi. O, öz məşuqları ilə bərabər vəziyyətdə olmağın bütün üstünlüyünü erkən dərk etmiş və qiymətləndirmişdi, onu bundan məhrum edə biləcək həyatla razılaşmaq istəmirdi. Qəribədir, Ninonun müəyyən etdiyi qayda, onun pərəstişkarlarını onun özündən az məmnun etmirdi. «Ödəyicilər» haqq ödəməkdən zövq alırdılar, özü də onlar bu zövqü, Ninonun yalnız özü istədiyi vaxt onları mükafatlandırmasını dərk etmələrindən alırdılar. Bu onlarda, başqa kurtizankalarla ünsiyyətdən ala bilmədikləri sevincli həyəcan doğururdu. Heç nə ödəməli olmamaları «əzabkeşlərdə» üstün olmaq fikri yaradırdı. Ninonun pərəstişkarları birliyinin üzvü kimi, hər halda onlar, bir dəfə onun «sevimlisi» olmağın ölçüyəgəlməz ləzzətini dada bilərdilər. Nəhayət, Ninon öz pərəstişkarlarını bu və ya digər kateqoriyaya daxil olmağa məcbur etmirdi. Onlar üstün tutduqlarını «seçə» bilərdilər, yəni sərbəst olurdular, sərbəstlik isə onların kişi qüruru illüziyasını saxlayırdı.

Adamlara seçim imkanı vermənin və ya demək olar ki, seçim illüziyasının da gücü belədir, çünki onlar sizin payladığınız kartlarla oynayırlar. Ninon istənilən variantda ona faydalı olan vəziyyət yaradırdı. «Ödəyicilərdən» ona salonu saxlamaq üçün zəruri olan pul çatırdı. «Əzabkeşlərdən» isə, o, öz hakimiyyətinin ən mühüm təşkiledicisini (ünsürünü) alırdı: o, özünü pərəstişkarlar kütləsi ilə, öz zövqünə uyğun məşuq seçdiyi hərəmxana ilə əhatə edə bilərdi.

Ancaq bu sistem çox mühüm bir amilə: uzaqlıqda olsa da, «əzabkeşin» sevimli olmaq imkanına əsaslanırdı. Sərvət, şöhrət və ya şəhvani arzuların təmin edilməsinin, gözəl günlərin birində göydən sizin qurbanınızın əlinə düşə bilməsindən ibarət olan illüziyadır, müqavimət göstərilməsi mümkün olmayan bu tələ yemi, sizin hiylə siyahınıza daxil edilməlidir. Bu ümid çox zəifdir, adamları ən ağılsız vəziyyətlərlə barışmağa məcbur edir, çünki onların öhdəsinə ən başlıca şeyi – arzulamaq imkanını buraxır. Gələcəkdə xoşbəxt təsadüfün ehtimal olunduğu seçim illüziyası, sizin parlayan torunuza hətta ən inadkar və hər şeyə şübhə ilə baxan sadəlövhlərin aldanıb düşməsinə kömək edir.

HAKİMİYYƏTİN AÇARI

«Azadlıq», «seçim» və ya «imkan» ifadələrinin məğzi həqiqətdə anladığımızdan çox-çox zəngin rifah özündə ehtiva edir. Əgər biz bazarda, seçkilər zamanı, işdə ixtiyarımızda olan seçim imkanlarını yaxından öyrənsək, bütün bunların hissediləcək dərəcədə məhdudluğunun şahidi olarıq. Daha çox yalnız A və B arasında seçim edirik, əlifbanın qalan hərfləri isə toxunulmaz qalır. Burada seçimlərin çoxluğu illüziyası bizi başdan çıxardığından, əldən çıxarılmış imkanlara nadir hallarda diqqət yetiririk. Biz oyunun düzgün aparılmasına və özümüzün sərbəst olmağımıza inamı «seçərək», özümüzün

seçim azadlığımızın əslində nədən ibarət olduğunu fikirləşməməyə üstünlük veririk.

Seçimimizin məhdudluğunun araşdırılması istəyi həddindən artıq azadlığın özünəməxsus narahatçılıq doğurması ilə izah olunur. «Qeyri-məhdud imkan» ifadəsi çox ümidlər verir, ancaq qeyri-məhdud imkanlar bizim seçim qabiliyyətimizi iflic edərdi. İmkanlarımızın məhdudluğu bizim üçün təsəlliverici̇dir.

Hiyləgər və bacarıqlı adamlara bu fırıldaqçılıq üçün hüdudsuz məkan yaradır. Alternativ seçim imkanı verilənlərin hiylə və aldatma obyekti olmalarına inanmaq çətindir. Sizin onlara cüzi miqdarda azadlıq verərək, öz iradənizi qəbul etdirdiyinizi görə bilmirlər ki, bununla da, sizin variantlarınızın diapazonu daralır. Bu, sizin fırıldaqlarınızın vacib hissəsi olmalıdır: əgər qəfəsə quşcuğazın özünün girməyinə nail olunarsa, o, çox-çox gözəl oxuyacaq.

Aşağıda «azad seçim üzərində nəzarətin» ən geniş yayılmış formaları göstərilir.

Variantların düzgün verilməsi. Bu, Henri Kissincerin sevimli metodu idi. Riçard Niksonun prezidentliyi zamanı dövlət katibi olarkən, Kissincer özünü bossundan daha məlumatlı hesab edir və bir çox hallarda, özünün daha düzgün qərar qəbul etməsinə inanırdı. Ancaq o, dövlət siyasətini müstəqil müəyyən etməyə cəhd etsəydi, öz qətiyyətsizliyi ilə tanınan prezidenti narazı salar və ya hirsləndirərdi. Buna görə də, Kissincer hər bir vəziyyət üçün ona üç-dörd hərəkət variantı içindən seçim etməyi təklif edirdi. Özü də bu variantları təqdim edərkən, başqa variantlarla müqayisədə, üstün variantda məsələnin ən yaxşı həlli açıq-aşkar nəzərə çarpırdı. Nikson həmişə, özünün Kissincerin istiqamətləndirdiyi yerə getdiyindən şübhələnməyərək, bir-birinin ardınca aldanıb tələyə düşürdü. Bu rəhbərin qətiyyətsizliyindən istifadə etməyin çox yaxşı üsuludur.

İnadkara təzyiq. Hipnoterapiyanın pioneri doktor Milton X. Eriksonun keçən əsrin 50-ci illərində rastlaşdığı əsas problemlərdən biri də residiv (təkrar) problemi idi. Onun pasientləri müalicə olunurdu, vəziyyətləri yaxşılaşırdı, ancaq onların müalicəyə meylliliyinin arxasında dərin müqavimət gizlənirdi: xəstələr ilk əlverişli halda əvvəlki adətlərinə qayıdır, doktoru bunda təqsirləndirir və onun qəbuluna gəlməyi dayandırırdılar. Erikson pasientlərə özlərini müalicəyə qədər olduğu kimi yenidən pis hiss etmələrini – sanki başlanğıc vəziyyətə qayıtmalarını əmr etməyə başladı. Belə zərurətlə qarşılaşan pasientlər, adətən təkrarlıqdan qaçmağı «seçirdilər» – bu da, əlbəttə, Eriksonun arzuladığı nəticəyə gətirirdi.

Bu metod uşaqlara və ziddiyyətli təbiətləri üzündən, onlardan tələb edilənin əksinə hərəkət etməyə can atan digər inadcıl adamlara tətbiq edildikdə, çox yaxşı nəticə alınır. Özünüzə əks cəhəti müdafiə etmək görkəmi verərək, sizə lazım olanların seçilməsinə təhrik edin.

Oyun meydançasının dəyişdirilməsi. 1860-cı ildə Con D. Rokfellerdə neft inhisarı yaratmaq niyyəti meydana çıxdı. Əgər o, daha xırda neft şirkətlərini satın almağa cəhd etsəydi, onun planı açıqlanar və ona qarşı çıxardılar. Lakin o, məqsədini aşkar etmədən, neftin daşınması ilə məşğul olan şirkətləri satın almağa başladı və əgər bu və ya digər neft şirkətini satın almağa cəhd edərkən, müqavimətlə razılaşardısa, həmin şirkətlərin dəmir yolundan asılı olmasını xatırlatması kifayət idi. Bu şirkətlərin neftini daşımaqdan imtina etməklə və ya sadəcə olaraq, daşıma qiymətini qaldıraraq, həmin şirkətlərin biznesinin iflasına nail ola bilərdi. Rokfeller qalaqurma etdi və ya başqa meydanda oynamağa keçdi: xırda neftçıxarma şirkətlərində yalnız onun istədiyi imkanların qalmasına nail oldu.

Siz bu üsulu tətbiq edərkən, rəqibləriniz özlərinə zorakılıq edildiyini bilirlər, ancaq bunun əhəmiyyəti yoxdur. Bu metod axıra qədər müqavimət göstərənlər və nəyin bahasına olursa-olsun, qələbəyə hazır olanlar üçün yaxşıdır.

Seçimin daralması. Sənət əsərləri ticarətçisi Ambruaz Vollard (XIX əsrin sonu) bu metoda çox yaxşı yiyələnmişdi. Müştərilər, Sezannanın yaratdıqları ilə maraqlanıb Vollardın mağazasına gəlirdilər. O, müştərilərə, sanki qiymətini deməyi unutduğu üç tablo göstərir və özünü mürgülülüyə vururdu. Alıcılara seçim etmədən getməkdən başqa bir şey qalmırdı. Bir qayda olaraq, onlar rəsmlərə yenidən baxmağı arzu edərək, ertəsi gün geri qayıdırdılar, ancaq bu dəfə, Vollard, daha az maraqlı işləri təqdim edərək, özünü elə göstərirdi ki, sanki bu rəsmləri dünən də göstərib. Çaşbaş qalmış müştərilər yeni təklifi öyrənir, onu götür-qoy etmək üçün yenidən gedir və yenidən qayıdırdılar. Həmin mənzərə yenə də dəfələrlə təkrar olunurdu: Vollard daha az əhəmiyyətli tablo göstərirdi. Nəhayət, alıcılar başa düşürdülər ki, olan rəsmi götürmək lazımdır, yoxsa o sabah daha pisini sırıyacaqdır, özü də daha yüksək qiymətə.

Bu metodun modifikasiyası – alıcının tərəddüd etdiyi və qərar qəbul etməyi sabaha saxladığı hər dəfə qiyməti qaldırmaqdan ibarətdir. Bu patoloji qətiyyətsiz adamlarla ticarət üçün çox gözəl fənddir. O, müştərilərin sabah bu günkündən yaxşı ticarət edə biləcəyi haqqında təsəvvürlərini dağıdır.

Zəif adam. Zəiflərin imkanlarına nəzarət edərək, onlara hiylə gəlmək hər şeydən asandır. Böyük provokator (araqarışdıran) kardinal de Res (XVII əsr) həddindən artıq dərəcədə qətiyyətsiz olan Orlean hersoqunun qeyri-rəsmi köməkçisi kimi xidmət edirdi. Hersoqu hansısa bir addımı atmağa inandırmaq üçün daima mübarizə aparmaq lazım gəlirdi – o, variantları hesablayaraq tərəddüd edir, yaxın adamlarını özündən çıxmaq vəziyyətinə gətirərək, işi həddindən artıq uzadırdı. Ancaq Res hersoqa yol tapdı: o, bütün mümkün təhlükələri kifayət qədər şişirtməklə, ona təsvir edir, bir yoldan başqa, digərlərində hersoqa açıq uçurumlar görünürdü ki, təhlükəsiz görünən həmin yola da kardinal hersoqu sövq edirdi.

Bu taktika «variantların ayrılmasına» bənzəyir, ancaq zəiflərə qarşı təcavüzkar olmaq lazımdır. Onların emosiyalarına təzyiq edin – bu həyəcan, dəhşət yaradacaq, nəhayət onları fəaliyyətə təhrik edəcəkdir. Onların idrakına müraciət etməyi sınayın – həmişə canlarını qurtarmağa yol tapacaqlar.

«Saxtalaşdırıcılar». Bu fırıldaqçıların klassik metodudur: siz öz qurbanınızı hansısa cinayətkar əmələ cəlb edərkən, bu sizi onunla tökülən qanda və ümumi təqsirdə birləşdirir. Sadəlövh insan sizin hiylənizdə iştirak etməklə, cinayətin iştirakçısı olur ki, bundan sonra (və ya baş verənin nə olduğunu fikirləşir, – bax: Sem Cizilin hekayəti, Üçüncü Qanun), ona hiylə gəlmək asanlaşır. 1920-ci illərin məşhur fransız fırıldaqçısı Serj Staviski öz hiyləsinə və fırıldağına Fransa hökumətini də cəlb etmişdi. Lakin onu məhkəməyə verməyə cəsarət etmədilər və sakit buraxmağı üstün tutdular. Ən ağıllı yol – məhz sizin üçün ən təhlükəli olan adamı hiylə ilə cinayətdə iştirakçılığa cəlb etməkdir. Cinayətdə onun iştirakı hətta minimal olsa belə, onun hansısa əməldə əlinin olmağına yüngülcə işarə vurulması, onun əl-qolunu bağlayır və susmasını təmin edir.

Hiylə dilemması. (Dilemma – iki mümkün qərar və ya nəticədən birini qəbul etmə məcburiyyəti). Bu ideyanı Amerikada Vətəndaş müharibəsi zamanı general Şermanın Corciyadan keçən yürüşü nümunəsində izah etmək olar. Konfederatların ordusu Şermanın hərəkət istiqamətini bilsə də, onun soldan və ya sağdan hücum edəcəyini heç kim heç vaxt bilmirdi. Məsələ onda idi ki, o, ordunu iki cinaha bölmüşdü, əgər üsyançılar bir cinaha hücum etsəydilər, dərhal onlara o biri cinah hücum edirdi. Bu hüquqşünasların məhkəmədə tətbiq etdikləri klassik metoddur: hüquqşünas şahidləri hadisənin ehtimal olunan iki izahından birini seçmək zərurətinə çatdırırdı, bu versiyaların hər birində onları ifşa etmək mümkün idi. Onlar hüquqşünasın suallarına cavab verməli olsalar da, nə desələr, öz əleyhlərinə

çevrilirdi. Bu metodda əsas yeyinlik və təzyiqdir: qurbana özünə gəlməyə və aradan çıxmağa imkan verməyin. Hiylə dilemması arasına düşərək, onlar özləri özlərinə qəbir qazırlar.

Başa düşün: rəqiblərinizlə mübarizədə sizin tez-tez onlara ziyan vurmağınız zəruri olur. Əgər bu zaman bəla mənbəyinin sizin olduğunuz məlum olarsa, əks-hücumu gözləyin – intiqama hazırlaşın. Ancaq öz uğursuzluqlarının səbəbkarının özlərinin olması onların daha itaətlə əlaqə saxlayacaqlarına gətirib çıxaracaqdır. Məhz buna görə də, həmişə ən yaxşısı, öz qurbanınızın zəhəri özünün seçməsinə imkan yaratmaq və bunda öz iştirakınızı gizlədərək, zəhəri tamamilə onların ixtiyarına verməkdir.

OBRAZ:

ÖKÜZ BUYNUZU

Öküz öz buynuzları ilə – qoruna biləcəyiniz bir buynuzu ilə deyil, sizi tələ kimi arasına alan bir cüt buynuzu ilə küncə sıxışdırır. Sağa və ya sola qaçsanız da, hara hərəkət etsəniz də, onların iti uclarına keçəcəksiniz və onlar sizi dəlib keçəcəkdir.

MÖTƏBƏR FİKİR

«İnsanın könüllü və ya öz seçimi ilə özünü düçar etdiyi əzab və bəla, hər bir halda, başqalarının onu buna düçar etməsindən müqayisəedilməz dərəcədə az ağrılıdır».

Nikkolo Makiavelli

MEDALIN İÇ ÜZÜ

Seçimə nəzarət etmək imkanı bir əsas məqsədə: idarə etmək və cəzalandırmaq hakimiyyəti haqqında malik olduqlarınızı gizlətməyə xidmət edir. Bu metoda, hakimiyyəti çox da möhkəm olmayanlar, açıq fəaliyyət göstərə bilməyənlər, risq etmədən şübhə, narazılıq və həyəcan doğuranlar müraciət edir. Həm də, nə qədər güclü olsanız da, məşhurluğunuz zorakılıq tətbiq etməklə birbaşa fəaliyyətə çətin ki, kömək edə bilsin. Adətən adamlara imkanın seçilməsi illüziyasını vermək daha nəzakətli və daha təsirlidir.

Ancaq ətrafdakıların seçim imkanını məhdudlaşdırmaqla, siz, həm də öz imkanlarınızı məhdudlaşdırırsınız. Elə hallar olur ki, sizin üçün ən yaxşısı, rəqibə seçim üçün variantların geniş diapazonunu verməkdir: onların necə fəaliyyət göstərdiyini müşahidə edərək, siz casusluq edə, informasiya toplaya və bunlardan asılı olaraq, öz planlarınızı qura bilərsiniz. XIX əsr bankiri Ceyms Rotşild bu üsulu sevirdi: o, hesab edirdi ki, rəqiblərinin hərəkətlərini idarə etmək və strategiyasını öyrənməklə öz fəaliyyətini daha səmərəli planlaşdırır. O, rəqiblərinə qısa müddətə nə qədər çox sərbəstlik verirdisə, onların nəticələrini bir o qədər möhkəm sıxmağa nail olurdu.

OTUZ İKİNCİ QANUN

ADAMLARIN FANTAZİYASINDAN İSTİFADƏ ET

QANUNUN MƏZMUNU

Acı və xoşagəlməz olduğu üçün həqiqətdən çox vaxt qaçırlar. Əgər siz xülyaların dağılması üzündən qəzəbin kükrəməsinə hazır deyilsinizsə, heç vaxt həqiqətə və reallığa müraciət etməyin. Həyat elə sərt və kədərlidir ki, romantik fantaziyalar yaratmağa qadir olan adamlar səhradakı vahəyə (su və yaşıllıq olan yerə) bənzəyir: adamlar ona can atırlar. Kütlənin xülyalarına rəhbərlik etmək – böyük hakimiyyətə malik olmaq deməkdir.

QANUNA RİAYƏT EDİLMƏSİ

Venesiya şəhər-dövləti o qədər uzun müddət ərzində çiçəklənmə dövrü keçirdi. Şəhərlilər onların kiçik respublikasına taleyin xeyirxahlığını açıqdan-açığa hiss etdilər. Orta əsrlərdə və sonralar, İntibah dövründə Venesiyanın Şərqlə ticarətdə, demək olar ki, inhisarçı hüququ, onu Avropanın çox varlı şəhərinə çevirdi. Əlverişli respublika idarəçiliyi vaxtı, venesiyalılar, İtaliyanın digər sakinlərinə, az qala yad olan azadlıqlardan zövq alırdılar. Ancaq XVI əsrdə birdən-birə tale onlardan üz döndərdi, Yeni Dünyanın kəşf edilməsi ilə üstünlük Avropanın Sakit okeanı sahili ölkələrinə – İspaniya və Portuqaliyaya, sonralar isə Hollandiya və İngiltərəyə keçdi. Venesiya iqtisadi rəqabətə davam gətirə bilmədi, onun əzəməti tədricən söndü. Türklərin 1570-ci ildə ələ keçirdiyi Aralıq dənizi mülklərinin – Kipr adasının itirilməsi sonuncu zərbə oldu.

Venesiyada əsilli-nəcabətli ailələr var-yoxdan çıxır, maliyyə sistemi dağılırdı. Venesiyalılar özlərinin çox gözəl keçmişindən xəbərdar idilər – bəziləri həmin gözəl günləri görmüş, başqaları bunu böyüklərin söhbətlərindən eşitmişdi. Şöhrətli günlərin yaxın keçmişdə olması həqarət kimi qəbul edilirdi. Venesiyalılar bəxt ilahəsinin zarafat etmək istəyərək, onlardan müvəqqəti üz döndərdiyinə, keçmiş günlərin tezliklə geri qayıdacağına, demək olar ki, inanırdılar. Ancaq nə qədər ki, həmin zaman gəlməmişdi, onlar heç nə edə bilmirdilər.

1589-cu ildə çox bilikli kimyagər, ölçüyəgəlməz dərəcədə çox böyük sərvət sahibi, deyilənə görə, sirli maddənin köməyi ilə qızıl almağı bacaran Bragadino adlı müəmmalı adamın gəlməsi haqqında Venesiyada şayiələr gəzdi. Şayiə çox tezliklə bütün şəhərə yayıldı, belə ki, bir neçə il əvvəl, venesiyalı bir zadəgan Polşadan keçərkən, yerli alimlərin birindən belə uzaqgörən fikir eşitmişdi: əgər Venesiya kimyagərlik elminin köməyi ilə qızıl almağı bacaran adam tapmağa müvəffəq olsa,

özünün keçmiş şöhrətini və hakimiyyətini qaytara bilər. Buna görə də, Bragadinonun kimyagərliklə qızıl əldə etməsi barədə xəbər Venesiyaya çatan kimi (o, daima əllərində parıldayan qızıl pullar oynadırdı, onun sarayı isə müxtəlif qızıl əşyalarla ağzına qədər dolu idi), çoxları düşünməyə başladı ki, onun köməyi ilə şəhər yenidən firavanlığa çıxacaq.

Ən adlı-sanlı venesiyalılar bir yerə toplaşaraq, birlikdə Bragadinonun yaşadığı Breşiyaya yollandılar. Onları sarayda gəzdirdilər, sonra Bragadino quruyub qalmış qonaqlara öz istedadını ehtiramla nümayiş etdirdi: hansısa minerallardan (adi daş şəklində olan) bir ovuc götürərək, onları bir neçə unsiya parıldayan qızıl tozuna çevirdi. Venesiya senatında Bragadinonu şəhərin hesabına Venesiyaya rəsmən dəvət etmək təklifini müzakirə etməyə hazırlaşırdılar. Bu zaman məlum oldu ki, Mantui hersoqu da bunu etməyə hazırlaşır. Bragadinonun öz sarayında hersoqun şərəfinə təşkil etdiyi dəbdəbəli və cah-calallı qəbul haqqında danışır, qızıl düyməli paltarını, qızıl saatını, qızıl qab-qacağı və buna bənzər başqa şeyləri xatırladırdılar. Bragadinonu əldən verə biləcəklərindən narahat olan senatorlar, onun həyatını gözəl təmin etmək üçün, dərhal gəlməsi şərtilə, ağlagəlməz dərəcədə çoxlu pul vəd edərək, onu Venesiyada yaşamaq üçün dəvət etməyə yekdilliklə səs verdilər.

Müəmmalı Bragadino tezliklə Venesiyaya gəldi. Onun qara qalın qaşları altından parıldayan iti baxışlı qara gözləri, hər yerdə onun yanında olan iki çox böyük mastif qüdrət və təkəbbürlülük təəssüratı yaradırdı. O, Qvidekka adasında çox qəşəng sarayı özünə iqamətgah seçdi. Onun qəbullarının, bahalı paltarlarının və bütün istədiklərinin xərcini respublika ödəyirdi. Venesiyanı kimyagərlik azarı çulğadı. Küçələrin tinlərində kömür, distillə aparatları, havavuran tuluqlar, kimyagərliyə aid traktatlar (elmi əsərlər) satılırdı. Hər kəs kimyagərlik təcrübəsi ilə məşğul idi, təkcə Bragadinodan başqa.

Elə görünürdü, kimyagər qızıl istehsalına başlamaq və Venesiyanı xilas etməyə tələsmir. Qəribə olsa da, bu onun pərəstişə qədər çatan populyarlığını artırırdı. Məşhur adamı görməyi arzu edənlər bütün Avropadan və hətta Asiyadan axışıb gəlirdilər. Aylar keçirdi, hər tərəfdən Bragadinonun üzərinə hədiyyələr yağırdı. Ondan sadəlövhlüklə gözlənilən, Venesiyanı keçmiş yüksəkliyə qaldıracaq möcüzədən, hələ də, heç bir əlamət görünmürdü. Nəhayət, onun nə vaxt işə başlayacağını sual edərək, səbirsizlik təzahür etdirməyə başladılar. Əvvəlcə senatorlar onu tələsdirməməyi xahiş etdilər, – şeytanın özü kimi şıltaq olan kimyagərin qılığına girmək lazımdır. Ancaq zadəganlar da narahat oldular və şəhərin çəkdiyi çox böyük xərcin özünü necə doğrultduğunu göstərməyi tələb etdilər.

Bragadino şübhə edənlərlə çox yuxarıdan danışdı, ancaq onları öz cavabı ilə şərəfləndirdi. O, məlumat verdi ki, şəhərin sikkəxanasında qızıl almaqda istifadə etdiyi müəmmalı substansiyanın (maddənin) xeyli hissəsi artıq yerləşdirilmişdir, bütün substansiyadan (maddədən) bir dəfəyə istifadə edərək, ilkin substansiyadan iki dəfə artıq miqdarda qızıl ala bilər. Ancaq proses nə qədər ləng gedərsə, bir o qədər çox qızıl almaq olar. Əgər prosesin gedişinə yeddi il mane olunmasa, əldə ediləcək qızılın çəkisi substansiyanın ilkin miqdarından ən azı 30 dəfə artıq olar. Bir çox senatorlar Bragadinonun dediyi qədər gözləməyə hazır idi. Ancaq başqaları qəzəbləndilər: özünə heç nədə məhdudiyyət qoymayaraq, onların hesabına yeddi il yaşayacaq bu cənaba daha yeddi il dözmək! Venesiyanın sıravi vətəndaşları da bu cür əhval-ruhiyyədə idilər. Nəticədə kimyagərin düşmənləri onun verdiyi sözü sübut etməsini tələb etdilər: qoy o, nə qədər bacarırsa, bir o qədər qızıl istehsal etsin, ancaq bu işi tezliklə görsün.

Özünün qabiliyyətinə şübhə edilməsindən açıq şəkildə təhqir edilmiş Bragadino təkəbbürlə cavab verdi: «Venesiya öz səbirsizliyi ilə onu satdı və buna görə cəzalanacaq, o, özünü öhdəlikdən azad hesab edir». O, şəhərdən getdi, əvvəlcə Paduyaya, sonra isə Bavariya hersoqunun dəvəti ilə Münhenə, bu şəhərin də əhalisi Venesiya əhalisi kimi varlı və şöhrətli gün-

lər görmüşdü, indi isə keçmiş sərvəti kimyagərin köməyi ilə geri qaytarmaq istəyirdi. Bragadino Venesiyadakından geri qalmayan əlverişli şərtlər irəli sürdü və hər şey orada olduğu kimi eynilə təkrar olundu.

İZAHI

Mamunya adlı gənc kiprli kimyagər Bragadinoya çevrilməzdən əvvəl uzun müddət Venesiyada yaşamışdı. O, şəhəri hansı ruh düşkünlüyünün çulğadığını görür, vəziyyətin düzəldilməsinə olan ümidlər haqqında söhbətlər eşidirdi. Digər şarlatanlar xırda fırıldaqçılığı və əllərinin məharətini məşq etdirdikləri vaxt, Mamunya insan təbiətini öyrənirdi. O, start üçün tramplin kimi Venesiyanı seçdi. Əməliyyat planı hazırlayaraq, o, xaricə getdi, müəyyən kimyagərlik fokusları öyrəndi, onların köməyi ilə pul qazandı, sonra isə İtaliyaya qayıdaraq Breşiyada mağaza açdı. Bragadino öz hakimiyyətinin aurasının kənardan daha təsirli olacağını hesablamışdı.

Mamunya ətrafdakıları özünün kimyagər istedadına inandırmaq üçün primitiv tamaşalar təşkil etməkdən imtina edərək, daha cəzbedici olan başqa yolu seçdi. Onun möhtəşəm sarayı, bahalı geyimi, əlindəki qızıl pulların cingiltisi – bütün bunlar danılmaz sübutlar idi və idrakın istənilən dəlilini üstələyirdi. Mamunyanın aşkar sərvəti onun kimyagər ad-sanını möhkəmləndirirdi, buna görə də, Mantuan hersoqu kimi cənablar Mamunyaya, onun cah-calal içərisində yaşamasına imkan yaradan miqdarda pul verirdilər, bu isə onun kimyagər şöhrətini daha da möhkəmləndirirdi. Bu ad-sanın yaranması və möhkəmlənməsi Mamunyanın gizli məqsədlərinə xidmət edirdi. Onu əldə etmək üçün hersoqlar və senatorlar rəqabət apardıqlarından, o, artıq bezikdirici və usandırıcı kimyagərlik təcrübələrindən istifadə etmirdi. Bundan başqa, həmin dövrdə adamları aldatmaq asan idi: onlar inanmağı arzu edirdilər. Bragadinonun adi daşları qızıla necə çevirdiyini görən venesiyalı senatorlar, onun paltarının qolundakı borucuqdan qızıl tozunu onların qarşısında olan daşların üzərinə tökdüyünü görmədiklərinə son dərəcə inanmaq istəyirdilər. Qüdrətli, şıltaq kimyagər – onların arzu etdikləri idi, kimyagərin aurası ilə gözləri pərdələnmiş senatorlar, onun ağlagəlməz tryuklarını görmürdülər.

Fantaziyaların hakimiyyəti belədir, onların kökü, xüsusən məhrumiyyətlər və tənəzzül dövründə, bizim qəlbimizdədir. İnsanlar öz problemlərinin, onların öz ağılsızlıqları və səhv hərəkətləri üzündən yarandığını nadir hallarda görürlər. Onlara kimisə və ya nəyisə – ətrafdakıları, dünyanı, allahları – təqsirləndirmək lazımdır, bu vaxt xilas da kənardan gəlməlidir. Bragadino iqtisadi tənəzzülün ətraflı təhlili və böhrandan çıxmaq üçün praktik işlər təklifi ilə Venesiyada peyda olsaydı – onu rüsvayçılıqla qovardılar. Həqiqət olduqca xoşagəlməz, tədbirlər olduqca ağrılıdır – keçmiş illərdə Venesiyaya firavanlıq gətirmiş əcdadları kimi, dayanmadan işləmək heç kimə lazım deyildi. Ancaq fantaziya – bu halda kimyagərlik romantikası – asan başa düşülən və qəbul edilməsi ölçüyəgəlməz dərəcədə xoş idi.

Hakimiyyətə çatmaq yolunda özünüzü əhatə edənlər üçün həzz mənbəyinə çevrilməyiniz lazımdır – həzzi isə, insan fantaziyaları ilə oyun verir. Heç vaxt ağır zəhmət nəticəsində nail olunması mümkün olan tədricən yaxşılaşma deyil, böyük və qəfil köklü dəyişikliklər, qızıl xəzinəsi vəd edin.

İnsanları ən mənasız və ağılsız ideyalara inandırmaq olar, bunun üçün həmin ideyaları əlverişli şəkildə təqdim etməkdən ötrü kifayət qədər məharətli olmaq lazımdır.

David Yum, 1711–1776

HAKİMİYYƏTİN AÇARI

Fantaziya heç vaxt təklikdə fəaliyyət göstərə bilməz. Ona cahilliyin və bayağılığın təzadlı fonu tələb olunur. Məhz üstün reallıq fantaziyanın kök atmasına və çiçəklənməsinə imkan verir. XVI əsrdə Venesiyada reallıq tənəzzül və nüfuzun itirilməsi idi. Müvafiq fantaziya keçmiş şöhrətin kimyagərliyin köməyi ilə qəfildən bərpasını təsvir edirdi. Reallığın getdikcə daha da sərtləşməsi dərəcəsinə uyğun olaraq, venesiyalılar Bragadinonun tozu qızıla çevirməklə, onların şəhərinin bir an içərisində əvvəlki şöhrətini və hakimiyyətini bərpa etməsini gözlərinin qabağına gətirərək, təskinlik tapırdılar.

Arzunu həyata keçirmək, nağılı reallığa çevirmək qabiliyyəti olan adamın hüdudsuz hakimiyyət əldə etmək imkanı vardır. Əgər siz kütlələri ələ alan fantaziya axtarırsınızsa, bizim hər birimizə daha çox təsir göstərən bayağı, mənasız həqiqətlərə diqqət yetirin. Özünüzün adamların bəzədilmiş avtoportretləri və onların həyatından olan təsvirlərlə aldanılmağınıza imkan verməyin, əslində nəyin onlara təsir etdiyini öyrənin və axtarıb tapın. Bu zaman, sizə çox böyük hakimiyyət verə biləcək sehrli çubuq əlinizdə olacaqdır.

Zaman və insanlar dəyişir, ancaq gəlin adamları reallığa və hakimiyyətin verdiyi imkanlara bağlayan bir neçə üstün variantı tədqiq edək.

> ***Reallıq:*** *dəyişiklik ləng və tədricən gedir. O, gərgin əmək, uğurlar, xeyli fədakarlıq və böyük səbir tələb edir.*
>
> ***Fantaziya:*** *bir fantastik zərbə ilə əməyi, fədakarlığı və zamanı əvəz edən taleyin, bəxtin üzə gülməsi qəfil dəyişikliklər yaradır.*

Şübhəsiz, bu bizim günlərin aramızda qaynaşan şarlatanlarının sevimli fantaziyasıdır. Bragadinonun uğurunun sirri də elə

bunda idi. Tez və tam dəyişiklik – yoxsulluqdan dövlətliliyə, xəstəlikdən sağlamlığa, əziyyətlərdən firavanlığa aparan yolu vəd edin, onda sizin ardınızca gedəcəklər.

XVI əsr məşhur alman türkəçarə həkimi Leonqard Turnaysser necə oldu ki, hətta təbabəti öyrənmədən Brandenburq qəsrində saray həkimi oldu? Amputasiya (bədənin xəstə üzvünün kəsilməsi), zəli, üfunətli qarın işlətmə dərmanı (yəni həmin dövrün tipik təbabət vasitələri) əvəzinə, Turnaysser xoş iyli eliksir (tərkibində ətirli maddələr olan dərman bitkilərindən (bəzən də heyvandan) alınan cövhər, spirt, efir yağları və ya turşu məhlulu) verir, tezliklə sağalmağı vəd edirdi. Gözəl imkanları olan saray adamları çox böyük qiyməti olan «qızıl içki» məhlulu ilə xüsusilə maraqlanırdılar. Əgər xəstəliyin əlamətləri anlaşılmaz idisə, Turnaysser ulduz falından istifadə edərək, tilsim yazırdı. Belə fantaziyanın qarşısında nə dayana bilərdi – əzabların və ağrıların əvəzinə sağlamlıq və yaxşı əhval-ruhiyyə!

> ***Reallıq:*** *sosial cəmiyyətin möhkəm qaydalar, qanunlar və davranış normaları sistemi vardır. Biz bu məhdudlaşdırmalarla barışırıq və hər gün vərdiş etdiyimiz dairəvi marşrut üzrə getməyə məcbur olduğumuzu bilirik.*
>
> ***Fantaziya:*** *biz dəyərlilərin yeni sisteminin və maraqlı macəraların mümkün olduğu tamamilə yeni dünyaya düşürük.*

XVII əsrin birinci onilliyi. Həmin vaxt Londonda Corc Salmanazar adlı müəmmalı, naməlum cavan bir adam haqqında danışırdılar. O, ingilislərin çoxu üçün əfsanəvi ölkə olan bir diyardan – Çin sahillərinin yaxınlığında yerləşən Formoz (Tayvan) adasından gəlmişdi. Oksford Universiteti Salmanazarı ada əhalisinin danışdığı dildən dərs vermək üçün dəvət etdi, bir neçə il sonra o, İncili həmin dilə çevirdi, sonra Formozun tari-

xinə və coğrafiyasına aid kitab yazdı – bu kitab tezliklə best-sellerə (böyük tirajla çap olunan, ehtiyac duyulan kitaba) çevrildi. İngiltərənin yüksək cəmiyyəti bu cavan adamla sevimli oyuncaq kimi davranırdı, o, hara dəvət edilirdisə, toplaşanları öz ölkəsi və onun qəribə, ekzotik adətləri haqqında söhbətləri ilə əyləndirirdi.

Salmanazarın ölümündən sonra onun vəsiyyətnaməsi açıldıqda, hamı həqiqəti bildi: o, yalnız zəngin təxəyyülə malik fransız idi. Formoz haqqında onun bütün söhbətləri, bütün təfərrüatlar – naməlum ölkənin əlifbası, dili, ədəbiyyatı, bütöv mədəniyyəti – onun uydurması – yalan idi. İngilislərə əfsanəvi ölkə haqqında tamamilə heç nəyin məlum olmadığını bilib, o, özünün mürəkkəb, diqqətlə düşünülmüş, ingilislərin qəribəliyə və qeyri-adiliyə can atmalarına cavab verən hekayətini yaratdı. İngiltərə mədəniyyətinə xas olan, adamların təhlükəli arzuları üzərində sərt nəzarət, onların fantaziyasından öz maraqları xeyrinə istifadə etmək üçün Salmanazara çox yaxşı imkan verdi.

Qəribəliklər barədə arzular, əlbəttə, seksual fantaziyalarla da bağlı ola bilər. Ancaq həddindən artıq aşkar yaxınlaşmaya yol verməк təhlükəlidir, çünki cismani yaxınlığın fantaziyanın qol-qanad açmasına mane olması məlumdur. Görməyin və toxunmağın mümkün olduğu şeylər tezliklə çiyrəndirirdi ki, bu da, əksər kurtizankaların qisməti idi. Cariyələrin şəhvani cazibədarlığı ağanın daha dürlü-dürlü ləzzətə, nəşəyə marağını yalnız alovlandırırdı, bu da labüd olaraq onu, yenilik bəxş edən növbəti gözəlin yanına çəkib aparırdı. Hakimiyyət gətirən fantaziya hökmən – axıra qədər yerinə yetirilməyən, həyata keçirilməyən, mümkün olmayan qalmalıdır. Məsələn, Birinci Dünya müharibəsindən qabaq, adı dillərdə dastan olmuş rəqqasə Mata Xarinin görkəmində diqqətəlayiq heç nə yox idi. Mata Xarinin hakimiyyətinin mənbəyi fantaziya, onun yaratdığı qəribə, dərkolunmaz, izah edilə bilinməyən qadın maskası idi.

Onun etinasızlıq göstərdiyi tabu seksdən daha artıq, qəbul edilmiş sosial və əxlaq normalarının pozulmasına aid idi.

Qəribəlik zəminində fantaziyaların digər forması bayağılıqdan və süstlükdən kənara çıxmağa olan sadə inamdır. Dələduzlar öz məqsədləri üçün zəhmətkeşlərin dünyasında hökmran olan ağır, əzici atmosferdən, onda macəraya kiçicik də olsa əlamətin olmamasından istifadə etməyi sevirlər. Məsələn, bu – itirilmiş ispan xəzinələrinin axtarılması üçün cazibədar meksikalı senyoritaların (cavan qızların) iştirak etdiyi və Cənubi Amerika ölkələrindən birinin prezidenti ilə görüşün ehtimal olunduğu ekspedisiyaların təşkili – gündəlik cansıxıcı süstlüyü dağıtmağı vəd edən nə varsa, hamısı ola bilər.

Reallıq: *cəmiyyət təbəqələrə bölünmüşdür və münaqişələrlə doludur.*

Fantaziya: *adamlar mistik birliklərdə birləşə bilərlər.*

Ser Frensis Dreykin adı ilə bağlı dünya qədər qədim olan kələyin köməyi ilə fırıldaqçı Oskar Xartsell 1920-ci illərdə tez bir zamanda çox böyük sərvət topladı. O, «Dreyk» familiyası daşıyan istənilən adama bitməz-tükənməz «Dreyk xəzinəsi»ndən pay verməyi vəd etdi (doğrudur, xəzinə itirilmişdi, ancaq guya Xartsell onun yerini bilirdi). ABŞ-ın Orta Qərbinin minlərlə sakini aldanıb, tilova düşdü. Xartsell hiyləgərliklə işi elə istiqamətə yönəltdi ki, xəzinənin axtarışı, hökumətin və xəzinəni əsl varislərin əlindən almağa cəhd istənilən başqasının əleyhinə səlib yürüşünə çevrildi. Ziyan çəkmiş Dreyklərin özünəməxsus ittifaqı olan mistik birlik yarandı, onlar emosional mitinqlər və nümayişlər təşkil etdilər. Adamlara belə ittifaq vəd edin – və siz dərhal çox böyük hakimiyyət, ancaq asanlıqla sizin əleyhinizə çevrilə bilən təhlükəli hakimiyyət əldə edəcəksiniz. Bu cür fantaziyalar, sanki, xüsusi olaraq, demaqoqlar üçün yaradılmışdır.

Reallıq: ölüm. Ölənləri geri qaytarmaq, keçmişi dəyişmək olmaz.

Fantaziya: bu dözülməz mövcudluq qəfildən və tamamilə ləğv edilir.

Bu hiylənin çoxlu variantları vardır, ancaq böyük ustalıq və incəlik tələb edir.

Vermer Delftskinin tabloları öz gözəlliyi ilə məşhurdur və rəssamlıq sənətinin klassik nümunələridir, ancaq onların sayı azdır və buna görə də, olduqca aztapılandır. Ancaq 1930-cu illərdə Vermerin tabloları rəssamlıq əsərləri bazarında görünməyə başladı. Bu rəsmlərin əsl olmasını yoxlayan ekspertlər, onların rəssamın əsl işi olduğunu elan etdilər. Əvvəllər məşhur olmayan Vermerin əsərləri bir çox kolleksiyaçıların kolleksiyalarının bəzəyi ola bilərdi. Bu, Lazarın zühur etməsini xatırlatdı: Vermerin əlçatmaz obrazı həyata qayıtdı. Keçmiş öz quruluşunu dəyişdi.

Həqiqət yalnız sonralar üzə çıxdı: Vermerin meydana çıxan əsərləri holland Xan van Meegeranın fırçasından çıxan süni saxta rəsmlər idi. Öz saxtakarlığı üçün, o, məhz Vermeri seçdi, belə ki, başa düşürdü ki, belə fantaziyanın, təşəbbüsün uğur qazanmağı məhz ona görə labüddür ki, həm kolleksiyaçılar, həm də ekspertlər ona son dərəcə inanmaq istəyirdilər.

Yadda saxlayın: fantaziyalarla oyunda uğurun rəhni məsafənin saxlanılmasıdır. Məsafədə olmaq həyəcanlandırır, heç bir problem vəd etmədən həvəs yaradır. Onun adi hala çevrilməsinə heç vaxt imkan verməyin: uzaqdan görünən ilğım, sadəlövh ona yaxınlaşdıqda yoxa çıxır. Fantaziyanı həddindən artıq konkret təsvir etməyin – o, yayğın olmalıdır. Fantaziyanı yaradaraq, öz qurbanlarınıza o qədər yaxına gəlməyə imkan verin ki, görüb şirniklənə bilsinlər, ancaq xülyalarını və arzularını davam etdirmələri üçün, onları kifayət qədər uzaqda saxlayın.

OBRAZ:

AY

Əlçatmaz, çevrə üzrə daim yerini dəyişən ay yoxa çıxmır, yenidən peyda olur. Biz xülyaya qapılaraq və heyrətə gələrək, həsrət çəkərək və üzülərək ona baxırıq – o, həmişə fantaziya yaradaraq, heç vaxt adi şeyə çevrilmir. Aşkar olan şeyi təklif etməyin. Ayı vəd edin.

MÖTƏBƏR FİKİR

«Yalanda gözəllik və cazibədarlıq vardır, yalan – fantaziyaya qədər təkmilləşdirilə bilən uydurmadır. Onu mistik konsepsiya örtüyü ilə pərdələmək olar. Həqiqət – soyuq, ayıq və narahat faktlardır, onları qəbul etmək elə də asan deyildir. Yalan daha xoşagələndir. Dünyada ən nifrət edilməli adam – həmişə həqiqəti danışan, romantikaya yad olan adamdır... Mənim üçün romantik olmaq, həqiqəti deməkdən çox-çox maraqlı və faydalıdır».

Sarı Uşaq Cozef Veyl, 1875–1976

MEDALIN İÇ ÜZÜ

Kütlələrin fantaziyasından istifadə etməklə hiylə işlətmək hakimiyyət verir – ancaq təhlükə də doğurur. Fantaziyada adətən oyun elementi olur – kütlə özünün ələ salındığını qismən başa düşür, ancaq o, əyləncənin və bayağılıqdan müvəqqəti uzaqlaşmağın verdiyi ləzzəti dadaraq, hər halda xülyadan əl çəkmir. Buna görə diqqətli olun – sizdən nəticə tələb edilən ana yaxınlaşmamağa çalışın. Bu, olduqca çox pis nəticə verə bilər.

Münxendə məskunlaşan Bragadino tezliklə müşahidə etdi ki, sağlam düşüncəli bavariyalılar kimyagərliyə temperamentli

venesiyalılar kimi ürəkdən inanmırlar. Bir hersoq həqiqətən Bragadinoya inanırdı, çünki ona, özünün düşdüyü son dərəcə çətin vəziyyətdən çıxmaq lazım idi. Bragadino eynilə İtaliyada oynadığı oyuna başladı: o, vaxtı uzadır, hədiyyələr qəbul edirdi. O, səbirliliyə bel bağlayırdı, ancaq xalqın əsəbiliyi artırdı. Pul gedirdi, nəticə isə yox idi. 1592-ci ildə bavariyalılar ədalət məhkəməsi tələb etdilər və Bragadinonun başı üstünü, onun üçün gözlənilməz olan real dar ağacı təhlükəsi kəsdi. Əvvəl olduğu kimi, o, vəd verir və yerinə yetirmirdi, ancaq bu dəfə faciəli səhvə yol verdi – öz ağalarının uzun müddətli səbrini və özünün onlara təsir dərəcəsini düzgün qiymətləndirə bilmədi.

Sonuncu: fantaziyanın həmişə fantastik bir şey olduğunu hesab edərək, geniş yayılmış səhvə yol verməyin. O, şübhəsiz, həqiqətlə ziddiyyət təşkil edir, ancaq reallığın özü bəzən o qədər süni və həqiqətə bənzəməyən olur ki, fantaziya sadə şeylər haqqında xülyaya çevrilir. Məsələn, Avraam Linkolnun imici – saqqallı sadə əyalət hüquqşünasının obrazı – ona sadə adamların prezidenti olmağa kömək etdi.

P.T.Barnum keçmiş dövrün məşhur xadimlərinin – məsələn, Napoleonun – kostyumlarını geyinən və onları masqaraya qoyan Cırtdan Tomla uğurlu şou yaratdı. Tamaşa, kraliça Viktoriyaya qədər hamının xoşuna gəlirdi, çünki o, həmin dövrün fantaziyası ilə səsləşirdi: tarixin taleyini həll edən, olduqca şöhrətpərəst adamlardan danışılırdı, indi iş sadə adamların üzərinə düşürdü. Cırtdan Tom qəribə və naməlum olanların ideala çevrildiyi fantaziya haqqında adi təsəvvürlərin astarını üzünə çevirirdi. Ancaq buna baxmayaraq, onun təsiri qanunun çərçivəsindən kənara çıxmırdı, çünki onların əsasında fantaziya, özü də məhz belə fantaziya dururdu: sadə adamın problemi yoxdur, həm də o, hakimiyyət sahiblərindən və varlılardan xoşbəxtdir.

Həm Linkoln, həm də Cırtdan Tom sadə adamların rolunu oynayırdılar, ancaq məsafənin gözlənilməsinə diqqətlə fikir verirdilər. Əgər sizə bu tip fantaziyadan istifadə etmək lazım gələrsə, unutmayın ki, bu halda da məsafə saxlamaq və özünün «kütlə içindən çıxmış adam» obrazının həddindən artıq aşkar, tanınan olmasına, təngə gətirməsinə imkan verməmək lazımdır, – əks halda, o, fantaziya kimi işə yaramayacaqdır.

OTUZ ÜÇÜNCÜ QANUN

HƏR ADAMIN ZƏİF YERİNİ BİL

QANUNUN MAHİYYƏTİ

Hər kəsin zəif yeri, hər qala divarının çatı vardır. İnamsızlıq, nəzarət edilməsi mümkün olmayan emosiya və ya arzular, hətta əhəmiyyətsiz bildiyimiz gizli nəşə belə zəiflik yarada bilər. Hər necə olsa da, onu işgəncə vasitəsinə çevirin və öz xeyriniz üçün istifadə edin.

İŞGƏNCƏ VASİTƏSİ TAPIN: STRATEJİ FƏALİYYƏT PLANI

Hər bir kəsə, həmişə, bu və ya digər dərəcədə müdafiə edilmək lazım gəlir. Bununla əlaqədar hər bir insanda özünü dəyişikliklərdən, dostların yersiz hərəkətlərindən və düşmənlərin hücumundan müdafiə etmək üçün səciyyəvi vasitələr mövcuddur. İnsan üçün hər şeydən vacibi onun sakit buraxılması və öz ağlı ilə hərəkət etməyə imkan verilməsidir. Düşmənin müdafiə istehkamlarının möhkəmliyini daim yoxlamaq cəhdləri insandan çoxlu enerji alır. Ancaq hər bir insanın zəif cəhətlərinin olması mütləqdir və bu, onların psixoloji durumunda qüsurdur. Həmin çatışmazlıqları aşkar edərək, onlara təsir göstərsəniz, iradənizə tabe olacaqlar. Bəzi adamlar öz zəifliklərini gizlətdikləri halda, bir başqaları onları hamıya açıqlayırlar. Müdafiə vasitələrindəki qüsurlar aşkar olunarsa, əlbəttə, onların öhdəsindən gəlmək çətinlik törətməz.

Hücumu planlaşdırarkən aşağıdakı prinsipləri yadda saxlayın.

Jestlərin təzahürünə və instinktiv işarələrə qarşı diqqətli ol. Ziqmund Freyd belə bir şeyi müşahidə etmişdi: «Heç bir adi adam sirr saxlamağa qadir deyildir. Əgər onun dodaqları susursa, barmaqlarının ucu danışır; onun barmaqları arasından hər an satqınlıq sızır». Bu əsas mühakiməni başa düşmək və insan zəifliklərinin axtarışı zamanı onu nəzərə almaq lazımdır – ilk baxışdan əhəmiyyətsiz görünən jestlər və ötəri deyilmiş sözlər bu zəifliyin üstünü labüd olaraq açır.

Təkcə sizin nə axtardığınız deyil, həm də harada və necə axtardığınız mühümdür. Gündəlik danışıqlar – işlənilməsi tələb olunan zəngin mədəndir, buna görə də, həmsöhbətin zəif yerlərini aşkar etmək üçün dinləməyi öyrənin. Başlanğıcda həmişə özünüzün söhbətə maraqlı olduğunuzu göstərin – dinləyicinin canıyananlıq etməsi istənilən adamın dilini açır. Taleyranın tez-tez istifadə etdiyi hiyləgər fənd ondan ibarət idi ki,

sanki siz ürəyinizi həmsöhbətinizə açır, onunla öz sirlərinizi məhrəmanə şəkildə bölüşürsünüz. Sirr tam uydurma və ya həqiqi ola bilər. Həqiqətə uyğunluğun sizin üçün heç bir əhəmiyyəti yoxdur. Ən əhəmiyyətlisi odur ki, sözləriniz səmimi-qəlbdən deyilən kimi görünsün. Bu, bir qayda olaraq, göstərdiyinizdən az olmayan səmimiyyət, həqiqətə uyğunluq və eyni zamanda zəifliyi aşkar edən cavab doğurur. Buna görə də, kimdəsə xüsusi zəif yerlər olduğunu aşkar edirsinizsə, onu hiss etdirmədən öyrənin. Məsələn, hansı insanın özünün sevilməsini hiss edərsinizsə, ona komplimentlər deməkdən başlayın. Əgər o, kobudluğunun dərəcəsindən asılı olmayaraq, yaltaqcasına tərifinizə uyursa, doğru yoldasınız. Təfərrüatları görməyi öyrənin – ofisianta çaypulu verənin nə xoşuna gəldiyini, dəblə geyinməkdə gizlənən mənanı başa düşün. Sizi maraqlandıran adamın səcdə etdiyi bütü, həddindən artıq xoşladığı və əldə etməyə görə hər şeyə hazır olduğu əşyanı ona yetirsəniz, arzularınızın həyata keçməsinə kömək olunması istisna deyildir. Yadda saxlayın: biz hamımız öz zəifliyimizi gizlətməyə çalışdığımızdan, başa düşülən, nəzarət edilən davranışdan öyrənilən şey çox az olur. Dərketmədən və nəzarətdən yan keçərək, zahirə sızan təfərrüatlar, xırdalıqlar daha çox maraq doğurur.

Köməksiz uşaq tap. Zəifliklərin böyük hissəsi uşaqlıqda, fərdin tarazlaşdırıcı müdafiəni qurmağa başlamasından əvvəl meydana çıxır. Uşağın əzizlənməsi, nazı ilə oynamaları, müəyyən sahədə arxasöyünlüyünə fikir verməmələri ilə yanaşı, onun hansısa emosional tələbatının təmin edilməməsi də bu işdə öz təsirini göstərir. Uşaq böyüdükcə, onun pis işləri, nöqsanları və ya çatışmazlıqları heç də tamamilə unudulmur. İnsanın uşaqlığı haqqında məlumatlar, onun yaşlı vaxtındakı zəifliklərini açmaq üçün əla açardır.

Belə zəiflik əlamətlərindən biri də, məsələn, siz onunla təmasda olarkən, onun özünü çox vaxt uşaq kimi aparmasıdır ki,

bununla əlaqədar obyektin öz yaşına münasib olmayan hərəkətlərin diqqətlə izlənməsi zəruridir. Əgər sizin qurbanlarınız və ya rəqibləriniz uşaqlıqda hansısa vacib cəhətdən, məsələn, valideyn himayəsindən məhrum olmuşdursa, ona bu himayəni və ya bu himayənin əvəzini vermək lazım gəlir. Əgər onlar sizin qarşınızda gizli ehtiras, könül arzusu büruzə versələr – onları da yerinə yetirin. Hər iki halda, onlar tərksilah olacaqlar və sizə müqavimət göstərə bilməyəcəklər.

Təzadlar axtarıb tapın. Zahiri görünüş çox vaxt özünün əks tərəfini gizlədir. Sinəyə yumruq döyən davakar qışqırığın arxasında çox vaxt qorxaqlıq gizlənir, riyakar və utancaq görünüş bəzən ehtiras və pozğunluğu pərdələyir, təvazökar hamının diqqətini özünə cəlb etməyi arzu edir. Zahirdə olanları görünməyənlərlə müqayisə edərək, adamların zəifliklərini, onların sizə nümayiş etdirdikləri keyfiyyətlərin tam əksini aşkar edə bilərsiniz.

Zəif həlqəni tap. Bəzən sizin zəiflik axtarışınızda «nə» deyil, «kim» əhəmiyyətə malikdir. Saray həyatının müasir variantlarında çox vaxt səhnə arxasında dayanan müəyyən adamlar, zahirən ən yüksək mövqe tutan adamlara təsir etməklə, pərdəarxası çox böyük hakimiyyətə malik olurlar. Gölgədə qalan bu hakimiyyət sahibləri zəncirin ən zəif həlqəsidir: onların mərhəmətinə nail olun – onda siz krala dolayı təsir göstərmək imkanı əldə edəcəksiniz. Başqa misal: hətta zahirən tamamilə həmfikir olan adamlar qrupunda (məsələn, qrupun öz sıralarını xarici düşmənlərin təzyiqi altında sıx birləşdirən vaxt) zəif həlqə tapmaq mümkündür. Həmişə, təzyiqə davam gətirməyən, heç olmazsa bir adam tapmaq mümkündür.

Boşluğu doldur. Emosional boşluğun iki əsas tipi vardır – inamsızlıq və təmin edilməzlik. İnamsızlar istənilən sosial xürafatın qurbanı olurlar. Xroniki təminolunmazlığa malik olanların narazılığının köklərini həmişə axtarın. Həm bunlar, həm də o birilər, demək olar ki, öz zəifliklərini gizləmək qabiliyyətin-

də deyildirlər. Onların emosional boşluğunu doldurmaq – hakimiyyətin böyük, eyni zamanda tükənməz mənbəyidir, ondan olduqca uzun müddət istifadə etmək olar.

Nəzarət edilməyən emosiyalara qida ver. Nəzarət edilməyən emosiyalara paranoik (ruhi) qorxunu – vəziyyətə adekvat olmayan qorxunu və ya istənilən alçaq niyyətli arzunu: acgözlük, şöhrətpərəstlik, nifrət və ya şəhvət arzusunu aid etmək olar. Bu emosiyaların məngənəsində sıxılan adamlar, çox vaxt özlərini idarə edə bilmədiklərindən, onları siz idarə edə bilərsiniz.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

Sonralar kardinal Rişelye adı ilə məşhur olan otuz yaşlı yepiskop Lüsonski, 1615-ci ildə Fransanın üç silkinin – ruhanilərin, zadəganların və rəiyyətin nümayəndələri qarşısında çıxış etdi. Rişelye ruhanilərin maraqlarını ifadə etmək üçün seçilmişdi – bu, hələ cavan və o qədər də yaxşı tanınmayan adam üçün böyük məsuliyyət idi. Bütün aktual problemlər barəsində danışaraq, Rişelye öz nitqində kilsə xəttinə tərəfdar çıxdı. Ancaq çıxışının axırına yaxın, sanki kilsəyə heç bir aidiyyəti olmayan, ancaq onun sonrakı karyerası üçün həlledici olan bir şey etdi. O, on beş yaşlı kral XIII Lüdovikə və onun arxa tərəfində əyləşmiş, şərtləşdirildiyi kimi, Lüdovikin yetkinlik yaşına çatmasına qədər Fransanı idarə etməli olan kraliça-ana Mariya Mediçiyə tərəf çevrildi. Hamı gözləyirdi ki, Rişelye krala standart sözlərlə müraciət edəcək. Bunun əvəzində, o, gözlərini kraliçaya dikərək, öz çıxışını onun şərəfinə uzun yaltaq mədhiyyə ilə qurtardı, mədhiyyə o qədər mübaliğəli, təmtəraqlı idi ki, orada iştirak edən kilsə nümayəndələrindən kiməsə toxundu. Ancaq kraliça Rişelyenin lütfkar çıxışını diqqətlə dinləyərkən, onun sifətindəki təbəssüm unudulmaz idi.

Bir il sonra, kral-ana Rişelyeni xarici işlər üzrə dövlət katibi təyin etdi ki, bu, gənc yepiskop üçün misilsiz uğur idi. İndi o,

hakimiyyətin məhdud dairəsinə daxil oldu və sarayı, sanki qarşısındakı saat mexanizmi kimi öyrəndi. Konçino Konçini kraliçanın sevimlisi, bəlkə də məşuqu idi və bu rol onu Fransanın ən nüfuzlu adamı etdi. Konçini dayaz və ədabaz adam idi, Rişelye ona sanki kralın özünə müraciət edilən kimi ehtiramla müraciət edərək, Konçiniyə düzgün yol tapdı. Heç yarım il də keçmədi ki, Rişelye Konçininin sevimlilərindən biri oldu. Ancaq 1617-ci ildə hər şeyi alt-üst edən hadisə baş verdi: həmin vaxta kimi görkəmi və davranışı onu ağıldan kəm kimi qəbul etməyə məcbur edən gənc kralın əmri ilə Konçini öldürüldü, onun yaxın ətrafından olan adamları isə həbsxanaya salındı. Bununla da, Lüdovik bir an içərisində kraliça-ananı hakimiyyətdən kənarlaşdıraraq, bundan sonra ölkəni özünün idarə edəcəyini bəyan etdi.

Elə görünürdü ki, Rişelye lazım olan gedişi etməyib. O, həm Konçiniyə, həm Mariya Mediçiyə yaxın idi, indi onların yaxın adamlarının hamısı gözdən düşmüş, çoxları həbs olunmuşdu. Kraliça-ananın özü Luvrda ev dustağı idi. Rişelye vaxt itirmədi. Hamının Mariya Mediçini tərk etdiyi vaxt Rişelye onunla qaldı. O, Lüdovikin onu məhv edə bilməyəcəyinə inanırdı, belə ki, kral hələ çox cavan idi və bütün baş verənlərə baxmayaraq, anasına həddindən artıq bağlı idi. Rişelye kraliçanın öz hakimiyyətini saxlamış yeganə dostu kimi, öz üzərinə mühüm vəzifə götürdü – kralla kraliça arasında əlaqəni həyata keçirdi. Mükafat olaraq, o, kraliça-ananın himayədarlığını qazandı və saray çevrilişindən hətta özünə xeyir qazanmaqla çıxa bildi. Bundan sonra, bir neçə il ərzində, kraliça-ananın Rişelyedən asılılığı getdikcə artdı. 1622-ci ildə kraliça-ana onu sədaqətinə görə tamam-kamal mükafatlandırdı: kraliça-ananın əlaqələri hesabına Rişelye Romada yüksək kardinal vəzifəsi aldı.

1623-cü ildə kral Lüdovikin vəziyyəti olduqca ağır idi. O, yaxın adamlarından heç birinə etibar etmirdi, məsləhətləşmək üçün heç bir adamı yox idi. O, artıq uşaq deyil, cavan olması-

na baxmayaraq, qəlbən hələ də uşaq olaraq qalırdı, həm də dövlət işlərini çətinliklə yerinə yetirirdi. İndi o, taxta çıxdıqda, Mariya nəzəri olaraq hakimiyyətə malik deyildi, ancaq kraliça-ana ona diqqətlə qulaq asan oğluna hələ də təsir edirdi. O, Lüdoviki daim inandırırdı ki, onun yeganə xilaskarı yalnız Rişelye ola bilər. Əvvəlcə Lüdovik bununla heç cür razılaşmırdı – o, kardinala qəlbən nifrət edir və yalnız anasının xatirinə ona dözürdü. Ancaq saraydan təcrid olunan, öz qətiyyətsizliyindən əziyyət çəkən kral, hər halda yenə də, anası tərəfindən ram edildi və Rişelyeni əvvəlcə baş müşavir, sonra isə baş nazir etdi.

İndi Rişelyenin Mariya Mediçiyə artıq ehtiyacı yox idi. Rişelye onun yanına gəlməyi, ona pərəstişkarlıq etməyi, onun fikirlərinə qulaq asmağı dayandırdı, hətta onunla mübahisə etməyi və onun arzuları əleyhinə getməyi özünə rəva bildi. Bunun əvəzinə, o, bütün diqqətini krala yönəltdi, özünün yeni ağası üçün əvəzedilməz olmağa nail oldu. Ona qədərki bütün baş nazirlər, kralın uşaqlıq xüsusiyyətlərini saxladığını başa düşərək, onu bəlalardan qorumağa çalışırdılar. Bəsirətli Rişelye özünü başqa cür apardı, onu bilərəkdən bir-birinin ardınca hugenotlara (XVI əsrdə fransız protestantlarına) qarşı səlib müharibəsi və İspaniya ilə müharibənin uzadılması kimi iri miqyaslı layihələrə cəlb etdi. Bu layihələrin nəhəngliyi kralın, dövlətdə qayda-qanun yaratmaq qabiliyyətli yeganə adam olan özünün nüfuzlu baş nazirindən asılılığını yalnız artırdı. Sonrakı on səkkiz il ərzində Rişelye kralın zəifliyindən istifadə edərək, Fransanı öz mülahizəsi ilə idarə etdi, ölkəni birləşdirdi və onu Avropanın ən güclü dövlətlərindən birinə çevirdi.

İZAHI

Rişelye öz ətrafındakı aləmi hərbi kampaniya kimi qəbul edirdi, özü də onun üçün strategiyanın ən mühüm elementi düşmənin zəifliklərini aşkar etmək və onlara bu zəifliklər vasitəsilə təsir etmək idi. 1615-ci ildəki çıxışına qədər, o, zəncirin zəif həlqəsini axtardı və belə həlqənin kraliça-ana olduğunu aşkar etdi. Mariya Mediçi açıq şəkildə zəif deyildi – o, həm Fransanı, həm də oğlunu idarə edirdi. Ancaq Rişelye gördü ki, əslində, daim kişi himayəsinə ehtiyacı olan bu qadın axıra qədər özünə inamlı deyildi. Rişelye diqqət və hörmət nişanələri ilə Mediçinin gözlərini tutdu, hətta onun sevimlisi Konçinin qarşısında yaltaqlandı. O, kralın hakimiyyəti ələ alacağı günün gələcəyini bilirdi və aydın şəkildə görürdü ki, Lüdovik anasını dəlicəsinə sevir və onunla qarşılıqlı münasibətlərində həmişə uşaq olaraq qalacaqdır. Beləliklə, o, qərara gəldi ki, Lüdovikə təsir üsulu birbaşa deyil (bu olduqca etibarsız idi və bir günün içərisində alt-üst ola bilərdi), vasitəçiliklə, özü də onun anasının vasitəçiliyi ilə olmalıdır, o, kraliça-anaya təsirini, lazım olan qədər uzun müddətə saxlaya bilər.

Rişelye arzuladığı baş nazir vəzifəsini əldə etməyə nail olaraq, lazım olmadığına görə kraliça-ananı tərk etdi və zəncirin yeni zəif həlqəsinə – kralın özünün həmişə nüfuzlu tərbiyəçiyə ehtiyacı olan köməksiz uşaq xarakterindən istifadəyə keçdi. Özül kimi, məhz kralın zəifliyi üzərində Rişelye özünün hakimiyyətini və şöhrətini ucaltdı.

Yadda saxlayın: saraya düşdükdə, zəif həlqə axtarın. Hakimiyyətə çox vaxt kral və kraliça deyil, səhnə arxasında olan favorit (sevimli adam), ər və ya arvad, hətta saray təlxəyi malik olur. Bu adam kralın özündən artıq zəifliklərə malik ola bilər, çünki onun hakimiyyəti tənzimlənməsi çətin olan ən müxtəlif qeyri-sabit amillər çoxluğundan asılıdır.

Daha bir cəhəti unutmayın: qərar qəbul etmək qabiliyyətinə malik olmayan köməksiz uşaqlarla iş görərkən, onların zəifliklərindən istifadə edin və onları təhlükəli işlərə yönəldin. Onlar sizi arxasında gizlənmək və çətin gündə kömək ala bilməsi mümkün olan adam bilərək, sizdən daha çox asılı vəziyyətə düşəcəklər.

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

Bizə artıq məlum olan daha bir şəxsi və onunla bağlı hekayəti yada salaq. 1925-ci ilin dekabrında Amerikanın Florida ştatındakı Palm Biç kurortunun birinci dərəcəli mehmanxanasının darıxan qonaqları sürücüsü yapon olan rolls-roys avtomobilinin giriş qapısına yaxınlaşmasına maraqla baxırdılar. Maşından boylu-buxunlu kişi düşdü. Sonrakı bir neçə günü qonaqlar onun qəşəng əl ağacı ilə başmaq seyrinə çıxdığını müşahidə etdilər. Müəmmalı kirayənişinə hər saat teleqram çatdırılırdı. Onu, ən qısa söhbətlər istisna olmaqla, söhbətə çəkmək mümkün deyildi. Məlum oldu ki, o, zadəgandır, adı Viktor Lüstiqdir, Avropanın ən varlı nəsillərindən birinə mənsubdur – ancaq bundan artıq bir şey aydınlaşdırmaq mümkün olmadı.

Lüstiq otelin ən adlı-sanlı kirayənişinlərindən biri, maşınqayırma şirkətinin başçısı mister German Lollerə yaxınlaşıb onunla söhbət etdikdə, camaatın ümumi heyrətini təsəvvür edin. Loller öz sərvətini yalnız lap yaxın vaxtlarda toplamışdı, cəmiyyətdə əlaqələr yaratmaq onun üçün birinci dərəcəli əhəmiyyəti olan iş idi. O, belə incə zövqlü, ingilis dilində yüngülcə xarici ləhcə ilə çox gözəl danışan adamla ünsiyyətdən ruhlanmış və bir qədər özünü itirmişdi. Günlər keçdikcə, onlar dostlaşdılar.

Söhbəti əsasən Loller davam etdirirdi. Bir dəfə axşam necə oldusa, o, işlərin yaxşı getmədiyini, ümumiyyətlə, ağır zəmanənin gələcəyini etiraf etdi. Cavabında Lüstiq də yeni dostuna öz etirafını bildirdi: o da pulla bağlı ciddi problemlərlə qarşılaşmalı olmuşdur – kommunistlər onun ailəsinin mülkünü və bütün pul hesablarını müsadirə etmişlər. Xoşbəxtlikdən, o, çıxış yolunu tapmışdı – «pulkəsən maşının köməyi ilə». «Siz qəlp pulkəsənsiniz?» – deyə, Loller dəhşət içində pıçıldadı. Lüstiq «Yox» deyib, aparatın işinin əsasında çox mürəkkəb kimyəvi reaksiyanın durduğunu danışdı və bildirdi ki, aparat istənilən əsginazın surətini mütləq dəqiqliklə çıxarmağa qadirdir. Ona bir dollar dəyərində əsginaz qoyursan, altı saat sonra sənin əlində iki bir dollarlıq olur – özü də hər ikisi əsl pul olacaqdır. O, aparatın Avropadan gizli şəkildə necə gətirildiyini, Britaniya iqtisadiyyatını sarsıtmaq məqsədi ilə Almaniyanın onu necə hazırladığını, özünün ondan bir neçə il istifadə etdiyini və bunun kimi başqa şeyləri ətraflı danışdı. Loller aparatın işini ona nümayiş etdirməsi üçün Lüstiqə yalvarmağa başladı. Dostlar Lüstiqin nömrəsinə qalxdılar, burada qraf çoxsaylı dəlikləri, lingləri və siferblatı (üzərində rəqəmlər olan lövhə) olan qırmızı ağacdan hazırlanması təsiri bağışlayan yeşiyi üzə çıxardı. Lüstiqin dollar əsginazını aparatın kəsiyinə necə saldığını Loller müşahidə etdi. Əlbəttə, Lüstiq ertəsi gün səhər aparatdan kimyəvi dərmanların nəmliyi hələ getməmiş iki əsginaz çıxardı. Lüstiq əsginazları Lollerə təqdim etdi, o isə bunları götürüb yerli banka tələsdi, burada pulların əsl olduğunu təsdiq etdilər. Biznesmen aparatı ona satması üçün Lüstiqə qızğınlıqla yalvarmağa başladı. Qraf izah etdi ki, bu, olduqca qeyri-adi maşındır, ancaq Loller çox sərfəli təklif – o vaxt üçün heç də az olmayan məbləğ: 25 min dollar (təxminən indiki 400 min dollara bərabərdir) təklif etdi. Lakin Lüstiq özünü bununla razılaşmayan kimi apardı: ona elə gəlirdi ki, dostunu belə itkiyə getməyə məcbur etməklə çirkin hərəkət edir. Ancaq uzun çək-çevirdən sonra, hər halda, güzəştə getdi. Lüstiq dedi: «Nəhayət, sənin mənə nə qədər verəcəyin o qədər də vacib deyildir. Sən xərclərini aparatın köməyi ilə bir neçə günün içərisində çıxara bilərsən». Lüstiq Lolleri and içməyə məcbur etdi ki, aparat barəsində heç bir adama bir kəlmə də olsa, söz deməyəcək. Həmin gün Lüstiq oteldən çıxdı. Pul kəsmək üçün bir il ərzində çoxsaylı səmərəsiz cəhdlər etdikdən sonra, Loller polisə gedib, qraf Lüstiqin ona kimyəvi maddələrin və taxta yeşiyin köməyi ilə hiylə gəldiyini danışmağı qərara aldı.

İZAHI

Qraf Lüstiq ətrafdakıların zəifliklərini qartal kimi iti baxışla görmək istedadına malik idi. Bunun üçün ona ən əhəmiyyətsiz təfərrüatlar kifayət edirdi. Məsələn, Loller ofisianta qədərindən artıq çaypulu verir, qapıçı ilə danışaraq əsəbiləşir, öz biznesi haqqında ucadan naqqallıq edirdi. Lüstiq bundan belə nəticə çıxarırdı ki, onun zəifliyi cəmiyyətdə nüfuz və hörmət qazanmaq tələbatıdır, Lollerin fikrincə, bu, onun pul qazanmasını təmin etməli idi. Üstəlik, bədbəxt özünə inamsızlıqdan əziyyət çəkirdi. Lüstiq özünə qurban tapmaq məqsədi ilə otelə düşmüşdü. Lollerin şəxsində, o, ideal sadəlövhü – onun emosional boşluğunu kiminsə doldurması arzusu ilə alışıb-yanan adamı tapdı.

Beləliklə, Lollerə öz dostluğunu təklif edərkən, Lüstiq başa düşürdü ki, bununla ona otelin digər sakinlərinin hörmətini bir an içində qazanmaq imkanı verir. Zadəgan olan Lüstiq həmçinin, nuvorişə (ticarət sayəsində sərvət toplayıb, varlı təbəqəyə daxil olmuş adam) keçmiş sərvətin incə dünyasına baş vurmağı təklif etdi. Axırda aparatdan – Lolleri bütün təhlükədən xilas edə biləcək maşından danışdı. Maşının sayəsində, o, özünü, bu maşından istifadə edən qrafa bərabər tutdu. Lollerin tələ yemini həvəslə udmasında heç bir təəccüb edilməli şey yoxdur.

QANUNA RİAYƏT EDİLMƏSİ (3)

1559-cu ildə Fransa kralı II Henrix cəngavər döyüşündə həlak olduqdan sonra, taxt-taca kral II Fransiskoya çevrilən oğlu sahib oldu, ancaq onun arxasında Henrixin arvadı, çoxdan istedadlı dövlət xadimi kimi şöhrət qazanmış güclü qadın, kraliça Yekaterina Mediçi dayanırdı. Bir il sonra Fransisko öldü, Yekaterina vərəsəlik xətti ilə sonrakı oğlunun – həmin vaxt on yaşı yenicə tamam olmuş, gələcək

IX Karlın regenti (naibi – kralı əvəz edən adam) olaraq, hakimiyyətə yiyələndi.

Kraliça üçün əsas təhlükəni Navarra kralı Antuan de Burbon və onun qardaşı, qüdrətli şahzadə Konde təşkil edirdi. Onların hər ikisi, mənşəcə italiyalı və deməli, əcnəbi olan Yekaterinanın hüquqlarını rədd edərək, naibliyi iddia edə bilərdi. Yekaterina ləngimədən, Antuanı general-leytenant təyin etdi. Elə görünürdü, bu titul onun iddialarını təmin etdi. Bundan başqa, təyinat onu göstərirdi ki, Antuan sarayda qalacaq və Yekaterinanın ona göz qoymaq imkanı olacaqdır. Yekaterinanın növbəti gedişi daha hiyləgər oldu: Antuan gözəl qadınlara münasibətdə zəifliyi ilə məşhur idi, Yekaterina özünün ən gözəl saray xanımlarından biri Luiza de Rueyə onu yoldan çıxarmağı əmr etdi. Luiza Antuanın məşuqəsinə çevrilib, onun hər addımı haqqında öz xanımına məlumat verirdi. Bu ideya o qədər uğurlu oldu ki, Yekaterina özünün digər saray xanımını Kondeyə caladı. Beləliklə, qızlardan ibarət «escadron volant» – «uçan eskadron» meydana gəldi, Yekaterina bu eskadrondan, heç nədən şübhələnməyən saray kişilərinin hərəkətlərinə nəzarət etmək üçün istifadə edirdi.

1572-ci ilə Yekaterina öz qızı Marqarita de Valuanı Antuanın oğlu və Navarranın yeni kralı Henrixə ərə verdi. Həmişə hakimiyyətə müxalifətdə duran ailəni bu cür özünə yaxınlaşdırmaq təhlükəli addım idi. Buna görə, Henrixin sədaqətliliyinə olmasa da, bitərəfliyinə əmin olmaq üçün «uçan eskadronun» çox gözəl üzvləri Şarlotta de Bon Samblanseyə, baronessa de Sova onunla məşğul olmağı əmr etdi. Yekaterinanı hətta Henrixin onun öz qızının əri olması dayandırmadı. Toydan cəmi bir neçə həftə sonra Marqarita Valua gündəliyində yazırdı: «Mənim ərim madam de Sovla o dərəcədə məşğuldur ki, biz artıq yataqda onunla bir yerdə olmur və hətta söhbət etmirik».

Baronessa mahir casus idi və Yekaterinaya Henrixi ovcunda saxlamağa kömək edirdi. Yekaterinanın kiçik oğlu hersoq

Alonski Henrixlə o qədər yaxınlaşdı ki, o, sui-qəsdin mümkünlüyündən qorxdu və baronessanı onun da yanına göndərdi. Bədnam eskadronun ən əxlaqsız gözəli Alansonu tələsik yoldan çıxardı, budur, iki cavan adam baronessaya görə bir-birilə rəqabət apardı, onların dostluğu, bununla birlikdə Yekaterinanın əleyhinə intriqa yoxa çıxdı.

İZAHI

Yekaterina məşuqələrin dövlət işində olan kişilər üzərində hansı hakimiyyətə malik olduğunu gənclik illərində öz təcrübəsindən gözəl bilirdi: onun öz əri II Henrixin məşuqəsi məşhur Diana de Puatye idi. Onun əri kimi kişilər qadını saraydakı mövqeləri (bu mövqe onların xidmətləri müqabilində mükafat verilməmişdi, irsən alınmışdı) sayəsində deyil, öz məziyyətlərinə görə əldə etmələrinə inanmaq istəyirdilər. Belə tələbat kişini zəif edirdi: qadın özünü elə göstərirdi ki, o, ələ alınmışdır, kişi isə hakimiyyətin qadının əlində cəmləşdiyini artıq görmürdü. Diana de Puatyenin Henrix üzərində hakimiyyəti bu cür idi. Yekaterinanın strategiyası belə idi – bu zəiflikdən öz xeyrinə istifadə etmək, onun köməyi ilə kişiləri ələ gətirmək və onlar üzərində hakim olmaq. O, özünə lazım olan hər şeyi etmək üçün sarayın ən gözəl və cazibədar qadınlarını, «uçan eskadronu» öz əri kimi zəifliyi olan kişilərin üstünə salırdı.

Yadda saxlayın: öhdəsindən gəlməyə insanın gücü çatmadığı ehtiraslar, arzular, güclü hisslər və ya beyindən çıxmayan ideyalar axtarmaq və tapmaq lazımdır. Ehtiras nə qədər güclüdürsə, qurbanınız bir o qədər zəif olur. Bu sizə gözlənilməz görünə bilər, çünki ehtiraslı təbiət adətən güclülərin təəssüratını yaradır. Əslində isə, bu, yalnız maskadır, onlar bu maskada gizlənərək, özlərinin zəifliklərindən və köməksizliklərindən diqqəti yayındırırlar. Kişinin qadını ələ gətirmək tələbatı, həqiqətdə, onun hədsiz dərəcədə köməksiz olduğundan xəbər

verir, – elə bu, min illər boyu kişiləri barmağa dolamağa imkan verir. İnsanlarda ən parlaq şəkildə ifadə olunmuş – acgözlüyü, şəhvəti, güclü qorxunu axtarıb tapın. Onlar bu hisslərlə bacarmır, onların üzərində, demək olar ki, hakim ola bilmirlər. Əgər ətrafdakılar nəyinsə üzərində hakim deyildirlərsə, hakimiyyəti öz əlinizə alın və bunu onların əvəzində edin.

QANUNA RİAYƏT EDİLMƏSİ (4)

Arabella Xantinqton on doqquzuncu əsrin sonlarında dəmir yolu üzrə çox böyük maqnat olan Kollis P. Xantinqtonun arvadı idi. Mənşəcə o, olduqca sadə ailədən idi, kübar cəmiyyətində tanınması ona böyük zəhmət bahasına gəlmişdi. Əgər Arabella özlərinin San-Fransiskodakı mülkündə ziyafət verirdisə, elitanın yalnız az sayda nümayəndəsi orada iştirak etməklə onu şərəfləndirirdi. Əksəriyyət isə, onu sərvət həvəskarı hesab edir və özlərinə bərabər tutmurdular. Ərinin misli-bərabəri olmayan sərvəti sayəsində missis Xantinqtonun ətrafında sənət əsərləri ticarətçiləri fırlanır, ancaq onu layiq olmadığı mövqeni tutan adam hesab edirdilər. Yalnız bir nəfər – rəsm əsərləri ticarətçisi Cozef Düvin onunla başqa cür rəftar edirdi.

Düvin özünün Arabella ilə tanışlığının ilk bir neçə ilində ona heç bir bahalı mal sırımağa cəhd etmədi. Bunun əvəzinə, Arabella qəşəng mağazalara getdikdə, Düvin onu müşayiət edir, onunla maraqlı söhbətlər edir, ona özünün tanış olduğu krallar və şahzadələr haqqında danışırdı və s. Missis Xantinqton xoşbəxt idi: nəhayət, o, kübar cəmiyyətdən elə adamla rastlaşmışdı ki, onu çiyrəndirmir, əksinə, özünə bərabər tutur, hətta nədəsə üstün olduğunu etiraf edirdi. Bununla bərabər, Düvin ona heç bir şey satmağa cəhd etməyərək, tədricən və təngə gətirmədən ona özünün estetik baxışlarını öyrətdi, yəni ən yaxşı sənət əsəri, ən baha olandır. Düvin həmişə özünü elə aparırdı ki, guya Arabella anadangəlmə incə zövqə malikdir və

eyni zamanda, onu da bilirdi ki, Arabella dünyaya onun gözləri ilə baxmağa başlayana qədər, onun bədii zövqü dəhşətli idi.

1900-cü ildə Kollis Xantinqtonun ölümündən sonra Arabella çox böyük vərəsəyə sahib oldu. O, qəfildən Rembrandın, Velaskesin bahalı şah əsərlərini almağa başladı, özü də tabloları yalnız Düvindən alırdı. Bir neçə il sonra Düvin ona Heynsboronun fırçasından çıxmış «Mavi oğlan» tablosunu görünməmiş qiymətə satdı – həmin vaxt hələ heç kim sənət əsərinə bu qədər pul verməmişdi; fakt həm də ona görə təəccüblü idi ki, alıcı kolleksiya toplamağa lap yaxın vaxtlarda aludə olmuşdu.

İZAHI

Cozef Düvin Arabella Xantinqtonu ilk dəfə görən kimi, dərhal sınayıb bələd oldu. Düvin onun daxili aləminin nədən ibarət olduğunu başa düşdü: Arabella ətrafdakıların onunla hesablaşmamasından, öz mühitlərinə qəbul etməməsindən əziyyət çəkirdi. O, qara camaat sırasından çıxması üzündən, tam dəyərli olmamasını ürək ağrısı ilə hiss edərək, özünün yeni sosial rolda möhkəmlənməsinə kömək edilməsinə kəskin ehtiyac duyurdu. Düvin gözlədi. Arabellanı rəsm kolleksiyası toplamaq üçün dilə tutmaq əvəzinə, Düvin tələsmədi, onunla neytral mövzularda söhbətlər apararaq, onun zəif cəhətlərindən incəliklə istifadə etdi. Arabella hiss etdi ki, təkcə dünyanın ən varlı adamlarından birinin həyat yoldaşı kimi deyil, həm də öz-özlüyündə maraqlı ola bilər – bununla özünə məhəbbət qazandıra bilər. Düvin Arabella ilə münasibətdə özünü mərhəmətli və ya təkəbbürlü aparmadı, ona dərs keçmədi, ancaq öz təsəvvürlərini ona tədricən, qəsdsiz təqlid etdi. Nəticədə o, çox yaxşı və sadiq müştəri imicini təmin etdi.

Tanınmaqda və özünü təsdiqdə insani ehtiyac, özünü böyük görmək tələbatı – böyük uğurla istifadə etmək mümkün olan zəiflikdir. Sizdən tələb olunan şey – insanı onun zövqünə, sosial vəziyyətinə və ya ağlına uyğun olaraq, sakitləşdirmək üsulu tapmaqdan, özünə inamlı hiss etməsinə kömək etməkdən ibarətdir. Balıq tilova düşdükdə, tilovun ipini yellədin, onu qarmaqda illərlə saxlayın, o, qarmaqdan çıxmayacaqdır – çünki sizin rolunuz faydalıdır, siz ona özünün özünə əldə edə bilmədiyini verirsiniz. Onlar ola bilsin, sizin ona hiylə gəldiyinizdən heç vaxt şübhələnə bilməsinlər, yox, əgər başa düşsələr, çətin ki, hiddətlənsinlər – çünki siz ona, özünü inamlı və yaxşı hiss etməsi üçün lazımsınız, bu isə baha başa gəlir.

QANUNA RİAYƏT EDİLMƏSİ (5)

1862-ci ildə Prussiya kralı Vilhelm Otto fon Bismarkı birinci nazir və xarici işlər naziri təyin etdi. Bismark özünün qətiyyətliliyi, şöhrətpərəstliyi və ölkənin hərbi qüdrətinin möhkəmlənməsinə can atması ilə məşhur idi. Parlamentdə və nazirlər kabinetində, onsuz da kral hakimiyyətini məhdudlaşdırmaq istəyən liberallar üstünlük təşkil etdiyindən, Bismarkı belə məsul vəzifəyə təyin etmək, olduqca təhlükəli addım idi. Kraliça Avqusta kralı fikrindən daşındırmağa cəhd etdi, ancaq bu dəfə, o, fikrində qəti idi.

Bismarkın təyinindən cəmi bir həftə keçmişdi ki, o, nazirlər qarşısında çıxış edərək, hökuməti ordunu genişləndirməyin zəruri olduğuna inandırdı. O, nitqini bu sözlərlə bitirdi: «Dövrümüzün əsas məsələləri nitqlər və qətnamələrlə deyil, dəmir və qanla həll ediləcəkdir». Onun nitqi tez bir zamanda bütün Almaniyaya yayıldı. Kraliça ərinin üstünə qışqırdı ki, Bismark barbardır, militaristdir. O, Prussiyada hakimiyyəti qəsb etməyə hazırlaşır və Vilhelm yubanmadan onu istefaya göndərməlidir. Liberal hökumət də kraliça ilə həmrəy idi. İctimai etiraz o dərəcədə güclü idi ki, Vilhelm, Fransa kralı XVI Lüdovik kimi, həyatını edam meydançasında qurtaracağından ehtiyat etməyə başladı, ancaq o, Bismarkı birinci nazir vəzifəsində saxladı.

Bismark bilirdi ki, nə qədər gec deyil, kralın qəbuluna düşmək lazımdır. O, bunu da başa düşürdü ki, səhvə yol verib və özünün kəskin sözlərinin yaratdığı təəssüratı indi yumşaltmalıdır. Ancaq o, öz strategiyasını ölçüb-biçərək qərara aldı ki, üzr istəməyəcək, birbaşa onun əksinə hərəkət edəcək. Bismark kralı yaxşı tanıyırdı.

Bismark kralla görüş anına qədər, gözlənildiyi kimi, kraliça onun fikrini məlum yöndə köklədi, o, gərgin həyəcan içərisində idi. Kral gilyotində başının vurulması qorxusunu bildirdi. Ancaq Bismark qəti cavab verdi: «Nə olsun, onda biz ölək! Bu tez və ya gec baş verəcək, daha ləyaqətli ölüm fikirləşmək olarmı? Mən öz hökmdarımı və himayədarımı axıra qədər müdafiə edərək öləcəyəm. Əlahəzrət, Siz ölərkən öz qanınızla Allahın verdiyi hökmdarlıq, kral hüququnuzun qanuniliyini təsdiq edin. Ruhunuzu və cisminizi şərəflə təhlükə altına qoyaraq, İlahi mərhəmətin bəxş etdiyi hüququ qoruyaraq, edam meydançasında və ya döyüş meydanında ölməyin fərqi yoxdur!» O, Vilhelmin kral şərəfinə monarx və ordunun ali baş komandanı kimi müraciət edərək, sözünə davam etdi. Kral adamların ona təzyiq etməsinə necə yol verə bilərdi? Birinci nazir kralı nəinki arvadının və parlamentin əleyhinə qaldırdı, həm də onu ordunu möhkəmləndirməyə razı saldı – bu, Bismarkın can atdığı əsas məqsəd idi.

İZAHI

Bismark kralın hər tərəfdən təzyiq hiss etdiyini bilirdi. Ona məlum idi ki, Vilhelm hərbi təhsil almışdır, o, güclü şərəf hissinə malikdir, həm də arvadına və parlamentə qarşı durmaq qabiliyyətinə malik olmadığına görə, qəlbinin dərinliyində xəcalət çəkirdi. Vilhelm böyük və qüdrətli hökmdar olmağı gizlində arzu edirdi, ancaq öz iddialarını deməyə cəsarət etmirdi, belə ki, həyatını XVI Lüdovik kimi başa vurmaqdan qorxurdu. Çox vaxt yalançı igidlik, qorxaqlığı ört-basdır etdiyi

kimi, Vilhelmin qorxaqlığı arxasında onun mərdlik və qəhrəmanlıq nümayiş etdirmək tələbatı gizlənirdi.

Vilhelmin pasifist (yalançı sülhpərvərlik) fasadın arxasından şöhrətə can atdığını hiss edərək, Bismark kralın öz cəsarətinə inamsızlığından istifadə etdi. Bunun nəticəsi üç müharibə və Almaniya imperiyasının əsasının qoyulması oldu. Qorxaqlıq – ətrafdakıların zəifliyindən istifadə edənlər üçün qızıl xəzinəsidir. Utancaq sakit adamlar çox vaxt özlərinin əksinə çevrilməyi möhkəm arzu edirlər – onlar Napoleon olmaq istəyirlər. Ancaq onların buna daxili qüvvəsi çatmır. Siz onları qəti hərəkətlərə sövq edərək, onların Napoleonu ola bilərsiniz, bu sizə öz problemlərinizi həll etməyə kömək edər və eyni zamanda, onların sizdən asılılığını gücləndirər. Yadda saxlayın: əks olanı axtarıb tapın və fasada vurulmuş lövhədə yazılana heç vaxt inanmayın.

OBRAZ:
MƏNGƏNƏ

Sizin düşməninizin gizli saxladığı sirləri, ucadan demədiyi məxfi fikirləri vardır. Ancaq onlar üzə çıxır, o, buna mane olmaq üçün gücsüzdür. Haradasa – onun başında, ürəyində və ya mədəsində zədə, ağlında zəif yer vardır. Bu zədəni axtarıb tapıb, zəif yeri aşkar edib, düşməninizdən öz kefiniz istəyən kimi istifadə etməyə başlayın.

MÖTƏBƏR FİKİR

«İstənilən adama təsir etmək üçün vasitələr tap. Bu bacarıq sanki adamları öz iradələri ilə hərəkət etməyə məcbur edir. Burada qətiyyətdən əvvəl, bacarıq mühümdür. Sən hər kəsə necə yanaşmaq lazım olduğunu bilməlisən. İstənilən hərəkətin, istənilən iradi aktın motivi var, onların necə olması isə fərdi zövqdən asılıdır. Bütün insanlar pərəstiş etmək istəyir-

lər – kimin üçünsə bu, şöhrət, başqaları üçün eqoizm, xudbinlikdir, mənfəətpərəstlikdir. Məharət, bütün bu bütləri tanımaqdan və onları özünə xidmət etməyə məcbur etməkdən ibarətdir. İnsanın vadaredici motivlərini bilərək, bununla onun qəlbinə açar tapmış olursan.»

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

İnsan zəifliklərindən istifadə etməkdə ciddi təhlükə gizlənir: siz nəzarət edə bilmədiyiniz proseslərin baş verməsinə səbəb ola bilərsiniz.

Hakimiyyət oyunlarında həmişə bir neçə gedişi əvvəlcədən hesablamaq və planlaşdırmaq lazımdır. Bu zaman siz ətrafdakıların daha emosional olması və bu cür tədbirlilik qabiliyyətinə malik olmaması mühakiməsinə əsaslanırsınız. Əgər siz onların zəif yerinə, tam nəzarət edə bilmədikləri sahəsinə təsir edirsinizsə, planlarınızı poza biləcək emosiyaların yaranması təhlükəsi ilə üzləşə biləcəyinizi də nəzərə almalısınız. Qorxaq adamı qəti hərəkətlərə təhrik edərək, birdən görürsünüz ki, o, həddindən artıq uzağa gedir; diqqət və sitayişdə tələbatı təmin edərək, aşkar edirsiniz ki, obyekt sizi bir kənara ata biləcək dərəcədə özünə qürrələnir. Köməksizlik, infantillik (uşaqlıq dövrünün xüsusiyyətlərinin saxlanılması) sizə münasibətdə təcavüzkarlığa çevrilir.

Bu və ya digər zəiflik emosiyalara nə qədər çox qarışırsa, potensial təhlükə bir o qədər böyük olur. Buna görə də, bu oyunda tələb olunan hüdudları unutmayın, qurbanınızı özünüzə tabe edərək, heç bir halda başınızı bu işə tam qarışdırmamağa çalışın. Qurbanınız üzərindəki hakimiyyətiniz sizi məst etməməlidir, o – məqsəd deyildir, hansısa daha böyük şeyə nail olmaq üsuludur.

OTUZ DÖRDÜNCÜ QANUN

ÖZ HƏRƏKƏTLƏRİNDƏ ŞAHANƏ OL: ÖZÜNÜ ŞAH KİMİ APAR VƏ ŞAH KİMİ DƏ QƏBUL EDİLƏCƏKSƏN

QANUNUN MAHİYYƏTİ

Özünüzü necə göstərməyiniz çox vaxt sizinlə necə rəftar edilməsi ilə müəyyən edilir. Uzun müddətli ünsiyyətdə özünüzü bayağı və ya cahil göstərdikdə, hörmətə nail ola bilməzsiniz. Çünki şah özü-özünə hörmət edir və ətrafdakılarda da həmin hissi doğurur. Özünüzü inamlı və əzəmətli tutmaqla, qismətinizin başda tac gəzdirmək olduğunu göstərirsiniz.

QANUNUN POZULMASI

1830-cu ilin iyulunda Parisdə baş vermiş inqilab nəticəsində kral X Karl taxt-tacdan əl çəkməyə məcbur oldu. Varis təyin etmək məqsədi ilə ölkənin ən zəkalı adamlarından təşkil edilmiş komissiya Orlean hersoqu Lui-Filippin üzərində dayandı.

Lap əvvəldən aydın idi ki, Lui-Filipp tamam başqa tip kral olacaqdır. Bunun əsas səbəbi, onun kral ailəsinin başqa qolundan olması, taxt-tacın irsən keçməməsindən, hökmdarlığın legitimliyinin şübhə altına alınması deyil, Lui-Filipp dəbdəbəli məclisləri və kral hakimiyyətinin zahiri atributlarını sevməməsi, habelə bankirlər arasında dostlarının, zadəganlardan həddindən artıq çox olmasında idi. O, Napoleon kimi kral qanunlarının yeni külliyyatını yaratmağa hazırlaşmayaraq, onu taxta dəvət etmiş biznesmenlərə və orta sinfin nümayəndələrinə yaxınlaşmaq üçün öz statusunu aşağı salmaq istəyirdi. Buna görə də, Lui-Filippin adı səltənət və taxt-tacla deyil, Parisin küçələrindən sanki burjua gəzintidə olduğu kimi qürurla keçdiyi boz şlyapa və çətirlə əlaqələndirilirdi. Lui-Filipp Fransanın çox böyük bankiri Ceyms Rotşildi saraya dəvət etdikdə, onu özünə bərabər adam kimi qəbul etdi. Özündən əvvəlki kralların hər hansı birindən fərqli olaraq, müsyö Rotşildlə işlər barədə məmnunluqla danışdı, çünki pulu sevir və kifayət qədər sərvət toplamışdı.

«Burjua-kralın» başı hökmdarlığa qarışmışdı, adamlar isə, ona nifrət bəsləyirdilər. Aristokratiya kralın şahanəliyə bu dərəcədə yaraşmayan hərəkətlərinə və bir neçə il ərzində ondan asılı olmağa dözmədi. Nə monarxa, nə də sadə adamların nümayəndəsinə oxşamayan hökmdar, X Karlı təqib etmiş radikallar da daxil olmaqla, sıraları artan kasıblar sinfini də təmin etmədi. Lui-Filippin xüsusilə sədaqətli olduğu bankirlər tezliklə başa düşdülər ki, ölkəni kral deyil, onlar idarə edirlər və getdikcə krala hörmətsizliklə yanaşdılar. Kral ailəsi üçün təşkil

edilmiş qatarla səfərə çıxmaq ərəfəsində, Ceyms Rotşild gecikdiyinə görə kralı sadəcə olaraq danladı – özü də camaat arasında! Kral bir dəfə bankiri özünə bərabər səviyyədə qəbul edib, yenilik tətbiq etdi, indi bankir ona üstdən aşağı baxırdı.

Bir vaxtlar Lui-Filippin sələfinin devrilməsinə gətirib çıxarmış fəhlə üsyanları yenidən başlandı və kral onları amansızlıqla yatırtdı. O, bu qədər qızğınlıqla nəyi müdafiə edirdi? O, nə etinasızlıqla yanaşdığı monarxiya institutunu, nə də onun hakimiyyətinin yol vermədiyi demokratik respublikanı müdafiə etmirdi. Aydın idi ki, o, başqa şeyi deyil, məhz öz kapitalını və bankirlərin kapitalını qoruyur – bu, vətəndaşların sədaqətini qazanmağın mümkün olduğu yol deyildi.

1848-ci ilin əvvəlində, bütün siniflərdən olan fransızlar, ölkədə əsl demokratiya yaradan seçki sisteminin islahatını tələb edərək, nümayişlər təşkil etdilər. Fevralda nümayişlərdə daha çox adam iştirak etməyə başladı. Lui-Filipp öz populyarlığını qaldırmaq üçün baş naziri vəzifədən çıxartdı və onun yerinə liberal adam təyin etdi. Ancaq bu addım əks səmərə verdi: adamlar hiss etdilər ki, kralı devirə bilərlər. Nümayişlər böyüyüb küçələrdə atışmaların olduğu və barrikadaların qurulduğu əsl inqilaba çevrildi.

Fevralın 23-də gecə vaxtı parislilər sarayı mühasirəyə aldılar. Qısa bir zamanda Lui-Filipp taxt-tacdan əl çəkməsi barədə sənəd imzaladı və elə həmin gecə İngiltərəyə qaçdı. O, yerində nə varis, nə də varisliyə namizəd saxlamadı, – onun bütün hökuməti, sanki şəhərdə öz çıxışını gəzərgi sirk kimi başa vurdu və camaata qarışıb getdi.

İZAHI

Lui-Filipp krallara və liderlərə təbii şəkildə xas olan auranı şüurlu şəkildə məhv etdi. O, möhtəşəmliyin rəmzlərini ələ saldı, belə ki, liderin adi vətəndaşlardan heç nə ilə fərqlənməyəcəyi yeni dünyanın gələcəyinə inanırdı. O, haqlı

idi: kralların və kraliçaların olmadığı yeni dünya aşkar şəkildə astanada dayanmışdı. Bununla belə, o, hakimiyyətin dinamikasında dəyişikliyi qabaqcadan xəbər verərək, köklü şəkildə yanıldı.

Kralın burjua şlyapası və çətiri əvvəlcə fransızları əyləndirirdi, ancaq tezliklə əsəbilik doğurdu. Adamlar bilirdilər ki, Lui-Filipp əslində onlar kimi deyildir, şlyapa və çətir, adamlarda ölkədə sanki hüquq bərabərliyinin yaranması xülyası doğurmaq məqsədi daşıyan özünəməxsus hiylədir. Əslində isə, cəmiyyətdə sərvət olduqca qeyri-bərabər bölünmüşdü. Hökmdarlarının bir qədər aktyorluq etməli olması, fransızlar üçün təbii görünərdi. Hətta bu hadisələrdən yarım əsr qabaq, Fransa inqilabı zamanı, qısa müddət hakimiyyətdə olmuş radikal Robespyer də bunu başa düşürdü, demokratik respublikanı yenidən imperiya rejiminə qaytarmış Napoleonun isə bu, qanında idi. Lui-Filipp siyasi səhnədən gedən kimi, fransızlar həqiqətdə nə istədiklərini göstərdilər: onlar Napoleonun qardaşı nəvəsini prezident seçdilər. Onu, demək olar ki, heç kim tanımırdı, ancaq onlar inanırdılar ki, o, böyük imperatorun güclü aurasını bərpa edəcək və «burjua-kralla» olan incə presedenti yumşaldacaq.

Hakimiyyət adamlarında bəzən özünü kütlə adamı obrazında yoxlamaq, özləri ilə təbəələrinin və ya tabeçiliyində olanların eyni olmaları xülyası yaratmaq həvəsi əmələ gəlir. Bu səhv hərəkətlə təəssürat yaratmağı nəzərdə tutan adamlar, tezliklə hiyləgərliyi yoxlayıb bələd olurlar. Onlar başa düşürlər ki, bu vaxt heç bir üstünlük əldə etmirlər – bütün bunların hamısı yalnız riyakarlıqdır, təbəələrin və ya tabelikdə olanların hökmdarla sanki ümumi taleli olduğunu göstərən oyundur. İşləyə bilən yeganə ümumilik variantı Amerika prezidenti Franklin Ruzvelt tərəfindən tapılmışdır. O, bildirmişdir ki, prezident, hətta qəlbində zadəgan olaraq qalsa da, dəyərliləri və idealları xalqla bölüşdürür. O, heç vaxt riyakarlıq etmir və onu kütlədən ayıran məsafəni aradan qaldırmağa cəhd göstərmirdi.

Məsafəni saxta dostluğun, yersiz hərəkətlərin köməyi ilə məhv etməyə cəhd edən liderlər sədaqət, qorxu və ya məhəbbət doğurmaq qabiliyyətini itirirlər. Lui-Filipp kimi, onlarda da, ruhlandırıcı heç bir şey yox idi, belə ki, onlar hətta gilyotinə də layiq deyillər – onlar üçün ən yaxşısı, sadəcə olaraq, gecələrin birində yox olmaqdır, sanki heç vaxt olmamışlar.

QANUNA RİAYƏT EDİLMƏSİ

Xristofor Kolumb özünün əfsanəvi dəniz səyahətlərini həyata keçirmək üçün vəsait axtararkən, onun əhatəsində olanların bir çoxu onu italiyalı zadəgan nəslinin nümayəndəsi hesab edirdi. Bu səhv böyük tədqiqatçının ölümündən sonra, onun oğlu tərəfindən yazılmış tərcümeyi-halında təsbit edilmişdir. Orada göstərilir ki, Kolumbun əcdadı qraf Kolombo di Kastel di Kukkaroya və Montferrata gedib çıxır. Tərcümeyihalda deyilirdi ki, Kolombonun özü Qədim Romanın əfsanəvi sərkərdəsi Koloniusanın nəslindəndir, onun xalası oğlanları isə, ehtimala görə, Konstantinopol imperatorunun nəslinin birbaşa davamçısıdır. Həqiqətən şan-şöhrətli nəsildir. Ancaq bu, cəsarətli fantaziyadan başqa bir şey deyildir: əslində isə Kolumb adi toxucu Domeniko Kolombonun oğlu idi, Xristofor yeniyetmə olarkən, onun atası şərab dükanı açmış, sonralar isə bütün həyatı boyu pendir satmaqla dolanmışdır.

Özünün adlı-sanlı nəsildən olması haqqında mifi Kolumb özü yaratmışdı, çünki yeniyetmə yaşlarından hiss etmişdi ki, o, böyük işlər üçün yaranmışdır, ona anadangəlmə əzəmət, şahanəlik xas idi. Ticarət gəmisində sadə tacir həyatından bezən genuyalı Kolumb Lissabona köçdü. Özünün əsl-nəcabətli mövqeyi haqqında uydurduğu hekayətdən istifadə edərək, Lissabonun ən adlı-sanlı bir ailəsinin qızı ilə evlənərək, həmin ailəyə daxil oldu. Bu ailənin cəmiyyətin yuxarı təbəqəsi və hətta Portuqaliyanın kral ailəsi ilə əlaqələri var idi.

Kolumb arvadının qohumlarının köməyi ilə kral II Juanın qəbuluna düşdü və Asiyaya ən qısa yolu tapmaq məqsədi ilə Qərbə gəmi səyahətini maliyyələşdirmək xahişi ilə ona müraciət etdi. Kolumb özünün bütün kəşflərinin kralın şərəfinə ediləcəyini və onun adının veriləcəyini vəd etdi. Kolumb özü bir sıra imtiyazlar: dənizlərin və okeanların Böyük Admiralı, kəşf edəcəyi bütün ölkələrin vitse-kralı adları, həmin ölkələrlə ediləcək gələcək ticarətdən əldə edilən gəlirin 10 faizini əldə etmək istəyirdi. Bütün bu imtiyazlar irsən keçməli və vaxt etibarı ilə məhdudiyyətsiz olmalı idi. Kolumb yaxın keçmişdə adi tacir olmasına, gəmiçilik haqqında, demək olar ki, heç nə bilməməsinə, kvadrantla işləməyi bacarmamasına və adamlara heç vaxt rəhbərlik etməməsinə baxmayaraq, belə xahişlə müraciət etdi. Sözün qısası, düşündüklərini yerinə yetirmək üçün onun heç bir ixtisası yox idi. Bundan başqa, onun müraciəti olduqca ümumi şəkildə yazılmışdı, orada yalnız yayğın planlar ifadə edilmişdi, təfərrüatı isə ümumiyyətlə işlənməmişdi.

Kolumb sözünü qurtardıqda, Juan gülümsədi: o, təklifi nəzakətlə rədd etdi, ancaq gələcək əməkdaşlıq imkanından imtina etmədi. Bu vaxt Kolumb sonralar xatırladığı xırda bir cəhətə fikir verdi: kral dənizçinin xahişini rədd etsə də, onu qanuni, mövcud olmaq hüququna aid xahiş hesab etdi. O, Kolumbu masqaraya qoymadı, ondan əsl-nəcabətini və borcunu ödəyə bilmək qabiliyyətini soruşdu. Kolumbun özünü inamlı aparması kralda yaxşı təəssürat doğurdu, bu dərəcədə qətiyyətli adamla ünsiyyətdə olmaq açıq şəkildə onun xoşuna gəldi. Qəbul Kolumbu inandırdı ki, onun iddiaları həddindən artıq şişirdilməmişdir, intuisiyası isə onu aldatmadı: o, göydən Ayı istəyərək, öz həmsöhbətinin gözündə dərhal ucaldı, çünki kral belə xahişlə müraciət edənin ya ağılsız olduğunu, – Kolumb isə dəliyə bənzəmirdi – ya da bacarıqlı adam olduğunu ehtimal etməli idi.

Bir neçə ildən sonra Kolumb İspaniyaya köçdü. Portuqaliyada olan əlaqələrindən istifadə edərək, o, İspaniya sarayının yu-

xarı dairəsinə daxil oldu, çox məşhur maliyyəçilərdən borc aldı, hersoqlarla və şahzadələrlə bir stol arxasında əyləşdi. Onların hər birinə Portuqaliya kralına etdiyi xahişlə müraciət etdi – özünün Qərbə dəniz səyahətini maliyyələşdirilməsini xahiş etdi və özü üçün həmin şərtləri irəli sürdü. Nüfuzlu hersoq Medina kimi bəziləri kömək etmək istədilər, ancaq bacarmadılar, çünki Kolumb onun tələb etdiyi titulları və hüquqları vermək hakimiyyətinə malik deyildilər. Ancaq Kolumb geri çəkilmədi. O, başa düşdü ki, onun xahişini yalnız bir adam yerinə yetirə bilər: kraliça İzabella. 1487-ci ildə, o, kraliçanın görüşünə getməyə nail oldu, Kolumb kraliçanı səyahətin zəruri olmasına dərhal inandıra bilməsə də, onu heyran qoydu və sarayda tez-tez onun şəxsi qonağı oldu.

1492-ci ildə İspaniya, nəhayət ki, mavrlardan (orta əsrlərdə Afrika ərəblərinin və bərbərlərinin ümumi adı) – uzun əsrlər boyu ölkənin xeyli hissəsini tutmuş işğalçılardan yaxa qurtara bildi. Müharibənin ağır yükü aradan qalxdıqda, İzabella xəzinədən sərbəst şəkildə istifadə etmək vaxtının çatdığını hiss etdi və özünün dostuna çevrilən dəniz səyyahına kömək etməyi qərara aldı, üç gəmi və avadanlıq almaq, komanda heyətinin maaşı və Kolumbun mükafatlandırılması üçün vəsait ayırdı. Kolumbun xahiş etdiyi bütün titulları və rütbələri almasına təminat verən müqaviləni, kraliçanın hazırlaması xüsusilə mühüm idi. Onun imtina etdiyi yeganə tələb Kolumbun kəşf edəcəyi ölkələrlə ticarət dövriyyəsindən əldə ediləcək gəlirin 10 faizinin ayrılması idi: bu tələb cəfəng idi, belə ki, Kolumb onun qüvvəsinin zaman etibarı ilə qeyri-məhdud olmasını təkid edirdi (əgər bu bənd çıxarılmasaydı, Kolumbun ailəsi planetin ən varlısı olardı).

Tələblərinin yerinə yetirilməsindən məmnun qalan Kolumb elə həmin il Asiyaya qərb yolunu axtarmaq üçün dəniz səyahətinə yollandı (demək lazımdır ki, o, öz komandasına yüksək ixtisaslı naviqator (gəmiçilik mütəxəssisi) götürdü). Asiyaya

yolu tapmaq mümkün olmadı, ancaq Kolumb növbəti il yeni dəniz səyahətini maliyyələşdirmək üçün kraliçaya daha böyük iddialı xahişlə müraciət etdi, kraliça razılaşdı. Artıq həmin vaxt kraliça Kolumbu böyük gələcək gözlədiyini görürdü.

İZAHI

Kolumb olduqca qabiliyyətsiz dəniz səyyahı idi. O, dəniz haqqında, onun gəmisinin adi matrosunun bildiyindən az bilirdi, kəşf etdiyi torpaqların uzunluq və en dairəsini müəyyən etməyi bacarmırdı. Adanı qitə kimi qəbul edirdi, gəmi komandası ilə pis rəftar edirdi. Ancaq Kolumb bir məsələdə dahi idi: o, özünə qiymət qoymağı, özünü satmağı bacarırdı. Adi pendir alverçisi oğlunun, ticarət gəmisi xırda tacirinin adlı-sanlı təbəqənin və kral ailələrinin hüsn-rəğbətini qazanmasını başqa cür necə izah etmək olardı?

Kolumb aristokratiyanı heyran qoymaqda qeyri-adi qabiliyyətə malik idi. Bu qabiliyyət onun özünü düzgün təqdim edə bilmək bacarığı ilə izah edilir. Kolumb onun özünün həmin vaxtkı həqiqi qiymətinə tam tərs mütənasib olan inam saçırdı. Onun inamı təcavüzkar deyildi, nifrət doğuran həyasızlıqla layiq olmadığı yeri tutmaq iddiası deyildi, əksinə, təmkinli və tam ləyaqətli inam idi. Əslində, aristokratiya onun davranış tərzini özlərindən bilirdilər. Köhnə mətin aristokratiyanın gücü onda idi ki, onlar əlavə köməyə ehtiyac duymurdular. Aristokratiyanın fikrincə, Kolumb özü özünü göstərirdi: əsl-nəcabətlilik daha çox şeyə layiqdir və onun bunu tələb etmək hüququ vardır. Buna görə də, onlar Kolumbla dərhal daxili yaxınlıq hiss etdilər – axı, Kolumb onların özü kimi idi – əzəmət üçün yarandığını hiss edərək, kütlədən yuxarıya ucaldı.

Bir şeyi başa düşmək lazımdır: özünüzə qiymət təyin etmək öz ixtiyarınızdadır. Siz özünüzü necə göstərirsinizsə, özünüz haqqında düşündükləriniz də elə əks olunur. Əgər siz az şey istəyirsinizsə, ayaqlarınızı bir-birinə vuraraq salam verirsinizsə, adamlar bunların sizin xarakterinizin ifadəsi olduğunu hesab edəcəklər. Ancaq bu davranış sizin deyildir – bu, yalnız özünüzü ətrafdakılara hansı şəkildə nümayiş etdirmək istədiyinizi göstərir. Siz çətinlik çəkmədən özünüz üçün başqa, Kolumbsayağı sima yarada bilərsiniz: ruhi enerji, təmkinli inam və özünüzün tac daşımaq üçün doğulmağınız hissi.

HAKİMİYYƏTİN AÇARI

Uşaqlıq vaxtı, həyatın başlanğıcında biz çox böyük sərvətə, zənginliyə malik oluruq: biz bütün dünyanın özümüzə məxsus olduğunu hesab edir və onu əldə etmək istəyirik. Bu hiss o vaxta qədər saxlanılır ki, biz ilk dəfə cəmiyyətə düşür, öz karyeramızda ilk addımlarımızı atırıq. Ancaq yaşlaşmağımıza uyğun olaraq, ümidlərimiz boşa çıxır və uğursuzluğa məruz qalırıq, təcrübəmiz dünyanın sərhədlərini müəyyənləşdirir və tədricən bu sərhədlər daralır. Biz baş əyməyə, dabanlarımızı bir-birinə vurub salam verməyə, ən xırda şeylərə görə üzr istəməyə başlayır, özgə ərazisinə zorla girməyimizə görə öz təqsirimizi hiss edirik. Üfüqün belə yığılmasını yalnız bir üsulla: prosesi şüurlu şəkildə əks istiqamətdə aparmaqla – uğursuzluqların əhəmiyyətini azaltmağı öyrənməklə, məhdudiyyətlərə fikir verməməklə, özümüzü yaxşı şeylərə layiq olduğumuza inandırmaqla və uşaqlıqda olduğu kimi, özümüzü bunu tələb etməyə məcbur etməklə aradan qaldırmaq olar. Buna nail olmaq üçün biz özümüz müəyyən strategiya işləyib hazırlamalı və ondan möhkəm yapışmalıyıq. Bu, Tac Strategiyası adlandırılır.

Tac Strategiyası sadə səbəb-nəticə zəncirinə əsaslanır: əgər taleyin bizi böyük işlər üçün yaratdığına inanırıqsa, bu inam bizi tac kralın ətrafında aura yaratdığı kimi, biz də özünəməxsus şəfəq saçmağa başlayacağıq. Zahiri şəfəq və parlaqlıq ətrafdakılara yoluxmaqla bizim özümüzə bu qədər inamlı olma-

ğımızı şərtləndirəcəkdir ki, bunun da səbəbləri vardır. Başında tac gəzdirənlərə, belə görkəmlilərə – onların kimdənsə xahiş etmələri və ya nəyisə yerinə yetirmələri kimi daxili məhdudiyyətlər sanki yaddır. Onlar tam mənası ilə bunu ətrafa saçır. Əl-qolu bağlılıq və sıxılmaq yox olur. Tac Strategiyasını tətbiq edin – onun hansı bəhrə verdiyindən heyrətə gələcəksiniz. İstədikləri hər şeyi əldə edən xoşbəxt uşaqlardan nümunə götürün. Onların cazibədarlığı məhz yüksək iddialarında və böyük ümidlərindədir. Onların arzularına imkan yaratmaq böyüklərə sevinc bəxş edir – İzabellanın Kolumbun arzularını yerinə yetirərək sevindiyi kimi.

Tarixin gedişi ərzində əsilzadə nəsillərə mənsub olmayan adamlar – Vizantiyalı Feodor, Kolumb, Bethoven, Dizraeli – Tac Strategiyasına əməl etmişlər, belə ki, öz əzəmətinə möhkəm inanmışlar ki, bu da gələcəyi peyğəmbərcəsinə düzgün görməyə gətirmiş və o, həyata keçmişdir! Üsul sadədir: özünüzə inamınız sizin inamsızlığınızı aradan qaldırmalıdır. Hətta siz qəlbinizin dərinliyində özünüzü aldatmağınızı başa düşsəniz belə, kral görkəmi alın. Görəcəksiniz ki, sizinlə də müvafiq şəkildə davranmağa başlayırlar.

Tac, ola bilsin, sizi kütlədən fərqləndirsin, ancaq bunun real olması yalnız özünüzdən asılıdır: bunun üçün davranışınızla sizi və ətrafdakıları bir-birinizdən ayıran məsafəni göstərməklə, özünüzü xüsusi şəkildə aparmağınız lazımdır. Fərqləndiyinizi xüsusi olaraq nəzərə çarpdırmaq – şəraitdən asılı olmayaraq, həmişə özünüzü ləyaqətli aparmaq yaxşı üsuldur. Özünü kütlədən fərqləndirmək xüsusiyyəti Lui-Filippə yad idi – o, bankirlərin kralı idi. Buna görə də, təbəələri onu qorxuda bildilər – o, dərhal təslim oldu. Monarx məziyyətlərindən və əqidə möhkəmliyindən məhrum olan Lui-Filipp taxtda yalançı kral kimi görünürdü və tac onun başından asanlıqla düşdü.

Kral ədası özünü həyasız aparmaq yox, özünü inamlı – cəsarətli aparmaqdır. Bəzən krallara həyasızlıq xüsusiyyəti xas

olur, ancaq belə halda o, yalnız həyəcan və zəifliyi büruzə verir. Bu isə, şahanə davranışa birbaşa əks olandır.

Həbəşistanı 1930-cu ildən başlayaraq qırx ildən artıq idarə etmiş Hayle Selassiye bir vaxtlar Teferi Mekonnın adlı yeniyetmə idi. O, adlı-sanlı ailədən çıxmışdı, ancaq taxta sahib olmaq üçün real imkanlara malik deyildi. Belə ki, həmin vaxtda kral II Meneliklə onun qohumluğu həddindən artıq uzaq idi. Buna baxmayaraq, onun şahanə görkəmi və cəsarətli ədası ətrafdakıları heyran qoyurdu.

Teferi on dörd yaşından sarayda yaşayırdı, burada Menelikin hüsn-rəğbətini qazandı və onun sevimlisinə çevrildi. Teferinin istehzalara qarşı göstərdiyi təmkinlilik, onun dözümlü və incə davranışı kralı heyran edirdi. Həyasız, lovğa və paxıl olan digər saray gəncləri zərif yeniyetməyə rahatlıq vermirdilər. Ancaq o, heç vaxt özündən çıxmırdı – bu, onun heç vaxt enmədiyi təşvişə düşmək əlaməti olardı. Saray adamlarından kimlərsə artıq hiss etmişdi ki, bu oğlan gözəl günlərin birində çox yüksəyə ucalacaqdır. O da özünü elə aparırdı ki, sanki bu baş vermişdir.

Bir müddət sonra, 1936-cı ildə İtaliya faşistləri Həbəşistanı işğal etdikdə, artıq indi Hayle Selassiye adlandırılan Teferi sürgündə idi, o, öz ölkəsinin məsələsinə baxılması xahişi ilə Millətlər Liqasına müraciət etdi. Auditoriyada olan italiyalılar onun çıxışını fitə basdılar, ancaq o, özünü elə ləyaqətlə apardı ki, sanki qaya parçası kimi dözümlü idi. Bu, onu ucaldırdı, rəqibləri isə, onun fonunda olduqca xoşagəlməz görünürdü. Yeri gəlmişkən, ləyaqət və şərəf istənilən çətin şəraitdə xilasedici uğurlu maskadır: bir sözlə, heç nə sizin qanınızı qaralda bilməz. Əgər siz cavab vermək səviyyəsinə qədər enmək istəyərsinizsə, bunun üçün istənilən qədər vaxtınız olacaqdır. Fövqəladə dərəcədə güclü mövqedir.

Şahanə davranışın başqa tətbiqləri də vardır. Aristokrat görkəmin vacib olması qədim zamanlardan bəri fırıldaqçılara mə-

lum idi. O, bir tərəfdən adamları tərksilah edir, sayıqlığını azaldır və fırıldaqçıları daha az şübhəli edir, digər tərəfdən isə qorxuda və müdafiə mövqeyi tutmağa məcbur edər. Qraf Viktor Lüstiq bunu əla bilirdi: sadəlövhün müdafiə mövqeyi tutan kimi, dərhal uduzması labüd idi. Digər fırıldaqçı Sarı Uşaq Veyl pul kəsməyə dair mistik üsul barədə məlumat verərək, artıq ağlagəlməz dərəcədə varlanmasına hamıda inam yaradaraq, özünü hökmdarsayağı təkəbbürlü aparır. Sadəlövhlər varlanmaq imkanı əldə etməyi arzulayaraq, onların işləri ilə məşğul olması üçün dələduza yalvarırdılar, bu imkanın mövcud olmasına dələduz təkcə öz görkəmi ilə inandırırdı.

Nəhayət, şahanə davranışın nümayiş etdirilməsində zəruri olan daxili psixoloji mexanizmi gücləndirmək üçün müəyyən zahiri üsullar vardır ki, bunlar da, sizin tələb olunan səmərəyə nail olmağınıza kömək edəcəkdir.

Birinci, Kolumbun strategiyasını tətbiq edin: cəsarətli iddialarla çıxış edin. Yüksək qiymət təyin edin və onu aşağı salmayın.

İkinci, mövqeyinə görə hamıdan yüksək olanı düşmən qismində seçib, öz ləyaqət hissinizi təzahür etdirin. Əgər siz ən başlıca olana hücum edirsinizsə, bu hücum sizi onunla bir səviyyəyə qoyur. Bu Davud və Qoliaf strategiyasıdır: böyük rəqib seçərək, siz öz əzəmətinizin görünüşünü yaradırsınız.

Üçüncü, yüksək mövqedə olana müəyyən hədiyyə verin. Bu himayədarı olanların strategiyasıdır: haminizə hədiyyə verərək, siz bununla öz aranızda bərabərliyin olduğunu göstərirsiniz. Bu köhnə fırıldaqçılıq fəndidir: götürə bilmək üçün ver.

İntibah dövrünün yazıçısı Pyetro Aretino Mantuya hersoqunu hami qismində əldə etməyi arzu edərək, bilirdi ki, yaltaqlıq və quyruq bulamaqla, o, yalnız əks nəticəyə nail ola bilər: hersoq onu ləyaqətsiz hesab edər. Belə olduqda, o, hersoqa hədiyyə verdi: bu, Aretino ilə çox yaxın dostluq edən Tisiananın tablosu idi. Hersoq hədiyyəni qəbul edərək, sanki özü ilə ədib arasındakı bərabərliyi etiraf etdi. Hersoq aristokratik xüsusiyyəti olan adamla işi olduğunu başa düşüb, özünü sərbəst hiss etdi. O, Aretinonu səxavətlə mükafatlandırdı.

Hədiyyə strategiyası incə işdir, ancaq parlaq nəticələr verir, çünki siz yaltaqlıq etmirsiniz: siz alicənab əda ilə, iki adam arasında bərabərliyi müəyyən edən kömək barədə xahiş edirsiniz. Onlardan birinin çoxlu pulu vardır – nə etmək olar, iş belə gətirmişdir!

Yadda saxlayın: öz qiymətinizi siz özünüz təyin edirsiniz. Siz az istəyərsinizsə, düz o qədər də alarsınız. Çox istəyərsinizsə – bununla göstərirsiniz ki, siz əslində şahanə hörmətə layiqsiniz. Hətta sizə kömək etməkdən imtina edənlər, sizin özünüzə olan inamınıza hörmət hiss edəcəklər, bu hörmət isə tez və ya gec öz rolunu oynayacaq və qabaqcadan duymaq mümkün olmayan gözlənilməz üsullarla əvəzini çıxaracaqdır.

OBRAZ:

TAC

Onu başınıza qoyun, o, sizi görkəminizi dəyişməyə məcbur edəcəkdir – sizdə şəfəq saçan təmkinli ləyaqət meydana çıxacaqdır. Heç vaxt şübhənizi göstərməyin, şahanəliyi itirməyin, yoxsa tac başınızdan düşər. O, daha layiqli olana keçər. Özünüzün nə vaxt tacqoymaya dəvət ediləcəyinizi gözləməyin. Dünyanın çox böyük imperatorları özləri özlərinin başına tac qoymuşlar.

MÖTƏBƏR FİKİR

«Hər kəs öz ədasında şahanə olmalıdır. Qoy sənin hər bir hərəkətin, hətta adi hərəkətin belə öz sahəsində şahanə

hərəkətə bərabər olsun. İşlərində əzəmətli və fikirlərində uca ol. Özünün bütün hərəkətlərinlə göstər ki, hətta həqiqətdə şah olmasan belə, şahlığa layiqsən».

Baltazar Qratsian

MEDALIN İÇ ÜZÜ

Şahanə görkəm sizi ətrafdakılardan yüksəyə qaldırmaq üçündür. Əgər siz həddindən artıq yüksəyə qalxarsınızsa, bu, sizin məhvinizə gətirər. Heç vaxt dəhşətli səhvlər etməyin – özünüzün adamlardan uca olduğunu hesab edib, onları alçaltmayın. Həmçinin həddindən artıq yüksəkdə təklikdə uçmayın – bu, sizi çox yaxşı hədəfə çevirər. Davranışda həddindən artıq aristokratlığın təhlükəli olduğu vaxtlar da olur.

İngiltərə kralı I Karlın hakimiyyəti dövründə 1640-cı illərdə monarxiya institutu üçün məyusluq doğuran ağır vəziyyət yarandı. Bütün ölkədə, başçısı Oliver Kromvel olan qiyam tüğyan edirdi. Əgər Karl ağıllı olsaydı, islahatları müdafiə edib vəziyyəti başa düşsəydi və öz səlahiyyətlərinin müəyyən hissəsindən açıq şəkildə könüllü imtina etsəydi, hadisələr başqa yolla cərəyan edərdi. Bunun əvəzində, o, öz hakimiyyətinə və monarxiyanın ilahi mənbəyinə qəsd edilməsi ilə bağlı qəzəb nümayiş etdirən mövqedə dayandı. Onun şəraitə uyğun gəlməyən hökmdarlığı xalqı qəzəbləndirdi və nəticədə Karlın boynu vuruldu. Unutmayın: kobudluq və etinasızlıq yox, şahanəlik saçmaq lazımdır.

Bu doğrudur ki, krala kobud, yaltaq, ancaq onu əyləndirən ədəbsizliklə sataşmaq olar. Ancaq bu halda üstün olmağınız üçün ətrafınızdakılardan daha böyük vulqarlıqla, kobudluqla fərqlənməlisiniz ki, bu oyun da təhlükəlidir: həmişə eləsi tapılır ki, sizdən də alçaq olur, onda sizi istənilən vaxt cavan və vulqar olan təlxəklə əvəz etmək asan olacaqdır.

OTUZ BEŞİNCİ QANUN

VAXTI İDARƏ ETMƏK MƏHARƏTİNƏ YİYƏLƏN

QANUNUN MAHİYYƏTİ

Tələsdiyinizi heç vaxt büruzə verməyin – tələsiklik özünüzü və vaxtınızı idarə etmək bacarığınızın olmamasını üzə çıxarır. Həmişə təmkinli görünməyə çalışın, elə hesab edin ki, axırda hər şeyi özünüz həll edəcəksiniz. Sizi hakimiyyətə gətirəcək vaxtı düzgün seçməyi, zamanın nəbzini, meyllərini tutmağı öyrənin. Əgər vaxtı deyilsə, kənara çəkilməyi, vaxtı çatanda isə, var qüvvə ilə mübarizə aparmağı öyrənin.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

Jozef Fuşe seminariya-məktəblərinin nəzərə çarpmayan müəllimi qismində işə başladı, şəhərdən-şəhərə keçərək və uşaqlara riyaziyyatı öyrədərək, buna on ildən artıq (1780-ci illərdə) vaxt sərf etdi. Bu zaman o, kilsəyə dini borcunu vermədi, ruhani rütbəsi qəbul etmədi – onun daha böyük planları var idi. O, səbirlə özünün uğur anını gözləməyə başladı. 1789-cu ildə Böyük Fransa inqilabı başladıqda, Fuşe işə başlamaq vaxtının çatması qərarına gəldi: o, cübbəsini çıxardı, uzun saç buraxdı və inqilabçılara qoşuldu. Fuşe zamanın ruhunun tələb etdiklərini yerinə yetirdi. Belə həlledici vaxtda yola düşən gəmiyə sıçrayıb minməmək onun üçün faciə demək olardı. Fuşe gəmiyə çatdı: inqilabın rəhbəri Robespyerlə dostlaşaraq, üsyançıların sıralarında öz mövqeyini möhkəmləndirdi. 1792-ci ildə Fuşe Milli Konventdə (Fransa Respublikasının yeni Konstitusiyasını işləyib hazırlamaq məqsədilə həmin il yaradılmışdı) Nant şəhərinin nümayəndəsi seçildi.

Konventdə yerini tutmaq üçün Parisə gələn Fuşe mötədil və radikal yakobinçilər arasında çox ciddi fikir ayrılığının olduğunu görərək, hiss etdi ki, gələcəkdə tərəflərdən heç birinin qələbə çala bilməyəcəyi hamısından ağlabatandır. İnqilabı başlayanlar, eləcə də onu müdafiə edənlər və davam etdirənlər nadir hallarda hakimiyyəti əldə saxlaya bilirlər. Hakimiyyət, onu son nəticəyə çatdıranların əlinə keçir. Fuşe də məhz elə bu tərəfə qoşulmaq istəyirdi.

O, lazımi anı səhvsiz seçməkdə heyrətediləcək bacarığa malik idi. Həmin vaxt o, əksəriyyət təşkil edən mötədil kimi fəaliyyətə başladı. XVI Lüdoviki edam etmək və ya bağışlamaq məsələsinin həlli zamanı o, əksəriyyətin kralın başının vurulmasını istədiyini görərək, onun başının gilyotində vurulmasına səs verdi, bu səs nəticədə həlledici oldu. Həmin dəqiqədən Fuşe radikala çevrildi. Ancaq Parisdə gərginlik son həddə çatdı. O, fraksiyalardan biri ilə möhkəm birləşməyin təhlükəli olacağını qabaqcadan görüb, əyalətlərin birində vəzifə aldı, bu

imkandan istifadə edərək, vəziyyətin gərgin vaxtında nəzərlərdən uzaqda təhlükəsiz yerdə gözlədi. Bir neçə ay sonra, o, Lionda prokonsul vəzifəsi aldı və buradan onlarla aristokrata divan tutulmasını barmaqarası seyr etdi. Ancaq o, müəyyən məqamda, ölkədə əhval-ruhiyyənin dəyişdiyini hiss edərək, qətlləri dayandırmağa çağırdı – Fuşenin əllərini artıq al-qırmızı rəngə boyamış bütün qanlara baxmayaraq, Lionun vətəndaşları, onu, sonralar «terror» adını almış dəhşətdən qurtaran xilaskar kimi alqışladılar.

Həmin vaxta qədər Fuşe öz fəndlərini çox gözəl işlətdi, ancaq 1794-cü ildə, onun köhnə dostu Robespyer, Liondakı fəaliyyətinə görə hesabat verməsi üçün onu Parisə dəvət etdi. Robespyer terrorun başlıca hərəkətverici qüvvəsi idi. Onun əmri ilə yüzlərlə baş bədənindən ayrılırdı, elə görünürdü ki, onun artıq etibar etmədiyi Fuşeni də belə tale gözləyir. Son aylar gərgin mübarizə gedirdi: Robespyer Fuşeni təhlükəli iddialarda ittiham edib, onun həbsini tələb edərək, əleyhinə açıq şəkildə çıxış etdi. Hiyləgər Fuşe Robespyerin diktator hakimiyyətindən bezməyə başlayanların köməyinə arxalanaraq, o qədər də açıq hərəkət etmədi.

Fuşe bilirdi ki, nə qədər çox davam gətirərsə, bir o qədər çox narazı vətəndaşı öz tərəfinə cəlb edə bilər. Nüfuzlu və qüdrətli rəhbərə qarşı açıq çıxış etməzdən əvvəl geniş kömək əldə etmək lazım idi. Fuşe Robespyer qarşısında xalqın getdikcə artan qorxusundan istifadə edərək – heç kəs gilyotində başı vurulacaq növbəti qurban olmaq istəmirdi – həmin köməyi həm mötədillərin, həm də yakobinçilərin arasında tapdı. İyulun 27-i gəlib çatdıqda, Fuşenin bütün mülahizələri özünü doğrultdu: Konvent qışqırtılarla Robespyerə həmişəki uzun nitqini qurtarmağa imkan verməyərək, onun əleyhinə çıxış etdi: onu həbs etdilər və bir neçə gün sonra gilyotinin səbətinin dibinə Fuşenin deyil, Robespyerin başı düşdü.

Robespyerin ölümündən sonra Konventə qayıdan Fuşe özünü tamamilə gözlənilməz bir şəkildə apardı: Robespyerə qarşı

sui-qəsdin başçısı kimi, mötədillərin sırasında yer tutacağını gözləyənlərin təəccübünə rəğmən, o, radikal yakobinçilərə qoşularaq, yenidən simasını dəyişdi. Bəlkə də, o, ömründə birinci dəfə azlığa qoşulurdu. O, irticanın tezliklə hücum edəcəyini aydın hiss edir və Robespyeri edam edən mötədillərin indi hakimiyyəti ələ keçirməyə hazırlaşdıqlarını, bu dəfə radikallara qarşı yönəlmiş terrorun yeni mərhələsini başlayacaqlarını başa düşürdü. Beləliklə, yakobinçilərlə birləşərək, Fuşe öz adını yaxın gələcəkdə ola biləcək qurbanlarla, əzabkeşlərlə – yəni özlərini törətdikləri faciələrdə təqsirsiz elan ediləcək adamlarla əlaqələndirdi.

Uduzanların qrupunda yer tutmaq, heç şübhəsiz, çox təhlükəli qambitdir (oyunda hücuma keçmək üçün nəyisə qəsdən qurban verməkdir). Ancaq Fuşe, yəqin ki, nəzərdə tuturdu ki, təhlükələrdən qaçaraq, mötədillərin süqut etdiyini görüb, xalqda onlar əleyhinə əhval-ruhiyyə yaradaraq, tədricən ictimai rəyə təsir etməyə nail olacaqdır. Elə bu cür də oldu. 1795-ci ilin dekabrında Fuşeni həbs etmək və gilyotində başını vurmaq əmri verilsə də, bunun üçün vaxt əldən çıxmışdı. Edamlar xalq arasında olduqca xoşagəlməz qarşılanırdı və Fuşe daha bir dəfə həyəcanlı anlar yaşadı.

Hakimiyyət yeni hökumətin, Direktoriyanın əlinə keçdi. Ancaq, bu, yakobinçilərin deyil, mötədillərin, ancaq yaxın keçmişdə terror siyasətini bərpa edənlərdən daha artıq mötədil olanların hakimiyyəti idi.

Fuşe, radikal kimi canını xilas edə bilməsə də, kənara çəkilməli oldu. Uzun illər, o diqqəti cəlb etməyərək və onunla bağlı xoşagəlməz hissləri zaman insanların xatirəsindən silənə qədər səbirli nəzərə çarpmayan bir həyat yaşadı. Sonra o, Direktoriya ilə yaxınlaşdı və özünü yeni keyfiyyətdə təqdim etdi: o, bildirdi ki, məxfi məlumatlar toplamaq onun şakəridir. Fuşe hökumət xidmətində pullu məlumatverən oldu, öz işinin öhdəsindən çox yaxşı gəldi və 1799-cu ildə polis naziri vəzifəsinə təyin edilməklə mükafatlandırıldı. İndi o, təkcə Fransanın hər bir guşəsində pusqu qurmaq səlahiyyətinə sadəcə olaraq malik

olmadı, həm də bunu etmək onun xidməti borcu idi. Fuşenin anadangəlmə fitri istedadını – küləyin hara əsdiyini səhvsiz müəyyən etmək qabiliyyətini hədsiz dərəcədə gücləndirməsini deməyə ehtiyac yoxdur. Buna görə, o, Napoleonun – Fransanın gələcəyinə dərhal nəzər salan cəsarətli generalın adı ilə bağlı cəmiyyətdəki yeni meyli vaxtında müəyyən etdi. 1799-cu il noyabrın 9-da Napoleon gizli şəkildə dövlət çevrilişini təşkil edəndə, Fuşe özünü yuxululuğa vurdu. Bütün günü yatdı. Belə dolayı köməyə görə – axı onun vəzifə borcuna həm də məhz hərbi çevrilişlərin qarşısını almaq daxil idi – Napoleon yeni rejimdə onu polis naziri vəzifəsində saxladı.

Sonrakı illərdə Napoleon Fuşeyə getdikcə daha çox arxalandı və etibar etdi. O, hətta keçmiş inqilabçıya Otranto hersoqu titulu verdi və ona böyük sərvət bağışladı. Ancaq 1808-ci ildə, vəziyyətin dəyişməsini həmişə duyan Fuşe hiss etdi ki, Napoleon artıq yüksəlişdə deyildir. Onun Fransa üçün təhlükə doğurmayan İspaniyaya qarşı müharibəsi, həddini aşmaq əlaməti idi. Heç vaxt batmaqda olan gəmidə qalmayan Fuşe, Napoleonu devirmək məqsədi ilə Taleyranla sui-qəsd qurdu. Sui-qəsd uğursuzluğa düçar olsa da – Taleyran işdən çıxarıldı – Fuşeni vəzifədə saxladılar, ancaq cilovunu yığdılar. Bu, hakimiyyətini itirmiş kimi görünən imperatordan artan narazılığın ilk siqnalı oldu. 1814-cü ildə irimiqyaslı müharibə uduzuldu və Napoleon hakimiyyəti süqut etdi.

Bunun ardınca monarxiyanın bərpa edilməsi baş verdi, taxta XVI Lüdovikin qardaşı XVIII Lüdovik çıxdı. Həmişə burnunu külək səmtinə tutan Fuşe hiss etdi ki, bu kral qısa müddətlikdir – o, Napoleonla heç bir müqayisəyə gələ bilməz. Fuşe kölgədə qalaraq, yenidən gözləmə mövqeyi tutdu. Çox gözləmək lazım gəlmədi – 1815-ci ilin fevralında Napoleon Elba adasından qaçdı. Lüdovik çaşqınlıq içində, ona kömək edə biləcək adam hesab etdiyi Fuşeyə – onun qardaşı XVI Lüdoviki gilyotində başının vurulmasına göndərən keçmiş radikala, indi ölkədə ən populyar olan siyasətçilərdən biri və çoxlarında heyranlıq doğuran adama müraciət etdi. Fuşe məğlubun tərəfində durmadı, Lüdovikin xahişini yerinə yetirməkdən imtina etdi.

Fuşe bu imtinanı onun köməyinə ehtiyacın olmaması ilə izah etdi – o, inandırdı ki, Napoleon heç bir vəchlə hakimiyyəti özünə qaytara bilməz (əslində Fuşe bunun əksinə əmin idi). Bundan bir az sonra, Napoleon, onu müdafiə edən fransızlardan yenidən topladığı ordu ilə Parisə yaxınlaşdı.

Kral öz hakimiyyətinin süqut həddində olduğunu görüb, Fuşenin onu aldatdığını başa düşür. Bu güclü və hiyləgər adamın Napoleonun tərəfində olmasını arzu etməyərək, naziri həbs və edam etməyi əmr edir. 1815-ci il martın 16-da polislər Paris bulvarında Fuşenin karetasını mühasirəyə alır. Bu nədir, onun sonu çatıbmı? Ola bilsin belədir, ancaq hələ bu baş verməyib: Fuşe polislərə bildirdi ki, hökumətin üzvü kimi, o, küçədə həbs oluna bilməz. Bununla razılaşdılar və ona evə qayıtmağa imkan verdilər. Doğrudur, polislər elə həmin gün qəfildən Fuşenin evinə tökülüşüb gəldilər və onun həbs edildiyini elan etdilər. Fuşe başı ilə razılığını bildirdi: – ancaq zabitlər o dərəcədə alicənab olacaqlarmı ki, ona evi tərk etməzdən əvvəl yuyunmağa və paltarını dəyişməyə imkan versinlər. Fuşe onların razılığını alıb otaqdan çıxdı. Dəqiqələr keçdi, Fuşe qayıtmadı. Polislər xoşagəlməz hadisədən şübhələnərək, qonşu otağa cumduqda, bağa açılan açıq pəncərə və ona söykənmiş nərdivan gördülər.

Polis Fuşenin axtarışına sərf etdikləri iki gün Parisi ələk-vələk etdilər, ancaq şəhərin ətrafında artıq Napoleonun toplarının səsi aydın eşidilirdi, kral özünün yaxın adamları ilə şəhəri tələsik tərk etməyə məcbur oldu. Napoleon paytaxta daxil olan kimi, Fuşe aşkara çıxdı. O, yenidən cəlladları iş başına gətirdi. Napoleon özünün keçmiş polis nazirini salamladı və sevinclə ona əvvəlki vəzifəsini təklif etdi. Demək olar ki, Napoleonun hakimiyyətdə özünü saxlaya bildiyi yüz gün ərzində, Vaterloo döyüşünə qədər məhz Fuşe Fransanın əsl hökmdarı idi. Napoleonun süqutundan sonra XVIII Lüdovik yenidən taxta çıxdı, inama görə doqquz həyat yaşayan pişik kimi, Fuşe daha bir hökumətin işində iştirak etdi – həmin vaxta kimi onun qüdrəti

və nüfuzu o qədər artmışdı ki, hətta kral ona meydan oxumağa cəsarət etmədi.

İZAHI

Dəyişkənlik və çevrilişlər dövründə Jozef Fuşe özünün vaxtı düzgün hesablamaq məharəti sayəsində firavan həyat yaşadı. O, bizə bir neçə ibrətamiz öyüd vermişdir.

Birinci, zamanın nəbzini tutmaq çox vacibdir. Fuşe həmişə bir neçə addım irəlini görürdü, onu hakimiyyətin zirvəsinə qaldıracaq dalğanı müəyyən edib, özünü bacarıqla həmin dalğada saxlayırdı. Kəskin dönümləri duyaraq və ona uyğunlaşaraq, yaxından keçən qayığa tullanmaq lazım gəldikdə, məqamı əldən verməyərək, zamanı həmişə idarə etməyi bacarın. Bəzən zamanın nəbzi çətin fərqləndirilir: belə olduqda, ən gurultulu və aşkar yerdən deyil, dərinlikdə mürgüləyəndən yapışmaq lazımdır. Keçmişin tör-töküntülərindən yapışmaq əvəzinə, gələcəyin Napoleonlarını axtarın.

İkinci, küləyin başlıca istiqamətinin fərqləndirilməsi, məhz bu istiqamətdə hərəkət etməyin zəruriliyinə dəlalət etmir. İstənilən güclü sosial hərəkat labüd olaraq öz ardınca irtica doğurur. Ağıllı adam, Robespyerin edamından sonra Fuşe kimi, onun necə olacağını qabaqcadan görür. Cari vaxtın çəkilən dalğasının ləpələri arasında olmaq əvəzinə, güclü qabarmanın sizi hakimiyyətə gətirməsinə qədər gözləyin.

Və nəhayət, üçüncü, Fuşe həsədaparılacaq səbrə və gözləmək bacarığına malik idi. Səbir – sizin qılınc və qalxanınızdır, onsuz siz labüd olaraq məğlub olarsınız. Zaman Fuşenin əleyhinə olarkən, o, mübarizə aparmadı, əsəbiləşmədi, qəzəblənmədi və ya ümidsizliyə qapılmadı. O, soyuqqanlığını saxladı və gizlində, özünə lazımsız diqqət cəlb etmədən, hakimiyyətə doğru növbəti addımının əsası olan xalq arasında köməyi təmin etdi. Əlverişsiz vəziyyətdə olarkən, o bilirdi ki, zaman onun xeyrinə işləyir, yalnız səbirli olmaq lazımdır. Nə vaxt ot-

luqda görünməz olmaq və daşın arxasında gizlənmək, nə zaman caynaq çıxarmaq və hücum etmək lazım olduğunu başa düşməyi bacarmaq lazımdır.

HAKİMİYYƏTİN AÇARI

Zaman – əbədiliyi hüdudsuz və Kainatı daha dözülə bilən etmək, onları insaniləşdirmək üçün yaratdığımız süni konsepsiyadır. Zaman haqqında təsəvvür yaradaraq, müəyyən dərəcədə onu idarə etmək və onunla oynamaq imkanı əldə edirik. Uşaq üçün vaxt yavaş və uzundur, asanlıqla hər cür məna verilə biləndir. Yaşlılarda o, qorxunc bir sürətlə uçur. Beləliklə, zaman qavrayışdan asılıdır, bizim başa düşdüyümüz kimi, çox güclü şəkildə dəyişə bilər. Zamanı idarə etmək məharətinə yiyələnmək üçün bunun başlıca şərt olduğunu anlamaq zəruridir. Daxili həyəcan və emosiyalar zamanı sürətlə irəli getməyə məcbur edir, beləliklə, özümüzün emosional hərəkətlərimizi idarə edərək, zamanı ləngidə bilərik. Bizim qavrayışımızda gələcəyin çatmasını uzadan bu qeyri-adi əhval-ruhiyyə ağlagəlməz imkanlar açır, qorxu və qəzəbi bir kənara atmağa kömək edir və bizə səbir verir – bu, zamanı idarə etmək sənətində ən başlıca tələbdir.

Həlli müəyyən bacarıq və səriştə tələb edən problemlərlə əlaqədar zamanı üç növə ayıra bilərik: Birinci növ – uzadılmış zamandır: uzun, bəzən illərlə uzanan bu zamana olduqca səbir və ehtiyatla yanaşmaq lazımdır. Bizim bu zamana müraciət etməyimiz mümkün qədər daha çox müdafiəni xatırlatmalıdır – bu, münasib vaxtın yetişməsini səbirlə gözləyərək, qeyri-iradi cavab verməmək sənətidir.

İkinci növ – sıxılmış zamandır: düşmənin müvəqqəti niyyətlərini pozaraq, hücum üçün silah kimi istifadə edə biləcəyimiz qısa zamandır.

Nəhayət, üçüncü növ – endşpil (son mərhələ) zamanıdır, bu vaxt planı tez və inadla yerinə yetirmək lazımdır. Biz gözlədik, məqamı müəyyən etdik və indi tərəddüd etmək olmaz.

Uzadılmış zamanı Min dövrünün (XVII əsr) məşhur rəssamı Çu Yun-un adı ilə, sonralar onun həyat tərzini tamamilə dəyişən hadisəni əlaqələndirirlər. Bir dəfə o, qışda öz doğma şəhərindən çayla ayrılan başqa şəhərə getməyə hazırlaşaraq, lazımi kağızları və kitabları götürüb, yükünü aparması üçün cavan bir oğlanı özünə köməkçi tutdu. Gün axşama doğru əyilmişdi, qayıq çayın o biri sahilinə yaxınlaşdıqda, Çu Yun qayıqçıdan soruşdu ki, onlar şəhər qapıları bağlanana qədər şəhərə çata bilərlərmi, belə ki, şəhərə qədər hələ bir mil məsafə var idi. Qayıqçı kitab və kağızların qalın bağlamasını qucağına sıxan oğlana nəzər salıb dedi: «Əgər həddindən artıq sürətlə getməsəniz çatarsınız».

Ancaq sahilə çıxdıqda, günün batmaq üzrə olduğunu görüb, Çu Yun özlərini şəhərə çatdıra bilməyəcəklərindən və quldurların qurbanı olacaqlarından qorxdu. Çu Yun və oğlan getdikcə addımlarını, az qala qaçmağa qədər yeyinlətdilər. Bu zaman kitablara sarınmış ip qırıldı və bütün sənədlər yerə səpələndi. Kağızları toplayana qədər xeyli vaxt keçdi. Əlbəttə, onlar gecikdilər, qapılar artıq bağlı idi.

Qorxu və səbirsizlik üzündən sürəti artıraraq, siz həllini tələb edən problemlər çoxluğu yaradırsınız və nəhayət, bunların hamısına adi vəziyyətdə görəcəyiniz işin apara biləcəyindən çox vaxt gedir. Tələsən adamlar bəzən gedəcəkləri yerə tez çata bilirlər, onlar kağızları dağıtmağa, təhlükəli vəziyyətlərə düşməyə risq edirlər, özlərinin yaratdıqları problemləri həll edərək, daimi böhran rejimində yaşayırlar. Bəzən təhlükə qarşısında hərəkət etməmək, iş görməkdən yaxşı olur: siz gözləyirsiniz, şüurlu surətdə tempi yavaşıdırsınız. Vaxt gedir və sizə qəfildən, heç təsəvvür edə bilməyəcəyiniz imkan verilir.

Gözləmə təkcə sizin özünüzün deyil, həm də həmkarlarınızın emosiyaları üzərində nəzarəti nəzərdə tutur. Onlar fəallığı qüvvə əvəzinə qəbul edərək, sizi tələsik hərəkətlər etməyə sövq edirlər. Ancaq siz də düşmənlərinizi bu cür səhvlərə yol verməyə təhrik edə bilərsiniz: əgər sizə bir kənarda duraraq

gözlədiyiniz vaxt, onları pis hadisələrə doğru tələsik can atmağa məcbur etmək müyəssər olarsa, işə qarışmaq və bəhrəni yığmaq üçün əlverişli məqamı əldən verməməlisiniz.

Bu müdrik davranış xətti XVII əsrdə Yaponiyada hökmdarlıq etmiş Tokuqava İeyasunun əsas strategiyası idi. Onun sələfi, İeyasunun hərbi sərkərdə kimi xidmət etdiyi inadcıl Xideyoşi Koreyaya tez-tələsik hücum etdi, İeyasu yürüşdə iştirak etmədi. O, hücumun məğlubiyyətlə nəticələnəcəyini və Xideyoşinin süqutuna gətirib çıxaracağını bilirdi. Ən yaxşısı illərlə uzansa da, bir kənarda səbirlə gözləmək, sonra lazımi məqamda hakimiyyəti ələ almağa hazır olmaqdır – İeyasu da məhz bu cür hərəkət etdi.

Siz zamanı öz həyatınızı uzatmaq və ya ani məmnunluğunuzun vaxtını artırmaq üçün deyil, hakimiyyət oyununda iştirak etmək üçün sıxırsınız. Burada Siz: birinci, ağlınız daim təxirəsalınmaz işlərlə yüklənməyəndə, uzağı görmək imkanı əldə edirsiniz; ikinci, siz qarşınıza qoyulmuş tələ yeminə qarşı davamlılıq əldə edirsiniz; üçüncü, sizdə çevikliyin yaranması üçün daha geniş meydan açılır. Sizin gözləmədiyiniz və əgər tempi artırsaydınız, şübhəsiz, əldən çıxacaq bütün yeni imkanlar labüd olaraq meydana çıxacaqdır; dördüncü, siz əvvəlki işi qurtarmamış növbəti işi başlayırsınız. Hakimiyyətin özülünün, əsasının yaradılması illərlə vaxt apara bilər; bu əsasın möhkəm olduğuna əmin olun. Səhv etməyin – uğur ləng qurulur və yalnız belə uğur uzun müddət davam edir.

Nəhayət, ləngimə sizə bir qədər uzağa nəzər salmaq imkanı verərək, yaşadığınız zamanı qavramaq perspektivi yaradır. Bu zaman daha az emosional gərginlik vəziyyətində olaraq, siz gələcəyin ümumi mənzərəsini görmək qabiliyyəti qazanırsınız. Kim ki, boş-boşuna çalışır və tələsirsə, yalnız arzu etdiyini görərək, çox vaxt səthi və ani hadisəni əsl ideya kimi qəbul edir. Əslində, baş verənləri olduğu kimi görmək, hətta, əgər bu xoşagəlməz olub və rahatlıq gətirməyib, sizin işinizi çətinləşdirərsə belə, çox-çox qiymətlidir.

Sıxılmış vaxt. Sıxılmış vaxt fəndi ətrafdakıları tələsməyə, gözləməyə, özlərinin əlverişli ahəngini pozmağa, zaman haqqında təsəvvürlərini təhrif etməyə məcbur edərək, onların zamanla bağlı planlarını pozmaqdan ibarətdir. Öz düşməninizin planlarını pozaraq və bu zaman təmkininizi saxlayaraq, siz zamanı öz ixtiyarınıza alırsınız ki, bu da işin yarısıdır.

1473-cü ildə böyük türk sultanı Mehmet Fateh Türkiyə və Macarıstan arasında uzunmüddətli müharibəni dayandırmaq üçün Macarıstana danışıqlara girməyi təklif etdi. Macarıstanın emissarı danışıqlara başlamaq üçün Türkiyəyə çatdıqda, türk məmurları acizanə surətdə üzr istəyib bildirdilər ki, Mehmet Türkiyənin paytaxtı İstambulu elə indicə tərk edərək, çoxdankı düşməni Uzun Həsənlə döyüşlərin getdiyi cəbhəyə yollanıb. Ancaq Macarıstanla tezliklə sülh bağlanmasında çox maraqlı olan sultan emissarla görüşmək üçün onun cəbhəyə gəlməsini xahiş edir.

Emissar döyüş meydanına çatdıqda, məlum oldu ki, Mehmet artıq orada yoxdur, o, sürətlə geri çəkilən düşməni təqib edərək, öz qoşunları ilə şərqə hərəkət etmişdir. Bu dəfələrlə təkrar olundu. Emissar hara gedirdisə, türklər ona səxavətlə bəxşişlər verir, onun şərəfinə gözəl, ancaq vaxt aparan ziyafətlər və məclislər təşkil edirdilər.

Nəhayət, Mehmet Uzun Həsəni darmadağın edərək, emissarla görüşdü. Ancaq onun Macarıstanla sülh şərtləri fövqəladə dərəcədə sərt və demək olar ki, qəbuledilməz idi. Danışıqlar heç bir nəticə vermədən, bir neçə gündən sonra başa çatdı. Hər şey əvvəlki kimi qaldı. Ancaq Mehmetə başqa heç nə lazım deyildi. Əslində hər şey əvvəlcədən məhz bu cür düşünülmüş və planlaşdırılmışdı: Uzun Həsənə qarşı hərbi kampaniyaya başlayaraq, ordunu şərqə yönəltdiyini, qərb cəbhəsini müdafiəsiz qoyduğunu və zəiflətdiyini görməyə bilməzdi. O, özünün müvəqqəti zəifliyindən Macarıstanın istifadə etməsinə imkan verməmək üçün, danışıqlara başlamaq haqqında təklifi ilə düşmənin fikrini yayındırdı, sonra isə öz müddətini zorla qəbul etdirərək, onu gözləməyə məcbur etdi.

Adamları gözləməyə məcbur etmək – zamanın sıxılmasının təsirli üsuludur, əlbəttə, düşmənləriniz məqsədinizdən şübhələnənə qədər, Siz vaxtı tənzimləyirsiniz, onlar isə gözləməkdən üzülüb əldən düşürlər – tezliklə sayıqlığı itirirlər və sizə təkcə zərbə endirmək qalır. Əks üsul da həmçinin çox səmərəlidir: düşmənləri tələsməyə məcbur edin. Onunla öz işinizi tələsmədən başlayın, sonra gərginliyi kəskin şəkildə artırın, hər şeyin elə indicə baş verəcəyi təəssüratı yaradın. Düşünmək üçün vaxtları olmayan adamlar səhvlər buraxırlar – onlar üçün öz vaxtınızı belə müəyyən edin.

Danışıqlar zamanı həmsöhbəti qərar qəbul etməyə məcbur edib, planlarını və niyyətlərini alt-üst edərək, qəfildən ona təzyiq etməyə başlayan Çezare Borcia Makiavellidə heyranlıq yaradırdı. Çezareni gözləməyə məcbur etməyə kim cəsarət edə bilərdi?

İncəsənət əsərlərinin məşhur ticarətçisi Cozef Düvin yaxşı bilirdi ki, Con D. Rokfeller kimi qətiyyətsiz alıcını bu və ya digər bəhanə ilə – tablo ilə başqa varlı müştəri maraqlanır, o, ölkədən çıxarılacaqdır – tələsməyə məcbur edərsə, tablo müəyyən edilmiş vaxt çatana qədər satılacaqdır. Freyd müşahidə etmişdi ki, nəzərə çarpmayan uğur əldə etmədən, uzun müddət məşğul olduğu pasientlərə müalicənin sonunun konkret tarixini təyin etməyi kifayət edirdi ki, möcüzəli şəkildə yaxşılaşma müşahidə edilsin – özü də məhz təyin edilən vaxta. Məşhur fransız psixoanalitiki Jak Lakan bu metodun variantından istifadə edirdi: bəzən o, seansı xəbərdarlıq etmədən müəyyən edilmiş bir saat əvəzinə on dəqiqəyə qurtarırdı. Bundan əlavə bu, dəfələrlə təkrar edildiyindən, pasient başa düşürdü ki, şübhəsiz, mənasız söhbətlərə vaxt itirmək əvəzinə, tədricən seansdan mümkün olan hər şeyi götürərək, səmərəli istifadə etmək lazımdır. Gördüyünüz kimi, qəti müəyyən edilmiş müddət – təsirli vasitədir. Qətiyyətsizliyi unudun və adamları başlarını işlətməyə və qərar qəbul etməyə məcbur edin. Onlara öz ritminizi qəbul etdirməklə, özləri üçün əlverişli olan tempdə oynamağa imkan verməyin.

Foksçular və aktyorlar – zamanın sıxılması üzrə ekspertlərdir. Qudini çox vaxt bir neçə dəqiqənin içərisində baxışlardan yayına bilirdi, ancaq o, öz çıxışını saatlarla uzadaraq tamaşaçıları həyəcanlanmağa məcbur edirdi. Foksçular bilirlər ki, bizim zaman təsəvvürümüzü dəyişməyin ən yaxşı üsulu ritmin yavaşıdılmasıdır. Fokşçunun əlləri nə qədər yavaş hərəkət edərsə, tamaşaçılarda sürət xəyalı yaratmaq, onları dovşanın bir an içərisində meydana çıxmasına inanmağa məcbur etmək bir o qədər asan olur. XIX əsrin məşhur fokşçusu Jan-Ejen Rober-Uden bu effektə müfəssəl formulə vermişdir: «Hekayət nə qədər yavaş danışılarsa, bir o qədər qısa görünər».

Yavaş temp, həm də sizin etdiklərinizi daha maraqlı edir, tamaşaçılar hipnoz vəziyyətinə düşərək, ritminizə tabe olurlar. Bu cür illüziyalarla məşq edin, onlar sizə zaman təsəvvürünü dəyişməyi bacaran hipnozçu hakimiyyəti verər.

Endşpil vaxtı. Siz oyunu virtuoz artistliklə – düşmənlərə öz ahənginizi məcburən qəbul etdirərək və onların planlarını pozaraq hərəkət etməklə, onları özlərindən çıxarmaq üçün münasib məqamı səbirlə gözləməklə – apara bilərsiniz. Ancaq siz hər şeyin necə qurtaracağını bilmirsinizsə, bunların heç bir əhəmiyyəti yoxdur. Dözüm və səbir nümunəsi kimi görünən, əslində isə, sadəcə olaraq əsl işə möhkəm girişə bilməyən adamlardan biri olmayın: iradə və lazım olan məqamda düşməni amansızlıqla məhv etməyə hazır olmadan, səbir heç nəyə dəyməz. Siz vəziyyətin aydınlaşacağı həlledici məqamın yetişəcəyini uzun müddət gözləyə bilərsiniz, ancaq o yaxınlaşdıqda, sürətlə və qətiyyətlə hərəkət etmək lazımdır. Sürət rəqibi sarsıtmaq, özünüzün mümkün ola bilən səhvlərinizi gizlətmək, nəhayət, adamları öz böyüklüyünüzün və kamilliyinizin aurası ilə heyran qoymaq üçün lazımdır.

Siz ovsunçu səbri ilə tələsmədən, müntəzəm ritmin köməyi ilə ilanı aldadıb çölə çıxarırsınız. İlan sürünüb çıxdıqdan sonra,

onun ölümsaçan başını ayaqlayaraq, ləng hərəkət edəcəksinizmi? Oyunun son fazasında – endşpildə hətta kiçicik ləngiməyə heç vaxt haqq qazandırıla bilinməz. Vaxtı idarə etməkdə sizin ustalığınızın həqiqi meyarı, endşpildə necə işləməyinizdən – hadisələrin ritmini dəyişməyə, onları sürətli və son nəticəyə keçirməyə nə dərəcədə qabil olmağınızdan ibarətdir.

OBRAZ:

QIRĞI

O, yüksəklikdə sakit və səssizcə dövrə vuraraq, ətrafdakı hər şeyə diqqətlə nəzər salır. Aşağıdakılar özlərinin təhlükədə olduqlarından şübhələnmirlər. Qırğı məqam seçib, qəfildən aşağı elə sürətlə şığıyır ki, ondan qorunmaq mümkün olmur. Onun qurbanı nə baş verdiyini başa düşməyə macal tapmır, quşun iti caynaqları isə artıq ondan yapışır və havaya qaldırır.

MÖTƏBƏR FİKİR

Qabarma ani olur insanların işində,
Əgər əldən verilməzsə, aparar səadətə bu onları sürətlə.
Əks halda onların həyat səfəri
Keçəcək həm çətinlik, həm iztirab içində.

Vilyam Şekspir (1564–1616),
«Yuli Sezar»

MEDALIN İÇ ÜZÜ

Hər şeyi özbaşına buraxmaqla, ixtiyarı əldən verməklə, zamanın gətirdiyi hər şeyə uyğunlaşmaqla hətta kiçik hakimiyyətə nail olmaq mümkün deyildir. Əgər siz zamanın qurbanı olmaq istəmirsinizsə, heç olmazsa müəyyən dərəcədə onu idarə etməyi öyrənmək lazımdır. Beləliklə, bu qanunun əks halı yoxdur və ola da bilməz.

OTUZ ALTINCI QANUN

ƏLDƏ EDƏ BİLMƏDİYİN ŞEYƏ LAQEYD YANAŞ, ETİNASIZ MÜNASİBƏT – ƏN YAXŞI İNTİQAMDIR

QANUNUN MAHİYYƏTİ

Xırda şeyi problem hesab etməklə, siz ona mövcud olmaq imkanı və güc verirsiniz. Siz düşmənə nə qədər çox diqqət yetirirsinizsə, o, bir o qədər güclənir. Çox vaxt kiçik səhvi aradan qaldırmağa cəhd edilərkən, daha ciddi və nəzərə çarpan səhvə yol verilir. Hər şeyi olduğu kimi saxlamaq, bəzən daha əlverişli olur. Əgər siz nəyə isə nail olmaq istəyirsinizsə, ona etinasızlıq göstərin. Nə qədər az maraq təzahür etdirsəniz, bir o qədər asan əldə edərsiniz.

QANUNUN POZULMASI

Meksika inqilabının rəhbəri Panço Vilya əvvəlcə bandit dəstəsinin başçısı idi, ancaq 1910-cu il inqilabından sonra əsl xalq qəhrəmanına çevrildi. O, qatarları soyur və kasıblara pul paylayır, cəsarətli basqınlar edir, romantik ədası ilə xanımları məftun edirdi. Bir çox amerikalılar da ona heyran olmuşdu – o, başqa dövrün adamı, qismən Robin Qud, qismən də Don Juan kimi görünürdü. Ancaq bir neçə illik çətin mübarizədən sonra, general Karrans adlı birisinin adı məşhurlaşdı. O, inqilabın qalibi elan olundu. Vilya və onun dəstələri geri çəkilməyə, şimalda yerləşən Çixuaxua ştatına çıxıb getməyə məcbur oldular. Onun ordusu dağıldı, o, öz ad-sanına zərər vuraraq, yenidən bandit oldu. Nəhayət, o, bəlkə də ümidsizlikdən, özünün bütün bədbəxtliklərində və uğursuzluqlarında qrinqoları, yəni amerikalıları təqsirləndirməyə başladı.

1916-cı ildə Panço Vilya Nyu-Meksiko ştatının Kolumbus şəhərinə basqın etdi. Banditlər şəhərciyin küçələrində azğınlıq edərək, on yeddi nəfər amerikalını – hərbçi və mülki şəxsi öldürdülər. Prezident Vudro Vilson, eləcə də Birləşmiş Ştatların bir çox vətəndaşları əvvəllər Vilya ilə fəxr etsələr də, törətdiyi əməllərə görə, indi onu cəzalandırmaq lazım idi. Müşavirləri Vilsonu Meksikaya qoşun yeritmək və Vilyanı tapmaq haqqında qərar qəbul etməyə tələsdirirdilər. Amerikalıların bir çoxu Vilsonu müharibə əleyhdarı kimi tanımaqda davam edirdilər, ancaq zorakılığa cavab verilməməsi xalqa şübhəli görünürdü. Qüvvə tətbiq etməyi əmr edərək, Vilsona özünün qətiyyətli və cəsarətli olmasını sübut etmək lazım idi.

Vilsona göstərilən təzyiq güclü idi, heç bir həftə də keçməmiş Karransa hökumətinin razılığı ilə, o, Panço Vilyanı tutmaq üçün on minlik ordu göndərdi. Cəza ekspedisiyası adlandırılan əməliyyatın başında, qəddarlıqda ad çıxarmış general Con C.Perşinq dururdu. Filippində partizan müharibələrinin və cənubi-qərb ştatlarında hindu üsyanlarının yatırılması onun adı

ilə bağlı idi. Aydın idi ki, Vilya ilə hesablaşmağa Perşinqin gücü çatardı.

Cəza ekspedisiyası sensasiyaya çevrildi, Perşinqin ardınca hadisə yerinə Amerika reportyorları gəldilər. Onlar yazırdılar ki, ekspedisiya Amerikanın gücünün sınanması olacaqdır. Əsgərlər ən yeni hərbi texnika ilə silahlanmışdı, radio ilə əlaqə saxlanılırdı, kəşfiyyat aparmağa aviasiya kömək edirdi.

Kiçik dəstələrə bölünmüş hərbçilər Meksikanın şimalındakı meşələri ələk-vələk elədilər. Amerikalılar Panço Vilyanın olduğu yeri xəbər verənə 50 min dollar mükafat təklif etdilər. Vilyanın banditliklə məşğul olmasından məyus olan meksikalılar onu tutmaq üçün müasir texnika ilə silahlanmış çoxsaylı ordudan istifadə etməklə, Vilyanı qəhrəman səviyyəsinə qaldırdılar. Əhali tərəfindən ona, sözün əsl mənasında, pərəstiş edilirdi. Amerikalılar həmişə onları izdən azdıran yalan informasiya alırdılar: Vilyanı gah bu kənddə, gah da kəşfiyyatın aeroplanla yollandığı dağda görürdülər, ancaq bir dəfə də olsa, ələkeçməz Vilya ilə rastlaşmaq onlara müyəssər olmurdu. Elə bil ki, o, Amerikanın cəza dəstələrini, həmişə bir addım qabaqlayırdı.

Həmin ilin yayında ekspedisiyanın heyəti 123 min nəfərə qədər artırıldı. Onlar dözülməz istidən, mığmığadan əziyyət çəkirdilər, dözə bilmədikləri sərt yerlərdə çətinliklə hərəkət edir, təkcə yerli əhalini deyil, həm də Meksika hökumətini hiddətləndirirdilər. Panço Vilya bir ara dağlarda mağarada gizlənərək, Meksika ordusu ilə toqquşmadan aldığı güllə yarasından müalicə olunurdu. O, özünün uca dağda yerləşən sığınacağından aşağı nəzər salaraq, üzülüb əldən düşmüş amerikalı əsgərlərin, məqsədə yaxınlaşmadan dağlarda boş-boşuna gəzdiyini müşahidə edə bilirdi.

Vilya bütün qışı siçan-pişik oyunu oynadı. Amerikalılar baş verənlərin hamısını ucuz oyunbazlıq kimi qəbul etməyə başladılar – əslində onlar daha güclü düşmənə qarşı mübarizədə tükənməz cəsarətinə qeyri-iradi hörmət bəslədiklərini hiss edə-

rək, Vilyaya yenidən heyran olmağa başladılar. Nəhayət, 1917-ci ilin yanvarında Vilson Perşinqi geri çağırdı. Amerikalılar geri çəkilərkən, onlara üsyançı dəstələr hücum etməyə başladılar. Amerika ordusu özünün arxa cəbhəsini müdafiə etmək üçün aviasiyadan istifadə etməyə məcbur oldu. Cəza ekspedisiyası yalnız öz-özünü cəzalandırdı – o, alçaldıcı məğlubiyyətə uğradı.

İZAHI

Vudro Vilson cəza ekspedisiyasını gücün nümayiş etdirilməsi kimi təşkil etdi. O, Panço Vilyaya dərs vermək və bununla da, bütün dünyaya göstərmək istəyirdi ki, qüdrətli Birləşmiş Ştatlara hücum edən heç kim – nə böyük, nə də kiçik – canını qurtara bilməz: təqsirkar cəzalandırılacaqdır. Ekspedisiyanı sürətlə aparmaq nəzərdə tutulmuşdu – çox yox, cəmi bir neçə həftə ərzində Vilya darmadağın edilməli idi.

Ancaq hər şey plan üzrə getmədi. Ekspedisiya nə qədər çox uzanırdısa, amerikalıların bacarıqsızlığını və səriştəsizliyini bir o qədər aşkar edir, Vilyanın ağıllı və fəndgirliyini göstərirdi. Tezliklə Vilyanın əməliyyatın başlanmasına səbəb olan quldur basqını unuduldu. Təəssüf doğuran hadisə şişirdilib beynəlxalq qalmaqal səviyyəsinə yüksəldikcə, qəzəblənmiş amerikalılar Meksikaya, təqib edənlərlə və hələ də azadlıqlarını qoruyub saxlaya bilən təqib edilənlərin nisbətinə uyğun gəlməyən yeni-yeni qoşun hissələri göndərirdi – bu, gülünc çalarlar almağa başlayırdı. Nəhayət, çox böyük ordu Meksikadan rüsvayçılıqla geri qayıtmaq məcburiyyəti qarşısında qaldı. Cəza ekspedisiyası ilkin məqsədin əksi olan nəticə qazandı: Vilya nəinki azadlıqda qaldı, üstəlik həm də heç vaxt nail olmadığı məşhurluq zirvəsinə yüksəldi.

Vilson alçalmaqdan yan keçə bilərdimi? O, Karransa hökumətindən Vilyanın axtarılıb tapılmasını və təhvil verilməsini

tələb edərək, ona təzyiq göstərə bilərdi. Cəza ekspedisiyasının başlanmasına qədər, bir çox meksikalılar Vilyanın basqınlarından cana doyduqlarından, onları öz tərəfinə çəkmək və həmin adamlarla iş aparmaq olardı – bu, kiçik dəstənin gücü ilə banditi tutmağa imkan verərdi. Növbəti basqını gözləyərək, sərhədin Amerika tərəfində pusqu qurmaq olardı. Yaxud meksikalıların Vilyanın məsələsini öz mülahizələri ilə həll etməsinə imkan verərək, vaxtı çatana qədər belə vəziyyətə əhəmiyyət verməmək olardı.

Yadda saxlayın: təngə gətirilə bilməyinizə imkan verməyiniz sizdən asılıdır. Siz inciklik yaradan zəhlətökəndən yüksək olduğunuzu, diqqətinizə layiq olmadığını nümayiş etdirməyiniz, ona tamamilə əhəmiyyət verməməyiniz çox güclü gediş olardı. Cavab verməməyiniz düşməninizi daha aşağı səviyyəyə enməyə məcbur edərək, sizi fitnəkarlığa təhrik etməkdən uzaq olardı. Bununla da, Sizin qürurunuz təhqir edilməmiş sayılır. Zəhlətökən ağcaqanada verə biləcəyiniz ən yaxşı dərs – ona əhəmiyyət verməyərək unutmaqdır. Əgər bu mümkün deyilsə (Panço Vilya Amerika vətəndaşlarının öldürülməsində təqsirkar idi), onun məhv edilməsi üçün gizli şəkildə tədbirlər görmək lazımdır: ancaq heç bir halda təngə gətirən həşəratlara diqqət vermək lazım deyildir. Əgər siz buna vaxt və enerji itirirsinizsə, səhv edirsiniz. Nifrət fəndindən istifadə etməyi öyrənin və arxanızı sizin üçün təhlükəli olmayana çevirin.

Nəzərə alın ki, hökumətinizə məni tutmaq cəhdi 130 milyon dollara başa gəlmişdir. Mən onları dağlarda, qayalarda süründürdüm. Bəzən onları bir damla su içmədən belə, əlli mil getməyə təhrik etdim. Onların günəşdən və mığmığalardan başqa heç nəyi yox idi.... Və onlar heç nəyə nail olmadılar.

Panço Vilya, 1877–1923

QANUNA RİAYƏT EDİLMƏSİ

1527-ci ildə İngiltərə kralı VIII Henrix arvadı Yekaterina Araqonludan canını qurtarmaq istəyirdi. Yekaterina ona oğul, uzun müddət davam edən sülaləyə varis bəxş edə bilməmişdi, Henrixə elə gəlirdi ki, bunun səbəbini bilir: o, Bibliyada yazılanı xatırladı: «Öz qardaşının arvadını almaq rəzillikdir; belələrinin uşaqları olmayacaqdır». Yekaterina Henrixə ərə getməzdən əvvəl onun böyük qardaşı Arturun arvadı idi, ancaq evlənmələrindən beş ay sonra Artur öldü. Henrix münasib vaxtı gözlədi, sonra isə qardaşının dul arvadı ilə evləndi.

Yekaterina İspaniya kralı Ferdinand və kraliçası İzabellanın qızı idi, onun Henrix ilə nikahı bu ölkələr arasındakı vacib müttəfiqliyi saxlamağa kömək edirdi. İndi Yekaterina qısa müddətli birinci ərlik həyatının əsl nikah münasibətləri ilə nəticələnmədiyini Henrixə inandırmalı olurdu. Əks halda, Henrix özlərinin nikahını yaxın qohumların arasında olan cinsi əlaqə hesab edər və qanuni qüvvəsi olmayan nikah kimi onun ləğv edilməsinə təkid edərdi. Yekaterina isə israr edirdi ki, birinci dəfə ərə getdikdən sonra bakirəliyini saxlamışdır, o xatırladırdı ki, Papa VII Kliment onların birliyinə xeyir-dua vermişdi, beləliklə, onu zina hesab etmək olmazdı. Ancaq illər keçir, Yekaterina Henrixə oğul bəxş edə bilmirdi. Onda menstruasiya fasilələri başlandı. Bu, kral üçün yalnız bir şeyi ifadə edirdi: onların nikahı yaxın qohumlar arasında cinsi əlaqədir və indi Allah onları cəzalandırır.

Henrixin Yekaterinadan canını qurtarmaq qərarına gəlməsinin başqa səbəbi də var idi: o, başqa, daha cavan qadın Anna Boleyni sevirdi. Kral onu təkcə sevmir, həm də ümid edirdi ki, onunla evlənərək, qanuni varis əldə edər. Yekaterina ilə olan nikah ləğv edilməli idi. Bunun üçün katolik olan Henrixə Vatikanın icazəsi lazım idi. Ancaq Papa Kliment heç vaxt buna

getməzdi.

1527-ci ildə bütün Avropada şayiələr gəzdi ki, Henrix mümkün olmayan işi həyata keçirməyə – Klimentin iradəsinin əleyhinə nikahı pozmağa hazırlaşır. Yekaterina Henrixin iradəsini: taxt-tacdan əl çəkib monastıra getmək istəyini yerinə yetirmək istəmirdi. Ancaq Henrix başqa davranış xətti seçdi: o, Yekaterinanı qanuni həyat yoldaşı deyil, nişanlısı hesab etdiyini bildirərək, onunla bir yataqda yatmağı dayandırdı. Henrix onu Arturun dul arvadının titulu ilə – Uels şahzadəsi adlandırmağı təkid etdi. Nəhayət, 1531-ci ildə Henrix onu uzaq tənha bir qəsrə göndərdi. Roma papası katolik üçün ən dəhşətli cəza olan dindən xaric etmək hədəsi ilə krala Yekaterinanı saraya qaytarmağı əmr etdi. Kral nəinki hədəyə əhəmiyyət vermədi, üstəlik Yekaterina ilə olan nikahın ləğv edilməsinin üstündə dayandı, 1533-cü ildə isə Anna Boleyn ilə evləndi.

Kliment bu nikahı tanımaqdan imtina etdi, ancaq bunun Henrix üçün heç bir əhəmiyyəti yox idi. O, özü artıq papanın nüfuzunu tanımır və Roma katolik kilsəsi ilə əlaqəni kəsib, əvəzində İngiltərə kralı başda olmaqla, ingilis kilsəsinin yaradılmasını elan etdi. Təəccüblü deyildi ki, yeni yaradılmış kilsə Anna Boleyni İngiltərə kralının qanuni kraliçası elan etdi.

Papa bütün mümkün hədələri gəldi – ancaq onların heç bir təsiri olmadı. Henrix sadəcə olaraq onlara əhəmiyyət vermirdi. Kliment coşub özündən çıxmışdı – hələ heç kim ona belə saymazyana yanaşmamışdı. Henrix onu alçaltdı, o isə buna heç nə edə bilmədi. Hətta dindən kənar elan etməyin də heç bir əhəmiyyəti yox idi (papa həmişə bununla hədə-qorxu gəlirdi, ancaq hələ də onu icra etməmişdi).

Həmçinin Yekaterina da, Henrixin nifrətinin dağıdıcı qüvvəsini öz üzərində hiss edirdi. O, müqavimət göstərməyə cəhd etdi, ancaq Henrixlə danışmaq əbəs idi, sonralar isə şikayət etməsi üçün onun heç kimi yox idi. Saraydan təcrid olunmuş, unudulmuş, kralla görüşməkdən məhrum edilmiş Yekaterina

qəzəbdən və gücsüzlükdən dəli olmaq dərəcəsinə çataraq, yavaş-yavaş sönüb gedirdi və 1536-cı ilin yanvarında ürəyində olan bəd xassəli şişdən öldü.

İZAHI

Əgər siz kimisə diqqətinizlə şərafətləndirirsinizsə, aranızda, qarşı tərəfin hərəkətinə rəğmən uyğun münasibətin göstərildiyi bu və ya digər növ tərəfdaşlıq bərqərar olur. İşin gedişində siz təşəbbüsü itirirsiniz. İstənilən qarşılıqlı əlaqənin gedişatı belədir: başqa adamları tanıyaraq, hətta onlarla mübarizə aparsanız belə, sirlərinizi onlara açır və təsir altına düşürsünüz. Əgər Henrix Yekaterinaya xəyanət etsəydi, nəhayətsiz didişmə və mübahisələrə cəlb edilmiş olardı, bu da onun qətiyyətini zəiflədər və nəhayət, o, mövqeyini təslim edərdi (Yekaterina güclü və qətiyyətli qadın idi). Əgər o, özünün Yekaterina ilə nikahının qanuni olması haqqında verdikti dəyişməsi üçün Klimentə təzyiq etsəydi və ya onunla razılığa gəlməyə və kompromis yol tapmağa cəhd etsəydi, Klimentin sevimli fəndi ilə üzləşərdi: o, çevik yol təklif edərək, vaxtı uzadar, ancaq nəticədə inadla öz istəyinə nail olardı.

Henrix buna bənzər heç nə etmədi. O, hakimiyyət adamlarının sarsıdıcı silahından istifadə etdi: tam qorxmazlıq. Adamlara əhəmiyyət verməyərək, siz sanki onların mövcudluğunu hiss etmirsiniz. Bu, onları əsəbiləşdirməyə və özündən çıxarmaya bilməz – ancaq onlar bunu sizə deyə bilmək imkanından məhrum olduqlarından gücsüzdürlər.

Qanunun həmlə xarakteri vardır. İstifadə edə biləcəyiniz qorxmazlıq üsulu, sizə münaqişənin şərtlərini müəyyən etməyə imkan verdiyindən, çox güclü fənddir. Bu halda müharibə sizin qaydalarınızla aparılır. Bu mövqe ilə siz çox böyük qüdrət nümayiş etdirirsiniz: siz kralsınız və sizə hücum edənlərə fikir vermirsiniz. Siz belə taktikanın adamları divanəliyə qədər

gətirib çıxardığını görürsünüz – çünki onların hərəkətləri və hücumları sizin diqqətinizi cəlb etməyə hesablanmışdır, əgər siz onlara əhəmiyyət vermirsinizsə, bütün hiylələr puça çıxır.

İnsan: onu təpiklə – o, səni bağışlayacaq. Ona yaltaqlan – o inanacaq və ya səni sınayacaq. Ancaq ona əhəmiyyət verməsən – o, sənə nifrət edəcək.

İdris Şah. «Yuxuların karvanı».

HAKİMİYYƏTİN AÇARI

Arzu çox vaxt paradoks, təzad doğurur: siz bir şeyi nə qədər çox istəyirsinizsə, onun ardınca nə qədər çox qaçırsınızsa, o, əlinizdən çıxaraq, sizə bir o qədər çətin başa gəlir. Siz nə qədər böyük maraq göstərirsinizsə, maraq obyektini özünüzdən bir o qədər uzağa itələyirsiniz. Bu, sizin arzunuzun həddindən artıq güclü olması ilə izah edilir – o, ətrafdakılarda sayıqlıq, hətta qorxu doğurur. Nəzarət edilməyən arzu sizə zəif, nüfuzu olmayan, yazıq adam görkəmi verir.

Sizə, çox istədiyiniz şeyə öz etinasızlığınızı, laqeydliyinizi göstərərək, ondan üz döndərmək lazımdır. Bu, güclü cavabdır, o, sizin obyekti müvazinətdən çıxaracaqdır. Sizdə əks cavab vermək arzusu yaranacaqdır. Bu, sadəcə olaraq sizə təsir etmək və ya sizi ələ almaq, yaxud da, pislik etmək arzusu olacaqdır. Əgər sizi əmlak hesabına ələ almaq istəyirlərsə, demək olar ki, siz azdırıb yoldan çıxarmanın birinci mərhələsinin öhdəsindən uğurla gəlmisiniz. Əgər sizi yaralamaq istəyirlərsə, buna imkan verməyin, öz oyun qaydalarınızı məcburi qəbul etdirin (adamları hərəkətə necə təhrik etmək barədə 8 və 39-cu qanunlara bax).

Qorxmazlıq – kralın müstəsna üstünlüyüdür. Gerçəklik kralın mərhəmət göstərərək, öz baxışlarını yönəltdiyi yerdədir, onun nəyi görməyi qərara almasındadır. Kral XIV Lüdovik bu silahdan istifadə etmişdir – əgər siz onun xoşuna gəlməmisinizsə, o, özünü elə aparırdı ki, sanki burada yoxsunuz: üstünlü-

yünü və ünsiyyəti öz mülahizəsinə görə saxlayırdı. Belə hakimiyyətə, qorxmazlıq fəndindən istifadə etməklə, ətrafdakılara onlarsız keçinə bilməyinizi dövri olaraq göstərməklə nail ola bilərsiniz.

Bu cür davranış xətti seçərək, siz qüvvə əldə edirsiniz. Bunun əksi olan möhkəm bağlılıq və sədaqətlilik qüvvənizi çox vaxt zəiflədir. Əhəmiyyətsiz düşmənə layiq olmadığı diqqət yetirməklə, miskin və aciz görünərsiniz, belə düşməni məhv etməyi nə qədər gecikdirsəniz, bir o qədər böyük görünəcəkdir. E.ə. 415-ci ildə Afina Siciliyanı ələ keçirməyi qərara aldı, qüdrətli dövlət zəif dövlətə hücum etdi. Bununla belə, Siciliyanın tərkibində ən mühüm şəhər-dövlət olan Sirakuz Afinanı uzunmüddətli münaqişəyə cəlb edərək, inkişaf etməyi və möhkəmlənməyi bacardı. Nəhayət, Afina məğlub oldu, Sirakuz isə əsrlər boyu şöhrətləndi. Yaxın dövrdə prezident Con F.Kennedi Kuba kommunistlərinin lideri Fidel Kastroya qarşı analoji səhv buraxdı: 1961-ci ildə Kubaya soxulmaqla, uğursuzluğa düçar oldu, Kastronu isə beynəlmiləl qəhrəman etdi.

Digər bir təhlükə: əgər siz zəhlətökəni basıb əzə və ya heç olmazsa yaralaya bilmisinizsə, zəif tərəfə rəğbət yaranmasına risq edirsiniz. Franklin D.Ruzveltin tənqidçiləri administrasiyanın hökumət layihələrinə xərclədiyi pulla bağlı ona sarsıdıcı hücumlar edirdilər, ancaq onların tənqidinə ölkədəki tənəzzülün aradan qaldırılması üçün prezidentin necə işlədiyini görənlər arasından cavab verən olmadı. Onun opponentlərinə elə gəlirdi ki, prezidentin necə israfçı olduğunu əyani göstərən uğurlu nümunə tapmışlar: bu, prezidentin həddindən artıq sevdiyi və əzizlədiyi Fala adlı iti idi. Tənqidçilər, amerikalıların çoxunun hələ də yoxsulluq içində yaşadığı vaxt, Ruzvelti Amerika vergi ödəyicilərinin pulunu itinə sərf etməkdə təqsirləndirirdilər. Ancaq Ruzveltin cavabı hazır idi: opponentlər balaca köməksiz itciyəzə necə hücum edə bilərlər? Falanı müdafiə edən çıxışı onun az qala ən populyar çıxışlarından birinə çevrildi. Bu halda zəif rolunda prezidentin iti çıxış etdi, hücum

isə boğuldu – son nəticədə, prezident yalnız böyük rəğbət qazandı, çünki çoxlu adamlar özləri üçün təbii şəkildə, Panço Vilya ilə bağlı olan halda olduğu kimi, təqib edilənin tərəfini saxladılar.

Biz tez-tez öz səhvlərimizi yüngülləşdirməyə həvəs göstəririk, ancaq nə qədər çox cəhd etsək də, bəzən nəticə bir o qədər pis olur. Hər şeyi olduğu kimi saxlamaq bəzən çox düzgün yol olur. 1971-ci ildə «Nyu-York tayms» qəzeti «Pentaqonun sənədləri» başlığı altında ABŞ-ın Hind-Çində fəaliyyətinin tarixi haqqında hökumət sənədlərindən seçmələr nəşr edərkən, Henri Kissincer möhkəm qəzəbləndi. Bu cür informasiya sızmasına Nikson administrasiyasının yol verməsinə görə özündən çıxan Kissincer, «İnformasiya sızmalarının aradan qaldırılması üzrə çilingərlər briqadası» adlandırılan qrupun yaradılmasına gətirib çıxaran sərəncam verdi.

Sonralar Demokratik Partiyanın Uotergeytdəki otağına nüfuz edən, Niksonun impiçmenti və istefası ilə nəticələnən hadisələr zəncirinin başlanğıcını qoyan komanda belə yaradıldı. Pentaqonun sənədlərinin nəşri həqiqətdə administrasiya üçün ciddi təhlükə deyildi, ancaq Kissincerin reaksiyası hər şeyi dəyişdirdi. O, bir problemi həll etməyə cəhd edərək, başqa problem yaratdı: məxfiliyi saxlamağa maniakal cəhd hökumət və prezident üçün daha dağıdıcı nəticəyə gətirib çıxardı. Əgər Kissincer Pentaqonun sənədlərinin nəşrinə əhəmiyyət verməsəydi, onlara görə yaranmış qalmaqal kifayət qədər tez bir zamanda öz-özünə sönəcəkdi.

Problemin sizdə nə qədər həyəcan və narahatlıq doğurduğunu göstərərək, ona möhkəm bağlanmaq, onu şişirtmək və dərinləşdirmək əvəzinə, bu problemin mövcudluğundan ümumiyyətlə xəbərdar olduğunuzu göstərməyərək, aristokratın qorxmazlıq maskasını geymək çox vaxt daha ağıllı olur. Bu strategiyanın tətbiqinin bir neçə üsulu vardır.

Birinci üsul – onu turş üzüm siyasəti adlandıraq. Əgər siz nəyisə çox möhkəm istəyirsinizsə, ancaq onu əldə edə bilmə-

diyinizi başa düşürsünüzsə, belə vəziyyətdə ən pisi – özünüzün məyus olduğunuzu nümayiş etdirmək və hamının eşidəcəyi bir şəkildə özünüzün uğursuz olmağınızdan şikayətlənməkdir. Ən yaxşısı elə görkəm almaqdır ki, guya əslində bu heç vaxt sizin üçün o qədər də vacib olmamışdır.

1861-ci ildə Jorj Sandın pərəstişkarları, Fransa Akademiyasına ilk qadın-akademik qismində onun namizədliyini irəli sürdülər. Akademiyanın onu qəti şəkildə tanımadığını başa düşməsi üçün Sanda çox vaxt tələb edilmədi. O, Akademiyaya seçilməsinə nail olmaq əvəzinə, açıq şəkildə bildirdi ki, qocalıb əldən düşmüş, sıradan çıxmış, populyarlığını itirmiş yüngül adamların dəstəsinə qoşulmaqda maraqlı deyildir. Onun bu cəsarətli fikri akademiklərin imtinasını qabaqladı və çox uğurlu nadir gediş oldu: əgər o, hiddətlənsəydi, Akademiyaya üzvlüyün onun üçün vacib olduğunu büruzə verərdi. Bunun əvəzinə, o, Akademiyanı qocaların məclisi adlandırdı – onların mühitində darıxmaq nəsib olmadığına görə hirslənməyə və ya məyus olmağa dəyərmi? Ucadan deyilən «Üzüm kaldır!» fikrinə bəzən zəifliyin təzahürü kimi baxırlar, gerçəklikdə bu, güclülərin taktikasıdır.

İkinci üsul: əgər sizə «aşağıdan» – sizdən zəif və ya aşağı olan adam – hücum edirsə, özünüzü elə aparın ki, hətta siz bu hücumu hiss etməmisiniz. Bu hücumun sizin üçün necə az əhəmiyyətli olduğunu nümayiş etdirərək, uzaqdan fikri dağınıq vəziyyətdə baxın və ya mehriban təbəssümlü nəvazişlə cavab verin. Buna oxşar şəkildə, sizə hansısa xoşagəlməz hadisə üz verərkən, öz səhvlərinizin yaratdığı təəssüratı yumşaltmaq üçün edə biləcəyinizin ən yaxşısı – sizin buna qeyri-ciddi münasibət bəslədiyinizi göstərməkdir.

Çay mərasiminin böyük pərəstişkarı olan yapon imperatoru Qo Sayinanın çay üçün çox qiymətli qədim fincanı var idi, bütün saray adamları ona həsəd aparırdı. Bir dəfə qonaq Daynaqon Sunexiro fincana daha yaxşı baxmaq üçün onu işığa yaxın

tutmağı xahiş etdi. Fincanı nadir hallarda yerindən götürürdülər, ancaq imperatorun əhval-ruhiyyəsi yaxşı olduğundan, onu götürməyə icazə verdi. Daynaqon onu ehtiyatla əlinə alıb eyvana çıxdı, ancaq o, fincanı işığa tutanda, əlindən sürüşüb bağdakı daşın üstünə düşdü və parça-parça oldu.

Şübhəsiz, imperator özündə deyildi. Daynaqon təzim edərək dedi: «Mən fincanı sındırmaqla dəhşətli dərəcədə yöndəmsiz iş gördüm, ancaq əslində o qədər də böyük zərər vurmamışam. İdonun bu fincanı çox köhnə idi, nə bilmək olar, o, hələ nə qədər də qala bilərdi, ancaq o, insan nəzərlərindən gizlində idi və hətta mən düşünürəm ki, belə aqibət onun üçün pis deyil». Bu cəfəng və qəribə şərh dərhal öz təsirini göstərdi: imperator sakitləşdi. Daynaqon özünə haqq qazandırmadı və şişirdilmiş üzrxahlıqlar yağdırmadı, öz səhvini qorxmazlıq çalarları ilə şərh edərək, ləyaqət və güc nümayiş etdirdi. İmperator buna oxşar aristokratik etinasızlıqla cavab verməyə məcbur oldu, qəzəb və məyusluğun təzahürü xırdaçılıq və nanəciblik olardı, bu, Daynaqona istifadə etməyi yaddan çıxarmadığı üstünlük verdi.

Əgər rəqib sizə bərabərdirsə, belə taktika sizin əleyhinizə çevrilə bilər: etinasızlıq nümayiş etdirərək, siz daşürəkli görünə bilərsiniz. Əgər tez və əsəbiləşmədən hərəkət edilsə, rəis və ya ağa ilə bu taktika çox gözəl nəticə verə bilər: onun qəzəbini öz cavabınızla yumşaldaraq, siz onun bu barədə düşünərək itirəcəyi vaxtını və enerjisini qənaət edir, üstəlik xırdaçılığın olmadığını açıq nümayiş etdirməyə ona imkan verirsiniz.

Əgər biz, səhvimiz aşkarlanarkən üzr istəməyə və ya öz təqsirimizi inkar etməyə başlayırıqsa, bu, yalnız vəziyyəti pisləşdirir. İntibah dövrünün ədəbiyyatşünası Pyetro Aretino özünün əslində saxta olan aristokrat nəslindən olması ilə tez-tez öyünürdü. Nəhayət, onun düşmənləri həqiqəti üzə çıxardıqda, bu fikir bir an içərisində dağıldı və bütün Venesiya onun yalanından təəccüblə xəbər tutdu (Aretino həmin vaxt burada ya-

şayırdı). O, özünə haqq qazandırmağa başlasaydı, yalnız ictimaiyyətin nəzərində daha da aşağı düşərdi. Aretino öz ləyaqətinə xələl gətirməyən cavab vermək üsulunu tapdı: o, etiraf etdi ki, həqiqətən sənətkar oğludur, ancaq bildirdi ki, əgər o, aşağılardan yüksələrək belə zirvəyə ucalmağa nail olubsa, bu, yalnız onun əzəmətini göstərir. Həmin vaxtdan o, hər yerdə özünün əsl-nəcabəti haqqında yeni, məğrur versiyasını fəxrlə danışaraq, heç vaxt əvvəlki yalanını təkrar etmədi.

Yadda saxlayın: güclü adamın təəssüfedici əhəmiyyətsiz şeylərə layiqli cavabı – qorxmazlıq və ya təkəbbürlülükdür. Özünüzün pərt, incik və ya məyus olduğunuzu göstərməməyə çalışın – həmin halları büruzə verməklə, işə kömək etmirsiniz, siz yalnız problemin mövcud olduğunu etiraf edirsiniz. Qorxmazlıq – qəlyanaltı şəklində verilməsi daha yaxşı olan yeməkdir.

OBRAZ:

SIZANAQ

Hərçənd o, balacadır, ancaq ağrıdır və göynədir. Siz müxtəlif dərmanlar qoyur, şikayətlənir, onu qaşıyır və qopardırsınız. Həkimlər kiçik yaranı ciddi problemə çevirərək, işi yalnız korlayırlar. Onu isə, sadəcə olaraq, sakit buraxmaq lazımdır – o, tədricən sağalacaq, iz qoymadan sorulub gedəcəkdir.

MÖTƏBƏR FİKİR

«Qorxmazlıq fəndindən istifadə etməyi öyrənin. Bu, intiqam almağın ən ağıllı formasıdır. Əgər bir çox adamların görkəmli düşmənləri bu adamlara əhəmiyyət verməsəydilər, onların adları heç kimə məlum olmazdı. Heç bir intiqam unudulmaqla müqayisə edilə bilməz, çünki o, dəyərsizlərin öz acizlikləri içərisində gömülməsindən başqa bir şey deyildir».

MEDALIN İÇ ÜZÜ

Əhəmiyyət verməmək üsulundan diqqət və ehtiyatla istifadə etmək lazımdır. Xırda fəlakətlərin əksər hissəsi, əgər onlara əhəmiyyət verilməsə, öz-özünə yox olur, ancaq bəziləri dərinləşə bilər və vaxtında tədbirlər görülməsə, yara irinləyə bilər. Daha aşağı mövqedə dayanan adama əhəmiyyət vermədikdə, o, alçalmaqdan çəkdiklərini xatırlayaraq, ciddi rəqibə çevrilmişdir və intiqam almaq planı ilə alışıb yanır. İtalyan şahzadələri və knyazları papa VI Aleksandr ordusunun gənc zabiti olan oğluna əhəmiyyət vermədilər. Onlar Borciaya diqqət yetirdikdə isə, artıq gec idi – körpə şir balası İtaliyanı tikələrə parçalayan şirə çevrilmişdi. Buna görə çox vaxt, əgər siz etinasızlığınızı açıq şəkildə nümayiş etdirirsinizsə, problemin inkişafını, hər şeyin söndüyünə əmin olana qədər izləyərək, ona gizli şəkildə nəzarət etmək lazımdır. Münaqişənin bəd xassəli şişə çevrilməsinə imkan verməyin.

Ən xırda problemlərinizi, onlar böyüməmiş və nəzarət altından çıxmamış aşkar etmək bacarığını özünüzdə yaradıb təkmilləşdirin. Faciəyə gətirib çıxara bilən problemləri öz-özünə tədricən həll edilə bilən sadə təəssüfedici pis hadisələrdən fərqləndirməyi öyrənin. Bir sözlə, istənilən halda onlardan heç birini tam özbaşına buraxmayın. Nə qədər ki, problem mövcuddur, o, yenidən baş qaldıra bilər və ocağın yenidən alovlanması təhlükəsi reallığa çevrilər.

OTUZ YEDDİNCİ QANUN

ƏSRARƏNGİZ TAMAŞA YARAT

QANUNUN MAHİYYƏTİ

Parlaq əyanilik və zahirən gözəl gedişlər mühiti hakimiyyətə sövq edir. Buna görə də, tam cəzbedici olan və zahirən parıltılarla dolu rolunuzu şişirdən tamaşalar göstərin. Tamaşadan gözləri qamaşanlar xidmətlərinizin əsl dəyərini qiymətləndirməkdən xeyli uzaq olacaqlar.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

1780-ci illərin əvvəllərində Berlində yalnız dokto Vayslederin qeyri-adi və qəribə təbabət praktikası haqqında danışırdılar. O, pivə restoranını yenidən qurub, oranı çox böyük salona çevirərək, orada əsl möcüzə nümayiş etdirirdi. Təəccüblənmiş berlinlilər korların, axsaqların, ənənəvi üsullarla müalicə edilə bilinməyən hər cür xəstəliyi olan adamların çox uzun növbəsini görürdülər. Doktorun müalicə gedişində pasientləri Ay şüalarının təsirinə məruz qoyması barədə şayiələr yayıldıqda, onu, berlinli «Ay Doktor» adlandırmağa başladılar.

1783-cü ildə məlum oldu ki, doktor Vaysleder varlı bir qadını dəhşətli xəstəlikdən müalicə etməyə müvəffəq ola bilmişdi. O, dərhal məşhurlaşdı. Əvvəllər keçmiş pivə restoranında Berlinin yalnız nimdaş və cındır paltar geyinmiş çox kasıb sakinlərini görürdülərsə, indi burada günəş qüruba əyiləndə, yaraşıqlı karetalar dayanır, onlardan bahalı kostyumlu kişilər və gözəl saç düzümü olan xanımlar düşürdü. Hətta ən cüzi xəstəliyi olanlar, bəzən də tam sağlam olanlar da ora gəlirdilər. Onlar növbə gözləyərkən, pasientlər cənablara və xanımlara izah edirdilər ki, doktor Ay doğandan sonra qəbul edir. Bir çoxları əlavə edirdi ki, doktorun Ay işığından götürdüyü müalicəvi qüvvələrin təsirinə məruz qalmışlar. Hətta vəziyyəti yaxşılaşanlar da, onun eksperimentlərinin cazibə qüvvəsinə tabe olaraq, gəlməkdə davam edirdilər.

Pivə restoranının daxilində qonaqları qəribə və həyəcanlandırıcı tamaşa qarşılayırdı. Salonu bütün təbəqələrdən və millət-

lərdən olan adamların ala-bəzək kütləsi ağzına qədər doldururdu. Bu əsl qiyamət idi. Şimal divardakı hündür çatma pəncərədən ay işığının gümüşü şəfəqləri axıb içəri dolurdu. Doktor, habelə onun arvadı da müalicə edə bilirdi, – salonun axırında olan pilləkənlərin istiqamətləndiyi ikinci mərtəbədə də müalicə ilə məşğul olurdular. Növbə pilləkənlərə yaxınlaşdıqca, xəstələr yuxarıdan qışqırıq və fəryad səsləri eşidirdilər ki, bu səs-küyün korların gözlərinin açılması nəticəsində yaranması barədə həyəcanlı söz-söhbətlər başlayırdı.

Yuxarıda növbə iki yerə bölünürdü: şimal tərəfdəki kabinetdə doktor, cənub tərəfdəki kabinetdə isə, yalnız qadınları qəbul edən doktorun arvadı otururdu. Növbədə bir neçə saatlıq intizardan və gözləmədən sonra, kişi pasientlər ağ saçları dəstə şəklində dik qalxmış, ciddi, hətta bir qədər əsəbi, yaşlı adam olan qəribə doktorun özünün qarşısında dayanırdılar. O, pasienti içəri ötürür (deyək ki, atasının gətirdiyi balaca oğlanı), bədənin xəstə hissəsindən paltarı çıxardır və oğlanı pəncərəyə qaldırıb, ay işığına tuturdu. Doktor dodaqaltı nəsə mızıldayaraq, pasientin ağrıyan yerini sürtür, Aya çoxmənalı şəkildə baxır, sonra isə öz qonorarını alıb, oğlanı çıxış qapısından atasının yanına yola salırdı. Bu zaman, pəncərəsi cənuba açılan otaqda doktorun arvadı eynilə bütün bunları pasient qadınlarla edirdi – bu qəribə idi. Əslində Ay eyni vaxtda iki yerdə şəfəq saça bilməzdi. Başqa sözlə, hər iki otağın pəncərəsindən eyni vaxtda Ayın görünməsi qeyri-mümkün idi. Aydındır ki, Ayla bağlı fikir, ideya və simvol kifayət edirdi ki, xanımlar sonra Ay Doktorunun arvadının müalicəvi gücünün onun öz gücündən geri qalmadığını da deyirdi ki, onlar sonra şikayətlənməsinlər.

İZAHI

Bəlkə də doktor Vaysledərin heç bir tibbi savadı yox idi, ancaq o, insan təbiətinin incə bilicisi idi. O duymuşdu ki, insanlara heç də həmişə söz, faydalı izah və ya elmin qüdrətini nümayiş etdirmək lazım deyildir. Onlar daha çox özlərinin hisslərinə bilavasitə təsir edilməsinə, emosional aləmlərinə nüfuz edilməsinə daha çox ehtiyac duyurlar. İnsanlara bunu verin, qalanlarını isə onlar özləri edəcəklər – məsələn, milyon kilometrlərlə aralıda olan iri daş parçalarından əks olunan işığın müalicə gücünə inanacaqlar. Doktor Vaysledərin həblərə ehtiyacı yox idi, ona, Ayın şəfəqlərinin təbiəti və qüvvəsi haqqında uzun mühazirələr oxumaq lazım

ANTONİ VƏ KLEOPATRA

...Ancaq o, hər şeydən artıq öz gözəlliyinə və rəftarının yaratdığı təəssürata arxalanırdı... O, ... qızıl burnu, al-qırmızı yelkənləri və gümüşü avarları olan gəmidə Kidnos çayı boyunca yuxarı qalxırdı. Gəmi fleyta, tütək və sitrada çalınan musiqi sədaları altında irəliləyirdi. Venerasayağı geyinmiş Kleopatranın özü qızılla çox gözəl bəzədilmiş taxt-rəvanda uzanmış, eşq Allahını təcəssüm etdirən uşaqlar isə, onu əhatə edib yelpikləyirdilər. Gəminin sükanı və cihazları yanında dəniz pərilərini və zərifliyi təcəssüm etdirən gözəl qadınlar dayanmışdı. Manqaldan hər iki sahilə xoş iy yayılırdı. Gəmini quruda saysız-hesabsız adamların kütləsi müşayiət edir, mənzərəyə tamaşa edib zövq almaq üçün Tarsus şəhərinin əhalisi də kütləyə qoşulurdu. Bunun nəticəsində xalq yığıncaqları üçün meydan boşaldıqda, hakim kürsüsünü tərk etməyən Antoni Asiyaya xoşbəxtlik üz verdiyini, Veneranın şərab allahı Baxusa qonaq gəldiyini eşidir. Antoni xəbər göndərib Kleopatranı şam yeməyinə dəvət edir, ancaq o, Antonini öz evində qəbul etmək arzusunu bildirir. Antoni ona öz nəzakətini və peşman olmadığını təzahür etdirməyi arzulayaraq, dəvəti qəbul edir və ona qonaq gedir. O, təsvirəgəlməz çox gözəl mühitə düşür.

gəlmirdi. O başa düşürdü ki, onun tamaşası nə qədər sadə olarsa – otağa süzülüb dolan Ay işığı, göyə aparan pilləkənlər, görünən və ya hətta görünməyən ulduzların şüaları – bir o qədər yaxşıdır. Ay öz qüvvəsini göstərdi – həmişə olduğu kimi, fantaziya üçün maqnit rolunu oynadı. Doktor yalnız özünü Ayın obrazı ilə eyniləşdirərək, hakimiyyət əldə etdi.

Yadda saxlayın: hakimiyyətə doğru irəliləməyin uğuru minimal məsrəflər tələb edən daha səmərəli, ən qısa yol seçməkdən asılıdır. İnsanların şübhələrini aldatmağı, onların inadkar müqavimətini iradənizin arxada qoymasını bacarmaq lazımdır. Obrazlar – fövqəladə dərəcədə təsirli olan dolayı hiylədir: onlar şübhə və inadkarlıq anbarı olan beyinə toxunmayaraq, öz təsirlərini birbaşa qəlbə yönəldirlər. Onlar baxışları çaşdırmaqla, çox güclü təsir qüvvəsi yaradır, adamları birləşdirir, onları narahat edir. Ayın parlaq şəfəqlərindən gözləri qamaşmış qurbanlar aldanmağa hazır olaraq, müalicənizi çox yaxşı qəbul edirlər.

xüsusən işığın bolluğu onu heyran qoyur. Deyilənə görə, hər tərəfdən bütün divarlarda, aşağıda, yuxarıda simmetrik çoxbucaqlılarda və dairəvi fiqurlarda işıq saçan o qədər şam elə məharətlə yerləşdirilmişdi ki, ən məşhur mənzərələrdən bununla müqayisə edilə biləni çətin tapılardı.

«Antoninin həyatı», Plutarx, (təxminən 45–127).

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

Fransanın gələcək kralı II Henrix 1536-cı ildə özünün ilk məhəbbəti Diana de Puatye ilə görüşdü. Otuz yeddi yaşlı Diana Normandiya seneşalının (inzibati-məhkəmə

Orta əsrlərdə simvollara meyl olduqca güclü idi.... Simvolçuluq ideyaların qısa şəkildə şərhi üsuluna çevrilirdi. İki predmet arasında qarşılıqlı münasibəti axtarmaq əvəzinə, təfəkkür onların səbəbli əlaqələrinin gizli dolayı yolu ilə gedərək, dövrə vurur və bu münasibətləri səbəb-nəticə nöqteyi-nəzərindən deyil, məna kontekstindən aşkara çıxarırdı... Simvolik təfəkkür predmetlər arasında saysız-hesabsız əlaqələr aşkar etməyə imkan verirdi. Hər bir predmetdə müxtəlif xassələrə uyğun, – hər bir xassənin, ola bilsin, öz növbəsində çoxsaylı mənaları olan – ayrı-ayrı təsəvvürlər çoxluğu gizlənə bilərdi. Yüksək konsepsiyalara minlərlə simvolik mənalar uyğun ola bilərdi.

idarəçiliyi başçısının) dul arvadı, Henrix isə on yeddi yaşı yenicə tamam olmuş, həyat yoluna təzəcə qədəm qoymuş təcrübəsiz gülərüz yeniyetmə idi. Əvvəlcə onların ittifaqı platonik münasibətdən artıq görünmürdü, Henrix Dianaya çox güclü və yüksək sədaqət göstərirdi. Ancaq tezliklə aydın oldu ki, o, özünün gənc arvadı Yekaterina Mediçi ilə lojada olmağı, Diana ilə yataqda olmaqdan üstün tutur.

1547-ci ildə kral Fransisk öldü və Henrix taxt-tacı vərəsə olaraq qəbul etdi. Vəziyyətin belə dəyişməsi Dianaya müəyyən təhlükə vəd edirdi. Onun qırx səkkiz yaşı təzəcə tamam olmuşdu. Şayiələrə görə, onun istifadə etdiyi soyuq vannalar və cavanlaşdırıcı dərmanlara baxmayaraq, yaş özünü göstərməyə başlayırdı. İndi Henrix kral olduqda, o, toy yatağına qayıda, başqa krallar kimi hərəkət edə bilərdi – bütün Avropanın həsədinə rəğmən, Fransa sarayında bol olan gözəllərin sırasından özünə məşuqə seçə bilərdi. Axı, onun hələ iyirmi səkkiz yaşı var idi. Ancaq Diana təslim olmağı heç ağlına da belə gətirmirdi. O, əvvəlki kimi öz məşuqunu özünə cəlb edir, ötən on bir il ərzində olduğu kimi, onu məftun edirdi.

Diana de Puatyenin məxfi silahı onun həmişə böyük diqqət yetirdiyi simvollar və obrazlar idi. Henrix ilə əlaqəsinin lap əvvəlində, o, özünün və Henrixin ad-familiyasının

baş hərflərinin naxışlarla işləndiyi tor şəbəkə hazırlanmasını sifariş verdi. Emblem onların birliyini simvollaşdırırdı. Bu, Henrixə sehr kimi təsir etdi: o, bu emblemi hər yerdə – özünün kral libasında, heykəllərdə və kilsələrdə, Luvrun fasadında, sonra isə Parisdə kral sarayında yerləşdirdi. Diana yalnız özünün çox sevdiyi ağ və qara güllü, həm də onların yalnız emblemlə bəzədildiyi paltarı geyinirdi. Simvol asanlıqla tanınırdı və onun mənası isə heç kim üçün sirr deyildi. Henrix kral olduqdan sonra, Diana tədricən daha uzağa getdi: o, özünü adının götürüldüyü Roma ilahəsi Diana ilə bərabərləşdirməyi qərara aldı. Diana kralların ənənəvi məşğuliyyətləri olan, Henrixin ehtirasla sevdiyi ovçuluq ilahəsi idi. Bundan başqa, İntibah incəsənətində Diana ismət və saflıq simvolu idi. Diana kimi qadınlar üçün özünü ilahə ilə tutuşdurmaq, bütün bu simvolları yeni qüvvə ilə həyata qaytarmaq, onu bir an içərisində hörmət və ehtiram şəfəqləri ilə əhatə edirdi. Bu simvolla, o, özünün Henrixlə münasibətinin «əxlaqlı» olduğunu xüsusi nəzərə çarpdıraraq, öz adını xəyanət barədə təsəvvürlərdən və özünü kralın adi məşuqələri rolundan qoruyurdu.

Düşündüklərinə nail olmaq üçün Diana,

Ucalığı ifadə etmək və şöhrətləndirmək üçün heç nə həddindən artıq alçaq ola bilməz. Qoz Xristosu simvollaşdırır: şirin özək – Onun İlahi mahiyyətinin, yaşıl sulu örtük – Onun insani təbiətinin, onların arasındakı bərk qabıq isə xaçın simvoludur. İstənilən predmet fikirləri ucalda, onları əbədiliyə yönəldə bilər.... Hər bir qiymətli daş öz təbii parlaqlığından başqa, özünün simvolik mənasını şəfəqləndirir. Qızılgülün bakirəliklə eyniləşdirilməsi, onların təbii mahiyyətini açdığından, sadə poetik müqayisədən artıqdır. Hər bir təsəvvürün ağılda meydana çıxmasına uyğun olaraq, simvolun məntiqi ideyalarının harmoniyasını doğurur.

Yoxan Quizinqa, «Orta əsrlərin qürubu», 1928.

Yuxarı Kiotoda yaşayan Sakamotoyya Xeçiquan adlı bir adam var idi... Hökmdar Xideyoşi 1588-ci ilin onuncu ayında Kitanoda özünün məşhur tanoyu çay mərasimini keçirərkən, Xeçiquan eni doqquz fut, hündürlüyü yeddi fut al-qırmızı rəngdə çox böyük çətir (köşk) qurdurdu. O, çətirin ətrafına iki fut məsafədə al-qırmızı rəngdə elə hasar çəkdirdi ki, ondan əks olunan günəş işığı həmin rəngli işıq zolağını hər tərəfə yaydı. Bu kompozisiya Xideyoşinin o dərəcədə xoşuna gəldi ki, o, mükafat olaraq Xeçiquanı vergi ödəməkdən azad etdi.

A.L.Sadler, «Tanoyu: yapon çay mərasimi», 1962.

özünün Anedə olan qəsrini tamamilə dəyişdi. Əvvəlki qəsri uçurub yerlə-yeksan etdirdi, onun yerində isə Qədim Roma məbədlərini xatırladan, perimetri boyunca Dorida sütunları ilə əhatə olunmuş möhtəşəm bina ucaltdırdı. Qəsr xırda çilləri olan ağ normand daşından tikildi – sanki təbiət Diananın ağ və qara rənglərini yaratmışdı. Onun və Henrixin inisialları hörülmüş monoqrammalar (bir neçə baş hərfin hörgü şəklində bir-birinə keçirilməsi) sütunları, qapıları, pəncərələri, xalçaları bəzəyirdi. Diana ilahəsinin simvolları – aypara, buynuzlu marallar və tazılar – darvazalarda və fasadda göz oxşayırdı. İçəri otaqlar ilahənin həyatından götürülmüş epizodların təsvirləri olan, divarlardan asılmış və döşəmələrə sərilmiş qobelenlərlə (divar xalçaları ilə) bəzədilmişdi. Bağda, hal-hazırda Luvr muzeyində saxlanılan məşhur «Ovçu Diana» heykəli ucaldılmışdı. Heykəl Diana de Puatye ilə zahiri oxşarlığına görə heyrət doğururdu. Diananın rəsm və heykəl təsvirləri qəsri doldurmuşdu.

Ane qəsri Henrixin təxəyyülünü heyran qoydu, belə ki, o özü, hamının eşidəcəyi bir şəkildə Diana de Puatyeni Roma ilahəsinin təcəssümü adlandırdı. 1548-ci ildə bu ər-arvad birlikdə Lionda təntənələrdə göründük-

də, xalq onları ovçu Dİananın təsviri olan tablolarla qarşıladı. Həmin dövrün böyük fransız şairi Pyer de Ronsar Dİananın şərəfinə şeirlər yazdı. Demək olar ki, Fransanın hər yerində Roma ilahəsinə əsl pərəstiş hökmran idi – bu kralın sevimlisinin təsiri ilə yaranmışdı. Henrixə elə gəlirdi ki, Dİananın özü də ilahi bir auraya bürünüb, onların qisməti həyatlarının sonuna qədər bir yerdə olmaqdır. Henrix 1559-cu ildə ölənə qədər Dİanaya sadiq qaldı, o, Dİanaya hersoginya adı verdi, çox böyük sərvət bağışladı və demək olar ki, ona ilahi səcdə nümayiş etdirərək, özünün birinci və yeganə sevimlisinə dərin hörmət və ehtiram göstərdi.

İZAHI

Mənşəcə burjuanın aşağı təbəqəsindən çıxmış qadın olan Diana de Puatye, demək olar ki, iyirmi ildən artıq müddətdə Henrixin marağını özünə cəlb etməyə nail olmuşdu. Diana altmış yaşı ötdükdən sonra öldü, ancaq kralın ona qarşı olan ehtirasları illər keçdikcə nəinki azalmadı, hətta artdı. O, kralı təfərrüatı ilə öyrəndi. Diana intellektual, ağıl-zəka sahibi deyildi, ancaq həyatın bütün təzahürlərini – xüsusən cəngavər turnirlərini, çox gözəl yəhər-yüyəndə olan atları və dəbdəbəli geyimli qadınları sevirdi. Henrixin zahiri parlaqlığa və dəbdəbəyə olan məhəbbəti Dianaya infantil (uşaqlıq dövrünün xüsusiyyətlərinin yaşlı adamlarda qalması) görünürdü və o, kralın bu zəifliyindən hər vasitə ilə istifadə etdi.

Ən uzaqgörən addım Dİananın ovçu ilahəsi obrazını qəbul etməsi idi. Bu, fiziki obraz çərçivəsindən kənara çıxan və psixoloji simvola aid olan oyun idi. Kralın məşuqəsini paklıq və hakimiyyət simvoluna çevirmək ideyası çox cəsarətli idi, ancaq Diana hər şeyə nail ola bildi. O, ilahənin təcəssümünə çevrilməsəydi, sadəcə olaraq, qocalan kurtizanka olaraq qalardı. Dİananın obrazı və simvolu ilə, o, mifik güc əldə etdi, əzəmət onun qisməti oldu.

Diana öz rəngindən və emblemindən istifadə etdiyi kimi, siz də bütöv obrazı yaratmaq üçün tamaşaçı təlqinindən istifadə etməklə, həmçinin belə şeylərlə oyun oynaya bilərsiniz. Sonra oyunu davam etdirmək olar: keçmişdən sizin vəziyyətinizə tam uyğun gələn obraz və ya simvol tapın, onu üst geyimə bərkidilən baş geyimi kimi başınıza keçirin. Bu, sizin əslində olduğunuzdan qüdrətli və böyük görünməyinizə kömək edər.

Saray adamları kimi əhatəsində olan ulduzlara verdiyi işıq üzündən, öz işığını hamıya və hər kəsə ədalətli və bərabər bölməsi üzündən, onun hər yerdə həyat, sevinc və canlanma yaradaraq, gətirdiyi xeyirxahlıq üzündən, onun heç vaxt dəyişmədiyi mətinlik üzündən – mən böyük monarxı simvollaşdırmağa qadir olan ən qüdrətli obraz kimi Günəşi seçirəm.

XIV Günəş Kral, 1638–1715.

HAKİMİYYƏTİN AÇARI

Öz işini sözün köməyi ilə müdafiə etmək qorxuludur: söz təhlükəli vasitədir və çox vaxt məqsədinə çatmır. Ətrafımızdakıların bizi inandırmaq məqsədi ilə istifadə etdikləri sözlər, sanki bizim öz sözlərimizin köməyi ilə bu mövzunu dərindən düşünməyə bizi dəvət edir, bu da çox vaxt bizim əks nəticəyə gəlməyimizlə qurtarır. (Bunda bizim təbiətimizin ziddiyyətli olması qismən özünü göstərir.) Elə hallar da olur ki, söz onu danışan barəsində pis duyğular yaradaraq, bizim qanımızı qaraldır, o isə bundan heç şübhələnmir də.

Ancaq görünən, hərəkətlə ifadə olunan informasiya sözlərin labirintindən yan keçərək, ən qısa yolla getməyə imkan verir. O, emosional gücü ilə heyrətə salır, refleksiya və şübhələr üçün

yer qoymayaraq, bir an içində təsir edir. Musiqi kimi, o, səmərəli, mühakiməli fikirlərin siperindən yan keçərək, özünə yol açır. Öz metodunu əsaslandırmağa, öz xəstələrinə Ay işığının xassələri haqqında və uzaq göy cisminin şüaları ilə özünün xüsusi münasibətləri haqqında mühazirələr oxuyaraq, onları inandırmağa çalışan «Ay Doktoru» təsəvvürünüzə gətirin.

O, sözün köməyi olmadan qarşısıalınmaz cazibədar tamaşa yaratmağa müvəffəq oldu. Pasientlər pivə restoranına daxil olan vaxt Ay obrazının özü, onun haqqında kifayət qədər gözəl və parlaq danışırdı.

Başa düşmək lazımdır ki, söz labüdən sizi müdafiə vəziyyətinə qoyar. Əgər siz izah etməyə məcbur olsanız, bununla gücünüz dərhal şübhə altına alınar. Ancaq tamaşaçı obrazı təcrübədən asılı olmayan təlqindir, onun sualları yoxdur, güclü təsir şəbəkəsi yaradır, arzuolunmaz izahları istisna edir, şüura dərhal yol tapır və sosial bərabərsizliyin yaratdığı dəfedilməz maneələri dağıdır. Söz mübahisələr və diskussiyalar doğurur, obrazlar adamları birləşdirir. Obrazlar – hakimiyyətin çox mühüm və zəruri vasitəsidir.

Simvolun malik olduğu hakimiyyət bundan az deyildir – həm tamaşa edilən obraz (Dinananın heykəli), həm də hər hansı görünən şeyin sözlə təsviri (sözlə ifadə edilən obraz – «Günəş Kral»). Mücərrəd ideya – saflıq, vətənpərvərlik, qəhrəmanlıq, məhəbbət – emosional yük və güclü təsir daşıyıcısıdır. Simvol bir sadə predmet və ya ifadə ilə onlarla məna ifadə edir. XIV Lüdovikin izahına görə, Günəş – Kral simvoluna müxtəlif səviyyələrdə izah vermək olardı, ancaq bu obrazın gözəlliyi ondadır ki, şərhə ehtiyacı olmayan güclü təsir təsəvvürü yaratdı, Lüdovikin təbəələrinə bilavasitə təsir edərək, onu digər kralların arasından fərqləndirdi və onun sözdə ifadəsi ilə müqayisəyə gəlməyəcək dərəcədə qüdrətli obrazını təsəvvürdə yaratdı.

Simvol sözlə təsviri və izahı üstələyən qüvvəyə malikdir.

Simvollardan və obrazlardan istifadə edilərkən, görmə hissinin başqa hisslərdən üstün olmasının dərk edilməsi birinci dərəcəli əhəmiyyətə malikdir. İntibah dövrünə qədər bu mövqeyə etiraz edilirdi, görmə və digər hisslər – insan üçün öz əhəmiyyətinə görə təxminən bərabər hesab edilirdi. Ancaq həmin vaxtdan sübut olunmuşdur ki, insan informasiyanın ən çox hissəsini məhz görmə vasitəsilə alır, bu hissə biz hər şeydən artıq etibar edirik və ondan asılıyıq. Qrasian demişdir: «Doğrudur ki, bir qayda olaraq, görmə hər şeydən asan, eşitmə isə çətindir». Əsir götürülərək mavrlara qul kimi satılmış İntibah dövrünün rəssamı Fra Filippo Lippi öz ağasının portretini kömürlə ağ divara çəkərək, özünə azadlıq əldə etmişdi. Ağası rəsmi gördükdə, belə obrazlar yaratmaq istedadı verilmiş Fra Filippoya layiqli qiymət verərək, onu azadlığa buraxdı. Bu, yeganə təsvir, rəssamın sözlə ifadə edə biləcəyi istənilən dəlildən güclü təsir etdi.

Tamaşaçıların nəzərinə çatdırmaq istədiyiniz informasiyanı görünən formada məhz necə tərtib etməyə etinasızlıq göstərməyin. Məsələn, işıq kimi amillər böyük simvolik əhəmiyyətə malikdir. İstedadlı fırıldaqçı Sarı Uşaq Veyl özünün buraxdığı saxta səhmləri reklam edən qəzet buraxırdı, o, bu qəzetə «Qırmızı qəzet» adını qoymuşdu və baha başa gəlsə də, onun mətnlərini qırmızı rəngdə çap etdirirdi. Rəng uğur qazanmağa hücum, dinamiklik, əminlik duyğuları yaradırdı. Reklam və marketinq sahəsində müasir mütəxəssislər kimi, Veyl qurbanları yoldan çıxarmağa kömək edən bu cür təfərrüatları duymaq qabiliyyətinə malik idi. Məsələn, əgər siz satmaq istədiyiniz bir şeyi adlandırarkən «qızıl» sözündən istifadə edirsinizsə, onu qızıl hərflərlə çap edin. Görmə digər hiss orqanlarından üstün mövqe tutduğundan, insanlar rəngə sözə göstərdiklərindən artıq münasibət göstərəcəklər.

Gözlə görünən şey çox böyük emosional qüvvəyə malikdir.

Roma imperatoru Böyük Konstantin Günəşə özünün bütün həyatının səcdəgahı kimi ehtiram edirdi, bir dəfə o, başını qaldırıb Günəşə baxdıqda, onun qarşısını kəsən xaç gördü. Xaçın Günəşdən yuxarıda görünməsi, onu yeni dini qəbul etməyə vadar etdi, o, xristianlığın öz imperiyasında yayılmasına böyük kömək göstərdi. Dünyanın bütün din xadimləri belə böyük təsir göstərə bilməzdi. Bu gün bir an içərisində adamlara təsir göstərə bilən obrazlar və simvollar tapın, öz adınızın onlarla əlaqələndirilməsinə nail olun. Bu sizə fövqəladə hakimiyyət verər.

Ən səmərəli yeni kombinasiya – görünən obraz və simvolların xəlitəsidir. Bu, indiyə kimi müqayisə edilə bilinməyən, ancaq onlarla bağlı təsirin və qüdrətin sayəsində sizin yeni ideyanızı, konsepsiyanızı, dininizi dəqiq nümayiş etdirir. Görünən obrazlar çox vaxt müəyyən ardıcıllıqla meydana çıxır, onların meydana çıxdığı qayda öz-özlüyündə simvolikdir. Birinci meydana çıxan, məsələn, hakimiyyəti simvollaşdırır, ortada gələn simvol mərkəzi əhəmiyyətə malik kimi görünür.

İkinci Dünya müharibəsinin qurtarmasına az qalmış, general Eyzenhauer, Amerika qoşunlarına Paris azad edildikdən sonra şəhərə birinci girmək əmrini verdi. Ancaq fransız generalı Şarl de Qoll başa düşürdü ki, hadisələrin belə ardıcıllığı amerikalıların Fransanın sonrakı taleyini həll etmək hüququ qazanmasına gətirib çıxara bilərdi. Bir yığın fənd və hiylə bahasına de Qoll azadlıq qüvvələrinin başında ilk dəfə olaraq İkinci fransız zirehli tank diviziyasının və özünün durmasına nail oldu. Plan baş tutdu və uğurla keçirilən əməliyyatdan sonra, müttəfiqlər, onunla müstəqil Fransanın yeni lideri kimi hesablaşmağa başladılar. De Qoll bilirdi ki, lider sözün müstəqim mənasında öz ordusunun qabağında olmalıdır. Bu görünüşün təsiri səhvsiz olaraq arzu olunan emosional münasibəti doğurur.

Simvollar oyununda dəyişikliklər baş verir: bəlkə də indi «Günəş Kralı» təlqin etmək və ya Dananın paltarına bürünmək o qədər də münasib deyildir. Ancaq sizin öz adınızı bu cür simvollarla dolayı bağlamaq imkanınız hələ vardır. Əlbəttə, siz yaxın tarixin özünü ləkələməmiş və hətta ölümlərindən sonra cəmiyyətdə böyük nüfuza malik olan şəxslərindən, həyatdan getmiş adamlardan istifadə edərək, öz xüsusi mifologiyanızı yarada bilərsiniz. Mahiyyət ondan ibarətdir ki, siz özünüzü adi simanızın hələlik doğura bilmədiyi aura, şan və şərəflə əhatə edəsiniz. Diana Puatye öz-özlüyündə ilahi qüvvəyə malik deyildi, o, yalnız insan idi, həm də demək olar ki, bizim hamımız kimi adi insan. Simvol onu digər adi adamlardan yüksəyə qaldırdı və ona ilahi sima verdi.

Kobud sözdən artıq, daha yumşaq simvolların tətbiqi incə problemləri müzakirə etməyə kömək edir. Əsəb müalicəsi həkimi doktor Milton X.Erikson pasientlərlə söhbət alınmayanda, onlarla əlaqəni qaydaya salmağa kömək edən simvollar və obrazlar axtarırdı. Ağır zədələnmiş xəstələrlə söhbət edərək, o, birbaşa suallar vermirdi, bunun əvəzində neytral məsələlər haqqında söhbət açırdı, məsələn, 1950-ci illərdə Arizonada işləyərkən maşında səhranı necə keçməsi haqqında danışırdı. Əgər pasientin əlaqəyə girmək istəməməsi hiss olunsaydı, o, tək bitmiş, açıq yerdə tamam yalqız qalması üzündən ziyan çəkən ağac barədə söz salırdı. Simvol kimi ağacla emosional əlaqələr və təsirlər quraraq, pasient böyük həvəslə doktorla söhbətə girirdi.

Öz tabeliyinizdə olanları və ya tərəfdarlarınızı ruhlandırmaq və birləşdirmək üçün simvolların hakimiyyətindən istifadə edin. 1648-ci ildə Fransa taxt-tacına qarşı qiyam vaxtı üsyançılar krala sədaqətini saxlayanları uşaqların özlərindən böyükləri qorxutmaq üçün istifadə etdikləri quşatanla (fransızca frondes) müqayisə edərək, onları ələ salıb masqaraya qoyurdular. Kardinal de Res bu alçaldıcı obrazı üsyanın simvoluna çevirməyi qə-

rara aldı: üsyan Fronda (XVII əsrdə Fransada mütləqiyyət əleyhinə olan zadəgan-burjua hərəkatı), qiyamçılar isə frondaçılar adını aldı. Onlar şlyapalarında quşatan şəklində nişan gəzdirməyə başladılar, həmin sözün özü isə döyüş çağırışına çevrildi. Bunsuz qiyam zəifləyə də bilərdi. Həmişə düşdüyünüz vəziyyətə münasib simvol axtarıb tapın – emosional təsir nə qədər çox olarsa, bir o qədər yaxşıdır.

Obraz və simvollardan istifadə etməyin ən düzgün üsulu, onlardan adamları ovsunlayan və onları xoşagəlməz reallıqdan ayıran gözəl tamaşa yaratmaqdır. Bunu etmək çətin deyildir: adamlar böyük, mənzərəli və həqiqətə uyğun olmayan hər şeyi sevirlər. Onların duyğularına təsir edin, onlar kütlə halında sizin şounuza axışıb gələcəklər. Tamaşaçıların ürəklərinə ən qısa yol, onların görmə təəssüratından keçir.

OBRAZ:

XAÇ VƏ PARLAQ MÖHTƏŞƏMLİK

Biri digərinin üzərinə qoyulduqda, yeni reallıq forma əldə edir – yeni hakimiyyət dirçəlir. Bu simvolun geniş izaha ehtiyacı yoxdur.

MÖTƏBƏR FİKİR

«Adamlar üçün şeylərin xarici örtüyü həmişə mühümdür... Hökmdar ilin münasib vaxtında xalqı bayramlar və tamaşalarla əyləndirməlidir».

Nikkolo Makiavelli.

MEDALIN İÇ ÜZÜ

Obrazlar və simvollardan istifadə etmədən hakimiyyət əldə etmək mümkün deyildir. Bu qanun üçün əks hallar mövcud deyildir.

OTUZ SƏKKİZİNCİ QANUN

İSTƏDİYİN ŞEYİ FİKİRLƏŞ, ANCAQ HAMI KİMİ HƏRƏKƏT ET

QANUNUN MAHİYYƏTİ

Əgər siz orijinal ideyalarınızla və qeyri-adi üsullardan istifadə etməyinizlə lovğalanaraq, öz zəmanənizi qabaqladığınızı və dövrə qarşı çıxdığınızı göstərməyi arzulayırsınızsa, adamlar, bununla, sizin diqqəti cəlb etmək istədiyinizi, onlara yuxarıdan aşağı baxdığınızı fikirləşərlər. Üstünlüyünüzü hiss etməyə onları məcbur etdiyinizə görə adamlar sizi cəzalandırmaq üsulu taparlar. Onlara qarışmaq və hamı kimi olmaq daha təhlükəsizdir. Öz orijinallığınızı yalnız buna dözümü olan dostlarınıza və qeyri-adiliyinizdən xoşu gələcəyinə dəqiq inandığınız adamlara açıqlayın.

QANUNUN POZULMASI

Axına qarşı üzməyə cəhd etdikdə, pis vəziyyətə düşmək asandır. Yalnız Sokratın və onun kimilərinin buna gücü çatırdı. Razılaşmamağa təhqir kimi baxırlar, çünki o, əksəriyyətin baxışlarını kobudcasına pozur. Narazı qalanlar getdikcə daha çox olur – məzəmmət predmeti olan, həm də üstəlik, bu qəbahətli predmetə təqdiredici münasibət bəsləyən incə və namünasib mövzuya sadəcə toxunmaqla narazılıq yaratmaq olar. Həqiqət tək-tük adamlar üçün mövcuddur, yanılmalara gəldikdə

Təxminən e.ə. 478-ci ildə Sparta şəhər-dövləti gənc spartalı aristokrat Pavsaniya başda olmaqla, İrana hərbi ekspedisiya göndərdi. Yunan dövləti, bundan bir qədər əvvəl, farsların güclü hücumunu dəf etməli olmuşdu, indi isə Pavsaniyanın, eləcə də müttəfiq Afina donanmasının vəzifəsi işğalçıları cəzalandırmaq, farsların tutduğu adanı və sahilyanı əraziləri müharibə ilə geri almaq idi. Həm afinalılar, həm də spartalılar Pavsaniyaya dərin hörmətlə yanaşırdılar – o, özünü doğrultmuş cəsur hərbçi ad-sanı qazanmışdı.

Pavsaniya öz qoşunları ilə heyrət ediləcək dərəcədə sürətlə Kipri tutdu, sonra Kiçik Asiyaya – həmin vaxt Hellespont adı ilə tanınan vilayətə doğru hərəkət etdi və Bizansı (müasir İstambulu) ələ keçirdi. İranın xeyli hissəsini özünə tabe etdikdən sonra, Pavsaniya qəribə şəkildə dəyişildi. O, camaat arasına rənglənmiş saçla və fars geyimi ilə çıxırdı, onu misirli cangüdənlər müşayiət edirdi. O, fars qaydasında, yuxarı başda oturaraq və əyləncə tələb edərək, dəbdəbəli ziyafətlər təşkil edirdi. Pavsaniya köhnə dostları ilə görüşməyi dayandırdı, xırdalıqlarına qədər İran diktatorunun üslubunu və ədasını götürərək, getdikcə daha çox İran şahı Kserkslə ünsiyyətdə oldu.

Aydındır ki, Pavsaniyanın hakimiyyəti və uğurları onun başını gicəlləndirmişdi. Afina-

lılar və spartalılar əvvəlcə hesab edirdilər ki, bu, keçici həvəsdir: o, həmişə teatrallığa və coşqunluğa meyllі idi. Pavsaniya yunanlarda qəbul edilmiş sadə həyat tərzini açıq şəkildə masqaraya qoyduqda və bununla da, sadə yunan əsgərlərini təhqir etdikdə, onlar Pavsaniyanın həddini qədərindən artıq dərəcədə aşmış olması qərarına gəldilər. Birbaşa sübutu olmasa da, belə şayiələr yayılmışdı ki, o, düşmən tərəfinə keçmişdir və yunanların Kserksi olmağa hazırlaşır. Yetişməkdə olan qiyamın qarşısını almaq üçün, spartalılar Pavsaniyanı komandanlıqdan kənarlaşdırdılar və onu geriyə – vətənə çağırdılar.

Ancaq Pavsaniya Spartada da fars üslubunda geyinməyi davam etdirdi. Bir neçə aydan sonra, o, öz vəsaiti hesabına trirema (üçyaruslu avarları olan hərb gəmisi) icarəyə götürdü və Hellesponta qayıtdı. Öz həmvətənlərinə xəbər verdi ki, İrana qarşı mübarizəni davam etdirmək niyyətindədir. Əslində isə, onun planları başqa idi – Yunanıstanın vahid hökmdarı olmaq, bunun üçün Kserksin özünün köməyindən istifadə etmək idi. Spartalılar onu Vətən xaini elan etdilər və onu yaxalamaq üçün gəmi göndərdilər. Pavsaniya satqınlıq ittihamını asanlıqla üstündən götürə biləcəyinə inanıb, təslim oldu. Məhkəmədə aşkar oldu ki, o, özünün tərəfdarları olan yunanları təhqir edərək, onlara alçaq nəzərlə baxmışdır. O, ordunun fəth etdiyi şəhərlərin şərəfinə abidələr qaldırmaq adətinin əksinə olaraq, öz şərəfinə abidə qoy-

isə, onlar geniş yayıldıqları qədər də bayağıdır. Müdrik olanı bazar meydanında nitqinə görə tanımırlar, çünki bu vaxt, o, öz müdrikliyi mövqeyindən deyil, ümuminin ağılsızlığı mövqeyindən danışır, onun gizli fikirləri isə tamamilə başqa cür, hətta dediklərinin tam əksi də ola bilər: müdrik adam özü heç kimə etiraz etməməyə diqqətlə çalışdığı kimi, ətrafdakılarda da etiraz yaratmaqdan qaçır. Fikir azaddır, onu gizlətmək olmaz və bu, lazım da deyildir. Öz sükutunun xəlvəti sığınacağına çəkil, əgər bəzən sən bu sükutu pozmağa cəsarət etsən, bunu yalnız az sayda adamların – nəzakətli və ehtiyatlı dostların yanında et.

Baltazar Qrasian, 1601–1658

Bene vixit, bene latuit. – Kim bacarıqla gizlənirsə, o, yaxşı yaşayır.

Ovidi, e.ə. 43-b.e. 18

durmuşdu. Bununla belə, Pavsaniya məqsədinə nail oldu: düşmənlə çoxsaylı əlaqələrinin olmasını göstərən təkzibedilməz dəlillərə baxmayaraq, belə əsl-nəcabətli və şöhrətli adamı həbs etməyə spartalıların əli qalxmadı. Ona azadlıq bəxş etdilər.

Bundan sonra, toxunulmazlıq hüququna malik olduğunu güman edən Pavsaniya, Kserksə məktub çatdırması üçün çapar tutdu. Ancaq çapar məktubu başqa ünvana – Spartanın başçılarına çatdırdı. Onlar daha çox şey bilmək istəyirdilər, buna görə çapara Pavsaniya ilə məbəddə görüşməyi əmr etdilər ki, burada onların danışığına gizlicə qulaq asa bilsinlər. Görüşdə Pavsaniyanın danışdıqlarını eşidərkən, onları sanki ildırım vurdu, – özlərinin həyat tərzinə bu dərəcədə alçaldıcı həqarətlə xarakteristika verildiyini hələ heç vaxt eşitməmişdilər – xarakteristika həm də onu spartalının verdiyinə görə dözülməz idi. Pavsaniyanın dərhal həbs edilməsi haqqında əmr verildi.

Məbəddən evə qayıdarkən yolda Pavsaniya baş verənlərdən duyuq düşdü. O, başqa məbədə cumdu və orada gizləndi, ancaq hökumət sığınacağın ətrafına qarovul düzərək onu mühasirəyə aldı. Pavsaniya təslim olmaqdan imtina etdi. Hökumət müqəddəs məbədə hücum etmək istəməyərək, satqının çıxış yollarını bağlayıb, onu tələyə saldı. Nəhayət, Pavsaniya aclıqdan öldü.

İZAHI

İlk baxışdan elə görünə bilər ki, yad mədəniyyət Pavsaniyanı sadəcə olaraq heyran edib – belə şeylər bütün zamanlarda baş verir. Spartanın asketizmi ilə həmişə çətinliklə barışan Pavsaniya, özündə, fars dəbdəbəsinə və cismani zövqi-səfasına meyl hiss etdi. O, xoş iyli ətirlərdən istifadə edib, fars xalatı geyinərək, özünün sərt yunan intizamından və asketizmindən xilas olması, yüngülləşməsi hissini keçirdi.

Bəzən elə olur ki, insanlar yetkinləşməmiş mədəniyyəti qəbul edirlər. Ancaq çox vaxt buna üstəlik başqa şey də qarışır: yad mədəniyyətə öz coşqun marağını gözə çarpdıran adamlar, bununla öz mədəniyyətinə nifrət etdiyini və onu qəbul etmədiyini nümayiş etdirir. Onlar yerli qanunlara və ənənələrə itaətlə tabe olan həmvətənlərindən özlərini ayırmaq üçün əzilib-büzülür, qeyri-adi zahiri görkəmləri ilə özlərini igid göstərməyə çalışırlar. Bununla onlar, öz üstünlüklərini göstərmək istəyirlər. Əks halda, onlar özlərinin təəssüratları ilə həmfikir olmayanlara hörmət təzahür etdirərək, özlərini böyük ləyaqətlə aparardılar. Onların özlərinin bənzərsizliyini bu dərəcədə kəskin şəkildə nümayiş etdirmək tələbatı, çox vaxt, onların ideallarına meydan oxuduğu adamların anlamamağına və nifrətinə gətirib çıxarır. Bu, ola bilsin, dolayı və gizli şəkildə nümayiş etdirilir, ancaq əvvəlkindən az təhqiredici olmur.

Fukidid Pavsaniya haqqında yazır: «Özünün qanunlara etinasız yanaşması və yad həyat tərzini yamsılaması üzündən, o, hamı tərəfindən qəbul edilmiş qaydalara riayət etməməkdə ümuminin şübhəsi üçün hədəfə çevrildi». Mədəniyyət əksəriyyətin şərik olduğu çoxəsrlik sistemlər, ideallar və ənənələrin məcmuyundan ibarətdir. Cəzalandırılmadan, zərər çəkmədən belə şeylərin əleyhinə çıxmağın mümkün olmasını hesab etmək sadəlövhlükdür. Cəhd cəzalandırılacaqdır, bu, müxtəlif şəkildə ifadə edilə bilər, məsələn, sizi sürgün edə bilərlər – bu isə, sizin tam hakimiyyətsiz olduğunuzu göstərən vəziyyətdir.

Müdriklər ikiqat dibi olan sandığa bənzəyirlər (bənzəməlidirlər): onun qapağını qaldırıb içəri nəzər salan, sandığın içərisində olan şeylərin hamısını görmür.

Ser Uolter Reyli, 1554–1618

SULAR DƏYİŞƏN VAXT

Çox qədim zamanlarda, Musa peyğəmbərin müəllimi Xıdır bir dəfə insanlara xəbərdarlıqla müraciət etdi. O dedi ki, əgər xüsusi olaraq su ehtiyatı yığılmasa, dünyanın bütün suyu müəyyən bir gün quruyacaq. Sonra su dəyişilib başqası ilə əvəz ediləcək, bunun nəticəsində insanlar ağlını itirəcək. Yalnız bir adam bu öncəgörməyə diqqət yetirdi. O, su topladı və təhlükəsiz yerdə saxlayaraq, suyun dəyişilməyə başlamasını gözlədi.

Pavsaniya kimi bizim çoxumuz qeyri-adi, əcnəbi, cəzbedici çağırış, bir sözlə, dəniz pərisinin mahnısını eşidirik. Özünüzün bu həvəsinizi məhdudlaşdırın və ölçü hissini itirməyin. Siz yad təfəkkür və hərəkət tərzindən zövq aldığınızı açıq ifadə etməklə, qeyri-iradi olaraq başqa şeyin, bəzən şüurarxası motivin – ətrafdakılardan üstün olduğunuzu nümayiş etdirmək arzunuzun – üstünü açırsınız.

QANUNA RİAYƏT EDİLMƏSİ

XVI əsrin sonu İtaliyada protestant Reformasiyası əleyhinə çox güclü reaksiya ilə əlamətdar olmuşdur. Kontrreformasiya adlandırılan bu hərəkat inkvizisiyanın, məqsədi katolik kilsəsinin kanonlarından (qaydalarından) bütün kənara çıxmaların kökünü kəsmək olan xüsusi versiyasını doğurdu. Qurbanların arasında, Qalileo Qaliley də var idi. Ancaq başqa bir istedadlı mütəfəkkir hətta daha sərt təqibə məruz qaldı

– bu, Dominikan monaxı və filosofu Tommazo Kampanella idi.

Roma filosofu Epikürün materialist doktrinasının davamçısı olan Kampanella möcüzəyə, cənnətə və cəhənnəmə inanmırdı. O yazırdı ki, bu xurafatı kilsə sadə xalq üzərində hakim olmaq və adamları qorxu içərisində saxlamaq üçün yayır. Bu ideyalar ateizmlə səsləşirdi, Kampanella isə onları heç bir şübhə olmadan deyirdi. 1593-cü ildə, o, inkvizisiya tərəfindən tutuldu və kafir kimi həbsxanaya salındı. Altı il sonra hökmü yüngülləşdirildi və Kampanella Neapoldakı monastırlardan birində yerləşdirildi.

Həmin dövrdə Cənubi İtaliya İspaniyanın nəzarəti altında idi, Neapolda Kampanella işğalçılara qarşı sui-qəsdə cəlb edildi. O, özünün utopik ideyaları əsasında müstəqil respublikanın yaradılmasına ümid edirdi. İspan inkvizitorları ilə birləşən italiyalı inkvizitorlar onu yenidən həbs etdilər. Bu dəfə Allah əleyhinə baxışları onun ağlına nəyin və ya kimin saldığını aydınlaşdırmaq üçün hətta filosofa işgəncə verdilər: ona bədnam ad çıxarmış la veglia işgəncəsi verdilər: bədbəxt filosofu millər vurulmuş oturacağın üstündən bir neçə düymə yuxarıda qollarından asdılar. Poza olduqca dayanıqsız idi, bədənin ağırlığını saxlamaq, demək olar ki, mümkün deyildi, nəhayət, qurban aşağıya iti millərin üstünə enməli olurdu, azacıq toxunma isə bədənə əzab verirdi.

Ancaq bütün bu illər ərzində Kampanella müəyyən şeylər öyrəndi. O, bidət ittihamı ilə edam ediləbiləcəyini başa düşüb, davranış xəttini dəyişdi: öz baxışlarından imtina etməyərək, onları açıq şəkildə deməyi dayandırdı.

Həyatını xilas etmək naminə, Kampanella, özünü dəliliyə vurdu. O, öz cəlladlarına belə bir fikir aşıladı ki, onun kafir fikirləri güclü əqli pozğunluğunun nəticəsində yaranmışdır. Dəliliyə vurmasını aradan qaldırmaq üçün bir müddət ona işgəncə verməkdə davam etdilər, ancaq nəhayət, 1603-cü ildə, o, ömürlük həbs cəzasına məhkum edildi. İlk dörd ildə, o, yeraltı zindanda divara zəncirlənmiş vəziyyətdə saxlanıldı. Ancaq belə dəhşətli şəraitə baxmayaraq, o yazmaqda davam edirdi. Doğrudur, o artıq ağıllanmışdı və öz fikirlərini açıq ifadə etmirdi.

Kampanella «İspaniya monarxiyası» adlı kitabında belə bir fikir irəli sürürdü ki, İspaniyanın üzərinə öz qüdrətini bütün dünyaya yaymaq kimi müqəddəs bir missiya qoyulmuşdur. Bu kitabda o, ispan kralına bu məqsədə nail olmağa aid Makiavelli üslubunda praktik tövsiyələr verirdi. Ancaq kitab bütövlükdə onun müəllifinin əsl baxışlarına tam əks olan ideyalardan ibarət idi. «İspaniya monarxiyası» kitabı əslində fənd idi, keçmiş kafirin həqiqi dinin qatı tərəfdarına çevrilməsini sübut etmək cəhdi idi. Bu fənd baş tutdu: kitabın çap edilməsindən altı il sonra, 1626-cı ildə, Papa, nəhayət, Kampanellanı azad etdi.

Azadlığa çıxdıqdan dərhal sonra Kampa-

Təyin edilmiş gün çaylar axmadı, quyular qurudu. Məsləhətə əməl edən adam baş verənləri görərək, öz anbarına getdi və ehtiyat yığılmış sudan içdi. Yenidən sellər başlayanda və çaylar su ilə dolanda, həmin adam öz sığınacağından başqa bəşər oğlu şəklində çıxdı. O, hiss etdi ki, indi hamı əvvəlkinə nisbətən tamam başqa cür fikirləşir, ancaq onlar əvvəl nə olduğunu xatırlamırlar. O, bu adamlara əvvəlki xəbərdarlığı xatırlatmağa, onlarla danışmağa cəhd etdikdə, başa düşdü ki, həmin adamlar onu dəli hesab edirlər. Onlar ya acıqlanır, ya da ona yazıqları gəlirdi, ancaq heç kim onu başa düşmürdü. Əvvəlcə o, yeni suyu içməməyə çalışdı və hər gün öz su ehtiyatından istifadə etdi. Ancaq tədricən o, öz qərarını dəyişdi, çünki yalqızlığa və hamı kimi deyil, başqa cür yaşamaq, fikirləşmək və özünü aparmaq zərurətinə dözə bilmirdi. O, yeni suyu içib ətrafdakıların hamısı kimi oldu. Özünün köhnə su anbarını unutdu, tanıyanların hamısı onun dəlilikdən möcüzəli şəkildə sağalaraq, normal adama çevrilməsi qərarına gəldilər.

İdris Şah, «Dərvişlərin hekayətləri», 1988.

nella azadlıqsevər mütəfəkkirlərə, Makiavellinin ardıcıllarına, kalvinistlərə və bütün növlərdən olan kafirlərə hücumlardan ibarət olan «Məğlub olmuş ateizm» adlı kitab yazdı. Aydındır ki, Kampanella dəyişilmişdi – onun kitabı buna şübhə yeri qoymurdu. Ancaq həqiqətdə bu, belə idimi?

Onun kafirlərin dilindən ifadə etdiyi dəlillər ağlagəlməz qüvvə və inamla səslənirdi. Kampanella özünü elə göstərirdi ki, onların fikirlərini yalnız sonradan darmadağın etmək üçün verir, ancaq əslində kitabda katolisizmin əleyhinə məhvedici, sarsıdıcı dəlilləri toplamışdı. Digər tərəfin nümayəndəsi adından, guya öz tərəfindən çıxış edərək, o, köhnəlmiş üsullardan və dolaşıq dəlillərdən istifadə edirdi. Kafirlərin yığcam və təsirli dəlilləri cəsarətli və səmimi görünürdü. Katolik kilsəsini müdafiə edən zəif və anlaşılmaz fikirlərin olduğu sətirləri oxumaq darıxdırıcı idi, onlar heç kimi inandıra bilməzdi.

Kitabı oxuyan qısqanc katoliklər onun ikiüzlülüyünü və şübhəli olduğunu sezdilər, ancaq onun müəllifini kafirlikdə təqsirləndirmək və ya Kampanellanın yenidən həbs edilməli olduğunu demək mümkün deyildi. O nəhayət, katolisizmi müdafiə edərək, din xadimlərinin özlərinin diskussiyalarda istifadə etdiyi dəlillərdən istifadə edirdi. İrad tutmaq yersiz idi. Ancaq sonrakı illərdə «Məğlub olmuş ateizm» kitabı ateistlər, makiavelistlər və azadfikirlilər üçün stolüstü kitaba, «İncil»ə çevrildi. Onlar özlərinin təhlükəli baxışlarını müdafiə etmək üçün Kampanellanın onların dilindən ifadə etdiyi dəlillərdən istifadə etdilər. Kampanella konformizmin (hər bir şəraitə uyğunlaşmanın) zahiri təzahürünü özünün üstü pərdələnmiş həqiqi baxışları ilə uyğunlaşdıraraq, ibrət dərsi götürdüyünü sübut etdi.

İZAHI

Heç vaxt başqa adamın fikrinə etiraz etmə, çünki hətta Mafusail yaşına çatsan belə, təfavütü yoxdur, siz onu inadkarlıqla müdafiə etdiyi cəfəng fikirlərindən döndərə bilməzsiniz. Adamların söhbət zamanı etdiyi səhvləri, hansı xoş niyyətlə olsa da, düzəltməməyə çalışın, çünki insanı incik salmaq asandır, ancaq bu incikliyi aradan qaldırmaq bir yana dursun, yumşaltmaq belə çox çətindir. Əgər sizi, söhbətlərini təsadüfən eşitdiyiniz iki həmsöhbətin cəfəng iradları əsəbiləşdirirsə, təsəvvür edin ki, siz komediyada iki

Dəhşətli işgəncələrin qorxusu altında, Kampanella, onun həyatını xilas edən, həbsxanadan azadlığa çıxaran və ona öz baxışlarını ifadə etməyi davam etdirməyə imkan verən üç strateji gediş kəşf etdi. Əvvəlcə o, özünü dəliliyə vurdu – orta əsrlərdə insanın öz hərəkətlərinə cavab verməyə qabil olmadığının hesab edilməsi üçün bu üsuldan istifadə edirdilər. Sonra o, öz baxışlarına daban-dabana zidd baxışları ifadə edən kitab yazdı. Nəhayət, bu, ən parlaq gediş idi, – o, öz ideyalarını elan etdi, eyni zamanda guya onları ifşa etdi. Bu, köhnə, ancaq çox təsirli fənddir: siz özünüzü elə göstərirsiniz ki, guya təhlükəli ideyalarla razı deyilsiniz, ancaq öz narazılığınızı ifadə edərək, bu ideyalara dərinlik və təsirlilik verirsiniz. Siz sanki hökmran olan baxışlarla razılaşırsınız, ancaq lazım olan adam istehzanı başa düşür. Siz müdafiə edilirsiniz.

Cəmiyyətdə müəyyən qiymətlilər və ənənələr labüd olaraq özünün ilkin mənbəyindən və motivlərindən ayrılır, ətalətli, irticaçı olur. Bu vaxt irtica düşmənləri, bəzən öz zəmanəsini çox-çox qabaqlayaraq, hökmən onların əleyhinə çıxırlar. İşgəncələrin və əzabların bahasına öz məqsədinə nail olmaq cəhdlərinin mənasız olduğunu başa düşməyə Kampanellanı məcbur etdilər. Əzabkeşlik heç nəyə kömək etmir – ən yaxşısı, ətalətli dünyada olsa da, yaşamaq və özünü yaxşı hiss etməkdir. Bununla bərabər, öz fikir-

lərini və hisslərini ifadə etmək üçün elə üsul axtarıb tapmaq olar ki, eyhamlarınızı yalnız az sayda seçilmişlər başa düşsün. Qiymətləndirilməyən və qəbul edilməyən sözlər danışmayın – bu, bəladan başqa heç nə gətirməz.

Uzun müddət mən nəyə inandığımı danışmadım və danışdıqlarıma inanmadım. Həqiqəti demək lazım gələrsə, onu qatı yalan içindən asanlıqla axtarıb tapmaq mümkündür.

Nikkolo Makiavelli. Françesko Qviçardiniyə məktubdan, 17 may 1521-ci il.

axmağın dialoqunu eşidirsiniz. Probatum est. Əgər insan dünyaya gəlirsə və bu dünyaya ağıl öyrətməyə hazırlaşdığını bildirirsə, o, öz canını qurtarmağa müvəffəq ola bilsə, öz taleyinə minnətdar olmalıdır.

Artur Şopenhauer, 1788–1860.

HAKİMİYYƏTİN AÇARI

Cəmiyyətdə öz fikirlərini mütləq azad şəkildə ifadə etmək qəbuledilməz, hətta demək olar ki, mümkün olmadığından, hamımız həmişə aldatmağa, səmimi hisslərimizi gizlətməyə çalışırıq. Uşaq yaşlarımızdan, biz, özümüzdən eşidilməsi arzu edilənləri deyərək, öz fikirlərimizi gizlətməyi öyrənirik, təhqir etməməyə, zərər vurmamağa var gücümüzlə adət edirik. Adamların əksəriyyəti buna mövcud olmaq kimi baxırlar: ətrafdakıların hamısının qəbul etdiyi ideyaların, dəyərlərin müəyyən dəsti vardır ki, bunu qəbul etməmək mənasızdır. Biz nəyi istəyiriksə, ona inanırıq, lakin evdən çıxarkən maska taxırıq.

Ancaq elə adamlar vardır ki, belə tabeçiliyə öz azadlıqlarının dözülməz məhdudlaşdırılması kimi baxırlar. Onlar özünütəsdiqə, öz dəyərlilərinin və etiqadlarının üstünlüyünü sübut etməyə ehtiyac duyurlar. Ancaq nəticədə, onların dəlilləri çox az adamı inandırır, təhqir edilənlər isə çox-çox artıq olur. Onların dəlillərinin təsirinin nəyə görə olmaması sualının cavabı ondadır ki, adamların əksəriyyəti öz idealları və prinsipləri haqqında dərindən fikirləşmədən, onların ardınca gedirlər. Onların inamı, başlıca olaraq, emosiyalara əsaslanır: özlərinin adət etdiyi təfəkkür formasını heç cürə təftiş etmək istəmirlər, siz onları ya birbaşa dəlillərlə, ya da dolayı, özünüzün davranışınızla buna çağırdıqda isə, bu, onları qəzəbləndirir.

Müdrik və düşüncəli adamlar, özlərini, qəbul edildiyi kimi aparmağı və hamılıqla qəbul olunmuş fikirləri, onlara inanmaq məcburi olmamaqla, ucadan deməyi erkən öyrənirlər. Seçilməməyi bacaran adamların nail olduğu hakimiyyət – istənilən şey haqqında maneəsiz fikirləşmək, öz fikirlərini istənilən adamla bölmək, bu zaman təcrid edilməkdən zərər çəkməmək və sürgünə məruz qalmamaq hakimiyyətidir. Onlar mövqeyə və hakimiyyətə nail olaraq, öz ideyalarının məğzi ilə tanış olanların dairəsini genişləndirməyə cəhd edə bilərlər. Ola bilsin ki, bunun üçün dolayı yolla getmək, Kampanella strategiyasından – istehzalar və eyhamlardan istifadə etmək lazım gələcəkdir.

ŞƏHƏRLİ VƏ SƏYYAH

Şəhərli dedi: «Bax, bu, dünyanın ən böyük bazarıdır». Səyyah etiraz etdi: «Heç də belə deyil». «Ancaq ən böyüyü olmasa da, şübhəsiz, ən gözəlidir». «Siz bunda da yanılırsınız, mən sizə danışa bilərəm ki...» Səyyahı sübh çağı dəfn etdilər.

Robert Luis Stivenson (1850–1894), «Təmsillər»

XVI əsrin sonlarında İspaniyada yəhudilərin təqib edilməsi başlandı. Minlərlə yəhudini öldürdülər, qalanlarını ölkədən qovdular. İspaniyada qalan yəhudiləri isə, katolikliyi qəbul etməyə məcbur etdilər. Ancaq üç yüz ilə qədər vaxt keçdikdən sonra, ispanların müşahidə etdiyi bir şey onları möhkəm heyrətə saldı: dini döndərilmişlərin çoxu zahirən katolik həyat tərzi keçirmiş olsalar da, iudaizmin adətlərinə gizli riayət edərək, bu etiqadı da saxlamağa nail olmuşlar. Marran (ispanca «donuz» sözündən yaranmış alçaldıcı ləqəb) adlandırılan bu yəhudilərin bir çoxu dövlət xidmətində yüksək mövqeyə nail olmuş, nikaha girərək, adlı-sanlı nəsillərlə qohum olmuş, əsl xristian möminliyi nümayiş etdirmişlər – məlum oldu ki, onlar «Qanun»a riayət edən iudeylər imiş. İspan inkvizisiyası ölkəni onlardan təmizləmək barədə xüsusi tapşırıq aldığı zaman, onlar xaçı könüllü olaraq görünən yerlərə qoyaraq, kilsələrə çoxlu hədiyyələr verərək, bəzən hətta antisemit baxışlar nümayiş etdirərək, maskalanma, mimikriya (prinsipsiz olaraq şəraitə uyğunlaşma) sənətinə tədricən mükəmməl yiyələndilər – bütün bunlar özlərinin daxili azadlığını və etiqadını qorumaq naminə edilirdi.

Marranlar zahiri təzahürün əhəmiyyətə malik olduğunu bilirdilər. Bizim dövrümüzdə də heç nə dəyişməmişdir. Strategiya sadədir: Kampanella özünün «Məğlub olmuş ateizm» kitabını yazarkən, etdiyi kimi riyakarlıq edin, əksəriyyətə qarışın, hətta hökmran ideologiyanın qatı müdafiəçisi kimi çıxış edin. Əgər siz özünüzü adam arasında belə aparsanız, tənha qalarkən başqa məsləkə etiqad etməyiniz heç kimin ağlına gələ bilməzdi.

Sadəlövhlük nümayiş etdirməklə elə təsəvvür etməyin ki, guya bizim mədəni zəmanəmizdə ortodoksallıq (sabit və ardıcıl məsləkli olmaq) artıq mövcud deyildir. Məsələn, Conas Salk hesab edirdi ki, elmin inkişafı ilə siyasət ölüb gedəcək və keçmişdə qalacaqdır. O, poliomelit əleyhinə vaksin üzərində işləyərək, elmi etiketin (hamılıqla qəbul edilmiş davranış normalarının) bütün qaydalarını pozdu – kəşf haqqında elm aləminə məlumat verməzdən əvvəl, onu elan etdi, onun uğur qazanmasına yol açan alimləri minnətdarlıqla xatırlamadan, vaksinin hazırlanması şərəfini öz adına çıxdı, – bir sözlə, onun özü özünü ulduza çevirdi. Bəlkə də, ictimaiyyət onu yaxşı qəbul edərdi, ancaq alimlər ona hücum etdilər. Salkın elmi cəmiyyətdə ənənəvi olaraq qəbul edilmiş davranış qaydasına hörmətsizliyi, onun tam təcridinə, boykot edilməsinə gətirib çıxardı. O, yaranmış nifaqı aradan qaldırmaq və həmkarları ilə münasibətləri düzəltmək üçün uzun illər sərf etməli oldu.

Bertold Brext müasir inkvizisiyanın – Amerika konqresinin antiamerikan fəaliyyətin təhqiqi üzrə Komissiyasının təqibinə məruz qaldı və buna diqqətəlayiq fəndgirliklə yanaşdı. Xatırladaq ki, İkinci Dünya müharibəsi zamanı Hollivudda işləyən Brexti, Komissiya, 1947-ci ildə onun kommunizmə ehtimal olunan rəğbəti ilə əlaqədar ifadə verməyə çağırdı. Ora çağırılmış digər yazıçılar Komissiyanın üzvləri ilə qarşıdurma taktikası seçdilər və rəğbət qazanmaq məqsədi ilə özlərini mümkün qədər çox nəzakətsiz apardılar. Ancaq Brext əks oyun oynadı: o, suallara lüzumsuz təfsilatla və ikimənalı sözlərlə cavab verdi ki, bu da izahı ağlagəlməz dərəcədə çətinləşdirdi. Bunu Kampanella strategiyası adlandıraq. Brext hətta kostyum geyindi – bu, onun üçün ağlagəlməz idi – siqaretin Komissiya üzvlərindən birinin zəif yeri olduğunu bilib, siqaret çəkdi. İş onun Komissiya üzvlərini tam mənada heyran qoyması və buraxılması ilə başa çatdı.

Brext Şərqi Almaniyaya köçdü, burada ona digər inkvizisiya hücum etdi. Orada kommunistlər hakimiyyət başında idilər, onlar Brextin pyeslərini ümidsizlikdə və düşkünlükdə təqsirləndirərək, onun yaradıcılığını tənqid etdilər. Brext onlarla mübahisə etmədi və izahat vermədi, ac köpəkləri sakitləşdirmək üçün, onlara sümük tulladı – tamaşaya hazırlanan pyesin mətnində bir neçə cüzi düzəliş etdi. Bununla belə, o, əsərin çap mətni varian-

tını düzəlişsiz saxlamağa nail oldu. Onun zahiri komformizmi, hər iki halda, ona öz əqidəsini dəyişmədən, maneəsiz yazmaq azadlığı verdi. Brext müxtəlif ölkələrdə təhlükəli zəmanədə yaşadı, ancaq o, hamılıqla qəbul olunmuş qaydalara cüzi güzəştlər etməyin köməyi ilə sağ qalmağa və özünün təqiblərdən və repressiyalardan güclü olduğunu sübut etməyə nail oldu.

Əsl hakimiyyətə malik olan adamlar, təkcə özlərini ətrafdakılara münasibətdə təhqiredici aparmır, Pavsaniya və Salkdan fərqli olaraq, həmçinin hiyləgər tülkü olmağı və kollektivizm hissi ifadə etməyi öyrənirlər. Əsrlər boyu məhz belə davranış avantüristlər, dələduzlar və siyasətçilər üçün səciyyəvi olmuşdur. Yuli Sezar və Franklin D.Ruzvelt kimi liderlər, sadə xalqa yaxınlıqlarını nümayiş etdirmək naminə, özlərinin əsl aristokratlığının üstündən keçirdilər. Onlar bunu, rəhbərlərin sadə xalqla mövqe fərqlərinə baxmayaraq, dəyərlilərə şərik olduğunu göstərməyə xidmət edən, bəzən simvolik xırda şeylərdə, hərəkətlərdə və jestlərdə təzahür etdirirdilər.

Belə taktikanın məntiqi davamı – çox qiymətli qabiliyyəti olan hər kəs üçün hər şey olmaqdır. Cəmiyyətə daxil olaraq, özünüzlə öz ideallarınızı və baxışlarınızı götürməyin, olduğunuz qrupa hər şeydən çox uyğun gələn maska taxın. Bismark bu oyunu çox uğurla həyata keçirmişdi – doğrudur, onun əslində nəyə nail olduğunu başa düşən adamlar tapılırdı, ancaq onlar cüzi azlıq təşkil edirdilər. Əksəriyyət tələ yemini udurdu, Bismark kimi nüfuzlu xadimin onların ideallarına şərik çıxdığını fikirləşmək, adamlar üçün fərəhli idi. Əgər siz ehtiyatlılığa riayət etsəniz, sizi riyakar hesab etməzlər – çünki özünün nəyi müdafiə etdiyini gizləyən adamı riyakarlıqda təqsirləndirmək olarmı? İdealların və dəyərlilərin olmamasına görə heç kim sizi ədəbsizlikdə də məzəmmət edə bilməz. Şübhəsiz, onlar sizdə vardır – siz ətrafdakıların ideallarına, onların mühitində olduğunuz müddətdə şərik olursunuz.

MÖTƏBƏR FİKİR

«Köpəklərə müqəddəslik verməyin və öz incinizi donuzların qabağına atmayın ki, onlar həddini aşıb incini ayaqları altında tapdalamasınlar və sizi parçalamasınlar».

Matfeyə görə İncil, 7:6.

OBRAZ:

QARA QOYUN

Sürü bəlkə də qara qoyunun ona mənsub olub-olmadığını bilmədən ondan yan qaçır. Buna görə, o, sürünün ardınca gəzərək və ya sürüdən kənarda dolaşaraq, canavarlar üçün dadlı tikəyə və asan ova çevrilir. Sürüdə qalın – bu, təhlükəsizdir. Sürüdən yununuzun rəngi ilə deyil, fikirlərinizlə fərqlənin.

MEDALIN İÇ ÜZÜ

Kütlədən ayrılmağa dəyən yeganə bir hal vardır – bu, sizin artıq ondan ayrıldığınız haldır. Sarsılmaz dayanıqlı mövqeyə və hakimiyyətə nail olaraq, siz fərqləndiyinizi nümayiş etdirə bilər, bununla sizi kütlədən ayıran məsafəni nəzərə çarpdıra bilərsiniz. Lindon Conson ABŞ prezidenti olarkən, vaxtaşırı tualetdə oturaraq müşavirə keçirirdi. Heç kim onu belə «imtiyaza» görə məzəmmət edə bilmədiyindən və bunu etməyə cəsarəti çatmadığından, Conson bununla göstərirdi ki, protokola əməl etmək və ətrafdakılara lütfkarlıq göstərmək onun üçün məcburi deyildir. Roma imperatoru Kaliqula da bu üsuldan istifadə edirdi: o, mühüm qonaqları qadın alt geyimində və ya ev paltarında qəbul edirdi. O, həmçinin öz atının konsul vəzifəsinə seçil-

məsini təkid edirdi. Ancaq bu imperator üçün nəticəsiz qalmadı: Kaliqulaya nifrət etdilər və bu nəzakətsizlik, nəhayət, onun devrilməsinə gətirib çıxartdı. Hətta hakimiyyətin zirvəsinə çatanların ictimai fikrin əksinə gedərək, adamları təhqir etməsi lazım deyildir, – çünki tez və ya gec onlara xalqın köməyi tələb oluna bilər.

Nəhayət, cəmiyyət «ovodlara» – meşşanları heyrətə salaraq, mədəniyyətin dəbdən düşmüş, köhnəlmiş, ətalətli elementlərini masqaraya qoyan, adət halını almış və ənənəvi olan qaydaları qərəzlə rədd edən ifşaçılara, üsyankarlara meylli olur. Məsələn, Oskar Uayld çox yaxşı ictimai nüfuza bu şəkildə nail olmuşdu: o, hamılıqla qəbul olunmuş normaları qəbul etmədiyini nümayiş etdirdi, onun açıq mühazirələrinə yığışan adamlar, təkcə özlərinin hisslərinin təhqir ediləcəyini gözləmirdilər, həm də bunu alqışlayırdılar. Qeyd edək ki, bununla belə, bu cür qeyri-adi rol onun üçün pis nəticəyə gətirib çıxardı. Uayldın qeyri-adi və qəribə istedada malik olduğunu unutmaq lazım deyildir: əgər onun acı sözləri qabiliyyətli və cəzbedici olmasaydı, adamlar onları adi ədəbsizlik, kobudluq sayardılar.

OTUZ DOQQUZUNCU QANUN

BALIQ TUTMAQ ÜÇÜN SUYU BULANDIR

QANUNUN MAHİYYƏTİ

Qəzəb və emosiyalar strateji cəhətdən tamamilə səmərəsizdir. Sakitliyi və obyektivliyi həmişə saxlamaq lazımdır. Siz düşməni, təmkininizi saxlamaqla, özündən çıxara bilərsiniz və şübhəsiz ki, üstünlük qazanarsınız. Düşmənlərinizi özündən çıxarın: onların təkəbbüründə, istifadə edə biləcəyiniz qüsur tapın – bu zaman onlar sizin qarmağınızda olacaqlar.

QANUNUN POZULMASI

1809-cu ilin yanvarında, qəzəblənmiş və həyəcanlanmış Napoleon, İspaniyadan Parisə tələsirdi. Onun casusları və xəfiyyələri, Taleyranın polis naziri Fuşe ilə birlikdə, yenidən çevriliş hazırlaması haqqında şayiəni təsdiq etdilər. Əsəbiləşmiş imperator paytaxta çatan kimi dərhal nazirləri və yüksək mənsəb sahiblərini yanına çağırdı. Napoleon onları toplayıb, otaqda var-gəl edərək, həyəcanla və çaşqınlıqla nazirlərinin ona satqınlıq etdiyini danışmağa başladı.

Napoleon danışarkən, Taleyran buxarının kənarına söykənərək, tamamilə laqeyd bir görkəmdə qulaq asırdı. Napoleon düz onun gözlərinin içinə baxaraq, uca səslə dedi: «Bu nazirlərə gəldikdə isə, onlar artıq şübhələnməyə başladıqları vaxt xəyanət edirlər». «Xəyanət» sözünü deyərək, o, nazirin qorxacağını gözləyirdi. Ancaq cavabında Taleyran yalnız sakit və darıxdırıcı görkəmdə gülümsədi.

Dar ağacında asılmaq hədəsi olan ittihamı sakitcə dinləyən təbəəsinin görkəmi Napoleonu daha da qəzəbləndirdi. O dedi ki, bəzi nazirlər mənim ölümümü istəyirlər. Və bir addım da Taleyrana yaxınlaşdı – ancaq o, baxışlarını çəkmədi. Nəhayət, Napoleon özündən çıxdı: «Siz qorxaq, alçaq, şərəfsiz adamsınız – deyə, Taleyranın üstünə qışqırdı – Sizin üçün müqəddəs olan heç nə yoxdur. Siz, yeri gəlsə, öz atanızı sata bilərsiniz. Mən sizin başınıza var-dövlət, xəzinə səpdim, siz isə mənə zərər vurmaq üçün hər şeyə hazırsınız». Başqa nazirlər qulaqlarına inanmayaraq, baxışlarını döndərdilər – onlar cəsur sərkərdəni, Avropanın fatehini belə vəziyyətdə görməmişdilər.

Napoleon təpiyini yerə döyərək, davam edirdi: «Siz, mənim sizi qədəh kimi sındırmağıma layiqsiniz. Bunu etmək üçün mənim əlimdə kifayət qədər hakimiyyət vardır, ancaq mən sizə o dərəcədə nifrət edirəm ki, əl bulamaq istəmirəm. Mən nə üçün sizi Tüilri darvazalarından asmadım? Ancaq bunu etmək hələ gec deyil». Qışqırmaqdan tövşüyən, sifəti qızaran Napoleon gözlərini bərəldərək davam edirdi: «Siz – ipək corabda olan yaramazlarsınız... Sizin arvadlarınız necədir? Nə üçün San Karlosun sizin arvadlarınızın məşuqu olduğunu heç vaxt mənə deməmisiniz?» Taleyran yenə də təmkinlə, azacıq da olsa çaşqınlıq olmadan cavab verdi: «Ser, həqiqətən heç vaxt mənim ağlıma gəlməzdi ki, bu informasiya Əlahəzrəti maraqlandıra və ya bizim münasibətlərimizə təsir edə bilər». Napoleon daha bir neçə təhqiramiz söz işlədərək çıxıb getdi. Taleyran tələsmədən, özünə xas olan yerişlə qapıya doğru addımladı. Xidmətçi ona plaşını geyməyə kömək etdi, o isə öz həmkarlarına – nazirlərə tərəf çevrilərək (sanki onlarla vida görüşü idi) dedi: «Cənablar, bu qədər böyük insanın belə pis tərbiyə olunduğunu görmək kədərlidir». Napoleon, qəzəblənməsinə baxmayaraq, özünün xarici işlər nazirini həbs etmədi. Yal-

İTAKURA ŞİGEMUNE VƏ ONUN ÇAY DƏYİRMANI

İtakura Suvonokami Şigemune çay dəstgahının böyük həvəskarı idi və məhkəmədə hakimlik edərkən, onun özü üçün çay döyüb əzmək adəti var idi. Buna səbəb aşağıdakı hadisə olmuşdu: bir dəfə öz dostu, çay dəstgahı hazırlamaq üzrə şəriki, Eiki adlı çay taciri ilə söhbət zamanı ondan Şigemune haqqında ətrafdakıların hansı fikirdə olduğunu düz deməsini xahiş etdi. Eiki cavab verdi: «Nə olar, deyim. Danışırlar ki, əgər kimsə dəqiq ifadə vermədikdə, sən çox qəzəblənirsən, həm də onu məzəmmət edirsən, ona görə adamlar məhkəmə işlərinin araşdırılması üçün sənə müraciət etməkdən qorxurlar, onlar sənin yanına gəlmədikdə isə, həqiqət zəfər çalmır». «Bunlar barədə mənə danışdığına görə mən şadam – deyə, Şigemune cavab verdi. – Mən sərt danışmaq vərdişinə uymuşam və şübhəsiz, öz məzəmmətlərimlə adamları alçaldıram, hər kəs öz bildiyi kimi danışır, onsuz da çaşır və öz işini lazım olan şəkildə ifadə edə bilmir. Mən çalışacağam ki, gələcəkdə bu təkrar olunmasın». Bu söhbətdən bir qədər keçəndən sonra, o,

nız onu öz vəzifələrini icra etməkdən kənarlaşdırdı və onu böyük kamerger rütbəsindən məhrum etdi, Taleyran kimi adam üçün alçaldılmanın layiqli cəza olduğunu hesab etdi. Napoleon özünün coşması haqqında şayiənin tezliklə yayılacağını nəzərə almamışdı. Bu şayiə imperatorun özünə nəzarəti tamamilə itirməsindən və Taleyranın onun kimi etməyib, təmkinini və ləyaqətini saxlayaraq, əslində onu alçaltmasından ibarət idi. Səhifə çevrilmişdi: yaxın adamları imperatorun soyuqqanlığını itirdiyini birinci dəfə görürdülər. Belə bir hiss yarandı ki, o, artıq əvvəlki adam deyildir. Taleyranın sonralar dediyi kimi: «Bu, sonun başlanğıcı idi».

İZAHI

Həqiqətən bu, sonun başlanğıcı idi. Vaterloo döyüşünə qədər hələ altı il var idi, ancaq Napoleonun günəşi qüruba yavaş-yavaş, 1812-ci ildə Rusiyadakı məğlubiyyətdən sonra isə sürətlə enirdi. Taleyran bunun əlamətini, xüsusən İspaniya ilə mənasız müharibədə birinci olaraq sezmişdi. 1808-ci ildə nazir belə bir qərara gəlmişdi ki, Avropada sülhü təmin etmək üçün Napoleon siyasi səhnədən getməlidir. O, Fuşe ilə sui-qəsd qurdu.

Ola bilsin ki, sui-qəsd Napoleonu özündən çıxarmaq üçün tələdən, fitnəkarlıqdan başqa bir şey deyildi. Çünki tarixin iki çox ağıllı adamının öz planlarını başa çatdırmadan nə üçün yarı yolda dayandığını başa düşmək çətindir. Bəlkə də, onlar Napoleonu səhv addım atmağa məcbur etmək üçün yalnız suyu bulandırırdılar. Onlar həqiqətən imperatoru tamamilə özündən çıxaran qəzəbinin kükrəməsinə nail oldular, belə ki, hamı imperatorun özünə nəzarət edə bilmədiyini gördü. Əslində Napoleonun yol verdiyi, tezliklə hamıya sirayət edən qəzəbin coşması, onun imicinə olduqca pis təsir etdi.

məhkəməyə çay dəyirmanı, onun qarşısına isə kağız şirma (çərçivələrdən ibarət arakəsmə) qoyulmasını əmr etdi. İndi Şigemune şirmanın arxasında oturur və çay üyüdürdü. Bu, məhkəmə işlərinə baxan zaman ona soyuqqanlığını saxlamağa kömək edirdi. O, asanlıqla hiss edə bilirdi ki, qəzəbi gəlir, çünki çay yarpaqları dəyirmandan eyni ölçüdə üyüdülmüş halda düşmürdü. Beləliklə, ədalət məhkəməsi qərəzsiz hökm çıxarır, adamlar məhkəməni məmnunluqla tərk edirdilər.

A.L.Sadler, «Tanoyu: yapon çay dəstgahı», 1962.

Tündməcazlıq, tündxasiyyətlilik – ciddi problemdir. Əvvəlcə o, qorxu, hətta dəhşət doğura bilər. Ancaq vaxt keçdikcə, tədricən buludlar dağıldıqda, başqa emosiyalar – qışqırmaq qabiliyyəti üzündən karıxmaq, çaşqınlıq və kobudluq, deyilən sözlər üzündən təmkinliliyi və inciklik hissini itirmək meydana çıxır. Emosiyalara sərbəstlik verərək, siz ədalətsiz və şişirdilmiş ittihama yol verirsiniz. Bir neçə belə coşqun və təsirli çıxışdan sonra, adamlar sizin səhnədən gedəcəyinizə qədər qalan günləri saymağa başlayacaqlar.

Özünün iki ən əsas nazirinin onun əleyhinə təşkil etdiyi sui-qəsd haqqında xəbər tutan Napoleonun, əlbəttə, narahat olmaq və qəzəblənmək üçün tam əsası var idi. Ancaq o, belə qəzəblə hiddətlənməklə və üstəlik, həm də bunu çoxlarının yanında etməklə, yalnız öz zəifliyini nümayiş etdirdi. Öz çaşqınlığınızı büruzə vermək, onu göstərir ki, siz hakimiyyəti itirir, öz gücsüzlüyünüzə imza atırsınız. Bunu öz istəyinə çatmaq üçün bərkdən ağlamağa başlayan uşağın hərəkəti ilə müqayisə etmək olar. Güclü adam, heç vaxt, belə zəifliyə yol verməz.

Belə vəziyyətdə Napoleonun bir neçə davranış variantı ola bilərdi. Çox yaxşı intuisiyaya, dərin zəkaya malik bu iki adamın ona qarşı çıxmasının əsası olduğunu düşünmək olardı. Onları dinləmək və söhbətdən özü üçün, hansısa ibrət götürmək lazım idi. Onların rəğbətini yenidən qazanmağa cəhd etmək olardı. Hakimiyyətin nümayiş etdirilməsi təsiri bağışlayan həbslə və ya edamla onlardan qurtulmaq olardı. Coşqun və təsirli çıxışlar, uşaq hərəkətləri, onlardan sonra meydana çıxan kobudluq deyil, yalnız münasibətlərin təmkinlə və qəti kəsilməsi lazımdır.

Yadda saxlayın: hiddətli coşmalar qorxuda və üstəlik həm də sədaqətlilik doğura bilməz. O, yalnız həyəcan və sizin qüvvənizə şübhə doğurar. Bu coşqun qəzəblənmələr sizin zəifliyinizin üstünü açaraq, tənəzzülün müjdəçiləri olurlar.

QANUNA RİAYƏT EDİLMƏSİ

1920-ci illərin sonlarında Hayle Selassiye Efiopiyanın birləşdirilməsindən və təkhakimiyyətliliyə can atmasından ibarət olan məqsədinə lap yaxınlaşdı. Ölkənin güclü rəhbərə və birləşməyə ehtiyacı var idi və o, bunu hiss edirdi. İmperatriça Zauditin (sonuncu kraliçanın ögey qızı) naibi (əvəz edəni) və taxt-tacın vəliəhdi olan Selassiye çoxsaylı həbəş əyanlarının hakimiyyətinin dayaqlarının laxlamasına və zəifləməsinə uzun illər sərf etdi. Onun yolunda ciddi rəqiblər dayanmışdı: imperatriça və onun əri Ras Quqsa. Selassiyeyə məlum idi ki, kral ər-arvad ona nifrət etməklə, ondan xilas olmaq istəyir. Buna görə də, baş verə biləcək sui-qəsdi aradan qaldırmaq üçün Quqsanı imperatriçanın yaşadığı paytaxtdan uzaqlaşdıraraq, şimal əyaləti Begemederə qubernator təyin etdi.

Quqsa uzun müddət ərzində sadiq məmur rolunu oynadı. Ancaq Selassiye ona inanmadı: o bilirdi ki, Quqsa və imperatriça intiqam almağa hazırlaşır. Vaxt keçdikcə və Quqsa özünü heç nədə göstərmədikcə, aydın olurdu ki, sui-qəsdin ehtimalı artır. Selassiye nə etmək lazım olduğunu bilirdi: Quqsanı öz

Mümkün qədər heç kimə düşmənçilik hissləri bəsləməməyə çalışın... Adamla qəzəblə danışmaq, öz narazılığını sözlə ifadə etmək və ya bunu bütün görkəminlə nümayiş etdirmək, sadəcə olaraq, vacib deyildir – bu, təhlükəli, axmaq, mənasız və kobuddur. Qorxu və nifrəti, öz hərəkətlərindən başqa, heç bir üsulla göstərmək lazım deyildir. Əgər hisslər hərəkətlə ifadə edilsə, daha səmərəli olar, ancaq bunun üçün onların istənilən başqa formada təzahüründən uzaq olmaq lazımdır. Yalnız soyuqqanlı heyvanların dişləməsi daha zəhərli olur.

Artur Şopenhauer, 1788–1860

məqsədini açmağa məcbur edən vəziyyət yaratmalı, onu fəal hərəkətə, bu hərəkətə hazırlaşmağa macal tapmasından əvvəl təhrik etməli idi.

Şimal qəbiləsi Azebu Qallas yerli kəndləri soyub-talayaraq, qarətçilik edir, dövlət vergilərini ödəməkdən yayınaraq, uzun illər ölkənin rəsmi hakimiyyət orqanları ilə daimi münaqişə vəziyyətində idi. Selassiye onların qarşısını almaq, onlara qüvvə toplamalarına mane olmaq üçün heç bir tədbir görmədi. Sonra, 1929-cu ildə o, itaət etməyən qəbiləyə qarşı hərbi əməliyyata başlamaq haqqında Ras Quqsaya əmr verdi. Quqsa tabe oldu, ancaq ürəyində qəzəbləndi: o, Azebu Qallasa qərəzkar münasibət bəsləmirdi və onlarla vuruşmaq tələbi onun qürurunu alçaldırdı. O, əmrə tabe olmaya bilməzdi, ancaq ordunun səfərbərliyi ilə məşğul olaraq, Selassiyenin Roma papası ilə gizli sövdələşməsi, ölkənin katolik dinini qəbul etməyi və sonra İtaliyanın müstəmləkəsinə çevrilməsini planlaşdırması barədə böhtançı şayiələr yaymağa başladı. Quqsanın ordusu böyüdü, öz döyüşçülərini orduya göndərən bəzi qəbilələr Selassiyeyə qarşı mübarizə aparmaq haqqında razılığa gəldilər. 1930-cu ilin martında 35 minlik böyük ordu Azebu Qallasın üzərinə deyil, cənuba doğru, paytaxt Əddis-Əbbənin üzərinə yeridi. Özünün getdikcə artan qüvvəsinə inanan, Quqsa, indi Selassiyeni devirmək və ölkəni əsl xristianlara qaytarmaq məqsədi ilə, ona qarşı müqəddəs müharibə-

yə açıq şəkildə başçılıq etdi.

O qurulmuş tələni görmədi. Quqsaya üsyankar qəbilə ilə vuruşmaq əmri verməzdən əvvəl, Selassiye özünə Efiopiya xristian kilsəsinin dəstəyini təmin edib, toxunulmaz oldu. Bundan başqa, üsyan başlamazdan əvvəl, o, çox mühüm müttəfiqlər arasından bir neçə adamı ələ alaraq, onlardan döyüşdə iştirak etməmək vədi almağa nail oldu. Cənuba Əddis-Əbbəbəyə doğru hərəkət edən üsyançılar ordusu üzərindən təyyarələr uçaraq, ali kilsə iyerarxiyasının Selassiyeni Efiopiyanın əsl xristian lideri kimi tanıdığını, həmçinin vətəndaş müharibəsi törətdiyinə görə Quqsanın kilsədən xaric edilməsini xəbər verən vərəqələr səpələdilər. Vərəqələr dini saxlamaq uğrunda müqəddəs səlib yürüşünün iştirakçılarının coşqunluğunu azaltdı. Qarşıda olacaq döyüş yaxınlaşdıqda, Quqsaya kömək etməyi vəd etmiş müttəfiqlər gəlmədilər, ordudan əsgərlərin kütləvi fərariliyi başlandı.

Döyüş uzun çəkmədi, üsyançılar ordusu, demək olar ki, dərhal təslim oldu. Ras Quqsa əsir düşməkdən imtina etdi və döyüşün gedişində öldürüldü. Kədərdən ağlını itirən imperatriça öz ərindən sonra cəmi bir neçə gün yaşadı. Aprelin 30-da Selassiye, rəsmi fərman verərək, özünü Efiopiyanın imperatoru elan etdi.

İZAHI

Hayle Selassiye həmişə hadisələrin inkişafını çox-çox əvvəl görmək qabiliyyətinə malik idi. O, bilirdi ki, əgər üsyanın vaxtını və yerini özü üçün münasib vaxta təyin etməyə Quqsaya imkan versə, təhlükə çox-çox artıq olacaqdır. Buna görə də, Selassiye Quqsanın ləyaqətini təhqir edərək, onu üsyana tez-tələsik hazırlaşmağa təhrik etdi: Quqsaya münaqişəsi olmadığı adamla, onun nifrət etdiyi şəxsin adından vuruşmağı əmr etdi. Hər şeyi qabaqcadan ölçüb-biçən Selassiye Quqsanın üsyanının məğlubiyyətə məhkum olduğuna əmin oldu, özünün iki ən qatı düşmənini məhv etmək üçün bundan istifadə etməyi qərara aldı.

Bu qanunun əsl mahiyyəti belədir: su duru olarkən, rəqiblərinizin öz mülahizələri əsasında sizə quyu qazmalarına vaxtları və imkanları olur. Buna görə də, suyu bulandırın, balıqları suyun səthində üzməyə, düşməni hücuma hazırlığı başa çatdırmadan hərəkət etməyə məcbur edin və təşəbbüsü ələ keçirin. Buna nail olmağın ən yaxşı üsulu nəzarət olunmaz hisslərdən – qürur, şöhrətpərəstlik, məhəbbət, nifrətdən istifadə etmək lazımdır. Bulanıq suda balıqcığazlara birbaşa tələ yeminə qarşı üzməkdən başqa bir şey qalmır. Onlar nə qədər çox əsəbiləşərlərsə, özlərinə nəzarəti bir o qədər artıq itirər və nəhayət, sizin yaratdığınız burulğana düşərək boğularlar.

Suverenə (hakimiyyəti təmsil edənə) hirsinin coşması üzündən ordunu hücuma qaldırması, başçının qəzəbə uyaraq, müharibəyə başlaması münasib deyildir.

Sun-szı, e.ə. IV əsr.

MEYMUN VƏ EŞŞƏKARISI

Yetişmiş armudu ləzzətlə yeyən meymunu, hökmən öz payını almaq istəyən həyasız dilənçi – eşşəkarısı təngə gətirmişdi. Əvvəlcə o, meymunu hədələdi: əgər meymun onun tələbini dərhal ödəməsə, qəzəblənəcəyini bildirdi. Sonra sadəcə olaraq, meyvənin şirəli yerinə qondu, ancaq meymun onu çırtma ilə kənara tulladı. Acıqlanmış eşşəkarısı qəti tədbirə əl atmağı qərara aldı: ən pis təhqirləri işlətdikdən sonra (meymun onları soyuqqanlılıqla dinlədi), elə qızğın cəngavər hissləri ilə coşdu ki, ala biləcəyi əvəzi yaddan çıxararaq, qəzəblə meymunun üzərinə atıldı və onu var gücü ilə sancdı. O, neştərini elə dərin batırdı ki, nə qədər çalışsa da, öz silahını çıxara bilmədi və onu yaranın üstündə qoyaraq, qırmağa məcbur oldu. Bununla, eşşəkarısı özünü, meymunun sancmadan aldığı əzabdan artıq bir əzablı ölümə düçar etdi.

Conatan Berç, 1783–1847 «Təmsillər».

HAKİMİYYƏTİN AÇARI

Özündən tez çıxan adamlar, onların hərəkətləri bu hərəkətlərin səbəbi ilə uyğun gəlmədiyindən, gec-tez gülünc görünməyə başlayırlar. Onlar məruz qaldıqları incikliyi və təhqiri şişirdərək, hər şeyi olduqca ciddi qəbul edirlər. Onlar xırda şeylərə çox həssas olmaqla, hər şeyi ürəklərinə tam ciddiliklə salırlar ki, bununla da gülünc vəziyyətə düşürlər. Əslində hər şey tərsinədir: hirslilik – qüvvənin yox, gücsüzlüyün əlamətidir. Siz qısa müddətə ətrafdakıları öz pozulușmanızla sarsıda bilərsiniz, ancaq nəticədə, sadəcə olaraq, sizə az hörmət edəcəklər. Vaxt keçdikcə, ətrafdakılar dərk edəcəklər ki, bu dərəcədə özünə nəzarət etmək qabiliyyəti olmayan adamın öhdəsindən gəlmək çox asandır.

Ancaq problemin həlli qəzəbin və emosional hərəkətlərin boğulmasında deyildir. Çünki emosiyaların boğulması, insanın böyük enerjisini alır və davranışında kənaraçıxmalara səbəb olur. Bunun əvəzinə biz dərk etməliyik ki, cəmiyyətdə və hakimiyyət oyunlarında şəxsi olan heç nə yoxdur.

Hər bir kəs başlanğıcını indiki zamandan çox-çox qabaq götürən hadisələr zəncirinə düşür. Bizim əsəbiliyimiz, çox vaxt, öz uşaqlıq problemlərimizdən, səbəbi özlərinin uşaqlıq dövründə gizlənən valideynlərimizin problemlərindən və bu kimi digər hallardan yaranır. Əsəbiləşməyimizin köklərini ətrafdakılarla qarşılıqlı münasibətdə, toplanmış məyusluqlarda və inciklikllərdə də tapmaq olar. Çox vaxt bizə elə gəlir ki, əsəbiləşməyimizin və qəzəbliliyimizin təhrikçisi müəyyən bir adamdır, ancaq əslində hər şey olduqca mürəkkəbdir və onun kökləri bizə edilmiş haqsızlıqdan daha dərinlərə gedir. Əgər adam öz qəzəbini sizin üzərinizə tökürsə (və elə görünür ki, bu, sizin ona etdiyinizlə müqayisəyə gəlməzdir), siz özünüzə xatırlatmalısınız ki, onun qəzəbi şəxsən sizə yönəlməyib – bu dərəcədə şöhrətpərəst olmayın. Səbəb olduqca genişdir, kökləri keçmişə gedir, ona əvvəlki çoxsaylı haqsızlıqlar, inciklikler daxildir. Buna görə də, hətta onu başa düşməyə cəhd etmək əziyyətini çəkməyə dəyməz. Bunu öz üzərinizə götürmək əvəzinə, emosional coşqunluğa təhqir və ya qəzəbli cavab altında maskalanmış, sizə divan tutmaq və ya cəza verməyə cəhd edən qüvvələrin gizli təzahürü kimi baxın.

Problemə başqa rakursda belə baxış, sizə böyük aydınlıqla və qüvvə ilə hakimiyyət oyununu aparmağa kömək edər. Hər şeyi ağrılı və şişirdilmiş şəkildə qəbul etmək və ətrafdakıların emosiyalarından qul asılılığına düşmək əvəzinə, siz onların özlərinə nəzarəti itirməsini öz xeyrinizə çevirə bilərsiniz: siz öz başınızı qoruyub saxlayırsınız, bu zaman isə onlar öz başlarını itirirlər.

Qədim Çində üç çarlıq dövründə (e. ə. III əsr), sərkərdə Sao Saonun müşavirləri, bəzi qoşun başçılarını düşmənlə əlbir olmaqda ifşa edən sənədlər aşkar etdilər. Müşavirlər sərkərdəni onların həbsi və edamı barə-

BAŞ KAHİNİN ÇEŞMƏSİ

İkinci dərəcəli qoşun başçısı Kinonun baş kahin olan Rioqaku adlı yaramaz əxlaqlı qardaşı var idi. Onun monastırının yanında çox hündür rami ağacı bitmişdi. Elə oldu ki, bu ağac xalq arasında Ali Kahinin Ağacı ləqəbini qazandı. Baş kahin «Bu, biabırçılıqdır» – deyərək, ağacı kəsməyi əmr etdi. Ağacın kötüyü qaldı və indi adamlar onu Baş Kahinin Kötüyü adlandırmağa başladılar. Əvvəlkindən də artıq qəzəblənmiş Rioqaku kötüyü yerindən çıxarıb kənara atmağı, həmin yerdə çeşmə yaratmağı əmr etdi. Nə olsun – xalq indi bu yeri Baş Kahinin Çeşməsi adlandırmağa başladı.

Kenkö, Yaponiya, «Bayram qeydləri», XIX əsr.

də qərar qəbul etməyə tələsdirdilər. Sərkərdə isə, sənədləri yandırmağı və bütün bu əhvalatı unutmağı əmr etdi. Əgər o, döyüşün böhranlı məqamında, çaşqınlıq təzahür etdirib, xəyanət olduğunu elan edib, ədalət mühakiməsinin keçirilməsini tələb etsəydi, bu, qoşunlarda döyüş ruhunun zəifləməsinə səbəb olub, onun əleyhinə çevrilə bilərdi. Ədalət mühakiməsi gözləyə bilər: vaxtı gələr, o, sədaqətsiz qoşun başçıları ilə hesablaşar. Sao Sao soyuqqanlılığını saxladı və düzgün qərar qəbul etdi.

Bunu Taleyranın xəyanətkarlığı haqqında eşidərkən Napoleonun reaksiyası ilə müqayisə edin: xəbəri ağır dərd kimi həyəcanla ürəyinə salmaq əvəzinə, o, özünün hər bir hərəkətinin nəticəsini diqqətlə ölçüb-biçib, Sao Sao kimi oyun oynamalı idi. Taleyrana əhəmiyyət verməmək və ya yenidən naziri tədricən özünə cəlb etmək, ancaq sonra cəzalandırmaq daha güclü cavab olardı.

Qəzəb yalnız sizin imkanlarınızı azaldır, hökmlü, güclü adam isə, məhdud imkanlı şəraitdə mövcud ola bilməz. Özünüzdə pis hadisələri ürəyinizə salmamaq və öz emosiyalarınızı idarə etmək bacarığı tərbiyə edin. Bununla, siz, çox böyük hakimiyyətə nail olarsınız: siz emosional hərəkətlərinizlə ətrafdakılara hiylə gələ bilərsiniz. Qətiyyətsizlərin cəsarətini şübhə altına alaraq və onları asan qələbələrin olacağı ilə şirnikləndirərək, onları fəal hərəkətə məcbur edin. İstedadsız artistin yarışa çağırdığı Qudini kimi hərəkət edin: düşməni hərəkət etməyə məcbur etmək üçün nədəsə güzəştə gedin, özünüzü zəif göstərin (xatırlayaq ki, Qudini rəqibə qandalların qıfılının kodunu oğurlamağa imkan vermişdi). Bundan sonra, siz onun öhdəsindən asanlıqla gələ bilərsiniz. Həmçinin özünə həddindən artıq güvənən adamlarla münasibətdə, onların tələm-tələsik və düşünmədən hərəkətə başlaması üçün özünüzü olduğunuzdan zəif göstərməyiniz lazımdır.

Çu çarlığı ordusunun komandanı və Sun-szının sadiq davamçısı Sun Pin bir dəfə öz qoşunları ilə, sayca onun qoşunlarından iki dəfə artıq olan Vey çarlığının qoşunlarına qarşı çıxmalı oldu. Sun Pin təklif etdi: «Gəlin, Vey ordusuna yaxınlaşarkən yüz min ocaq, ikinci gün əlli min ocaq, üçüncü gün isə yalnız otuz min ocaq yandıraq». Üçüncü gün Vey ordusunun komandanı ucadan dedi: «Mən bilirdim ki, Çu döyüşçüləri şərəfsiz qorxaqlardır, bir baxın – heç üç gün də keçmədi, əsgərlərin üçdə ikisi fərarilik edib!» Sərkərdə yuxarıya çətinliklə qalxan yavaş gedən piyadaları arxada saxlayaraq, münasib məqamı əldən verməmək və düşmənin düşərgəsinə kiçik, çevik dəstələrlə sürətli zərbə endirməyi qərara aldı. Sun Pinin qoşunları Veyin dəstələrini aldadıb, dar keçidə çəkib gətirdilər, burada hücum edib düşməni darmadağın etdilər. Sərkərdə Vey öldürüldü, onun ordusu əzildi. Bundan sonra, düşmən qoşununun qalığının öhdəsindən gəlmək, Sun Pinə çətinlik törətmədi.

Daha bir cəhətə fikir verin: əgər siz özündən tez çıxan və ya hirsli düşmənlə qarşılaşırsınızsa, bəzən ən yaxşı hərəkət – hərəkət etməməkdir. Taleyranın taktikasına riayət edin: soyuqqanlılığını saxlayan rəqib kimi heç nə adamı güclü hiddətləndirmir, bu zaman onun özü təmkinini itirir. Ətrafdakıları özündən çıxarmaq sizin maraqlarınıza daxildirsə, sifətinizə aristokratik, darıxdırıcı, istehzalı və təntənəli ifadə deyil, sadəcə laqeyd ifadə verin. Bu, onları alovlandırar, qəzəbdən cin atına minmək vəziyyətinə çatdıqda, siz asan qələbə qazanacaqsınız – həm də birinci odur ki, onların infantil (uşaq) davranışına qarşı siz ləyaqət və təmkin nümayiş etdirirsiniz.

OBRAZ:

BALIQLI NOHUR

Su təmiz və sakitdir, balıqlar özünü onda yaxşı hiss edirlər. Ancaq suyu bulandırın, balıqlar özlərindən çıxacaqlar. Suyu daha güclü bulandıraraq, siz balıqları əsəbiləşməyə və suyun səthinə qalxmağa, təzəcə yem keçirilmiş qarmaqcıq da daxil olmaqla, yaxınlıqda olan istənilən ovu udmağa məcbur edərsiniz.

MÖTƏBƏR FİKİR

«Əgər düşmənin qızışqan xasiyyəti ilə fərqlənirsə, onu əsəbiləşdirməyə çalış. Əgər o, öz-özünə vurğundursa, onun xudbinliyindən istifadə et... Əsl usta, düşmənə, onun uyğun şəkildə hərəkət edəcəyi vəziyyəti qəbul etdirərək, onu fəal hərəkətlərlə idarə edir. O, düşmənə, çox güman ki, onun udacağı tələ yemi ilə hiylə gəlir. O, tələ yemini düşmənin qarşısında saxlayaraq, onu dayanmağa qoymur, sonra isə seçmə qoşunlarla ona hücum edir».

Sun-szı, e.ə. VI–V əsr.

MEDALIN İÇ ÜZÜ

İnsanların emosiyalarından istifadə edərkən, ehtiyatlılığa riayət etmək lazımdır. Ən əvvəl düşməni öyrənin: hər hansı balığı nohurun dibindən təhlükəsiz qaldırmaq mümkün deyil.

Qədim Finikiyanın paytaxtı Tirin hökmdarları özlərinin Şərqin fatehi Makedoniyalı İsgəndəri dəf edə biləcəklərinə əmin idilər. Onların etibarlı şəkildə möhkəmləndirilmiş və su ilə mühafizə edilmiş şəhərinə İsgəndər həmin vaxta kimi toxunmamışdı. Onlar İsgəndərin yanına elçi göndərərək, xəbər verdilər ki, onun imperatorluğunu qəbul edirlər, ancaq nə ona, nə də ordusuna Tir şəhərinə daxil olmağa icazə vermirlər. Şübhəsiz ki, bu xəbər İsgəndəri qəzəbləndirdi və o, şəhəri mühasirəyə almaq barədə dərhal əmr verdi. Şəhər dörd ay müqavimət göstərdi. Bundan sonra, İsgəndər qərara aldı ki, müharibəni dayandırmaq olar. O, Tir şəhərinin əhalisi ilə danışıqlara razı oldu. Ancaq onlar İsgəndəri qarmaqda möhkəm saxladıqlarına və onunla bəhsləşə biləcəklərinə möhkəm əmin olaraq, danışıqlardan imtina etdilər – hətta qasidləri öldürdülər.

Bu, İsgəndəri özündən çıxartdı. Mühasirənin çox uzanacağının və bunun üçün böyük ordunun tələb edilməsinin İsgəndər üçün əhəmiyyəti yox idi. Onun imkanları var idi və o, hər şeyə hazır idi. İsgəndər elə güclü hücuma başladı ki, Tir şəhərini az qala həmin gün ələ keçirdi, onu yerlə-yeksan etdi, əhalisini qul edib satdı.

Siz qüvvədə üstün olanı Sun Pin kimi qarmağa keçirə, onları döyüşə atılmağa məcbur edə və öz ordusunu parçalamağa məcbur edə bilərsiniz, ancaq əvvəlcə suyu tədqiq edin. Düşmənin zəif yerlərini tapın. Əgər onun zəif yeri yoxdursa – əgər o, həddindən artıq güclüdürsə – siz heç nəyə nail ola bilməzsiniz, əksinə, onları fitnəkarlığa təhrik edərək, hər şeydən məhrum ola bilərsiniz. Tələ yeminə yönəltməyə hazırlaşdığınız qurbanı diqqətlə seçin, heç bir halda akulaya əl qaldırmayın.

Nəhayət sonuncu: elə hal olur ki, düzgün seçilmiş məqamda qəzəbin coşması sizə xeyir gətirə bilər, ancaq o, diqqətlə hazırlanmalıdır, sizə öz qəzəbinizə dəqiq nəzarət etmək lazımdır. Onda siz qəzəbinizi hissələrə çox dəqiq bölə bilər, qəzəbin kimin üstünə və hansı şəkildə töküləcəyini, kimdən isə yan keçəcəyini müəyyən edə bilərsiniz. Nəticədə əleyhinizə çevrilərək, sizə zərər yetirə biləcək şappıldamalara heç vaxt yol verməyin. Daha qorxunc və dolğun, mənalı olması üçün qəzəblə danışın, ağzınızdan od püskürsün. Not üzrə və ya təbii şəkildə olsa da, qəzəbli tutmalar, həddindən artıq tez-tez baş verərsə, qüvvəsini itirər.

QIRXINCI QANUN

MÜFTƏ VERİLƏN NAHARI NİFRƏTLƏ RƏDD ET

QANUNUN MAHİYYƏTİ

Sizə hədiyyə verilən şeydə təhlükə gizlənir: adətən onun arxasında məharətlə hazırlanmış fırıldaq və ya gizli öhdəlik dayanır. Verilən şeyin dəyəri nadirsə, ödəmək lazımdır. Öz haqqınızı verməklə, siz minnətdar olmaq, özözünüzü aldatmış və təqsirli hiss etmək zərurətindən xilas olursunuz. Ən düzgün yol – qiyməti tam ödəməkdir – eyni vaxtda parlamaq və qənaət etmək olmaz. Pula heyfsilənməyin, onu xərcləyin, səxavətlilik hakimiyyət əlamətidir və onu özünə çəkir.

PUL VƏ HAKİMİYYƏT

Hakimiyyət dünyasında hər şeyin qiyməti vardır, həm də hər predmet haqqında onun qiymətinə uyğun mühakimə yürüdürlər. Əgər nəyi isə müftə və ya aşağı qiymətə təklif edirlərsə, psixoloji gərginlik yaranır: borclu olursunuz və bununla əlaqədar sizdə narahatçılıq doğuran müxtəlif hisslər yaranır. Güclülər ən mühüm qiymətliləri – müstəqilliyi və sərbəst davranmaq hüququnu müdafiə etməyi erkən öyrənirlər. Onlar hər bir şeyin haqqını kəsirsiz ödəyərək, özlərini təhlükələrdən, çətin vəziyyətlərdən və iztirablardan qoruyurlar.

Pul işlərində aşkarlıq və çeviklik bizə artıq məlum olan «almağa hazırlaşarkən, ver» fokusunun variasiyası olan strateji hesablanmış səxavətliliyin nə qədər qiymətli olduğunu öyrədir. Siz münasib məqamda hədiyyə verirsiniz, onu alan özünü sizə borclu hiss edir. Səxavətlilik adamları yumşaldır – həm də onları aldadır. Siz səxavətli adam şöhrəti qazanaraq, ətrafdakıların diqqətini özünüzün hakimiyyətə çatmaq planlarınızdan yayındıraraq, onlarda heyranlıq yaradırsınız. Öz sərvətinizi düşünülmüş şəkildə xərcləyərək, siz saray adamlarına məmnunluq bəxş edərək və qiymətli müttəfiqlər qazanaraq, onları başdan çıxarırsınız.

Əsl hakimiyyət sahiblərinə – Sezar, kraliça Yelizaveta, Mikelancelo, Mediçi və bu kimi başqalarına – nəzər salsaq görərik ki, onların arasında yoxsul yoxdur. Böyük dələduz-

BASDIRILMIŞ XƏZİNƏ

Bir çox ağılsız adamlar torpaqda gizlədilmiş xəzinə axtarıb tapmağı və varlanmağı arzulayırlar. Məqribdə halal yolla pul qazanmaq istəməyən çoxlu sayda bərbərli «tələbələr» meydana çıxmışdı. Onlar varlı adamlar axtarıb tapır və mətni qeyri-ərəb dilində yazılmış, kənarları cırılmış kağız göstərərək, iddia edirdilər ki, bu, xəzinə sahibinin tərtib etdiyi sənədin tərcüməsidir. Sənəddə, şübhəsiz ki, xəzinənin harada basdırıldığı barədə göstəriş də var idi. Bu yolla onlar xəzinənin basdırıldığı yerə

lar öz fırıldaqlarını hazırlamağa pul əsirgəmirlər. Pul kisəsinin ağzını həddindən artıq bərk bağlamaq, xəsislik etmək rəğbət yaratmır – böyük eşq macəraçısı Kazanova təkcə özünü deyil, həm də öz pul kisəsini öz sevgililərinin ixtiyarına verirdi. Güclülər pulun psixoloji məna yükü daşıdığını, həmçinin nəzakət və ünsiyyət mənbəyi olduğunu başa düşürlər. Bu adamlar pulun insani cəhətini öz cəbbəxanalarının silahına çevirirlər.

Pula oyun vasitəsi münasibəti bəsləyən hər bir adama, puldan yaradıcı və strateji istifadə etməkdən imtina edən, öz işlərini özü korlayan kimi xarakterizə olunan min nəfər düşür. Bu qrup insanlar güclü, hakimiyyət adamlarının əks qütbünü təşkil edirlər. Onların zərərli təsirindən xilas olmaq və ya onların şəraitə uyuşmazlığını öz xeyrinizə yönəltmək üçün sizə onları tanımağı öyrənmək lazımdır.

Acgöz iri balıq. Acgöz iri balıqları adamlar deyil, yalnız pul maraqlandırır. Onlar soyuq və amansız olmaqla, dünyaya cansız mühasibat balansı cədvəlləri arasından baxırlar. Ətrafdakıları yalnız piyada və ya özlərinin varlanması yolunda maneə görərək, onlar insan hisslərini tapdalayır və hətta özlərinə faydalı ola bilənləri də özlərindən kənarlaşdırırlar. Heç kim acgöz iri balıqla iş görmək istəmir, illər keçdikdən sonra, çox vaxt o tənha qalır ki, bu da onun sonunun çatdığını göstərir. Acgöz iri balıqlar – fırıldaqçıların ya-

səyahət edib, xəzinəni qazıb çıxarmaq üçün pul almağa (varlı sadəlövhləri aldadaraq) çalışırdılar. Bəzən bu xəzinə axtarıcıları sanki özlərinin magiyanı bildiklərini sübut edən ovsunlar oxuyur və tryuklar nümayiş etdirirdilər. Ancaq həqiqətdə onlar heç bir sehrbazlığa malik deyildilər – bütün bunlar adamları aldatmaq və onları müəyyən şeylərə inanmağa məcbur etmək üçün lazım idi... İtmiş xəzinələr haqqında həmin danışıqlar əsassızdır: nə elmi təsdiqi, nə də hər hansı digər sübutu yoxdur. Başa düşmək lazımdır ki, tapılan xəzinələr də olur, ancaq bu, olduqca nadir hallarda baş verir, həm də onların üstünə tamamilə təsadüfən çıxırlar. Aldadılanlar və bu cür uydurmalarla başqalarını aldadanlar, öz yalanlarına və halal zəhmətlə yaşamağa qabiliyyətləri olmadığına görə Allah qarşısında tövbə etməlidirlər. Onlar özlərini boş və yalan uydurmalarla məşğul etməməlidirlər.

İbn Xəldun (1332–1406), «Müqəddimə»

şama mənbəyidir: asanlıqla varlanmaq perspektivi formasında olan tələ yeminin gözlərini tutduğu bu acgöz iri balıqlar iti qarmağı acgözlüklə udur, həm də tilovu bütünlüklə özlərinə çəkirlər. Acgöz iri balıqlar uzun müddət rəqəmlərlə (adamlarla deyil) ünsiyyətdə olaraq, həm başqalarının, həm də öz xüsusi psixologiyalarından tamamilə heç nə başa düşmədiklərindən, onları asanlıqla aldatmaq mümkündür. Sizi istismar etməyə başlamazdan əvvəl onlardan kənar qaçın və ya onların acgözlüyündən öz məqsədlərinizə çatmaq üçün istifadə edin.

Ticarət iblisi. Güclü adamlar təkcə qiyməti deyil, həm də vaxtı, yaxşı cəhətləri, könül rahatlığını hesaba alaraq, hər şeyi qiymətləndirir və ölçüb-biçirlər. Ticarət iblisləri bu qabiliyyətdən məhrumdur. Onlar zərər çəkməmək üçün, qiymətli vaxtlarına heyfsilənmədən, uzun müddət sövdələşmə apararaq və başqa yerdə ucuz alver edə bilməsini hesablayaraq, daima narahat olurlar. Nəhayət, bundan əlavə, onlara çatan alver predmeti çox vaxt heç nəyə yaramır, bəzən bahalı təmir tələb edir və ya bahalı analoqundan iki dəfə tez sıradan çıxır. Onlar təkcə pulla deyil (hərçənd alverdən əldə edilən pulla bağlı gəlir də aldadıcı olur), həm vaxtla, həm də ruhi müvazinətlə əvəz ödəyirlər: normal adamların onlarla iş görmək həvəsini öldürürlər, çünki iblis üçün ticarət etmək sövdələşməkdir – məqsədləri elə budur.

Bu cür tiplərin yalnız özlərinə zərər vura bilmələri barədə aldadıcı təsəvvür yaransa

da, onların həyata münasibəti yoluxucu xəstəliyə bənzəyir: ona yoluxmaq olar. Müqavimətə baxmayaraq, onlar sizin qəlbinizə həddindən artıq əvəz ödəyərək, zərər çəkməyinizə dair narahat fikir yeridirlər. Onlarla mübahisə etməyin və onları fikrindən döndərməyə cəhd göstərməyin. Sadəcə olaraq, onların hesablamalarına fikrən vaxt və mənəvi rahatlığınızı əlavə etsəniz, başa düşəcəksiniz ki, təklif edilən ticarət sizə pulda olmasa da, vaxtla və əsəb itkiləri ilə bağlı baha başa gələcəkdir.

Sadist. Maliyyə sadistləri öz hakimiyyətlərini təsdiq etmək üçün, puldan vasitə kimi istifadə edərək, çirkin işlər görürlər. Məsələn, sizin onlara verdiyiniz pulu qaytarmayaraq, çekin artıq poçtla sizə yola salındığını təsdiq edərək, süründürməçilik edə bilərlər. Əgər siz onlara işləyirsinizsə, onlar hər şeyə irad tutaraq və özlərinin xırda hamiliyi ilə sizi, əsəblərinizin pozulması vəziyyətinə çatdıraraq, tam mənası ilə hər şeyə qarışırlar. Onlara elə gəlir ki, nəyinsə haqqını ödəmələri, mal satanı alçaltmağa mənəvi haqq verir. Onlarda pula münasibətdə, saray adamlarına xas olan böyük maraq yoxdur. Əgər belə adamla iş görmək «xoşbəxtliyi» sizə nəsib olarsa, dağıdıcı qarşılıqlı münasibətlərə cəlb edilməkdənsə, pulda zərər çəkmək daha yaxşıdır.

Heç bir şeyə fərq qoymadan bəxşiş verən. Səxavətlilik kral hakimiyyətində müəyyən vəzifəni yerinə yetirir: o, adamları cəlb edir, onları yumşaldır, müttəfiqinizə çevirir. Ancaq ondan ağılla və qədərində istifadə etmək lazımdır. Heç bir şeyə fərq qoymayaraq bəxşiş verənlər, hamının onları sevməsini və heyran olmasını istədikləri üçün, həddindən ziyadə səxavətli olurlar. Bu zaman onların səxavətliliyi elə dağınıq, ünvansız və dəyərsiz olur ki, arzu olunan nəticə əldə edilmir: çünki onlar hamıya bəxşiş verirlər, onları alanlardan heç kim özünün xüsusi fərqlənməyə layiq görüldüyünü hiss etmir. Belə insan cazibədar görünə bilər, ancaq onlarla hər hansı münasibət, acgöz emosional tələbat yükünü daim hiss etdirdiyindən, arzu olunmazdır.

XƏSİS

Öz sərvətini itirməkdən qorxan bir xəsis hiylə işlətməyi qərara aldı. O, nəyi varsa hamısını satdı və əldə etdiyi pula qızıl xəlitə alıb basdırdı. Hər gün o, bu yerə gəlir və xəlitənin yerində olub-olmadığını yoxlayırdı. Onun xidmətçilərindən biri bunu gördü. O, həmin yerdə xəzinə gizlədilməsindən şübhələndi və xəzinənin olduğu yerə yollanaraq, onu oğurladı. Xəsis xəlitənin oğurlandığını bildikdə, ağlamağa və saçını yolmağa başladı. Qonşusu onun özünü necə məhv etdiyini görüb dedi: «Kədərlənmə, ən yaxşısı

QANUNUN POZULMASI (1)

Fransisko Pisarro 1532-ci ildə Perunu fəth etdikdən sonra, inklər imperiyasının qızılları İspaniyaya axıb gəldikcə, bütün təbəqələrdən olan ispanlar, tezliklə varlanmaq vədi verən Yeni Dünyaya səyahət etmək barədə düşünməyə başladılar. Perunun şərqində ildə bir dəfə mərasim keçirərək, özünü qızıl tozuna bürüyən və gölə baş vuran hindu başçısı haqqında hekayət yayılmışdı. Tezliklə başçının adı – «El Dorado» («Qızıl Adam»), inklər imperiyasından daha varlı olan, küçələrinə qızıl döşənmiş, evlərinin üstünə qızıl kirəmit çəkilmiş ölkənin adına çevrildi. Danışılanlar ağlagəlməz görünmürdü, çünki bədənindəki qızıl tozunu göldə yumaq kimi bir israfçılığa yol verən başçı, şübhəsiz ki, qızılı ölkəni idarə edirdi. İspanlar bütün Cənubi Amerika boyunca Eldoradonu axtarmağa başladılar.

1541-ci ilin fevralında Qonsalo Pisarronun başçılığı altında ən çoxsaylı ekspedisiya Ekvadorun Kito şəhərindən çıxdı. Yaraq-əsləhələri və müxtəlif rəngli ipək geyimləri parıldayan 340 ispan 4000 donuzu, onlarla laması və təxminən min iti aparan və bələdçilik edən 4000 hindunun müşayiəti ilə Şərqə doğru yollandı. Ancaq ekspedisiyanı tezliklə tropik leysanlar tutdu, bunun üzündən arabalar çürüdü və ərzaq ehtiyatı xarab oldu. Bu vaxt Qonsalo Pisarro yolda rast gəldiyi hinduları sorğu-suala tutdu. O, xəzinə haqqında məlumatı gizlətməsini hesab etdi-

yi, hətta onun haqqında eşitməyən hindulara işgəncə verib öldürdü və öz köpəklərinə yem etdi. İspanların amansızlığı haqqında şayiələr ekspedisiyanı qabaqladı. Hindular tezliklə başa düşdülər ki, Qonsalonun əlində işgəncələrə məruz qalmaqdan və ölməkdən xilas olmağın yeganə üsulu – Qonsalo üçün Eldorado haqqında rəvayət uyduraraq, onu doğma yerlərdən daha uzağa göndərməkdir. Qonsalo və onun adamları irəlilədikcə, keçilməz cəngəlliklərin dərinliklərinə gedib çıxdılar.

Ekspedisiyada ruh düşkünlüyü hakim oldu. Onun iştirakçılarının paltarları, nəhayət, parçalanıb cırıq-cırıq oldu, yaraq-əsləhələri pas atdı, ayaqqabılarını tikanlar dağıtdı, sağ qalan qul hindular fərarilik etdilər. Təkcə donuzlar deyil, həm də lamalar, hətta itlər kəsilib yeyildi. İspanlar ağac kökləri və meyvələri ilə qidalanmağa başladılar. Belə davam etməyin daha mümkün olmadığını dərk edən Qonsalo qorxu və təhlükə üzündən çayla hərəkət etməyi qərara aldı. Çürümüş ağaclardan barj hazırlandı. Ancaq Napo çayı boyunca səyahət daha ağır və təhlükəli oldu. Çayın sahilində düşərgə salan Pisarro qida tapmaq mümkün ola bilən hindu yaşayış məskənlərini axtarıb tapmaq üçün bələdçiləri irəli göndərdi. O, gedənlərin qayıtmasını uzun müddət, onların fərarilik etdiyini başa düşənə qədər gözlədi. Artıq müstəqil şəkildə çayla aşağı üzmək lazım gəldiyi vaxt çatdı.

budur ki, daş götürüb həmin yerdə basdır və onun sənin qızıl xəlitən olduğunu düşün. Axı, sən ondan istifadə etməyə hazırlaşmırdın, torpaqda basdırılanın daş və ya qızıl olmasının heç bir fərqi yoxdur. Pul ona sahib olduqda deyil, ondan istifadə edildikdə dəyərlidir.

Ezop (e.ə. VI əsr), «Təmsillər»

Yaponlarda belə bir məsəl vardır: «Tada yori takai mono va nai». Bunun mənası belədir: «Havayı əldə olunan hər şey dəyərindən artıq qiymətləndirilir».

Misuxiro Masumoto, «Aydınlaşdırılmamış yol»

Leysan yağışlarının sonu görünmürdü. Qonsalonun adamları Eldoradonu unudub, yalnız Kitoya qayıtmaq haqqında düşünürdülər. Nəhayət, 1542-ci ilin avqustunda iştirakçılarının sayı minlərlə olan ekspedisiyanın yüzdən artıq üzvü geri qayıda bildi. Kito sakinlərinə onlar, yəqin ki, cəhənnəmdən qaçmış kimi görünürdülər: cır-cındıra və dəriyə bürünmüş, bədənləri çapıqlarla və yaralarla dolu olan bu adamlar tanınmaz dərəcədə arıqlamışdılar. Ekspedisiyanın davam etdiyi il yarım ərzində çox böyük dairəni, iki min mildən artıq yolu piyada qət etmişdilər. Ekspedisiyaya qoyulmuş çox böyük məbləğdə pul, nə Eldorado, nə də qızıl tapılmadığına görə özünü heç cürə doğrultmadı.

İZAHI

Hətta Qonsalo Pisarronun uğursuzluğundan sonra belə, ispanlar Eldoradonu tapmaq ümidi ilə ekspedisiya dalınca ekspedisiya göndərirdilər. Pisarro kimi konkvistadorlar (Mərkəzi və Cənubi Amerikanı tutmuş ispan və portuqal istilaçıları) da kəndləri yandırır və dağıdır, hindulara əzab verir, çox böyük vəsait xərcləyir, lakin xəzinənin yerini tapa bilmirdilər. Belə ekspedisiyalara gedən pullar hesaba gəlmirdi. Ancaq cəhdlərin aşkar şəkildə uğursuz olmasına baxmayaraq, fantaziyaların parıltısı gözləri qamaşdırmaqda davam edirdi.

Eldoradonun axtarışı minlərlə insanların –

ispanların və hinduların həyatına son qoydu. Bu az imiş kimi, onlar bütün İspaniya imperiyasını dağıtdılar. Qızıl ispanların beynindən çıxmayan ideyaya çevrildi. İspaniyaya gedib çıxan qızılı, bu isə az deyildi, kənd təsərrüfatına və ya digər məhsuldar sahələrə işlətmək əvəzinə, yeni-yeni ekspedisiyalara və ya zinət əşyalarına sərf etdilər. Kişi əhalisi Eldorado xəzinəsinin axtarışına yollandığından, bütöv ispan şəhərləri boşalırdı. Fermalar dağılır, ordu Avropa müharibələrində iştirak etmək üçün əsgərlərin çatışmazlığından əziyyət çəkirdi. XVII əsrin sonunda ölkənin əhalisi iki dəfə azaldı, Madridin əhalisi 400 mindən 150 minə endi. Çoxillik səylərin müqabilində getdikcə az mənfəət götürən İspaniya tədricən tənəzzülə uğradı ki, bundan özünə güclə gəldi.

Hakimiyyət özünüidarə qabiliyyəti tələb edir. Varlanmaq, xüsusən gözlənilmədən və asanlıqla varlanmaq perspektivi hisslər üçün dağıdıcıdır. Həm də qəfil varlananlara çox vaxt elə gəlir ki, daha artıq sərvəti də belə asanlıqla əldə etmək olar: müftə nahar və göydən yağıb cibi dolduran pul döngənin arxasındadır.

Acgöz bunda yanılaraq, həqiqətdə hakimiyyətin asılı olduğu hər şeyə – özünə nəzarətə, ətrafdakıların xeyirxahlığına və bunun kimi digər dəyərlilərə etinasızlıq edirdi. Onlar başa düşmək istəmirdilər ki, ölümdən başqa heç bir ciddi dəyişiklik qəflətən baş vermir. Qəflətən varlanma möhkəm əsas üzərində qurulmadığından, nadir hallarda uzunömürlü olur. Heç bir halda pulun gözünüzü tutmasına, sizi hakimiyyətin etibarlı və möhkəm qalasından aldadıb çıxarmasına imkan verməyin. Qoy güc və hakimiyyət sizin məqsədiniz olsun, pul isə özü sizə yol tapacaqdır. Eldoradonu sadəlövhlərə və axmaqlara saxlayın.

PUL

Yusif ibn-Cəfər əl-Əmudi ondan dərs alanlardan haqq alırdı, bəzən isə, bu haqq çox yüksək olurdu. Bir dəfə onun yanında olmuş qanunşünas dedi: «Sənin təlimin mənim çox xoşuma gəlir, mən əminəm ki, sən öz şagirdlərini doğru yolla aparırsan. Ancaq bilik verməyə görə pul almaq qəbul edilməmişdir. Həm də bu yanlış başa düşülə bilər». Əl-Əmudi dedi: «Mən heç vaxt öz biliyimi satmamışam. Onun haqqını ödəməyə mövcud olan heç bir məbləğ çatmaz». Yanlış başa düşülməyə gəldikdə isə, hətta pul almasan belə, onlardan xilas olmaq mümkün deyil, çünki onda hansısa başqa hədəf tapılacaqdır. Həm də sizə məlum olmalıdır ki, pul götürən adam acgöz ola da, olmaya da bilər. Ancaq heç bir haqq almayan adam barədə, şagirdinin qəlbini oğurlamasına dair çox güclü şübhə yaranır. «Mən heç nə götürmürəm» deyən adamlar, öz qurbanının iradəsini əlindən almağa hazırlaşmaqda təqsirləndirilə bilər.

İdris Şah, 1977.

QANUNUN POZULMASI (2)

XVIII əsrin əvvəllərində, Avropada mövqeyinə görə, heç kim hersoq və hersoginya Malborolar ilə müqayisə edilə bilməzdi. Fransaya qarşı uğurlu hərbi kampaniya aparan hersoq, Avropanın birinci strategi və sərkərdəsi sayılırdı. Onun həyat yoldaşı hersoginya, çoxsaylı hiylələrdən sonra, 1702-ci ildən İngiltərəni idarə edən kraliça Annanın sevimlisi mövqeyini qazandı. 1704-cü ildə Blenheym yaxınlığındakı döyüşdə təntənəli qələbəsi, hersoqu, İngiltərənin qəhrəmanına çevirdi və kraliça onu, Vudstokda böyük pay torpağı və saray tikdirmək üçün pulla mükafatlandırdı. Hersoq özünün gələcək evinə Blenheym sarayı adını verdi və tikintini İntibah dövrünün sənətkarlarını xatırladan gənc arxitektor Con Vanbruna etibar etdi – o, evləri yaxşı layihələndirdiyi kimi, yaxşı pyeslər də yazırdı. Tikinti 1705-ci ilin yayında böyük büsat və ümidlə başlandı.

Vanbru arxitekturada da özünün dramaturq

istedadını təzahür etdirdi. Onun saraya verdiyi layihə gözəllik və Malboronun gücünün abidəsi idi. Süni göl, əzəmətli körpülər, incəliklə planlaşdırılmış bağlar və digər fantastik cizgilər onu fərqləndirirdi. Ancaq hersoginya lap birinci gündən hər şeydən narazı idi: ona elə gəlirdi ki, Vanbru adi parkın salınmasına həddindən artıq çox pulu boş yerə sərf edir. O, işin mümkün qədər tez başa çatmasını istəyirdi. Hersoginya Vanbruya və onun işçilərinə ən xırda şeylər üstündə yersiz iradlar tutaraq, onları təngə gətirmişdi. Blenheymin tikintisinə vəsait xəzinədən gəlsə də, hersoginya hər quruş üstündə qalmaqal salırdı. Nəhayət, Blenheym barəsində və digər bəhanələrlə bağlı donquldanması üzündən, onunla kraliça Anna arasında aradan qaldırıla bilməyən sədd yarandı, 1711-ci ildə kraliça ona kral sarayında tutduğu mənzili boşaltmağı əmr etdi. Hersoginya getdikdə (mövqeyini itirməsi və xüsusən kral məvacibindən məhrum olması üzündən qəzəbdən coşaraq), saraydakı mənzildən tamamilə hər şeyi, hətta qapıların mis tutacağına qədər çıxarıb apardı.

Sonrakı on ildə, xəzinədən vəsait almaq getdikcə çətinləşdiyindən, Blenheymdə iş gah dayandırılır, gah da davam etdirilirdi. Hersoginyaya elə gəlirdi ki, Vanbru onun əleyhinə nəsə düşünür. O, daş yüklənmiş hər bir arabanı, hər bir əhəng kisəsini yoxlayır, artıq qalmış hər bir taxtapuş dəmirinə görə dava-dalaş salır, inşaatçıları və podratçıları özündən çıxarırdı. Qocalmış və gücdən düşmüş Malboro həyatının son illərini keçirə biləcəyi bir guşə istəyirdi. Ancaq layihə uzunmüddətli çəkişmələr, aşağı maaş üzündən inşaatçıların hersoginyaya qarşı iddiaları və hersoginyanın arxitektora cavab iddiaları içində batıb qalmışdı. Bu çəkişmələrin qızğın vaxtında hersoq öldü. Beləliklə, o, özünün sevimli Blenheymində bir gün də olsa, yaşamadı.

Malboronun ölümündən sonra onun sərvəti 2 milyon funt sterlinqdən artıq qiymətləndirildi – bu tikintini başa çatdırmaqdan ötrü lazım olan məbləğdən artıq idi. Ancaq hersoginya inadla öz dediyinin üstündə durdu: o, arxitektorla və podratçılarla məhkəməyə düşdü və nəhayət, Vanbrunun xidmətindən imtina etdi. Vanbrunun yerini tutan arxitektor onun layihəsinin ən xırda təfərrüatlarına əməl edərək, bir neçə ilin içində tikintini başa çatdırdı. Hersoginyanın sarayından qovulmuş, özünün möhtəşəm əsərinə hətta baxmaq imkanından məhrum olan Vanbru 1726-cı ildə öldü. Romantizmin inkişafını hamıdan qabaq duyan Blenheym sarayı, özünün yaradıcısı üçün iyirmi iki illik dəhşət predmetinə çevrilərək, arxitekturada yeni cərəyan üçün başlanğıc rolunu oynadı.

PULU HƏYATDAN ÇOX SEVƏN ADAM

Qədim zamanlarda, demək olar ki, hər gün dağa ağac kəsməyə gedən odunçu yaşayırdı. Danışırdılar ki, bu qoca çox xəsis idi, o, gümüş toplayır, sonra isə onu qızıla dəyişirdi, qızılı isə dünyada hər şeydən çox sevirdi. Bir dəfə ona qəzəblənmiş pələng hücum etdi. Qoca qaçmağa üz tutdu, ancaq aradan çıxa bilmədi, pələng onu özünün qorxunc dişləri ilə tutub sürüdü. Odunçunun oğlu baş verənləri görüb, atasını xilas etməyə cəhd etmək üçün qaçdı. Onun uzun bıçağı var idi və dişində odunçunu sürüyən pələngdən iti qaçırdı. Yeniyetmə tezliklə pələngə çatdı. O, atasının yüngül zərər çəkdiyini gördü, çünki pələng onun xalatından yapışmışdı. Əli bıçaqlı oğlunu görən odunçu güclü həyəcan içində qışqırdı: «Pələngin dərisini zədələmə! Dərini zədələmə, deyirəm! Əgər bacarırsansa, onu elə öldür ki, dəridə deşik olmasın, ona çoxlu gümüş verirlər!» Oğul atasının nəsihətinə qulaq asdığı vaxt, pələng bir sıçrayışla sıx meşəlikdə gizləndi, qocanı oğlunun gedə bilməyəcəyi yerə apararaq parçalayıb yedi.

Çin təmsili

İZAHI

Hersoginya Malboro puldan hakimiyyətin alçaldıcı oyunları üçün istifadə edirdi. O, pul itkisinə hakimiyyətin itirilməsinin rəmzi kimi baxırdı. Vanbruya olan mü-

nasibətdə, onun qavrayışının təhrifi daha uzağa getdi: onun qarşısında böyük sənətkar dayanmışdı, o isə onun yaradıcılıq istedadına, sərvəti olmadan şöhrət qazanmaq qabiliyyətinə həsəd aparırdı. Onda olan istedad hersoginyada yox idi, əvəzində Vanbrunun həyatını məhv edənə qədər, əhəmiyyətsiz şeylərə görə yersiz irad tutaraq, ona əzab vermək və təhqir etmək üçün kifayət qədər pulu var idi.

Ancaq sadizmin bu formasına görə dəhşətli əvəz ödəmək lazım gəlirdi. Bu, on ilə planlaşdırılmış tikintinin iyirmi il uzanmasına gətirib çıxardı. O, qarşılıqlı münasibətləri korladı, hersoginyanın kraliça və sarayla əlaqəsini qırdı, hersoqun qəlbini sındırdı (yalnız öz sarayında sakit həyat sürməyi arzulayırdı), uzun çəkən məhkəmə çəkişmələrini doğurdu və Vanbrunun ömrünü qısaltdı. Hər halda, nəticədə ədalət zəfər çaldı: Vanbru hamı tərəfindən tanınan dahi oldu, hersoginyanı isə, həmişə xəsisliyinə görə xatırladılar.

Dünyanın güclü adamlarına mənəviyyatın əzəmətli olması xasdır, onlar heç bir şeydə xırdaçı olmurlar. Pul isə – həm əzəmətin, həm də xırdaçılığın ən parlaq şəkildə təzahür etdiyi meydandır. Buna görə də, ən yaxşısı pulunuzu sərbəst şəkildə xərcləyin. Gələcəkdə isə bu, sizə böyük xeyir gətirəcək, səxavətli adam imicini qazanacaqsınız. Xırda maliyyə problemlərinin gözlərinizi tutmasına və ətrafdakıların sizi necə qəbul etməsinin ümumi mənzərəsini sizdən pərdələməsinə heç vaxt imkan verməyin. Onların məyusluğu sizə baha başa gələ bilər. Əgər işi istedadlı adamlara sifariş vermisinizsə, işə görə lazımi şəkildə haqq ödəsəniz də, sanki ona qarışmağa hazırlaşırsınız. Bununla, hakimiyyət nümayiş etdirməkdən əldə edəcəyinizdən daha artıq olan bir şeyə – Sizinlə hesablaşmalarına nail olacaqsınız.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

MUSA PEYĞƏMBƏR VƏ FİRONUN HEKAYƏTİ

Peyğəmbərlər haqqında kitablarda yazılmışdır ki, Musa peyğəmbər fironun yanına çoxlu möcüzələr, heyrətləndirici şeylər, şan-şövkət və hədiyyələrlə göndərildi. Fironun süfrəsi üçün gündə 4 min qoyun, 400 inək, 200 dəvə və müvafiq sayda toyuq, balıq, qurudulmuş ət, şirniyyat və çoxlu başqa şeylər tələb olunurdu. Bütün misirlilər və Misir ordusu hər gün bu süfrədən yeyirdi, çünki dörd yüz il əvvəl firon allah elan olunmuşdu və həmin vaxtdan misirliləri hər gün

Xatırlayaq ki, başmaqçı oğlu Petro Aretino özünün zəhərli satiraları ilə gurultulu şöhrət qazanmışdı. Ancaq İntibah dövrünün istənilən sənətkarı kimi, ona da, işləməsinə mane olmayan babat yaşayış təmin edə biləcək hami lazım idi. 1528-ci ildə Aretino hami axtarışında yeni strategiyanı sınaqdan çıxarmağı qərara aldı. O, Romadan gedərək, onun haqqında çox az adamın eşitdiyi Venesiyada məskən saldı. Onun toplayıb saxlaya bildiyi az miqdarda puldan başqa heç nəyi yox idi. Buna baxmayaraq, yeni evə gəldikdən bir az sonra, ziyafətlər və əyləncələr təşkil edərək, evinin qapılarını qonaqpərvərliklə varlılar və kasıblar üçün taybatay açdı. O, istənilən qayıqçıya yer verərək, hamını şahanə salamlayır və qonaq edirdi. Küçədə yoxsullara, yetimlərə, paltaryuyan qadınlara pul paylayırdı. Şəhər kasıbları arasında belə bir şayiə yayılmışdı ki, Aretino təkcə gözəl şair deyil, həm də xeyirxah adamdır.

Aretinonun evinə incəsənət adamları və nüfuzlu şəxslər ayaq açmağa başladılar. Bir neçə ilin içərisində, o, böyük şöhrət qazandı. Venesiyaya gəlmiş heç bir adlı-sanlı əyan bu evdə qonaq olmamış, şəhəri tərk etmirdi. Aretinonun səxavəti qənaət edib yığdığı pulun xeyli hissəsinin hesabına başa gəldi, ancaq ona nüfuz və yaxşı ad qazanmağa kömək etdi. Həmin vaxtlar hər hansı başqa yerdə olduğu kimi, İtaliyada da çoxlu pul xərcləmək imkanı varlıların müstəsna üstünlüyü idi. Buna görə də, aristokratlar mühitində

Aretinonu nüfuzlu şəxs kimi qəbul etdilər. Çoxları nüfuzlu şəxslərin rəğbətini qazanmaq istədiyindən, Aretino hər cür hədiyyələr və pul almağa başladı. Hersoqlar və hersoginyalar, varlı tacirlər, papalar və şahzadələr onun rəğbətinə nail oldular və onun başına müxtəlif hədiyyələr yağdırdılar.

Aretinonun bədxərcliyi, əlbəttə, taktika idi və bu taktika sehrli ovsundan güclü təsir göstərdi. Ancaq əsl pul və rahatlıq əldə etmək üçün onun cibi pulla dolu böyük hamiyə ehtiyacı var idi. Mümkün variantları öyrənərək, o, nəhayət, fövqəladə dərəcədə varlı əyan olan hersoq Mantuanskinin üzərində dayandı, epik poema yazaraq, onu hersoqa ithaf etdi. Şairlər adətən bu şəkildə hami axtarırdılar: onlar ithafa görə növbəti şeiri yazana qədər çatacaq kiçik maddi yardım alırdılar, belə ki, müəyyən mənada bütün həyatı boyu yaltaqlanmaq lazım gəlirdi. Ancaq Aretino qulluq göstərməyə yox, hakimiyyətə can atırdı. O, poemanı hersoqa həsr edə bilər, ancaq bu zaman onu hədiyyə edərək, işi elə qura bilərdi ki, məvacib axtaran muzdlu cızmaqaraçıya deyil, hersoqa bərabər tutulsun.

Aretino bununla kifayətlənmədi: o, özünün iki yaxın dostu, Venesiyanın çox böyük sənətkarları, heykəltəraş Yakopo Sansovino və rəssam Tisiananı düşündüyü planda iştirak etməyə razı saldı. Aretino hersoqu dəyişdirməyə başlamazdan əvvəl, onu yaxşıca öyrəndi. O, hersoqun zövqünü xırdalıqlarına qədər bilirdi və hansı süjetlərin əyanın daha çox xoşuna gələcəyini Sansovino və Tisiana ilə məsləhətləşə bilərdi. Aretino sonra Sansovinonun heykəltəraşlıq işini və Tisiananın fırçasından çıxmış tablonu üçlüyün adından hersoqa hədiyyə kimi göndərdikdə, o, xoşbəxtlikdən göyün yeddinci qatında idi.

yeməklə təmin edirdi. Musa peyğəmbər dua edərkən dedi: «İlahi, fironu cəzalandır!» – Allah onun duasına cavab verərək nida göndərdi: «Mən onu suda cəzalandıracağam, həm də qoy onun və döyüşçülərinin sərvəti sənə və sənin adamlarına çatsın». Bu vəddən çox illər keçdi, ölümə məhkum olunmuş firon cah-calal və dəbdəbə içində həyat sürməkdə davam edirdi. Musa peyğəmbər Allahın fironu cəzalandıracağını səbirsizliklə gözləyirdi, həm də onun artıq gücü qalmamışdı. Buna görə də o, qırx gün oruc tutdu, sonra Sina dağına yollanaraq, Allaha müraciət etdi: «İlahi, fironu cəzalandıracağını mənə Sən vəd etməmişdinmi, o hələ də kafirlik edir və qanunları pozur». Həqiqi olan Allahdan səda gəldi: «Ya Musa, sən istəyirsən ki, mən tezliklə firona cəza verim. Mənə ibadət edənlər min dəfə dua edirlər ki, Mən bunu etməyim, çünki bu sərvətin bir hissəsi onlarındır və onun idarəçiliyi altında bu dünyadan ləzzət alırlar. Mən öz gücümlə and içirəm ki, o, nə qədər ki, Mənim yaratdıqlarıma yemək verir və onları müdafiə edir, onu cəzalandırmayacağam». Musa peyğəmbər

Bir neçə ay müddətində Aretino Venesiyanı şöhrətləndirən qılınclar, yəhər-yüyən, şüşə – bir sözlə, ona məlum olan, hersoqun layiqincə qiymətləndirə biləcəyi əşyaları hədiyyə verməkdə davam edirdi. Və budur, artıq Aretino, Tisian və Sansovino cavab hədiyyələri almağa başladılar. Düşünülmüş plan bəhrəsini verdi: şairə bədbəxtlik üz verdikdə – kürəkəni Mantuyedə həbsxanaya düşəndə – Aretino hersoqa kömək üçün müraciət etdi və o, cavan oğlanı azad etdi. Aretinonun dostu, varlı tacir Venesiyada böyük nüfuza malik idi. Hersoqla yaratmağa nail olduğu yaxşı münasibətlərdən istifadə etməsi sayəsində, Aretino bu adamın onun qarşısında özünü borclu hesab etməsinə nail oldu. İndi o, öz növbəsində Aretinoya istənilən xidmət göstərməyə hazır idi. Aretino hersoqun böyük siyasi nüfuzundan öz maraqları xeyrinə dəfələrlə istifadə etməyə başladı, həmçinin saray xanımları ilə özünün çoxsaylı eşq macəralarında onun köməyindən istifadə etdi.

Bununla belə, nəticədə Aretinoya hersoqun daha səxavətli ola biləcəyi göründükdə, onların münasibətləri bir qədər sərinlədi. An-

caq o, xahiş və ya şikayət etmək səviyyəsinə qədər alçalmadı: onlar arasındakı hədiyyələr mübadiləsi ona əyanla bərabər səviyyədə durmağa imkan versə də, pul köməyinə ümid bəsləməyə əsas vermədi. Buna görə də, Aretino sadəcə olaraq, hersoqdan bir qədər aralandı və mümkün maliyyə mənbəyinin axtarışına başladı. O, Fransa kralı Fransiskodan başladı, sonra xoşbəxtliyini Mediçilərin ailəsində, hersoq Urbino, imperator V Karl ilə sınadı. Nəhayət, bir hami əvəzinə çoxuna malik olmaq nəyi göstərir? Bu üstünlük verirdi – onların heç birinə baş əymək lazım deyildi, həm də Aretinonun hakimiyyəti böyük əyanın hakimiyyətinə bərabər görünürdü.

İZAHI

Aretinoya pulun iki əsas xassəsi məlum idi. Birinci: güc və hakimiyyət gətirməsi üçün pul dövriyyədə olmalıdır. Pula nə almaq olar? Ancaq cansız predmetlər deyil, həm də digər adamlar üzərində hakimiyyət əldə etmək olardı. Aretino pulu dövriyyəyə buraxaraq və onu işləməyə məcbur edərək, öz nüfuz dairəsini daima genişləndirdi ki, nəticədə bu, onun xərclərinin əvəzini artıqlamasilə çıxarmağa imkan verirdi.

İkinci: Aretino hədiyyələrin başlıca xassəsini başa düşürdü. Kiməsə hədiyyə vermək, onu göstərirdi ki, hədiyyəni verən və alan bərabər səviyyəli adamlardır və ya hədiyyə ve-

soruşdu: «Bəs onda Sən öz vədini nə vaxt yerinə yetirəcəksən?» – «O, Mənim yaratdıqlarıma yemək verməkdən nə vaxt imtina etsə, onda öz vədimi yerinə yetirəcəyəm. O, öz səxavətini azaldan kimi, bil ki, onun sonu çatıb». Elə oldu ki, bir qədər sonra firon Amana dedi: «Musa öz ətrafına İsrail övladlarını toplamışdır. Biz onun niyyətinin nə olduğunu bilmirik. Biz ehtiyatsız qalmamaq üçün anbarı heç olmazsa müəyyən müddətə dolu saxlamalıyıq. Buna görə də gündəlik ərzaq payını yarıbayarı azaltmaq, qalığı isə anbara göndərmək lazımdır».

O, ərzaq payını 2000 qoyun, 200 inək və 100 dəvə azaltdı, sonra isə hər iki və ya üç gündən bir yenə azaltmağa başladı. Belə olduqda, Musa peyğəmbər Həqiqi olanın vədinin tezliklə yerinə yetəcəyini başa düşdü, çünki getdikcə artan qənaət tənəzzülün əlamətidir və gələcəyin pis olacağından xəbər verir. Danışırlar ki, fironun ordusunun suya qərq olduğu gün onun mətbəxində cəmi iki toyuq kəsilmişdi.... Əgər adam varlıdırsa və hökmdar imtiyazı olmadan, özünü şahanə aparmağı arzulayırsa, adamların onu hökmdar və ağa adlandıraraq, onun qarşısında

rən daha yüksək mərtəbədə dayanır. Hədiyyə həmçinin onu göstərir ki, onu alan buna cavab vermək, təşəkkür etmək tələbatı və ya hətta borcu hiss edir. Məsələn, əgər dostlarınız sizə nəyisə havayı verirsə, siz başa düşməlisiniz ki, indi onların əsası vardır ki, sizdən cavabında nəsə gözləsin – və ya kobud desək, onlara sizdən nəsə lazımdır və bunu almaq üçün onlar öz hədiyyələri ilə sizdə cavab xidməti göstərmək hissi yaratmaq istəyirlər (müəyyən adamlara bəraət qazandırmaq üçün deyək ki, onların bəzisi bunu düşünmədən, özləri bunun əsl səbəbini büsbütün dərk etmədən hərəkət etsələr də, mexanizm məhz belədir).

Aretino öz azadlığına olacaq belə qəsdlərdən qaçırdı. Dilənçi kimi əlini açıb dayanmaq, varlıların və güclülərin ona yaşayış üçün kömək edəcəyini gözləmək əvəzinə, o, hər şeyi baş-ayaq çevirdi: güclüləri və varlıları özünə borclu hiss etməyə məcbur etdi: hədiyyələrinin məqsədi sosial pilləkənin ən uca zirvəsinə çıxmaq idi. Həyatının sonunda, o, Avropanın ən məşhur yazıçılarından biri oldu.

Başa düşmək lazımdır ki, pul adamlar arasındakı münasibətləri müəyyən edə bilər, ancaq bu münasibətlər sizin pulunuzun çox olmasından deyil, həmin puldan necə istifadə etməyinizdən asılıdır. Ağıllı adamlar əşyalar verməklə hörmət qazanmaqda xəsislik etmirlər. Əgər sizə tabe vəziyyətdə olmaq münasibdirsə, bu vəziyyətlə barışın, çünki siz

kasıbsınızsa, ola bilər həmişəlik kasıb qalasınız. Aretinonun italyan zadəganlarına qarşı işlətdiyi fənddən istifadə edin: elə təsəvvür yaradın ki, siz onlara bərabərsiniz. Özünüzü əyan kimi aparın, qonaqpərvərliklə qapıları taybatay açın, pulu dövriyyəyə buraxın, pulu nüfuza çevirən kimyagərlikdən istifadə edərək, hakimiyyətin özülünü yaradın.

QANUNA RİAYƏT EDİLMƏSİ (2)

Baron Ceyms Rotşild 1820-ci illərin sonlarında Parisdə varlandı. Bundan bir qədər sonra, o, olduqca çətin problemlə üzləşdi: fransız cəmiyyəti üçün tam autsayder olan almaniyalı yəhudi kimi, fərqləndirici xüsusiyyəti ksenofobiya (yadlara qarşı ifrat dözümsüzlük, nifrət) olan Fransanın yüksək təbəqələrinin hörmətini necə qazanmalı? Rotşild hakimiyyətin nə olduğunu yaxşı başa düşürdü. O, öz sərvətinin ona mövqe qazandıracağını bilirdi, ancaq buna baxmayaraq, əvvəlki kimi yenə də yad olaraq qalacaqdı. Buna görə də, öz dövrünün kübar cəmiyyətini diqqətlə öyrənərək, özünə sual verdi: onların rəğbətini necə qazanmaq olar?

Xeyriyyəçiliklə? Fransızları bundan az heç nə maraqlandıra bilməzdi. Siyasi nüfuz? O, artıq buna malik idi, bu da insanlarda yalnız şübhə doğururdu. İstifadə etmək mümkün olan yeganə zəif amil darıxdırıcılıq idi. Restavrasiya dövründə Fransanın varlı sinfi darıxmaqdan əziyyət çəkirdi. Buna görə də, Rotşild onların əyləncəsi üçün ağlagəlməz dərəcədə böyük məbləğdə pul xərcləməyə başladı. O, bağların və bal zallarının tərtibatı üçün ən yaxşı arxitektorları və rəssamları işə götürdü, Parisin çox məşhur baş aşpazı Mari-Antuan Karemi ən gözəl qəbullarda qonaqlar üçün Parisin heç vaxt görmədiyi yeməklər hazırlamağa dəvət etdi. Qəbulları hətta Almaniyadan olan yəhudi təşkil etməsinə baxmayaraq, heç bir fransız onun qarşısında dayana bilmirdi. Rotşildin hər həftə keçirdiyi müsamirələrə tədricən çoxlu adamlar yığışır, getdikcə daha çox diqqət cəlb edirdi. Bir neçə il keçdi, Rotşild gəlmə adamın hakimiyyətini təmin edə biləcək yeganə istəyinə nail oldu: o, cəmiyyətə qəbul edildi.

təzim etməsini istəyirsə, onda hər gün qonaqlıq süfrəsi açmağı öyrənməlidir. Dünyada ad-san qazanmağa nail olanlar, buna başlıca olaraq özünün səxavətli olması ilə nail olmuşdur, xəsislərə və qənaətcillərə isə hər iki dünyada nifrət edirlər.

Nizamülmülk (XI əsr), «Hökmdarların kitabı və ya Hökmdarlar üçün qaydalar».

ALOV RƏNGLİ PLAŞ

Kambisin Misirə yürüşü zamanı ellinlərin böyük dəstəsi bu və ya digər ehtiyaclar üzündən bu ölkəyə bəziləri, aydındır ki, ticarət işlərinə görə, başqaları orduda xidmət etmək üçün, çoxları isə şübhəsiz, sadəcə olaraq maraq xatirinə, müxtəlif cür qeyri-adi şeylərə baxmaq üçün gəlmişdi. Maraq xatirinə gələnlər sırasında Easın oğlu, samoslu Polikratın sürgündə olan qardaşı Siloson da var idi. Silosonun bəxti Misirdə misli görün-

İZAHI

Öz xeyrini bilməklə səxavətlilik etmək – xüsusən autsayder və ya gəlmə adam üçün özül qurmaqda güclü silahdır, əla vasitədir. Ancaq baron Rotşild daha ağıllı oldu: o, öz pulunun fransızlarda ədavət və etimadsızlıq doğuraraq, özü ilə onlar arasında maneə yaratdığını başa düşdü. Bu maneəni aşmağın ən yaxşı üsulu böyük məbləğdə pul xərcləyərək, fransız mədəniyyətini və cəmiyyətini puldan yüksək qiymətləndirdiyini göstərməkdən ibarət idi. Rotşildin etdikləri Amerikanın şimali-qərbindəki hinduların

məşhur bayramlarını çox xatırladırdı: hindu tayfaları dövri olaraq çox böyük şənliklər, bayramlar və ziyafətlərə çox böyük vəsait sərf etməklə, bununla başqa qəbilələr üzərində öz hakimiyyətini rəmzləşdirirdilər.

Rotşildin hakimiyyətinin əsası pul yığmaq deyil, onu xərcləmək qabiliyyəti, həmçinin öz üstünlüyünə inamda idi ki, o da, bu təntənələr vaxtı sərf edilənlərin və dağılanların hamısını bərpa etdi və əvəzini çıxardı.

Nəhayət, baron Rotşildin balları onun təkcə Fransanın işgüzar dairələrinə deyil, həm də kübar cəmiyyətinə daxil olmaq cəhdlərini əks etdirirdi. Şənliklərə çox böyük məbləğdə pul sərf edərək, o, öz güc və hakimiyyətinin puldan uzağa yayıldığını göstərməyə ümid edirdi, ancaq onun qurduğu özül elə möhkəm və əsaslı idi ki, beləsini yalnız pulla almaq, sadəcə olaraq, mümkün deyildi. Öz sərvətinin təhlükəsizliyini təmin etmək üçün onu «israf» etməyi qərara aldı. Belə düşünülmüş səxavətlilik – qabıq altında olan qoz ləpəsinə bənzəyir: çevik olmaq, öz sərvətinə məqsəd kimi deyil, vasitə kimi baxmaq, maddi qiymətlilərdə xəsislik etməməsilə, insan qəlblərini fəth edərək, onu işləməyə məcbur etmək qabiliyyətidir.

QANUNA RİAYƏT EDİLMƏSİ (3)

Florensiyanın Mediçilər nəslinin nümayəndələri İntibah dövründə bank işi ilə

məmiş dərəcədə gətirdi: o, alov kimi qırmızı rəngli plaşda Memfisin küçələrində gəzərkən, həmin vaxt Kambisin ordusunda xidmət edən və hələ yüksək mövqeyə çatmamış Dari onu gördü və qəfildən onu belə plaşa malik olmaq həvəsi çulğadı, o, Silosona yaxınlaşdı və plaşı ona satmağı xahiş etdi. Siloson zabitin plaşı əldə etməyi çox arzuladığını görüb coşqunluqla dedi: «Mən onu heç bir pula satmaram, ancaq madam ki, sən onu əldə etməyi bu dərəcədə istəyirsən, mən onu sənə hədiyyə edirəm». Dari ürəkdən minnətdarlıq edərək, hədiyyəni

qəbul etdi. Tezliklə Kambis öldü və yeddilərin Maqa qarşı üsyanı baş verdi, bunun nəticəsində Dari taxta çıxdı. Siloson özünün bir vaxt alov kimi qırmızı rəngli plaşını verdiyi adamın farsların şahı olduğunu bildi. O, Suzaya tələsdi, şah sarayının girişində oturdu, özünün şaha kömək edənlərin siyahısına salınmasını tələb etdiyini elan etdi.

Keşikçi baş verənləri Dariyə çatdırdı, o, təəccüb içində bu qəribə adamın kim ola biləcəyini özözündən soruşdu. O dedi: «Mən yalnız bu yaxınlarda şah olduğumdan, çox güman, o, xidmətinin haqqını ödəmədiyim ellinlər-

məşğul olaraq, bugünkü dillə desək, varlandılar və öz şəhərlərində böyük nüfuz qazandılar. Ancaq çoxəsrlik ənənələrə malik respublika olan Florensiyada hakimiyyəti pulla ələ almaq ideyasının özü şəhərin ləyaqət predmetini təşkil edən demokratik təsəvvürlərə və ideyalara daban-dabana zidd idi. Böyük şöhrətə nail olmuş Mediçilərin birincisi olan Kozimo bunu başa düşürdü və sudan sakit, ipəkdən yumşaq adam idi. O, öz vardövlətini heç vaxt nəzərə çarpdırmırdı. 1470-ci ildə onun nəvəsi Lorenso yetkinlik yaşına çatan vaxt, ailənin var-dövləti o dərəcədə artdı, nüfuzu isə o dərəcədə böyüdü ki, bundan sonra onu gizləmək mümkün deyildi.

Lorenso sərvət sahiblərinin qədimdən bəri istifadə etdikləri strategiyanı tətbiq edərək, problemi özünəməxsus şəkildə həll etdi: o, incəsənətə himayədarlıq etməyə başladı, bu, onu çox məşhur messenata çevirdi. O, mənzərə tabloları alaraq, sadəcə olaraq pul xərcləmirdi, İtaliyada gənc rəssamların təhsil aldığı ən yaxşı məktəblərin yaradılması şərəfi ona məxsus idi. Məhz belə məktəblərin birində Lorensonun diqqətini gənc Mikelancelo cəlb etdi və Mediçi rəssamı öz evində yaşamağa dəvət etdi. Belə bir dəvəti Leonardo de Vinçi üçün də etdi. Leonardo və Mikelancelo məşhur rəssam olduqdan sonra da, hamilərinə sədaqətlərini saxlayaraq, onun alicənablığını xeyirxahlıqla ödədilər.

Lorenso düşmənləri ilə toqquşarkən, həmişə öz silahını – messenatlığı tətbiq edirdi. 1472-ci ildə Florensiya ilə çoxdan düşmənçilik edən Pizanın ona hücum etmək təhlükəsi yarandıqda, Lorenso bir vaxtlar şəhərin şərəf və gözəlliyini təşkil etmiş, həmin vaxt isə yoxsullaşmış və əvvəlki şöhrətini itirmiş Piza universitetinə pulla kömək edərək, onun əhalisini sakitləşdirdi. Pizalılar belə hiyləgər fənd qarşısında davam gətirmədilər, bu, onlarda mədəniyyətə qəfil maraq oyatdı və eyni zamanda davakarlığı yatırdı.

İZAHI

Lorenso, heç şübhəsiz ki, incəsənəti sevirdi, ancaq onun rəssamlara himayədarlığı, həm də onun daim yadda saxladığı mənfəət məqsədi daşıyırdı. Həmin dövrdə Florensiyada bank işi pul qazanmağın o qədər də şərəfli üsulu sayılmırdı, daha doğrusu, hər halda, hakimiyyət və nüfuz mənbəyi kimi populyarlıq qazanmamışdı. Cəmiyyətdə incəsənətə münasibət bunun əks qütbü idi və demək olar ki, dini etiqad səviyyəsinə çatmışdı. Lorenso incəsənətə pul sərf edərək, öz sərvətinin mənbəyini adamların xoşagəlməz baxışlarından gizlədərək, onların diqqətini yayındırır, zadəgan görkəmi alırdı. Səxavətlilik hər hansı başqa şeydən yaxşı olub, sizə ətrafdakıların diqqətini gerçəklikdən yayındırmağa və incəsənə-

dən heç biri ola bilməzdi. Onlardan kimsə çətin ki, bu tezlikdə burda ola bilsin. Ancaq hər halda onu bura gətir, onun kim olduğunu və ona nə lazım olduğunu bilməliyəm». Keşikçi Silosonu çarın sarayına gətirdi, dilmanclar ondan kim olduğunu və özünü şaha kömək edən adlandırmağa imkan verən nə etdiyini soruşdular. O, Dariyə plaşla bağlı hadisəni xatırlatdı və özünün ona plaş bağışlayan həmin adam olduğunu izah etdi. Dari ucadan dedi: «Cənab! Sən adamların ən səxavətlisisən, çünki mən hələ mövqeyi və hakimiyyəti olmayan adam olarkən, sən mənə

hədiyyə etdin – o, kiçik olsa da, bu gün mənə gətirilən ən möhtəşəm hədiyyələrdən artıq minnətdarlığa layiqdir. Buna görə də, mən sənə saya biləcəyin qədər çoxlu gümüş verəcəyəm ki, sən heç vaxt Gistapın oğlu Dariyə xidmət göstərdiyinə görə təəssüf etməli olmayasan». Siloson cavab verdi: «Mənim hökmdarım, mənə nə qızıl, nə də gümüş lazım deyil, Oretin qardaşım Polikratı öldürdükdən sonra Samos adası xidmətçilərimizdən birinin əlindədir. Mənə doğma olan Samos adasını özümə qaytar. Qoy Samos sənin mənə hədiyyən olsun – qoy adada heç bir adam öl-

tin və ya dinin himayədarı kimi görünməyə kömək edər.

QANUNA RİAYƏT EDİLMƏSİ (4)

XIV Lüdovikə pulun əhəmiyyəti və hakimiyyəti çox yaxşı məlum idi. O, müstəqil idarə etməyə başlayanda, zadəganlıq qiyama hazırlıq əlamətləri təzahür etdirərək, kral hakimiyyətinə qarşı çıxış edən nüfuzlu qüvvə idi. Lüdovik sarayda vəziyyəti öz əlində saxlamaq üçün, zadəganları çox böyük məbləğdə pul xərcləməyə məcbur edərək, onları müflis edirdi. Nəhayət o, kral iltifatından istifadə edərək, onların üzərlərində tam hakimiyyət əldə etdi.

Sonra Lüdovik zadəganlığı özünün məqsədli səxavətliliyi ilə diz çökdürdü. Bu, belə baş verdi. Kral, mövqeyi onun üçün mühüm olan və ya çıxışlarını dayandırmaq istədiyi saray adamının inadcıllığını hiss etdikdə, hər şeydən əvvəl, öz sərvəti ilə zəmin hazırlayırdı. Əvvəlcə o, özünü elə aparırdı ki, sanki onu görmür, uzun müddət onu əsəbiləşməyə məcbur edərək, əhəmiyyət vermirdi. Sonra həmin adam qəfildən gah oğlunun çox gözəl və yaxşı haqq ödənilən işə təyin edilməsini, gah da yerlərdə öz qohumlarına qiymətli pay verildiyini eşidirdi və ya məsələn, onun özünə çoxdan valeh olduğu tablo hədiyyə edilirdi. Qiymətli hədiyyələr Lüdovikdən gəlirdi. Nəhayət, bir müddət –

bir neçə həftə və ya ay keçdikdən sonra, Lüdovik saray adamına kömək xahişi ilə müraciət edirdi. Əvvəllər kralın əleyhinə istənilən hərəkəti etməyə hazır olan adam, indi başa düşürdü ki, monarxa söz qaytarmağa onda heç bir həvəs qalmayıb. Rüşvət açıqdan-açığa istənildikdə, ola bilsin ki, o, özündən çıxa bilərdi, ancaq kralın taktikası gizli və fəndgir idi. Heç bir bitki bitirməyən bərk və məhsul verməyən torpaqla rastlaşaraq, Lüdovik ora toxum əkməzdən əvvəl, torpağa gübrə verir və becərirdi.

dürülməsin və ya qul edilməsin». Dari Silosonun xahişini yerinə yetirdi və yeddilərdən biri olan Otanın komandanlığı altında, Silosonun xahiş etdiyi hər şeyi yerinə yetirmək əmri ilə qoşun göndərdi.

Herodot (e.ə. V əsr), «Tarix»

İZAHI

Lüdovik başa düşürdü ki, adamların pula olan münasibəti, kökləri uzaq keçmişə gedən dərin emosional ünsürə malikdir. Uşaqlıq vaxtı hədiyyələrə görə bizdə valideynlərə qarşı çox mürəkkəb hisslər yaranırdı: hədiyyə tərəfimizdən məhəbbət və tərif kimi qəbul edilirdi. Pul və ya digər hədiyyələr alaraq, adamlar tamamilə uşaqlıq vaxtlarındakı kimi, xüsusən də, hədiyyə hakimiyyətə malik adamdan alınırdısa, daha qiymətli olurdu. Onlar hədiyyənin qarşısında duruş gətirə bilməyərək, iradələri yumşalırdı. Lüdovik torpağı gübrələyərək, elə bundan istifadə edirdi.

Məqsədə daha səmərəli nail olmaq üçün hədiyyə tam gözlənilmədən verilməlidir. Adamın öz hərəkətlərində yeganə olması, əvvəllər bu cür hədiyyə almaması və ya hədiyyə verənin bundan qabaq ona soyuq münasibət bəsləməsi vacibdir. Siz eyni bir adama nə qədər tez-tez hədiyyə edərsinizsə, bu bir o qədər də az təsirli olar. Əgər onlar sizin hədiyyələrinizi özlüyündə anlaşılan bir şey kimi qəbul etmirlərsə, bu nankorluğun yüksək həddi olardı, yaxud sizi xeyriyyəçiliklə məşğul olan hesab etmiş olardılar (bu isə tamam başqa məsələdir). Sürpriz, gözlənilməz, təkrarolunmaz hədiyyə uşaqları ərköyün edə bilməz. O, sizin onların sözəbaxan olmağına nail olmağınıza imkan verər.

QANUNA RİAYƏT EDİLMƏSİ (5)

XVII əsrdə Edo şəhərində (Tokionun əvvəlki adı) yaşayan Antikvaru Fuşimiya bir dəfə kənddə çay evinə düşməli olur. Bir fincan çay içib uzun müddət fincana baxır, onun haqqını ödəyib, özü ilə aparır. Yerli incəsənət sərrafı bunu görüb Fuşimiyanı bayıra çıxana qədər gözlədi, sonra çay evinin sahibəsi qoca qadına yaxınlaşıb, fincanı aparan adamın kim olduğunu soruşdu. Qoca qadın Yaponiyanın ən məşhur sənət bilicisi, əntiq şeylər həvəskarı, dayme (varlı knyaz) İzumonun özünü malla təmin edən adamın onun qonağı olduğunu dedi.

Sərraf küçəyə cumdu, əntiq mal həvəskarına çatdı və fincanı ona satması üçün yalvarmağa başladı – o, qərara gəlmişdi ki, əgər belə məşhur sərraf onu alırsa, deməli, bu əşya çox yaxşıdır. Fuşimiya ürəkdən gülüb izah etdi: «Bu, ən adi fincandır, o heç bir dəyərə malik deyil. Mənim ona maraq göstərməyimin səbəbi isə, ondan buxarın qəribə şəkildə qalxmasından və mənim onun çay axıdıb-axıtmadığını yoxlamaq istəyim idi». (Çay mərasimi həvəskarları hər hansı qeyri-adi təfərrüatlara və ya təbii gözəlliyin təsadüfi qeyri-adi təzahürünə maraq göstərirdilər.) Fuşimiya sənət bilicisinin yenə də onu almaq istədiyini görüb, fin-

canı ona bağışladı.

Fincanın xoşbəxt sahibi onu yüksək qiymətləndirən ekspert tapmağa cəhd edərək, müxtəlif adamlara göstərirdi, ancaq onların hamısı belə bir fikrə gəldi ki, bu ən adi, heç nə ilə əlamətdar olmayan məmulatdır, buna görə də, o, heç nəyə nail olmadı. Tezliklə o, yalnız fincan və onun gətirəcəyi sərvət haqqında düşünərək, öz işini buraxdı. Nəhayət, o, Edoya qədər gedib çıxdı və Fuşimiyanın dükanına gəldi. Sərraf gördü ki, özü də istəmədən bu adama, onun fincanın müəyyən dəyərə malik olmasına inanması üzündən, xoşagəlməz anlar bəxş etmişdir. O, öz səhvini düzəltmək üçün fincanı lütfkarlıqla 100 rioya (qızıl külçəyə) aldı. Fincan əslində ən adi idi, ancaq o, əyalət adamını beynindən çıxmayan ideyadan xilas etmək və eyni zamanda ona, özünün bütün cəhdlərinin faydasız olmadığına inanmaq imkanı vermək istəyirdi. Fincanı satan təşəkkür etdi və razı qalmış halda çıxıb getdi.

Fuşimiyanın fincan alması şayiəsi tezliklə onun həmkarları arasında yayıldı. Bu işdə nəyinsə olduğunu başa düşənlər hesab etdilər ki, əgər belə sərraf ona yüz rio veribsə, onun əsl qiyməti, çox güman, çox-çox yüksəkdir. O, fincanı nəyə görə almalı olduğunu danışmağa cəhd etdi, ancaq əntiq şey həvəskarları inanmadılar. İş Fuşimiyanın

Pulunuz daha çox, o qurtardıqdan sonra fayda gətirir. Çünki bu halda siz bir an içərisində öz xeyrini bilən və qənaətcil olursunuz.

Artur Şopenhauer, 1788–1860

təslim olması və yola gətirilərək, fincanı satışa qoymağa razılaşması ilə qurtardı.

Hərracda iki alıcı eyni zamanda ona 200 rio təklif etdi və kimin tez qiymət deməsi haqqında mübahisəyə başladılar. Mübahisə dalaşmaya keçdi, bu zaman onlar stolun üstündəki fincana toxundular və fincan yerə düşərək çilik-çilik oldu. Hərracı dayandırmaq lazım gəldi. Fuşimiya qırılan hissələri bir yerə topladı və onları bir-birinə yapışdıraraq, fincanı bərpa etdi, sonra isə işi başa çatmış hesab edərək, onu yığışdırdı. Ancaq bir neçə ildən sonra onun dükanına çay mərasiminin böyük ustası Masudair Fumai təşrif gətirdi. O, əntiq şey həvəskarından artıq əfsanəyə çevrilmiş fincanı ona göstərməyi xahiş etdi. Fumai diqqətlə ona baxaraq dilləndi: «Həqiqətən o, mühüm bir şey deyildir, ancaq Çay Ustası hissləri və maraqları malın qiymətindən yüksək qiymətləndirir». O, fincana böyük məbləğ ödəyərək, onu aldı. Beləliklə, parçaların bir-birinə yapışdırılaraq birləşdirilməsindən əmələ gələn, heç kimin tanımadığı sənətkarın yaratdığı adi fincan Yaponiya incəsənətinin ən məşhur predmetlərindən biri oldu.

İZAHI

Bu əhvalat, birinci, pulun mühüm səciyyəvi xüsusiyyətini əyani göstərir: bunu insanlar yaradır, onlara əhəmiyyət və dəyər verirlər. Saray adamı həm əşyalarda, həm də pulda hər şeydən artıq, onlarla bağlı olan emosiyaları və hissləri qiymətləndirərək, onları dəyərləndirir və bizi onları əldə etməyi arzulamağa məcbur edir. İbrət sadədir: sizin hədiyyələriniz, səxavət və alicənablıq təzahür etdirməyiniz nə qədər yüksək dərəcədə hisslərə təsir edirsə, özünüzü siz bir o qədər qüdrətli sanırsınız. Müəyyən emosiyalar yaradan və ya qəlbin sarı simi-

nə toxunan predmet və ya söz, sizin bahalı, cansız hədiyyələrə xərclədiyiniz puldan daha təsirli olacaqdır.

QANUNA RİAYƏT EDİLMƏSİ (6)

Çay mərasiminin varlı həvəskarı Akimoto Suzumoto bir dəfə öz xidmətçisinə 100 rio verib, bir tacirin təklif etdiyi fincanı almağı tapşırdı. Xidmətçi fincanı görüb onun bu pula layiq olmasından şübhələndi və sövdələşərək, qiyməti 95 rioya endirdi. Bir neçə gün sonra Suzumoto artıq fincandan istifadə etməyə başlayanda, xidmətçi fəxrlə ona özünün uğurlu alveri haqqında danışdı.

«Sən necə də cahilsən! – deyə, Suzumoto ucadan dilləndi. – 100 rioya satılan çay fincanı ailənin qiymətli yadigarından başqa bir şey ola bilməz. Bu əşya yalnız ailə çox çətin vəziyyətə düşdükdə, satıla bilər. Bu halda pis vəziyyətə düşənlər necə ümid edə bilər ki, kimsə fincana çox pul – heç olmasa 150 rio verə bilər? Necə adam olmaq lazımdır ki, onların hisslərini ürək yanğısı ilə duymayasan? Bundan başqa, sənin 100 rio verdiyin qədimi əşyanı özündə saxlamaq ayıb deyil, ancaq onun dəyərinin cəmi 95 rio olması pis təəssürat yaradır. Buna görə də, bu fincanı gözümün qabağından götür ki, heç vaxt onu görməyim!» Fincanı bağlı yerdə saxlamağı əmr etdi və heç vaxt ondan istifadə etmədi.

HƏDİYYƏ VERİLƏN BALIQ

Birinci nazir Kun İsi balığı çox sevirdi. Buna görə də, yanına xahişə gələnlər ona hədiyyə vermək üçün həmişə balıq alırdılar. Ancaq Kun hədiyyələri qəbul etmirdi. Bundan heyrətlənən onun kiçik qardaşı soruşdu: «Axı, sən balığı çox sevirsən. Sənə balıq hədiyyə veriləndə, niyə ondan imtina edirsən?» Cavabında Kun dedi: «Məhz balığı bu qədər çox sevdiyimə görə, mən bu hədiyyələrdən imtina edirəm. Çünki mən belə hədiyyəni qəbul etməklə, özümü borclu hiss edərəm. Əgər mən kiməsə borclu olsam, çox tezliklə qanunu pozmağa məcbur olacağam. Əgər mən qanunu pozsam, məni daşıdığım vəzifədən kənarlaşdırarlar və mən işsiz qalaraq, özümü çoxdan sevdiyim ləzzətli yeməklə – balıqla yedizdirmək imkanında olmayacağam və yaxud əksinə, əgər mən xahişə gələnlərdən balıq qəbul etməsəm, məni vəzifədən çıxarmazlar və mən özümə istədiyim qədər balıq ala bilərəm».

Xan Fey, Çin filosofu, e.ə. III əsr

İZAHI

Siz qiyməti aşağı salaraq alver edərkən, bəzən beş rio qənaət etməyə müvəffəq olursunuz, ancaq bu zaman inciklik və yaratdığınız ucuz mal həvəskarı təəssüratı sizin ad-sanınız bahasına başa gələ bilər – bu isə elə dəyərlidir ki, dünyanın güclü adamları onu hər şeydən yüksək qiymətləndirirlər. Qiyməti tam ödəməyi öyrənin – bu, daha faydalıdır.

QANUNA RİAYƏT EDİLMƏSİ (7)

Təxminən XVII əsrin ortalarında Yaponiyada qoşun başçıları mühüm döyüşdən qabaq əylənib vaxt keçirirdilər. Əylənmək üçün onlar yarış təşkil edirdilər. Hər bir iştirakçı qalibləri mükafatlandırmaq üçün müəyyən hədiyyələr – kitab, yay-ox, yəhər və silah gətirirdi. İş elə düşdü ki, böyük dayme Date Masamune bir dəfə orada oldu, onu yarışda iştirak etməyə razı saldılar. Hədiyyə qismində, o, kəmərindən asdığı boranı qabığından hazırlanmış qabı təklif etdi. Hamı gülüşdü, heç kim belə ucuz şeyi udmaq istəmirdi. Nəhayət, boranı qabığından hazırlanmış qabı ağanın xidmətçisi əldə etdi.

Ancaq müsamirə başa çatdıqdan sonra, qoşun başçıları söhbət edə-edə çadırdan çıxarkən Masamune onların yanına çox gözəl bərk qaçan at gətirdi və xidmətçiyə təqdim etdi.

O aydınlaşdırdı: «Bu, boranı qabığından düzəldilmiş qabın içərisindən çıxan atdır». Son dərəcə heyrətlənmiş qoşun başçıları Masamunenin hədiyyəsinə əhəmiyyət verməmələrinə görə, qeyri-iradi olaraq təəssüfləndilər.

İZAHI

Masamune başa düşürdü ki, pul onların sahiblərinə ətrafdakılara sevinc bəxş etmək imkanı verir. Siz bunu nə qədər tez-tez edirsinizsə, bir o qədər artıq heyranlıq doğurursunuz. Əgər siz hərəkətinizlə boranı qabığından düzəldilmiş qabın içərisindən at çıxmasına nail ola bilirsinizsə, bununla öz hakimiyyətinizi nümayiş etdirirsiniz.

OBRAZ:

ÇAY

Özünüzü müdafiə etmək və ya suyun qarşısını almaq üçün bənd çəkirsiniz. Ancaq tezliklə onun suları üfunətli və zərərli olur. Yalnız ən yaramaz canlılar bu durğun sularda sağ qala bilir, heç nə orada üzə bilmir, səyahətlər dayandırılır, ticarətə son qoyulur. Bəndi uçurun. Su axanda və hərəkət edəndə, bolluq, var-dövlət və hakimiyyət gətirir. Çayda vaxtaşırı daşqın baş verərək, firavanlıq və xeyir gətirir.

MÖTƏBƏR FİKİR

«Böyük adam xəsisdirsə – axmaqdır, yüksək mövqeyi olan adam üçün isə, acgözlükdən dəhşətli qüsur yoxdur. Xəsis nə torpaq, nə hakimiyyət fəth edə bilmir, çünki onun öz iradəsini yerinə yetirməyə kömək edəcək dostları yoxdur. Dostlarının olmasını arzu edənin öz əmlakını hər şeydən yüksək qiymətləndirməsi dözülməzdir: ancaq dostları qiymətli hədiyyələr vasitəsilə qazanmaq lazımdır, çünki maqnit dəmiri güclü şəkildə özünə cəzb etdiyi kimi, insanın hədiyyə etdiyi qızıl və gümüş də insanların qəlbini cəzb edir».

«Qızılgül haqqında roman», Giyom de Lorris, 1200–1238.

Mən yalnız kifayət qədər pulu olanların və mənim təklif etdiyim, məqsədləri guya başqa adamların aldadılması olan fırıldağa həvəslə razılaşanların pulunu əlindən alırdım. Onlar pulun özünün naminə pula can atırdılar. Mən isə pulun mənə verə biləcəyi cah-calal və zövq naminə pula can atırdım. Onlar nadir hallarda insan təbiətinin xüsusiyyətlərini hesaba alırdılar: heç nə bilmirdilər, üstəlik, həm də aldatmaq istədikləri öz oyundaşlarının qayğısına daha az qalırdılar. Əgər onlar insan təbiətinə daha artıq maraq göstərərək, öz yoldaşları ilə ünsiyyətə daha artıq diqqət yetirsəydilər və ələhəzrət dolların ardınca qaçmaq barədə az düşünsəydilər, özləri hədəfə belə asan çevrilməzdilər.

Sarı Uşaq Veyl, 1875–1976.

MEDALIN İÇ ÜZÜ

Güclü adamlar bunu unutmamalıdırlar: müftə əldə edilən şeylər, bir qayda olaraq, nəticədə hiylə olur. Haqq tələb etmədən öz xidmətlərini təklif edən dostlar, sonralar sizdən ona edə biləcəyiniz puldan baha başa gələn belə xidmət istəyirlər. Sazişin öz problemləri var, bunlar təkcə maddi deyil, həm də psixoloji problemlərdir. Buna görə də, xidmətlər üçün haqq ödəməyi öyrənin, həm də xəsislik etmədən.

Ancaq əks tərəfin də tətbiq edə biləcəyi bu qanun hər cür hiylələr və fırıldaqlar üçün geniş imkanlar yaradır. Adamları pulsuz nahar ilə başdan çıxarmaq, dələduzların sevimli taktikasıdır.

Bizə artıq tanış olan Cozef Veyl kimi heç kim bu üsuldan yaxşı istifadə etməyi bacarmırdı. O, əsrin çox böyük fırıldaqçısı Sarı Uşaq idi. Cozef Veyl adamların təbii acgözlüyündən istifadə edərək, onlara asanlıqla kələk gəlirdi. Bir dəfə o yazmışdı: «Mənimlə və mənim kimi adamlarla işi olanların nəyisə müftə əldə etmək həvəsi onlara baha başa gəlir... Adamlar dəyəri olan bir şeyi havayı əldə edə bilməyəcəklərini başa düşəcəkləri vaxt (hərçənd bunun nə vaxtsa baş verəcəyinə mən də şübhə edirəm), cinayətkarlıq aşağı düşəcək və insanlıq ahəngdarlıqla yaşayacaqdır».

Veyl uzun illər ərzində adamları ağlagəlməz dərəcədə böyük məbləğdə pulla şirnikləndirərək, onları aldatmağın bir yığın üsulunu işləyib hazırlamışdı. O, daşınmaz əmlakı «pulsuz» bölüşdürürdü – bu, müqavimət göstərməyin çətin olduğu şirnikləndirici şey idi. Sadəlövhlər sənədlərin rəsmiləşdirilməsinə görə yalnız 25 dollar ödəməli idi. Torpaq pulsuz olduğuna görə, yüksək üzvlük haqqı ədalətli görünürdü və adamlar buna həvəslə gedirdilər. Belə ki, Veyl saxta sənədlərin qeydiyyatına görə min dollar pul yığdı. Həqiqi pulların əvəzinə, o, öz «müştərilərinə» yer əldə etmək haqqında saxta akt verdi. Bundan başqa, bir dəfə, o, öz qurbanlarına əvvəlcədən nəticələri məlum olan at yarışı haqqında və ya yarım ay ərzində 200 faiz gəlir gətirən səhmlər haqqında məlumat verdi. O, hər dəfə pulsuz nahar haqqında düşünən sadəlövhlərin geniş açılmış, bərəlmiş gözlərini görürdü.

İbrət dərsi mürəkkəb deyildi: əgər yalanı asan qazanc vədi ilə möhkəmləndirirsinizsə, o, asanlıqla baş tutur. Adamların əksəriyyəti özlüyündə tənbəldir və var-dövlətin onların əlinə göydən düşməsini arzulayırlar. Kiçik haqq müqabilində, onlara, zəhmət çəkmədən milyonlar qazanmaq haqqında məsləhətlər satın (P.T.Barnum ixtiyar yaşlarında bununla məşğul olurdu). Bu kiçik haqqı minlərlə sadəlövhdən yığdıqda, o, bütöv sərvətə çevrilir. İnsanları müftə qazanc ümidi ilə başdan çıxarın – onda siz

istədiyiniz şeyi əldə edəcəksiniz, çünki acgözlük gözləri qamaşmış qurbanlarınızın istənilən şeyə göz yummaları üçün kifayət qədər güclüdür. Sarı Uşağın dediyi kimi, məmnunluğun yarısı insanlara əxlaq dərsi verməkdən ibarətdir: acgözlük öz əvəzini çıxarmır.

QIRX BİRİNCİ QANUN

DAHİLƏRİN ARDINCA SÜRÜNMƏYƏ ÇALIŞMA

QANUNUN MAHİYYƏTİ

Başlanğıcda baş verənlər sonra olanlardan həmişə yaxşı və maraqlı görünür. Əgər siz dahi adamın varisi və ya məşhur valideynlərin övladısınızsa, onlardan irəli getməyiniz üçün sələflərinizi, sadəcə olaraq, təkrar etməli deyil, nailiyyətlərini ikiqat artırmalısınız. Onların kölgəsində yatmağa çalışmayın, yoxsa yad keçmişdə ilişib qalarsınız. Əgər yolu dəyişsəniz, öz xüsusi adınızı və şəxsiyyətinizi yarada bilərsiniz. Qüdrətli atanızdan imtina edin, onun irsini damğalayın və əks olunan işıqla deyil, öz işığınızla şəfəq saçaraq, öz hakimiyyətinizə nail olun.

QANUNUN POZULMASI

Çoxları öz işində, əgər başqaları onlardan qabaq gəlməsəydilər, simurq quşu kimi parlaya bilərdilər. Birinci olmaq – böyük üstünlükdür, məşhurluq onu ikiqat artırır... Birinci gedənlər haqlı olaraq birincilik şöhrətinə nail olurlar, onların ardınca gələnlər, kiçik oğullar kimi, cüzi qismətləri ilə kifayətlənməyə məcbur olurlar... Süleyman peyğəmbər davakarlıqdan və öz atasına münasibətdə intiqam almaqdan imtina edərək, müdrikliklə sülhpərvərliyi seçdi. Yolunu dəyişərək, o, qəhrəmanlığın çox asan olması qərarına gəldi...

Əlli beş illik parlaq hakimiyyət sürdükdən sonra, 1715-ci ildə XIV Lüdovik öldükdə, bütün nəzərlər onun varis seçilmiş nəticəsinə – gələcək XV Lüdovikə tuşlandı. Beş yaşlı oğlan nə vaxtsa Günəş-Kral kimi ölkənin böyük hökmdarı olacaqmı? XIV Lüdovik vətəndaş müharibəsi həddinə gəlib çatmış ölkəni Avropanın ən qüdrətli, çiçəklənən dövlətlərindən birinə çevirdi. Son illər idarə etmək onun üçün çətin idi – kral qocalmışdı və yorulmuşdu, ancaq o, ümid edirdi ki, onun kiçik yaşlı nəticəsi böyüyüb güclü monarxa çevriləcək, ölkəni yenidən möhkəmləndirəcək və ulu babasının başladığı işi davam etdirəcəkdir.

Buna görə də, gələcəyin kralı olacaq uşağın tərbiyəsi üçün Fransanın ən yaxşı mütəfəkkirləri dəvət edildi. Onlar uşağa XIV Lüdovikin mükəmməl yiyələndiyi dövləti idarə etmək sənətini, metodlarını öyrətməli idilər. Onun təhsilində heç nə nəzərdən qaçırılmamışdı. Ancaq 1726-cı ildə XV Lüdovik taxta çıxdıqda, onda gözlənilmədən dəyişikliklər baş verdi: ona daha oxuyub öyrənmək, böyüklərə yaxşılıq etmək, özünü təsdiq etmək lazım deyildi. O, bütün sərvət və hakimiyyətin yalnız ona məxsus olduğu böyük dövlətin başında dayanmışdı. O, istədiyi hər şeyi edə bilərdi.

Vəliəhdlik qurtardıqdan sonra, hakimiyyə-

tinin ilk illərində, XV Lüdovik dövləti idarə etməyi özünün etibarlı adamı Andre-Erkülü de Fleriyə tapşırıb, özü kef çəkməklə məşğul oldu. Bu, böyük narahatlıq doğurmadı, çünki o, hələ çox cavan olduğundan, ona şənlənmək və əylənmək lazım gəlirdi, Fleri isə yaxşı nazir idi. Sonra yavaş-yavaş məlum oldu ki, bu dövrün uzanma təhlükəsi var. Lüdoviki dövlət işləri maraqlandırmırdı. Onu Fransanın maliyyə vəziyyəti və ya İspaniya ilə müharibənin baş verə biləcəyi narahat etmirdi, başlıca qayğısı əyləncə idi. O, ürək sıxıntısına dözmürdü və daim fikirlərini dağıtmaq üsulları axtarırdı. Əgər o, maral ovuna getmirdisə və yeniyetmə qızların dalına düşmürdüsə, vaxtını qumar stolu arxasında keçirərək, bir gecə ərzində çox böyük məbləğdə pul xərcləyirdi.

Saray, adət üzrə, hökmdarın zövqünü əks etdirirdi: qumar oyunları və dəbdəbəli əyləncələr adət olunmuş məşğuliyyət idi. Saray adamları Fransanın taleyi haqqında düşüncələrlə özlərinə əziyyət vermirdilər – onlar kralda ən yaxşı təəssürat yaratmağa çalışır, özlərinə ömürlük təminat qazandıran titullar və yaxşı maaşlı yüngül vəzifələr almağa nail olurdular. Tüfeylilər saraya axışıb dolurdular, dövlətin borcu artırdı.

Lüdovik 1745-ci ildə xanım de Pompadura vuruldu, zadəgan nəslindən olmayan bu qadın öz gözəlliyi və cazibədarlığı, qeyri-adi ağlı və uğurlu ərə getməyi sayəsində ucal-

Bizim böyük II Filipp taxtda oturub, özünün tədbirliliyi ilə bütün dünyanı idarə edərək, xalqları əsrlər boyu heyran qoydu. Əgər onun məğlubedilməz atası güc nümunəsi idisə, Filipp tədbirlilik paradiqması (cədvəli) idi... Bu cür yenilik, müdrik məsləhətçilərə rəhbərlik edənə, böyüklərin dəstəsində yer tutmağa kömək etdi. Dahilər öz sənətlərini buraxmayaraq, adi cığırlarla gedir və hətta dünya qədər köhnə peşələrdə yuxarıya, şöhrətə doğru addımlar atırlar. Martsal lirikada Horatsiyə güzəştə getdiyi kimi, Horatsi də Vergiliyanın epik poeziyasına toxunmadı.

Öz janrında birinci olmağa ümid edən Trentsi komediyanı, Persi satiranı seçdi. Cəsarətli istedad heç vaxt asan qələbə naminə təqlidçiliyə getməz.

Baltazar Qrasian, «Qəhrəmanlar üçün cib güzgüsü».

mağa nail oldu. Kralın rəsmi məşuqəsi olan xanım de Pompadur bütün Fransa üçün dəb qanunvericisi və zövq hakiminə çevrildi. Ancaq onun siyasi iddiaları da var idi, nəhayət, o, qeyri-rəsmi baş nazir səviyyəsinə qədər yüksəldi – Lüdovik deyil, məhz o, öz mülahizəsi üzrə nazirləri, hətta ən mühüm və həlledici vəzifələrdən çıxarmaq və təyin etmək səlahiyyətlərini həyata keçirməklə, kabinetin təşkili problemini həll edirdi.

Yaşı artdıqca, Lüdovik, əyləncələrdə böyük rəngarənglik tələb edirdi. Versalda Park-o-Serf adlanan fahişəxana tikdirdi ki, bura da Fransanın hər yerindən gözəl qızlar gətirilirdi. Yeraltı keçidlər və gizli qalereyalar istənilən vaxt Lüdovikin ora getməsinə imkan verirdi. 1764-cü ildə xanım de Pompadur öldükdən sonra, xanım Dübari onun əvəzedicisi və kralın məşuqu oldu. O, çox tezliklə sarayı əlinə aldı, sonra isə xanım Pompadurun yolu ilə gedərək, dövlət işlərinə də qarışmağa başladı. Əgər bu və ya başqa nazir ona toxunan hərəkət edərdisə, dərhal işdən çıxarılırdı. Şirniyyatçı qızı Dübari, ona kifayət qədər hörmətlə yanaşmayan xarici işlər naziri və görkəmli fransız diplomatı Etyen de Şuazelin istefasına nail olduqda, bütün Avropa heyrət etdi. Vaxt gedir, fırıldaqçılar və yüngülxasiyyətli digər şəxslər Lüdovikin münəccimliyə, okkultizmə və maliyyə fırıldaqlarına olan marağından istifadə edərək, Versalda yuva qururdular. Bir vaxt kral taxtına çıxan yetkinləşməmiş və ərkö-

yün yeniyetmə, illər keçdikcə, daha pis olurdu.

Aşağıdakı məşhur ifadə XV Lüdovikin idarəçilik devizinə çevrildi: «Apres mol, le delige» – «Məndən sonra lap dünya batsın» və ya başqa sözlə, qoy Fransa artıq mən olmadığım vaxt uçuruma yuvarlansın. Həqiqətən, Lüdovik olmayanda (o, 1774-cü ildə öldü), onun ölkəsi, həm də onun özünün maliyyə işləri tamamilə tənəzzül içində idi. Onun nəvəsi XVI Lüdovik dəyişikliklərə və güclü rəhbərliyə böyük ehtiyac olan krallıqda taxta çıxdı. Ölkənin bədbəxtliyindən, yeni kral, hətta öz babasından da zəif idi; o, yalnız ölkənin üsyana necə yuvarlandığını acizanə şəkildə müşahidə edə bilirdi. 1792-ci il Böyük Fransa inqilabı respublika yaradıldığını və monarxiyanın sonunu elan etdi, XVI Lüdovik Sonuncu Lüdovik adlandırıldı. Bir neçə ay sonra onun başı gilyotində vuruldu və bir vaxtlar Günəş-Kralın parlaqlıq verdiyi Fransanın tacı qaraldı.

İZAHI

1640-cı illərin sonunda vətəndaş müharibəsinin tüğyan etdiyi ölkədən, XIV Lüdovik, Avropanın çox qüdrətli dövlətini yaratmağa müvəffəq oldu. Onun yanında qoşun başçıları zağ-zağ əsirdilər. Xörək hazırlayarkən, bir dəfə səhvə yol vermiş aşpaz, ölümü hökmdarın qəzəbinə düçar olmaqdan üstün tutaraq, intihar etmişdi. XIV Lüdovikin çoxlu məşuqəsi var idi, ancaq onların hakimiyyəti yataq otağından uzağa yayılmırdı. O, öz dövrünün ən zəkalı şəxsiyyətlərini sarayda öz ətrafına yığmışdı. Onun qüdrətinin rəmzi Versal oldu: əcdadlarının Luvr sarayından imtina edərək, o, tamamilə yeni yerdə öz xüsusi sarayını tikdirdi. Bu, əsasını XIV Lüdovikin qoyduğu yeni, misli-bərabəri olmayan qaydanın rəmzi oldu. O, Versalı dünyanın mərkəzinə, ətrafında təkcə Fransanın deyil, həm də bütün Avropanın fırlandığı oxa, ehtiram hissləri ilə gedilən yerə çevirdi. Bir sözlə, Lüdovik açıq boşluğu – dağılmaqda olan Fransa monarxiyası institutunu – hakimiyyət saçan öz rəmzi və gücü ilə doldurdu.

PERİKLİN HƏYATI

Perikl gəncliyində xalqdan çox qorxurdu: o, tiran Pisistrata oxşayırdı, onun xoşagəlimli səsi, danışıqda dilinin səlisliyi və tezliyi, bu oxşarlıqla birlikdə, çox qoca adamlarda qorxu yaradırdı. Həyatda o, böyük sərvətə malik idi, adlı-sanlı nəsildən çıxmışdı, nüfuzlu dostları var idi, sürgün edilməkdən qorxurdu və buna görə də, ictimai işlərlə məşğul olmurdu, ancaq yürüşlərdə cəsarətli idi və təhlükələrdən qorxmurdu. Aristid ölən vaxt Femistokl sürgündə idi, Kimon isə yürüşlər üzündən çox vaxt Elladadan kənarda olurdu, bu vaxt Perikl

XV Lüdovik isə, böyük şeyləri irs alan və ya böyük adamın izi ilə gedənlərin faciəli taleyinin rəmzidir. Belə xadimin oğlu üçün atasının qoyduğu özül üzərində möhtəşəm binanın ucaldılmasını davam etdirmək təbii görünə bilər. Ancaq hakimiyyət dünyasında hər şey tərsinə alınır. Bir qayda olaraq, böyük atanı əvəz edən varis kef-səfa çəkməyə can atan, çətinliyə dözməyən ərköyün oğul olur. Hətta atasının boşluğu doldurma meyli onda tamamilə yad olan hissə çevrilmişdi. Makiavelliyə görə, lazımlı olan tələbat insanları hərəkətə sövq edəndir, bu olmadıqda, yalnız tənəzzül və pozğunluq qalır. Öz hakimiyyətini gücləndirməyə və möhkəmləndirməyə ehtiyacı olmayan XV Lüdovik labüdən durğunluğa yuvarlandı. Günəş-Kralın möhtəşəmlik rəmzi olan Versal, onun hakimiyyəti vaxtı, Burbonlar monarxiyasının Las-Veqasdakına bənzər olduqca mənasız əyləncə və eyş-işrət yerinə çevrildi. Versal, indi Fransa xalqını dilənçi halına salmış krala olan nifrəti təcəssüm etdirirdi, inqilab vaxtı saray coşmuş üsyançılar tərəfindən qarət edildi.

Böyük Günəş-Kralın nəslinin davamçısı olan XV Lüdovikdə öz keçmişinin tələsindən qurtarmağın yeganə üsulu var idi: psixoloji olaraq sıfırdan başlamaq, keçmiş nəsilləri və öz əsl-nəcabətini şüurlu şəkildə xatırlamamaq, öz xüsusi dünyasını yaradaraq, başqa istiqamətdə hərəkət etmək. Əgər si-

zin seçiminiz varsa, ən yaxşısı, ümumiyyətlə, bu cür vəziyyətdən yan qaçmaq, boşluğun, hakimiyyətdə çatışmazlığın olduğu göylərdə ikinci günəş rolunu oynamağa məcbur olmayaraq, öz qayda-qanununuzu yarada biləcəyiniz yerə müraciət etməkdir. Hakimiyyət ona malik olanın ətrafdakılardan güclü, əhatəli görünməsinə müvəffəq olmasından asılıdır. Əgər siz atanızın, kralın, böyük əcdadlarınızın kölgəsində çaşıb qalacaqsınızsa – heç vaxt buna nail ola bilməyəcəksiniz.

Dövlət hakimiyyəti vaxt keçdikcə tədricən seçkili olmaqdan irsən ötürülməyə çevrildikdə, yeni hakimiyyəti irsən alan hökmdarlar, əvvəlkilərlə müqayisədə olduqca cırlaşırlar. Onlar rəşadətli, şanlı əməllər haqqında düşünməyərək, yalnız cah-calalda, şəhvətdə və hər cür pozğunluqda digərlərini üstələməyin qayğısına qalırdılar.

Nikkolo Makiavelli

qızğınlıqla siyasi fəaliyyətə başladı. O, özünün tamamilə demokratik olmayan təbii xasiyyətinin əksinə olaraq – varlıların və aristokratların tərəfində deyil, demokratiyanın və kasıbların tərəfində durdu. Görünür, o, özünün tiranlığa can atmasına şübhə yaranacağından qorxurdu, bundan başqa, Kimonun aristokratların tərəfində durduğunu və onlar tərəfindən fövqəladə dərəcədə sevildiyini görürdü. Buna görə də, o, öz təhlükəsizliyini təmin etmək və Kimonla mübarizədə qüvvə toplamaq üçün xalqın rəğbətini qazandı. Bundan sonra, Perikl özünün bütün həyat tərzini

QANUNA RİAYƏT EDİLMƏSİ

Böyük İsgəndərin yeniyetməliyi ehtirasla uyduğu güclü hisslərlə – atası, Makedoniya çarı Filippə qarşı çox güclü narazılıqlarla qeyd olunmuşdu. Filippin hiyləgərliyi, idarəçiliyinin ehtiyatlı üslubu, ibarəli nitqləri, özünü həsr etdiyi sərxoşluğu və əy-

də dəyişdi. Şəhərdə onu yalnız bir yolla – meydana və Şuraya gedən görürdülər.

Plutarx (təxminən 46–120), «Periklin tərcümeyi-halı».

RƏSSAM PYETRO PERUCİNONUN HƏYATI (1450–1523)

İstedadlı adamların, növündən asılı olmayaraq, seçdikləri sənətdə kamilliyə çatmaları üçün bəzən kasıblığın faydalı və çox güclü sövqedici stimul olmasını Pyetro Perucinonun həyatının nümunəsində çox aydın görmək

yaşlığı, güləşə aludə olması və digər üsullarla vaxtını öldürməsi onu çiyrindirirdi. İsgəndər başa düşürdü ki, o, atasının tam əksi olmalıdır: o, özünə qətiyyətlilik və cəsurluq aşıladı, danışıqda təmkinli və azdanışan olmağı öyrəndi, qiymətli vaxtını şöhrət gətirə bilməyən əyləncələrə itirmədi. Filippin Yunanıstanın xeyli hissəsini tutması da İsgəndəri həyəcanlandırırdı. Bir dəfə o şikayətlənərək demişdi: «Atam məni hansısa böyük işi görməkdən məhrum edənə qədər torpaqları fəth etməkdə davam edəcək». Güclü adamların digər oğulları atalarından irs aldıqları sərvətə görə sevindikləri və öz kefləri üçün yaşadıqları halda, İsgəndər bir şeyə nail olmaq – atasını ötüb keçmək, Filippin adını tarixdən silmək, öz qələbələri ilə onun nailiyyətlərinin üstündən xətt çəkmək istəyirdi.

İsgəndər atasından nə qədər üstün olduğunu ətrafdakılara göstərməyə dözmürdü. Bir dəfə, at taciri Fessalian, Busefal adlı çox gözəl atı Filippə satmaq istədi. Çarın heç bir mehtərbaşı ata yaxınlaşa bilmədi, Filipp belə vəhşi və azğın heyvanı gətirdiyinə görə taciri məzəmmət etməyə başladı. Bunu görən İsgəndər qaşqabağını sallayıb dedi: «Bu adamlar belə gözəl atı öz qorxaqlıqlarına və bacarıqsızlıqlarına görə ram edə bilmirlər». O, bunu bir neçə dəfə təkrar etdi, belə ki, bundan məyus olan Filipp atın öhdəsindən gəlməyi yoxlamağı onun özünə təklif etdi. O, gizlində oğlunun atdan yıxılacağına və acı

ibrət dərsi alacağına ümid edərək, tacirə atı qaytarmağı əmr etdi. Ancaq İsgəndər dərs almadı, üstəlik dərs verdi: o, təkcə Busefalı yəhərləyib minmədi, həm də onu dördnala çaparaq sakitləşdirdi, sonralar onunla Hindistana qədər yol qət edərək, ondan ayrılmadı. Saray adamları coşqunluqla öz heyranlığını bildirdi, Filippə gəldikdə isə o, qəlbində İsgəndərin şəxsində oğlunu deyil, onun hakimiyyətini iddia edən rəqibi görürdü.

İsgəndərin atasına nifrəti getdikcə güclənirdi. Bir dəfə onlar saray adamlarının yanında möhkəm deyişdilər. Filipp qılıncını elə siyirdi ki, sanki oğluna zərbə endirəcəkdi. Ancaq kral həddindən artıq çox şərab içdiyindən, qolları boşaldı və yıxıldı. İsgəndər atasını göstərərək ucadan dedi: «Makedoniya xalqı, baxın! Avropadan Asiyaya yürüş etməyə hazırlaşan adam budur. Ancaq o, bir lojadan o birisinə yıxılmadan keçə bilmir».

İsgəndərin on səkkiz yaşı olarkən, Filippi ona qəzəbi tutmuş saray adamı öldürdü. Çarın öldürülməsi haqqında şayiə bütün Yunanıstana yayıldıqca, şəhərlər bir-birinin ardınca Makedoniyanın canişinlərinə qarşı üsyana qalxdılar. Filippin müşavirləri çar taxtına çıxmış İsgəndərə, Filippin edəcəyi kimi ehtiyatlı olmağı, hiyləgərlik və fəndgirliklə qələbə qazanmağı məsləhət gördülər. Ancaq bu İsgəndər üçün qəbuledilməz idi: o, ordu ilə bütün ölkəni onun ən ucqar guşələrinə qədər keçərək, güc və təzyiqlə üsyanı yatırtdı və imperiyanı yenidən möhkəmləndirdi.

olar. Öz təbii qabiliyyətinin köməyi ilə müəyyən layiqli mövqe tutmağı arzu edərək, o, bəlalar və iztirablarla dolu həyat keçirdiyi Perucanı tərk edərək, Florensiyaya gəldi. Ancaq orada da, uzun müddət ərzində kasıblığın daşını ata bilərdi, vəsaiti olmadığına görə, yatmağa belə yer tapmadı. O, gecəni gündüzə qatıb böyük səylə öz sənətinin sirlərinə yiyələndi. Rəssamlıq Pyetro üçün ikinci həyata çevrildi, iş həmişə onun yeganə zövq mənbəyi olaraq qaldı. Belə ki, o, öz ustalığını daim səlisləşdirdi. Yoxsulluq təhlükəsi gözünün qabağından getmədiyindən, o, ac qalmamaq naminə çox əziyyətli işlər görürdü. Ola bilsin, sərvət onun və istedadının daim təkmilləşməsi yolunu bağlayardı, yoxsulluq isə bu yolu açdı, ancaq ehtiyac onu tələsdirdi, çünki o, özünün pis və acınacaqlı mövqeyindən qalxmağı – möhtəşəmliyin və kamilliyin ən uca zirvəsinə yüksəlməyi olmasa da, heç olmazsa, özünə layiqli həyat yaşamağı təmin etməyi qızğınlıqla arzu edirdi. Bu səbəbdən, soyuğa, aclığa, rahatsızlığa və çətinliyə baxmayaraq, ona istirahət və dinclik gətirən hər günə görə sevindi. O, atalar sözü kimi həmişə təkrar edirdi ki, pis havanı

Çox vaxt elə olur ki, gənc qiyamçı böyüyür, onun atasına qarşı barışmazlığı isə tədricən azalmağa doğru gedir. Belə olduqda, o, yavaş-yavaş onu qəzəbləndirən adamın surətinə çevrilir. Ancaq İsgəndər üçün rəqabət, hətta Filippin ölümündən sonra belə, kəskinliyini itirmədi. O, Yunanıstanı birləşdirərək, Asiyanı tutmağı arzulayan atasına baş əyməyən İranı fəth etməyi düşündü. İrana qalib gələrək, İsgəndər, nəhayət rəşadət və şöhrətdə Filippi üstələdiyini hesab edə bilərdi.

İsgəndər sayı bir milyonu aşan İran ordusu ilə qarşılaşmaq üçün 35 minlik ordu ilə Asiyaya keçdi. Farslarla döyüşə girməzdən əvvəl, İsgəndər, Qordi şəhərindən keçdi. Burada, şəhərin baş məbədində çox möhkəm zoğal köklərindən hazırlanmış kəndirlə dolaşdırılmış qədim araba dayanmışdı. Əfsanədə deyilirdi ki, kəndiri – Qordi düyününü açan adam dünyanı idarə edəcək. Çoxları bu məsələnin öhdəsindən gəlməyə cəhd etmişdi, ancaq düyün heç kimə ram olmamışdı. İsgəndər əli yalın düyünü açmağın mümkün olmadığını görüb, qılınca əl atdı və bir zərbə ilə düyünü iki yerə kəsdi. Bu rəmzi hərəkət dünyaya göstərdi ki, onun qarşısındakı – asan yolla getməyib, özünə yol açan qeyri-adi adamdır.

Qüvvələrin aşkar bərabərsizliyinə baxmayaraq, İsgəndər farslar üzərində qələbə çaldı. Hamı onun kifayətlənəcəyini gözləyirdi – bu, onun adının əsrlər boyu şöhrətlənmə-

si üçün kifayət edəcək böyük zəfər idi. Ancaq İsgəndər öz nailiyyətinə atasına bəslədiyi münasibət kimi yanaşırdı: İranın fəth edilməsi keçmişdə qaldı, o isə əvvəlki xidmətləri ilə arxayınlaşmağa hazırlaşmayaraq, keçmişin indini kölgədə qoymasına imkan vermək istəmirdi. O, öz imperiyasını dünyanın həmin vaxt məlum olan hüdudlarına qədər genişləndirmək üçün Hindistanı fəth etməyə doğru hərəkət etdi. Yalnız əsgərlərin qiyamı və həddindən artıq yorğunluğu onu daha da irəli getməkdən imtinaya məcbur etdi.

hökmən yaxşı hava əvəz edir. Yaxşı havadan istifadə edərək, ağır zamanlara görə, mənzil və sığınacaq təmin etmək üçün ev tikmək lazımdır.

Corco Vazari (1511–1574), «Rəssamların tərcümeyi-halı».

İZAHI

İsgəndər məşhur və müvəffəqiyyətlər qazanan adamın oğlu olan, şöhrət və qüdrətdə atasını ötən, bəşəriyyət tarixində ekstremal, qeyri-adi tipdir. Bu tipə çox nadir hallarda rast gəlinməsinin səbəbi sadədir: ata, bir qayda olaraq, sərvət toplamağa, şöhrət qazanmağa, öz ölkəsini yenidən daha da şöhrətləndirməyə ona görə nail olur ki, boş yerdə, özü də azdan işə başlayır. Çox böyük fəaliyyət ehtirası və enerjisi onu uğura doğru aparır – özünün dəliqanlılığı və ya özgənin hiyləgərliyi üzündən onun itirəcəyi bir şey yox idi: onun arxasında nəyisə sübut etməyə zərurət olan məşhur atası yox idi. Bu tip adamlarda özlərinə inanmaları – onların hər şeyi başqalarından yaxşı etdiklərinə inam üçün bütün əsaslar var idi, buna görə də, nəticədə onlar uğur qazanırdılar.

POL MORFİNİN PROBLEMİ

Hətta şahmatla ən səthi tanışlıq, bu oyunun hərbi əməliyyatlara bənzədiyini göstərir. Əslində şahmat Uilyam Fatehdən tutmuş Napoleona qədər bir çox böyük sərkərdələrin sevimli məşğuliyyəti olmuşdur. İki ordunun – ağların və qaraların – mübarizəsi real müharibədə olan strategiya və taktika prinsipləri üzrə baş verir, həmçinin burada da, intuisiya və planlar zəruridir, düşmənin planlarını qabaqcadan başa düşmək vacibdir, hər bir addım özü ilə müharibədəkindən az olmayan amansızlıqla

Bu cür adam oğlunu sarsıdır, ona öz dərslərini məcburi qəbul etdirir, oğul isə həyatı tamamilə başqa vəziyyətdə və şəraitdə başlayır. Ata oğluna başqa istiqamətdə getməyə imkan vermək əvəzinə, ola bilsin ki, gizlində onun uğursuzluğa düçar olacağı qorxusundan (Filipp qəlbinin dərinliklərində Busefalın İsgəndəri yıxmasını arzuladığı kimi), onu öz izi ilə getməyə məcbur edir. Atalar bəzən oğlanlarına, onların gəncliyinə və enerjisinə həsəd aparır, bəzən qeyri-şüuri olsa da, rəhbərlik etmək və hakimiyyət sürmək istəyirlər. Belə ataların oğulları çox vaxt atalarının əldə etdiklərini itirməkdən qorxaraq, ehtiyatlı və qorxaq olurlar.

Əgər oğul Makedoniyalı İsgəndərin təcavüzkar strategiyasını tətbiq etməyə cəsarət etməsəydi, heç vaxt öz atasının kölgəsindən çıxa bilməzdi: buna görə də, keçmişi düzəldərək, öz xüsusi hökmranlığını yaratdı, atasına tabe olmaq və onun səni kölgədə qoymasına imkan vermək əvəzinə, sən özün bunu ona qarşı et. Əgər siz maddi mənada sıfırdan başlaya bilmirsinizsə – irs alınan şeydən imtina etmək axmaqlıq olardı – bütün keçmişi kənara ataraq və yeni istiqamət seçərək, heç olmazsa, psixoloji cəhətdən sıfırdan başlaya bilərsiniz. İsgəndər anadangəlmə imtiyazın hakimiyyət üçün məhvedici olduğunu instinktiv olaraq hiss etmişdi. Buna görə də, keçmişə qarşı amansız olun – təkcə atanızla və atanızın atası ilə vidalaşmayın, həm də öz nailiyyətlərinizlə də kifayətlənməyin. Yalnız zəiflər arxayınlaşır və keç-

miş xidmətlərin xatirəsi ilə yaşayır. Hakimiyyət oyununda istirahət üçün vaxt yoxdur.

HAKİMİYYƏTİN AÇARI

Bəzi qədim dövlətlərdə, məsələn, Benqaliya və Sumatrada hökmdar uzun müddət hakimiyyətdə olurdusa, tabeliyindəkilər onu edam edirdilər. Bu, qismən yeniləşmə mərasimi idi, həmçinin hökmdarın qüdrətinin müəyyən həddi aşmasına yol verməmək məqsədi daşıyırdı – çünki hökmdar mövcud quruluşu başqa nəsillərin və öz övladlarının zərərinə pozmağa cəhd edə bilərdi. Müharibə halında rəhbərliyi öz üzərinə götürərək, xalqı müdafiə etmək əvəzinə, o, xalqı özünə tabe etməyi, hakimiyyəti daha bütöv şəkildə ələ keçirməyi qərara ala bilərdi. Bu halda, o, ölənə qədər döyülməli və ya qətl mərasiminə məruz qalmalı idi. Sağ olmadığı vaxt ona ehtiram göstərməyə, ilahi varlıq kimi səcdə etməyə heç nə mane olmurdu. Bununla bərabər, fəaliyyət meydanı maneə olmadan yaradıla bilən yeni qayda-qanun üçün təmizlənmiş olurdu.

Yeni qəhrəmana öz dünyasını qurmağa keçmiş mane olur, hətta atası ölübsə və ya hakimiyyətə malik deyilsə belə, o, yenə də, öz atasının yolu ilə getməlidir. Qəhrəman öz sələflərinin qarşısında baş əyməli, ənənələrin və təcrübənin təsiri altına düşməli olur. Keçmişdə uğurlu olan şeyləri, hətta vəziyyət köklü şəkildə dəyişilsə belə, indiki vaxt-

qarşısıalınmaz labüd nəticələr doğurur. Bundan başqa, aydındır ki, oyunçuları instinktiv hərəkətə gətirən motiv, heç də bütün yarış oyunlarına xas qızğın davakarlıq deyil, ata qatilindən çox-çox qatı olan şər hisslər kompleksidir. Doğrudur, oyunun başlanğıc məqsədindən – kralın ələ keçirilməsindən – indi imtina edilib, ancaq motiv nöqteyi-nəzərindən, indiki məqsəd – yollarını bağlamaqla kralı sıradan çıxarmaq – heç nə ilə fərqlənmir, hətta bu, bir o qədər də az olmayan amansızlıqdır... «Şahı mat etmək» «şahın ölümünü» göstərir... Şahmatın

instinktiv psixoloji motivasiyası haqqında bizə məlum olanlara görə, oyunçulardakı üstün gəlmək cəhdi – öz atasını qəbul edilən formada ötüb keçmək barədə gizli arzudur. Morfinin (XIX əsr şahmatçısı, çempion Pol) şahmat Olimpinin zirvəsinə yüksəlişi tarixçəsi simvolikdir. Bu tarixçə, onun üçün güclü sarsıntı olan, atasının gözlənilməz və qəfil ölümündən cəmi bir il sonra başladı. Biz güman edə bilərik ki, onun çox yaxşı və parlaq cəhdi, Şekspirin «Hamlet»ində və Freydin «Yuxu yozumları»nda olduğu kimi sublimasiya, bu dönüş hadisəsinə daha yüksək səviyyədə göstəri-

da təkrar etməyə məcbur edilir. Qəhrəmanı keçmişdən başqa, onun itirməkdən qorxduğu vərəsə də aşağı dartır, həm də qorxu onu ehtiyatlı edir və əl-qolunu bağlayır.

Hakimiyyət boşluğu doldurmaq bacarığından, keçmişin ölü yükündən təmizlənmiş meydanı əkmək qabiliyyətindən asılıdır. Yalnız atanızın şəxsiyyəti kənarlaşdırılandan sonra, sizin qarşınızda binalar ucaltmaq və yeni qayda müəyyən etmək üçün yararlı olan təmiz məkan meydana çıxır. Buna nail olmağa imkan verən çoxsaylı müxtəlif strategiyalar vardır, – başçının mərasimlə öldürülməsinin variantları. Bu, qəzəbli coşqunluğa hamı tərəfindən qəbul edilən forma verərək, onu aradan qaldırır.

Ola bilsin, keçmişin kölgəsinin öhdəsindən gəlməyin ən ziyansız və ən sadə üsulu – nəsillərin mövcud olmuş barışmaz ziddiyyətlərindən istifadə edərək və gəncliyi qocalığa qarşı qaldıraraq, onların əhəmiyyətini azaltmaqdır. Bunun üçün keçmiş zamana mənsub, rüsvayçılıq dirəyinə mismarlamaq mümkün ola bilən münasib fiqur tələb olunurdu. Dəyişikliklərə qəzəblə müqavimət göstərən qədim Çin mədəniyyətinə qarşı üsyan qaldıran Mao Tzse Dun ölkədə Konfutsinin qədim təliminin zorla yayılmasına ictimaiyyətin gizli narazılığından istifadə etdi. Con F.Kennedi keçmişdə dolaşıb qalmağın təhlükəli olduğunu bilirdi. O, öz sələfi Duayt D.Eyzenhauerlə müqayisədə prinsip-

cə yeni prezident oldu və bununla mücəssəməsi Eyzenhauer olan bütöv 1950-ci illər dövründən aralandı. Kennedi, məsələn, ənənəvi və o qədər də intellektual olmayan, imtiyaz və qocalıq rəmzi olan, Eyzenhauerin ehtiraslı əyləncəsi qolfu oynamırdı. Bunun əvəzinə, o, Ağ evin yaşıl meydançasında Amerika futbolu oynamağı seçdi. Yeni prezidentin administrasiyası özünün bütün təzahürlərində gənclik və Eyzenhauer mükəmməlliyinə qarşı güclü əks təsir nümayiş etdirirdi. Kennedi özü üçün qədim həqiqəti kəşf etdi: gənclər dünyada öz yerini tutmağa və atalarının kölgəsindən azad olmağa can ataraq, asanlıqla köhnə quruluşun əleyhinə qalxırlar.

Özünüzü sələflərinizdən ayırmaq istədiyiniz məsafə, çox vaxt, şəxsi açıq şəkildə tanıtmaq üsulu kimi, hansısa rəmzi yaratmağı tələb edir. Məsələn, XIV Lüdovik Fransa krallarının ənənəvi iqamətgahlarında yaşamaqdan imtina edərək və Versalda öz xüsusi sarayını tikdirərək, belə rəmzi hərəkət etdi. İspaniya kralı II Filipp öz hakimiyyətinin mərkəzi olan Eskurial sarayını tikdi, bunun da əsl səbəbi həmin şey idi. Ancaq Lüdovik daha irəli getdi: o, atası və ya daha erkən əcdadları kimi kral olmağı arzulamırdı. O, başında tac gəzdirmir, əlində əsa taxtda oturmurdu – o, öz kral əzəmətini təsdiq edən xüsusi yeni mərasimlər və rəmzlər işləyib hazırladı. Lüdovik sələflərinin mərasimlərinə qədimlərə təkəbbürlü təbəssüm doğuran bir şey kimi ya-

lən cavab reaksiyası idi... İndi həm də, Morfinin qələbələrini ictimaiyyətin necə qarşılama üsulu haqqında danışmaq zəruridir, çünki o elə idi ki, belə bir sual meydana çıxır: Morfinin sonrakı iflası onun Freydin «Die am Erfolde scbeitern» («qələbənin gücdən saldığı») kimi təsvir etdiyi tipə aid olması ilə izah edilirmi?.. Psixologiya dili ilə desək, qəfildən şöhrət şəfəqinə bürünən Morfi (özünün çox böyük uğuru sayəsində) öz kobudluğu və lovğalığı ilə qorxudulmuş və susdurulmuşdurmu? Freyd göstərir ki, bəzi adamların qəfil uğurun yükünə davam gətirmə-

məsinin səbəbi, onların bunun öhdəsindən reallıqda deyil, təsəvvürdə gələ bilməsindədir. Yuxuda öz atasını axtalatmaq – heç də onu reallıqda etmək deyildir. Real vəziyyət çox güclü instinktiv təqsir kompleksinin meydana çıxmasına səbəb olur və psixi pozğunluq bunun cəzası ola bilər.

Ernest Cons, «Pol Morfinin sirləri», 1951.

naşırdı. Onun yolu ilə gedin: sələflərin təcrübəsinin qulu olsanız, onları heç vaxt ötə bilməzsiniz. Siz maraqlı, başqasına oxşamayan üslub və rəmzlər işləyib hazırlayaraq, öz fərqlərinizi əyani nümayiş etdirməlisiniz.

Yuli Sezarın xələfi – Roma imperatoru Avqust bunu çox yaxşı başa düşürdü. Sezar böyük sərkərdə, ictimai xadim, bütün həyatı valehedici teatr tamaşasına bənzər adam idi, xalq nəfəsini çəkmədən onu izləyirdi. Onun Kleopatra ilə münasibətini xatırlatmaq kifayətdir. Buna görə də, Avqust, özünün teatr tamaşalarına xüsusi məhəbbəti olmasına baxmayaraq, Sezarın xatirəsi ilə başqa cür – onu ötməyə çalışmayaraq, onunla özü arasındakı fərqi aradan qaldırmaqla – rəqabət aparmağı qərara aldı: o, hakimiyyətinin özülünü, həm zahiri təzahürlərdə, həm də əslində Roma sadəliyinə, sərtliyinə və asketizminə qayıtmaqla qoydu.

Sələfi ötüb keçmək çətindir. Problem ondadır ki, o, sizi sanki pərdə ilə, keçmişin rəmzləri ilə ayıraraq, özü gələcəyin qarşısını kəsir. Öz xüsusi adınızı yaratmaq üçün zəruri olan məkanınızın olmadığı bir halda, vəziyyətin öhdəsindən gəlmək üçün sizə boş yer – mədəniyyətin boş qalmış və sizi birinci, əsas fiqur edə biləcək və var qüvvə ilə parıldadacaq sahələrini axtarıb tapmaq lazımdır.

Afinalı Perikl dövlət xadimi karyerasına başlamağa hazırlaşarkən, Afinanın siyasətin-

də mühüm qüsur aşkar etdi. Afina siyasətçilərinin əksəriyyəti aristokratların köməyinə arxalanırdı. Periklin özü də aristokratlara meyl edirdi. Hər halda, bununla belə, özünün siyasi oyununda sadə xalqdan istifadə etməyi qərara aldı. Onun seçimi ilə özünün şəxsi rəğbəti arasında ümumi olan heç nə yox idi, ancaq parlaq karyera üçün yol açdı. Buna əsaslanaraq, Perikl xalqın adamı oldu. O, keçmişin və indinin böyük başçıları ilə rəqabət aparmaq əvəzinə, heç bir kölgənin düşmədiyi sahədə özünə ad qazandı.

Rəssam Diyeqo Velaskes öz karyerasına başlayanda, İntibah dövrünün ondan qabaq və sonra sənət zirvəsinə yüksəlmiş böyük ustaları ilə müqayisə edilə bilməyəcəyini başa düşürdü. O, həmin dövrün standartlarına görə, kobud və başdansovdu görünən üslubda işləməyə üstünlük verdi. Bu üslubda, o, müvəffəqiyyət qazandı. İspaniya kralının sarayında, öz növbəsində keçmişlə əlaqəni kəsdiyini nümayiş etdirmək istəyən adamlar var idi, Velaskesin üslubunun yeniliyi onları heyran qoydu. Ənənələrdən belə kəskin aralanmaq çoxlarına həddindən artıq təhlükəli görünürdü, ancaq köhnə formaları qırmağa və mədəniyyətə yeni həyat verməyə cəsarəti çatmış adamlara, onlar da, gizlicə heyran olurdular. Bax, məhz buna görə, xam torpağa qədəm qoyaraq və boşluğu dolduraraq, böyük hakimiyyət əldə etmək olar.

Kimlərsə tarixi geri döndərmək həvəsində ağılsız inadkarlıq edirlər. Belələri dəqiq bilməlidirlər ki, əgər kimsə sizə qədər A, B və V əməliyyatlarını yerinə yetirərək, uğur qazanıbsa, siz də bunları edərək, onun uğurunu təkrar edə biləcəyinizə inamınız – hakimiyyətə gedən yolda böyük maneədir. Bu münasibət mexanistikdir (varlıq və inkişafın bütün hadisələrini sadə mexaniki hərəkət qanunları ilə izah edən antidialektik fəlsəfi nəzəriyyə), elə bil yaradıcı olmayan adamların tənbəlliyi və əl-ayaqlarının bağlı olmaları üzündən, onlar üçün ən sadə və əlverişli üsul kimi cəlbedici olan peçenye reseptidir. Bədbəxtlik ondadır ki, hadisələr və vəziyyətlər heç vaxt dəyişikliklərsiz təkrar olunmur.

İkinci Dünya müharibəsi vaxtı general Duqlas Makartur Filippində olan Amerika hərbi qüvvələrinə komandanlığı qəbul edərkən, yavəri ona kitab təqdim etdi. Bu kitabda əvvəlki komandanların vaxtında baş vermiş müxtəlif presedentlər təsvir edilir və onların çətin vəziyyətlərdən məhz necə çıxdıqları haqqında danışılırdı. Makartur kitabın neçə nüsxə olduğunu soruşduqda, adyutant: altı – cavabını verdi. General dedi: «Yaxşı, bütün nüsxələri yığın və yandırın. Mən presedentlərə bağlı deyiləm. Problemin yarandığı hər dəfə mən yeni qərar qəbul edəcəyəm – özü də təxirə salmadan». Bu münasibəti keçmişə görə nümunə kimi qəbul edin: bütün kitabları yandırın və problemlərin meydana çıxmasına uyğun olaraq, onların həlli yollarını müstəqil axtarıb tapmağı öyrənin.

Siz özünüzü əcdadlarınızdan və ya atanızın şəxsindən ayırdığınıza inana bilərsiniz, ancaq yaşınız artdıqda, özünüzün də bir vaxt ata olacağınızı, sizə qarşı da üsyan qaldırıla biləcəyini xatırlayaraq, daim sayıq olmalısınız. Mao Tzse Dun gəncliyində atası ilə yola getmirdi və atası ilə toqquşmaları ona öz şəxsiyyətini tapmağa və yeni dəyərlilər əldə etməyə kömək etdi. Ancaq vaxt keçdikcə, bu ziddiyyət, yavaş-yavaş silindi. Maonun atası fiziki əməyi əqli əməkdən daha mühüm hesab edirdi. Gəncliyində belə baxışlar Maonu hiddətləndirirdi, ancaq yaşı artdıqda, o, gizlincə atasının mövqeyinə yaxınlaşdı və onları qəbul etdi. Mao Çin ziyalılarının bütöv nəslini əl əməyi ilə məşğul olmağa məcbur etdikdə, bu ideya böyük əks-səda verdi – bu, onun rejiminə baha başa gələn dəhşətli səhv idi. Yadda saxlayın: atanızın kabusu – sizin özünüzdədir. Sonradan sayıqlığı itirmək və keçmişin kabuslarına – atanıza, vərdişlərə, tarixə – gizlincə geri qayıtmağa və yenidən öz yerini tutmağa imkan vermək üçün illər sərf etməyə özünüzə imkan verməyin.

Nəhayət, sonuncu: XV Lüdovikin tarixçəsindən göründüyü kimi, mövqeyimiz təhlükəsizliyimizi və hakimiyyətimizi təmin edən vaxt, bolluq və firavanlıq bizi tənbəl və passiv edir, onda biz-

də fəaliyyət üçün stimul (maraq oyadıcı amil) olmur. Bu, xüsusən erkən yaşlarda uğura və hakimiyyətə nail olanlar üçün ciddi təhlükədir. Məsələn, dramaturq Tennessi Uilyams erkən məşhur oldu. «Şüşə heyvanxana» pyesinin uğuru sayəsində onun şöhrəti, qaranlıqdakı raket kimi gözlənilməz oldu. O, sonralar yazırdı: «Bu gözlənilməz uğura qədər keçirdiyim həyat qənaət etməyi tələb edirdi, həmin həyatda güc-bəla ilə dolanmaq üçün var qüvvə ilə çabalamalı olurdum, ancaq insan orqanizmi məhz buna uyğunlaşdığına görə, o, yaxşı həyat idi. Bu mübarizə keçmişdə qalana qədər, ona nə qədər həyat enerjisi sərf etdiyimi hiss etmirdim: nəhayət, sabahkı günə inam əldə etdim, oturdum, ətrafıma baxdım və qəfildən çox kədərləndim». Uilyams, bəlkə də onun üçün zəruri olan sarsıntı keçirtdi: nəticədə düşkünlük vəziyyətinə, psixoloji pozğunluq həddinə enərək, o yenidən qüvvəsini topladı və yaza bildi. «Arzu Tramvayı» əsəri meydana çıxdı.

Belə ifratçılığa qapılmaq, əlbəttə ki, lazım deyildir. Tənbəllik və firavanlıqla yağ-bal içində üzməkdənsə, hər şeyi əvvəldən başlamağa psixoloji cəhətdən hazır olmaq ən yaxşısıdır. Pablo Pikasso uğurlarla yaşayırdı, ancaq öz yaradıcılıq üslubunu, bəzən məhz ona şöhrət qazandırmış şeylərdən tamamilə imtina edərək, daim dəyişirdi. Çox vaxt bizim erkən qələbələrimiz, sonra bizi, öz karikaturamıza çevirir. Güclü adamlar belə tələləri dərhal aşkar edirlər: Böyük İsgəndər kimi özü-özünü dəyişərək, daim hərəkətdə, mübarizədə olurlar. Atanın qayıtmasına imkan vermək olmaz, onu yolun hər bir mərhələsində məğlub etmək lazım gəlir.

OBRAZ:

ATA

O, uşaqlarını, hətta özünün ölümündən sonra da köləlikdə saxlayaraq, keçmişə bağlayaraq, gənc qəlblərini buxovlayaraq və özünün hərəkət etdiyi həmin darıxdırıcı yolla getməyə məcbur edərək, onların üzərinə nəhəng kölgə salırdı. O, müxtəlif hiylələrə qadirdir. Uşaqlar hər bir addımında atanı kənara itələməyə hazır olmalı və onun kölgəsindən kənara addımlamalıdır.

MÖTƏBƏR FİKİR

«Böyük adamın yolu ilə getməkdən çəkin – ondan yan keçmək üçün sənə iki dəfə artıq səy göstərmək lazım gələcəkdir. Kimlər izlə gedirsə, onları təqlidçi hesab edirlər. Nə qədər əziyyət çəkərək tər tökmələrindən asılı olmayaraq, onlar heç vaxt bu damğadan xilas ola bilməyəcəklər. Yeni istiqamət müəyyən etmək və onda kamilləşmək, şöhrətə yeni yol tapmaq asan deyildir. Təkraredilməzliyə çoxlu yollar gedir, heç vaxt adi yollar ora aparmır. Ən yenisi çətinliklə gedilə biləndir, ancaq məhz onlar böyüklüyə gedən ən qısa yol olur».

Baltazar Qrasian.

MEDALIN İÇ ÜZÜ

Böyük sələfin kölgəsindən tələ kimi istifadə edilərsə, ondan həm də üstünlük əldə etmək olar. Bu üsulla hakimiyyətə nail olduqdan sonra, onun izini məhv etmək lazım gələcəkdir. III Napoleon Fransanın birinci prezidenti, sonra isə imperatoru olmaq üçün öz babasının qardaşı Bonapart Napoleonun adından və əfsanəvi şöhrətindən istifadə etdi. Ancaq o, taxta çıxaraq, keçmişin kölgəsinə bir daha müraciət etmədi. O, özünün idarəetməsinin nə qədər kəskin fərqlənəcəyini dərhal göstərdi və böyük əcdadının ucalığına özünün nail olmağa cəhd edəcəyini adamların gözləməsinə heç bir əsas vermədi.

Keçmişdən çox vaxt həm də yüksək qiymətə layiq şeylər – özünü təsdiq etmək naminə kənara atılması ağılsızlıq olan keyfiyyət tapmaq olar. Hətta Makedoniyalı İsgəndər atasının sərkər-

dəlik istedadını etiraf edir və ondan öyrənirdi. Keçmiş illərin bütün yükündən nümayişkaranə şəkildə imtina etmək və ya yaşlı nəslin təcrübəsindən əsassız imtina edilməsi (uşaqlıq dövrünə xas olan xüsusiyyətlərin yaşlı adamlarda qalması), xüsusən əgər siz çıxmağa hazırlaşdığınız yeni yolu o qədər də aydın təsəvvür etmirsinizsə, bu müəyyən qədər müəmmalı görünərdi.

Avstriya imperatriçası Mariya Terezanın oğlu II İosif hər şeydə nümayişkaranə surətdə anasının əleyhinə gedirdi – o, adi adamlar kimi geyinir, saraylardan yan keçərək, «xalq imperatoru» obrazını yaradaraq, mehmanxanalara düşürdü. Mariya Terezanı, əksinə, şahanəlik və aristokratlıq fərqləndirirdi. Problem ondan ibarət idi ki, öz xalqı ilə birlikdə çətin yol keçərək, uzun müddət və ağılla hökmranlıq etmiş imperatriça bütün keyfiyyətləri ilə xalqın sevimlisi idi. Əgər siz axmaq deyilsinizsə və müəyyən intuisiyaya maliksinizsə, o, sizə düzgün istiqamət göstərəcək və sizin üsyankarlığınıza uğur təmin ediləcəkdir. Ancaq əgər siz, II İosif öz anası ilə müqayisədə olduğu kimi ortababsınızsa, ən yaxşısı böyüklərdən öyrənin, məzmunlu olan nəyəsə əsaslanmış sələflərinizin təcrübəsi və biliyindən istifadə edin.

Daha bir şeyə də fikir verin: gənclərə, özünüzün gələcək rəqiblərinizə nəzər salmaq lazımdır. Yaxın gələcəkdə gənclər sizə münasibətdə, sizin bütün nailiyyətlərinizi inkar edərək, indi siz atanızdan xilas olmağa cəhd etdiyiniz kimi özlərini aparacaqlar. Siz keçmişə qarşı üsyan etdiyiniz vaxt aşağıdan qalxanlardan gözlərinizi çəkməyin və onların da sizinlə belə davranmasına heç bir imkan verməyin.

İntibah dövrünün böyük rəssamı və arxitektoru Pyetro Bernini mümkün gənc rəqiblərini əla duyma qabiliyyətinə malik idi və onlara öz kölgəsinin hüdudlarından kənara çıxmağa imkan vermirdi. Bir dəfə gənc bənna Françesko Borromini özünün arxitektura eskizlərini ona göstərdi. Bircə baxışdan istedadı aşkar edən Bernini təxirə salmadan gənci özünə köməkçi götürdü. O, ustadın xeyirxahlığına heyran oldu, ancaq həqiqətdə bu, Berninin potensial rəqibini əlinin altında saxlaması, onu psixoloji cəhətdən işləyib hazırlaması və onda tam dəyərə malik olmama kompleksinin formalaşması üçün istifadə etdiyi hiyləgərlik idi. Əslində, Borrominin parlaq istedadına baxmayaraq, Bernini onu təcrübədə və məşhurluqda üstələyirdi. Borrominiyə qarşı tətbiq etdiyi üsuldan, o, bütün ömrü boyu istifadə etdi: məsələn, böyük heykəltəraş Alessandro Alqardininin onu kölgədə qoyacağından qorxaraq, işi elə qurdu ki, Alqardi heç bir iş tapa bilmədi və Berninin onu özünə köməkçi götürmək haqqında təklifindən sevinclə yapışdı. Berninin əleyhinə qalxan və böyük dünyaya çıxmağa cəhd edən hər hansı usta köməkçisi və ya köməkçinin karyerası məhv edilirdi.

KEŞİŞİ MƏĞLUB ETSƏN, DİNDARLAR DAĞILAR

QANUNUN MAHİYYƏTİ

Əksər hallarda fəlakətə bir güclü şəxsiyyət – asayişin qənimi, özündən müştəbeh, bambılı, boşboğaz səbəb ola bilər. Bu cür insanlara fəaliyyət sahəsi yaratsanız, başqa insanlar onların təsiri altına düşəcəkdir. Vurulan ziyanın böyüməsini gözləməyin və onlarla ümumi razılığa gəlməyə cəhd etməyin. Cəmiyyətdən təcrid etməklə və qovmaqla onların təsirini neytrallaşdırın. Asayişi pozan şəxsi təcrid etməklə, onun əhatəsində olan insanları dağıtmaq mümkündür.

QANUNA RİAYƏT EDİLMƏSİ (1)

Bizim eradan əvvəl VI əsrin sonuna yaxın Afina şəhər-dövləti siyasət sahəsində onilliklər ərzində parlayan bir sıra xırda müstəbidlərin təcavüzünə məruz qaldı. Bu qayda Afinaya

PERUNUN İSTİLA OLUNMASI

İnklər dövlətinin hakimi Ataualpı daşıyan təxti-rəvan ətrafında gedən mübarizə daha da gücləndi. Bu toqquşmalar daha kəskin şəkil alır və hökmdarı müdafiə edən bir çox zadəganların öldürülməsindən sonra müstəbid devrilir. Hindu monarxını yüksəklikdən aşağı tulladıqları zaman Pissaro və onun zabitlərindən bir neçəsi onu tutmasaydılar, yəqin ki, o, həlak ola bilərdi. Əsgər onun xətbaşından imperator sarğısını çıxartdı və zavallı hökmdar keşikçilərin müşayiəti ilə qonşu binaya aparılaraq, əsir

hakimiyyət və ən şərəfli qalibiyyət ilə fəthlər bəxş edən yüzillik demokratiyanı əvəz etdi. Lakin demokratiyanın inkişaf tərzi ilə afinalılara olan münasibət də müzakirə probleminə çevrildi: düşmənlərlə əhatə olunmuş şəhərin mənafeyini düşünməyən, ümumi məqsədlərə xidmət göstərməyən, şəxsi ambisiyalarını, kiçik fitnə-fəsadları və özünü düşünərək, Afinanın çiçəklənməsinin qayğısına qalmayan afinalıların aqibəti müəmmalı idi. Afinalılar bu cür insanlara imkan verildiyi təqdirdə, onların münaqişə yaradaraq, şəhəri ayrı-ayrı qruplara bölməklə narahatlıq yaradacaqlarını dərk edirdilər. Bu isə, demokratiyanın məhvinə səbəb ola bilərdi.

Sərt cəza tədbirləri Afinada təşəkkül tapmış yeni sivil qaydalara münasib deyildi. Onları cəmiyyət əleyhinə davranışı ilə fərqlənən vətəndaşlarla davranmağın daha yumşaq cəza üsulu əvəz etdi. Afinanın bütün sakinləri ildə bir dəfə bazar meydanında toplanırdılar. Onlardan hər biri gildən hazırlanmış lövhəni götürərək, onun üzərində 10 il müddətinə şəhərdən qovulması zəruri olan insanın adını qeyd edirdilər. 6000 lövhənin üzərində eyni insanın adı həkk olunduğu təqdirdə, onun şəhərdən qovulması qaçılmaz idi. 6000 saylı səs çoxluğu əldə olunmadığı halda, bu cəza maksimal səs çoxluğu toplamış şəxsə qarşı tətbiq olunurdu. Mərasim şəklində həyata keçirilən bu sürgün bayram şəklini almağa başladı. İnsanlar cəmiyyətə qul-

luq etməkdənsə, onu idarə etməyi arzulayan özündən müştəbeh ünsürlərin şəhəri əbədi olaraq tərk etmələrinə həddən artıq sevinirdilər.

Bizim eradan əvvəl 490-cı ildə Yunanıstan tarixində ən dahi sərkərdələrdən biri olan Aristid Marafon yürüşü zamanı farslara qarşı yönəlmiş qalibiyyət vuruşlarından birində iştirak etmişdi. O, sülhün bərqərar olduğu dövrdə hakim vəzifəsini icra edərək, işə vicdanlı münasibəti və haqq-ədalət carçısı kimi fəaliyyət göstərdiyinə görə Ədalətli-Yust adlandırılmışdı. Lakin illər ötdükcə, afinalıların ona qarşı münasibəti dəyişərək, qərəzçilik mövqeyi daşımağa başladı. Onu əhatə edən şəxslərin qənaətlərinə görə, nöqsansız olması ona digərləri üzərində üstünlük əldə edən və adi insana qarşı nifrət ifadə edən görkəm verirdi. Onun Afina siyasətində hakim olan fəal mövqeyi dözülməz şəkil almağa başladı. Vətəndaşlar onun adını eşitməkdən zinhara gəlmişdi. Onlar Yustun cəmiyyətdə ciddi münaqişələrə səbəb olan özündən müştəbeh, mühakiməli insan olmasından ehtiyat edirdilər.

Bizim eramızdan əvvəl 482-ci ildə farslarla müharibə aparmaq üçün Aristidin təcrübəsinin vacibliyinə heç bir məhəl qoymayan afinalılar, ostrakonları toplayaraq, onu sürgün etdilər.

Astrid sürgün olunduqdan sonra şəhərdə

sərkərdə Femistokl oldu. Lakin qazanılan qələbələr və xidmətlər onu məst etdi. O, afinalılara tez-tez hərbi zəfərlərini, inşa etdirdiyi məbədləri, dəf etdiyi təhlükələri xatırlatmağa başladı. Onun sözlərindən, o olmazsa, şəhərin məhvi məlum olurdu. Ən nəhayət, bizim eradan əvvəl 472-ci ildə Femistoklun adı ostrokonların üzərində həkk olundu və şəhər onun varlığından azad oldu.

V əsrdə Afinada ən məşhur siyasi xadim, şübhəsiz ki, Perikl idi. O, bir çox hallarda ostrakizmə məruz qalma təhlükəsi ilə qarşılaşsa da, xalq ilə sıx əlaqəni qoruyub saxlayaraq, bu cəzadan yayınmağa müvəffəq olmuşdu. O, uşaqlıqda əziz müəllimi Damondan dərs almışdı. Damon Afina sakinlərindən ağlı, musiqi istedadı və natiqliyi ilə üstün idi. Məhz Damon Perikli hökmranlıq etməyə öyrətmişdi. Lakin o da, öz növbəsində, təkəbbürlülüyü və adi insanlara qarşı təhqiredici münasibəti nəticəsində ostrakizmə məruz qaldı.

Əsrin sonlarında Hinerbol adlı şəxs yaşayırdı. Müasirləri onu şəhərdə ən gərəksiz insan kimi təsvir edirdilər. İnsanların ona qarşı münasibəti onu narahat etmirdi. Hinerbol xoşlamadığı insana asanlıqla şər, böhtan ata bilərdi. Bu, bəzilərini əyləndirsə də, sakinlərin bir çoxunu qıcıqlandırırdı. Hinerbol bizim eradan əvvəl 417-ci ildə cəmiyyəti o dövrün iki aparıcı siyasi xadimi olan – Alkiviad ilə Nikiyanın əleyhinə qaldırmaq im-

alındı. Bundan sonra bütün müqavimət cəhdləri dəf olundu. Ali ink (Ataulp) üzərində qələbə xəbəri bütün şəhərə və ölkəyə yayıldı. Hinduları toplayan ovsunlar pərən-pərən oldu. Hər bir şəhər sakini həyatının xilası barəsində düşünürdü. Hətta ink döyüşçüləri də qorxularından qaçmağa üz tutdular. Qalib döyüşçülər onları izləyir, qaçanlara aman vermirdilər. Qaçqınlardan sağ qalanları gecə gizlənməyə nail oldular. Pissaronun pərən-pərən olmuş dəstələri şeypurun səsinə qanlı Kaxamarka meydanında toplandılar... Ataualp haqqında insana deyil, tanrıya xas olan sitayişlə danışırdılar. Daha dövlətin hökmdarı olmasa da, ona bütün siyasi quruluşun bünövrə daşı kimi baxırdılar. Bu bünövrə daşı onun ağırlığı altında dözməyib, parça-parça olmuşdu. Ataualpın edamından sonra da bu cür oldu. Onun taxt-tacının uzun illər sahibsiz qalması, vəliəhdin olmaması, məhz hökmdarın ölümü hakimiyyətin daha zalım və güclü «pəncənin» altında qalmasına və Günəşin Uşaqları sülaləsinin kökünün kəsilməsinin əbədiliyindən xəbər verirdi.

Uilyam X. Preskott, «Perunun istilası» 1847.

kanını gördü. O, bu xadimlərdən birinin ostrakizmə məruz qalacağına və bununla da onun yerinə sahib olacağına ümid edirdi. Onun qurduğu tələ heç bir maneə ilə qarşılaşmırdı: afinalıları Alkiviadın qayğısız həyat tərzi, Nikiyanın isə ehtiyatlılığı və insanlara mənfi münasibəti cana gətirmişdi. Hər şey bu xadimlərdən birinin ostrakizmin qurbanı olacağına işarə edirdi. Lakin Alkiviad və Nikiya bir-birinə düşmən olsalar da, bütün qüvvələrini səfərbər edib, Hinerbolu ictimai müzakirə obyektinə çevirə bildilər. Onlar Hinerbolu sürgün etməklə tərbiyə etməyin mümkün olduğuna xalqı inandırmışdılar.

Ostrakizmin əvvəlki qurbanları güclü, görkəmli şəxsiyyətlər idi. Afinalılar təlxək Hinerbolu cəzalandırmaqla, ostrakizmin düzgün üsul olmadığını dərk etdilər. Onlar Afinada, demək olar ki, yüz il sülhün bərqərar olmasına yardım edən bu təcrübəyə son qoydular.

İZAHI

Qədim Afinanın sakinləri müasirlərimizə məlum olmayan sosial instinktlərə malik idilər. Vətəndaşlar sözün hərfi mənasında cəmiyyətəzidd davranışdan irəli gələn təhlükəni hiss edirdilər. Onlar bu cür davranışın digər formalarda tez-tez təzahür etdiyini yaxşı görürdülər: «mən hamıdan yaxşıyam və düzgünəm» mövqeyi ətrafdakı insanlara öz standartlarını məcburən qəbul etdirməklə, cəmiyyətin maraqlarına ziyan vurmasına, təmin olunan şöhrətpərəstliyə, üstünlük kompleksinə, fitnəkarlığın, özünü cəmiyyətə qarşı qoymağın müxtəlif növlərini təcrübədən keçirməklə, davranış növlərindən bəzilərinin qruplaşmaların əmələ gəlməsinə şərait yaradaraq ixtilaf salır, digərləri isə, vətəndaşları bir-birinə paxıllığa məcbur edərək, cəmiyyətin demokratik qanunlarını pozurdular. Bütün bunlar şəhərin firavan həyat tərzinə məhvedici təsir göstərirdi. Afinalılar özlərini belə aparan insanları tərbiyə etməyə cəhd göstərmirdilər. Onlar bu cür insanlara qarşı kəskin cəza tədbirləri də tətbiq etmirdilər. Bunun

kimi yanaşma üsulları yeni problemlərin meydana çıxmasına səbəb ola bilərdi. Çıxış yolu sadə və etibarlı idi: onlardan xilas olmaq.

Hər bir qrupun tərkibində xoşagəlməz halların mənbəyini – daima müxalifətdə dayanaraq, cəmiyyəti xəstə mülahizələrinə yoluxduran bədbəxt, xroniki baxımdan təmin olunmamış insanı aşkar etmək və izləmək mümkündür. Özünüzə baş verənlər haqqında hesabat verməyə macal tapmamış, narazılıq ilə fikir ayrılığı şaxələnməyə başlayır. Xoşagəlməz hadisələrin düyününü açmaq mümkün olduğu halda, ədalət nümayiş etdirməyin. İlk növbədə, asayişi pozan ünsürləri müəyyən edin. Onları tanımaq çətin deyildir. Onların təkəbbürlü və müştəbeh görkəmi diqqətinizi cəlb edəcəkdir. Onları aşkar edərkən onları tərbiyə etməyə və yaxud onlara güzəştə getməyə cəhd göstərməyin. Bu ümumi işə ziyan vura bilər. Onlara hücum etmək də mənasızdır. Belə ki, onlar təbiətcə təcavüzkar olduqları üçün təhlükəlidirlər, sizi tamamilə məhv edənə kimi sakitləşməyəcəklər. Afinalılar kimi hərəkət edin: onlardan xilas olun. Yoxsa gec olar. İxtilaf salmağa macal tapmamış, onları qruplardan uzaqlaşdırın, münaqişə yaratmağa, həyəcan toxumu səpməyə, əl-ayaq açmağa imkan verməyin. Cəmiyyətin rahat yaşaması üçün bir nəfərin ziyana uğraması qəbul ediləndir.

Ağaclar sınanda, meymunlar qaçırlar.
Çin atalar sözü

QANUNA RİAYƏT OLUNMASI (2)

1294-cü ildə katolik kilsənin kardinalları yeni Papanı seçmək üçün Romada toplandılar. Onlar güclü, zalım və çox fərasətli kardinal Qaytanini seçməyi qərara aldılar. Bu cür Papa Vatikana böyük hakimiyyət bəxş edə bilərdi. VIII Bonifasiya adını qəbul edən Qaytani tezliklə kardinal-

ların onun haqqında mühakimələrinin doğru olduğunu sübuta yetirdi: o, bütün əməllərini mükəmməl şəkildə planlaşdırdıqdan sonra məqsədlərinə nail olurdu. Hakimiyyətə sahib olan Bonifasi tezliklə əleyhdarlarından xilas olaraq, Papa vilayətini birləşdirdi. Yeni Papanın siyasəti qarşısında aciz olan Avropa hökmdarları danışıqlar üçün elçilər yollamağa başladılar. Avstriya hökmdarı kral Albrext ərazisinin bir hissəsini papalığa peşkəş verdi. Bonifasiyanın planı nəzərdə tutulduğu qaydada həyata keçirildi.

Yalnız bir bənd sxemdən kənara çıxırdı. Bu İtaliyanın zəngin əyaləti – Toskana idi. Bonifasi Toskananın ən güclü şəhəri Florensiyanı ələ keçirməyə çalışırdı. Bu, bütün regionun məğlub olması demək idi. Lakin Florensiya müstəqil olduğundan, onun işğal olunması mürəkkəb şəkil alırdı. Papa hər bir gedişini mükəmməl şəkildə düşünməli olurdu.

Florensiya iki rəqib qruplaşmaya – Ağlara və Qaralara bölünmüşdü. Ağlara şəhər sakinlərinin ailələri – var-dövlətə və hakimiyyətə sahib olmuş tacirlər aid idilər. Qaralar isə, əsrlərlə toplanan sərvətin sahibi olan kübar zadəganlar idilər. Ağlar xalq arasında daha şöhrətli olduqlarına görə, üstünlük təşkil edirdilər. Bu, Qaralara xoş gəlmirdi. Qruplaşmalar arasındakı düşmənçilik daha kəskin şəkil almağa başladı.

Bonifasi bundan maraqları naminə fayda-

QURDLAR VƏ QOYUNLAR

Bir dəfə qurdlar qoyunların yanına elçi göndərərək, sülhü bərqərar etmək arzularını bildirdilər: «Biz nə üçün düşmənçilik etməliyik? Bütün bədbəxtliklərin səbəbi quduz itlərdir: onlar hürməklə bizi qıcıqlandırırlar. Onları rədd etsəniz, heç kim bizim əbədi dostluğumuza mane ola bilməz». Axmaq qoyunlar itləri qovdular və ən yaxşı müdafiəçilərdən məhrum olmuş sürü düşmənlərinin şikarına çevrildi.

Ezop (b.e.ə. VI əsr), «Təmsil».

lanmağı qərara aldı: o, Qaralara şəhəri işğal etməyə köməklik göstərdi. Belə gediş Florensiyanın süqutunu yaxınlaşdırırdı. Onun diqqətini daha çox məşhur ədib, şair, Ağların etiqadlı tərəfdarı, güclü rəqib Dante Alqiyeri cəlb etdi. Dante həmişə siyasətlə maraqlanırdı. O, respublikaya böyük ehtirasla inanırdı və həmşəhərliləri iradəsizliklərinə görə tənqid edirdi. O, şəhərdə ən gözəl natiqlərdən biri idi. 1300-cü ildə Bonifasi Toskana ilə bağlı planlarını həyata keçirməyə başladı. Dantenin məsləkdaşları onu Toskananın ali vəzifəsinə şəhərin 6 priorilərindən biri seçdilər. Dante vəzifəsini 6 ay icra etdiyi müddətdə özünü Qaraların ən qatı düşməni kimi aparır və Papa ilə onun tərəfdarlarının şəhərdə münaqişə yaratmaq cəhdlərini dəf edirdi.

1301-ci ildə Bonifasi başqa plan tərtib etdi: o, Fransa kralının qüdrətli qardaşı Karl Valuadan Toskanada qayda-qanun yaratmağa kömək etməyə çağırdı.

Karl Şimali İtaliya boyu hərəkət edənə kimi Florensiya qorxu və təlaş içində yaşayırdı. Dante dərhal özünü insanları birləşdirməyi bacaran insan kimi göstərdi. O, işğalçılara yardım etmək siyasətinə qarşı üsyan edərək, Papa və onun əlaltısı – fransız şahzadəsinin əleyhinə müqavimət dəstəsi təşkil etməyə, şəhər sakinlərini silahlandırmağa başladı. Bonifasiyə nəyin bahasına olursa-olsun, Danteni neytrallaşdırmaq lazım idi. Buna görə də, o, Florensiyada Karl Valua qoşununun yaxşılaşması ilə bağlı qorxu-həyə-

FEMİSTOKLUN HƏYATI

Şəhər sakinləri Femistoklun müxtəlif iftiralarına inandıqlarına görə, Femistokl xalq məclisində xidmətləri haqqında danışmağa məcbur idi. O deyirdi: «Siz nə üçün eyni insanlardan bir neçə dəfə yaxşılıq görməkdən yorulursunuz»? O, Artemid məbədinin inşa olunması zamanı məsləhətlər verməklə yanaşı, onu Melit əyalətindəki evinin yanında tikdirmiş və şəhər sakinlərinə növbəti xidmətləri haqqında məlumat verərək, onları bezdirirdi. Bütün bu hərəkətlərə görə Femistoklu ostrakizmə məruz qoyaraq, onun

can təbili çalaraq, o biri əli ilə Danteni tələyə salmaq məqsədilə danışıqların aparılması təklifini irəli sürdü. Florensiya Roma nümayəndə heyətini göndərməyi və sülhə nail olmağı qərara aldı. Nümayəndə heyətinə Dante rəhbərlik edirdi.

Nümayəndə heyəti üzvlərindən biri Danteyə bunun Papanın məkrli tələsi olması haqqında xəbərdarlıq etdi. Lakin Dante Romaya yollandı. Fransızların qoşunları Florensiyaya çatan kimi Dante Romaya daxil oldu. O, Papanı şəhəri xilas edəcəyinə inandırmağa çalışırdı. Lakin Papa nümayəndə heyətini zəhmlə qarşıladı. «Diz çökün – deyə o bağırdı – mənim iradəmə zidd getməyin! Mən sizə səmimiyyətlə sülh arzuladığımı bəyan edirəm». Papanın heyrətli və qorxunc səsindən qorxan florensiyalılar Papanı dinləyir, o isə öz növbəsində florensiyalıların maraqlarını qoruyacaqlarına vəd verirdi. O, nümayəndələrə danışıqlar üçün bir nəfəri qoyaraq geriyə qayıtmağı tövsiyə etdi. Bonifasi danışıqlar üçün Dantenin qalmasının zəruri olduğunu söylədi. O, bu dəfə, daha nəzakətlə danışır, söylənənlərin əmr olduğuna heç bir şübhə qoymurdu.

Dante Romada qaldı. Papa ilə Dante danışıqlar aparana kimi Florensiya süqut etdi. Ağları səfərbər edən tapılmadı. Kral Valua qorxutmaq və satın almaq məqsədilə, Papanın maliyyə yardımından istifadə edərək, Ağların rabitəsini qırmağa asanlıqla nail oldu. Onlardan bir qismi danışıqlara razılaşdılar, digərləri isə əks tərəfə keçdilər. Papa Qaraların mövqelərinin güclənməsi haqqında

nüfuzu ilə mövqeyini məhv etmək qərarına gəldilər. Belə ki, afinalılar qüdrəti möhtəşəm və demokratik bərabərlik ilə uzlaşmayan şəxsiyyətlər ilə bu cür davranırdılar.

Plutarx (təxminən 45–127-ci illər) «Femistoklun tərcümeyi-halı».

xəbər alaraq, Danteni Romadan Florensiyaya göndərdi.

Qaralar Danteyə evə qayıtmağı əmr etdilər. O, orada ona qarşı irəli sürülən ittihamlardan xəbər tutmalı və məhkəmə qarşısında ittiham olunmalı idi. Şair imtina etdi. O zaman Qaralar onun Florensiya torpağına qədəm qoyan kimi edam olunması haqqında hökm çıxardılar. Dante doğma şəhərindən sürgün olunaraq, bütün İtaliya boyu səfil mühacir kimi dolaşmağa başladı. O, ölümündən sonra da Florensiyaya qayıtmadı.

İZAHI

Bonifasi Danteni uzaqlaşdırdıqdan sonra Florensiyanın məğlub olacağını bilirdi. O, eyni zamanda qorxutmaq və sülh təklif etməklə kələk gəldi. Dante tələyə düşdü. Danteni Romaya gətirən Papa niyyətlərini həyata keçirənə kimi şairi şəhərdə saxlamağa müvəffəq oldu. Bonifasi hakimiyyət oyunlarının vacib prinsiplərindən birindən yaxşı xəbərdar idi: bir iradəli insan itaətcil qoyunları aslanlara çevirə bilər. Buna görə də, o, asayişi pozan ünsürü kənarlaşdırmağı bacardı. Başçısını itirmiş qoyunlar sürüsü pərən-pərən oldular.

Zərbə endirməyə vaxt itirməyin. Güclü iradəyə, dərin ağıla malik insan tapın. Onu uzaqlaşdırmağı bacarın: o, uzaqda olduğu zaman zəifləyəcəkdir. Kənarlaşma fiziki (sürgün, saraydan kənarlaşdırma), siyasi (siyasi və maliyyə yardımının məhdudlaşdırılması) və yaxud psixoloji (onun böhtan və iftiranın köməyi ilə məsləkdaşlarının qrupundan ayrılması) ola bilər. Xərçəng xəstəliyi yeganə hüceyrədən başlanır. Bu hüceyrəni kənarlaşdırmaqla, xəstəliyin qarşısını almaq mümkündür.

Keçmişdə əyanları kral idarə edirdi. Hakimiyyətə yalnız kübarlar hakim olurdular. Zaman keçdikcə hakimiyyət daha demokratik və parçalanmış oldu. Bu, yanlış təsəvvürlər yaratsa da, qruplaşmalar mərkəzləşmiş hakimiyyətə malik olmurlar. Belə ki, hakimiyyət insanlar arasında bərabər qaydada paylanır. Nəticədə isə, hakimiyyət kəmiyyət dəyişikliyinə məruz qalaraq, mahiyyət etibarilə dəyişməz qalır. Çox güman ki, milyonların taleyini həll edən qüdrətli müstəbidlərin sayı da çoxalırdı. İndiyə kimi kiçik malikanələrində hökmranlıq edən minlərlə istibdadçı mövcuddur. Hər bir qrupda hakimiyyət bir-iki nəfərin əlində toplanmışdır. Çünki bu insan təbiətinin dəyişməz qaldığı sahələrdən biridir: insanlar günəş ətrafında toplanan planetlər kimi güclü şəxsiyyət ətrafında cəmləşirlər.

Bu cür mərkəzləşmiş hakimiyyətin mövcud olması haqqında yanlış mülahizələr irəli sürməklə, enerjini əbəs yerə sərf edərək, bitib-tükənməyən səhvlər etmək mümkündür. Güclü insanlar vaxtlarını əbəs yerə itirmirlər. Onlar hakimiyyətin bir çox insanlar arasında bölünməsinə inansalar da, qrupun imtiyazlı üzvlərinin fəaliyyətini diqqətlə müşayiət edirlər. Hər şey məhz onlardan asılı olur. Xoşagəlməz hadisələr baş verdiyi zaman, onun əsasını təşkil edən səbəbləri axtarmaq və təlatümü sakitləşdirmək üçün təcrid olunması zəruri olan güclü şəxsiyyəti ümumi səhnədən kənarlaşdırmaq lazımdır. Həkim Milton X.Erikson ailə psixoterapevti kimi işləyərək, ixtilafın və xoşagəlməz halların mövcud olduğu təqdirdə, buna səbəb olan bir nəfərin aşkar olunmasının qaçılmaz olduğunu aşkar etmişdir. O, seanslarında rəmzi olaraq «çürük almanı» təcrid etməklə, onu qalan almalardan kənarda – 1–2 metr aralıda basdırmışdır. Ailənin digər üzvləri onlardan kənarlaşdırılmış insanı problemlərinin mənbəyi hesab edirdilər. Asayişi pozan şəxsi aşkar etdikdə, tədbir görmək çox vacibdir. Qrupda baş verən hadisələri kimin idarə etdiyini də dərk etmək əhəmiyyətlidir. Qrupun digər üzvləri arxasında gizlənərək, şübhəli hərəkətlərini digərlərinin reaksiyası ilə pərdələyən bu cür insanların dirçələcəyini unutmayın. Onların əməllərini ifşa edin. Belə olan təqdirdə, onlar asayişi pozmağa və insanları tarazlıqdan çıxarmağa müvəffəq olmayacaqlar.

Strateji oyunların əsas elementi düşmən qüvvələrinin təcrid olunmasından ibarətdir. Şahmat oyunu zamanı şahı küncə sıxmağa çalışırsınız. Çin dama oyununda isə, oyunçunun əsas vəzifəsi – düşmənin damalarını hərəkətsizləşdirməyə xidmət edir. Düşməni məhv etməkdənsə, onu təcrid etmək daha məqbuldur. Hakimiyyət oyunlarında təcrid olunma ölümə bərabər sayıldığından, siz simanızı itirməyəcəksiniz.

Təcrid olunmanın ən effektiv forması – qurbanı hakimiyyətin əsaslarından ayırmaqdan ibarətdir. Mao Tszedun düşməni hakim kübar zümrədən təcrid etməyə çalışdığı zaman onunla bilavasitə razılığa girməyə çalışırdı. O, düşmənin məsləkdaşlarını ayırmaqla, düşməni təcrid etməyin üzərində işləyərək, onu dəstəkləyən şəxslərin sayını ixtisara salmağa çalışırdı. Nəticədə, düşmən səhnəni özbaşına tərk edirdi.

Hakimiyyət oyunlarında fiziki baxımdan iştirak etmək və pərdə arxasında gizlənməmək gərəkdir. Elmi qanunlardan biri olan məftun etmə, bu prosesin erkən mərhələlərində yaxınlıqda olduğunu nümayiş etdirməyin vacibliyini elan edir. Siz tez-tez uzaqlaşdıqda, ovsunlar yoxa çıxır. Kraliça Yelizavetanın baş naziri Robert Siselin iki əsas rəqibi var idi: kraliçanın oynaşı qraf Esseks və keçmiş oynaşı ser Uolter Reyli. Nazir onlara tapşırıq verərək, hər ikisini İspaniyaya göndərdi. O, oynaşları kraliçadan kənarlaşdırmaqla, onların kraliçaya təsirinin zəifləməsinə müvəffəq oldu. O, ali müşavirin mövqeyini qarmaqları ilə məngənəyə saldı. Bu epizoddan ikili məntiq əldə etmək mümkündür. Birinci məntiq: sizin saraydan kənarlaşmağınız, sizin üçün təhlükəlidir. Buna görə də, siz məsuliyyətli anlarda heç bir vəchlə səhnəni tərk etməməlisiniz. Sizin yoxluğunuz hakimiyyətinizə son qoya bilər. İkinci məntiq: rəqiblərin vaxtlı-vaxtında səhnədən kə-

narlaşdırılması – güclü gedişdir.

Təcrid etmə üsulunu digər strateji məqsədlər ilə də tətbiq etmək mümkündür. Siz insanları cazibə ilə cəlb etmək niyyətinə düşsəniz, onların uyğunlaşdıqları sosial mühitdən kənarlaşdırılması zəruridir. Onlar təcrid olunarkən, daha da zəiflədikləri üçün, sizin gəlişiniz ikiqat səmərə verə bilər. Fırıldaqçılar qurbanlarını bu üsulla tanış mühitdən ayıraraq, onları qane etməyən şəraitdə yerləşdirməyə çalışırlar. İnsanlar bu cür vəziyyətdə daha da zəifləyərək, asanlıqla aldanırlar. Beləliklə, təcrid olunma insanların iradəsinin qırılmasının ən güclü vasitəsi ola bilər.

Özünü kollektivdən ayıran nüfuzlu, güclü insanlara tez-tez rast gəlmək mümkündür. Çox güman ki, hakimiyyət onları məst edərək, özlərini ali varlıq zənn etməyə vadar etmiş və onlar adi insanlar ilə ünsiyyətə girmək bacarığını itirmişlər. Unutmayın: bu, onları daha da zəiflədir. Bu cür insanlar qüdrətli olsalar da, mövqelərini və sərvətlərini asanlıqla itirə bilərlər.

Çobana zərbə vurduqda, bu, qoyunları qorxuda bilər. Fernando Kortes ilə Fransisko Pissaro qoşunları ilə ayteklər və inklərin imperiyasına hücum etdikləri zaman, bütün cəbhələrdə döyüşlər keçirmək səhvindən qaçaraq, düşmən qoşunları ilə rastlaşdıqları təqdirdə də qorxmamışdılar. Onlar krallar Montesuma və Ataualpı ələ keçirdikdən sonra əsas zərbə vurdular. Qüdrətli imperiyalar süquta uğradılar. Rəhbərlər əsir alındıqdan sonra həyatın mənası itdi. Ətrafında bütün hadisələrin, dövlətin dövran etdiyi mərkəzi ox itdi və bütün dövlət quruluşu dağıldı. Düşmənin liderlərini hədəfə çevirərək, onları devirin. Daha sonra düşmənin sıralarında baş verən münaqişələri müşahidə edərək, bu zəmində meydana çıxan saysız-hesabsız imkanlardan istifadə edin.

OBRAZ:

PİYLƏNMİŞ QOYUN SÜRÜSÜ

Qiymətli vaxtınızı bir-iki qoyun oğurlamağa sərf etməyin. Sürünü qoruyan quduz itlər ilə döyüşərək, həyat və sağlamlığınızı təhlükəyə məruz qoymayın. Çobanı hədəfə çevirin. Onu qovmağa müvəffəq olsanız – itlər də onu müşayiət edəcəklər. Onları məğlub edin – sürü pərən-pərən düşəndən sonra isə, siz, qoyunları tək-tək məhv edə bilərsiniz.

MÖTƏBƏR FİKİR

«Yayı var qüvvə ilə dart. Oxun ən uzununu seç. Atlını öldürməzdən əvvəl onun atını nişan al. Quldurları məğlub etmək üçün onların başçısını əsir götür. Dövlətin sərhədlərinin həddi olduğu kimi, insanları qətlə yetirərkən də, hədd-hüdud olmalıdır. Düşmənin hücumunu dayandırmaq mümkün olduğu zaman, onların başçısını öldürmək lazımdır. Burada qoşunun məhv edilməsi lüzumsuzdur».

Çin şairi Du Fu,
Tan sülaləsi, VIII əsr.

MEDALIN İÇ ÜZÜ

«Hər bir insana elə bir tərzdə ziyan vurmaq lazımdır ki, o, qisas almaq niyyətinə düşməsin». Bu kəlamın müəllifi Makiavellidir. Siz düşməni zərərsizləşdirməyə hazırlaşdığınız zaman onun bundan xəbər tutmasına və sizə eyni üsul ilə cavab verməsinə yol verməyin. Başqa sözlə desək, bu qanunu üstünlük mövqeyindən tətbiq edin. Lakin bunun müqabilində qisas və narazılığa məruz qalmayın.

Avraam Linkolnun davamçısı Endryu Conson nazirlər kabinetində Uliss S. Qrantın iştirakını arzuolunmaz hesab edirdi. Buna görə də, o, Qrantın hakimiyyəti tərk etməsini təkid edərək, buna müvəffəq oldu. Bu, generalı hiddətləndirdi və həmin gedişə cavab olaraq, respublika partiyasının formalaşması ilə məşğul olaraq, növbəti seçkilərdə qalib gəlib prezident oldu. Qrant kimi şəxsiyyətə ehtiyatla yanaşmaq daha tədbirli gediş olardı; bu,

onun qəzəbinə məruz qalmaqdan daha sərfəlidir. Bəzən düşmənin tərəfinə keçərək, onun hərəkətlərini müşahidə etmək, düşmən qazanmaqdan daha yaxşıdır. Siz onları əlaltında saxlamaqla daha da zəiflədərək, zamanı gəldikdə çox asanlıqla öhdəsindən gəlməyə nail ola bilərsiniz. Onların məğlubiyyəti tamamilə sürətlə və kəskin şəkildə baş verəcəkdir. Onlar hətta bunun səbəbini dərk etməyə macal tapmayacaqlar.

QIRX ÜÇÜNCÜ QANUN

SƏNİ ƏHATƏ EDƏN İNSANLARIN ÜRƏYİNİ VƏ AĞLINI FƏTH ET

QANUNUN MAHİYYƏTİ

Zorun doğurduğu reaksiya yekun nəticədə sizin əleyhinizə çevriləcəkdir. İnsanların sizi dəstəkləməsi üçün onları şirnikləndirməlisiniz. Sizə aludə olan insan sadiq xidmətçinizə çevriləcəkdir. İnsanları şirnikləndirmək üçün onların fərdi psixoloji xüsusiyyətlərindən və zəif tərəflərindən istifadə etmək lazımdır. Müqaviməti zəifl ədin. İnsanların duyğularına təsir edin. Onların qorxu hissi ilə oynayın. Ətrafdakıların ürək duyğuları və ağılları ilə hesablaşmasanız, onların nifrətini qazanacaqsınız.

QANUNUN POZULMASI

XV Lüdovikin hökmranlığı dövrünün sonunda bütün Fransa dəyişikliklər edilməsini səbirsizliklə gözləyirdi. Kralın varisi olan XVI Lüdovik on beş yaşlı Avstriya şahzadəsinə evləndiyi zaman fransızlar bu hadisədə ümid işartısı görürdülər. Gənc Mariya-Antuanetta gözəl idi və həyat eşqi ilə ya-

şayırdı. Onun meydana çıxması ilə XVI Lüdovikin dövründə eyş-işrət ilə məşğul olan sarayın ab-havası dərhal dəyişdi. Hətta Mariya-Antuanettanı bir dəfə də görməyə nail olmayan rəiyyət də ona müsbət münasibət bəsləyirdi. XV Lüdovikin oynaşları ilə məşuqələrinin əhatəsi fransızlarda narazılıq yaradırdı. Onlar yeni kraliçaya sədaqətlə xidmət göstərmək niyyətində idilər. 1773-cü ildə Mariya-Antuanetta ilk dəfə olaraq Parisin küçələrindən təntənəli şəkildə keçdi. Kütlə onu salamlayırdı. «Mən çox xoşbəxtəm, – o, anasına yazırdı, – mən heç bir cəhd göstərmədən xalqın etimadını və sevgisini qazandım».

1774-cü ildə XV Lüdovik vəfat etdi. Taxt-tac onun varisinə keçdi. Mariya-Antuanetta kraliça olduqdan sonra əyləncələrə rəvac verdi. O, bahalı zinət əşyaları sifariş edərək, tarixdə ən mürəkkəb və zərif saç düzümü kəşf edib (onun parikləri 1 metr hündürlükdə idi), balmaskaradlarsız keçinmirdi. O, bütün bunlara külli miqdarda pul vəsaiti sərf edərək, israfçılığa yol verir və borcları nə cür ödəyəcəyini düşünmürdü.

Mariya-Antuanettanın ən sevimli oyuncağı Kiçik Trianonda yerləşmiş Cənnət bağı idi. O, bu bağın yaradılmasına şəxsən nəzarət edirdi. Kiçik Trianon meşəlik ilə əhatə olunmuş Versal saraylarından biri idi. Kiçik Trianonun bağları memarın təxəyyülünə görə daha təbii təəssürat bağışlamalı idi. Hətta ağacların gövdələrində bağbanlar tərəfindən qoyulmuş mamıra da rast gəlmək olardı. Mariya-

KİR

Kir farsları Astiaqa xəyanət etməyə təhrikin yollarını düşünməyə başladı. Xeyli götür-qoy etdikdən sonra, Astiaqın adından namə tərtib edərək, farsların xalq məclisini təşkil etdi və həmin naməni açaraq, Astiaqın onu hərbi sərkərdə təyin etdiyini vurğuladı. O, nitq söyləyərkən: «Farslar, mən sizə oraq, yaba ilə silahlanaraq hüzurumda dayanmağınızı əmr edirəm» dedi. Farslar əmri icra etdikdən sonra, Kir gün ərzində müəyyən torpaq sahəsi hesablamağı əmr verdi (fars torpaqlarının 18 və yaxud 20 metri tikanlı alaq otları ilə əhatə olundu). Bu iş başa çatdıqdan sonra Kir növbəti gün farsların yuyunaraq, onun hüzuruna gəlmələrini əmr etdi. O, atasının bütün qaramalını toplayaraq, fars qoşunu üçün süfrə açmağı tapşırdı. O, külli miqdarda şərab və çörək ehtiyatını da toplamağı həvalə etdi. Növbəti gün Kir farslara çəmənlikdə nuş etməyi əmr verdi. Ziyafətdən sonra farslardan soruşdu: «Sizə dünən xoş gəldi, yoxsa bu gün»? Onlar cavab verdilər: «Bu günlər bir-

Antuanetta çoban həyatını idiliya şəklində təsvir edən bədii və ya musiqi əsərinin geniş vüsət almasına imkan yaradırdı; krallığın ən gözəl inəklərini sağmaq və otarmaq üçün kəndli qızlar saraya gətirildi; paltaryuyan qadınlar ilə pendirtutanlar kraliçanın eskizlərinə əsasən tikilmiş kəndli paltarları geyinirdilər; çoban qızları quzuları boyunlarında ipək ləçəklər ilə otarırdılar. Bəzən Mariya-Antuanetta tövləyə girərək, bəzənmiş qızların sağılmış südü kralın dulusçuluq emalatxanalarında hazırlanmış qiymətli qablara nə cür tökdüklərinə baxırdı. Kraliça asudə vaxtlarında Kiçik Trianonun yaxınlığında yerləşən meşədə çiçək toplamağı, mehriban «kəndlilərin» işlərini necə sevinclə yerinə yetirmələrini müşahidə etməyi çox xoşlayırdı. Bu yer ətraf mühitdən təcrid olunmuş əfsanəvi aləm, onun əhalisi isə seçilmiş insanlar idi.

Kraliçanın hər yeni şıltaqlığı nəticəsində Kiçik Trianonun saxlanmasına sərf olunan məsrəflər artmağa başladı. O vaxtlar Fransada baş verən real hadisələr öz axarı ilə gedirdi: aclıq, səfalət, artan qəzəb hissi müşahidə olunurdu. Hətta sosial proseslərə laqeyd olan əyanlar arasında da narazılıq hökm sürürdü. Kraliça onlarla uşaq kimi davranır, ancaq getdikcə sayı azalan istəkli adamları ilə hesablaşırdı. Lakin bütün bunlar Mariya-Antuanettanı narahat etmirdi. O, hökmranlığı ərzində heç bir nazirin məruzəsini dinləməmişdi. İnsanların etimadını qazanmaq üçün bir dəfə də olsun, əyalətlərə səfər etməmiş, Paris sakinləri ilə görüşməmiş, onların nümayəndə heyətini qəbul et-

məmişdi. İnsanların onu sevməyə borclu olduqlarını, kraliçanın isə xalqa cavab olaraq qarşılıqlı məhəbbət bəsləməsinin zəruri olmadığını hesab edirdi.

1784-cü ildə kraliça qalmaqalın iştirakçısına çevrildi. Avropada ifşa olunan fırıldaqçılıq əməlində onun da adı hallanırdı: fırıldaqçılar Mariya-Antuanettanın adından çox qiymətli almaz boyunbağı əldə etmişdilər; məhkəmə prosesində onun həyat tərzinin xüsusiyyətləri hamıya məlum oldu. İnsanlar kraliçanın qiyafəsinə, qiymətli zinət əşyalarına, bal-maskaradlara nə qədər pul vəsaiti sərf etdiyindən xəbər tutdular. Kraliça Madam Defisit ləqəbini qazandı. O, həmin gündən etibarən, güclü narazılıq obyektinə çevrildi. Opera tamaşalarına təşrif buyurduğu zaman tamaşaçıların dedi-qodusunu dinləməli olurdu. Hətta saray əhli də onun əleyhinə idi. Kraliçanın düşünmədən xəzinəni boşaltması, ölkəni iflic vəziyyətinə salmışdı.

Beş ildən sonra 1789-cu ildə görünməmiş tarixi hadisə – Böyük Fransa inqilabı baş verdi. Kraliça heç bir narahatçılıq keçirmədən – xalqın bir qədər üsyan etdikdən sonra sakitləşəcəyini və əyləncələr ilə dolu qayğısız həyata yenidən qovuşacağını düşünürdü. Həmin il xalq Versala yollanaraq, kral ailəsini saraydan Parisə köçməyə məcbur etdi. Bu, üsyançıların qələbəsi idi. Kraliçanın bu müddət ərzində insanlara vurduğu yaraları sağaltmaq, səhvlərini düzəltmək imkanı yarandı. Lakin o, bundan sonra da nəticə çıxarmadı. Parisdə olduğu müddətdə sarayı tərk etməyə, xalqı ilə görüşməyə heç bir cəhd göstərmədi. Onu heç nə narahat etmirdi.

1792-ci ildə monarxiya devrildi və kral ailəsini saraydan zindana köçürdülər. Növbəti ildə Lüdoviki mühakimə edərək, təqsirli bilib edam etdilər. Mariya-Antuanettanın da aqibəti bu cür oldu. Ona heç kim kömək etmədi; dostları, saray əhli, Avropa monarxları, Avstriyada yaşayan ailə üzvləri, hətta Avstriya taxt-tacına sahib olan doğma qardaşı da ondan imtina etdi. O ictimai və dini hüquqdan məhrum edilmiş insan idi. Mariya-Antuanetta 1793-cü ilin oktyabr ayında edam olundu. O, tutduğu əməllərinə görə peşmançılığını bildirməyərək, son nəfəsinə qədər qürurunu sındırmadı.

İZAHI

Mariya-Antuanettanın şəxsiyyətini uşaqlıqdan ən təhlükəli şəkildə korlamışdılar; Avstriyanın gənc şahzadəsi olduğu illərdə onu ərköyünləşdirir, ona yaltaqlanırdılar. O, Fransanın gələcək kraliçası kimi həmişə diqqət mərkəzində idi. Ona insanlara nə cür xoş təəssürat bağışlamaq, ətrafındakılar ilə nə cür ünsiyyət saxlamaq və onların fərdi psixoloji xüsusiyyətlərini nəzərə almaq qaydalarını öyrətməmişdilər. O, həyatında bir dəfə də olsun, öz əziyyəti ilə heç nəyə nail olmamış, arzuladığı hər hansı bir əşyanı əldə etmək üçün biclik işlətməmişdi. Ərköyünləş-

birindən çox fərqlidir. Biz dünən böyük zəhmət çəksək də, bu gün bizim üçün çox xoş keçdi». Kir bu sözləri havada tutaraq, niyyətini açıqlayıb dedi: «Fars döyüşçüləri! Siz mənim iradəmi müdafiə etməyi qərara alsanız, siz bu nemətlərdən min dəfə artıq ruziyə, sərvətə qovuşacaqsınız. Əks təqdirdə isə, sizi dünənki kimi ağır zəhmət gözləyəcəkdir. Mənim ardımca gəlin və azadlıq qazanın. Mən sizi azad etmək üçün dünyaya gəlmişəm. Siz midiyalılardan daha güclüsünüz. Ona görə də, siz Astiaqı devirməlisiniz». Farslar Kiri rəhbər seçərək, Midiya əsarətindən xilas olacaqlarına çox sevinirdilər. Onlar artıq çoxdan Midiya zülmündən zinhara gəlmişdilər... O dövrdən etibarən, Kirin başçılığı altında Astiaqın hakimiyyətinə son qoyan farslar Asiyaya hakim oldular.

Herodot (b.e. əvvəl V əsr) «Tarixi rəvayətlər»

miş digər uşaqlarda olduğu kimi, o da hissiyyatsız bir müstəbid kimi formalaşmışdı.

Mariya-Antuanetta bütün xalqın etimadını itirərək, qeyri-səmimi, laqeyd, təkəbbürlü, özündən müştəbeh, xudbin insan təəssüratı bağışlayırdı. Siz onun ötən dövrün parlaq nümayəndəsi və bu cür xasiyyətin unikal olduğunu güman etməyin. Bu gün bu tip insanların xasiyyəti ən adi haldır. Bu cür insanlar təcrid olunmuş aləmdə yaşayaraq, özlərini kral-kraliça kimi apararaq, insanların onlara diqqət yetirməyə borclu olduqlarına əmin idilər. Onlar başqalarının maraqları və xüsusiyyətləri ilə hesablaşmır, özləri isə tələbkar olub, ətrafdakılara Mariya-Antuanetta kimi təzyiq göstərirlər. Uşaqlıqdan ərköyünləşdirilmiş və zərif məxluq kimi formalaşmış bu cür insanlar, böyüdükdən sonra da, uşaqlıq dövrünün xüsusiyyətlərini saxlayaraq, ətrafdakıların onların ayağına qapanaraq, onlara xidmət göstərməyə borclu olduqlarını güman edirlər. Şəxsiyyətinin təkrarolunmazlığı ilə ovsunlanmış bu cür insanlar ətrafdakılara xoş təəssürat bağışlamaqdan ötrü heç bir cəhd göstərmir, özlərinin haqlı olduğuna insanları inandırmağın zəruri olmadığını hesab edirlər.

Hakimiyyət strukturunda ətraf mühitin bu cür qavranması məhvedicidir. Bütün dövrlərdə sizi əhatə edən insanlara qarşı diqqətli olmalı, onların fərdi psixoloji xüsusiyyətlərini dərindən öyrənərək nəzərə almalı, müsahiblərinizin ürəkləri ilə ağlını heyran edə biləcək sözləri seçməyi bacarmalı, həlledici məqamda sizə lazım olan yardım etmələri üçün əsas yaratmalısınız. Bu cür təməlin yoxluğu hakimiyyətinizi büdrədəcək və taleyin sizə bəxş etdiyi ən cüzi təlatümlər zamanı taxt-tacınızdan məhrum olacaqsınız.

QANUNA RİAYƏT OLUNMASI

225-ci ildə qədim Çin Şu səltənətinin dahi sərkərdəsi və baş müşaviri Şu Çjuqe Lyan təhlükəli vəziyyətdən

çıxmaq üçün xeyli düşündü. Vey səltənəti Şu səltənətinə şimaldan hücum etmişdi. Vey səltənətinin Şu səltənətindən cənubda yerləşən barbar dövlətlər, xüsusilə Minyuenin hakim olduğu dövlət ilə ittifaqa girməsi daha təhlükəli idi. Şu Çjuqe Lyan cənubdan hücum təhlükəsi ilə məşğul olmalı idi. O, bu problemi həll etmədən, Veyi şimaldan qovmağa ümid edə bilməzdi.

Çjuqe Lyan barbarlara qarşı cənuba doğru yürüşə hazırlaşan zaman bir müdrik insan ona məsləhət verdi. Müdrik həmin ərazilərdə güc tətbiq etməklə sülhü bərqərar etməyin qeyri-mümkün olduğunu vurğuladı. Lyan Minyuenin öhdəsindən gələ bilərdi. Lakin Lyan Vey ilə vuruşmaq üçün şimala doğru hərəkət etdiyi zaman Minyue yenidən hücuma başlayacaqdı. Müdrik: «Ən yaxşısı şəhərləri fəth etməkdənsə, ürəkləri fəth et. Mən insanların ürəyinə sahib olacağına inanıram» – dedi. «Siz mənim fikirlərimi oxudunuz» – deyə, Çjuqe Lyan cavab verdi.

Gözlənildiyi kimi, Minyue böyük hücum hazırlamışdı. Lakin Çjuqe Lyan pusqu quraraq, düşmən qoşunlarının böyük bir hissəsini və onun başçısını əsir almağa müvəffəq oldu. O, əsirləri cəzalandıraraq edam etmək əvəzinə, əsirləri sərkərdələrdən ayıraraq, onlardan qandalları çıxartmağı əmr edib, doyunca yedizdirdikdən sonra dedi: «Sizin hər biriniz vicdanlı döyüşçüsünüz. Mən sizin hər birinizin valideyni, həyat yoldaşı, uşaqları ol-

KÜLƏK VƏ GÜNƏŞ

Şimal küləyi ilə Günəş kimin güclü olması haqqında mübahisə edərək, yolçunun paltarını soyunmağa məcbur edən tərəfin qalib olacağını qərara aldılar. Külək işə başladı. Lakin onun soyuq rüzgarı yolçunu daha möhkəm bürünməyə məcbur edirdi. O, daha güclü əsdikdə isə, hava daha möhkəm soyuduğundan, yolçu gödəkçə geyməyə məcbur oldu. Ən nəhayət, külək yorulub yolçunu Günəşə verdi. Günəş ilk əvvəl torpağı şüaları ilə bir qədər isitdi. Yolçu gödəkçəni soyundu. Daha sonra, o, havanı daha da

duğuna, onların sizin yolunuzu gözlədiklərinə əminəm. Onlar, şübhəsiz ki, sizin aqibətiniz üçün çox narahatdırlar. Mən sizə azadlıq verməyə hazırlaşıram. Siz ailənizin yanına qayıdıb onlara təsəlli verəcəksiniz». Əsirlər göz yaşı ilə dolu nəzərlərlə Lyana minnətdarlıq etməyə başladılar. Bundan sonra, o, Minyueni gətirməyi əmr etdi. O, Minyuedən soruşdu: «Mən səni buraxsam, nə edərsən?» «Yenidən qoşun toplayıb səninlə həlledici vuruşa çıxaramsa, məni ikinci dəfə də məğlub etsən, sənə tabe olub, məndən qat-qat üstün olduğunu etiraf edərəm» – deyə, cavab verdi. Lyan Minyueyə azadlıq verməyi əmr edib, ona at və yəhər-qayış hədiyyə etdi. Bundan qəzəblənən sərkərdələr, ondan düşmənə nə üçün aman verdiyini soruşanda, Lyan dedi: «Mən onu hər an çox asanlıqla əsir ala bilərəm. Mən onun ürəyinə hakim olmaq istəyirəm. Mən buna nail olmaqla, cənubda sülhü bərqərar edərəm».

Minyue təkrar hücuma keçdi. Lakin Lyandan mərhəmət görən döyüşçülər onu tutub Lyanın hüzuruna gətirdilər. Lyan sualını təkrarladı. Minyue əsl döyüşdə deyil, sərkərdələrinin satqınlığı sayəsində məğlub olduğunu söylədi: «Mən bir də döyüşəcəyəm. Lakin bu dəfə də əsir alınsam, o zaman sənin qüdrətini mütləq etiraf edərək, sənə təzim edəcəyəm».

Lyan bir neçə ay ərzində Minyue ilə dəfələrlə vuruşaraq, onu üçüncü, dördüncü, beşinci dəfə əsir götürdü. Qoşun Minyuedən na-

qızdırdı. Hava boğanaq olduğundan, yolçu paltarlarının hamısını soyunub yaxınlıqdakı çayda çimməyə getdi. Danışıqlar gücdən daha çox fayda verir.

Ezop (b.e. əvvəl VI əsr) «Təmsillər»

Kainatı dəyişməyə cəhd göstərərək, bir hakimə xidmət edən kəslər uğur qazanmırlar. Yalnız kütləni arxasınca aparan şəxsiyyətlər nailiyyət əldə edirlər. Rəhbərlərə xidmət edən şəxslər fitnə-fəsada əl ataraq, yalnız ikinci dərəcəli nəticələr əldə edirlər. Kütləyə rəhbərlik edən şəxsiyyət isə – dünyanın simasını dəyişdirən dahinin mahiyyətidir.

Napoleon Bonapart, 1769–1821

razı idi. Lyan onlara qarşı daha yaxşı yanaşdığına görə, qoşun Minyueyə tabe olmaq istəmirdi. Lakin hər dəfə Minyueyə tabe olmaq təklifi ilə müraciət edən Şu Çjuqe Lyan müxtəlif bəhanələr ilə rastlaşırdı: «Sən mənə hiylə gəldin. Bu gün uğur məndən uzaq qaçdı. Sən məni bu dəfə də məğlub etsən, mən sənə sadiq olacağıma söz verirəm». Və Lyan onu yenidən buraxdı.

O, altıncı dəfə Minyueni əsir aldıqda, yenə də eyni sualı verdi. «Sən məni yeddinci dəfə də tutsan, mən sənə sədaqətlə xidmət edərək, heç bir zaman sənə qarşı üsyan etməyəcəyəm» – deyə, Minyue dilləndi... «Yaxşı – Lyan dedi – lakin mən səni bu dəfə də tutsam, daha heç bir zaman buraxmayacağam».

Bundan sonra, Minyue və onun əsgərləri torpaqlarının sərhədlərinə doğru – U Yue əyalətinə çəkildilər. Minyue dəfələrlə məğlub olduğundan, onun yeganə xilas yolu qalırdı: o, böyük və amansız qoşunu olan U Yue əyalətinin hökmdarı U Du Yuedən kömək istədi. U Du Yuenin döyüşçüləri üzüm tənəyinin yağda isladılmış və qurudulmuş gövdəsindən hörülmüş yaraq-əsləhə taxırdılar. Bu yaraq-əsləhəni nizə və ox ilə deşmək qeyri-mümkün idi. U Du Yue Minyue ilə birləşərək, saysız-hesabsız qoşunu ilə Lyanın qoşunlarına hücum etdi. Bu dəfə dahi sərkərdə qorxub, qoşununu geri çəkməli idi. Lakin o, U Du Yueyə tələ qurdu: o, düşməni dərəyə salaraq, hər tərəfdən yandırdı. Alov U Du Yuenin əsgərlərini haqladığı zaman döyüşçülərin yağ ilə ci-

lalanmış yaraq-əsləhələri məşəl kimi od tutub yanmağa başladı.

Lyan Minyue və onun əyan-əşrəflərini dərədə sıxışdıraraq, yeddinci dəfə əsir aldı. Lyan qətl-qırğından sonra, əsiri görmək də istəmirdi. O, əsirlə vasitəçinin köməyi ilə söhbət edirdi. «Mənə səni azad etmək əmri verilmişdir – deyə, vasitəçi dilləndi. – Lyana qarşı daha bir qoşun topla və onu məğlub etməyə yenidən cəhd göstər». Minyue hönkür-hönkür ağlayaraq, Lyanın ayaqlarına doğru sürünüb, onun dizlərini qucaqlayıb, torpağa çökdü. «Böyük hökmdar – ağlaya-ağlaya dedi – sənə tanrı himayədarlıq edir. Biz cənub hakimləri bir daha səninlə vuruşmağa cəsarət etməyəcəyik». Lyan soruşdu: «Sən təslim olursanmı?» «Mən, mənim oğlanlarım və nəvələrim sənin hədsiz-hüdudsuz mərhəmətindən sarsılmışıq. Sən bu qiyamətdən sonra da bizə azadlıq verirsən. Mən sənin qalibiyyətini etiraf etməyə bilmərəm».

Lyan Minyuenin şərəfinə ziyafət verərək, ona taxt-tacını, sahib olduğu torpaqlarını qaytardı. O, əsgərlərini Minyuenin torpaqlarından çıxardaraq, şimala doğru yollandı. Lyan bir daha cənuba qayıtmadı. Buna heç bir ehtiyac yox idi: çünki Lyan Minyuenin timsalında sadiq və mətin müttəfiq qazandı.

İZAHI

Şu Çjuqe Lyanın iki imkanı var idi: ya cənubda bir güclü zərbə ilə barbarları darmadağın etməyə cəhd göstərmək, ya da xeyli vaxt sərf edərək, səbir və təmkinlə onları öz tərəfinə çəkmək. Sərkərdələrin bir çoxu düşməndən güclü olub, ilk imkandan yararlanmağa müyəssər olurlar. Lakin həqiqi hakimiyyətə sahib olan şəxs gələcək haqqında düşünür; ilk variant sürətli və adi ola bilər. Lakin müəyyən vaxt ötdükdən sonra, məğlub olanların ürəyində nifrət əmələ gəlir. Onların təhqir olunması qəzəb, kin yaradır. Onlar cavab olaraq qisas almağı qərara alırlar. Siz bunun nəticəsində tarazlığınızı itirməməli – enerji sərf edərək, istila etdiyiniz torpaqları əlinizdə saxlamaq və müdafiə etmək

üçün şübhəli və ehtiyatlı olmalısınız. İkinci variant daha mürəkkəb olsa da, nəinki ruhi sakitlik gətirir, həm də potensial düşməni dosta çevirir.

Münaqişə və yaxud toqquşmalar nəticəsində bir addım geri çəkilərək, vaxtınıza qənaət etmədən dəqiq hesablamalar aparın. Düşmənin emosional əhval-ruhiyyəsinə diqqət yetirərək, onun psixoloji zəifliyini öyrənin. Gücün tətbiqi yalnız onun müqaviməti̇ni kəskinləşdirəcəkdir. Bir çox hallarda, sizin ziddiyyətlərinizin həlli vasitəsi insan qəlbidir. İnsanlar uşaqlar kimi emosiyanın təsiri altında qalırlar. Onların iradəsini qıraraq, tabe etmək üçün zülmü mərhəmət ilə əvəz edin. Gizli qorxuları nəzərə alın – onların ən çox qiymətləndirdikləri azadlıq ilə ailəyə böyük diqqət yetirin. Siz bunun həllini tapdıqda, ömürlük dost və sədaqətli müttəfiq qazanacaqsınız.

Hakimiyyət strukturları insanlara kütlə kimi baxırdılar. Lakin bizim insanlar qeyri-standart olub, formasiya deyil, fərdi şəxs idilər... Bizim krallıqlar hər bir insanın şüurunda həkk olunmuşdurlar.

«Müdrikliyin yeddi sütunu»
T.E. Lourens (1888–1935)

İSGƏNDƏRİN HƏYATI

Dara ilə yenidən vuruşmağı qərara alan Makedoniyalı İsgəndər yürüşə çıxdı... Təqib uzun çəkdi və çox ağır oldu; onun qoşunları 11 gün ərzində at belində 3300 min kilometrlik yolu qət etdilər. Qoşunun çox hissəsi susuzluqdan əldən düşmüşdü. Bu ərazilərdə Makedoniyalı İsgəndər bir dəfə çaydan su gətirən makedoniyalılar ilə rastlaşmışdı. İsgəndərin susuzluqdan əziyyət çəkdiyini görən makedoniyalılar dəbilqələrini su ilə dolduraraq, hökmdara uzatdılar... İsgəndər dəbilqəni aldı, lakin qoşunun suya həsrətlə baxdığını

HAKİMİYYƏTİN AÇARI

Siz hakimiyyət oyunlarında yalnız şəxsi maraqlarını müdafiə edən və sizə

yardım etmək niyyətində olmayan insanlar ilə əhatə olunmusunuz. Siz onları maraqlandıran təklif irəli sürmədiyiniz təqdirdə, sizə qarşı münasibət arzuolunmaz olacaqdır; onlar sizi növbəti rəqib kimi görərək, vaxtını sizə sərf etməyi arzulamayacaqlar. Yalnız naməlum şəxsin ürəyi ilə şüuruna yol tapmaqla, onu öz tərəfinizə çəkərək, bu soyuqluğu dəf etməyə nail ola bilərsiniz. Lakin bir çoxları bu oyunun qaydalarını mənimsəyə bilmirlər. Tanımadığınız insan ilə rastlaşdıqda, bir addım geri çəkilərək, onu müşahidə etmək əvəzinə, iradəniz ilə zehninizi onlara zorla qəbul etdirməyə çalışmayın. Onlarla mübahisə etməyin, lovğalanmayın, gücünüzü nümayiş etdirməyin. Siz bu zaman özünüz də bilmədən düşmən qazanırsınız. Çünki laqeyd münasibət, şəxsiyyətin təhrif olunması, psixoloji xüsusiyyətlərin nəzərə alınmaması hər bir şəxsi təhqir edə bilər. İstifadə edildiyini bilən şəxsdə nifrət hissi, qarşıdakının hər addımının ziddinə getmək arzusu yaranır.

Unutmayın: insanları öz tərəfinə çəkmək üçün onlara yeni yanaşma üsulunu tapmalı və onların müqavimətini zəiflətmək lazımdır. Onları iki cür nəticə doğura bilən yanaşma üsulu ilə şirnikləndirin – onların emosiyaları və intellektual maraqları ilə oynayın. Onları fərqləndirən fərdi psixoloji xüsusiyyətlərə və onların digərlərinə oxşar olmasına, yəni əsas emosional reaksiyalarına qarşı diqqətli olun. Əsas hissləri: məhəbbəti, nifrəti, qısqanclığı nişana alın. Siz bu hisslərə toxunmağa müvəffəq olsanız, nəzarəti zəiflədərək, onları asanlıqla inandıra bilərsiniz.

gördükdə, sudan bir qurtum da içmədən dəbilqəni geri qaytardı. O, suyu təklif edən makedoniyalıları tərifləyərək dedi: «Mən suyu tək içsəm, qoşun ruhdan düşər». Hökmdarın möhkəm iradəsi ilə alicənablığının şahidi olan qoşun yorğunluğunu unudaraq, hökmdardan onları irəliyə doğru aparmağı xahiş etdilər. Onlar «bu cür hökmdara xidmət etdikləri üçün ölümsüz olduqlarını» bəyan etdilər.

Plutarx (təxminən 44–127-ci illər) «Makedoniyalı İsgəndərin tərcümeyi-halı»

Şu Çjuqe Lyan düşmən dövlətin sərkərdəsini digər düşməni Tsao Tsao ilə ittifaqa girməkdən imtina etməsini xahiş etdiyi zaman, o, Tsao Tsaonun amansız hökmdar olmasını və yaxud onun əxlaqi prinsiplərini müzakirə etməmişdi. Lyan Tsao Tsaonun öz sərkərdəsinin həyat yoldaşı ilə gizli əlaqəsi haqqında mülahizə irəli sürdü. Bu qısqanc əri hiddətləndirdi və ittifaq bağlanmadı. Mao Tszedun hər zaman xalqın emosiyalarına müraciət edərək, insanlar ilə çox sadə dildə söhbət edirdi. Onun çox gözəl təhsili var idi, o, çox mütaliə edirdi. Lakin onun nitqində istifadə etdiyi məcazi terminlər primitiv duyğu oyadaraq, insanların gizli həyəcanını oyadıb, kütləvi nümayişlərdə mənfi emosiyaların üzə çıxmasına şərait yaradırdı. O, müəyyən proqramın praktiki aspektlərini müzakirə etmək əvəzinə, bunun xalqın həyat tərzində nə cür əks olunduğunu primitiv şəkildə təsvir edirdi. Bu cür populyar yanaşma üsulunun yalnız cahil insanlara qarşı tətbiq olunduğunu, hər bir insana təsir etmədiyini düşünmək böyük səhv olardı. Bizim hər birimizin sonu ölümdür. Hər bir insanı özünün son aqibəti dəhşətə gətirir. Hər bir insan etibarlı və möhkəm dostluq arzulayır. Bu duyğuları tərpətməklə ürəklərə sahib olarsınız. Bunun ən yaxşı üsulu – dramatik və teatral serfentlərə müraciət etməkdən ibarətdir. Çjuqe Lyan ən pis aqibət gözləyən əsirləri yedizdirərək, azadlığa buraxmışdı. O, onları sarsıdaraq, ürəklərinə yol tapmağı bacarmışdı. Lyan kimi təzadlı oyun aparın: insanları ümidsizlik uçurumuna saldıqdan sonra, onlara ümid və təsəlli verin. Siz bununla uğur əldə edərək, insanlara müxtəlif cür zövqsəfa verin. İlk əvvəl qorxu toxumu səpərək, daha sonra onları müdafiə edəcəyinizə vəd verin.

Rəmzi jestlər ilə davranışlar simpatiya və yaxşı münasibət qazanmağa kömək edir. Belə ki, özünü fəda etmək – sizin digər

insanlar ilə böldüyünüz iztirabların nümayişidir. Bu digər insanları özlərini sizinlə eyni səviyyədə tutmağa kömək edəcəkdir. Sizin cüzi iztirab çəkdiyiniz belə, buna mane olmayacaqdır. Qrupa daxil olaraq və hər hansı bir xeyirxah hərəkət edərək, daha kəskin hərəkətlər üçün əsas yaradın.

T.E.Lourens Birinci Dünya müharibəsində Orta Şərqin səhralarında türklər ilə döyüşdüyü zaman ənənəvi müharibənin əfsanəyə döndüyünü anladı. Köhnə nümunəvi əsgər həmin dövrün ordusunda özünü itirmişdi. Onu manipulyasiya edərək, ona əmr verərək, şahmat taxtasının piyadası kimi davranırdılar. Lourens bu vəziyyət ilə barışmaq istəmirdi. Onun üçün əsgərin şəxsiyyəti məğlub edilən ölkəyə bərabər idi. Sadiq, təşəbbüskar, psixoloji baxımdan hazırlıqlı əsgər daha cəsarətlə, şüurlu şəkildə döyüşür. O, oyuncaq deyil, məhz şəxsiyyətdir.

Lourensin hissləri bizim hər birimizin özümüzü inkar edilmiş, şəxsiyyətsizləşdirilmiş, hakimiyyətə qarşı etimadsızlıq hiss etdiyimiz mühit üçün daha realdır.

Bütün bunlar, qəddarlığın və təzyiqin tətbiqi ilə icra olunan qeyri-məhsuldar və təhlükəli hakimiyyət oyunlarıdır. Şahmat taxtasında fiqurların yerini dəyişmək əvəzinə, lehinizə olan insanların sədaqətini və rəqabətini qazanın. Onların ümumi işdə iştirak etmələri üçün layiqli hesab etdiyinizə görə qürur və entuziazm hiss etmələrinə mane olmayın. Bu, nəinki sizin işinizi yüngülləşdirə, həm də onları gələcəkdə də asanlıqla aldatmağa icazə verər. Buna nail olmaq üçün isə, hər bir insanın fərdi psixoloji xüsusiyyətlərinin nəzərə alınması zəruridir. Bir insan tərəfindən hazırlanmış taktikanın digərlərinə də yaxşı nəticə verəcəyini arxayınlıqla güman etmək olmaz. Səmərəli yanaşma üsulu tapmaq üçün, ilk əvvəl, insanın öz qabiliyyətini göstərməsinə nail olun. İnsanların sizinlə daha çox ünsiyyətdə olması onların zövqləri, simpatiya və antipatiyaları haqqında daha çox öyrənməyə, yəni onları idarə etməyə imkan verəcəkdir.

Ətrafdakıları öz tərəfinə çəkməyin ən sadə üsulu insanlara düşünülmüş planın nə cür fayda verəcəyini nümayiş etdirməkdən ibarətdir. Şəxsi maraqlar – mümkün olan səbəblərdən ən güclüsüdür; tapşırığın dahiliyi şüuru zəbt etməyə qadirdir – maraq söndükdən sonra isə, köhnəlmiş perspektivlərdən savayı heç nə qalmayacaqdır. Mənfəət – daha möhkəm əsasdır. Daha güclü təsir qüvvəsinə zahirən xeyirxah və ali arqumentlər malikdirlər. Lakin onlar əməli işdə mənfəətpərəst maraqlara mənfi təsir göstərirlər. Xudbin bəhanələr gizlin saxlansalar da, işinizin uğur qazanacağına zəmanət verirlər.

İnsana yanaşma üsulunu tapmaq sənətinə yiyələnmiş, insanların qəlbinə yol tapan şəxsiyyətlər arasında rəssamlar, şairlər, ziyalılar da vardır. Bu ideyaların surətlər və məcazi ifadələr ilə ötürülməsinin daha asan olması ilə izah olunur. Buna görə də, insanların qəlbinə yol tapan rəssam, aktyor və yaxud yazıçı tərəfdaşlar qazanmaq çox vacibdir. Krallar saray ədibləri saxlayırdılar: Böyük Fridrix Volterin, Napoleon isə Hötenin etimadını qazanmışdılar. Əksinə olaraq, Lui Napoleonun yazıçılara, məsələn, Viktor Hüqoya münasibəti mənfi idi. O, ədibi uzun müddətə Fransadan sürgün etmişdi. Bu, Napoleonun xalq arasında populyarlığını itirməsinə səbəb oldu. Beləliklə, rəssamları inkar etmək çox təhlükəlidir. Onları müttəfiq kimi qazanaraq, bu tanrı vergisindən faydalanmaq daha sərfəlidir.

Sonuncu: kütlə ilə oynamağı bacarın. Sizin dəstəyiniz güclü olduğu zaman hakimiyyətiniz də sarsılmaz olacaqdır. Bir inkar olunmuş, etimadını itirmiş insan qəlbi üsyan qığılcımı kimi xidmət göstərəcəyini dərk edən XIV Lüdovik hər kəsə nəvazişlə yanaşaraq, hətta xidmətçilərə belə sevgi bəsləməyin qayğısına qalırdı. Siz daim yeni müttəfiqlər qazanmalısınız.

OBRAZ:

AÇAR YERİ

İnsanlar kənar şəxsləri içəri buraxmamaq üçün divar qaldırırlar. Heç bir zaman təzyiq göstərməyin. Zorla içəri daxil olmayın. Sizin qarşınızı yeni divar kəsəcəkdir. Divarların da qapısı var. Bu qapılar ürəklərə və şüurlara yol tapır. Ürəyin və şüurun isə açar yeri var. Bu dəliyə boylanın. Qapını aça bilən açarı seçin. Siz bununla onların qəlbinə yol taparsınız. Burada təzyiqə ehtiyac olmayacaqdır.

MÖTƏBƏR FİKİR

«İnsanı öz tərəfinə çəkmək üçün onun qəlbinə bələd olmaq lazımdır. Yalnız o zaman məqsədli nitq söyləmək mümkündür... Bu səbəbdən hökmdarın dəstəyini əldə edən şəxs, onu dərindən müşahidə edərək, hisslərini, məhəbbətini və nifrətini, məxfi arzularını və qorxularını öyrənməlidir. Bu hökmdarın qəlbini ələ almaq üçün çox vacibdir».

Xan Fey, Çin filosofu,
bizim e.ə. III əsr.

MEDALIN İÇ ÜZÜ

Bu qanunun əks tərəfi yoxdur.

QIRX DÖRDÜNCÜ QANUN

İNİKAS (ƏKSETDİRMƏ) SƏMƏRƏSİNİN KÖMƏYİ İLƏ TƏRKSİLAH ET VƏ QEYZLƏNDİR

QANUNUN MAHİYYƏTİ

Ayna reallığı əks etdirsə də, bu, həm də mükəmməl hiylə vasitəsidir: siz aynada düşmənlərinizin hərəkətlərini olduğu kimi əks etdirərək, dəqiqliklə təkrarladıqda, onlar sizin strategiyanızı dərk edə bilməyəcəklər. İnikasın effekti onları masqaraya qoyaraq alçaldır, hisslərini gizlətməyə mane olur. Siz aynanı onların qəlbinə yaxınlaşdırmaqla, onların sərvətlərini bölüşməniz haqqında yanlış xülya yaradırsınız: aynanı törətdikləri əməllərinə yaxınlaşdırmaqla isə, onlara ibrət dərsi vermiş olarsınız. Yalnız bir qisim insanlar İnikas səmərəsinin hakimiyyətinə müqavimət göstərməyə qadirdirlər.

İNİKAS SƏMƏRƏSİ: İLKİN TİPOLOGİYA

Aynalar üzərimizdə hakimiyyətə malikdirlər və bizi həyəcanlandırırlar. Aynada əksimizə baxarkən, görmək istədiyimiz şeyləri – tanış və görməyə adət etdiyimiz surətimizi görürük. Əksimizə daha diqqətlə baxmağa cəhd göstərərək, sifətimizdəki qırışları və digər kiçik qüsurları yaxın buraxmaq istəmirik. Lakin özümüzə daha diqqətlə baxdıqda, varlığımızı kütlə arasında hərəkət edən insan kimi, subyektdən çox obyekt kimi hiss edirik. Bu hissiyyat bizi sıxılmağa vadar edir: özümüzü görsək də, bu yalnız şüurumuzu təşkil edən düşüncəsiz, ruhsuz və ürəksiz zahiri pərdədir. Qarşımızda dayanan insan yox, əşyadır.

Biz İnikas səmərəsini tətbiq etməklə, rəmzi olaraq, ətrafdakıların hərəkətlərini əks etdirir, onları hövsələdən çıxarmaq və qıcıqlandırmaq üçün davranışlarını təqlid edərək, qorxuducu qüvvə təəssüratını yaradırıq. Onlar özlərini gülüş, parodiya hədəfi, hər hansı bir cansız əşya hiss edərək qəzəblənirlər. Lakin bunu başqa cür etdikdə, onlar arzuları ilə niyyətlərinin əks olunduğunu görərək, sevincdən özlərini itirəcəklər. Aynanın özözünə aşiq olmuş hakimiyyəti məhz bundan ibarətdir. Hər iki halda İnikas səmərəsi sizin obyektinizi sıradan çıxararaq, onu ya qəzəbləndirir, ya da sevindirir. Siz bu an idarəetməyə və şirnikləndirməyə icazə verən hakimiyyətə malik olursunuz. Səmərə ən sadə

hisslərə təsir göstərdiyindən, böyük qüvvəyə malikdir.

Hakimiyyətdə 4 əsas İnikas səmərəsi məlumdur.

Neytrallaşdırıcı səmərə. Qədim yunan mifologiyasının surətlərindən biri qorqona Meduzasının başında saç əvəzinə ilanlar olmaqla, dili sallanır, böyük dişləri irəli doğru əyilmişdi. Siması o qədər qorxunc idi ki, onu görən insan dəhşətdən daşa çevrilirdi. Lakin Persey Meduzanı məğlub etməyə müvəffəq oldu. O, bürünc qalxanı cilalayaraq, güzgüyə çevirdi. O, Meduzaya deyil, onun aynadakı əksinə baxaraq, qeyri-bərabər döyüşdə onun qorxunc başını vurdu. Qalxan qəhrəmana ayna kimi xidmət göstərdi. Biz aynanın eyni zamanda qalxan olduğunu söyləyə bilərik: Meduza Perseyi deyil, yalnız öz hərəkətlərini görürdü. Bu böyük ekran arasında gizlənən Persey isə bədheybəti məhv etdi.

Neytrallaşdırıcı səmərənin mahiyyəti məhz bundan ibarətdir: düşmənləriniz kimi hərəkət edin, onların hər bir hərəkətini yamsılayın və hərəkətlərinizdən çaşqın hala düşən qarşı tərəf sizin niyyətlərinizdən xəbər tutmayacaqdır. Onların sizinlə işləmək və ünsiyyətə girmək strategiyasına qarşı hansı münasibət bəsləməyinizdən, xarakterik cəhətlərinizdən, işi aparmaq bacarığınızdan asılıdır: reaksiya və davranışını təqlid etməklə, onları neytrallaşdırın. Bu, bir qədər təhqiredici taktika olduğu üçün, böyük narazılığa səbəb ola bilər. Hər birimiz uşaqlıqda kiminsə

TACİR VƏ DOSTU

Bir tacir uzaq səfərə çıxmağı qərara alır. O, varlı olmadığı üçün öz-özünə deyir: «Yaxşısı budur ki, mən əmlakımın yarısını şəhərdə qoyub gedim. Belə ki, uzaq səfər zamanı bədbəxt hadisə ilə üzləşib var-yoxumu itirsəm, geriyə qayıtdığım halda yaşamaq üçün vəsaitim olsun». Bu cür hərəkət etməyi qərara alan tacir var-dövlətinin çox hissəsini təşkil edən qiymətli daşları, yəni daş-qaşı etibar etdiyi dostuna verərək, onları qorumağı xahiş edir. Daha sonra, o, bütün işlərini yoluna qoyub, uzaq səfərə yollanır. İllər ötür və səfər uğursuzluq ilə nəticələnən tacir vətəninə qayıdır. O, ilk növbədə dostunun yanına gedərək, daş-qaşlarını qaytarmasını istəyir. Lakin bu müddət ərzində, çoxlu miqdarda borca girdiyi üçün, daş-qaşı satmağa məcbur olan dostu bu cür cavab verir: «Dostum, inanırsan, mən sənin daş-qaşını etibarlı şəkildə qorumaq üçün onu otağa qoyub qapını açar ilə bağladım. Onu öz qızılım kimi qorumaq istədim. Lakin ağlıma gəl-

bizi yamsıladığını unutmamışıq – biz həmin uşağa yumruqla cavab vermək arzusunda olmuşuq. Kamil insanlar isə, zərgər dəqiqliyi ilə hərəkət edərək, opponentləri özündən çıxardırlar. Şəxsi strategiyanızı aynalı qalxan ilə maskalamaqla, görünməz tələlər quraraq, rəqiblərinizi sizin üçün qurduqları tələyə sala bilərsiniz.

Sun-izı dövründən başlayaraq, hərbi strategiyalarda bu real metodikadan uğurla istifadə edilir. Hal-hazırda isə, ona siyasi kampaniyalarda tez-tez müraciət edilir. Bu metodika döyüşçünün aynası olmaqla, şəxsi davranış xəttinizin olmadığı təqdirdə də faydalıdır.

Neytrallaşdırıcı səmərənin əks variantı kölgədir: kölgə kimi opponentlərinizin bütün addımlarını təkrarlayaraq, onların sizi görmələrinə imkan vermirsiniz. Rəqiblərinizin gələcək planlarını neytrallaşdıran informasiyanın toplanması üçün kölgədən istifadə etməklə, onların hər bir hərəkətini görmək imkanı əldə edəcəksiniz. Kölgə, başqalarının hərəkətlərini təkrarlayaraq, onların vərdişlərinə və davranış tərzlərinə müdaxilə etmək imkanı əldə etdiyi üçün çox səmərəlidir. Kölgə – xəfiyyələr və kəşfiyyatçılar üçün əvəzolunmaz vasitədir.

Özünə aşiq olmaq səmərəsi. Gölə boylanan gənc yunan Nərgiz öz əksinə aşiq oldu. O, gözlərini öz əksindən çəkə bilmirdi. Bu yanlış xülyalı məhəbbət onun həyatına son qoydu. Bizim də buna oxşar problemlərimiz vardır. Biz də başdan ayağa öz-özümü-

məyən başıma gəldi: otağa siçovul daxil olub, bütün daş-qaşları gəmirdi!» Tacir özünü inanan kimi göstərib qışqırdı: «Bədbəxtliyə bir bax! Mən axı siçovulların daş-qaşı gəmirdiklərini çoxdan bilirəm. Mən əvvəllər də bu cür hücumlar nəticəsində böyük itki ilə qarşılaşmışdım. Ona görə də, daha bu cür itkini böyük sarsıntı kimi qəbul etməyəcəyəm». Dostu tacirin bu sözlərindən sevinib, tacirin daş-qaşı gəmirən siçovul haqqında yalana inandığını zənn etdi. O, üzərindən şübhəni tamamilə götürmək üçün, növbəti gün, taciri nahara dəvət etdi. Tacir gələcəyinə söz verdi. O, geri qayıdarkən şəhərdə dostunun oğlu ilə qarşılaşdı və oğlanı evinə gətirərək, otaqların birində bağladı. Ertəsi gün dostunun evinə gəlib, onu qəm dəryasına qərq olmuş şəkildə gördü. Özünü heç nədən xəbəri olmayan adam kimi aparan tacir nə baş verdiyini soruşdu. Dostu cavab verdi: «Əziz dostum, məni bu halıma görə bağışla. Mən əziz qonağımı qarşılayarkən ürəkdən sevinməli idim. Lakin mən oğullarımdan birini itirmişəm. Mən onu axtarsam da, tapa bilmədim». Tacir ağlaya-ağlaya dedi: «Mən sənin dərdini bölürəm. Çünki mən oğla-

zə vurulsaq da, məhəbbətə cavab kənardan verilməli olduğundan, onun həyata keçməyəcəyini başa düşürük və bunun da nəticəsi olaraq, həmişə narahatlıq keçiririk. Özünə aşiq olmaq səmərəsi belə bir ümumi prinsipdən istifadə edir: siz insanların qəlbinə müdaxilə edir, onların məxfi niyyətlərindən, dəyərlərindən, zövq və maraqlarından xəbər tutursunuz. Daha sonra, bütün bunları qaytararaq, özünüzü onlara bənzədərək, qəlbi əks etdirmək qabiliyyətiniz sizə onların üzərində böyük hakimiyyət verəcəkdir. Onlar sizə qarşı, hətta məhəbbət də bəsləyə bilərlər.

Bu, sadəcə olaraq şəraitə prinsipsiz uyğunlaşmaq, başqasını fiziki deyil, psixoloji baxımdan təqlid etmək qabiliyyətidir. O, özünə qarşı uşaq məhəbbəti bəslədiyinə görə, qeyri-adi dərəcədə qüdrətlidir. Adətən, insanlar öz zövqləri, problemləri və təcrübələri ilə başqalarını bezdirirlər. Onlar hadisələrə sizin gözünüzlə baxmaq cəhdi göstərmirlər. Bu, çox yorucu olsa da, gözəl imkanlar yaradır: başqalarının hiss və duyğularını əks etdirməklə yanaşı, gözəl anladığınızı nümayiş etdirdiyiniz zaman, onları asanlıqla valeh və tərksilah edə bilərsiniz. Heç bir insan xarici mühit ilə harmoniyalı uyğunlaşma duyğusunun qarşısında tab gətirə bilməz. Siz onu süni olaraq insanın zövqü-səfası, eləcə də şəxsi məqsədlərə nail olmaq üçün yaratdığınız halda da heç nə dəyişməyəcəkdir.

Özünə aşiq olmaq səmərəsi kübar həyat-

da və biznesdə də möcüzələr yaratmaqla, bizə yoldan çıxaran ünsür ilə saray əyanının inikasına təqdim edir.

Mənəvi-əxlaqi səmərə. Sözün gücünün də həddi vardır. Biz əksər halda, sözün qüdrəti ilə, arzuladığımızın əksinə olan səmərə əldə edirik. Qrasian yazırdı: «Həqiqət gözə görünsə də, nadir hallarda eşidilir!» Əxlaqi səmərə hadisələr vasitəsilə ideyaların nümayiş etdirilməsinin ən mükəmməl üsuludur. Sadə dillə desək, ətrafdakılara dərs verərək, onlara öz reseptlərini dadmaq imkanı verirsiniz.

Əxlaqi səmərədə ətrafdakıların sizə vurduğu ziyanı əks etdirməklə, onların sizin eyni üsulla cavab vermədiyinizi dərk etmələrinə şərait yaradırsınız. Onları çox pis hərəkət etdiklərini dərindən duymağa məcbur edirsiniz. Sizin şikayətiniz onların mövqelərini daha da möhkəmləndirmiş olardı. Onlar şəxsi əməllərinin nəticələrini öz üzərlərində hiss etdikdə isə, ətrafdakılara nə cür zərbə vurduqlarını və yaxud asosial davranışı ilə onları nə cür bezdirdiklərini dərindən dərk edirlər. Siz özünüzdə qarşı tərəfi utandırmağa məcbur edən keyfiyyətləri əks etdirərək, onların nöqsanlarını nümayiş etdirən və onlar haqqında ibrətverici informasiya təqdim edən ayna yaradırsınız. Bu metoddan tez-tez müəllimlər, psixoloqlar, eləcə də xoşagəlməz və düşünülməmiş davranış ilə qarşılaşan hər

nın başına nə gəldiyini bilirəm. Dünən sizdən qayıtdığım zaman bir bayquşun bir uşağı caynağına alaraq apardığını gördüm. Bu sənin oğlun idi. Mən əminəm». Tacirin dostu qəzəbləndi: «Sən ya özünü axmaq, ya da məni səfeh yerinə qoymusan. Mənə bu cür yalan danışmaqdan utanmırsan? Çəkisi cəmi 2–3 kq olan bayquş ondan iyirmi dəfə ağır olan uşağı havaya qaldıra bilərmi»? Tacir cavabında: «Niyə də yox? – dedi. Bu səni nə üçün təəccübləndirir? Bir ölkədə bir siçovul yüzlərlə daş-qaşı gəmirə bilirsə, bayquş özündən qat-qat ağır uşağı havaya qaldıra bilməz»?

Tacirin heç də səfeh olmadığını anlayan dostu, üzr istəyərək, tacirə vurduğu ziyanı son qəpiyinə qədər ödəyib, oğlunu geri aldı.

Pilpay (Hindistan, IV əsr), «Təmsillər»

bir insan istifadə edir. Bu müəllimin inikasıdır. Ətrafdakıların sizinlə ədalətli və yaxud çox pis davranması aynada nəzərə çarpacaqdır. Sizinlə ədalətsiz şəkildə davranan insanların özlərini təqsirkar bilmələri üçün onların əməllərini əks etdirən aynanı onlara göndərin.

Qarabasma səmərəsi. Aynalar sizin real aləmə baxmağınız kimi təəssüratlar yaratdıqları üçün aldadıcıdırlar. Əslində isə, sizin qarşınızda adi şüşə parçasıdır. O, həyatı olduğu kimi əks etdirə bilməz: aynada hər şey tərsinədir. Lyüs Kerrolun qəhrəmanı Alisa aynadan keçdikdə, tərsinə aləmə düşür.

Qarabasma səmərəsi əşyanın, yerin, insanın surətinin yaradılması zamanı meydana çıxır. Bu surət maket olub, real oxşarı ilə zahirən eyni olduğu üçün, insanlar onu həqiqət kimi qəbul edirlər. Bu fırıldaqçıların ən çox xoşladıqları üsuldur. Onlar real aləmi həqiqətə uyğun şəkildə əks etdirən saxta malları insanlara sırıyaraq, onları ustalıqla aldadırlar. Bu effekt maskalanma ilə komufulyajın tələb olunduğu hər bir yerdə tətbiq olunur. Bu, Yalançının Aynasıdır.

İNİKAS EFFEKTİNƏ RİAYƏT OLUNMASI (1)

1815-ci ilin fevral ayında imperator Napoleon sürgün edildiyi Elba adasından qaçaraq, Parisə qayıtdı. O, ölkədən qalib addımlarla keçərək, ordu ilə müxtəlif təbəqədən olan vətəndaşları öz tərəfində birləşdirdi. Kral XVIII Lüdovik taxt-tacdan devrildi. Lakin mart ayında hakimiyyətini bərpa etmiş Napoleon Fransada mövcud olan vəziyyətin köklü şəkildə dəyişilməsi ilə qarşılaşdı. Ölkə müflis oldu. Onun Avropa dövlətlərində müttəfiqi yox idi. Ən sadiq müşavirləri və ən nüfuzlu nazirləri isə onu və ölkəni tərk etmişdilər. Yalnız köhnə rejimi təmsil edən bir insan, sabiq polis Jozef Fuşe Napoleon ilə qaldı.

Napoleon Fuşeyə birinci hakimiyyəti dövründə ən çirkin işlərin yerinə yetirilməsini etibar etsə də, heç bir zaman nazirini tamamilə dərk etmək iqtidarında deyildi. İmperatorun bütün müşavirləri ilə nazirlərini daim nəzarətdə saxlayan agentlər və casuslar ştatı olsa da, o, Fuşe haqqında informasiya əldə edə bilməmişdi. Ondan hər hansı bir xoşagəlməz hərəkətinə və ya hətta cinayətlərinə görə şübhələndikdə də, nazir qəzəblənir və bütün bunları şəxsi təhqir kimi də qiymətləndirməyərək – təbəəlik nümayiş etdirməklə yanaşı, xəfifcə gülümsünürdü. O, hər bir anın tələblərinə uyğunlaşaraq, buqələmun kimi rəng verib rəng alırdı. O,

Döyüşə girdiyin zaman qələbə uğrunda məğlub olacağını anlayarkən düşmənin tərəfinə keç, onu müdafiə et, sonra ən zəruri üsulu seçib onu məğlub edə bilərsən... Əksər hallarda düşməni aldadaraq, yəni onu dəstəklədiyini nümayiş etdirərək, döyüşdən qalib çıxmaq olar. Şücaətinə və gücünə arxayın olub, mövqeyini təhvil verməyən kəs qələbə çalmaq imkanını itirə bilər.

Miyamoto Musaşi. XVII əsr. «Beş üzük kitabı».

TÜLKÜ VƏ LEYLƏK

Bir gün tülkü leyləyi qonaq çağırıb qonşusu ilə duzçörək kəsməyi qərara aldı. O, sıyıq bişirib leyləyi qonaq çağırdı. Sıyığı kasaya tökən tülkü leyləyin bu kasadan yeyə bilməyəcəyini bilirdi. Beləliklə, tülkü sıyığı yeyib doyduğu halda, leyləyin dimdiyinə heç nə dəymədi. Leylək tülküyə eyni üsul ilə cavab verməyi qət etdi. O, ətdən parça-parça tikələnmiş qızartma bişirərək, onu dar bardağa qoydu. Ac tülkü ətin iyini hiss edib ağzı sulana-sulana yeməkdən dadmaq istəsə də, bardaqdan heç nə götürə

ilk əvvəl xoş təəssürat bağışlasa da, zaman keçdikcə Napoleon bu «sürüşkən» insanın onu oynatdığını anladı. Napoleon müxtəlif dövrlərdə bir çox nazirlərini, hətta Taleyranı da vəzifədən kənarlaşdırsa da, o heç bir zaman Fuşeyə toxunmurdu. Ən nəhayət, 1815-ci ildə yenidən hakimiyyəti ələ keçirmiş və yardıma ehtiyacı olan Napoleon polis naziri vəzifəsində Fuşesiz heç cürə keçinə bilmədiyini başa düşdü.

Bir neçə həftə keçdikdən sonra Napoleonun casusları Fuşenin digər ölkələrin nazirləri, o cümlədən də avstriyalı Metternix ilə məxfi əlaqədə olması haqqında şübhələrə istinad edən məlumat verdilər. Napoleonun ən dəyərli nazirinin xain olması fikri imperatoru çox narahat edirdi. Həqiqəti aydınlaşdırmaq lazım idi. Napoleon Fuşe ilə mübahisə edə bilməzdi. O, hər cür vəziyyətdən çıxmağı bacaran insan idi. Napoleona kifayət qədər dəlil-sübut təqdim olunmamışdı.

Aprel ayında imperatorun fərdi polisinin Fuşeyə informasiya ötürmək üçün Venadan Parisə təşrif buyurmuş cənabı tutub saxlaması zamanı bu cür dəlil-sübutun toplanması zərurəti meydana çıxdı. Saxlanılan şəxsi imperatorun hüzuruna gətirdilər. Napoleon «qonağa» hədə-qorxu gələrək, günahını etiraf etmədiyi halda, onu güllələyəcəyini söyləyirdi. Nəhayət, casus günahını etiraf etdi: Fuşe Bazeldə xüsusi agentlər ilə məxfi görüşün təşkilinə həsr olunmuş və Metternix üçün nəzərdə tutulmuş məktubu impe-

ratora verdi. Napoleon öz agentlərindən birinin bu görüşdə iştirak etməsinə sərəncam verdi. Bu, Fuşenin həbs olunmasına şərait yaradardı. Onun xəyanəti sübut olunduğu təqdirdə, cəzalandırılması ədalətli olardı.

Napoleon agentin qayıtmasını səbirsizliklə gözləyirdi. Lakin agent bir-iki gün gecikərək, Fuşenin təxribatda iştirak etməsini sübuta yetirən heç bir kəlmə eşitmədiyini bəyan etdi. Əksinə, o, digər təşkilat üzvlərinin Fuşenin ikili oyunda iştirak etməsindən şübhələndiyini və Fuşenin Napoleona hər bir zaman sadiq qalacağını söylədi. İmperator eşitdiklərinə inanmayıb, Fuşenin onu yenə də aldada bildiyini düşündü.

Ertəsi gün Fuşe Napoleonun yanına gələrək, «Ser, mən bir neçə gün əvvəl Metternixdən məktub aldığımı söyləməmişəm. Mən daha vacib işlər ilə məşğul idim. Metternixin emissarı məktubu yuyan tozu mənə verməyi unutmuşdu... Bir sözlə, bu da məktub» – dedi. Fuşenin imperatoru oynatmağına əmin olan Napoleon bağırdı: «Satqın! Mən sizi edam etdirməli idim». O, Fuşeni təhqir etsə də, dəlil-sübut əldə etmədiyi üçün, onu heç vəzifəsindən də kənarlaşdıra bilmirdi. Fuşe özünü çaşqın halda göstərsə də, ürəyinin dərinliyində uğurla nəticələnən işinə görə sevinirdi.

İZAHI

bilmədi. Bununla da uzun dimdiyini dar bardağa salıb ət tikələrini doyunca yeyən – leylək, quyruğunu qısaraq yuvasına qayıdan isə – tülkü oldu.

Lafonten, 1621–1695.

Bonapartın onu gecə-gündüz izləməsi Fuşeyə yaxşı məlum idi. Nazir Napoleonun casuslarını təqib edən casuslar tutaraq, oyundan təmiz çıxdı. Bununla da, o, imperatorun bütün əks hücumlarını neytrallaşdırdı. Bazel görüşü zamanı Fuşe düşməni öz silahı ilə vurmağa müyəssər oldu: o, Napoleonun casuslarını aldadaraq, onların ikili agent olmasına imperatoru inandırdı.

Fuşe hakimiyyətdəki mövqeyini itirməyərək, ustalıqla oynamaq bacarığı sayəsində münaqişələr dövründə çiçəklənməkdə davam etdi. O, Böyük Fransa inqilabı zamanı radikal yakobinçi idi. Fuşe terrordan sonra respublikaçı oldu. O, Napoleonun hökmranlığı dövründə möhkəm etiqadlı imperialistə çevrildi. Napoleon ona zadəganlıq ilə hersoq dOtranto titulunu verdi. Napoleonun silahı təbəələrin çirkin paltarlarında qurdalanmaq olduğu halda, Fuşe hər kəs, o cümlədən də Napoleon haqqında məlumatlar toplamaqla özünü sığorta etdirirdi. Bu, ona planlar qurmağa və imperatorun arzusunu əvvəlcədən müəyyən etməyə imkan verirdi. Fuşe həbs olunmağından qorxmayaraq, ikili oyun aparmaqla hücum əməliyyatlarını da planlaşdırırdı.

Bu, sizi əhatə edən insanların ikili oyununun hakimiyyətini özü təşkil edir. Birincisi, siz insanları onların fikir və ideallarını bölüşdürdüyünüzə inandırırsınız. İkincisi, onlar sizin məxfi əsaslarınızın olmasından şübhələndikləri halda, ikili oyun, sizi qalxan kimi müdafiə edərək, strategiyanızın dərk olunmasına icazə verməyəcəkdir. Yekun nəticədə, bu, hər bir insanı qıcıqlandıraraq, hövsələdən çıxardacaqdır. Siz ikili oyun aparmaqla, təşəbbüsü ələ alaraq, qarşı tərəfin özünü zəif və köməksiz hiss etməsini şərtləndirirsiniz. Bununla da, daha bir üstünlük əldə edirsiniz: qarşı tərəfi nə zaman və necə məğlub etməyi seçmək hüququna malik olursunuz – bu isə, hakimiyyətə doğru aparan ən düzgün yoldur. Bütün bunlardan əlavə, ikili oyun mental enerjinizi qoruyub saxlayır: sizi əhatə edən şəxslərin gedişlərinin sadə şəkildə təkrarlanması – özünəməxsus əks-səda olub, xüsusi planların işlənib

hazırlanması üçün zəruri olan sərbəstlik yaradır.

İNİKAS SƏMƏRƏSİNƏ RİAYƏT OLUNMASI (2)

Şöhrətpərəst sərkərdə və dövlət xadimi Alkiviad (b.e. əvvəl 450–404-cü illər) mənsəbinin əvvəlində hakimiyyətə yol açan qorxulu silahdan istifadə edirdi: onu əhatə edən insanlar ilə ünsiyyət saxlayaraq, əhval-ruhiyyələrini, zövqlərini hiss edərək, sözləri ilə hərəkətlərini onlara ustalıqla uyğunlaşdırırdı. Qarşı tərəf ən məxfi arzularını aynada olduğu kimi daha aydın görürdülər. O, qarşı tərəfi şirnikləndirərək, onların dəyərlərini daha vacib hesab etməsinə və əsas məqsədini onların arzularının həyata keçirilməsində yardım etməkdən ibarət olduğuna inandırmağa çalışırdı. Onun ovsunu qarşısında dayanaraq tab gətirməyə hər kəs müvəffəq olmurdu.

Ona valeh olanlardan biri də filosof Sokrat idi. Alkiviadın həyat tərzi Sokratın sadəlik və düzgünlük idealları ilə tam ziddiyyət təşkil edirdi: o, zəngin həyat tərzi sürən, prinsipsiz insan idi. Lakin, o, Sokrat ilə görüşərək, sərvaxtlıqda ona oxşamağa çalışaraq, adi qida qəbul edərək, Sokratı uzunmüddətli gəzintilər zamanı müşayiət edib, onunla yalnız fəlsəfə və məziyyətlər haqqında söhbət edirdi. Sokrat dərhal aldanmadı – Alkiviadın fərqli həyatı onu ehtiyatlı olmağa məcbur etsə də, o, adi mülahizəyə uydu: qarşı tərəfin üzərində müsbət təsirə və hakim mövqeyə

OĞURLANMIŞ MƏKTUB

Mən tərəfdaşımın nə qədər ağıllı, nə qədər axmaq, nə qədər xeyirxah və nə qədər zülmkar olduğunu bilmək istədiyim halda, o, üzünün ifadəsini təqlid etmək istədiyimi düşünür. Daha sonra mən şüurumda yeni fikirlər ilə hisslərin yaranmasını gözləyirəm.

Edqar Alan Po, 1809–1849.

Lorenso (Mediçi) papa İnnokentiyə təsir etmək imkanını əldən vermirdi. Papa ona qarşı dərin hörmət və ehtiram hissi bəsləsə də, bu dostluq hissini möhkəmləndirmək lazım idi. O, papanın zövqü ilə meylini öyrənərək, onun nazı ilə oynayırdı: papaya daha çox xoşladığı şərab çəni göndərirdi; Papa xəstələndiyi zaman ona yaltaqlıqla yazılmış məktub göndərərək, hüsnrəğbətini ifadə edirdi; o, papanın əzabını, ağrılarını öz ağrıları kimi qəbul edir, papa siyasətini dəstəkləyirdi. İnnokenti böyük minnətdar-

yalnız özünün malik olduğunu düşündü. Bu yanlış xəyal Sokratı aldatdı. O, Alkiviadı sevdi və onu dəstəkləməyə başladı. Bir dəfə isə Alkiviad döyüş meydanında filosofun həyatını xilas etdi.

Afinalılar Alkiviadı gözəl natiq hesab edirdilər. Belə ki, o, auditoriyanı ələ almağı və dinləyicilərinin arzularını əks etdirməyi bacarırdı. O, Siciliyanın fəth edilməsinə yardım etmək məqsədilə alovlu nitq söyləyirdi. Alkiviad Siciliyanın afinalılara bir çox imtiyazlar verəcəyini, yürüş iştirakçılarını isə, şan-şöhrət sahibi edəcəyini güman edirdi. Onun nitqləri gənc afinalıların atalarının şücaətləri haqqında xatirələr ilə yaşamamağı və öz əlləri ilə yeni torpaqlar fəth etmək arzusunu ifadə edirdi. Lakin o, nitqlərində imperiyanın əsasını qoyan Persiya üzərində qələbəni də mədh edirdi. Bütün afinalılar Siciliyanın fəth olunması haqqında danışırdılar. Alkiviadın planı dəstək aldı. Yürüşə o, özü rəhbərlik etməli idi.

Alkiviad Siciliyada vuruşurdu. Afinada onu müqəddəs bütləri təhqir etməkdə ittiham edən düşmənləri tapıldı. O, geriyə qayıdan kimi düşmənlərinin ona tələ qurmalarından xəbər tutdu. Buna görə də, son məqamda fərarilik edərək, Afina donanmasını tərk edib, Afinanın ən qatı düşməni Sparta tərəfə keçdi. Spartalılar bu cür məşhur insanın onlara pənah gətirməsini alqışlasalar da, Alkiviadın şöhrətindən xəbərləri olduqları üçün ondan ehtiyat edirdilər. Alkiviadın zəngin həyatı

xoşladığı yaxşı məlum idi. Spartalılar isə, anadangəlmə döyüşçü olduqlarından, sadəliklə asketizmə daha çox üstünlük verirdilər. Onlar afinalıların Sparta gənclərini şirnikləndirmələrindən qorxurdular. Lakin spartalıların güman etdiklərinin tam əksinə olaraq, Alkiviad heç bir təhlükə yaratmadı: o, spartalılar kimi uzun saç saxlayaraq, soyuq su ilə yuyunur, çörək və döymə ət ilə mərci yeyərək, sadə paltar geyinirdi. Bu, Alkiviadın spartalıların həyat tərzini dərk edərək, qiymətləndirməsi, onların afinalılar üzərindəki üstünlüyünü etiraf etməsi demək idi. O, nəhayət ki, ən yekun seçim edərək, Spartada qaldı. Alkiviada valeh olan spartalılar ona hakimiyyət verdilər. Çox təəssüflər olsun ki, Alkiviad özünü saxlaya bilməyib, Sparta hökmdarının həyat yoldaşını yoldan çıxartdı və qadın hamilə qaldı. Həqiqət məlum olduqdan sonra, Alkiviad həyatını xilas etmək üçün qaçmağa üz tutdu.

Bu dəfə Alkiviad Persiyaya qaçdı. Persiyada o, spartan sadəliyindən israfçılıq ilə zənginliyə kəskin keçid edərək, persiyalıların həyat tərzini ən kiçik xırdalığına kimi mənimsəməyə başladı. Əlbəttə, Alkiviad kimi tanınmış şəxsiyyətin Persiya mədəniyyətini doğma hesab etməsi böyük şərəf idi. Persiyalılar ona hörmət və ehtiram göstərərək, torpaq sahəsi, hakimiyyət verdilər. Alkiviada aldanan persiyalılar, onun ikili oyun aparmaqla, afinalılara Sparta ilə müharibə aparmalarına kömək edərək, Afinada mövqeyini

lıq hissi ilə Larensonun diqqət və qayğısını qəbul edərək, onun mülahizələri ilə razılaşırdı... O, müəyyən müddətdən sonra Larensonun bütün mülahizələrini bölüşdürürdü. Bu barədə səfir Ferrari belə deyirdi: «Papa yuxusunu da füsunkar Larensonun gözləri ilə görür».

Kristofer Xibbert. «Mediçi ailəsinin çiçəklənməsi və süqutu», 1980.

möhkəmləndirməsindən xəbərsiz idi.

İZAHI

Alkiviad siyasi mənsəbinin astanasında böyük kəşf etdi. Bu, onun hakimiyyətə nail olmaq münasibətinə təsir göstərdi: o, parlaq və güclü fərdiyyətçiliyə malik olduğundan, nöqteyi-nəzərləri ilə ideyalarını müdafiə etməklə az şeyə nail olub, çox şey itirdiyinə əmin oldu. Alkiviad kütlələr üzərindəki hakimiyyətin onu əhatə edən insanları öz rənginə boyamağa deyil, məhz onlara oxşamaqdan ibarət olduğunu hesab edirdi. İnsanlar heç nədən şübhələnmədən, bu tələyə düşürdülər.

Hər bir şəxsiyyətin xudbin, özünə aşiq olduğunu unutmayın. Ətrafdakılara təsir etməyə çalışaraq, sizi ayıran divarın daha da qalxmasına, müqavimətin isə böyüməsinə səbəb olursunuz. Onları təqlid etməklə isə, tələyə salırsınız: onlar qarşılarında əksini görürlər. Bu inikasın müəllifi sizsiniz. İnikas üsulundan istifadə etməklə, insanlar üzərində hakimiyyət əldə edərsiniz.

İnikas səmərəsindən nizamsız şəkildə istifadə zamanı, meydana çıxan təhlükəni diqqətdən çıxarmaq olmaz. İnsanlar Alkiviadın yanında özlərini daha inamlı hiss edirdilər. Alkiviad gedən kimi, yenə də boşluq və miskinlik duyğusu baş qaldırırdı. Lakin kütlə Alkiviadın ikili oyun apararaq, bu üsulu hər kəsə qarşı tətbiq etdiyinin şahidi olduğu təqdirdə, aldandığını dərk etdi. Alkiviad inikas səmərəsindən intensiv şəkildə istifadə edirdi. Yekunda, ayrı-ayrı xalqlar özlərini aldanmış və təhqir olunmuş hesab edirdilər. Beləliklə, natiq hər dəfə edam olunmamaq üçün qaçmağa üz tuturdu. Nəhayət ki, Alkiviad intiqam hissi ilə yaşayan spartalılar tərəfindən öldürüldü. O, həddini aşmış, ehtiyatı əldən vermişdi.

İNİKAS SƏMƏRƏSİNƏ RİAYƏT EDİLMƏSİ (3)

1652-ci ildə dul qalmış baronessa Mançini ailəsi ilə Romadan Parisə köçdü. O, Parisdə Fransanın baş naziri, qardaşı kardinal Mazarinin köməyinə arxalana bilərdi. Ba-

ronessanın 5 qızından dördü sarayda bərq vuraraq, ətrafdakıları gözəllikləri ilə heyran etmişdilər. Kardinalın cazibədar bacısı qızları Mazarinet ləqəbi aldılar. Onları tez-tez sarayın bütün vacib ziyafətlərinə dəvət edirdilər.

Baronessanın beşinci qızı Mariya Mançininin taleyi uğursuz idi. O, bacıları kimi gözəl və cazibədar olmadığı üçün, anası ilə dayısı tərəfindən sevilmir, ailədə disharmoniya yaratmağında günahlandırılırdı. Onu monastıra getməyə məcbur etmək istəyirdilər. Mariya elm ilə məşğul olmaqla, latın və yunan dillərini öyrənmək, fransız dilinə dair biliklərini təkmilləşdirib, musiqi qabiliyyətini artırırdı. Ailəsinin ona saraya gəlməsinə icazə verdiyi hallarda, söhbətə qatılaraq, müsahibini diqqətlə dinləyib, insanların zəif tərəfləri və gizli arzuları barədə mühakimə yürütməyi öyrənirdi. Mariya gələcək kral XIV Lüdovik ilə görüşdüyü zaman isə (bu 1657-ci ildə baş verdi. O zaman Lüdovikin 17, Mariyanın isə 18 yaşı var idi), o, anası ilə dayısının acığına gənc oğlana özünü sevdirməyi qərara aldı.

Bu cür qeyri-qənaətbəxş görkəmə malik olan qızın qarşısına qoyduğu məqsəd ağlasığmaz olsa da, Mariya şahzadəni hərtərəfli öyrənə bildi. O, bacılarının onun xoşuna gəlmədiyini, sarayda hökm sürən mühit ilə ətrafında dolanan fitnə-fəsadın onu iyrəndirdiyini duydu. O, şahzadənin romantik varlığını – cəngavər romanlarını xoşlayan, ordunu ardınca aparan, adi ideallara can ataraq, şöhrətə çatmağı arzulayan insan olduğunu açıq-aydın gö-

Vitsenşteyn müsahibinin fikrini duymaq qabiliyyətinə malik idi. Müsahibi fikrini ifadə etmək üçün münasib söz və ya ibarə axtardığı halda, Vitsenşteyn onun fikrini oxuyaraq, ifadə etməyə kömək edirdi. Bu cür istedad ətrafdakılar tərəfindən fövqəltəbii qabiliyyət kimi qəbul olunsa da, bu, daimi tədqiqatlar və müşahidələr sayəsində mümkün olmuşdur.

Norman Malkolm. «Lüdviq Vitsenşteyn», 1958.

Həkim pasiyentləri üçün əlçatmaz olub, ayna kimi özündə əks olunan keyfiyyətləri və vəziyyətləri onlara göstərməlidir.

Ziqmund Freyd, 1856–1939.

rürdü. Saray bu cür fantaziyaların həyata keçməsinə kömək etmirdi. Bu səthi, bayağı mühit isə Lüdoviki darıxdırırdı.

Mariya şahzadənin ürəyinə gedən yolun onun romantik arzularını güzgüdə olduğu kimi əks etdirməkdən keçdiyini anladı. İlk əvvəl, o, şahzadənin oxuduğu romanları, poema və pyesləri oxudu. Lüdovikin onunla söhbət etməyi qərara aldığı zaman isə, Mariya, bütün qadınlar kimi, dəb və şayiələr haqqında deyil, gələcək kralı maraqlandıran mövzu barəsində danışmağa başladı. O, şahzadənin şöhrət yanğısını susduraraq, dahi kral obrazını mədh edib, onun fantaziyasını oyatdı.

Mariya ilə tez-tez görüşən şahzadənin ona heç yaraşmayan qıza aşiq olduğu heç bir şübhə doğurmurdu. Mariyanın anası ilə bacılarının heyrətinə səbəb olan vəziyyət Lüdovikin Mariya Mançiniyə diqqət yetirməsi idi. O, Mariyanı özü ilə hərbi görüşlərə apararaq, onun üçün ən rahat yer seçirdi. O, Mariyaya evlənəcəyinə və kraliça edəcəyinə vəd verdi.

Mazarini kralın Mariyaya evlənməsinə heç cür yol verə bilməzdi: bu nikah Fransa üçün sərfəli deyildi. Belə ki, o, Avropanın kral ailələrində müttəfiqlər və diplomatik dairələr ilə əlaqə qurmağa icazə vermirdi. Lüdovik İspaniya və yaxud Avstriya şahzadəsinə evlənməli idi. 1658-ci ildə Lüdovik təzyiqə davam gətirməyib, ilk romantik məhəbbətindən imtina etməyə razı oldu. O, bu təklifə çox böyük çətinliklə razılıq versə də, ömrünün sonunda, heç kimi, Mariya Mançini qə-

dər sevmədiyini etiraf etdi.

İZAHI

Mariya Mançini təbiətinə görə yoldan çıxartma inikasını məharətlə tətbiq etmək istedadına malik idi. O, kənara çəkilərək, obyektini müşahidə edirdi. Bu cür insanlar aqressiv olduqları halda, tez-tez uğursuzluqla qarşılaşırlar. Burada atılan ilk addım geriyə çəkilmə olmalıdır. Lüdoviki uzaqdan öyrənən Mariya şahzadəni ətrafdakılardan fərqləndirən məziyyətləri – onun ali ideallarını, romantik varlığını, xırdaca siyasət ilə sarayın fitnə-fəsadına nifrətini açıq-aydın görürdü. Mariyanın növbəti gedişi Lüdovikin məxfi arzularını əks etdirən aynanın yaradılması oldu. Şahzadə bu aynada arzuladığı gələcəyini, özünü tanrı qədər sevimli kral kimi gördü.

Bu aynanın bir çox təyinatı var idi: o, Lüdovikin əksini görməyə kömək edərək, onun mənini əyləndirib, yalnız Mariyanın onun üçün yaranmış qadın olduğuna inandırırdı. Şəxsi maraqlarını üstün tutan saray fitnə-fəsadı ilə əhatə olunmuş Lüdovik, bu hiylə qarşısında tab gətirə bilmədi. O, Mariya Mançininin aynasında həyat idealını gördü: bu ideal orta əsrlərin xeyirxah cəngavəri idi. Romantik və şöhrətpərəst ürəyi, onun əksi olan digər insanı cəlb edirdi. Həqiqətdə isə, bu obraz günəş kralı idi. Bu obraz Mariya Mançininin xəlq etdiyi varlıq idi. Sonralar Lüdovik bu obrazın yaradılmasında Mariya Mançininin əvəzolunmaz rolunu dəfələrlə vurğulayırdı.

Yoldan çıxaranın inikasının hakimiyyəti məhz bu cürdür: hədəfinin zövqü ilə ideallarını əks etdirən güzgü ona və onun psixologiyasına diqqət nümayiş etdirirdi. Bu diqqət aqressiv təzyiq ilə təqibdən fərqli olaraq, daha böyük təsir gücünə malik idi. Ətrafdakıların nəyə qarşı laqeyd olmadıqlarını, nəyin nəticəsində ağıllarını itirdiklərini aydınlaşdıraraq, bütün bunları əks etdirib, özlərinə qaytarın. Onların ideallarını əks etdirib, onları hakimiyyət və qüdrət haqqında arzular ilə qidalandırın. Onlar sizə tabe

olacaqlar.

İNİKAS SƏMƏRƏSİNƏ RİAYƏT OLUNMASI (4)

Strateji psixoterapiya sahəsinin pioneri olan Milton X. Erikson pasientlərinə bilavasitə deyil, inikas səmərəsinin tətbiqi ilə təsir etdiyi zaman gözəl nəticələr əldə edirdi. Ailələr Eriksona seksual problemlər ilə müraciət etdikdə, o, ənənəvi psixoterapevtik təcrübənin ailəni qarşılaşdıraraq, problemin müştərək müzakirəsindən sonra ailənin daxili müqavimətini gücləndirib, ziddiyyətlərin kəskinləşməsinə səbəb olduğunu aşkar edirdi. O, əksinə, ər ilə arvadı digər insanların problemlərinə cəlb edərək, hər iki vəziyyətdə oxşarlığı tapmağa çalışırdı.

Bir dəfə bir ailə növbəti seans zamanı qidaya münasibətlərini müzakirə edərək, naharı daha dərindən təhlil edirdi. Qadın tələsmədən nahar etməyi xoşlasa da, bu, əri hövsələdən çıxardır və o, nahara vaxt sərf etməməyi üstün tuturdu. Söhbət davam etdikcə, ailə baxışları ilə mübadilə edib, nahar ilə yataq münasibətlərində oxşarlıq tapdılar. Lakin bu zaman Erikson mövzunu, yəni real problem haqqında söhbəti dəyişdi.

Ailə həkimin onlar ilə daha yaxından tanışlıq arzusunda olduğunu, problemin həllinə isə növbəti görüş zamanı başlayacağını düşünürdü. Lakin ilk seansın sonunda Erikson onlara hər iki zövqə cavab verən nahar təşkil etməyi tövsiyə etdi: xanım böyük zaman kəsiyini əhatə edən, kişi isə istədiyi miqdarda nahar etməli idilər. Həkimin hansı məqsəd güddüyünü anlamadan, ailə problemin mahiyyətinə özləri də hiss etmədən varıb, gecəni həkimin güman etdiyi kimi başa çatdırdılar. Naharın ən yüksək səviyyəli versiyası eyni notlar ilə yataqda tamamlandı.

Şizofreniya fantaziyasının inikası aləmi kimi daha ciddi problem ilə qarşılaşan Erikson bu aynanın arxasına keçərək, orada işləməyə cəhd edirdi. Bir dəfə, o, İsa peyğəmbər olduğunu israr edən pasienti müalicə etməli oldu. Xəstə döşəkağıya bürünərək, töv-

rat hekayələrini söyləyərək, xəstəxananın həkim heyəti ilə xəstələri tövbə etməyə çağıran moizələr ilə bezdirirdi. Ona dərmanlarla müalicə üsullarının heç biri kömək etmirdi. Bir gün Erikson gəncə yaxınlaşaraq dedi: «Mənim sizin xarrat qabiliyyətinizdən xəbərim var». Özünü İsa peyğəmbər adlandıran pasient bu cür təcrübəyə malik olduğunu etiraf etməyə məcbur idi. Bunu eşidən Erikson xəstəyə kitab rəfləri ilə digər əşyaları düzəltməyi həvalə etdi. Həkim xəstəyə əbasını taxmağa da icazə verdi. Xəstə bir neçə həftə ərzində işi ilə məşğul oldu. Onun zehni boş xülyalardan azad olub, əməyə yönəldi. Xarrat işinə daha dərindən aludə olan gəncin şüurunda böyük dönüş baş verdi: dini fantaziyalar arxa plana keçərək, gəncə cəmiyyətdə müəyyən yer tutmasına imkan verdi.

İZAHI

Ünsiyyət dilin əsasını təşkil edən metaforalar ilə işarələrə istinad edir. Metafora – özünəməxsus ayna olub, konkret və real təzahürləri əks etdirir. O, bəzən təsvirdən daha aydın olur. Ətrafdakıların əyilməz dəyanəti ilə qarşılaşdıqda, bilavasitə ünsiyyət müqaviməti gücləndirməyə təhrik edir.

İnsanların davranışını müzakirə edərək, onların nöqsanlarına işarə olunduğu təqdirdə, bu daha aydın şəkildə təzahür edir (məsələn, məhəbbət sahəsində). Siz həkim Erikson kimi əməli nəticələr əldə etdikdə, simvolik ayna quraraq, digərini aynanın arxasına aparın. «İsa peyğəmbər» tövrat hekayətlərinin ibrət dərsi verməyin ən yaxşı üsulu olduğunu dərk edirdi. Çünki hekayət insanlara həqiqəti sərbəst şəkildə əldə etməsinə icazə verir.

Fantaziya aləminin inikasında itən insanlar ilə iş görərkən (sağlam insanlar ilə), onları reallığa doğru itələməyə, aynalarını sındırmağa cəhd göstərməyin. Onların aləminə daxil olun və bu mühitin qaydaları ilə hərəkət edərək, onları aynalı zaldan ehtiyatla çıxarın.

İNİKAS SƏMƏRƏSİNƏ RİAYƏT OLUNMASI (5)

XVI əsrin çay dəstgahının dahi ustası Takeno Şo bir evir yanından keçərkən evin giriş qapısında çiçəkləri suvaran gənci gördü. Şonun diqqətini iki məqam cəlb etdi: birincisi, gəncin işində müşahidə olunan incəlik və ikincisi, bağda çiçək açmış gözəl gibiskus çiçəyi idi. O, ayaq saxlayaraq, özünü gəncə təqdim etdi. Gəncin adı Senno Rikyu idi. Şo ləngimək istəsə də, əvvəlcədən təyin olunmuş görüşə tələsməli idi. Rikyu Şonu ertəsi gün çaya dəvət etdi. Şo təklifi sevinərək qəbul etdi.

Növbəti gün Şo darvazanı açdığı zaman bağçada bir gülün də qalmadığını görərək, dəhşətə gəldi. O, daha çox gibiskus çiçəyini görmək istəyirdi. O getməyi qərara alsa da, Rikyunun çay otağına girdi. Otağa daxil olan Şo yerində donub qaldı: otaqda güldanın içinə gibiskus çiçəyi qoyulmuşdu. Senno Rikyu qonağın fikrini oxuduğu üçün, həmin gün, qonaq ilə ev sahibinin tam harmoniya təşkil etdiyini incəliklə nümayiş etdirdi.

Senno Rikyu yekun nəticədə çay dəstgahının dahi ustası oldu. Onun fərqləndirici cəhəti qonaqların fikirləri ilə uyğunluğunu sezmək qabiliyyəti idi. Rikyu insanları onların vərdişlərini, adət-ənənələrini öyrənməklə heyran edirdi.

Bir dəfə Rikyu yumor hissinə malik, çay dəstgahının həvəskarı Yamaşima Xeçiquan tərəfindən çay dəstgahına dəvət olundu. Rikyu Xeçiquanın evinə gəlib, bağçanın qapısının bağlı olduğunu gördü. Qapını açıb ev sahibini axtarırdı. Darvazanın o tayında kimin isə çala qazdığını gördü. O, çalaya torpaq töküb üstünü örtdü. O, Xeçiquanın onunla zarafat etmək istədiyini anlayaraq, çalaya girib paltarını çirkləndirirdi.

Ev sahibi gözlənilmədən Rikyunun yanına qaçaraq, onu vanna otağına yola saldı. Rikyu vanna qəbul etdikdən sonra ev sahibinə qoşulub, bir az əvvəl baş vermiş hadisəni xatırlayaraq, çay dəstgahından həzz alıb, gülümsündü. Senno Rikyu dostuna əvvəlcədən hazırlanmış zarafatdan xəbər tutduğunu izah etdi: «Mən ev sahibinin arzuları ilə hesablaşmağın vacib olduğunu anlaya-

raq, çalaya girməyi qərara aldım. Çay dəstgahı bir-birinə yarınmağı nəzərdə tutur: lakin qonaq ilə ev sahibinin harmoniya təşkil etmədiyi çay dəstgahı isə çay dəstgahı deyildir». Senno Rikyunun palçıqda çapaladığını görən Xeçiquan əylənsə də, Rekyunun buna cavab olaraq zarafata zarafat ilə cavab verdiyini gördü.

İZAHI

Senno Rikyu sehrbaz və yaxud bəsirətli insan olmasa da, ətrafdakıları diqqətlə müşahidə edirdi. O, məxfi arzuları açıqlayan kiçik jestləri nəzərə alaraq, daha sonra bu arzuların təsvirini canlandırırdı. Şo çiçək açmış gibiskusun ona nə kimi təəssürat bəxş etməsi haqqında heç bir zaman söhbət açmasa da, Rikyu onun nəzərlərindəki heyranlığı oxudu. Dostunun arzusu palçığa batma olduğu halda, bunu icra etmək lazım idi. Rikyunun qüvvəsi saray inikasına məharətlə sahib olmağa yönəlmişdi. Saray inikası ona ətrafdakıların gözü qarşısında fövqəltəbii qabiliyyətlərin sahibi təəssüratını yaradırdı.

Saray İnikası ilə davranmağı öyrənin. Belə ki, o, hakimiyyət verir. İnsanların gözlərindən oxumağı, onların jestlərini anlamağı bacarın – bu, sözsüz, ən gözəl vasitədir. Hər bir detalı nəzərə alaraq, unutmayın – buraya paltar, dostların seçimi, məişət vərdişləri, müəyyən qaydalar şamil olunur – onlar məxfi və həyata keçməyən arzuları açıq-aydın əks etdirir. Bütün bunları hopduraraq, aynada əks etdirin. Bu, hakimiyyətin açarıdır: insan sizə öz arzusunu bildirmədiyi halda, onun arzusunu yerinə yetirin. Belə olan halda, onun sevinci hədsiz olacaqdır. Belə ki, siz onun arzusunu gözlərindən oxumuş, onun söyləməsinə ehtiyac qalmamışdır. Unutmayın: sözsüz ünsiyyətin, gizlin iltifatın, lütfkarlığın möhtəşəm hakimiyyəti vardır. Heç kim Saray İnikasının cadugərlik ovsunu qarşısında dayana bilməz.

İNİKAS SƏMƏRƏSİNƏ RİAYƏT OLUNMASI (6)

İstedadlı fırıldaqçı Körpə Veyl ən parlaq fırıldaqlarında Yalançı İnikasından istifadə edirdi. İndiana ştatının Mansi şəhərciyində bankın yaradılması böyük təəssürat oyadan hadisələrdən biri idi. Bir dəfə Veyl qəzetdə Ticarət bankının köçürülməsi haqqında məqalə oxudu. O, yeganə imkanını əldən verə bilməzdi.

Veyl otaqlarında hələ də bank mebeli olan kassa pəncərələrinin qaldığı Ticarət bankının keçmiş binasını icarəyə götürdü. O, pullar üçün kisə alaraq, üzərinə bankın möhürünü vurub, içini kağızla doldurdu. Bu kağızların üzərinə bir qədər əsl əsginazlar səpələnmişdi. O, bu kisələri pəncərənin arxasına düzdü. O, bank heyəti ilə müştərilərinin rolunu ifa edən fırıldaqçıları, qumarbazları, fahişələri topladı. Onun hətta yerli başkəsənlərin arasından seçdiyi bank xəfiyyəsi də var idi.

Veyl broker olduğunu və bankın verdiyi investisiyalar üzrə kağızların yayılması ilə məşğul olduğunu elan etdi. Tələyə sadəlövh milyonçu düşdü. Veyl ilə müştəri banka gəldilər. Veyl prezident ilə görüşməyin mümkün olub-olmadığını soruşdu. Bank «xidmətçisi» gözləməyi xahiş etdi. Bank prezidenti ilə görüşmək üçün gözləmək lazım gəldiyindən, ətrafda baş verən hadisələr həqiqətə uyğun idi. Onlar kənarda oturub gözlədikləri zaman isə, bankda həyat qaynayırdı: fahişələr ilə fırıldaqçılar ora-bura tələsərək, müştərilər ilə xidmətçiləri təqlid edirdilər. Bu xoş xülyaya aldanmış sadəlövh milyonçu heç nədən şübhələnmədən, saxta banka 50000 dollar əmanət qoydu.

Veyl bu üsulu atılmış yaxt-klubda, boşaldılmış broker dəftərxanasında, başqa yerə köçmüş rielter agentliyi və qumarxanada da tətbiq etdi.

İZAHI

Reallığın təqlid olunması yalan üçün geniş imkanlar açır. Əsl uniforma, gözəl tələffüz, əsl aksessuarlar – reallığa oxşar yalan heç bir zaman ifşa olunmur. İnsanlar sadəlövh olduqlarından, inanmağa ehtiyac duyaraq, reallığa oxşayan dekarasiyanı böyük məmnuniyyətlə qəbul edirlər. Ən nəhayət, sizi əhatə edən hər bir şeyə şübhə ilə yanaşaraq yaşamaq olmaz. Bu, darıxdırıcıdır. Biz, adətən gözlərimiz ilə gördüklərimizə inanırıq. Bu, yüngülbeyinlikdən isə məharətlə istifadə etmək olar.

Bu cür oyunda ilk məqam daha vacibdir. Sizin qurbanlarınızın aynaya baxan zaman şübhələri meydana çıxmırsa, o zaman onlar sizin təsirinizdən azad ola bilməyəcəklər. Sizə məxsus olan aynalı zala bir dəfə daxil olan qurbanlar həqiqəti yalandan fərqləndirmək qabiliyyətini itirirlər. Onları aldatmaq üçün isə, sizdən cüzi hərəkət tələb olunur. Unutmayın: sizi əhatə edən mühiti öyrənərək, onu əks etdirməyə çalışın. Bu təzahürdə bu mühitin vərdişləri, dövranın tərzi, siması da əksini tapmalıdır. Siz çəməndə bitən otların arasında həşəratları məhv edən yabanı bitkiyə oxşamayacaqsınız. Çünki təqlid etmə qabiliyyətiniz əvəzedilməzdir.

MÖTƏBƏR FİKİR

«Hərbi əməliyyatın əsas tapşırığı – yalan yolu ilə düşmənlərin niyyətləri ilə uyğunluğa nail olmaqdan ibarətdir... İlk əvvəl onlara istədiklərini verərək, onları qabaqlayın. Nizam-intizama riayət edərək, düşmən ilə eyni mərtəbəyə nail ol... Sən xidmətçi qıza oxşayırsan. Düşmən qapını sizin üzünüzə açır. Siz dovşan kimi azad, sərbəst olduğunuz üçün sizi tutub saxlaya bilməzlər.»

Sun-tszı.

OBRAZ:

PERSEYİN QALXANI

O cilalandığı üçün aynaya çevrilmişdi. Meduza sizi görmür.

Yalnız onun bədheybət görüntüsü bu aynada əks olunur. Siz bu cür aynanın köməyi ilə yalan danışa, istehza edə, insanı quduzluq vəziyyətinə sala, bir zərbə ilə, bunu gözləməyən Meduzanın boynunu vura bilərsiniz.

XƏBƏRDARLIQ:
ƏKS OLUNAN VƏZİYYƏTLƏRDƏN EHTİYAT EDİN

Aynanın qüdrətli hakimiyyəti olsa da, onlar əvvəllər baş verən hadisələri xatırladan əks olunan vəziyyətlər kimi yoxa çıxırlar. Bəzən oxşarlıq, səthi olaraq, üslub ilə xarici görkəmdən ibarət olur. Siz heç bir şeyi dərk etmədən, bu cür vəziyyətə düşə bilərsiniz. Çox hallarda müqayisə xeyrinizə olmur. Siz sizi təqlid edən insandan zəif görünürsünüz. Bu, haqqınızda mənfi təəssüratlar yaradır.

1864-cü ildə bəstəkar Rixard Vaqner Qu quşu Kralı və yaxud Bavariyanın Dəlisov Kralı ləqəbini daşıyan II Lüdovikin əmri ilə Münhenə köçdü. Lüdovik Vaqnerin heyranı və himayədarı idi. Onun səxavəti bəstəkarı təsiri altına aldı. Münhendə məskunlaşan bəstəkar ürəyindən keçən hər bir hərəkəti icra edə, hər bir sözü söyləyə bilərdi.

Vaqner böyük və geniş, gözəl təchiz olunmuş, onun üçün xüsusi olaraq kral tərəfindən alınmış evə köçdü. Bina kralın babasını əqidəsindən, dinindən üz döndərməyə məcbur edən məşhur fahişə Lola Montesin keçmiş evinin iki addımlığında yerləşirdi. Vaqnerə bu cür qonşuluğun pis təəssüratlar yaratması haqqında xəbərdarlıq etdikdə, bəstəkar güldü. O, «mən Lola Montes deyiləm» deyə, cavab verdi. Tezliklə Münhenin sakinləri kralın bəstəkara bu qədər vəsait sərf etdiyini bəyənməyərək, onu «ikinci Lola» və yaxud «Lolotto» adlandırırdılar. O, özü də hiss etmədən Lolanın yolu ilə gedir, özünü qeyri-adi apararaq, israfçılıq edib, nəinki musiqiyə müdaxilə edir, hətta krala siyasət və

dövlət işləri ilə bağlı məsləhətlər verirdi. Lüdovikin Vaqner ilə həddindən artıq maraqlanması kralın nüfuzuna xələl gətirirdi. Bu, onun babasının Lola Montesə qarşı bəslədiyi məhəbbətə bənzəyirdi.

Ən nəhayət, kralın əyanları ona məktub ilə müraciət etdilər: «Əlahəzrət, siz hal-hazırda yolayrıcında dayanmısınız. Siz xalqın məhəbbəti ilə Rixard Vaqnerin «dostluğu» arasında seçim etməlisiniz». 1865-ci ilin dekabr ayında Lüdovik dostundan Münheni tərk etməsini və heç bir zaman qayıtmamasını xahiş etdi. Vaqnerin aqibəti Lola Montes kimi oldu. Onun bütün hərəkətləri Bavariya sakinlərinə bu xoşagəlməz qadını xatırladırdı.

Taun kimi xoşagəlməz təəssüratlardan qorxaraq, onlardan qaçın. Siz bu cür vəziyyətdə hakimiyyətinizi itirirsiniz. Nəzarət altından çıxmış hər bir vəziyyət isə çox təhlükəlidir. İnsan ilə hər bir hadisə xoş xatirələr oyatmadıqda isə, xeyrinizə olmayan daimi müqayisələrdən ömrü boyu əziyyət çəkəcəksiniz. Çünki keçmiş həmişə əzəmətli, indiki dövr ilə müqayisədə gözəl olur. Siz ətrafdakıların nəzərində keçmiş hadisələr ilə bağlı təəssüratlar oyatdığınızı hiss etdiyiniz halda, onları bu xatirələrdən uzaqlaşdırmaq və aynanı sındırmaq üçün əlinizdən gələni əsirgəməyin.

QIRX BEŞİNCİ QANUN

DƏYİŞİKLİKLƏRİN ZƏRURƏTİNİ TƏBLİĞ ETSƏN DƏ, İSLAHATLARA ÇOX ALUDƏ OLMA

QANUNUN MAHİYYƏTİ

Hər kəs dəyişikliyə olan tələbatı dərk etməkdən uzaq olsa da, bu gün ilə yaşayan insanları vərdiş formalaşdırır. Onlar daha böyük dəyişikliklərə narazılıqla yanaşırlar, bu isə qiyamla nəticələnir. Siz hakimiyyətin zirvəsində naşı olub, ona çatmağa çalışırsınızsa, köhnə iş metodlarına dərin ehtiram nümayiş etdirməklə tamaşa qurun. Dəyişikliklərin zəruri olduğu təqdirdə, onlara keçmişin müsbət çalarlarını verin.

QANUNUN POZULMASI

Bir daha bəzi tarixi faktları xatırlayaq. 1520-ci illərin əvvəllərində İngiltərə kralı VIII Henrix həyat yoldaşı Yekaterina Araqonskaya ilə boşanmağı qərara aldı. Çünki o, krala oğul bəxş edə bilmirdi və kral daha gənc və gözəl olan Anna Boleyni sevirdi. Boşanmanın əleyhinə olan papa VII Kliment krala kilsənin onun hakimiyyətini dəstəkləməyəcəyi ilə hədə-qorxu gəlirdi. Kralın nüfuzlu əyanı kardinal Uorsi də boşanmanın məcburi olmadığını hesab edirdi. Kardinalın kralı dəstəkləməsində nümayiş etdirdiyi ətalət ilə qətiyyətsizliyi ona baha başa gəldi. O, ilk əvvəl yüksək mövqeyindən, daha sonra isə həyatından məhrum edildi.

Kralın əyanlarından biri Tomas Kromvel isə, nəinki Henrixin boşanma arzusunu dəstəkləyir, hətta bunu həyata keçirməyin yolunu da tapmışdı: keçmişdən tamamilə uzaqlaşmaq. O, krala Yekaterinadan boşanaraq, Annaya evlənmək üçün Roma ilə əlaqəni kəsərək, ingilis kilsəsinə rəhbərlik etməyi tövsiyə etdi. 1531-ci ildə Henrixə başqa çıxış yolunun olmadığı aydın oldu. O, Kromveli bu cür sadə və parlaq ideyaya görə mükafatlandırmaq üçün, onu – dəmirçi oğlu olan bu adi taciri kral müşaviri vəzifəsinə qədər yüksəltdi.

1534-cü ildə Kromvel kral katibi təyin olundu və güclü təsir qüvvəsinə malik olması, onu İngiltərənin ən qüdrətli şəxsiyyətinə çevirdi. Lakin Roma ilə əlaqələrin kəsilməsinin arxasında kralın cismani tələbatının təmin edilməsindən savayı, özünəməxsus siyasət də dururdu: Kromvel İngiltərədə yeni protestant qayda-qanunu qurmaq niyyətində idi. Onun köməyi ilə, əzəmətli katolik kilsəsini tamamilə darmadağın edib, saysız-hesabsız sərvətini kral ilə hakim dairələrin ixtiyarına vermək olardı. O, həmin il İngiltərənin bütün kilsələri ilə monastırlarında təftiş keçirdi. Yoxlamalar nəticəsində yüzilliklər ərzində toplanan kilsə sərvətinin qat-qat çox olduğu məlum oldu. Tomasın casusları bu barədə sarsılmış şəkildə məruzə edirdilər.

Fikirləşdiyinə bəraət qazandırmaq istəyən Kromvel, İngiltərə monastırlarında hökm sürən qanunsuzluqlar, hakimiyyətdən sui-istifadə, hüzurunda xidmət göstərməli xalqın istismar olunması haqqında şayiə yaydı. Parlamentin monastıra müdaxilə etməsinə yol verən köməyinə arxalanan Kromvel, kilsə əmlakını müsadirə edərək, monastırları bi-r-birinin ardınca bağladı. Eyni zamanda, o, protestantizmi yayaraq, kilsə ayinlərində dəyişikliklər etdi. Katolik kilsəyə sadiq çıxan insanları kafir adlandırıb sürgün etdirdilər. İngiltərə bir gecə ərzində yeni rəsmi din qazandı.

Ölkədə terror başlandı. İslahatlara qədər güclü hakimiyyətə malik olan katolik kilsəsindən ziyan çəkən insanlar tapılsa da, britaniyalıların bir çoxu katolisizm və onun tə-

MİLAD BAYRAMININ MƏNŞƏYİ

Yeni il bayramı – qədim adət-ənənədir. Romalılar dekabrın 17-dən 23-nə kimi məhsul Allahı Saturnun bayramını qeyd edirdilər. Bu, ilin ən şən bayramı idi. Hər bir iş və ticarət dayandırılır, kütlələr küçələrə axışır, ətrafda karnaval əhval-ruhiyyəsi hökm sürürdü. Qulları müvəqqəti olaraq azadlığa buraxır, evləri dəfnə yarpaqları ilə bəzəyirdilər. İnsanlar bir-birinin evinə qonaq gedərək sovqatlar, hədiyyələr aparırdılar. İsa peyğəmbərin dünyaya gəlməsindən çox-çox əvvəl iudeylər həmin ilin eyni günündə dünyanın 8-ci gününü bayram edirdilər. Alman tayfalarının da baharda günün bərabərləşməsi ilə, qış aylarında günəşin çıxmasını bayram etmələri faktı da qeyd olunurdu. Onlar belə vaxtlarda Botan və Freya, Donar (Tora) və Freyr Allahlarına ibadət edirdilər. Hətta imperator Konstantin (er. 306–337-ci illəri) xristianlığı Roma imperiyasının rəsmi dini elan etdikdən sonra da, qış mövsümünün ortalarında xristianlığa qədərki bayramların vacib tərkib hissəsi olan

səlliverici ayinlərinə bağlı idilər. Onlar məbədlərin dağıdılmasına, madonna və digər müqəddəslərin təsvirlərinin parça-parça, vitrajların darmadağın, kilsə xəzinələrinin isə talan edilməsinə dəhşətlə baxırdılar. Kasıblar ilə səfillərə sığınacaq verən monastırların qarət edilərək, bağlanmasından sonra, yüzlərlə insan küçədə qaldı. Dilənçilərin sayı durmadan artırdı. Onların sıralarına keçmiş monarxlar da daxil olurdular. Kromvel kilsə islahatlarının xərcini ödəmək üçün vergiləri kəskin şəkildə çoxaltdı.

1535-ci ildə İngiltərənin şimalını sarsıdan güclü qiyamlara Henrixin taxt-tacı güclə tab gətirdi. Növbəti ildə Henrixə qiyamları yatırtmaq nəsib olsa da, Kromvel islahatlarının hansı məqsəd güddüyünü kral anladı. O, həddini aşmaq istəmir, yalnız boşanma arzulayırdı. Bununla da, Kromvel, kralın islahatları tədricən ləğv edərək, katolizmin müqəddəs adət-ənənələrini və dini ayinlərini nə cür bərpa etməsinə həyəcanla tamaşa etməli oldu.

Mövqeyini itirdiyini hiss edən Kromvel, 1540-cı ildə Henrixin etimadını yenidən doğrultmağı qərara aldı: o, kral üçün yeni xanım tapdı. Üçüncü həyat yoldaşı Ceyn Seymur vəfat etdiyindən, Henrix yenidən evlənmək istəyirdi. Bu işdə ona yardımçı Kromvel oldu: alman şahzadəsi, protestant Anna Klevskaya. Kromvelin sifarişinə əsasən, rəssam Qolbeyn Annanın füsunkar şəklini çəkdi. Şəkli görən Henrix şahzadəyə bir könüldən

məhsuldarlıq və işıq haqqında xatirələri tamamilə sıxışdırmadı. 274-cü ildə Roma imperatoru Avreli (214-275-ci illər) Günəş Allahı Mitranın ayinlərini bəyan edərək, onun doğum günü olan 25 dekabrı milli bayram kimi elan etdi. Persiyadan Kiçik Asiya vasitəsilə Yunanıstana və Romaya, oradan isə Alman torpaqları ilə Böyük Britaniyaya yayıldı. Onun çoxsaylı məbədlərinin xərabələri Mitraya məhsuldarlıq, sülh və Qələbə Allahı kimi ibadət etmələri (xüsusilə də legionerlərin) haqqında şəhadətlik edir. Buna görə də, papa Liberiyanın (352–366-cı illər) rəhbərlik etdiyi xristian kilsəsi düşünülmüş və müdrik addım ataraq, 354-cü ildən etibarən Mitra bayramını ləğv edib, 25 dekabr gününü İsa peyğəmbərin doğum günü elan etdi.

Anna Süzanna Rişke. «Hoye Sürxer Saytunq» 25 dekabr 1983-cü il.

min könülə aşiq olub, nikaha razılıq verdi. Kromvel sanki əvvəlki mövqelərini qaytara bilmişdi.

Lakin çox təəssüflər olsun ki, Qoldbeynin portreti şahzadəni həddindən ziyadə vəsf etmişdi. Kralın şahzadə ilə görüşü peşmançılıq ilə nəticələndi. Onun qəzəbi Kromvelin başında çatladı – kral uğursuz islahatlardan narazı idi. İndi isə çirkin protestant qızını ona evlənmək üçün təklif etmişdilər. Henrix daha gözləmək istəmirdi. 1540-cı ilin iyun ayında Kromvel kralın əmri ilə həbs olunub, xəyanətdə, protestant ekstremizmində günahlandırılaraq, kafir adlandırılıb, Tauer qalasına sürgün edildi. Altı aydan sonra, o, böyük kütlənin gurultulu səsinin müşayiəti ilə edam olundu.

İZAHI

Tomas Kromvel çox sadə üsul ilə – katolik kilsəsinin hakimiyyəti ilə sərvətindən protestantizmin əsasının qoyulması naminə istifadə olunması mühakiməsini yürüdürdü. Bu niyyətini isə, o, qısa müddətdə həyata keçirmək istəyirdi. O, sürətli islahatların narazılıq doğuracağını bilsə də, bu qiyamın tədricən sönəcəyinə inanırdı. O, yeni dəyişiklikləri həyata keçirməklə, yeni qayda-qanunun rəhbəri olaraq, hakimiyyət əldə edəcəyini düşünürdü. Belə olan təqdirdə, kral da ona tabe olacaqdı. Lakin onun planının qüsuru var idi: o, bilyard topu kimi böyük sürətlə divara dəydi. Kromvelin müqavimət ilə

rastlaşan islahatları məğlub oldu. O, bu cür müqavimətlərə sinə gərmək iqtidarında deyildi.

Radikal islahatların təşəbbüskarı əksər hallarda günahsız qurbana çevrilir. Ən nəhayət, bu cür islahatlara qarşı cavab reaksiyası onun həyatına son qoyulması ilə nəticələnməsinin də ehtimalı böyük olur. Belə ki, insan təbiəti hətta müsbət nəticələr ilə tamamlanan dəyişiklikləri də çətinliklə qəbul edir. Qədim əsrlərdən indiyə kimi kainat qorxu və inamsızlıq üzərində bərqərar olub. Biz tanış simalara doğru can ataraq, kainatı daha rahat şəklə salan vərdişlər ilə ayinlərə istinad edirik. Dəyişikliklər xoş təəssürat bağışlayan olsa da, biz onları mücərrəd şəkildə arzulayırıq. Lakin dəyişikliklər həyatın bir çox sahələrinə sirayət etdikdə, bu, narahatlıq doğurur. O, ilk əvvəl gizli şəkildə qızışsa da, sonradan vulkan kimi partlayaraq üzə çıxır.

Sizi əhatə edən insanların gizli mühafizəkarlığını qiymətləndirməmək qəbahətdir. O, dərin kök salmışdır. Yenilik iddiasının şüurunuzu dumanlandırmasına heç bir zaman yol verməyin: siz insanları dünyaya sizin gözünüz ilə baxmasına məcbur edə bilməzsiniz. Məhz buna görə də, onları xoşbəxt gələcəyə ağrıverici dəyişikliklər yolu ilə qovmaq olmaz. Onlar qiyam qaldıracaqlar. İslahatların zəruri şəkil aldığı təqdirdə, onlara qarşı yönəlmiş reaksiyanı qabaqlayaraq, zəhəri şərbətə çevirməyin yolunu tapıb, dəyişiklikləri maskalamağa çalışın.

QANUNA RİAYƏT OLUNMASI

1920-ci illərdə gənc kommunist Mao Tszedun, məsləkdaşlarından fərqli olaraq, Çində kommunizmin qələbə çalmasının nə qədər vacib olduğunu dərk edirdi. Hərbi təcrübəyə, silaha və təchizata malik olmayan vəsaitsiz partiyanın heç bir şansı yox idi. Müvəffəqiyyətin əldə olunacağına yeganə ümid – Çinin kəndli əhalisinin dəstəyi idi. Lakin kök salmış qaydalara, qədim adət-ənənələrə malik olan Çin kəndlisindən daha mühafizəkar heç nə yoxdur. Qədim sivilizasiyanın tarixində ölkəni bürüyən qızğın üsyanların baş qaldırmasına baxmayaraq, hakimiyyət heç bir zaman zəifləmirdi. Konfusi ideyaları XX əsrin əvvəllərində də, eramızdan əvvəl VI əsrdə olduğu kimi, aktual olaraq qalırdı. Müasir rejimin əsarətinə baxmayaraq, kəndli cəmiyyəti dahi naməlum kommunizm naminə minilliklər ərzində kök salmış qaydalardan imtina edəcəkdirmi?

Maonun qərarı yalana əsaslanırdı: inqilabı keçmişin qiyafəsinə geyindirərək, ona xalqın gözləri qarşısında təsəlliverici və şüurlu görkəm vermək. Maonun ən sevimli kitablarından biri də orta əsrlərin məşhur Çin romanı «Çay körfəzləri» idi. Bu əsərdə Çin Robin Qudu ilə onun quldur dəstəsinin zülmkar və çürümüş monarxiyaya qarşı mübarizəsini əks etdirən əhvalatlar canlanırdı. Çində Mao dövründən ailə əlaqələrinə daha çox qiymət verilirdi. Belə ki, yüksək pilləsi ata ilə oğula məxsus olan konfusi iyerarxiyası ictimai şüurda kök salmışdı. «Çay körfəzləri» əsərində ali idealları – quldurlar dəstəsində qardaşlıq əlaqələrini, xeyirxah işə sədaqəti vəsf edirdilər. Xeyirxah işə sədaqət Çin əsatirlərindən də öhkəm idi. Roman çinlilər arasında böyük emosional rezonansa malik idi. Onların simpatiyaları ənənəvi olaraq zəiflər ilə istismar olunanların tərəfində idi. Buna görə də, Mao daim romanın surətləri ilə inqilabi ordu arasında paralellər apararaq, onu xeyirxah qardaşlığın davamiyyəti ilə geniş şəkli kimi təqdim edib, hakimiyyət uğrunda mübarizəni istismar olunan kəndli zümrəsinin əzazil imperator ilə vaxtaşırı mübarizəsinə bərabər tutur. O, kommunist məqsədlərini keçmişin qiyafəsinə geyindirirdi. Kəndli zümrəsi heç bir ehtiyat etmədən dəstəyə yardım edirdi.

Lakin partiya hakimiyyətə sahib olduğu zamanda, Mao keçmiş ilə maskalanmaqda davam edirdi. O, özünü çinli kütlələrə qarşı çinli Lenin kimi deyil, III əsrdə yaşayan dahi Şu Çjuqe Lyan kimi təqdim edirdi. Real tarixi şəxsiyyət Çjuqe Lyan əfsanəvi qəhrəman olub, «Üçsəltənət» kimi populyar tarixi romanda əhə-

miyyətli rol oynamışdır. Çjuqe Lyan istedadlı sərkərdədən başqa şair, filosof və sərt əxlaqi prinsiplərin nümunəsi idi. Mao Lyana oxşar şair-döyüşçü, yeni etikanı bəyan edən insan kimi çıxış edirdi. O, özü üçün dövlət xadimləri olan döyüşçülərin dahi çin ənənəsindən bəhrələnmiş qəhrəman obrazı yaratmışdı.

Tezliklə Maonun hər bir nitq və məqalələri Çin tarixinin erkən dövrlərinə aid olan ibarələr ilə zənginləşdi. O, b.e.ə. III əsrdə ölkəni birləşdirmiş dahi imperator Sini xatırladırdı. Sin Konfusinin əsərlərinin yandırılmasını əmr edərək, Dahi Çin səddinin tikintisini başa çatdırıb, Çinə müasir ad vermişdi. Sin kimi, Mao da, ölkəni birləşdirərək, zülmkar rejimin əleyhinə yönəlmiş qətiyyətli dəyişikliklərə başladı. Sin Çin tarixində hökmranlığı uzun müddət sürmüş əzazil diktator kimi məlumdur. Maonun parlaq kəşfi bu cəhətləri ayna kimi əks etdirərək, Sini müasir şəkildə interpretasiya etməklə, müasir çinlilərin gözləri qarşısında onun qanunlarına bəraət qazandırmaqla, ölkədə yayılmış rejimin sərtliyinin düzgün olduğuna inandırmaq məqsədilə ondan istifadə etməkdən ibarət idi.

«Mədəni inqilabın» süquta uğramasından sonra – 1960-cı illərin sonunda Çin Kommunist Partiyasında hakimiyyət uğrunda mübarizə başlandı. Maonun əsas düşməni, əvvəllər bu partiyanın yaxın dostu olmuş Lin Byao idi. Mao öz fəlsəfəsi ilə Lin Bao fəlsəfəsi arasındakı müxtəlifliyi xalq kütləsi üçün sadə və asan başa düşülən şəklə salmaq üçün yenidən keçmişə müraciət etdi: o, Lini daim müraciət etdiyi Konfusiyə oxşadır, özünü isə fəlsəfənin qədim cərəyanı olan legizm-qanunilik və ona tez-tez müraciət edən filosof Xan Fey-szi ilə əlaqələndirirdi. Legistlər Konfusi etikasını inkar edərək, yeni qayda-qanunun bərqərar edilməsi üçün təcavüz zərurətinə inanırdılar. Onlar hakimiyyətə kömək edirdilər. Mao rəqabətdə qalib gəlmək üçün ölkə miqyasında təbliğat apararaq, Konfusinin ideyalarını tənqid etməklə, gəncləri yaşlı nəslə qarşı özünəməxsus qiyama qaldırmaq üçün legistlərin konfusiyaçılığın əleyhinə yönəlmiş arqumentlərindən

istifadə edirdi. O, bu cür kontekstə siyasi çalar verərək, bir daha qalib çıxdı: kütləni öz tərəfinə çəkib düşmən üzərində təntənəli qələbə çaldı.

İZAHI

Heç bir xalq Çin xalqı kimi qədimi ənənələrə malik deyildir. İslahatlar üçün dəfedilməz manеələrlə qarşılaşan Mao adi strategiyaya üz tutdu: o, keçmiş ilə mübarizə aparmaq əvəzinə, onu rəhbər tutaraq, radikal kommunistlər ilə Çin tarixinin romantik surətləri arasında paralellər apardı. Üç səltənət uğrunda müharibənin tarixini Çin, Birləşmiş Ştatlar və Sovet İttifaqının mübarizəsi ilə əlaqələndirərək, özünü əfsanəvi Şu Çjuqe Lyana bənzətmişdir. O, keçmiş dövrün imperatorları kimi xalq kütlələrinin ayinləri icra edən yeni nəslinin yaranmasına nail olaraq, çinlilərin dərin ehtiram bəslədikləri ata və yaxud patriarxın rəmzi varlığının zəruri olduğunu dərk etdi. O, böyük sürətlə səhv edərək, ölkənin çat verən modernləşməsini həyata keçirməyə cəhd göstərsə də, bir daha bu səhvləri təkrarlamadı: o, radikal dəyişikliklərin keçmişin qiyafəsinə geyindirilməsinin zəruri olduğuna bir daha əmin oldu.

İbrət dərsi sadə idi: keçmiş qüdrətlidir. Keçmişdə baş verən hər hansı bir hadisə irimiqyaslı olub, adət-ənənələr və tarix ilə əlaqədə hər bir işi nüfuza mindirir. Özünüz üçün üstünlük qazanaraq bundan istifadə edin. Siz adət halını almış əsasları darmadağın etdikdə, onların yerində boşluq yaranır. İnsanlar bu boşluğu dolduran xaos qarşısında qorxu, təlaş keçirirlər. Keçmişdən qanunilik ilə möhtəşəmliyi miras kimi qəbul edərək, təsəllivеrici konsepsiya təklif etmək mümkündür. Bu, sizin hərəkətlərinizə romantik don geyindirib, can atdığınız dəyişikliklərin həqiqi məqsədini təsirli edəcəkdir.

İşə yeni qaydada başlama zamanı uğur qazanmaqdan daha çətin, daha şübhəli və ünsiyyət üçün daha təhlükəli heç nə

olmadığını nəzərə almaq zəruridir.

Nikkolo Makiavelli
1469–1527.

HAKİMİYYƏTİN AÇARI

İkiüzlülük insan psixologiyasına xas əlamətlərdəndir. Bu, hətta dəyişiklik zərurətini dərk edərək, yeniliyin həm ictimai təsisatlar, həm də ayrı-ayrı şəxsiyyətlər üçün nə qədər vacib olduğunu bildikdə belə, bu proseslərlə şəxsən qarşılaşdıqları zaman qıcıqlanma və təlaş keçirmələrində təzahür edir. Onlar dəyişikliklərin vacib və qaçılmaz olduğunu, yeniliyin yüngüllük gətirərək, durğunluğu aradan qaldıracağını bilsələr də, qəlblərinin dərinliyində keçmişdən ayrılmaq istəmirlər. Onlar dəyişikliyi mücərrəd anlayış və yaxud səthi «kosmetik təmir» kimi arzulasalar da, həyat tərzlərinin mahiyyətinə toxunan, mövcud qayda-qanunu pozan bu yeniliyə dərin nifrət hissi ilə yanaşırlar.

Hər bir inqilabı reaksiyalar dövrü əvəz edir. Çünki ləğv olunmuş köhnə qaydaların yerində meydana çıxmış boşluq, bu cür vakuumu ölüm və xaos ilə məntiqi əlaqələndirən insan varlığı üçün çəkilməz yükə çevrilir. Dəyişikliklər və yeniliklərin həyata keçirilməsi imkanı insanları valeh edərək, onları inqilaba cəlb edir. Lakin ilk həvəs söndükdən sonra entuziazm zəifləyir, yerində boşluq hissi qalır. İnsanlar keçmişə müraciət etməklə, köhnə qaydaların geriyə qayıtması üçün yol açırlar.

Makiavelliyə müvafiq olaraq, dəyişiklikləri vəsf edən və buna çağıran peyğəmbər yalnız silahlanmış şəkildə yaşaya bilər: kütlələr qaçılmaz şəkildə keçmişə müraciət etdikdə, o, güc tətbiq etməyə hazır olmalıdır. Lakin silahlanmış peyğəmbər uzun müddət müqavimət göstərə bilməz. O, durumunun mürəkkəbliyini dərk edərək, dəyişikliklərdən ehtiyat edən insanların həyəcanını susdurmaqla, köhnə qaydaları əvəz edən dəyərlərlə yeni ayinlərin məcmusunu sürətlə yaratmağın qayğısına qala bilməz. Daha az qan tökməyin ən sadə üsulu hiylədir. Ürəyiniz istədiyi qə-

dər yeniliklər və islahatlar keçirin. Lakin bu zaman onlara keçmişin ənənələrini geyindirin.

Eramızın 8–23-cü illərində hökmranlıq etmiş Çin imperatoru Van Man tarixi dəyişikliklər dövründə, xalqın Konfusinin tərtib etdiyi qaydaları arzuladığı mərhələdə səhnəyə gəldi. Lakin bundan 200 il əvvəl imperator Sin Konfusi əsərlərinin yandırılmasına dair əmr vermişdi. Bir çox illər keçdikdən sonra, bir alimin zirzəmisində filosofun bir neçə kitabının tapılması haqqında şayiə yarandı. Bu mətnlər əslikar olmasa da, Van Mana yeni imkanlar verdiyindən, o, bunlardan istifadə etməyi qərara alır: ilk əvvəl mətnləri müsadirə edərək, mirzələrinə, onlara islahatların cərəyanlarını əks etdirən bir neçə fraqmentlərin əlavə olunmasını həvalə edir. Bütün bunlardan və mətnlər yeniləşdikdən sonra, xalqda, dahi alimin islahatlarını hələ o zamanlar Van Manın qabaqcadan görməsi kimi təəssüratlar yarandı. İnsanlar sakitləşdilər və islahatlar cüzi müqavimətlə həyata keçirildi.

Keçmişin ləğv olunması və bir daha geriyə qayıtmayacağı faktı onu sərbəst şəkildə intrepretasiya etməyə icazə verir. Siz işinizə dəstək olmaq üçün onlarda bəzi düzəlişlər aparmalısınız. Keçmiş – şəxsi sətirlərimizi ehtiyat etmədən əlavə edə biləcəyimiz mətndir.

Köhnə addan istifadəyə və yaxud eyni nömrənin qorunması kimi sadə test sizi keçmişə bağlayaraq, tarixi nüfuzun dəstəklənməsini təmin edəcəkdir. Makiavellinin qeyd etdiyi kimi, romalılar bu üsuldan monarxiyanı respublikaya transformasiya etməklə istifadə edirdilər. Onlar monarxı xalq tərəfindən seçilmiş iki səfir ilə əvəz etsələr də, qalan hər şey dəyişməz qalırdı – imperatora 12 liktor xidmət göstərirdi. Monarx şəxsən illik qurbanvermə mərasimi icra edirdi. Bu, xalq kütləsini toplayan təntənəli hadisə idi. Respublika bu adət-ənənəni qoruyub saxlamışdı. Romalılar yalnız «bu mərasimin başçısını seçərək, onu qurbanverən çar adlandırırdılar». Buna oxşar üsullar insanları təmin edir və monarxiyanın bərpa olunmasını tələb etməkdən yayındı-

rırdı.

Dəyişiklikləri maskalamağa icazə verən digər strategiya sizin keçmiş dəyərləri dəstəkləmənizi ucadan bəyan etməkdən ibarətdir. Keçmiş adət-ənənələr tərəfdarlarının zahiri görünüşünü qəbul edin və yalnız ayrı-ayrı insanlar bunun həqiqətə az uyğun olduğunu hiss edəcəklər. İntibah dövrünün Florensiyası uzunəsrlik respublika adət-ənənələrinə malik olub, bu əsasları dağıtmaq cəhdlərinə şübhə ilə yanaşırdı. Kozimo Mediçi respublika tərəfdarını canlandırsa da, həqiqətdə isə şəhər hakimiyyətinin onun ailəsinə məxsus olmasına can atırdı. Mediçilər ailəsi Florensiyada respublikanı rəsmi şəkildə qoruyub saxlasalar da, faktiki olaraq süquta uğramışdı. Mediçi ənənələrin qorunub saxlanılması pərdəsi altında quruluşu radikal islahatlara məruz qoydu.

Elmi tədqiqatlara və faktlara əsaslansa da, bu onu mühafizəkarlıq durğunluğundan qorumalıdır: bu, yenilikçi mədəniyyətdir. Lakin Çarlz Darvin təkamül nəzəriyyəsinin əsasını qoyduğu zaman, kilsə xadimlərindən daha çox həmkarı olan alimlərin kəskin müqaviməti ilə qarşılaşdı. Onun nəzəriyyələri bir çox köhnəlmiş ideyaların əleyhinə idi. Corc Selk immunologiya sahəsində kəşflər etməklə, Maks Plank isə fizika sahəsindəki inqilabi ideyaları ilə bu cür müqavimətlə qarşılaşmışdı. Plank bir qədər sonralar elmi müxalifət haqqında yazırdı: «Elmdə kök salmış yeni həqiqət düşmənlərini kor etdiyinə görə deyil, zaman keçdikcə düşmənlərin vəfat etməsindən sonra, onları, bu yenilik ilə razılaşan yeni nəslin əvəz etməsinə görə qələbə çalır».

Yaltaqlıq və riyakarlıq ilə müşayiət olunan oyun – saray əyanı oyununu oynamaqla, bu qatı mühafizəkarlığın öhdəsindən gəlmək mümkündür. Qaliley elmi mənsəbinin əvvəlində məhz bu cür hərəkət edirdi. Sonralar o, bunun əvəzini ödəməli oldu. Beləliklə, keçmiş adət-ənənələrə görə vergi ödənilməlidir. İnqilabınızda keçmiş ilə əlaqədar elementləri müəyyən edin. Onların adət-ənənələrə əsaslandığını bəyan edin. Düzgün sözlər söyləyərək, razılığınızı nümayiş etdirib, radikal nəzəriyyələrinizin həyata keçməsinə xidmət edin. Ədəb-ərkan qaydalarına riayət etməklə, keçmişə vergi verin. Bu qayda hər bir sahədə qüvvədə olur. Burada yalnız siyasət sahəsi istisna təşkil edir.

Ən nəhayət, zamanın ruhunu istisna etmək olmaz. İslahatlar öz dövrünü əks etdirdikdə, islahatçıların talcyi faciəli olur – bu cür insanları az adam başa düşür. Onların bütün addımları düzgün izah olunmur və müqavimətlə qarşılanır. Sizin əlavə etdiyiniz dəyişikliklər, həqiqətdən fərqli olaraq, daha mühafizəkar olmalıdır. İngiltərə Kromvelin arzuladığı kimi protestatın məzhəbinə qulluq edən ölkəyə çevrilsə də, buna inqilabi yolla deyil, təkamüllə nail olundu. Bunun üçün yüzilliklər ərzində tədricən həyata keçirilən dəyişikliklər tələb olunurdu.

Zamanın hökmünü dinləyin. Siz kəskin dəyişikliklər və iğtişaşlar dövründə yaşayıb, fəaliyyət göstərdiyiniz halda, hakimiyyəti keçmişin formalaşdırdığı şəxsiyyət əldə edəcəkdir. Durğunluq dövründə əsas vasitə islahatlar ilə inqilabi dəyişikliklər olsalar da – cini buraxmazdan əvvəl ehtiyatlı olun. İnqilabı, bir qayda olaraq, onu başlayan şəxslər başa çatdırmırlar. Siz cavab reaksiyasının qarşısını almadan və keçmişə istinad edərək müvafiq ölçülər götürmədən, bu təhlükəli oyundan qalib çıxa bilməzsiniz.

MÖTƏBƏR FİKİR

«Hər hansı bir şəhərin dövlət quruluşunu dəyişməyə can atan və yeni quruluşun qəbul edilərək dəstəklənməsini arzulayan kəs, keçmişin adət-ənənələrinin kölgəsini qoruyub saxlamalıdır. Belə olan təqdirdə, xalq kütləsi yeni qaydaların köhnə qaydalardan əsaslı şəkildə fərqlənməsinə baxmayaraq, heç bir dəyişiklik hiss etməyəcəkdir. Belə ki, insanlar real həqiqətdə mövcud olanlar ilə özlərinə təsəlli verirlər».

Nikkolo Makiavelli

OBRAZ:

PİŞİK

O, mühafizəkar olub, rahatlığı xoşlayır. Vərdişlərinə təzyiq göstərməklə onların məkanına müdaxilə etdikdə, o, idarə edilə bilməyən əsəbi varlığa çevriləcəkdir. Onun ayinlərini dəstəkləməklə, bunun qarşısını alın. Dəyişikliklər zəruri olduğu hallarda, pişiyi aldadaraq, keçmişin ab-havasını qoruyub, görünən yerlərdə onun adət etdiyi əşyaları, cisimləri qoyun.

MEDALIN İÇ ÜZÜ

Keçmiş – sizin idarə etdiyiniz cəsəddir. Yaxın keçmişdə baş vermiş hadisələr acı və ağrılı olduqda, oxşar hərəkətlər ağılsızlıqdır. Belə ki, bu, məğlubiyyət ilə nəticələnəcəkdir. Napoleon hakimiyyətə gəldiyi dövrdə Böyük Fransa inqilabı yaddaşlarda kök salmışdı. Onun sarayı XVI Lüdovik ilə Mariya-Antuanettanın sarayını xatırlatsaydı, saray əyanları təhlükəsizliklərinə görə ehtiyat etməli olacaqdılar. Saray üçün Napoleon tərəfindən müəyyən edilmiş qaydalar çox mühafizəkar idi. Bu, əmək ilə hərbi şücaəti qiymətləndirən hökmdarın sarayı idi. Bu cür yenilik böyük hörmət və ehtirama layiq görüldü.

Başqa sözlə desək, zamana uyğunlaşın. Lakin bununla belə, keçmişi kəskin şəkildə dəyişmək niyyətinə düşsəniz, boşluğun yaranmasına yol verməyin. Əks təqdirdə, sizin islahatlarınızın terror ilə nəticələnəcəyini unutmayın. Hətta ən gərəksiz tarix də bu cür boşluqdan üstün tutulacaqdır. Onu təcili olaraq yeni ayinlər və formalar ilə doldurun. Onlar adət halını aldıqdan sonra, ziddiyyətləri aradan qaldırıb, sizin mövqeyinizi möhkəmlədəcəkdir.

Sonuncu: incəsənət, dəb və texnologiya – keçmişdən ayrılmaq şərtilə hakimiyyəti əldə edən sahələrdir. Bu cür strategiya qüdrətli hakimiyyət təqdim etsə də, çoxlu təhlükə yaradır. Sizin inqilabi yenilikləriniz zamanın təzyiqinə davam gətirməyəcəkdir. Siz buna qarşı gücsüzsünüz – sizdən cavan şəxsiyyət yeni, gözlənilməz istiqamətdə hərəkət edəcək, sizin dünən kəşf etdiyiniz cəsur inqilabi ixtiralarınız isə, bu gün darıxdırıcı və bayağı təsir bağışlayacaqdır. Daim qaçmaq lazım gəlir – bu cür hakimiyyət müvəqqətidir və o qədər də diqqətə layiq olmur. Sizə möhkəm əsaslara istinad edən hakimiyyət lazımdır. Keçmişdən istifadə, keçmişin bərpa olunması, şərtilik və adət-ənənələr ilə incə oyun və onların darmadağın edilməsi sizin yaradıcılıq məhsulunuzu daha populyar edər. Baş hərlədən dəyişikliklərin təsiri altında eyforiyaya düşərək, keçmişə meylliliyin, həsrət hissinin qaçılmaz şəkildə çıxış yolu taparaq geriyə qayıtması faktını təhrif etmək olmaz. Yekun nəticədə, şəxsi maraqlarınız naminə keçmişdən istifadə edərək, keçmiş ilə əlaqəni pozmaq naminə heç bir qətiyyətli addımlar atmadan hakimiyyətə nail ola bilərsiniz.

QIRX ALTINCI QANUN

HEÇ BİR ZAMAN ÖZÜNÜZÜ HƏDDİNDƏN ZİYADƏ MÜKƏMMƏL GÖSTƏRMƏYİN

QANUNUN MAHİYYƏTİ

Başqalarından yaxşı görsənmək təhlükəli olsa da, günahsız və nöqsansız olmaq daha təhlükəlidir. Paxıllıq gizli düşmənlərin meydana çıxmasına şərait yaradır. Kamil insan qüsurları olduğunu vaxtaşırı bildirməklə və günahlarını etiraf etməklə, paxıllıq və həsəd hissindən qorunmağa, daha insani təəssürat bağışlamağa çalışır. Yalnız müqəddəslər və ölülər heç nədən ehtiyat etməyərək, mükəmməl görünə bilərlər.

QANUNUN POZULMASI

Co Orton və Kennet Xallivell 1953-cü ildə Londonda Kral teatrı incəsənəti akademiyasında görüşmüşdülər: hər ikisi bu akademiyada aktyorluq sənəti fakültəsində təhsil alırdılar. Onlar qısa zamanda bir-birinə vurularaq, akademiyanı tərk etdilər. 25 yaşı olan Xallivell Ortondan 7 yaş böyük idi. O, özünə çox inamlı idi. Onların heç biri xüsusi aktyorluq istedadına malik olmasa da, akademiyanı bitirib, Londonun mənzillərindən birini kirayəyə götürdükdən sonra, teatr mənsəbindən imtina edərək, yazıçı olmağı qərara aldılar. Xallivellə miras qalmış vəsait iş axtarmadan bir neçə il rahat yaşamağa imkan verirdi. İlk əvvəl iş birliyində başlıca rol Xallivellə məxsus idi: o, əlyazmaları çap edən Ortona əsəri diqtə edirdi. Orton isə bəzən əsərin süjet xəttinə şəxsi mülahizələrini və təxəyyülünün məhsulunu əlavə edirdi. Onların ilk təcrübəsi ədəbi agentlərin diqqətini cəlb etsə də, əsl müvəffəqiyyət qazanmadı. Müəyyən müddətdən sonra vəsait tükəndi və gənclər iş axtarmalı oldular. Onlarda müştərək yaradıcılığa qarşı biganəlik yarandığından, bir-birinə birlikdə əsər yazmağı təklif etmirdilər. Bu işin gələcəyi şübhəli idi.

1957-ci ildə Orton şəxsi yaradıcılıq ilə məşğul olmağı qərara aldı. Lakin beş ildən sonra məşuqlar kitabxana kitablarını oğurladıqlarına görə həbs olunarkən, doqquz il

XƏSİS VƏ PAXIL HAQQINDA

Xəsis ilə paxıl çar ilə görüşdülər. Çar onlara dedi: «Sizin biriniz məndən ürəyi istədiyini xahiş edə bilər. Mən onun xahişini yerinə yetirərəm. Lakin mənim bir şərtim var – sizin o biriniz dostundan da iki dəfə artıq sərvətə sahib olacaqdır». Paxıl susur, ilk olaraq arzusunu bildirmək istəmirdi. Dostunun üstün olacağı fikri ona rahatlıq vermirdi. Xəsis daha böyük sərvətə sahib olmaq niyyətində idi. Nəhayət, xəsis paxılı birinci xahiş

ərzində bir-birindən ayrı qaldıqlarından, Orton öz varlığını büruzə verdi. O, həbsxanadan çıxıb, ingilis cəmiyyətinə nifrətini teatr səhnələri formasında ifadə etmək niyyətində idi. O və Xallivell yenidən bir yerdə yaşayırdılar. Lakin bu dəfə rollar dəyişmişdi: Orton yazır, Xallivell isə ideyalarını şərh edirdi.

1964-cü ildə Co Orton ilk pyesi «Mister Sloanı əyləndirərkən» adlı əsərini bitirdi. Pyes Londonun Vest End teatrında tamaşaya qoyuldu və parlaq rəy aldı: ilin açılışı naməlum yeni istedadın təqdimatı ilə başlanmışdı. Uğur və nailiyyət bir-birini müşayiət edirdi. 1966-cı ildə «Qarət» pyesi mövsümün ən çox oxunan əsəri oldu, Orton isə məşhurlaşdı. Sifarişlər hər tərəfdən daxil olurdu. Bunlardan biri də filmin ssenari haqqını ödəmiş «Bitlz» qrupunun sifarişi idi.

Orton ilə Xallivellin münasibətlərini çıxmaq şərtilə, hər şey yüksək səviyyədə idi. Onlar, həmişə olduğu kimi, bir yerdə yaşasalar da, Ortonun uğuru Xallivelli qane etmirdi. Məşuqunu diqqət mərkəzində görən Xallivell qısqanclıqdan və məşhur dramaturqun katibi olmasından əziyyət çəkirdi. Onun müştərək müəllif olmaq ideyası süquta uğrayaraq, daha cüzi əhəmiyyətli iş ilə əvəz olunmuşdu. O, əllinci illərdə Ortonu şəxsi vəsaiti hesabına saxlasa da, indi Orton onu təmin edirdi. Gecələrdə və yaxud məclislərdə insanlar Ortonun ətrafına toplaşırdılar. Ortonun həyat eşqi və füsunkar davranışı hamını cəlb

etməyə sövq etdi. Paxıl dillənərək, çardan bir gözünü çıxartdırmağı xahiş etdi.

Səlomon Şimmel. «Yeddi günah» yəhudi hekayətləri.

Pərəstişkar pərəstiş etməsindən istədiyi qədər fayda görmədiyi üçün pərəstiş etdiyi obyektə paxıllıq etməyə başlayır. Bunun nəticəsində leksikonda dəyişiklik olur – o, pərəstiş etdiyi obyekti səfeh, maraqsız və yaxud şübhəli adlandırır. Heyranlıq – həzz verənin özünütəqdimi, paxıllıq isə təmin olunmayanın özünütəsdiqidir.

Soren Kyerkeqor, 1813–1855.

edirdi.

Ortonun uğuru artdıqca, məşuqların problemi daha da kəskin şəkil alırdı. Xallivellin ruhi sarsıntıları onların birgə həyatını dözülməz edirdi. Orton bir neçə dəfə Kenneti tərk edərək yeni münasibətlər qursa da, yenə də, köhnə dostunun və məşuqunun yanına qayıdırdı. O, Xallivellə özünü rəssam kimi təsdiq etməsinə kömək etmək məqsədilə qalereyanı icarəyə götürmüşdü. Bu qalereya onun işlərinin nümayiş etdirilməsi üçün nəzərdə tutulmuşdu. Lakin bu işin də uğursuzluqla nəticələnməsi Xallivellin tam dəyərə malik olmaması fikrini daha da dərinləşdirirdi. Dostlar 1967-ci ilin may ayında Mərakeşin Tanjer şəhərində qısamüddətli istirahətə yollandılar. Səfər zamanı Orton gündəliyində yazmışdı: «Biz nə qədər xoşbəxt olduğumuzdan söhbət edirdik. Lakin bu komfortun daima davam etməyəcəyini, bunun əvəzinin nə zamansa ödəniləcəyini dərk edirdik. Biz bu xoşbəxtliyin qısamüddətli olmasından qorxurduq. Gənc, gözəl, sağlam, məşhur, müqayisəli şəkildə zəngin və xoşbəxt olmaq, şübhəsiz ki, qeyri-təbii idi».

Kiminsə istedadını və tanrı vergisini gizlətmək üçün böyük istedad və qabiliyyət tələb olunur.

Laroşfuko, 1613–1680.

Xallivell zahirən Orton kimi xoşbəxt görünsə də, onun qəlbində təlatümlər tüğyan edirdi. İki aydan sonra – 1967-ci il avqustun 10-da səhər eşikağası Ortona son sətirləri tamamlamaqda kömək edən Xallivellin dostunun başına çəkic ilə vurduğunu gördü. Daha sonra o, 21 ədəd yuxu dərmanının həbini qəbul edərək, ölümqabağı məktub yazıb

vəfat etdi. O, bu məktubda: «Siz Ortonun gündəliyini oxuyan kimi, hər şeyi dərk edəcəksiniz» yazırdı. Onların hər ikisinin taleyi faciəli sonluqla – ölümlə tamamlandı.

İZAHI

Kennet Xallivell qəlbində baş qaldıran boşluğu əqli çatışmazlıq hesab edirdi. Co Ortonun gündəliyində əksini tapan bütün qeydlər həqiqət idi: Xallivellin xəstəliyinə səbəb ən bayağı paxıllıq hissi idi. Xallivellin gizli şəkildə oxuduğu gündəlik hər iki dostun eyni mövqeni tutaraq, ictimai nüfuz qazanmasından bəhs edirdi. Orton uğur qazandıqdan sonra bu gündəlik Xallivellin mənfi əhval-ruhiyyəsini, məclislərdə nümayiş etdirdiyi kobudluğunu, tam dəyərə malik olmama kompleksini təsvir edirdi. Orton bu barədə soyuqqanlıqla, təmkinlə, nifrətlə yazırdı.

Gündəlikdə Orton müvəffəqiyyətinin Xallivell üçün dözülməzlik səviyyəsi məlum olur. Ən nəhayət, bu əzab-əziyyətə son qoyan yeganə çıxış yolu Ortonun müvəffəqiyyətsizliyə uğraması olardı. Məsələn, onun növbəti pyeslərindən biri tənqid hədəfinə çevrilərdi. Bu, onların yenidən dərd ortağına çevrilmələrinə rəvac verərdi. Lakin, əksinə, o, daha da populyarlaşırdı. Xallivell onları bərabərləşdirən yeganə çıxış yolunu – ölümü seçdi. Ortonu qətlə yetirən Xallivell dostu kimi məşhurlaşdı – ölümündən sonra.

Co Orton dostunun həyəcanını qismən başa düşürdü. Xallivellə rəssamlıq mənsəbinə yüksəlməyə kömək etmək cəhdi, dostuna qarşı bəslədiyi peşmançılıq və xəcalət hissindən irəli gəlirdi. Ortonun bu probleminin həll olunmasında iki çıxış yolu var idi. O, uğurlu fəaliyyətində qəsdən nöqsanlar buraxmaqla, Xallivellin həsəd hissini bir qədər yayındıra bilərdi və yaxud onları ağuşuna alan problemin mahiyyətinə vararaq, Xallivelldən uzaqlaşmalı, onun həsəd hissinin zəhərindən xilas olmalı idi. Həsəd hissinə bir qədər qol-qanad açmağa imkan verdikdə, o, paxıl insanı daxildən gəmirməyə başlayır.

Yalnız bəşəriyyətin cüzi bir hissəsi həyatda uğur qazana bilər. Bu azlıq isə ətrafdakıların həsəd hədəfinə tuş gəlir. Müvəffəqiyyət qazandığınız zaman, ilk növbədə, sizi əhatə edən dostlarınızdan və tanışlarınızdan ehtiyat edin. Onları tam dəyərə malik olmama hissi çulğalayaraq, sizin müvəffəq, qalib olmanız haqqında fikir, onların özünə qarşı inamsızlığını, gərəksizlik hissini daha da gücləndirir. Filosof Kyerkeqorun «məyus heyranlıq» adlandırdığı paxıllıq hissi onların qəlbinə hakim kəsilir. Siz bunu hiss etməsəniz də, lakin gec və ya tez, kimi isə bu duyğu naminə ilahi mehrabda qurban verməyə alışacaqsınız. Ya hakimiyyətinizi uğursuzluq pərdəsi arxasında gizlədin, ya da yeni dostlar qazanın. Paxıllıq hissinin qüdrətini qiymətləndirməmək olmaz.

(MİNERVA)...

Bir dəfə müharibə ilahəsi Paxıllığın evinə getməyi qərara aldı. Onun koması qaranlıq, günəş şüalarından daldalanmış, zülmət yerdə yerləşmişdi. O, qapının yanında dayanaraq, komaya daxil olmağı təhqir hesab etdi. İlahə itiuclu nizə ilə qapını döydü: qapı açıldı. İlahə ilan əti ilə qidalanan Paxıllığı gördü. O, yerindən qalxıb ilahəyə yaxınlaşdı. Füsunkar ilahəni, onun yaraq-yasağını görən Paxıllıq dərindən ah çəkdi. Onun bədəni titrədi. Gözləri çap, dişləri isə çürük idi. O, gülməyi bacarmır, yalnız əzablara, iztirablara gülürdü. İnsanların nailiyyətinin və uğurunun şahidi olan Paxıllıq iztirab çəkirdi. İlahə ona mürəciətlə dedi: «Zəhərinlə Kekronun övladı Alqavranı zəhərlə. Bu, belə olmalıdır». Bunu deyən İlahə qeyb oldu. Paxıllıq tikanlı əsasını götürüb, qara buludlardan toxunmuş əbasını geyinib yola düzəldi. O, otları, çiçəkləri məhv edib, mənfur nəfəsi ilə evlərə, şəhərlərə və xalq kütlələrinin qəlbinə daxil oldu. İnsanlar çaşqınlıq içində idilər. Onlar nəyə görə sevinib ağlayacaqlarını bilmirdilər. Paxıl Kekronun qızı Alqavranın yataq otağına girən kimi onun ürəyini tikanları ilə zə-

QANUNA RİAYƏT OLUNMASI

Orta əsrlər Florensiyanın çiçəklənməsində əvəzsiz rolu olan tacirlik və sənətkarlıq onu zadəganların əsarətindən müdafiə edən respublika yaratdı. Yüksək mövqeyə bir neçə ay ərzində nail olunan halda, heç bir tərəf hakimiyyətə tam sahib ola bilmirdi. Bu siyasi qruplaşmaların hakimiyyət uğrunda daimi mübarizəsi olsa da, sistem müstəbidlər ilə diktatorların meydana çıxmasının qarşısını alırdı. Mediçilər ailəsi bu cür sistemdə bir neçə yüzilliklər ərzində yaşayaraq, heç bir iz qoymadı. Mənşəyi attekariyalı olan Mediçilər ailəsi burjuaziya zümrəsindən olan tipik şəhərlilər idilər. Yalnız XIV əsrin sonunda Covanni Mediçinin bank işi ilə məşğul olaraq varlanması zamanı, onlar, hər kəsin hesablaşmağa məcbur olduqları qüdrət sahibinə çevrildilər.

Covanninin ölümündən sonra ailə biznesi oğlu Kozimoya keçdi. O, çox böyük istedad sahibi idi. Rəhbərlik etdiyi ailə biznesi çiçəkləndi və Mediçilər Avropada fəaliyyət göstərən ən iri banklardan biri kimi məşhurlaşdılar. Lakin onların Florensiyada rəqibləri var idi: şəhərdə hökm sürən respublika dövlət quruluşuna baxmayaraq, Albaniyanın qüdrətli ailələrindən biri uzun müddət hakimiyyəti monopoliyaya çevirərək, rəqiblərini tədricən qovmağa müvəffəq oldu. Kozimo Albisilərin mövqeyini inkar etmir, əksinə, onlara yardımını təklif edirdi. Albisilər bütün mülkiyyətlərini qürurla nümayiş etdirdikləri təqdirdə, Kozimo digər davranış

hərləməyə başladı. Alqavranın yuxuları ərşə çəkildi. Onun ətrafında tüğyan edən xoşbəxt, qayğısız həyat ona qəm, kədər bəxş edirdi. Günəş şüaları onun gözəlliyini soldururdu. Nəhayət, o, paxıllıq atəşinin alovunda qovrularaq məhv oldu.

Ovidey (b.e. əvvəl 43-cü il – er. 18-ci il).

xətti seçərək, kölgədə qalmağa üstünlük verirdi.

Lakin Mediçi sərvətini gizlin saxlamağın qeyri-mümkün olduğu zaman yetişdi. 1433-cü ildə bundan ehtiyat edən Albisilər, hakimiyyətdəki əlaqələrinin köməyi ilə Kozimo Mediçinin həbsinə nail oldular. Ona qarşı dövlət hakimiyyətini devirmək məqsədilə təxribat təşkil etmə ittihamı irəli sürüldü. Albisilərin tərəfdarlarından biri Kozimonun edam edilməsini tələb etsə də, digərləri bunun vətəndaş müharibəsi ilə nəticələnməsindən qorxurdular. Ən nəhayət, Kozimonu Florensiyadan sürgün etdilər. O, həmin anda döyüşməkdənsə, gözləməyin daha ağıllı variant olduğunu dərk edirdi.

Bir il keçdi və şəhərdə Albisilərin diktatura bərpa etmələri qorxusu yarandı. Kozimo bu müddət ərzində sürgündə olsa da, topladığı sərvəti sayəsində Florensiyada baş verən hadisələrə təsirini itirməmişdi. Şəhərdə vətəndaş müharibəsi başlandı və 1434-cü ilin sentyabr ayında Albisilər devrilərək, şəhərdən sürgün edildilər. Kozimo dərhal şəhərə qayıdıb mövqeyini bərpa etdi. Lakin bu dəfə, o, qeyri-adi vəziyyətlə qarşılaşdı: Albisilər kimi təkəbbürlü dolanmaqla, o, paxıllıq hissi ilə müqavimət yarada bilərdi. Bu, onun ümumi işi üçün çox təhlükəli idi. Siyasətdən kənarda qalmaqla isə, o, kiminsə hakimiyyəti ələ keçirməsinə şərait yaratmış olurdu. Hakimiyyətə sahib olan ünsürlər isə, Albisilər kimi, Mediçinin də nailiyyətini cəzasız qoymazdılar.

Kozimo bu cür vəziyyətdən iki cür çıxış yolu seçdi: o, bütün sərvətindən gizli şəkildə istifadə edərək, şəhərin ən nüfuzlu vətəndaşlarını öz tərəfinə cəlb edib, əsas etibarilə tacirlərdən, bankirlərdən və digər adi vətəndaşlardan ibarət olan müttəfiqlərini sıxışdırırdı. O, müttəfiqlərinin mülkiyyətini vasitəçilərin köməyi ilə aldı. Respublika daha nominal şəkildə mövcud idi. Kozimo hakimiyyəti ələ keçirmişdi.

Lakin Kozimonun hakimiyyəti ələ keçirdiyi müddət ərzində onun ictimai imici tamamilə fərqli idi. O, Florensiyanın küçələrinə adi qiyafədə çıxaraq, heç kimin diqqətini cəlb etmirdi. Flo-

rensiyanın xarici siyasəti 30 ildən çox müddət ərzində Kozimonun nəzarəti altında olsa da, o, heç bir zaman siyasətdən danışmırdı. O, xeyriyyəçilik məqsədilə vəsait sərf edərək, Florensiyanın tacir ailələri ilə əlaqə saxlayırdı. O, şəhərin şöhrətini artıran bütün ictimai təsisatların təminatına vəsait sərf edirdi. Kozimo ailəsi üçün saray inşa etdirdiyi zaman məşhur memar Brunellskinin həddən artıq göz oxşayan layihəsindən imtina edərək, sadə Florensiya ailəsində tərbiyə almış Mikelosionun özü kimi sadə layihəsini bəyəndi. Saray sanki Kozimo Mediçi strategiyasının rəmzi təzahürü oldu – zahirən sadəlik və təvazökarlıq, daxilən isə zəriflik və zənginlik nəzərə çarpırdı.

Kozimo 1464-cü ildə vəfat etdi. O, 30 il hakim oldu. Florensiyanın sakinləri möhtəşəm məqbərə inşa edərək, onun xatirəsini əziz tutaraq, dəbdəbəli dəfn mərasimi təşkil etmək istəyirdilər. Lakin o, son nəfəsində çox sadə dəfn mərasiminin keçirilməsini vəsiyyət etdi. 60 ildən sonra Makiavelli Kozimo Mediçini ən müdrik hökmdar adlandıraraq yazırdı: «O, daha tez nəzərə çarpan və daima nümayiş etdirilən əməllərin insanlarda həsəd hissinin yaranmasına rəvac verdiyini, lakin pərdə arxasında qalaraq, əməli işdə təkmilləşən fəaliyyətinin isə böyük sevgi və ehtiram doğurduğunu dərk edirdi».

İZAHI

Kozimonun yaxın dostu kitab alverçisi Vespasiano da Bistiççi onun haqqında bu cür yazırdı: «O nə isə etməyi qərara aldığı zaman, bunu həsəd hissi yaratmadan, icra etdiklərini isə başqa bir insanın təşəbbüsü olması kimi qələmə verərək edirdi». «Paxıllıq – su verilməsi məsləhət görülməyən alaq otudur» sözləri Kozimonun ən sevimli ifadələrindən biri idi. Kozimo demokratik mühitdə paxıllığın gücünü dərk edərək, onun xarici təzahürlərindən qaçırdı. Bu, qüdrətin məğlub edilməsi və yaxud vasitəçiliyin yaşama şansı olduğu demək deyildi. Sadəcə olaraq, xarici görüntüyə riayət olunmalıdır. İnsanların həsəd hissindən kifayət qədər asanlıqla yaxa qurtarmaq mümkündür: onlar kimi görünməyə çalışaraq, onlardan nə zahirən, nə də mülahizələr baxımından fərqlənməyin. Sizdən mövqe baxımından aşağıda olan insanlar ilə dostluq münasibəti quraraq, ehtiyac olduqda özünüz üçün dəstək, yardım təmin etmək məqsədilə onları hakim mövqeyə yüksəldin. Heç bir zaman sərvətinizi nümayiş etdirməyin və hər bir halda, sizə nüfuz əldə etməyə imkan verən faktı əsaslı şəkildə məxfi saxlayın. Ətrafdakılar ilə ən zəif şəxs kimi davranın. Kozimo Mediçi bu oyunda ustalıq nümayiş etdirirdi. Hakimiyyətin nə qədər geniş yayıldığını düzgün qiymətləndirmək mümkünsüzdür. Onun xarici görkəmi həqiqəti ustalıqla gizlədir.

Paxıl hər kəsdən gizlənir. Onun təxəyyülü oyanır. O, ifşa edilməmək üçün müxtəlif üsullara əl atır. Beləliklə, o digərlərinin üstünlüyünü hiss etmədiyi barədə təəssüratlar yaradır. Həqiqətdə isə, bu, onun qəlbini, varlığını təlatümə gətirir. O, ustalıqla hiylə işlədir. Lakin o, hər hansı bir vəziyyətdə kimin isə ondan üstün olmasına var gücü ilə yol vermir. Bu cür insanlar meydana çıxdıqda isə o, onları çirkaba salaraq, tənqid etməyə, şər-böhtana əl atmağa başlayır. Nəticədə o,

Siz ətrafdakıların hörmət və ehtiramını qazanmağınız kimi fikirlərlə özünüzü aldatmayın. İnsanları, özlərinin tam dəyərə malik olmadıqlarını duydurmaqla, qeyri-iradi olaraq, onları daxilən gəmirən və ağlasığmaz üsullar ilə sizə ziyan vurmağa təhrik edən həsəd hisslərinin onlarda yaranmasına rəvac verirsiniz. Yalnız səfeh adam qələbələri ilə lovğalanaraq, həsəd, paxıllıq iblisini oyadır. Hökmdar, həqiqi qüdrət naminə, onun xarici təzahürünə etinasızlıq ilə yanaşmağın zəruri olduğunu anlayır.

İnsan qəlbinə sahib olan keyfiyyətlərdən biri də həsəd, paxıllıq hissidir. O, etiraf olunmayan yeganə mənfi xüsusiyyətdir.

Plutarx, təqribən 45–127-ci illər.

HAKİMİYYƏTİN AÇARI

İnsan özünün qeyri-mükəmməlliyi fikrinə çətinliklə öyrəşir. Bizdən çox-çox üstün olan qabiliyyət, istedad, güc və qüvvət ilə qarşılaşdığımız zaman asanlıqla pəjmürdə oluruq. Bu, bizim özünəqiymət qabiliyyətinə malik olduğumuz və bizdən qat-qat üstün olan insanların əhatəsində sıxılmağımız ilə izah olunur. Şəxsiyyətin bu cür məcburi şəkildə gözdən düşməsi böyük narahatlığa, mənəvi sarsıntıya səbəb olur. İlk növbədə, həsəd hissi meydana çıxır: axı, nə üçün bu istedad başqasına nəsib olmuşdur? Axı, o, mənə tam xoşbəxt olmağım üçün havasu qədər vacibdir! Lakin paxıllıq təsəlliverici olmur. Bütün bunlardan əlavə, biz cəmiyyət arasında bu nöqsanımızı etiraf edə bilmərik – həsəd hissi, paxıllıq barədə məlumat vermək, özünə həqarətlə yanaşmaq deməkdir. Biz gizlin, əlçatmaz arzularımızı dostlarımız ilə bölüşdürdüyümüz halda da, onlara bizi daxilən gəmirən həsəd hissindən söhbət açmırıq. Deməli, bu hissi qəlbimizin dərinliyində saxlamaq lazımdır. Onu ifşa etməyin bir çox üsulu mövcuddur. Məsələn, həsəd hissini doğuran şəxsi tənqid etmək; biz

fəaliyyət sahəsində ən əhəmiyyətsiz, gərəksiz, faydasız, vasitəçi və hətta tam dəyərlərdən məhrum insanların meydana çıxmasına rəvac verir.

Artur Şopenhauer, 1788–1860.

İsrayıl İosifi bütün övladlarından çox sevirdi. İosif atasının qocalıq çağlarında tanrının verdiyi pay idi. O, kiçik oğlu üçün rəngbərəng paltar tikmişdi. Qardaşları atalarının İosifi çox sevdiyini görüb, ona paxıllıq və nifrət edirdilər. Bir dəfə gecə gördüyü yuxunu İosif qardaşlarına danışdı: «Mənim ot tayam qalxaraq düz istiqamətdə dayandı, sizin ot tayalarınız onu dövrəyə alıb, mənim ot tayama təzim etdilər». İosifin qardaşları cavabında ona: «Yəni, sən bizim hökmdarımız olacaqsan? Sən bizə sahib olacaqsan?» – dedilər. Onlar İosifə yuxu-

özümüzü müdafiə etmək məqsədilə «o, məndən ağıllı olsa da, onun vicdanı yoxdur (və yaxud əxlaqsızdır)» və ya «o, arzularına əyri yollar ilə nail olmuşdur» – deyirik. Biz onu ittiham etmədiyimiz halda isə, daha sərt cəza tədbirləri tətbiq edirik – bu da paxıllığın başqa bir maskasıdır.

Məkrli, normal quruluşu pozan paxıllıq hissinə qarşı duran müxtəlif üsullar mövcuddur. İlk növbədə, hər zaman sizdən üstün insanların mövcud olması faktını etiraf edin. Bunu etiraf etdiyiniz zaman, paxıllıq hissi meydana çıxsa da, sizdən qat-qat üstün olan insan ilə bərabər mövqeyə nail olmaq məqsədilə, bu hissiyyatdan stimul kimi istifadə edin. Paxıllıq hissini qəlbinizə yaxın buraxsanız, o, sizin varlığınızı zəhərləyəcəkdir; onu xaricə çıxardın və o, sizə yeni yüksəklikləri fəth etməyə yardım edəcəkdir.

Hakimiyyəti əldə edərkən, kimin paxıllıq hissinin yaranmasına rəvac verərək ondan irəli çıxdığınızı xatırlayın. Onlar çox güman ki, hisslərini büruzə verməsələr də, bu qaçılmazdır. Həddən ziyadə sadəlövh olmayın. Onların sizi gizlində tənqid etməsinə, həddindən artıq tərifləməsinə qarşı laqeyd olmayın. Sizə qarşı daim tələ qurulduğunu da unutmayın. Paxıl insanlar ilə bağlı problemlərin bir çoxu paxıllıq hissinin vaxtlı-vaxtında dərk olunmaması nəticəsində meydana çıxır.

Ən nəhayət, insanların sizə paxıllıq etdikləri təqdirdə, sizin əleyhinizə hərəkət edə-

cəklərinə hazır olun. Onlar sizin yolunuz üzərində ağlasığmaz maneələr yaratdıqları halda, siz bu maneələrin nə cür yaranması barədə düşünürsünüz. Bu cür hücumlardan müdafiə olunmaq çox çətindir. Siz problemlərinizin əsasını paxıllığın təşkil etdiyini anladığınız zaman isə, artıq gec olacaqdır: münasibətləri aydınlaşdırmaq, üzr istəmək, müdafiə tədbirləri mövcud vəziyyəti daha da dərinləşdirəcəkdir. Paxıllığın öhdəsindən gəlməyin əvəzinə, ondan yayınmağın daha asan olduğunu nəzərə alsaq, sizin daha optimal davranış tərzi seçməyiniz məqbul olacaqdır. Əksər hallarda, siz, özünüzün atdığınız addımların, xasiyyətinizin paxıllıq hissinin meydana çıxmasına rəvac verdiyini dərk etsəniz, bu duyğunu susdurmaq mümkündür.

Kyerkeqor paxıllıq hissinin yaranmasına imkan verən müəyyən növ insanların mövcud olduğunu güman edərək, onların şəxsən təqsirkar olduqlarını hesab edirdi. Bu insanların daha tipik növü sizə yaxşı tanışdır: uğurlu hadisə və yaxud müvəffəqiyyət ilə qarşılaşan hər bir insan bu barədə xəbər yaymağı xoşlayır. Əslində isə, onlar ətrafdakılara acıq verməyi çox sevirlər. Bu cür insanların xilas yolu yoxdur. Lakin paxıllıq hissini daha incə ünsürlər ilə yaradan insanlar da mövcuddur. Onlar aqibətlərinin xoşagəlməz sonluq ilə bitməsində şəxsən günahkardırlar. Paxıllıq problemi ilə qeyri-adi fitri istedad sahibləri tez-tez qarşılaşırlar.

Cənab Uolter Reyli kraliça Yelizavetanın sarayında ən parlaq simalardan biri idi. O, elm ilə məşğul olaraq, dövrünün sənət əsəri olan və indiyə kimi böyük maraqla oxunan pyes və şeir yazırdı. O, yüksək mövqeli lider, təşəbbüsçü sahibkar, cəsur dəniz səyyahı, yaraşıqlı kişi və kraliçanın məşuqu idi. Lakin onun hər bir ideya və təkliflərinin qarşısında maneələr meydana çıxırdı. Nəticədə o, mövqeyini itirdi, etimaddan düşərək, Tayer qalasında həbs edilib edam olundu.

Reyli digər saray əyanlarının ona qarşı mənfi münasibət bəslədiklərini hiss etmirdi. O, fitri istedadını şübhəli saxlamaq əvəzinə, əksinə, onları dəfələrlə nümayiş etdirərək, hər kəsin diqqətini cəlb edirdi. O, bununla əhatəsində olan insanlarda xoş təəssürat yaratmağa çalışır, onların hüsn-rəğbətini qazanmaq niyyətində idi. O, bütün bunların müqabilində özünə düşmən qazandı. Onlar Reyli məhv etmək üçün hazır olub, hər bir nöqsanından istifadə edərək, onu ifşa etmək üçün sərfəli məqam gözləyirdilər. Bu, belə də oldu: onun məhvinə səbəb, dövlətə qarşı təxribatda ittiham edilmək oldu. Paxıllıq hissi məhvedici gücünü nümayiş etdirmək üçün müxtəlif dona girə bilər.

Cənab Uolter Reylinin oyatdığı paxıllıq hissi isə amansız idi: o, Uolter Reylinin fitri istedadına nifrət hissi ilə yanaşır, Reyli isə onun qəzəbinə tuş gəlməkdən ehtiyat etmirdi. Pul, sərvət, hakimiyyət hər kəsə nəsib ola bilər. Lakin kamillik, gözəllik, lətafət anadangəlmə xüsusiyyətlərdir. Anadangəlmə mükəm-

suna və sözlərinə görə daha çox nifrət etməyə başladılar. O, ertəsi gün daha bir yuxu gördü və bu yuxunu da qardaşlarına danışdı: «Mən daha bir yuxu gördüm: günəş, ay və 11 ulduz mənə təzim edirlər». O, bu yuxunu atasına da nəql etdi. Ata oğlunu tənbeh edib dedi: «Bu nə yuxudur belə görmüsən? Yəni mən, anan və qardaşların sənə təzim edəcəyik?» Qardaşlar İosifi atalarının gözündən salmaq istəyirdilər. İosifin sözləri isə həqiqətən də atasının xoşuna gəlməmişdi. Qardaşlar atalarına məxsus olan qoyun sürüsünü Sixemə otlamağa apardılar. İsrayıl isə İosifdən soruşdu: «Qardaşların qoyun sürüsünü Sixemdə otarmağa aparmadılarmı? Onların yanına get». Qardaşlar İosifi uzaqdan görüb, onu öldürmək qərarına gəldilər. Onlar birbirinə: «Budur, uzaqgörən gəlir, gəlin onu öldürüb, dərəyə ataq, onun vəhşi heyvana yem olduğunu söyləyərik, bundan sonra onun yuxularının nə cür həyata keçməsinə tamaşa edərik».

Əhdi-ətiq. Həyat kitabı, 37, 3–20.

məl olan insan fitriliyini maskalamağı bacararaq, paxıllıq hissinin kök salmasına imkan verməmək şərtilə, bir neçə nöqsanının nümayiş etdirilməsinin qayğısına qalmalıdır. İnsanların sizə fitri istedadınıza görə hörmət və ehtiram bəsləyəcəkləri kimi mülahizə yanlışdır. Çox təəssüflər olsun ki, onlar real həqiqətdə sizə nifrət edirlər.

Hakimiyyətdə ən böyük təhlükə tale təkərinin gözlənilmədən dönməsidir: heç kimin gözləmədiyi sürətli irəliləyişlər, qələbə və yaxud uğur həsəd hissi doğurur. Bu, dünən sizinlə eyni pillədə dayanmış insanların sizə kələk gəlməsinə şərait yaradır.

1651-ci ildə, arxiyepiskop de Res kardinal rütbəsinə layiq görüldüyü zaman, bunun bir çox hökmdarların həsəd hissinə səbəb olacağını yaxşı anlayırdı. Yoldaşlarından imtina etməyin yanlış addım olduğunu dərk edən Res, keçmiş xidmətlərinin üzərindən xətt çəkmək və bu iltifata «layiq olmayan» fəaliyyətində xoşbəxt hadisənin əhəmiyyətli rol oynadığını vurğulamaq naminə əlindən gələni əsirgəmirdi. O, insanlara xoş təəssürat bağışlamaq istəyir, onların sıxılmaması üçün sadə və təvazökar davranırdı. Sanki heç bir dəyişiklik baş verməmişdi. Həqiqətdə isə, o, bu cür mövqeyi sayəsində böyük hakimiyyət əldə etdi. O, bu cür müdrik addımın «ona paxıllıq edən ünsürlərin sakitləşməsinə səbəb, bunun isə böyük sirr olduğunu» yazırdı.

De Res kimi hərəkət edin. Uğurun sizdən uzaq qaçmaması, paxıllıq hissinin baş qaldırmaması üçün zərif və incə davranın. Lakin belə olan təqdirdə də, insanların yaxşı tanıdıqları riyakarlığı nümayiş etdirməmək üçün həddinizi bilin. Əks təqdirdə, bu, ədavəti gücləndirəcəkdir. Rolunuzu bacarıqla ifa edin. Sizin mövqedə üstün olduğunuz tərəf-müqabilinizə qarşı səmimiyyətiniz riyakarlıqdan uzaq olmalıdır. Belə ki, qeyri-səmimiyyət sizin yeni vəziyyətinizi daha da gərginləşdirə bilər.

Yüksək mənsəb sahibi olmağınıza baxmayaraq, vaxtilə sizinlə eyni pillədə dayanmış insanlara təkəbbürlü yanaşmağın lüzumsuz olduğunu unutmayın. Hakimiyyətin möhkəm özülü olmalıdır. Paxıllıq isə onları hiss olunmadan gəmirir.

Hər bir siyasi hakimiyyət paxıllıq hissi doğurur. Onun qarşısını almağın ən sadə üsulu müştəbeh olmamaqdan ibarətdir. Rus çarı İvan Qroznının ölümündən sonra, Boris Qodunov, Rusiyada nizam-intizama nail ola bilən yeganə şəxsiyyət olduğunu hesab edirdi. O, taxt-taca vaxtından əvvəl can atsaydı, bu, boyarların paxıllığı ilə şübhələrinə səbəb ola bilərdi. Buna görə də o, dəfələrlə taxt-tacdan imtina etmişdi. Bu cür taktikadan böyük uğurla Corc Vaşinqton da istifadə edirdi. O, ilk dəfə Amerika ordusunun baş komandanı, daha sonra isə Prezident vəzifəsindən imtina etdi. Onun hər iki halda populyarlığı artdı. İnsanlar hakimiyyət, yüksək mövqe ilə təmin etdikləri insana paxıllıq etmirlər.

Cənab Frensis Bekon (Yelizaveta dövrünün dövlət xadimi) ən müdrik taktikanın kütlə qarşısında özünü qurban kimi qələmə verərək, hüsn-rəğbət yaratmaqdan ibarət olduğunu hesab edirdi. Kim cəmiyyətin maraqları naminə ağır yükün altına girmiş şəxsiyyətə paxıllıq edər? Hakimiyyətə müvəffəqiyyət mənbəyini deyil, məhz özünü qurban vermənin donunu geyindirin. Dəfələrlə qarşılaşdığınız çətinlikləri və çıxılmaz vəziyyətləri qeyd edin. Belə olan təqdirdə, təhlükə mənbəyi (paxıllıq) mənəvi dəstək mənbəyinə (rəhmə, mərhəmətə) çevriləcəkdir. Bu cür tələ, sizin hakimiyyətinizin ətrafdakılara daha çox fayda verəcəyini izah edən vəziyyətdir. Buna nail olmaq üçün pul kisəsini açaraq, afinalı sərkərdə Kimon kimi, kütləyə pul paylamaq üsuluna müraciət etməlisiniz. O, paxıllığı beşiyində boğmaq üçün, xəsislik etmədən, külli miqdarda vəsait sərf edirdi. Nəhayət, bu səxavət onu ostrakizmdən, yəni sürgündən qorudu.

İngilis rəssamı C. M.V.Ternerin fırça yoldaşlarına paxıllıq hissindən xilas olmaq üçün digər üsula müraciət etməsini xatırlayaq. Rəssam həmkarları rəsm əsərlərinin sərgidə nümayiş etdirilməsi zamanı onunla rəqabətə girməkdən ehtiyat edirdilər. Terner uduz-

maq qorxusunun paxıllıq hissinə çevriləcəyini və bunun nəticəsində yaratdığı sənət əsərlərinin qalereyada nümayiş etdirilməsindən məhrum olacağını dərk etdi və çıxış yolu tapdı. O, müvəqqəti olaraq peyzajlar yaratmadı. Bu, həmkarları arasında hörmət və ehtiram qazanmasına səbəb oldu.

Qratsian paxıllıqdan xilas olmaq üçün hər hansı bir nöqsanın, ağılsız hərəkətlərin, kiçik günahların nümayiş etdirilməsini tövsiyə edirdi. Paxıl insanları sizin qeyri-mükəmməlliyinizə inandıraraq, onları ən böyük günahlarınızdan yayındırın. Reallığın həlledici əhəmiyyət kəsb etməsini unutmayın. Sizə hiylə işlətmək lazım gəlsə də, bu, oyunun sonunda qələbə ilə nəticələnəcəkdir; belə ki, həqiqi hakimiyyət sizə məxsus olacaqdır. Bəzi ərəb ölkələrində paxıllıqdan qaçan insanlar Kozimo Mediçi kimi hərəkət edərək, sərvətlərini nümayiş etdirmirlər. Bu müdrikliyi xasiyyətinizə əlavə edin.

Paxıllığın müxtəlif simalarını tanımağı bacarın. Həddən ziyadə tərif – tərif edən şəxsin paxıllıqdan əziyyət çəkməsi deməkdir. Bu tərifi çox güman ki, əvvəlcədən planlaşdırılmış məğlubiyyət də əvəz edə bilər. Sizi həddən ziyadə tərif və yaxud tənqid edən insanlar sizə az paxıllıq etmirlər. Onların davranışını gizli paxıllıq hissi kimi müəyyən etsəniz, tələyə düşməzsiniz: bu insanlara qarşı etinasız olsanız, o zaman onların haqsız tənqidi də sizə sirayət etməyəcəkdir. Siz onların varlığını təhrif etdiyiniz təqdirdə, buna görə cavab verməli olacaqsınız.

Heç kimə yardım etməyin və sizə paxıllıq edən kəslərə minnət qoymayın. Onlar bunu təhqir kimi qəbul edəcəklər. Co Ortonun Xallivellə qalereya tapmaqda kömək etmək istəyi, dostunun paxıllıq hissini daha da gücləndirdi. Paxıllıq özünü tam ifşa etdiyi təqdirdə, ondan xilas olmanın yeganə yolu – qaçmaqdır. Bir mühitin digərindən fərqli olaraq, paxıl insanların formalaşmasına daha müsbət təsir etdiyini nəzərə alın. Paxıllıq zahirən bərabərliyin təzahür etdiyi mühitdə həmfikir və məsləkdaş-

lar üçün daha ciddi təhlükə yarada bilər. Paxıllıq onu əhatə edən mühitin həmahəngliyini pozur. Totalitar cəmiyyətdə istedadı, sərvəti ilə fərqlənən insanlara mənfi münasibət bəslənilir. Bu cür hallarda həddən artıq ehtiyatlı olun, çünki belə halda paxıllıqdan qaçmaq qeyri-mümkündür. Buna görə də, güzəştə gedərək, hər bir hadisəni ürəyinizə yaxın buraxmayın. Toro deyirdi: «Paxıllıq və həsəd – hər bir parlaq fərdin ödəməyə məcbur olduğu vergidir».

OBRAZ:

BAĞÇADA ALAQ OTLARI

Siz onları xoşlamasanız da, bağçanı suvardığınız zaman onların da bitməsinə rəvac verirsiniz. Siz onların müəyyən sahəni tutmasını diqqətinizdən yayındıra bilərsiniz. Mənfur görkəmə malik alaq otları sizin çiçəklərinizi böyüməyə qoymurlar. Bağçanı arasıkəsilmədən suvarmağı dayandırın. Alaq otlarına su, qida verməyərək, onları məhv edin.

MÖTƏBƏR FİKİR

«İmkan olan kimi, hər hansı bir çatışmazlığını nümayiş etdir. Paxıl insanların nöqteyi-nəzərinə əsasən, mükəmməl insan qüsursuz və nöqsansız şəxsiyyətdir. Mingözlü Arqusa çevrilin – onlar bütün gözləri ilə nöqsan axtarırlar – bu, onların yeganə təsəllisidir. Paxıllığın zahirə çıxmasına imkan vermə. Qəbahət işlət. Paxıl insanları əvvəlcədən tərk-silah etmək üçün şüurunda və şücaətində hər hansı bir nöqsan aşkar et. Sən həyatını xilas etmək üçün paxıllığın buynuzları qarşısında qırmızı bürüncəyini bu cür yelləyirsən».

Baltazar Qratsian.

MEDALIN İÇ ÜZÜ

Paxıllıq, insanlarla xüsusi ehtiyatla davranmağa vadar edən səbəb, onların sizin nöqsanlarınızı aşkar etmək cəhdindən ibarətdir. Lakin onların yanından ehtiyatla ötməklə, durumunuzu daha da gərginləşdirirsiniz. Onlar sizin sayıqlığınızı hiss edərək, bu keyfiyyəti sizin daha bir üstün cəhətiniz kimi qəbul edirlər. Məhz buna görə də, paxıllığın kök salmasına imkan verməzdən əvvəl lazımi ölçülər götürün.

Lakin paxıllıq hər hansı bir səbəbdən meydana çıxdıqda, əks yanaşmadan istifadə etmək daha düzgün olardı: sizə paxıllıq edən ünsürlərə nifrət edin. Məziyyətlərinizi gizlətmək əvəzinə, onları nümayiş etdirin. Qoyun hər bir yeni qalibiyyət onları paxıllıqdan çatlamağa məcbur etsin. Sizin müvəffəqiyyətiniz, sərvətiniz onları yandırır. Siz yenilməz hakimiyyət mövqeyinə nail olduqda, onlar sizə ziyan vurmaqda gücsüz olacaqlar: onlar şəxsi paxıllıq hissinin tələsinə düşəcək, siz isə azad və qüvvətli olacaqsınız.

Mikelancelo rəqibi memar Bramante üzərində bu cür qələbə çalmışdır. Memar Bramante papa Yulini Mikelancelonun müəllifi olduğu məqbərə layihəsindən imtina etməyə razı salmışdı. Bramante Mikelancelonun ilahi qabiliyyətinə qibtə edirdi. O, Mikelancelonun məqbərə layihəsinin rədd edilməsinə nail olduqdan sonra papanı Mikelanceloya Sikistin kapellası üçün freska sifariş etməsinə razı salmışdı. Bu sifariş uzun zaman kəsiyini əhatə etməli idi. Bramante Mikelancelonun uzun müddət əsrarəngiz heykəltəraşlıq nümunələri yaratmaq imkanından məhrum olduğunu düşünürdü. Bundan başqa, Bramate dahi heykəltəraşın rəssamlıqda zəif olduğuna şübhə edirdi. O, Mikelancelonun mükəmməl rəssam nüfuzunu itirərək rüsvay olduğunu düşünürdü.

Mikelancelo bu hiyləni başa düşdüyünə görə təklifi rədd etmək istəyirdi. Lakin, o, papaya imtina etməyə ehtiyat etdiyindən, sifarişi qəbul etdi. Lakin o, Bramantenin paxıllıq hissindən istifadə edərək, daha yüksək mənsəbə çatmaq naminə, Sikstin kapellasını şah əsərinə çevirdi. Bramate hər dəfə bu əsəri gördükdən və onun haqqında müsbət rəy eşitdikdən sonra paxıllıqdan əzab çəkirdi. Bu əsər paxıl rəqibinə cavab vermək üçün ən şirin və uzunmüddətli intiqam oldu.

QIRX YEDDİNCİ QANUN

NƏZƏRDƏ TUTDUĞUN MƏQSƏDDƏN İRƏLİ GETMƏ: QALİB GƏLƏRKƏN NƏ VAXT DAYANMAĞIN LAZIM OLDUĞUNU BİL

QANUNUN MAHİYYƏTİ

Qələbə anı – əksər hallarda böyük risk məqamıdır. Qələbənin ən məsuliyyətli məqamında özündən müştəbehlik və özünə həddindən artıq inam məqsəddən yan keçməyinizlə nəticələnə bilər, həddindən artıq qabağa getsəniz, qələbə çalmaq əvəzinə məğlub olmayan düşmənlər qazanacaqsınız. Dərindən düşünərək planlaşdırmaya heç bir alternativ variant qalmır. Məqsədinizi müəyyənləşdirin, ona nail olarkən, dayanın.

LOVĞA XORUZ

İki xoruz döyüşürdü. Bir xoruz güclü olduğu üçün o biri xoruzu döyüb qovdu. Bütün toyuqlar qalib xoruzu dövrəyə alıb, onu tərif etməyə başladılar. Xoruz başqa həyətdə də gücünü nümayiş etdirmək niyyətinə düşdü. O, sarayın damına uçub, qanadlarını çırparaq ucadan oxudu: «Mənə baxın. Mən xoruzu döydüm. Heç bir xoruz mənim kimi güclü deyildir». Sözünü tamamlamağa macal tapmamış, qartal xoruzu caynağına alıb yuvasına apardı.

Lev Tolstoy (1828–1910).

QANUNUN POZULMASI

Bizim eradan əvvəl 559-cu ildə Kir adlı cavan bir oğlan İranın pərən-pərən olmuş tayfalarından böyük bir ordu toplayıb, onu babası – midiyalıların şahı Astiaqın üzərinə apardı. O, səltənəti asanlıqla ələ keçirərək, Midiya ilə İranı birləşdirib, İran imperiyasının əsasını qoydu. Qələbələr bir-birini əvəz edirdi. Kir Midiyanın hakimi Keyzi məğlub edərək, Poniya adalarını və daha kiçik dövlətləri zəbt etdi. Vavilona yürüş edib, xarabaya çevirdikdən sonra onu Böyük Kir, kainatın Çarı adlandırdılar.

Vavilon xəzinəsinə sahib olan Kir, nəzərdiqqətini şərqə, Xəzər dənizi sahillərindəki geniş ərazidə məskunlaşan köçəri yarımvəhşi massagetlər tayfasına yönəltdi. Tomrisin rəhbərliyi altında amansızcasına döyüşən massagetlər Vavilon xəzinəsinə sahib olmasalar da, Kir özünü əbədi qalib sayaraq, bu tayfaya hücum etməyi qərara aldı. Massagetlər onun qüdrətli ordusunun qarşısında ən zəif şikara bənzəyirdilər. Kirin imperiyasının ucu-bucağı görünmürdü. Bizim eradan əvvəl 529-cu ildə, Kir, ordusu ilə birlikdə Araz çayı istiqamətində, massagetlərin ərazisinə yürüş etdi. O, Araz çayının qərb sahillərində düşərgə saldıqdan sonra çariça Tomrisdən namə aldı: «Midiyalıların çarı! Sənə niyyətindən əl çəkməyi məsləhət görürəm. Sənin yürüşünün uğurlu keçməsinə zəmanət yoxdur. Sən öz xalqını idarə et. Mənim xalqıma toxunma. Əlbəttə, sən mənim məsləhətimi

rədd edəcəksən. Çünki sülhü, əmin-amanlığı qiymətləndirməyi bacarmırsan». Tomris ordusunun qüdrətinə əmin olduğu üçün döyüşü uzatmaq istəmirdi. Buna görə də, o, Kirə Araz sahillərini tərk etməyi və çayın şərq sahillərində döyüşməyi təklif etdi.

Kir razı olsa da, düşmən ilə mərd-mərdanə döyüşmək əvəzinə, hiyləyə əl atmağı qərara aldı. Massagetlər cah-cəlaldan xəbərdar deyildilər. Çayı keçərək, onun şərq sahillərində düşərgə salan Kir, orada ətlə, ləziz yeməklərlə, şərabla zəngin olan məclis qurdu. Düşərgədə zəif olan kiçik dəstə qoymaqla kifayətləndi. Massagetlərin böyük dəstəsi düşərgəyə daxil olub iranlıları qılıncdan keçirdikdən sonra, süfrə arxasına keçdilər. Doyunca yeyib, şərab içib sərxoş olduqdan sonra onları yuxu tutdu. İranlıların ordusu həmin gecə düşərgəyə qayıdıb, düşmən əsgərlərinin böyük bir qismini qətlə yetirib, qalanlarını isə əsir götürdülər. Əsirlərin arasında gənc sərkərdə, Tomrisin yeganə oğlu Sparqapis də var idi.

Baş verənlərdən xəbər tutan Tomris, Kirə namə göndərərək, onu məkrli hərəkətinə görə ittiham etdi: «Mənə qulaq as! Mən sənə sənin rifahın naminə məsləhət verirəm: oğlumu qaytar və ölkəni tərk et – sənin orduna maneəsiz şəkildə sərhədləri tərk etməyə imkan veriləcəkdir. Massagetlərin torpağının 13 hissəsini ödənc kimi götür. Təklifimdən imtina etsən, səni qan dəryasında boğacağıma söz verirəm». Kir çariçaya güldü:

DOLAYI DİNDİRİLMƏNİN APARILMASI QAYDASI

Dolayı dindirilmənin aparılması zamanı sizi qane edən cavabın alınmasından sonra vaxtlı-vaxtında dayanmağı bacarmaqdan ibarətdir. Şahidin ifadəsi ilə bağlı dindirmənin triumfual nota ilə başa çatdırılmasından vacib heç nə ola bilməz. Bir çox hüquqşünaslar şahidin yalan ifadəsini ifşa etməyə müvəffəq olurlar. Lakin onlar bununla kifayətlənməyərək, məhkəmə iclasçılarını yorana qədər sual verməkdə davam edirlər.

Frensis Vellman. «Dolayı dindirilmə sənəti». 1913

onun oğlunu buraxmaq niyyətində deyildi, o, massagetlərin kökünü kəsmək istəyirdi.

Çariçanın oğlu azad edilmədiyini görüb, özünü öldürdü. Oğlunun ölüm xəbəri Tomrisi sarsıtdı. O, bütün döyüşçüləri səfərbərliyə alıb, qisas məqsədilə Kir ilə qanlı və amansız döyüşə qalxdı. Massagetlər qalib gəldilər. Hiddətindən qəzəblənən massagetlər İran ordusunu darmadağın edərək, Kiri öldürdülər.

Döyüş başa çatdıqdan sonra, Tomris Kirin cəsədini tapdı. O, Kirin başını kəsib, onu qan ilə dolu şərab çəlləyinə salaraq dedi: «Mən sənə və sənin başına sahib çıxsam da, sən mənim oğlumu hiylə ilə qətlə yetirib bütün həyatımı məhv etdin. Yaxşı-yaxşı bax – mən sənə verdiyim sözə əməl edirəm: istədiyin qədər qan iç». Kirin ölümündən sonra iranlıların imperiyası süquta uğradı. Kirin bir təkəbbürlü əməli, onun bütün müvəffəqiyyətlərinin üzərindən xətt çəkdi.

İZAHI

Qələbədən çox cəlbedici və təhlükəli təzahür yoxdur. Kir keçmişin qalıqları üzərində qüdrətli ordu yaratmışdı. Onun hökmranlığından 100 il əvvəl qüdrətli Assuriya dövləti darmadağın edilmiş, paytaxtı Nineviya isə xarabaya çevrilmişdi. Bir-birinin ardınca dövlətləri, şəhərləri darmadağın edərək, hədlərini aşan assuriyalıların aqibəti bu cür sonluqla bitmişdi. Onlar bu cür qələbələrin nəyin bahasına əldə olunduğunu dərk etdikdə isə, artıq gec idi. Assuriyalıların çoxsaylı qatı düşmənləri var idi. Bu düşmənlər imkan tapan kimi birləşib onları məhv etdilər. Kir Assuriya dərslərindən özünə nəticə çıxarmadı. O, müşavirlərin məsləhətlərini dinləmirdi, çariçanı təhqir etməkdən də çəkinmədi. Çoxsaylı qələbələr onu sərməst etmiş, ağlını dumanlandırmışdı. O, ucu-bucağı görünməyən imperiyasını möhkəmləndirmək əvəzinə, yeni-yeni torpaqlar tutmağa can atırdı. Vəziyyətin kəskin şəkildə dəyişdiyini hiss etməyən Kir, hər yeni

müharibənin yeni qələbələr gətirdiyini və bunun üçün bütün üsullardan, o cümlədən məkr və hiylədən istifadənin vacib olduğunu hesab edirdi.

Siz hakimiyyətin şüur və idrak ilə idarə olunmasının zəruri olduğunu unutmamalısınız. Siz ani ləzzətə, emosional sıçrayışa qələbənin məhsulu kimi yol versəniz, onlar sizi məğlub edəcəklər. Uğur əldə etdikdən sonra bir addım geri çəkilməkdən qorxmayın. Ehtiyatlı olun. Qələbə çaldıqdan sonra, bunun bir daha təkrarlanması mümkün olmayan şərait nəticəsində baş verdiyinə özünüzü inandırın. Əvvəllər uğur gətirmiş hərəkətləri eynilə təkrarlamayın. Tarix qüdrətli imperiyaların xarabaları və vaxtında dayanmağı bacarmayan, eləcə də həddini bilməyən hökmdarların cəsədləri ilə qalanmışdır.

Kitablarda bu cür nankorluğa dair bir çox nümunələr aşkar etmək mümkündür. Şücaətlə döyüşərək hökmdarının hakimiyyətini təsdiq etmiş, düşmənləri məğlub edərək şöhrət qazanmış, döyüşçülərinə isə sərvət, var-dövlət vermiş sərkərdəni təsəvvür edin. Onun döyüşçülər, düşmənləri və hökmdarın əyanları arasındakı nüfuzu artaraq, əldə etdiyi qələbələr hökmdara ziyan vurmaqla nəticələnir. İnsan təbiətinə görə şöhrətpərəst və hər şeydən şübhələnəndir. O, bir dəfə zəfəri daddıqdan sonra onu dayandırmaq qeyri-mümkün olacaqdır. Bu belə də olur: sərkərdə qələbə çaldıqdan sonra hökmdar ondan şübhələnir. Sərkərdənin hər hansı bir müəmmalı hərəkəti isə bu şübhəni doğruldur. Beləliklə, hökmdar təhlükəsizliyini təmin etmək haqqında düşünərək, sərkərdəni qətlə yetirməyi və yaxud döyüşçülərin və xalqın gözündən salmağı qərara alır: o, bununla qələbənin sərkərdənin sayəsində deyil, məhz düşmənlərin qorxaqlığı nəticəsində əldə olunduğunu müxtəlif üsullarla sübuta yetirməyə çalışır.

Nikollo Makiavelli (1469–1527).

QANUNA RİAYƏT OLUNMASI

Tarixdə kral məşuqələrinin incə mövqeyini heç kəs tuta bilməmişdir. Kral məşuqəsi ehtiyac duyduğu zaman müraciət edə bildiyi qanuni hakimiyyətə malik deyildi. Kral məşuqəsini paxıl saray əyanları kütləsi əhatəyə alaraq, onun məğlub olması üçün əlindən gələni əsirgəmirdilər. Ən nəhayət, məşuqəni fiziki gözəlliyi sayəsində kral üzərində hökmranlığın mənbəyi hesab edənlər onun gözdən və etibardan düşməsini gözləyirdilər.

Fransa kralı XV Lüdovik hakimiyyətinin ilk günlərindən bir neçə məşuqə saxlayırdı. Bu zaman, hər qadının xoşbəxtliyi bir neçə ildən uzun çəkmirdi. Günlərin bir günü, o, Markiza de Pampaduru gördü. Onun əsl adı Janna de Puasson idi. O, yoxsul ailədə tərbiyə almışdı. Janna uşaqlıqda bir falçı ilə təsadüfən görüşmüş və falçı onun gələcəkdə kral məşuqəsi olacağını söyləmişdi. Kralların məşuqələri, bir qayda olaraq, zadəgan ailələrinə məxsus olduqları üçün bu fal qondarma cəfəngiyata bənzəyirdi. Lakin Janna təyinatına inanır və kralın sevgisini qazanmaq onun həyatının qayəsinə çevrilirdi. O, monarx sevgilisinin mənimsəməli olduğu rəqsə, nitq söyləmək təcrübəsinə, at sürməyə gözəl yiyələnərək, bu baxımdan daha da təkmilləşmişdi. O, erkən yaşlarında zadəgan ilə ailə qurmuşdu. Onun həyat yoldaşı yüksək mənsəbə malik idi. Bu nikah Jannaya Parisin ən gözəl və dəbdəbəli salonlarına daxil olmağa şərait yaratdı. Tezliklə onun gözəlliyi, istedadı, bacarığı və cazibədarlığı böyük səs-küyə səbəb oldu.

Janna Puasson Volter, Monteskyö və digər dahi mütəfəkkirlərlə tanış olub, əlaqələr qursa da, əsas məqsədini bir an belə unutmur, kralın sevgisini qazanmağa can atırdı. Onun ərinin meşədə qəsri var idi. Kral ova çıxanda orada gecələyirdi. Buna görə də, Janna bu qəsrdə qalmağı qərara aldı. Kralın hərəkətlərinə fikir verən Janna gah «təsadüfən» onun qarşısına çıxır, gah açıq-saçıq paltarda qarşısında gəzişir, gah da zövqlə bəzədilmiş kare-

tada yanından keçirdi. Nəhayət ki, o, kralın diqqətini cəlb etdi və kral ovundan birini ona hədiyyə verdi.

1744-cü ildə Lüdovikin məşuqəsi hersoginya de Şatoro vəfat etdi. Jannanın qarşısında yeni imkanlar açıldı. O, kralın iştirak etdiyi hər bir məclisə, Versalda keçirilən maskaradlara, istedadını nümayiş etdirməyə geniş imkanlar açan operaya gedirdi. Zaman keçdi və kral onun qarşısında dayana bilmədi: 1745-ci ildə Versalda 24 yaşlı Janna təntənəli surətdə məşuqə elan olundu. Sarayda onun üçün ayrıca otaq hazırlandı. Kral bu otağa istədiyi vaxt gizli yol ilə gələ bilərdi. Saray əyanları Lüdovikin məşuqəsinin aşağı zümrədən olması haqqında şayiələr yayırdılar. Kral Jannaya markiza titulu verdi. O, markiza de Pompadur oldu.

Kral əyləncəni çox sevir, darıxdırıcı mühitdən qaçırdı. Markiza kralın darıxmasına imkan verməmək üçün Versalda daim tamaşalar qurur, səhnədə isə şəxsən çıxış edirdi. O, ov bayramları, maskaradlar və ballar təşkil edirdi. Bütün bunlar krala xidmət edirdi. O, bütün Fransa üçün incəsənət himayədarına, dəb və zövq kraliçasına çevrildi. Onun hər bir uğuru düşmənlərinin sayını daha da artırırdı. Lakin markiza de Pompadur onlarla kral məşuqəsinə xas olmayan tərzdə davranırdı: o, həddindən artıq nəzakətli olaraq, tənqid edənləri də heyran edə bilmişdi. Onun qeyri-adi münasibətlərindən biri də, ərindən diqqət və qayğı tələb edən kraliça ilə dostluq əlaqələri idi. Hətta kral ailəsi də onu dəstəkləyirdi. Kral ona hersoginya titulu verdi. Onun təsiri dövlət siyasətində də özünü büruzə verirdi: o, məxfi xarici işlər naziri oldu.

Şan-şöhrət sahibi olan markiza de Pompadur 1751-ci ildə güclü böhran ilə qarşılaşdı. Bu qədər məsuliyyətin altında tab gətirməyən, yorulan markiza kralı yataqda təmin edə bilmirdi. Məqsədləri uğrunda mübarizə apararaq, son nəticədə gözəlliyini də itirən məşuqələrin aqibəti bu cür olurdu. Lakin markizanın planı var idi: onun xahişi ilə kral Versalda Park-o-Serf açmışdı. Bu, priton idi. Burada orta yaş həddində olan kral krallığın ən gözəl qızlarının arasından məşuqə seçə bilərdi.

Markiza de Pompadur kral üçün əvəzolunmaz olduğunu bilirdi – buna onun lətafəti və siyasət sahəsində nadir intuisiyası yardım edirdi. O, nə hakimiyyətə, nə də məlahətə malik olmayan 16 yaşlı qızların rəqabətindən ehtiyat etməli idimi? O, Avropanın ən nüfuzlu qadınlarından olduğu halda, yataqda mövqeyini itirməkdən ehtiyat etməli idimi? O, bu mövqeyini itirməmək üçün kraliça ilə münasibət quraraq, onunla birlikdə kilsəni ziyarət etməyə başladı. Markizanın düşmənləri onun rəsmi məşuqə mövqeyindən enməsinə nail olmağa çalışsalar da, kral ondan ayrılmaq istəmirdi. Madam Pompadurun yeddiillik müharibədə iştirakı narazılıq doğuraraq, tənqid hədəfinə çevrildiyi üçün, o, tədricən kölgədə qaldı.

Markiza de Pompadurun orqanizmi zəif idi. O, 1764-cü ildə 43 yaşında vəfat etdi. Onun məşuqə kimi hökmranlığı uzunmüddətli olub, 20 il sürdü. Hersoq de Krua yazırdı: «Hər kəs onun ölümündən mütəəssir olub, göz yaşı tökürdü. Çünki o, çox mehriban insan olduğundan, yanında olan hər kəsə kömək etmiş, yardımını əsirgəməmişdi».

Ağacları dərmanlamaq bacarığı ilə şöhrət tapmış şəxs, başqasına bu sənəti öyrədirdi. O, oğlana hündür ağacın yuxarı budaqlarını kəsməyi tapşırdı. Hər an şagirdinin təhlükə ilə üzləşdiyini görən müəllim bir kəlmə də kəsmirdi. Yalnız oğlan işini bitirib ağacın yuxarısına dırmandıqdan sonra müəllim qışqırdı: «Ehtiyatlı ol! Gör bir ayağını haraya qoyursan». Mən soruşdum: «Sən bu sözləri nə üçün indi deyirsən? O, bu cür hündürlükdən istədiyi zaman torpağa tullana bilər». O, mənə cavabında: «İş burasındadır ki, yüksəkliyə can atan şagirdim zə-

İZAHI

Hakimiyyətinin uzun sürməyəcəyini bilən məşuqə kral ehtiramını və məhəbbətini qazandıqdan sonra hiddətlənirdi: o, özünü ömürlük təmin etmək üçün daha çox pul əldə etmək istəyirdi. O, «hökmranlığının» müddətini uzatmaq üçün sarayda yaşayan bütün düşmənlərinə qarşı sərt və amansız olmalı idi. Başqa sözlə desək, onun durumu ondan tamahkarlıq və kinli münasibət tələb edirdi. Madam de Pompadur başqalarının mənimsəmədiyi sahələrdə uğur qazanırdı. O, kralın nüfuzundan istifadə edərək, saray əyanlarını təhqir etmir, əksinə, onların etimadını qazanmağa can atır, nə xəsislik, nə də kin-küdurət əlamətləri ifadə etmirdi. O, intim münasibətə girə bilmədiyi təqdirdə, kimin isə onu əvəz etməsindən ehtiyatlanmırdı – imkansızlığını nəzərə alaraq, krala cavan məşuqələr, ancaq çox da gözəl olmayan məşuqələr seçirdi, belə ki, onların nə zaman isə kralı bezdirəcəklərinə əmin idi.

Uğur şüurla qəribə oyun oynayır. O, ətrafdakılara qarşı müqaviməti artıraraq, sinirləri möhkəmləndirərək, insanı məğlubolunmaz edir, şəraitə uyğunlaşmaq qabiliyyətini zəiflədir. Siz güclü xarakterin uğur əldə etməsi üçün strategiya ilə taktikanın planlaşdırılmasının daha vacib olduğunu güman edirsiniz. Siz madam de Pompadur kimi qalibiyyət anında sərhesaba, kələyə və strategiyaya arxalanmağın, hakimiyyətinizin özülünü möhkəmləndirməyin, uğuru dərk etməyi öyrənməyin və taleyin çətin sınaqlarına, dönüşlərinə qarşı mətin olmağın zərurət təşkil etdiyini anlamalısınız. Məhz qalibiyyət anında saray əyanı olub, hakimiyyət qanunlarına daha diqqətlə yanaşmaq lazımdır.

rif budaqların qırılmasından qorxaraq, özünü diqqətli və ehtiyatlı aparırdı. O, həddən ziyadə qorxduğundan, ona təhlükə haqqında xəbərdarlıq etməyim artıq idi. İnsanlar məqsədlərinə nail olduqdan sonra hər zaman səhvə yol verirlər». Bu insan adi kəndli olsa da, onun sözləri müdriklərin kəlamlarına tam uyğun idi. Hətta oyun zamanı, həlledici zərbənin qarşısını alan oyunçu, növbəti zərbənin daha asan olacağını güman edərək arxayınlaşdığı zaman topu buraxır.

Kenko (Yaponiya, XIV əsr) «Bayram qeydləri»

Böyük təhlükə məhz qalibiyyət məqamında doğulur.

Napoleon Bonapart (1769–1821).

HAKİMİYYƏTİN AÇARI

Hakimiyyətin öz ritmləri və qanunauyğunluqları var. Qanunauyğunluğun alqoritmini tutub, onu iradəsinə uyğun şəkildə dəyişdirən və insanları özündən çıxardan şəxs bu oyunda qalib gəlir. Strategiyanın əsas mahiyyəti yaxın gələcəkdə baş verən hadisələri qabaqcadan görərək, onları idarə etməkdən ibarətdir. Lakin qalibiyyət sevinci sizi idarə etmək qabiliyyətindən məhrum edə bilər. Burada iki ssenari mümkündür. Birinci ssenariyə əsasən, siz uğurunuzu qanunauyğunluq kimi qəbul edib, onu təkrarlaya biləcəyinizə əminsiniz. Siz dayanmadan həmin istiqamətdə hərəkət edərək, onun əlverişli olduğuna əminlik hasil edirsiniz. İkinci ssenariyə əsasən isə, uğur hamını sərməst edib, həyəcanlandırır. Siz mətinliyinizə, dəyanətinizə inanaraq, özünüzü təcavüzkarcasına aparırsınız. Bu isə, sizin qalibiyyətinizə son qoya bilər.

Burada ibrət dərsi çox sadədir: insanlar ritmi dəyişməklə, şəraitdən asılı olaraq, davranış tərzini də dəyişib, impravizə etməyi öyrənirlər. Onlar hədlərini aşmır, əksinə, ümumi mənzərəni nəzərdən keçirmək üçün bir addım geri çəkilirlər. Onların qanında qələbədən sərməst olmağa qarşı sanki padzəhr vardır. Bu, onlara uğur əldə etdikdən sonra hisslərini nəzarət altına almağa imkan verir. Onlar iradələrinə sahib çıxaraq, baş verənləri nəzərdən keçirərək, mövcud şəraiti və uğurlarını ayıq-sayıq şəkildə qiymətləndirirlər. At sürmə məşğələlərini keçirən məşqçilərin söylədikləri kimi, ilk əvvəl özünü idarə etməyi öyrənərək, daha sonra atı idarə etməyə cəhd göstərmək lazımdır.

Şərait və vəziyyət hakimiyyət oyununda hər zaman vacib rol oynayır. Bu, qaçılmaz olub, oyunu daha maraqlı edir. Lakin bu, çox qəribə görünsə də, xoşbəxt hadisə bəzən təhlükəli olur. Uğursuzluqlar sizi səbirli, təmkinli olmağa, düzgün seçim etməyə, hər bir hadisəyə hazır olmağa öyrədir. Kortəbii uğur əks ibrət dərsi verərək, sizdə əməli işinizə mane olan fitri istedad haqqında yanlış təsəvvür oyadır. Uğur sizdən, gec və ya tez, üz döndərə də bilər. Bunun qəflətən baş verməsi riskli mövzudur.

Makiavelli bu cür hadisənin Çezar Bordcianın da başına gəldiyini yazırdı. O, bir neçə zəfər sahibi olub, strateji istedada malik idi: lakin bundan başqa uğur onun yol yoldaşı, Roma papası isə atası idi. Atası vəfat etdikdə isə, o, buna hazır olmadığı üçün düşmənləri tərəfindən məğlub edildi. Uğur sizi yüksək mənsəb sahibi etdiyi kimi, sizi hər hansı bir mövqedən məhrum etməyə də qadirdir. Siz bu cür vəziyyətə qabaqcadan hazır olmalısınız.

Uğur əldə edən insanlar bəzən əsəbi olurlar. Hətta onlar öz soyuqqanlılıqlarına əmin olsalar da, əhatə edən insanlar daha dərrakəli olduqları üçün, onları həddini aşmağa və təhlükəli zonaya daxil olmağa məcbur edirdilər. Siz bu cür insanlara qarşı necə davranmağı bilməlisiniz. Siz onları mötədilliyə çağırmaqla, özünüzü zəif və səfeh kimi qələmə verəcəksiniz. Qazandığınız qələbədən tam faydalanmadan etimadı itirmək, hakimiyyəti zəifləmək təhlükəsi qarşısında qalırsınız.

Afina sərkərdəsi və dövlət xadimi Perikl bizim eradan əvvəl 436-cı ildə Egey dənizində keçirilən bir neçə döyüşdə qələbə çaldıqdan sonra, onun asanlıqla əldə olunan qələbələri afinalıların iştahını artırdı. Onlar Misiri zəbt etmək, İranı xarabaya çevirmək, Siciliyaya isə dənizdən basqın etmək arzusunda idilər. Perikl bu arzusunu boğaraq, Tanrını qəzəbləndirməkdən qorxurdu. O, ordunu kiçik qələbələrlə doyduraraq, istədiyi zaman uğur qazanmağa müvəffəq olması barədə təsəvvür yaradırdı. Periklin ustalıqla oyun aparmaq qabiliyyəti, ölümündən sonra aydın oldu: demaqoqlar üstünlük əldə edərək, Siciliyanı zəbt etməyə Afinanı təhrik edərək, bir zərbə ilə qüdrətli dövlətin süqutuna səbəb oldular.

Hakimiyyətin qorunub saxlanması üçün güc ilə hiyləni birləşdirərək, onun tarazlığını qorumaq tələb olunur. Həddindən artıq güc tətbiq etmək müqavimət yaradır: burada hiylə işlətmək vacibdir. XVI əsrin görkəmli yapon sərkərdəsi Xideyoşi hökmdar Oda Nobunaqanın naminə sərkərdə Yoşimotonun ordusuna qalib gəlmişdi. Hökmdar Nobunaqa bununla kifayətlənmədi. O, digər düşməninin də darmadağın olunmasını tələb etdi. Lakin Xideyoşi hökmdara yapon atalar sözünü xatırlatdı: «Qələbə çaldığın zaman dəbilqənin bağlarını bərkitməyi unutma». Xideyoşinin mülahizəsinə əsasən, gücdən çox, hiyləyə müraciət edərək düşmənlərin bir-birinə qarşı döyüşməsinə rəvac vermək lazım idi. Onlar, bu üsul ilə, arzuolunmaz toqquşmalardan qaçmağa və təcavüzkarlıq nümayişinə cavab olaraq, düşmənçiliyin yaranma təhlükəsinin qarşısını almağa müvəffəq olmuşdular. Buna görə də, siz qalibsinizsə, o zaman ehtiyatla davranaraq, hərəkətsizliyiniz ilə düşməni zərərsizləşdirin. Ritmin bu cür dəyişdirilməsi çox güclü və təsirli vasitədir.

Həddini aşan insanları ağasının xoşuna gəlmək, onun etimadını doğrultmaq arzusu idarə edir. Lakin həddindən ziyadə canfəşanlıq riskli olub, ağanın şübhəsinə səbəb ola bilər. Filip Makedonski qələbə əldə etdikdən sonra, sərkərdələri təhqir etməkdən həzz alırdı. Filip belə qələbələrin birində, ondan asılı olan insanın və məsləkdaşının rəqibə çevriləcəyini gözləyirdi. Siz ağaya xidmət etdikdə, qələbələrinizi şüurlu şəkildə götür-qoy edərək, narahatlıq üçün şərait yaratmamalısınız. Onun etimadını qazanmaq üçün tam tabelik nümayiş etdirin. B.e. əvvəl IV əsrdə sərtliyi və əzazilliyi ilə fərqlənən sərkərdə U Şinin başçılığı altında xidmət göstərən zabit döyüşdən əvvəl hücuma keçərək, düşmənlərinin başları ilə geri qayıtmışdı. O, canfəşanlığı ilə U Şi-

nin etimadını qazanmaq istəyirdi. Lakin bu, sərkərdəyə heç bir təsir göstərmədi. U Şi zabitin edam edilməsinə əmr verərək dedi: «Bacarıqlı zabit olsan da, itaətkar deyilsən».

Beləliklə, cüzi uğur əsas məqsədin əldə edilməsinə mane ola bilər: həddindən artıq heç nə istəməyin – bu, təhlükəli səhvdir. Bu cür vəziyyətdə yeganə düzgün hərəkət – mərhəməti şərəflə qəbul edib uzaqlaşmaqdır. Bütün qalan şəfqət və rəhm hissi ilə müşayiət olunan etimadı siz özünüz qazanmalısınız.

Harada və necə dayanmaq çox vacibdir: bu məqam psixoloji əhəmiyyətə malikdir. Hafizədə sonuncu səhnə özünəməxsus kulminasiya nöqtəsi kimi həkk olunur. Şərəfli qələbədən sonra, uzaqlaşmaq üçün, bu məqamdan istifadə olunması daha məqsədəuyğundur. Siz səhnədə qalmaqla səmərəni azaldırsınız. Bütün bunlardan sonra, sizin yeni mövqelər əldə etməyiniz çətin olacaqdır. Siz autsayderin rolunu qəbul etməyə məcbur olacaqsınız. Hüquqşünasların söylədikləri kimi: «Məqsədə çatdıqdan sonra sual verməyin».

OBRAZ:

GÖYDƏN YERƏ DÜŞƏN İKAR

Onun atası Dedal mumdan qanad düzəltmişdi. Bu qanadlar labirintdən çıxmaq və Minotavrdan xilas etmək üçün iki nəfəri havaya qaldırmağa qadir idi. Uçuşdan sərməst olmuş İkar daha yüksəklərə uçurdu. Bu zaman günəşin şüaları mumu əritdi və o, torpağa düşüb həlak oldu.

MÖTƏBƏR FİKİR

«Hökmdarlar və respublikalar qazandıqları qələbə ilə kifayətlənməlidirlər. Belə ki, onlar daha böyük qələbəyə can atdıqda, bir qayda olaraq, uduzurlar».

Nikollo Makiavelli (1469–1527).

MEDALIN İÇ ÜZÜ

Makiavelli potensial rəqibi ya məhv etməyi, ya da rahat buraxmağı öyrədirdi. Natamam cəza və yaxud cüzi ziyan qisas almaq niyyətində olan düşmənin meydana çıxmasına səbəb olur. Düşməni məhv edin. Zəfər çalanda da düşməni təqib edin. Lakin bu zaman başqalarına hücum etməyin. Bu, yolverilməzdir. Düşmənə qarşı amansız olun. Fəqət həddinizi aşaraq yeni düşmən qazanmayın.

Qələbə əldə etdikdən sonra çox ehtiyatla davranan insanlar mövcuddur. Onların fikrincə, qələbə yalnız narahatlıq üçün əsas verib, fəth olunmuş torpaqları itirmək üçün irəliyə doğru hərəkət etmədən mühafizə mövqeyi tutmağa təhrik edir. Bu mövqe də yanlışdır. Siz qələbə əldə etdikdən sonra, nümayiş etdirdiyiniz ehtiyat, sizi tərəddüd etməyə məcbur etməməli və yaxud lazımi vəziyyətdən istifadə etməyə mane olaraq, düşünülməmiş addımlardan uzaqlaşdırmalı, müdafiə vasitəsinə çevrilməlidir. Lakin onları da çox yüksək qiymətləndirmək olmaz. Siz özünüz uğur yaradırsınız. Uğurların isə, bir-birini əvəz etməsi sizin xüsusi xidmətiniz olur. Uğura səbəb xoşbəxt hadisənin olduğunu iddia etmək isə, sizin öz gücünüzə inamınızı azaldır, hərəkətlərinizin düşünülmüş və strateji planlaşdırılmasına mane olur, eyni hərəkəti korkoranə təkrarlamağa təhrik edir. Bu cür vəziyyət heç nəyə güvənməyən insan üçündür.

QIRX SƏKKİZİNCİ QANUN

FORMANIN QEYRİ-MÜƏYYƏNLİYİNƏ NAİL OL

QANUNUN MAHİYYƏTİ

Siz əyani planlara malik olaraq, konkret forma əldə etməklə, özünüzü hücuma məruz qoyursunuz. Bununla da, düşməninizin hücum edəcəyi formanı qəbul etmək və uyğunlaşmaq əvəzinə, həmişə hərəkətdə olursunuz. Heç nəyin qəti olmadığını və əbədiliyi müəyyən edilmiş qanunların mövcud olmadığı faktını qəbul edin. Özünüzü müdafiə etməyin ən yaxşı üsulu – su kimi formasız və axarlı olmaqdır: heç bir zaman sabitlik və yaxud uzunmüddətli nizam-intizama üstünlük verməyin. Hər şey dəyişilir.

QANUNUN POZULMASI

Yunanıstanın dövlət şəhərləri, b.e.ə. VIII əsrdə, elə bir səviyyədə böyüyərək çiçəklənirdi ki, artan əhali üçün onun əraziləri kifayət etmirdi. Buna görə də, onlar dənizin o tayına doğru hərəkət edərək, Siciliya adasında, Kiçik Asiya və Apennin yarımadalarında və hətta Afrikada koloniyalar yaradır. Dağlarla əhatə olunmuş Sparta isə, Aralıq dənizinə çıxışa malik deyildi. Ona görə də, spartalılar heç bir zaman dənizdən istifadə etmir, hətta gəmiçiliklə məşğul olmurdular. Onlar yeni ərazilər əldə etmək məqsədilə həmsərhəd şəhərlərlə münaqişəyə girirdilər. Yüz ildən çox davam edən bir sıra amansız hərbi münaqişələr nəticəsində onlar vətəndaşlarını məskunlaşdırmaq üçün kifayət edən böyük ərazini zəbt etdilər. Bununla bir problemi həll etsələr də, digər daha ciddi problemlə qarşılaşdılar: zəbt olunmuş torpaqlarda qayda-qanuna riayət olunması və idarəçiliyin dəstəklənməsi tam ciddiliyi ilə qarşıda dururdu. İstila olunmuş xalqların sayı spartalılardan 10 dəfələrlə çox idi. Bu insan kütləsinin nə zaman isə qəsbkardan qisas alacağına heç bir şübhə yox idi və qisas amansız olacaqdı.

Hərb sənətində strategiyanın əlçatmaz və qeyri-müəyyən olması vacibdir. Bu zaman forma məxfi, hərəkətlər isə gözlənilməz olmalıdır. Sərkərdəyə qələbə çalmağa nə kömək edir? Əlçatmaz müdriklik və iz qoymayan hərəkət. Yalnız forması müəmmalı obyektə hücum etmək olmur. Müdriklər anlaşılmaz halların arxasında gizlənərək, daim dəyişilirlər. Bu zaman, onların yollarını kəsmək qeyri-mümkündür.

«Huays sənətkarlarının kitabı». Çin. b.e.ə. II əsr.

Spartada bu problemi həll edərək, hərbi düşərgə prinsipi əsasında qurulmuş cəmiyyət yaratdılar. Spartalılar qonşularından möhkəm, güclü və zalım olmalı idilər. Bu sabitliyin qorunub saxlanılmasının və yaşamağın yeganə yolu idi.

Spartalı oğlan uşağı 7 yaşına çatdıqdan sonra onu anasından ayırır və kazarmaya aparır-

TULA

«Sahibim qulaqlarımı nə üçün kəsdi? Günahım nə idi? İndi nəyə oxşayıram? Həyata bu cür çıxmaq da rüsvayçılıqdır... Ulu hökmdar, səninlə bu cür davransaydılar, nə edərdin?» Palkan bu sözləri deyib ulayırdı. İnsanlar onu çığırda-çığırda, biganəliklə qulaqlarını kəsmişdilər. Palkan çox şey itirdiyinə əmin idi, lakin illər keçdi və o bundan daha çox şey əldə etdiyinin şahidi oldu. O, digər itlərlə döyüşməyi xoşlayırdı. Qulaqları kəsilməsəydi, indi o, qulaqları parçalanmış halda evə qayıdacaqdı. Döyüş zamanı itlərin bir-birinin qulaqlarını gəmirmələri yaxşı məlumdur. Bədəndə, tutmaq üçün nə qədər az yer olsa, bir o qədər yaxşıdır. Məsələn, Palkan qulaqlarından məhrum oldu. Boğazını isə zəncir müdafiə edirdi. Daha canavar onun boğazından və qulaqlarından tuta bilməyəcəkdi! O, çaşqınlıq içərisində qalacaqdı: Axı, mən Palkanın harasından yapışım?

Lafenten, 1621–1695.

dılar. Onu həmin kazarmada ciddi nizam-intizam şəraitində tərbiyə edib əsl döyüşçü yetişdirirdilər. Spartalı oğlanlar qamış üzərində yataraq, ilboyu bir bürüncəkdə gəzirdilər. Onlara incəsənət öyrədilmirdi. Spartada musiqiyə qadağa qoyulmuşdu. Həyatın davamı üçün zəruri olan peşə ilə qullar məşğul olurdular. Gənc spartalılara hərb sənətinin incəliklərini, döyüşməyi öyrədirdi, zəif körpələri isə qayadan atıb öldürürdülər. Spartada heç kim pul yığıb saxlamırdı. Ticarət qadağan edilmişdi. Spartalılara görə, var-dövlət və zənginlik insanlarda xudbinlik oyadaraq, münaqişələr, ixtilaflar yaradır, hərbi nizam-intizamı zəiflədirdi. Spartalılar həyatlarını yeganə bir üsulla təmin edirdilər – onlar azad vətəndaşlar üçün qulların (ilotların) əkib-becərdikləri dövlət torpaqlarında kənd təsərrüfatı ilə məşğul olurdular.

Yeganə məqsədə qulluq etmə Spartada, o dövrdə ən qüdrətli ordu yaratmağa imkan verdi. Spartalı piyada döyüşçüləri nizam-intizamla hərəkət edərək, cəsarət və şücaətlə vuruşurdular. Heç bir ordu onlarla müqayisə edilə bilməzdi. Onun sıx cərgələnmiş cinahları özündən 10 dəfə güclü olan ordunun öhdəsindən gələ bilərdi: iranlılar ilə döyüş buna əyani misal idi. Spartalıların dəstəsi addımladığı zaman düşmən qorxu hissi keçirirdi. Lakin spartalıların məğlubiyyət bilməyən qorxmaz döyüşçü təəssüratı yaratmalarına baxmayaraq, onlar imperiya yaratmaq məqsədinə qulluq etməyərək, ancaq sahibi olduqları əraziləri istilaçıların basqınlarından müdafiə etmək niyyətində idilər. Onilliklər ərzində, Spartada mövcud vəziyyəti ideal şəkildə idarə edən sistem, heç bir dəyişikliyə uğramadı. Sparta hərbiləşdirilmiş mədəniyyətini inkişaf etdirdiyi zaman, digər yunan dövləti olan Afina da ellin dövlətləri arasında siyasi mövqeyini qoruyub saxlamaqda idi. Afina, Spartadan fərqli olaraq, dəniz yollarını mənimsəyərək, onlardan ticarətin deyil, müstəmləkələrin yaradılması üçün istifadə edirdi. Onların «bayquş sikkəsi» adlanan valyutasından bütün Aralıq dənizi boyu istifadə olunurdu. Afinalılar, spartalılardan fərqli olaraq, hər bir problemin həllinə yaradıcı yanaşaraq, dəyişən şəraitə uyğunlaşmaqla, yeni ictimai təsisatlar və sənət əsərləri yaradırdılar. Onların cəmiyyəti daimi hərəkətdə idi. Afina hakimiyyəti möhkəmləndikcə, şəxsi müdafiəsilə məşğul olan Spartanın fəth edilməsi haqqında ideya möhkəmlənirdi.

B.e.ə. 431-ci ildə Afina ilə Sparta arasında müharibə başlandı. O, 27 il davam edərək, yekun nəticədə spartalıların qələbəsilə başa çatdı. Spartalılar, artıq imperiyanı idarə edirdilər. Onlar qınlarından çıxdılar və əvvəlki prinsiplərindən imtina etdilər. Məğlub olan afinalılar isə, yenidən qüvvələrini səfərbər edərək, spartalıları müharibəyə səslədilər.

Müharibədən sonra Spartaya Afina pul vahidləri yol tapdı. Mahir döyüşçü olan spartalılar siyasət və iqtisadiyyatdan xəbərsiz idilər. Buna görə də, ölkəyə daxil olan var-dövlətin onları yoldan çıxarması və həyat tərzlərini dəyişməsi üçün uzun müddət tələb

olunmadı. Afina torpaqlarında spartalı qubernatorlar hökmranlıq edirdilər. Onlar korrupsiyaya aludə oldular. Sparta Afinaya qalib gəlsə də, afinalıların həyat tərzi onun nizam-intizamını tədricən zəiflədərək, sərt qayda-qanunu darmadağın etdi. Afina isə, bu müddət ərzində imperiyasız həyata uyğunlaşaraq, siyasi mərkəzdən mədəni və iqtisadi mərkəzə çevrildi.

Sparta çoxillik tarazlığını itirərək, zəiflədi. Qələbədən 30 il sonra Sparta Fiva dövləti ilə vuruşda məğlub oldu. O, bir gecə ərzində darmadağın edilərək, bir daha özünə gəlmədi.

Şirnikləndirici, lakin uğursuzluğa məhkum olan inkişaf yollarından biri də – müdafiə zirehinin yaradılmasıdır. Canlı orqanizm müxtəlif üsullarla: maskanın, sürətli uçuşun, güclü əks-hücumun köməyi ilə hücum və müdafiə məqsədilə birləşərək, müdafiə oluna, habelə gizlənə də bilər... Zirehlə müdafiə eksperimentləri, bir qayda olaraq, həmişə uğursuz olur. Ondan müdafiə vasitəsi kimi istifadə edən varlıqlar yöndəmsiz və nəhəng olur. Onlar qeyri-ixtiyari olaraq asta-asta hərəkət edirlər. Bununla əlaqədar olaraq, onlar bitki mənşəli qidaya üstünlük verən rəqiblərinə məğlub oldular. Zirehlə müdafiə üsulunu tətbiq etməklə, təkrarlanan uğursuzluqlar, şüurun hətta nisbətən aşağı təkamül səviyyəsində materiya üzərində qələbə çalmasını şərtləndirir. Məhz triumfun bu növü insanda yüksək səviyyədə təzahür edir.

E.V.Barns. «Elmi nəzəriyyə və din», 1933.

İZAH

Növlərin təkamülündə müdafiə məqsədilə istifadə olunan bağa sahibini həmişə bəlaya düçar edə bilər. Çanaq, müəyyən istisnalarla, orada sığınacaq tapmaq istəyən heyvana pis xidmət göstərərək, onun hərəkətini zəiflədib, qida axtarışını çətinləşdirir, onu cəld olan vəhşi heyvanlar üçün asan əldə olunan şikara çevirirdi. Su mühitinə uyğunlaşan və yaxud havada uçan heyvanlar, cəld hərəkət edərək, istiqaməti̇ni kəskin şəkildə dəyişmək qabiliyyətinə malikdirlər.

Sparta ciddi problemlə – böyük xalq kütləsini idarə etmək zərurəti ilə qarşılaşaraq, ətraf mühitdən gizlənmək üçün, zirehini böyüdən heyvanlar kimi hərəkətə gəldi. Spartalılar, tısbağa kimi, təhlükəsizlik naminə hərəkəti qurban verirdilər. Onlar 300 il ərzində sabitliyi qorumağa müvəffəq olsalar da, bu nəyin bahasına mümkün oldu? Onlar hərb sənətindən savayı, hər hansı bir mədəniyyətdən, o cümlədən də meydana çıxan gərginliyin aradan qaldırılmasına yardım edən incəsənətdən məhrum idilər. Onların qonşuları dənizə yol tapdıqları halda, spartalılar özlərini dövlət sistemində dəfn etmişdilər. Qələbə yeni torpaqların mənimsənilməsi və idarə olunması demək idi. Onlar isə buna can atmırdılar. İşğal onların hərbi quruluşunun məhv olmasına səbəb ola bilərdi. Bu isə arzuolunmaz idi. Yalnız sabitlik onlara yaşamağa imkan verdi. Lakin dünyada heç nə sabit və əbədi deyildir. Ona görə də, qurulan müdafiə sistemi sizi nə zamansa, pis vəziyyətdə qoya bilər.

Spartanın məğlub olmasına səbəb, Afina ordusunun darmadağın edilməsi deyil, Afina pulları oldu. Pullar onların dövriyyəsi üçün şərait olan hər yerə qədəm qoyurdu. Onları idarə etmək və yaxud müəyyən olunmuş qaydalara riayət etməyə məcbur etmək qeyri-mümkündür. Pullar hərc-mərclik, qarmaqarışıqlıq yaradıcısıdır. Nəhayət, pullar Afinanı müzəffər, Sparta sistemini isə darmadağın etdi. İki sistemin arasındakı mübarizədə Afina yeni forma əldə etmək üçün kifayət qədər çeviklik və yaradıcılığa malik idi. Sparta isə, tədricən süquta uğrayanadək ciddi surətdə fəaliyyətsizlik içində boğuldu.

Kainat heyvanlar, mədəni bitkilər və ayrı-ayrı şəxsiyyətlər üçün məhz bu cür yaradılmışdır. Ətraf mühitin dəhşətləri və təhlü-

kələri ilə qarşılaşan hər bir orqanizm müdafiə üsulunu – qınından çıxmamağa, müdafiə sisteminə, sakitləşdirici ayinlərə üstünlük verirlər. Bu, müəyyən müddət ərzində səmərəli olsa da, yekun nəticədə faciə ilə nəticələnir. Sistemin və ya əlverişsiz şəraitin təzyiqinə məruz qalmış insanlar sürətlə hərəkət edə bilmirlər. Onlar dəyişikliklərə uyğunlaşmağa və bunu hiss etməyə qadir deyillər. Onlar daha asta hərəkət edirdi ki, nəticədə aqibətləri dinozavrlarla oxşar oldu. Çevik cavab reaksiyası bildirməyi və uyğunlaşmağı öyrənin – əks təqdirdə sizi udarlar.

Bu cür aqibətdən qaçmağın ən yaxşı üsulu – daim şəklini dəyişməkdən ibarətdir. Heç bir vəhşi heyvan yaxşı nəzərdən keçirmədiyi şikara hücum etməyəcəkdir.

QANUNA RİAYƏT OLUNMASI

İkinci Dünya müharibəsi başa çatdıqdan və Yaponiyanı (1937-ci ildə işğal olunmuş) Çin torpaqlarından qovduqdan sonra Çin məmləkətləri Çan Kayşinin başçılığı altında kommunistləri həmişəlik məğlub etməyi qərara aldılar. Onlar bu məqsədə, 1935-ci ildə kommunistləri geri çəkilməyə məcbur etdikləri zaman, demək olar ki, istəklərinə nail olmuşdular. Kommunistlər Yaponiya ilə apardıqları müharibədə bir qədər dirçəlsələr də, böyük təhlükə yaratmırdılar. Onlar kiçik ərazidə yalnız əhəmiyyətsiz sahələrə nəzarət edərək, zəif silahlanmışdılar: hərbi mütəxəssisləri və təcrübəsi yox dərəcəsində idi. Onlar dağlarda hərbi əməliyyatlar keçirmək iqtidarında deyildilər. Kommunistlər Çinin ən vacib regionları arasında yalnız Mancuriyada – yaponların geriyə çəkilməsindən sonra zəbt etdikləri şimalda, yəni sənaye vilayətlərində mövqelərini möhkəmləndirirdilər. Çan Mancuriyaya ən yaxşı qüvvələrini göndərməyi qərara aldı. Onlar bütün regionu ələ keçirmək üçün əsas şəhərləri zəbt edərək, kommunistləri məhv etməli idilər. Mancuriya məğlub olduqdan sonra kommunistlərin hakimiyyətinə son qoyulacaqdı.

1945–1946-cı illərdə plan nöqsansız yerinə yetirilirdi: millətçilər Mancuriyanın əsas şəhərlərini asanlıqla ələ keçirdilər. Kommunistlər Mancuriyanın ucqar vilayətlərinə qaçdılar. Onların kiçik dəstələri millətçilərin hərbi bölmələrini təngə gətirmişdilər: gah hücum edir, gah da gözlənilmədən geri çəkilirdilər. Ayrı-ayrı dəstələr heç bir zaman birləşmədilər. Bu isə, onlara qarşı hərbi əməliyyatların həyata keçirilməsini həddindən artıq mürəkkəbləşdirirdi. Onlar yaşayış məntəqəsini tutaraq, bir neçə həftədən sonra təhvil verirdilər. Bu dəstələr, bir dəqiqə də olsa belə, bir yerdə durmurdular.

Millətçilər bu cür qəribə hərəkətlərin iki səbəbini açıqlayırdılar: qüdrətli hərbi qüvvə qarşısında acizlik, qorxaqlıq və strategiyada təcrübəsizlik. Kommunistlərin lideri Mao Tszedun sərkərdədən çox şair və filosof idi. Çan, ondan fərqli olaraq, Qərbdə hərbçi peşəsini mənimsəmiş və alman yazıçı-milita-

DOVŞAN VƏ AĞAC

Müdrik insan heç bir zaman keçmişə müraciət etməyərək, bütün zamanlar üçün hər hansı bir sərt norma müəyyənləşdirməsə də, əsrinin materiyasını öyrənərək, onunla əlaqə yaratmağa hazırlaşır. Sun səltənətində birisi torpağını şumlayırdı. Bu torpaqda bir ağac qol-budaq atmışdı. Günlərin birində bir dovşan sürətlə qaçaraq ağaca dəyir, boynu sınaraq ölür. O vaxtdan etibarən insan işindən əl çəkərək, daha bir dovşanın ağaca dəyəcəyini gözlədi. İkinci dovşan gəlmədi və o, Sun sakinlərinin gülüş hədəfinə çevrildi. Kim isə bu əsrin insanlarının keçmişin qanunları ilə idarə olunacağını düşündüyü təqdirdə, eynilə dovşanı gözləyən əkinçi kimi hərəkət edir.

Xan Fey, Çin filosofu, b.e. əvvəl III əsr.

risti Karl-fon Klauzeviçin pərəstişkarına çevrilmişdi.

Lakin zaman keçdikcə, Maonun strategiyasında qanunauyğunluq nəzərə çarpdı. Millətçilər Mancuriyanın şəhərlərini zəbt edərək, bu şəhərlər ətrafındakı əraziləri faydasız hesab edərək, kommunistlərin ixtiyarına buraxdılar. Kommunistlər həmin əraziləri mənimsəməyə başladılar. Çan bir şəhərdən yardım məqsədilə digər şəhərə qoşun yolladığı vaxt onlar kommunistlər tərəfindən mühasirəyə alınırdılar. Çanın ordusu kiçik, bir-birindən təcrid olunmuş dəstələrə bölünmüş, ərzaqların tədarük və rabitə xətləri darmadağın edilmişdi. Millətçilərin ağır artilleriyası olsa da, sərbəst hərəkətdən məhrum olduqları üçün, həmin artilleriyanın heç bir faydası yox idi.

Millətçi ordunun əsgərlərini dəhşət bürümüşdü. Komandirlər ön cəbhədən uzaqda, təhlükəsiz yerdə olduqlarına görə, Maoya rişxənd edirdilər. Kommunistlərlə dağlarda döyüşən əsgərlərin isə durumu çox ağır idi. İndi isə onlar yalnız şəhərlərdə mövqe tutaraq, su kimi çevik düşmənlərinin hərəkətlərini müşahidə etmək məcburiyyətində qalmışdılar. Onların milyonlarla olması təəssüratı yaranırdı. Kommunistlər isə əks-təbliğat apararaq, düşmən qoşunlarının döyüş ruhunu sarsıdırdılar.

Millətçilər geri çəkilməyə başladılar – onlar müharibəni mənəvi baxımdan uduzurdular. Mühasirəyə alınmış şəhərlər də təslim oldular. Şəhərləri bir-birinin ardınca kapitulyasiya edirdilər. 1948-ci ilin noyabr ayında millətçilər Mancuriyanı kommunistlərə təhvil verdilər. Texniki baxımdan qüvvətli millətçilər ordusu üçün təhqiredici olan məğlubiyyət partizan müharibəsinin üstünlüyünü sübuta yetirdi. Kommunistlər növbəti il Çini zəbt etməyə müvəffəq oldular.

İZAHI

İki stolüstü oyun – şahmat və Asiya ölkələrində yayılmış qo oyunu strategiya sənətini daha yaxşı öyrədir. Şərti oyunda

General Rommel Pattondan yaradıcı intellekti sayəsində üstün idi... Rommelə hərbi rəsmiyyətçilik yad idi. O, kəskin şəkildə təsbit edilmiş, münaqişənin həllindən də kənara çıxan planlar qurmurdu. O, taktikasını meydana çıxan konkret problemləri həll etmək üçün qururdu. O, ildırım sürətilə qərarlar qəbul edərək, idrakının sürətinə müvafiq olan tempi fiziki baxımdan qoruyub saxlayırdı. O, səhrada olduğu müddətdə boş məkanın üstünlüyündən istifadə edirdi. Rommel Afrikada Britaniya müdafiə

oyun taxtası kiçik olur. Bu oyun qo oyunu ilə müqayisədə sürətlə hücum mərhələsinə, daha sonra isə endşpilə keçir. Şahmat oyununda geriyə könülsüz surətdə çəkilir, fiqurları könülsüz şəkildə qurban verir, onları əsas mövqelərdə yerləşdirməyə can atırlar. Qo oyunu şahmat oyunundan tamamilə fərqlidir: 361 cızıqdan ibarət böyük oyun taxtasında şahmat oyununun mövqelərindən təxminən 6 dəfə çox mövqe vardır. Qara və ağ damaları bir xana bir-birindən aralı yerləşdirirlər. Hər oyunçuya 52 ədəd düşən damalar, oyun taxtasında yerləşdirildikdən sonra, oyunun əsas məqsədi rəqibin damalarını almaqla zəiflətməkdən ibarət olur.

Çində vey-çi adlanan qo oyunu bəzən 300 gedişə qədər uzanır. Onun strategiyası daha zərif və hərəkətli olur. Şahmat oyununda isə, hadisələr tədricən cərəyan edir. Oyun taxtasında meydana çıxan damaların konfiqurasiyası mürəkkəb olduqda, düşmən sizin niyyətinizi anlaya bilmir. Oyun taxtasının bir hissəsini daim nəzarət altında saxlamaq lazım deyildir: siz daha geniş düşünməli və yekun nəticədə oyun taxtasını tamamilə ələ keçirmək naminə müəyyən fraqmentləri qurban verməlisiniz. Uduşlu mövqeyə deyil, səfərbərliyin əldə olunmasına can atmaq lazımdır. Bu düşməni kiçik sahələrdə zərərsizləşdirərək, zəbt etməyə imkan verəcəkdir. Burada əsas məqsəd, şahmat oyununda olduğu kimi, fiqurları bilavasitə oyundan kənarlaşdırmaqdan deyil, dairəyə alıb zərərsizləşdirməkdən ibarətdir. Şahmat fiqurları xətti, mövqe baxımından, yönümlü və

təcavüzlüdür: qo fiqurları isə qeyri-xətti və hərəkətlidirlər. Təcavüz oyunun sonuna kimi, yəni qalib düşmənin bütün damalarını sürətlə mühasirəyə alana qədər təzahür etmir.

Çinlilərin hərbi strategiyaları yüzilliklər ərzində qo oyununun təsiri altında inkişaf edirdi. Mao Tszedun vey-çi oyununu oynamağı xoşlayırdı. Bunun onun hərbi əməliyyatlar aparmaq üslubunda təzahür etməsi şübhə doğurmur. Vey-çinin əsas strategiyası – şəxsi maraqları naminə bütün xanalardan istifadə edərək, müxtəlif istiqamətlərdə hərəkət edib, qarşı tərəfə bu hərəkətləri sadə üsul hesab etməsinə yol verməməkdən ibarətdir.

Mao bir dəfə yazırdı: «Hər bir çinli şüurlu şəkildə millətçilərə qarşı baş qaldırmış anlaşılmaz müharibəyə qatılmalı idi». Əsgərlərinizi qo oyununun damaları kimi yerləşdirin. O zaman düşmən sizin niyyətinizi anlaya bilməyəcəkdir. O ya sizi təqib edərək vaxt itirəcək, ya da, Çan Kayşi kimi, sizi qiymətləndirməyərək bacarıqsız, lazımi qaydada müdafiə olunmayaraq uduzan tərəf hesab edəcəkdir. O, qüvvəsi və diqqətini, Qərb strategiyasının nəticəsi kimi, ayrı-ayrı sahələrdə cəmləşdirdikdə, özünü mühasirə etməyə imkan verən şikara çevrilir. Siz müharibə zamanı vey-çiyə əsaslanaraq, nəinki düşməni fiziki baxımdan mühasirəyə alır, həm də onun psixikasına təsir göstərməklə, təbliğat aparıb, onu çaşdıraraq, döyüş ruhunu məhv etmək üçün qıcıqlandırırsınız. Çin kommunistlərinin bu cür strategiyası düşmənləri fərariliyə təhrik etməklə, onları dəhşətə gətirən anlaşılmaz formanın yoxluğudur.

xətlərini yardıqdan sonra qarşısında qitənin bütün şimal hissəsi açıldı. Berlinin hakimiyyətinin təsirindən azad olan, hətta Hitlerin əmrlərinə etinasızlıqla yanaşan Rommel, bir-birinin ardınca uğurlu hərbi əməliyyatlar keçirərək, Şimali Afrikanın əhəmiyyətli hissəsini və Qahirəni zəbt etdi.

Ceyms Mrajek. «Müharibədə qalib gəlmək sənəti», 1968.

Xasiyyətin zirehi

Boğulmuş instinktlərin yükünə tab gətirmək (insanın müasir aləmdə yaşamasının zəruri şərti) və bunun nəticəsində toplanmış artıq enerjini sərf etmək üçün eqo dəyişikliyə məruz qalır. Şəxsiyyətin bir hissəsi olan eqo təhlükəli təsirlərə qarşı daha həssas olub, kobudlaşaraq, zərurət ilə vahimə doğuran xarici mühit arasında münaqişəli vəziyyətlərə cəlb olunduğu hallarda daha da ciddiləşir. Proses zamanı xroniki, yəni avtomatik şəkildə hərəkətdə olan reaksiyaların növü, yəni «xasiyyət» formalaşır. Bu, emosional, həssas şəxsiyyətin

Şətrənc fiqurları xətti və hətta düzxətlidir. Qədim qo oyunu müasir dünyada daha düzgün strategiyanı xatırladır. Bu strategiyada əsasən, ordular hərbi əməliyyatlarla bağlı olmur, döyüşçülər isə böyük sahədə pərən-pərən səpələnirlər. Bu oyunun strateji üsulları mücərrəd və çoxhədli olaraq, strateji şüura əsaslanır, zaman və məkandan kənarda səthilik yaradırlar. Müharibənin bu cür aparılması zamanı hərəkət uğurlu mövqedən daha yüksək qiymətləndirilir. Səfərbərlik və sürət hərəkətlərinizi proqnozlaşdırmağa imkan verir. Sizin niyyətinizi anlamayan düşmən, öhdənizdən gəlmək üçün, strategiya tərtib etməyə qadir deyildir. Bu cür müharibə ayrı-ayrı mövqelərdə cəmləşməyərək, daha geniş yayılır. Buna görə də, böyük və rəngarəng aləm sizin ixtiyarınızda olur. Dumana çevrilin. Düşmənə həmlə edəcəyi hədəf verməyin. Düşmənin sizi təqib edərək, taqətdən düşməsini müşahidə edin. Yalnız müəyyən formanın yoxluğu və riyakarlıq düşmənləri məğlub etməyə imkan verir. Onlar sizi harada axtarmağın lazım olduğunu dərk etdikdə isə, artıq gec olacaqdır.

Siz bizimlə döyüşmək istədiyiniz halda, biz buna imkan verməyəcək və siz bizi aşkar edə bilməyəcəksiniz. Lakin, əksinə, biz sizinlə vuruşmaq istədikdə, gizlənə bilməyəcəyinizə əmin olub, sizə dəqiq zərbə vuraraq, ordunuzu darmadağın edəcəyik... Düşmən həmlə edir, biz isə geri çəkilirik; düşmən sipər çəkir, biz isə onu taqətdən salırıq; düşmən yorulur, biz isə hücuma keçirik; düşmən geri çəkilir, biz təqib edirik (Mao Tszedun, 1893–1976).

HAKİMİYYƏTİN AÇARI

İnsan daim forma yaratmağı ilə fərqlənən varlıqdır. O, hisslərinin bilavasitə ifadə olunmasına ehtiyac duyaraq, onlara dil və yaxud cəmiyyətdə qəbul olunan ayinlər vasitəsilə forma verir. Biz hisslərimizi müəyyən şəklə salmadıqda, onları bir-birimizə ötürə bilmərik.

Yaratdığımız formalar daim dəyişir – onlara dəb, üslub, zamanın əhvali-ruhiyyəsini ifadə edən bütün insani təzahürlər təsir edir. Biz nəsildən-nəslə ötürülmüş formaları dəyişirik. Bu dəyişikliklər həyatın və həyat qabiliyyətinin əlamətidir. Həqiqətdə isə, dəyişməyən cisimlər, donmuş formalar ölüm təhlükəsini ifadə etdiklərinə görə, onları darmadağın edirik. Gənclər bunu xüsusilə parlaq şəkildə nümayiş etdirirlər; onlar cəmiyyətin təqdim etdiyi formalara bənzəməyərək, özlərini ifadə etmək üçün müxtəlif maska və qaydalardan istifadə edib, xarakterlərinə uyğun hərəkət edirlər. Məhz həyat qüvvəsi stilistikanın dəyişikliklərinə daim yardım edərək, formaları ifadə edir.

Hakimiyyətə sahib olan şəxslər – gənc yaşlarında böyük yaradıcı potensial nümayiş etdirmiş insanlardır. Bu potensial onlara yeni formalar ixtira etməyə imkan verir. Cəmiyyət onlara hakimiyyəti hədiyyə verir. Ona görə ki, o, yeniliyə can ataraq, onu qiymətləndirərək, mükafatlandırır. Problemlər insanların daha konservativ və fəaliyyətsiz olduqları zaman

özünə qapanması və onun müdafiə zirehinin xarici aləmin hücumlarını dəf etmək üçün yetişdirilməsi kimi təzahür edir. Burada daxili aləmin də üsyanı nəzərdə tutulur. Bu cür «puplaşma» insanı nifrətə qarşı daha həssas etsə də, hətta belə vəziyyətdə də onun libidosu ilə aqressiv hərəkətini sərbəstlikdən məhrum edərək, iradəni boğub müəyyən işləri yerinə yetirmək qabiliyyətini zəiflədir. Biz eqonun daha çevik və kəskin, eləcə də enerjinin qorunmasını tənzimləyən qabiliyyətin zirehin möhkəm olmasından asılı olduğunu vurğulayırıq.

Velhelm Reyx, 1897–1957.

meydana çıxır. Onlar daha yeni formaların yaradılması barədə sayıqlamırlar. Onlar fərdiyyətliyi sabit şəklə düşmüş, onların vərdişləri aqilləşmiş və bu tələbkarlıq onları asan vurulan hədəfə çevirir.

Hər bir əməl və hərəkət hər bir insana aydındır. Onlar hörmət və ehtiram qazanmağın əvəzinə, sıxıntıya səbəb olurlar. Səhnədən gedin. Qoyun başqası bizi əyləndirsin. Güclülər keçmişin əsirinə çevrildikləri halda, komik sifət alırlar – onlar torpağa düşməyə hazırlaşan yetişmiş meyvələri xatırladırlar.

Hakimiyyət formasını çevik şəkildə dəyişdirməyə qadir olduğu zaman çiçəklənir. Müəyyən formadan məhrum olma, formasızlıq demək deyildir. Formasızlığa hər kəs malik olur. Bu, qasırğa deyil. Hakimiyyətdə müəyyən formanın yoxluğu, onun su və yaxud civə kimi əhatə etdiyi hər bir cismin şəklini alması deməkdir. O, daim dəyişdiyinə görə anlaşılmalıdır. Güclülər daim yaradıcı olub, formalar yaradırlar. Onların hakimiyyəti sürətdən asılı olur. Onların dəyişkənliyi düşmənin niyyətlərini, hansı səmtdən zərbə vurmağını dərk etməməsinə imkan verir. Hakimiyyətin ilk mövqeyi Merkuri Allahı kimi sürüşkən, çevik və riyakar olmaqdan ibarətdir. O müxtəlif sifətə girərək, Olimpdə iğtişaş yaratmaq üçün bu qabiliyyətdən istifadə edirdilər.

İnsan məxluqu təkamül nəticəsində mücərrədlik və materializm istiqamətində inkişaf edir. Bu təkamül bizim yüzillikdə mücərrədlik və konseptualizm kimi böyük kəşflər edən incəsənətdə asanlıqla müşahidə olunur. Bu, zaman keçdikcə, təcavüzkarlığa önəm verən siyasətdə daha parlaq şəkildə nəzərə çarpır. Müharibənin aparılması nəzəriyyəsi ilə strategiya və istiqamətdə də inkişaf edirlər. İnsanlar ayrı-ayrılıqda deyil, dəstələr, ordular ilə quruda vuruşduqları zaman strategiya meydana çıxdı; quruda strategiya əsasən iki istiqamətdə inkişaf edərək, topoqrafiyadan asılı olur. Lakin insanlar ticarətlə məşğul olmaq və müstəmləkələri əldə etmək üçün dəniz yollarını mənimsəməyə başladılar. Ticarət yollarını müdafiə etmək üçün dənizdə vuruşmağı öyrən-

məli idilər. Dənizdə döyüş sənəti böyük ticarət potensialı və mücərrəd təfəkkür tələb edir. Buna səbəb, səthi xətlərin daim dəyişməsidir. Dəniz kapitanlarını dalğalanan dənizdə düşməni məğlub etmək qabiliyyətini fərqləndirir. Onlar üçüncü etalondan – şüurdan istifadə edirlər.

Torpağa qayıdaq. Partizan müharibəsi mücərrədlik istiqamətində baş verən təkamülü nümayiş etdirir. T.E.Lourens bu müharibəni nəzəri baxımdan əsaslandıran və təcrübədə nəzəriyyəni tətbiq edən ilk müasir strateq idi. Onun ideyaları Maoya təsir etmişdi. O, Lourensin əsərlərini vey-çinin əlçatmaz qərbi ekvivalenti hesab edirdi. Lourens türklər ilə ərazi uğrunda mübarizə aparan ərəblərlə əməkdaşlıq edirdi. O, ərəbləri sonsuz səhrada gizlənərək, hədəfə çevrilməməyə, böyük dəstələr ilə toplaşmağa öyrədirdi. Türklər ənənəvi qaydada çoxsaylı ordu ilə döyüşsələr də, ərəblər kiçik dəstələrə bölünür və enerjilərini yerdəyişməyə sərf edirdilər. Türklər artilleriyada üstünlük təşkil etsələr də, ərəblər təşəbbüsü ələ keçirərək, siçan-pişik oyunu oynayıb, türklərin döyüş ruhunu sarsıdaraq, düşmənin əlinə keçmirdilər. «Döyüşçülərin böyük bir hissəsi bir-biri ilə təmasda idilər. Bizim müharibəmiz partizan müharibəsi idi. Biz daim düşməni özlərini aşkar etməyə imkan verməyərək, sonsuz səhra qarşısında vahimə içində saxlayırdıq» – deyə, Lourens yazırdı.

Bu strategiya ideyasının son ifadəsidir. Orduların vuruşduğu müharibə həddindən artıq təhlükəli və baha başa gələn olmuşdur. Belə vəziyyətdə əsas məsrəflər əqli sahəyə: intellektual və psixoloji üstünlüyü nümayiş etdirərək, qoşununu dəstələrə bölərək, düşmənə qarşı işlətmək üçün tələb olunan əqli gərginliyə düşürdü. Qeyri-daimilik kimi düşməni çaşdıran və özündən çıxardan başqa üsul yox idi. Səyyar dəstələr ilə aparılan müharibələrin zamanın hökmü olduğu aləmdə daimi formanın yoxluğu prinsipial şəkildə çox vacibdir.

İlk psixoloji tələb hər bir hadisəyə məhəl qoymamaqdan ibarətdir. Heç bir zaman müdafiə mövqeyində dayanmayın. Bunun-

la siz həyəcan və emosiyalarınızı ötürərək, formanı maskalamış olursunuz. Düşmən sizə zərbə vurduğunu, zəif nöqtənizi tapdığını başa düşdüyündən, sizin həmin yerinizə təkrar zərbələr endirəcəkdir. Buna görə də, hər bir vəziyyətdə kənardan yanaşmaq qabiliyyətini təkmilləşdirin. Basılmağa imkan verməyin. Çevik, cəld olun; zəif cəhətlərinizi nümayiş etdirməyin. Məşq edin – simanızı ifadəsiz maskaya çevirin – bu, sizin həmkarlarınız ilə rəqiblərinizi çaşdıraraq, hiddətləndirəcəkdir.

Bu texnikanın müəlliflərindən biri də baron Ceyms Rotşild idi. Parisdə yaşayan almaniyalı yəhudi Rotşild hücuma sinə gərirdi. O, hər hansı bir siyasi vəziyyətə asanlıqla uyğunlaşırdı – XVIII Lüdovikin dövründə həyata keçirilən restavrasiya, Lui-Filippin burjuaziya yönlü hökmranlığı, 1848-ci ilin demokratik inqilabı və yaxud 1852-ci ildə Lui-Filippin təcili olaraq tacqoyma mərasimi ona sirayət etmirdi. Rotşild onları eyni qaydada qəbul edirdi. Baron siyasi nöqteyi-nəzərinə görə deyil, zəngin olduğuna görə qiymətləndirildiyindən, riyakar ola bilərdi. Pullar onun hakimiyyətə görə verdiyi dəyər idi. O, hər cür vəziyyətə uyğunlaşdığı və firavan yaşadığı təqdirdə, digər zəngin ailələr çevrilişlər dövründə var-dövlətlərindən məhrum olurdular. Onlar keçmişdən ayrıla bilməyərək, köhnə adət-ənənələrindən asılı olurdular.

Tarixdə hərəkətli idarəetmə üslubu yekdil qaydada hökmranlıq edən kralları, imperatriçaları və çariçaları bir-birindən fərqləndirirdi. Kral ilə kraliçanın vəziyyəti köklü şəkildə fərqlidir. Çox zaman saray əyanları qaliblərinin dərinliyində kraliçanın ölkəni idarə etməyə qadir olmasına və onun güclü xasiyyətə malik olmasına şübhə edirlər. Kraliça hər hansı bir ideoloji qarşıdurmada bir qisim əyanları müdafiə etdikdə, onu şüurlu deyil, hissləri rəhbər tutmaqda ittiham edirdilər. Əksinə, o, hisslərini boğaraq, kişilər kimi avtoritet olmağa çalışdığı halda isə, tənqid və narazılıq ilə qarşılaşır. Buna görə də, kraliçaların bir qismi təbiətcə, digəri isə təcrübəyə əsaslanaraq çevik idarəetmə üsu-

luna üstünlük verirlər. Bu isə, yekun nəticədə kişilər kimi davranmaqdan fərqli olaraq, onlara daha böyük hakimiyyət verir.

Bu cür idarəetmə üslubundan istifadə edənlərdən biri də İngiltərənin kraliçası Yelizaveta idi. Yelizaveta protestantlar ilə katoliklər arasında gedən amansız müharibədə neytral mövqe tuturdu. O, onlardan biri ilə ittifaqa girmirdi. Belə ki, bu ittifaqın dövlətin mənafeyinə ziyan vurmasından ehtiyat edirdi. İngiltərə müharibədə iştirak etmək üçün kifayət qədər güc toplayana qədər, Yelizaveta sülhü qorumağa müvəffəq oldu. Yelizavetanın hər cür şəraitə uyğunlaşması və çevik ideologiyası sayəsində hökmranlıq etdiyi dövr, İngiltərənin tarixində qızıl dövr kimi həkk olunmuşdu.

Bu cür çevik idarəetmə üslubu özünü ən ağır vəziyyətlərdə tərəqqiyə nail olmağa icazə verən vasitə kimi təqdim etmişdi. Bundan başqa, o, həddindən artıq cəlbedicidir. Bu cür rejimə kim xidmət etməz? Çevik, cəld hökmdar asanlıqla itaətə nail olur. Çünki onun əyanları təzyiqi hiss edərək, hökmdara tamamilə tabe olurlar. Bu cür üslub yeni imkanlar açdığı zaman, doktrinaya ciddi şəkildə riayət olunması onları əlçatmaz edir. Bir qisim insanlara üstünlük verməyən hökmdar, düşmənlərini sıxışdırmaq imkanı əldə edir. Sərt hökmdar güclü görünsə də, onun ətaləti zaman keçdikcə sinirlərə təsir etməyə başlayır və təbəələr onu səhnədən kənarlaşdırmağa çalışırlar. Çevik hökmdarı daha çox tənqid etsələr də, onlar hər bir təzyiqə tab gətirirdilər. Onlar təbəələr kimi olduqları üçün xalqın etirafını qazanaraq, şəraitdən asılı olaraq asanlıqla dəyişilirlər.

Məğlubiyyətlərə və maneələrə baxmayaraq, hakimiyyətin icazəverici üslubu yekun nəticədə qələbə çalır. Afinalılar buna misal ola bilər. Belə ki, onların pulları və mədəniyyəti yekun nəticədə Spartaya qalib gəldi. Siz daha güclü və sərt insan ilə münaqişəyə girdiyiniz halda, onun qalib gəlməsinə imkan verin. Onun üstünlüyünü etiraf edərək, itaət etdiyinizi göstərin. Daha sonra, mövcud şəraitə uyğunlaşaraq, onun qəlbinə daxil olun. Bunun-

la siz onun ayıq-sayıqlığını zəiflədə bilərsiniz. Həddindən artıq tələbkar insanlar yalnız görünən təhlükəni duya bilir, kölgədə qalan təhlükəni hiss etmirlər. Bu cür strategiyada müvəffəqiyyət əldə etmək üçün siz buqələmun kimi görünməz olmalısınız.

Yaponiyalılar uzun əsrlər boyu yadelliləri qonaqpərvərliklə qəbul edir, əcnəbilərin mədəniyyətlərinə və təsirlərinə qarşı həssaslıq nümayiş etdirirdilər. Portuqaliyalı rahib Joan Rodriqes 1577-ci ildə Yaponiyaya gələrək, bu ölkədə uzun müddət yaşadı. O yazırdı: «Yaponların Portuqaliya dilini öyrənmək həvəsinə heyran qalmışam». O, küçələrdə portuqaliyalıların geyimini geyinmiş, xaç taxan yaponlara rast gəlirdi. Bu, yapon xalqının mədəniyyətinin zəif, qeyri-sabit olması kimi təəssüratlar yaradırdı. Əslində isə, yaponiyalıların uyğunlaşma qabiliyyəti ölkəni müdafiə edirdi; daha güclü ölkə mədəniyyətini zorla, bəzən də hərbi yolla yayırdı. Bu, portuqaliyalılarn və digər Qərb xalqlarını yaponların onların möhtəşəm mədəniyyəti qarşısında təzim etməsi kimi təəssüratlar ilə aldadırdı. Həqiqətdə isə, xarici ölkələrin mədəniyyətləri yaponlar üçün asanlıqla meydana çıxan dəb idi. Xarici zireh altında həqiqi yapon mədəniyyəti çiçəklənirdi. Yaponlar xarici ölkələrin təsirinə qarşı düşmən mövqe tutsaydılar, onların aqibəti də Çin kimi olar və onlar Qərb mədəniyyətini qəbul etməyə məcbur olardılar. Beləliklə, təcavüzkara zərbə vurmaq olmaz.

Təkamül prosesində əksər hallarda iri çəkili canlı tez məhv olur. Həqiqətdən məhrum olan bu cür canlılar daim nə cür qidalanmalarının qayğısına qalırlar. Sadə insanlar tez-tez səhv edərək, bu çəkinin qüvvətə mütənasib olduğunu düşünürlər – «nə qədər böyük olsa, bir o qədər yaxşıdır».

B.e.ə. 483-cü ildə İran şahı Kserks Yunanıstana hücum edərək, bir qısamüddətli hərbi əməliyyat ilə ölkəni asanlıqla fəth edəcəyini güman edirdi. Nəhayət, o, bu müharibə üçün böyük və qüdrətli ordu topladı. Tarixçi Herodot ordunun milyondan çox döyüşçüdən ibarət olduğunu qeyd edirdi. İranlılar Gellespont üzə-

rində körpü tikərək, qurudan qoşunu Yunanıstana aparmaq niyyətində idilər. Bu zaman donanma dənizdən hücum edərək, yunan gəmilərini darmadağın edib, yunan qoşunlarının geri çəkilməsinə imkan verməyəcəkdi. Plan mükəmməl olsa da, Kserks hücuma hazırlaşdığı zaman onun müşaviri və qohumu Arbatan ürəyinə pis fikirlərin damması barədə məlumat verərək dedi: «Dünya miqyasında iki qüdrətli qüvvə sənin əleyhinədir». Kserks güldü – hansı qüvvələr onun qüdrətli ordusu üçün təhlükə yarada bilərdilər? «Mən onları təqdim edirəm – deyə, Arbatan davam etdi – bu, torpaq və dənizdir». İran donanmasını qəbul etmək üçün geniş və etibarlı liman idi. İranlılar daha çox ərazilər zəbt etdikcə, keçid yolları getdikcə uzanırdı. Bu yollar vasitəsilə ordunu ərzaq ilə təmin edirdilər. Ordu üçün aclıq təhlükəsi böyüyürdü.

Kserks hücumu hazırlamağa davam edərək, Arbatanın qorxduğu qərarına gəldi. Lakin onun güman etdiyi kimi, iranlıların donanması böyük itkilərə məruz qalaraq, dəniz fırtınasından da xilas ola bilmədi. Bu müddət ərzində, iranlıların quru qoşunları yolu üstə olan hər şeyi darmadağın edirdi. Bu, ərzaq probleminin həllini mürəkkəbləşdirirdi. Belə ki, basqınlar zamanı tarlalar və ərzaq anbarları məhv edilirdi. İran qoşunları böyük və asta-asta hərəkət edən hədəf idi. Yunanlar iranlıları çaşdırmaq üçün hiyləyə, kələyə əl atdılar. Yekun nəticədə Kserks məğlub oldu. Bu tarix rəmzi məna verir. O, kəmiyyətə görə səfərbərliyini qurban verməyə hazır olan hər bir insan üçün ibrət dərsidir. Çeviklik ilə fəndgirlik həmişə qalib gəlir. Çünki onların daha böyük strateji imkanları vardır. Sizin düşməniniz kəmiyyətcə çox olduqda, onu məğlub etmək daha asandır.

Biz böyüyüb boy ataraq yaş həddi ilə əlaqədar olaraq daha ciddi olduğumuza görə dəyişkənlik çox zəruridir. Biz özümüzü ifşa edirik. Bu isə zəifliyin ilk əlamətidir. Xasiyyətini və imkanlarını nümayiş etdirən şəxs gümüş hədəfinə çevrilir. İstehza ilə nifrət qeyri-ciddi silah təəssüratı bağışlasalar da, bu, həqiqətdə

belə deyildir. Onlar kifayət qədər təhlükəli olub, müəyyən müddətdən sonra hakimiyyətin təməl daşını darmadağın edə bilərlər. Sizə hörmət etməyən düşmən cəsarətlənir. Cəsarət isə, hətta ən kiçik heyvancığazı təhlükəli edir.

Mariya-Antuanettanın miras qoyduğu XVIII əsrin sonlarının fransız sarayı şərtiliyilə kəskin şəkildə riayət etməyin məngənəsində sıxıldığına görə, sıravi fransızlar onu mədən kimi qəbul edirdilər. Ölkədə əsrlər boyu mövcud olan təsisata bu cür etinasız münasibət xalqın monarxiya ilə sıx əlaqələrinin zəifləməsi barədə şəhadətlik edərək, tələf olma xəstəliyinin ilk əlamətidir. Vəziyyət daha da gərginləşir, Mariya-Antuanetta ilə XVI Lüdovik isə daha çox sərt və kəskin olaraq keçmiş ilə əlaqəni kəsmək istəmirdilər. Bu, onların gilyotina ilə edam edilməsinə səbəb oldu. İngiltərə kralı I Karl 1630-cu ildə buna oxşar şəkildə davranmışdı. 1630-cu ildə İngiltərədə diplomatik dəyişikliklərə tələbat artmışdı: o, parlamenti buraxdı. Saray ayinləri daha arxayın və dəbdəbəli oldular. Kral kiçik mərasimlərə riayət etməklə, keçmiş idarəetmə üsuluna dönmək istəyirdi. Onun konservatizmi cəmiyyətdə dəyişikliyə olan ehtiyacı daha da gücləndirirdi. Tezliklə dağıdıcı vətəndaş müharibəsi başlandı və Karl edam olundu.

Həddi-büluğa çatdıqdan sonra keçmişə tez-tez müraciət etmək məsləhət görülür. Sayıqlığınızı itirməyin – əks təqdirdə donmuş xasiyyətiniz ilə daşa bənzəyəcəksiniz. Burada söhbət cavanlara xas olan dəbdə geyinməklə cavanlaşmaqdan getmir. Siz bu hərəkətinizlə gülüş hədəfinə çevriləcəksiniz. Bunun əvəzində sizin şüurunuz yeni şəraitə, hətta zamanın hökmü olan qaçılmaz dəyişikliklərə uyğunlaşmalıdır. Cavanları irəli buraxın. Ətalətdə olan insan canlı cəsədə oxşayır.

Forma dəyişikliyinin strateji mövqe olduğunu unutmayın. O, taktiki yeniliklərin təmini üçün təkan verir. Sizin düşmənləriniz növbəti gedişinizi tapmaq üçün canfəşanlıq etdikləri halda, şəxsi müşahidələrini qaçılmaz surətdə aşkar edirlər. Bu, sizi sərfə-

li olmayan vəziyyətə salır. Forma dəyişikliyi sizə təşəbbüsü əldən verməməyə, sizin hərəkətlərinizə cavab verən düşməni qabaqlamağa kömək edir. O, düşmənin planlarını qarışdıraraq dayandırıb, onun kəşfiyyat və casusluq fəaliyyətinə son qoyur. Formanın daim dəyişməsinin vasitə olduğunu unutmayın. Onu çoxluğun zövqlərinə və yaxud dini itaətkarlığa uyğun olaraq «palaza bürünüb, el ilə sürünmək» ilə qarşılaşmayın. Siz bu vasitədən daxili harmoniyaya və qəlb rahatlığına nail olmaq üçün deyil, məhz hakimiyyətin gücləndirilməsi üçün istifadə edirsiniz. Dəyişkən şəraitə uyğunlaşmağı öyrənmək həyata öz gözlərilə baxmaq, baş verənləri sərbəst şəkildə qiymətləndirmək, köməkçi vasitələrdən imtina etmək, ətrafdakıların ehtiram bəslədikləri qanunlardan qətiyyətli şəkildə azad olmaq deməkdir. Napoleon yazırdı: «Şəraiti idarə edən qanunlar yeni şərait tərəfindən məhv olunmuşlar», yəni siz hər bir yeni vəziyyəti qiymətləndirməyə qadirsiniz. Düşmənlərinin müdrikliyinə həddindən artıq möhtərəm münasibət cavabsız qalmır. Keçmişə qarşı amansız olun və xaricdən təzyiq göstərən fəlsəfəyə hörmət etməkdən imtina edin.

OBRAZ:

MERKURİ

Qanadlı çapar, kommersiya Allahı oğruların, fırıldaqçıların himayədarıdır. Merkuri anadan olduğu gün lira kimi musiqi alətini kəşf etdi. O, həmin axşam Apollonun inəklərini oğurladı. O, sərgərdan gəzərək, görkəmini dəyişirdi. O, civə, maye metal kimi sürüşkənliyi – qeyri-daimi formanın hakimiyyətini təcəssüm edirdi.

MÖTƏBƏR FİKİR

«Ordunun təşkili zamanın ideal məqsəd formasının yoxluğuna nail olmaqdan ibarətdir. Müharibədə qələbə hər dəfə təkrar

olunmasa da, sonsuz şəkildə formasını dəyişir... Silahlı qüvvələr daimi quruluşa malik olmurlar: dəyişərək, düşmənin donuna girib, qələbəyə nail olmaq qabiliyyətinə malik insan dahi adlanır»

(Sun-tszı).

MEDALIN İÇ ÜZÜ

Siz qüvvənizi böyük məkanda cəmləməyi qərara aldığınız halda, bu, sizin dəstələrinizin zəifləməsi, tələb olunan zaman döyüş qüdrətinin itirilməsi ilə nəticələnməməlidir. Sizin müəyyən, stil formaya malik olmamanız, düşmənləri fiziki və əqli gücünü sərf etməklə sizə tələ qurmağa təhrik edir. Lakin siz həlledici məqamda güclü zərbə endirin. Məhz Mao millətçilərə bu cür qalib gəlmişdi. O, ordusunu kiçik dəstələrə bölərək, sonradan həlledici hücum üçün yenidən vahid qaydada toplamışdı.

Siz bu cür oyun apardığınız halda, yüksək mövqeyə çatıb, ani effekti xatırlamaqla, uzunmüddətli strategiyanı tərtib edin. Müəyyən formaya düşərək, hücum etmək lazım olduqda, sizə konsentrasiya, sürət və qüdrət tələb olunacaqdır. Maonun söylədiyi kimi: «Biz sizinlə döyüşmək istədikdə, sizin gizlənməyəcəyinizə əmin olmalıyıq».

MÜNDƏRİCAT

TƏRCÜMƏÇİDƏN....3
ROBERT QRİNDƏN....5
TƏRCÜMƏÇİNİN ÖN SÖZÜ....6
ÖN SÖZ....7
BİRİNCİ QANUN. **HEÇ VAXT ÖZÜNÜ RƏHBƏRDƏN YÜKSƏK TUTMA**....22
İKİNCİ QANUN. **DOSTLARINA HƏDSİZ DƏRƏCƏDƏ ETİBAR ETMƏ, DÜŞMƏNLƏRİNDƏN İSTİFADƏ ETMƏYİ ÖYRƏN**....33
ÜÇÜNCÜ QANUN **ÖZ NİYYƏTİNİ GİZLİ SAXLA**....49
DÖRDÜNCÜ QANUN **HƏMİŞƏ QƏDƏRİNDƏN AZ DANIŞ**....76
BEŞİNCİ QANUN **AD-SANDAN ÇOX ŞEY ASILIDIR – ONU HƏYATIN BAHASINA QORU**....87
ALTINCI QANUN **NƏYİN BAHASINA OLURSA-OLSUN DİQQƏT MƏRKƏZİNDƏ DUR**....100
YEDDİNCİ QANUN **BAŞQALARINI ÖZÜNƏ İŞLƏMƏYƏ MƏCBUR ET VƏ NƏTİCƏLƏRDƏN BƏHRƏLƏN**....120
SƏKKİZİNCİ QANUN **ADAMLARI ÖZÜNƏ MÜRACİƏT ETMƏYƏ MƏCBUR ELƏ, ƏGƏR LAZIMDIRSA, TƏLƏ YEMİNDƏN İSTİFADƏ ET**....131
DOQQUZUNCU QANUN **QƏLƏBƏYƏ DƏLİLLƏRLƏ DEYİL, ƏMƏLLƏRİNLƏ NAİL OL**....138
ONUNCU QANUN **YOLUXMA: KƏDƏRLİ VƏ UĞURSUZ ADAMLARDAN UZAQ OL**....151
ON BİRİNCİ QANUN **ADAMLARIN SƏNDƏN ASILI OLMASINA ÇALIŞ**....162
ON İKİNCİ QANUN **ÖZ QURBANLARINIZI TƏRKSİLAH ETMƏK ÜÇÜN, HƏRDƏN DÜZGÜNLÜK VƏ SƏXAVƏT DƏ NÜMAYİŞ ETDİRİN**....176
ON ÜÇÜNCÜ QANUN **ADAMLARDAN KÖMƏK İSTƏYƏRKƏN ONLARIN MƏRHƏMƏTİNİ VƏ YA ALİCƏNABLIĞINI DEYİL, TAMAHKARLIĞINI NƏZƏRƏ AL**....187

ON DÖRDÜNCÜ QANUN **DOST QİYAFƏSİNƏ GİR, ANCAQ CASUS KİMİ HƏRƏKƏT ET**....198
ON BEŞİNCİ QANUN **DÜŞMƏNİ TAMAMİLƏ DARMADAĞIN ET**....207
ON ALTINCI QANUN **HÖRMƏT VƏ LƏYAQƏTİNİ ARTIRMAQ ÜÇÜN ÖZ YOXLUĞUNDAN İSTİFADƏ ET**....221
ON YEDDİNCİ QANUN **BAŞQALARINI ÇAŞQIN VƏZİYYƏTDƏ SAXLA: QEYRİ-MÜƏYYƏNLİK MÜHİTİ YARAT**....234
ON SƏKKİZİNCİ QANUN **ÖZÜNÜ QORUMAQ ÜÇÜN QALALAR TİKMƏ: TƏCRİD OLMAQ TƏHLÜKƏLİDİR**....245
ON DOQQUZUNCU QANUN **KİMLƏ İŞ GÖRDÜYÜNÜ BİL: NARAZI SALINMASI MƏSLƏHƏT OLMAYAN ADAMLARI İNCİTMƏ**....258
İYİRMİNCİ QANUN **HEÇ KİMLƏ BİRLƏŞMƏ**....272
İYİRMİ BİRİNCİ QANUN **SADƏLÖVHƏ HİYLƏ GƏLMƏK ÜÇÜN ÖZÜNÜ SADƏLÖVHLÜYƏ VUR: ÖZ HƏDƏFİNDƏN DƏ AXMAQ GÖRÜN**....293
İYİRMİ İKİNCİ QANUN **TƏSLİM OLMAQ TAKTİKASINDAN İSTİFADƏ ET: ZƏİFLİYİ QÜVVƏYƏ ÇEVİR**....304
İYİRMİ ÜÇÜNCÜ QANUN **ÖZ QÜVVƏLƏRİNİ CƏMLƏŞDİR**....317
İYİRMİ DÖRDÜNCÜ QANUN **ƏSL SARAY ADAMI KİMİ HƏRƏKƏT ET**....328
İYİRMİ BEŞİNCİ QANUN **ÖZÜNÜ YENİDƏN YARAT**....351
İYİRMİ ALTINCI QANUN. **ƏLLƏRİNİ TƏMİZ SAXLA**....366
İYİRMİ YEDDİNCİ QANUN. **FANATİK TƏRƏFDARLAR ORDUSU YARADARAQ, İNSANLARIN EHTİYACLI OLMALARINDAN İSTİFADƏ ET**....392
İYİRMİ SƏKKİZİNCİ QANUN. **İŞƏ CƏSARƏTLƏ GİRİŞ**....413
İYİRMİ DOQQUZUNCU QANUN. **HƏR ŞEYİ ƏN AXIRA QƏDƏR PLANLAŞDIR**....425
OTUZUNCU QANUN **UĞURA NAİL OLARKƏN, SƏYLƏRİNİ GÖSTƏRMƏ**....439
OTUZ BİRİNCİ QANUN. **BÜTÜN VARİANTLARA NƏZARƏT ET: QOY SƏN PAYLADIĞIN KARTLARLA BAŞQALARI OYNASIN**....453
OTUZ İKİNCİ QANUN. **ADAMLARIN FANTAZİYASINDAN İSTİFADƏ ET**....464

OTUZ ÜÇÜNCÜ QANUN. **HƏR ADAMIN ZƏİF YERİNİ BİL**.............478
OTUZ DÖRDÜNCÜ QANUN. **ÖZ HƏRƏKƏTLƏRİNDƏ ŞAHANƏ OL: ÖZÜNÜ ŞAH KİMİ APAR VƏ ŞAH KİMİ DƏ QƏBUL EDİLƏCƏKSƏN**.............496
OTUZ BEŞİNCİ QANUN **VAXTI İDARƏ ETMƏK MƏHARƏTİNƏ YİYƏLƏN**.............510
OTUZ ALTINCI QANUN **ƏLDƏ EDƏ BİLMƏDİYİN ŞEYƏ LAQEYD YANAŞ, ETİNASIZ MÜNASİBƏT – ƏN YAXŞI İNTİQAMDIR**.............525
OTUZ YEDDİNCİ QANUN **ƏSRARƏNGİZ TAMAŞA YARAT**.............540
OTUZ SƏKKİZİNCİ QANUN. **İSTƏDİYİN ŞEYİ FİKİRLƏŞ, ANCAQ HAMI KİMİ HƏRƏKƏT ET**.............556
OTUZ DOQQUZUNCU QANUN **BALIQ TUTMAQ ÜÇÜN SUYU BULANDIR**.............573
QIRXINCI QANUN. **MÜFTƏ VERİLƏN NAHARI NİFRƏTLƏ RƏDD ET**.............588
QIRX BİRİNCİ QANUN. **DAHİLƏRİN ARDINCA SÜRÜNMƏYƏ ÇALIŞMA**.............622
QIRX İKİNCİ QANUN. **KEŞİŞİ MƏĞLUB ETSƏN, DİNDARLAR DAĞILAR**.............644
QIRX ÜÇÜNCÜ QANUN. **SƏNİ ƏHATƏ EDƏN İNSANLARIN ÜRƏYİNİ VƏ AĞLINI FƏTH ET**.............659
QIRX DÖRDÜNCÜ QANUN. **İNİKAS (ƏKSETDİRMƏ) SƏMƏRƏSİNİN KÖMƏYİ İLƏ TƏRKSİLAH ET VƏ QEYZLƏNDİR**.............675
QIRX BEŞİNCİ QANUN. **DƏYİŞİKLİKLƏRİN ZƏRURƏTİNİ TƏBLİĞ ETSƏN DƏ, İSLAHATLAR ÇOX ALUDƏ OLMA**.............701
QIRX ALTINCI QANUN **HEÇ BİR ZAMAN ÖZÜNÜZÜ HƏDDİNDƏN ZİYADƏ MÜKƏMMƏL GÖSTƏRMƏYİN**.............716
QIRX YEDDİNCİ QANUN **NƏZƏRDƏ TUTDUĞUN MƏQSƏDDƏN İRƏLİ GETMƏ: QALİB GƏLƏRKƏN NƏ VAXT DAYANMAĞIN LAZIM OLDUĞUNU BİL**.............736
QIRX SƏKKİZİNCİ QANUN **FORMANIN QEYRİ-MÜƏYYƏNLİYİNƏ NAİL OL**.............750

Qeyd üçün

«Hüquq ədəbiyyatı» nəşriyyatının kompüter mərkəzində
yığılaraq səhifələnmiş və çap edilmişdir. Formatı 60×84 1/16.

Şərti çap vərəqi 48,5. Tirajı 1000.

Qiyməti 25 manat.

«Huquq ədəbiyyatı» nəşriyyatı,

Ünvan: Bakı şəhəri, Yasamal rayonu,
3-cü Yasamal küç., 3147-ci məhəllə.

Tel. 434-76-06.

Ar 2014/2322
103855